**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# "TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASININ AKTUAL MƏSƏLƏLƏRİ"

**Magistrantların Respublika elmi konfransının**

# MATERİALLARI

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin*
*9 aprel 2018-ci il tarixli Sərəncamı ilə təsis edilmiş*
***27 Mart "Elm Günü"****nə həsr olunur.*

**Bakı, 7-8 aprel 2022**

***ADPU-nun Elmi Şurasının 28 aprel 2022-ci il tarixli iclasının qərarı (protokol №5) əsasında çap edilir.***

## Konfransın Təşkilat Komitəsi

|  |  |
|---|---|
| ***Sədr*** | |
| Prof. Cəfər Cəfərov | - Rektor |
| ***Sədr müavini*** | |
| Prof. Asəf Zamanov | - Elm və innovasiyalar üzrə prorektor |
| ***Məsul katib*** | |
| S.e.ü.f.d.Rəşad Sadıqov | -Magistratura və doktorantura şöbəsinin müdiri |
| Prof. Fərrux Rüstəmov | - İbtidai təhsil fakültəsinin dekanı |
| Prof. İbrahim Bayramov | - Elmi-təşkilati şöbənin müdiri |
| F.ü.f.d. Sevinc Quliyeva | - Magistratura və doktorantura şöbəsinin müdir müavini |
| Prof. Müseyib İlyasov | - Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri |
| Prof. İramin İsayev | - Ümumi pedaqogika kafedrasının müdiri |
| Prof. Mübariz Əmirov | - Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının professoru |
| Prof. Bəhram Əliyev | - Riyazi analiz kafedrasının müdiri |
| Prof. Cahangir Hüseynov | - Ümumi fizika kafedrasının müdiri |
| Dos. Nailə Hüseynova | - Xüsusi təhsil kafedrasının müdiri |
| Prof. Ramiz Əliyev | - Ümumi psixologiya kafedrasının müdiri |
| K.ü.e.d. Əli Zalov | - Analitik və üzvü kimya kafedrasının müdiri |
| P.ü.e.d. Vaqif Qurbanov | - Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının dosenti |
| P.ü.f.d. Bilal Həsənli | - Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti |
| F.ü.f.d. Nigar Aslanova | - Elmi-təşkilati şöbənin baş mütəxəssisi |

## KONFRANSIN ELMİ BÖLMƏLƏRİ

- **İnnovasiyalar və təhsilin keyfiyyəti**
- **Təhsilin təşkili və idarə edilməsi**
- **Təhsildə sosial-psixoloji xidmət**
- **Tədrisin müasir problemləri**

# I BÖLMƏ
# İNNOVASİYALAR VƏ TƏHSİLİN KEYFİYYƏTİ

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİALLAŞMASININ İNNOVASİYALI TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Qasımzadə Zəhra Mərdan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zkasimzada@gmail.com*

***Açar sözlər:*** *təhsildə keyfiyyət, sosiallaşma, müasir təhsil, innivativ texnologiyalar*

***Ключевые слова:*** *качествообразования, сoöиализаöия, современное образование, инноваöионные технологии*

***Key words:*** *quality of education, socialization, modern education, innovative technologies*

**Xülasə**

Müasir təhsildə o zaman yüksək keyfiyyətə nail olmaq olar ki, o, əməkdaşlığa əsaslansın. Əməkdaşlığa əsaslanan məktəbəqədər təhsil isə uşaqların sosiallaşması əsasında həyata keçə bilər. Uşaqların çətinlik çəkmədən sosial münasibətlərə daxil olması inkişafetdirici təlim mühitində baş tuta bilər.

## ВЛИЯНИЕ СОЦИАЛИЗАЦИИ ДОШКОЛЬНИКОВ НА КАЧЕСТВО ИННОВАЦИОННОГО ОБРАЗОВАНИЯ

**Резюме**

Высокое качество в современном образовании может быть достигнуто только в том случае, если оно основано на сотрудничестве. Совместное дошкольное образование может быть основано на сoöиализаöии детей. Способность детей без труда участвовать в социальных взаимодействиях может проявляться в развивающей учебной среде.

## THE INFLUENCE OF SOCIALIZATION OF PRESCHOOLERS ON THE QUALITY OF INNOVATIVE EDUCATION

**Summary**

High quality in modern education can only be achieved if it is based on cooperation. Joint preschool education can be based on the socialization of children. The ability of children to easily participate in social interactions can be manifested in a developmental learning environment.

Hazırda müasir təhsilin ən mühüm istiqamətlərindən biri uşaq şəxsiyyətinin inkişafına yönəldilməsidir. Bunun üçün inkişafetdirici təlim mühitinin təşkil edilməsi və bu əsasda innovativ təlimin həyata keçirilməsi mühüm vəzifə olaraq qarşıda durur. İnkişafetdirici fəal təlim metodlarından istifadə edilməsinin effektivliyi əsasən məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimin mövqeyi, onun şəxsiyyətə istiqamətlənmiş pedaqoji mühitin yaradılması, uşaqlarla dialoq formasında qarşılıqlı əlaqənin yaradılması ilə şərtlənməlidir. Müasir təhsil əməkdaşlığa əsaslanan təhsildir. "Məktəbəqədər təhsil proqramı"nda qeyd edildiyi kimi məktəbəqədər təhsil müəssisələrində təlimin əsas forması kimi məşğələlərdə tapşırıqların həlli cütlər, qruplar və kollektiv halda təşkil olunmalıdır [2]. Bu prosesi həyata keçirmək üçün uşaqların sosiallaşması vacib bir şərt kimi qarşıda durur. Lakin müasir

uşaqların sosiallaşmasında müəyyən çətinliklərin olduğu hiss olunur. Çətinliklərin mənbəyi kimi uşaqların ailədə tək böyüməsi, həmyaşıdları ilə az ünsiyyətdə olması, yaxınları və doğmaları ilə istədiyi vaxt görüşə bilməmələri ilə izah oluna bilər. Beləünsiyyət çətinliklərinin mövcud olması uşaqlarda kədər, marağın itməsi və fəaliyyətdən imtina edilməsi kimi uğursuz halların yaranmasına gətirib çıxara bilər. Uşağın sosiallaşmasındakı bu çətinliklər isə fəaliyyətdə uğursuzluqlar formalaşdırır: oyuna cəlb olunmada çətinliklər yaranır, təlimdə müvəffəqiyyət əldə edə bilmir, sadə əmək vərdişlərinə belə yiyələnməyə səy göstərmirlər, nəticədə onlarda aqressivlik yaranır, bu da müəyyən münaqişələrə yol açır..

Uşaq kollektivində xeyirxah abu-havanı saxlamaq üçün pedaqoq nəyin yol verilməsinin və nəyin yol verilməməsinin daimiliyini qoruyub saxlamalıdır. Müşahidələr göstərir ki, uşaq problemi təkbaşına yaratmır. Onların münaqişə və aqressivliyinin səbəblərini daim aydınlaşdırmaq lazımdır. Əgər pedaqoq və ya valideyn uşaq tərəfindən səmimi etiraf görürsə, mütləq onu tərifləməli və bunu məhz hansı hərəkətinə görə etdiyini söyləməlidir.

Hazırda məktəbəqədər təhsil müəssisələrinin kollektivləri pedaqoji prosesdə innovativ texnologiyalardan istifadə etməyə çalışırlar. Bunun üçün onların əsas vəzifəsi elə metod və formalar, innovativ pedaqoji texnologiyalar seçməkdir ki, uşaq şəxsiyyətinin inkişafına və onların sosiallaşmasına müvafiq təsir göstərsin.

Bu texnologiyalar aşağıdakılardır:

1. Uşaqların sağlamlığını qoruyan texnologiyalar.
2. Layihə fəaliyyətinin texnologiyaları.
3. Tədqiqatçılıq fəaliyyətinin texnologiyası.
4. İnformasiya-kommunikasiya texnologiyaları.
5. Şəxsiyyətyönlü texnologiyalar.
6. Oyun texnologiyası.

Məktəbəqədər təhsil müəssisəsinin bütün subyektlərinin qarşılıqlı təsiri (uşaqlar, məktəbəqədər təhsil müəssisəsinin əməkdaşları, valideynlər) müasir pedaqoji texnologiyalar əsasında həyata keçirilir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı, 2009
2. “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin kurikulumu (3-6 yaю)”. “Təhsil problemləri” qəzeti, 24 mart, 2
3. Əliyeva Ş. Məktəbəqədər pedaqogika (dərs vəsaiti). Bakı, 2015.
4. Əlizadə H.Ə.. Sosial pedaqogikanən aktual problemləri. Bakı, 1998.
5. “http://edu.gov.az/az/page/255/2243
6. Мудрик А.В. Социальная педагогика / Под ред. В.А.Сластенина. - М.: Академия, 2002. - 200 с.


## ORTA İXTİSAS TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MÜƏLLİMİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ VƏ MÜƏLLİMƏ VERİLƏN TƏLƏBLƏR


**Aslanova Nərmin Sahib qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Nerminaslanova00@gmail.com*


Müəllim cəmiyyətdə aparıcı qüvvə kimi həmişə yüksək nüfuza malik olmuşdur. Müəllim əməyinin müqəddəs olması haqqında bəşər tarixində müdriklər həmişə dəyərli fikirlər söyləmişlər. Onları Günəşə bənzədən Nizami Gəncəvi, ruhani ata hesab edən Nəsirəddin Tusi, elin çırağı adlandıran Firudin bəy Köçərli, bəşəriyyətin müəllimsiz keçinə bilmədiyini söyləyən Soltan Məcid Qənizadə və bir çox mütəfəkkirlər daim bu adı uca tutmuşlar.

Müəllim adına, onun əməyinə olan yüksək yanaşmalar ilk növbədə gənc nəslin bilik və tərbiyə səviyyəsinin, ağlının formalaşmasını təmin etməsinə görədir. Pedaqoji fəaliyyəti düz-

gün qurmaq üçün müəllimlik işinin xüsusiyyətlərini yüksək səviyyədə bilməklə təhsilin inkişafında müvəffəqiyyət qazanmaq mümkündür. Hər müəllimin özünəməxsus öyrənməni öyrətmək strategiyası vardır. Müəllim ziyalılarımızın gənc nəslin təlim-tərbiyəsi, maarif sahəsində vicdanla çalışan ən qabaqcıl nümayəndələrindən biridir. O, məktəbdə təlim-tərbiyə sahəsində çalışan əsas professional şəxsdir. Müəllim pedaqoji fəaliyyətin subyekti, yəni öyrədən, bilik verən, tərbiyə edəndir.

Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti formalaşır, zənginləşir və inkişaf edir. Pedaqoji fəaliyyət dedikdə, gənc nəslin tərbiyə olunmasına yönələn fəaliyyət başa düşülür. Pedaqoji fəaliyyət mürəkkəb və çoxsahəlidir. Qarşıda duran vəzifələrdən asılı olaraq pedaqoji fəaliyyətin öyrətmə, tərbiyə vermə, təşkilatçılıq özünətəhsil, özünütərbiyə, yenidəntərbiyə və s. növləri vardır. Bunlardan hər biri müəyyən quruluşa malikdir.

Hər bir sənətin öz səciyyəvi xüsusiyyətləri olduğu kimi, müəllimlik sənətinin də öz spesifik xüsusisyyətləri vardır. Belə ki, müəllimlik sənəti olduqca nəcib, şərəfli, müqəddəs bir sənətdir. Cəmiyyətimiz üçün yararlı adamlar hazırlamaq, onların kamillik zirvəsinə qalxmasına, əxlaqca təkmilləşməsinə, mənəviyyatca zənginləşməsinə çalışmaq, əlbəttə ki, son dərəcə müqəddəs, nəcib və şərəfli bir işdir. Müəllimin nəcib, şərəfli, müqəddəs sənəti ona həmişə və hər yerdə hörmət qazandırır. Şagirdləri müəllimlərindən nümunə götürür, onun ən yaxşı keyfiyyətlərini öz həyat və fəaliyyətlərində davam etdirir, onu özləri üçün ideal şəxsiyyət hesab edirlər. Məktəbdə əsas sima hesab edilən müəllimin özünün bir sıra mühüm vəzifələri vardır. Müəllimin başlıca vəzifəsi təlim prosesini idarə etmək, təhsil vermək, tərbiyə etmək, şagirdləri inkişaf etdirmək və formalaşdırmaqdan ibarətdir. O, təkcə öyrətmir, tərbiyə etmir, həm də təlim prosesinə rəhbərlik edir, onu istiqamətləndirir.

Müəllimin pedaqoji vəzifələrindən biri də tərbiyə prosesini həyata keçirməyə nail olmaqdan ibarətdir. Müəllimin pedaqoji prosesdə tərbiyəvi vəzifəsi təhsilin məzmununu, təlimin forma və metodlarının təşkilinin köməyi ilə həyata keçirilir. Təlim prosesində biliklərin inama çevrilməsi şəxsiyyətin formalaşmasında əsasdır. Biliyin inama çevrilməsi müəllimin biliklərin elmi mahiyyətini dərindən açdığı, onların gerçəkliyə, həyata uyğun olduğunu inandırıcı şəkildə göstərdikdə baş verir, bu da tərbiyəvi əhəmiyyət qazanır. Müəllimin başlıca vəzifəsi pedaqoji idarəetmədir. “Pedaqoji layihə” adlandırılan bu vəzifəyə dərs, sinif saatı, mövzunun və ya bölmənin öyrənilməsi, viktorinaların, olimpiadaların, tarix gecələrinin keçirilməsi və s. daxildir. Bütün bunlara müəllim rəhbərlik etməlidir. Burada müəllim diaqnozlaşdırma, proqnozlaşdırma, layihələşdirmə və planlaşdırma kimi pedaqoji vəzifələrini yerinə yetirir. Müəyyən olunmuş məqsədin həyata keçirilməsinin sonrakı mərhələsində müəllim məlumat vermə, təşkil etmə, qiymətləndirmə, nəzarətetmə və təshihetmə vəzifələrini yerinə yetirir.

Müəllim peşəsinə verilən bir sıra tələblər də vardır. Bunlar 3 qrupa bölünür. **1. Ümumi tələblər**-yəni müəllimin şəxsiyyətinə verilən tələblər. Bunlar özündə müəllimin əqidəsini, dövlət qanunlarına hörmətini, dünyagörüşünü, vətənpərvərliyini, pedaqoji istiqamətini – peşəsinə bağlılıq, şagirdlərinə məhəbbət, kollektivlə işləmək bacarığı, pedaqoji etikanı gözləmək və.s birləşdirir. **2. Xüsusi tələblər**- yəni müəllimin psixoloji-pedaqoji hazırlığına verilən tələblərə bilik və bacarıqlar daxildir. Müəllim öz şagirdlərinə verməli olduğu xüsusi (fənn üzrə), etik və həyatı biliklərin rəhbəridir. Ümumiyyətlə müəllim bunları bilməlidir: ideoloji sahə üzrə, sosioloji sahə üzrə, mənəvi sahə üzrə, pedoqoji sahə üzrə, hüquqi sahə üzrə və s. **3.Spesifiktələblər.**

**Ədəbiyyat**

1. Əliyev H. Pedaqoji ustalığın əsasları. (Dərs vəsaiti). Bakı ADPU, 1999

2. İlyasov M. “Müəllim peşəkarlığı və pedaqoji səriştəliyin müasir problemləri” monoqrafiya. Baki. 2018

3. Paşayeva Ə.X. Rüstəmov F.A.Pedaqogika. Bakı: Nurlan, 2007

# ÜMUMİ TARİX DƏRSLƏRİNDƏ MODUL TƏLİM TEXNOLOGİYASINDAN İSTİFADƏNİN MAHİYYƏTİ

**Dadaşova Təranə Yaşılxan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*d.tarana92@mail.ru*

***Açar sözlər:*** *İKT, müasir təhsil, yeni təlim texnologiyaları*
***Ключевые слова:*** *ИКТ, современное образование, новые технологии обучения*
***Key words:*** *ICT, modern education, new training texnologies*

**Xülasə**

Tezisdə ümümi tarix dərslərində modul təlim texnologiyasından istifadənin mahiyyəti verilmişdir, yaranma səbəbləri açıqlanmışdır. Həmçinin müasir təhsildə modul təlim texnologiyasından istifadənin zəruriliyi əsaslandırılmışdır. Modul təlim texnologiyası əsasında qurulmuş ümumi tarix dərslərinin şagirdlərin müstəqil öyrənmə qabiliyyətinin formalaşdırılmasında əhəmiyyəti qeyd edilmişdir.

**Резюме**

В тезисе дается сущность модульной технологии на уроках Всеобщей Истории, объясняются причины её возникновения. Также обосновывается необходимость использования модульной технологии обучения в современном образовании. Отмечается важность уроков Всеобщей Истории построенных на основе модульной технологии обучения в формировании самостоятельной обучаемости учащихся.

**Summary**

The thesis gives the essence of modular technology in the lessons of world history, explains the reasons for its emergence. It also substantiates the need to use modular learning technology it modern education. The importance of World History lessons built on the bases of modular learning technology in the formation of students' independent learning is noted.

"Modul" termini pedaqogikaya informatikadan gəlib. Modul mürəkkəb mühəndislik vahididir, texniki cihazda müstəqil funksiyanı yerinə yetirir. Daha geniş mənada isə modul - istənilən sistemin, təşkilatın ayrıla bilən, nisbətən müstəqil hissəsidir. Modulun əsas xüsusiyyəti onun müstəqilliyi, onu hər hansı bir prosesin, hadisənin müstəqil vahidi hesab etmək qabilliyəti, semantik tamlığıdır. Lakin eyni zamanda, modul müəyyən sistemin bir hissəsidir ("texniki cihazın", "təşkilatın"). Ona görə də modula onun digər modullarla, sistem elementləri ilə əlaqələri də daxildir. Modul daxildən müstəqildir, lakin xaricdən tabedir, vacib bir əlaqədir onsuz sistem işləyə bilməz. Tədris prosesində modul müəyyən miqdarda məlumatı, onunla işləmək üsullarını və metodlarını, habelə təhsilin digər elementləri ilə əlaqələri özündə cəmləşdirən təhsil məzmununun hədəf blokudur (qovşağıdır).

Bəzi tədqiqatçılar modulun lüğəti mənada tamhəcimli bir şeyin bir hissəsi mənasına gəldiyini hesab edirlər. Bu hissə öz içində müəyyən bir funksiyanı həyata keçirir. Tam həcmli bir şeyin hissələrinin arasında bir balans olur, və hər birinin müəyyən edilmiş funksiyası ilə modulların cəmi məqsədin əsasını təşkil edir. Bu hissələr bir-birindən azadlığı ilə seçilir. Bu yanaşmadan irəli gələrək modul anlayışı təhsil sisteminə tətbiq ediləndə, müəyyən bir sahə üzrə hərtərəfli bacarıq qazandırmağa yönəlmiş proqramlar nəzərdə tutulur. Belə modul bir yazılı material, müəyyən edilmiş bilikləri və bacarıqları mənimsəmə, qarşıya qoyulmuş məqsədə çatmağa yönəldilmiş işlərin yoxlama və qiymətləndirmə sınaqlarının köməyi ilə mənimsəmə dərəcəsinin təyin olunması kimi xüsusiyyətləri özündə birləşdirir.

Modul bir kitapçadır, bu kitapça müəyyən bilik və bacarıqları əhatə edir. Modul öyrənməyə yönəldilmiş bir mənbədir. Şagird modul dərs vəsaitlərinin köməyi ilə özü müstəqil öyrənmə fəaliyyətini təşkil edə bilər.

Modul texnologiyası 1972-ci ildən başlayaraq tanınır. O dövrdə modul sistemi adlandırılırdı. 1972-ci ildə Tokioda keçirilən YUNESKO-nun Ümumdünya Konfransından yaşlıların maarifləndirilməsinin problemləri müzakirə edilərək, modul sistemi fasiləsiz təhsil üçün ən uyğun sistem kimi tövsiyə edilir. Sonra bu sistemin (texnologiyanın) dəyəri təkcə böyüklər üçün deyil, həm də gənclər üçün müəyyən edildi.

"Texnologiya" – yunan sözü olub, texno və logos sözlərinin birləşməsindən yaranmışdır (texno - bacarıq, logos-öyrənmə). Bundan irəli gələrək "pedaqoji texnologiya termini tərcümədə pedaqoji ustalıq, qabiliyyət deməkdir. Pedaqogikanın bir predmeti kimi pedaqoji texnologiyalar ABŞ-da məhz təlimin audiovizual proqramının qəbul edilməsi ilə inkişaf etməyə başlayır, bu isə XX əsrin 30-cu illərinə təsadüf edir. Pedaqoji texnologiyaların inkişaf yolu dedikdə, "təhsildə texnologiyalar" terminin "təhsil texnologiyaları" termini ilə əvəz olunması sonra isə "pedaqoji texnologiyalar" terminin yaranması və inkişaf etməsi ilə bağlıdır. Bu terminlərin inkişaf yolu və bir-birini əvəz etməsi üç dövrü əhatə edir. Başlanğıc dövrü məktəblərdə audiovizual vasitələrdən (səsyazma və yenidən dinləmə, təsvirlərin proyeksiyası aparatları) kütləvi olaraq istifadə edilməsindən başlayır, XX əsrin 50-ci illərini əhatə edir. İkinci dövr isə təlim prosesində texnoloji yanaşma ilə səciyyələndirilir və XX əsrin 50-ci illərinin ortaları 60-cı illərini əhatə edir. Sonuncu yəni üçüncü dövr isə pedaqoji texnologiyaların bazasının genişləndirilməsi dövrü kimi xarakterizə edilir və XX əsrin 70-ci illərini əhatə edir. Pedaqoji texnologiya müasir dövrdə tutduğu statusu alanadək əlli illik inkişaf yolu keçmişdir, bu yol təlim tipləri kimi ifadə edilsə belə bir xətt ortaya çıxar: "verbal təlim - audiovizual təlim - proqramlaşdırılmış təlim – multimedial təlim – hipermedial təlim". Bir çox Avropa ölkələrində pedaqoji texnologiyaların məktəblərdə kütləvi tətbiqinə XX əsrin 60-cı illərində başlanmışdır, bu dövr ABŞ və Avropanın ümumtəhsil məktəblərində yeni təhsil islahatlarının keçirilməsi ilə səciyyələnir. Və bu islahatlar təlimə qarantiyalı, nəticəsi əvvəlcədən məlum olan texnoloji-istehsalat prosesi kimi yanaşmanı nəzərdə tuturdu.

Modulla təlim texnologiyasının təlimdə şəxsiyyətyönümlü konsepsiyanın reallaşdırılmasıdır. Bu texnologiya inkişafetdirici texnologiyaların layihələşməsi və onların praktikada tətbiqini, həmçinin müxtəlif şəraitdə və müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, sonda isə pedaqoji təcrübənin bu sahədə öyrənilməsini tələb edir. Təlimin modul texnologiyası dedikdə uşaqların müstəqil olaraq dərsdə həmçinin dərsdənkənar vaxtlarda məhz modullu iş prosesi zamanı təlimin konkret məqsədlərinə nail olması kimi başa düşülür.

Qısaca olaraq, modul təlimin digər təlim sistemlərindən əsas fərqlərini qeyd etmək istəyirəm:

1. Məzmun tam, müstəqil bloklarda (informasiya blokları) təqdim edilməlidir;
2. Müəllim şagirdlərlə həm modullar vasitəsilə, həm də birbaşa olaraq hər bir şagird ilə fərdi şəkildə ünsiyyətdə olur;
3. Hər bir şagird vaxtının çox hissəsini bu yolla müstəqil işləyir, öz bilik səviyyəsini müəyyən edə bilir, bilik və bacarıqlarda boşluqları görə bilir.

Modul təlimin vasitəsi kimi məhz modul çıxış edir. Bu, məzmunu, tədris metodları, müstəqillik səviyyəsi, şagirdlərin təhsil və idrak fəaliyyətinin sürəti ilə fərdiləşdirilmiş bir təlim proqramıdır.

Modul proqramın tərtib edilməsi ardıcıllığı belə olmalıdır:

1. Şagirdlər üçün hərtərəfli təlim məqsədinin müəyyən edilməsi və onların formalaşdırılması.
2. Tədris materialının məzmununun və onu mənimsəmək üçün tədris fəaliyyətinin üsullarının seçilməsi

3. Modul təliminin prinsipləri nəzərə alınmaqla məzmunun dərslər üzrə bölüşdürülməsi: tədris materialının ilkin mənimsənilməsi səviyyəsinin müəyyən edilməsi (giriş nəzarəti); məlumat bloku (mövzunun nəzəri materialı); təlim məzmununun işlənməsi (seminarlar, təcrübələr və s.)

4. Şagirdlər üçün ədəbiyyat seçimi (məcburi və əlavə ədəbiyyatların siyahısı göstərilir)

5. Modul proqramın yazılması. [4, s.5 ]

Modullarla işləmək müxtəlif fəaliyyətləri əhatə edir: blokun mövzuları üzrə hesabatların, referatların yazılması, sənədlərlə iş, xəritə ilə iş, tarixlərlə iş, terminlərlə iş, blokun tədris materialının paraqrafları əsasında əsas konspektlərin tərtib edilməsi və ya mövcud konspektlərlə iş. Bəzi tədqiqatçılar modulların təsnifatını belə verirlər:

1. Koqnitiv modullar. Belə bir modulla işləyərkən əsas məqsəd öyrənilən mövzu üzrə məlumatların miqdarıdır.

2. Əməli modullar. Burada əsas olan fəaliyyətin üsullarının formalaşdırılması və inkişafıdır.

3. Qarışıq modullar. Bu tip modullarda ilk ikisinin elementləri istifadə edilir. Modulların əksəriyyəti qarışıq tipə aiddir.

Modul təlim dövrü problemli vəziyyətlə bir-birinə bağlıdır: əvvəlcə, ilkin mərhələdə motivasiya yaranır, subyektdə şüurlu maraq formalaşır; izahetmənin ikinci mərhələsində tələb olunan fəaliyyətlərin tərkibi müəyyən edilir; sonrakı mərhələlərdə fəaliyyət növlərinin mənimsənilməsi birbaşa biliyin mənimsənilməsi prosesində baş verir. Təlim, təhsil fəaliyyəti dövrünün səmərəliliyi və effektivliyi hərəkətlərin strukturlaşdırılması məntiqinin konkretliyinə əsaslanır. Bu müddəa modullu öyrənmə üçün əsasdır.

## Ədəbiyyat

1. Əmirov M.M. Tam orta Məktəbdə Tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, “Yeni nəşr”, 2011. 707 səh.

2. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Bakı, ADPU nəşriyyatı, 2012,103 səh.

3. Журавлева О.Н. Модульная технология обучения истории. Автореферат Диссертаöии на соискание ученой степени кандидата педагогических наук. Санкт-Петербург 1999. 20 с.

4. Орехова Л.Н. Модульная технология на уроках истории. Биробиджан 2006.25 с.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN IX SİNİFLƏRİNİN ÜMUMİ TARİX DƏRSLƏRİNDƏ İKT-dən İSTİFADƏNİN SƏMƏRƏLİ YOLLARI

**Məmmədli Aytac İmaməli qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aytac.memmedli096@gmail.com*

***Açar sözlər:*** *ümumtəhsil məktəbləri, ümumi tarix, IX siniflər, İKT-dən istifadə, şüurlu mənimsəmə, dərk etmə*

***Ключевые слова:*** *общеобразовательные школы, общая история, IX классы, использование ИКТ, осознанное усвоение, понимание, восприятие*

***Key words:*** *public schools, general history, IX classes, ICT usage, conscious comprehension, cognition*

## Xülasə

Məqalədə problemin aktuallığı əsaslandırılıb. İKT-dən istifadə məsələlərinin tədqiqi səviyyəsi öyrənilərək ümumiləşdirilib. İKT-dən istifadənin təlim-tərbiyəvi imkanları araşdırılıb. Ümumi tarix kurslarında kütləvi informasiya vasitələrindən istifadənin didaktik, psixoloji və fəlsəfi əsaslarına münasibət bildirilib.

## ЭФФЕКТИВНЫЕ (РАЦИОНАЛЬНЫЕ) ПУТИ ИСПОЛЬЗОВАНИЯ ИКТ НА УРОКАХ ОБЩЕЙ ИСТОРИИ В IX КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

**Резюме**

В статье обоснована актуальность темы. Изучается и обобщается степень исследования вопросов использования ИКТ. Разобраны возможности учебно-воспитательных возможностей использования ИКТ. Выражается отношение к дидактическим, психологическим и философским основам средств массовой информации на курсах общей истории.

## EFFICIENT WAYS OF USING ICT AT GENERAL HISTORY CLASSES OF IX CLASS PUPILS AT PUBLIC SCHOOLS

**Summary**

The article substantiates urgency of the problem. Level of investigating ICT usage issues has been generalized and educative – instructional possibilities of using iCT has been investigated and opinion has been given on didactic, psychological, and philosophic rationale of using mass media in public history courses.

XX əsrin sonlarından cəmiyyət öz intensiv inkişafı ilə sənaye cəmiyyətindən – informasiya cəmiyyətinə keçid mərhələsindən çıxış etməyə başladı. Bu keçid prosesi "İnformatlaşma" adlandırıldı. İnformatlaşdırma ictimai həyatın bütün sahələrində informasiyanın qəbulu, saxlanması, emalı və ötürülməsi vasitəsi və texnologiyaları əsasında idarəetmə prosesinin avtomatlaşdırılmasını nəzərdə tutur.

İnformasiya və kommunikasiya texnologiyalarındakı baş verən sürətli inkişaf prosesi bütün sahələrdə olduğu kimi, təhsildə də köklü dəyişikliklərə səbəb oldu. Bu gün İKT təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında, səmərəli öyrənmə mühitinin təmin edilməsi və şagirdlərin həyata hazırlanması üçün əvəzolunmaz vasitələrdən birinə çevrilmişdir. Dünyanın bir çox ölkəsində olduğu kimi, ölkəmizdə də tarixin tədrisində İKT-dən istifadəni dəstəkləyirlər. Bununla birlikdə, tədrisdə İKT vasitələrindən istifadə hər zaman intensiv öyrənməyi təşviq edən, tələbə yönümlüdür. Tədrisdə İKT vasitələrinin funksiyası çox vaxt ənənəvi tədris metodlarının məhdud dəstəyindən kənara çıxmır.

Yenilikçi və səmərəli bir tədris prosesi yaratmaq üçün təhsildə İKT-nin istifadəsi prosesində İKT tərəfindən dəstəklənən təsirli metod və strategiyaların inkişafı, ixtisaslı tədris materialları və məzmununun hazırlanması, qarşılıqlı əlaqənin təmin edilməsi, real ünsiyyəti dəstəkləyən veb əsaslı tətbiqetmələrdən istifadə edilməsi son dərəcə vacibdir.

Təhsil sahəsində İKT-nin digər və ən vacib rolu, təhsil və təlim proseslərinin icrasında və inkişafında ortaya çıxır. İKT ilə təhsil və təlim prosesləri arasında ikitərəfli bir əlaqə mövcuddur. Bir cəhətdən fərdlərin İKT ilə əlaqəli bilik və bacarıqlara yiyələnməsi üçün təhsil və təlim prosesi tələb olunur. Bu sahədə dərin peşəkar bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanmasına əlavə olaraq bütün fərdlərin İKT təlimi həm fərdi inkişaf, həm də sosial tərəqqi baxımından dövrümüzün ən vacib tələblərindən biridir. Başqa sözlə, tarix kursları və digər bütün kurslar daxilində şagirdlər tərəfindən istifadə ediləcək İKT dəstəkli tətbiqetmələr yalnız tarix sahəsi ilə əlaqəli əldə etmələri deyil, həm də texnoloji təhsili ilə bağlı əldə etmələri hədəf alaraq dəstəkləməlidir.

Digər tərəfdən, İKT son illərdə inkişaf etdirilmiş alətlər, metodlar və təcrübələrlə təhsilin və təlimin keyfiyyətini artırmaq, daha geniş auditoriyaya çatmaq, daha təsirli metod və materiallardan istifadə etmək, ənənəvi sərhədləri aşmaq üçün istifadə edilmişdir. İKT texnologiyaları təhsil mənbələrinə çatmağı asanlaşdırmaq üçün istifadə edilən əsas elementlərdən birinə çevrilmişdir.

İKT tərəfindən dəstəklənən alətlərin və tətbiqetmələrin tədris baxımından ən vacib xüsusiyyətlərindən biri də çox sayda məlumat, sənəd və mənbələrə asanlıqla giriş təmin etmələridir. Bu vəziyyət xüsusilə tarix baxımından təhsilə əhəmiyyətli töhfələr verir. Tarixin

tədrisində istifadə edilən yeni texnoloji metod və mənbələrin müxtəlifliyi, çap olunmuş dərsliklərin ənənəvi tədris materiallarının bu baxımdan geridə qalmasına səbəb olur. İKT vasitələri həm müəllimlərə, həm də şagirdlərə asanlıqla əldə edilə bilən geniş mənbələr və elektron resurslar təklif edir.

Virtual gerçəklik, kompüter mühitində yaradılan 3B şəkillər və animasiyaların ətrafdakı bu obyektlərlə qarşılıqlı təsirini təmin edən və insanlara texnoloji alətlərlə gerçək bir mühitdə olma hissi verən texnologiya olaraq təyin edilir. Virtual reallıq texnologiyası ilə yaradılan mühitlər təhsildə geniş istifadə olunur. Virtual reallıq tətbiqetmələri tarix tədrisinə də mühüm töhfələr verir.

Tarixi hadisələr və faktlar bu gün real təbiəti ilə müşahidə edilə bilməz. Bununla birlikdə, animasiya yolu ilə şagirdlərin müşahidəsinə təqdim edilə bilər. Mətn, şəkil və sənədli filmlər kimi vasitələrlə animasiya edilə bilsə də, virtual gerçəklik texnologiyasından istifadə edərək İKT dəstəkli tətbiqetmələrdə üç ölçülü şəkillər və interaktiv xüsusiyyətlər kimi elementlərin istifadəsi animasiyanın təsiri baxımından çox əhəmiyyətli bir fərq yaradır. İKT tərəfindən dəstəklənən tətbiqlərdə, şagirdin o dövrdə və tarixi mühitdə özünü daha güclü və təsirli bir şəkildə hiss etməsinə şərait yaradır.

Virtual reallıq texnologiyası ilə yaradılan mühitlər tarixin tədrisində müxtəlif yollarla istifadə olunur. Bu baxımdan, şagirdin virtual mühitdə tarixi şəxsiyyətləri oynadığı “rol oyunları” səmərəli öyrənmə mühitləri formalaşdırır. Başqa bir müşahidə edilmiş təcrübə virtual mühitdə canlandırılan muzeylərin və tarixi yerlərin istifadə edilməsidir.

Glassman və Kang’a (2011) görə, müasir insanlıq tarixində biliklərin yayılma yolları ilə bağlı iki əsas inqilab olmuşdur. Birincisi, mətbəənin ixtirası və geniş yayılmasıdır. İkincisi, İNTERNET ortaya çıxması və geniş istifadə olunmasıdır. İnternet daha geniş məlumat qaynaqlarına daha sürətli və asanlıqla daxil olmaq kimi vacib kəmiyyət dəyişikliklərinə əlavə olaraq keyfiyyətcə də dəyişikliklər gətirir. Veb əsaslı tətbiqetmələr, tədris prosesləri vasitəsilə biliklərin yaradılması, qiymətləndirilməsi və mənimsənilməsi baxımından ənənəvi quruluşda əhəmiyyətli dəyişikliklərə işarə edən yeni yanaşma və təcrübələr yaradır. İnternetin təhsil sahəsindəki tətbiqləri fərqli funksiyalara malikdir. Tarix fənninin tədrisi baxımından qiymətləndirildikdə dörd əsas funksiyadan bəhs edilə bilər:

- Məlumat və tədris materialının mənbəyi;
- Ünsiyyət və qarşılıqlı əlaqə sahəsi;
- İstehsal və sərgi sahəsi;
- Geniş istifadə edilən tədris sahəsidir.

Wiki saytları son illərdə veb istifadə əsaslı tədris vasitələrindən biri halına gəlmişdir. Wiki saytlarının təhsildə əhəmiyyəti, tələbə mərkəzli və işbirlikli öyrənmə mühitləri yaratmağı təmin etdikləri vacib fürsətlərdən qaynaqlanır. Tələbə mərkəzli və interaktiv öyrənməyə yanaşması ilə tədrisdə viki saytların istifadəsi şagirdlərin Vikipediya kimi viki əsaslı informasiya mənbələrindənfaydalanmasını deyil, şagirdlərin viki layihələrinin planlaşdırılmasında, yaradılmasında və inkişafında fəal iştirak etmələrini nəzərdə tutur.

Tədqiqatlar göstərir ki, wiki saytları həm orta təhsil səviyyəsində,, həm də ali təhsil səviyyəsində geniş şəkildə istifadə edilir. Xidmətə hazırlıq müəllimi təhsilində viki saytlarında aparılan tədqiqatların gələcək müəllimlərin veb əsaslı öyrətmə, tədris və məzmun yaratmaq bacarıqları qazanmasına müsbət təsir göstərdiyi müşahidə edilmişdir. Wikisaytlarındakı tədris fəaliyyətləri, təsirli bir tədris-öyrənmə prosesini həyata keçirmək üçün çox vacib üstünlüklər təqdim edir.

Beləliklə, İNTERNET-in məlumat və mənbələrə çıxış baxımından gətirdiyi dəyişiklik, bütün sahələrdə olduğu kimi, tarix elminin tədrisi sahəsində də qısa müddətdə çox əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. 1990-cı illərin əvvəllərində fərdi kompüterlərdə İNTERNET-in geniş istifadəsi ilə tarixin tədris üçün veb saytlar yaradılmağa başlanmış və bundan sonra sürətlə yayılmağa davam etmişdir. Bu vasitə fərdi istifadəçilər, həm də muzeylər, ar-

xivlər, təhsil və tədqiqat qurumları kimi institusional orqanlar üçün vacib bir tədqiqat sahəsinə çevrilmişdir. Son iyirmi ildə veb əsaslı tarixi mənbələr həm keyfiyyət, həm də kəmiyyət baxımından olduqca böyük bir səviyyəyə çatmışdır.

IX-XI sinif təhsil pilləsində aşağıdakı müxtəlif növ elektron tətbiqetmələrdən istifadə olunur:

- Təsvirlər, səs və video ardıcıllığının nümayişi;
- Həm illüstrativ materialı, həm də problemli sualların irəli sürülməsini, irəli sürülən fərziyyələrin və həll yollarının sonrakı yoxlanışını, testlərin, krossvordların, tapmacaların şəklində biliklərin ön yoxlanılması və özünütəsdiqlənməsi ilə birləşdirən tətbiqetmələr;
- Mövzu ilə əlaqədar bir sıra bilik sahələrini uğurla birləşdirərək, dünyanın bütöv bir qavrayış şəklinin formalaşdırılması, materialı ən tam şəkildə təqdim etməyə imkan verən bir sıra dərslərin hazırlanması;
- Şagird ilə kompüter arasında birbaşa ünsiyyəti təmin edən Visual Basicpp roqramlaşdırma dilindən istifadə edərək dərslər üçün elektron tətbiqetmələrin hazırlanması.

IX siniflərdə İKT vasitələrindən ümumi tarix dərslərində istifadə edərkən əvvəlcədən dərsin mərhələləri aydınlaşdırılmalıdır. Bununla birgə tarixi biliklərin şagirdlərin həyat və fəaliyyətində mühüm rol oynadığını da nəzərə almaq lazımdır. Məhz tarix təhsili sayəsində şagirdlərdə öz milli tariximizə, keçmişimizə qarşı maraq oyanır, eyni zamanda onlarda dünyagörüşü formalaşır. Bütün bunlar şagirdlərin dünyaya baxışını dəyişir, onlar hərtərəfli inkişaf etmiş bir şəxsiyyətə çevrilirlər.

Tədqiq etdiyimiz problemlə bağlı həm azərbaycanlı, həm də xarici ölkə alimləri yetərli nəticələr əldə ediblər. Pedaqogika üzrə elmlər doktoru, professor İ.İsmayıl yazır: "Təhsilin informatlaşdırılması pedaqoji prosesin aktual problemi olduğunu qeyd edir. İnformatlaşdırma prosesi təkcə texniki bazanın yaradılması və inkişafı deyil, həm də müxtəlif ictimai sistemlərin fəaliyyətində informasiya bazasının inkişafının layihələndirilməsi, imkan daxilində informasiyanın kağız daşıyıcılarından, insan – maşın dialoq sistemləri ilə əvəz edilməsini, insanın fəaliyyət modellərinin daha səmərəli və təkmil formalarının yaradılmasını nəzərdə tutur.

Respublikada təhsilin informatlaşdırılması siyasətinin həyata keçirilməsində əsas məqsəd təkcə texniki təhcizat deyil, məhz vahid informasiya təhsil məkanının (VİTM) hotmalaşdırılmasıdır (müxtəlif təyinatlı elektron kontentin yaradılması və s.), yəni burada İKT yalnız köməkçi vasitə olmalıdır"(2, s.275).

Son illərdə dünya təhsil sistemində kompüter telekommunikasiyası, telelayihə, telekonfrans, distant təhsil kimi problemlərin həllində önəmli rol oynamaqdadır. Bu baxımdan distant təhsilin tanınmış mütəxəssisi V.V.Selinov yazır: "Telekommunasiya (yunan sözü tel-uzağa, latın sözü olan communicatio-əlaqə yaratmaq) texnii vasitələrin (telefon, teleqraf, radio, televiziya və kompüterlə) köməyi ilə informasiyaların uzaq məsafədən müstəqil verilməsidir. Telekommunikasiya sistemi müxtəlif qurğuların (EHM, teleskop, tele və videomaqintafonlar, telekamera və s.) işlərinin gedişini və nəticələrini birləşdirir.

Kompüter telekomnikasiyası dedikdə, sonluğunda kompüter olan telerabitə başa düşülür. Kompüterdən – kompüterə informasiyanın ötürülməsinə sinxron, işlədicilərin sorğusu zamanı aralıq EHM-də məlumatlar toplayır, fərdi kompüterlərə ötürməyə asinxron rabitə deyilir" (3, N7, s.30-35).

Araşdırmalardan aydın olur ki, IX siniflərin ümumi tarix dərslərində aşağıdakı mövzuların tədrisində İKT-dən istifadəni məqsədəuyğun hesab edirik:

1. Türk dünyası. Qacarlar İranı və Qafqaz.
2. Asiya dövlətləri.
3. Avropa ölkələri və ABŞ.
4. Dünya ölkələri İkinci Dünya müharibəsindən sonrakı dövrdə.

Xüsusi olaraq qeyd etməyi lazım bilirik ki, sadalanan mövzuların tədrisində ağıllı lövhədən və İKT-dən istifadə etməklə hər bir mövzunun tədrisində geniş imkanlar var. İNTER-

NET resurslarından istifadə etməklə icmal xəritələrinin, şəkillərin, illüstrasiyaların, sxemlərin, cədvəllərin didaktik imkanlarından faydalanmaq olur.

**Problemin aktuallığı.** Ümumtəhsil məktəblərinin IX siniflərinin ümumi tarix dərslərində İKT-dən istifadənin səmərəli yolları yetərincə tədqiq olunmadığından bu sahədəki boşluğun doldurulmasına böyük ehtiyac aktuallıq kəsb edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin məzmunundakı tarixin tədrisi metodikası ilə məşğul olan tədqiqatçılar, eləcə də orta məktəblərin tarix müəllimlərin gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Problemin elmi yeniliyi** ümumtəhsil məktəblərinin IX siniflərində tədris olunan ümumi tarix kursunun tədrisində İKT-dən istifadənin səmərəli şərhidir.

**Nəticə:** Nəticə olaraq deyə bilərik ki, hər bir mövzunun məntiqi quruluşuna və məzmununa uyğun olan təlim metodunun seçilməsi, eləcə də İKT-dən səmərəli istifadə edilməsi təlim keyfiyyətini yüksəldir, mənimsəməni artırır.

### Ədəbiyyat

1. Farmer R. (2006) Wiki – An Effective Collaborative Learning Tool. Journal of Interactive Instruction Development. 19(1), p.3-7.

2. İsmayılov İ. Fizikanın tədrisi metodikasının müasir problemləri. Dərslik, ADPU-nun nəşriyyatı, Bakı, 2010, s.275.

3. Компьютерье технологий и дистанционном обучении обучении/В.В.Селинов. и.др.-М, 2017. N7, стр.30-35.

## MÜƏLLİMİN PEDAQOJİ USTALIĞI-TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

**Yaqubova Nüşabə İsmayıl qızı**
*nushabe_yaqubova1998@mail.ru*

***Açar sözlər:*** *pedaqoji ustalıq, pedaqoji qabiliyyət, pedaqoji texnika*

***Ключевые слова:*** *педагогические навыки, педагогические способности, педагогическая техника*

***Key words:*** *pedagogical skills, pedagogical ability, pedagogical techniques*

### Xülasə

Tezisdə pedaqoji ustalıq anlayışının mahiyyəti açıqlanmış və onun tərkib hissələrindən bəhs edilmişdir. Pedaqoji ustalığın şagirdlərin müstəqil mövqeyinin formalaşması, onlarda fənnə maraq yaradılmasına təsiri qeyd edilmişdir. Bütövlükdə təlim keyfiyyətinin yüksəldilməsi baxımından pedaqoji ustalığın əhəmiyyəti vurğulanmışdır.

### Резюме

В тезисе раскрывается сущность понятия педагогического мастерства и рассматриваются его составляющие. Отмечено влияние педагогического мастерства на формирование самостоятельной позиӧии студентов и создание у них интереса к предмету. Подчеркнута важность педагогического мастерства в плане повышения качества образования в ӧелом.

### Summary

The thesis explains the essence of the concept of pedagogical skills and discusses its components. The influence of pedagogical skills on the formation of students’ independent position and the creation of their interest in the subject was noted.The importance of pedagogical skills in terms of improving the quality of education as a whole was emphasized.

Tarix dərslərində müəllimin pedaqoji fəaliyyətində qarşıda duran əsas vəzifələr bəşər tarixinin qədim dövrdən başlayaraq, müasir dövrümüzə qədər keçdiyi tarixi yol, onun sosial, mənəvi və əxlaqi təcrübəsi ilə bağlı biliklərin şagirdlər tərəfindən mənimsənilməsinə, tarixi təhlil aparmaqla fakt və hadisələrin dərk edilməsinə, tarixi biliklərin tətbiqi bacarıqlarının inkişafına nail olmaqdır. Bu vəzifələrin uğurla həyata keçirilməsində müəllimin peşə fəaliyyətinin səmərəli təşkilinin ən mühüm göstəricisi olan pedaqoji ustalıq sistemi xüsusi rol oynayır.

“Ustalıq”, “usta” ifadələri “peşənin ən yaxşısı” mənasında əvvəllər sənətkarların fəaliyyəti ilə bağlı olaraq işlədilsə də, XX əsrin əvvəllərindən başlayaraq daha çox yaradıcı peşə sahələri ilə əlaqələndirilmişdir. Müəllimin pedaqoji fəaliyyəti də yaradıcı xarakter daşıdığı üçün “müəllim-ustad” ifadələrinin birləşməsi də məntiqi baxımdan düzgün qəbul edilmişdir. Beləliklə, pedaqoji ustalıq-səmərəli pedaqoji fəaliyyətin şərti (həm də vasitəsidir), hər hansı fəaliyyətin, o cümlədən müəllim fəaliyyətinin xüsusi keyfiyyət xarakteristikasıdır. Pedaqogika və psixologiyada müəllimin pedaqoji ustalığı, onun formalaşması və təkmilləşdirilməsi problemi geniş şəkildə işlənmiş, kimi F.N.Qonobolin, N.V.Kuzmina, V.A.Slastenin, E.N.Şiyanov, A.N.Şerbakov, M.V.Kaminskaya, N.V.Kuxarev, A.V.Petrovski, N.N.Taraseviç və başqa müəlliflər tərəfindən araşdırılmışdır. Müəllimin pedaqoji ustalığı ilə bağlı pedaqoji nəzəriyyənin təhlili 2 əsas yanaşmanın mövcud olduğunu göstərirdi. Birinci yanaşmaya görə, pedaqoji ustalıq pedaqoji fəaliyyətdə müxtəlif üsul və vasitələrin tətbiqi ilə bağlıdır. İkinci yanaşma isə təlim və tərbiyədə müəllimin şəxsiyyətinin aparıcı rol oynadığını təsdiqləyir. Amma fikrimizcə, istər müxtəlif metod və üsullardan istifadə, istərsə də müəllimin şəxsi keyfiyyətləri pedaqoji ustalığın əsas tərkib hissələridir.

Pedaqoji ustalıq-müəllim şəxsiyyətinin ən mühüm keyfiyyəti, pedaqoji əməyin səmərəliliyinin qiymətləndirilməsini özündə əks etdirən standart kimi qəbul edilmiş, onun əsas elementləri isə aşağıdakı kimi qruplaşdırılmışdır:

1.Müəllim fəaliyyətinin humanist istiqaməti. Bu, özünü müəllimin maraq və dəyərlərində, fəal mövqeyində büruzə verir. Müəllimin fəaliyyət istiqaməti aşağıdakı dəyərlərə malikdir: özünütəsdiq, pedaqoji fəaliyyətin məqsədləri, pedaqoji təsir vasitələri ilə bağlı humanist strategiya, fəaliyyət obyektinin yaradıcı şəkildə dəyişdirilməsi. Humanistlik hər bir müəllimin gündəlik fəaliyyətində konkret vəzifələri müəyyənləşdirir. Öz peşəsini və uşaqları sevən müəllim onları düzgün istiqamətləndirməli, çətin situasiyalardan çıxmağa kömək etməlidir.

2. Müəllimin professional bilikləri. Bu, müəllimin pedaqoji ustalığının fundamental əsasını təşkil edir. Müəllimin professional biliklərinə tədris etdiyi fənn, onun metodikası, pedaqogika və psixologiya ilə bağlı bilikləri daxildir. Müəllimin pedaqoji ustalığı təkcə kitabdakı biliklərin şagirdlərə çatdırılması ilə məhdudlaşmamamlı, həmçinin müəllimin öz mövqeyi və baxışları da şagirdlərə təqdim edilməlidir.

3. Müəllimin pedaqoji qabiliyyətləri. Müəllimin xüsusi qabiliyyətlərinə akademik, didaktik, təşkilatçılıq, inkişafetdirici, istiqamətləndirici, pedaqoji intuisiya və nitq qabiliyyətlərini aid etmək olar.

4. Pedaqoji texnika. Pedaqoji texnika-pedaqoji ustalığın açarı, davranışın təşkili forması, yaxud ətrafdakı insanlara təsir göstərmək üçün seçilmiş texnika və vasitələrin məcmusudur. Pedaqoji texnika müəllimin fiziki, psixoloji, və intellektual xüsusiyyətlərinə uyğun olaraq formalaşır. Əgər müəllim əlverişli tədris texnikasına malikdirsə,deməli, onun peşəkar fəaliyyətində yaradıcılıq potensialını reallaşdırmaq üçün vaxtı və resursları da mövcuddur. Bu vasitələrdən istifadə pedaqoji fəaliyyətin ahəngdarlığını təmin edir və bir-birilə sıx bağlıdır.

Müəllimin pedaqoji ustalığında yer tutan peşə keyfiyyətlərini 3 qrupa bölmək olar: ümumvətəndaş keyfiyyətləri, müəllim peşəsi ilə bağlı spesifik keyfiyyətlər, xüsusi bilik, bacarıq və vərdişlərlə bağlı keyfiyyətlər. Müəllimin pedaqoji ustalığı üçün təkcə pedaqoji biliklər kifayət etmir, o, həm də pedaqoji bacarıqlara malik olmalıdır.

Pedaqoji ustalıq təhsil və tərbiyə sənətidir. Müəllimin pedaqoji ustalığı şagirdlərin hərtərəfli inkişafına və təkmilləşməsinə, onların dünyagörüşünün və qabiliyyətlərinin formalaşmasına yönəlmiş peşəkar bacarıqlarıdır. Müasir pedaqogikaya görə, pedaqoji ustalığın ən mühüm meyarlarından biri müəllim fəaliyyətinin səmərəliliyi, yəni, bütün şagirdlərdə fənnə maraq yaradılması və müəllimin hər bir şagirdi bərabər səviyyədə öyrətməyə müvəffəq olmasıdır.

**Nəticə.** Beləliklə, tarix dərslərində müəllimin pedaqoji ustalığı peşəkar fəaliyyətin yüksək səviyyədə təşkilini həyata keçirməyə imkan verən keyfiyyətlər kompleksi olub, proqnozlaşdırma aparmağa, mövcud peşəkar səriştəni təkmilləşdirməyə, hər bir şagirdin müstəqil mövqeyinin formalaşdırılmasına imkan yaradır. Müəllimin pedaqoji ustalığa yiyələnməsi çətin və uzun bir yol keçərək, bilavasitə təlim-tərbiyə prosesində, şagirdlərlə ünsiyyət zamanı formalaşır.

**Ədəbiyyat**

1. Профессиональное мастерство современного педагога. коллективная монография / отв. ред. А.Ю. Нагорнова. – Ульяновск: Зебра, 2016. – 442 с.

2. Mirzəyev F., Rüstəmova X. Pedaqoji ustalığın əsasları (dərs vəsaiti). Bakı, 2012, 144 s.

3. İlyasov M. Müəllimin pedaqoji ustalığı (dərs vəsaiti). Bakı:Elm və təhsil, 2013, 216 s.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİ TƏŞKİLİ

**Yaqublu Leyla Şahin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*yaqubluleyla5@gmail.com*

***Açar sözlər:*** *təlim, innovativ təlim,müəllimin fəaliyyəti, yeni təlim metodları*
***Ключевые слова:*** *обучение, инноваöионное обучение, деятельность учителя*, *методы нового обучения*
***Key words:*** *training, innovative training, teacher activity, new training methods*

**Xülasə**

Tezisdə innovasiya anlayışının mahiyyəti verilmiş, yaranma səbəbləri açıqlanmışdır. Həmçinin təlim prosesində gedən dəyişikliklər öz əksini tapmışdır. Azərbaycan tarixi fənninin tədrisi ilə yeni metodların tətbiqinin zəruriliyi əsaslandırılmışdır. Yeni təlim metodlarının tətbiqi ilə şagirdlərin müstəqil mənimsəməsinə imkanların yaradılması qeyd edilmişdir. Dərsdə tətbiq olunan bir neçə metodun mahiyyəti açıqlanmış, bu metodlardan düzgün istifadəni bacaran müəllimin pedaqoji fəaliyyəti verilmişdir.

**Резюме**

В тезисе дается сущность понятия инноваöии, объясняются причины ее возникновения. В том числе, отражаются и изменения в проöессе обучения. Обоснована необходимость применения новых методов в преподавании истории Азербайджана. Отмечается создание возможностей для самостоятельного овладения обучающимися с применением новых методов обучения. Объясняется сущность нескольких методов, применяемых на уроке, дается педагогическая деятельность учителя, умеющего правильно использовать эти методы.

**Summary**

The thesis gives the essence of the concept of innovation, explains the reasons for its emergence. The changes in the training process are also reflected. The need to apply new methods in teaching the history of Azerbaijan is justified. It was noted that the creation of opportunities for students to master independently with the application of new teaching

methods. The essence of several methods applied in the lesson is explained, the pedagogical activity of the teacher who is able to use these methods correctly is given.

Təlim şagirdlərin bilik, bacarıq, vərdiş və dəyərlərə yiyələndiyi pedaqoji prosesdir. Təlim kimə? nəyi? nə qədər? harada? nə vaxt? nə üçün? necə? suallarına cavab verərək müxtəlif metod və priyomların istifadəsini zəruri edir. Məqsəd bu metodlardan istifadə edərək şəxsiyyətyönümlü təhsilin inkişaf etdirilməsidir. Şəxsiyyətyönümlü təhsil şagirdlərin fərdi xüsusiyyətlərindən çıxış edərək şəxsiyyətin inkişafını təmin edir.

İlk növbədə innovasiya anlayışının mahiyyətini verək. İnnovasiya ingiliscə "innovation", latınca isə "innovato" sözündən götürülmüşdür, mənası yenilənmə, yaxşılaşmadır. Müasir dövrdə innovasiyaların yaranması üçün bir sıra səbəblər var. Onlar aşağıdakılardır:

- tədrisin humanistləşməsi;
- şagirdlərin təhsilləri və gənclərin inkişafı üçün qoyulan yüksək tələblər;
- ölkəmizdə mədəni-mənəvi dəyərlərə istiqamətlənmə;
- beynəlxalq səviyyədə təhsil müəssisələri arasında rəqabət münasibətləri.

İnnovasiyaların əsas məqsədi vaxt itkisini aradan qaldırmaq, qısa müddət ərzində şagirdləri daha çox məlumatlandırmaq və dərsin müxtəlif komponentlərinin səmərəli təşkili ilə təlimin nəticəsini yüksəltməkdir.

Ənənəvi təlim metodu ilə innovativ təlim metodunun mahiyyətini verək. Ənənəvi təlim metodu müəllimdən dərsin mühazirə üsulunda keçirilməsini və şagirdlərin dinləyici rolunda çıxış etməsini özündə daşıyır. Ənənəvi təlim şagirdlərin məlumatların yaddasaxlama qabiliyyətinə əsaslanır. Bunun nəticəsində şagirdlər materialı təhlil və sintez olunaraq hazır ümumiləşdirilmiş formada alırlar. Həyatın dinamik inkişafı ənənəvi təlim metodundan uzaqlaşmağı və onun yeniləşməsini zəruri edir. İnnovativ metodların tətbiqinin müəllim və şagirdlərin motivasiyasının yüksəlməsində, onlar arasında informasiya mübadiləsində, mövzunun müzakirə edilməsində mühüm rolu vardır. İnnovativ metodlardan düzgün istifadə olunduqda şagirdlər birbaşa idrak metodlarına yiyələnir, müxtəlif bilikləri müstəqil əldə edirlər. İnnovativ metodların tətbiqi ilə aşağıdakı qabiliyyətlərə malik şəxsiyyətin formalaşmasına imkan yaradır:

- ✓ bilikləri müstəqil əldə etməklə yanaşı, onları yaradıcılıqla işləmək;
- ✓ məntiqi düşüncə;
- ✓ öz yoldaşları ilə problemlərin həllində əməkdaşlıq etmək;
- ✓ öz qabiliyyətlərini gerçəkləşdirmək üçün yollar axtarmaq.

Bunun nəticəsində şagirdlərin özünə inamı artır, şəxsiyyətlərarası münasibətlər yaxşılaşır, məktəbə və oxumağa meyl, həvəs çoxalır. İnnovasiyaların tətbiqi ilə şagirdlər həm dərsdə, həm də sosial xarakterli problemlərin həllinə müstəqil cəlb olunurlar. Həmçinin onlar müxtəlif mənbələrdən istifadə edərək bilik ehtiyatını artırırlar.

Müasir dərsin əsas tələbi şagirdləri düşünməyə sövq etdirməlidir. Dünyada baş vermiş dəyişiklikləri olduğu kimi qəbul etməli deyil, onlara tənqidi yanaşmalı, tarixi proseslərdən nəticə çıxarmağı bacarmalıdırlar. Hətta nəinki şagirdlər, müəllimlərdə təlimdə düşünməlidir. Elmin inkişafı müəllimdən yeni metod və texnologiyalardan istifadəni dövrə uyğunlaşdırmağı tələb edir. Yeniliyin tətbiqi təlim prosesinə yeni nəfəs gətirir, onu müasirləşdirir.

Təlim metodu müəllim və şagirdlərin praktiki fəaliyyətini təşkil edən sistemdir. Təlim prosesində öyrədən, təlim edən hər bir şəxs əksəriyyət tərəfindən qəbul olunmuş metodların mahiyyətini bilməli, konkret hal üçün müvafiq metodu seçməyi və ondan istifadə etməyi bacarmalıdır.

Təhsil standartları şagirdyönümlü olduğundan innovativ metodlardan istifadə olunması məqsədəuyğun hesab edilir. İnnovativ təlimin əsas vəzifələrindən biri şagirdlərin yalnız parta arxasında oturaraq kitab oxuması deyil, internet resurslarında, kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərmələridir. Ümumiyyətlə, innovativ təlim pedaqoji prosesə

yeni yanaşmadır. Bu təlim metodu ilə müəllim şagirdlərə yalnız informasiya verməyi deyil, onların təfəkkürünün inkişaf etdirilməsinə, müxtəlif bacarıq və vərdişlərə yiyələnməsinə nəzarət edir. Nəticədə, şagirdlər sərbəst sual verməyi, problemləri müstəqil araşdırmağı, tədqiqat aparmağı və müzakirə etməyi öyrənirlər. şagirdlər müxtəlif problemlərin həllinə cəlb olunur, geniş informasiya mənbələrindən istifadə edir və qazandıqları bilikləri sistemləşdirirlər.

Azərbaycan tarixi fənni şagirdlərə 5-ci sinifdən tədris olunmağa başlayır. Fənnin məqsədi şagirdlərin öz tarixi, keçmişi, gələcəyi, milli-mənəvi dəyərləri, mədəniyyəti haqqında məlumatlandırmaqdır. Buna görə də ümumtəhsil məktəblərində fənnin qarşısında bir sıra vəzifələr qoyulur:

- ✓ şagirdlərə uzaq keçmişdən bugünə qədər olar tarixi hadisələri öyrətmək;
- ✓ fakt və tarixi hadisələri müstəqil mənimsəmək üsullarının öyrədilməsi;
- ✓ dövrün zaman baxımından baş vermiş hadisələrinin dəyərləndirilməsi;
- ✓ şagirdlərdə ölkəmizin tarixinin öyrənilməsi ilə vətənpərvərlik, vətənə sevgi, vətəni qorumaq hisslərinin aşılanması.

Bu vəzifələrin yerinə yetirilməsi üçün innovativ metodlardan istifadə edilməlidir. Azərbaycan tarixi fənninin tədrisində dərsin səmərəli təşkili üçün müxtəlif metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Təhsilimizdə müxtəlif metodlar mövcuddur. Onlardan bir neçəsini qeyd edək: beyin həmləsi metodu; rollu oyunlar; təqdimat qrupu üzrə iş üsulları; müzakirə; təşkilati üsullar və s.

Müəllim innovativ metodlardan istifadə edərkən şagirdlərin psixoloji və yaş xüsusiyyətlərinidə nəzərə alır. Yaş xüsusiyyətlərinin xüsusilə nəzərə alınması ilə nəinki metodların seçilməsi, hətta dərsliklərində dizaynı ona uyğun hazırlanmışdır. Metodların tətbiqi şagirdlərin aşağı və yuxarı siniflərdə tədris almaqlarına görə dəyişir. Çünki aşağı siniflərə birbaşa çətin metodla tapşırıq vermək olmaz. Bu onları həm yorar, həm də materialı başa düşməkdə çətinlik yaradar. Məsələn, Azərbaycan tarixi dərslərində ən çox istifadə olunan metodlardan biri Venn diaqramıdır. Bu metodla şagirdlər hələ ibtidai sinifdən tanış olurlar. Venn diaqramı şagirdlərdə müqayisə etmək bacarıqlarını, məntiqi və tənqidi təfəkkürlərinin inkişafına səbəb olan bir üsuldur. Azərbaycan tarixi dərslərində Venn diaqramından istifadə etməklə onlar bir sıra bilik, bacarıq və vərdişlərə yiyələnir. Bununla bərabər, şagirdlər tarixi fakt və hadisələri həm məkan, həm də zaman baxımından əlaqələndirir, onların oxşar hadisələrini kəsişmiş dairənin içində, fərqli cəhətlərini isə müqayisə olunan hadisələrin hər birinin dairəsində ayrı-ayrılıqda yazırlar (2, s.95). Tarix dərslərində geniş istifadə olunan metodlardan biridə rollu oyundur. Bu üsulu daha çox tarixi şəxsiyyətlərlə bağlı olan mövzuda istifadə edə bilərik. Rollu oyunlar şagirdlərdə ünsiyyəti və əməkdaşlığı formalaşdırır. Təlim prosesində rollu oyunlar vasitəsi ilə şagirdlər məlumatları qavrayır və yadda saxlayırlar. Ümumiyyətlə, biz innovativ metodlardan yalnız 2-nin adını qeyd etdik. Fəal təlimin müxtəlif metod və onun üsulları var. Bu üsulların tətbiqi müəllimdən də yüksək bacarıq və peşəkarlıq tələb edir. İnnovativ metodlardan istifadə edərkən müəllimin əsas vəzifəsi şagirdlərin özlərinə məxsus müxtəlif keyfiyyətlərini inkişaf etdirməkdir. Bunun əsas səbəb isə innovativ metodlar nəticəsində müəllim dərsi yenidən qurur, öyrənməyi müxtəlif səviyyədə olan şagirdləri eyni qrupda birləşdirib məlumatları birgə qavramalarına şərait yaradır. İnnovativ metodlarla tətbiq olunan dərslər şagirdlər üçün daha cəlbedici və yaddaqalan olur.

**Ədəbiyyat**


1. Kərimov Y.Ş. Təlim metodları. Dərs vəsaiti. Bakı: RS poliqraf MMC, 2007, 271 s.
2. Veysova Z.A. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, BMT-nin uşaq fondu (UNİCEF), 2007, 149 s.
3. Azərbaycan tarixi. 10-cu sinif. Metodik vəsait. Bakı:Şərq-Qərb ASC, 2017, 192 s.
4. Истрофилова О.И. Инновационные процессы в образовании: Учебно методическое пособие. Нижневартовск: Изд-во Нижне-Варт. гос. ун-та, 2014. 133 с

**ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ İNNOVATİV TƏLİM METODLARININ TƏTBİQİ İLƏ KEÇİRİLƏN AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNİN MAHİYYƏTİ**

**Hacızadə Bahar Məmməd qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*baharhacizade25@gmail.com*

***Açar sözlər:*** *innovasiya, İKT, mühazirə dərsləri, müəllim, tələbə, təlim*
***Ключевые слова:*** *инноваöии, ИКТ, лекöии, учитель, студент, обучение*
***Key words:*** *innovation, İCT, lecture classes, instructor, student, training*

**Xülasə**

Tezisdə innovasiya termininin mahiyyəti açıqlanmışdır. Eyni zamanda təhsilə inteqrə etməsi və təlim prosesini daha da səmərəli hala gətirməsi tezisdə öz əksini tapmışdır. Ali pedaqoji məktəblərdə Azərbaycan tarixinin tədrisində interaktiv metodların tədbiqi ilə dərsin daha praktik və keyfiyyətli həyata keçirilməsi əsas götürülərək,başqa sahələrdə olduğu kimi təhsil sahəsində innovasiyanın hansı dərəcədə inkişaf etdiyi prosesi açıq-aydın izah olunmuşdur.

**Резюме**

В диссертации раскрывается сущность термина инновация, в то же время в диссертации находит отражение интеграция в образование и повышение эффективности учебного процесса. Принимая во внимание более практическое и качественное проведение урока с применением интерактивных методов в преподавании истории Азербайджана в педагогических вузах, процесс инновационного развития в сфере образования, как и в других областях, был наглядно объяснен.

**Summary**

The essence of the term innovation is explained in the thesis. At the same time, its integration into education and making the learning process more effective is reflected in the thesis. .Taking into account the more practical and quality implementation of the lesson with the application of interactive methods in the teaching of the history of Azerbaijan in higher pedagogical schools, the process of innovation development in the field of education, as in other areas, was clearly explained.

Məlumdur ki, ənənəvi təhsil modelinə (assosiativ-reproduktiv model) görə təhsilalanlarda müasir standartlara uyğun keyfiyyətlərin formalaşdırılması mümkün deyil. Araşdırmalar göstərir ki, bu gün təhsil sistemində bilikyönümlülükdən fəaliyyətyönümlülüyə keçid mühüm əhəmiyyət kəsb edir. Ənənəvi təhsil sistemi cəmiyyətdə gedən proseslərdən mahiyyətcə geri qalır, müasir dövrün tələblərinə cavab vermir. Ənənəvilik eyni zamanda səriştəli mütəxəssislərin formalaşdırılması, işçilərin ixtisasartırma səviyyəsinə qoyulan tələbləri də ödəmir. Bu da nəticə etibarilə hazırlanan mütəxəssislərin rəqabət qabilliyinə, peşə səriştəliliyinin inkişafına ciddi təsir göstərə bilmir. Məhz buna görə hazırkı dövrdə təhsil müəssisələrinin fəaliyyət mexanizminin yeni tələblər əsasında qurulması üçün cəmiyyətin artan tələbatının nəzərə alınması, təhsildə innovasiyaların davamlı olaraq tətbiqi, şəxsiyyətyönümlülüyə xüsusi əhəmiyyət verilməsi, təhsilalanlarda və təhsilverənlərdə təfəkkür mədəniyyətinin formalaşdırılması vacibdir. Araşdırmalardan aydın olur ki, təhsildə innovativ fəaliyyət məzmun problemləri ilə yanaşı, digər məsələlərlə, o cümlədən də idarəetmə məsələləri ilə də sıx bağlıdır. Bu gün təhsilin idarə olunmasında tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının elmi əsaslarla təkmilləşdirilməsi, təhsili idarəetmədə maraqlı tərəflərin iştirakında milli və bəşəri dəyərlərin, sistemli yanaşmanın nəzərə alınması vacibdir. Eyni zamanda təhsil sahəsində moni-

torinq, keyfiyyət və fəaliyyət göstəriciləri sisteminin davamlı, ardıcıl olaraq inkişaf etdirilməsi də zəruridir. Bu, ilk növbədə təhsilin keyfiyyətinin artırılması baxımından əhəmiyyətlidir.

İnnovasiya (ingiliscə "innovation" – sözündən götürülüb, mənası "yenilik" deməkdir) dedikdə, geniş mənada təlim, təhsil-tərbiyə prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür. İnnovasiya, yəni yenilik pedaqoji sistemin daxili ehtiyatları hesabına (in – daxili deməkdir) baş verir. İnnovasiya keyfiyyətcə təkmilləşmiş pedaqoji sistemdə vəhdət halında götürülmüş ideyalar, proseslər, vasitələr və nəticələrdir. Pedaqoji sistemin yenilənməsi çox vacib və aktual bir işdir, o, səriştəli təhlil, yaradıcı müəllim tələb edir. Əslində bəşər tarixində innovasiyalar həmişə olmuş, bəşəriyyətin inkişafı məhz innovasiyalar hesabına mümkün olmuşdur. Son illərdə innovasiyalar haqqında daha çox söhbətlər gedir. Bu İKT-nin sürətli inkişafı və onun müxtəlif sahələrdə tətbiqləri hesabına çoxsaylı yeni innovasiyaların yaradılması, onların qlobal bazara çıxış imkanlarının artması, tətbiqlərinin operativliyi, rəqabətədavamlılığın və iqtisadi səmərənin yüksəlməsi ilə əlaqədardır. Müstəqil, yaradıcı gənclər tərbiyə etmək məktəb qarşısında duran mühüm vəzifələrdəndir. Danılmaz faktdır ki, qabiliyyətli, istedadlı şəxslər cəmiyyətin aparıcı qüvvələridir. İstedad, demək olar ki, hər bir şagirddə var. Ancaq bu istedadın üzə çıxarılması, inkişaf etdirilməsi məktəbin, müəllimin üzərinə düşür. İstedad, ilk növbədə fəaliyyət prosesində təşəkkül tapır. Təlim prosesi nə qədər məqsədəuyğun qurulsa, şagirdin istedadı da bir o qədər tez üzə çıxar və inkişaf edər. Deməli, hər bir şagirdin sirli, qəribə dünyasına ilkin olaraq müəllim daxil olur. Müəllim şagirdin qabiliyyətini düzgün müəyyənləşdirməkdə, ona fərdi yanaşmaqda, inkişafına düzgün istiqamət verməkdə yardım göstərir. Bəşəriyyətin özünüdərkində tarixin rolu əvəzolunmazdır, tarix daşıdığı məna yükü çox zaman müəyyən maddi və mənəvi dəyərləri əldə etməyə imkan verən vasitə kimi çıxış edir. Müasir dövrdə Azərbaycan tarixinin tədrisindən gözlənilən nəticələr tələbənin inkişafına təkanverici təsir göstərmək, onu dəyişən dünyanın nəbzini tuta bilən şəxsə çevirmək, öz soy-kökünə, öz daxili məninə sadiq şəxsiyyət yetirməkdən ibarətdir. Dünyada gedən qloballaşma həyatın bir çox sahələrinə öz təsirini göstərir. Təhsildə aparılan islahat məhz həmin zərurətdən yaranmışdır. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etmək başlıca vəzifə kimi qarşıda durur. İndi təlim-tərbiyə prosesində şəxsiyyət anlamı daha demokratik şəkildə dərk edilir. Tələbənin subyekt olması müasir dövrün çox səslənən və bəzən mübahisələrə səbib olan məsələlərindəndir. Dərs vəsaitində müxtəlif tədqiqatçı-alimlərin, tarixçilərin fikirləri müqayisə edilərək, tarixə, Azərbaycan tarixinə tədris səviyyəsində elm, ictimai inkisaf prosesi, ibrət dərsi, əxlaq va tərbiyə məktəbi va s. prizmalardan yanaşılmışdır. Tarix təliminin amilləri arasında qanunauyğun əlaqə va aslılıq vardır. Bütöv təlim prosesində bu ünsürlər qarşılıqlı vəhdətdə özünü göstərir. Hər bir əvvəlki amil özündən sonrakıları şərtləndirir, hər bir sonrakı amil özündən əvvəlkilərə istinad edir . Təlimin məqsədi onun məzmununu şərtləndirir. Onlar bir yerdə vasitə, metod va formaları müəyyən edir. Təlimin gedişinə nəzarət məqsədin yerinə yetirilməsinə, fəaliyyəti tənzimləməyə xidmət göstərir. Təlim prosesinin bütün ünsürlə birlikdə nəticəni təmin edir. Nəticədə fəal təlimdən istifadə etməklə dərslərin yeni təlimə uyğun qurulması müəllim və tələbə fəaliyyətinin səmərəsini artırır. Tələbələrdə müstəqil düşünmə bacanğı, başqalarının fikrinə hörmətlə yanaşma, məntiqi təfəkkürün inkişafı, çeviklik, hadisələri təhlil etmə, müqayisə aparma, nəticə çıxartmaq, keçmiş mövzu ilə yeni mövzunun əlaqələndirilməsi, tarixi ardıcıllıq faktlarını izləmək, dövrlər üzrə müqayisə, tədqiqat aparmaq, mövzunun yeri və rolunun nədən ibarət olunduğunu mənimsəmək kimi bacarıqları formalaşdırır. Tarixin tədrisi tələbələrdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problema fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasına xidmət edir. Tarixin tədrisi, həmçinin tələbələrə cəmiyyətin inkişafı, xalqların tarixi haqqında informasiya verməkdən daha çox onları hə-

min informasiyalardan baş açmaq, zehni va əməli fəaliyyətlərini məntiqi elmi əsaslarla təşkil etmək, cəmiyyətdə öz yerini tutmaq bacarıqlarını aşılamağa xidmət edir.

**Ədəbiyyat**

1. Kərimov Y.Ş. Təlim prosesində yeni texnologiyalar, Bakı, 2011
2. Əmirov M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlim metodikası. Bakı, 2011
3. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası, Bakı, 2007
4. Nəzərov A. Müasir təlim texnologiyaları, Bakı, 2012
5. Mehrabov A. Pedaqoji texnologiyalar, Bakı, 2006
6. Veysova Z. Ali məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu, təlimçilər üçün metodik vəsait, Bakı, 2004

## ÜMUMİ TARİX KURSUNUN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM ÜSULLARINDA TARİXİ MƏNBƏLƏR ÜZƏRİNDƏ İŞİN TƏŞKİL EDİLMƏSİNİN MAHİYYƏTI VƏ ƏHƏMİYYƏTİ

**Seyidov Şahin Fəxrəddin oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sahinseyidov1998@gmail.com*

**Xülasə**

Tezisdə ümumitəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrlə işin təşkil edilməsinin əhəmiyyəti qeyd olunmuşdur. Eyni zamanda tarixi mənbələrlə işin təşkil olunmasının vacibliyinə toxunulmuş, tarixi mənbələrlə interaktiv təliminin keçirilməsinə imkan yaradan müxtəlif metodiki iş üsulları qeyd olunmuşdur.

**Резюме**

В диссертации подчеркивается важность организации работы с историческими источниками на уроках истории общеобразовательной школы. При этом была затронута важность организации работы с историческими источниками, а также различные методические методы работы, позволяющие проводить интерактивное обучение с историческими источниками.

**Summary**

The thesis emphasizes the importance of organizing work with historical sources in history lessons of secondary schools. At the same time, the importance of organizing work with historical sources was touched upon, as well as various methodological work methods that allow to conduct interactive training with historical sources.

Azərbaycan Respublikası müstəqillik qazanmasından bu günədək olan dövrdə bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də islahatlar keçirilir. Keçirilən islahatlarla bağlı olaraq ümumtəhsil məktəblərində tarix fənninin tədrisinin məzmununda dəyişikliklər baş verir. 1999-cu ildə ölkə Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasında Təhsil haqqında İslahat Proqramı" təsdiq edilmişdir. Bu islahatın mühüm istiqamətlərindən biri də təhsilin məzmununun təkminləşdirilməsindən və yeniləşdirilməsindən, dünya təhsil sistemi səviyyəsinə çatdırılmasından ibarətdir.

Digər fənn kurikulumları kimi, ümumtəhsil məktəblərinin tarix dərslərində tətbiq olunan yeni üsul və vasitələr müasir təhsil konsepsiyasına əsaslanır. Bu yanaşmaya görə, şagird məktəbdə tədris olunan tarix fənni vasitəsilə müxtəlif tarixi mövzular və sahələr üzrə seçilmiş mənbənin məzmununu öyrənməli və tətbiq etməyi bacarmalıdır. Bu o deməkdir ki, şagirdlər tarixə aid mənbə ilə tanış olur, onun məzmununu öyrənir və tarix təliminin fasilitasiya qaydalarına uyğun şəkildə tədris olunmasında yaxından iştirak edirlər.

Ümumtəhsil məktəblərinin tarix dərslərində tarixi mənbələrdən istifadənin imkan və yollarının tətbiq edilib mənimsənilməsində inteqrativ kurikulum metodlarından istifadə edilə bilər. Fəal-interaktiv təlim metodlarının xarakterik xüsusiyyətləri passiv təlim üsullarından fərqli olaraq daha mükəmməldir, müəllim və şagirdlər bir-biriləri ilə qarşılıqlı əlaqədə birgə fəaliyyət göstərirlər. Burada şagird passiv dinləyici deyil, dərsin fəal iştirakçısıdır, müəllim – şagird bərabər hüquqlu tərəfdaşdırlar. Tarixi hadisə və təzahürlər haqqında bilik müxtəlif informasiya mənbələrindən alınır. İnformasiyanın alınması nəinki məcburidir, həm də öz xarakterinə görə təhsil-idrak prosesinin başlanğıcıdır. Tarixi bilik mənbələri çox müxtəlif və rəngarəngdir. Mənbələrin tədqiq edilməsi, onların müqayisə edilməsi əsasında konkret faktlar müəyyən edilir ki, bunlarda məkanda cəmləşdirilir və bunlara tarix qoyulur. Ümumi tarix fənninin tədrisində bilik mənbələrinə: kitablar, şəkillər, kinofilmlər, tarixi sənədlər əşyalar və b. mənbələr aiddir.

İnteraktiv tarix dərslərində müəllimin rolu şagirdlərin fəaliyyətini dərsin məqsədlərinin həyata keçirilməsinə istiqamətləndirməkdən ibarətdir. Burada müəllim fasiltator, şagird tədqiqatçı rolunda olur. Fəal-interaktiv təlim prosesində problem-situasiyanın yaradılmasından sonra tədqiqata cəlb olunmuş şagirdlər mənbələri tənqidi cəhətdən qiymətləndirir, nəticələr çıxarmağı və onları əsaslandırmağı, müqayisələr aparmağı, mövqeyini müdafiə etməyi bacarır. Dərketmə prosesində müəllim şagirdlərin idrak fəaliyyətini öyrədiləcək obyektə yönəldərək, tarix materialınn problematik izahı üçün şagirdləri diqqətli, qavrayan, mənimsəyən, dərkedən istiqamətə yönəltməli, onların düşüncələrində təsvir, tarixi təzahürlərin obrazlarını yaratmalıdır. Eyni zamanda şagirdlərin tarix elmində müəyyən olunmuş faktları sərbəst axtarışları da mümkündür. Buna görə şagirdlər tarixi biliklərin müxtəlif mənbələrini və onlarla işləmək metodlarını bilməlidirlər. Şagirdlər müəllimin istiqaməti və göstərişi əsasında tarixi faktların mahiyyətini: tarixi hadisələrin inkişafı qanunauyğunluqlarını, onun genezisini, səbəb və nəticə əlaqələrini şüurlu surətdə dərk etməlidirlər. Müəllim təlim prosesinə istiqamət verməklə və təlimi tədqiqat xarakterli etməklə, şagirdlərin dərketmə fəaliyyətini tarixi bilik mənbələri ilə təchiz etmək, mənbələrdən materialı öyrənmək üçün psixoloji əhval-ruhiyyəni yaratmaqla, məktəblilərdə mənimsəmə fəallığını aktivləşdirir, möhkəm diqqətin təşkilini təmin edir. Fasilitator materialın məktəblilər tərəfindən mənimsənilməsinə, tarixi biliyin verilməsi prosesində düşündürməyə, dərsin möhkəmləndirilməsi, həmçinin ev tapşırığının yerinə yetirilməsinə, öyrənmə fəaliyyətinin yoxlanmasına bilavasitə rəhbərlik edir.

Mənbələrin öyrənilməsi üzrə dərs müxtəlif bilik mənbələri ilə (müəllimin şifahi hekayəti, yazılı mətni, illüstrasiyalar, xəritələr, videomateriallar və s.) işi təşkil etməyə, şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumiləşdirilməsini və öz mövqeyini əsaslandırmasını öyrənməyə imkan verir. Belə dərslər şagirdlərin tədqiqat fəaliyyətini stimullaşdırır. Şagirdlərin müstəqil təhlil işini müxtəlif dərs formalarının köməyi ilə təşkil etmək olar. Fəal təlimin müxtəlif işüsullarından istifadə edərək tarix dərslərində mənbələrlə iş həyata keçirilə bilər. Belə iş üsullarından biri də diskussiyalardır. Diskussiya (müzakirə); Sülh mədəniyyəti və münaqişələrin həlli üzrə maddi və yazılı mənbələrin təhlilinin ən mühüm metodik üsullarından biridir. Bir mənbə üzərində də, yaxud bir neçə ayrı-ayrı qaynaqlardakı mənbələrin müqayisəsi üzrə də diskussiya təhlili aparmaq olar. Diskussiya müstəqil metodiki üsul kimi, eləcə də fəaliyyətin digər növlərinə əlavə kimi tətbiq edilə bilər. Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə öz fikirlərini söyləməklə, öz baxışlarını əsaslandırmağı və faktları təhlil etməyi öyrənirlər.

Ümumi tarix kursunun tarix dərslərində mənbələr üzərində işin təşkil olunması şagirdlərin mənbələrin mənimsənilməsi bacarıqlarının formalaşdırılmasına, müqayisə etmək, nəticə çıxarmaq bacarıqlarının, tənqiqdi, yaradıcı və məntiqi təfəkürünün formalaşmasında xüsusi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**

1. Mübariz Əmirov. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti), Bakı – 2011

2. Təranə İsayeva. Ümumitəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində mətn üzərində işin təşkili. Bakı-2021. ADPU-nun nəşriyyatı,160 səh.
3. Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.
4. Hüseynova G. Kurikulum, Pedaqogika. Bakı, 2019, 276 s.

## ALİ MƏKTƏBLƏRDƏ TARİX KURSUNUN ÖYRƏDİLMƏSİNDƏ SƏHNƏLƏŞDİRİLMİŞ DİALOQ VƏ EPİZODLARDAN İSTİFADƏNİN YOLLARI

**Rəhimova Aytac Ramiz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aytacreh1997@gmail.com*

***Açar sözlər:*** *dialoq, epizod, müəllim, tələbə, təlim*
***Ключевые слова:*** *диалог, эпизод, учитель, студент, обучение*
***Key words:*** *episode, dialog, instructor, student, training*

**Xülasə**

Tezisdə ali məktəblərdə tarixi kursunda dialoq və epizodlardan istifadə üsullarından bəhs edilmişdir. Üsulların dərsdə tətbiq olunmasının tələbələrin məntiqi, yaradıcı təfəkkürünün, tələbələrin nitq qabiliyyətinin formalaşmasına təsiri qeyd edilmişdir. Bütünlükdə üsulların tətbiqinin əhəmiyyəti əks olunmuşdur.

**Резюме**

В тезисе рассматривается использование диалога и эпизодов на курсах истории в вузах На занятии подчеркивается влияние применения приемов на формирование логического, образного мышления, значимой речевой способности В öелом отражена важность применения приемов.

**Summary**

The thesis discusses the use of dialogue and episodes in history courses at universities The lesson emphasizes the influence of the use of techniques on the formation of logical, figurative thinking, significant speech ability In general, the importance of using techniques is reflected.

Tarix kursunun öyrədilməsində dialoq və epizodlardan istifadənin bir neçə üsulları vardır və ali məktəblərdə müəllimlər bu üsul dərsdə tərbiq edərək dərsdə tələbələrin fəallığını təmin edə və tələbələrin bilik, bacarıq və vərdişlərini önə çıxarda bilər. Dialoq təlimi tələbələrin təfəkkürünü stimullaşdırmaq və genişləndirmək üçün danışıq gücündən istifadə edir və onların öyrənmə və anlayışlarını inkişaf etdirin. Dialoq təlimində tələbənin danışığına olduğu kimi, müəllimin danışığına da çox diqqət yetirilir. Dialoq təlimi dil, öyrənmə, təfəkkür və anlama arasındakı əlaqəyə dair araşdırmalara və yaxşı öyrənmə və öyrətməyə nəyin kömək etdiyinə dair müşahidə sübutlarına əsaslanır.

Dialoq və epizodların səhnələşdirmə, rollu oyunlar, modelləşdirmə, akvarium kimi üsulları vardır. Bu üsulları ali məktəblərdə müəllim mövzulara uuğun olaraq tərbiq etməlidir. Üsullar düzgün seçilməlidir. Çünki bəzən müəllimlər uyğun olmuyan metod və üsulları tətbiq edirlər bu da nəticədə həm vaxt itkisinə, səbəb olur, həm də nəticə əldə olunmur.

Müəllim tarix dərslərində üsulları tətbiq edə biləcəyi mövzunu seçməlidir. Məsələn Səlcuqlar bəhsində keçən Malazqird döyüşü, elçilərin görüşməsi, Romen Diogenin əsir düşməsi hadisələrinin baş verdiyi mövzuları seçir. Sonra tətbiq ediləcək üsul və metodlar təyin edilir. Rollu oyunlar, səhnələşdirmə, modelləşdirmə, akvarium üsullarından istifadə dərsi daha canlı və maraqlı edəcəkdir.

Rollu oyunlar tələbələrə problemə öz baxış tərzləri ilə cavab verməyə, bacarıqlarını formalaşdırmağa imkan verir. Rollu oyunlardan istifadə tələbələrdə aşağıdakı bacarıqları formalaşdırır.

1. Məntiqi, tənqidi və yaradıcı təfəkkürü
2. Tolerantlığı

3. Qarşılıqlı əməkdaşlığı
4. Rola girmək bacarığını

Burada müəllim kağızlara tarixi şəxsiyyətlərin adlarını qeyd edir və rollu oyunlarda iştirak edəcək tələbələr həmin kağızlardan birini seçir. Kağızda çıxan şəxsi rollu oyunda canlandıracaqdır. Müəllim çalışmalıdır ki, bu üsulda elə tələbələr iştirak etsin ki, onlar dərsdə passiv olan tələbələr olsun. Həmin tələbələrin bacarıqları rollu oyunlar, səhnələşdirmə üsulu tətbiq edildiyi zaman aşkara çıxır. Epizodların canlandırılması mövzuların uzun müddət tələbələrin yaddaşında qalmasına səbəb olacaqdır. Səhnələşdirmə prosesində hər hansı həyat vəziyyəti və bu vəziyyətdə baş verən hadisələr və insanların davranışı oynanılır. Bu zaman şagird bütün təcrübəsini, bilik və bacarıqlarını səfərbər edib, basqa şəxsin surətini və hərəkətlərini anlamalı, vəziyyəti qiymətləndirməli və düzgün davranış yolunu tapmalıdır. Rollu oyundan fərqli olaraq səhnələşdirmə hazır ssenari əsasında keçirilir. Səhnəcik sonu məlum olan real vəziyyət və hadisələrin modeli kimi çıxış edirtbiq edildiyi zaman aşkar olunur.

Dialoq və epizodlardan dərsdə istifadə edə biləcəyimiz bir üsul da modelləşdirmədir. Modelləşdirmə - ciddi problemi qoyan hər hansı bir mücərrəd və ya uydurma hadisənin canlandırılması və bunun vasitəsilə problemin həllidir. Bu hadisə çox zaman real həyatda baş verən hadisənin sadələşdirilmiş, lakin canlı nümunəsi olur. Problemi həll etmək üçün iştirakçılar həyatda və bu hadisədə rast gəldikləri müəyyən rolları ifa edirlər. Lakin rolların ifası tam sərbəstdir və onun nəticəsində alınan problemin həllini heç kəs əvvəlcədən proqnozlaşdıra bilmir. Nəticələr rolun ifasından asılıdır. Modelləşdirmə zamanı şagirdlərə bu rolun ifasında öz nöqteyi-nəzərindən çıxış etməyə icazə verilir.

Digər üsul akvarium üsuludur. Bu üsulunun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir.Tələbələrin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Tələbələr iki qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir. Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, "xarici dairənin" iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

**Ədəbiyyat**

1. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı, 2014, 678 s.
2. Veysova Z. Fəal interaktiv təlim.Bakı, 2007, s.156.
3. İnternet resurs.https://www.jct.ie/perch/resources/english/dialogic-handout-1.pdf
4. М.А.Курьянов, В.С.Половöев. Активные методы обучения. «ТГТУ», 2011. – 80 с.

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TARİXİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ MÜQAYİSƏLİ TƏHLİL APARMAQ BACARIĞININ FORMALAŞDIRILMASININ ROLU VƏ ƏHƏMİYYƏTİ

**Cəfərli Günel Madər qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunel.ceferli.99@mail.ru*

Yaşadığımız dövrdə bütün qabaqcıl ölkələr öz milli inkişafının təminatını bilavasitə təhsillə bağlayırlar. XX əsrin əvvələrində öz müstəqilliyini qazanmış respublikamızda da bu məsələyə xüsusi önəm verilir. Təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılması daim diqqətdə saxlanılmış və bu məqsədlə təhsil işçilərinin də qarşısında konkret vəzifələr qoyulmuşdur. Həmin vəzifələrin də yerinə yetiriliməsində təlim materiallarının məqsədəuyğun seçilməsi ilə yanaşı, təlim üsullarının da düzgün seçilməsi vacibdir. Təlim üsulu düzgün seçilib, ondan

səmərəli istifadə olunmazsa materialı şüurlu və dərindən mənimsənilməsindən danışmaq olmaz. Təlimdə də özünü doğruldan belə üsullardan biri də müqayisə və təhlildir.

Adını çəkdiyimiz metodlar əsasında təhsilalanlar müstəqil düşünməyə, mühakimə yürütməyə, hadisələr arasındakı mühüm əlaqə və münasibətləri dərk etməyə öyrədir, tələbələrin şəxsiyyət kimi formalaşmasına əlverişli şərait yaradır, onlarda təlimə marağı artırır.

Tədqiqatlarda özünü göstərir ki, tarixin tədrisində müqayisəli təhlil üsulundan istifadə zamanı aşağıdakı nəticələr alınır.

1. Tarix dərsinin elmi səviyyəsi yüksəlir, tələbələr tarixi hadisələri, faktları daha dərindən mənimsəyirlər.
2. Tarixi qanunuuyğunluqları aydın dərk edir, cəmiyyətdə ilkin insanın yaranmasından müasir dövrədək baş verən hadisələri ardıcıllıqla mənimsəyirlər, düzgün nəticələr çıxara bilirlər.
3. Tarixi hadisələri, şəxsiyyətləri müqayisə edərək, tələbələrdə tarixə maraq artır.
4. Təhsilalanların təfəkkürü, məntiqi düşünmək qabiliyyətləri inkişaf edir.
5. Təlimin keyfiyyəti yüksəlir, səmərəlilik artır.
6. Tələbələr baş verən hadisələrə düzgün münasibət bildirir, tarixi anlayışları sadə və aydın şərh edir, yüksək nitq mədəniyyəti nümayiş etdirir, heç kimin köməyi olmadan mühakimə yürüdə bilirlər.
7. Tələbələr təlim prosesində müqayisə üsuluna yiyələnərək əlavə materiallarından, dərslik və dərs vəsaitlərindən və sorğu əməliyyatlarından müstəqil bilik əldə edib dünyagörüşlərini genişləndirə bilirlər.

Tədqiqat göstərdi ki, müqayisəli təhlil üsulundan istifadə edərkən bir sıra şərtlərə əməl olunmalıdır. Bunlar aşağıdakılardır.

1. Bu üsul müntəzəm təşkil edilməli və nəticələri yoxlanılmalıdır.
2. Proses düzgün qurulmalı və düzgün aparılmalıdır.
3. Bu üsuldan təlim zamanı istifadə edilməsi öyrədilən biliklərin, verilən anlayışların təhsilalanlar tərəfindən mənimsənilməsini idarə etmək və nəticəni qabaqcadan görmək üçün ən münasib şərait yarada bilər.
4. Bu üsul tələbələrin zehni və praktiki fəaliyyətləinin inkişafına xidmət etməlidir.

N.İ.Zaparojes «Развитие умении в навыков учащихся в процессе преподавания истории» adlı kitabında müqayisə üsulu ilə aparılan işin istiqamətləri və onların xarakteristikasını aşağıdakı kimi vermişdir.

| Müqayisənin istiqaməti | Müqayisəli təsvir | Müqayisəli izah | Müqayisəli xarakteristika |
|---|---|---|---|
| 1. Tapşırıq | Oxşar və fərqli cəhətləri müəyyən et; eyni əlamətlərə görə hadisələrin inkişafını müəyyən et; obyektlərin əsas əlamətlərini müəyyən et; | | Kompleks müqayyisə ilə tarixi prosesi qanunauyğunluğunu müəyyən et; məntiqi əməliyyatlardan istifadə et (analiz, sintez, abstraksiya, ümumiləşdirmə) |
| 2. Fəaliyyət | | Müqayisə olunan obyektləri hərtərəfli öyrən. Əldə olunan informasiyanın köməyi ilə səbəblər, dəyişikliklər, fəərqlər barədə nəticə çıxart. Yadda saxla ki "nə üçün" sualına cavab verməlisən. | Müqayisə və əlamətlər xəttinin daha geniş spektorunu müəyyən et, müqayisə olunan obyektlərin fərqli və oxşar səbəblərini müəyyən et, təsnifləndir; Təhlili və tutuşdurmanı məntiqi ardıcıllıqla həyata keçir. Sxemə əsasən oxşar və fərqli cəhətlərini göstər; nəticə çıxart. |
| 3. Tətbiq | Mövzu ilə tanışlıq mərhələsi | Təkrar-ümumiləşdirici dərslər; müqayisə | Bacarıqların formalaşdırılması, yaxud umumiləşdirmə, |

| | | | |
|---|---|---|---|
| | | suallarına cavab ver. | təkrarın aparılması. |
| 4. Nəticə | Mühüm oxşar əlamətlərə əsasən obyektlər əsasən obyektlər barədə məlumat verilməsi. | Fərqli və oxşar cəhətlərin səbəblərini göstər. | Məntiqi əməliyyat nəticəsində alınmış faktiki biliklər. |
| 5. Müstəqillik dərəcəsi | Müəllimin nümunəsi, alqoritm üzrə fəaliyyət | Müstəqillik dərəcəsinin artması. | Müstəqilliyin yüksək dərəcəsi, alqoritmin olmaması. |

Göstərilənləri üumumiləşdirərək aşağıdaki nəticələrə gəlmək olar:

1. Göstərilən dərketmə prosesi mərhələli xarakter daşıyır və bu proses tarixi hadisələri öyrənərkən onların müqayisəsi ilə başlayır.

2. Müqayisəli idrak üsulundan istifadə bacarığının folmalaşma dərəcəsindən asılı olaraq idrak fəaliyyətinin və müəllimlə tələbələr arasında qarşılıqlı münasibətlərin təşkili istiqamətində müxtəlif formalardan istifadə etmək mümkündür.

3. Tarixi hadisələri və prosesləri müqayisə etmə bacarıqlarına yiyələnmək hər bir tələbə üçün vacibdir. Müqayisə üsulu təhsil alanın idrak fəaliyyətini bütövlükdə fəallaşdırır, onlarda səmərəli təfəkkür üsulları ilə işləmək bacarığı formalaşdırır.

4. Onlarda baş verən dəyişiklikləri, tarix hadisələrin dinamikasını izləmək, onların mənasını və miqyasını qiymətləndirmək bacarığı formalaşır.

Belə bir nəticəyə gəlirik ki, tarix dərsləri tələbəyə faktları və onların qiymətləndirilməsini passiv yadda saxlamağı deyil, tarixi məlumat əsasında müstəqil şəkildə hərəkət etmək, tarixi hadisələr arasında səbəb tapmaq bacarığını öyrətməlidir. Bu da öz növbəsində müqayisəli təhlil metoduna müraciətlə mümkündür. Beləliklə, müxtəlif mənbələrin müqayisəli təhlili idrak və ilkin tədqiqat bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Təhsilverənlərin də vəzifəsi bu metoddan istifadə etmək bacarığını formalaşdırmaqdan ibarətdir.

## PEDAQOJİ TEXNOLOGİYALARIN FUNKSİYALARI, PRİNSİPLƏRİ VƏ STRUKTUR KOMPONENTLƏRİ

**İsayeva Aysel İlqar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayselisayeva716@gmail.com*

Bütövlükdə texnologiya (mənşəcə yunan sözüdür: incəsənət, ustalıq, bacarıq mənalarında işlədilir) istehsal prosesində həyata keçirilən emaletmə, hazırlama, dəyişdirmə və s. üsullarının məcmusudur. Pedaqoji texnologiyalar dedikdə, pedaqoji məqsədlərin həyata keçirilməsinə zəmanət verən əvvəlcədən lahiyələşdirilmiş təlim-tərbiyə prosesinin ardıcıl reallaşdırıldığı sistem başa düşülür. Pedaqoji texnologiya isə pedaqoji elmin (tətbiqi pedaqogika) xüsusi istiqamətlərindən biridir. Pedaqoji texnologiyanın vəzifəsi müəyyən məqsədlərə nail olmanı təmin etmək, təlim-tərbiyə prosesinin səmərəliliyini artırmaq və onun yüksək səviyyəsinə zəmanət verməkdir.

Dar mənada pedaqoji texnologiyalar dedikdə, müəllimin konkret fəaliyyəti və qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsilə əlaqədar olan təlim-tərbiyə prosesinin təşkili yollarının, yaxud müəyyən hərəkətlərin və əməliyyatların məcmusu başa düşülür.

Pedaqoji texnologiyalara verilən təriflərdə bir neçə yanaşma ayırd edilir:

Prosessual – nəticəyə nail olmanı təmin edən pedaqoji prosesin (hərəkətlərin, əməliyyatların və prosedurların) müəyyən ardıcıllıqla sistemli qaydada təşkili yolları.

İnstrumental – təlim və tərbiyə üsulları, priyomları və vasitələrinin məcmusu.

Şəxsi – müəllimin pedaqoji ustalığının komponenti, tərkib hissəsi, pedaqoji hərəkətlərin sistemi kimi təlim-tərbiyə prosesini layihələşdirmək və həyata keçirmək bacarığı, qabiliyyəti - bunların hamısı müəllimdən yüksək səviyyəli pedaqoji ustalıq, bacarıq və qabiliyyət tələb

edir. Pedaqoji ustalığın səviyyəsi isə texnoloji kompetentliyin səviyyəsindən asılıdır və onunla şərtlənir.

Bunların arasında sıx dialektik əlaqə və asılılıq mövcuddur. Yəni müəllimin pedaqoji ustalığının səviyyəsi texnoloji kompetentliyin, səriştəliliyin səviyyəsilə şərtlənir. Belə ki, müəllimin pedaqoji texnologiyaya malik olması onun pedaqoji ustalığını yüksəldir və təkmilləşdirir. Bəzi alimlərin rəyinə görə, hətta orta qailiyyətə malik olan müəllim usta pedaqoq ola bilər.

Təlim metodundan fərqli olaraq texnologiya dəqiq təfsir edilir və alqoritmləşdirilir. Pedaqoji texnologiyaların aşağıdakı səciyyəvi əlamətləri vardır:

1) konseptuallıq;
2) sistemlilik;
3) innovativlik;
4) optimallıq
5) nəticəlilik və s.

Pedaqoji texnologiyaların funksiyaları onların mahiyyəti və səciyyəvi əlamətlərilə şərtlənir və sıx üzvi vəhdətdə, əlaqədə həyata keçirilir.

Müvafiq ədəbiyyatda pedaqoji texnologiyaların aşağıdakı funksiyaları ayırd edilir:

1) humanist və inkişafetdirici funksiya;
2) metodoloji funksiya;
3) layihələşdirmə və təşkil etmə (qurma, yaratma) funksiya.

Humanist və inkişafetdirici funksiya tədris prosesinin təhsil sahəsindəki məqsədlərinin həyata keçirilməsini, reallaşdırılmasını nəzərdə tutur: şagird şəxsiyyətinin inkişafı üçün komfort psixoloji şəraitin yaradılması; onun informasiya-texnologiya cəmiyyətində həyat fəaliyyətinə hazırlanmasıdır.

Metodoloji funksiya təlim modelinin ümumi strateji istiqamətini ifadə edir və müəyyən prosedur və əməliyyatlar sistemi vasitəsilə təlim strategiyasının konkret təcrübəyə tətbiqini nəzərdə tutur.

Layihələşdirmə və təşkil etmə (qurma, yaratma) funksiyası təlim şəraitini, təlimin subyektlərinin pedaqoji fəaliyyətini (fasiləsiz təlim, tərbiyə, təhsil və inkişaf) planlaıdırmağa və arzu edilən, böyük ehtimalla nəzərdə tutulan nəticələrin alınmasına zəmanət verməyə imkan yaradır.

Tədqiq etdiyimiz mövzu baxımından maraq doğuran məsələlərdən biri də pedaqoji texnologiyaların prinsipləri, onların təfsiri və təsnifatıdır.

Müvafiq pedaqoji və psixoloji ədəbiyyatda, bir qayda olaraq, pedaqoji texnologiyaların aşağıdakı prinsiplərini ayırd edirlər:

1) pedaqoji texnologiyaların tamlığı (bütövlüyü) prinsipi;
2) təlimin şəxsiyyətyönümlü təşkili prinsipi;
3) texologiyanın fundamentallaşdırılması və peşəyönümlüyü prinsipi;
4) təlimin texnolojiliyinin informasiya ilə himayə edilməsi prinsipi.

Pedaqoji texnologiyaların tamlığı (bütövlüyü) prinsipi texnoloji sistemin inkişafının qanunauyğunluqlarını nəzərdə tutur.

Təlimin şəxsiyyətyönümlü təşkili prinsipi təlimin bütün pillələrində texnologiyanın şagirdlərin şəxsi xüsusiyyətlərinə, onların tipoloji və fərdi xassələrinə adaptasiyasını (uyğunluğunu, müvafiqliyini) nəzərdə tutur. Bu, təhsilalanların təlim fəaliyyətinə əhəmiyyətli təsir göstərir.

Texologiyanın fundamentallaşdırılması və peşəyönümlüyü prinsipi bu günün və gələcəyin tələblərinə müvafiq olaraq mütəxəssisdə (müəllimdə, tələbədə, şagirddə və s.) peşə bacarıqları və mühüm əhəmiyyət kəsb edən şəxsi peşə keyfiyyətlərinin formalaşdırılmasını və inkişafını təmin edir.

Təlimin texnolojiliyinin informasiya ilə himayə edilməsi prinsipi təhsil prosesində pedaqoji baxımdan özünü doğruldan kompyuter informasiya texniki vasitələrinin (fərdi kompüterlərin, kompyuter ekspert sistemlərin və s. ) tətəbiqini nəzərdə tutur.

Pedaqoji texnologiyanın struktur komponentlərini (tərkib hissələrini) aşağıdakılar təşkil edir:

1) təlimin məqsədləri;
2) təlimin məzmunu;
3) pedaqoji qarşılıqlı təsir vasitələri, həmçinin motivasiya və təlim vasitələti;
4) tədris prosesinin təşkili;
5) təlim prosesinin subyektləri (müəllimlər, pedaqoqlar, şagirdlər, tələbələr və s.);
6) fəaliyyətin nəticələri və həmçinin peşə hazırlığının səviyyəsi.

**Ədəbiyyat**


1. Paşayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2012
2. Cəfərov H.A. Təhsilin məzmununun təkmilləşdirilməsinin valeoloji və didaktogen problemləri. "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri, 25 noyabr 2016-cı il, s. 243-244
3. Nəzərov A. "Müasir təlim texnologiyaları" fənni üzrə proqram. Bakı, 2010.
4. Nəzərov A. Təhsilin müasir problemləri (proqram) Bakı, 2010.
5. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan 2020: «Gələcəyə Baxış» İnkişaf Konsepsiyası. 2012-ci il 29 dekabr.
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (2013).
7. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2012


## DƏRSLİKLƏRİN PLANLAŞDIRILMASI VƏ YAZILMASI


**Həsənova Leyla İmamverdiyevna**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leylahesenova0189@gmail.com*


Azərbaycan Respublikasi Təhsil Nazirliyi tərəfindən aparılan dərslik siyasəti həm məzmun, həm də dizayn baxımından dünya təcrübəsinə əsaslanır. Təhsildə keyfiyyəti təmin etmək məqsədilə hər il dərsliklərlə bağlı aparılan araşdırmalar, həyata keçirilən layihələr ölkəmizdə dərsliklərin keyfiyyətinin artmasına, daha da təkmilləşdirilməsinə hesablanıb. Ölkəmizdə aparılan dərslik siyasətinin məqsədi məktəbliləri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir.

Dərsliklər tərtib olunarkən öncədən planlaşdırma vacib məsələlərdəndir. Dərsliyin bölmələrini yazmazdan əvvəl müəlliflər bir sistem üzərində düşünməli və planlaşdırmalıdırlar: müəlliflər birlikdə necə işləyəcəklər, baş redaktorla necə işləyəcəklər, həmçinin kitabın ümumi xəritəsini birlikdə necə yaradacaqlar? Baş redaktor, adətən, bu prosesdə mühüm şəxsdir, təhsil proqramının (kurikulumun) geniş başa düşülməsi və müvafiq pedaqoji yanaşma əsasında təhsil proqramı və müəlliflər arasında əlaqəni təmin edir və dərsliyin ümumi baxışına nəzarət edir. Dərsliklərin planlaşdırılması təhsil proqramına ümumi yanaşmanı, onun fənlərə və tədris səviyyələrinə yanaşmalarını əks etdirən, fənn proqramlarının məzmununa konseptual baxımdan uyğun gələn, məzmunla həddən artıq yüklənməmiş və yaxşı planlaşdırılmış mövzuların müvafiq ardıcıllığı ilə təşkil edən kitab strukturuna gətirib çıxarmalıdır.

İstənilən halda dərslik müəllifləri üçün bir sıra problemlər qarşıya çıxır, o cümlədən dərsliyi məzmun və tapşırıqlarla həddən artıq yükləmək məsələsi. Müəlliflər fənnə aid mövzuları sadəcə olaraq əsas anlayışlar şəklində dərslik məzmununa köçürməkdən çəkinməlidirlər. Bunun əvəzinə müəlliflər dərslik məzmununu maraqlı mövzular ətrafında təşkil edə bilərlər.

Qeyd etmək lazımdır ki, planlaşdırma mərhələsində nə qədər zəhmətli iş aparılarsa, nəticə bir o qədər yaxşı olar. Baş redaktorla daim əlaqə saxlayaraq, yaxşı planlaşdırılmış struktur əsasında dərsliyin yazılması müəlliflərə müəllim və şagirdlərə fayda verəcək daha yaxşı dərslik yaratmağa kömək edəcək. Dərslik müəllifləri hər dəfə keyfiyyət dedikdə nəyin nəzərdə tutulduğu barədə düşünməlidirlər.

Keyfiyyətin mühüm aspekti dərslikdə təqdim olunan tapşırıqların və ya öyrənmə təcrübəsinin xarakteridir. Keyfiyyət anlayışı nə dərəcədə çevikdir? Dərslik müəllifləri şagirdlərin yüksək keyfiyyətli tapşırıqları hansı iş növlərini nəzərdən keçirəcəklərini nəzərə almalıdırlar. Çox güman ki, bunlar maraqlı olacaq və şagirdə, eyni zamanda öz qabiliyyətlərini göstərməyə imkan verəcək tapşırıqlar olacaq, məsələn, problemli məsələlərə əsaslanan tapşırıqlar və həll yollarının axtarışı (Ana dili, riyaziyyat, həyat bilgisi və s.). Dərsliyin yüksək keyfiyyətli yekun qiymətləndirilməsini belə təmin etmək olar.

Öyrənmə təcrübələri öyrənənlərə müəyyən metodun lehinə seçim etmək imkanı verə bilər. Bu, fərdi iş, cütlər və ya hətta qrupda iş ola bilər. Ona görə də dərslik müəllifləri tapşırıqların yerinə yetirilməsi üsulları (fərdi, qrup şəklində) və müəllimin bu prosesə cəlb olunma dərəcəsi üzərində düşünməlidirlər. Müəlliflər dərslikdə təqdim olunan həm cari, həm də yekun qiymətləndirmə sistemini də nəzərə almalıdırlar.

Dərsliklər müəllimləri və şagirdləri faydalı məlumatlarla da təmin etməlidir. Əksər səriştələrə əsaslanan yanaşmaların əsas cəhəti əldə edilmiş bilik və bacarıqları real həyatda tətbiq etmək bacarığıdır. Müəlliflər, həmçinin dərsliklərdə real həyat nümunələrindən istifadə edə bilərlər. Real həyatla tədqiq olunan mövzunun təmas nöqtələrinin müəyyən edilməsi vəzifəsi ilə yanaşı, sinifdəki şəraitin reallıq modellərini yenidən yaratmağa imkan verib-verməməsi sualı yaranır. Beləliklə, dərslik müəllifləri öyrənmə təcrübəsini "real həyat" ilə üst-üstə salmağa çalışmaqdan əlavə şagirdləri nəyin ən yaxşı motivasiya edəcəyini, onların həm düşüncəsini, həm də marağını stimullaşdıracağını da düşünə bilərlər.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN ARTIRILMASINDA MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN ROLU

**Həsənova Könül Vasif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*hesenovakonul820@gmail.com*

Bildiyimiz kimi son illərdə Azərbaycanda təhsil sahəsində bir çox islahatlar həyata keçirilmişdir. Bütün bu islahatların keçirilməsində əsas məqsəd təhsilin keyfiyyətinin artırılması, təhsil sistemində pedaqoji yeniliklərə geniş yer verilməsi, hərtərəfli inkişaf etmiş şəxsiyyət, gələcək üçün yararlı, şüurlu vətəndaş yetişdirməkdir. Bütün bu problemlərin həllinin reallaşdırılmasında monitorinq və qiymətləndirmə sistemi böyük əhəmiyyət kəsb edir.

Təhsilin keyfiyyətinin artırılmasında ümumtəhsil məktəblərinin keyfiyyətli idarə olunması xüsusi rol oynayır. Bu işdə məktəb rəhbərliyinin də üzərinə yük düşür. Ümumtəhsil məktəblərində rəhbərliyin müəssisəni düzgün idarə etməsi, pedaqoji kollektivin işinə nəzarət, şagirdlərin bilik, bacarıq səviyyəsinin yüksəldilməsi üçün addımların atılması, məktəbin infrastrukturunun, maddi-texniki bazasının təkmilləşdirilməsi üzrə işlər və s. vacib məsələlərdəndir. Monitorinq və qiymətləndirmə ümumtəhsil məktəbləri səviyyəsində təhsilin keyfiyyətini qiymətləndirməyə, alınmış nəticələrin dünyanın inkişaf etmiş ölkələrinin ümumtəhsil məktəblərinin göstəriciləri ilə müqayisə etməyə imkan verir. Monitorinqin ümumtəhsil məktəblərində tətbiqinin əsas məqsədi təhsil prosesində iştirak edən hər bir iştirakçının fəaliyyətini izləmək, müəllimlərin işinin təhlili, şagirdlərin təlim nəticələrini inkişaf etdirmək, ümumilikdə tədris prosesinin vəziyyətini davamlı şəkildə izləmək və qarşıya çıxan problemlərin vaxtında aradan qaldırılmasıdır.

Hazırda təhsil sistemində təlim-tərbiyə prosesinin keyfiyyətinin yaxşılaşdırılması, elmi-pedaqoji işçilərin və rəhbər kadrların yüksək səviyyədə hazırlanması, tədris prosesində pedaqoji texnologiyalardan və yanaşmalardan istifadənin təkmilləşdirilməsi, günün tələblərinə cavab verən təhsil standartlarının, dərsliklərin, dərs vəsaitlərinin, maddi-texniki bazanın, müasir informasiya və kommunikasiya texnologiyasının tətbiqinin yaxşılaşdırılması üçün monitorinq və qiymətləndirmənin aparılmasına ciddi ehtiyac vardır. Qiymətləndirmə təhsilin keyfiyyətinin artırılmasında xüsusi rol oynayır. Qiymətləndirmə mürəkkəb bir prosesdir. Onun düzgün aparılması müəllimdən obyektivlik və səriştəlilik tələb edir. Bu gün ümumtəhsil məktəblərində qiymətləndirmənin həyata keçirilməsində bəzi problemlər mövcuddur:

- Şagirdlərin bilik, bacarıq səviyyəsinin qiymətləndirilməsində obyektivlik və şəffaflığın qorunmaması;
- Təlim prosesində şagirdlərdə formalaşdırılacaq olan keyfiyyətlərinin məzmunun olmaması;
- Müəllimin tədris nailiyyətlərinin qiymətləndirilməsi üçün meyarların olmaması;
- Məktəb rəhbərlərinə nöqsanların aradan qaldırılmasına köməklik göstərməyə yönələn təlim nəticələrinin müntəzəm qiymətləndirilməsi sisteminin olmaması və s.

Təhsilin keyfiyyətinin artırılması üçün ilk növbədə ölkədə ümumtəhsil məktəblərinin idarə olunmasının qiymətləndirilməsi və monitorinqi həyata keçirilməlidir. Ümumtəhsil məktəblərinin fəaliyyətinin müxtəlif sahələrinin qiymətləndirilməsi üçün ilk növbədə həmin məktəb haqqında informasiya toplamaq, ona diaqnoz qoymaq, bundan sonra isə məktəbin fəaliyyətinin təhlilini aparmaq məqsədəuyğundur. Təhsil müəssisəsinin ilkin vəziyyətini araşdırdıqdan sonra burada təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün hazırlanmış meyarlar sistemindən istifadə olunur. Toplanmış məlumatlar əsasında alınmış nəticənin qarşıya qoyulmuş tələblərə uyğunluğu yoxlanılır, əldə olunmuş müsbət və mənfi nəticələr haqqında respublika əhalisinə məlumat verilir. Nəhayət, müəssisədə idarəetmənin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə tədbirlər planı hazırlanır. Beləliklə, ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmənin keçirilməsində əsas məqsəd təhsilin keyfiyyətini və təhsilin necə idarə olunmasını öyrənmək, qarşıya qoyulmuş məqsədlərə uyğun gəlməyən komponentlər haqqında vaxtında lazımi tədbirlər görməkdir.

Ümumtəhsil məktəblərində şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi də əsas məsələlərdən biridir. Qiymətləndirmə təlim prosesinin gedişi və nəticələri haqqında informasiya əldə etməyə, şagirdlərin inkişaf dinamikasını izləməyə imkan verir. Şagird şəxsiyyətinin formalaşmasına təsir göstərir, onlarda tənqidi münasibət tərbiyə edir, hər bir şagirddə məsuliyyət hissini artırır. Qiymətləndirmə zamanı ədalətlilik, bərabərlik, obyektivlik və şəffaflıq prinsipləri gözlənilməlidir. Belə ki, müəllim ilk növbədə şagirdə qiymət vermək xətrinə onu qiymətləndirməməlidir. O, verdiyi qiyməti əsaslandırmalıdır. Müəllim şagirdin bilik və bacarığındakı uğurlu və uğursuz cəhətləri səciyyələndirdikdə şagirddə oxuma həvəsi artır, uğursuz cəhətlərini isə aradan qaldırmağa çalışır. Bundan əlavə qiymət obyektiv və ədalətli olmalıdır. Müəllim şagirdi düzgün qiymətləndirdikdə həm şagird, həm valideyn, həm də məktəb rəhbərliyi düzgün nəticə çıxara və lazımi tədbir görə bilirlər. Qiymətləndirmə zamanı müəllim şagirdin davranışına görə onun qiymətini qaldıra və endirə bilməz. Bu zaman müəllim ciddi pedaqoji səhvə yol verər və qiymətdən cəza vasitəsi kimi istifadə etmiş olar. Bir sözlə, qiymətləndirmə zamanı müəllim çox diqqətli olmalıdır. Ədalətsiz verilən qiymət şagirdin dərsə həvəsini aşağı salar və onda təlimə qarşı marağın azalmasına səbəb olar, həmçinin şagirddə psixoloji problemlərə belə yol aça bilər.

Deməli, təhsilin keyfiyyətinin artırılmasında monitorinq və qiymətləndirmə sisteminin vacibliyini nəzərə alaraq bu iş daim nəzarətdə saxlanılmalı, hər bir təhsil müəssisəsində daxili və xarici nəzarət mexanizmlərindən istifadənin forma və metodları ciddi şəkildə planlaşdırılmalı, keyfiyyət təminatı izlənilməli, alınmış məlumatlar təhlil edilərək korreksiya işləri aparılmalıdır.

# TƏHSİLDƏ İKT-dən İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Niftəliyeva Aytac Mahmud qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*awesomesl@yandex.ru*

İnformasiya Kommunikasiya Texnologiyalarının təhsil sistemində tətbiqini zamanın tələbi kimi də səciyyələndirmək olar. Elm və texnikanın inkişafı təhsil sektorunda da özünü açıq şəkildə büruzə verir. Bir neçə əsr bundan öncə kitabın icad edilməsi təhsil sistemində hansı yeniliklərin baş verməsinə səbəb olmuşdusa, müasir dövrdə də kompüterlərin, ümumdünya internet şəbəkəsinin geniş vüsət alması məhz o cür təsir göstərir. İnformasiya texnologiyalarının təhsil sistemində tətbiqi istər vaxt, istərsə də məsafə baxımından meydana çıxan maneələri ortadan qaldırmaq iqtidarındadır. Bu gün, dünyanın istənilən bir guşəsində yaşamaqla başqa bir ölkədə yerləşən universitet məzunu olmaq belə mümkündür.

Dünya təcrübəsindən göründüyü kimi, informasiya texnologiyalarından istifadə etməklə yaradılan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında yeni tələb və vəzifələr irəli sürür. Müəllimlərin yalnız fundamental biliklər və ya seçmiş olduqları pedaqogika və psixologiya sahəsində deyil, həmçinin informasiya sahəsində yenidən hazırlanması yüksək səviyyədə formalaşmışdır. Yeni nəsil müəllimləri üçün şagirdlərin təməl xüsusiyyətlərini nəzərə almaqla, sözün həqiqi mənasında, tədris etdikləri mövzunun quruluşu və məqsədinə müvafiq inkişaf etdirməyə imkan verən metodları seçib tətbiq etmələri olduqca vacibdir.

İnformasiya Kommunikasiya Texnologiyaları vasitələri malik olduqları geniş imkanları ilə təhsil prosesini xeyli asanlaşdırır. Elektron sənədlərin "müəllim-tələbə-dərslik" tədris modelinə əlavə edilməsi tədrisin proqrama müvafiq şəkildə təşkili, tələbənin dərsə marağının və istəyinin inkişaf etdirilməsi üçün təməl rolunu oynayır. Ağıllı lövhə, habelə elektron avadanlıqlara qoşulmuş mikroskop, skaner, rəqəmsal kamera, video kamera və s. cihazlardan əldə edilən görüntülər təhsil müəssisələrində rəqəmsal laboratoriyaların təşkilində əsas rola malik proyektorun köməyi ilə də alınır.

İnformasiya Kommunikasiya Texnologiyalarının təhsil və tədris prosesində istifadəsinin mahiyyətindən danışarkən qeyd etmək lazımdır ki, interaktiv rejimdə tədris olunan dərslərdə təhsil alan mərkəzi fiqur rolunu oynayır. Və bu, başlıca şərt kimi çıxış edir. Şagirdin istiqamətləndiricisi olan, onun bilik və bacarığını qiymətləndirən müəllim şagirdi fəal olmaq, müstəqil düşünmək, təşəbbüskar olmaq üçün motivasiya edir. Bundan əlavə, informasiya kommunikasiya texnologiyaları vasitəsilə müəllim bir dərs prosesində müəyyən hazırlığa malik şagirdi düzgün istiqamətləndirməklə ona uyğun tapşırıqlar hazırlayır və tədris prosesinin keyfiyyəti daha da yüksəlir.

Hazırda müasir təlim və tədris prosesində öz tətbiqini tapan əyani vasitələr və onlara olan tələbat əvvəlki ənənəvi təhsil sistemindən əhəmiyyətli dərəcədə fərqlənir. Müasir təhsil sistemi daha çox öyrənənlərə düşünmək, tədqiqat aparmaq, müəyyən nəticəyə gəlmək, informasiya mübadiləsinə girmək və s. üçün şərait yaradır. Elə buna görə də əyani vasitələrin müasir təhsil sistemində tətbiq edilməsinə daha çox ehtiyac yaranır.

İnformasiya texnologiyalarının dayanmadan daha sürətli şəkildə inkişaf etməsi təhsilin də keyfiyyətinə bilavasitə təsir göstərir. Dərs prosesində internetin imkanlarından istifadə etməklə müəllimlər istər ölkə daxilində, istərsə də ölkə xaricində olan bir sıra kitabxanalara çıxış əldə etmiş olurlar. Bu o deməkdir ki, informasiya texnologiyalarının yaratdığı imkanlar sırasında onlayn oxunan kitabların tələbə və şagirdlərə tədris edilməsi də yer alır.

Pedaqoji və müxtəlif informasiya texnologiyalarının məzmun və mahiyyəti birbaşa təlim proseslərinin icra edilməsinə xidmət göstərir. Bu o deməkdir ki, təlim texnologiyalarının köməyi ilə öyrədən və öyrənənlərin tədris fəaliyyəti sistematik şəkildə icra edilir.

İnformasiya və Kommunikasiya Texnologiyalarının təhsildə geniş şəkildə istifadə edilməsi bir çox səbəbdən vacib və zəruri sayılır. Hər şeydən öncə, onu qeyd etmək lazımdır ki,

tədris prosesinin müasir texniki vasitələr, kommunikasiya vasitələri ilə tədrisi müasir təhsilin əsas tələblərindən biridir. Bu nöqteyi-nəzərdən təhsilin müasir standartlara müvafiq olması üçün informasiya texnologiyaları ciddi və müfəssəl şəkildə tətbiq edilməli, bu sahədə çalışan mütəxəssislər pedaqoji prosesə cəlb olunmalıdırlar.

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ TƏHSİLƏ MARAĞIN FORMALAŞDIRILMASI YOLLARI

**Yusifli Gültəkin Yusib qızı**
**Mingəçevir Dövlət Universiteti**
*Gultekinyusifli11@gmail.com*

**"Təhsil millətin gələcəyidir."**
**Heydər Əliyev**

Kiçik yaşlı məktəblilərdə təhsilə marağın artılması yollarını tətbiq etmədən öncə ibtidai sinifdə dərs deyən hər bir müəllim təhsilin əhəmiyyətini özü üçün müəyyən etməlidir. Bununla yanaşı, tədris edəcəyi fənnin tərbiyəedici, təshsilverici, inkişafetdirici funksiyanı bilmədir. Hər fənnin hər bölməsində bu "üç funksiyanı necə şagirdlərə çatdırdı?", "şagirlər bunları necə dərk etdi". Bunun üçün müəllim ilk öncə özü üzərində işləməli, refleksiyadan hər dərsdən sonrakı mərhələdə istifadə edərək özü üçün nümunə hazırlamalıdr.

Məlum olduğu kimi kiçik yaşlı məktəbli dövrü 6-10 yaş aralığını əhatə edir. Bu dövrdə artıq uşaqlarda anatomik, fizioloji, psixoloji dəyişikliklər baş verir. 5 yaşa qədər uşaqda aparıcı fəaliyyət oyun fəaliyyəti olmuşdur. Artıq uşaq orta mətəbə daxil olarkən aparıcı fəaliyyət olan oyun fəaliyyətindən təlim fəaliyyətinə dəyişir. Uşaqlarda ilkin məsuliyyət hissi-valideyn, müəllim, daxil olduğu kiçik qrup qarşısında-formalaşır. Həmçinin şagirdin idrak prosesləri (diqqət, qavrama, təfəkkür, nitq və s.) də bu fəaliyyətdə dəstəkləyici rol oynayır.

"Müəllim sadəcə olaraq, uşağın ona rəğbət bəslədiyi yaşlı obrazı olmur, həm də uşağa bir sıra ictimai tələblər verən konkret, canlı şəxsiyyət kimi çıxış edir". [2, səh 123]

1-ci sinifdən başlayaraq artıq şagirdlərdə zehni hislər inkişaf edir. Lakin buna baxmayaraq bu zehni hislərin davamlılıq müddəti az olur. Ona görə də pedaqoq-müəllim bu yaş dövrün psixoloji və pedaqoji xarakterik xüsusiyyətlərini dərindən bilməli, praktik olaraq necə istifədə etmək lazım olduğunu mənimsəməlidir. Keçici olan zehni hisləri "İlk müvəffəqiyyət sevinc hissi" ilə əlaqələndirmək və davamlı olaraq motivasiyasına təsir etməyi bacarmalıdırlar. Şagird ilkin olaraq sərbəst tapşırığı düzgün yerinə yetirdikdən sonra onda avtomatik olaraq mükafat alma hissi yaranır. Bu zaman müəllim-pedaqoq rəğbətləndirmə üsulundan istifadə edərək şagirddə təhsilə marağın formlaşdırlması üçün ilkin addımı ata bilər.

Bununla yanaşı, bildiyimiz kimi eyni yaş kateqoriyasına aid olan uşaqların hər birində fərdi psixoloji xüsusiyyətlər olur. Müəllim ilk dərs günündən başlayaraq hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənməyə çalışmaq, daha sonra müəllim-valideyn əlaqələrini gücləndirməklə dərs prosesində əldə etdiyi məlumatlardan peşəkarcasına istifadə edə bilər. Artıq rəğbətləndirmə, cəzalandırma üsullarının hansı formasından hansı şagirddə düzgün istifadə edib səmərəli nəticə alacağını özü üçün kiçik plan şəkildə formalaşdırmış olacaq. Burada əsas məqsəd Vıqotskinin nəzəriyyəsinə əsasən təlim fəaliyətini şagirdin aktiv inkişaf zonasına yaxınlaşdırmağı bacarmaqdır. Artıq müəllim təhsilə marağı formalaşdırdıqda şagirddə daxili motivasiya yaranır. Sanki öyrənmək onun əsas tələbatlarından birinə çevrilir. Bu daxili dəyişim də özü-özlüyündə müəllimin fasilitator roluna da inkişafetdirici təsir göstərəcəkdir.

1-ci sinif şagirdi bütün fənlərə eyni cür maraq göstərir, 2-ci sinif şagirdində fənlərarası maraqlar dəyişir, burada əsas müəllim fiquru fənnə olan marağa təsir edir. 3-cü sinifdə isə artıq şagird sərbəst şəkildə özü qərar verərək "təhsilin əhəmiyyəti nə üçün bu qədər lazımdır?" sualını məntiqi şəkildə araşdırmaq istəyir.

İbtidai sinif şagirdlərində öz yaşıdları və yaşlılar yanında tərifləmə və irad tutmaq güclü təsirə malikdir. Dərs prosesində müəllim fərdi və qrup şəklində şagirdlər arasında bir-birini müsbət yöndə tərifləmədən istifadə edir. Müəllim həmçinin dərs prosesində tərbiyedici bu ünsürlərdən istifadə edərək yüksək mənəvi keyfiyyətlərin də formalaşmasına təkan verir.

Növbəti olaraq onu da qeyd edə bilərik ki, dərs prosesində müəllim sadəcə olaraq dərsə aid informasiyanı öyrətməklə kifayətlənməməlidir. Dərs prosesində şagirdlərdə öyrənməyə maraq yaratmalı və bu proses bitdikdən sonra da şagirdin davamlı olaraq öz üzərində çalışması, araşdırma aparmağa meyilli olması üçün stimul yaratmalıdır. Artıq şagird öyrənməyə ehtiyac duyduqdan sonra bunu şagirddə vərdişə çevirməlidir. Təhsilə marağı artırmaq üçün dərsdən sonrakı şagird fəaliyyətinin izlənilməsi də lazımdır. Bu zaman müəllim təsildə mövcud "Bermud üçbucağı" anlayışından istifadə edəcəkdir. Müəllim hər bir bir şagirdin bilik, bacarıq və vərdişlərini fərdi olaraq dəyərləndirməli və ehtiyac olduqda bu bilgiləri digər müəllim və ailənin üzvləri ilə bölüşməlidir.

Təhsilə marağın formlaşdırılmasına mənfi təsir edən əsas amillərdən biri qiymətləndirmə üsulundan və mahiyyətindən düzgün şəkildə istifadə olunmamasıdır. Bu zaman müəllim şagirdə qiymət verərkən hər hansı fəndən aldığı qiyməti onun şəxsiyyətini dəyərləndirimiş kimi göstərir. Yaxud xoşagəlməz davranışını qiymətləndirərəkən bunu dərs prosesində verdiyi cavaba da yansıtır. Bu isa artıq şagirddə özügüvənə mənfi təsir edir. Sonrakı yaş dövrlərində təhsil prosesindən belə uzaqlaşma hallarına səbəb olur. "Beş qiyməti" şeirində:

Hər "beş"in, hər "dörd"ün üstündə, yəqin,
Nə qədər zəhmətin, alın tərin var.[5, səh 16]

Şagird üçün müəllimin qiymətləndirmə meyarının nə qədər önəmli olduğu şeir dilində göstərilmişdir.

Dərsliklərdəki materialları proqram əsasında şagirdə çatdırarkən müəllim öz yaradıcılığından da mərharətlə istifadə etməlidir. Məsələn:"Kitab daha maraqlıdır" mövzusunu tədris edərkən müəllim həyati praktika ilə birbaşa əlaqələndirə bilər, Fərid obrazını dəyişərək diskussiya əsasında şagirdləri həmin obrazlarda bildikləri, yaşadıqları situativ hallar ilə yeni hekayələr yaratmaqla tək kitabda olanı çatdırmır. Həm də şagirdlərin praktikasından irəli gələn hekayələrlə daha da zənginləşdirə bilər.

Fənlərarası inteqrasiya zamanı müəllim təhsilin insan həyatındakı rolu, əhəmiyyəti, müsbət cəhətlərini də obrazlı formada ibtidai sinif şagirdlərinin anlayacağı tərzdə çatdıra bilər. İstər riyaziyyat fənni, istər Azərbaycan dili fənni, istərsə də həyat bilgisi fənni olsun hər bir dərsin təhsilverici funksiyası elə forada qurmaq lazımdır ki, artıq ibtidai sinif şagirdini sonrakı yaş mərhələlərində əqli inkişafa apararaq özünü doğrultsun.

İbtidai sinif şagirdi asudə vaxtlarında elmi sirlərinə yiyələnməyə, daha səmərəli fəaliyyətlə məşğul olmağa çalışsın. Fəal dərs prosesində müəllim yeni təlim texnologiyalarından səmərəli istifadə etməklə həm tədris etdiyi fənni, həm də praktikada cəhdini tamamlamış olur. Qruplarla iş zamanı şagird təhsilin əslində cəmiyyətin məhsulu olduğunu və cəmiyyət qarşısında əhəmiyyətini də dərk edir. Təhsil ümumiliyi sevir. Və bu ümumilik üçün birgə fəaliyyət əsasdır. Bəzən elə bölmələr olur ki, orada ibtidai sinif şagirdi tərəfindən irəli sürülən yenilikçi fikir digər şagirdlər üçü də situmul ola bilər. Buna görə də müəllim dinləmə bacarığından istifadə edərək həssas nöqtələri aydınlaşdırmalı və dərs prosesindən sonrakı mərhələdə də hansı ki sinifdən xaric oxu, məktəbdən kənar qruplar zamanı bunlara diqqət yetirməlidir. İbtidai sinif rəhbərinin funsiyası üstün olduğu kimi, məsuliyyəti də çoxdur. Bir psixoloq və pedaqoq kimi daim araşdırmaq, öyrənməyi öyrətməklə təhsilin əsl mahiyyətini hələ ağ vərəq olan şagird beyninə yazmağı bacaran şəxsdir.

Bütün bunları nəzərə alaraq bildiririk ki, təhsilə marağın artırılması üçün müəllimin özünün bilik, bacarıq vərdişləri buna uyğun olmalı, ailə ilə əməkdaşlıq etməyi bacarmalıdır. Bununla yanaşı, dərsliklərdən, qiymətləndirmə üsullarından, yeni təlim texnologiyalarından

istifadə edərək məqsədinə daha adekvat şəkildə çatma imkanı vardır, bu zaman təhsilə olan maraq artıq şagird üçün növbəti mərhələlərdə daxili motivə çevriləcək.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasi Təhsil Nazirliyi, Azərbaycan Respublikasinin Təhsil İnstitutu, "Elmi əsərlər" cild 85, № 3, Bakı 2018, 254 səh.
2. Azər Mustafayev, Mirələm Vəliyev. İnkişaf və yaş psixologiyası, Bakı, 2015, 296 səh.
3. Məmmədəli Hənan oğlu Ağayev, kiçik yaşlı məktəblilərin tərbiyəsi, Bakı, 2006, 211 səh.
4. Rafuq İsmayılov, Solmaz Abdullayeva, Dilrüba Cəfərova, Xanım Qasımova. Azərbaycan dili, 3-cü sinif dərsliyi, Bakı, 2019, 168 səh.
5. Rafuq İsmayılov, Solmaz Abdullayeva, Dilrüba Cəfərova, Xanım Qasımova. Azərbaycan dili, 4-cü sinif dərsliyi, Bakı, 2019, 224 səh.


## ПРЕИМУЩЕСТВА И НЕДОСТАТКИ ВЫПУСКНИКОВ КОЛЛЕДЖОВ ПО СРАВНЕНИЮ С ВЫПУСКНИКАМИ ВУЗ-ов


**Бао Сюеин**

**АГПУ, магистрант II курс**

*1750610605qq.com*



***Açar sözlər:*** *üstünlükləri və mə nfi cəhətləri, kollec məzunlar, universitet məzunları*

***Ключевые слова:*** *преимущества и недостатки, выпускники колледжов, выпускники ВУЗ-ов*

***Key words:*** *advantages and disadvantages, college graduate, university graduates*



**Резюме**

Подводя итог, по сравнению с выпускниками бакалавриата той же специальности, конкурентоспособность при трудоустройстве выпускников высших профессиональных учебных заведений имеет определенные преимущества, но также есть много недостатков и угроз. Выпускники могут только объективно анализировать свои собственные преимущества и недостатки и полностью использовать их. Только осознавая свои преимущества, осознавая свои недостатки, активно восполняя и совершенствуя их и превращая пассивное в инийоативу, они могут оставаться непобедимыми в жесткой конкуренйоии за трудоустройство.

**Summary**

To sum up, compared with undergraduate graduates of the same major, the employment competitiveness of higher vocational graduates has certain advantages, but there are also many disadvantages and threats. Graduates can only objectively analyze their own advantages and disadvantages and give full play to them. Only by recognizing its own advantages, recognizing its own shortcomings, actively making up and perfecting them, and turning the passive into the initiative can they remain invincible in the fierce employment competition.

**Xülasə**

Ümumiləşdirsək, eyni ixtisas üzrə bakalavr məzunları ilə müqayisədə ali peşə-ixtisas məzunlarının məşğulluqda rəqabətqabiliyyətliliyi müəyyən üstünlüklərə malikdir, lakin çatışmazlıqlar və təhlükələr də az deyil. Məzunlar yalnız öz üstünlüklərini və çatışmazlıqlarını obyektiv təhlil edərək onlara tam oyun verə bilərlər. Yalnız öz üstünlüklərini tanımaqla, öz çatışmazlıqlarını tanımaqla, onları fəal şəkildə düzəldib təkmilləşdirməklə, passivliyi təşəbbüsə çevirməklə, şiddətli məşğulluq rəqabətində yenilməz qala bilərlər.


1. По сравнению с выпускниками того же высшего учебного заведения, дипломы

высшего профессионального колледжа, очевидно, являются «слабыми дипломами». Дин Сяохао, профессор Института экономики образования Пекинского университета, анализирует эту ситуаöию и считает, что то, какой уровень и тип квалификаöий и степеней высшего образования сигнализирует о функöии на рынке талантов, является более заметным, чем когда-либо. В этом отношении студенты высших профессиональных колледжей находятся в первую очередь в пассивной позиöии. Некоторые студенты говорят об этом в двух словах:

"Закон рынка труда всегда гласит, что за таланты бакалавриата и магистратуры в ключевых университетах и на популярных спеöиальностях можно всегда бороться. К студентам из бедных семей в высших профессиональных колледжах можно относиться только с холодностью, от которой им становится холодно. . "

2. С точки зрения профессиональных навыков выпускники высших профессиональных колледжей имеют очевидные преимущества. У них как правило, есть крупномасштабные учебные заведения с передовым оборудованием и учебные базы за пределами кампуса; колледж будет регулярно направлять студентов на передовую для долгосрочных практических стажировок на месте и участвовать в регистраöии на соответствующие экзамены на профессиональную квалификаöию. Это позволяет учащимся получить обширную профессиональную подготовку, прежде чем приступить к своей работе, и получить соответствующие сертификаты о профессиональной квалификаöии в период обучения в колледже. Это стало серьезным преимуществом в конкурсе на трудоустройство для выпускников высших учебных заведений. Однако эти преимущества постепенно становятся доступными для некоторых колледжей и университетов. Эти университеты постепенно усиливают недостаток профессиональных навыков выпускников за счет сотрудничества с высшими профессиональными колледжами, что также представляет определенную степень для выпускников высших профессиональных учебных заведений.

3. Культурные курсы учащихся в высших профессиональных колледжах обычно ниже, чем у студентов университета. Кроме того, в высших профессиональных колледжах не требуется, чтобы учащиеся владели английским языком и владели компьютером. В результате выпускники профессиональных учебных заведений не могут обучать английскому языку, сертификаты компьютерного уровня или уровень сертификата значительно ниже, чем у выпускников колледжей, что ставит этот аспект в невыгодное положение. Однако этот недостаток не является необратимым: совместными усилиями учащихся и школы этот недостаток можно полностью устранить и обратить вспять.

4. Выпускники высших профессиональных колледжей только начинают работать, и им будет неудобно работать. Точно так же, по сравнению с другими сотрудниками предприятия, выпускники университетов обладают большей способностью к обучению, адаптируемостью и новаторскими способностями, и они готовы терпеть трудности и добиваться прогресса.

5. Планирование карьеры студентов университетов способствует точному позиционированию студентов и рациональной организации их учебы и жизни в университете, повышению всестороннего качества студентов, реализации хорошей связи между их учебой и общественными занятиями, реализации разумное соответствие между отдельными студентами колледжей и социальными потребностями, а затем повысить конкурентоспособность студентов колледжей при трудоустройстве. У большинства выпускников профессиональных учебных заведений низкое положение и низкие требования к себе. Они думают, что обладают техническими талантами, если разбираются в технологиях и знают, как действовать. Как правило, им не хватает научного планирования своей карьеры и их устраивает статус-кво. Постановка амбициозных целей для их карьеры и отсутствие мотивации, такие выпускники часто не

имеют выдающихся результатов в своей работе, им трудно дать игру своим собственным блестящим точкам, и им часто не хватает сильной конкурентоспособности на последующих этапах своей карьеры.

6. Выпускники профессионально-технических учебных заведений имеют определенные недостатки с точки зрения их потенциала для использования. В высших профессиональных специальностях профессиональные и технические навыки являются самыми основными требованиями. Если вы хотите достичь более высокого уровня развития, вы должны иметь глубокую и прочную теоретическую базу и способность к инновациям. Выпускники высших профессиональных учебных заведений имеют низкую отправную точку перед поступлением в ВУЗ. Теоретические требования в этом процессе также относительно низкие, поэтому возможности для совершенствования относительно невелики. Чтобы изменить слабое, необходимо расширить структуру знаний посредством непрерывного обучения.

**Литература**

1. Исследование и практика бесшовной связи между выпуском и приемом на работу студентов профессионально-технического колледжа. Сунь Яньхуа, Лю Чжиюн. 2011

2. Исследование статуса-кво трудоустройства студентов высших профессиональных колледжей. Сун Чжихуа.2021

3. Почему учащиеся профессиональных училищ популярнее студентов университета. Социальные науки, серия II.Джин Аошэн. 2003

## ВОСПИТАНИЕ ЛИЧНОСТИ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ В ОБЩЕОБРОЗОВАТЕЛЬНОЙ ШКОЛЕ КНР

**Гоу Юйюань**
**АГПУ, II курс**
*1909937589@qq.com*

***Açar sözlər:*** *Çin, orta təhsil, fənlər, şəxsiyyətin tərbiyəsi və formalaşdırılması*

***Ключевые слова:*** *Китай, среднее образование, предметы, воспитание и формирование личности*

***Key words:*** *subjects, personality culture subjects, personality culture*

**Xülasə**

Çin Xalq Respublikasının modernləşdirilməsi prosesində orta məktəb təhsili maddi və mənəvi sivilizasiyanın bərqərar edilməsində mühüm rol oynayır. Şəxsi təhsil şəxsiyyətin formalaşdırılmasının əsasını təşkil edir, milli-mədəni ənənələr isə həmin şəxsin təhsil səviyyəsinə böyük təsir göstərir. Mədəni tərbiyə şəxsi inkişafın və sağlam şəxsiyyətin formalaşdırılması prosesinin açarıdır. Orta məktəb təhsili prosesində şəxsi mədəniyyətin formalaşdırılması şagirdlərin əxlaq tərbiyəsinin əsasını təşkil edir və milli ənənə ilə müasir şəxsi təhsil arasındakı əlaqəni təmin edir. İnsan şəxsiyyətinin xüsusiyyətləri heç də təbii şəkildə deyil, öyrənmə nəticəsində formalaşır. Sağlam insan, məktəb, ailə və ictimaiyyətin kommunikativ və birgə səyləri nəticəsində formalaşdırılır. Orta məktəbdə isə şagirdlərin müxtəlif fiziki və psixoloji davranışlarının formalaşdırılması və inkişafı mərhələsindədir və onların özünəməxsus xüsusiyyətləri vardır. Buna görə də orta məktəbdəki öyrənmə prosesində şəxsi mədəniyyətin inkişaf etdirilməsi çox vacibdir.

**Резюме**

Среднее образование играет жизненно важную роль в осуществлении материальной и духовной цивилизации в процессе модернизации Китайской Народной Республики. Нравственное воспитание является основой формирования личности. А традиции

национальной культуры оказывают огромное положительное влияние на нравственное воспитание подрастающего поколения. Культурное наследие - ключ к развитию личности и процессу формирования здоровой личности. Формирование культуры личности в процессе обучения в средней школе является основой нравственного воспитания учащихся и связующим звеном между культурной традицией и современным нравственным воспитанием. Характеристики человеческой личности не возникают естественным образом, а являются результатом целенаправленного воспитания и обучения. Физическое и духовное здоровьеподрастающей личности обуславливается коммуникативными и целенаправленными совместными усилиями школы, семьи и общественности. Различные физические и психологические функции учащихся средней школы находятся в процессе формирования и развития и обладают своими уникальными характеристиками. Поэтому формирование личности в процессе обучения в средней школе имеет важное социальное значение.


**Abstract**

Secondary school education plays a vital role in building material civilization and spiritual civilization in the process of socialist modernization of the People's Republic of China. Personality education is the basis for the formation of personality, and the national cultural tradition has a major impact on the education of personality education. Cultural edification is the key to personal development and the process of forming a healthy personality. The cultivation of personality culture in the process of secondary school education is the basis of the personality education of students and represents the connection between cultural tradition and modern personality education. The characteristics of the human personality do not arise naturally, but are the result of learning. A healthy personality requires the communicative and collaborative efforts of school, family and community. The various physical and psychological functions of secondary school students are in the process of formation and development and they have their own unique characteristics, therefore the cultivation of personality culture in the learning process in secondary school is very important.


Среднее образование включает два уровня образования: младшую ступень средней школы (трехлетняя система обучения) и ступень средней школы (трехлетняя система обучения).

Неполная средняя школа - это начальная ступень ступени средней школы, включающая: 7 класс, 8 класс и 9 класс. Неполные средние школы обычно относятся к девятилетней средней школе с обязательным образованием, которая является этапом перехода к старшей средней школе.

Курсы для первого года неполной средней школы включают: китайский язык, математику, английский язык, историю, географию, биологию, идеологию и мораль, музыку, искусство, физическое воспитание, информаöионные технологии.

Курсы для второго года включают: китайский язык, математику, английский язык, физику, историю, географию, биологию, идеологию и нравственность, музыку, искусство, физическое воспитание, информаöионные технологии.

Курсы для третьего года неполной средней школы включают: китайский язык, математику, английский язык, физику, химию, историю, идеологию и нравственность, физическое воспитание и информационные технологии.

Полная средняя школа. Средняя школа – это учебное заведение после девятилетнего обязательного образования в нашей стране. Она принимает квалифицированных выпускников младших классов средней школы. Подпредметы гуманитарных наук и естествознания обычно преподаются в течение первого года обучения в средней школе и на втором этапе обучения в средней школе.

10 класс: китайский, математика, английский, политика, география, история, физика, химия, биология, спорт, музыка

После разделения:

11 класс (гуманитарный): математика, китайский, английский, политика, география, история, физическое воспитание

11 класс (технические): математика, китайский, английский, физика, химия, биология, физическое воспитание

12 класс (гуманитарный): китайский, математика, английский, история, география, политика

12класс (технические): китайский, математика, английский, физика, химия, биология

Развитие культуры личности.

Бэкон сказал: «Чтение делает людей мудрыми, чтение истории делает людей мудрыми, вычисления делают людей умными, философия делает людей глубокими, этика делает людей культурными, а литература по логической риторике делает людей красноречивыми». Можно видеть, что знания формируют характеры людей. Образование и формирование личности должны основываться на повышении качества культуры людей. Поэтому очень важно интегрировать культивирование культуры личности в проёесс передачи знаний по различным предметам.

1. Совместите содержание учебников по различным дисциплинам с содержанием воспитания здоровой личности.

Пример: поощрять самостоятельное изучение предмета, развивать и укреплять уверенность учащихся и заражать учащихся яркой индивидуальностью персонажей учебника, чтобы влиять на ённости, мировоззрение и взгляды учащихся на жизнь.

2. Позвольте учащимся почувствовать красоту предмета и развить у учащихся способности к восприятию.

Пример: активно создавать хорошие произведения на курсах искусства и музыки, чтобы улучшить эстетические познавательные способности учащихся, проникнуть в сокровища традиционной культуры до глубины их сердец и помочь сформировать личность обучающихся.

3. Здоровая личность учителя - пример здоровой личности ученика.

4. Взаимодействие школы и учителя с семьей.

Семейное воспитание и школьное образование разъясняют их соответствующие преимущества и обязанности в развитии личности учащихся, и только через совместный прогресс и сотрудничество возможно должным образом обучить учащихся культивированию их знаний, чувств, намерений и поведения.

5. Всестороннее развитие, общее развитие нравственности, интеллекта, физического воспитания, искусства и труда.

Воспитывайте в молодных воспитывают здоровую личность и стремление к всестороннему развитию. С древних времен более 3000 лет назад существовала концепция всестороннего развития: шесть искусств - этика, музыка, стрельба из лука, управление лошадьми, каллиграфия, математика и в настаящее время: мораль, интеллект, физическое воспитание, эстетика, труд - это все для здорового образа жизни. Поэтому воспитание всесторонне развитых людей—основа здорового образа жизни, что является культурой личности молодежи в Китае.

**Литература**

[1] Гу Минъюань, Мэн Фаньхуа, Новая концепция международного образования [M], Хайнаньское издательство, 2001. С. 69-79.

[2] Е.Чжаофан, Исследование текущего состояния, проблем и мер противодействия реформе обучения в среднем профессиональном образовании [J], Higher Education Press, 2002. 137-154.

[3]Лян Вэй, Чжан Цзяньсюн. Анализ значения популяризации традиционной китайской спортивной культуры для развития здоровой личности молодых людей [J].Информация по науке и технологиям.2011 (10).

[4] Сюй Чанлинь. Анализ новой концепции преподавания истории в младших классах средней школы в соответствии с новой учебной программой [J].Science Consulting (Education and Research), 2020(06):277.

[5] Сунь Пейцин, История китайского образования [M], Шанхай, издательство Восточно-китайского педагогического университета, 2000. 116-120.

[6] Хуан Ли. Осуществление преподавательской деятельности исторических деятелей для формирования здоровой личности учащихся младших классов средней школы [J].Исследования в области базового образования, 2007(01): 40-41.

[7] Хуан Юэ. Построение модели физического воспитания для формирования здоровой личности молодежи [J]. Хэйлунцзянская научно-техническая информация. 2007(16).

## MÜƏLLİM PEŞƏKARLIĞININ FORMALAŞMASINDA TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİNİN ROLU

**Əsgərzadə Fəridə Ənvər qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esgerzade.feride@gmail.com*

Fikrimizcə, təhsil sahəsinə münasibətdə modernləşmə ilk növbədə cəmiyyətin yeni məqsədləri, tələbləri, vəzifələri məcmusudur ki, onların həyata keçirilməsi təhsilin optimallaşdırılmasına yönəlib. Belə meyarlara nail olmaq modernləşmədir. Onun həyata keçirilməsi bir sıra innovativ vəzifələrin həlli yolu ilə mümkündür. Bu vəzifələr aşağıdakılardır:

- insanların keyfiyyətli təhsil almaq imkanlarına real əlçatanlığının təmin edilməsi;
- insan resurslarına investisiyaların artması;
- istər peşə-öncəsi, istərsə də peşə təhsili sahəsində yeni təhsil formalarının inkişafı;
- biliklərin inkişafı və onun yeni elmi biliklərlə davamlılığının təmin edilməsi;
- şagirdlərin təhsil motivasiyasının inkişafı.

Sonuncu vəzifə xüsusilə vacibdir, o, müəllimin fəaliyyəti ilə birbaşa bağlıdır və biz tədqiqat zamanı bunun üzərində xüsusi olaraq dayanacağıq, çünki onun həlli olmadan təhsilin müasirləşdirilməsi probleminin formalaşdırılması mənasız olur.

Təhsilin müasirləşdirilməsində mühüm istiqamət şagirdlərin öyrənmə motivasiyasının formalaşdırılması və inkişafıdır. Bu istiqamətin özəlliyi ondadır ki, bir tərəfdən motivasiya təhsilin bütün modernləşdirilməsinin müəyyən nəticəsidir.

Burada təhsilin müasirləşdirilməsinin müəllim peşəsinə qoyduğu yeni tələblərdən danışmağa keçmək istərdim. Müəllimin tədris, tərbiyə və s. kimi ənənəvi funksiyalarının mürəkkəbləşməsi daimi, davamlı prosesdir. Müasir şəraitdə müəllimlərin təhsilin məzmunu ilə bağlı prosessual aspektlərinin və sosial-mədəni mühitin proqnozlaşdırılması, layihələndirilməsi və təşkili kimi peşəkar funksiyaları yenilənir.

İndi müəllimin idarəetmə, iqtisadi, hüquqi, sosial, mədəni, təhsil, ekoloji və digər fəaliyyətlərlə əlaqəli kommunikativ funksiyaları əvvəlkindən daha çox tələb olunur. Və bu, öz növbəsində, onun peşəkar motivasiyasının artmasına və özünü inkişaf etdirmək istəyinə təsir göstərir.

Pedaqoji işə tələblərin transformasiyası prosesi daimi və davamlıdır. Bu mənada nəinki belə tələblərin irəli sürülməsi, müəllimin fəaliyyəti ilə bağlı cəmiyyətin və zamanın irəli sürdüyü innovativ vəzifələrin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyət tərəfindən müəllimin biliyin daşıyıcısı və bəzən xüsusi biliklərin yeganə mənbəyi kimi qəbul edilməsi ənənəvi olaraq pedaqoji kollektivin özlərinin peşə fəaliyyətində sabit stereotiplər formalaşdırmışdır. Bu gün müəllim davranışının bu stereotipləri artıq köhnəlib və yeni biliklərlə ziddiyyət təşkil edir. Onlar tez-tez "həqiqətləri tətbiq edən" ənənəvi təhsil

texnologiyalarından şagirdlərin idrak fəaliyyəti üçün motivasiyasını artırmağa kömək edən texnologiyalara keçidə mane olurlar. Müəllimlərin ənənəvi iş forma və metodlarına həddən artıq bağlılığı, aşkar yeniliklərə məhəl qoymaması təhsilin müasirləşməsi prosesinə mane olur.

Müasir təhsilin islahatı pedaqoji kadrlar qarşısında yeni tələblər qoyur. İyirmi birinci əsr müəllim modeli, ilk növbədə, mənəvi, əxlaqi və işgüzar keyfiyyətlərin üstünlük təşkil etdiyi peşəkar, bacarıqlı, yaradıcı inkişaf etmiş şəxsiyyəti nəzərdə tutur. Buraya pedaqoji fəaliyyətin şəxsi istiqaməti, humanist təhsil problemlərini qoymaq və həll etmək bacarığı, dəyərlər və davranış normaları üçün birgə axtarış təşkil etmək, təhsilalanın mədəni özünüidentifikasiyasına hörmət daxildir. Sərbəst və fəal düşünən, fəaliyyətinin nəticələrini proqnozlaşdıran və buna uyğun olaraq tərbiyə və tədris prosesini modelləşdirən müəllim qarşıya qoyulan vəzifələrin həllinin təminatçısıdır.Təhsilin müasirləşdirilməsi şəraitində müəllimlərin peşəkarlığının yüksəldilməsi, peşə hazırlığı sisteminin yenilənməsi məsələlərini həll etmək lazımdır. Müasir həyatın tələblərinə uyğun gələn, yaradıcı, fəal, şüurlu və özünü inkişaf etdirə bilən şəxsiyyətlərin formalaşması üçün şərait yaratmaq lazımdır.

Beləliklə, müasir təhsil məkanı təşəbbüskarlığa, daim özünütəhsilə, özünü inkişaf etdirməyə, tədrisin yeni səmərəli üsullarını axtarmağa qadir olan yaradıcı müəllimlərə ehtiyac duyur. Bu ehtiyavın ödənilməsində də təhsilin modernləşdirilməsi xüsusi rol oynayır.

## TƏLİM PROSESİNİN KEYFİYYƏTİ VƏ İDARƏOLUNMA MƏSƏLƏLƏRİ

**Qaralova Nigar Şərif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nigar.garalova@yahoo.com*

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikasında təhsilin yenidən qurulmasında əldə olunan nailiyyətlər həyata keçirilən davamlı və ardıcıl siyasətin müvəffəqiyyətli nəticəsi kimi dəyərləndirilməlidir. Ümummilli liderimiz Heydər Əliyevin "Təhsil millətimizin gələcəyidir" ifadəsi ilə təməli qoyulan milli təhsil siyasətimiz uğurla inkişaf etdirilir. Ulu öndərimizin fikrində, düşüncəsində Azərbaycan xalqının təhsilinin inkişafı ilə əlaqəli üç əsas məsələ öz əksini tapmaqdadır:

- qazanılan təcrübələrin öyrənilməsi;
- inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsinin öyrənilməsi və onlardan istifadə edilməsi;
- islahatlar həyata keçirilərkən tələsməməli, aparılacaq işlərin inkişaf yolu ilə həyata keçirilməsinə təminat verilməsi.

XX əsrin sonu, XXI əsrin əvvəllərindən başlayaraq Azərbaycan Respublikasının müəyyənləşdirdiyi yeni inkişaf yolu təhsil sisteminin müasirləşməsinə, yenilənməsinə olan ehtiyacların nə qədər aktual olduğunu göstərdi. 1999-cu ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təhsilimizin bu sahədə yeni-yeni inkişaf yollarını müəyyən etdi. Eyni zamanda nəticə yönümlü, şəxsiyyətə istiqamətlənən təlim-tədris prosesinin yaradılması, keyfiyyətin təhsil sisteminin mühüm göstəricisi olduğu artıq anlaşılmağa başladı. Təlimdə əldə edilən nailiyyətlərin mühüm göstəricisinə çevrildi. Bu səbəbdən də 2003-cü ildə həyata keçirilən islahatların yeni mərhələsi üçün "Ümumi təhsilin keyfiyyəti və onun real tələbatlara uyğunluğu " planlaşdırılan mühüm problemlərdən biri kimi götürüldü.

İndi artıq təhsilin keyfiyyət göstəricilərinə olan münasibət dəyişmiş, təhsil sisteminin keyfiyyəti insanın mühüm dəyərlərə malik olmaq səviyyəsiylə ölçülür. Kurikulum islahatının həyata keçirilməsi ilə əlaqəli qəbul edilmiş qərara görə, Kurikulumda həmin dəyərlər öz əksini tapmağa başladı. Eyni zamanda şəxsiyyətin inkişafında mühüm yer tutan üç fəaliyyət növü – idraki, hissi və fiziki fəaliyyət o kompetensiyalarda ifadə olundu. Təhsil-təlim sistemində əhatəlilik geniş miqyas aldı və əsasən məzmun, texnologiyalar və qiymətləndirmə ön plana çəkildi. Keyfiyyət göstəriciləri təhsil sisteminin mühüm vəzifəsi hesab edildi və

hərtərəfli inkişaf etmiş şəxsiyyətin-kamil insanın rəqabətliliyi vacib şərt kimi diqqətdə saxlanıldı.

Ümumtəhsil müəssisələrində təlim-tədris prosesinin keyfiyyətli təşkil edilməsində əsas faktorlardan biri də keyfiyyətin idarə olunmasıyla əlaqəlidir. Tədqiq edilən problemlə əlaqəli indiki şəraitdə ümumtəhsil müəssisələrini iki qrupa ayırırlar:

1. Fəaliyyət rejimi ilə çalışan ümumtəhsil müəssisələri;
2. İnkişaf rejimi ilə çalışan ümumtəhsil müəssisələri.

Tədqiqatların nəticələri onu deməyə əsas verir ki, inkişaf rejimi ilə çalışan ümumtəhsil müəssisələrinə üstünlük verilməlidir və bu zaman keyfiyyətin idarə olunması üç texnologiyaya əsaslanmalıdır ki, bunlar aşağıdakılardır:

- məqsədə əsasən idarəetmə;
- prosesə əsasən idarəetmə;
- son nəticəyə əsasən idarəetmə.

Aparılmış xüsusi tədqiqatların nəticələri onu göstərir ki, keyfiyyətin idarə edilməsində yalnız müəllimlərin fəaliyyətini genişləndirərək qarşıya qoyulan məqsədə çatmaq qeyri-mümkündür. Bu cür problemləri həll etməkdən ötrü məktəb rəhbərlərinin və pedaqoji kollektivin işlərinin səmərəli əlaqələndirilməsindən və differensiasiyasından istifadə olunması böyük əhəmiyyət daşıyır. Onu da qeyd edək ki, keyfiyyətin idarəolunma sisteminin quruluşunun idarəetmə pillələri ilə müəyyən edilməsi müsbət nəticələrə gətirib çıxarır ki, bunlar aşağıdakılardır:

- məktəbin pedaqoji şurası, şagird özünüidarə təşkilatları, valideyn-məktəb assosiasiyaları;
- məktəbin direktoru və müəyyən dövlət qurumları tərəfindən təsdiq edilmiş qaydalar, qanunlar;
- təlim-tərbiyə işləri üzrə direktor müavinlər, məktəbin psixoloqu, təsərrüfat işləri üzrə fəaliyyət göstərən direktor müavini, digər birliklər, təşkilatlar;
- sinif rəhbərləri, tərbiyəçilər, valideynlər və şagirdlər.

Tədqiqatlar göstərir ki, bu cür yanaşmalarda ümumtəhsil müəssisələrində tədris-təlim prosesinin keyfiyyətini yüksəltməyin iki üsulundan istifadə edilməsi vacibdir:

- qabaqcıl pedaqoji təcrübələrin öyrənilməsi üsulu;
- tədris-təlim prosesinin ayrı-ayrı elementinin təhlilinin sistematik şəkildə aparılması.

Ümumtəhsil müəssisələrində təlim prosesinin keyfiyyətinin idarə olunmasında monitorinq-qiymətləndirmə fəaliyyəti önəmli yerlərdən birini tutur. Qiymətləndirmədə əsas yer tutan şagird nailiyyətlərinin monitorinqi əldə edilmiş biliklərin təhsil standartlarına uyğunluğunun müəyyən edilməsi də çox böyük əhəmiyyətə malikdir.

Birinci növbədə, hər bir obyektin, eyni zamanda ümumtəhsil məktəbinin keyfiyyət səviyyəsinə kəmiyyətcə qiymət verilməsi üçün keyfiyyət göstəriciləri müəyyən edilməli və sonradan effektivlik səviyyəsinin ölçülməsi prosesindən əldə edilən nəticələ, ən optimal variant kimi seçilən etalonun keyfiyyət göstəriciləri ilə bir daha müqayisə edilməlidir.

Təlim-tədris prosesinin keyfiyyət göstəriciləri müəyyən edilərkən onun əsas tərkib hissəsi hesab edilən – texnologiya, məzmun və əldə edilmiş nailiyyətlər təhlil edilməlidir. Sadalanan tərkib hissələri üçün ayrı-ayrılıqda nəticələr çıxarılmalıdır. Keyfiyyətə qiymət verilməsi çox mürəkkəb və çox parametrli olduğu üçün nəticələrə qiymət verilməsinin variantları hazırlanarkən sistemli yanaşmalardan istifadə edilməsi müsbət nəticələr verir.

Azərbaycan dövləti tərəfindən 2006-cı ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" adlandırılan sənəddə öyrənənlərin idraki imkanlarının aşkara çıxarılması yolları və inkişaf etdirilməsi üçün əlverişli təlim mühiti yaradılması, fəal təlimin tətbiq edilməsi, müasir qiymətləndirmə mexanizminin vacib aspektləri müasir tələblər səviyyəsinə uyğun bir şəkildə verilmişdir.

Ümumtəhsil müəssisəsində təlim-tədris prosesinin keyfiyyət səviyyəsinə əsas quruluş elementlərini xarakterizə edən göstəricilərə əsasən qiymət vermək tələb edilir:

- ümumtəhsil müəssisələrində təhsil xidmətindən istifadə edən şagirdin keyfiyyət göstəricisi;
- təhsil xidmətini göstərən ümumtəhsil məktəbinin keyfiyyət göstəricisi;
- təhsili idarəetmənin keyfiyyət göstəricisi (buraya prinsiplər, məqsədlər, metodlar, strukturlar daxildir);
- ümumtəhsil müəssisələrində göstərilən xidmətin layihələndirilməsi (buraya təlim proqramları daxildir);
- ümumtəhsil müəssisələrində xidmətin səviyyəsinin keyfiyyət göstəriciləri (müəssisənin maddi-texniki bazası, pedaqoji kadr potensialı, tədris metodları, maliyyə və s.);
- ümumtəhsil müəssisələrində xidmətin təşkilati strukturu və onun keyfiyyət göstəricilər

İndiki dövrdə təhsilşünaslıqda idarəetmədə innovasiyaların tətbiq edilməsi problemlərinin tədqiq edilməsi böyük əhəmiyyətə malikdir. Hal-hazırda innovasiya prosesləri təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, inteqrativlik, təhsil mühitinin təbiətəmüvafiqlik və.s. digər prinsipləri ilə əlaqəli ideyalar üzərində təşkil edilməlidir. İnnovativ modellərin effektivliyinin müəyyənləşdirilməsində mütləq keyfiyyət və təhsilin idarəolunması ilə əlaqəli çoxşaxəli problemlərin həll olunması tələb edilir. Təhsil sistemində keyfiyyətin idarəolunması, ümumtəhsil müəssisələrində bütün səviyyələrdə hazırlanmış "məhsulların" bazarın tələbinə uyğunluq dərəcəsi ilə müəyyənləşdirilir. Ümumtəhsil və texniki-peşə təhsil məktəblərində "məhsul" deyəndə bu məktəblərdə təhsil almış səriştəli məzunlar, mütəxəssislər başa düşülür. Burada Nobel mükafatı laureatı, məşhur fizik, akademik V.Karitsanın təbirincə desək, "Təhsil gələcəyə istiqamətlənmiş istehsal sahəsidir" deməklə, yuxarıda söylədiklərimizi bir daha təsdiq etmiş oluruq.

Təklif edilən model ümumtəhsil və texniki-peşə təhsili məktəblərində səriştəli kadrların hazırlanmasına dair külli miqdarda dəqiq informasiyalar almağa şərait yaradır. Bu eyni zamanda daha mükəmməl nəticələr əldə etməyə, təlim-tədris prosesində nəzərdən qaçan nüansların aşkara çıxarılmasına, səriştəli fəaliyyətin məntiqinə daxil olunmasına imkanlar verir. Bu səbəbdən Azərbaycan dövlətinin təhsilinin quruluşunda fəaliyyət göstərən ümumtəhsil məktəblərində, ayrı-ayrı səviyyələrdə müasir tələblərə uyğun peşəkar kadrların hazırlanmasının təşkili üçün tədris prosesinin keyfiyyətli təşkil edilməsi ilə əlaqəli problemlərin yüksək keyfiyyətlə həllində göstərilən modelin imkanlarından səmərəli şəkildə istifadə edilməsinin daha aktual olduğunu görürük.

## TƏLİM MODULLARI ÜÇÜN MƏZMUN HAZIRLANMASI YOLLARI

**Nəsirova Nigar Mehman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sirinovmehman999@gmail.com*

***Açar sözləri:*** *təhsil, təlim, modul, öyrənmə, fəaliyyət*
***Ключевые слова:*** *образование, обучение, модуль, обучение, деятельность*
***Key words:*** *education, training, module, learning, activity*

Modul təliminin nəzəriyyə və praktikasında modulların inkişaf prosesinin təsviri ümumi şəkildə təqdim olunur. Ancaq bütün addımlar kifayət qədər ətraflı təlim modulunun bir hissəsi olaraq aşağıdakı blokların fərqləndirildiyi bildirildi: məlumat, icra, nəzarət və metodoloji. Bunlara yaxından nəzər salaq:

**Məlumat modulunun məzmunu**. Modul bir proqram üçün material seçimi mərhələlərlə aparılmalıdır. Əvvəlcə material mövzu səviyyəsində seçilir.

Təlim modulunun inkişafında növbəti addım layihə modelinin yaradılmasıdır. Model, müəyyən təhsil mühitində istifadə səviyyəsinə gətirilir və şagirdlərin hazırlıq səviyyəsindən asılı olur. Təlimin səviyyəsindən asılı olaraq məzmunun dizaynı tədris metodlarının seçimi ilə birləşdirilir. Dizaynın nəticəsi bir sıra təlim modulları və bu akademik fənnin konseptual aparatı olacaq.

Təlim modulu qurarkən aşağıdakı hərəkətlər ardıcıllığı ən optimal hesab olunur:

1. Öyrənmə məqsədlərinin formalaşdırılması.
2. Giriş nəzarəti ilə əsas təhsil və təlim səviyyəsinin təyin edilməsi.
3. Bilik hissənin məzmununu qurmaq. Modulun təlim elementini və elementlər arasındakı əlaqələri ortaya çıxarmaq. Nəzarət tapşırıqları sisteminin formalaşdırılması yolu ilə assimilyasiya səviyyələrinin və assimilyasiya şüurunun müəyyən edilməsi. Tədris metodları sisteminin inkişafı.
4. Əməliyyat hissəsinin məzmununu peşəkar bacarıqların məntiqi quruluşuna əsaslanaraq qurmaq.
5. Şagirdin iş rejimindən asılı olaraq tədrisin xüsusiyyətlərinin nəzərə alınması. Təhsil mətnləri üçün izahat və tapşırıqların tərtib edilməsi. Müstəqil tapşırıq növləri sisteminin formalaşdırılması.
6. Modulu bir paket halına gətirmək.

Kurikulum elementləri bəzən aşağıdakı kateqoriyalara qruplaşdırılır:

1. Peşəkar fəaliyyətlərdə təhlükəsizliyin əsas aspektləri ilə əlaqəli.
2. Bacarıqların (fəaliyyət, psixomotor, intellektual) formalaşması üçün nəzərdə tutulmuşdur.
3. Əsas prinsipləri (elmi, texniki, riyazi və s.) təmsil etmək.
4. Qrafik məlumatların oxunması və təfsiri ilə əlaqədar (rəqəmlər, eskizlər, diaqramlar, rəsmlər və s.).
5. Materialların məqsədi, quruluşu, texniki xüsusiyyətləri və istifadəsi, habelə iş və istehsal üsulları haqqında məlumatların olması.
6. Alətlərin, avadanlıqların və mexanizmlərin iş prinsipləri, dizaynı, tətbiqi və texniki xarakteristikaları haqqında məlumatların olması.

**Əməliyyat modulunun məzmunu**. Təhsil müəssisələrinin akademik fənlərin modul quruluşundakı təcrübəsi göstərir ki, vaxt və metodoloji bilik tələb edən, ən çox vaxt aparan hissə modulun əməliyyat blokunun hazırlanmasıdır. Əməliyyat hissəsinin hər bir moduldan ayrı bir əməliyyat moduluna ayrılmasının əhəmiyyətli üstünlükləri var.

Əməliyyat modulu iş dəftəri ilə birlikdə istifadə edilərsə, praktiki məşğələlərin və şagirdlərin müstəqil işlərinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır. Əməliyyat modulunun məzmunu müəyyən məqsədə uyğun olaraq seçilir: təlim tapşırığından istifadə edərək xüsusi praktiki problemləri həll etmək üçün nəzəri bilikləri tətbiq etmək bacarığını formalaşdırır.

Təhsil materialının pedaqoji səviyyədə bir vəzifə olaraq nəzərdən keçirilməsini aşağıdakı kimi təklif etmək olar:

- müəyyən bir nəticə əldə etmək üçün müəyyən hərəkətlər etmək əmri, yəni tapşırığın məqsədi;
- hərəkətin edilməli olduğu obyektin göstəricisi, yəni, işin vəziyyəti;
- potensial olaraq istənilən nəticəni əldə etmək üçün bir yol ehtiva edən bu iki amil arasındakı əlaqə.

Bu yanaşma ilə məşq şagirdin fəaliyyətinin reproduktiv səviyyəsini təyin edən həll işarəsi olan iş növüdür. Tapşırıq, fəaliyyətin yaradıcı mahiyyətini nəzərdə tutan həll üsulunun aşağı göstərilməsi ilə xarakterizə olunan bir növ işdir. Əməliyyat moduluna daxil olan vəzifələr və məşqlər sistem meydana gətirərək bağlanmalıdır. Modul daxilində tapşırıqlar və məşqlər arasında əlaqələr qurmağın çətinliyi öyrənmə prosesinin ziddiyyətli xüsusiyyətindən

qaynaqlanır. Öyrənmə tək bir sistem deyil, filosofların "sistem kompleksi" adlandırdıqları şeydir [5]. İki heterojen sistem kompleksi: iki fəaliyyət sistemi (müəllim – şagird) və təhsilin məzmununu özündə cəmləşdirən mətnlər, tapşırıqlar, tapşırıqlar sistemi.

Modul bir tərəfdən təhsilin məzmununu şagirdə ötürür (məzmunu məqsədlər, metodlar, təşkilatlanma formaları ilə əlaqələndirir), digər tərəfdən təhsil prosesinin yerləşdirilməsində iştirak edir (metod və yanaşmalara çevrilir) sinifdəki problemləri həll etmək üçün). Modulun öyrənmə prosesinin əsas elementi olması, təhsil prosesinin qurulması metodunun hazırlanmasında təhsil vəzifələrinin sistemləşdirilməsini və sıralanmasını tələb edir [4, s.288].

Modul öyrənmə prinsiplərinə uyğun olaraq, tapşırığın yerinə yetirilməsi prosesini təşkil edən əməliyyatlar sisteminə əsaslanan təsnifat şagirdin fəaliyyətinə yönəlmiş müxtəlif xüsusiyyətlərə əsaslana bilər: fəaliyyətin xarakteri; fəaliyyətin keçdiyi dil və nitq formaları; fəaliyyətin mürəkkəblik və müstəqillik dərəcəsi.

Fəaliyyətin xarakteri (reproduktiv, axtarış, yaradıcı) şagird fəaliyyətinin əsas xüsusiyyətidir. Y.K.Babanski, şagirdlərin reproduktiv axtarış və yaradıcı təhsil-idrak fəaliyyətlərindən çox haqlı olaraq bəhs edir ki, müəllimin vəzifəsi minimum mümkün olan maksimum nəticəyə nail olmaq üçün təhsil fəaliyyətinin müxtəlif formalarını idarə etməkdir[1].

Tapşırıqların reproduktiv, axtarış və yaradıcılığa bölünməsi yaradıcı xarakterli vəzifələrə diqqət yetirməyə və buna görə də yaradıcı düşünən şagirdlər hazırlamağa imkan verir. Reproduktiv tapşırıqlar yaradıcı tapşırıqlardan əvvəl olmalıdır. "Müstəqillik dərəcəsi" anlayışı müəllimlərə tapşırıqları sinifə və evə (müstəqil) bölməyə imkan verir.

Təhsili sistemində təhsil tapşırıqlarının hazırlanmasında "fəaliyyətin mürəkkəblik dərəcəsi" işarəsi nəzərə alınmalıdır. Təlimin ilk mərhələlərində şagirdlərdən tipik vəziyyətlərdə müstəqil hərəkət etmələri tələb olunur, buna görə də tipik tapşırıqlar seçilir. Modulun məqsədlərinə uyğun olaraq sadə bacarıqlar formalaşdırırlar.

Əməliyyat modulunda növbəti addım kompleks vəzifələrdir. Onların köməyi ilə tələbələr modulun didaktik məqsədlərinə uyğun olaraq formalaşmış sadə bacarıqlara əsaslanaraq mürəkkəb bir bacarığa yiyələnirlər. Tipik və mürəkkəb vəzifələrin həllinin nəticəsi formalaşmış icra müstəqilliyidir. Bu, öyrənənin məlum alqoritmdən istifadə edərək bir hərəkət etməsinə imkan verir. Bu alqoritmlərə əsaslanaraq, tələbə tipik vəziyyətlərdə bir sıra hərəkətlər edə bilər. Mürəkkəb problemlrin həlli, artıq mənimsənilmiş fəaliyyət metodlarını yeniləri ilə müstəqil birləşdirmək, təcrübənin yeni funksiyalarını görmək qabiliyyətinin inkişafına kömək edir.

Atipik vəziyyətlərdə hərəkətlərin müstəqilliyini (yaradıcı müstəqillik) formalaşdırmaq üçün situativ, problemli vəzifələr seçilir. Problemli vəzifələrin həlli, fövqəladə bir vəziyyətdə optimal bir qərar qəbul etməyi, aktiv olaraq özünə məqsəd qoymağı aktivlik səviyyəsinə gətirir. Vəziyyət öyrənmə, fəaliyyətin yönəldilməsi lazım olan bir mövzu olaraq deyil, fəaliyyət problemlərinin həlli vasitəsi olaraq verilən bilik və bacarıqlara yönəlib.

Əməliyyat modulu, şagirdlərin müstəqil hərəkətlərinin formalaşma səviyyəsini təyin etməyə imkan verən nəzarət tapşırıqları ilə tamamlanmalıdır. Müstəqillik səviyyəsinə uyğun olaraq müəyyən bir mürəkkəbliyə malik vəzifələr seçilir. Hər bir tələbə üçün materialın mənimsənilməsinin nəticələrinə əsasən onun fərdi hərəkətlərin müstəqillik səviyyəsi müəyyən edilir.

**Ədəbiyyat**


1. Бабанский Ю.К. Избранные педагогические труды / Сост. М.Ю. Бабанский. - М. Педагогика. 1989.- 560 с.

2. Nəzərov M.H. Təhsil fəlsəfəsi. Dərs vəsaiti. Bakı: ADPU, 2021. 496 s.

3. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosialmədəni problemləri. Monoqrafiya. Bakı - Mütərcim – 2018, 296 s.

4. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. ADPU-nun nəşriyyatı. 496 s.

5. Шамова. Т.И., Давыденко Т.М., Шибанова Г.Н. Управление образовательными процессами. - М.: Академия, 2002. - 384 с.

## TƏDRİS PROSESİNDƏ İNTEQRASİYANIN ROLU

**Əfəndizadə Ayşən Elşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayshanafandizada99@gmail.com*

Müasir dünyada, bütün sahələrdə olduğu kimi, təhsildə də geniş inteqrasiya zərurəti yaranmışdır. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyasın sənədində təhsilin inteqrativ kurikulum şagirdyönümlü, humanistləşən təhsilin fəlsəfəsidir və təlim strategiyalarının qurulması işində böyük rol oynayır. Qeyd olunan sənəddə ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur. İnteqrasiya - müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünün inkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponetləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir. İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə və asıllılığı dərinləşdirməyə xidmət edir. İnteqrasiyanın köməyi ilə şagirdlər öyrəndikləri arasında asılılığı, əlaqəni başa düşür və onlardan şəxsi və ictimai problemlerin həllində istifadə edir. Müasir dünya təcrübəsində əsasən 2 növ inteqrasiyadan istifadə edilir: 1. Fəndaxili inteqrasiya; 2.Fənlərarası inteqrasiya. Fəndaxili inteqrasiya- müəyyən bir fənnin tədrisində öyrədilən bilik, bacarıqların əlaqələndirilməsi yeni fənn daxilindəki faktların sistemləşdirilməsidir. Bu inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsidə hesab etmək olar. Fənlərarası inteqrasiya – iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrənilməsində istifadəsini nəzərdə tutur. İnteqrasiyaya aid nümunə qeyd edək. Məktəblərin texnologiya dərslərində fizika, riyaziyyat anlayışlarının formalaşması üçün daha çox zəngin material vardır. Məsələn, müəllim şagirdlərə riyaziyyatda "tangens" anlayışını öyrədərkən onlara metal və ağac emalı zamanı "konusluqdan" onlara necə istifadə edilməsini izah edir. Müəllim göstərir ki, tokar dəzgahında kəsik konus şəklində cisim emal edilərkən bucağın tankesindən istifadə edilir. Beləliklə "tangens" anlayışı şagirdlərin yadında möhkəm qalır, onlar başa düşürlər ki, bu sadəcə əzbər yadda saxlamaq üçün riyazi düstur deyil, həm də onun həyatı mənası vardır.

## SƏNƏTKARIN HƏYAT VƏ YARADICILIQ YOLUNUN TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏ

**Zeynalova Xalidə Fuad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*xalidexalide26@gmail.com*

Qloballaşan dünyaya nəzər yetirdiyimizdə son bir neçə onillikdə informasiya resursları və informasiya industriyasının bir silsilə halında inkişafını görürük. Etiraf etməliyik ki, müasir dövrümüzdə heç bir sahəni informasiya komminikasiya texnologiyalarsız (İKT) təsəvvür etmək çətindir. Bu sahələrdən biri də təhsil sahəsidir. Təhsilə yeni yanaşmalar, məzmun, məqsəd və vəzifələrində baş verən ciddi dəyişmələr İKT-dən istifadəni zəruri etdi. Bu günümüzün reallığı olaraq təhsilimiz "İnformasiya-Təhsil məkanı" mühitində reallaşır. Hal-hazırkı dövrdə ümumtəhsil məktəblərində qüvvədə olan proqrama daxil olan hər bir fənnin tədrisində İKT-dən geniş istifadə olunur. Doğrudur, ilk vaxtlar İKT-dən istifadə zamanı ciddi problemlərlə

qarşılandı, lakin hal-hazırkı dövrümüzdə bu problemlərin bir çoxu aradan qalxmışdır.Beləliklə V-XI siniflərdə tədris olunan fənlərdən biri də ədəbiyyatdır.

Ədəbiyyat proqramına daxil edilən mövzuların hər birinin tədrisində İKT-nin imkanlarından istifadə məqsədəuyğundur.Ədəbiyyat fənnin spesfik mövzularından olan sənətkarın həyat və yaradıcılıq yolunun tədrisi zamanı kompüter texnologiyalarından istifadənin müsbət nəticələr verdiyini qabaqcıl müəllimlərin iş təcrübəsini öyrəndiyimizdə görürük. Sənətkarın həyat və yaradıcılıq yolunun tədrisində İKT-dən istifadə mənbələrdən işləmək imkanını genişləndirir. Sistemli,daha az vaxtdan istifadə edərək mənbələr toplamağa şərait yaradır. Ümumiyyətlə sənətkarın həyat və yaradıcılıq yolunun tədrisində İKT-dən istifadənin şagirdlər üçün əhəmiyyəti belədir:

1.Şagirdlərdə həm tədqiqat, həm də praktik bacarıqları inkişaf edir.

2.Şagirdlərin dərsə marağı, dünyagörüşü artır.

3.Şagirdlər tərəfindən materialların mənimsənilməsi prosesini sürətləndirir.

4.Şagirdlərdə təhliletmə bacarığını gücləndirir.

5.Şagirdlərin fikri fəallığının artmasına müsbət təsir edir.

6. Şagirdlərin dərs prosesində fəaliyyətinin sürətlənməsinə şərait yaradır.

7.Şagirdlərdə gündəlik həyatda kompüter texnologiyasından istifadə bacarıqlarını formalaşdırır.

8.Şagirdlərin müxtəlif mənbələrdən istifadə etmə bacarıqları formalaşdırır.

Müəllimlərlə aparılan söhbətlərdən aydın olur ki, onlar sənətkarın həyat və yaradıcılıq yolunu materiallarını tədris edərkən proyektor, kompüter, ağıllı lövhə kimi texniki vasitələrdən, Word, Power Point, YouTube kimi proqramlardan, google.com, yandex.com, kimi axtarış sistemlərindən, vikipediyanın imkanlarından istifadə edirlər. Proyektor, kompüter, ağıllı lövhədən istifadənin dərs prosesinə gətirilməsiylə şagirdlər ekranlarda əks olunan məlumatlar barəsində təhlil aparmaq, müstəqil fikir yürütmək imkanlarını genişləndirir.

Sənətkarın həyat və yaradıcılıq yoluna həsr olunmuş dərslərin canlı, maraqlı tədrisini təmin etmək üçün bu vasitələrdən istifadə səmərəli nəticələr verir. Məktəblərdə müşahidə apardığımız zaman şagirdlərlə söhbət etdikdə bu tip materialların tədrisində İKT-dən istifadənin onların dərsə olan marağını artırdığını müəyyən etdik.

İnformasiya-kommunikasiya texnologiyalarının imkanları fəal/interaktiv təlim əsasında qurulan dərsin hər bir mərhələsində tətbiqi mümkündür. Bir sözlə sənətkarın həyat və yaradıcılıq yolunun tədrisində 1. mərhələdən (sinfin təşkili və ev tapşırığının yoxlanması) və sonuncu mərhələsinə (Qiymətləndirmə və refleksiya) qədər İKT-nin verdiyi imkanlardan yararlanmaq olar.

Dərsin motivasiya mərhələsində bu texnologiyalar tətbiq edilir. Məsələn: Nəsiminin həyat və yaradıcılıq yolunun tədrisində "Nəsimi", Bəxtiyar Vahabzadənin həyat və yaradıcılıq yolunun tədrisində "Bəxtiyarlı dünyam", Nəcəf bəy Vəzirovun həyat və yaradıcılıq yolunun tədrisində "Palıd ömrü" filmlərindən proyektorun köməyi ilə kiçik bir fraqmenti təqdim etməklə motivasiya qurmaq mümkündür. Filmdən fraqmenti izləyən şagirdlərdə sənətkarla bağlı ilkin təsəvvürlər yaranır,fikri fəallıqları təmin olunur. Bu zaman şagirdlərin təəssüratlarını öyrənmək üçün müəllim suallar verə bilər. Bildiyimiz kimi sənətkarın həyat və yaradıcılıq yolunun tədrisi müxtəlif mənbələrdən istifadəni tələb edir. Bu səbəbdən axtarış sistemlərindən məlumatlar qısa müddətdə əldə olunur. Bu da öz növbəsində vaxta qənaət etmək və fərqli mənbələrlə işləmək imkanı verir.

Ümumiyyətlə bəzi məktəblərdə şagirdlərin mənbələrlə işləməsi ilə bağlı problemlər vardır və bunu ardan qaldırmaq üçün İKT köməkçi ola bilər. Dərsin digər mərhələsi olan tədqiqatın aparılması mərhələsi üçün iş vərəqlərinin hazırlanması üçün Word proqramının imkanlarından istifadə edilə bilər. Bu zaman iş vərəqlərinin tərtibatı daha göz oxşayan , onların hazırlanmasına ayrılan vaxta isə qənaət edilmiş olur. Word proqramının imkanlardan yararlanmaq şagirdlərin tədqiqat işinə marağını artırmaq mümkündür. Word proqramının köməyi

sənətkarın həyatının, yaradıcılığının müxtəlif dövrlərini əks etdirən cədvəllər, sxemlər hazırlanıb şagirdlərə təqdim oluna bilər. Power Point proqramının imkanlarından yararlanaraq müxtəlif slaydlar tərtib etməklə dərs daha canlı qurula bilər. Bəzi müəllimlər şairin, yazıçının ev muzeyindən görüntüləri təqdim etmək üçün, yaşadığı dövrün mənzərəsini şagirdlərdə canlandırmaq üçün hazırladıqları slaydları dərsdə təqdim edirlər.

Bununla yanaşı şagirdlər ev tapşırığını hazırlarkən İKT-dən istifadə edərək əlavə məlumatlar toplayıb, təqdimatlar hazırlayaraq dərsdə təqdim edirlər. Bu da şagirdlərin kompüter texnologiyasından, müxtəlif mənbələrlə işləmə bacarığı aşılayır. Sənətkarın həyat və yaradıcılıq yolunun tədrisində İKT-dən istifadə bir məqsəd deyil, vasitə olmalıdı. Yəni bu materialların tədrisində qarşıya qoyulan məqsədlərə çatmaq üçün bu texnologiyadan istifadə vasitə olmalıdır.

Müasir dövrümüzdə İKT-nin imkanlarından istifadə daha əl çatan olsa da bəzi məktəblərdə bu imkanlardan istifadə üçün texniki təminat yoxdur. Bu hal daha çox kənd məktəblərində özünü göstərir. Lakin bu problemin yaxın vaxtlarda həllinin tapılması üçün bir sıra addımlar atılır. Son olaraq onu demək olar ki,ədəbiyyat dərslərində və eyni zamanda digər dərslərin tədrisi prosesində İKT-nin imkanlarından istifadənin genişləndirilməsi, texniki imkanlarından yaxşılaşdırılması ədəbiyyat dərslərinin daha uğurlu qurulmasını təmin edir.

**Ədəbiyyat:**


1. Həsənli B. Ədəbiyyatın tədrisi metodika, Bakı:Müəllim, 2014
2. Mehrabov. A Təhsildə texnoloji yanaşmaların mahiyyəti və əsas xüsusiyyətləri. //Azərbaycan müəllimi qəzeti, Bakı, 2006
3. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, Bakı 2017


## COĞRAFİYA FƏNNİNİN TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏ İMKANLARI


**Mirzəyev Taleh Əlizamin oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mirzayev.taleh@gmail.com;*
*taleh.mirzeyev.cog2003m@adpu.edu.az*


**Giriş. Problemin aktuallığı.** Müasir dünyada öyrənmə və öyrətmənin, sözün bütün mənalarında kommunikasiyaların qurulmasının tam yeni bir mərhələsi yaşanır. Müasir cəmiyyət “informasiya cəmiyyəti”dir. Artıq sənayenin klasifikasiyasında xüsusi olaraq dördüncü sektor – informasiya sənayesi ayrılır. Belə bir şəraitdə orta məktəblərdə tədris olunan fənlər içərisində xüsusi həyati rolu olan, dünyanın hərtərəfli obrazının tam təsəvvürünü şagird zehnində tərbiyə edən coğrafiya fənninin də qarşısına yeni reallıqlar çıxır. Ümumən, artıq son 30 ilə yaxın müddətdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) hərtərəfli inkişafı ilə texnologiya günümüzün tədrisində əsas təlim mənbə, üsul və vasitələri arasında yer alır. Bu baxımdan məktəb coğrafiyası xüsusən seçilir. Buna görə də coğrafiya dərslərində İKT-dən istifadənin problemlərinin metodik baxımdan da əsaslı işlənilmədiyi nəzərə alınaraq bu sahədə tədqiqat aparmaq olduqca böyük elmi-metodik və praktik əhəmiyyət kəsb edir.

**Coğrafiyanın tədrisində İKT-nin imkanlarının təhlili.**Coğrafiyanın tədrisində İKT-nin təqdim etdiyi texnoloji həllərin istifadəsi fənnin özünün əyaniliyi ilə də bağlı olaraq çox geniş imkanlar açır. Bu məsələlərin nəzəri təhlilini iki istiqmətdə apara bilərik:

*- Birincisi, İKT məhsullarının coğrafiyanın tədrisində tətbiqinin metodiki ədəbiyyatda nəzəri əsaslandırılması və burada önə çıxarılan çətinliklər;*

*- İkincisi, son iki ildə dünyanı cənginə alan qlobal pandemiya – COVID-19 virusu ilə bağlı sağlamlığın qorunması üçün canlı fiziki ünsiyyətlərin minimuma endirilib bütün təhsil müəssisələrinin bağlanması və yenidən bərpa olunması fonunda bütün fənlər üzrə İKT həlləri*

*ilə məsafədən tədrisin texniki, proqram həllərinin coğrafiyanın öyrədilməsində açdığı imkanlar, qarşıya çıxan obyektiv, subyektiv və texniki çatışmazlıqların təhlili.*

Qeyd olunduğu kimi atıq iki ildir ki, İKT tədrisin əsas və bəzən yeganə vasitəsinə çevrilib. Yaranan vəziyyətdən aydın olur ki, bu modellər virus bizi tərk edəndən sonra da özünü inkişaf edirəcək və yaxın gələcəyin tədrisi məhz onlara əsaslanacaq. Burada isə nəhəng texniki və metodiki həllərdən, hazırlıqdan söhbət gedir. Ümumən yuxarıdakı iki istiqamətdə “klassik” adlandırıla bilinəcək yanaşmaları təhlil edib bu aspektdən önə çıxan problemlərə nəzər yetirək.

**Əyani tədrisdə İKT-nin tətbiqi.**Kompüter və internet hal-hazırda prinsipcə daha yeni təlim vasitəsi sayılır. Müasir təhsil sistemi informasiya sahəsinin daha da genişlənməsi ilə xarakterizə olunur. Belə ki, artıq yeni bilikləri şagirdlər təkcə ənənəvi məlumat mənbələrindən (dərslik, vəsaitlər, müəllim və s.) deyil, eyni zamanda kütləvi informasiya mənbələrindən də əldə edirlər.

İnternet telekommunikasiya şəbəkəsi hər bir insanın məlumat əldə etmək imkanlarını o qədər genişləndirmişdir ki, onun hüdudları daim artmaqda davam edir. İnternet təkcə istənilən məlumatı əldə etmək deyil, öz şəxsi ideyalarını başqaları ilə bölüşməyə də imkan verir.

Hazırda təlim keyfiyyəti təhsilin məzmunundan və dərsin keçirilməsi texnologiyasından çox asılıdır. Kompüter, multimediya vasitələri, elektron dərslik, internet resursları müəllimin əlində təkcə təlim vasitəsi deyil, həm də şagirdlərin yaradıcılıq fəaliyyətinin inkişafı üçün bir alət rolunu oynayır. Coğrafiya tədrisində İKT-dən istifadənin üstünlükləri aşağıdakılardır:

- *təlim prosesi məktəb divarları ilə məhdudlaşmayıb fasiləsiz davam edir;*
- *elektron bilik mənbələri ilə müstəqil işləmək bacarıqları formalaşdırılır;*
- *təlimin məlumat sahəsi və mühiti genişlənir;*
- *müəllimlərlə istənilən əlverişli vaxtda dialoqa girmək imkan yaranır;*
- *yeni tədris materialları ilə müstəqil işləmək imkanının yaranması (üzrlü səbəbdən məktəbə gəlmək imkanı olmadıqda, əvvəlki mövzuları təkrar edərkən, özünütəhsil zamanı);*
- *istənilən vaxtda və istənilən yerdə məşğul olmaq imkanı;*
- *tədris materiallarının kompüterlə audiovizual şəkildə ötürülməsi;*
- *şagirdlərin təlim prosesinə maraqlarını artırır, motivasiyanı gücləndirir.*

İKT-dən istifadə edilməsinin müəllimlər üçün də xeyli üstün cəhətləri var:

- *informasiyanı mobil şəkildə və istənilən sayda əldə etmək, hazırlamaq və ötürmək imkanı;*
- *tədris fəaliyyətinə və tədris materiallarının mənimsənilməsinin nəticələrinə nəzarəti operativ şəkildə həyata keçirmək;*
- *böyük həcmdə informasiyanın saxlanılması, istənilən anda ötürülməsi və işlənilməsi;*
- *təkcə öz şagirdlərinin deyil, elektron vəsaiti seçən hər bir şəxsin yaradıcı fəaliyyətlərinin inkişafına təsir etmək* [1, s.201-202].

Təhsil sistemində İKT-dən istifadənin genişlənməsini nəzərə alaraq respublikamızda bu sahənin inkişafına dövlət nəzarəti həyata keçirilir. Bu fəaliyyətlər aşağıdakı istiqamətlərdə icra olunur:

- *Təhsil müəssisələrinin tam kompüterləşməsi və internetdən istifadənin həyata keçirilməsi ilə bağlı tədbirlər görülür, məktəblər lazımi avadanlıqlarla (proyektor, elektron lövhə və s.) təchiz olunur.*
- *Təhsil müəssisələri işçilərinin İKT-dən istifadə etməsi məqsədi ilə onların təkmilləşdirilməsi. Bu məqsədə Təhsil Nazirliyi tərəfindən xüsusi kurslar təşkil olunur.*
- *Məktəblilər üçün İKT-dən istifadənin yaxşılaşdırılması məqsədi ilə tədris metodiki materialların, elektron dərsliklərin hazırlanması.*

Aydın olur ki, kompüter texnologiyasından tədris prosesində istifadə edilməsi müvafiq təlim vasitələrinin olmasını tələb edirsə, digər tərəfdən müəllim və şagirdlərin də bu vasitələrlə işləmək bacarıqlarının olmasını tələb olunur. Bu vasitələr həyatımıza o qədər daxil olub

ki, gənclərin onlardan istifadəsi ilə bağlı elə də ciddi problemləri yoxdur. Lakin kompüter texnologiyaları ilə işlər, kompüter proqramlarından istifadə təlim məqsədlərinə yönəldilməli, səmərəli və məqsədyönlü olmalıdır. Bunun üçün onların metodiki imkanlarından istifadə edilməli, sistematik iş aparılmalıdır.

**Ədəbiyyat:**


1. Alxasov Oqtay. Coğrafiyanın tədrisi metodikası. Bakı:Elm və təhsil, 2013, 368 səh.
2. Seyfullayeva Nərminə. Coğrafiya tədrisi metodikası. Ali məktəblər üçün dərslik. “ЕМК” Nəşriyyatı. Bakı 2011. 493 səh.
3. http://www.anl.az/down/meqale/az_muellimi/2014/oktyabr/397483.htm
4. www.e-derslik.edu.az


## MÜASİR KOMPÜTER PROQRAMLARININ COĞRAFİYA DƏRSLƏRİNƏ TƏTBİQİ


**Mirzəyev Taleh Əlizamin oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mirzayev.taleh@gmail.com;*
*taleh.mirzeyev.cog2003m@adpu.edu.az*



**Xülasə**

Məqalədə coğrafiya dərslərində istifadə oluna biləcək İKT həlləri, elektron dərsliklər və onların imkanları, Azərbaycanda elektron dərsliklərin səviyyəsi təhlil edilmişdir. Təhlilin yekununda İKT-nin coğrafiya fənninin tədrisində istifadə sahələri ümumiləşdirilmişdir.


## ИКТ-РЕШЕНИЯ, ИСПОЛЬЗУЕМЫЕ В ГЕОГРАФИЧЕСКОМ ОБРАЗОВАНИИ


**Резюме**

В статье анализируются решения ИКТ, которые можно использовать на уроках географии, электронные учебники и их возможности, уровень электронных учебников в Азербайджане. В конöе анализа обобщаются области использования ИКТ в обучении географии.


## ICT SOLUTIONS USED IN GEOGRAPHICAL EDUCATION


**Summary**

The article analyzes ICT solutions that can be used in geography lessons, electronic textbooks and their capabilities, the level of electronic textbooks in Azerbaijan. At the end of the analysis, the areas of use of ICT in the teaching of geography are summarized.


İlk növbədə coğrafiya müəllimləri müxtəlif kompüter proqramları ilə tanış olmalı, onların didaktik funksiyalarını bilməli və tədris prosesinə gətirməyi bacarmalıdırlar. Bəzi kompüter tədris proqramlarını nəzərdən keçirək:

**1. Tədris proqramları** – yeni biliklərin çox müxtəlif üsullarla verilməsidir. Əsas növü ***elektron (multimedia) dərsliklərdir***.

**2. Trenajor (məşq) proqramlar** – bilik və bacarıqların formalaşdırılmasına və möhkəmləndirilməsinə xidmət edir. Nəzəri materiallar öyrənildikdən sonra istifadə edilir.

**3. Nəzarətedici proqramlar** – bilik və bacarıqların yoxlanılmasına, nəzarətinə istiqamətləndirilib. Çoxlu yoxlama sualları, tapşırıqlar və testlər verilir.

**4. Nümayişetdirici proqramlar** – təsviri xarakterli tədris materiallarının əyani nümayişi həyata keçirilir (illüstrasiyalar, foto-video, animasiyalar).

5. **Geoinformasiya sistemləri (GİS)** – Yer səthi haqqında məlumatların xəritədə göstərilməsi, təhlili və saxlanılmasıdır. İstənilən ərazi haqqında müvafiq məlumatın tez tapılmasına imkan verir.

**6. Sorğu-məlumat proqramları** – lazımi materialların internet axtarış sistemləri ilə asan əldə olunması, müxtəlif elektron ensiklopedik nəşrlər bura daxildir [1, s.203].

Kompüter texnologiyasından təlim prosesində istifadə edilməsi zamanı problemin həll edilməmiş məsələləri ortaya çıxır. Belə məsələlər bunlardır:

- *informasiya axınından baş açmaq, doğru istiqamət götürməyin çətinliyi;*
- *şagirdlərin malik olduqları və mənimsəyə biləcəkləri informasiyaların həcmləri arasında uyğunsuzluğun böyük olması;*
- *təlimin fərdiləşdirilməsi və differensasiyasının qaçılmaz olması;*
- *insan təfəkkürü və maşın məntiqinin müqayisə edilməzliyi;*
- *kompüter və ənənəvi təlim texnologiyalarının bir-biri ilə qovuşduğu, uyğun gəldiyi yolların müəyyən edilməsi.*

***Kompüter texnologiyasının ənənəvi təlimin forma və vasitələri ilə uyğunlaşdırılması onların tətbiqində ən mühüm metodik prinsipdir.***

**Elektron (multimediya) dərsliklər**. Stabil dərsliklərlə xüsusi multimediya proqramlarından istifadə coğrafiya təliminin imkanlarını xeyli genişləndirir. Bu yolla tədris materialları müxtəlif formalarda şagirdlərə təqdim olunur ki, təlim prosesi daha maraqlı və yadda qalan olur.

Elektron (multimediya) dərsliklər yeni nəsil təlim vasitələrinə aid edilir. Ənənəvi dərsliklər kimi bu vasitə də informasiya ötürücü funksiya daşıyır. Lakin baza tədris materialları ilə yanaşı coğrafiyanın dərinləşdirilmiş şəkildə öyrənilməsi üçün əlavə materiallara da malikdir (sorğu materialları, praktik işlər, internetə çıxış və s.). Belə dərslik xüsusi proqram təmi-natından ibarətdir ki, burada mövzular mətn, illüstrasiyalar, videogörüntülər, kompüter animasiyaları, musiqi, diktorun sözləri və s. müşayət olunur ki, bu da şagirdlərin təris fəaliyyətinin motivasiyasına xidmət edir. Multimediya dərsliklərinin digər funksiyası şagirdlərin müstəqil tədris fəaliyyətinin təşkili imkanlarının böyük olmasından ibarətdir. Şagirdlərə bilikləri əldə etməyə, praktik işlərin köməyi ilə nailiyyətlərini yoxlamağa, test tapşırıqları yerinə yetirməyə imkan yaradır. Əksər tapşırıqlar oyun formasında təqdim olunduğundan şagird biliyinin və bacarıqlarının dərinləşməsinə və möhkəmlədirilməsinə səbəb olur. Əlavə olaraq dərslikdən, atlasdan və s. vasitələrdən də məlumat əldə etmək mümkündür.

Nəzarətedici funksiya multimediya dərsliklərində "test" və "praktika" bölmələrində verilir. Müxtəlif çətinlik səviyyəsində olan və yerinə yetirilən tapşırıqlara qiymətləndirmə də tətbiq olunur.

Elektron dərsliklərin yerinə yetirdiyi funksiyaların müxtəlifliyi onların bir neçə istiqamətdə istifadə edilməsinə imkan yaradır. Bunları xüsusi cədvəldə cəmləmək mümkündür[1, s.206]:




***Şəkil 1. Multimediya dərsliklərinin təlimdə tətbiqi istiqamətləri***

Ancaq onu da qeyd etmək lazımdır ki, multimediya dərsliklərinin istifadə edlməsinin metodikası hələ kifayət qədər öyrənilməmiş və gələcəkdə bu istiqamətdə geniş tədqiqatlar aparılmasına ehtiyac vardır. O cümlədən sırf coğrafiya sahəsində elektron dərsliklər hələ də hazır-

lanmayıb. Halbuki bu digər fənlər içində ilk olunmalı bir məsələdir. Belə ki, təxminən 20 il bundan öncə Azərbaycan dünyada elektron hökumətə keçidi elan edən ilk dövlətlərdən biri oldu və təxmini 15 il bundan öncə proqramın icrası çərçivəsində təhsilin İKT-ləşdirilməsi ilə bağlı Dövlət Proqramı qəbul olundu. Proqram çərçivəsində kimya, biologiya, fizika kimi təbiət fənləri üzrə elektron dərsliklər, bu audiovizual vəsaitlərlə işləmək üçün metodik vəsaitlər nəşr edildi və müvafiq proqram təminatı ilə ölkə məktəblərinə paylandı. Lakin ümumi kompüter savadı və bu vəsaitlərlə işləmə bacarıqları çox zəif olan müəllimlər tərəfindən geniş istifadə olunmadı. Daha sonra proyekt yarım qaldı və beləcə, hazır vəsaitlər də arxa plana keçdi, coğrafiya fənni üzrə isə təəssüf ki, belə bir multimediya dərslik ümumən hazırlanmadı [6]. Hazırda isə bu sahədə dərsliklərin pdf, e-pub və onlayn oxu rejimlərində təqdimi, o cümlədən www.e-derslik.edu.az portalı fəaliyyət göstərir, burada bəzi dərsliklərdə foto-video əlavələrlə zənginləşdirmələr tətbiq olunsa da, bu heç də tam elektron dərslik adlandırıla bilməz[8].




*Şəkil 2. E-dərslik portalında onlayn rejimdə açılmış elektron dərslik*

Coğrafiya dərslərində istifadə olunan və Microsoft firmasının ofis təbiqi proqramlar paketinə daxil olan proqramlardan bəzilərini nəzərdən keçirək:

**Microsoft Office Power Point** – tədimat yaratmaq üçün istifadə olunan Microsoft Office proqramıdır. Bu proqram vasitəsi ilə slaydlar yaradılır və onlar bir-birinə ardıcıl istənilən qaydada düzülməklə hər hansı bir mövzunun təqdimatını təşkil etmək mümkündür O cümlədən proqramda slaydlara zaman təyin etmə, elementlərin və yazıların müəyyən animasiya effektləri ilə nümayişi, video əlavə edilməsi və s. funksiyalar da var.

Microsoft ofisin ən son versiyası olan “Office 365”ə daxil olan Power Point versiyasında isə istifadəçilər korporativ Microsoft hesabları ilə pulsuz olaraq yeni tədris effektlərindən, fənn sahələrinə aid hazır təqdimat şablonlarından, 3D formada hərəkət edən animasiya təkliflərindən yararlanmaqla tədrisi xeyli əyaniləşdirə bilərlər [4].




*Şəkil 3. Office 365-in təklif edtiyi 3D coğrafi animasiya modeli*

Bundan əlavə daha bir funksiya isə GİS xəritə proqramlarından götürülən müəyyən bir ərazinin peyk xəritə təsvirinin xüsusi proqramla[3] onlayn qaydada avtomatik olaraq bu təsvirin 3D modelini qurub kompüterə yükləmək və sonra pover pointin alətlər bölməsindən **3D**

**Xəritələr** düyməsi ilə yaddaşdan həmin faylın daxil edilməsi ilə təqdimatda ərazinin 3D modelini təqdim etməsidir[7].

**MİMİO proqramı**. Mimio interaktiv qurğusu müxtəlif fənləri tədris etmək üçün geniş imkanlar açır. Mimio ilə aparılan işin effektiv olması müəllimin qurğunun geniş imkanlarından tam istifadə etmək bacarığından asılıdır. Əlbəttə, kompüterin monitorunda lazımi proqramlar əks olunur. Amma kompüter monitorunun ölçüsü bütün sinfə tədris prosesində iştirak etməyə imkan vermir. Böyük ekranda göstərilən informasiyanı hər şagird görə bilir, amma bunun üçün biz faylları dəyişmək məqsədi ilə tez-tez lövhədən uzaqlaşmalı oluruq.Mimio proqramında isə buna ehtiyac qalmır, biz ekrandan aralanmadan bütün sinfin diqqətini cəlb edərək, materialı rahatlıqla sinifdəki hər bir şagirdə çatdıra bilirik.

Mimio dərsləri maraqlı edərək şagirdlərdə motivasiyanı inkişaf etdirir. Tədris materialının aydın və dinamik təqdimindən sonra şagirdlər çətin ideyaları daha yaxşı mənimsəyirlər. Eləcə şagirdlərə elmi informasiyanı necə təsnifatlandıra biləcəklərini izah edərək onları prosesə cəlb edir. Daha sonra şagirdlər müstəqil olaraq, qruplarda çalışa bilirlər.Şagirdlərin diqqətini cəlb etmək üçün daha bir imkandan istifadə etmək olar, "proyektor" aləti və "elektron pərdə" funksiyaları bizə informasiyanı istədiyimiz kimi açmağa, elektron mürəkkəblə istənilən əlavənin və ya saytın üstündə qeydlər edərək materialı izah etməyə yardım edir. Lakin qeyd edək ki, mimio texnologiyası bu sahənin ilklərindən olsa da, artıq son dövlərdə daha müasir və interaktiv, öz yaddaşına malik olan, hətta kompütersiz də çalışa bilən smart lövhə texnologiyaları tətbiq olunur (məsələn, prometan lövhələr).

**Excel elektron cədvəlləri** müəllimə dərsdə kartoqram və kartodiaqramlardan istifadə etməyə, statistik göstəricilərlə coğrafiyanın müxtəlif sahələrinə aid avtomatik diaqramlar almağa imkan verir.

**İnteraktiv xəritələrin** yaranmasını əyani vəsaitlər sistemində inqilab adlandırmaq olar. Bu tip xəritələr müəllimin qarışısında daha geniş imkanlar açır, dərsi daha canlı, müasir, səmərəli və maraqlı edir. İnteraktiv xəritələr bir növ üst-üstə qoyulmuş xəritələr təbəqəsi təsvvürü yaradır. Təsvir edilən ilkin xəritəyə verilmiş şərti işarələrin köməyi ilə istənilən məlumat və təsviri önə gətirmək, çıxartmaq mümkündür. İstənilən ərazini böyütməklə və kiçiltməklə diqqəti yönəltmək, təsvir və yazılar nümayiş oluna bilər. Xəritələrin tutuşdurulması prinsipi daha əyani, real vaxt rejimində və praktik aparılır.

**İneraktiv lövhə** də ən yeni texniki təlim vasitələrindən biri hesab oluna bilər. Bu müəllimə şagirdlərin təlim prosesində daha fəal mövqe tutmalarına, təşəbbüskar və müstəqil olmalarına imkan yaradır. İnteraktiv lövhələrin istifadə edilməsi imkanları hüdudsuzdur, yalnız dərs müddəti məhduddur [5].

Bunlardan əlavə virtual reallıq texnologiyalar və IMAX texnologiyası əzasında hazırlanan təsvirlərin coğrafiya dərsinə tətbiqi ilə bir anda şagirdlərin kosmosa, "canlı səyahətini" təşkil etmək belə mümkündür[2, s.365-367].

**Nəticə.**Ümumən İKT vasitələrindən təlimdə bu sahələrdə istifadə oluna bilər:

- *yeni məlumatın təqdimi;*
- *sərbəst və praktik işlər;*
- *materialın möhkəmləndirilməsi;*
- *müəllimin dərsə hazırlığı prosesi və s.*

Psixoloqlar qeyd edirlər ki, informasiya insanın eşitdiklərinin 10%-i, gördüklərinin 50%-i, özü etdiklərinin isə 90%-i həcmində yaddaşında qalır. İKT-nin bu sahədə böyük dəstəyi öyrənənin şəxsi araşdırması zamanı güclü informasiya bankı ilə təmin olunmasındadır (internet, elektron kitablar, test və tapşırıqlar və s.). O cümlədən virtual məkanda informasiya ilə işləyən şagirddə müstəqil axtarış, araşdırma təfəkkürünün formalaşması prosesi gedir. Şagirdin bilikləri sərbəst əldə etmək və qavramasında, yeni biliklərin dərkinin yüksək səviyyəsinin təmin edilməsində bu cür açıq informasiya mənbələri müstəsna əhəmiyyət daşıyır.

**Ədəbiyyat:**

1. Alxasov Oqtay. Coğrafiyanın tədrisi metodikası. Bakı:Elm və təhsil, 2013, 368 səh.
2. Seyfullayeva Nərminə. Coğrafiya tədrisi metodikası. Ali məktəblər üçün dərslik. “ЕМК” Nəşriyyatı. Bakı, 2011, 493 səh.
3. https://3d-mapper.com/
4. https://templates.office.com/en-us/beneath-the-surface-tm78625579
5. http://www.anl.az/down/meqale/az_muellimi/2014/oktyabr/397483.htm
6. http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm
7. https://www.youtube.com/watch?v=0d6VXyLC6BM
8. www.e-derslik.edu.az

## PEDAQOJİ TEXNOLOGİYALARIN FUNKSİYALARI, PRİNSİPLƏRİ VƏ STRUKTUR KOMPONENTLƏRİ

**İsayeva Aysel İlqar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayselisayeva716@gmail.com*

Bütövlükdə texnologiya (mənşəcə yunan sözüdür: incəsənət, ustalıq, bacarıq mənalarında işlədilir) İstehsal prosesində həyata keçirilən emal etmə, hazırlama, dəyişdirmə və s. üsullarının məcmusudur. Pedaqoji texnologiyalar dedikdə, pedaqoji məqsədlərin həyata keçirilməsinə zəmanət verən əvvəlcədən lahiyələşdirilmiş təlim-tərbiyə prosesinin ardıcıl reallaşdırıldığı sistem başa düşülür. Pedaqoji texnologiya isə pedaqoji elmin (tətbiqi pedaqogika) xüsusi istiqamətlərindən biridir. Pedaqoji texnologiyanın vəzifəsi müəyyən məqsədlərə nail olmanı təmin etmək, təlim-tərbiyə prosesinin səmərəliliyini artırmaq və onun yüksək səviyyəsinə zəmanət verməkdir.

Dar mənada pedaqoji texnologiyalar dedikdə, müəllimin konkret fəaliyyəti və qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsilə əlaqədar olan təlim-tərbiyə prosesinin təşkili yollarının, yaxud müəyyən hərəkətlərin və əməliyyatların məcmusu başa düşülür.

Pedaqoji texnologiyalara verilən təriflərdə bir neçə yanaşma ayırd edilir:

Prosessual – nəticəyə nail olmanı təmin edən pedaqoji prosesin (hərəkətlərin, əməliyyatların və prosedurların) müəyyən ardıcıllıqla sistemli qaydada təşkili yolları.

İnstrumental – təlim və tərbiyə üsulları, priyomları və vasitələrinin məcmusu.

Şəxsi – müəllimin pedaqoji ustalığının komponenti, tərkib hissəsi, pedaqoji hərəkətlərin sistemi kimi təlim-tərbiyə prosesini layihələşdirmək və həyata keçirmək bacarığı, qabiliyyəti

Bunların hamısı müəllimdən yüksək səviyyəli pedaqoji ustalıq, bacarıq və qabiliyyət tələb edir. Pedaqoji ustalığın səviyyəsi isə texnoloji kompetentliyin səviyyəsindən asılıdır və onunla şərtlənir.

Bunların arasında sıx dialektik əlaqə və asılılıq mövcuddur. Yəni müəllimin pedaqoji ustalığının səviyyəsi texnoloji kompetentliyin, səriştəliliyin səviyyəsilə şərtlənir. Belə ki, müəllimin pedaqoji texnologiyaya malik olması onun pedaqoji ustalığını yüksəldir və təkmilləşdirir. Bəzi alimlərin rəyinə görə, hətta orta qailiyyətə malik olan müəllim usta pedaqoq ola bilər.

Təlim metodundan fərqli olaraq texnologiya dəqiq təfsir edilir və alqoritmləşdirilir. Pedaqoji texnologiyaların aşağıdakı səciyyəvi əlamətləri vardır:

1) konseptuallıq;
2) sistemlilik;
3) innovativlik;
4) optimallıq
5) nəticəlilik və s.

Pedaqoji texnologiyaların funksiyaları onların mahiyyəti və səciyyəvi əlamətlərilə şərtlənir və sıx üzvi vəhdətdə, əlaqədə həyata keçirilir.

Müvafiq ədəbiyyatda pedaqoji texnologiyaların aşağıdakı funksiyaları ayırd edilir:

1) humanist və inkişafetdirici funksiya;

2) metodoloji funksiya;

3) layihələşdirmə və təşkil etmə (qurma, yaratma) funksiya.

Humanist və inkişafetdirici funksiya tədris prosesinin təhsil sahəsindəki məqsədlərinin həyata keçirilməsini, reallaşdırılmasını nəzərdə tutur: şagird şəxsiyyətinin inkişafı üçün komfort psixoloji şəraitin yaradılması; onun informasiya-texnologiya cəmiyyətində həyat fəaliyyətinə hazırlanmasıdır.

Metodoloji funksiya təlim modelinin ümumi strateji istiqamətini ifadə edir və müəyyən prosedur və əməliyyatlar sistemi vasitəsilə təlim strategiyasının konkret təcrübəyə tətbiqini nəzərdə tutur.

Layihələşdirmə və təşkil etmə (qurma, yaratma) funksiyası təlim şəraitini, təlimin subyektlərinin pedaqoji fəaliyyətini (fasiləsiz təlim, tərbiyə, təhsil və inkişaf) planlaşdırmağa və arzu edilən, böyük ehtimalla nəzərdə tutulan nəticələrin alınmasına zəmanət verməyə imkan yaradır.

Tədqiq etdiyimiz mövzu baxımından maraq doğuran məsələlərdən biri də pedaqoji texnologiyaların prinsipləri, onların təfsiri və təsnifatıdır.

Müvafiq pedaqoji və psixoloji ədəbiyyatda bir qayda olaraq pedaqoji texnologiyaların aşağıdakı prinsiplərini ayırd edirlər:

1) pedaqoji texnologiyaların tamlığı (bütövlüyü) prinsipi;

2) təlimin şəxsiyyətyönümlü təşkili prinsipi;

3) texologiyanın fundamentallaşdırılması və peşəyönümlüyü prinsipi;

4) təlimin texnolojiliyinin informasiya ilə himayə edilməsi prinsipi.

Pedaqoji texnologiyaların tamlığı (bütövlüyü) prinsipi texnoloji sistemin inkişafının qanunauyğunluqlarını nəzərdə tutur.

Təlimin şəxsiyyətyönümlü təşkili prinsipi təlimin bütün pillələrində texnologiyanın şagirdlərin şəxsi xüsusiyyətlərinə, onların tipoloji və fərdi xassələrinə adaptasiyasını (uyğunluğunu, müvafiqliyini) nəzərdə tutur. Bu, təhsilalanların təlim fəaliyyətinə əhəmiyyətli təsir göstərir.

Texnologiyanın fundamentallaşdırılması və peşəyönümlüyü prinsipi bu günün və gələcəyin tələblərinə müvafiq olaraq mütəxəssisdə (müəllimdə, tələbədə, şagirddə və s.) peşə bacarıqları və mühüm əhəmiyyət kəsb edən şəxsi peşə keyfiyyətlərinin formalaşdırılmasını və inkişafını təmin edir.

Təlimin texnolojiliyinin informasiya ilə himayə edilməsi prinsipi təhsil prosesində pedaqoji baxımdan özünü doğruldan kompüter informasiya texniki vasitələrinin (fərdi kompüterlərin, kompüter ekspert sistemlərin və s.) tətbiqini nəzərdə tutur.

Pedaqoji texnologiyanın struktur komponentlərini (tərkib hissələrini) aşağıdakılar təşkil edir:

1) təlimin məqsədləri;

2) təlimin məzmunu;

3) pedaqoji qarşılıqlı təsir vasitələri, həmçinin motivasiya və təlim vasitələri;

4) tədris prosesinin təşkili;

5) təlim prosesinin subyektləri (müəllimlər, pedaqoqlar, şagirdlər, tələbələr və s.);

6) fəaliyyətin nəticələri və həmçinin peşə hazırlığının səviyyəsi.

## Ədəbiyyat:


1. Paşayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2012
2. Cəfərov H.A. Təhsilin məzmununun təkmilləşdirilməsinin valeoloji və didaktogen problemləri. "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri, 25 noyabr 2016-cı il, s. 243-244
3. Nəzərov A. "Müasir təlim texnologiyaları" fənni üzrə proqram. Bakı, 2010.
4. Nəzərov A. Təhsilin müasir problemləri (proqram) Bakı, 2010.

5. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan 2020: «Gələcəyə Baxış» İnkişaf Konsepsiyası. 2012-ci il 29 dekabr.
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (2013).
7. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2012

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ VİRTUAL LABORATORİYA İŞLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**İsmayılova Ləman Qurtluq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ismayilovalman63@gmail.com*
**Elmi rəhbər: PhD.dos. Qalib Şərifov**

Bütün dünyada tüğyan edən Covid-19 pandemiyası ümumtəhsil məktəblərinin bağlanmasına səbəb oldu. Ölkəmizdə bu vəziyyətlə bağlı Təhsil Nazirliyi tərəfindən bir sıra tədbirlər görüldü. İlk addımlardan biri təhsilin fasiləsizliyi və davamlılığını təmin etmək üçün teledərslərin təşkili işlərinə başlanması oldu. Daha sonra "Virtual məktəb" layihəsi aktivləşdirildi. Aparılan araşdırmalardan məlum oldu ki, qısa müddət ərzində təxminən 1 milyona yaxın şagird bu layihədə qeydiyyatdan keçdi. Ümumtəhsil məktəblərində təhsilin davamlılığını təmin etmək üçün Teams MS və əksər hallarda Zoom platformasından istifadə olunmağa başlanıldı.

Pandemiya dönəmində ümumtəhsil məktəblərində bir sıra fənlərin, xüsusilə də, fizika fənninin tədrisində ciddi problemlər yarandı. Bu problemləri fizika fənninin məsafədən tədrisi zamanı daha aydın şəkildə görmək olar. Burada əsas məsələ fizika fənni üzrə məlumatların sistemli şəkildə mənimsədilməsi idi. Bu məqsədə nail olmaq üçün Microsoft Teams proqramının imkanlarından(virtual laboratoriyalar və kompüter modellərindən) istifadə edərək, təhsilin keyfiyyətinin artmasına nail ola bilərik. Aydındır ki, burada modellərin didaktik məqsədlərinin düzgün tətbiq olunması çox önəmlidir. Fizika fənninin tədrisində əsas məsələlərdən biri laboratoriya təcrübələrinin həyata keçirilməsidir. Tədrisin onlayn olduğunu nəzərə alaraq, virtual laboratoriya işlərinin təşkilinə baxaq.

Virtual laboratoriyaların yaradılmasında əsas məqsəd öyrənilən proseslərin hərtərəfli vizullaşdırılmasına çalışmaqdır. Virtual laboratoriyalar təhsilin davamlı olması üçün yeni imkanlar yaradır. Bu laboratoriyalar ənənəvi laboratoriyalara alternativ kimi istifadə olunur.

Virtual laboratoriyalar ənənəvi laboratoriyalardan bir sıra xüsusiyyətlərinə görə fərqlənir:

- Müəyyən təcrübədən müstəqil şəkildə istifadə etmək;
- İnteraktivlik;
- İnternetdən istifadə edərək, təcrübələri uzaqdan yerinə yetirmək bacarığı;
- Təhlükəsiz olması;
- Tədqiqat obyekti və alətlərlə birbaşa əlaqənin olmaması;
- Təhsil müəssisəsi şəraitində reallıqda müşahidə oluna bilməyən hadisə və prosesləri modelləşdirmə bacarığı.

Virtual laboratoriya işlərinin təşkili üçün virtual təcrübələrdən və simulyatorlardan istifadə etmək məqsədə uyğundur. Simulyatorlar virtual laboratoriyaların oxşarı kimi, dünyada məşhurdur. Ümumtəhsil məktəblərində similyatorlar olaraq daha çox PheT simulyatorundan istifadə olunur. Phet simulyatoru Kolorado Universiteti tərəfindən hazırlanmış virtual simulyatorlar sistemidir. Buraya fizika, kimya, biologiya, riyaziyyat sahələrinə aid çoxlu sayda müxtəlif laboratoriya təcrübələri daxildir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu simulyatorlar təhsilalanların dərsə maraqlarını artırır, öz-özünə öyrənmə imkanlarını təmin edir. Simulyatorlarda təhsilalanların interaktiv, animasiyalı öyrənmələri üçün oyun formasında mühitlər mövcuddur. PheT simulyatorlar platformasında "Physics" başlığını seçərək, fizika bölməsinə aid simulyasiyalarla tanış ola bilərsiniz. Simulyatorlardan mühazirə,

sinifdaxili qrup fəaliyyəti, ev tapşırığında istifadə olunur. Bu simulyatorlar öyrənməni daha effektli və əyləncəli edir.

Qrup fəaliyyətində mümkün olduqda, tələbələrin cüt-cüt işləmələri və simulyatoru özləri idarə etmələri daha məqsədə uyğundur. Bu simulyatorların əsas məqsədi şagirdləri düşünməyə təşviq etmək, köhnə bilikləri üzə çıxarmaq, simulyatorların hərəkətini tədqiq etməyə sövq edəcək suallar verməkdir.

PheT simulyasiyalara aid nümunə: Bloklar sistemi (VII sinif) (Şəkil 1)

Əvvəlcə simulyasiya barədə şagirdlərə qısa məlumat verilir və təlimatlandırılır. Daha sonra şagirdlər hər biri müstəqil şəkildə simulyasiyanı idarə edirlər. Bu simulyasiyadan istifadə etmək üçün şagirdlər tərpənən blok və tərpənməz blok haqqında biliklərə sahib olmalıdır. Burada şagirdlər tərpənməz və tərpənən blokun qüvvədə neçə dəfə qazanc verdiyini müəyyənləşdirməlidirlər.



***Şəkil1. "Bloklar sistemi" simulyasiyasında şagirdlərin aldıqları nəticələr***

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, bu tip simulyatorların dərslərdə geniş istifadə olunması şagirdləri yaradıcı düşünməyə təşviq edəcək, onların keçmiş və yeni əldə etdikləri biliklər arasında qarşılıqlı əlaqə yaratmalarında özünə məxsus rol oynacaq.

## BİOLOGİYANIN VALEOLOJİ BİLİKLƏRLƏ İNTEQRASİYASI

**İbrahimova Tamilla Binnət qızı**
**Elmi rəhbər: dos.İsmayılov Qaçay**

Biologiyanın tədrisi metodikası ilə valeoloji biliklərin fənlərarası inteqrasiyasının reallaşdırılması, hər şeydən əvvəl, təlim materiallarının necə seçilməsində özünü göstərir. Bu isə öz növbəsində təlimin təşkil formalarının, metod və vasitələrinin düzgün seçilməsindən əsaslı dərəcədə asılıdır.

Öyrənənlərin fəaliyyətində metodiki biliklərin valeoloji problemlərlə inteqrasiyasının reallaşdırılma imkanları genişdir. Həmin imkanlar əsasında material daha asan mənimsənilir və təhsilalanların fəaliyyətində sərbəst tətbiq edilməsi mümkün olur.

Biologiyadan metodik biliklərin tədrisi prosesində valeologiya ilə fənlərarası inteqrasiyanın reallaşdırılması prosesində iki əsas əlaqə formasından istifadə edilir: məntiqi və metodiki. Təhsil alanların fəaliyyətində əldə etdikləri metodiki proseslər valeoloji biliklərin fənlərarası inteqrasiyasını reallaşdırılmasında mühüm rol oynayır. Ona görə də bioloji, metodik və valeoloji biliklər sintez edilərək təhsilalanlara çatdırılır. Onların bu inteqrativ bilik və bacarıqları mənimsəyib sərbəst tətbiq edə bilmələri əsas məsələlərdəndir.

Onların lazımi bu bacarıq və vərdişlərə yiyələnmələrinin əsas vasitələrindən biri tədris olunan biologiyanın tədrisi valeologiya fənni ilə inteqrasiyada tədris edilməsidir. Bu problemə diqqətin artırılması həm ümumtəhsil, orta ixtisas və istərsə də ali məktəblərdə tədrisin təkmilləşdirilməsinin başlıca istiqamətlərindən biri kimi baxılmalıdır.

Biologiyanın tədrisi metodikasının valeologiya fənni ilə inteqrasiyasının rolu olduqca böyükdür. Bu əlaqələr təlimin öyrədici, inkişafedici və tərbiyəedici məqsədlərinə nail olmaqda müəllimə kömək edir. Tədrisdə fənlərarası inteqrasiya tələbələrin valeoloji biliklərə dair elmi dünyagörüşünü formalaşdırır, onun inkişafına müsbət təsir göstərir, məntiqi təfəkkürü inkişaf etdirir, elmdə formalizmi aradan qaldırır, biliyin möhkəmliyini təmin edir.

Biologiyanın tədrisi metodikası fənninin təlimində tələbələrdə iki istiqamətdə bacarıq və vərdişlər formalaşdırılır. Birincisi, fənnin daxili bazası hesabına formalaşan xüsusi metodik b-acarıq və vərdişlər, ikincisi isə bir neçə fənnin bazası hesabına formalasan tibbi, ekoloji, pedaqoji ümumi bacarıq və vərdişlərdir. Metodik biliklərin tədrisi prosesində formalaşan ümumi bacarıq və vərdişlərə ümummәntiqi, tədris axtarış-informasiya, təşkilati-idrakı bacarıq vərdişləri aid edilir. Xüsusi bacarıq və vərdişlər isə fənnini daxili məzmunu əsasında formalaşır. Bu bacarıq və vərdişlər digər fənlərə də ötürülür.

## TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ QİYMƏTLƏNDİRMƏNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ BU PROSESDƏ MÜƏLLİMİN ROLU

**Şirinzadə Aysun Mehman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aysunsirinzad@gmail.com*

Ümumtəhsil məktəblərində təlim prosesinin səmərəliliyinin yüksəldilməsində məktəbdaxili qiymətləndirmənin əhəmiyyəti yalnız onun düzgün şəkildə həyata keçirilməsində özünü göstərə bilər. Məktəb rəhbərliyi daim bu prosesə nəzarət etməlidir. Sinifdə qiymətləndirmə prosesini müəllim həyata keçirsə də, bununla yanaşı hər bir şagird özünüqiymətləndirmə vərdişlərinə yiyələnməli və daim öz üzərində işləməlidir.

Məktəblərdə aparılan müşahidələr göstərir ki, qiymətləndirmənin effektiv olması müəllimin düzgün metod və strategiyalardan istifadə etməsi nəticəsində həyata keçirilir. Müəllimin akademik qabiliyyətləri ilə şagird nəticələri arasında asılılıq mövcuddur. Burada əsas qərarların qəbulu, məqsədlərin və strategiyaların düzgün seçilməsi, valideyn və ictimaiyyətin iştirakı, müəllim nəzarəti hamısı şagirdin nəticəsinə müəyyən qədər təsir göstərir. Qiymətləndirmə təhsilin bir çox aspektlərinə, o cümlədən, şagird qiymətlərinə, yerləşdirmə və irəliləyişlərə, həmçinin kurikuluma tədris ehtiyaclarına və məktəb maliyyəsinə təsir göstərir.

Qiymətləndirmə öyrənmə prosesində mühüm addımdır. Kursun təlim məqsədlərinin yerinə yetirilib-yetirilmədiyini müəyyən edir. Qiymətləndirmə öyrənmənin əsas komponentidir, çünki o tələbələrə öyrənməyə kömək edir. Şagirdlər dərsdə necə olduqlarını görə bildikdə, kurs materialını başa düşüb-düşmədiklərini müəyyən edə bilirlər. Qiymətləndirmə şagirdləri həvəsləndirməyə də kömək edə bilər. Şagirdlər zəif olduqlarını bilsələr, daha yüksək nəticə əldə etmək üçün daha səylə çalışa bilərlər.

Qiymətləndirmə həmçinin müəllimlərə də təlim prosesində bir çox qeyri-müəyyənliyin aşkara çıxarılmasında kömək edir. Şagirdlərin müəyyən fənn məqsədlərinə hansı dərəcədə yiyələndiyi, əskikliklərin və qarşıda olan problemlərin nə olduğu, bu problemlərin aradan qaldırılması zamanı hansı tədbirlərin görülməsi sahəsində müəllimlərə düzgün qərar qəbulunda imkan yaradır.

Qiymətləndirmə davamlı şəkildə həyata keçirilməli olan bir prosesdir. Müəyyən bir dövrdə bununla bağlı yaranan boşluq, sonda əldə olunan nəticənin də problemli olmasına gətirib çıxarır. Sinifdə qiymətləndirmədən səmərəli istifadə etmək üçün müəllimlər müxtəlif qiymətləndirmələr vasitəsilə milli öyrənmə gözləntilərinin, eləcə də şagirdlərin onlara çatma trayektoriyasının necə qiymətləndiriləcəyini başa düşməlidirlər. Müəllimlərin qiymətləndirməyə ilkin hazırlığının davamlı, məktəbdaxili inkişaf yolu ilə gücləndirilməsi vacibdir. Məktəblərdə qiymətləndirmə mədəniyyətinin dəyişdirilməsi-xüsusilə daha formativ yanaşmaların və fəaliyyətə əsaslanan qiymətləndirmələrin tətbiqi, summativ qiymətləndirmələrin daha effektiv istifadə olunması müəllimlər üçün əhəmiyyətli və davamlı dəstək tələb edir.

## KİMYANIN TƏDRİSİ ZAMANI ŞAGİRDLƏRDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ

**Qurbanova G.G.**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*E-mail:gunel.h.huseynli@gmail.com*

Günümüzdə təbiət elmləri və texnologiyanın sürətli inkişafının insanların həyatına böyük təsiri olmuşdur. Bununla əlaqədar olaraq, elm və texnologiya ilə bağlı tədris çox önəmlidir və təhsil sistemində qanunauyğun olaraq istifadə edilməlidir. Müasir dövrdə vacib olan layihələrin həyata keçirilməsi üçün müəyyən şərtlərə nəzər yetirməliyik:

- təhsili inkişaf etdirmək
- şagirdlərin kimya elminin həyatla əlaqəsini asan şəkildə öyrənməsi
- dünyagörüşlərinin genişlənməsi
- öyrəndikləri biliklərin həyatla əlaqələndirilməsi və tətbiqi

Qeyd etdiyimiz vacib vəzifələr təlimin məzmununun, üsul və metodların təkmilləşməsi, şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün yeni yolların hazırlanmasını tələb edir.

Tədqiqatçılar müəyyən ediblər ki, daha çox kreativ ideyalar yaradan insanlar, başqa sözlə, yaradıcı insanlar digərlərindən fərqli olaraq beyinlərinin müxtəlif hissələrini istifadə edirlər. Əksər insanlar "kortəbii düşünmə şəbəkəsi" və ya "idarə olunan düşüncə şəbəkəsi" adlandırılanları aktivləşdirsələr də, hər ikisini eyni vaxtda edə bilmirlər. Yaradıcı təffəkkürü güclü olan insanlar adətən ayrı-ayrılıqda işləyən bu beyin şəbəkələrini birlikdə aktivləşdirməyi daha yaxşı bacarırlar.Araşdırmaların nəticəsi olaraq, yaradıcılığın sabit, axıcı olması və daha az yaradıcı tiplərin potensial olaraq daha yaradıcı olmaq üçün özlərini necə məşq etdirə biləcəyi barədə fikirlərə səbəb olacaq.

Bizim əsas məqsədimiz kimya fənninin tədrisində şagirdlərin yaradıcı qabiliyyətini ortaya çıxarmaq və düzgün istiqamətləndirməkdir. Kimya fənni pedaqoqlar, müəllimlər və araşdırmacılar tərəfindən ən önəmli və çətin fənn olaraq qəbul olunmuşdur. Əksər tələbələrin kimyanın mənimsənilməsinin çətin olduğunu düşünməsinə səbəb olan müxtəlif amillər var.

Müəyyən edilmiş amillər arasında şagirdlərin "Atomun quruluşu","Kimyəvi Rabitə" mövzularını ənənəvi (klassik) tədris üsulları ilə mənimsəməkdə çətinlik çəkdiyi müşahidə edilmişdir. Kimya kursunun tədrisində çətinlik çəkən şagirdlərin narazılığı aydınlaşdırılmalı və mövzuya uyğun istiqamət verilərək problemli məsələ həll olunmalıdır. Bunlar nəzərə alınaraq müəllimlər araşdırmaların aparılmasında, yeni metodların və üsulların istifadə edilməsində əhəmiyyətli rol oynayır. Müəllimlər yeni istiqamətləndirmə, yönləndirmə strategiyalarından istifadə edərək şagirdlərin kimya fənninə olan problemli baxışını aydınlatmağa yol açmalıdır.

## BİOLOGİYANIN TƏDRİSİNDƏ "FƏALLAŞDIRMA" METODLARI KOMMUNİKATİV BACARIQLARIN İNKİŞAFI AMİLİ KİMİ (VIII SİNİF)

**Ramazanova Məryəm Feyzulla qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ramazanova.meryem99@mail.ru*

***Açar sözlər:*** *kommunikativ bacarıq, ekspert, əməkdaşlıq bacarığı, fəallaşdırma metodları*

***Ключевые слова:*** *коммуникативные навыки, эксперт, навыки сотрудничества, методы активаöии*

***Key words:*** *communication skills, expert, collaborative skills, activation methods, ative ability*

**Xülasə**

Bu məqalədə pedaqoji texnologiya və təlim metodları fərqlərinə toxunulmuşdur. Eyni zamanda bu texnikanın tətbiqi metodikası əks olunmuşdur. Məqalədə şagirdlərin kommu-

nikativ bacarıqlarının inkşafında bu texnikanın əvəzolunmaz rolu qeyd olunmuşdur. XXI əsr bacarıqları və onların inkişafının mümkünlüyünün imkan və yolları əks olunmuşdur.

**Резюме**

В данной статье рассматриваются различия между педагогической технологией и методами обучения. При этом отражена методика применения данной методики. В статье подчеркивается незаменимая роль данной методики в развитии коммуникативных навыков учащихся. Отражены навыки и возможности 21 века и пути их развития.

**Summary**

This article discusses the differences between pedagogical technology and teaching methods. At the same time, the methodology of applying this technique is reflected. The article emphasizes the irreplaceable role of this technique in the development of students' communication skills. 21st century skills and opportunities and ways of their development are reflected.

Elm, texnika sürətlə inkişaf etdikcə informasiya bolluğu yaranır. Müasir dövrün tələbi şagirdlərə öyrənməyi öyrətməkdir.Yalnız bu halda şagirdlər informasiyanı haradan və necə qəbul etmələrini müəyyənləşdirə və həmin informasiyanı yazılı və şifahi formalarda qarşı tərəfə ötürə bilər.Kommunikativ bacarıq dedikdə, informasiyanın hansı üsullar ilə qəbul olunması və onun hansı vasitələr ilə ötürülmə üsulları başa düşülür. Hal-hazırda XXI əsrdəyik və bu əsrin öz gözləntiləri bunlardır:

**Cədvəl 1.**

XXI əsr bacarıqları

| | |
|---|---|
| Kommunikativ və əməkdaşlıq bacarıqları | İdeyaların və fikrin şifahi və yazı yolu ilə ifadə edilməsi<br>Müxtəlif ünsiyyət növlərinin yaradılması<br>Ümumi məqsədə nail olmaq üçün zəruri kompromislərin əldə edilməsi |
| Innovativlik bacarıqları | Yeni, yaradıcı ideyaların işlənməsi, tətbiq edilməsi və başqalarına çatdırılması<br>Fəaliyyət zamanı innovativlik nümayiş etdirmək |
| Informasiya savadlılığı | Mövcud informasiyadan düzgün istifadə edilməsi |
| Media savadlılığı | Media məlumatlarının cəmiyyət tərəfindən şərh olunması<br>Mətbuatın inanc və yaşayış tərzinə təsirlərinin araşdırılması |
| İctimai bacarıqlar | Mədəniyyətlərarası fərqlərin əlaqələndirilməsi |
| Problem həll etmə bacarığı | Mövcud problemi həll etmək məqsədi ilə məlumatların hairlanması, sintezi və təhlil olunması |

“Kommunikasiya” sözünün hərfi tərcüməsi latın dilindən götürülüb, “communikato” sözü olub, rabitə, əlaqə deməkdir. "Fəallaşdırma"metodlarının həyata keçirilməsinin müəyyən məqsədləri vardır. İlkin məqsəd şagirdlərin yaradıcı fikirlərini birləşdirməklə elmi problemi həll etməkdir. Bu metodun ikinci məqsədi qanuna tabelik vərdişlərinin və kommunikativ bacarıqların aşılanmasıdır. “Fəallaşdırma” metodlarının əsas məqsədi isə şagirdlərin kommunikativ bacarıqlarının inkişaf etdirilməsidir. Bu texnologiya məktəbdə keçirilən materialı təkrar edəndə, problemlərin həllində, yeni materialı öyrənəndə tətbiq olunur. Metodun tətbiqi üçün mövzu, məqsəd düzgün müəyyənləşməlidir. Ən əsas şərt isə şagirddə maraq oyada bilməkdir.

**"Fəallaşdırma" metodunun tətbiqi:** (VIII sinif)

Mövzunun adı və məqsədi müəyyənləşir:- Mövzumuz “Eşitmə və müvazinət orqanı - qulaq” Məqsəd:

1. Eşitmə orqanının quruluşunu təsvir edir.

2. Eşitmə orqanının qorunması qaydalarını izah edir. Daha sonra isə şagirdlərdə maraq oyatmaq üçün mövzuya aid rəsmlər əks olunur.

II-əməkdaşlıq qaydaları izah olunur.

III- qiymətləndirmə meyarları bildirilir: Təsviretmə və izahetmə

IV-Elmi aspektlər və katib təyin olunur.

V- İlkin situasiyanı şərh edirəm. Sinfə müraciət edirəm: "Eşitmə orqanımızı qorumaq" barədə bir konfrans keçirmək gərəkdir. Onu necə edək ki, maraqlı alınsın? Hər kəs fikrini söyləsin , söylənən bütün fikirlər qeyd edilir. Bu zaman qətiyyən tənqidə yol vermək olmaz. Katiblər söylənilən bütün fikirləri yazı taxtasında qeyd edirlər. Eyni zamanda müəllim də çox qayğıkeş, həssas və xeyirxah olmalıdır.

VI-ilkin informasiyalar verilir.

VII- Son nəticəni müəyyənləşdirirəm.

VIII-Fikirlərin hücumu başlayır. Hər bir kəs bioloji konfransın necə keçirilməsi ilə bağlı təklif verir. Ekspertlər onlara fikirləri ümumiləşdirməyə kömək edir, katiblər isə fikirləri qeyd edir. Hücumun müddəti 45 dəqiqədir.

IX-Yeni təkliflər gəlmir, hücum bitir.

X-Nəticələr təhlil olunur.

XI- Ümumiləşdirmə aparıram.

İnsanda eşitmə orqanı üç hissədən- xarici, orta, daxili qulaqdan ibarətdir.

1. Xarici qulaq-qulaq seyvanı və xarici qulaq keçəcəyindən ibarətdir. Qulaq seyvanı elastiki qığırdaqdan əmələ gələrək xaricdən dəri ilə örtülür. Xarici qulaq keçəcəyi 2,5sm uzunluğunda olub, dəri ilə örtülür və özü də sümük və qığırdaq hissəyə bölünür və s.

2. Orta qulaq təbil pərdəsinin arxasında gicgah sümüyünün daxilində yerləşir. O, daxili hava ilə dolu boşluqdan ibarətdir.Orta qulaq eşitmə borusu – Yevstax borusu ilə burun-udlaqla birləşir. Orta qulaqda bir-biri ilə ardıcıl birləşən uç kiçik sümük yerləşir.

1. Çəkic -Çəkicin dəstəsi təbil pərdəsinə, başı isə zindanın cisminə birləşir.

2. Zindan Zindanın uzun ayaqcığı isə üzənginin başı ilə birləşir.

3. Üzəngi- Üzənginin əsası oval pəncərədə yerləşərək onun kənarına bağlanır və s.

4. Daxili qulaq. Oval pəncərənin pərdəsi daxili qulağı orta qulaqdan ayırır. Kəllənin daxili əsasında gicgah sümüyünün daxilində yerləşir. O orta qulaqla oval və dairəvi pəncərələr vasitəsilə əlaqəlidir. Daxili qulaq boşluqlardan və labirintdən ibarətdir. Sümük labirinti→perilimfa mayesi→Pərdəli labrint→endolimfa mayesi yerləşir. Zarlı labirint (pərdəli)-içərisində endolimfa adlanan maye var və s.

Qulaq seyvanı→xarici qulaq keçəcəyi→ təbil pərdəsi→çəkic, zindan, üzəngi→oval pəncərə→dəhliz→ilbiz→eşitmə siniri → eşitmə mərkəzi

"Fəallaşdırma" metodunun tətbiqi zamanı:

1.Şagirdlərdə fikrini ifadə etmək bacarığını inkşaf etdirir.

2.Pozitiv emosiyalar yaradır.

3.Şagirdlərin müsbət "mən" konsepsiyası formalaşır.

4.Əməkdaşlıq və kommunikativ bacarıqlar inkişaf edir.

Bu texnologiyanı bəzən yanlış olaraq "fəal təlim metodları", interaktiv metodlar kimi təqdim edirlər. Lakin bu texnologiya təlim prosesinə yeni baxışdır. Bu texnologiya vasitəsilə bir sıra fəal təlim metodları formalaşır. Metod texnologiyanın aktiv bir hissəsidir.

"Boş səhifə" sindromu müəllimlərin üzləşdiyi ümumi bir problemdir. Bu texnologiya zamanı beyində bir fırtına yaşanır ki, o, düşünmə prosesini asanlaşdıracaq və öyrənənlər üçün kifayət qədər məzmun təmin edəcəkdir. Müəllimlər bunun üçün mövcud texnoloji vasitələr ilə tanış olmalı, şagirdlərin öyrənmə hədəflərinə çatmasını təmin etməlidir. (23, s.4)

Biologiya fənni üzrə keçirilən Beynəlxalq olimpiadalarda ölkəmizi təmsil edən yeniyetmələrin son iki ildə nisbətən zəif nəticə göstərmələrinə səbəb onların beyində xaotik toplanan informasiyaları sistemli şəkildə cəld, qısa və lokanik ifadə edə bilməməsi olmuşdur. İstər

Beynəlxalq Biologiya Olimpiadasından (İBO), istərsə də, Yeniyetmələrin Elm Olimpiadasından (İJSO) əldə edilən nəticələr yeni istiqamət formalaşdırdı ki, ümumtəhsil məktəblərində şagirdlərdə kommunikativ bacarıqların formalaşdırılması əsas prioritetlərdən olsun.


**Ədəbiyyat:**

1. Akif Nəzərov. Müasir təlim texnologiyaları. Bakı-2012
2. Цели и оценка программы обучения критическому мышлению (Goals for a critical thinking curriculum and its assessment). Из книги под редакцией А.Л.Коста (A.L.Costa)
3. Развитие мышления (с. 44–46). Александрия, штат Вирджиния: ASCD.Р.Дж. Марöано (2000).
4. Навыки мышления: пересмотрзначений и моделей (Thinking skills: Meanings and models revisited).
5. Из книги под редакцией А.Л. Коста (A. L. Costa) Развитие мышления (с. 47–53). Александрия, штат Вирджиния: ASCD.
6. Literature review on the Impact of Digital Technology on learning and Teaching -2015
7. İnternet resursları


## SABİRABAD TORPAQLARINDA SUYUN TORPAĞA HOPMA SÜRƏTİ


**Mirzəyev Vəzir Əlizamin oğlu**
**Lənkəran Dövlət Universiteti**
*vezir.mirzeyev.92@mail.ru*


Sabirabadın müxtəlif torpaq tiplərinin fiziki xassələri tədqiq edilmişdir. Məlum olmuşdur ki, torpaqların üst qatının həcmi çəkisi 1,22 $q/sm^3$, şumaltı qatında 1,29 $q/sm^3$, tünd boz-çəmən torpaqlarının üst qatında 1,33 $q/sm^3$, şumaltı qatında 1,44 $q/sm^3$ təşkil edir. Torpaqların xüsusi çəkisi profil boyu açıq boz-çəmən torpaqlarda 2,56-2,66 $q/sm^3$, tünd boz-çəmən 153 torpaqlarında isə 2,68-2,73 $q/sm^3$ arasında dəyişir. Açıq boz-çəmən torpaqlarında ümumi məsaməlik 53%, tünd boz-çəmən torpaqlarında isə 48%-ə bərabərdir. Bu torpaqların şum qatında tarla rütubət tutumu, müvafiq olaraq,330,4-407,6 $m^3$ /ha, sukeçirmə qabiliyyəti isə saatda 90-110 mm təşkil edir.

Təcrübə-tədqiqat stansiyalarında təcrübə apardığımız sahələrin su-fiziki xassələri tədqiqat yolu ilə qəbul olunmuş ümumi metodikaya əsasən öyrənilmişdir. Bunlara: torpaqların qranulometrik tərkibi, həcm kütləsi, sıxlığı, məsaməliyi, hiqroskopik nəmliyi, ən az nəmlik tutumu, suyun torpağa hopma sürəti daxildir.

Torpaqların su-fiziki xassələri: Torpağın həcmi kütləsi-kəsici halqa metodu ilə; qranulometrik tərkibi-pipetka üsulu ilə; sıxlığı-piknometr üsulu ilə; məsaməlilik-hesablama yolu ilə; ən az nəmlik tutumu-meydançaların suya basdırılması metodu ilə; su hopdurma qabiliyyəti-A.N.Kaçinski metodu ilə təyin ediləcəkdir. Boru kəmərlərində basqı manometrlə ölçməklə, damcıladıcıların su sərfi həcm üsulu ilə təyin edilmişdir.

Nəmlənmə radiusu, nəmlik konturu daxilində radiusun ölçülməsi ilə, nəmlənmə dərinliyi və nəmliyin yayılma konturları isə suvarmadan qabaq və suvarmadan sonra dərinlik üzrə hər 10 sm torpaq qatından götürülmüş torpaq nümunələrinin (termostat-çəki metodu ilə) nəmliklərinin təyin edilməsi ilə öyrənilmişdir.

| Təcrübə aparılan sahə | Torpaqların | | | | | |
|---|---|---|---|---|---|---|
| | Qatları, sm | Həcm kütləsi, t\m$^3$ | Sıxlığı, t\m$^3$ | Məsaməliliyi % | Hiqroskopikliyi % | Ən az nəmlik tutumu, % |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Təcrübə sahəsi N=1 | 0-10 | 1,68 | 2,66 | 37 | 1,66 | 10,10 |
| | 10-20 | 1,76 | 2,66 | 34 | 1,43 | 10,30 |
| | 20-30 | 1,67 | 2,64 | 37 | 1,33 | 10,05 |
| | 30-40 | 1,62 | 2,64 | 39 | 2,42 | 10,15 |
| | 40-50 | 1,64 | 2,71 | 40 | 3,36 | 10,15 |
| | 50-60 | 1,67 | 2,71 | 38 | 4,67 | 9,86 |
| | 60-70 | 1,66 | 2,70 | 39 | 4,94 | 9,90 |
| | 70-80 | 1,57 | 2,71 | 42 | 5,09 | 10,84 |
| | 80-90 | 1,57 | 2,71 | 42 | 5,08 | 10,54 |
| | 90-100 | 1,63 | 2,71 | 40 | 3,32 | 9,94 |
| | 0-100 | 1,64 | 2,69 | 38,80 | 3,33 | 10,18 |
| Təcrübə sahəsi N=2 | 0-10 | 1,53 | 2,33 | 34,00 | 0,90 | 14,34 |
| | 10-20 | 1,57 | 2,64 | 40,53 | 0,76 | 10,61 |
| | 20-30 | 1,55 | 2,46 | 36,99 | 0,75 | 10,13 |
| | 30-40 | 1,59 | 2,37 | 32,41 | 0,64 | 9,66 |
| | 40-50 | 1,44 | 2,64 | 45,45 | 0,82 | 9,25 |
| | 50-60 | 1,50 | 2,65 | 43,39 | 0,92 | 10,25 |
| | 60-70 | 1,43 | 2,56 | 44,14 | 1,13 | 13,11 |
| | 70-80 | 1,40 | 2,55 | 45,09 | 0,66 | 12,44 |
| | 80-90 | 1,45 | 2,68 | 45,89 | 0,75 | 12,63 |
| | 90-100 | 1,47 | 2,67 | 44,94 | 1,34 | 13,13 |
| | 0-100 | 1,49 | 2,55 | 41,33 | 0,87 | 11,55 |

1 m-lik torpaq qatının orta göstəriciləri: 1 təcrübə sahəsi üzrə torpağın həcm kütləsi-1,64 t/m$^3$, sıxlığı – 2,69 t/m$^3$, məsaməliyi -38,8 %, hiqroskopikliyi – 3,33%, ən az nəmlik tutumu – 10,18%, uyğun olaraq 2 təcrübə sahəsi – 1,56 t/m$^3$, 2,62 t/m$^3$, 40,45 %, 1,16%, 11,38% təşkil etmişdir.

Suyun torpağa hopma sürəti aparılmış çöl-tədqiqat işləri nəticəsində təyin edilmişdir. Alınan nəticələrə nəzər saldıqda görürük ki, 1-ci sahədə suyun torpağa hopma sürəti 56 dəqiqədən sonra qərarlaşır. Belə ki, birinci vahid zamanda suyun torpağa hopma sürəti təkrarlara uyğun olaraq 44,44; 45,83; 43,06 mm/dəq., su torpağa hoparkən qərarlaşmış sürət (filtrasiya) isə 3,0; 2,05 və 3,33 mm/dəq olmuşdur. 2-ci sahədə isə suyun torpağa hopma sürəti 71 dəqiqədən sonra qərarlaşaraq sabit qiymət almışdır.

Vahid zamanda suyun torpağa hopma sürəti 38,9; 33,3; 27,8 mm/dəq., qərarlaşmış hopma sürəti isə 2,2; 1,94; 1,72 mm/dəq. olmuşdur.

Alınan nəticələr hər iki təcrübə sahəsi torpaqlarının yüksək suhopdurma qabiliyyətinə malik olmasını göstərir.

**Ədəbiyyat:**

1. Babayev M.P. Azərbaycanda torpaqşünaslıq və aqrokimya elminin inkişaf tarixi, nailiyyətləri və perspektivləri. Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əsərləri, XVI cild, Bakı, 2004.
2. Cəfərov M.İ. Torpaqşünaslıq (I hissə), Bakı:Maarif, 1982. 221 s.
3. Cəfərov M.İ. Haciyev O.M. Torpaqşünaslıqdan praktikum. Bakı:Maarif, 1984.
4. Cəfərov M.İ., Quliyev R.M. Torpaq fondu və ondan səmərəli istifadə. Bakı:Elm, 1997, səh.452.
5. Cəfərov M.İ. Torpaqşünaslıq. Bakı:Elm, 2005, 460 s.
6. Əliyev A.H., Hüseynov A.Ə. Torpaq coğrafiyası. Torpaqşünaslığın əsasları ilə. Bakı, 1995.

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ DANIŞIQ BACARIQLARININ ÖYRƏDİLMƏSİ ÜÇÜN YENİLİK VƏ YARADICILIQ

**Həbibzadə Lalə Vidadi qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*lale.hebibzade@gamil.com*

***Açar sözlər:*** *innovasiya, yaradıcılıq, tədris, dil, ünsiyyət*

Müasir dövrdə ingilis dilinin öyrənilməsinə olan maraq əhəmiyyətli dərəcədə artmışdır. Məlum olduğu kimi, hər hansı xarici dildə danışa bilmək insanların xüsusi üstünlüklər əldə etmələri üçün əhəmiyyətli rol oynayır. Xarici dilin effektiv şəkildə tədrisi bu baxımdan zəruri məsələyə çevrilmişdir. Xarici dilin tədrisində istifadə olunan ənənəvi metodlardan fərqli olaraq, tədris müddətində istifadə olunan innovasiya və yaradıcılıq tələbələrə dildən sərbəst şəkildə istifadə etmək üçün stimul verir. Həmçinin tələbələr tədris prosesində fəal şəkildə iştirak edirlər.

Yaradıcılıq dedikdə nə nəzərdə tutulduğu yazıçıdan yazıçıya, müəllimdən müəllimə əhəmiyyətli dərəcədə dəyişə bilər, lakin təriflər üzərində mübahisə etməyə çox vaxt sərf etməyə ehtiyac yoxdur. Belə çoxşaxəli konsepsiya ilə təbiidir ki, hər hansı bir müəllim öz həmkarından yaradıcılığın nədən ibarət olması barədə bir qədər fərqli təsəvvürə malik olacaq. Bununla belə, yaradıcılığın, şübhəsiz ki, əvvəllər görülməmiş yeni bir şeyin istehsalını ehtiva etməsi fikri ilə başlaya bilərik. Bu "yeni bir şey" həm də hansısa şəkildə funksional və ya faydalı bir şey olmalıdır, çünki əks halda mənasız hərflər silsiləsi yaradıcılıq sayıla bilər. Beləliklə, yaradıcılıq haqqında əsas ideya müəyyən dəyərə malik yeni və fərqli bir şeyin istehsalı kimi qəbul edilir.

Bunun ingilis dilinin tədrisi ilə əlaqəsi necədir? Yaradıcılıq açıq-aydın təkcə dil ilə və ya ingilis dilinin tədrisi ilə bağlı deyil, bütün təhsilin bir hissəsidir. Buna baxmayaraq, ingilis dilinin tədrisinin digər tədris və öyrənmə sahələrinə nisbətən yaradıcılıq anlayışı ilə daha sıx bağlı olmasının bir neçə yolu var. Necə olduğunu başa düşmək üçün biz ingilis dilinin tədrisi ilə əlaqəli yaradıcılığın bir neçə fərqli aspektini ayırmalıyıq. Bunlardan birincisi dilin özündə yaradıcılıq ideyasıdır. Dilin istifadəsi özlüyündə yaradıcıdır, hər bir dildə səlis danışan insan əvvəllər heç vaxt danışılmamış cümlələr quraraq danışa bilər.

Dilin yaradıcılığı- Hamımız öz ana dilimizdə və ya kifayət qədər yaxşı bildiyimiz bir dildə hər gün əvvəllər heç vaxt yaradılmayan cümlələr qururuq. Beləliklə, burada dil müəllimləri kimi bizi narahat edən başqa bir problem də var. Məhz o məqamdır ki, biz öyrənənlərimizdən hətta bu mənada hər zaman yaradıcı olmağı gözləyə bilmərik. Hamımız üçün gündəlik dil istifadəmizin çoxu heç də yaradıcı deyil. Biz hər zaman 'Sabahınız xeyir', 'Nahara gedirsiniz?' və s. kimi formal ifadələrdən istifadə edirik. Heç birimiz hər zaman yeni, əvvəllər eşidilməyən ifadələr yaratmırıq. Çox vaxt biz gündəlik danışığımızda standart nitqlərdən və ya standart nitqlərdə az-çox minimal dəyişikliklərdən istifadə edirik. Tələbələrimiz bu cür ifadələri düzgün tərtib etməyi öyrənməlidirlər. Bununla belə, onların dildən bacarıqla istifadə etdiklərini söyləmək olmaz. Yalnız standart cümlələrin istifadəsi real danışıq dili hesab olunmur. Standart cümlələrin istifadəsi dildə yaradıclığın səviyyəsini aşağı salır.

Beləliklə, əvvəlcədən qurulmuş dildən daha çox olan ifadələrin istehsalını birinci dərəcəli yaradıcılıq adlandırılır. Bu o deməkdir ki, öyrənən həmin öyrənən üçün əvvəllər heç vaxt deyilməmiş bir dil yaradır. Bu cür dil istifadəsi ilə hamımız tanışıq. Tələbələrimiz bu dili hər zaman, dil dərslərində vaxtımızın çox hissəsini tutan dil işinin struktur nümunələrində istehsal edirlər.

Yaradıcılıq və Ünsiyyət - Yaradıcılığın yuxarıdakı səviyyəsi yaradıcıdır, lakin yalnız tələbənin əvvəllər söyləmədiyi ifadələr yaratmaq mənasındadır. Onlar struktur cəhətdən düzgün və yaradıcıdırlar. Onlar hətta doğru olmaya və ya kontekstdə heç bir məna kəsb etməyə bilər. Buna reaksiya olaraq, hamımıza tanış olan kommunikativ yanaşma dildən ünsiyyət üçün isti-

fadə edildiyini və ifadələrin kommunikativ mənalı olmasını təkid etdi. Bunu ikinci dərəcəli yaradıcılıq adlandırmaq olar ki, cümlə nəinki tələbə tərəfindən yeni qurulur, həm də kontekstə uyğundur və kontekstdə tələbə üçün məna kəsb edir.Yaradıcılığın ikinci səviyyəsi birinci səviyyədən daha məhduddur. Yaradıcılığın birinci səviyyəsi sadəcə struktur cəhətdən düzgün olmalıdır, ikinci səviyyə həm də kommunikativ cəhətdən uyğun olmalıdır. Biz yaradıcı olanda bəzən məhdudiyyətləri artırmalı oluruq.

Üçüncü səviyyəli yaradıcılıq şagirdlərə sadəcə cümlə strukturu baxımdan yaradıcılığı aşılamır. O, həmçinin tələbəyə hadisələr haqqında yeni ideyalara malik olmaq şansı verir. Tələbələr əvvəl haqqında heç bir fikrə sahib olmadıqları mövzu haqqında çox təfərrüatlı nitq hazırlayırlar. Beləliklə, özləri yeni ideyalara və bacarıqlara sahib olurlar. Yaradıcılığın bu səviyyəsi tələbələrə təkcə dildən səmərəli şəkildə istifadə etmək bacarığı vermir, həmçinin onların şəxsiyyət baxımından inkişafına da xüsusi dəstək verir.

Dil yaradıcılığını dərslərə daxil edərək daha effektiv nəticə əldə etmək mümkündür. Bütün fəaliyyətlər üç səviyyəli yaradıcılıq, yəni yuxarıda qeyd etdiyim kimi, dil səviyyəsində yaradıcılıq, ünsiyyət səviyyəsində yaradıcılıq və yeni düşüncə səviyyəsində yaradıcılıq baxımından uyğun olsun. İstər dərslikdə, istərsə də özümüz hazırladığımız bir fəaliyyətdə onun yaradıcılığın hansı səviyyəsində olduğunu öyrənə, sonra ona başqa səviyyələr əlavə etməyimizin lazım olub-olmadığına qərar verə bilərik. Çox vaxt fəaliyyətlər birinci və ikinci səviyyələrdə yaradıcılığa uyğun olacaqdır. Lakin əsl yaradıcılıq gətirmək üçün üçüncü səviyyəli fəaliyyət əlavə etməliyik. Üçüncü dərəcəli yaradıcılıq, tələbələrin təkcə dil baxımından deyil, həm də ideyalar baxımından onlar üçün həqiqətən yeni olan bir şey istehsal etməsidir. Üçüncü səviyyə yaradıcılıq yeni təfəkkür gətirdiyinə görə bu, həqiqətən yeni dili tələbələrin psixikasına inteqrasiya etmək effektinə malikdir. Tələbə motivasiya olunur, çünki yeni dil sadəcə yeni dil deyil, həm də şəxsən onlar üçün yeni bir ideya, fikir deməkdir.

**Ədəbiyyat:**

1. Jones, R.H., & Richards, J.C. (Eds.) (2016). Creativity in language teaching: Perspectives from research and teaching. London: Routledge.

2. Tin, T.B. (2013). Towards creativity in ELT: the need to say something new. ELT Journal, 67(4), 385-397.

3. Wood, A. &Head, M. (2004). 'Just what the doctor ordered': The application of problem-based learning to EAP. English for Specific Purposes, 23(1), 3-17.

## XARİCİ DİL TƏDRİSİNDƏ TAPŞIRIQ ƏSASLI TƏLİM METODUNDAN İSTİFADƏ

**Məmmədova Hümay Nurəddin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*memmedovahumay99@gmail.com*

**Açar sözlər:** *xarici dil tədrisi, tapşırıq-əsaslı təlim metodu, tapşırıq növləri, tədris prosesinin təşkili*

Son dövrlərdə xarici dillərin öyrənilməsi və tədris edilməsinə maraq əhəmiyyətli dərəcədə artmışdır. Xarici dilləri öyrənmək insanlara böyük üstünlüklər qazandırdığı üçün məktəblərdə, universitetlərdə və dil kurslarında müxtəlif dillər tədris olunur. Dilin effektiv şəkildə tədris edilməsi üçün müəllimlər müxtəlif yanaşmalara əsaslanan metodlardan istifadə edirlər

Xarici dilin tədris edilməsində son dövrlərdə müasir metod və yanaşmalardan istifadə edilir. Bu metod və yanaşmaların köməyi ilə xarici dili daha effektiv və səmərəli formada tədris etmək mümkündür. Ənənəvi metodlardan fərqli olaraq bu metodlarla keçirilən dərslərdə

şagirdlər tədris prosesində fəal iştirak edir, xarici dildən ünsiyyət vasitəsi kimi istifadə etməyi bacarırlar.

Müasir tədris metodlarından biri "Tapşırıq-əsaslı təlim" metodudur. Tapşırıq-əsaslı dil təlimi dilin tədrisində planlaşdırma və təlimatın əsas vahidi kimi tapşırıqların istifadəsinə əsaslanan yanaşmaya istinad edir. Onun bəzi tərəfdarları bu metodu kommunikativ dil tədrisinin məntiqi inkişafı kimi təqdim edirlər, çünki tapşırıq-əsaslı dil tədrisi 1980-ci illərdən etibarən kommunikativ dil tədrisi hərəkatının bir hissəsini təşkil edən bir neçə prinsipə əsaslanır:

– Həqiqi ünsiyyəti əhatə edən fəaliyyətlər dil öyrənmək üçün vacibdir.

– Mənalı tapşırıqların yerinə yetirilməsi öyrənməyə kömək edir.

– Öyrənən üçün mənalı olan dil öyrənmə prosesini dəstəkləyir.

Tapşırığa əsaslanan təlim zamanı öyrənənlər onlara uyğun və maraqlı olan tapşırıqları həll edirlər. Tapşırığı həll edərkən üçün onlar yoldaşları ilə ünsiyyət qurmaq üçün öyrəndikləri hədəf dili istifadə etməlidirlər. Öyrənənlər dil haqqında qrammatika və ya lüğət suallarına cavab vermək əvəzinə orijinal dildən istifadə edirlər.

Bu metodla tədris zamanı öyrənənlərin dili dərk etməsi də dərinləşir, çünki dili öyrəndikləri real kontekst onların şəxsi həyatları ilə əlaqəlidir. Müəllim kursun əvvəlində öyrənənlərin hobbiləri və maraqları barədə məlumat alıb həmin mövzuları kurs üçün təyin etdiyi tapşırıqlara əlavə edə bilər.

Tapşırıq əsaslı dil tədrisi üç əsas mərhələdən ibarət bir quruluşdur. Bu mərhələlərə qısaca nəzər yetirək.

**Tapşırıqdan əvvəlki mərhələ.** Bu mərhələdə müəllim öyrənənlərə mövzunu təqdim edir və tapşırıq mərhələsində nə etməli olduqları barədə aydın göstərişlər verir.

**Tapşırıq mərhələsi.** Tələbələr malik olduğu dil resurslarından istifadə edərək cütlər və ya qrup şəklində tapşırığı yerinə yetirirlər.

**Tapşırıqdan sonrakı mərhələ.** Bu mərhələdə öyrənənlər bir-birinin işini qiymətləndirir və dil bacarıqlarını təkmilləşdirmək üçün öz işlərini təhlil edirlər.

**Tapşırıq əsaslı təlim metodu ilə keçirilən xarici dil dərsi nümunəsi**

**1. Mövzunu seçmək**

İlkin olaraq, müəllim öyrənənlərin dil səviyyəsini, təcrübəsini, maraqlarını və digər əlaqəli məlumatları (məsələn, yaş, ana dil və s.) nəzərə alaraq mövzu və ya maraq sahəsini seçməlidir. Məsələn:

Səviyyə: Elementar

Tələbələrin təcrübəsi: Tələbələr əvvəllər səyahət və turistik yerlər haqqında lüğət öyrəniblər.

Mövzu: Dünyanı səyahət etmək

Mövzuya qərar verildikdən sonra dili tədris edənlər müvafiq tapşırıq növlərini seçə bilərlər.

**2. Tapşırığın növünü seçmək**

Tapşırıq əsaslı yanaşmada müxtəlif növ tapşırıqlar istifadə edilə bilər. Bunlara misal olaraq siyahı qurma, müqayisə etmə, problem həll etmə, şəxsi təcrübələri bölüşmə kimi tapşırıq növlərini göstərmək olar. Müvafiq tapşırıq növlərini seçmək üçün müəllimlərə öyrənənlərin yaşı, kursun məqsədi, nəzərdə tutulan nəticələr və s. kimi məlumatları nəzərə almaq tövsiyə olunur.

**3. Tapşırığın məqsədini yazmaq**

Hansı növ tapşırıqların istifadə oluna biləcəyinə qərar verdikdən sonra müəllimlər tapşırıqların məqsədlərini müəyyən etməlidirlər. Məsələn:

**Dərsin məqsədləri:**

- Öyrənənlər hər bir turizm məkanında görüləcək işləri sadalaya bilərlər.
- Öyrənənlər səyahət planları haqqında danışa bilərlər.

**Tapşırıq 1**

1.Tapşırıq: turistik yerlər

2.Tapşırıq növü: Siyahı

3.Tapşırığın məqsədləri: Öyrənənlər turistik yerlərin adlarını sadalamağı bacarmalıdırlar. (Məsələn: kinoteatr, muzeylər, milli parklar, dağlar və s.)

**Tapşırıq 2**

- Tapşırıq: nə etmək olar?
- Tapşırıq növü: Siyahı
- Tapşırığın məqsədləri: Şagirdlər hər bir turistik məkanda hansı fəaliyyətləri yerinə yetirə biləcəklərini sadalamağı bacarmalıdırlar.

**Tapşırıq 3**

- Tapşırıq: səyahət proqramı
- Tapşırıq növü: Sıralama və çeşidləmə
- Tapşırığın məqsədləri: Şagirdlər öz səyahət proqramlarında fəaliyyət və hadisələri ardıcıllıqla sıralamağı bacarmalıdırlar.

Tapşırıq əsaslı dil tədrisi metodu ilə keçirilən xarici dil dərsində öyrənənlər hədəf dildən istifadə edirlər ki, bu da onlara danışıq bacarıqlarını inkişaf etdirməyə kömək edir. Eyni zamanda öyrənənlər qrup şəklində fəaliyyət göstərir və beləliklə bir-biri ilə əməkdaşlıq sayəsində ünsiyyət bacarıqları daha da təkmilləşir.

## Ədəbiyyat


1. Richards J.C. and Rogers T.S. (2001). Approaches and Methods in Language Teaching. New York: Cambridge University Press.

2. [Elektron resurs]/: *What Is Task-Based Learning? A Guide to the Popular Teaching Method.* Johanna Kawasaki(2021). URL: https://bridge.edu/tefl/blog/what-is-task-based-learning/

3. [Elektron resurs]/: *Designing a Task-based Activity in a Foreign Language Classroom*. URL: https://microcredentials.digitalpromise.org/explore/designing-a-task-based-activity-in-a-foreign-langu


## ŞAGİRDLƏRƏ KOMMUNİKATİV BACARIQLARIN TƏDRİSİ


**İmaməliyeva Fidan Azad qızı**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

*justmefidan@gmail.com*


Həyatımızı kommunikasiyasız təsəvvür etmək çətin məsələdir. Ana dilindən əlavə başqa xarici dilləri öyrənib və kommunikasiya qura bilmək bacarıqlarına yiyələnmək bir çox insanın istəyidir. Amma buna necə nail olmaq olar?

Yüzlərlə tapşırıq etməyib, buna illəri sərf etmədən də nail olmaq olar. Şagirdlərin məhsuldar öyrənmələri onların daha tez dil öyrənmələrinə kömək edir. Dərsin məhsuldar və maraqlı olması isə uğurun başlıca göstəriciləridir.

Dərsin məhsuldar olması üçün nəzəri hissə izah edilib, daha sonra praktik: danışıq və kommunikativ hissəyə vaxt ayrılmalıdır.

Nəzəri hissənin məhsuldar olması üçün kurrikuluma əsas materialın daxil edilib, vaxtın çox hissəsinin isə praktik hissəyə sərf edilməsi lazımdır. Məsələn, əlifbanı şagirdlərə öyrədərkən əlifbanı şagirdlərə əzbərləməyə məcbur etmək əvəzinə, hər bir hərfin hansı səsləri verdiyini izah edib bunu sözlərin üzərində praktik olaraq izah etmək daha məqsədəuyğundur.

Dərsi maraqlı etmək üçün isə dərs zamanı müxtəlif prezentasiyalardan, autentik materiallardan, tapmacalardan, yanıltmaclardan, mahnılardan, videolardan, rəngli şəkillərdən və tapşırıqlardan istifadə etmək olar. Yəqin ki, heç kəs uzun-uzadı qrammatika öyrənib, sözlər

əzbərləmək istəməz. Söhbət uşaqlardan getdikdə isə bunu onlara məcbur etmək olmaz. Çünki, uşaqlar aktiv olmağı nəinki xoşlayır, həm də passiv olmaq uşaqların təbiətinə xas deyildir. Buna görə də onları daim stullarında əyləşməyə məcbur etmək əvəzinə, onların aktiv olmalarına şərait yaratmaq lazımdır. Əmin ola bilərsiniz, onlar öyrənirlər!

Hər bir tapşırığı asanlıqla kommunikativ tapşırığa çevirmək mümkündür. Məsələn, qrammatikanı mətn əzbərləyərək öyrənmək olar. Amma, bu metod xarici dildə əzbərləməsi asan olan şagirdlərə şamil edilir. Bu metodla şagirdlər dili təbii yolla mənimsəyirlər, dil açmağa başlayan uşaqlar kimi. Çünki, hər hansı cümləni qrammatik olaraq düzgün əzbərləyən şagird, həmin cümlənin səhv olaraq verilməsi zamanı həmin cümlənin qulağına tanış gəlməyib, qəribə səsləndiyini həmin an anlayır və düzgün forması ilə həmin an əvəz edir.

Yeni sözlər və ifadələr öyrədilərkən onaların cümlədə işlənmə yerləri və hansı situasiyalarda, hansı söz və ifadələrin işlədilməsinin məqsədə uyğun olduğu izah edilməlidir ki, gələcəkdə danışıq zamanı yanlış anlaşılmalara gətirib çıxarmasın.

Kommunikasiyasız öyrədilən xarici dil gələcəkdə heç bir fayda verə bilməz.

## XARİCİ DİL DƏRSLƏRİNDƏ OXU BACARIĞININ ƏHƏMİYYƏTİ VƏ ONUN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN METODLAR

**Məmmədova Arzu Telman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*arzumemmedova1998@bk.ru*

Ana dili tədrisində olduğu kimi xarici dil tədrisində də "oxu" problemi dilçilik və ədəbiyyat elmlərinin mərkəzindədir. Psixologiyadan psixolinqvistikaya, sosiologiyadan sosiolinqvistikaya, semiologiyadan estetikaya qədər bir çox elm sahələri oxuma aktına uyğun modellər təqdim etməyə çalışırlar. Təhsil elmi də bu modelləri təhsildə tətbiq olunan tərəflərini nəzərə alaraq öz nöqteyi-nəzərindən qiymətləndirərək bir sintez modeli yaratmağa çalışır. Burada xarici dil tədrisi baxımından "oxu" fenomenini araşdırmağa çalışacağıq. Xarici dil tədrisində oxu vərdişlərinin mənimsənilməsini müzakirə edəcəyik. Xarici dil tədrisinə yönəlmiş dörd əsas bacarıqdan biri olan yazılı anlama, yalnız yaxşı bir oxu bacarığı ilə əldə edilə bilər. Bu səbəbdən xarici dil dərslərində şagird və tələbələrin oxu bacarığını inkişaf etdirmək üçün müxtəlif oxu metodlarından istifadə olunur. Hal-hazırda xarici dil dərslərində bir sıra effektiv oxu metodları istifadə olunur. Həmin effektiv metodlara "İrəli səviyyədə oxu metodu"nu və "Oxu dərslərində orijinal mətn və tapşırıqlarının istifadəsi metodu"nu misal göstərmək olar.

*İrəli səviyyədə oxu metodu*

Dil səviyyəsi yüksək olan şagirdlər üçün oxu fəaliyyətləri daha müxtəlif və mürəkkəbdir. Bu şagirdlərə verilən mətn və tapşırıqlar daha çox insanların öz ana dilində oxu mətnlərində öhtəsindən gəlmək istədikləri mətn və tapşırıq növlərinə daha yaxındır. Burada tapşırıqlar mətnin sadəcə başa düşülməsini tələb etmir. Şagirdlər mətn üzərində daha çox düşünür. Bu fəaliyyətlər irəli səviyyə danışıq, dinləmə və yazı ilə yanaşı irəli səviyyə oxu bacarıqlarını özündə birləşdirir.

*Oxu dərslərində orijinal mətn və tapşırıqlarının istifadəsi metodu*

Dil səviyyəsi aşağı olan şagirdlər üçün biz onların səviyyələrinə uyğun həmişə daha sadə mətnlər istifadə edirik və mətnlərin mövzusu real həyata əsaslanmır. Çünki ilk mərhələdə bu materialların seçilməsi şagirdlər üçün daha effektiv olur. Orijinal mətnlərin dil səviyyəsi aşağı olan şagirdlərə verilməsi onlar üçün bezdirici və maraqsız olur.

Amma biz öz şagirdlərimizin hədəf dilini ana dili kimi danışanların rast gəldiyi oxu növlərinin öhtəsindən gəlmələrini istəyirik. Buna görə də şagirdlər hədəf dildə öz bacarıqlarını inkişaf etdirdikcə, oxu praktikasına çox çeşitli orijinal və yazıçının gerçək həyatla əlaqələndirdiyi mətnlərin daxil edilməsi çox məntiqli səslənir. Məsələn, bir şeir haqda verilən sualları cavablandırmaq və ya məktubda çatışmayan sözləri əlavə etmək əvəzinə şeirlərin izahını mü-

zakirə etmək və məktuba cavab yazmaq daha cazib olar. Təbii ki, real hadisələrə əsaslanan mətnlərə orada olduğu kimi cavab vermək qeyri-mümkündür. Məsələn, yemək kitabındakı hər hansı bir yemək reseptinə real cavab vermək üçün biz sinifdə mətbəx yarada bilmərik. Amma gerçək həyatda edə biləcəklərimizə yaxın tapşırıqlar və fəaliyyətlər seçməyə çalışa bilərik və bunu etməliyik. Bu oxu növündə bir müəllim kimi bizim məqsədimiz mətnin başa düşülməsi ilə məhdudlaşmır. Məsələn real həyata əsaslanan oxu mətnlərində biz şagirdlərə həmin situasiyada necə davranacaqlarını, öz fikirlərini necə ifadə edəcəklərini və s. öyrətmək istəyirik.

*Dil bacarıqlarından birgə istifadə*: Bildiyimiz kimi irəli səviyyə oxu növündə şagirdlər daha mürəkkəb tapşırıqlar ilə qarşılaşır. Bu isə onlardan daha çox düşünmə tələb edir. Həm də bu tip mətn tapşırıqlarında şagirdlər digər dil bilgi və bacarıqlarını (danışıq, dinləmə və yazı) istifadə etməli olurlar.

Bildiyimiz kimi xarici dilin tədrisi vacib məsələlərdən biridir. Buna görə də xarici dilin tədrisi həm orta məktəblərdə, həm də ali təhsil ocaqlarında diqqət mərkəzindədir. Xarici dilin tədrisində isə oxu bacarıqlarının tədrisi bir xarici dil öyrənməyin vacib məqamlarından birirdir. Bu səbəbdən xarici dilin tədrisində oxu bacarıqlarının tədrisində müxtəlif metod və üsullar tətbiq olunur. Bu metod və üsulların tətbiqində müəllimlər effektiv bildikləri metod və üsullardan istifadə edir və bu yolla oxu bacarıqlarının tədrisi daha maraqlı və səmərəli olur.

## KİMYANIN TƏDRİSİNDƏ ZEHİN XƏRİTƏLƏRİNİN ROLU. ATOMUN QURULUŞU ZEHİN XƏRİTƏLƏRİNDƏ


**Qurbanova Ülviyyə Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ulviyyagurbanova01@gmail.com*



***Acar sözlər**: inteqrasiya, beynin sağ və sol yarımkürəcikləri, zehin xəritəsi, xəyal gücü*



**Xülasə**

Tezisdə əsas təhsilin keyfiyyət və səmərəliliyinin artırılmasında, təhsilalanların idrak fəaliyyətinin təmin edilməsində zehin xəritələrinin rolu, məzmunu, spesifik xüsusiyyətləri və tətbiqi ilə bağlı bəzi məsələlər vurğulanmışdır.


Respublikamızda aparılan təhsil islahatının əsas prinsipləri (demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya, humanitarlaşdırma) bir tərəfdən şagirdyönümlü təhsilin, digər tərəfdən isə fəal (interaktiv) təlimin formalaşdırılması və inkişafına yönəldilmişdir.

Təhsil sistemində tətbiq olunan forma və metodların müxtəlifliyinə baxmayaraq şagird və tələbələr üçün ən əsas amil onların oxuyub-öyrəndiklərini yaxşı yadda saxlamalarıdır. Hafizə – beyin fəaliyyətinin ən əsas məhsuludur. İki bölmədən – sol və sağ beyin yarımkürəciklərindən ibarət olan beynimiz insanlar üçün xarakter olan duyğusal yaddaşın, qısa müddətli yaddaşın və uzun müddətli yaddaşın mövcudluğunu təmin edir. İnsanın digər orqanları kimi beyin üçün də müəyyən müvazinət vəziyyətinin saxlanması çox vacibdir.

Bəşəriyyət tarixində min illərdən bəri ekspedisiyalar aparmaq, coğrafi məkanı bildirmək, müəyyən prosesləri izləmək, tarixi faktları gələcək nəsillərə ötürmək və s. məqsədlərlə müxtəlif növ sxem və xəritələrdən istifadə olunur. Bütün növ xəritələr içərisində hazırlanma üsuluna, mahiyyətinə, istifadə istiqamətlərinə görə digərlərindən fərqlənən zehin xəritələri xüsusi yer tutur.

Zehin xəritələrinə bəzən beynin dostu, hafizənin açarı da deyilir. Zehin xəritələrinin hazırlanması və onlardan istifadə xəyal gücünü, yaradıcı düşüncəni inkişaf etdirdiyinə, yaddaşı möhkəmləndirdiyinə, hafizəni itiləşdirdiyinə, sol və sağ beyin yarımkürəciklərinin birgə fəa-

liyyətini, harmoniyasını təmin etdiyinə görə həm öyrənmə, həm də öyrətmə vasitəsi kimi həyat fəaliyyətinin, demək olar ki, bütün sahələrində uğurla tətbiq edilə bilər.

Orta və ali məktəblərdə imtahanlar zamanı uğursuzluğun mühüm səbəblərindən biri öyrənilən bəzi mövzuların unudulmasıdır, yəni unutqanlıqdır.

Hələ ötən əsrin sonlarında zehin xəritələrinin hazırlanması və onlardan istifadə ideyası irəli sürülmüş, qısa müddət ərzində Böyük Britaniya alimi Tony Buzan dünya üzrə bu sahədə aparıcı mövqeyə çıxmışdır. İnsan beyni, onun quruluşu, bilgi tutumu, imkanları, funksiyaları, hafizənin qorunması, inkişaf etdirilməsi, möhkəmləndirilməsi yolları, zehin xəritələrindən istifadə üzrə tədqiqatlar son 20-30 ildə geniş vüsət almış, böyük uğurlar əldə edilmişdir.

Zehin xəritələri beynimizin qəbul etdiyi bilgiləri təsirli şəkildə saxlayıb, istədikdə o bilgilərin geri çağırılmasını təmin edir və beləcə, beynin imkanlarından ən dolğun şəkildə istifadə etməyimizə kömək edir.

Zehin xəritələrinin hazırlanması üçün mərkəzi bir ana sözdən şəkillər, rəsmlər, standart olmayan şərti işarələrlə və açar sözlərlə çox fərqli istiqamətlərdə, qoyulan məqsədə çatmaq üçün düşüncələr qeyd olunur. Bu xəritələrin hazırlanması, nəzərdə tutulan mövzu üzrə ən vacib anlayışdan başlayır, təfərrüatlar həmin anlayışdan müvafiq rəngli qələmlərlə şaxələndirilir, açar sözlər və rəsmlərlə rəsmləndirilir. Zehin xəritələrində əsas fikir aydın seçilir. Bilgi asanlıqla gözdən keçirilir. Daha sonra şaxələndirmə aparmaqla istədiyin məlumatı əlavə edə bilərsən. Hər bir zehin xəritəsi hər kəsin öz xəyal gücünə xas olaraq hazırlanır, fərdidir, ona görə asanlıqla yada salınır. Eyni bir mətni (mövzunu) 20 nəfərə verib mövzunun zehin xəritəsinin hazırlanmasını istəsək, 20 fərqli zehin xəritəsi ortaya çıxacaq.

Zehin xəritələri keçilən mövzunu, fənnin müəyyən bir bölməsini oxuyub öyrəndikdən sonra təkrar üçün əvəzolunmaz bir vasitədir. Çünki bu xəritələr canlı, parlaq rənglərlə özəl olaraq fərdi qaydada rəsmləndirilən, şagirdi darıxdırmayan və yormayan əyləncəli bir vasitədir. 10-15 səhifəni əhatə edən fənn bölümünün zehin xəritəsini 10-15 dəqiqə ərzində gözdən keçirməklə təkrarlamaq kifayətdir ki, bilgi uzunmüddətli hafizəyə keçsin və yaddaşda qalsın.

**Zehin xəritələrinin hazırlanması qaydaları:**

Zehin xəritəsi hazırlanması üçün bir A4 vərəqi götürülür və stol üzərinə eninə qoyulur ki, xəritələmə aparmağa kifayət dərəcədə sahə olsun. Beynimiz parlaq rəngləri sevir. Beynimizi canlandırmaq üçün mümkün olduqca canlı rənglər işlətməliyik. Hazırlanacaq zehin xəritəsinin ana fikrini, yaxud başlığını müəyyənləşdirin və bunu A4 vərəqinin orta hissəsinə qeyd edin. Yaddan çıxarmayın ki, digər fikirlər mərkəzdən kənarlara doğru yayılacaq. Vaciblik dərəcəsinə görə ən əsas düşündüklərinizi (açar sözləri) mərkəzdən budaqlar (şaxələr) çıxararaq yazın. Şaxələndirməni saat əqrəbi istiqamətində aparın. Çünki beynimizin işləmə sisteminə görə saat əqrəbi yönündə olan bilgilər daha asan yadda qalır.

Zehin xəritəsi hazırlayarkən mərkəzdən şaxələnən ana budaqlarda hər bir ana düşüncənin yanına düşüncəni xatırladacaq şəkil (simvol) çəkin. İstənilən şəkilola bilər. Önəmlisi odur ki, seçdiyiniz şəkil sizə düşündüyünüzü xatırlatsın. Açar düşüncələrinizin alt başlıqlarını budaqların ucundan yeni, nisbətən nazik budaqlar çıxararaq yazın. Yeni, nazik budaqları da rəsmləndirin. Hazırladığınız xəritədə ən mühüm bilgilər ən çox gözə çarpan bigilərdir.

**Atomun quruluşu mövzusunda ən mühüm bilgilər:** atomun elementar hissəcikləri; nüvə, proton və neytron; atomların iona çevrilməsi; izotop, izoton, izoelektron; elektronların energetik səviyyələr və yarımsəviyyələr üzrə paylanması; valent elektronları, atomun həyəcanlanmış halı.

Atomun quruluşu mövzusunda açar sözlərlərdən istifadə etməklə mövzunun zehin xəritəsini hazırlamışıq. Zehin xəritələri təkrar üçün mükəmməl bir vasitədir.




# FİZİKA DƏRSƏRİNDƏ ETT-nin ƏSAS İSTİQAMƏTLƏRİNİN ÖYRƏDİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Abdullayeva Aişə Beydulla qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aisha.abdullayeva7@gmail.com*

Pedaqoji prosesin keyfiyyətini yüksəltmək, onu elmi-texniki tərəqqi və istehsalatın ümumi tələblərinə uyğunlaşdırmaq çox əhəmiyyətli bir məsələdir. Həmçinin, şagirdlərdə əməyə məhəbbət yaratmaq, onların əmək adamlarına dair hörmətlə yanaşmaları və istehsalatda işləməyə hazır olmalarına nail olmaq lazımdır. Bu səbəbdən fizikanın nəzəri əsaslarına söykənən müasir elmi-texnoloji tərəqqinin istiqamətlərinin orta məktəb pilləsində öyrədilməsinə diqqət yetirilməlidir. ETT-nin bu istiqamətlərinə istehsalatın mexanikləşdirilməsi və avtomatlaşdırılması, energetika, yeni materialların hazırlanması, radioelektronika, elektron-hesablama texnikasını və s. aid etmək olar. Fizika dərslərində elmi-texnoloji tərəqqinin əsaslarının öyrənilməsi bütövlükdə təlim-tərbiyə prosesinin səmərəliliyini yüksəltməklə yanaşı, şagirdlərin fənnə olan marağını artırır, texniki məsələlərin həllində fiziki bilərikləri tətbiq etmə bacarıqlarını formalaşdırır. Fizika kursunda ETT-nin vacib istiqamətlərinin öyrədilməsi təlimdə möhkəmlik, şüurluluq və fəallıq, bilik və bacarıqların tamlığı və əlaqəliliyi prinsiplərinin reallaşdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Söylənilənləri nəzərə alaraq deyə bilərik ki, fizikanın hər bir bölməsində texnikanın inkişafından məlumat vermək, fizikanı öyrənməyin vacibliyini təsdiqləyən bir motivasiyadır.

Hazırkı dövrdə fizika fənninin tədrisi elmin texniki inkişafı, istehsalat sahəsi və onun gündəlik həyatda rolu haqqında şagirdlərdə elmi dünyagörüşü, məntiqi düşünmə qabiliyyəti, intellektual inkişaf, özünüdərkin və peşə qabiliyyətlərinin formalaşdırılmasına xidmət etməlidir.

Bu yazımızda ETT-nin əsas istiqamətlərindən biri olan energetikanın orta məktəb pilləsində tədrisini təhlil edəcəyik. Şagirdlərdə energetika haqqında biliklərin formalaşdırılması VII və IX siniflərdə hidroelektrik enerjisinin bir sıra məsələlərinə baxılması ilə başlayır. Qeyd etmək lazımdır ki, bu SES-lərdə istehsal olunan elektrik enerjisi digər növ elektrik stansiyalarından ucuz başa gəlsə də nəzərə almaq lazımdır ki, kiçik çayların üzərində qurulan elektrik stansiyaları çaylardakı canlıların ölümünə səbəb olur və haqlı olaraq bu cür stansiyaların qurulmasına qarşı etirazlar günü-gündən artmaqdadır.

Daxili enerjinin elektrik enerjisinə çevrilməsi məsələlərinə VIII sinifdə baxılır. VIII sinifdə “İstilik hadisələri” mövzusunda müxtəlif maddələrin yanma istilikləri haqqındakı məlumat verərək, yanacaqların sənayedə, nəqliyyatda, energetikada necə geniş tətbiq edildiyini göstərmək olar.

Su elektrik və külək elektrik stansiyalarında enerjinin istehsalı ilə şagirdlər IX sinifdə tanış olurlar. Sonrakı siniflərdə isə nəinki elektrik enerjisinin istehsalı prinsipləri, həmçinin elektrik enerjisinin daha səmərəli yollarla alınması haqqında söz açmaq imkanı yaranır. IX sinifdə şagirdlər nüvə reaktoru, istilik nüvə reaksiyaları haqqında ilkin biliklərə yiyələnirlər. Burada əsas diqqət elektrik enerjisinin istehsalı, ötürülməsi, istifadəsi məsələlərinə yönəldilir. Bu məsələlərin öyrənilməsi xalq təsərrüfatının elektrikləşdirilməsinin uğur və perspektivlərinə baxmaqla yekunlaşdırılır.




***Sxem 1. Elektrik enerjisinin istehsalı, ötürülməsi və istifadəsinin sxematik təsviri.***

Müəllim XI sinif fizika kursuna daxil olan “Atom fizikası” fəslinin tədrisi zamanı şagirdlərin IX sinifdə əldə etdikləri bilikləri daha da dərinləşdirərək bu movzuların əhəmiyyəti haqqında şagirdləri maarifləndirir.

Hər bir fizika müəllimi daima axtarişda olmalı, elmin ən son yeniliklərindən və elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərindən xəbərdar olmalıdır. Mövzuların tədrisi zamani müəllim yeri gəldikcə bu informasiyalara inteqrasiya edərək şagirdləri də maarifləndirməlidir. Yəni sadəcə mövcud dərsliklərlə kifayətlənməməli, onun sərhədlərini məqsədyönlü şəkildə aşmaği bacarmalıdır. XI sinif fizika kursunun tədrisi zamanı elmi-texnoloji tərəqqinin ən son nailiyyətlərindən söz açmaq məqsədəuyğun olardı. Bu nailiyyətlərin böyük bir hissəsini ekoloji təmiz və təbii enerji mənbələri təşkil edir. Bu mənbələrdən danışarkən ağlımıza adətən günəş enerjisi və külək enerjisindən istifadə gəlir. Yaxın gələcəkdə isə bu istiqamətdə Yerin nüvəsinin enerjisindən istifadə etmək planlaşdırılır. Yerin nüvəsinin çox böyük istiliyə malik olduğunu bilirik. Bunu Günəşlə müqayisə edək. Günəşin bizim gördüyümüz və fotosfer adlandırılmış qatının temperaturu 5500°C-dir. Alimlər Yerin nüvəsinin də maksimum bu qədər temperatura malik ola biləcəyini düşünürdülər, lakin tədqiqatlar əsasında məlum olmuşdur ki, Yerin nüvəsinin temperaturu 7000°C-dir. Bu temperatur çox güclü bir enerji mənbəyidir. Hətta MIT universitetinin füzyon tədqiqat mühəndisi Paul P.Voskova görə, bu enerjinin sadəcə mində birini istifadə edərək 20.000000 ildən uzun bir müddət ərzində bütün dünyanın enerji etiyacını qarşılamaq mümkündür. Lakin bu enerjidən istifadə edə bilmək üçün ultra-dərin dəliklər açmaq lazımdır. Bu günə qədər açılmış ən dərin dəlik Sovetlər Birliyi tərəfindən 1970-ci ildə başladılmış və 1989-cu ildə 12262m dərinliyə yetişdirilmiş Kola dəliyi olmuşdur. Ancaq bu dərinlik Yerin nüvəsinin enerjisindən istifadə etmək üçün kifayət etməmişdir. Adı çəkilən enerjidən istifadə edə bilmək üçün təqribən 20km dərinliyə malik olan dəlik açmaq lazımdır. Hal-hazırda bu layihə üzərində bir çox ölkələrin yatırımı ilə 2024-cü ilə qədər layihənin həyata keçirilməsi üçün lazım olan ilk prototipin hazırlanması planlaşdırılır.




*Şəkil 1. Yerin nüvəsinin modeli və onun yerləşdiyi dərinlik*

Bu enerji mənbələri digər bir tərəfdən ona görə əlverişli hesab olunur ki, onların artıq mövcud olan və kömürlə işləyən İES-lərin Yerin nüvəsinin istiliyi ilə işləyən yeni növ İES-lərə çevrilməsindən alınması nəzərdə tutulmuşdur. Beləliklə, ətraf mühiti çirkləndirən əsas sənaye müəssisələrindən biri olan İES-lərdən ekoloji təmiz, yeni növ sənaye müəssisələri əldə etmək mümkün olacaqdır.

Son olaraq onu deyə bilərik ki, dünyada hər bir proses enerji vasitəsi ilə həyata keçirilir. Başqa sözlə desək, ölkələr daha səmərəli enerji mənbələri əldə etməyə çalışırlar. Toxunduğumuz mövzuda təhlil etdiyimiz enerji növlərindən ən səmərəlisi isə ETT-nin ən son və ən böyük nailiyyətlərindən biri olan bu layihə ilə əldə ediləcək enerjidir. Bu məlumatlarla tanış olan şagirdlərdə fənnə və elmə müsbət motivasiya yaranmaqla bərabər, təlim və tərbiyənin vəhdəti gücləndiriləcək, şagirdlərdə müasir elmi dünyagörüşü formalaşacaq və onlar fizikanın həqiqətən ETT-nin və istehsalatın əsasını təşkil etdiyinin bir daha şahidi olacaqlar.

## AĞAC MATERİALLARIN BƏDİİ EMAL TEXNOLOGİYASI

**Abdullalı Fatimə İlham qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*abdullalifatime@gmail.com*

Biz bilirik ki, ağacın əl ilə bədii emal texnologiyasının tarixi qədimdir. Hal-hazırda texnologiya fənnində ağacın bədii emalı 8-ci sinifdə tədris olunur. Hansı ki, burada ağacın əl ilə və yandırma üsulu ilə bədii emal texnologiyasından bəhs edilir. Zaman keçdikcə elm və texnika inkişaf edir. Bu səbəbdəndə müasir dövrümüzdə müasir texnologiyadan istifadə imkanı yaranır. Bu da insanın əl əməyinin yüngülləşməsinə səbəb olur. Biz ağacın əl ilə və yandırma üsulu ilə bədii emal texnologiyasını şagirdlərə tədris etdikdən sonra hal-hazırda müasir dövrümüzdə istifadə olunan ağacın lazer maşını ilə bədii emalından bəhs etsək bu şagirdlərdə həm fənnə həmdə mövzuya qarşı maraq oyadar. Məsələn: şagirdlərə izah etsək ki, **"Xarı bülbül"** ornamentini ağac üzərində əl ilə oya bilirdiksə, artıq, bunu lazer maşınla daha asanlıqla yerinə yetirə bilərik. Bununla biz şagirdlərdə vətənpərvərlik hissinin oyanması, xalqımızın milli adət-ənənələrini xatırlamaları üçün bir növ istiqamət vermiş olarıq. **Nəticə etibarı ilə şagirdlərə həm zamanın müasirliyindən, həm də texnologiyanın müasirliyindən məlumat vermiş oluruq.** Lazer oyma maşını (CNC lazer oyma maşını) unikal və çoxfunksiyalı avadanlıqdır, onun əsas vəzifələri materialın kəsilməsi və həkk olunmasıdır. CNC - ədədi nəzarət –işləmə prosesini asanlaşdıran proqram təminatı quraşdırılmış avadanlıqdır. Fokuslanmamış lazer şüası linzadan keçərək fokuslanmış lazer şüasına çevrilir. Materialı emal etməyə başlayır. Emal prosesi zamanı toz və tüstü əmələ gəlir. Lazerin həkk olunmuş materialdan yanmaması üçün onun gücünü düzgün seçmək lazımdır. Lazerlə oyma səthdə aydın görünür və zamanla deformasiyaya uğramır. Linzadan keçən lazer şüası ilə emal olunan səthdə 0,2 mm diametrdə deşik açmaq mümkündür. Hərəkət edən elementlərin dəqiq və hamar hərəkəti üçün çərçivəyə bələdçilər quraşdırılır.Ağacın bədii emalı zamanı Lazer cnc maşınlarından istifadə etməyin əsas üstünlükləri bunlardır: İstənilən sərtlikdə olan materialdan

istifadə etmək imkanı, Kəsmə və oymada maksimum dəqiqlik, Vaxta qənaət edilməsi, İstehsalın səmərəliliyinin artırılması və s.

## AĞAC MATERİALLARIN MÜASIR ÜSULLA BƏDİİ EMAL TEXNOLOGİYASININ BƏZİ ASPEKTLƏRİ

**Abdullalı Fatimə İlham qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*abdullalifatime@gmail.com*

***Açar sözlər:*** *ağac, müasirlik, texnologiya, şagird, lazer oyma maşını*
***Ключевые слова:*** *дерево, современность, технология, учениöа, лазерный гравировальный станок*
***Key words:*** *tree, modernity, technology, pupil, laser engraving machine*

**Xülasə**

Texnologiya dərsində ağacın bədii emalı. Ağacın CNC lazer oyma maşını ilə bədii emal texnologiyası, lazer oyma maşınının işləmə prinsipi, onun üstün cəhətləri, CNC lazer oyma maşını haqqında məlumat verdikdən sonra şagirdlərdə formalaşan müsbət keyfiyyətlər haqqında məlumat verilir.

**Резюме**

Художественная обработка дерева на уроке технологии. Технология художественной обработки дерева лазерным гравировальным станком с CNC, принцип работы лазерного гравировального станка, его преимущества, положительные качества, сформированные у студентов после предоставления информации о лазерном гравировальном станке с CNC.

**Summary**

Artistic processing of wood in technology class. Artistic processing technology of wood with CNC laser engraving machine, the principle of operation of laser engraving machine, its advantages, positive qualities formed in students after giving information about CNC laser engraving machine.

Biz bilirik ki, ağacın əl ilə bədii emal texnologiyasının tarixi qədimdir. Hal-hazırda texnologiya fənnində ağacın bədii emalı 8-ci sinifdə tədris olunur. Hansı ki, burada ağacın əl ilə və yandırma üsulu ilə bədii emal texnologiyasından bəhs edilir. Zaman keçdikcə elm və texnika inkişaf edir. Bu səbəbdən də müasir dövrümüzdə müasir texnologiyadan istifadə imkanı yaranır. Bu da insanın əl əməyinin yüngülləşməsinə səbəb olur. Biz ağacın əl ilə və yandırma üsulu ilə bədii emal texnologiyasını şagirdlərə tədris etdikdən sonra hal-hazırda müasir dövrümüzdə istifadə olunan ağacın lazer maşını ilə bədii emalından bəhs etsək bu şagirdlərdə həm fənnə həm də mövzuya qarşı maraq oyadar. Məsələn: şagirdlərə izah etsək ki, **"Xarı bülbül"** ornamentini ağac üzərində əl ilə oya bilirdiksə artıq, bunu lazer maşınla daha asanlıqla yerinə yetirə bilərik. Bununla biz şagirdlərdə vətənpərvərlik hissinin oyanması, xalqımızın milli adət-ənənələrini xatırlamaları üçün bir növ istiqamət vermiş olarıq. **Nəticə etibarı ilə şagirdlərə həm zamanın müasirliyindən həm də texnologiyanın müasirliyindən məlumat vermiş oluruq.**

Lazer oyma maşını (CNC lazer oyma maşını) unikal və çoxfunksiyalı avadanlıqdır, onun əsas vəzifələri materialın kəsilməsi və həkk olunmasıdır (işarələnməsidır).

  

Lazer oyma maşınları təxminən 25 il bundan əvvəl ortaya çıxmışdır və tez bir zamanda geniş yayılmışdır.

**CNC nədir?**

 

CNC - ədədi nəzarət –işləmə prosesini asanlaşdıran proqram təminatı quraşdırılmış avadanlıqdır. Operatorun vəzifəsi oyma üçün nümunə seçmək, ölçülərini təyin etmək və iş üçün materialı dəqiqləşdirməkdir – sonra maşın göstərilən parametrlərə uyğun olaraq ağacı bədii emal etməyə başlayır.

Lazer oyma prosesi necə tətbiq olunur?

Lazer avadanlıqlarında mənbədən gələn işıq linzadan keçir və nəhayət fokuslanır. Yaranan lazer şüası istənilən materiala nüfuz edə bilən yüksək enerji tərkibinə malikdir. Yüksək temperatura görə lazer şüası materialı təmas nöqtəsində buxarlandıraraq səthdə sizə lazım olan ölçüdə və dərinlikdə boşluq buraxır.

Fokuslanmamış lazer şüası linzadan keçərək fokuslanmış lazer şüasına çevrilir. Materialı emal etməyə başlayır. Emal prosesi zamanı toz və tüstü əmələ gəlir. Lazerin həkk olunmuş materialdan yanmaması üçün onun gücünü düzgün seçmək lazımdır.Lazerlə oyma səthdə aydın görünür və zamanla deformasiyaya uğramır. Linzadan keçən lazer şüası ilə emal olunan səthdə 0,2 mm diametrdə deşik açmaq mümkündür. Hərəkət edən elementlərin dəqiq və hamar hərəkəti üçün çərçivəyə bələdçilər quraşdırılır.



Ağacın bədii emalı zamanı Lazer cnc maşınlarından istifadə etməyin əsas üstünlükləri bunlardır :

1. İstənilən sərtlikdə olan materialdan istifadə etmək imkanı.
2. Kəsmə və oymada maksimum dəqiqlik.
3. Qapalı qutu operatorun tam təhlükəsizliyini təmin edir.
4. Müasir və aydın interfeys.
5. Faktiki olaraq tullantısız istehsal.
6. Məhsulun maya dəyərinin aşağı düşməsi.
7. Məmulatın keyfiyyətinin yüksəldilməsi.
8. Vaxta qənaət edilməsi.
9. İstehsalın səmərəliliyinin artırılması.

Nəticə etibarı ilə onu deyə bilərəm ki, mövzunun bu cür tədris olunması şagirdlərdə aşağıdakı mübət keyfiyyətlərin yaranmasına səbəb olur.

1. Şagirdlərdə fənnə olan maraq artır.
2. Onların dünyagörüşünün genişlənməsinə səbəb olur.
3. Fənlər arasında əlaqə yarada bilmək qabiliyyəti formalaşır.
4. Onlarda yaradıcı təfəkkür inkişaf edir.
5. Həmçinin şagirdlər yeni innovasiyalarla tanış olmuş olur.

**Ədəbiyyat:**


1. Художественная обработка дерева. Барадулин В.А. 1986.380 s. [180-188s].

2. Матвеева Т.А. Мозаика и резьба по дереву. — Издательство «Высшая школа», 1993. 250 s. [95-102s].

3. Серикова Г.А. Секреты резьбы по дереву. — М.: Центрполиграф, 2011. 230 s. [133-141s].

4. https://www.google.com/url

5. İnternet resursları

# II BÖLMƏ
# TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

## TƏHSİLİN İDARƏ EDİLMƏSİ VƏ KEYFİYYƏTLİ TƏHSİLİN VERİLMƏSİ YOLLARI

**Məlikova Fizzə Etibar qızı**
**Sumqayıt Dövlət Universiteti**
*Fizza.melikova@gmail.com*

Təhsil cəmiyyətin inkişafının başlıca ünsürlərindən biridir. Bununla bağlı olaraq təhsilin idarə olunması prosesi xüsusi əhəmiyyət kəsb edir. Təhsilin idarə olunmasına da bu baxımdan diqqət ayrılmalıdır. Təhsilin idarə olunması idarəetmə qaydalarının təhsil sistemində tətbiq olunması prosesidir. İdarəetmə prinsiplərinə uyğun olaraq burada da resurslardan qənaətlə istifadə, məqsədyönümlü planlaşdırma önəmlidir. Təhsilin idarə olunması bir elm kimi ilk dəfə Amerika Birləşmiş Ştatlarında sənaye və ticarətin idarəetmə prinsipləri əsasında tətbiq edilmişdir. Buna görə də, prosesin inkişafı əsasən sənayenin təhsil parametrlərinə tətbiq olunmasına yönəlmişdir. Daha sonra akademik sahə olaraq nəzəriyyəçilər və təcrübəçilər tərəfindən məktəb və universitetlərdə tətbiq və müşahidə olunmağa başlandı. XXI əsrə qədər isə nəzəriyyələr əsasən xüsusi tələblərə cavab verən sənaye modelləri əsasında uyğunlaşdırılmışdır.

Təhsildə inkişafa nail olmaq üçün təhsilin peşəkar idarə olunmasına şərait yaratmaq lazımdır. Bu prosesdə effektivliyi qorumaq üçün idarəetmə elminin tarixi və nəzəriyyəsini, idarə edicinin vəzifə və öhdəliklərini bilmək və idarəetmə bacarıqlarına sahib olmaq önəmlidir. Təhsil müəssisələri dinamik mühitdə fəaliyyət göstərirr. Ona görə də, öz qurumlarında təkmilləşdirmələri davamlı olaraq müəyyən etməli və tətbiq etməlidirlər. Bununla yanaşı, rəhbərlər, müəllimlər və işçilər hər zaman təlim və inkişaf imkanlarına açıq olmalıdırlar. Təhsilin idarə olunması aşağıdakıları diqqət mərkəzində tutur:

-Təhsil idarəçisinin vəzifə və öhdəliklərini təsvir edən idarəetmə nəzəriyyəsi və bacarıqlarını inkişaf etdirmək;

-Makro səviyyədə planlaşdırma, məqsəd, prinsip, yanaşma və prosesləri vasitəsilə mikro səviyyədə təşkilati planlama;

-Qərarların qəbulu, problemlərin həll olunması, kommunikasiya, informasiya və effektiv komanda qurmaq;

-Tədris planı və fəaliyyətinin planlaşdırılması, proqram və akademik təqvim;

-Məlumatların saxlanılması və tələbənin qiymətləndirilməsi;

-Maliyyə resurslarının effektiv bölüşdürülməsi və təşkilatların büdcələrinin planlaşdırılması.

Ənənəvi olaraq idarəetmə əvvəlcədən nəzərdə tutulmuş vəzifə və funksiyaları həyata keçirmək məqsədilə insana, kollektivə təsir etmək kimi başa düşülür. Sistemli idarəetmədə diqqət, əsasən tədqiq olunan obyektin istər daxilində, istərsə də xarici əhatəsində yaranmış mühitlə müxtəlif xarakterli münasibət və əlaqələrin üzə çıxarılmasına və istifadə olunmasına yetirilir.

Sistemli idarəetmənin modeli dedikdə planlı şəkildə təsiretmənin təşkilatı strukturunu və məqsədini əks etdirən layihələndirmə sistemi kimi başa düşülür. Bu da proqnozlaşdırılan obyektdə real vəziyyətdə özünü göstərən əlaqələr, tendensiyalar, proseslər öz əksini tapır və onlarla əlaqəli fəaliyyəti öyrənməyə, təhlil etməyə imkan yaradır.

Müasir dövrdə təhsilin idarə olunmasında sovet dövründən miras qalmış dövlət idarə etmə sisteminin özünü doğrultmadığı artıq hamıya bəllidir. Təsadüfi deyil ki, təhsil sahəsində Dövlət İslahat Proqramında İdarəetmənin dövlət ictimai prinsipləri əsasında həyata keçirilməsinə üstünlük verilir və «Perspektivdə ictimai-dövlət idarəetmə sisteminə keçirilməsi» vəzifə

kimi təhsil orqanları qarşısında qoyulmuşdur . Dövlətin prezidentinin təsdiq etdiyi bu proqrama əsaslanaraq son illərdə Respublikada bir sıra yeni orqanlar, ictimai təşkilatlar, təşkilati-hüquqi formalar yaranır ki, onlar yaşlıların təhsil təşkilatlarının inkişafına kömək edir, onların fəaliyyətini koordinə edir, əhalinin şəxsi təhsil tələbatlarının ödənilməsinə çalışır. Belə ictimai təşkilatlardan hamıya tanış olan Milli Məclisin təhsil komissiyası tərəfindən yaradılmış «yaşlıların təhsil koordinasiya şurası»nı, «Təhsil Nazirliyinin ixtisasartırma təhsili üzrə Respublika Tədris-Koordinasiya Şurasını, yerli özünüi darəetmə orqanları» (bələdiyyələr), həmkarlar təşkilatları, vətəndaş birlikləri və s. göstərmək olar. Təsadüfi deyil ki, Milli Məclisdə ilk oxunuşda qəbul edilmiş «yaşlıların təhsil qanununda» bu haqda qeyd edilir ki, «Yaşlıların təhsil sisteminin idarə olunması dövlət-ictimai xarakter daşımaqla əksmərkəzləşmə, demokratiklik və təmsilçilik prinsiplərinə əsaslanır və sosial subyektlərin qarşılıqlı əməkdaşlığı şəraitində həyata keçirilir» (maddə 7).

Müasir dövrdə formalaşan təhsili idarə edən mexanizmlərdən biri təhsili idarə edən orqanlarla dövlət orqanlarının əlaqəli fəaliyyətidir. Bu ölkədə təhsilin sosial-siyasi və iqtisadi vəziyyətinin müəyyənləşdirilməsində mühüm cəhətdir. Ölkəmizdə həyata keçirilən islahatlar təhsil sahəsində dövlət siyasətinin təsirini getdikcə artırır. Ölkədə iqtisadi qanunların nəzərə alınmaması sosial proseslərin hakimiyyət orqanlarının bütün səviyyələrdə lazımi qaydada nəzərə alınmaması təhsil sahəsində pozitiv siyasətin formalaşmasına mane olur.

Ölkəmizdə fəaliyyətdə olan dövlət qurumlarının işinin təhlili göstərir ki, onun rolu təhsildə aşağıdakı səviyyələrdə özünü göstərir:

1. Qanunverici orqan kimi ölkədə təhsil potensialını tənzimləyən hüquqi normaları müəyyənləşdirmək;

2. Təhsilin inkişafının təmin edilməsi üçün maliyyə vəsaitləri mənbələrini müəyyənləşdirmək;

3. Yeniləşmiş kadrlardan istifadə edib, onların hazırlanması üçün sifarişlər vermək;

4. Təhsil müəssisələrinin əlaqəli fəaliyyətini koordinə etmək;

5. Siyasi qüvvə kimi yaşlıların təhsilinin inkişaf problemlərinə cəmiyyətin münasibətlərini müəyyənləşdirmək.

Azərbaycan Respublikasının təhsil sahəsində dövlət siyasətinin tərkibini təhsilin uzun müddətli zaman üçün vacib inkişaf istiqamətlərini müəyyənləşdirən milli təhsil konsepsiyası və təhsil sisteminin bütün sahələrinin inkişafını özündə birləşdirən dövlət proqramları təşkil edir. Müasir mənada təhsilin keyfiyyəti – təkcə tələbələrin biliklərinin dövlət standartlarına uyğunluğu deyil, həm də təhsil müəssisəsinin özünün uğurlu fəaliyyəti, eləcə də təhsil xidmətlərinin keyfiyyətinin təmin edilməsi istiqamətində hər bir pedaqoq və idarəedənlərin fəaliyyətidir.

Müasir dövrdə təhsil müəssisəslərində təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün müxtəlif yollar mövcuddur. Bunlara: təhsil müəssisəslərinin akkreditasiyası, təhsilin keyfiyyətinin qiymətləndirilməsi, tədris prosesinin monitorinqi, məktəbdaxili monitorinq və s. aid etmək olar. Dissertasiya işində dünyada və ölkəmizdə təhsil sisteminin tədqiqatı aparılmış, habelə, təhsilin keyfiyyətinin idarə edilməsinin effektivliyini artırmanın 8 yollarından bəhs edilmiş, təhsilin keyfiyyətinin idarə olunmasında dövlətin rolunun təkmilləşdirilməsi istiqamətləri göstərilmiş, təhsildə keyfiyyətin idarə olunması üzrə proqnozlar verilmişdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**. Azərbaycanda təhsil sahəsində maliyyə resurslarının yetərli olmaması, bu resursların bölüşdürülməsində qeyri-müəyyənliyin olması, idarəetmə və nəzarət mexanizmlərinin lazımi səviyyədə olmaması ölkədə əsas problemlər olaraq göstərilə bilər. Mövzu ilə bağlı Azərbaycanda Ramiz Məmmədzadə, Misir Mərdanov, Yəhya Kərimov və başqaları araşdırmalar aparmışdır. Eyni zamanda beynəlxalq səviyyədə Elife Doğan, Selahattin Turan, Jaap Scheerens, Jonathan Clifton kimi şəxslər öz elmi fəaliyyətlərində təhsilin keyfiyyəti mövzusuna toxunmuşdur.

**Tədqiqatın predmetini**. Azərbaycanda təhsil sahəsində keyfiyyət idarəetməsinin effektivliyinin artırılması yolları, həyata keçirilən islahatların əsas istiqamətləri, modernləşdirmə yolu ilə təhsilin idarə olunmasındakı dəyişikliklər təşkil edir.

**Tədqiqatın obyekti** təhsil sisteminin keyfiyyəti və təhsil sisteminin özüdür.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin məqsədi təhsildə keyfiyyətinin artırılmasındakı əsas problemlərin müəyyənləşdirilməsi əsasında onun modernləşdirilməsi periodunda təhsilin idarə edilməsinin təkmilləşdirilməsi yollarının müəyyən edilməsidir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı əsas vəzifələri yerinə yetirmək lazımdır:

1. Təhsilin idarə olunması sahəsində müxtəlif nəzəriyyələrin ümumiləşdirilməsi və əsas idarəetmə problemlərini özündə ehtiva edən mövcud təhsil sistemini təsvir etmək;
2. Təhsil sisteminin əsas sosial-iqtisadi məqsədlərinə nail olmaq dərəcəsini qiymətləndirmək üçün göstəricilərin təhlili: əlçatanlıq və keyfiyyətin artırılması;
3. Müxtəlif sosial-iqtisadi sistemlərdə təhsilin idarə edilməsi ilə bağlı beynəlxalq təcrübəni öyrənmək;
4. Ölkənin təhsil sisteminin strukturunda yeni keyfiyyət dəyişikliklərinə nail olmaq üçün təhsil müəssisələrinin idarə olunmasının müasir modelini hazırlamaq;
5. Təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində dövlətin rolunun artırılması və təhsilin keyfiyyətinin proqnozlaşdırılması;
6. Modernləşmə dövründə təhsil sisteminin idarə edilməsinin təkmilləşdirilməsinə dair tövsiyələr hazırlamaq.

## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ ÜMUMİ TƏHSİLİN İDARƏ OLUNMASININ MÜHÜM VASİTƏSİ KİMİ

**Xəlilova Mehriban Elbrus qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Xelilova99@gmail.com*

Təhsil müəssisələrinin idarəolunmasında, təhsilin keyfiyyəti haqqında düzgün informasiya əldə etməkdə və ümumtəhsil məktəblərinin perspektiv fəaliyyət istiqamətinin müəyyənləşdirilməsində monitorinq və qiymətləndirmə mühüm əhəmiyyət kəsb edir.

Monitorinq müntəzəm və fasiləsiz müşahidələr vasitəsilə təhsil müəssisələrində tədris prosesinin vəziyyəti haqqında informasiyanın toplanılmasına, sistemləşdirilməsinə, ümumiləşdirilməsinə, təhlilinə və təqdim edilməsinə imkan verir.

Monitorinq bir sıra funksiyaları yerinə yetirir. İlk olaraq, o öyrədici funksiyanı icra edir, yəni məktəbdə tədrisin, təlimin təşkilinə düzgün istiqamət verir. Bundan əlavə, monitorinqin proqnozlaşdırıcı (nəticələrin əvvəlcədən müəyyənləşdirilməsi); inkişafetdirici (pedaqoji prosesin dinamik inkişafına yol göstərmək); tərbiyəedici (məktəbin daxili nizam-intizam qaydalarına əməl etmək) kimi funksiyaları vardır. Nəhayət, monitorinq həm də motivasiyalaşdırıcı (nailiyyətlərin əldə edilməsinə həvəsləndirmək) və korreksiyaedici (yanlışlıqların aradan qaldırılması) vəzifələrini yerinə yetirir.

Ümumtəhsil məktəblərinin idarəedilməsinin modernləşdirilməsi şəraitində monitorinq yetərincə mürəkkəb və eyni zamanda zəruri idarəetmə vasitəsidir. O, müşahidə aparılan fəaliyyət sahəsinin istənilən aspekti haqqında sistemli və ardıcıl məlumat əldə etməyə, onların təhlilini aparmağa, uyğunsuzluqları müəyyən etməyə və gələcək səmərəli inkişaf məqsədilə düzgün qərarlar qəbul etməyə imkan verir.

Monitorinqin əsas məqsədi təhsilin məzmununun dövlətin təhsil standartlarına nə dərəcədə uyğun olduğunu müəyyənləşdirməkdir.

Ümumtəhsil məktəblərində olan nöqsanları vaxtında aşkar etmək və onları aradan qaldırmaq üçün monitorinq qiymətləndirmə ilə birgə aparılmalıdır. Qiymətləndirmənin obyektlərinə həm təhsilin keyfiyyəti, həm də şagird nailiyyətləri aiddir.

Qiymətləndirmə monitorinqlə müqayisədə daha dar çərçivədə istifadə edilən anlayışdır.

Ümumtəhsil məktəblərinin idarəolunmasında qiymətləndirmə başlıca vasitələrdən biri kimi hesab olunur.

Qiymətləndirmə dedikdə, həm təlim prosesinin, həm şagird nailiyyətlərinin, həm də müəllimlərin pedaqoji fəaliyyətinin qiymətləndirilməsi diqqət mərkəzində saxlanılır.

Təlim prosesinin qiymətləndirilməsi dedikdə, təlimin məzmununun, təlim metodlarının və təlim prosesinin qiymətləndirilməsi nəzərdə tutulur.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (cari qiymətləndirilmə və ya irəliləyişlərin monitorinqi) və summativ (yekun) qiymətləndirməni nəzərdə tutur.

Nəhayət, öyrədənlərin peşəkarlıq səviyyəsinin əvvəlcədən işlənilib hazırlanmış meyarlar (göstəricilər) əsasında qiymətləndirilməsi də xüsusi əhəmiyyət kəsb edən problemdir.

Beləliklə, monitorinq və qiymətləndirmə təhsil müəssisəsinin fəaliyyətinin tənzimlənməsinə və perspektiv inkişaf istiqamətlərinin müəyyən olunmasına, təhsilalanların təlim keyfiyyətlərinin dəyərləndirilməsinə və təhsilverənlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsinə imkan verir.

## TƏHSİL SEKTORUNDA BİZNES STRUKTURLARI İLƏ ƏMƏKDAŞLIĞIN MÜHÜM ASPEKTLƏRİ

**Nəbiyeva Təzəgül Nurəddin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nabiyevatazagul@gmail.com*

Azərbaycan təhsilinin insan kapitalının inkişafında aparıcı olması istiqamətində hərtərəfli tədbirlərin həyata keçirilməsinə və təhsilin keyfiyyətinin Avropa standartlarına uyğunlaşdırılmasına mütləq tələb var. Bu məqsədlə təhsildə idarəetmə sisteminin dəyişdirilməsi, bu sahəyə uyğun kadr potensialının inkişaf etdirilməsi və müəllim nüfuzunun, müəllimlərə ictimai inamın artırılması vacib amillərdəndir. Sadalanan problemlərin həlli məqsədi ilə Strategiya Azərbaycanda daim inkişaf edən, peşəkar müəllim və təhsil menecerlərinə malik, müasir infrastrukturla təmin edilmiş rəqabət qabiliyyətli təhsil sisteminin yaradılmasına istiqamətlənmişbeş əsas istiqamətdə hərtərəfli tədbirləri nəzərdə tutur. Bu tədbirlər həmçinin, təhsil sektorunun inkişaf etdirilməsi istiqamətində Azərbaycan Respublkası prezidentinin 2 fevral 2021-ci il tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” İnkişaf Konsepsiyasının gərəyi hesab edilməlidir. Qeyd edək ki, müasir dünyamızda bir sıra ölkələrdə dövlət-biznes tərəfdaşlığı milli təhsil sistemlərinin innovativ inkişafının vacib istiqaməti kimi çıxış edir. Təhsil sahəsində bu cür tərəfdaşlıq hər iki tərəfin səylərini gücləndirməyə və əldə olan resurslardan daha rasional istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməyə imkan verir, kadr hazırlığını ən yüksək səviyyədə təmin etməyə şərait yaradır. Digər mühüm məqam bu cür tərəfdaşlığın təhsili idarəetmənin effektivliyinin yaxşılaşması ilə bağlıdır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olan bəzi ölkələrdə dövlət-biznes tərəfdaşlığı dövlət və biznes arasında daha geniş, konstruktiv qarşılıqlı səyləri nəzərdə tutur. Tərəfdaşlar konkret sahəyə dair bir sıra normativ-hüquqi aktların hazırlanmasında birlikdə iştirak edirlər. Fikrimizcə, tərəfdaşlığın bu istiqaməti təhsil sahəsində gələcəkdə birgə layihələrin hazırlanması və həyata keçirilməsinə imkan yarada bilər. Tərəfdaşlıq sisteminin yaradılmasını şərtləndirən faktorlar kimi aşağıdakıları göstərmək olar:

- ümumtəhsil xidmətləri bazarında rəqabətin güclənməsi,
- yüksəkixtisaslı müəllimlərin çatışmaması,
- təhsili idarəetmə orqanları əməkdaşlarının yenidən hazırlanması üzrə yüksək keyfiyyətli proqramlara tələbat.

Təhsil sahəsində dövlət-biznes tərəfdaşlığı birbaşa cəmiyyətin hər bir təbəqəsinin mənafeyinə və son nəticədə əmək bazarının peşəkar kadrlarla təmin olunmasına xidmət etdiyindən, fikrimizcə, bu sistemin təkmilləşdirilməsi də zəruri əhəmiyyət daşıyır. Hesab edirik ki, təhsil sisteminin bütün sahələrini əhatə edə biləcək dövlət-biznes tərəfdaşlığının inkişaf konsepsiyası hazırlanmalı və bu zaman dünyanın qabaqcıl təhsil sistemlərinin təcrübəsi nəzərə alınmalıdır. Bu konsepsiyanın əsas müddəaları aşağıdakılar ola bilər:

1. Dövlət-biznes tərəfdaşlığı sistemində iştirak edən tərəflərin qarşılıqlı münasibətləri rəsmi sənədlərdə təsbit olunmalıdır.

2. Dövlət-biznes tərəfdaşlığı resursların qarşılıqlı mübadiləsi və məsuliyyətin bölüşdürülməsini nəzərdə tutur. Resurslar dedikdə isə təkcə maddi və ya pul vəsaitləri başa düşülmür, buraya həm də biliklər, vərdişlər, etimad və s. daxildir. Təhsil sahəsində əməkdaşlıq edən tərəflər öz aralarında bütün riskləri və xərcləri bölüşməli, eləcə də əldə olunmuş nəticələrin tətbiqində iştirak etməlidirlər.

3. Tərəflər arasında onların birlikdə çalışmaları, eləcə də ümumi məqsədləri həyata keçirmələri üçün kifayət dərəcədə qarşılıqlı etimad və hörmət olmalıdır. Tərəflər arasında qarşılıqlı münasibət tərəfdaşlıq, lakin bərabərhüquqlu xarakter daşımalıdır.

Qloballaşan dünyada iri şirkətlər, biznes dairələri təhsil müəssisələri, xüsusən də universitetlərə ciddi maraq göstərirlər. Ölkə iqtisadiyyatının davamlı inkişafının təmin olunması üçün daha səriştəli, innovativ təfəkkürlü işçilərə tələbatın artması nəticəsində biznes dairələri təhsil müəssisələri ilə əməkdaşlıq münasibətlərinin qurulmasında maraqlıdır. Bu faktora çox ciddi əhəmiyyətin verildiyi ölkələrdə (ABŞ, Böyük Britaniya, Almaniya, Çin, Yaponiya, Cənubi Koreya) biznes qurumları universitetlərdə tədris prosesinə fəal müdaxilə edirlər. Onlar tələbələr qarşısında konkret layihələrlə çıxış edir, hər bir tələbənin imkan və bacarıqlarını üz çıxara biləcək tədqiqat layihələrinin hazırlanmasını onların öz ixtiyarına buraxırlar. Çox zaman tədqiqatlarda uğurlu nəticə əldə etmiş tələbə şirkət tərəfindən işlə təmin olunur. Dünya təcrübəsi sübut edir ki, son vaxtlar təhsil sahəsində dövlət-biznes tərəfdaşlığı aktiv surətdə genişlənməkdədir. Bu onun göstəricisidir ki, dövlət və biznes bu gün təhsil sistemi qarşısında duran irimiqyaslı hədəflərə çatmaq üçün qarşılıqlı surətdə fəal əməkdaşlıqda maraqlıdır. Dövlət və biznes arasında tərəfdaşlıq münasibətlərinin səmərəli inkişafı hər iki tərəfin maraqlarının razılaşdırılması prinsipinə əsaslanır. Lakin hər iki tərəfi birləşdirən ümumi vəzifə rəqabətqabiliyyətli, yüksək peşəkarlığa malik mütəxəssislərin yetişdirilməsi və təhsili idarəetmə kadrlarının effektiv hazırlığını təmin etməkdir. Dövlət-biznes tərəfdaşlığına əsaslanan layihələr bu gün təhsil, tədqiqat institutları, digər müəssisə və təşkilatları özündə birləşdirən universitet komplekslərinin yaradılmasında və inkişaf etdirilməsində mühüm rol oynaya bilər. Bu cür innovativ struktur ali məktəbə təhsil prosesinin keyfiyyətini və səmərəliliyini artırmağa, onun tətbiqi yönümünü inkişaf etdirməyə, mütəxəssis hazırlığında intellektual, maddi, informasiya və insan resurslarından maksimum dərəcədə yararlanmağa, tədqiqatlar aparmağa, innovativ layihələr hazırlamağa imkan verə bilər. Təhsil sahəsində dövlət-biznes tərəfdaşlığının mühüm fəaliyyət istiqamətlərindən təhsil proqramları, standartlarının məzmununun təkmilləşdirilməsi, ali məktəbin professor-müəllim heyəti və şirkət nümayəndələri üçün ixtisasartırma proqramlarının reallaşdırılmasını göstərmək olar. Dövlət-biznes tərəfdaşlığının mühüm mexanizmlərindən biri kimi bir sıra ölkələrdə geniş tətbiq olunan Məzunlar Assosiasiyasının yaradılmasını qeyd etmək olar. Könüllü ictimai təşkilat kimi çıxış edən bu assosiasiya dövlət, təhsil müəssisəsi, ictimai və özəl sektorun birgə səylərinin perspektiv istiqamətlərindən biridir. Assosiasiya üzvləri təhsil prosesinin məzmununun təkmilləşdirilməsində iştirak edirlər. Bu quruma son vaxtlar tələbat daha çox artmaqdadır. Amerika və bir sıra Qərb ölkələrində dövlət-biznes tərəfdaşlığının mühüm mexanizmlərindən biri kimi endaument (endowment - ianə, pay) institutunun fəaliyyəti mühüm əhəmiyyət daşıyır. Söhbət ali məktəblərin nəzdində məqsədli kapital fondlarının yaradılmasından gedir. Bu cür fondlar universitetlərin həyata keçirdiyi müxtəlif layihələrin maliyyələşdirilməsində çox vacib rol oynaya bilər. Dünyanın ən

nüfuzlu təhsil ocaqlarından Harvard, Stenford, Oksford, Kembric, Münhen universitetləri bu sahədə böyük təcrübə qazanıblar. Məqsədli kapital fondlarının vəsaitlərindən səmərəli istifadə olunması ali təhsil sistemimizin modernləşməsinə, mütəxəssis hazırlığının keyfiyyətini artırmağa, elmi tədqiqatların genişləndirilməsinə, təqaüdlər və qrantlar hesabına istedadlı tələbələr üçün stimul yaradılması və onların gələcəkdə uğurlu karyera qurmalarına töhfə verə bilər. Çox maraqlı fakt odur ki, bir sıra hallarda universitet nəzdində yaradılan endaument fondlarının əməkdaşları əvvəllər bu təhsil ocağını bitirmiş məzunlardır. Milli universitetlərimiz nəzdində endaument fondlarının yaradılması və bu qurumlarda artıq xarici ölkələrin universitetlərində təhsil almış gənclərimizin təmsil olunması çox sevindirici hal olardı.

## TƏHSİLİ İDARƏETMƏNİN KEYFİYYƏTİNİN TƏMİNATINDA MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN YERİ VƏ ROLU

**Qaralova Nigar Şərif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nigar.garalova@yahoo.com*

Təhsil sistemində keyfiyyət - təhsildə əldə olunan nəticələrə müvafiq olaraq qabaqcadan müəyyən olunmuş standartlara (normativlərə) uyğun, öyrənənlərin səviyyəsi, ümumən təhsil sisteminin vəziyyəti ilə müəyyənləşdirilir. Təhsilin nəticələri dedikdə təkcə öyrənənin öz təhsilini bitirdikdə sahib olduğu bilik, bacarıq və vərdişlərin səviyyəsi ilə deyil, eyni zamanda dünyaya, ümumən cəmiyyətin inkişafına olan baxışı, şəxsi keyfiyyətləri də başa düşülür.

Bazar iqtisadiyyatının daha güclü inkişaf etdiyi bir şəraitdə Azərbaycan Respublikasının təhsil sistemində hərtərəfli inkişaf etmiş şəxsiyyətin, cəmiyyətin təhsillə bağlı tələbatını ödəmək məqsədi ilə dövlət-ictimai xarakterli idarəetmənin yeni modeli yaradılmışdır ki, bunlar aşağıdakılarla xarakterizə edilir:

- təhsil sahəsində dövlət siyasəti həyata keçirilsin;
- bu sistemin fəaliyyəti hüquqi cəhətdən tənzimlənsin;
- keyfiyyət yeni təhsil standartlarının qoyduğu tələblərə uyğun şəkildə qiymətləndirilsin.

Təhsil müəssisələrində keyfiyyətin idarəedilməsində monitorinq-qiymətləndirilmə əsas yerlərdən birini tutur. Qeyd etmək lazımdır ki, təhsil sisteminin monitorinqi - onun durumunun mütəmadi izlənməsi, fəaliyyətinin hərtərəfli təmin edilməsi, nizamlanması, inkişafının nəzarətdə saxlanması sistemidir. Monitorinq-proqnozlaşdırma, diqnostika və korreksiya kimi müntəzəm təhlil edilən prosesin müxtəlif mərhələlərini xarakterizə edən əsas 3 dayaq üzərində durur. Belə olduğu halda yalnız qiymətləndirmə deyil, eyni zamanda onun nəticələrini nəzərə almaqla qiymətləndirilən proseslərin sonrakı inkişaf mərhələlərini təmin edərək, təhsilin keyfiyyət göstəricilərini daha səmərəli şəkildə yüksəldərək, korreksiya işlərinin həyata keçirilməsini planlaşdırıraraq həyata keçirilir.

Monitorinq və qiymətləndirmə olmadan ümumtəhsil müəssisələrində təhsil-təlimin səmərəliliyini elmi cəhətdən planlaşdırmaq, təşkil etmək, proqnazlaşdırmaq, tənzimləmək və təhsil sistemini əhəmiyyətli dərəcədə idarə etmək qeyri-mümkündür.

Pedaqoji monitorinq-qiymətləndirmə həm təlim prosesinin müvəffəqiyyətlə aparılmasına, həm də öyrədiləcək proqramın keyfiyyətinin müəyyən edilməsinə xidmət edir. Onu da qeyd edək ki, monitorinq-qiymətləndirmə sistemi pedaqoji kadrların fəaliyyətinin effektivliyini aşkar edir, vaxtlı-vaxtında tələb edilən tədbirlərin həyata keçirilməsini təmin edir və hər birinin fəaliyyətini artırır. Bu vaxt monitorinq sistemi ümumtəhsil müəssisələrində təlim prosesinin durumu haqda müfəssəl informasiyanın toplanılmasına yönəldilməli və bu prosesə aşağıdakı fəaliyyət növləri daxil edilməlidir:

1. ümumtəhsil müəssisələrinin, pedaqoji kadrların və öyrənənlərin fəaliyyətinin qiymətləndirilməsi;

2. öyrənənlərin bilik, bacarıq və vərdişlərindəki çatışmayan cəhətlərin və ləngimələrin vaxtlı-vaxtında müəyyənləşdirilməsi;

3. təlim prosesinin əhəmiyyətli dərəcədə təşkil edilməsi üçün tələb olunan qiymətləndirilmə sisteminin həyata keçirilməsi şərait yaradılması;

4. ümumtəhsil müəssisələrinin rəhbərlərinin fəaliyyətinin diaqnostikası, eyni zamanda onların yerinə yetirdikləri funksiyaların hazırkı dövrün tələblərinə uyğun təşkili üçün vacib tədbirlər həyata keçirilməsi.

Bütün bunlarla yanaşı ümumtəhsil müəssisələrində məktəbi idarəetmənin keyfiyyətinin monitorinqdən əldə edilən nəticələri məktəb rəhbərliyi tərəfindən (buraya direktor və təlim-tərbiyə işləri üzrə müavinlər daxildir) təlim prosesinin keyfiyyətinin yaxşılaşdırılması üzrə tədbirlər planı işləməli və bu sahədə məqsədəuyğun işlər həyata keçirilməlidir. Ümumtəhsil müəssisələrində təhsil-təlim sisteminin keyfiyyətinin monitorinq qiymətləndirilməsi üçün ən mühüm göstəricilər, meyarlar müəyyənləşdirilərkən, ilk öncə təhsil sisteminə olan sifarişə yönəlmək lazımdır. Bu meyarlar dövlətin sifarişini, öyrədənlərin, cəmiyyətin, ümumiyyətlə təhsil sisteminin məqsəd-məramını, ümumtəhsil müəssisələrində təhsilin keyfiyyətinin monitorinqinin əsasını təşkil edir.

Ümumtəhsil müəssisəsində idarəetmə fəaliyyətinin monitorinqinin əsas məqsədlərindən biri müəssisədə təlim-tədris prosesinin keyfiyyətini müəyyən etmək, qarşıdakı tədris ilinin fəaliyyət istiqamətini planlaşdırmaq, məktəbdaxili nəzarəti təşkil etmək və tənzimləmək, məktəbin idarə olunması üzrə bir sıra vacib tövsiyyələr hazırlamaqdan ibarətdir. Bütün bunlar təhsil sisteminin həm məzmununu və texnologiyalarının təkmilləşdirilməsi, həm də yeni-yeni təhsil standartları hesabına təmin olunmalıdır.

Pedaqoji monitorinqin parametrlərinə aşağıdakı funksiyaları aid etmək olar:

- informasiya funksiyası;
- analitik qiymətləndirilmə funksiyası;
- nəzarətedici funksiya;
- proqnoztik funksiya;
- təshihedici funksiya;
- təyinatın çoxparametrli xarakteristikasını təhlil edən funksiya.

Belə olduğu halda təhsil-təlim sisteminin monitorinqi onun həyata keçirdiyi bütün növ vəzifələrin vəhdətində özünəməxsus təyinatını reallaşdıra bilər, eyni zamanda planlaşdırma, tənzimetmə, təşkil etmə və nəzarəti məzmunla tamamlayıb idarəetmənin keyfiyyətini artıra bilər.

Onu da qeyd edək ki, bütün idarə olunan sistemlərdəki kimi, monitorinq-qiymətləndirmədə də mütəşəkkilik xüsusiyyətləri mövcuddur. Monitorinq-qiymətləndirmə sisteminin mütəşəkkillik xüsusiyyəti onun bütün elementlərinin cəmini deyil, həm də onların qarşılıqlı fəaliyyətlərinin təşkilini göstərir. Elə buna görə də monitorinq-qiymətləndirmə sisteminin təşkilinin fasiləsizlik, bütövlük, məqsədyönlülük, əhatəlilik, aşkarlıq və vahidlik prinsiplərinə müvafiq həyata keçirilməsi məqbul hesab edilir və təhsil sistemində bu prinsiplərdən səmərəli isifadə edilməsi vacibdir.

## MƏKTƏB TƏHSİLİNİN İNNOVATİV İNKİŞAFININ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Əliyeva Nuranə Səyyad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nuranaliyeva97@gmail.com*

Sürətli inkişaf və ictimai istehsalın qlobal inteqrasiyası və cəmiyyətin informasiyalaşdırılması təhsildə müvafiq dəyişikliklər tələb edir. Sosial və iqtisadi həyatda baş verən dəyi-

şikliklərə uyğun olaraq təhsilin səviyyəsinə və keyfiyyətinə qoyulan tələblərin dəyişdiyini nəzərə alsaq, ali təhsil müəssisəsində tədris prosesinin xarakteri innovativ xarakter daşımalıdır.

Hazırda ölkəmizdə milli təhsil siyasətində mühüm dəyişikliklər baş verir. Bu, özünə yönümlü pedaqogika mövqeyinə keçidlə bağlıdır. Müasir orta məktəbin vəzifələrindən biri də pedaqoji prosesin bütün iştirakçılarının potensialını üzə çıxarmaq, onlara yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmək imkanı verməkdir. Cəmiyyətdə təhsilin rolunun belə dəyişməsi daha çox innovativ proseslərə səbəb olmuşdur.

İnkişafı biliyə əsaslanan müasir cəmiyyətdə müəllimlər bu problemin öhdəsindən gəlməyə, insan potensialının tam kapitallaşdırılmasına yönəlmiş səylərin müasirləşməsini və davamlı səmərəliliyini təmin etməyə çağırılan ən mühüm resurslardan birini təşkil edir. Hazırkı tədqiqat məktəb bölmələrinin idarə olunması səviyyəsində innovasiyaların təzahür etdirilməsi vasitələrini və bunun məktəb-icma tərəfdaşlıq ölçüləri, məktəb tərəfindən hazırlanmış kurikulum və məktəb bölməsində işləyən didaktik heyətlə bağlı yaratdığı təsirləri kataloqlaşdırmaq məqsədi daşıyır.

Bu gün davamlı təhsildə tədris prosesində innovativ texnologiyalardan istifadəyə maraq artır. Bunun səbəblərindən biri də odur ki, indiyədək ənənəvi təhsildə şagirdlərə yalnız hazır biliklərə yiyələnmək öyrədilirsə, innovativ texnologiyalara əsaslanan təhsildə şagirdlərə araşdırma, araşdırma və yaradıcılıq üçün geniş imkanlar verilir. Onlara müstəqil öyrənməyi, düşünüb təhlil etməyi, hətta özbaşına nəticə çıxarmağı öyrədir. Bu prosesdə pedaqoq fərdin inkişafı, formalaşması, mənimsənilməsi və tərbiyəsi üçün kifayət qədər şərait yaradır, eyni zamanda rəhbər, bələdçi, məsləhətçi, korrektor funksiyalarını yerinə yetirir.

Təhsil sahəsində innovasiyalar yaxşı düşünülmüşdür, aydın effektivliyə nail olmaq üçün zəmanət verilir və aşağıdakı kimi təsnif edilə bilər:

- Fəaliyyət istiqamətindən asılı olaraq (pedaqoji proseslərdə: dərslərdə, sinifdənkənar və məktəbdənkənar tərbiyə işlərində; professor-müəllim heyətinin elmi-metodiki idarə edilməsində fəaliyyətdə);
- Yenilik kimi daxil edilən dəyişikliklərin təsvirinə görə (lokal, modul, sistemli);
- Mənbəyə görə (yenilik bu icma üçün daxildən və ya xaricdən alınır).

Təhsil sistemində hər hansı yenilik ola bilməz. Ona görə də "innovasiya" və "yenilik" anlayışlarını bir-birindən ayırmaq vacibdir. İslahat fəaliyyətinin aydın forması, məzmunu və miqyası bunun əsasını təşkil edir. Əgər fəaliyyət qısamüddətlidirsə, inteqrasiya olunmuş sistem xarakteri daşımırsa və konkret sistemin yalnız bəzi elementlərini dəyişdirməyi qarşısına vəzifə qoyubsa, deməli biz yenilik haqqında düşünürük. Əgər fəaliyyət müəyyən konseptual yanaşma əsasında həyata keçirilirsə və onun nəticəsi həmin sistemin nəticəsi və ya onun prinsipial dəyişməsinə gətirib çıxarırsa, bu, yenilik və ya innovativ dəyişiklik ola bilər.

Hər iki anlayış üçün meyarlar aşağıdakılardır: innovasiya mövcud nəzəriyyə daxilində baş verir, əhatə dairəsi və vaxtı məhduddur, metodlar yenilənir və nəticədə əvvəlki sistemdə təkmilləşmə əldə edilir.

Monitorinq isə sistemli, effektiv və davamlı olacaq, konkret təcrübədə yeni fəaliyyət sistemini tərtib edəcək, təcrübə subyektlərinin mövqelərini tamamilə yeniləyəcək. Eyni zamanda fəaliyyət istiqamətləri açılır, müasir texnologiyalar yaradılır, fəaliyyətin yeni keyfiyyət nəticələri əldə edilir, nəticədə təcrübənin özü yenilənir. Təhsildə innovasiyanın tətbiqi innovativ proseslərdə baş verir. İnnovasiya prosesi innovativ dəyişikliyə hazırlaşmaq və həyata keçirmək prosesidir. İnnovasiya prosesi pedaqoji yenilikdir, bu yeniliklərin pedaqoji ictimaiyyət tərəfindən sürətlə mənimsənilməsi və onlardan elmi əsaslarla praktikada səmərəli istifadə edilməsi dəyişən bütövlük yaradır.

Fəaliyyətin bilavasitə yenilənməsi və modifikasiyası yolu ilə tədris prosesində baş verən innovativ dəyişikliklər, istənilən yeniliyin sistemə daxil edilməsi də ətraflı öyrənilir.

Müəllimin innovativ fəaliyyətə hazır olmasının mühüm sosial və peşə keyfiyyətləri təkcə təhsil müəssisəsinin iqtisadi və maliyyə vəziyyəti ilə deyil, həm də bu keyfiyyətlərin

tələb olunması ilə birbaşa bağlıdır. Peşəkar uğur qazanmış müəllimlərin ixtisas və peşəkar keyfiyyətləri müasir təhsil sisteminin əsas real tələbləridir. Yenilikçi pedaqoqlar bugünkü təhsil sisteminin tələbidir və peşəkar zirvələrə çatmaq üçün yenidənhazırlanma kurslarında təhsilin dərinləşdirilməsi zəruridir. Müəllimlər öz innovativ fəaliyyətlərini yaymalı, gənc müəllimlərə dərs keçməli, açıq dərslərdə interaktiv tədris üsullarını nümayiş etdirməlidirlər. Bu, müəllimlərin öz fəaliyyətini qiymətləndirmək üçün yeni üsullar tapmasına, peşələrinə münasibətin dəyişməsinə, pedaqoji və yaradıcılıq bacarıqlarının inkişafına və müəllimlərin öz peşə öhdəlikləri haqqında dar təsəvvürlərinin dəyişməsinə gətirib çıxarır.

Nəticə ondan ibarətdir ki, təhsildə keyfiyyətli, səmərəli nəticə əldə etmək üçün mövcud pedaqoji sistemin müasirləşdirilməsi zəruridir. Bu baxımdan innovasiya obyekti kimi bu pedaqoji problemləri göstərmək məqsədəuyğundur: təhsil fəaliyyətinin motivasiyasını artırmaq; sinifdə tədris materiallarının çeşidinin və həcminin genişləndirilməsi; tədris prosesinin səmərəliliyinin artırılması; tədris prosesində vaxtdan səmərəli istifadə; təhsil prosesində tələbələrin şəxsi iştirakının və sərbəst fəaliyyətinin məsuliyyətini artırmaq.

Bu sahədə ən yaxşı yol yeniliyi addım-addım, ardıcıllıqla, davamlı olaraq davam etdirmək, onun effektivliyinə əmin olmaq, hərtərəfli düşünmək, ölçüb-biçmək və növbəti addımları atmaqdır. Bunun üçün pedaqoji prosesdə innovasiyaların tətbiqi yollarını əvvəlcədən müəyyən etmək lazımdır: yeni pedaqoji ideyaların formalaşması; konsepsiyanın inkişafı; innovativ proqramların yaradılması; icra mexanizminin işlənib hazırlanması; həyata keçirmə yolu ilə.

Məlumdur ki, pedaqoji proseslər pedaqoji sistem daxilində baş verir. Əvvəlcədən hazırlanmış hər bir didaktik prosesin müəyyən prinsipial imkanları vardır ki, bu da şagirddə bilik, bacarıq və bacarıqların keyfiyyətcə formalaşmasını nəzərdə tutur. Bu o deməkdir ki, təhsildə lazımi nəticə əldə etmək üçün pedaqoji sistemi təkmilləşdirməli, onun funksiyasını müsbət istiqamətə yönəltməli, intensiv pedaqoji proses yaratmalıyıq.

Bəli, elm və texnikanın sürətlə qloballaşdığı indiki dövrdə fasiləsiz təhsil sisteminin yenidən qurulması onun innovativ ideyalar, nəzəri, praktiki və metodoloji baxımdan köklü şəkildə yenilənməsini tələb edir. Bunun üçün bütün pedaqoji icmaların hər bir üzvü qeyrət və vətənpərvərlik nümayiş etdirməyə ehtiyac duymalıdır.

## MENECMENT İŞİNİN SƏMƏRƏLİLİYİNİN VƏ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ QABAQCIL PEDAQOJİ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

**Abdullayeva Zeynəb Fərhad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zeynebabdullayeva7198@gmail.com*

Artıq hər kəsə məlumdur ki, "menecment" anlayışı qədim zamanlara dayanan bir anlayışdır. Lakin, onun yaranması, inkişafı, təkmilləşməsi, eyni zamanda, bir elm kimi fəaliyyətə başlaması müəyyən zaman almışdır. Ümumiyyətlə "menecment" in keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsində bir çox amillərin, element və elmi anlayışların rolu olmuşdur. Bunlardan biri də məhz "qabaqcıl pedaqoji təcrübənin öyrənilməsidir". "Menecment" elminin inkişafında qabaqcıl pedaqoji təcrübənin rolunu qeyd etmədən öncə, qabaqcıl pedaqoji təcrübənin nə olduğuna nəzər yetirək. Çünki, ancaq belə olduğu halda onun rolundan açıq şəkildə danışa bilərik.

Qabaqcıl pedaqoji təcrübə dedikdə -ümumi şəkildə, müəllimlər, rəhbər şəxslərin yaradıcı əməyi, fəaliyyəti sayəsində məktəblərdə təlim-tərbiyə prosesində yüksək nəticənin əldə olunması nəzərdə tutulur. Bizlər bilirik ki, hər bir elm sahəsinin, elmi anlayışların qarşılarına qoyduqları müəyyən məqsədləri vardır. Qabaqcıl pedaqoji təcrübənin əsas məqsədi isə məktəblərin, eyni zamanda məktəbin inkişaf, fəaliyyətində aparıcı rol oynayan müəllimlərin iş təcrübəsini öyrənərək nəzəri və praktiki cəhətdən onları əsaslandırmaqdan ibarətdir.

Qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi elə bir məsələdir ki, nə məktəblərdə, nə müəllimlərin fikirlərində, ümumiyyətlə pedaqoji ədəbiyyatlarda ona dair tam formalaşmış, vahid bir baxış yoxdur. Bu isə onun praktiki və nəzəri cəhətdən həllini daha da çətinləşdirir.

Təhsil sahəsində irəli getmək istəyən hər bir müəllim qabaqcıl pedaqoji təcrübəyə əsaslı surətdə yiyələnməlidir. Və bu təcrübəyə ustalıqla yiyələnmək istəyən bir müəllim təhsil sahəsində, məktəb sistemində mövcud olan forma, priyom, üsul, metodlardan rahatlıqla istifadə etməyi bacarmalıdır. Belə olduğu halda o daha yüksək nəticə əldə etmiş olacaq.

Qabaqcıl pedaqoji təcrübəni qeyd edən zaman müəllimin dərs sistemində əsas rol oynayan pedaqoji qabiliyyətlərini də vurğulamaq istəyirəm. Çünki, pedaqoji qabiliyyət müəllimdən müəyyən bacarıq tələb edir. Doğrudur, ən əsas tələb təhsil verdiyi şəxslərə qarşı həssas yanaşmasıdır. Lakin, bilməliyik ki, müəllim əgər şagirdə, tələbəsinə qarşı həssas olmaq istəyirsə, ondan tələb olunan bütün pedaqoji qabiliyyətlərə yiyələnməlidir. Hansı ki, buna ünsiyyət, aktyorluq, akademik, idraki qabiliyyətlər də daxildir.

Qabaqcıl pedaqoji təcrübəyə yiyələnə bilmək üçün rəhbər şəxs və ya şəxslər, eləcə də müəllimlər özünütərbiyə etməyi də bacarmalıdırlar. Hətta tanınmış, məşhur rus yazıçısı Lev Tolstoy bildirmişdir: “ Mən öz yaddaşımı tərbiyə edə bilmək üçün hər gün çalışıram”. Bundan əlavə bəzi tanınmış dövlətlərin sərkədələri əgər hər hansısa bir döyüşdə qalib gələ bilməsələr özlərini hər sey edərmişlər.

Qabaqcıl pedaqoji təcrübənin təhlil, tətbiq edilməsi o qədər də asan bir proses deyildir. Hətta, bəzi rəhbər şəxslər onu müəssisələrdə asan şəkildə tətbiq edə bilmək üçün hazır resept axtarır.Hətta onu öz təhsil müəssisələrində olduğu kimi tətbiq etməyə çalışırlar. Halbuki bu çox səhv bir addımdır. Bunu belə izah edə bilərik ki, hər müəssisənin tərkibi, strukturu, ya da psixologiyası uyğun olmur. Bunun üçün ilk növbədə onların sinif-dərs şəraiti nəzərə alınmalı, ona uyğun tətbiq edilməlidir.

Qabaqcıllıq birdən-birə yaranmır. Tədricən, təkamül nəticəsində yaranıb-inkişaf edən bir prosesdir. Və burada ən böyük iş yuxarıda da vurğuladığım kimi, müəllimlərin üzərinə düşür. Əsas şərt də müəllim heyətinin özünə olan inamı, səyidir.

Menecment (idarəetmə) işinin səmərəliliyinin yüksəldilməsində haqqında kifayət qədər bəhs etdiyimiz qabaqcıl pedaqoji təcrübənin böyük əhəmiyyəti vardır. Biz bilirik ki, idarəetmə təşkilat, müəssisələrdə o zaman səmərə verir ki, düzgün əsaslarla qurulsun. Burada isə idarəetmə prosesində iştirak edən məsul şəxslərin, yəni menecerlərin böyük rolu vardır. Qabaqcıl pedaqoji təcrübə də təhsil müəssisələrində idarəetmədə iştirak edən şəxslərlə bağlı bir proses olduğuna görə menecment (idarəetmə) və qabaqcıl pedaqoji təcrübə bit-biri ilə bağlı olur.

İndi isə qabaqcıl təcrübənin idarə heyəti qarşısında qoyduğu, hansı ki, yuxarıda da kifayət qədər geniş qeyd etdiyimiz tələb-vəzifələri qısa olaraq nəzərdən keçirək:

Qabaqcıl pedaqoji təcrübənin səmərəli şəkildə tətbiq edilməsində iştirak edən idarə heyəti (direktor, direktor müavinləri, psixoloq, müəllimlər) ilk işə öz üzərlərində çalışmaqla başlamalıdır. Bir idarəedicinin qabaqcıl təcrübəyə yiyələnməsində ilk addımı özünə inamı və işinə həvəsidir. Bundan sonra o, yüksək peşəkarlığa yiyələnməli, öz sahəsi üzrə pedaqoji ustalığı olmalıdır. Daim yenilikçi olmalıdır. Yeni fikirlərə açıq olmaqla bərabər, yeni ideyalar irəli sürməli, irəli sürdüyü ideyaları inkişaf etdirmənin yollarını araşdırmalıdır. Əlavə olaraq ətrafında daim onunla fikirlər söyləyə biləcək kollektivi olmalıdır. Hansı ki, menecer bu fikirləri səbrlə dinləməli, yeri gəldikdə ona qarşı münasibət bildirməli, tövsiyələr verməlidir. Bununla kifayətlənməyib, qarşı tərəfin də məsləhətlərinə qarşı həssas yanaşmalıdır.

Son olaraq, lakin əsas olaraq qeyd edək ki, təcrübəyə yiyələnmək, onu tətbiq etmək istəyən menecerlər özünütərbiyə prosesini öz üzərlərində səmərəli tətbiq etməlidirlər. Çünki, onlar ancaq belə olduğu halda qarşı tərəflə lazımi səviyyədə əlaqələr qura bilərlər.

# XI SİNİF COGRAFİYA DƏRSLİYİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ

**Sadıxlı Xədicə Tağı qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*xedicesadiqli@gmail.com*

**Xülasə**

Tezisdə İnteraktiv (fəal) təlim metodlarının tədris prosesində düzgün istifadəsi təhlil edilmiş və XI sinif coğrafiya dərsliyi üzrə keçirilən mövzularda istifadə olunan interaktiv təlim metodları araşdırılmışdır. İstifadə olunan interaktiv metodlarının təlim prosesinə verdiyi (mənfi və ya müsbət) təsirlər qabardılmış eyni zamanda təlim prosesində interaktiv metodların istifadəsi qiymətləndirilmişdir.

## ИСПОЛЬЗОВАНИЕ АКТИВНЫХ (ИНТЕРАКТИВНЫХ) МЕТОДОВ В УЧЕБНИКЕ ГЕОГРАФИИ 11 КЛАССА

**Резюме**

В тезис анализируется правильность использования интерактивных (активных) методов обучения в учебном проöессе и рассматриваются интерактивные методы обучения, используемые в темах, освещенных в учебнике географии для 11 класса. Было выделено (отрицательное или положительное) влияние интерактивных методов, используемых на процесс обучения, а использование интерактивных методов в процессе обучения было оценено.

## USE OF ACTIVE (INTERACTIVE) METHODS IN THE 11TH GRADE GEOGRAPHY TEXTBOOK

**Summary**

The thesis analyzes the correct use of interactive (active) teaching methods in the teaching process and examines the interactive teaching methods used in the topics covered in the 11th grade geography textbook. The (negative or positive) effects of the interactive methods used on the learning process were highlighted, while the use of interactive methods in the learning process was assessed.

Tədris prosesində şagirdlərə mövzunun çatdırılması və dərsin mənimsənilməsi məqsədi ilə daim metodlardan istifadə olunmuşdur. Kurikulumun yaranmasına qədər ənənəvi metodlardan, kurikulumun yaranmasından sonra isə fəal (interaktiv) metodlardan istifadəyə başlanılmışdır. Fəal (interaktiv) metodlar fəal dərs prosesinin mərhələlərində istifadə olunmaqdadir. İnteraktiv metodlara: beyin həmləsi, bibö, ziqzaq, kublaşdırma, müzakirə, akvarium, auksiyon və s. aiddir. İndi isə fəal dərs prosesinə istifadə olunan metodlara nümunə göstərək.

**Mövzu:** Etnos və etnogenez; **Standart:** 3.1.1. Əhalinin tərkibini təhlil edir;XI sinif; **Təlimin məqsədi:** Əhalinin etnik milli tərkibini müəyyən etmək, əhalinin məşğulluğu və əhalinin həyat səviyyəsini öyrənmək, əmək ehtiyatlarını qiymətləndirmək; **İnteqrasiya:** fənn daxili inteqrasiya – IX sinif Dünya əhalisinin yaş cins tərkibi əmək ehtiyatları; **İş forması:** kollektiv, quruplarla iş; **İş üsulu:** Bibö, müzakirə; **Dərsin tipi:** İnduktiv; **Dərsin metodu:** İllustrasiya, demonstrasiya; **Resurslar:** diaqram, qrafik, xəritə, video-çarx və s.

**Dərsin gedişi:**

**Motivasiya:** İlk öncə müəllim etnoslar haqqında vidyo çarx gösterir. Burada onların yaranması, keçdikləri tarixi dövr və süqutu əks olunmaqdadır. Video-çarxda qədim etnoslardan müasir etnoslara nizamlı keçid, onların həyat tərzi göstərilir. Film bitdikdən sonra müəllimə şagirdlərə gördüklərini müzakirə etməyi tapşırır. Şagirdlər gördüklərini müzakirə edirlər. Müəllim yönəldici suallardan istifadə edərək fərziyyələri etnos və etnogenez fikrinə yönəldir. Sonra müəllimə şagirdləri quruplara bölərək tədqiqat sualını elan edir:

**Tədqiqat sualı:** Müasir etnoslar hansılardır? Onların həyat səviyyəsini və əmək ehtiyatlarını qiymətləndirin.

BİBÖ üsulundan istifadə edərək dərsin əvvəlində şagirdlər mövzu ilə bağlı bildiklərini cədvəlin 1-ci bölməsində, bilmək istədiklərini cədvəlin 2- ci bölməsinə yazırlar.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| Etnos, Etnogenez, əhali anlayışları. | Müasir etnoslar hansılardır, Əhalinin etnik milli tərkib, əmək ehtiyatları | |

Məlumat mübadiləsi və məlumat müzakirəsi prosesi bitdikdən sonra şagirdlər artıq BİBÖ cədvəlində öyrəndikləri məlumatları qeyd edirlər.

**Qiymətləndirmə və refleksiya** mərhələsində şagirdlərin özünüqiymətləndirmə vərdişi, öyrənməyin qaydalarının mənimsənilməsi, müstəqil öyrənmək vərdişi qiymətləndirilir.

## Ədəbiyyat

1. Nərminə Seyfullayeva. XI sinif Coğrafiya dərsliyi. Bakı:Bakı, 2019. 208 səh.
2. Akif Əliyev, Əlişah Gərayev. Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (kurikulum) (VI-XI siniflər). Bakı, 2013. 75 səh.
3. Alxasov Oktay. Coğrafiyanın tədrisi metodikası. Bakı:Elm və təhsil, 2013, 368 səh.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ (VI-VIII SİNİFLƏRDƏ) BİOLOGİYADAN TƏDQİQATIN APARILMASI MƏRHƏLƏSİNİN TƏŞKİLİ ƏHƏMİYYƏTİ

**Məmmədova Səbinə Bayram qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Smamedova@950gmail.com*

Təlimin məzmununun, tədris proqramlarının və tədris metodikasının yeniləşməsi təhsil islahatının əsas istiqamətlərindəndir. Onlar zamanın tələblərinə uyğun gəlməli, beynəlxalq təcrübəyə əsaslanmalıdır. Bu mənada biologiya fənninin üzərinə də, bir sıra mühüm vəzifələr düşür. Biologiyanın tədrisi şagirdləri canlı və cansız təbiət, onların qarşılıqlı əlaqəsi kimi biliklərlə silahlandırır, onlarda bir sıra həyati əhəmiyyətli bilik və bacarıqların formalaşdırılmasına şərait yaradır. Eyni zamanda biologiyanın təlimi şagirdlərə müxtəlif rəylər, baxışlar və konsepsiyaları təhlil etməyi öyrətməli, öz baxışına zidd olan rəylərə hörmətlə yanaşmağa qabil olan şəxsiyyət tərbiyə etməlidir. Şagirdləri onlara verilən çoxlu informasiyanı doğru analiz etmək, zehni və əməli fəaliyyətlərini elmi əsaslarla təşkil etmək, cəmiyyətdə öz yerini tapmaq bacarığı ilə silahlandırmalıdır. Tədris prosesində hər bir şagird cəmiyyətin həyatında fəal iştirak etmək üçün hazırlanmalıdır. Bütün bunları nəzərə alaraq şagirdlərin tədqiqatçılıq fəaliyyətinə cəlb olunması olduqca mühüm məsələdir.Tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasının əsası aşağı siniflərdə qoyulmalıdır. Bildiyimiz üzrə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisinə 6-cı sinifdən başlanılır. Məhz bu səbəblə şagirdlərdə bu bacarıqlar 6-cı sinifdən başlanaraq inkişaf etdirilir.

Ümumtəhsil məktəblərində biologiyanın tədrisində VI-VIII siniflərdə tədris olunan mövzulara nəzər yetirdikdə onların tədqiqatçılıq istiqaməti aydın görünür. Mövzuların tədrisində şagirdlərə tədqiqat aparmaq marağının aşılanmasına imkan yaranır.

Dərs prosesi elə qurulmalıdır ki, şagirdlər maksimum fəallığa nail olsun. Şagirdlərin fəallığı dedikdə onların bilgiləri hazır şəkildə deyil, müstəqil surətdə axtarış zamanı mənimsəməsi nəzərdə tutulur. Bu fəallıq dərsin ikinci mərhələsi zamanı reallaşır. Müasir dərsin ikinci mərhələsi “tədqiqatın aparılması” adlanır. Bu mərhələdə şagirdlər, qarşıya qoyulan

problemin həlli üçün irəli sürülən fərziyyələrin doğruluğunu yoxlayır, tədqiqat sualına cavab verməyə kömək edən faktlar tapır, yeni biliklərə yiyələnirlər. Şagirdlərin yeni bilgiləri kəşf edərək mənimsəməsi, onlarda axtarıcılıq və tədqiqatçılıq bacarıqlarını inkişaf etdirməklə, fərqli fikirləri müzakirə etmək və düzgün nəticə çıxarmaq qabiliyyətlərini formalaşdırır.

Təcrübələr göstərir ki, ötən nəsillə müqayisədə yeni nəsil daha çox tədqiqat meyillidir. Bizim əsas məqsədimiz isə tədqiqatçı, sorğulayan, yaradıcı, hərtərəfli gənclər yetişdirməkdir, buna görə dərsin "tədqiqatın aparılması" mərhələsinin təşkilinə xüsusi diqqət yetirməliyik.

Müasir dövrdə cəmiyyətin həyatında baş verən dəyişikliklər ümumtəhsil məktəblərinin də işini xeyli çətinləşdirir, eyni zamanda müəllimin sosial rolunun artmasına, onun peşəkar fəaliyyətinə verilən tələblərin də yüksəlməsinə səbəb olmuşdur. Şagirdlərin həyata, əməyə və yaradıcılığa hazır olmalarının əsası, təməli ümumtəhsil məktəblərində qoyulur. Buna görə də müəllimin əməyi bu gün bir qədər şəklini dəyişir və öz metodikasına görə ənənəvi təhsil və tərbiyə formalarından fəqrlənir. Bunun üçün dərs metodikası elə qurulmalıdır ki, yeni biliklərin mənimsənilməsi və onları praktikada uğurlu tətbiq etmək üçün şagirdləri sərbəst yaradıcılıq fəaliyyətinə cəlb etmək mümkün olsun.

Şagirdlər tərəfindən yeni biliklərin əldə edilməsi malik olduqları təcrübə və biliklərin əsasında baş verir. Müəllimin burada rolu isə şagirdləri keyfiyyətcə yeni biliklərə aparıb çıxaran, onların yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi üçün düşündürücü fəaliyyəti təşkil etməkdən ibarətdir.

## ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ VƏTƏN TARİXİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

**Bəylərli Xəqani Fikrət oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*xeqanibeylerli9@gmail.com*

***Acar sözlər:*** *Təhsil müəssisəsi, vətən tarixi, tələbələr, azərbaycançılıq, ideologiya, formalaşdırmaq*

***Key words:*** *Educational institution, history of motherland, students, Azerbaijanianism, ideology, cultivation*

***Ключевые слова:****Учебное заведение, отечественная история, студенты, азербайджанизм, идеология, формирование*

**Xülasə**

Tezisin mövzusunun aktuallığı əsaslandırılmışdır. Ali pedaqoji təhsil müəssisələrində azərbaycançılıq ideologiyasının formalaşdırılmasının təlim-tərbiyəvi əhəmiyyəti müəyyənləşdirilmişdir. Ali məktəblərdə Vətən tarixinin tədrisində tələbələrdə azərbycançılıq ideologiyasını formalaşdıracaq mövzuların imkanları araşdırılmışdır. Eləcə də problemin həllinə yönəldilmiş müvafiq dərs nümunəsi verilib.

## ВОЗМОЖНОСТИ И ПУТИ ФОРМИРОВАНИЯ ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНИЗМА У СТУДЕНТОВ ВО ВРЕМЯ ПРЕПОДАВАНИЯ ОТЕЧЕСТВЕННОЙ ИСТОРИИ В ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**Резюме**

В статье обоснована актуальность темы. Была установлена учебно-воспитательная значимость формирования идеологии азербайджанизма в высших педагогических учебных заведениях. Были исследованы возможности, формирующие идеологию азербайджанизма у студентов во время преподаванию отечественной истории в высших

учебных заведениях. В том числе показан соответствующий образец урока, направленный на решение проблемы.


## POSSIBILITIES AND WAYS OF CULTIVATING THE IDEOLOGY OF AZERBAIJANISM IN STUDENTS WHEN TEACHING HISTORY OF MOTHERLAND AT HIGHER PEDAGOGICAL INSTITUTIONS

**Summary**

The Article substantiates urgency of this topic and defines educative-instructional importance of cultivating the ideology of Azerbaijanianism at higher pedagogical educational institutions. The possibilities of the topics have been explored to help to cultivate the ideology of Azerbaijanianism in students when teaching history of motherland at higher educational institutions.


"Məlum olduğu kimi hər bir insan bioloji varlıq olaraq yaranışından daşıyıcısı olduğu genlərdə kodlaşdırılmış olur. Genlərdə onun fiziki - cismani imkanlarının, sağlamlıq dərəcəsinin, hətta intellektual və bir sıra mənəvi – psixoloji xüsusiyyətlərinin əsası qoyulmuş olur. Lakin insan təkcə bioloji varlıq deyil, həm də sosial varlıq olaraq digər insanlarla və ümumən cəmiyyətlə qarşılıqlı əlaqəyə girir və bu əlaqələr onun formalaşmasına ciddi təsir göstərir". (1, s.256-257).

Demək olar ki, insanın formalaşdığı ictimai mühit mövcud dəyərlər sistemi, sosial və hüquqi normalar, mövcud dövət quruluşu, iqtisadi münasibətlər və s. elemenetlərin sintezindən ibarətdir. Bu elementlərin içərisində millilik xüsusi yer tutur. Belə ki, azərbaycançılıq milli həyatın, konfessiyaların harmoniyasının çoxəsirlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və xaqların birliyini, qardaşlığını təcəssüm etdirir. Belə qiymətli ideologiya pedaqoji təmayüllü ali təhsil məktəblərində necə təbliğ və tədris olunur?

Azərbaycançılıq ideologiyasının mahiyyəti və məzmunu ölkə miqyasında yetərincə işlənilmişdir. Həmin problem N.Cəfərov, R.Mehdiyev, S.Xəlilov, S.Vəliyeva, H.Hüseynov, N.Şəmsizadə, Y.Qarayev və başqaları tərəfindən yetərincə tədbiq edilərək öyrənilmişdir.

Azərbaycançılıq ideologiyasının təbliği və tədrisi sahəsində əsaslı bir boşluq var. Azərbaycançılıq ideologiyası milli ideologiyamızın onurğa sütunudur. "Milli ideologiya" bir dövlət və xalq miqyasında ümumiyyətlə ideologiya anlayışını əvəz edir. Milli ideologiyamızda əsas yeri ənənəvi olaraq sosial ideal, strateji inkişaf konsepsiyası tutur. "Milli ideologiya" əslində "milli ideya" anlayışı əvəzinə işlənir.

Tarixin tədrisi metodikası elmində azərbaycançılıq anlayışı sosioloji anlayış kimi şərh edilir. Bu baxımdan professor M.Əmirov yazır: "Sosioloji anlayışlar tarixi prosesin ümumi əlaqələrini, qanunauyğunluqlarını ümumiləşdirir və əks etdirir. Məsələn, sinfi mübarizə, ideologiya, dövlət, mədəniyyət, məhsuldar qüvvələr və s. Bunlar daha mürəkkəb anlayışlar olmaqla bütün tarix kurslarında açılır" (2, s.214).

Problemin həlli ilə əlaqədar proqram və dərsliklərin analitik təhlilindən aydın olur ki, ali məktəblərdə tədris olunan Azərbaycan tarixi dərsliklərində tələbələrdə azərbaycançılıq ideologiyasını formalaşdıran çoxsaylı mövzular var. Həmin mövzuların imkanlarını aşağıdakı cədvəldə ümumiləşdirilmiş şəkildə veririk.

Tələbələrdə azərbaycançılıq ideologiyasını formalaşdıracaq XIX-XX əsrlərə aid mövzuları əks etdirən cədvəl.

| Sıra | Tələbələrdə azərbaycançılıq ideologiyasını formalaşdıracaq mövzular |
|---|---|
| 1. | XIX əsrin ikinci yarısında Azərbaycanda kapitalist münasibətlərin meydana çıxması. |
| 2. | İslahatdan sonra Azərbaycan iqtisadiyyatı. Sosial münasibətlər. |
| 3. | Kəndli hərəkatı. XIX əsrin II yarısında Azərbaycan sənayesi sənətkarlıq və ticarət. Neft sənayesi və sənayenin başqa sahələri. |

| | |
|---|---|
| 4. | Azərbaycanda burjua cəmiyyətinin və millətin formalaşması. Fəhlə sinfinin vəziyyəti və inqilabi müharibəsi. |
| 5. | XIX yüzillikdə Azərbaycan mədəniyyəti. Elm. Ədəbiyyat. İncəsənət. |
| 6. | Şimali Azərbaycanda iqtisadiyyat, neft sənayesi inhisarların yaranması. Neft sənayesinə xarici kapital qoyuluşunun güclənməsi. Sənayenin başqa sahələri. |
| 7. | Şimali Azərbaycanda milli-demokratik hərəkat və siyasi mübarizə. Fəhlələrin vəziyyəti. 1904-cü il ümumbakı dekabr tətili. |
| 8. | Çarizmin Azərbaycanda milli qırğın siyasəti. Milli hərəkat: ideologiyası və başlıca tələbləri. Azərbaycan birinci dünya müharibəsi illərində. |
| 9. | Şimali Azərbaycan Rusiyadakı fevral inqilabı. Oktyabr çevrilişi. |
| 10. | Azərbaycan Xalq Cümhuriyyəti. Azərbaycan Cümhuriyyətinin daxili və xarici siyasəti. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüz. |
| 11. | Azərbaycan Cümhuriyyətinin mədəniyyət sahəsindəki tədbirləri. |
| 12. | XI ordunun Azərbaycanı işğal etməsi. AXC-nin süqutu. AXC-nin tarixi əhəmiyyəti. |
| 13. | Azərbaycan 1920-30-cu illərdə. |
| 14. | Azərbaycan İkinci Dünya Müharibəsi illərində. |
| 15. | Azərbaycan müharibədən sonrakı illərdə. 1945-1991-ci illər. |
| 16. | Azərbaycan Respublikası. Müstəqilliyin bərpa olunması. |
| 17. | Milli Azadlıq hərəkatı. |
| 18. | İqtisadi dirçəliş və inkişaf. Mədəni həyat. Özünəqayıdış. Bəşəri dəyərlər. Təhsil. Mədəni maarif, elm. |
| 19. | Milli ideologiyanın formalaşması. Din. Milli-mənəvi dəyərlər. |

Məlum olduğu kimi demokratik vətən və hüquqi dövlət quruculuğunda idarəedənlər bir sıra çətinliklərlə üzləşirlər. Bu nöqteyi-nəzərdən ali təhsilin əsas vəzifələrindən biri sağlam əqidəyə, möhkəm iradəyə və güclü xarakterə malik şəxsiyyətlərin formalaşdırılmasıdır.

Əqidə mənimsənilmiş ideologiyanın təkrarlar nəticəsində insan şüurunda möhkəmləndirilmiş sistemli iradi keyfiyyətdir.

Söhbət azərbaycançılıq ideologiyasının formalaşdırılmasından gedirsə burada tələbələrdə sağlam əqidənin formalaşdırılması ön plana keçir. Burada azərbaycançılığın mahiyyəti və məzmunu tələbələrə dərindən aşılanmalıdır. Əlbəttə əqidənin formalaşdırılması və möhkəmləndirilməsi iradənin və xarakterin möhkəmləndirilməsindən keçir. Pedaqoji ədəbiyyatda həmin anlayışlara belə şərh verilir: "İradə – insan şəxsiyyətinin xassəsidir. O, daxili və xarici çətinlikləri aradan qaldırmaqla əlaqədar olan məqsədyönlü şüurlu fəaliyyətdə özünü göstərir. İradəyə əsaslanaraq insanın xarakteri haqqında mühakimə yürüdülür.

Xarakter – şəxsiyyətin mühüm əlamət və keyfiyyətlərinin birləşməsidir. Bu keyfiyyətlər müxtəlif həyat şəraitində insanın davranışını müəyyən edir və onun özünə, əhatəsindəki insanlara münasibətində təzahür edir. Xarakter insan şəxsiyyətinin mahiyyətini, istiqamətini, meylini, məqsədini, hisslərini və fəaliyyət tərzini ifadə edir. Həmçinin, insanın intellektual, mənəvi, emosional və iradi keyfiyyətlərini özündə ümumiləşdirir" (3, s.355)

Təcrübə göstərir ki, qüvvətli və möhkəm xarakter düzgün təşkil edilmiş təlim və tərbiyə şəraitində, fəal ictimai faydalı fəaliyyətdə formalaşır.

Deməli, biz bunun üçün tələbələrdə azərbaycançılıq ideologiyasını formalaşdırmaq üçün ən optimal təlim-tərbiyə metodlarından istifadə etməliyik.

Araşdırmalarımız göstərir ki, ali məktəbdə vətən tarixinin tədrisində tələbələrdə azərbaycançılıq ideologiyasının səmərəli mənimsənilməsinə nail olmaq üçün aşağıdakı təlim metodlarından istifadə etmələrini məqsədəuyğun hesab edirik.

"Azərbaycan Respublikası. Müstəqilliyin bərpa olunması" mövzusunun tədrisində problem situasiyaya əsaslanan mühazirədən istifadə olunmalıdır. Problem müəllim tərəfindən qoyulmalı, tələbələrlə diskussiya əsasında Azərbaycanda demokratik prinsiplərə əsaslanan döv-

lətin yaranması, hakimiyyətin bölünməsi, xalqın dövlət idarəçilik işində iştirakı problemləri tələbələrlə birlikdə müzakirə edilməlidir. Milli dövlətçilik ənənələri, maddi və mənəvi mədəniyyətimizin komponentləri təhlil edilərək mənimsədilməlidir.

"Milli Azadlıq hərəkatı" mövzusu dialoji təlimə əsaslanan seminar məşğələsi əsasında aparıla bilər.

"Milli ideologiyanın formalaşdırılması. Din. Milli-mənəvi dəyərlər" mövzusu üzrə seminar məşğələlərinin müzakirə metodu əsasında aparılması məqsədəuyğundur. Bu mövzunun tədrisində debatdan (çarpaz müzakirədən), müzakirə xəritələrindən, Sokrat dialoqundan, "Akvarium", "Açıq iclas"dan və dairəvi müzakirədən istifadəni məqbul hesab edirik.

Ali məktəblərdə tələbələrin dərin və möhkəm biliklərə yiyələnməsi ilə yanaşı tarixi kökümüzə, soyumuza, dilimizə, dinimizə, ədəbiyyatımıza və milli-mənəvi mədəniyyətimizə məhəbbət aşılamağın aşağıdakı formalarını məqsədəuyğun hesab edirik:

"Öyrənməyi öyrən" və "Hər şeyi bilmək istəyənlər" klubları, "Natiqlik sənəti", "Bədii oxu" dərnəkləri, "Sual-cavab" gecələri, olimpiadalar, viktorinalar, siyasi məzmunlu kitabların müzakirələri, siyasətçilərlə görüşlər və s.

**Problemin aktuallığı** ondan ibarətdir ki, ali pedaqoji təhsil müəssisələrində vətən tarixinin tədrisində tələbələrdə azərbaycançılıq ideologiyasının formalaşdırılmasının imkan və yollarının bu vaxta qədər tədqiqat obyekti kimi seçilməməsidir.

**Problemin yeniliyi** ondan ibarətdir ki, ali pedaqoji təhsil müəssisələrində Vətən tarixinin tədrisində azərbaycançılıq ideologiyasının formalaşdırılmasının imkan və yolları tədris edilərək şərh edilib.

**Praktik əhəmiyyəti** ondan ibarətdir ki, tezisdə irəli sürülən iş sistemindən ali məktəbin Azərbaycan tarixi müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində faydalana bilərlər.

**Nəticə:** Tezisdə qeyd edilən fikirlərdən, mülahizələrdən, iş formalarından ali məktəb müəllimləri istifadə etməklə tələbələrdə azərbaycançılıq ideologiyasının mənimsədilməsi işinə töhfə vermiş olarlar.

**Ədəbiyyat:**

1. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal interaktiv təlimi metodikası. Bakı, 2014, s.214.
2. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı "Azərbaycan Universiteti" 2001, s.256-257.
3. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Yeni kurs. Bakı, Elm və təhsil. 2010, s.255.

## AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ FƏAL TƏLİM METODLARDAN İSTİFADƏNİN ŞAGİRDLƏRİN İNKİŞAFINA TƏSİRİ

**Şeydayeva Şəlalə Müseyib qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*shelale.sheydayeva@bk.ru*

Respublikamızın təhsil sistemində apanlan islahatlar, tətbiq edilən yeniliklər gənc nəsilə vacib olan geniş imkanlar yaradır. Bir sıra sosial keyfiyyətlər, billiyə yiyələnmə bacarığı, müasir elmi-texniki yeniliklərdən istifadə bacarıqları, rəqabətə dözümlülük, yaradıcı keyfiyyətləri və öz qabiliyyətlərini həyata keçirə bilmək və s. bacarıqlar bu baxımdan mühüm əhəmiyyət kəsb edir ki, bunu da təlimin optimallaşdırılması prosesində hayata keçimək mümkündür.Təlim şagirdlərin biliklər sistemini mənimsəmələrinə və həmin bilikləri təcrübəyə tətbiq etmək üçün lazım olan vərdiş və bacarıqlara yiyələnmələrinə yönəlmiş məqsədyönlü idrak fəaliyyətidir. Öyrənənlər yəni şagirdlər təlim prosesinin mərkəzində dayanır.

«İnteraktiv» sözünün lüğəvi mənası qarşılıqlı fəaliyyətə əsaslanan deməkdir.İnteraktiv dərslər, onların öyrənmə prosesində fəal fəaliyyət göstərmələrini öyrətməkdənibarətdir. Belə birfəal iştirak yaratmaq müəllimin əsas vəzifələrindən biridir.

Müəllim öz işini elə qurmalıdır ki, sinifin bütün üzvlərinə kömək etmək, təkbaşına düşünməyə, beyinlərindən istifadə etməyə imkan yaratsın və bu da biliklərin uzun müddət saxlanmasına səbəb olur. Şagirdlərin təkcə biliyi yox, həm də marağı, gücü, komanda ruhu, ifadə azadlığı yüksələcək.

Şagirdlər ətraf aləmi dərk etmək üçün müşahidə etməyi, təcrübələr aparmağı, modelləşdirməyi, bilik obyektlərinin strukturunu müəyyən etməyi, bunun müxtəlif hissələri arasında əlaqələri axtarmağı və vurğulamağı, prosesləri mərhələlərə bölməyi,səbəb-nəticə əlaqələri müəyyənləşdirməyi öyrənirlər. Şagirdlər təhsil problemlərinin həllinin ən yaxşı yollarını tapmağı, yenilərindən istifadə etməyi və artıq tanış olan alqoritmləri birləşdirməyi, onları qeyri-standart məsələlərin həllində tətbiq etməyi öyrənməlidirlər. İnformasiya və kommunikasiya fəaliyyəti pedaqoji prosesin ayrılmaz parçasıdır. Şagirdlərin şifahi nitqin düzgün qavranılması, öz fikirlərini yazılı şəkildə ifadə etməyi, axtarış, baxış və faktların öyrənilməsi, mətnlərin informasiya-semantik təhlili, alınan məlumatı yazılı şəkildə adekvat çatdırmağı, müxtəlif fikirlərin tanınması vacibdir.

Müasir dövrdə Azərbaycanda şəxsiyyətyönümlü və inkişafetdirici təhsil sistemi tətbiq olunur. Bu sistemdə şagirdlərdə bilik, bacarıq, intellekt, iradə, emosiya, motivlərin və digər idrak xüsusiyyətlərinin formalaşdırılmasını nəzərdə tutur, onların əqli inkişafına təsir göstərir və biliklərin yüksək səviyyəsini təmin edir.

**Ədəbiyyat:**


1. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. S.İ.Seyidov, M.Ə.Həmzəyev. Bakı –YYSQ – 2014

2. M.Ə.Əmirov. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti) BAKI - 2011

3. 20 interactive teaching activities for in the interactive classroom. Ruben Knapen - Jun 13, 2018

4.Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı: 2007

5. https://www.muallim.edu.az/www.old/arxiv/2012/14/21.htm


## TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALİYYƏTİNİN SƏMƏRƏLİ İDARƏ EDİLMƏSİ İMKANLARI


**Mirzəli Röya Nəriman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rayamirzali@gmail.com*


Tədris üsullarını seçərkən, ilk növbədə, səmərəli nəticə əldə etməyə cəhd etmək lazımdır. Şagirddən tələb olunan, qazanılan biliyi nəinki yadda saxlamaq, dərk etmək və artırmaq, həm də qazanılmış bilikləri təhlil etmək, praktikada tətbiq etmək və inkişaf etdirməkdir. Çünki öyrənmə məhsuldarlığının dərəcəsi əsasən şagirdlərin təhsil və idrak fəallığının səviyyəsindən asılıdır.

Pedaqoji fəaliyyətin müxtəlifliyinə görə pedaqoji idarəetmənin üsulları bir çox təhsil vəzifələrini müəyyənləşdirmək və həll etmək ehtiyacını doğurur. Burada idarəetmə fəaliyyətinin birinci mərhələsi idarə olunan obyektin, yəni şagirdin ilkin vəziyyətinin qiymətləndirilməsi prosesidir və ibtidai sinif müəllimlərinin qiymətləndirmə fəaliyyətini ümumi fəaliyyət kimi müəyyən etmək imkanını əsaslandırmağa şərait yaradır. Bu da təlim prosesində şagirdlərin idrak fəaliyyətinin səmərəli idarə edilməsinin imkanlarından biri kimi özünü göstərir.

Müasir məktəbin vəzifəsi, ilk növbədə, şagird şəxsiyyətinin hərtərəfli inkişafı, onun yaradıcılıq potensialının artırılması, uşaqlarda öyrənməyə həvəs və bacarığın formalaşdırılmasıdır. Bu, bilavasitə müsbət təcrübələrlə bağlıdır və pedaqoji qiymətləndirmə şagirdləri öz

qabiliyyətləri əsasında istiqamətləndirir, onlara nəyi və necə bildiklərini, bilik və bacarıq səviyyələrinin təlim standartlarına nə dərəcədə cavab verdiyini izləməyə imkan verir.

Ümumilikdə, pedaqoji qiymətləndirmədə şagirdin idrak fəaliyyətinin keyfiyyətini artıraraq ilkin vəziyyətdən real vəziyyətə keçidini asanlaşdırmaq üçün qərarlar qəbul edilir. Bu qərarlar idarəetmə fəaliyyətinin məqsədi ilə birbaşa bağlı olub, ziddiyyətlərin aradan qaldırılmasına, problemlərin həllinə yönəldilir. Pedaqoji problemin həlli ilk növbədə şagirdlə qarşılıqlı əlaqə metodunun seçilməsini tələb edir. Onun həllinin əsas nəticəsi şagirdin idrak fəaliyyətinə əks təsirgöstərə biləcək hərəkət üsullarını aşkar etməkdir.

Məlumdur ki, koqnitiv fəaliyyət (idrak fəaliyyəti) 3 səviyyədə gerçəkləşir:

1. reproduktiv səviyyə - şagirdin biliyi dərk etməsi, yadda saxlaması və onlar arasında biliyin dərinləşdirilməsinə marağın olmaması, "Niyə?" kimi suallara müraciət edilməməsi ilə xarakterizə olunur.

2. şərhedici səviyyə - şagirdin öyrənilən biliyi dərinləşdirmək istəyi, hadisələr və proseslər arasındakı əlaqəni öyrənmək, dəyişmiş şəraitdə biliyin tətbiqi yollarını mənimsəmək arzusudaha səciyyəvidir.

3. yaradıcı səviyyə - bu səviyyə şagirdin təkcə hadisələrin mahiyyətinə və onların qarşılıqlı əlaqəsinə dərindən nüfuz etmək ilə deyil, həm də bu məqsəd üçün yeni üsullar tapmaq istəyiilə xarakterizə olunur.

4. reproduktiv səviyyə - şagirdin biliyi dərk etməsi, yadda saxlaması və onlar arasında biliyin dərinləşdirilməsinə marağın olmaması, "Niyə?" kimi suallara müraciət edilməməsi ilə xarakterizə olunur.

5. şərhedici səviyyə - şagirdin öyrənilən biliyi dərinləşdirmək istəyi, hadisələr və proseslər arasındakı əlaqəni öyrənmək, dəyişmiş şəraitdə biliyin tətbiqi yollarını mənimsəmək arzusudaha səciyyəvidir.

Yaradıcı səviyyə - bu səviyyə şagirdin təkcə hadisələrin mahiyyətinə və onların qarşılıqlı əlaqəsinə dərindən nüfuz etmək ilə deyil, həm də bu məqsəd üçün yeni üsullar tapmaq istəyiilə xarakterizə olunur.

Təlim prosesində şagirdin idrak fəallığının səmərəli idarə edilməsinin əsas yolları aşağıdakılardır:

1) şagirdlərin idrak maraqları və peşə meyllərini ön sıraya qoyaraq, onların maraqlarınagüvənmək və eyni zamanda öyrənmə motivlərini formalaşdırmaq;

2) şagirdləri elmi və praktiki cəhətdən problemli vəziyyətləri aşkar etməsinə və bu problemlərin həlli prosesinə cəlb etmək;

3) müzakirələrdən və didaktik oyunlardan istifadə etmək;

4) müzakirə, təqdimat, nümunə kimi tədris üsullarını tətbiq etmək;

5) kollektivlə və qrupla iş formalarında şagirdlərin qarşılıqlı əlaqəsini stimullaşdırmaq.

İdrak fəallığının artırılmasının bu üsulları tədris metodlarından istifadə etməklə həyata keçirilir. Təhsilin ilkin mərhələsində pedaqoji qiymətləndirmənin əsas funksiyası uşaqları yeni fəaliyyət növünə - öyrənməyə, mənimsəməyə təşviq edən stimullaşdırıcı vasitə olmalıdır. İbtidai siniflərdə fəaliyyətin nəticələrini qiymətləndirməyə keçməzdən əvvəl uşaqlara necə öyrənməyi öyrətmək və pedaqoji qiymətləndirmənin əsas obyekti kimi məktəblilərin tərbiyə işləri prosesini rasional təşkil etmək bacarığını formalaşdırmaq lazımdır. İbtidai sinif müəllimlərinin məqsədyönlü səyləri nəticəsində bu keyfiyyət inkişaf edərək, şagirdlərin kiçik yaşlarından başlayaraq gələcəkdə tədris prosesinin uğurlu olacağını təmin edəcəkdir.

Bütün qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, didaktik aspektdə pedaqoji qiymətləndirmə şagirdə onun təhsil fəaliyyətinin nəticələrinin dinamikasını aşkar etməyə, artan yaradıcılıq qabiliyyətlərini və əldə olunan nəticələrin təhlilinə kömək etməlidir. Pedaqoji qiymətləndirmənin xüsusiyyətləri onun məzmunu, şagirdin işinin təhlili,

məhsuldar fəaliyyətin uğurlu nəticələrinin (ilk növbədə) aydın şəkildə təsbit edilməsi və uğursuzluqların səbəblərinin açıqlanmasıdır

## İBTİDAİ TƏHSİLDƏ "PORTFOLİO" TEXNOLOGİYASINDAN İSTİFADƏNİN ROLU

**Şərifova Nigar Robert qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nigarsherifova7@gmail.com*

Dünyada gedən qloballaşma yeni təhsil modellərinin formalaşmasına gətirib çıxarmışdır. Yeni modelin yaranması təhsil sistemində yeni təhsil texnologiyalarının tətbiqi nəticəsində mümkün olmuşdur. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etmək başlıca vəzifə kimi qarşıda durur. Müasir dövr dəyişən şəraitə tez uyğunlaşmağı bacaran, çevik, müstəqil düşünmə tərzinə, tənqidi və məntiqi təfəkkürə malik şəxsiyyətlər formalaşdırmağı tələb edir. Pedaqoji texnologiyalar, fəal təlim metodları da məhz bu zərurətdən yaranır. Pedaqoji texnologiyaların innovativliyinin başlıca xüsusiyyətlərindən biri şagirdlərə yeni müstəvidə yanaşmaq, onların təlim marağının artırılmasına dəstək olmaq, birinci növbədə, inkişafını dəstəkləyən tədbirlər həyata keçirməkdən ibarətdir. İnnovativ pedaqoji texnologiyalardan biri də "Portfolio" texnologiyasıdır. "Portfolio" sistemi ibtidai təhsildə ən səmərəli qiymətləndirmə mexanizmlərindən biridir.

"Portfolio" qiymətləndirilməsinin məqsədi şagirdlərə real fəaliyyətlərini əks etdirməyə, zəif və güclü sahəni göstərməyə və öyrənmə prosesi zamanı şagirdlərin irəliləyişlərini müşahidə etməyə imkan verir və şagirdləri öz öyrənmələri üçün məsuliyyətli olmağa həvəsləndirir. Həmçinin müəllimlərə tədrisin gedişatını planlaşdırmağa kömək edir. "Portfolio" sinif rəhbəri tərəfindən hər bir şagird üçün məktəbdə saxlanılmaq şərtilə yaradılır və hər bir qovluqda şagirdə aid olan aşağıdakı məlumat və sənədlər qeydə alınır:

- cari qiymətlər;
- şagirdin dərs fəaliyyəti, onun əhval-ruhiyyəsi;
- psixoloqların psixoloji tədqiqatın nəticələri əsasında rəyi;
- şagirdin qabiliyyəti, yaşıdları və yaşlılarla münasibəti üzərində gündəlik müşahidələr;
- meydana çıxan problemlərin təsviri və onların təhlili;
- müəllimin şagird haqqında qeydləri;
- sağlamlıq haqqında arayış;
- valideynlərin gəlib-getmələrinin qeydiyyatı, müəllimin onlarla müzakirə etdiyi mövzular, şagirdin ailə şəraiti haqqında qeydlər;

Şagirdin portfoliosuna fənlərin sayı qədər fayllar qoyulur, hər faylın üstünə fənnin adı yazılır. Əlavə olaraq bir fayl da şagirdin sosial və digər ümumi fəaliyyətləri ilə bağlı nəzərdə tutulur. Hər bir müəllim şagirdlə bağlı müşahidələrini, irəliləyişləri v.s buraya əlavə edir.

"Portfolio" vasitəsilə şagirdin müəyyən dövr ərzində dərs işləri toplanır və sonra onun nəticələrinin müəyyən edilməsi, həm nailiyyətlərinin, həm də problemlərin keyfiyyətcə təhlili aparılır. Bundan sonra şagirdin inkişafının fərdi proqramı tərtib olunur. Portolionu hazırlayarkən şagirdlər də fəal iştirak edir."Portfolio" texnologiyası şagirdlərdə öz təhsillərinə qarşı məsuliyyət hissi aşılayır. Onun zəruriliyini və əhəmiyyətini başa düşən müəllimlər və şagirdlər gördükləri bütün işləri portfolioya daxil edirlər. Şagirdə təhsilinin sonraki dövrlərində inkişaf dinamikasını yüksəkdə saxlamağa kömək edən və ona digər şagird yoldaşları ilə əhəmiyyətli rəqabət aparmağa yardımçı olan bu vasitənin tətbiqi olduqca əhəmiyyətlidir. Əlbəttə, burada şagird müstəqilliyi yaddan çıxmamalıdır. Portfolioları düzgün qiymətləndirmək müəllimlər üçün xeyli zəhmət tələb etsə də, bu qiymətlər obyektiv olur. Müəllimlər "Portfolio" qiymət-

ləndirmə sistemi vasitəsilə istənilən şagird haqqında qısa vaxtda asanlıqla bütün məlumatları əldə edə bilirlər.

Deməli, “Portfolio” ibtidai təhsildə şagirdlərin inkişaflarını müşahidə etmək və təlim prosesi zamanı onların fəaliyyətini qiymətləndirmək üçün innovativ qiymətləndirmə texnologiyasıdır.“Portfolio” qiymətləndirilməsi şagirdlərin nailiyyətlərinin daha həqiqi və əsaslı qiymətləndirilməsini təmin edir, şagirdlərin irəliləyişlərini müşahidə etməyə, onları məsuliyyətli olmağa, müəllim, şagird və valideynlər arasında ünsiyyəti gücləndirməyə xidmət edir.

## FUNKSİONAL ASILILIQLARIN REALLAŞDIRILMASINDA HƏNDƏSƏ ELEMENTLƏRİNİN ROLU

**Fərmanova Nərminə Nəriman qızı**
*fermanovanarmina@gmail.com*

***Açar sözlər:*** *kəmiyyət, məsələ, məzmun xətti, həndəsi fiqur, funksional asılılıq*

***Ключевые слова:*** *величина, задача, содержательные линии, геометрические фигуры, функöиональные зависимости*

***Key words:****quantity, issue, content line, geometric shapes,functional dependencies*

**Xülasə**

Riyazi anlayışların öyrənilməsində və şagirdlərin fəza təsəvvürlərinin formalaşmasında həndəsə elementləri mühüm yer tutur. Məqalədə həndəsə elementlərindən əyani vasitə kimi istifadə və məsələnin həllində kəmiyyətlər arasında verilən asılılıqların müəyyən edilməsində həndəsə məzmun xətləri elementlərinin rolu araşdırılmışdır.

**Резюме**

Геометрические элементы играют важную роль в изучении математических понятий и формировании пространственного воображения учащихся. В статье рассматривается использование геометрических элементов в качестве наглядного пособия и роль геометрических элементов строки содержания в определении зависимостей между величинами при решении задачи.

**Summary**

Geometric elements play an important role in the study of mathematical concepts and the formation of students' spatial imagination. The article examines the use of geometric elements as a visual aid and the role of geometric content line elements in determining the dependencies between quantities in solving a problem.

İbtidai siniflərin riyaziyyat kursunda məzmun xətləri üzrə bəzi məsələlərin həlli zamanı həndəsə elementlərindən əyani vasitə kimi də istifadə olunur. Burada həll olunan praktik məzmunlu məsələlərin həllində kəmiyyətlər arasındakı asılılıqlar adətən sadə (aşkar) formada ifadə olunur. Belə ki, əyani və illüstrativ materialların tətbiqi zamanı şagirdlər məsələnin məzmunu və şərti üçün bütün zəruri halları şüurlu halda mənimsəyirlər. Riyaziyyat dərslərində əyani və illüstrativ materiallardan yerində istifadə olunması təlimdə əsas şərtlərdən biri olmaqla konkret vəzifələrlə müəyyənləşdirilir.

Əyani vasitələrdən istifadə şagirdlərdə biliyin mənimsənilməsini asanlaşdırır, mövzuya marağını artırır, mövzunun şüurlu şəkildə mənimsənilməsinə səbəb olur, şagirdlərin müşahidəçilik qabiliyyətini inkişaf etdirir, məntiqi nəticə çıxarmaq bacarıqlarının inkişafına xidmət edir və həndəsə məzmun xəttinin elementləri ilə əlaqə yalnız əyaniliyə yox, həm də onların öyrənilməsinə şərait yaradır

Xüsusən mətnli məsələlərin həllində əyani vəsaitlərdən – şəkillərdən, tablo və sxemlərdən istifadə etmək faydalı olur.

Həndəsə elementlerindən həm öyrətmə vasitəsi kimi, həm də öyrənmə obyekti kimi verilməsi onun daxil edilmə mərhələlərindən asılıdır. Hesab əməllərinin daha əhatəli öyrənilməsində, şagirdlərin fəza təsəvvürlərinin formalaşmasında həndəsə elementlərinin xüsusi əhəmiyyəti vardır. Hər iki halda şagirdlərin gələcək müstəqil fəaliyyətlərinin inkişafına, təfəkkürün dinamikliyinə, öz fikrini ifadə edərək onu əsaslandırmaq qabiliyyətlərinin formalaşmsma və s. geniş imkan yaranır.

Metodik ədəbiyyatlarda kəmiyyətlərlə əlaqədar məsələlərin həll edilməsi prosesində aşağıdakı məqsədlər əsas götürülür:

- şagirdlər hesab əməllərinin mənasını və xassələrini öyrənirlər;
- hesab əməllərinin tətbiqlərini öyrənirlər;
- məsələdə təsvir olunan situasiyanı riyazi dilə çevirməyi, onu modelləşdirməyi öyrənirlər;
-riyazi modelləşdirmədə kəmiyyətlər arasındakı funksional asılılıqlar əsas rol oynayır;
- şagirdlərin məntiqi təfəkkürü inkişaf edir;
- şagirdlərin riyazi nitqi inkişaf edir;
-riyazi bilikləri həyatda tətbiq etməyi öyrənirlər və kəmiyyətlər arasındakı asılılıqlara müvafiq qanunauyğunluqlar aşkar edirlər [1].

İbtibai məktəbin riyaziyyat kursunda həndəsə məzmun xəttinin elementləri şagirdlərdə həndəsi anlayışların formalaşması ilə yanaşı digər məzmun xətlərinin öyrənilməsi zamanı əyani illüstratv material rolunu oynayır. Funksional asılılıqlara aid məsələlərin həlli prosesində ümumiləşdirmə və konkretləşdirmə, induksiya və deduksiya, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi əqli mühakimə üsullarından geniş istifadə olunur. Bu da şagirdlərin məntiqi təfəkkürlərinin inkişafını sürətləndirməklə yanaşı onlarda diqqətin, hafizənin və nitqin inkişafına təsir göstərir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün müxtəlif əyani və texniki vasitələrdən istifadə zəruridir. Bu vasitələrdən biri də nisbətən mürəkkəb mətnli məsələlərin həllində həndəsə elementlərindən illüstrativ materiallar kimi istifadə nəzərdə tutulur. Məsələn, həndəsə elementlərindən - dairə, düzbucaqlı, kvadrat, kub, silindr və s. digər məzmun xətlərinin öyrənilməsində də istifadə olunur. Məsələ həllində həndəsə elementləri ilə əlaqədar müəyyən çətinliklər yaranır və müəllim bunları nəzərə almalıdır. Qarşıya çıxan bu metodik çətinliklərdən ən xarakterik olanlardan biri də bəzən ibtidai məktəbin riyaziyyat kursunda anlayışla təsəvvürün qarışıq salınmasından ibarətdir. Ona görə də ilk növbədə müəllim bilməlidir ki, ibtidai məktəbin riyaziyyat kursunda həndəsə elementlərindən hansıları anlayış, hansıları isə təsəvvür səviyyəsində verilir. Bu iş şagirdlərin gələcəkdə səmərəli fəaliyyətinə zəmin yaradır. Məsələn, “nöqtə”, “düzbucaqlı” , “kvadrat”, “üçbucaq”, “parça” və s. anlayışları əsasında hansı təsəvvürlərin yaradılması mümkünlüyünü müəllim dərk etməli və onları şagirdlərə öyrətməyi özü də öyrənməlidir. Müəllim mühakimə, təsəvvür, anlayış, nəticə və onlar arasındakı qarşılıqlı əlaqələrə diqqət yetirməlidir. Perimetr, sahə anlayışlarının daxil edilməsində əyani təsəvvürlər əsasında aparılan mühakimələrə görə nəticə çıxarılır. Verilmiş perimetrə əsasən düzbucaqlının sahəsinin ən böyük olması üçün tərəflərinin hansı formada olması və tərsinə verilmiş sahəyə görə perimetrin ən böyük və ya ən kiçik olması halları nəzərdən keçirilə bilər. Məsələnin düzgün həll olunması üçün müəllim burada düzbucaqlının tərəflərinin natural ədədlə ifadə olunmasını dolayısı yolla şagirdlərin nəzərinə çatdırmalıdır.

**Ədəbiyyat:**

1. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı, ADPU, 2012

2. Həmidov S.S., Hacıyev N.M. Məktəbin ibtidai siniflərində məsələ həlli təliminin nəzəri və metodik problemləri. Bakı, ADPU, 2008.

3. Бантова М. А. и др. Методика преподавания математики в начальных классах, Москва, «Просвещение», 1998.
4. Далингер, В.А. Методика реализаöии внутрипредметных связей при обучении математике: Книга для учителя / М.: Просвещение, 1991. 80 с.

## İBTİDAİ SİNİFLƏRİN FƏNN KURİKULUMUNDA QİYMƏTLƏNDİRMƏ MƏRHƏLƏSİNİN ROLU

**Məmizadə Zeynəb Elşad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zeyneb.mamiyeva@gmail.com*

Kurikulum "Təhsil proqramı"dır və təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı məsələləri özündə əks etdirən konseptual sənəddir. Qiymətləndirmə mərhələsi müəllimin öz fəaliyyətinin səmərəli olmasına,gələcək fəaliyyətini planlaşdırmağa, şagirdlərin inkişafını və təlim nailiyyətlərini izləməsinə, şagirdin qarşıya qoyulmuş təlim nəticələrinə nə qədər çatdığını müəyyənləşdirməsinə şərait yaradır. Düzgün qiymətləndirmə effektiv öyrətmə və öyrənmənin əsas elementlərindəndir və şagird nailiyyətinə müsbət təsir göstərir.

Fənn kurikulumu-Milli Kurikulum çərçivəsində hazırlanır. Hər bir fənnin məqsəd və vəzifələrini, xarakterik cəhətlərini, mazmununu,fənn təliminin strategiyalarını, sagird nailiyyətlərinin qiymətləndirilməsini, bir sözlə, fənnin tədrisi zamanı müəllimin işini istiqamətləndirən bütün prosesləri özündə cəmləşdirir.

Azərbaycan təhsil tarixində ilk fənn kurikulumları- "Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları" Təhsil Nazirliyi tərəfindən 293 nömrəli, 23 iyul 2007-ci il tarixli əmrlə təsdiq olunmuş, kitab şəklində 2008-ci ildə çap edilmişdir. Kitaba ibtidai siniflərdə tədris olunan 11 fənn kurikulumu daxil edilmişdir.

Fənn kurikulumları: müxtəlif bacarıqların öyrənilməsini nəzərdə tutan balanslaşdırılmış və əhatəli yanaşmanı özündə saxlayır;

-təlimin fəal üsullarından istifadə olunmaqla məzmun standartlarının səviyyəsinə çatmağa imkan yaradır;

-şagirdlərin bilik və anlayışlarının daim qiymətləndirilməsini, tədris ili ərzində düzəlişlərin edilməsini nəzərdə tutur;

-şagirdlərin təlimə cəlb olunmasını,davamlı təhsilə hazirlanmasını və həvəsləndirilməsini təmin edir;

-şagirdlərin təhsil alarkən, bilikləri qiymətləndirilərkən, savadı artırılarkən müasir texnologiyalardan istifadə edilməsini nəzərdə tutur; uyğun təlim resurslarına və inzibati yardıma malik olur.

Hər bir fənn kurikulumu giriş, məzmun, təlim strategiyaları və qiymətləndirmədən ibarətdir.

1.Fənnin məzmunu ümumən fənnin nədən bəhs etdiyini əhatə edir.Öyrədiləcək bilik, bacarıq və vərdişlərin məcmusu fənnin məzmunu adlanır.

2.Təlim strategiyaları da fənnin məzmununu hansı strategiyadan və hansı öyrədici vasitələrdən istifadə edəcəyimizdən, dərsin mərhələlərinin qurulmasından, onu necə təşkil edəcəyimizdən və təşkilindən bəhs edir.

3.Qiymətləndirmə isə şagird nailiyyətinə verilən qiymətdir.

Qiymətləndirmə fənn kurikulumlarının nəticə hissəsidir. Məhz qiymətləndirmə mərhələsi keyfiyyətin yüksəldilməsində vacib komponentdir. Bu mərhələ şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir və konkret meyarlar üzrə aparılır.

Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada

və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan verir.

Qiymətləndirmənin növləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə olunmasına yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edilir. İbtidai sinif kurikulumunda qiymətləndirmə təhsilin keyfiyyətinin idarə olunmasında, yüksəlməsində vacib amil kimi böyük rol oynayır və tədris prosesinin bütün mərhələlərində tətbiq edilir. Kurikulumda verilmiş məzmun standartları qiymətləndirmənin obyektivliyi üçün zəruridir və qiymətləndirmə standartları məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün müəyyənləşdirilmişdir. Bu isə şagird nailiyyətlərinin inkişafını sistemli şəkildə izlənilməsinə imkan yaradır.

Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtləndiyi üçün kurikulumda qiymətləndirmə mərhələsi ölçülən parametrin qiymətləndirilməsinin qəbul olunmuş standarta nisbətdə müəyyən olunmasıdır.

## İBTİDAİ SİNİFLƏRDƏ TƏLİM NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN YENİ YOLLARI

**Quliyeva Nigar Bəhruz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*niki.quliyeva@yandex.ru*

Məlumdur ki, pedaqoji qiymətləndirmə təlim prosesinin və onun bütün ünsürlərinin işinin səmərəliliyini müəyyən etmək üçün vasitədir. Qiymətləndirmənin əsas məqsədi təhsil sisteminin işini yaxşılaşdırmaqla şagirdlərə təlim, tərbiyə vermək və onlara həyati bilik, bacarıq, vərdişlər aşılamaqla sosial həyata hazırlamaqdır. Bu prosesdə fərdin, dövlətin, ictimaiyyətin tələbləri əsasında şagird müəyyən bilik, bacarıq qazanır və inkişaf edərək formalaşır. İbtidai siniflərdə şagirdlərin nailiyyətləri və fəaliyyətləri müəyyən üsullarla ölçülür və qiymətləndirilir.

İbtidai təhsildə şagirdlərin fənlər üzrə məzmun standartları şagird şəxsiyyətinin sosial, pedaqoji və təcrübi istiqamətləri üzrə inkişafını müşahidə etməyə və qiymətlədirməyə imkan verir. Məktəbli şəxsiyyətinin sosial inkişafı onun mənəvi (marağı, meyli, əqidəsi, xeyirxahlığı, əməkdaşlığı, bir-birinə hörmət etmək, dinləmək, başqasının müəyyən məsələ ilə fikrini qəbul etmək və s.) və estetik (təbiət və incəsənət nümunələrinə qayğı) xüsusiyyətləri üzrə təyin olunur. Bu xüsusiyyətlərin yaradılması və formalaşdırılması təlimin tərbiyəedici funksiyasına aiddir. Ayrı-ayrı psixi proseslər (diqqət, qavrama, təfəkkür, yaddaş, hiss, psixomotor fəaliyyətlər) üzrə xüsusiyyətlər, suallar, tapşırıqlar, çalışmalar vasitəsi ilə ölçülür, fəaliyyət prosesində təkmilləşir və formalaşır. Təcrübə isə məzmunun strukturu, elmiliyi və mənimsənilmiş biliklərin həcmi, bacarıq və vərdişlərin universallığı, mənimsəmənin keyfiyyəti ilə təyin edilir.

İrəlidə qeyd etdiyimiz kimi, pedaqoji prosesin vacib hissələrindən biri pedaqoji qiymətləndirmədir. Qiymətləndirmənin mahiyyəti onun çox funksiyalılığı ilə xarakterizə olunur. Qiymətlədirmə vasitələrinin köməyi ilə müəyyənləşdirilmiş təlim fəaliyyətləri təlim prosesini diqqətdə saxlamaqda, şagirdlərin inkişaf dinamikasını izləməkdə böyük əhəmiyyətə malikdir. Şagird nailiyyətlərinin qiymətləndirilməsində fənn kurikulumunun tələbləri və fənnin məqsədi göstərilməlidir. Qiymətləndirmə vasitələrinin məzmunu ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətlərinə, təlim fəaliyyəti isə sinif səviyyəsinə uyğun olmalıdır. Müəllim kimi, necə, nə üçün qiymətləndirməsi üzərində ciddi düşünməlidir. Məhz ona görə də şagird nailiyyətlərinin qiymətləndirilməsi zamanı uyğun üsul və vasitələrin müəyyənləşdirilməsində aşağıdakı didaktik tələblərin nəzərə alınması, zənnnimizcə, zəruru.ridir:

- qiymətləndirmə vasitələrinin məzmun standartlarının reallaşmasına imkan verməsi;
- qiymətləndirmə vasitələrinin hazırlanmasında sistemlilik və ardıcıllığın göstərilməsi;
- anlayışların, terminlərin elmi cəhətdən düzgün ifadə olunmasının nəzərə alınması;

- sual, çalışma və tapşırıqların məzmununun fənlərin cəmiyyət həyatındakı rolu ilə əlaqələndirilməsi;

- qiymətləndirmə vasitələrinin tərtibində fənlərin praktik tətbiqinə dair nümunələrin verilməsi və s.

Müasir fənn kurikulumlarının şagirdyönümlü və nəticəyönümlü olduğunu nəzərə alaraq, qiymətləndirmənin üsul və vasitələri, şagirdlərin istedad və qabiliyyətlərinin, potensial imkanlarının üzə çıxarılmasına və gələcəkdə inkişaf üçün düzgün strategiyanın seçilməsinə xidmət etməlidir. Bu məqsədlə 100 ballıq qiymətləndirmə sisteminə keçid müasir təlimin tələblərinə tam cavab verir. Belə ki, 100 ballıq sistemlə 5 ballıq sistemin müqayisəsi ilə bir sıra fikirlər söyləmək mümkündür: Ənənəvi 5 ballıq qiymətləndirmə sistemi faktiki olaraq 3 ballıq sistemə çevrilmişdir. 1 qiymət istifadə olunmurdu. Müəllimlər 2 qiymətini bəzən cəza vasitəsi olaraq istifadə edirdilər. 5 ballıq sistem şagirdin bilik səviyyələrinin fərqliliyini nəzərə almaq üçün kifayət qədər çevik deyildi. 100 ballıq qiymətləndirmə sistemi isə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi zamanı diferensial yanaşma üçün daha uyğundur. Həmçinin bu sistem ibtidai sinif şagirdlərinin fəaliyyətində baş verən kiçik dəyişiklikləri izləməyə imkan verəcək. Müəllim bütün sinfin və hər bir şagirdin ayrı-ayrılıqda inkişaf dinamikasını müşahidə edə biləcək, eyni zamanda çətinlik səviyyələri üzrə artımı izləyə biləcəkdir. Bu müəllimə sinif və səviyyələr üzrə müvəffəqiyyət faizinin analizini aparmağa, yaranmış problemlərin səbəbini araşdırmağa və onların həll yollarını müəyyənləşdirməyə imkan verəcək.

Beləliklə, bugünkü məktəbin əsas vəzifəsi həm ölkə daxilində, həm də dünyada formalaşmış əmək bazarının tələblərinə uyğun şəxsiyyət yetişdirməkdir. Bunun üçün pedaqoji qimətləndirmə zamanı, zənnimizcə, elə məqamları, səriştə və bilikləri diqqətdə saxlamalıyıq ki, onların şagirdin gələcəyində əhəmiyyəti olsun. Məhz bu amillər nəzərə alınarsa təlim prosesində yüksək keyfiyyətə nail olmaq sadələşər.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

**Miralayeva Ləman Nadir qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Miralayeva99@inbox.ru*

Hər bir xalqı yaşadan, onun milli mənliyini, mövcudluğunu sübut edən başlıca göstəriciləri, ən böyük sərvəti onun dəyərləridir. Xalqımız tarix boyu öz milli dəyərlərinə ehtiramla yanaşmış, onları qoruyaraq sonrakı nəsillərə əmanət etmişdir.

Azərbaycanımızın görkəmli şəxsiyyətləri, böyük ziyalıları zəngin mədəniyyətimizi, adət-ənənələrimizi, dilimizi, incəsənətimizi yaşatmaq, inkişaf etdirmək üçün müxtəlif tədbirlər həyata keçirmişlər.

Milli-mənəvi dəyərlərimizin qorunması kimi möhtəşəm tarixi missiyanın gerçəkləşməsində Ümümmilli Lider H.Əliyevin müstəsna xidmətləri vardır. Müasir Azərbaycanın tarixində tam bir qərinə - 34 illik dövr ərzində həyata keçirilən nəhəng miqyaslı tədbirlər məhz H.Əliyevin adı ilə bağlıdır.

Dili xalqın mənəviyyatının, milli mənliyinin ən başlıca vasitəsi, ən zəngin sərvəti hesab edən H.Əliyev Azərbaycan dili gününün təsis edilməsi haqqında fərman imzalamış, hələ post-sovet məkanında bütün çətinliklərə baxmayaraq Konstitusiyamızda Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına müvəffəq olmuşdur. Və dünyanın müxtəlif ölkələrində ən uca kürsülərdən özünün möhtəşəm nitqlərini məhz doğma ana dilində söyləmişdir. Ulu Öndər dili sadəcə ünsiyyət vasitəsi deyil, ulu babalarımızdan bizə yadigar qalan ən böyük mənəvi sərvət, Azərbaycanın müstəqillik simvolu, mənəviyyat bayrağı hesab edirdi. Nə qədər ki, Azərbaycan diyarında bu mənəviyyat bayrağı ucalır, demək Azərbaycan xalqı da yaşayacaqdır.

Ulu öndər H.Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətçilik, azərbaycançılıq ideyalarına sadiq qalmış, milli-mənəvi dəyərlərimizin qorunması, gələcək nəsillərə çatdırılması üçün var qüvvəsilə çalışmışdır.

Azərbaycanı bu ölkədə yaşayan bütün xalqlar üçün vahid vətən hesab edən H.Əliyev azərbaycançılıq ideologiyasını respublikamızın milli ideologiyası hesab edir və gənc nəsli məhz bu ruhda tərbiyə etməyi tövsiyə edir. H.Əliyevin fikrincə, azərbaycanlılar, xüsusən gənclər dünyanın harasında yaşamasından asılı olmayaraq öz dilini, tarixini və coğrafiyasını, milli adət və ənənələrini yaxşı bilməlidir. Çünki bunlar bizi birləşdirən milli- tarixi köklərdir.

Öz tarixi keçmişinə, soykökünə bağlılıq isə hər kəsin mənəvi borcudur.

H.Əliyev yalnız maddi-mədəniyyət abidələrinin deyil, mənəvi abidələrin, ümumtürk dəyərlərinin qorunmasına çox böyük əhəmiyyət verirdi. Xalqımızın qəhrəmanlıq, vətənpərvərlik, mübarizlik tarixinin şanlı salnaməsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi (1999), ən qədim inanclarımızı, ənənələrimizi özündə yaşadan Novruz bayramının Azərbaycanımızın hər yerində xüsusi təntənə ilə qeyd edilməsi də Ulu Öndərin mənəvi dəyərlərimizə verdiyi böyük qiymətin nəticəsidir.

Ulu Öndər insanın mənəvi cəhətdən təkmilləşməsində dinin tərbiyəedici roluna xüsusi əhəmiyyət verir, gənc nəsildə tolerantlığın – dini dözümlülüyün formalaşdırılmasını, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələrinə hörmətlə yanaşmağı tövsiyə edirdi. O, dini dəyərlərə, xalq üçün müqəddəs olan inanc yerlərinə, ziyarətgahlara, məscidlərə xüsusi həssaslıq nümayiş etdirir, ölkəmizdə yaşayan müxtəlif dini icmaların nümayəndələrinə ehtiram göstərir, məscidlərin, kilsələrin, sinoqoqların bərpasını diqqət mərkəzində saxlayırdı.

H.Əliyevin fikrincə, gələcək nəsillərə yalnız maddi sərvətlər, iqtisadi miras deyil, həm də milli dövlətçilik ənənələri, milli dəyərlər, zəngin mənəvi irs ərməğan edilməlidir. O belə hesab edirdi ki, gələcək nəsillər məhz dini dəyərlər üzərində tərbiyə olunmalı, milli ruhda böyüməli, Vətənin inkişafı, çiçəklənməsi naminə əllərindən gələni etməlidirlər.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı, ölkə prezidenti İlham Əliyev də milli dəyərlərimizin qorunması yolundakı tarixi ənənələri uğurla davam etdirir, gənc nəslin təhsilli, yüksək mədəniyyət sahibi olmasını Azərbaycanın iqtisadi, mədəni yüksəlişində başlıca amil hesab edir, gənclərə inamını belə ifadə edir: "Bilikli, savadlı gənclər gələcəkdə Azərbaycanı idarə edəcəklər".

## UŞAQLARDA HUMANİST HİSSLƏRİN TƏRBİYƏ EDİLMƏSİNİN MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ PROSESİNDƏ MÖVQEYİ

**Behdiyeva Gözəl Sarvan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*behdiyevagzl@gmail.com*

***Açar söz:*** *humanist yanaşma, məktəbəqədər dövr, müstəqil oyunlar*
***Ключевые слова:*** *гуманистический подход, дошкольное учреждение, самостоятельные игры*
***Key words***: *humanist approach, preschool, independent games*

**Xülasə**

Məktəbəqədər yaş insan inkişafının xüsusi dövrüdür. Bu dövrdə uşaq həssas olur, sosial cəhətdən uyğunlaşmır, emosional və mənəvi-əxlaqi inkişaf mərhələsindədir. Cəmiyyətdə hökm sürən qeyri-insani nümunələr məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərir. Ona görə də humanist tərbiyə məktəbəqədər yaşdan başlayaraq aparılmalıdır.

## РОЛ ГУМАНИСТИЧЕСКИХ ЧУВСТВ У ДЕТЕЙ В ПРОЦЕССЕ ДОШКОЛЬНОГО ВОСПИТАНИЯ

**Резюме**

Дошкольный возраст – это особый период развития человека. В этот период ребенок легко принимается, соöиально не адаптируется, находится на стадии эмоöиональ-ного и духовного развития. Негуманные условия, öарящие в обществе, негативно

сказываются на формировании личности дошкольника. По этому гуманистическое воспитание необходимо вести с дошкольного возраста.

**THE ROLE OF HUMANISTIC FEELINGS IN CHILDREN IN THE PRESCHOOL EDUCATION PROCESS**

**Summary**

Preschoolisaspecialperiodofhumandevelopment. During this period, the child is easily sensitive, does not adapt socially, is at the stage of emotional and spiritual development. The inhumane patterns prevailing in society have a negative impact on the formation of the personality of the preschool child. Therefore, humanistic education should be conducted from preschool age.

Humanizm (latınca humanus - insan, insanpərvər) geniş mənada - insanın bir insan kimi dəyərini, onun azadlıq, xoşbəxtlik, inkişaf və qabiliyyətlərinin təzahürü hüququnu tanıyan, insanların yaxşılığını nəzərə alaraq, tarixən dəyişən baxışlar sistemi, sosial institutların qiymətləndirilməsi meyarı kimi insan və bərabərlik, ədalət, insanpərvərlik prinsipləri - insanlar arasında münasibətlərin arzu olunan normasıdır. Dar mənada humanizm İntibah dövrünün mədəni hərəkatıdır. Nəslin humanist tərbiyəsi dövrümüzün aktual problemlərindən biridir. Müasir cəmiyyətin inkişafının əsas istiqamətlərindən biri onun humanistləşdirilməsi, cəmiyyətin mənəvi cəhətdən yüksəldilməsi, onun üzvlərinin rifah halının bilavasitə insanlar arasında humanist münasibətlərin mövcudluğundan asılıdır. Gənc nəsil arasında humanist münasibətlərin formalaşmasının xüsusi sosial və şəxsi əhəmiyyəti də bundan irəli gəlir. Xoş niyyətin, həssaslığın, diqqətliliyin, qayğıkeşliyin, ədalətin formalaşması üçün həssas dövr məktəbəqədər dövr yaşıdır.

Məktəbəqədər yaşlı uşaqların humanist tərbiyəsində və şəxsiyyətinin inkişafında rollu oyunların rolu həllediciidir. Fakt budur ki, məktəbəqədər yaş, uşağın hələ də dünyanı fəal şəkildə araşdırdığı və daha çox emosional təəssüratlara görə təəssürat aldığı yaşdır. Rollu oyunların tərbiyəvi imkanları son dərəcə böyükdür və müəllimin onları həyata keçirə bilməsi vacibdir. Uşaq bağçasında, sinifdə məktəbəqədər yaşlı uşaqların humanist tərbiyəsinin humanizmin fəlsəfi mövqelərindən və fərdi-fəaliyyət yanaşmasından öyrənilməsi inkişaf, şəxsiyyət, fəaliyyət, özünü həyata keçirmə, özünütəsdiq, "imic" kimi anlayışların nəzərə alınmasına səbəb oldu-mən, dəyərlər və mənalar. Bu anlayışların istifadəsi humanist təhsilin məzmun komponentini müəyyənləşdirmək və məktəbəqədər yaşlı uşaqların humanist tərbiyəsi üçün nəzəri model qurmaq üçün perspektivlidir.

Məktəbəqədər uşağın humanist tərbiyəsini onun şəxsi mənaları, biliyi, duyğuları və fəaliyyət prosesində təzahür edən real davranışları arasında uyğunluq hesab edirik. Buna görə də, inteqrativ fərdi təhsil kimi humanist təhsilin strukturunda biz iki komponenti ayırırıq. Birinci komponentə bilik sistemi və emosional-şəxsi sfera daxildir (mövzudakı dəyişiklikləri əks etdirir). İkinci komponent subyekt-subyekt qarşılıqlı əlaqəsi əsasında birbaşa münasibətlərdə humanist tərbiyənin təzahürlərini müəyyən edir. Humanist təhsilin və humanist tərbiyənin dərk edilməsi uşaq bağçasında 6-7 yaşlı uşaqlar üçün sinifdə fərdi olaraq sərbəst və sosial zəruri olanların vəhdəti əsasında humanist tərbiyə imkanlarını həyata keçirməyə imkan verir. Ümumiyyətlə, bunu qeyd edə bilərik ki, humanizm aşağıdakılarla xarakterizə olunur: insan şəxsiyyətinin unikallığı; başqa bir şəxsin qəbul edilməsi, lakin qiymətləndirmə və ya qınama deyil; şəxsi azadlıq; öz həyatını proqnozlaşdırmaq və idarə etmək bacarığı; indiki zamanda yaşamaq, həyatınızın hər anını qiymətləndirmək bacarığı; məsuliyyət; müstəqillik; öz müdafiəsini dəf etmək bacarığı; sərbəst təşəbbüs; təbii impulsların, həyati ehtiyacların özünü həyata keçirməsi; qarşılıqlı asılılıq; əməkdaşlıq; güvən.

**Ədəbiyyat:**

1. Humanizm və xeyirxahlıq missiyası Bakı:Nurlan, - 2007

2. Козлова, С.А., Дошкольная педагогика: учеб. пособие для студ. учреждений сред. проф. образования / С.А.Козлова, Т.А.Куликова – 15-е изд. перераб. и доп. – М: Издательский центр «Академия», 2015.

3. Микляева, Н.В., Теоретические основы дошкольного образования: учебник для СПО / Н.В.Микляева; под общ. ред. Н.В. Микляевой. – 2-е изд., перераб. и доп. – М: Издательство Юрайт 2017.

4. Козлова С.А., Куликова Т.А. Дошкольная педагогика. – М., 2000.

5. Кудрявцева Е.А. Развитие индивидуальности ребенка старшего дошкольного возраста в процессе коллективных взаимоотношений: Монография / Е.А. Кудрявцева. // Электрон. журн. с библиотекой. М.: OIMRU, 2000.

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ TEXNOLOJİ BİLİKLƏRDƏN İSTİFADƏNİN AKTUALLIĞI

**Əliyeva Elvina Mais qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*elvinaaliyeva77@gmail.com*

***Açar sözlər:*** *məktəbəqədər təhsil, texnoloji biliklər, məktəbəqədər uşaqlar*
***Ключевые слова:*** *дошкольное образование, технологические знания, дошкольники*
***Key words:*** *preschool education, technological knowledge, preschool children*

## Xülasə

Təhsil Standartının tətbiqi ilə məktəbəqədər təhsilin məzmununda əhəmiyyətli dəyişikliklər baş verdi. Əsas fərq mövzu yönümlü bilik deyil, fərdi inkişaf nəticələri idi. Belə bir imkan məktəbəqədər təhsil sisteminə proqramların tətbiqi ilə yaranır, onların həyata keçirilməsi təhsil prosesinin fərdiləşdirilməsini təmin edir, burada uşaq təhsilin subyektinə çevrilir, təhsil fəaliyyətinin məzmunu və formalarının seçimində fəaldır.

## АКТУАЛЬНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ТЕХНОЛОГИЧЕСКИХ ЗНАНИЙ В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ

## Резюме

С введением образовательного стандарта произошли существенные изменения в содержании дошкольного образования. Главным отличием были не предметно-ориентированные знания, а результаты индивидуального развития. Такая возможность возникает благодаря внедрению в систему дошкольного образования программ, реализаöия которых обеспечивает индивидуализаöию образовательного проöесса, где ребенок становится субъектом воспитания, проявляет активность в выборе содержания и форм образовательной деятельности.

## ACTUALITY OF USING TECHNOLOGICAL KNOWLEDGE IN PRESCHOOL EDUCATION

## Summary

With the introduction of the Education Standard, significant changes have taken place in the content of preschool education. The main difference was not the subject-oriented knowledge, but the results of individual development. Such an opportunity arises through the introduction of programs in the preschool education system, the implementation of which provides individualization of the educational process, where the child becomes a subject of education, is active in choosing the content and forms of educational activities.

Müasir uşaqlar aktiv informasiyalaşdırma, kompüterləşmə və robototexnika dövründə yaşayırlar. Texnoloji düşüncə müasir həyat üçün zərurətə çevrilir. Müasir texniki vasitələrin və proqramlaşdırıla bilən cihazların meydana çıxması hesabına təhsil mühiti yaxşılaşır, kompüter vasitələrinin mənimsənilmə səviyyəsi xeyli yüksəlir və genişlənir. Müasir təhsil sisteminin müasirləşməsi şəraitində təhsil fəaliyyətinin məzmununun yenilənməsi, təhsilin yeni keyfiyyətinə nail olunması zərurəti yaranmışdır. Hazırda məktəbəqədər təhsil üçün təhsil proqramlarını həyata keçirən pedaqoji ictimaiyyətin qarşısında yeni vəzifələr durur. Məktəbəqədər təhsil sistemi əsas ümumi təhsilin birinci səviyyəsinə çevrilərək, texnoloji təhsilə idrak marağının erkən formalaşmasını, uşaq və gənclərdə yaradıcılıq qabiliyyətlərinin inkişafını təmin edən yeni pedaqoji texnologiyalar hazırlayır.

İnnovativ rejimdə şagirdlərin ilkin mühəndislik bacarıqlarının formalaşdırılmasına yönəlmiş kurrikuluma əlavə modulların daxil edilməsi yolu ilə məktəbəqədər uşaqların idrak fəaliyyətinin artırılmasına və təhsil imkanlarının genişləndirilməsinə yönəlmiş bir sıra təhsil layihələri hazırlanır [1, s.10]. Məktəbəqədər uşaqlar mexanika və avtomatlaşdırma, robototexnika və texniki dizaynın əsasları ilə tanış olmaq imkanı əldə edilər. Bu tip layihələrin uğurla həyata keçirilməsi professor-müəllim heyətinə innovasiyaların əhatə dairəsini genişləndirməyə imkan verir.

Layihələrin həyata keçirilməsində tərbiyəçi-müəllimlərin innovativ fəaliyyəti uşaqların zehni fəaliyyətini stimullaşdıracaq təhsil mühitinin yaradılmasına yönəldilmişdir.

Proqramların strukturu əsaslı şəkildə məktəbəqədər uşaqların idrak fəaliyyətinin inkişafına yönəlmiş bir neçə tədris modulu ilə təqdim olunur, proqramlar çərçivəsində aşağıdakı tədris modulları həyata keçirilir:

-elektron dizayn;

-robototexnika "Robotlar dünyası";

-proqramlaşdırıla bilən mini robotlar BeeBot;

-3D modelləşdirmənin əsasları [3, s.78].

Məktəbəqədər təhsilin kurikulumu müxtəlif mövzularda və müxtəlif mürəkkəblik səviyyələrində təhsil obyektlərini seçməyə imkan verən dəyişkənlik prinsipinə əsaslanır. Bu məktəbəqədər uşaqların idrak maraqlarını və resurs dəstəyinin mövcudluğunu nəzərə alaraq tədrisə fərdi diferensiallaşdırılmış yanaşma təmin edir.

"Elektron Dizayn" tədris modulu məktəbəqədər uşaqları elektronika dünyası ilə tanış etmək məqsədi daşıyır. Tədris prosesində təhsil dizaynerlərindən istifadə olunur, istifadəsi texniki yaradıcılığa marağın formalaşmasına kömək edir, təlimatlardan, rəsmlərdən və diaqramlardan istifadə etmək bacarığı formalaşır, məntiqi əsaslar və layihə təfəkkürü formalaşır. Elektron konstruktor məktəbəqədər uşaqların zehni və nitq fəaliyyətinin aktivləşdirilməsinə, dizayn bacarıqlarının və texniki təfəkkürün, təxəyyül və ünsiyyət bacarıqlarının inkişafına təsir edən təcrübə ilə oyun elementlərini birləşdirərək təlim məşğələləri keçirməyə imkan verir, zehni inkişaf etdirir.

"Robotlar dünyası" modulunun öyrənilməsi prosesində məktəbəqədər uşaqlar təhsil robototexnikasının əsas müddəaları ilə tanış olurlar. Kurikulumun məzmunu texniki dizayn və robototexnikanın elementar əsaslarını öyrətməyə yönəlib, məktəbəqədər uşaqların dizayn və texniki təfəkkürünün və yaradıcı potensialının inkişafına töhfə verir. Tədris prosesi rəqəmsal alətlər və texnoloji sistemlərlə işləmək üçün müxtəlif üsulların nümayişini nəzərdə tutur, strukturunun modifikasiyası, robot modellərinin yığılması, proqramlaşdırılması və sınaqdan keçirilməsi həyata keçirilir.

Məktəbəqədər uşaqların robototexnika dünyası ilə tanışlığını standart xəritələr əsasında ibtidai proqramlaşdırmanın əsaslarının öyrənilməsi ilə birlikdə davam etdirərək "Proqramlaşdırıla bilən mini-robotlar BeeBot" ("Ağıllı Arı") modulunun kurikulumu hazırlanmışdır. Bu proqram sosial yönümlüdür. Çünki, BeeBot mini robotu müxtəlif səyahətlər edir və uşaqları ətraf aləmlə tanış edir (tarixlə tanışlıq, təbiət hadisələrinin, bitki və heyvanların

öyrənilməsi, texnologiya və məişət elektrik cihazlarından istifadə, yol hərəkəti qaydaları, təhlükəsiz həyatın təşkili və s.).

"3D-modelləşdirmənin əsasları" tədris modulunun öyrənilməsi prosesində məktəbəqədər uşaqlar texniki yaradıcılığa cəlb olunur, texniki problemləri həll etməyi, yaradıcı ideyasını tərtib etməyi və həyata keçirməyi öyrənir, qrafik bacarıqlarını təkmilləşdirir, məkan təxəyyülünü inkişaf etdirir. 3D modelləşdirmə üçün obyektlərlə işləmək öyrənmənin praktiki yönümlülük prinsipinə əsaslanır: əvvəlcə uşaqlar yeni məlumatlarla tanış olur, öz ideyaları üzərində düşünür, sonra isə üçölçülü modellər hazırlayır və istehsal edirlər [2, s.42].

**Ədəbiyyat:**

1. Əhmədov A., Abbasov Ə. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2, səh.8-15.

2. Рылеева А.С. Социально-личностное развитие и самоопределение дошкольников (в схемах и таблицах) [Текст] / А.С.Рылеева, С.В.Еманова. - Курган: Курганский государственный ун-т, 2018. - 106 с.]

3. Филатова, Ю.С. Специальная информационно-образовательная среда дошкольной образовательной организации, реализующей инклюзивную практику [Текст]. - Ставрополь: Логос, 2018. - 78 с.]

## MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ UŞAQLARIN İNKİŞAFINDA ƏTRAF ALƏMLƏ TANIŞLIQ MƏŞĞƏLƏLƏRİN ROLU

**Hüseynova Ayan Əliağa qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*ayanhuseynova046@gmail.com*

***Açar sözlər:*** *məktəbəqədər təhsil, uşaqlar, ətraf aləm, xeyirxahlıq, təbiət*
***Ключевые слова:*** *дошкольное образование, дети, окружающая среда, доброта, природа*
***Key words:*** *preschool education, children,enviroment, kindness,nature*

**Xülasə**

Gələcəyimiz olan uşaqların gələcəyin uğurlu, səriştəli, dünyagörüşlü şəxsiyyətlər kimi yetişməsində təhsilin rolu olduqca mühümdür. Məktəbəqədər təhsil pilləsi uşaqların ilkin bilik bacarıq və vərdişlərinin fundamental əsasını qoyur. Məktəbəqədər yaşlı uşaqların onları əhatə edən ətraf aləmlə tanışlığı olduqca mühümdür. Tezisdə məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlıq üsülları qeyd olunmuşdur.

## РОЛЬ ЗНАКОМСТВ В РАЗВИТИИ ДОШКОЛЬНИКОВ

**Резюме**

Роль образования очень важна в развитии наших будущих детей как успешных, сильных, дальновидных личностей будущего. Дошкольное образование закладывает фундаментальный фундамент базовых знаний, умений и навыков детей.

## THE ROLE OF ACQUAINTANCES IN THE PRESCHOOL CHILDREN'S DEVELOPMENT

**Summary**

The role of education is very important in the development of our future children as successful, strong, visionary personalities of the future. Preschool education lays the fundamental foundation of children's basic knowledge, skills and habits,noted.

Bildiyimiz kimi, XXI əsr insan fəaliyyətinin bütün sahələrində həmçinin təhsil sahəsində də yeniləşmələrlə səciyyələnir.Azərbaycan təhsilinin inkişaf etməsi, onun Avropaya inteqrasiyası təhsilimizin keyfiyyətini daha da artırmışdır. Uşağın şəxsiyyətinin hərtərəfli inkişaf etdirilməsi,müasir cəmiyyəti yönləndirən dəyərlərlə müəyyən edilir. İnsan həyatının qızıl dövrü adlandırılan məktəbəqədər yaş dövrü,şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

Müasir təhsil modelində məktəbəqədər təhsilə ümumtəhsilin birinci pilləsi kimi, uşaqların məktəb təliminə müvəffəqiyyətlə hazırlığı üçün bərabər imkanların təminatının əsası kimi baxılır. Təhsilin modernləşdirilməsinin məqsədləri təhsil sisteminin davamlı inkişaf mexanizminin yaradılmasından ibarət olduğundan qarşıda qoyulmuş məqsədlərə nail olmaq üçün bir sıra məsələlərə belə bərabər təhsilin yuxarı pillələri kimi məktəbəqədər təhsilin müasir tələblərə cavab verən keyfiyyətlərə çatdırılması vacibdir. Məktəbəqədər yaş dövrü uşaqların inkişafında başlanğıc dövrdür. Bu başlanğıcın necəliyi isə sonrakı inkişafa müstəsna təsir göstərir. Məktəbəqədər tərbiyə müəssisələrinin əsas vəzifələrindən biri də uşaqlara təbiət və cəmiyyət haqqında ilk təsəvvür vermək, onları məktəbdə elmlərin əsaslarına yiyələnməyə hazırlamaqdan ibarətdir. Ətraf aləm onların yaşına dar mənada küçə, uşağın yaşadığı yer, ailəsi, qohum-qardaşları daxildir. Geniş mənada bu anlayışa təbiət və cəmiyyət daxildir. Uşaqların ətraf aləmlə tanış olmasının başlıca məqsədi onun biliyinin artması və inkişafıdır.

Təbiətlə tanışlıq uşaqların idrak prosesini, duyğularını, təfəkkür və təxəyyüllərini xüsusilə də nitqlərini inkişaf etdirir. Onlarda ətrafdakılara düzgün münasibət formalaşmağa başlayır. Uşaqların məktəbə hazırlanmalarında ətraf aləmlə tanışlıq üzrə məşğələlərin rolu böyükdür. Əqli tərbiyənin əsas vəzifələrindən biri məktəbəqədər yaşlı uşaqlarda ətraf aləm-təbiət və cəmiyyət haqqında düzgün təsəvvürlər formalaşdırmaqdan ibarətdir. Məktəbəqədər yaş dövrün də uşaqlarda təbiətə maraq yaranır, təbiətlə ünsiyyət prosesində onların nitqi inkişaf edir, yeni obyektlərlə tanışlıq zamanı onların lüğətlərinə yeni sözlər əlavə olunur. Ətraf aləmlə tanışlıq prosesində uşaqlar Azərbaycanda qurulmuş müstəqil dövlətlə, günü-gündən inkişaf edən iqtisadiyyatımızla, sahibkarlıq mədəniyyəti ilə, həmçinin hər bir vətəndaşın hüquqları ilə, insanların cəmiyyətdə davranış normaları ilə tanış olmalıdırlar.

Məktəbəqədər yaşlı uşaqlara Azərbaycan xalqının adət-ənənələri ilə tanış edilməsini, atributlarımız, dövlət rəmzlərimiz, xalqların birliyi, tolerantlıq, azadlığımızın əldə edilməsi və onun qorunması, gələcəyimizi qorumaq naminə onun keşiyində ayıq-sayıq durmağın zəruriliyini aşılamaq lazımdır. Həmçinin uşaqların dostluq, yoldaşlıq, mərhəmətlilik, xeyirxahlılıq, böyüklərə hörmət, kiçiklərə qayğı və s. kimi müsbət keyfiyyətlərə yiyələnmələrinə çalışmaq lazımdır. Johann Henrix Pestalotsi yazırdı ki, uşaqlara erkən yaşlardan ətraf aləmdə baş verən hadisələri müşahidə etməyi öyrətmək lazımdır. O, bildirirdi ki, uşaq üçün ən böyük sevinc tədricən aparılan, uzun axtarışlardan doğur. "Uşağa başladığı işi sona çatdırmaq üçün şərait yaratmaq lazımdır. Tərbiyə işində heç vaxt tələsmək olmaz. Tərbiyə uşaq üçün ən yaxşı müəllimdir. Təbiətin qoynunda uşaq özünü daha sərbəst, azad hiss edir".

Məktəbəqədər yaşda uşaqda təbiətə yüksək idraki maraq yaranır. Uşaq təbiətdə müşahidə etdikləri hadisələrlə bağlı tərbiyəçilərə onları maraqlandıran suallar verir. Onların ətraf mühitdən əldə etdikləri biliklərin həcmi genişlənir. Tərbiyəçilər çalışmalıdır ki, uşaqların həmin bilikləri mənimsəməsi mexaniki olmasın, uşaqlar onu dərk edərək mənimsəsinlər. Fəsillərlə əlaqədar təşkil olunmuş ekskursiyalar zamanı tərbiyəçinin istiqamətverici sualları uşaqların diqqətini havaya, qara, ağaclara, quşlara, yarpaqlara, insanların əməyinə, heyvanların həyatına, kirpinin qaçıb gizlənməsinə, həşəratların görünməsinə, kəpənəklərin güllərə qonmasına, mal-qaranın talada necə otlamasına və s. yönəltməlidir.

İctimai həyatla tanışlıq prosesində uşaqların yaşadıqları, şəhər, kənd, ölkə, yaşlıların əməyi, peşələr və peşə adamları haqqında təsəvvürlər genişləndirilir. Uşaqların peşə seçmə bacarıqları inkişaf etdirilir. Ətraf aləmlə tanışlıq uşağın dünyagörüşünü genişləndirir. Uşaqlar hər hansısa bir əşya üzərində tədqiqat aparmağa başlayırlar, beləliklə onların həm

dünyagörüşü zənginləşir, həm yaradıcılıq qabiliyyətləri inkişaf edir.Uşaqlar düşünməyə başlayır və onlarda idrak prosesi inkişaf edir.

Ətraf aləmlə məşğələ zamanı uşaqlarda ünsiyyət prosesi də inkişaf edir. Uşaqlar böyüklərlə həmçinin həmyaşıdları ilə ünsiyyət qurmağa başlayır. Bu yaşda uşaqlarda öyrənmək, hər şeyi bilmək həvəsi yaranır.

Beləliklə ətraf aləmlə tanışlıq zamanı məktəbəqədər yaşlı uşaqlar ümumbəşəri dəyərlərlə tanış olur, həmçinin ətraf aləmin gözəlliklərini duymağa başlayır. Bu onların gələcəkdə şəxsiyyət kimi formalaşmasında əsas rol oynayır. Uşaq həmçinin cəmiyyətdə müəyyən sosial rol almağı da öyrənir.

**Ədəbiyyat:**


1. Sadıqova T.B. Məktəbəhazırlıq qrupunda ətraf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı: 2008.
2. Cəfərova L.K. Uşaqları ətraf aləmlə tanış edək. metodik vəsait.Bakı: Maarif, 1992.
3. Шиянов Е.Н. Педагогика: общая теория образования / Е.Н.Шиянов. – Ставрополь: Издво СКСИ, 2007.
4. http://web.school2100.com/upload/iblock/f1e/f1e5be92a4442fc4e8d06dda3a0a1d35.pdf


## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN KADR HAZIRLIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI


**Paşayeva Əfsanə Sədyar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*efsanepashayeva26@gmail.com*



***Açar sözlər:*** *məktəbəqədər təhsil, məktəbəqədər təhsil müəssisələrində kadr hazırlığı, məktəbəqədər təhsil sahəsində kadr hazırlığına qoyulan tələblər*

***Ключевые слова:*** *дошкольное образование, подготовка кадров в дошкольных образовательных учреждениях, требования к подготовке кадров в сфере дошкольного образования*

***Key words:*** *preschool education, staff training in preschool education alinstitutions, requirements for staff training in the field of preschool education*


**Xülasə**


Müasir dövrdə məktəbəqədər tərbiyə üzrə kadr hazırlığına ciddi yanaşma heç də təsadüfi deyildir. Belə ki, tərbiyəçiyə vətənimizin gələcəyi olan gənc nəsli tərbiyə etmək kimi şərəfli əhəmiyyətə malik bir iş tapşırılmışdır. Tezisdə bu istiqamətdə kadr hazırlığının önəmi qeyd olunmuşdur.


## ПУТИ СОВЕРШЕНСТВОВАНИЯ ПОДГОТОВКИ КАДРОВ ДЛЯ ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ

**Резюме**


Неслучайно в современное время серьезно подходят к подготовке кадров в дошкольном образовании. Таким образом, на педагога была возложена такая почетная задача, как воспитание молодого поколения, за которым будущее нашей страны. В диссертаöии подчеркивается важность подготовки кадров в этом направлении.


## WAYS TO IMPROVE PERSONNEL TRAINING FOR PRESCHOOL EDUCATIONAL INSTITUTIONS

**Summary**


It is no coincidence thatin modern times they take seriously the training of personnelinpre school education. Thus, the teacher was entrusted withsuch an honorable task

as educating the younger generation, behind whom the future of our countr yis. The dissertation emphasizes the importance of training personne linthis direction.

Bildiyimiz kimi, XXI əsr insan fəaliyyətinin bütün sahələrində, həmçinin təhsil sahəsində də yeniləşmələrlə səciyyələnir. Xüsusən də məktəbəqədər təhsil sahəsində. Məlum məsələdir ki, bütün yeni məktəbəqədər təhsil müəssisələri köhnə üsul və ənənələrlə işləyən uşaq bağçalarının bazası əsasında yaranır və burada işləyən mütəxəssislər belə əvvəlki dövrün məzunlarıdır. Müasir dövrün metodları isə, bu müəssisələrdə əsaslı şəkildə bir sıra dəyişikliklər aparmağı tələb edir. Pedaqoji təhsil müəssisələrinin fəaliyyətinin təhlili məlum edir ki, mütəxəssis hazırlığı onun pedaqoji fəaliyyətini didaktik, eləcə də metodik cəhətlərinə yönəldir. Bu, əlbəttə ki, olduqca vacibdir, buna baxmayaraq, mütəxəssis hazırlığının psixoloji aspekti nəzərdən yayınmışdır: Hər şeydən öncə tərbiyə olunanın anlaşılması, başa düşülməsi, böyüyün onunla ünsiyyət edə bilmək bacarığıdır. Məktəbəqədər təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi göstərir ki, tərbiyəçilərin peşəkarlıq fəaliyyətinin yüksəlməsi ilə bağlı bir sıra məqamlar, problemlər ixtisasartirma kurslarında deyil, uşaq bağçalarının məhz elə özündə pedaqoji kadrlarla müntəzəm iş prosesi zəminində daha yaxşı nəticə bəxş edir. Çox təəssüflər olsun ki, ixtisasartırma kurslarının elə özündə də bu iş lazımı dərəcədə və səviyyədə aparılmır. Yalnız uşaq bağçasının rəhbərliyinin (müdir və ya müdirənin) ardıcıl şəkildə işi, həmçinin tərbiyəçilərin özünün də təşəbbüsü və ali pedaqoji məktəbi bitirən məzunların düşünülmüş sistemlə işləməsi bir çox yaxşı nəticələri əldə etməyə təkan verir. Bu da təbii ki, öz növbəsində pedaqoji prosesin iştirakçılarından, yəni öyrədən və öyrənəndən böyük səy və cəhdlər tələb edir. Müasir dövrdə işinin peşəkarı olan tərbiyəçi uşaqların qəlbini ələ alaraq onların daxili dünyasına nüfuz edə bilir və uşaqların arzusunu, istəyini başa düşərək emosional vəziyyətlərinə daxil olmağı bacarır. Tərbiyəçi müəllimin uşağı başa düşərək anlaması, onun özünün daxili aləmini dərk etməsindən və "mən" obrazının formalaşmasından, eləcə də daxili mədəniyyət səviyyəsinin yüksəldilməsindən də asılıdır. Dahi rus pedaqoqu olan K.D.Uşinski şəxsiyyətin roluna əsaslanaraq yazırdı ki: "İnsan tərbiyəsinin ən başlanğıc rolu əqidədir, əqidəyə isə yalnız məqidə ilə təsir etmək olar. Hər hansısa bir tədris proqramı, hər hansı bir tərbiyə üsulu nə qədər yaxşı olsa belə, əgər ki, tərbiyəçinin əqidəsinə çevrilməmişdirsə, o zaman həqiqətdə heç bir qüvvəyə malik olmayan quru bir hərf olaraq da qalacaqdır. Pedaqoq heç bir zaman təlimatların kor-koranə icraçısı ola bilməz və olmamalıdır. Bu təlimat onun şəxsi əqidəsinin hərarəti ilə qızmamışdırsa, heç bir qüvvəyə də malik ola bilməz. Çox şeylərin şagirdlərlə üz-üzə olan, bilavasitə tərbiyəçinin şəxsiyyətindən asılı olması da şübhəsiz bir haldır. Tərbiyəçinin şəxsiyyətinin cavan bir ruha olan təsiri elə bir tərbiyə qüvvəsidir ki, onu nə çox dərs kitabları ilə, nə əxlaqi istiqamətdə olan nəsihətlər, nə də cəza və mükafat sistemi ilə əvəzləmək olar."

Uşaq bağçalarında peşəkar tərbiyəçinin hazırlığı zamanı bir sıra çaraqlı psixoloji və pedaqoji treninqlər, eləcə də işgüzar oyunlar, brifinqlər, əqli hücumlar, praktikum-seminarlar, intellektual oyunlar nəticəsində də tərbiyəçinin fəaliyyətinin bütün tərəfləri inkişaf etdirilir, həmçinin onun pedaqoji ustalığı və məharəti də artırılır.

Bununla yanaşı, uşaq bağçalarında tərbiyəçilərin peşəkarlıq səviyyəsini daha da artırmaq üçün onların marağına müvafiq fakultativ məşğələlər də təşkil edilib həyata keçirilir. Məhz bu baxımdan da həmin məşğələlərdə pedaqogika, sosiologiya, psixologiya, eləcə də uşaq gigiyenası üzrə bir çox biliklər dərinləşdirilir, möhkəmlənir. Pedaqoji fəaliyyətin bütün növləri (eksperiment, müşahidə və s.) uşaq fəaliyyətinin təşkili və ona rəhbərliyinin formaları mənimsənilib öyrənilir, müxtəlif metod və vasitələr haqqında müvafiq məlumatlar da verilir (təlimin məzmunun dəyişməsi: didaktik materialların prezentasiyası, inteqrativ məşğələlərin təşkil olunması, cüt halında işlər, kiçik qruplarla işlər, konkret uşağın qabiliyyətlərinə, maraq dairələri və tələblərinə uyğun bir şəkildə təlimin məzmununun müəyyənləşdirilməsi).

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin kurrikulumu Bakı.2012.

2. Майер, Алексей Александрович. "Управление процессом социализации детей дошкольного и младшего школьного возраста в образовании." монография/АА Майер.– М.-Барнаул.

3.Ş.Əliyeva. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, 2013.

4. R.Musaqulova, N.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı, 2012

## ŞAGİRDLƏRƏ TİBBİ-GİGİYENİK DAVRANIŞLARIN AŞILANMASININ ƏHƏMİYYƏTİ

**Həmidli Aysun Mais qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*hemidliaysun45@gmail.com*
**Elmi rəhbər: dos. H.M.Hacıyeva**

Cəmiyyətin gələcəyi onu təşkil edən fərdlərin keyfiyyətlərindən asılıdır. Bu gün cəmiyyətin sağlamlığı xəstəlikdən xəbərdar olmaq və xəstəliklərin qarşısının alınması səylərinə meyl edərək profilaktik səhiyyə xidmətlərini ön plana çəkir. Sağlamlığın möhkəmləndirilməsi strategiyasının əsasını əhalinin tibbi-gigiyenik təhsili və tərbiyəsi təşkil edir. Məktəblərdə adekvat sağlamlıq məlumatlarının öyrədilməsi zamanla ictimai sağlamlığı artıracaq. Sağlamlıq təhsili məktəbin kollektivi tərəfindən verilməsi daha idealdır. Məktəblərdə tibbi-gigiyenik davranışların şagirdlərə düzgün formada aşılanması onları daha sağlam həyata hazırlayır. Çünki bu davranışlar şagirdlərdə zamanla vərdiş halına çevrilir. Şagirdlərin tibbi-gigiyena üzrə mariflәndirilməsinin əsas səbəbi sağlamlıqlarının qorunması və möhkəmləndirilməsi məsələləri üzrə müstəqil qərar qəbul etmək üçün bilik, bacarıq və davranışlarının formalaşdırılmasıdır. Şagirdlərin sağlamlığının yaxşılaşdırılması əksər hallarda fiziki keyfiyyətlərin inkişaf səviyyəsi ilə müəyyən edilir. Məktəb şagirdlərə təkcə təhsil məkanı deyil, eyni zamanda sağlamlığı möhkəmləndirən mühitdir. Şəxsi gigiyena davranışlarına riayət etmək üçün ömürlük məsuliyyətin əsasları məktəb yaşlarından qoyulur ki, bu da sağlam uşaqlıq, sağlam yetkinlik və inkişaf üçün olduqca vacibdir.

Tibbi-gigiyenik davranışların şagirdlərə aşılanması zamanı onların yaş səviyyələri, psixoloji halları mütləq nəzərə alınmalıdır.Şagirdlərdə formalaşan tibbi-gigiyenik davranışların onların həyatında olduqca böyük əhəmiyyətə malik olduğu bir faktdır. Bununla yanaşı tibbi-gigiyenik davranışların formalaşması onlarda tibbi yardım bacarıqlarının formalaşmasına yol açır.

Hal-hazırda dünyamızın qlobal problemi olan "Covid-19" pandemiyası şagirdlərin tibbi-gigiyenik davranışlara daha çox əməl etməsini tələb edir. Bu davranışların onların həyatında əhəmiyyətini yaxşı dərk edirlər. Bu zaman şagirdlər bilirlər ki, tibbi maskadan istifadə, müəyyən qədər məsafə saxlanılması, dezinfeksiyaedici vasitələrdən (spirt) istifadə edilməsi mütləqdir. Çünki bu davranışlara əməl etməkləxəstəliyə yoluxmaq riski azalır. Tibbi-gigiyenik bilikləri öyrəndikcə şagirdlərdə formalaşan tibbi-gigiyenik davranışların əhəmiyyətini aşağıdakı kimi sistemləşdirmək olar:

- Yemək vaxtlarını düzgün planlaşdırmaq və ona riayət etmək;
- Sağlamlığı üçün ətraf mühitin ekoloji təmizliyini qorumaq;
- Orqanizmi üçün təhlükəli olan zərərli vərdişlərdən uzaq durmaq;
- Sağlamlığı üçün gigiyena qaydalarına düzgün əməl etmək;
- Orqanizmin funksiyalarını pozan parazit qurdlardan qorunmaq və onların yayılmasına imkan verməmək;
- Yedikləri qidanın keyfiyyətinə, faydalılığına diqqət yetirmək;

Məktəblərdə işləyən müəllimlərin sağlamlıq və gigiyena haqqında kifayət qədər bilikləri olmalıdır. Bu biliyə malik olmaqla yanaşı bunun şagirdlərə nə dərəcədə aşılaya bildikləri də

vacib məsələdir. Gigiyenik davranışlar istər fərdi, istərsə də cəmiyyətin içində çox lazımlı tədbirlərdir. Gənc nəslə və uşaqlara uyğun vaxtında və düzgün aşılanan tibbi-gigiyenik davranışlar təhsilin, cəmiyyətin daha sağlam və düzgün yetişməsinə kömək edir.

## EKSKURSİYALARIN TƏŞKİLİ İLƏ VII SİNİF ŞAGİRDLƏRİNDƏ EKOLOJİ BİLİK VƏ BACARIQLARIN FORMALAŞDIRILMASI

**Vəkilova Aysun Mehdi qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*aysun.malik.1998@gmail.com*
**Elmi rəhbər: dos. E.F.Səfərova**

Əhalinin ekoloji mədəniyyətinin formalaşmasının başlanğıcı insan həyatının ibtidai və orta təhsil illərinə düşür. VI-VII sinif şagirdləri yeni-yeni biologiya elmi ilə tanış olur və canlılar haqqında daha yaxından məlumat almaq fürsəti əldə edirlər. Buna görə də bu dövr insanın həyatında ekoloji bilik və tərbiyə cəhətdən həlledici dövrdür. Şagirdləri təbiətlə tanış etməkdə, onlarda ekoloji bilik və bacarıqların formalaşdırılmasında xüsusi rol təlimin təşkili formalarından biri olan ekskursiyalara aiddir. Ekskursiyaların təşkili təbii şəraitdə şagirdləri təbiət obyektləri və hadisələrlə, mövsümi dəyişikliklərlə, insanların müsbət və mənfi təsirləri ilə, ətraf-mühitdə baş verən dəyişikliklərlə tanış edir. Ekskursiyalar zamanı məktəblilər təbiəti bütün müxtəlifliyi ilə öyrənir, canlıların bir-biri ilə qarşılıqlı əlaqəsi barədə məlumat alırlar. Ekskursiya dərsləri şagirdlərə ekoloji bilik və bacarıqlara yiyələnməyə kömək edir, onların maraq və tələbatlarını ödəyir, istedad və qabiliyyətlərini, potensial imkanlarını göstərməyə imkan yaradır.

VII sinif Biologiya programında “İnsan və təbii birliklər” – mövzusu ekskursiya şəklində keçirilməlidir. VII sinif şagirdləri artıq bitkilər ilə tanış olduğundan ekskursiya təşkil olunduqda onları real olaraq müşahidə edə,əldə etdikləri biliklərlə qarşılaşdıra bilərlər. Ekskursiya keçirilməzdən əvvəl müəllim və şagirdlərin fəaliyyətləri müəyyən olunmalıdır.

| Müəllimin fəaliyyəti | Şagirdin fəaliyyəti |
|---|---|
| 1. Müəllimin ekskursiyaya hazırlığı:<br>- ekskursiya yerinin təyin olunması,<br>(məktəbin həyəti, meşə, park və s.),<br>- ekskursiyanın marşrutunun müəyyən edilməsi,<br>- tədqiqat obyektlərinin seçilməsi,<br>- şagirdlərə tədqiqat işləri üçün tapşırıq verilməsi, | 1. Şagirdin ekskursiyaya hazırlığı:<br>- ekskursiya zamanı davranış qaydalarının müəyyən edilməsi;<br>- müşahidə planı ilə tanışlıq;<br>- ekskursiya üçün ləvazimatların hazırlanması. |
| 2. Ekskursiya günü şagirdlərə davranış qaydalarını xatırlatmaq, onları qruplara bölmək. | 2. Müşahidə gündəliyində müvafiq qeydlərin edilməsi – gün, saat, yer və s;<br>Qruplara bölünmək və hər qrupun liderinin seçilməsi; |
| 3. Ekskursiyanı keçirmək, tapşırığın yerinə yetirilməsinə nəzarət etmək, izahat və əlavələr etmək. | 3. Plan üzrə tapşırığın yerinə yetirilməsi. |
| 4. Yerinə yetirilmiş tapşırığın nəticələrinin müzakirəsi. | 4. Toplanmış materialın təqdim olunması, yekunlaşdırma. |

Dərs-ekskursiya formasında “İnsan və təbii birliklər” mövzusunu müəllim keçərkən, məkan olaraq Botanika bağını seçir. Müəllim saatı hərkəsin gələ biləcəyi vaxta seçməkdə diqqət etməlidir.

İcmal nümunəsi

Sinif: VII; Tarix: 20.05.2022; Ekskursiya məkanı: Botanika bağı; Görüş saatı: 09:00;

Mövzu: İnsan və təbii birliklər; Toplanış yeri: Məktəbin həyəti.

Alt standart: 1.1.2. Canlıların müxtəlifliyi haqqında mülahizələrini şərh edir. 4.2.1. Yerli şəraitdə canlıların qorunmasına dair müşahidələr əsasında mülahizələrini şərh edir.

Məqsəd: Yaşadığı ərazidə bitkilərin müxtəlifliyi haqqında mülahizələrini şərh edir.

Yerli şəraitdə bitkilərin qorunmasına dair müşahidələr əsasında mülahizələrini şərh edir.

İş forması: qruplarla iş, kollektivlə iş

İş üsulu: dərs-ekskursiya, müzakirə

Resurslar: binokl, qələm, müşahidə dəftəri, fotoaparat və ya telefon.

Dərsin gedişi

Müəllim, şagirdləri toplanış yerindən yığır, marşurutla birlikdə Botanika bağına gedirlər. Müşahidə planı tətbiq olunur.

| | |
|---|---|
| Botanika bağında hansı ağaclara rast gəldiniz? | |
| Botanika bağında hansı kollara rast gəldiniz? | |
| Botanika bağında hansı sporlu bitkiləri (mamırlar, çılpaqtoxumlular və s.) gördünüz? | |
| Botanika bağında nəsli kəsilmə təhlükəsi olan, qorunan bitkilərdən gördünüz mü? Onlar hansılardır? | |
| İnsan və təbii birlik əlaqəsini necə müşahidə etdiniz? | |
| Botanika bağında bitkilərin bir-birindən asılılığını müşahidə etdinizmi? Onlar hansılardır? | |
| Sizcə, burada olan bitkilərə insanların münasibəti necədir? Onları qoruyurlar mı? Siz onları qorumaq üçün nələr edərdiniz? | |

İnformasiya mübadiləsi: Şagirdlər verilmiş plan əsasında öz fikirlərini müşahidə dəftərlərinə qeyd edirlər.

İnformasiyanın müzakirəsi və təşkili: Qeyd olunan məlumatlar müəllim və şagirdlərlə birgə müzakirə olunur. Müəllim şagirdlərə Botanika bağında olan bitkilər barədə əlavə məlumatlar verir.

Ümumiləşdirmə və nəticə: Müəllim şagirdlərlə birlikdə müşahidə planında ortaya qoyulan sualları və cavabları ümumiləşdirir və nəticə çıxarılır.

Yaradıcı tətbiqetmə: Müəllim şagirdlərə “Botanika bağında bitkilər” mövzusunda inşa yazmağı tapşırır. Şagirdlərə burada müşahidə etdikləri bitkilər barədə məlumatları qeyd etmələri, həmçinin özləri əlavə məlumatlar toplayaraq inşanı zənginləşdirmələri tapşırılır. Bunun üçün şagirdlərə 1 həftə əlavə vaxt verilir.

Qiymətləndirmə: Fəallıq, nizam-intizam, mövzunu mənimsəmə, yoldaşlarıyla birgə işləmək- meyarları üzrə qiymətləndirmə aparılır.

Qeyd olunan mövzu dərs-ekskursiya formasında keçirilməsi ilə şagirdlərdə həm maraq oyanır, həm də onlar yaşadığı təbiəti yaxından müşahidə edir. Bunun nəticəsi ilə verilən məlumatlar şagirdlər üçün daha yadda qalıcı olur. Onlar ekoloji bilik və bacarıqları dərindən mənimsəyirlər.

## BİOLOGİYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN TƏDQİQATÇILIQ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Əlizadə Banu Malik qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*banualizada19@gmail.com*
**Elmi rəhbər: dos.Abdullayeva Təranə**

Müasir biologiya dinamik, sürətlə inkişaf edən bir elmdir. Biologiya da hər zaman yeni kəşflər olur. Əvvəllər əldə edilmiş biliklər yeniləri ilə tamamlanır, bəzən tamamilə əvəz olunur. Bu, təkcə konkret hadisələrə deyil, ümumilikdə konseptual yanaşmalara da aiddir. Biliyin

sürətli inkişafı və hələ də kəşf edilməmiş hadisələr, texnologiyaların sürətli dəyişməsi təhsilin bu gün hələ çatmamış elm və texnologiya səviyyəsinə yönəldilməsini tələb edir.

Təlimi həyata mümkün qədər yaxınlaşdırmağa imkan verən şagirdlərin fəaliyyətinin təşkili formalarından biri tədiqaqat işidir ki, bu proses zamanı tələbələr müxtəlif faktlar və hadisələrlə qarşılaşırlar. Şagirdlər sərbəst olaraq və ya müəllimin köməyi ilə müşahidələrdən, elmi mənbələrdən və eksperimental nəticələrdən onlara lazım olan məlumatı seçirlər. Beləliklə, şagirdlər bəzi bioloji problemlərin dərk edilməsi ilə tanış olur, ətraf mühitin vəziyyətinə, insanların sağlamlığına cavabdeh olurlar.

Şagirdlərin təfəkkürünün inkişafı təkcə müxtəlif fənlər üzrə xüsusi biliklərin mənimsənilməsi yolu ilə deyil, həm də müstəqil zehni fəaliyyət qabiliyyətlərinin inkişafı ilə də davam edə bilər. Şagirdlərin elmi-tədqiqat fəaliyyətinin uğuru, əsasən, tapşırıqların növ və formalarının düzgün planlaşdırılması, tapşırıqların səmərəli sistemlərindən istifadə edilməsi, həmçinin müəllimin bu fəaliyyətə mahir rəhbərlik etməsi ilə təmin edilir.

Pedaqoji tədqiqatın təşkilində müəllimin rolunu genişləndirərək onun aşağıdakı hərəkət sistemini qeyd edə bilərik:

- şagirdin təfəkkürünün inkişaf səviyyəsindən asılı olaraq təhsil tədqiqatının düzgün səviyyəsini seçmək bacarığı;
- sinifdə tədqiqatın fərdi və kollektiv formalarını birləşdirmək bacarığı;
- təhsil tədqiqatının səviyyəsindən asılı olaraq problemli situasiyalar formalaşdırmaq bacarığı.

Təhsil tədqiqatı konsepsiyasının mahiyyətini açmaq üçün onun xarakterik xüsusiyyətlərini ayırd etmək olar:

1) təhsil tədqiqatı idrak fəaliyətinin axtarış prosesidir (bir şeyin öyrənilməsi, müəyyən edilməsi, qurulması və s.)

2) təhsil tədqiqatları həmişə yeni biliklər əldə etməyə yönəldilir, yəni tədqiqat həmişə yeni bir şey öyrənmək ehtiyacından başlayır;

3) təhsil tədqiqatı tapşırığın icrasında şagirdlərin müstəqilliyini nəzərdə tutur;

4) təhsil tədqiqatı didaktik təlim məqsədlərinin həyata keçirilməsinə yönəldilməlidir.

Şagirdlərin hərtərəfli, sərbəst və yaradıcı inkişafı şəxsiyyətyönümlü təlimdə əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Müəllim şagirdlərə müəyyən biliklər verməsi ilə bərabər həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır. Müəllim və şagird təlim prosesində bərabərhüquqlu üzvlərdir və müəllim bələdçi rolu ilə şagirdlərdən fərqlənir. Sinifdə hər bir şagird özünü bərabərhüquqlu şəxsiyyət kimi dərk edir, yoldaşlarını şəxsiyyət kimi görür və özünə, onlara hörmət etməyə başlayır. Bu cür təlimdə şagirdlər qarşılıqlı hörmət əməkdaşlıq mühitində fəaliyyət göstərirlər.

## BİOLOGİYA ELMİNDƏ BİOMÜXTƏLİFLİK PROBLEMİ

**Əlizadə Günay Gəncim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*lizad98@list.ru*
**Elmi rəhbər: dos. T.Q.Abdullayeva**

Bioloji müxtəliflik termini nisbətən yeni termindir. Yarım əsrdən çoxdur ki, bu termindən fəal şəkildə istifadə olunur. Bu termin ilk dəfə 1986-cı ildə Vaşinqtonda entomoloq Edvard O. Vilson tərəfindən istifadə edilmişdir. Biomüxtəliflik insan rifahının yaxından əlaqəli olduğu ekosistem xidmətlərinin əsasını təşkil edir. Ekosistemlər biomüxtəlifliyin qaynağı sayılır. Biomüxtəlifliyin zəngin olması ekoloji sistemlərin çox olmasıyla bağlıdır. Biomüxtəliflik müəyyən bir bölgədə və ya müəyyən sahədə ekoloji və genetik müxtəlifliyi ilə seçilən bütün bitki və heyvanat aləmini əhatə edir. Bioloji müxtəlifliyin əsas xüsusiyyəti biomüxtə-

liflik ölçülərinin məkan və zamana görə dəyişməsidir. Biomüxtəliflik yer kürəsində yaşayan bütün canlıların (eləcə də insanların) məcmusudur. Biomüxtəliflik üç elementdən ibarətdir:

1. Növ müxtəlifliyi-müəyyən bir ərazidə məskunlaşmış növlərin müxtəlifliyini ifafə edir. Növlərin müxtəlifliyində ekvatordan qütblərə doğru getdikcə azalma müşahidə olunur. Bu ərazinin coğrafi mövqeyindən və bir sıra digər amillərdən aslı olaraq dəyişə bilir. Adətən soyuq iqlimə malik coğrafi zonaların növ müxtəlifliyi kasıb olur.
2. Genetik müxtəliflik-bu müxtəliflik istənilən növ daxilində özünü göstərir. Həmçinin yarımnöv və populyasiya daxilində də təzahür edə bilər.
3. Ekoloji müxtəliflik-yer kürəsində mövcud olan ekosistemlərin müxtəlifliyi ilə bağlıdır.

Bioloji müxtəliflik onu təşkil edən canlılar və insan həyatı üçün əsasdır. Qida, dərman istehsalında biomüxtəlifliyin rolu əvəzsizdir. Onun qorunub-saxlanmasıyla bağlı olaraq 1992-ci ildə Rio-de-Janeyroda (Braziliyada) keçirilmiş beynəlxalq konfransda iki Konvensiya qəbul edilmişdir.

**Konvensiyalar:**

1. Bioloji müxtəliflik haqqında
2. İqlim dəyişməsi haqqında

Ölkəmizdə də biomüxtəlifliyin mühafizəsi məsələsinə hər zaman diqqətlə yanaşılmışdır. Bu məsələ hər zaman göz önündə olmuşdur və bununla bağlı bir çox tədbirlər görülmüşdür. Respublika Prezidenti İlham Əliyev bioloji müxtəlifliklə bağlı olaraq iki sərəncam imzalamışdır.

1. Azərbaycan Respublikasında biomüxtəlifliyin öyrənilməsi, qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı;
2. Azərbaycan Respublikasında biomüxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya.

Biomüxtəlifliyin məhv olmasına, növlərin yoxa çıxmasına bir çox amillər təsir edir. Bunlardan ilki insanların təbiətə plansız müdaxiləsidir yəni antropogen təsirdir. Məqsədli şəkildə meşələrin qırılması, yaşıllıqların məhv edilməsi, havanın, suyun, torpağın çirkləndirilməsi, heyvanların qanunsuz ovlanması və s. biomüxtəlifliyə zərbə vuraraq, onu məhv edir. Biomüxtəlifliyə təsir edən digər amil iqlim dəyişməsidir. İqlim dəyişməsi atmosferdə metan qazının, karbon 2-oksidin və su buxarının artıq olmasıyla bağlıdır. Bu qazlar istixana qazları adlandırılır və onların atmosferdə çoxluğu parnik effektini əmələ gətirir. İqlimin dəyişməsi əsasən itmə təhlükəsi altında olan növlər üçün böyük təhlükə sayılır. Növlərin azalması biomüxtəlifliyi məhv etməklə yanaşı, insanların təbii resurslardan istifadə etmə imkanını da aşağı salır. Lakin mühafizə tədbirlərinin gücləndirilməsiylə insanlar bioloji müxtəlifliyin qorunub-saxlanılmasına nail ola bilərlər. İnsanların bu zaman diqqət etməli olduqları əsas məsələlərdən biri əxlaqi dəyərdir. Biz canlı aləmə, təbiətə qayğı ilə yanaşmağı bacarmalıyıq. Təhsil müəssələrində təhsil alanlara biomüxtəliflik haqqında əsaslı biliklər, ətraflı məlumatlar verilməlidir. Dərsliklərdə biomüxtəliflik mövzusuna kifayət qədər yer ayrılmalıdır. Şagirdlərdə ekoloji mədəniyyət, ekoloji tərbiyə inkişaf etdirilməlidir.

## ORTA MƏKTƏBLƏRDƏ TARİXİN TƏDRİSİNDƏ TAKSONOMİYALARIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

**Məmmədova Ayşa Məcid qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mmmdovaaysa@gmail.com*

Təhsil taksonomiyaları və onların təlimdəki əhəmiyyətindən bəhs etməzdən öncə bu sözün mənşəyinə diqqətinizi çəkmək istərdim.Taksanomiya yunanca “taxis” - dərəcə, sıra, dü-

zülüş, nizam, "homos" isə qanun deməkdir. Yəni, qanunlar, onların qruplaşdırılması və tabeliyi haqqında elm və ya yaxud təsnifatın prinsipləri haqqında təlimdir.

XX əsrin 30-cu illərindən başlayaraq təlim məqsədlərinin taksanomiyası tədqiqat obyektinə çevrilmiş və müxtəlif araşdırmalar reallaşdırılmışdır. "Aparılan araşdırmalar nəticəsində R.V.Tayler (1930), B.Blum (1956), G.Gilford (1967), Vilson (1967), Bruner (1979) və digər alimlər tərəfindən müxtəlif taksanomiyalar işlənmişdir". Sonrakı dövrlərdə yaşamış olan tədqiqatçılar da taksanomiyaya dair araşdırmalarda bu alimlərin tədqiqatlarına əsaslanmışlardır.

Təhsil taksonomiyalarının tədris zamanı tətbiqinin ilk və başlıca vəzifəsi təhsildə qarşıya daha düzgün məqsəd qoymaq və bununla təhsildə daha da əlverişli nəticələr əldə etməkdir. Bundan başqa təhsil alanların təhsil aldığı müddətdə tapşırıqları düzgün anlaması üçün zəruri şərtləri ödəməsidir. Təhsil müddətində təhsil alanların bilik və bacarıqlarını adekvat şəkildə qiymətləndirmək və bu qiymətləndirmədə vasitələri düzgün seçməyə kömək edir. Daha önəmlisi təlimin nəticələrinə əsaslanaraq təhlilləri düzgün aparmağa imkan verir. Bundan başqa refleksiyani düzgün keçirməyə imkan verir, təfəkkürün inkişaf etdirilməsində mühüm rol oynayır. Bundan başqa təhsil məqsədlərinin həyata keçirilməsində təhsil taksonomiyalarının çox böyük və əhəmiyyətli rolu var. Şagirdlərin bilik, bacarıq va qabiliyyətlərinin müəyyənləşdirilməsinə diqqətin artırılması, onların sahib olduğu qabiliyyətlərin müəyyən edilməsi və öyrənmə prosesinin inkişaf etdirilməsi kimi proseslərdə təhsil taksonomiyalarının tətbiq olunması təhsilin müsbət istiqamətdə inkişafına yol açır.

Taksonomiya qoyulmuş məqsədlərə uyğun tapşırıqları tərtib etməyə kömək edir. Dərsin təhlil mərhələsinə uyğun keçiriləcəyinə diqqət yetirdikdən sonra həmin bacarıqları formalaşdırmaq üçün uyğun tapşırıqlar tərtib olunur. Təlim nəticələrinə diqqət yetirərək həmin nəticələrin həyata keçməsi üçün uyğun tapşırıq tartib etmək çətin olmaz. Həmin nəticələri əldə etmək üçün müəllim şagirdlərə müxtəlif tapşırıqlar verməli və həmin tapşırıqları təhlil etməyi tələb etməlidir. Müəllim tapşırıqları tərtib edərkən təlimin maqsədlərindən kanara çıxmamalıdır.

Taksonomiya problemləri düzgün müəyyənləşdirmək, şagirdlərin bu va ya digar materialın öyrənilmasində hansı çətinliklərlə qarşılaşdığını müəyyən etmək diaqnostikasını aparmaq və həmin çətinlikləri aradan qaldırmaq imkanı yaradır. Təlimdə istifadə olunan bütün tapşırıqlar təlim məqsədlərinə uyğun hazırlanır. Təlimin məqsədinə uyğun tapşırıqların verilməsi zamanı şagirdlər bəzi çətinliklərlə qarşılaşa bilər. Bu zaman taksonomiyanın daha aşağı saviyyələrində tətbiq olunan bacarıqların hansı dərəcədə formalaşdırıldığı nəzərdən keçirilir və yaranan problemlərin aradan qaldırılması üçün optimal variantlar düşünülür. Taksonomiyaların dərs prosesində tətbiqi uşaqlara təkcə dərs demək deyil, həm də onların təfəkkürünü, yaradıcılığını inkişaf etdirmək, ideyalar yaratmaq və məntiqi əlaqələr qurmaq müəllimdən dərslərinə müasir baxışla yanaşmağı tələb edir.

Söhbət əgər tarix dərsindən gedirsə, bu, daha mühüm əhəmiyyət kəsb edir. Belə ki, tarix dərsləri orta məktəb yaşlı uşaqlarda dünyagörüşünün formalaşmasında, vətənpərvərlik hisslərinin aşılanmasında əhəmiyyətlidir. Bu baxımdan dərs prosesinin təşkili də önəmlidir. Belə olduqda tədris prosesində taksonomiyaların tətbiqi mühüm rol oynayır. Taksonomiyaların tətbiqi kurikulum modelinin tətbiqi baxımından da aktualdır. Təhsil modeli olaraq kurikulum modelində şagirdin müstəqil şəkildə bacarıqlarını ortaya qoyması, tədqiqatçılıq fəaliyyətini inkişaf etdirməyə kömək edir. Taksonomiyaların tətbiqi nəticəsində bu bir qədər də inkişaf etmiş olur. Qısa olaraq tarix dərslərində taksonomiyaların tətbiqinin əhəmiyyətini aşağıdakı bəndlər şəklində verə bilərik:

1. İdraki taksonomiyaların tarix dərslərində tətbiqi şagirdlərin düşünmə bacarığının inkişafına kömək edir.
2. Şagirdlərdə hadisələrə müstəqil yanaşma və tədqiqatçılıq bacarığını formalaşdırır.
3. Tarixi hadisələri izah və şərh etmək bacarığını formalaşdırır.
4. Ümumi məfhumları, funksiyaları, səbəb-nəticə əlaqələrini təhlil etmə bacarığını formalaşdırır və s.

**Ədəbiyyat:**

1. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadova, K.R.Quliyeva, İ.H.Sultanova, S.E.Cavadova. Kurikulum Bələdçisi. Bakı:Elm və təhsil – 2019
2. Kurikulum islahatı və müasir dərs. Azərbaycan müəllimi - 2010.- 30 aprel.- S.21.
3. Veysova Z.A. Fəal (İnteraktiv) təlim. Müəllimlər üçün vəsait. Unicef, 2009
4. Bloom'un Yenilenmiş Taksonomisi Üzerine Genel Bir Bakış Ömer Faruk TUTKUN. SAÜ Eğitim Bilimleri Enstitüsü

## ÜMUMİ TARİX KURSUNUN TƏDRİSİNDƏ TARİXİ SƏNƏDLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Qurbanova Əfsanə Eldar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Efsanequrbanova0123456@gmail.com*

***Açar sözlər:*** *tarix təlimi, tarixi sənədlər, müstəqil iş, tədqiqatçı*
***Ключевые слова:*** *обучение истории, исторические документы, самостоятельная работа, исследователь*
***Key words:*** *historical teaching, historical document, independent work, research*

Müasir dövrdə öz dinamikliyi ilə daim inkişaf edən dəyişən təhsil sahəsinin təkmilləşdirilməsi, mövcud sistemə uyğunlaşdırılması üçün yeni metodların tətbiqinə ehtiyac duyulur. Cəmiyyətdə baş verən dəyişikliklərə, hadisələrə, insanların burada iştirakı və tarixi hadisələrə tez bir zamanda münasibət bildirilməsinə, onların təhlil, müqayisə edilməsinə, nəticə və qərar çıxarılması təlim prosesində həyata keçir. Bu zərurətlər təhsil sahəsində də öz əksini tapır və qarşımıza bir sıra tələblər qoyur. Bu tələblərdən biri də şagirdlərdə tədqiqatçılıq qabiliyyətini formalaşdıraraq onların bir tədqiqatçı kimi yetişdirilməsidir.

Ümumtəhsil məktəblərində tədris olunan tarix dərsliklərinin mətnləri üzərində işləmək bacarıqlarının formalaşdırılması mühüm əhəmiyyətə malikdir. Müasir tarix dərsliklərinin metodiki aparatı, tarixi mənbələrsiz, sənədlərsiz, görkəmli tarixçilərin əsərləri, şəxsiyyətlər haqqında məlumatlar olmadan şagirdlərdə təsəvvür yaratmaq mümkünsüzdür. Təlim prosesində tarixi sənədlərdən istifadə tətbiqi biliklərin daha dolğun, dərin və möhkəm formalaşdırılmasında mühüm rol oynayır. Tarixi proseslərin konkretləşdirilməsi, tədqiq olunan məsələlərin təsvir edilməsi, nəzəri biliklərin və faktların sübuta yetirilməsindən baş çıxarmaq şagirdlərin bacarıqlarının formalaşdırılmasıdır. Şagirdlərdə təfəkkürün inkişafı nəticəsində hadisələrə müstəqil məntiqi, tənqidi və yaradıcı yanaşmaq düzgün nəticə çıxarmaq və ümumiləşdirmə aparmağın öyrədilməsində təlim prosesinin rolu böyükdür.

Tarixi sənəd tarixi hadisələri təsdiq edən bir faktdır. Müəllim tarix fənninin tədrisi zamanı tarixi sənədlərə yer ayırmalıdır, məhz tarixi sənədi təhlil edərək şagirdlər öyrəndikləri dövrü, tarixi prosesi daha ətraflı, dərin, emosional şəkildə qavraya bilərlər. Sənəd üzərində işləməklə şagirdlər mənbəni təhlili onun xarakterini, mənşəyini, yarandığı dövrü, tamlığını müəyyən edir. Tarixi proseslər sənədin məzmununu, əsas ideyasını, onların iştirakçılarını təhlil və tənqid edərək öz fikirlərini düzgün şəkildə ifadə etmək, yoldaşları ilə fikir mübadiləsi aparmaq,analiz- sintez etmək kimi bacarıqlara yiyələnirlər.

9-cu sinif Ümumi tarix dərsliyində Almaniya və İtaliya mövzusunda verilmiş mənbəyə diqqət yetirək:

"1859-1862-ci illərdə Prussiyanın Rusiyada səfiri olan Bismark rus diplomatiya məktəbinin ənənələri ilə yaxından tanış olmuş, görkəmli natiq və diplomat, Rusiyanın Xarici İşlər naziri A.M.Qorçakovdan dərs almışdı. Qorçakovun inamını qazanan Bismark gündəlik diplomatik poçtla tanış olmaq imkanı əldə etmişdir. 1862-ci ildə Parisə səfir göndərilən Bismark fransız diplomatiyasının bütün nailiyyətlərindən bəhrələnmişdi. Beləliklə, Bismark Almaniya-

nın əhatəsində olan dörd böyük dövlətin – Avstriyanın, Fransanın, İngiltərənin və Rusiyanın diplomatiyasını öyrənməklə böyük təcrübə qazanmış və bu təcrübə Almaniyanın birləşdirilməsi prosesindəböyük rol oynamışdı”. [1, s.31]

Dərslikdə verilmiş sənəd həm müəllimin şərhinə daxil edilə, həm də şagirdlərə müstəqil iş kimi verilə bilər. Bununla yanaşı müəllim həmçinin ev tapşırığı kimi də sənədlər üzərində şagirdlərin işini təşkil edə bilər. O cümlədən yeni təlim metodları, iş formaları və texnikalardan istifadə edilə bilər. Yuxarıda verilmiş sənədi təhlil edərkən şagirdlər Otto fon Bismarkın Almaniyanın birləşdirilməsindəki rolu, onun bir tarixi şəxsiyyət kimi dəyərləndirilməsi və öz tənqidi münasibətlərini bildirməsinə şərait yaranacaqdır.

Problemin tədqiqi zamanı bizə məlum oldu ki tarixi sənədlər bir sıra mühüm funksiyaları yerinə yetirir. Bu funksiyaları aşağıdakı şəkildə qeyd edə bilərik:

1) Tarixi sənədlər keçmişdə baş verən hadisələrin bir növ şahidi kimi çıxış edərək tarixi mənbə funksiyasını daşıyır. Burada sosial mühit və münasibətləri əks etdirən sənədlər – dövlətin düzgün idarəsini, sərəncamlar, konstitusiyalar, nizamnamələr, əsasnamələr, qanunvericilik aktları, göstərişlər, münasibətləri nizama salan, tənzimləyən müqavilələr və s. aiddir

2) Digər isə sənədin qorunması məlumatı saxlamaq, daşımaq və gələcək nəsillərə ötürmək qabiliyyəti olan funksiyadır. Həmçinin tarixi sənədin mədəni və mənəvi dəyərlərin, adət-ənənələrin, cəmiyyət tərəfindən qəbul olunmuş biliklərin nəsildən-nəslə ötürülməsini həyata keçirən mədəni funksiyasını da xüsusilə qeyd etməliyik.

Problemin tədqiqi zamanı tarixi sənədlər onlar üzərində iş üsullarının, onların səmərəli təşkilinin ətraflı şəkildə təhlili verilmişdir və buradan da tarixi tədrisi prosesində sənədlərlə işin nə dərəcədə zəruri olduğu aydın olur. Tarixi sənədlərlə iş təlimin keyfiyyətinə, şagirdlərin vətənpərvərlik və elmi-dünyagörüşünə yüksək təsir göstərir.

Ümumiləşdirilmiş şəkildə qeyd edə bilərik ki, təlim zamanı tarixi sənədlərdən düzgün və yerində, mövcud tələblərə uyğun şəkildə istifadə edilərsə şagirdlər üçün həm təlim, həm də tərbiyəvi cəhətdən böyük əhəmiyyətə malik olar və onlarda zəruri olan bilik və bacarıqların formalaşmasına zəmin yaranar. Təlim prosesində müəllim bələdçi, şagird tədqiqatçı olaraq dərsliklərdə verilmiş sənədlər üzərində müstəqil işi təşkil etməklə tədqiqatçılar sənəd materiallarından baş çıxarmağı, düzgün istifadə etməyi bacarar.

**Ədəbiyyat:**


1. Ümumi tarix 9-cu sinif, dərslik. Bakı:Şərq-Qərb, 2020. 136 s.
2. İsayeva T. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili (5-11-ci siniflər üzrə), Bakı, 2009, 148 s.
3. Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı:Çaşıoğlu, 2002, 127 səh.
4. Румянцев В.Я. Работа с историческими источниками // Преподаввние истории в школе. 2003.
5. Т.Н.Глазырина. Методика преподавания истории (Учебно-методический комплекс для студентов специальности 1-21 0301 История), Новополоцк, ПГУ, 2011, 356 с.


## AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASININ SƏMƏRƏLİ YOLLARI


**Xankişiyev Əlikram Zahir oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Email:araz.cənublu98@gmail.com*



***Açar sözlər:*** *mənəvi tərbiyə, təlim prosesi, vətənpərvərlik, müəllim və tələbə*

***Ключевые слова:*** *нравственное воспитание, учебный проöесс, патриотизм, учительи студент*

***Key words:*** *moral education, learning process, patriotism, teacher and student*

Son dövrlərdə xüsusilə gənclər arasında vətənpərvərliyin gücləndirilməsi istiqamətində elmi baxımdan hazırlanmış sistemli fəaliyyət ölkənin əsas istiqamətlərindəndir. Bu konseptual fəaliyyət və tədbirlər sistemi müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları, o cümlədən ali və orta ixtisas müəssisələri tərəfindən həyata keçirilir. Qloballaşan dünyamızda gənclərin inkişafı və gələcək perspektivləri dövlətin gənclər siyasətinin əsasını təşkil edir. Həm respublikada, həm regionda, həm də ümumdünya səviyyəsində rəqabətə dayanıqlı inkişafı təmin etmək, beynəlxalq aləmdə Azərbaycanı layiqli səviyyədə təmsil etməklə dövlətin, xalqın ictimai, siyasi, iqtisadi maraqlarına xidmət edən, müasir elmi, texniki yeniliklərin tələblərinə cavab verən, universal xüsusi intellektə sahib olan milli kadr hazırlığı prioritet sahə hesab olunur. Bunun üçün də ali məktəblərdə Azərbaycan tarixi tədrisinin xüsusi əhəmiyyəti vardır. Elmi, texniki yeniliklərin öyrədilməsi ilə paralel milli-mənəvi, vətənpərvərlik dəyərlərinin formalaşdırılması və təbliği xüsusi əhəmiyyət kəsb edir. Məhz bu baxımdan hər bir dövlətin varlığı və gələcəyi həm də gənclərin tərbiyəsindən asılıdır. Gəncliyin mənəvi-ideoloji baxımdan hazırlığı fraqmental fəaliyyətin yox, düşünülmüş, sistemli, ardıcıl, gənclər siyasətinin bariz nəticəsidir. Ümummilli lider Heydər Əliyev tərəfindən 2002-ci il mayın 6-da imzalanmış "Gənclər siyasəti haqqında" Qanunda deyilir: "Bu siyasət gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət və ənənələrinə, dövlət dilinə və rəmzlərinə, mənəvi ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə birbaşa bağlıdır".

Tarix və Azərbaycan tarixinin tədrisi prosesində tələbənin elmi dünyagörüşü inkişaf edir, onların mənəvi, estetik və əxlaqi tərbiyəsi formalaşır. Mənəvi tərbiyə tələbələrin psixoloji keyfiyyətini, əxlaqını həyatı bacarıqlarını inkişaf etdirir. Hər bir şəxsi keyfiyyətin formalaşmasının başlanğıcı müəyyən hadisə və faktlarla bağlıdır. Tərbiyə işinin vasitələrindən istifadənin səmərəliliyi onlardan istifadə formalarının müxtəlifliyi və mükəmməlliyindən asılıdır. Təlim prosesində Azərbaycanın tarixi ilə bağlı biliklərin fəaliyyəti zamanı *fərdi* (söhbət, tapşırıq, məsləhət, kömək), qrup halında-(müşavirə, seminar, mühazirə, məlumatlandırma, dərnəklər), *kollektiv* (konfranslar, iclaslar, tarixi şəxsiyyətlərlə görüş, tematik axşamlar, sual-cavab gecələri, yaradıcı ziyalılarla, ictimai təşkilatların üzvləri ilə görüşlər), *çap* (divar qəzetləri, bülletenlər, icmallar, vərəqələr, bukletlər, kitabçalar, kitablar, xüsusi informasiya nəşrlər, məqalələr), *təşkilati* (lektoriyalar, seminarlar, kitabxanada iş) formalardan istifadə olunur. Mənəvi və psixoloji təsir adətən kütləvi informasiya vasitələri, dövri mətbuat, əyani informasiya vasitələri, həmçinin təlim prosesində dərs vəsaiti, müəllimin şərhi və tələbələrin qarşılıqlı əməkdaşlığı şəraitində icra olunur.



Respublikada Azərbaycan tarixi fənni orta ixtisas və ali məktəblərdə tədris edilir. Təhsildə əsas məqsəd təhsilin, tərbiyənin və inkişafın inkişaf etdirilməsi, təhsil alanların şəxsiyyət kimi formalaşdırılmasıdır. Univeristetlərdə milli-mənəvi, əxlaqi dəyərlərə malik, zəngin intellekt və dünyagörüşə sahib kadrların hazırlanmasında vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti olduqca zəruridir. Məhz bu işin düzgün təşkilində vətənpərvərlik tərbiyəsinin forma, prinsip, üsul və vasitələri mühüm yer tutur. Ali məktəb tələbəsi hərtərəfli təhsil almış, müasir düşüncə tərzinə, geniş dünyagörüşünə malik, həm də mənəvi cəhətdən gələçək əmək fəaliyyətinə hazır, çətin vəziyyətlərdən çıxış yolu tapmağı bacaran, şəxsiyyətlərarası münasibətlər qurmağa qadir, cəmiyyət və özü qarşısında məsuliyyət daşımağı bacaran insan olmalıdır.

| ***Vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında səmərəli tədris mövzuları*** | ***Vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında səmərəli təlim metodları*** | ***Vətənpərvərlik tərbiyəsinin formaları*** |
|---|---|---|
| “15 sentyabr – Bilik günüdür” | Şifahi və problemli Şərh, İzah, Təqdimat | Vətənpərvərlik mövzusunda söhbət və məruzələr |
| “5 oktyabr - Müəllimlər günü” | Mühazirə və seminar metodu | Vətənpərvərlik mövzusunda disput və debatlar |
| “18 oktyabr – Müstəqilliyin bərpası günü” | Beyin həmləsi metodu | Sual-cavab,tarixi xatirə gecələrinin təşkili |
| “9 noyabr – Bayraq günü | Müşahidə, Müsahibə Müzakirə metodu | Vətənpərvərlik mövzusunda elmi-bədii əsərlərin müzakirəsi |
| “31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü” | Rollu oyunlar metodu | Vətənpərvərlik mövzusunda rollu oyun və səhnəciklər |
| “20 yanvar – Qanlı yanvar faciəsi” | İllüstrasiya,Təqdimatlar Metodu | Vətənpərvərlik mövzusunda ustad dərslərin tədrisi |
| “21 fevral – Beynəlxalq Ana dili günü” | Tədqiqatın aparılması metodu | Vətənpərvərlik mövzusunda sərgilərin təşkili |
| “Xocalı soyqırımı tariximizin qan yaddaşı” | Məntiqi - təfəkkürün inkişafına yönəldilmiş metodlar | Bu mövzuda musiqi və mahnıların bəstələnməsi |
| “Xalqımızın milli bayramı Novruz”, Qurban və Ramazan | Tənqidi təfəkkür inkişafına yönəldilmiş metodlar | Qəhrəmanlarla görüş, onlarla bağlı guşə və muzeylərin yaradılması |
| Şərqdə ilk cümhuriyyətin yaranması və fəaliyyəti | Yaradıcılığa yönəldilmiş üsullar və iş formaları | Hərbi və idman oyunlarının keçirilməsi |
| “31 mart -Azərbaycanlıların soyqırımı günü” | Təşkilati üsullara əsaslanan iş qaydaları | Bu mövzuda tarixi-mədəni ekskursiyaların təşkili |
| “Zəfərə gedən yol – Aprel döyüşləri” | Evristik və ya qismən axtarış metodu. | Vətənpərvərlik mövzusunda söhbət və məruzələr |
| “Azərbaycan dövlətçiliyinin bərpası və milli qurtuluş” | Kitab üzərində iş, Fəallaşdırma metodları | Vətənpərvərlik mövzusunda disput və debatlar |
| Ümummilli lider Heydər Əliyev və Azərbaycan” | Praktik işlər, Disputlar, Laboratoriya işi. | Sual-cavab, tarixi xatirə gecələrinin təşkili |
| II Qarabağ müharibəsi. Şuşa əməliyyatı. | Təkrar, Çalışmalar, Öyrədici nəzarət. | Vətənpərvərlik mövzusunda elmi-bədii əsərlərin müzakirəsi |

Beləliklə, tələbələrdə vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında hal-hazırda təhsil sistemimizin qarşısında duran prioritet hədəf, əsası XIX əsrdə “Maarifçilik hərəkatı”nda qoyulan və dövlət bayrağımızda da əks olunan ideoloji hərəkatında özünü göstərir. Məhz bu baxımdan təhsil sisteminin yetişdirdiyi vətəndaş ilk növbədə öz xalqının adət-ənənələrinə və mənəvi dəyərlərinə sadiq bir şəxs (islamçılıq - yaşıl rəng), dərin biliyə malik olan müasir

baxışlı, yaradıcı düşüncəli və mütərəqqi insan (müasirlik - qırmızı rəng);öz köklərinə bağlı və milli mənsubiyyəti ilə fəxr edən vətənpərvər (türkçülük - mavi rəng) olmalıdır.

**Ədəbiyyat:**


1. Cəbiyev Q., Allahverdiyev S. Azərbaycan tarixi, Bakı 2017
2. Cəbrayılov İ.H. Ali məktələrdə Azərbaycan tarixinin tədrisinin nəzəriyyəsi və təcrübəsi. Monoqrafiya. Bakı 2008
3. Firədun İbrahimov, Rüfət Hüseynzadə. PEDAQOGİKA. 2 clddə. I cild. – Bakı: Mütərcim, 2012, s
4. Həsənov A.Ş. Milli ideologiya və milli-mənəvi dəyərlər. Bakı:Təknur, 2013.175 s.
5. Paşayev T.S. Diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi.Bakı:Nərgiz, 2010.160 s.


## X-XI SİNİFLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN İMKAN VƏ YOLLARI


**Rüstəmova Xədicə Rüstəm qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**



***Açar sözlər:*** *vətəndaş, tərbiyə, tarix, vətənpərvərlik, şagird, müəllim*
***Ключевые слова****: гражданин, воспитание, патриотизм, ученик, учитель*
***Key words:*** *citizen, education, history, patriotism, pupil, teacher*


Vətəndaş mühitinin formalaşması üçün X-XI siniflərdə hər bir şagirddə təmənnasız vətən sevgisi, vətənpərvərlik hisslərinin aşılanması vacibdir. Vətəndaşlıq insan şəxsiyyətinin bir parçasıdır. Hər bir vətəndaşın hüquq və vəzifələri təkcə böyüklərə deyil, həm də məktəblilərə aiddir. Vətəndaşlıq iqtisadi və siyasi asılılıq yox, birlik deməkdir. Məhz buna görə də, orta məktəblərdə tarix fənninin təlim məqsədləri tarix fənninin məzmunundan irəli gəlməli, şagirdlərin gücünə uyğun olmalı, ən əsası onların mənəvi tərbiyəsində böyük rol oynamalıdır. İnteraktiv təlim üsullarının tətbiq edilməsi ilə dərsliklər öyrədici, tərbiyəvi və inkişafetdirici vəzifələri yerinə yetirirlər. Şagirdlərin mənəvi tərbiyəsində isə milli mənlik anlayışı xüsusi yer tutur. Hərbi-vətənpərvərlik tərbiyəsi şagirdlərin hərb elminin sirrlərinə yaxından bələd olmağa, hərbi xidmətə hazır olmağa kömək edir, onlarda mərdlik, cəsurluq və bu kimi iradi keyfiyyətlər formalaşdırır. İncəsənətin özünəməxsus inkişaf xüsusiyyətləri estetik tərbiyəyə, zəhmətə rəğbətlə yanaşmaq əmək tərbiyəsinə, insanın maddi və mənəvi həyat tərzini, əmək şəraitini, təhsil və bilik səviyyəsini özündə birləşdirərək sistemləşdirilməsi isə siyasi mədəniyyətin formalaşdırılmasına imkan yaradır.Uşaqların vətəndaşlıq tərbiyəsi yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmək və şəxsiyyət kimi yetişməkdir. Ailə tərbiyəsi vətəndaş cəmiyyətinin formalaşdırılmasında əsas amildir.

X-XI sinif şagirdlərində vətəndaşlıq tərbiyəsinin aşılanmasında müəyyən fəaliyyətlər yerinə yetirmək - konfranslarda, seminarlarda, "Dəyirmi masa"larda, mədəni-kütləvi tədbirlərdə iştirak etmək vacibdir. Azərbaycan tarixi müəllimlərinin də əsas vəzifəsi cəmiyyət üçün əsl vətəndaşların yetişdirilməsidir. Müəllimin dərslərdə tez-tez Qarabağ müharibəsinin şəhidlərini yad etməsi, onların həyatı, döyüş yollarını işıqlandırması şagirdlərdə vətənpərvərlik duyğularını gücləndirir. Ömrünü xalqının savadlanmasına həsr edən maarifçilərimizin şagirdlərə tanıdılması da bu işdə olduqca əhəmiyyətlidir.

Şagirdlərin vətəndaşlıq tərbiyəsinin formalaşmasında Azərbaycan tarixi dərsliyindəki mövzuların əhəmiyyəti böyükdür. Müəllimlərin üzərinə düşən əsas məsuliyyət bu mövzuları vətəndaşlıq hisslərinə yönəldə bilməkdir. Xəritə, qlobus kimi əyani vəsaitlərdən savayı görkəmli tarixi şəxsiyyətlərin portretlərinin nümayiş etdirilməsi, tariximizi əks etdirən filmlər izlənməsi, musiqilər dinlənilməsi şagirdlərdə dərin iz buraxır.

X-XI sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsinin formalaşmasının yollarından biri də məktəbdənkənar tədbirlərin keçirilməsidir. Ev muzeylərinə, tarixi abidələrə, mərkəzlərə ekskursiyalar təşkil edilməsi faydalıdır. H.Əliyev irsinin öyrənilməsi vətənpərvərlik tərbiyəsinin formalaşmasında şagirdlərin qarşısında açılan yollardan biridir.

## V SİNİFDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN TARİXİ ŞƏXSİYYƏTLƏR NÜMUNƏSİNDƏ TƏRBİYƏ EDİLMƏSİ İŞİNİN AKTUALLIĞI

**Bayramova Reyhan Ayyət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
**Elmi rəhbər: p.ü.f.d. D.M. Musayev**

Şagirdlərin tarix kursu ilə ilk tanışlığı V sinifdə Azərbaycan tarixinin tədrisi ilə başlayır. Məhz V sinifdə Azərbaycan tarixi dərsliyində qədim dövrlərdən müasir dövrümüzə qədər yaşamış tarixi şəxsiyyətlərin bir çoxu haqqında şagirdlərə ilkin məlumatlar verilir. Bu məlumatlarla tanış olan şagird gələcəkdə öyrənəcəkləri tarixi şəxsiyyətlər və hadisələr haqqında müəyyən biliklərə yiyələnir. Məsələn: Nadir şah haqqında təsəvvürlərin formalaşdırılması ilə şagirdlər həm bu tarixi şəxsiyyətin nümunəsində tərbiyə edilir, həm də onun fəaliyyəti, tarix hadisələrdəki rolu haqqında ilkin biliklərə sahib olurlar. Beləliklə, V sinifdə şagirdlər həm tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilir, həm də tarixi hadisələri öyrənir.

Azərbaycan tarixi kursunun ən önəmli atributlarından biri tarixi şəxsiyyətlərdir. Bunu Azərbaycan tarixi kursunun beş məzmun xəttindən (tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət) biri olan – "şəxsiyyət" məzmun xətti sübut edir.

Şəxsiyyət məzmun xəttində şagirdlər:

1. tarixi şəxsiyyətləri dövrü baxımından qiymətləndirir;
2. mənbələri araşdırmaqla Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair materiallar toplayır və təqdim edir.

Mövzunun aktuallığını göstərən mühüm məsələlərdən biri 19 iyun 2009-cu ildə "Azərbaycan Respublikasının Təhsil haqqında qanunu"nun qəbul olunmasıdır. Belə ki, bu qanunda azərbaycançılıq, vətənpərvərlik, milli və bəşəri dəyərlərə hörmət edən, əməksevər, iradəli, geniş dünyagörüşlü, milli adət-ənənələrinə sadiq, müasir düşüncəyə sahib, təfəkkürlü, yaradıcı vətəndaş və kadrların yetişdirilmə məqsədlərindən bəhs edilir. Bütün bu qeyd olunmuş ali hisslər isə təbii ki, şagirdlərin həmin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi ilə yarana bilər.

Tarixi şəxsiyyət dedikdə, tarixin müəyyən dövrlərində yaşamış, dünyanın, öz dövlətinin, xalqının müqəddəratına bu və ya digər formada təsir edən şəxsiyyətlər nəzərdə tutulur. Azərbaycan tarixində özünəməxsus yeri olan, bu gün də adı tarixə qızıl hərflərlə həkk edilmiş çoxlu şəxsiyyətlərimiz vardır. Onlar istər siyasi arenada, dövlət quruculuğunda, istər döyüş meydanında, istərsə də mədəniyyət sahəsində öz sözünü demiş şəxsiyyətlərdir. Məsələn, Cavanşir, Babək, Şah İsmayıl Xətai, Nizami Gəncəvi, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Hacı Zeynalabdin Tağıyev, Məhəmməd Əmin Rəsulzadə, Heydər Əliyev, İlham Əliyev, Mübariz İbrahimov, Samid İmanov və s. kimi şəxsiyyətlərin adlarını çəkə bilərik.

Bu gün ənənəvi təlim sisteminin müasir təlim sistemi ilə əvəz edilməsi nəticəsində Azərbaycan tarixi təkcə tarixi hadisələri və prosesləri öyrətməkdən ibarət olmaqdan çıxaraq öz məzmununu daha da genişləndirdi. İndi onun əsas vəzifəsi tarixi bilikləri şagirdlərə aşılamaqla yanaşı, onlarda vətənpərvərlik, milli ruh, milli əqidə, dünyagörüşü və s. hissləri formalaşdırmaqdan, onları bu ali hislərlə tərbiyə etməkdən ibarətdir. Təbii ki, bu cür ali hisslərin formalaşdırılması üçün tarixi şəxsiyyətlər və onların tarixdəki fəaliyyəti vacib örnək təşkil edir. Məsələn, Azərbaycan tarixində böyük önəmə sahib olan, Azərbaycanda azadlıq hərəkatı deyərkən yada düşən Babək və onun fəaliyyəti şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasına, azadlığın bir millət, bir insan üçün necə önəmə sahib olmasını anlamasına səbəb olur.

Babəkin “1 gün azad yaşamaq 40 il boyunduruq altında sürünməkdən daha üstündür” sözü şagirdlərin şəxsiyyətinə və mənəviyyatına böyük təsir göstərir.

Qədim zamanlardan müasir dövrümüzə qədər tarix səhifəsinə bir çox şəxsiyyətlər çıxmış və öz adlarını həmin səhifələrə əbədilik həkk etdirmişlər. Bu cür şəxsiyyətləri şagirdlərə öyrətmək, onların təsəvvürlərində həmin şəxsiyyətləri formalaşdırmaq hər bir tarix müəlliminin vəzifəsidir. Hacı Zeynalabdin Tağıyev kimi tarixi şəxsiyyəti tanımaq, onun sosial, ictimai və təhsil sahəsində gördüyü xeyriyyəçilik fəaliyyəti ilə tanış olmaq şagirdləri geniş ürəyə malik insan kimi tərbiyə edəcək, onları yaxşı əməllər etməyə, darda olana əl tutmağa kökləyəcək. Tomirisi öyrənmək zülmkara baş əyməməyə, qadın olaraq, mərd olmağa, qorxusuzluğa sövq edəcək, Heydər Əliyev və onun siyasətini öyrənmək dünyagörüşlərinin formalaşmasına, yerində və tutarlı qərarlar verə bilmə bacarıqlarının yaranmasına gətirib çıxaracaqdır. Ona görə də bu şagirdlərinşəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsi işi hər zaman öz aktuallığını qoruyub saxlamaqdadır.

Görüldüyü kimi, tariximizdə bir çox nümunəvi tarixi şəxsiyyətlər və onların yeni nəslə örnək olacaq kifayət qədər müsbət əməlləri vardır. Bütün bunlar mövzunun aktuallığını və tarix fənninin tədrisi zamanı bu məsələlərə müəllim tərəfindən əməl edilməsinin vacibliyini göstərir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİX ÜZRƏ DƏRSDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLİNİN İMKAN VƏ YOLLARI

**Əsədova Nahidə Qalib qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nahidaasadovaa@gmail.com*

***Açar sözlər:*** *viktorinalar, sinifdənxaric oxu, tarix dərnəyi, tarix axşamları, məşğələlər, fakultativ məşğələlər*

***Ключевые слова***:*в икторины, внеклассноечтение, кружкипоистории, вечера истории, занятия, факультативные занятия*

***Key words:*** *quizzes, extra – class reading, history circle, history evenings, exercises, facultative exercises*

### Xülasə

Tezisdə problemin aktuallığı əsaslandırılıb. Dərdənkənar işlərin təlim və tərbiyəvi funksiyaları müəyyənləşdirilib. Tarix dərslərində və proqramlarındakı dərsdənkənar işlərdən istifadə imkanları tətbiq edilərək öyrənilib. Ümumtəhsil məktəblərində istifadə ediləcək dərsdənkənar işlərin təsnifatı şərh edilib. Dərsdənkənar işlərin nümunələri verilib.

## ВОЗМОЖНОСТИ И ПУТИ ОРГАНИЗАЦИИ ВНЕУРОЧНЫХ РАБОТ ПО ИСТОРИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

### Резюме

В статье обоснована актуальность темы. Были установлены учебные и воспитательные функöии внеурочных работ. Изучались с применением возможностей использования внеурочных работ на уроках и программах истории. Поясняется класссификация внеурочных работ, которые будут использоваться в общеобразовательных школах. Были показаны образцы внеурочных работ.

## POSSIBILITIES AND WAYS OF ORGANIZING OUT OF CLASS HISTORY WORKS AT PUBLIC SCHOOLS

### Summary

The Article substantiates urgency of the problem and defines educative – instructional functions of extra –class works. The possibilities of using extra - class works in history

classes and programs have been introduced and explored and the classification of the extra-class works to be used at public schools has been commented upon. Samples of extra class works have been presented.

Araşdırmalardan aydın olur ki, tarix üzrə təlim əsas təşkilat forması olan dərs nə qədər əhəmiyyət kəsb edirsə, dərsdənkənar işlər də təlim prosesində mənimsənilmiş biliklərin həyata tətbiq edilməsində, eləcə də şagirdlərin həyata hazırlanmasında bir o qədər önəmli rol oynayır. Məlum olduğu kimi dərsdənkənar işlərin əsas funksiyası şagirdlərin təhsil-tərbiyəsini, şəxsiyyətin məqsədyönlü formalaşması prosesidir. Dərsdənkənar tədbirlərin müxtəlif forma və metodları var. Bu metodlar şagirdləri lazımi keyfiyyətlər ilə tərbiyə etmək və onların şüuruna, iradəsinə, hiss və davranışlarına təsir etmək üçün nizamlanmışdır. Araşdırılan ədəbiyyatlardan aydın olur ki, dərsdənkənar işlərin 4 istiqamət metodu var: 1) Məktəblərdə tarix fənni üzrə məruzə və mühazirələr, müzakirələr, toplantılar, disputlar, tanınmış şəxslərlə görüşlərin keçirilməsi, tarixi axşamlar və s. bu kimi işlər kütləvi işlərin birinci istiqamətinə aiddir; 2) Sual-cavab gecələrinin təşkili, şagird konfransları, ekskursiyalar, festivallar və s. ikinci istiqamətə aid edilir; 3) Yarışlar, olimpiadalar, dəyirmi masa, fənn dərnəkləri, tələbə klubları və s. üçüncü istiqamətə aiddir; 4) Dördüncü yerdə isə fərdi işlərdir ki, buna da mütaliə, fərdi bədii məşğələlər, məqalə yazmaq, deklorasiya və s. aiddir.

Tədqiq etdiyimiz problemlə bağlı çoxsaylı müəlliflərin əsərlərindən faydalanmışıq. Bunlardan M.Əmirovun (1), Q.N.Matyuşkinin (2), M.M.Terexovun (3) əsərləri xüsusi əhəmiyyət kəsb edir. Sadaladığımız ədəbiyyatlarda dərsdənkənar tədbirlərin rəngarəng formalarına yetərincə diqqət yetirilib. Tədqiqatımızda həmin ədəbiyyatlardan yeri gəldikcə faydalanmışıq.

Tarix fənninin tədrisi müəyyən dərəcədə şəxsiyyətin inkişafını üç istiqamətdə həyata keçirir: milli, ümumbəşəri və sosial dəyərlərə yiyələnmək.

Ümumtəhsil məktəblərində tarix üzrə dərsdənkənar işlərin təşkilində aşağıda sadalanan tərbiyəvi və didaktik tələblər yönləndirilməlidir;

1) Keçiriləcək dərsdənkənar işlərin tərbiyəvi imkanlarının müəyyənləşdirilməsi;
2) Şagirdlərin milli – mənəvi dəyərlərimiz əsasında tərbiyə olunması;
3) Şagirdlərin ümumbəşəri dəyərlər əsasında tərbiyə olunması;
4) Dərsdənkənar tədbirlər şagirdlərdə həyati əhəmiyyəti olan səbirlilik, pedaqoji nəzakət və əməkdaşlıq kimi keyfiyyətləri də formalaşdırmalıdır;
5) Dəsdənkənar tədbirlərin keçirilməsi və təşkili şagirdlərin idrakı maraqlarının inkişafını stimullaşdırmalıdır.

Respublikanın ümumtəhsil məktəblərində apardığımız müşahidələrdən aydın oldu ki, qabaqcıl tarix müəllimləri tarix üzrə dərsdənkənar və məktəbdənkənar işlərin aşağıdakı formalarından istifadə edirlər.

Tarixdən dərsdənkənar işlərin təsnifatı

1. Əxlaqi söhbətlər; 2.Elmi mövzuda mühazirələr; 3. Tarix gecələri; 4. Tarixdən sual – cavab gecələri – bilik yarışları; 5. Sinifdənxaric oxu; 6. Hərbi vətənpərvərlik mövzusunda söhbətlər; 7. Müharibə veteranları ilə görüşlər; 8. Tarix üzrə olimpiadaların təşkili; 9. Məktəbdə tarix üzrə elmi seminarların təşkili; 10. Tarixdən viktorinaların təşkili; 11. Tarixdən fakultativ məşğələlərin təşkili; 12. Xüsusi əhəmiyyət kəsb edən tarixi hadisələrə həsr edilmiş konfranslar.

Tarix üzrə məktəbdənkənar işlərin təsnifatı

1. Tarixi hadisələrə həsr edilmiş kinofilmlərə kollektiv baxış; 2. Tarixi abidələrə ekskursiyaların təşkili; 3. Tarix diyarşünaslıq muzeylərinə ekskursiyaların təşkili; 4. Müharibə veteranları ilə görüşlər; 5. Tarixdən təlim ekskursiyalarının təşkili; 6.Muzeylərdə dərslərin təşkili.

Təsnifatını verdiyimiz dərsdənkənar və məktəbdənkənar tədbirlərin Azərbaycan tarixinin tədrisindəki imkanlarını aşağıdakı cədvəldə ümumiləşdirmişik:

**X sinif Azərbaycan tarixi kursu üzrə keçiriləcək tədbirlər:**

| | | |
|---|---|---|
| 1. | Azərbaycan XVI – XVIII əsrlərdə | 1) İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" (Tarixi-aləmaraye Abbas) kitabının müzakirəsi<br>2) Lokkar E.L. "Nadir şah" adlı əsərinin müzakirəsi |

**XI sinif Azərbaycan tarixi kursu üzrə keçiriləcək tədbirlər:**

| | | |
|---|---|---|
| 1. | Azərbaycan Xalq Cümhuriyyətinin yaranması | 1) N.Nəsibzadənin "Azərbaycan Xalq Cümhuriyyəti" əsərinin müzakirəsi<br>2) M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərinin müzakirəsi |
| 2. | Hüququ – demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq yolunda | Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının öyrənilməsinə istiqamətləndirilmiş müzakirəsi |

Sinifdənxaric oxu şagirdlərin fənnə olan idraki marağının inkişaf etdirilməsinə yönəlmişdir. Sinifdənxaric oxunun təşkili fərdi və ya qrup formasında olur. Bu oxu nəticəsində şagirdlərdə oxuma mədəniyyəti və mənəvi-əxlaqi tərbiyə formalaşır. Sinifdənxaric oxu epizodik və ya sistemli, məqsədyönlü xarakter də daşıya bilər. Sinifdənxaric oxunun, formaları aşağı və yuxarı siniflərdə şagirdlərin yaş imkanlarında və maraqlarından asılı olaraq dəyişir.

Dərsdənkənar işlərin səmərəli təşkilinə nail olmaq üçün tədris proqramındakı mövzulara uyğun ədəbiyyatlardan istifadə olunmalıdır. Məsələn, VII sinifdə R.Özdəkin (4, s.3-6), XI sinifdə M.Ə.Rəsulzadənin (5, s.15-16). Həmin əsərlər VII sinifdə "Oğuz-Səlcuq axınları və Azərbaycan", XI sinifdə "Azərbaycan Xalq Cümhuriyyəti" mövzularının tədrisində istifadə etmişik.

XI sinifdə Azərbaycan Xalq Cümhuriyyəti mövzusunun tədrisində M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərinin sinifdənxaric oxu prosesindəki müzakirəsini 2 saylı cədvəldə ümumiləşdirilmiş şəkildə veririk. Bu əsərin müzakirəyə cəlb edlməsindəki məqsədimiz qanı iranlı və turanlı olan Səyavuşun əsas amalı bu iki millətin sahibi olduğu aləmi əmin-amanlıqda görmək idi. Səyavuşun Əfrasiyab və Keykavusdan fərqi budur ki, o birliyi düşmənlik və güc işlətmək yolu ilə deyil, barışıq və ittifaqla hasilə gətirmək istəyirdi.

Məhəmməd Əmin Rəsulzadənin bu əsəri yazmaqda əsas məqsədi dövlət idarəçiliyində zora, hiyləyə, yaltaqlığa nifrət, sülhə, barışığa, birliyə hörməti təbliğ etmək idi.

| | | | | | |
|---|---|---|---|---|---|
| Məhəmməd Əmin Rəsulzadə | Əsrimizin Səyavuşu | 2020-ci il oktyabr | 2020-ci il noyabr | Ən qədim zamanlardan İran – Turan müharibələri dövrünü əks etdirsə də həmin dövrdə cərəyan edən hadisələrdən ağıllı insanların nəticə hasil etmələrini özündə ehtiva edir | 1) İnsanlararası və dövlətlər arası münasibətlərdə sülhə, barışığa və birliyə önəm verilməsi<br>2) Azərbaycan Turanda<br>3) Azərbaycan Cümhuriyyəti<br>4) Cümhuriyyətin bəxtsizliyi<br>5) Qatil kimdir<br>6) Haqsız qan yerdə qalmaz |

Beləliklə, tarix üzrə dərsdənkənar işlərin səmərəli təşkilinin imkanlarının və tətbiqi yollarının tədqiq edilərək öyrənilməsi məktəbdə təlim – tərbiyənin yüksəldilməsini motivləşdirir.

**Tezisin aktuallığı:** Ümumtəhsil məktəblərində tarix üzrə dərsdənkənar və məktəbdənkənar işlərin imkanlarının və tətbiqinin metodik yollarının bu vaxta qədər tədqiqat obyekti kimi seçilməməsidir.

**Tezisin elmi yeniliyi:** Ümumtəhsil məktəblərinin tarix kurslarında dərsdənkənar və məktəbdənkənar işlərdən istifadənin imkan və yollarının tədqiq edilərək müəyyənləşdirilməsidir.

**Tezisin praktik əhəmiyyəti:** Ümumtəhsil məktəblərinin tarix kurslarında yaradılmış dərsdənkənar və məktəbdənkənar iş sistemindən orta məktəblərin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

**Nəticə:** Tarix fənni üzrə dərsdənkənar və məktəbdənkənar işlərin imkan və yolları araşdırılmışdır. Dərsdənkənar və məktəbdənkənar işlər şagirdlərdə tarixi biliklərin şüurlu mənimsənilməsinə zəmin yaradır. Məqsədəuyğun formada təşkil edilmiş dərsdənkənar işlər nəticə etibarilə şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirir, dünyagörüşünü genişləndirir, onların həyata hazırlanmasını motivləşdirir.

**Ədəbiyyat:**


1. Əmirov M. Tarix üzrə dərsdənkənar iş, metodik vəsait, Bakı, 2014, 116 səh.
2. Хрестоматия по внеклассной работе. Составитель М.М.Терехов, Москва, 1960, 433 стр.
3. Историческое краеведение. Учеб. Пособие для студентов. Ист.фак.пед. ин-тов. Под. Ред. Канд. Ист. Наук. Г.Н.Матюшкина, Москва, 1975, 176 стр.
4. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı, 1990, s. 15-16.
5. Rəfiq O. Türkün Qızıl kitabı. Bakı, 1992, s. 3-6.


## ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL VƏ ONA VERİLƏN TƏLƏBLƏR


**Şahmirova Gülnar Nüsrət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sahmirova339@gmail.com*


Müasir təhsilin məzmununu əsasən elmi biliklər təşkil edir və elmlərin bünövrəsi təhsillə qoyulur. Elmin məqsədi insanın intellektual dünyasını zənginləşdirmək, müvafiq bacarıqların formalaşmasına şərait yaratmaqdır. Cəmiyyətin tam hüquqlu üzvü, fəal vətəndaş kimi formalaşmaq üçün hər bir şəxsin öz həyat yolunu,siyasi mövqeyini şüurlu seçmək imkanı olmalı, elmi biliklərə əsaslanan həyati bacarıqlara yiyələnməlidir. Təlim prosesi şəxsiyyətə yönəldilməli, onun fərdi xüsusiyyətlərini nəzərə alaraq inkişafını təmin etməli, nəticəyönümlü xarakter daşımalıdır.Təhsil insanın sosiallaşması prosesində ümümbəşəri və milli dəyərlərə yiyələnməsini davamlı bir fəaliyyət kimi əhatə edir.Təhsil ictimai həyatın bir sahəsidir. Sağlam insanın, vətəndaşın şəxsiyyət kimi yetişdirilməsi, sosial həyata və səmərəli əmək fəaliyyətinə mütəxəssis kimi hazırlanması təhsil nəticəsində baş verir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra daha müasir və dünya standartlarına uyğun olan təhsil sisteminə keçid etdi.

Ümumi təhsilin milli kurikulumunun (təhsil konsepsiyasının) hazırlanması və tətbiqi şəxsiyyətyönümlü təhsilin həyata keçirilməsinə böyük təkan vermişdir.

Şəxsiyyətyönümlü təhsilin həyata keçirilməsi prosesində bir sıra mühüm tələblər nəzərə alınmışdır:

- intellektin inkişafı;
- emosional sferanın inkişafı;
- streslərə qarşı dayanıqlığın inkişafı;
- özünəinamın inkişafı və onun qəbul edilməsi;
- dünyaya, bəşəriyyətə qarşı pozitiv münasibətlərin inkişafı;
- sərbəstliyin, daxili azadlığın, muxtariyyatın, özünəməxsusluğun inkişafı;
- özünüaktivləşdirmənin və özünütəkmilləşdirmənin inkişafı;

Bu tələblərin ödənilməsi müasir tələblərə cavab verən şəxsiyyətin formalaşmasını reallaşdırır və hər biri şəxsiyyətyönümlü təhsildə mühüm rol oynayır. Şəxsiyyətyönümlü təhsilin xüsusiyyətləri aşağıdakı kimi ifadə olunur: təhsil alanlara subyekt kimi yanaşma, dialoji yanaşma, inkişafetdirici xarakterin olması, təhsilin fundamentallığı,inteqrativlik və s.

Milli Kurikulumda şagirdin bir şəxsiyyət kimi formalaşması üçün lazım olan təlim şəraitinin yaradılması əsas məsələ kimi çıxış edir. Şagirdi müstəqil həyata tam sərbəst düşünən, fəaliyyət göstərən şəxsiyyət kimi hazırlamaq zamanın əsas tələbi olduğu kimi, müəllimin də

əsas vəzifələrindən biridir.Tələb olunan bacarıq və vərdişlərin formalaşdırılmasına imkan yaradan minimum biliklərin həcmi müəyyənləşdirilir. Bu biliklər minimum təlim məqsədlərinə çatmaq üçün vasitə kimi nəzərdə tutur.

Şəxsiyyətyönümlü kurikulumda elmi biliklər çatdırılsa da, həyati bacarıq və vərdişlər üstünlük təşkil edir. Şagirdlərin məlumat olaraq öyrəndiklərini bacarığa çevirməyi və gələcək həyat fəaliyyətlərində ondan istifadə etmə qabiliyyətlərinin formalaşması ön plana çəkilir. Şəxsiyyətyönümlülük təhsil alanın idraki, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır. Şəxsiyyətyönümlü kurikulumlar həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir və şəxsiyyətin formalaşması üçün ən zəruri praktik işlərin həyata keçirilməsinə imkan yaradır. Şəxsiyyətyönümlü təhsil inkişafetdirici xarakter daşıyır və təlim-tərbiyə prosesində bilik, bacarıq və vərdişlərlə yanaşı, fərdi, sosial əhəmiyyətli keyfiyyətlər də inkişaf edir. Şəxsiyyətyönümlü yanaşma onun yeni və orijinal şəxsi xarakterinin formalaşmasına, fərdin əsas xüsusiyyətlərinin inkişafına, ətraf mühitlə və cəmiyyətlə qarşılıqlı əlaqəsinin formalaşdırılmasına yönəldilmiş bir prosesdir və onun fəaliyyətinə əsaslanan şəxsi xassələri özündə əks etdirir. Bu, öz növbəsində, fərdiliyin inkişafı üçün şəraitin öyrənilməsini,özünü inkişaf etdirmə, özünütənzimləmə, sosial özünümüdafiə, insanın özünə uyğunlaşma mexanizmlərinin öyrənilməsini tələb edir.

Şəxsiyyətyönümlü yanaşmanın mahiyyətini dərk etmək və müəyyən etməkdə çətinliklər şəxsiyyət haqqında mövcud olan fikirlərin çoxluğu ilə bağlıdır. Müəyyən etdik ki, “şəxsiyyət” anlayışı fəlsəfə, etika, sosiologiya, psixologiya və pedaqogikada əsasdır. A.G. Asmolova, L.I.Bozoviç, A.S.Zapesotski, A.N.Leontiev, V.İ.Slobodchikova, V.V.Serikova və başqaları “şəxsiyyət” anlayışını sistemli şəkildə öyrənmiş, şəxsiyyətin formalaşması prosesini, sosial vəziyyətini, maraqlarını, məqsədlərini nəzərdən keçirməyə imkan verən nəzəri fikirlər irəli sürmüşlər.

Şəxsiyyətyönümlülük insanın bir şəxsiyyət kimi sosial və yaradıcı fəaliyyətini əks etdirir. Şəxsiyyətyönümlü təhsilin prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq olar:

-şagirdin və ya tələbənin onu inkişaf etdirəcək şəxsi xüsusiyyətlərinin məqsədyönlü şəkildə ortaya çıxarılması və inkişaf etdirilməsi;

-təhsil və təlimin səviyyəsini artıracaq proseslərin vacibliyi;

-şagirdin praktik davranışlarını şərtləndirən məsələləri modelləşdirmək;

-şagirdləri şəxsi keyfiyyətlərinə və düşüncə dərəcələrinə görə fərqləndirmək

Şəxsiyyətyönümlülük hər bir fərdə olan subyektiv yanaşmanı, fərdi münasibəti də şərtləndirir. Təhsil alanlara subyekt kimi yanaşılması ilk növbədə onunla bağlıdır ki, insan təkrar olunmayan fərd, daxilən sərbəst, azad, müstəqil və yaradıcı fəaliyyət göstərmək qabiliyyəti olan şüurlu, inkişaf edə bilən bir şəxsiyyətdir. Ona görə də təhsil subyektlərinin maraqları nəzərə alınmalı, təhsil alanların sosial əhəmiyyətli keyfiyyətləri (müstəqillik, təşəbbüskarlıq, məsuliyyətlilik, özünəinam, yaradıcılıq) inkişaf etdirilməlidir.

Müasir dövrün tələblərinə cavab verən insanın formalaşdırılması şəxsiyyətyönümlü təhsildən keçir. Şəxsiyyətyönümlü təhsildə ilk növbədə şagirdlərə həyati bacarıq və vərdişlər aşılanır.

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN TƏLİM-TƏRBİYƏSİNDƏ SİNİF MÜƏLLİMİNİN İŞİNİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Adgözəlova Aynurə Mübariz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Aynuradgozalli@gmail.com*

Müəllimlik yaradıcı bir peşədir. Təhsili həyata keçirən, cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyətlər formalaşdırmaq müəllimin üzərinə düşən ən məsul bir vəzifədir. Təlimin müvəffəqiyyətlə qurulması, tərbiyəedici təşkili, müəllim şəxsiyyətindən, onun bilik və qabiliyyətindən, pedaqoji ustalığından asılıdır.

Müəllimin təlim yükünü bərabər bölüşdürməsi, şagirdlərin diqqətinə nəzarət etməsi, yaddaş və təfəkkürün xüsusiyyətlərini nəzərə almaqla şagirdlərdə marağın formalaşması onların fənnində yüksək nəticələr əldə etməyə imkan verir. Bu halda şagirdlərin dərsə hazırlıq səviyyəsi həmişə yüksək olur. Onun dərslərində zəif nəticə göstərən şagirdlər demək olar ki, olmur. O, şagirdlərlə qarşılıqlı əlaqəni şəxsi əhəmiyyətli fəaliyyət kimi qəbul edir və şagirdləri fənnə, dərslərə və bütövlükdə məktəbə olan marağını artırmağa cəhd göstərir.

Hər şeydən öncə sinif müəllimi öz peşəsini sevməli, işinin məzmununu mükəmməl bilməli, tədris və tərbiyə üsullarını, vasitələrini, formalarının optimal seçimini həyata keçirməyi bacarmalıdır. Sinif müəllimi təlim və tərbiyənin müxtəlif, o cümlədən eksperimental üsullarından istifadəni də tətbiq etməyi bilməlidir. Sinif müəllimi elmi və praktiki təcrübəyə malikdir ki, bu təcrübəni fənninin tədrisi prosesində tətbiq edir. Bu zaman təlim yaxşı metodik səviyyədə aparılır. O, uşaqlara fənni öyrətmək üçün müsbət motivasiyanın formalaşmasına böyük əhəmiyyət verir. Bunun üçün o, yeni materialı aparарkən müxtəlif texnika və üsullardan istifadə edir: şagirdlərin qrup işinə cəlb edilməsi, yaradıcı ev tapşırıqlarından istifadə, problemli vəziyyətlər, oyunlar və s.

Müəllim təlim materialını aydın və qısa şəkildə təqdim etməlidir. O, hər dərsdə vizuallaşdırmadan, metodiki tədris vasitələrindən istifadə etməli, uşağın özünü ifadə etməsinə, yaradıcılıq potensialının təzahürünə şərait yaratmalıdır. Tədris prosesinin təşkili formaları da müxtəlifdir: bunlar praktik məşğələlər, dərslər - təlimlər, yaradıcılıq dərsləri, dərslər – fantaziyalar, biliklərin inteqrasiya olunmuş tətbiqi dərsləri. Eyni zamanda, müəllim tədris materialının məzmununu seçərkən şagirdlərinin inkişaf səviyyəsini, meyl və qabiliyyətlərini, maraqlarını və sağlamlıq vəziyyətini nəzərə almalıdır.

Sinif müəlliminin həyata keçirdiyi dərslərdə sağlamlığa qənaət edən, informasiya-kommunikasiya texnologiyalarından, didaktik oyunlardan, müxtəlif testlərdən (kağız, elektron, interaktiv) geniş istifadə olunur. Bu isə şagirdlərə sinifdə öyrəndikləri bilik bacarıqlarını digər dərslərdə hazırlıq zamanı və gündəlik həyatda tətbiq etməyə imkan verir.

İbtidai sinif müəllimi şagirdlərin yaradıcılıq imkanlarının reallaşmasına şərait yaradır. Sinif müəllimi tələbələri əlavə və istinad materialları ilə işləmək bacarığına yiyələnməyi öyrətməlidir, şagirdlər müxtəlif müxtəlif fənlərdən (riyaziyyat,ana dili) və mürəkkəblikdə təqdimatlar etməyi bacarзmalıdırlar.  Onlar bunu böyük məmnuniyyətlə edirlər.

Sinif müəllimi şagirdlərin müstəqilliyini inkişaf etdirməyi qarşısına məqsəd qoyur. Sinif müəllimi çətin və qeyri-standart olan situasiyalarda belə şagirdin şəxsiyyətini dəstəkləyən yaradıcı həlləri tez tapmağı bilir. Şagirdlərin zehni fəaliyyətinin təşkili, fərdiləşdirmə və differensiasiya tələblərinə cavab verir. Dərsləri elə təşkil edir ki, şagirdlər qarşıya qoyulan tapşırıqların öhdəsindən gəlsinlər, ev tapşırığı isə özünü öyrənmə və özünütəşkiletmə bacarıqlarının formalaşmasını nəzərdə tutur.

Sinif müəlliminin vəzifə və funksiyaları aşağıdakı amillərlə bağlıdır: Təhsil müəssisələrinin iş şəraiti və təhsil sisteminin xüsusiyyətləri; məktəbin və valideynlərin ekoloji və s. imkanları; uşaqların yaş xüsusiyyətləri; onların tərbiyəsi, təlimi, sağlamlığı və fiziki inkişaf səviyyəsi; müəllimlərin sinifdənkənar tərbiyə işinin təşkilinə hazırlığı. Sinif müəlliminin əsas fəaliyyətinə bunlar aiddir: sinfin təlim və tərbiyə məsələləri, sinfin məktəbdənkənar həyatının təşkili, kiçik yaşlı məktəblilərin təhsilində şəxsiyyətin öyrənilməsi və korreksiyası, məktəblilərin sosial müdafiəsi, valideynlərlə iş. Sinif müəllimi kollektivdə uşaqlar arasında münasibətləri humanistləşdirir, əxlaqi normaların və mənəvi təlimatların formalaşmasına töhfə verir, sinif birliyində şagirdlərin sosial dəyərli münasibətlərini və təcrübələrini, yaradıcı, şəxsi və sosial əhəmiyyətli fəaliyyətləri, özünüidarəetmə sistemini təşkil edir. Sinif müəllimi şagirdlərin şəxsiyyətinin inkişafı üçün təhlükəsizlik, emosional rahatlıq, əlverişli psixoloji və pedaqoji şərait yaradır, şagirdlərin özünütəhsil bacarıqlarının formalaşmasına kömək edir. Müasir sinif rəhbəri öz fəaliyyəti zamanı ilk növbədə valideynlərlə birgə işi həyata keçirir.. Sinif rəhbəri öz işində təhsil müəssisəsinin tibb işçilərindən aldığı məlumatlardan istifadə edərək şagirdlərinin

sağlamlığının qayğısına qalır. Müəllim müasir məktəbin məqsəd və vəzifələrini təmsil edir, təhsil standartlarını, baza kurikuluumunu bilir, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alır, səmərəli təhsil mühiti yaradır.

## HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ TƏHSİL HAQQINDA NORMATİV-HÜQUQİ SƏNƏDLƏRİN BAZASI KİMİ

**Hümbətli Lalə Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*lool_hlyy@mail.ru*

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın təhsil siyasətində yeni dövrün başlanğıcı oldu. Beləliklə, dağılmaq təhlükəsindən sağ çıxan ölkəmizdə təhsil sisteminin müasirləşdirilməsi də mühüm məsələ idi. Azərbaycan təhsil sisteminin sovet təhsil sisteminin ideoloji buxovlarından ayrılaraq ümumbəşəri təhsil sistemi ilə qovuşması üçün ilk növbədə nəzəriyyə, fəlsəfə, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, konseptual müddəaları yenilənməli idi. Bütün bunlar isə təhsilin fəaliyyət prinsiplərini, məzmununu, məqsədini və strukturunu müəyyənləşdirirdi.

Müstəqilliyin ilk illərində ölkə iqtisadiyyatının vəziyyəti ilə əlaqədar sosial islahatlar ləngiyirdi. Ulu öndər təhsilə çox ciddi yanaşmanın zəruriliyini vurğulayaraq, bu sahədə mərhələli islahatların aparılmasının vacibliyini vurğulamışdır: “Təhsil mürəkkəb sahədir. Təhsil nə sənaye, nə kənd təsərrüfatı, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual tərəfini əks etdirən sahədir”.

Yeni formalaşan dövlətdə birinci məsələ təbii ki, dövlət maşınının qurulması, ikinci mühüm məsələ isə mükəmməl təhsil sisteminin yaradılmasıdır. Amerikada belə bir deyim var: “Amerika cəmiyyətinin rifahı universitetlərdəki işlərin vəziyyətindən asılıdır”.

Azərbaycanın siyasi quruluşu dəyişdikcə təhsil fəlsəfəsi də dəyişdi. Yeni təhsil sistemi yeni strukturun fəlsəfəsinə uyğun olaraq yeni ideyaları, yeni baxışları, yeni təhsil texnologiyalarını əks etdirməli, yenidən qurulmalı idi. Yeni təhsil sistemi Azərbaycanın müstəqilliyinə, iqtisadiyyatına xidmət etməli idi.

Beləliklə, müstəqil Azərbaycan dövləti 1999-cu ildən müstəqil təhsil siyasətini həyata keçirmək üçün ilkin islahatlara başladı. Həmin il iyunun 15-də ulu öndər Dövlət Komissiyası tərəfindən hazırlanmış və ümummilli liderin martın 30-da imzaladığı fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil İslahatları Proqramının təsdiq edilməsi haqqında” Sərəncam verdi. Proqramın girişində deyilirdi: “Təhsil sistemində islahatların aparılması zərurəti respublikanın sosial-iqtisadi, ictimai-siyasi və dövlət strukturunda baş vermiş əsaslı dəyişikliklərlə bağlıdır”. Bu mərhələdə təhsil sistemi azad, açıq, demokratik və çoxşaxəli formada, totalitarizmdən uzaq, əmr-inzibati prinsip əsasında qurulmalıdır”

Ulu öndər Heydər Əliyev demişdir: “Təhsil həyatımızın ən zəruri və mühüm sahəsidir. O, milli məqsəd və maraqlar əsasında qurulmalıdır”. Azərbaycan təhsilinin yenidən qurulmasının əsas amillərindən biri də onun milli xüsusiyyətlər əsasında formalaşması, milli-mənəvi dəyərlərə xüsusi önəm verilməsi olmuşdur.

Ölkəmizdə aparılan təhsil islahatı mərhələli şəkildə aparıldı və hər mərhələnin öz məqsəd və vəzifələri var idi. Ötən 11 ilin yekunları göstərir ki, müasir dünya təcrübəsinin tələbləri nəzərə alınmaqla yeni ümumi təhsil konsepsiyasının hazırlanması, konseptual müddəaların müəyyənləşdirilməsi və kurikulumların yaradılması, məzmunda standart konsepsiyanın həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyevin müəllifi olduğu təhsil islahatları proqramı yeni dövrdə təhsil tarixində mühüm yer tutur. Bu islahatlar təhsilin əksər sahələrini əhatə etsə də, əsas diqqət ümumtəhsil məktəblərinin inkişafına, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilib.

Təhsilin maddi-texniki bazasının yaxşılaşdırılması dövlətimizin qarşıya qoyduğu mühüm vəzifələrdən biri idi.

Məlumdur ki, 1990-cı illərin siyasi hadisələri təhsilin maddi-texniki bazasına güclü təsir göstərmişdir. Məktəblərimiz həddən artıq dolu idi, məktəblərin əksəriyyəti qəzalı vəziyyətdə idi, məktəb ləvazimatları, istilik sistemi tamamilə sıradan çıxmışdı. Ulu öndər "Yeni məktəblərin tikintisi üzrə Dövlət Proqramı"nın hazırlanmasını mühüm məsələ kimi qarşıya qoymuş, ümummilli lider 2003-cü il fevralın 17-də "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, təhsil müəssisələrinin əsaslı təmiri" proqramını imzalamışdır.

Bütün qeyd etdiklərimiz təhsil sahəsində normativ hüquqi sənədlərin vacibliyini nümayiş etdirir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ METODBİRLƏŞMƏLƏRİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**Haciyeva Günay Ramiz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunay1996haciyeva@icloud.com*

Məktəbdə müəllimlərin metodiki sferada gördüyü iş, əksərən, metodbirləşmələrdə təmərküzləşir. Metodbirləşmələr dedikdə, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasında daha geniş yayılmış və özünü təsdiq etmiş metodik işin kollektiv formalarından biri nəzərdə tutulur.

Metodbirləşmə təhsil proqramlarının metodiki təminatının yaxşılaşdırılmasına şərait yaradan məktəbin daxili struktur bölməsidir və müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xidmət göstərir. Metodbirləşmə bir fənn üzrə və ya humanitar fənlər, xarici dillər, texniki fənlər, təbiət fənləri, riyazi fənlər və s. kimi təhsil sferası üzrə ən azı üç müəllimin iştirakı ilə öz təşkilini tapır.

Metodbirləşmələr qarışıq fənn müəllimlərini də özündə ehtiva edə bilər. Məktəb direktorunun əmri ilə metodbirləşmələrin sayı, onların tərkibi, məktəbin qarşıya qoyulmuş məqsədlərinin kompleks şəkildə həlli yolları təsdiq edilir. Tədris işləri üzrə direktor müavinlərinin, metodistlərin təklifi ilə direktor metodbirləşmələrini yarada və ya ləğv edə bilər. Metodbirləşmələr təlim-tərbiyə işləri üzrə direktor müavinlərinə tabe olur. Metodiki işlər və təlim-tərbiyə işləri üzrə direktor müavinləri vasitəsilə direktor tərəfindən təsdiq edilən məktəbin daxili metodiki planı və məktəbdaxili idarəetməyə əsasən məktəb direktorları tərəfindən metodbirləşmənin işinə nəzarət edilir. Direktor və metodbirləşmə üzvlərinin razılığı ilə, əsasən, pedaqoji səriştəyə malik müəllim tərəfindən metodbirləşməyə rəhbərlik edilir.

Tədris ili müddətində ən azı dörd-beş dəfə metodbirləşmə iclası təşkil edilir. Metodbirləşmə iclası, əksərən, ilin başlanğıcında, yarımilin axırında, ilin axırında, fənn üzrə açıq dərslərin təşkili zamanı, məktəbdənkənar tədbirlərin keçirilməsində və s. təşkil olunur. Metodbirləşmə rəhbəri keçirilən hər iclasda metodiki işlər üzrə direktor müavininə iclas barədə məlumat verir. İclas protokol şəklində jurnalda rəsmiləşdirilir. Müzakirə olunan məsələlərin hər birinə aid tövsiyələr protokolda qeyd olunur.

Məktəbdə metodbirləşmələrin işinin təşkilindən danışarkən, ilk öncə, onu qeyd etmək lazımdır ki, təhsil müəssisələrində metodbirləşmələrin fəaliyyəti sistematik və altsistematik səciyyə daşımalıdır. Ona görə ki, metodbirləşmələrin əsas fəaliyyət istiqamətləri müxtəlif fənləri tədris edən fənn müəllimləri tərəfindən müəyyənləşdirilməlidir. Bu, ixtisasartırma, özünütəhsil, iş təcrübəsinin yayılması və fəaliyyətin ümumiləşdirilməsi, iş təcrübəsinin ümumiləşdirilməsi, müəllimlərin qazandıqları metodiki uğurların müəyyənləşdirilməsi və s. kimi elementləri özündə ehtiva etməlidir. Metodbirləşmələrin əsas sistemi dedikdə, kadr hazırlığı və müəllimlərin peşəkarlığının hazırlıq səviyyəsi, tədris olunan fənlər və onların struktur xü-

susiyyətləri, həmin dövrdə tədrisin məzmunu, şagirdlərin bacarığı, onların ehtiyac və tələbatları və s. nəzərdə tutulur.

Aşağıdakı komponentlər metodbirləşmənin fəaliyyətinin təşkilində öz əksini tapır:

• kadr strukturunun xüsusiyyətləri;
• vəzifələrin əsaslanaraq tərtib edilməsi, düşünülmüş iş planı;
• həmin dövrdə məktəbin qarşısında dayanan əsas vəzifə;
• məktəbin keçən dövr ərzində fəaliyyəti və analizi;
• iş planının əməli surətdə öz tətbiqini tapması;
• müəllimlərin metodiki birliyinin özündə ehtiva etdiyi digər qüvvələr;
• müfəssəl qarşılıqlı yardım.

Müəllimlərin peşəkarlıq keyfiyyətlərinin, onların yaradıcılıq potensialının düzgün müəyyənləşdirilməsi metodbirləşmənin fəaliyyətinin savadlı şəkildə planlaşdırılmasına öz qatqısını göstərə bilər. İşlənib hazırlanan plan məktəbin və mühitin tələbatlarını qarşılamalı, qarşıya qoyulan məqsədlər real və əlçatan olmalıdır. Metodbirləşmənin fəaliyyətinin planlaşdırılması bir sıra xarici və daxili amillərlə şərtlənir. Bu, müasir kurikulumlar, onların qarşısında dayanan məqsəd və vəzifələri özündə birləşdirir. Metodbirləşmə fəaliyyəti metodbirləşmə rəhbəri tərəfindən məktəbin fəaliyyət planına müvafiq olaraq planlaşdırılır. Hazırlanmış plan iclasda müzakirə edildikdən və müəyyən qədər analiz edildikdən sonra qəbul olunur.

Əksərən, metodbirləşmənin komponenti, müəllimlər barəsində qısa informasiya, onların iş keyfiyyətinin qısa xarakteristikası, təlim prosesi və əldə olunmuş nəticələrin səviyyəsinin ilkin diaqnostikası, tədris ilində illik və yarımillik yekun nəticələrin ötən illə müqayisəsinin aparılması, müəllimlərin peşəkarlıq səriştəliliyinin inkişafı - nəticəyə yönəlik peşəkar fəaliyyət, təcrübi və elmi-metodiki işlərin hazırlanmasında iştirak, əksərən, ümumi orta təhsil səviyyəsində təhsil alan şagirdlərin hesaba alınması ilə bu və digər metodlardan istifadə, məktəbdə və ya məktəbdənkənar şagirdlərin təlim-tərbiyə məsələləri, pedaqoji mühazirə üçün məruzələrin, sinifdənxaric və məktəbdənkənar tədbirlərin planlaşdırılması, metodbirləşmə iclaslarında müzakirə ediləcək məsələlər, məruzə mövzuları, tematik planlaşdırmalar, dərslər və "açıq dərs"lərdə qarşılıqlı iştirak, onların keçirilməsi və müzakirəsi üzrə metodiki işləmələr qrafiki, kiçik summativ qiymətləndirmə (KSQ) və böyük summativ qiymətləndirmə (BSQ) materiallarının hazırlanması kimi məsələlər üzrə analiz nəzərdə tutulur.

Metodbirləşmənin fəaliyyətinin yuxarıda sadaladığımız istiqamətlər üzrə düzgün təşkili bir çox istiqamətlərdə keyfiyyətin yüksəlməsinə öz töhvəsini verir:

• müəllimlər metodbirləşmələrin işində aktiv iştirak edir, fənn metodbirləşmələri isə təlim-tərbiyə prosesinin effektiv təşkilində məsləhətçi funksiyalarını icra edirlər;

• direktor strategiyanı işləyib hazırladığı zaman menecerlər qurumunun, müavinlərin, metodbirləşmə sədrlərinin və digər məsləhətvericilərin köməyindən faydalanır;

• hər bir metodbirləşmənin işini metodist – onun rəhbəri koordinasiya edir. Tədris işinin korreksiyası və peşəyönümü ilə xüsusi treninq keçmiş müəllimlər məşğul olurlar;

• kollegial təşkil modelində fənlərin tədrisi ilə əlaqədar bütün məsələlər - tədris proqramları, tədris metodları, qiymətləndirmə normalarının seçilməsi və s. üzrə strategiya fənn metodbirləşmələri tərəfindən hazırlanır. Tədris proqramlarının müxtəlif sinif və qrupların bilik səviyyəsinə uyğunlaşdırılması işi ilə məşğul olur;

• eyni bir metodbirləşmə daxilində müəllimlər hər zaman öz aralarında metodik məsləhətləşmələr aparır. Bu məsləhətləşmələrin əsas məqsədini müxtəlif qabiliyyətli şagirdlərdən ibarət qruplarda tədris işinin metodlarının və texnikasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi təşkil edir;

• təhsil işinin inkişaf strategiyası məktəbin ali orqanı sayılan ümumi yığıncaqda qəbul olunur, metodbirləşmələrin sədrləri, direktor və direktor müavinləri bu yığıncaqda iştirak edirlər;

• fənn metodbirləşmələrinin səmərəli fəaliyyət göstərməsi üçün onun üzvləri olan müəllimlərin təlim-tərbiyə prosesində insani keyfiyyətlərə və təlimvermə bacarığına yiyələnmələrinə imkan yaradır.

Son olaraq onu deyə bilərik ki, metodbirləşmələrin fəaliyyətinin düzgün təşkili müəllimlərin fəaliyyətinin effektivliyinin yüksəlməsinə, və bu da, öz növbəsində, şagirdlərin müəyyən istiqamətlər üzrə bacarıqlarının kəşfinə və onların inkişafına səbəb olacaqdır. Bu nöqteyinəzərdən, məktəblərdə metodbirləşmələrin fəaliyyətinə xüsusi yanaşılmalı, onların fəaliyyəti daim məktəb direktoru tərəfindən tənzimlənilməlidir.

## KİÇİKYAŞLI MƏKTƏBLİLƏRLƏ APARILAN SİNİFDƏNKƏNAR TƏHSİL-TƏRBİYƏ İŞİNİN XÜSUSİYYƏTLƏRİ

**Əhmədova Lamiyə Müşfiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*lamiyeehmedova96@gmail.com*

Sinifdənkənar iş – məktəbin apardığı təlim-tərbiyə prosesinin zəruri tərkib hissəsidir. Bu işi dərsdən əvvəl, yaxud dərsdən sonra ya pedaqoji kollektivin üzvləri (məktəbin rəhbər işçiləri, fənn müəllimləri, sinif rəhbərləri və s.) ya da müxtəlif növ şagird özünüidarə təşkilatları, uşaq və gənclər təşkilatının rəhbərləri təşkil edib həyata keçirirlər. Xüsusilə kiçikyaşlı məktəblilərlə aparılan sinifdənkənar iş təlim və təhsilin təşkili formalarından biri olmaqla zəngin məzmun və mündəricəyə malikdir. Sinifdənkənar iş kiçikyaşlı məktəblilərin tədris materialları üzərində və onların müəyyən fakt, hadisələri öyrənərkən əldə etdikləri bilik, bacarıq eləcə də, vərdiş səylərini möhkəmlətməkdə böyük rol oynayır. Belə ki, məktəbdə təşkil olunan müəyyən xarakterik iş priyomlarının, tərbiyələndirici tədbirlərin müstəqil təşkilinə xidmət edən qabaqcıl üsul və tərzlərin tətbiqi sinifdənkənar iş prosesində daha geniş təzahür imkanlarını tapır. Bu yönümdə tərbiyələndirici sinifdənkənar tədbirlərə yanaşma aşağıdakı istiqamətlərlə həyata keçirilməlidir:

- ➢ Kiçikyaşlı məktəblilərlə sinifdənkənar tərbiyəvi tədbirlər üzərində iş apararkən bu prosesdə müəllimin iştirakı bilavasitə təmin olunmalıdır.
- ➢ Sinifdənkənar tədbirlərin gedişi, bir qayda olaraq, şagirdlərin fakt və hadisələri müstəqil fəaliyyət süzgəcindən keçirib, məlum və məchulları təhlil etməsi, nəticələri özlərinin ümumiləşdirməsi, tərbiyənin mənbələri üzərində müstəqil və fərdi qaydada iş aparılması zəminində qurulmalıdır.
- ➢ Sinifdənkənar iş üzərində işləməyin yəqinliyini uşaqların özü müəyyənləşdirməli, bu zaman onların mühakimə və fikir ümumiləşdirmələrinin məntiqi ardıcıllığı və sistemliliyi təhlil olunmalıdır.

Bütün bu proseslərdə məktəblilər daxili əks-əlaqə imkanlarına yiyələnir, kütləvi-mədəni tədbirlərin ayrı-ayrı ünsürlərindən istifadə metodikasının elmi-idraki, intellektual-mənəvi meyarlar əsasında qurulmasına özünü səfərbər etməklə, müasir şəraitdə tərbiyəvi tədbirlər üzərində işləməyin tətbiqi haqqında metodik-nəzəri göstərişlərə əməl edir.

Kiçikyaşlı məktəblilər üçün dərsdənkənar fəaliyyətlər və tədbirlər onların tədrisi ilə sıx birləşdirilməlidir. Məhz bu tələb ümumi tərbiyə prosesində varisliyi müəyyən edir. Heç də təsadüfi deyil ki, bəzi məhşur pedaqoqlar bu tələbi vərəsəlik prinsipi adlandırmaqdadırlar. Dərsdənkənar fəaliyyətlərdə kiçikyaşlı şagirdlərə daha çox müstəqillik və yaradıcılıq vermək mümkün ola bilər. Sinifdənkənar məşğələlərə yalnız bütün şagirdlər deyil, həm də əqli qüsuru olan ayrı-ayrı şagirdlər cəlb oluna bilərlər (unutmamalıyıq ki, bu şagirdlər fəaliyyətlərdə daha fəal olurlar). Məktəb fəaliyyətləri müxtəlif formalarda olur, onları qrup fəaliyyətinə və fərdi fəaliyyətə bölmək olar.

Belə düşünmək səhv olar ki, sinifdənkənar iş ancaq tərbiyə edir. Xeyr, o həm də təlim vasitəsidir. Ona görə də müvafiq təlim materialı ilə, həyati hadisələrlə, tarixi məqamlarla əla-

qəli hazırlanan sinifdənkənar iş mahiyyət etibarilə pedaqoji prosesi zənginləşdirən, şagirdlərə həm əqli, həm də mənəvi zövq verən, onları məktəbin cazibəsində saxlayan, ziyanlı vərdişlərdən uzaqlaşdıran təlim və tərbiyə vasitəsidir. Məktəbdə sinifdənkənar tədbirlərin keçirilməsindən məqsəd də budur.

Müasir bir şəraitdə kiçikyaşlı şagirdlərin sinifdənkənar fəaliyyətinin nəyi, necə təkmilləşdirilməsini müəyyən etmək üçün hər bir şagird üçün əmək hazırlığı, psixoloji, əxlaqi, fiziki, estetik, iqtisadi və ekoloji tərbiyə əsasında çoxşaxəli iş aparılmalıdır. Öncə hər bir müəllim və məktəb rəhbəri şagirdlərin təlim-tərbiyəsi vasitələrinə diqqət yetirməli, onların təcrübələrini həm sinifdə, həm də sinifdən kənarda vahid sistemə birləşdirməyin daha səmərəli yollarını axtarmalıdır.

Bu amillər əsasında azyaşlı şagirdlərin təlim-tədris, sinifdənkənar fəaliyyəti, həmçinin cəmiyyətə faydalı məhsuldar əməyi onların milli mənəvi dünyagörüşünün formalaşmasına tabe olması üçün metodlar işlənib hazır edilməlidir. Məhz bunlar fənn müəllimlərinin və monitorinq rəhbərlərinin gündəlik iş fəaliyyətinin bir hissəsi olmalıdır.

Yuxarıda qeyd edilənlərə əsasən onu deyə bilərik ki, kiçikyaşlı məktəblilərlə aparılan sinifdənkənar işlərlə bağlı çox sayda tədqiqatlar və zəngin məktəb təcrübəsi məlumdur. Lakin iş bununla tamamlanmır. Çünki həyat inkişafdadır və o, pedaqoji prosesi, təlim və tərbiyə işini daim özünə tabe etmişdir və edəcəkdir. Tarixin ən qədim qatlarından günümüzədək olan mərhələləri nəzərdən keçirsək, bunun şahidi olarıq.

## VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARA DÖVLƏT QAYĞISI

**İsgəndərli Şəlalə Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*shalala.isgandarli@mail.ru*

***Açar sözlər:*** *valideyn himayəsi, uşaqların hüquqlarının qorunması, Heydər Əliyev Fondu, valideyn himayəsindən məhrum olmuş uşaqlar*

Azərbaycan Respublikası 21 iyul 1992-ci il tarixli Uşaq Hüquqları haqqında Konvensiyaya qoşulmuşdur. Konvensiya Azərbaycan Respublikasına münasibətdə 1992-ci il avqustun 13-də qüvvəyə minmişdir. Azərbaycan Respublikası Uşaq Hüquqları Konvensiyasına heç bir qeyd-şərtsiz qoşulub. Azərbaycanda uşaq hüquqlarının müdafiəsi sahəsində bir sıra tədbirlər həyata keçirilmiş, xüsusilə uşaqların problemlərini bilavasitə tənzimləyən bəzi qanunvericilik aktları qəbul edilmişdir.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 9-cu maddəsinə uyğun olaraq valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquq və qanuni mənafelərinin müdafiəsi, həmçinin onlara aid edilən şəxslər tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada qanuni nümayəndələr, qəyyumlar, müvafiq icra hakimiyyəti orqanları, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər və həmkarlar ittifaqı təşkilatları tərəfindən həyata keçirilir.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üçün nəzərdə tutulan tədbirləri müəyyən edir.Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onlara istinad edilən şəxslərin sosial müdafiəsi mövcud qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən təmin edilir və mühafizə olunur.

Azərbaycanda uşaqların hüquqlarını qorumaq, onların sosial rifahını yaxşılaşdırmaq üçün, xüsusilə də kimsəsiz – valideyinlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqlara dəstək olmaq məqsədi ilə Heydər Əliyev Fondu yaradılmışdır.

Valideyn himayəsindənməhrum olmuş kimsəsiz uşaqların cəmiyyətə adaptasiyasını asanlaşdırmaq, onların qayğısına qalmaq, ailə istiliyini onlara vermək məqsədi ilə Heydər Əliyev Fondu daimi olaraq xeyriyyə aksiyaları həyata keçirir. Keçirilən aksiyalar zamanı uşaq evlərinə, internat məktəblərinə yardımlar edir və uşaqlara müxtəlif hədiyyələr göndərir, onları sevindirmək, üzlərini güldürmək məqsədi ilə müxtəlif konsertlər, əyləncəli tədbir proqramları təşkil edir. Hər il uşaq evlərində, internat məktəblərində uşaqlar üçün bayram şənlikləri keçirilir. Xususi hədiyyələrlə uşaqlar sevindirilir.

Heydər Əliyev Fondu ümumilikdə Respublikada yaşayan bütün uşaqların (milliyyətindən asılı olmayaraq) hüquqlarının qorunması üçün geniş tədbirlər həyata keçirir.Uşaq hüquqlarının tam həcmdə təmin edilməsi, uşaq problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

## MİLLİ TƏHSİL TARİXİMİZİN ƏSASI OLAN SEMİNARİYALAR VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

**Mustafazadə Ayşən Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayshan.mustafazadeh12@gmail.com*

*“Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır”*
***Məhəmməd Tağı Sidqi***

Hər bir ölkənin, xalqın inkişafı onun təhsilindən əhəmiyyətli dərəcədə asılıdır. O ölkələr, o xalqlar irəli gedir ki, orada elm və təhsil daim inkişafdadır. Bizim gələcəyimiz təhsillə bağlıdır, sivil ölkələrin inkişafında ən aparıcı rol oynayan bilikdir, elmi- tərəqqidir və biz də təhsilimizi bu istiqamətdə qururuq.

Qədim dünya dövlətlər ilə müqayisədə ilk insan məskənlərindən biri kimi Azərbaycanda pedaqoji fikrin, təlim-tərbiyə ənənələrinin yaranması tarixi min illər bundan əvvələ təsadüf edir. Bu faktı təsdiq etmək üçün Qobustan və Gəmiqayadakı qayaüstü rəsmləri xatırlamaq kifayətdir. Abidələrdə əks olunmuş təsvirlər o vaxtlar Azərbaycanda yaşamış insanların məşğulluq sahələrini, fikir və düşüncələrini büruzə verməklə yanaşı, təfəkkür tərzlərini də nümayiş etdirirdi. Cəsarətlə demək olar ki, bu rəsmlər düşüncələrin yazılı formada ifadə edilməsi sahəsində ilk cəhdlər kimi sonralar həmin ərazidə yazı mədəniyyətinin yaranması və formalaşmasında müstəsna rol oynamışdır. Bu gün biz haqlı olaraq dünyada ilk yazılı abidələrdən biri və bütövlüklə Azərbaycana məxsus "Kitabi-Dədə Qorqud"la fəxr edirik.

On əsr bundan əvvəl yazılı abidəsi mövcud olmuş xalqımızın maarifpərvər, elm və təhsilyönümlü xarakteri real faktlarla çoxdan sübuta yetirilmişdir. Hələ eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda salınmış xüsusi memarlıq üslubuna malik şəhərlər, mədəni abidələr və kommunikasiya vasitələri indinin özündə də mühəndis-texniki təfəkkürün nadir nümunələri kimi hamını valeh edir. Bütün bunlar onları yaradan insanların dövrünə görə fundamental təhsil almasından, intellektual səviyyəsindən, əqli kamillik dərəcəsindən xəbər verir.

Tarixi keçmişimizin təhsillə baglı səhifələrini vərəqlədikcə sonrakı dövrlərdə, xüsusilə XIX-XX əsrlərdə bu sahədə irəliləyişlərin xeyli gücləndiyinin şahidi oluruq. O vaxtlar milli maarifçilik hərəkatının öncülləri olan Abasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Həbib bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cəlal Rəfibəyli, Aleksandr Osipoviç Çernyayevski, Nəriman Nərimanov və

digər görkəmli şəxsiyyətlərin azərbaycanlı balaların təhsillənməsi sahəsində gördükləri işlər, çəkdikləri əzablar əsl fədakarlıq və vətənpərvərlik nümunəsi idi. O dövrdə milli maarifçilik ənənələrinin yaşadılması və inkişafı istiqamətində böyük maarifpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin və başqa neft sənayeçilərinin, "Nicat", "Nəşri-maarif", "Səadət" kimi xeyriyyə cəmiyyətlərinin açdıqları məktəblər Azərbaycanda ümumi təhsil sisteminin formalaşmasında tarixi əhəmiyyət kəsb etmişdi.

Təhsil hər bir xalqın inkişafında mühüm rol oynamağı ilə bərabər onun milli- mənəvi dəyərlərinin, ideologiyasının inkişafında da mühüm əhəmiyyətə malikdir. Qeyd etmək istərdim ki, bu gün ölkəmizin təhsil siyasətində Azərbaycançılıq ideologiyası mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin təhsil tarixinə nəzər saldığımız zaman Azərbaycançılıq idealogiyasının təbliğində, onun formalaşdırılaraq gələcək nəsillərə çatdırılmasında milli təhsil tariximizin əsası olan seminariyalar- Qori Müəllimlər Seminariyası və İrəvan Müəllimlər Seminariyasının mühüm rolu olmuşdur. **Azərbaycançılığın elmi cəhətdən inkişaf etdirilməsində Qori Müəllimlər Seminariyasının, eləcə də İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının əvəzsiz xidmətləri olub. Azərbaycançılıq ideologiyasının ədəbiyyatda, mədəniyyətdə, maarifdə, elmdə özünə dərin izlər salmasında seminariya məzunları köklü işlər görmüşlər.**

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin ilk buraxılışı 1882-ci ilə təsadüf edirdi. İlk olaraq şöbənin kursunu bitirmiş 10 nəfər müsəlman azərbaycanlı gənc Azərbaycanın məktəb tarixində pedaqoji təhsil almış azərbaycanlı müəllimlərin ilkin dəstəsi olaraq pedaqoji cəbhədə fəaliyyətə başlamışdılar. 1882-ci ildə şöbənin kurslarını bitirmiş şəxslər sırasında Həşim bəy Nərimanbəyov, Rəşid bəy Əfəndiyev, Məmməd bəy Əfəndiyev və başqaları var idi. Bu şöbənin məzunları sayca az olmasına baxmayaraq, Zaqafqaziyanın Azərbaycan kəndlərində dünyəvi məktəblərin açılmasında və fəaliyyət göstərməsində mühüm rol oynamışdılar. Bundan əlavə, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təşkili ana dilində ilk dərsliyin meydana gəlməsinə şərait yaratmışdı. 1882-ci ildə ilk dəfə nəşr edilən A.O.Çernyayevskinin "Vətən dili" (I hissə) və S.Vəlibəyovla birlikdə hazırlanaraq 1888-ci ildə dərc olunan həmin dərsliyin II hissəsinin işıq üzü görməsi feodalizm dövründən qalmış doqmatik və sxolastika ilə bağlı olan və uzun müddət davam edən höccələmə (əbcəd-çərəkə) üsuluna ilk və böyük zərbə idi. Həmin Seminariyanın məzunu sonralar ədəbiyyatşünas alim, pedaqoq və maarifçi F.Köçərlinin sözləri ilə desək, bütöv islam aləmində, türk-tatardilli xalqlar içərisində sövti üsullu dərs demək və dərslik tərtib etmək təşəbbüsü ilk dəfə Azərbaycanda ortaya çıxmış və Azərbaycan məktəblərində tətbiq olunub. Bu, Azərbaycan məktəb tarixində mühüm pedaqoji hadisə idi. Sonrakı illərdə dəfələrlə çap edilən "Vətən dili" uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə olunmuş və inqilabdan əvvəlki Azərbaycan ziyalılarının bütöv bir nəsli "Vətən dili" kitabından faydalanıb. Ən başlıcası isə, bu dərslik Azərbaycan dilinin gələcək inkişafına, ana dilində yeni-yeni dərsliklərin tərtib edilməsinə güclü təkan verdi. R.Əfəndiyevin "Uşaq bağçası" və "Bəsirət-ül-ətfal", N.Nərimanovun "Türk Azərbaycan dilinin müxtəsər sərf-nəhvi", Ü.Hacıbəyovun "Hesab məsələləri" və "Lüğət"i, M.Mahmudbəyovun "Türk əlifbası və ilk qiraət"i, başqa müəllimlərlə birlikdə "İkinci il", "Üçüncü il", "İmlamız"dan başlamış, Ə.Y.Seyidovla H.K.Sanılının "Əlifba"sı da daxil olmaqla, ana dilində yazılan dərslik və dərs vəsaitləri "Vətən dili"nin layiqli davamçıları olmuşlar.

İrəvan Müəllimlər Seminariyasının təntənəli açılışı 1881-ci il noyabrın 8-də həyata keçirilmişdi. İrəvan Müəllimlər Seminariyasında digər elmi-fənlərlə yanaşı, Azərbaycan dili fənni və şəriət dərslərinin tədris edilməsi üçün seminariyanın ştat cədvəlində müvafiq ştat vahidi nəzərdə tutulmuşdu. İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dilinin və şəriətin tədris edilməsi heç də təsadüfi deyildi. Çünki bu seminariya xalqımızın tarixən qədim torpaqlarından sayılan İrəvan mahalında yaradılmışdı. Həmin mahalda yaşayan əhalinin əksəriy-

yətini Azərbaycan türkləri, müsəlmanlar təşkil edirdi. Seminariyada Azərbaycan dilinin və şəriətin tədris edilməsi dövrün tələbi idi. Təhsil almaq üçün seminariyaya gəlmiş azərbaycanlı müsəlman gənclər ilk pedaqoji təhsilini aldıqdan sonra həyat fəaliyyətini azərbaycanlıların yaşadığı kəndlərdə ibtidai məktəblərin yaradılması işinə və yaxud mövcud olan ibtidai kənd məktəblərində müəllimlik peşəsinə həsr edərək xalq kütlələri arasında elm və maarifin yayılması və savadsızlığın aradan qaldırılması işində yaxından iştirak etmişlər.

Milli təhsil tariximizdə Qori və İrəvan müəllimlər seminariyalarının olduqca əhəmiyyətli rolu danılmazdır. Qeyd edək ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində ibtidai məktəblər üçün azərbaycanlı müəllimlər əsasən Qori və İrəvan seminariyalarında hazırlanırdı. Azərbaycanda xalq maarifi, məktəb, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox nümayəndələri ilk pedaqoji təhsilini Qori və İrəvan müəllimlər seminariyalarında almışlar.

Qori və İrəvan seminariyalarının məzunlarının tarixi xidmətləri bu gün xalqımız tərəfindən daim xatırlanır. Həmin təhsil ocaqlarının milli təhsil tariximizdəki yeri və rolu bu gün də öyrənilir, tədqiq edilir, gənc nəslin, tələbələrin elmi-pedaqoji biliyinin artırılmasında istifadə edilir.Azərbaycanın maarif tarixində əhəmiyyətli rola malik olan seminariyalar böyük bir nəsil yetişdirdi. O nəsil xalqımızın həyatında, tarixində mühüm rol oynayıb. Onların yaratdığı məktəb əbədi olaraq yaşayacaq. Çünki onun mayasında vətənçilik, xalqçılıq, azərbaycançılıq qayəsi, ideyası var.

## MÜASİR DÖVRDƏ TƏHSİLİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Abdullayeva Günel Mətləb qızı**
*gunel.abdullayeva@steam.edu.az*

**Xülasə**

Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır.

**Təhsilin sosial-iqtisadi rolu.** Yüksək təhsil səviyyəsinə malik peşəkar kadrlar ölkənin intellektual potensialının əsasıdır. Müasir dövrdə ölkələrin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilmişdir. Bütün bunlar təhsilin dövlət xərclərində prioritetliyini getdikcə artırmaqdadır. Dövlətin təhsil xərcləri cəmiyyət üçün yüksək iqtisadi gəlirliyə malikdir.

Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir. İnsanın ömür boyu təhsil almaq tələbatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolunu yüksəldən amillərdən ən mühümüdür.

**Təhsilin keyfiyyəti və əhatəliliyi.** Orta gəlirli ölkələr arasında rəqabətin güclənməsi, sürətli texnoloji irəliləyiş nəticəsində ixtisas profillərinin tez-tez dəyişməsi təhsilin keyfiyyətinə tələbi daha da artırmışdır. Digər tərəfdən, yalnız təhsilə cəlb etmə səviyyəsinin artırılması və təhsil infrastrukturunun genişləndirilməsi insanların bilik və bacarıqlarının yüksəlməsinə tam təminat vermir. Təhsil infrastrukturu zəruri amil olsa da, bilik və bacarıqlar təhsil müəssisələrinin sayı və təhsilin müddəti ilə deyil, öyrənmə prosesinin keyfiyyəti ilə əldə olunur. Son dövrlərdə bir sıra ölkələr tərəfindən təhsilin inkişafı məqsədi ilə təhsil infrastrukturuna, həmin infrastrukturun yeni avadanlıqlarla təchizatına xeyli vəsait xərclənsə də, həmin ölkələrdə təhsilin nəticələrində müsbət irəliləyiş əldə edilməmişdir. Ümumi təhsil pilləsini bitirməsinə baxmayaraq, hesab, oxu və yazı vərdişlərinə malik olmayan çoxlu sayda insanlar vardır. Həmin səbəblərdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir.

Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur.

Bir çox qabaqcıl ölkələrdə təhsil müddətinin tədricən artırılması istiqamətində addımlar atılır. Kanada, Fransa, Hollandiya və Çexiyada ümumi təhsilin müddəti 14 il, Almaniya, Böyük Britaniya, İsveç, Avstraliya və Yeni Zelandiyada 13 il, ABŞ, Finlandiya, Cənubi Koreya, Polşa və bir sıra digər ölkələrdə isə 12 il təşkil edir. Ümumi təhsil müddəti az sayda ölkədə on bir il təşkil edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, hər hansı ölkədə istənilən təhsil pilləsi üzrə təhsil müddətinin bir il artırılması ölkədə Ümumi Daxili Məhsulun 3-6 faiz artımına gətirib çıxarır.

**Təhsilin məzmunu.** Beynəlxalq təcrübədə təhsilin məzmunu ilə bağlı başlıca meyllərdən biri təhsil kurikulumlarının ölkənin sosial-iqtisadi inkişaf tələbləri və prioritetləri ilə sıx əlaqələndirilməsindən ibarətdir. Kurikulumlar iqtisadi inkişaf məqsədlərinə xidmət edən bilik və bacarıqları, səriştəni aşılayan məzmuna malik olmalıdır. İqtisadi uğurlar əldə etmiş ölkələrdə biliklərə əsaslanan iqtisadiyyatın yaradılması sosial-iqtisadi siyasətin prioriteti olduğundan, kurikulumlarda innovasiyaların əhəmiyyəti, təhsilalanların müxtəlif sosial fəaliyyətə təşviq olunması və onların tədris bacarıqlarının inkişafı xüsusi vurğulanır.

Son 30–40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir.

**Orta təhsil və ali təhsildə yeniliklər**

Son illər Azərbaycanda təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi istiqamətində çox böyük, diqqət çəkən işlər görülüb. 3500-dən çox məktəb tikilib. Yaxud əsaslı təmir edilib. Ali məktəblər üçün yeni binalar, tədris kampusları inşa olunub. Beynəlxalq təcrübəyə əsaslanan yeni ali məktəblər yaradılıb. Hazırda ən reytinqli xarici ali təhsil müəssisələrinin Azərbaycanda filialları açılıb. Ölkəmizdə 3 xarici ali məktəbin filialı fəaliyyət göstərir və onların sayının artırılması perspektivləri mövcuddur.

Ölkə təhsilinin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri çox böyükdür. Heydər Əliyev Fondunun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi var: bu, təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. Həmin məsələlər, əslində, xalqımızın xoş gələcəyini yaratmağın əsas istiqamətləridir. Bu gün hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur. Xanım Mehriban Əliyevanın rəhbərliyi ilə uzun illərdir ki, Heydər Əliyev Fondu Ulu Öndərin təməlini qoyduğu və Azərbaycan Prezidentinin əzmlə davam etdirdiyi təhsil islahatlarına miqyası görünməyən, nadir dəyərli töhfələr verir. İlk növbədə təhsilin maddi-texniki bazasının inkişaf etdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, dünya təhsili ilə əlaqələrinin yaradılması prosesinə daima diqqət yetirir.

Məktəblərin yeniləşməsi və zənginləşməsi prosesi bu gün də davamlı olaraq inkişaf edir. Ucqar dağ kəndlərində son dərəcə vacib olan modul tipli məktəblər tikilir. Burada məqsəd keyfiyyətli təhsilin, müasir təhsil infrastrukturunun hər bir Azərbaycan vətəndaşı üçün əlçatan olmasıdır. Yaxınlığından, uzaqlığından, coğrafi şəraitindən asılı olmayaraq, hər bir insan üçün yüksək təhsil imkanının yaradılmasıdır. Xanım Mehriban Əliyevanın təşəbbüsləri təhsildə ictimai düşüncəmizə, dünya ilə informasiya mübadilələri aparmağa, sosial-tərbiyə təsisatlarımızı qurmağa və bu proseslərin uğurlu həllinə böyük töhvələr verir.

Təhsilin inkişafı üzrə dövlət strategiyasının icrası ilə əlaqədar olaraq, son illər ölkədə ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, ali təhsil kurikulumlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması, ali təhsil qurumlarında doktorantura təhsili və tədqiqat potensialının gücləndirilməsi, ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəs-

sisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi, onların əlavə təhsil imkanlarının genişləndirilməsi, beynəlmiləlləşmələrinin artırılması və bütövlükdə ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətlərində əhəmiyyətli nəticələr əldə edilmişdir. Bu uğurlu nəticələrin əldə edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bütövlükdə təhsilə göstərdiyi diqqət və qayğını xususilə vurğulamaq lazımdır.

Tədqiqatlar göstərir ki, hələ pandemiyadan öncə ortaya çıxan dörd əsas tendensiya dünyada ali təhsilin gələcəyini təyin edəcəkdir. Birinci tendensiya "yeni iqtisadiyyat"da rəqəmsallaşmanın, avtomatlaşdırmanın, süni intellekt və robot tətbiqlərinin əmək bazarının tələbini sürətlə dəyişdirməsi və bir çox sahədə universitet diplomunun ənənəvi üstünlüyünü təhdid etməsidir. Artıq diplom tələb edən bəzi peşələrin daha sürətlə avtomatlaşdırmaya məruz qalacağı, digər tərəfdən də xüsusilə informasiya texnologiyaları kimi sürətlə inkişaf edən sahələrdə mövcud universitet proqramlarının dəyişikliklərlə ayaqlaşa bilmədiyi görünür. Universitetlər bu dəyişikliyə cavab vermək üçün ənənəvi "paketlənmiş (packaged)" proqramlarını yenidən nəzərdən keçirməyə başlamışdır. Artıq universitetlər tələbənin peşəyə yiyələnmə ehtiyacına istiqamətlənmiş, əhatəsi və tamamlama müddəti dəyişə bilən, kredit toplama metodu ilə diplomun əldə edilə bildiyi, çevik, yetərliliyə əsaslanan (competencey-based) və adaptiv (customized) təhsil proqramlarına yönəlirlər. Bu yanaşma işləyənlərin yetərliliklərini inkişaf etdirmə tələblərinə və geniş kütlələrin ömür boyu təhsil ehtiyaclarına da cavab verməyi hədəfləyir.

İkinci əsas tendensiya "online" təhsil tətbiqlərinin sürətlə yayılmasıdır. Bütövlükdə və ya qismən "online" formada təqdim edilən təhsil proqramları tələbələrə daha aşağı xərclərlə və çevik təhsil imkanı yaradır. Bir çox ölkədə ənənəvi olaraq "ikinci sinif" kimi qəbul edilən "online" diplom proqramları getdikcə daha çox qəbul edilməyə başlanmışdır. ABŞ-da ən tanınmış universitetlər də "online" təhsil proqramı formalaşdırma və təqdim etmə məqsədilə bu sahədə ixtisaslaşmış "online" proqram meneceri (onlineprogrammanager) şirkətlərilə əməkdaşlıq edir. Hələ də ABŞ-da əhəmiyyətli sayda universitetin tədris vasitəsi kimi istifadə etdiyi "virtual reallıq (virtual reality)" tətbiqləri sürətlə inkişaf edir və yayılır. Azərbaycanda bu sahənin inkişafı üçün, ilk növbədə, distant təhsilin qanunvericilik bazasının formalaşdırılmasına ehtiyac vardır.

Üçüncü tendensiya ali təhsildə beynəlxalq rəqabət və əməkdaşlığın artmasıdır. Araşdırma-innovasiya məqsədli əməkdaşlığı və tələbə mobilliyini dəstəkləyən proqramlar davamlı genişlənir. Bu baxımdan Azərbaycanda qarşıdakı illərdə xaricdə təhsil üzrə dövlət proqramının, ikili diplom proqramlarının uğurla icra edilməsi ilə yanaşı, əcnəbi tələbə və müəllimlərin ali təhsil sektoruna cəlb edilməsi istiqamətində həyata keçirilən tədbirlərin də genişləndirilməsi zəruriliyi ortaya çıxır.

Dördüncü tendensiya isə elmi və elm qurumlarını yenidən nəzərdən keçirən sosial-siyasi proseslərin genişlənməsidir. Son dövrdə qlobal olaraq kommunikasiyanın kommersiyalaşdığı, sosial media və oxşar rəqəmsal təbliğat vasitələrinin geniş yayılmağa başlandığı, siyasi qütbləşmənin artdığı qlobal şəraitdə cəmiyyətin müəyyən təbəqələri qurumlara inam məsələsində yeni istinad mənbələri axtarışına yönəlmiş, elmi və elm qurumlarını yenidən nəzərdən keçirməyə başlamışdır. Elm və media qurumlarının cəmiyyət nəzdində əldə etdikləri inamın mənbəyindəki doğruluq, şəffaflıq, muxtariyyət, hesabatlılıq prinsiplərini dəyərsizləşdirən və alternativ istinad mənbələri formalaşdıran bu tendensiya universitetlərin cəmiyyətdə daşıdığı missiyanı da kökündən təhdid edir.

Mövcud pandemiya göstərdi ki, universitetlər və ali təhsil sektoru mülki aviasiya, turizm kimi bu günə qədər pandemiyanın ən çox təsirinə məruz qalan sektorlar sırasındadır. 2020-ci ilin fevral ayından başlayaraq, dünyanın bir çox ölkəsində universitetlər üzbəüz təhsili dayandıraraq "online" təhsilə keçdilər. Bir çox ölkədə rəqəmsal ünsiyyət imkanlarına

çıxışda bərabərsizlik yarandı. Kommunikasiya infrastrukturunun və "online" dərslərin məzmun yetərsizliyi, tələbə və müəllimlərin "online" təhsil təcrübəsinin olmaması və belə bir şəraitdə imtahanlar keçirmənin çətinlikləri ortaya çıxdı.

Tədqiqatlar göstərir ki, post-COVID dövründə tamamilə üzbəüz təhsilin davam etməsi çoxlu suallar doğurur. Bu baxımdan inkişaf etdirilmiş hibrid və ya tamamilə "online" proqramların daha da geniş yayılacağı gözlənilir.

Azərbaycan universitetlərinin son illər ingilis dilində təhsil proqramlarını genişləndirmələri, ERASMUS, TEMPUS, MEVLANA kimi beynəlxalq mübadilə proqramlarında aktiv iştirak etməyə başlamaları, eləcə də çoxtərəfli və ikitərəfli çərçivələrdə beynəlxalq əlaqələrini genişləndirmələri onların beynəlmiləlləşməsi prosesini də gücləndirmişdir.

## AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TƏŞKİLİ TARİXİNDƏN

**Əsədli Günel Ruslan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunelesedli01@gmail.com*

Bir insanın formalaşması üçün sözsüz ki, ailənin, mühitin və həmin insanın öz üzərində çalışması, çoxlu kitablar oxuması çox önəmlidir. Kitablar adətən kitabxanalardan əldə olunur. Bəs kitabxanalar hansı sistemlə işləyir? Bəzən elə kitabxanalar olur ki, kitab oxumayan biri də, kitabxanaya təsadüfi halda gəldikdə həmin mühitdəki auranı görüb kitaba həvəsi yaranır. Belə kitabxanaların çoxaldılması üçün bu sistemi araşdırıb, dəqiq öyrənib, boşluqları aradan qaldırmaq lazımdır. Boşluqları minimuma endirmək, kitabxanalara oxucuları cəlb etmək üçün təkliflər qutusunun olması vacibdir. Burada oxucuların görmək istədiyi yenilikləri aydınlaşdırıb, tətbiq etmək mümkündür.

Kitabxana — növündən asılı olmayaraq kitab şəklində çap edilmiş bütün informasiya daşıyıcılarının toplandığı və istifadə edildiyi yerdir. Bu kitabxanaya verilmiş ümumi tərifdir.

Kitabxanalar kütləvi, xüsusi və şəxsi olmaqla üç növə ayırmaq olar.

1. Kütləvi kitabxanalar - hər kəsin istifadə edə bildiyi yer;2. Xüsusi kitabxanalar - elmi, tədris və ya müəyyən ixtisaslı mütəxəssislər üçün nəzərdə tutulmuş.3. Şəxsi kitabxanalar – şəxsiyyətin öz tərzinə uyğun kitabları bir rəfdə, bir otaqda, yaxud özünəməxsus hər hansı bir yerdə toplamasıdır.

İlk kitabxanalar ta qədimdən eramızdan əvvəl yaradılıb. Ən qədim kitabxanalardan birinin Assur hökmdarı tərəfindən qurulduğu məlumdur. Hökmdar kitabxanasındakı kitablar üzəri şiş uclu alətlə yazılmış gil lövhələr olub. Dövrünün ən böyük, eradan öncə Misirdə yaradılmış İsgəndəriyyə kitabxanasının yanması bir çox tarixi kitabların izini itirib.

Dünya mədəniyyətinin beşiyi olan şərqdə kitabxanaçılıq düşüncələri yarandığı kimi,gil lövhələrdən ibarət kitabları saxlayan ilk kitabxanalarda burada yaranmışdır.Cənub-şərqi Qafqazda yerləşən ölkəmizin qədim tarixi,əsrlərlə formalaşan mədəniyyəti vardır. Bu mədəniyyətin ayrılmaz hissəsi olan Azərbaycan kitabxanalarının da tarixi çox qədimdir. Kitabxana ərəb və fars sözlərinin birləşməsindən yaranmış, hərfi mənası kitab evi, kitab saxlanan yer deməkdir. Kitabxana çap məhsulatından və başqa informasiya vasitələrindən ictimai istifadəni təşkil edən,yeni insan tərbiyəsinə,onun mədəni və peşə inkişafına kömək edən ideoloji və elmi informasiya müəssisəsidir. Kitabxanalar yazılı abidələrin saxlayıcısı kimi dünya tarixinin çox qədim zamanlarında meydana gəlmişdir.

Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan xalqının çox qədim kitab və kitabxana tarixi vardır. Hələ V əsrin əvvəllərində Albaniyada artıq 52 hərfdən ibarət alban əlifbası olmuşdur. Yazının yaranması kitabçılıq işini də xeyli genişləndirmişdi. Qədim Atropatenada və Albaniyada yazının meydana gəlməsi, orjinal əsərlərin yazılmasına təşəbbüs göstərilməsi, məktəblər açılması,dini kitabların çoxalması, heç şübhəsiz ki, ilk kitab topluların (kitabsaxlayıcılarının)-kitabxanaların yaranmasına gətirib çıxarmışdı.

Orta əsrlərdə Azərbaycanda kitabxana işi əsasən 3 istiqamətdə inkişaf edirdi.

1. Hökmdarlar tərəfindən təşkil edilən saray kitabxanaları
2. Məscidlərin kitabxanaları və məscidlərin yanında təşkil edilmiş məktəb və mədrəsə kitabxanaları
3. Böyük şairlərin,filosofların,alimlərin,feodalların və vəzirlərin şəxsi kitabxanaları

XVII əsrdə şəxsi kitabxanalar şəbəkəsinin inkişaf etməsinə səbəb ölkədə təhsilin inkişaf edərək kütləviləşməsi, kitab hazırlayıb yayan müəssisələrin sayının artması, kitab nüsxələrinin çoxalması idi. XVIII əsrin tanınmış ziyalılarından olan Abasqulu Ağa Bakıxanov və Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin böyük şəxsi kitabxanası olmuşdur. 1894-cü ildə görkəmli yazıçı Nəriman Nərimanov tərəfindən ilk ictimai kitabxana-qiraətxana yaradılmışdır. 19-cu əsrdə Azərbaycanda ümumi fondu 18000 nüsxə olan 25 kütləvi kitabxana fəaliyyət göstərirdi. Xalq Cümhuriyyəti dövründə Azərbaycanda kitabxana kollektoru və iki kitabxana 1918-ildə Mirzə Ələkbər Sabir adına kütləvi kitabxana 1919-cu ildə isə Bakı Dövlət Universitetinin elmi kitabxanası təşkil edilmişdir.

Azərbaycan Respublikasının Kitabxana işi haqqında 6 fəsil və 34 maddədən ibarət əsasnamə vardır. Hər qanunvericilikdə olduğu kimi Kitabxana işi haqqında qanun da Ümumi müddəalarla başlayır. Bu müddəanın 1-ci maddəsi yəni əsas anlayışlarda kitabxana, kitabxana işi, sənəd və s haqqında məlumatlar var.

Maddə 2. Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi

Kitabxana işi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. 2-ci fəsil Kitabxana sistemindən bəhs edir. Bu fəsil 7 maddədən təşkil olunur. Kitabxana işinin təşkili, Milli Kitabxana, Kitabxanaların yaradılması və yenidən təşkili və s maddələr vardır. Kitabxana fondu barəsində olan məlumatlar 3-cü fəsildədir. Kitabxana fondları universal, çoxsahəli, ixtisaslaşdırılmış ola bilər. Azərbaycan Respublikası Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir. Kitabxana fondu fəsli isə 8 maddədən ibarətdir. 4-cü fəsil Kitabxana xidmətinin təşkilidir.Burada kitabxanaların hüquqları, vəzifələri və s qeyd olunub. Fəsil 5 isə Kitabxana işinin idarə olunmasıdır. Bu fəsil isə kitabxanalarda tədbirlərin hazırlanması, kadrların təmin olunması, kitabxananın maliyyələşdirilməsi, inkişafı ilə bağlıdır. Sonuncu fəsil yekun müddəalardır və orada isə beynəlxalq əməkdaşlıqdan bəhs edilir.

Azərbaycanda 9000-ə yaxın kitabxana var. Bunlara misal olaraq Azərbaycan Milli Kitabxanası, Prezident Kitabxanası, Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası, AMEA Mərkəzi Elmi Kitabxana və s minlərcə kitabxanaların adını qeyd etmək olar.

Azərbaycan Milli Kitabxanası – yazıçı-dramaturq Mirzə Fətəli Axundovun adınadır. Baxmayaraq ki, Milli kitabxana 1920-ci ildə yaranıb, lakin Mirzə Fətəli Axundov adı 1939-cu ildə verilmişdir. El arasında Axundov kimi adlandırılan bu kitabxana Azərbaycan Respublikası Xalq Maarif Komissarlığı tərəfindən 1920-ci il 13 noyabrda yaradılsada,ancaq rəsmi açılışı 23 may 1923-ci ildə olmuşdur. 2004-ci ildə Nazirlər Kabinetinin qərarı ilə kitabxanaya "Milli Kitabxana" statusu verilmişdir. Ölkəmizin ən böyük kitabxanası olan Axundov kitabxanası Qafqazda və Avropada ən böyük milli kitabxanalardan biridir.Bu kitabxananın fondlarında olan nəşrlərin sayı 5 milyon nüsxədən artıqdır.Nüsxələr arasında bir çox adda, rus və digər SSRİ xalqları dilində olan jurnallara,qəzetlərə rast gəlmək olur.Oxu zalı Axundov kitabxanasında 1927-ci ildə açılmışdır.Azərbaycan Elmlər Akademiyasının binasında Kitabxana bir neçə otaqda yerləşirdi. Bu da onun iş fəaliyyətini genişləndirməyə imkan vermirdi. Buna baxmayaraq artıq 1928-ci ildə kitabxana 6 şöbədən: Şərq, Rus, Qərbi Avropa, Xüsusi şöbə, Xidmət və Biblioqrafiya bürosundan ibarət idi.

İxtisaslaşdırılmış Xarici ədəbiyyat şöbəsi 2005-ci ildən beynəlxalq kitab mübadiləsini bərpa edərək, dünyanın 60-a yaxın kitabxanası ilə əlaqə yarada bilmişdir.

2006-cı ildə informasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi ilə əlaqədar olaraq Milli Kitabxanada aşağıdakı yeni şöbələr açılmışdır:

- "Kitabxana işinin avtomatlaşdırılması və informasiya texnologiyaları";
- "Elektroninformasiyaxidməti";
- "Elektronresurslarınınyaradılması";
- "Kitabxanaişçilərinintəlimvətədrismərkəzi

Son olaraq Milli Kitabxananın İnformasiya Resurslarından qeyd etmək olar ki, oxucuların rahatlıqla kitabları əldə etməsi üçün virtual sorğu mövcuddur. XXI əsrdə ən çox istifadə olunan smartfonlarla, kompüterlərlə, planşetlərlə virtual olaraq Axundov kitabxanasında ehtiyacları olan kitabların olub-olmadığını öyrənə bilərlər. Bu da hər bir kəsin ehtiyyacı olan zamanın düzgün idarə olunmasında əlverişlidir.

## СОДЕРЖАНИЕ ОБРАЗОВАНИЯ В СРЕДНИХ ШКОЛАХ КИТАЙСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

**Дэн Чжаочжэнь,**
**АГПУ, магистр 2 курс**
*E-mail:1538004171@qq.com*
**Научный руководитель:Зоя Велибекова**

***Ключевые слова:****задачи, средняя школа, воспитание, Китай*
***Key words:*** *tasks, secondary school, education, China*
***Açar sözlər:*** *vəzifələr, orta məktəb, təhsil, Çin*

**Резюме**

В Китае образовательные цели и задачи, как правило, включают: (1) Дать возможность учащимся систематически овладевать базовыми знаниями науки и базовыми навыками культуры; (2) Воспитывать мировоззрение и такие понятия, как нравственность, эстетика, труд и соответствующее поведение; (3) Дать возможность учащимся развивать тело и разум. На этапе средней школы учащиеся проводят большую часть своего времени в школе, и курсы по культуре, которые они изучают, оказывают очень важное влияние на их мировоззрение, поэтому в этой статье перечислены основные культурные предметы на этапе китайской средней школы, чтобы проиллюстрировать, как китайская средняя школа поэтапно, постепенно достигает учебных целей и задач.

**Summary**

In China, educational goals and objectives generally include: (1) Enable students to systematically master the basic knowledge and basic skills of culture and science; (2) To educate the worldview and such concepts as morality, aesthetics, work and appropriate behavior; (3) Enable students to develop body and mind. In the middle school stage, students spend most of their time in school, and the culture courses they study have a very important influence on their outlook, so this article lists the main cultural subjects in the Chinese middle school stage to illustrate how the Chinese middle school stage achieves learning goals and objectives.

**Xülasə**

Çində təhsil məqsəd və vəzifələrinə ümumiyyətlə aşağıdakılar daxildir: (1) Şagirdlərə mədəniyyət və elmlə bağlı əsas bilik və əsas bacarıqları sistematik şəkildə mənimsəməyə imkan vermək; (2) dünyagörüşünü və əxlaq, estetika, əmək və uyğun davranış kimi anlayışları tərbiyə etmək; (3) Tələbələrə bədən və zehni inkişaf etdirmək imkanı verin. Orta məktəb

mərhələsində tələbələr vaxtlarının çoxunu məktəbdə keçirirlər və oxuduqları mədəniyyət kursları onların dünyagörüşünə çox mühüm təsir göstərir, buna görə də bu məqalə Çin orta məktəbi mərhələsində Çin orta məktəbi mərhələsindəki əsas mədəniyyət mövzularını sadalayır. Məktəb mərhələsi təlim məqsəd və vəzifələrinə nail olur.

Поступая в среднюю школу, учебная программа, которую учащиеся изучают, сильно отличается от программы начальной школы. Учащиеся ознакомится с рядом новых учебных предметов. Новые курсы в средней школе включают историю, географию, физику, химию, биологию и другие предметы, а некоторые предметы будут меняться в каждом последующем классе. Такие предметы, как китайский язык, математика, английский язык, этика и верховенство закона, будут проходить в течение трех лет средней школы. География, биология и история преподаются в седьмом классе, физика — в восьмом, химия — в девятом. Причина, по которой учебная программа младших класссов средней школы устроена таким образом, заключается главным образом в том, чтобы учитываеться возрастная восприимчивость учащихся.Учащиеся младших классов средней школы, которые только что поступили в неполную среднюю школу, все еще подвержены влиянию мыслей и привычек обучения в начальной школе. Поэтому нецелесообразно включать физику и химию в предметы средней школы и требует знания математики в средней школе в качестве предвестника.

В начальной школе шесть уроков в день, и у учеников не так много времени, чтобы использовать свои умственные возможности в шести классах.При поступлении в среднюю школу количество уроков в день увеличится до семи, и ученики будут подвергаться воздействию к гораздо более сложным знаниям в средней школе, чем в начальной школе, таким как классический китайский язык, алгебра, геометрия, математике, систематическое изучение английского языка и т. д., все они требуют от учащихся концентрации на обучении и мышлении в классе, а не слушать и играть, как в начальной школе. В младших классах средней школы некоторые учителя знаний объясняют это только один раз и не повторяют несколько раз, как в начальной школе. Перед экзаменом не будет индивидуальной проверки. Таким образом, по сравнению с начальной школой в программе обучения, содержании обучения и методах обучения в средней школе произошел качественный скачок.

Однако: учащимся не рекомендуется посещать дополнительные занятия, поскольку это повлияет на эффективность обучения детей в школе.

В школьном курсе девять предметов. Язык, математика, иностранные языки (английский, японский, французский, немеӧкий, русский, испанский); языки меньшинств (используются только в областях меньшинств); идеология, политика, история, география; физика, химия, биология. В программе качественного образования пять предметов, а именно: физическая культура, искусство, музыка, информаӧионные технологии, общие технологии.

Полная средняя школа является учебным заведением более высокого уровня после девятилетнего обязательного образования в Китае и принимает квалифицированных выпускников средней школы. Полное среднее школьное образование в Китае относится к образованию на этапе средней школы после неполной средней школы, включая: обычные средние школы, профессиональные средние школы, средние профессиональные школы, промежуточные технические школы и т. д., которые относятся к категории среднего образования. Среднее школьное образование в Китае не является обязательным, и учащиеся должны платить за обучение. С 2009 годы в штат ввели политику бесплатного обучения в средних школах для некоторых бедных районах.

В 2003 г. была постепенно запущена самая широкая, глубокая и крупная реформа учебной программы средней школы в средних школах с момента основания Китайской

Народной Республики. Новая учебная программа больше не делится на семестры, а делится на модули, такие как математика, которые базировался на функциях, алгебре и геометрии. Объемная геометрия, Вероятность и статистика, Пределы и производные. В новом курсе математики "Математика" Обязательный 1 - в основном функöии, Обязательный 2 - геометрия, Обязательный 3 - в основном о практических математические знания, обязательный 4 - тригонометрические функции и плоский вектор, обязательный 5 - решение треугольников, рядов и неравенств. На данный момент учащиеся могут завершить содержание обязательных курсов математики в старших классах, а новые курсы имеют форму обязательных курсов плюс курсы по выбору, курсы деятельности плюс предметные курсы, курсы профессионального образования плюс академические курсы для тестирования и продвижения в различных местах. Только из-за влияния традиционных образовательных конöепöий и слепой погони за процентом вступительных экзаменов в колледж во всех сферах жизни во многих областях в старшей школе все еще делается акцент на обучении знаниям или единственный упор на точность знаний, игнорируя всестороннее образование школьников и здоровое воспитание личности. В настоящее время проходит реформа базового образования Китая. Но ещё предстоит пройти долгий путь для совершенствования системы образования.

**Литература**


1. Сравнительная модель среднего образования в Китае. Синьхуа. 2016
2. Теория развития образования: теоретический обзор и анализ конкретных случаев. Сюй Циньюй. 2018
3. Говоря о задаче среднего школьного образования в нашей стране. Цзэн Гофань. 2020


## ЦЕЛЬ ОБРАЗОВАНИЯ В СРЕДНИХ ШКОЛАХ КИТАЙСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ


**Дэн Чжаочжэнь,**
**АГПУ, магистр 2 курс**
*E-mail:1538004171@qq.com*
**Научный руководитель:Зоя Велибекова**



***Ключевые слова:*** *öель, средняя школа, воспитание, Китай*
***Key words:*** *purpose, secondary school, education, China*
***Açar sözlər:****məqsəd , orta məktəb, təhsil, Çin*



**Резюме**

Учебные задачи относятся к различным уровням требований, выдвигаемых в обучении для достижения образовательных целей. Помимо общих задач обучения, школы всех ступеней, различных дисциплин и даже каждого подразделения и каждого класса обучения имеют свои специфические задачи. Учебные задачи — это ориентиры для учителей и учащихся во всех видах преподавательской деятельности, основа для выбора содержания обучения и методов обучения, а также стандарт для измерения успеха или неудачи обучения. Поэтому очень важно обсудить цели и задачи обучения. В этой статье кратко обсуждаются цели и задачи обучения китайскому среднему образованию.



**Summary**

Learning objectives refer to the various levels of requirements put forward in learning to achieve educational goals. In addition to the general general tasks of education, schools of all levels, different disciplines, and even each division and each class of education have their own specific tasks. Learning objectives are guidelines for teachers and students in all teaching

activities, a basis for choosing learning content and teaching methods, and a standard for measuring the success or failure of learning. Therefore, it is very important to discuss the aims and objectives of teaching. This article briefly discusses the aims and objectives of teaching Chinese secondary education.


**Xülasə**

Təlim məqsədləri təhsil məqsədlərinə nail olmaq üçün öyrənmə zamanı irəli sürülən müxtəlif səviyyəli tələblərə aiddir. Təhsilin ümumi ümumi vəzifələrindən əlavə, bütün səviyyəli məktəblərin, müxtəlif fənlərin, hətta hər bir bölmənin və hər bir təhsil sinfinin özünəməxsus vəzifələri var. Təlim məqsədləri bütün tədris fəaliyyətlərində müəllimlər və tələbələr üçün təlimatlar, təlim məzmunu və tədris metodlarının seçilməsi üçün əsas və təlimin uğur və ya uğursuzluğunun ölçülməsi üçün standartdır. Buna görə də tədrisin məqsəd və vəzifələrini müzakirə etmək çox vacibdir. Bu məqalə Çin orta təhsilinin tədrisinin məqsəd və vəzifələrindən qısa şəkildə bəhs edir.


Среднее школьное образование начинается после начального образования до университетского образования в системе школьного образования. Это этап дифференциации и развития подростков школьного возраста. Среднее школьное образование - это продолжение начального образования и подготовительный этап для поступления в высшие учебные заведения для перевода в другие средние школы; это этап обучения для учащихся младших и старших классов средней школы, которые временно не могут поступить в школу для подготовки к трудоустройству. Объектами среднего образования являются молодые люди в возрасте от 11 до 12-17 и 18 лет. Это критический период для первоначального формирования мировоззрения и ценностей.

Среднее образование носит общеобразовательный характер. Общее образование отличается от специального продвинутого профессионального образования на стадии высшего образования и не является профессиональным образованием для отработки практических навыков. Вместо этого оно обучает учеников общенаучным и культурным знаниям и основам гражданственности для их морального, интеллектуального и физического развития. Она закладывает среднюю общенаучную и культурно-нравственную основу.

Целью среднего школьного образования является воспитание квалифицированных граждан страны и обеспечение качественного гражданского образования для учащихся. Содержание образования в основном состоит из общих и широко применяемых научных и культурных знаний. С одной стороны, его цель - предоставить учащимися необходимую основу для дальнейшего изучения профессиональных и технических знаний, а с другой стороны, повысить общую культурную грамотность людей и обогатить их духовную жизнь. В то же время содержание профессионально-технического образования должно быть включено в учебную программу средней школы и должны предлагатся соответствующие курсы. В основном это делается для того, чтобы студенты могли понять все аспекты общественного производства, интегрировать теорию с практикой, применять полученные знания, развивать свои практические способности и осознание любви к труду, чтобы облегчить трудоустройство в будущем. Ниже приводится описание образовательной цели, разделенной на два этапа: неполная средняя школа и средняя школа.

Цель обучения на этапе неполной средней школы: (1) научить учащихся иметь мысли и чувства любви к Родине, народу, труду, науке и социализму и иметь предварительное понимание основных точек зрения диалектического материализма, и исторический материализм, и изначально обладать способностью служить людям, а коллективистское мышление обладает хорошими моральными и личностными качествами, такими как надежность, трудолюбие, самостоятельность, сотрудничество, оптимизм и

предприимчивость, подчинять дисциплине и закону, культивировать цивилизованные и вежливые привычки поведения, и формируется способностью отличать правильное от неправильного самообразования. (2) Развивать учащихся, чтобы они овладели необходимыми культурными, научными и технологическими знаниями и базовыми навыками, обладали определенными способностями к самообучению, практическими навыками, изначально имели научное отношение к поиску истины из фактов и овладели некоторыми простыми научными методами. (3) Обучать учеников овладевать базовыми знаниями и правильными методами физических упражнений, развивать гигиенические привычки, иметь здоровое тело, иметь предварительные эстетические способности и формировать здоровые интересы и хоби. (4) Обучать учащихся научиться заботиться о своей жизни и участвовать в работе по дому в пределах своих возможностей, иметь предварительное понимание некоторых базовых знаний и основных навыков производственного труда, понимать некоторый здравый смысл поиска работы и добросовестно работать, отношения и хорошие рабочие привычки.

Цель обучения в старшей школе: (1) научить учащихся любить родину, народ, коммунистическую партию Китая и социализм, иметь правильное политическое направление и изначально формировать правильное мировоззрение, взгляды на жизнь и ценности. Дать учащимся возможность обрести чувство социальной ответственности и профессионализма, сформировать идею служения людям, иметь дух преданности социалистической модернизации родины, иметь хорошую идеологическую мораль, цивилизованное и вежливое поведение, а также способности отличать правильное от неправильного и самодисциплину. (2) Стимулировать учащихся к овладению базовыми знаниями и базовыми навыками в области общей культуры и науки, требуемыми современным обществом, иметь сознательное отношение к обучению и способность учиться самостоятельно, владеть основными методами обучения, обладать духом новаторства и базовыми способностями. анализировать и решать проблемы. (3) Воспитывать у школьников привычку осознанно заниматься спортом, чтобы у них было здоровое тело и способность поддерживать физическое и психическое здоровье, иметь здоровую эстетическую концепцию и определенные эстетические способности, иметь хорошее качество воли и определенную способность адаптироваться. (4) Обучать учащихся формировать правильные точки зрения на работу, иметь базовые технические знания и способность к предварительному выбору работы, обладать определенными трудовыми и современными жизненными навыками.

**Литература**

1. Краткая беседа о ӧелях обучения в китайских средних школах. Пэн Мин. 2018

2. Сравнение среднего образования в Китае с другими странами мира. Чжан Синьюй. 2019

3. Образовательные ӧели при соӧиалистической системе с китайской спеӧификой. Энӧиклопедия Байду. 2021

## MƏKTƏBDƏ ŞAGİRDLƏRİN PEŞƏYÖNÜMÜ İŞLƏRİNƏ RƏHBƏRLİK VƏ ONUN İDARƏ EDİLMƏSİ

**Əhmədova Elmira Fuad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Heç kimə sirr deyil ki, hər bir dövlətin siyasətində təhsil prioritetdir. Hər zaman dövlət xadimlərinin, alimlərin, müəllimlərin, geniş ictimaiyyətin diqqəti təhsil problemlərinə yönəlir. Təhsil dövlət quruculuğunun mühüm vasitəsidir. O, xalq təsərrüfatının məhsuldarlığına həlledici təsir göstərir, elmin inkişafında, texnoloji transformasiyalarda, insan və ətraf mühit

arasında münasibətlərdə uğurları təmin edir. Hər bir dövlət vətəndaşı həyatının müxtəlif dövrlərində təhsil sistemi ilə üzləşir və buna görə də hər kəs təhsil sisteminin mümkün qədər səmərəli olmasında maraqlıdır.

Qeyd etmək lazımdır ki, təhsilin keyfiyyəti ölkənin nüfuzuna birbaşa təsir edir ki, bu da yüksək ixtisaslı kadrlar vasitəsilə dövlətin dünya bazarında rəqabət qabiliyyətini təmin etməyə və maliyyə sərmayələrini cəlb etməyə imkan verir. Bu bəyanat müasir təhsil sisteminin başqa bir funksiyasını - ictimai-siyasi funksiyanı da ayırmağa imkan verir. Bu funksiyanın həyata keçirilməsi şagirdlərin peşə hazırlığının yeni formalarının axtarışı yolu ilə həyata keçirilir.

Cəmiyyətin hazırkı inkişaf mərhələsi şəxsiyyətə müəyyən tələblər qoyur: fəal həyat mövqeyi, yaradıcılığa istiqamətlənmə, səriştə, dəyişən şəraitdə naviqasiya bacarığı, peşə problemlərini həll etmək istəyi, özünütəhsil etmək bacarığı, özünü inkişaf etdirmək bacarığı. həyata keçirmək və özünü inkişaf etdirmək.

Peşəyönümü və karyera rəhbərliyi şəxsiyyətdaxili və sosial-peşəkar əsasların əlaqələndirilməsinin mürəkkəb və uzun bir prosesidir və bu prosesi birdəfəlik peşə seçimi aktına çevirmək olmaz. Məktəbdə peşəyönümünün arzu olunan nəticələri verməsi üçün o, davamlı proses olmalı, sistemli şəkildə həyata keçirilməli və bir-biri ilə əlaqəli bir sıra mərhələlərdən ibarət olmalıdır.

Peşəkar öz müqəddəratını təyinetmə prosesi bir gəncin özünü təhlil etmə, özünü tanıma, öz qabiliyyətlərini və dəyər yönümlərini qiymətləndirmək, seçdiyi peşəyə daha dolğun uyğunlaşmasına nail olmaq üçün peşə hazırlığı və öz xüsusiyyətlərinin sosial siyasətin tələblərinə uyğunluq dərəcəsini anlamaq üçün hərəkətləridir.

Peşəyöünümü işinin əsas (ideal) məqsədi şagirdin şüurlu və müstəqil fikirlərinə daxili hazırlığını tədricən formalaşdırmaq, onun inkişaf perspektivlərini (peşəkar, həyat və şəxsi) tənzimləmək və həyata keçirməkdir. Həm də özünü vaxtında inkişaf edən hesab etməyə və müəyyən bir peşə fəaliyyətində müstəqil olaraq şəxsi əhəmiyyətli mənalar tapmağa hazır olmaqdan ibarətdir.

Məktəblilərdə peşə seçiminin şəxsi maraqlarını formalaşdırmaq, bacarıqları inkişaf etdirmək, fəaliyyət sahəsini seçməkdə sosial məqsədləri idealları ilə, dəyərlər haqqında təsəvvürləri real imkanları ilə əlaqələndirmək həlli vacib problemlərdəndir. Bu vəzifələr xüsusi kursların öyrənilməsi prosesində ixtisas seçimi elmi əsaslarla optimal biliklərə, bacarıqlara yiyələnmək, özünütəhsil yolu ilə həyata keçirilir. Bu, təhsil müəssisələrində peşəyönümü və onun sisteminin əsas konsepsiyasıdır.

Ümumtəhsil məktəbi təhsil sisteminin ən mühüm həlqələrindən biri kimi şagirdlərin yeni iqtisadi münasibətlərə uyğunlaşmasına kömək etməli, onların intellektual və şəxsi potensialının inkişafı üçün təhsil zəminləri yaratmalı, müasir peşələrin müxtəlif aspektləri haqqında məlumatlılığı artırmalıdır. Peşəkar işə istiqamətlənmə və öz peşə gələcəyini seçmək bütün təhsil prosesinin tərkib hissəsi kimi çıxış etməlidir. Məktəb fərdi xüsusiyyətləri, meylləri, qabiliyyətləri və əmək bazarında tələbatı nəzərə almaqla şagirdlərin öz müqəddəratını təyin etmələrində və peşə seçimində onlara kömək etməlidir.

## ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Yusifli İntizar Vilayət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*gulayayla949@gmail.com*
**Elmi rəhbər: Dos. Ə.İ.İsmayılxanova**

Vətənpərvərlik geniş anlayış olmaqla yanaşı qədim tarixə malikdir. Vətənpərvərlik ən gözəl adət-ənənələri əks etdirməklə bərabər məktəblilərdə tarixi irsimizə məhəbbət hissləri formalaşdırır. Atalar sözlərimizdə, zərb-məsəllərimizdə tarixi irsimizlə bağlı hikmətli kəlam-

lar əks olunmuşdur: “Keçmişini unudanın gələcəyi olmaz”, “Keçmişə güllə atma ki, gələcək səni topa tutmasın” və s.

Vətənpərvərlik hissləri insanları vətən uğrunda, torpağının azadlığı yolunda fədakarlığa, qəhrəmanlğa ruhlandırmaqla yanaşı, onlara yüksək vətəndaşlıq, qeyrəti, namusu üçün çətin anlarda əyilməzlik, cəsarət, məğrurluq, döyüşkənlik hisslərini aşılayır.

Vətəndaşlıq eyni zamanda milli soy-kökümüzə bağlı olmaq, sadiqlik, vətəndaşlıq kimi mütərəqqi xüsusiyyətləri də özündə əks etdirir. Hər bir Azərbaycan vətəndaşı, Azərbaycan gənci milli-mənəvi adət-ənənələrinə sadiq olmalı, vətəndaşlıq borcunu yüksək səviyyədə yerinə yetirməlidir.

Vətəndaşlıq borcu asanlıqla formalaşmır, o verilən tərbiyənin təsiri ilə formalaşır, inkişaf edir. Vətəndaşlıq borcunun hər bir şagirdin fəaliyyətində təzahür etməsi həm məktəbin, həm də fənn müəlliminin bütün təlim-tədris işlərinin nəticəsidir. Vətəndaşlıq borcunun təzahürü insanın əxlaqi-mənəvi, siyasi və hüquqi şüurunun ən parlaq ifadəsidir. Vətəndaşlıq borcu hüquqi-siyasi, əxlaqi-mənəvi keyfiyyətləri bilavasitə özündə birləşdirir.

Vətəndaşlıq borcunun fəal prosesə çevrilməsi vətəndaşdan yüksək şüurluluq və fəallıq tələb edir. Hər bir insan həyatda malik olduğu dünyagörüşünə uyğun hərəkət edir. Həyatı düzgün anlamayan, dar düşüncəli insan ətrafında cərəyan edən vəziyyətdən düzgün nəticə çıxara bilmir.

Ümumtəhsil müəssisələrinin əsas vəzifəsi məktəblilərin təlim prosesini, kollektiv həyatını və vətənpərvərlik davranışını elə təşkil etməlidir ki, onların əqidəsi və hissləri düzgün formalaşsın. Çünki, təlim prosesində yüksək vətənpərvərlik baxışları, şüuru və əqidəsi formalaşdırılır.

Vətənpərvərlik tərbiyəsinin ən əsas amillərindən biri də çox qədim və şərəfli tarixə malik olan, dağ şəlaləsi kimi qulağa süzülən ana dilimizi cəmiyyətin gələcəyi olan şagirdlərimizə sevdirməkdir. Ulu öndər, ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi, öz ana dilini bilməyən, bu dildə mükəmməl danışa bilməyənlər şikəst insanlardır.

Doğma dilini gözəl bilən, onu yaşadan ölkə vətəndaşları öz xalqının milli-mənəvi dəyərlərini, milli mənliyini, mədəniyyətini də yaşadırlar.

Onu da qeyd edək ki, vətənpərvərlik tərbiyəsi işləri elə təşkil edilməlidir ki, böyüyən gənc nəsil həm vətəndaş şüuruna yiyələnsin, həm də mənsub olduğu ölkəni inkişaf etdirsin, onu qorumaq üçün üzərinə hansı məsuliyyət hissinin olduğunu hiss etsin.

Ümummilli liderimiz H.Əliyevin Respublika Gənclərinin I Formunda dediyi sözləri yada salaq. O, qeyd edirdi ki, yetişən gənc nəsli milli ruhda tərbiyə etməliyik. Onlar milli-mənəvi dəyərlərimizin dərindən dərk etməlidirlər. Gənclərimiz həm bizim indiki tariximizi, həm də keçmişimizi bilməlidirlər. Milli adət-ənənələrimizi, dəyərlərimizi, tariximizi bilməyən gənc əsil vətənpərvər ola bilməz. Vətənpərvərlik sadəcə orduda xidmət etməklə bitmir, Vətəni sevmək, ona sadiq olmaq, torpağa bağlı olmaq deməkdir. Budur əsil vətənpərvərlik. Bu tarixi fikir H.Əliyevin fikirləridir.

Ailənin, məktəbin rəhbərliyi altında şagirdlər vətənə sevgilərini, vətən qarşısında vəzifələrini, məsuliyyətlərini tədricən dərk edir və yerinə yetirir.

Məlumdur ki, şagirdlər yuxarı siniflərə keçdikcə onların vətənpərvərlik hissləri yüksəlir ki, bu da onların işlərində, əməllərində, hal və hərəkətlərində özünü göstərməyə başlayır. Belə ki, ölkənin ictimai-siyasi həyatı yeniyetmə və gəncləri maraqlandırmağa başlayır, tanınmış insanların qələbələri, igidlikləri və qəhrəmanlıqları haqqındakı məlumatlar onları daha çox cəlb etməyə başlayır. Onların vətənə xidmət etmək arzularını artırır.

Öz işini düzgün qura bilməyən bəzi müəllimlər vətənpərvərlik tərbiyəsi haqqında apardıqları işləri ancaq sözlər və nümunələr əsasında məlumat verməklə məhdudlaşdırırlar ki, bu da verilən tərbiyənin dayazlığından xəbər verir. Lakin qabaqcıl müəllimlər vətənpərvərlik tərbiyəsinin təbliğində aşağıdakı tədbirləri həyata keçirməlidirlər:

- məktəblilərə vətənpərvərlik ruhunu təbliğ edən çoxlu sayda ədəbiyyatlar oxutdururlar;

- kino və teatr tamaşalarına şagirdlərin mütəmadi gedişini təşkil edirlər;

- siyasi məlumatlar gecələri keçirirlər;

- ordumuzun, şəhidlərimizin, qazilərimizin xidmətlərini əks etdirən stendlər hazırlayırlar;

- tanınmış insanlarla şagirdlərin görüşlərini təşkil edirlər.

Bu tip tədbirlər vasitəsi ilə müəllimlər məktəblilərin vətənpərvərlik haqqındakı təsəvvürlərini genişləndirir, onlarda Vətənə xidmət etmək arzusunu formalaşdırırlar. Bütün bu söylədiklərimiz vətənpərvərlik tərbiyəsinin təbliğinin əsas vasitələridir.

Vətənpərvərlik tərbiyəsinin təbliğində müxtəlif yollardan və vasitələrdən istifadə etmək böyük əhəmiyyətə malikdir. Bu vasitələrin birincisi şagirdlərin içərisində olduqları təlim prosesidir. Təlimin bütün mərhələlərində şagirdlərin əxlaqi siması təşəkkül edir.

Müasir ümumtəhsil müəssisələri özünün tərbiyə vəzifələrini təlim prosesində həyata keçirir. Məktəbdə olan bütün vasitələrlə şagirdlərin maraqları inkişaf etdirilir, onların qabiliyyətlərinin və istedadlarının çiçəklənməsinə hərtərəfli şərait yaradılır.

Şagirdlərin dərsdən sonra boş vaxtları çox olur və onlar asudə vaxtlarını səmərəli təşkil edə bilmirlər. Onların ətraf mühiti bəzən şagirdlərin asudə vaxtlarını düzgün təşkil etmələrinə mane olurlar. Şagirdlərin əxlaqına zərər verə biləcək işlərlə məşğul olmağa sövq edirlər. Ona görə də məktəb müəllimlərimiz yalnız şagirdlərlə təlim prosesində məşğul olmaqla kifayətlənməməlidirlər, onların dərsdənkənar vaxtlarının da-yəni asudə vaxtlarının da səmərəli təşkilində məsuliyyət daşıyırlar. Odur ki, sinifdənkənar işlərlə dərsdə aparılan təlim işləri bir-biri ilə düzgün formada əlaqələndirilməlidir

Sinifdənxaric tədbirlər məktəblilərlə Vətənə dərin məhəbbət hissi tərbiyə etmənin ən mühüm vasitələrindəndir.

Məktəblilərimizin təlim prosesində həyata keçirdikləri tərbiyə vəzifələri ilə sinifdənxaric işlərdə həyata keçirdikləri tərbiyəvi vəzifələr əslində eyni məqsədə xidmət edir. Hər iki halda da bu vəzifə məktəblilərdə elmi dünyagörüşü, əxlaqın əsaslarını aşılamaq, yeniyetmə və gəncləri vətəninə, xalqına məhəbbət ruhunda tərbiyə etməkdir.

Şagirdlərin sinifdənxaric məşğələləri forma və üsullarına görə daha geniş imkanlara malikdir, buraya bədii qiraət, dərnək işləri, ekskursiyalar və s. daxildir. Bu tədbirlər eyni zamanda şagirdlərdə yoldaşlıq, dostluq, kollektivçilik tərbiyə edir, şagirdlər arasında nizam-intizamı möhkəmləndirir, onların bacarıqlarını, vərdişlərini və qabiliyyətlərini inkişaf etdirir.

Sinifdənxaric işlərin təşkilinə bir sıra pedaqoji tələblər verilir ki, bunlar aşağıdakı kimi ifadə olunur:

1- Sinifdənxaric işin ideya-mənəvi istiqaməti və məktəbdəki şagird təşkilatları əlaqəsi.

Bu özfəaliyyət dərnəklərində ictimai cəhətdən fəal, işgüzar, cəmiyyətimiz üçün daha faydalı insanların hazırlanması baş verir.

2- Məktəblilərin görüş dairəsinin genişləndirilməsi, elmi biliklərlə zənginləşdirilməsi, maraq və meyllərinin dərinləşdirilməsi, fiziki və zehni qüvvələrinin təkmilləşdirilməsi.

Şagirdlərin kütləvi şəkildə sinifdənxaric tədbirlərə cəlb edilməsi, hər birinin könlü istəyən, onları vətənpərvər, fiziki cəhətdən zənginləşdirən işin müəyyən edilməsi-sinifdənxaric tədbirlərin mənası bundadır.

3- Şagirdlərin tədris ili ilə sinifdənxaric fəaliyyətinin əlaqəsi.

Bu zaman tədris və sinifdənxari tədbirlərin əlaqəsi müxtəlif tərzlərdə həyata keçirilə bilir. Bildiyimiz kimi dərsdənkənar işlər tədris məşğələlərinin məntiqi davamıdır. Dərslə birlikdə nəzəri konfranslar həyata keçirilir, bədii ədəbiyyat gecələri, kollektiv formada tamaşalara baxış keçirilir, tanınmış insanların müzakirəsi ilə zənginləşdirilir.

Vətənpərvərlik tərbiyəsinin təbliği üzrə verilən biliklər zamanı bir sıra şərtlərə riayət edilməlidir:

- Öyrəniləcək və təhlil ediləcək bədii əsərlərin seçilməsi əsaslandırılmalıdır;

- Uşaq bədii özfəaliyyəti inkişaf etdirilməlidir.

Nəhayət, Vətənpərvərlik tərbiyəsi yeniyetmə və gənclərin qarşısında onların nümunəsində gələcəkdə Vətəni qorumaq, uğrunda şəhid olmağa hazır olmaq vəzifəsi qoyur. Məktəblilərin vətənpərvərlik tərbiyəsinin məqsədi Vətən üçün yüksək qürur hissi, qəhrəmanlıq, mərdlik, igidlik, Vətən təəssüfkeşliyi formalaşdırmaqdan ibarətdir.

## ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ MƏKTƏBDƏNKƏNAR VƏ SİNİFDƏNXARİC TƏRBİYƏNİN ROLU

**Yusifli İntizar Vilayət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*gulayayla949@gmail.com*
**Elmi rəhbər: Dos. Ə.İ.İsmayılxanova**

Vətənpərvərlik tərbiyəsi o qədər maraqlı və mürəkkəb fəaliyyət sahəsidir ki, onu təkcə təlim prosesi ilə məhdudlaşdırmaq mümkün deyildir. Sinifdənkənar tədbirlər təlim-tərbiyə prosesini tamamlayır, bu prosesdə məktəblilərə aşılanacaq keyfiyyətləri yeni materiallar əsasında inkişaf etdirir və möhkəmləndirir.

Aparılan tədqiqatların nəticələri onu göstərir ki, sinifdənkənar tədbirlərdə məktəblilərin vətənpərvərlik tərbiyəsinin səmərəli həyata keçirilməsi üçün müəllimlər tərəfindən bir çox psixoloji-pedaqoji tələblər nəzərə alınır ki, bunlar aşağıdakılardır:

1- Ümumtəhsil müəssisələrində vətənpərvərlik tərbiyəsi üzrə sinidənkənar tədbirlər yerinə yetirilərkən məktəblilərin yaş və anlama səviyyələri mütləq şəkildə nəzərə alınmalıdır;

2- Həyata keçiriləcək tədbirlərin rəngarəng olmasına və şagirdlərin hisslərinə təsir etməsinə diqqət yetirilməlidir;

3- Həyata keçiriləcək tədbirlərdə şəhid ailələrinin, şəhid övladlarının iştirak etmələrinə münbit şərait yaradılmalıdır;

4- Tədbirlərdə şagirdlərdə qəhrəmanlıq, mərdlik, hər cür çətinliyə sinə gərmək, təxirə salınmaz işlərin vaxtında həyata keçirilməsi kimi keyfiyyətlər formalaşdırılıb inkişaf etdirilməlidir;

5- Keçirilən sinifdənkənar tədbirlərin gedişi zamanı məktəblilərdə düşmənə nifrət, şəhidlərimizə hörmət və igid övladlarımıza, qazilərimizə məhəbbət hissləri formalaşdırılmalıdır. Bu tədbirlərin məzmunu, yol və vasitələri, həyata keçirilmə metodikası aşağıdakı kimi əks edilmişdir:

1- Mərd-igid oğlanlarımızın göstərdikləri qəhrənamlıqlar haqqında müsahibələr, söhbətlər, görüşlər.

2- Məktəblilərin vətənpərvərlik tərbiyəsində ekskursiyaların rolu

3.Vətən uğrunda qurban gedən şəhidlərimizin əziz xatirələrinə həsr olunmuş gecələrin təşkil edilməsi.

4- Vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında sinifdənkənar tədbirlərin biri də mütəmadi həyata keçirilən ədəbi-bədii əsərlərin müzakirəsidir.

Bu tip tədbirlərin müzakirəsi kiçik yaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsində, onların zərif hisslərinin formalaşmasında böyük rol oynayır

Hətta kiçik yaşlı şagirdlərlə müəyyən qəzet materiallarının və bədii kitabların da müzakirələri keçirilir. Məqalənin, kitabın bütün şagirdlər tərəfindən oxunulması, hər bir şagirdin çixiş etməsi üçün qabaqcadan hazırlıq işləri həyata keçirilir.

Uzunmüddətli tədqiqatların nəticələri göstərir ki, bədii əsərlərin müzakirəsi doğru-düzgün təşkil edildikdə, şagirdlərdə Vətənə məhəbbət hisslərini oyatmaq imkanı çoxalır. Azərbaycanın igid oğullarının qəhrəmanlığından bəhs edən maraqlı məqalələr şagirdlərin vətənpərvərlik tərbiyəsinin formalaşmasında böyük rol oynayır.

Yeniyetmə və gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında ən əhəmiyyətli vasitə məktəblə ailənin əlbir iş aparmasıdır. Ailə öz övladına başa salmalıdır ki, vətənpərvərlik

hissləri olmadan heç bir xalq torpağının, yurdunun, mənsub olduğu ata ocağının təəssübünü çəkə bilməz, ona milli qeyrəti ilə bağlana bilməz, milli-mənəvi dəyərlərini qoruya bilməz.

Vətənini sevən, onu qorumağa hər an hazır olan gənc nəsil yetişdirilməsində hər ailə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Çünki, övladlarını bu ruhda böyütmək, tərbiyə etmək hər bir valideynin vətəndaşlıq borcudur.

Deməli, məktəblilərdə vətənpərvərlik tərbiyəsini formalaşdırmaq üçün məktəbin ailə ilə həm fərdi, həm qrup halında, həm də kollektiv əlaqə formalarından istifadə etmək lazımdır. Doğrusunu demək lazımdır ki, bu gün əksər ailələrdə uşaqlarla doğru-düzgün vətənpərvərlik mövzusunda işlər aparılmır. Aparılırsa da çox səthi şəkildə aparılır. Dünyagörmüş, təcrübəli valideynlər öz uşaqlarını, nəvələrini əsil vətənpərvər ruhda tərbiyə etmək məqsədi ilə küçələrdə şəhidlərin xatirəsinə tikilmiş bulaqlara adları verilmiş qəhrəmanlarımız haqqında, yaşadıqları küçənin adını daşıyan şəhid haqqında məlumat toplayıb övladları ilə bölüşməlidirlər. Belə olduğu halda uşaqlarda şəhidlərimizin xatirəsinə dərin hörmət və ehtiram hissi yaranır.

Hətta bu uşaqlar öz bildiklərini digər yoldaşları ilə də bölüşürlər. Şəhidlərin xatirəsinə həsr olunan müəyyən tədbirlər keçirilən zaman bu uşaqlar ailələrindən öyrəndikləri məlumatları söyləməyə və şəhid haqqında çox şey bildiklərini nəzərə çarpdırmaq üçün çalışırlar.

Məlumdur ki, indi elə kənd, qəsəbə, rayon, şəhər tapılmaz ki, orada şəhidlər xiyabanı və ya şəhid məzarı olmasın. Onların xatirəsini əbədiləşdirməkdən ötrü müxtəlif işlər görülür: şəhidlərin büstləri qoyulur, adlarına bağlar və parklar salınır, yaşağıqları küçəyə və ya oxuduqları məktəbə onların adı verilir, bulaqlar inşa edilir. Bütün valideynlər uşaqlarını görülən bu işlərlə tanış etməlidirlər.

Lakin acınacaqlı hallar da mövcuddur. Keçirdiyimiz sorğular zamanı xoşagəlməz mənzərələrlə qarşılaşdırq. Şəhid adı verilmiş küçənin sakinlərindən bir neçəsi ilə söhbət apardıq. O küçədə yaşayan məktəblilərdən soruşduq, az adam tapıldı ki, adı verilən şəhid haqqında məlumat verdilər. Şəhid adına inşa edilmiş bulaqdan su içənlər də bu şəhidin kim olduğu ilə maraqlanmırlar. Onların etdikləri qəhrəmanlıqlar haqqında məlumatsızdırlar.

Valideynlər bu sahədə çox böyük məsuliyyət daşıyırlar. Onların birinci vəzifəsi yaşadıqları ərazinin (qəsəbənin, kəndin, küçənin) şəhidləri haqqında uşaqlarına yetərincə məlumat verməyə borcludurlar.

Məktəblilərin vətənpərvərlik tərbiyəsində ailə ilə məktəbin birgə işi ilə tanış olmaq üçün bir neçə məktəbin iş planı ilə maraqlandıq. Planlar təxminən aşağıdakı məzunda hazırlanmışdır:

1- Şagirdlərin yaş və anlaq səviyyələrinə uyğun olan bədii əsərlər əldə etmək, onları uşaqlara həsr olunmuş jurnalları oxumağa cəlb etmək;

2- Mənfur qonşularımızın namərdcəsinə torpaqlarımızı işğal etmək məqsədində olduqlarını, buna görə də zaman-zaman ədalətsiz müharibə aparmalarına aid şagirdlərlə mütəmadi söhbətlər aparmaq;

3- Tədris ilində iki dəfə olmaqla şagirdlərin “Şəhidlər Xiyabanı”na ziyarətini təşkil edərək, uşaqlara şəhidlərimiz haqqında ətraflı məlumatlar vermək;

4- Şəhidlərimizə həsr olunan televiziya, radio verilişlərini dinləmək, tamaşa etmək, verilişlərin məzmununu uşaqlara başa salmaq. Bu və ya digər verilişlərin müzakirəsini təşkil etmək və qohumlarda, qonşularda olan şəhid ailələri ilə bağlı söhbətlər etmək;

5- Şagirdlərlə birlikdə şəhid ailələrinə kömək məqsədilə xeyriyyə işlərini təşkil etmək;

6- 2021-ci il 27 sentyabr tarixindən 44 gün ərzində erməni faşizmi üzərində zəfər qazanmağımızı əks etdirən fotostendlər, albomlar hazırlamaq, işğaldan azad olunmuş rayonlarımızın azadlıq günlərini bayram kimi qeyd etməyə nail olmaq v.s.

Şagirdlərin “Qənimətlər Park”ına mütəmadi ekskursiyasının təşkil edilməsi onlarda böyük ruh yüksəkliyinin yaranmasına səbəb olur. Hətta məktəblilərin necə ürəkdən sevindiyinin şahidi olmuşuq.

Şagirdlər bilməlidirlər ki, onlar mübariz xalqın mübariz övladlarıdır!

# GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ AZƏRBAYCAN XALQININ VƏ ONUN SİLAHLI QÜVVƏLƏRİNİN DÖYÜŞ ƏNƏNƏLƏRİNİN ROLU

**Rzayeva Aygün Əlirza qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rzayevaaygun5846@gmail.com*

Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi həmişə aktual məsələ olub. Bunsuz xalqın milli yaddaşını bərpa etmək, inkişaf etdirmək mümkün deyil. Müharibə şəraitində olan ölkəmizdə yetişməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsi aktuallıq baxımından müstəsna əhəmiyyət kəsb edir. İndi əzab-əziyyətlə qazanılan müstəqilliyi qorumaq, inkişaf etdirmək arzusu ilə yaşayan nəsil yetişdirmək lazımdır. Cəmiyyətin mühüm tərkib hissəsi olan orduya münasibətin səviyyəsi dövlət səviyyəsində olan münasibət kimi dəyərəndirilib. Vətəndaşlıq mövqeyinə əsaslanan bu münasibət qarşılıqı etimad və qarşılıqlı inamdır. Belə etimad Azərbaycan ordusunun şəxsi heyətinin mənəvi-psixoloj hazırlığının mühüm amillərindən biri kimi çağırışçı gənclərdə dövlətçilik baxımından hərbi-vətənpərvərlik hislərinin formalaşmasını təmin edir.

Müstəqil Azərbaycan dövləti vətənpərvərlik tərbiyəsi məsələsində gənclərlə aparılan işə xüsusi diqqət yetirir. Gənclər cəmiyyətimizin gələcəyi, bu günümüzün əsas hərəkətverici qüvvəsidir. Ölkənin yadelli düşmənlərə qarşı müdafiəsində gənclərin rolu müstəsnadır. Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətinin böyük əksəriyyətini gənclər təşkil edir. Odur ki, ölkə rəhbərliyi gənclərin döyüş ənənələri əsasında tərbiyə olunmasına xüsusi diqqət və qayğı göstərir.

Dövlətçilik ənənləri qədim tarixə malik olduğu kimi xalqımızın döyüş ənənələri də qədim tarixə malikdir. Azərbaycan tarixində Koroğlular, Qaçaq Nəbilər, Babəklər kimi cəsur oğullar, Tomiris, Nigar kimi cəsarətli qadınlar yetişmişdir. Bu ənənələr Azərbaycan xalqının mütləqiyyətə, yadelli işğalçılara qarşı apardığı mübarizə ilə bağlıdır. Zaman keçdikcə qəhrəmanlıq ənənələri cilalanmış, daha da inkişaf etmişdir. Bu qəhrəmanlıq ənənələrinin nəticəsidir ki, 1918-1920-ci illlərdə ilk müstəqil Azərbaycan Demokratik Respublikası yaradılmışdır. Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində qəhrəmanlıq ənənələrindən düzgün istifadə edilməsi gənclərlə aparılan işin keyfiyyətinə, eyni zamanda onların əsl vətəndaş kimi formalaşmasına imkan yaradacaqdır.

Döyüş ənənələrinin gənc nəslə aşılanmasında əsas tərbiyəçilər olan müəllimlərin də rolu yüksəkdir. Şagirdlərin qəhrəmanlıq ənənələri ruhunda tərbiyə olunmasında humanitar fənlərin, xüsusilə də tarix-coğrafiya, ədəbiyyat, insan və cəmiyyət kimi fənlərin əhəmiyyəti böyükdür. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bu fənlər ən təsirli vasitələrdən biridir. Odur ki, bunlardan istifadə edərkən elmi faktlara əsaslanmaq lazımdır. Hər bir müəllim gənclərin tərbiyəsində Silahlı Qüvvələrimizin şanlı tarixi yürüşlərinin materiallarından, xalqımızın döyüş ənənələrindən düzgün istifadə etməyi bacarmalıdır.

Hərbi-vətənpərvərlik tərbiyəsinin məqsəd və vəzifələrinin həyata keçirilməsində müxtəlif metodlardan istifadə edilir. Döyüş ənənələrin təbliğində məruzələrin, söhbətlərin, nəzəri konfransların təşkili böyük rol oynayır. Bu gün təhsil müəssisələrinin əksəriyyətində dərslər kino və videofimlərdən istifadə etməklə aparılır. Buna görə dədöyüş ənənərinin təbliğində kinonun, eyni zamanda teatrın rolunun yaddan çıxartmaq olmaz. Çünki bunlar əyani vəsait kimi böyük əhəmiyyət kəsb edir.

Silahlı Qüvvələrin müasir standartlara uyğun yaradılmasında hərbi təhsil sistemi müstəsna rol oynayır. Burda əsas məqsəd Silahlı Qüvvələrin qarşısında duran vəzifələri yerinə yetirməyə qadir vətənpərvər və bacarıqlı kadrların hazırlanmasıdır. Gənclərin bilik-bacarıqlarının artırılmasına, onların vətənpərvərlik ruhunda tərbiyə olunmasına daim diqqət yetirilir.

# MÜASİR TƏHSİL SİSTEMİNDƏ ƏLVERİŞLİ FƏALİYYƏTİN TƏŞKİLİ VƏ ONUN İNKİŞAF DİNAMİKASI

**Qaralova Nigar Şərif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
nigar.garalova@yahoo.com
**Elmi rəhbər: Dos. Əsmət İsmayılxanova**

Müxtəlif təyinatlı ümumtəhsil məktəblərinə rəhbərlik edənlərin hamısı demək olar ki, məktəbin keyfiyyətlə fəaliyyət göstərməsinə səylə çalışırlar. Amma deyək ki, bütüm bunların öhdəsindən gəlmək çox da asan məsələ deyildir. Çünki, keyfiyyətli təlim, təhsil və tərbiyə prosesinin təşkilinə maneəçilik törədən, inkişaf tempini aşağı salan təsirlər, amillər çox mürəkkəbdir və bu təsirlərin aradan qaldırılmasına xüsusi diqqət vermək vacibdir.Təlim-təhsil ictimai proses olduğundan istənilən cəmiyyətdə insanların maraq dairələrinə uyğun təşkil edilməlidir. Görkəmli filosof, alim Əbu Turxan qeyd edirdi ki, insanlar təhsil üçün deyil, təhsil insanlar üçün olmalıdır. Ona görə də təhsil cəmiyyətin ehtiyaclarına uyğun təşkil edilməlidir. Müasir dövrdə tez-tez dəyişən, dayanmadan qloballaşan dünyada bəşəriyyətə problemlər yaranır. Elmin, texnikanın sürətli inkişaf etməsi dünyada enerji, ekoloji, xammal çatışmazlıqlarını daha da kəskinləşdirir. İqtisadi bərabərsizlik, yoxsullaşma, terrorizm, cinayətkarlıq baş alıb gedir. Bu cür aktual problemlərin həll edilməsi yeni siyasət, insanların cəmiyyətlə, təbiətlə qarşılıqlı əlaqəsində yeni yanaşma, yeni münasibət qurulmasını tələb edir. Bu cür aktual problemlərin həlli yolları təhsildən keçdiyi üçün səmərəli fəaliyyət təhsil vasitəsilə təmin edilir. Mövcud problemlərin həll edilməsi aşağıdakıları tələb edir:

- təhsil sahəsində yeni islahatların aparılmasını;
- təhsilin müasir cəmiyyətin maraqlarına uyğun qurulmasını;
- təhsil sisteminin məzmununda, quruluşunda, təlimin metodlarında və metodikalarında, innovasiyaların, yeni pedaqoji texnologiyalarının və yeni təlim texnologiyalarının təhsil-təlim sisteminə gətirilməsində əsaslı dəyişikliklərin aparılması.

Qeyd edək ki, aparılan araşdırmalardan məlum olur ki, fəal təlim metodlarının, yeni təlim texnologiyalarının və innovasiyaların tətbiq edilməsi təlim prosesinin səmərəliliyinə güclü təsir göstərir. Burada orta məktəb təhsilini təkmilləşdirməyin iki vacib şərtini diqqətdə saxlamaq lazımdır. Birincisi təhsil-təlim sisteminin məzmununu yeni keyfiyyət səviyyəsinə yüksəltməli, ikincisi isə məzmunu şagirdlərə öyrədən müəllimlərin yetişdirilməsi prosesində ən kiçik tələblər də yerinə yetirilməlidir. İnteraktiv təlimin müəllimi şagirdlərə öyrədəcəyi elmi bilikləri ən əvvəl özü mükəmməl bilməli, daha sonra şagirdlərə necə öyrədəcəyini dərk etməlidir. Bu prosesə həm sağlam mühit, həm də mənəvi təmizlik, saflıq da əlavə edilməlidir. Başlanğıcı sağlam olmayan mühitdə (pedaqoji) ən yeni islahatlar da işə yaramaz. Hamıya aydındır ki, bu günün şagirdi müəllimlərin hər şeyi bilməyinə, onların verdiyi sualların hamısına düzgün cavab verə biləcəyinə, hər vaxt haqlı olacağına, mümkün olan bütün hüquqlara sahib olacaqlarına inanmırlar. Elə bu səbəbdən də təlim-təhsil prosesində mexaniki yaddaş deyil, aşağıdakılar ön planda olmalıdır:

- şagird təfəkkürünün inkişaf etdirilməsi;
- şagirdlərin fəal dərk etmə mövqeyi;
- bütün elmi biliklərin müstəqil və sərbəst əldə edilməsi;
- dərketmə və tədqiqat üçün optimal şəraitin yaradılması;
- əldə edilmiş biliklərin yaradıcı tətbiq edilməsi;
- digər şagirdlərlə əməkdaşlıq etmək qabiliyyəti;
- təfəkkürün sərbəstliyi və müstəqilliyi.

Təhsil sisteminin ən önəmli funksiyalarından biri də tərbiyədir. Böyük rus pedaqoqu V.Belinskinin təbirincə desək, təhsilin ən ali mərtəbəsində mənəvi-əxlaqi təhsil dayanır. Tərbiyə təhsildən qat-qat üstündür, çünki insanı elə tərbiyənin özü yaratmışdır. Ona görə də təlim

prosesinin tərbiyəvi funksiyası diqqət mərkəzində olmalıdır. Təlim prosesinin təşkil edilməsində münbit şərait yaradılarkən aşağıdakılar ön planda olmalıdır:

- təlim prosesində problemli situasiyanın yaradılması;
- əməkdaşlıq və dialoji mühitin təşkil edilməsi;
- -öyrənən tədqiqatçı-öyrənən-bələdçi kimi qarşılıqlı münasibət formalaşdırılması;
- təlim prosesində həm psixoloji dəstəyin, həm hörmətin, həm də etibarın təmin edilməsi;
- təlim prosesində motivasiyanın yaradılması;
- fəal təlim formalarından (yəni qrup, cütlük formasında) və fəal təlim metodlarından istifadə edilməsi.

Aparılan araşdırmalardan məlum olur ki, ümumtəhsil məktəblərinin idarə edilməsində olan mövcud problemlər məktəbin hərtərəfli inkişafına istiqamətlənən tələbləri, göstərişləri həyata keçirməyə imkan vermir.

**Müəssisədə təşkilati məsələlərlə əlaqəli yaranan problemlər**.

Bu problem miqyasına və formasına görə fərqlənsələr də, bir çox ümumtəhsil məktəblərində hələ də mövcuddur. Hətta yaşlı, veteran müəllimləri, tərbiyəçiləri, bəzən də gənc müəllimləri də qorxudurlar ki, onlar gələcəkdə çətinliklərlə üzləşəcəklər, kollektivin yazılmamış qanunları mövcuddur ki, bu qanunlar istər-istəməz həyata keçirilməlidir. Bu qüvvələr gənc kadrları məktəbin daxilində cərəyan edən köhnə təşkilati işlərlə məşğul olmağa, səssiz-səmirsiz qəbul etməyə məcbur edirlər. Bu cür işlər gənc kadrların gələcək əmək fəaliyyətində böyük səhvlər buraxmasına, yenilənən təhsil sisteminin formalaşmasına mane olmağa və inkişafdan geri qalmağa səbəb olur. Bu cür fəaliyyət keyfiyyətli təhsil-təlim sisteminin formalaşmasına mane olur. Vətəndaşlıq borcunu, məsuliyyət hissini, öhdəsinə düşən vəzifələr haqqında hesabat vermək borcunu itirən müəllimi məktəbin gələcəyi maraqlandırmır, gənclərin necə formalaşacağı haqqında düşünmür. Hətta belə müəllimlər gördükləri işlərlə fəxr edə bilmir, getdikcə peşəsinə, onlarda fənninə qarşı da biganəlik hissi yaranır.

Ümumtəhsil məktəblərinin rəhbərliyi əksər vaxtlarda müəllim əməyinin qiymətləndirilməsi üçün vəsait çatışmazlığından özünüinkişafda, digər problemlərin həll edilməsində, vəzifələrin bölüşdürülməsində çətinliklərlə qarşılaşırlar. Hətta belə hallarda da sözü gedən müəllimlər yeni inkişafla barışmır, effektli fəaliyyət göstərmir, köhnə qayda-qanunlarla işinə davam edir. Bəzən də, məktəb rəhbəri özünü daha çox gözə soxmaq üçün məktəbin inkişaf dinamikasına, onun məqsədinə, məzmununa uyğun gəlməyən innovasiya lahiyəsi işləyir. Belə hallarda da müəllim kontingenti bu cür layihənin həyata keçirilməsinə maraq göstərmirlər. Bu cür "yeniliklərin" dəqiq kriteriyaları əvvəlcədən məlum olmadığına görə yeni müvəffəqiyyətlərin qazanılmasına ümid azalır. Belə hal baş verərsə, məktəbin rəhbərliyi pedaqoji-psixoloji, elmi-nəzəri və metodiki işlərin yenidən işlənməsinə çalışmalı və innovatik xarakter daşımayan işləri tamamilə aradan çıxarmalıdır. Ümumtəhsil müəssisəsinin rəhbərlərinin yetərincə formalaşmayan analitik mədəniyyəti müəssisənin fəaliyyətini müəyyənləşdirməyə, təhsildə əldə edilən müsbət nəticələrə qiymət verməyə, mühüm problemlərin aşkara çıxarılmasına, bu problemləri yaradan səbəbləri təhlil etməyə imkan yaratmır.

Məktəb rəhbərlərinin özünüqiymətləndirmədə özünü üstün tutması, edilən obyektiv tənqidi qulaqardı etməsi pedaqoji kollektivdə xoşagəlməz, müəssisənin inkişafına zərbə vuran, onu ləngidən nəticələrə gətirib çıxarır. Belə hallarda kollektiv içərisində münaqişələr baş verir. Bu müəssisələrdə keyfiyyət göstəricilərinin səmərəliliyindən danışmaq mümkün deyil. Bəzən də səmərəliliyin artırılması istiqamətində həyata keçirilən işlər mənfi xarakter alır, təhsil müəssisəsinin fəaliyyətinə, təhsilin yüksəldilməsi sahəsində həyata keçirəcəkləri işlərə kollektivdə inam azalır.

**Şəxslərlə əlaqəli yaranan problemlər**.

Bütün insanlar özünün malik olduqları vərdişləri, məsləyi, meylləri və əqidəsi ilə işə gəlirlər. Bu göstəricilərlə onların təşkilati mühitə və xarici təsirlərə reaksiyası müəyyənləşdirilir.

Birisinə əhəmiyyətsiz görünən işlər, digərində ciddi maneələrə, çətinliklərə səbəb olur. Həmişə vaxtın az olması, təcili və mühüm fəaliyyətlər arasında qarşılıqlı münasibətlərin müəyyənləşdirilməməsi ümumtəhsil məktəbinin effektivliyi məsələlərinin həll olunmasında çətinliklər yaradır. Çoxtərəfli səmərəliliyin dərk edilməməsi məktəb içərisində informasiya mübadiləsini çətinləşdirir, planlı işlərin həyata keçirilməsini ləngidir, təhsil sahəsində daha böyük müvəffəqiyyətlər qazanmağa imkan yaratmır. Ümumtəhsil müəssisələrində innovasiyaların tətbiq edilməsi nəticəsində yeni nailiyyətlərin əldə edilməsi üçün riskə getmək çox vaxt müsbət səmərə verir. Onu da deyək ki, yeniliklərin, yüksək göstəricilərin qazanılması üçün risqə getmək lazımdır.

## MİLLİ TƏHSİL SİSTEMİNİN İDARƏ EDİLMƏSİ

**Şükürlü Ləman Hidayət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*shukurlulaman@gmail.com*

Azərbaycanda təhsil sisteminin idarə olunması prosesi milli və ümumbəşəri dəyərlərə əsaslanır. Konstitusiyada qeyd olunduğu kimi Azərbaycan dövləti demokratik, hüquqi və unitar respublikadır. Təhsil sisteminin idarə edilməsində ilk olaraq bu prinsiplər göz önündə tutulur. Təhsil müəssisələrinə nəzarət və idarəetmə fəaliyyəti idarəetmə prinsipləri əsasında reallaşdırılır. İdarəetmə Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil haqqında Qanununa, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına və təhsil müəssisələrinin Nizamnamələrinə əsasən aparılır.

Hazırda dövlət başçısının təhsilə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, təhsil sektoru indiki dövrdəki qədər heç bir dövrdə bu qədər geniş ictimai nəzər nöqtəsində olmamışdır. Bu sahədə göstərilən əhəmiyyətli təşəbbüslər, genişmiqyaslı təhsil quruculuğu işlərinin aparılması, milli təhsilin məzmununun, mahiyyətinin dəyişdirilməsi, təkmilləşdirilməsi uğrunda atılan addımlar, Azərbaycan məktəblərinin maddi-texniki bazasının, infrastrukturunun müasirləşdirilməsi milli təhsil sisteminin inkişaf etdirilməsi yolunda görülən vacib işlərdəndir.

Milli təhsilin çiçəklənməsində Heydər Əliyev Fondunun rolu danılmazdır. "Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi hesabına ölkəmizdə təhsilin inkişafı ictimai hərəkata çevrilmişdir. Heydər Əliyev Fondunun təhsil ilə əlaqədar hədəflədiyi əsas məqsəd Azərbaycanda bu sahəni müasir dünyanın tələblərinə cavab verəcək səviyyədə qurmaq, milli təhsil modelinin reallaşdırılmasına zəmin yaratmaqdır. Hələ layihənin icrasının dördüncü ayında artıq 132 ədəd məktəb tikilərək şagirdlərin ixtiyarına verilmişdir. Fondun “Təhsilə dəstək” layihəsi – bilavasitə tədrisin keyfiyyətinə təsir edən problemlərin aradan qaldırılmasına – məktəblərin əyani vəsaitlər ilə, təhsil alanların isə dərs ləvazimatları ilə təmin olunmasına doğru yönəlmişdir. Hər yeni tədris ilinin başlanğıcında müxtəlif aksiyalarla bu sahədə yaranan bir sıra problemlərin həll olunmasına böyük yardım göstərilir.

Təhsil sahəsində inklüzivliyin təmin olunması, sağlamlıq imkanları məhdud olan şəxslərin təhsil alma imkanlarının optimallaşdırılması hazırda dövlətimiz üçün prioritet məsələlərdən sayılır. Bununla bağlı Heydər Əliyev Fondunun və UNICEF-in dəstəyi ilə “2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Əsas məqsəd təhsilin bütün pillələrində sağlamlıq imkanları məhdud şəxslərin təhsilini həmyaşıdları ilə bərabər şəkildə təmin etmək və onlara maneəsiz, əngəlsiz mühit yaratmaqdır.

29 dekabr 2012-ci il tarixində təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında keyfiyyətin artırılması məqsədi ilə stimullaşdırıcı mexanizmlərin yaradılması, xüsusən də, adam başına maliyyələşdirmə prinsipinin, təhsil sahəsində tətbiqi araşdırmaların, eləcə də innovativ fəaliyyətə təşviq edən qrant maliyyələşdirilməsinin həyata keçirilməsi proseslərinin genişləndirilməsi nəzərdə tutulmuşdur. Yenilənən idarəetmə modelində təhsilə

bütün maraqlı tərəflərin cəlb olunması təmin olunmalı, təhsil müəssisələrinin müstəqilliyi artırılmalı, onların idarəçiliyi dövlət-ictimai xarakter daşımalı və digər idarəetmə texnologiyalarının tətbiqi istiqamətlərində islahat yönümlü tədbirlər görülməli və bununla bağlı nəzərdə tutulmuş digər vəzifələr yerinə yetirilməlidir. Ötən illər ərzində bu vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm nəticələr əldə edilmiş, təhsil sistemində idarəetmə fəaliyyətini icra edən orqanların funksiyaları və səlahiyyətləri qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılmış və onların fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi üçün müvafiq idarəetmə mexanizmləri yaradılmışdır. Peşə təhsilinə qayğı diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Peşə məktəblərinin infrastrukturu da əsaslı şəkildə müasir tələblərə uyğunlaşdırılır, bu sahəyə vətəndaşların cəlb olunması yönündə işlər aparılır, təhsil alanların sayı ölkə iqtisadiyyatının tələbləri ilə uzlaşdırılır.

2013-cü il 24 oktyabr tarixli sərəncamla təsdiq olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təhsildə ən vacib istiqamətləri əhatə edir. Səriştəli müəllim və təhsil menecerlərinin hazırlanması, qabaqcıl texnologiyalara əsaslanan təhsil sisteminin yaradılması üçün beş strateji hədəf - məzmun, təhsilverənlər, idarəetmə, infrastruktur və maliyyələşdirmə üzrə islahatların aparılması müəyyən edilmişdir. Hər bir strateji istiqamət üzrə ötən illər ərzində mühüm irəliləyişlər qeydə alınmış, nəticələr əldə edilmişdir.

İstedadlı uşaqlar da dövlətin diqqətindən yayınmamış, onların üzə çıxarılması üçün olimpiadaların, fənn olimpiadalarının həyata keçirilməsi geniş vüsət almışdır. Bu sahədə təşəbbüslərin göstərilməsi ilə əlaqədar olaraq "İstedadlı uşaq və gənclərin inkişafı üzrə Dövlət Proqramı” hazırlanmışdır. “Təhsil haqqında” qanuna dəyişiklik edilmiş və buna əsasən beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadalarının qaliblərinin isə müvafiq ixtisas üzrə müsabiqədənkənar ali məktəblərə qəbulu məqbul görülmüşdür.

Hal-hazırda M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti və başqa bir neçə ölkənin nüfuzlu universitetlərinin Azərbaycan Respublikasında filialları fəaliyyət göstərir. Ölkəmizdə beynəlxalq ikili diplom proqramlarının tətbiqinə də başlanmışdır. Burada əsas məqsəd qabaqcıl elmi nailiyyətlərdən, innovasiya və təlim-tədris texnologiyalarından yararlanaraq, dövlətimizdə yeni nəsil peşəkar kadrların yetişdirilməsi, Azərbaycan ali təhsilinin məzmununun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları vasitəsi ilə modern dünyanın tələblərinə uyğunlaşdırılmasıdır. Almaniya, Fransa, Yaponiya, Finlandiya, ABŞ, Böyük Britaniya kimi ölkələrdə aktuallaşmış transmilli təhsil modelinin Azərbaycan Respublikasında tətbiq olunması səmərəli nəticələrin əldə edilməsinə imkan yaradır. Beynəlxalq ikili diplom proqramları ilə əcnəbi professor-müəllim heyətinin respublikamızın ali təhsil müəssisələrində tədris fəaliyyətinə başlaması müasir təlim texnologiyalarının sürətlə yayılmasına şərait yaradacaq, gənclərə yeni imkanlar açılacaqdır. Xarici mütəxəssislərin müəllimlərimizlə davamlı əlaqələrinin qurulması onların ölkəni tərk etdikdən sonra belə təhsil sisteminə töhfə vermələrini təmin edəcək. Nəticədə ali təhsil müəssisələrimizin müasir elmi-tədqiqat və innovasiya mərkəzlərinə çevrilməsi prosesi sürətlənəcək.

Bütün bunlar Azərbaycanın milli təhsil idarəetməsində aydın baxış bucağına sahib olduğunu və öz təhsilini qloballaşan və dinamik inkişafda olan dünyaya yüksək səviyyədə hazırladığını göstərir. Bu cür peşəkar yanaşma müstəqil dövlətimizin təhsil quruculuğu, elm sahəsi üçün uğurlu bir gələcək təmin edir.

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ SOSİALLAŞDIRMANIN QİYMƏTLƏNDİRİLMƏSİ PROBLEMİ

**Kazımova Aişə Əbülfət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayshekazimzade2021@gmail.com*

Sosial strukturun transformasiyası ali təhsildə baş verən proseslərin öyrənilməsi zərurətini diktə edir. Ali təhsilin vacib şərti tələbələrin uğurlu sosiallaşmasıdır.Təhsil müəssisələrin-

də tələbələrin sosiallaşması çətin şəraitdə baş verir. Təhsil proqramlarının yenilənməsi, peşə təhsili texnologiyalarının dəyişdirilməsi cəmiyyətin gənc mütəxəssislərin uğurlu inteqrasiyasına olan tələblərinin dəyişməsi ilə bağlıdır. Təhsil sisteminin, xüsusən də ali təhsilin inkişaf perspektivləri bu prosesdən çox asılıdır. Məhz universitetlər sosiallaşma institutları kimi əmək bazarında rəqabətədavamlı mütəxəssislərin hazırlanmasını təmin edə bilər. Ali təhsil hər bir cəmiyyətin əsasını təşkil edir, çünki o, təhsil, tərbiyə və müvafiq olaraq sosiallaşma funksiyalarını yerinə yetirir.

Təlim və təhsilin həyata keçirilməsində təhsilin rolu genişlənir, müvafiq olaraq təhsil sisteminin verdiyi məlumatların mənimsənilməsi və yayımlanmasında tələbələrin rolu da artır. Hal-hazırda informasiyanın həcmi durmadan çoxalır və müasir insan üçün daxil olan məlumatları qəbul etmək, emal etmək və ötürmək qabiliyyətinin əhəmiyyəti artır.Buna görə də sosiallaşmanın öyrənilməsi tələbələrin ali təhsil kontekstində xüsusi əhəmiyyət kəsb edir. Təhsil gənc nəslin təhsil və tərbiyəsinin məqsədyönlü prosesidir.Təhsil müəssisəsində şagirdlərin öz müqəddəratını təyin etmələri və sosiallaşması üçün mənəvi, əxlaqi dəyərlər və sosial-mədəni davranış normaları çərçivəsində şərait yaradılır. Bu proses fərdin ətrafdakı sosial mühitə uyğunlaşmaq üçün daxili ehtiyacını nəzərdə tutur. Sosiallaşma sosial qarşılıqlı əlaqənin əsas elementi kimi təqdim edilə bilər. İnsanlar öz hərəkətlərini başqalarının gözləntilərinə uyğun yönləndirilmiş dərəcədə ictimailəşirlər. Sosiallaşma insan münasibətlərinin müxtəlifliyində insan adətlərinin, normalarının, dəyərlərinin mənşəyini izah edir. Müasir şəraitdə gənclərin müstəqilliyi, sərbəstliyi var, onlar həyat seçimlərini edir, öz hərəkətlərinə daha çox cavabdehdir.

Bu yaş qrupu müxtəlif həyat və sosial yönümləri, maraqları, motivləri, münasibətləri ilə xarakterizə olunur. Bu gənclər qrupu sosiallaşmanın mühüm mərhələsini keçir. Tələbə təhsil müəssisəsində təhsil qəbul edən şəxsdir. Tələbələr müəyyən status və rol dəstinə malik sosiallaşmanın xüsusi mərhələsində sosial-psixoloji xüsusiyyətlərlə səciyyələnən sosial-demoqrafik qrupdur. Tələbələrin müəyyən dəyərlər sistemi, müəyyən maraqlar birliyi, qrup şüuru, konkret həyat tərzi var. Universitetdə təhsil aldığı müddətdə tələbələr öz müqəddəratını təyinetmə prosesində olurlar. Yalnız bilik və özünüinkişafın gələcək fəaliyyətlərində uğur qazandıracağını anlayanlar xüsusilə seçilən tələbələr olur. Tələbə gənclərinin sosiallaşması adət-ənənələrdə, normalarda, dəyərlərdə özünü göstərən müxtəlif sosial münasibətlər və parametrləri əhatə edir. Tədris prosesində formalaşan sosial əhəmiyyətli keyfiyyətlər gənclərə sabit mövqe tutmağa imkan verir, onlar cəmiyyətdə özünü peşəkarcasına dərk edir, təkmilləşməsinə töhfə verir. Hazırda ali təhsil sistemi geniş şəkildə inkişaf edir: yeni ixtisaslar meydana çıxdı, ali məktəblərə və onların çoxsaylı filiallarına, o cümlədən müqavilə əsasında təhsil alanlara qəbul artdı. Eyni zamanda, ümumi orta təhsilin keyfiyyəti (və müvafiq olaraq abituriyentlərin hazırlıq səviyyəsi) arzuolunan dərəcədə çox şeyə nail olub. Universitetdə peşəkar sosiallaşma prosesi təkcə peşəkar bilik və bacarıqların inkişafını deyil, həm də fərdin peşəkar şəxsiyyətinin formalaşmasını və özünü həyata keçirməsini nəzərdə tutur.Ali təhsilin fəaliyyətinin qiymətləndirilməsinə bu yanaşmaları əsas götürərək və məzunların ixtisas üzrə işlə təmin olunmasının ehtimal xarakterini nəzərə alaraq, tələbələrin peşəkar sosiallaşmasının həyata keçirilməsində universitetin əsas vəzifələrini formalaşdıra bilərik:

- universitetdə oxuyan tələbə peşə terminologiyasına yiyələnməli, öz peşəsinin "dilini" öyrənməlidir, çünki işəgötürənlər tez-tez bu amilə diqqət yetirirlər;
- universitet təhsil proqramları özünütəhsil bacarıqlarının inkişafına və tələbələrin özünüinkişaf ehtiyaclarının formalaşmasına yönəldilməlidir;
- universitet tələbəni bu peşə sahəsində mövcud olan peşə etikasının əsasları, norma və qaydaları ilə tanış etməlidir.

Beləliklə, müasir mərhələdə tələbələrin peşəkar sosiallaşması prosesində universitetin vəzifələri yüksək keyfiyyətli peşə hazırlığı, tələbə şəxsiyyətinin inkişafı və özünü həyata keçirməsi üçün şəraitin yaradılması, habelə fəal şəxsiyyətin formalaşdırılmasıdır.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA TƏHSİLİN İDARƏ OLUNMASI XÜSUSİYYƏTLƏRİ

**Mirzəyeva Çinarə Nəsrəddin qızı**
**Azərbaycan Dövlət pedaqoji Universiteti**
*chinaremirzayeva1998@gmail.com*

ABŞ universitetləri, bu ölkənin təhsil sistemi, onun idarə olunması ilə bağlı zəruri informasiyalara malik olmaq vacibdir. Bu, ABŞ-la hərtərəfli əlaqələrin qurulmasında və inkişaf etdirilməsində ali təhsilli məzunların fəaliyyətinin yaxşılaşdırılmasına kömək edə bilər. Burada universitetlərin idarə olunmasındakı fərqli xüsusiyyətlər universitetlərin tipindən, dövlət və ya özəl olmasından, tarixindən, yerləşdiyi regionun sosial-iqtisadi xüsusiyyətlərindən, maliyyə mənbələrindən irəli gəlir. Lakin idarəetmədə dəyişməz prinsiplər də az deyil. Həmin prinsiplərə görə tələbəyə dövlətin, cəmiyyətin gələcəyi kimi baxılır. Tam müstəqillik, demokratik dəyərlərə sadiqlik, universitetin şərəfinin həm ölkə daxilində, həm də xaricdə uca tutulması, aşkarlıq bu prinsiplərə daxildir. ABŞ universitetlərinin rektorlarından (prezidentlərindən) söz düşəndə onları akademik sahənin "qurbanları" adlandırırlar. Onlar günün 24 saatını, həftənin 7 gününü tələbələrin sonu bitməyən arzu-təklifləri, akademik keyfiyyətin yüksəldilməsi, universitet büdcəsinin balanslaşdırılması, universitetin imicinin yüksəldilməsi, yerli və federal hökumətlə əlaqələrin normallaşdırılması işinə həsr edirlər. Məhz bu cür idarəetmə ABŞ universitetlərini digər ölkə universitetlərindən fərqləndirir. Bu fərqli xüsusiyyətlər nədir?

1) Ali təhsilin əmək bazarının ehtiyaclarına istiqamətlənməsi, xüsusilə işəgötürənlərin gözləntilərinin, tələblərinin ödənilməsi,

2) Tələbələrin seçdikləri ixtisaslar üzrə lazımi bilik və bacarıqlara yiyələnmələri üçün hər cür şərait yaratmaqla bərabər, onlara iş tapmaq üçün, karyera qurmaları üçün lazımi səriştələrin aşılanması. Hər bir universitetdə universitet strukturunun əsas bir bölməsi kimi karyera mərkəzləri bu sahədə əvəzsiz fəaliyyət göstərir.

3) Tələbələrin universitetin idarəedilməsində əsl söz sahibi olmaları və demokratik təhsil mühitininn olması,

4) Müəllim-tələbə münasibətlərinin yüksək formada olması və s.

İdarəetmədə rəngarənglik, şablondan qaçmaq ciddi şəkildə gözlənilir. Hər bir idarəetmə forması həmin təşkilatın unikal tarixini və tələbatlarını özündə əks etdirir. İdarə edən qurumlar (Qəyyumlar Şurası, Universitet senatı və s.) mərkəzləşdirilmiş deyil, avtonomluq prinsipinə söykənir. 1966-cı ildə Amerika Universitet professorları Assosiasiyanın birgə razılığı ilə demokratik idarəetmənin prinsipləri qəbul edilmişdir. ABŞ ali təhsilində idarəetmə nə qədər demokratik olsa da, bütün idarəetmənin bir ümdə vəzifəsi var: işlədiyi müəssisənin maraqlarını qorumalı, cəmiyyətdə ona bir inam yaratmalıdır.

ABŞ-da universitetlər prezident adlanan şəxslər tərəfindən idarə olunur. İdarəetmədə iştirak edən bütün tərəflər, fərdlər və hər bir idarə edən fərd, qrum özündən yuxarı fərd və ya qurum qarşısında hesabat verməyə borcludur.

Rəhbər şəxs Qəyyumlar Şurası tərəfindən seçilir və bu şura qarşısında hesabat verir. Onlar (universitet prezidentləri) daxili və xarici olmaqla iki istiqamətdə qərar qəbul edir, bu qərarların yerinə yetirilməsinə nəzarəti həyata keçirirlər. Universitetdaxili qərarlara strateji planlaşdırma, maliyyə təminatı, bütün sahələr üzrə işçi heyətinin formalaşdırılması, tələbə qəbulu, tədrisin məzmununun hazırlanması, tələbələrlə iş, təhlükəsizliklə bağlı məsələlər və s. aiddir.

Universitet rəhbərinin xariclə bağlı qəbul etdiyi qərarlara isə bunlar daxildir: müxtəlif idarəetmə strukturları ilə, məzunlarla, maliyyə dəstəyi göstərən şəxslərlə əlaqələr, universitetin rəqabətə davamlılığının təmin olunması, məzunların sonrakı fəaliyyətinin öyrənilməsi və s.

ABŞ-da idarəetmənin demokratik əsası universitet prezidentinin seçilməsi ilə başlayır. Bu məqsədlə universitetdə “Axtarış komissiyası” deyilən bir komitə yaradılır və onlar

namizədlərin arasından uyğun gələnlərini universitetin “Ali İdarəedici Qəyyumlar Şurası”na təqdim edirlər və burada namizədlərdən biri universitetin rektoru təyin edilir.

Qeyd edək ki, ABŞ-da universitetlər dövlət və özəl olmaqla iki yerə ayrılır. Birinci qrupa daxil olan universitetlər dövlət büdcəsindən, özəl universitetlər isə ödənişli təhsildən əldə edilən vəsaitlə maliyyələşir. Lakin bunlar universitetlərin maliyyələşdirilməsinin yeganə mənbəyi deyil. Ayrı-ayrı şəxslərin, müəssisələrin həm dövlət, həm də özəl universitetlərə maliyyə yardımı etmələri Amerikada qeyri-adi hal sayılmır. Məzunlar tələbəsi olduqları universitetlərə yardım etməkdən şərəf duyurlar. Təsadüfi deyil ki, 2008-ci ildə ABŞ universitetlərinə təmənnasız ödənilmiş 31 milyard dollar vəsaitin böyük bir hissəsi-30 faizi məzunlar tərəfindən ayrılmışdır. Özəl ali məktəblərə dövlət güzəştli şərtlərlə kredit ayırır. Ayrılan vəsait məvaciblərin ödənilməsinə, ehtiyacı olan tələbələrə kreditlərin ayrılmasına xərclənir. ABŞ-da Universitet prezidentinin illik məvacibi 150 000-200 000 arası ABŞ dollarıdır. Universitet rəhbərinin maaşının təyin edilməsinə təsir göstərən əsas amil orada aparılan elmi-tədqiqat işlərinin səviyyəsidir. Çünki universitetin maliyyələşdirilməsinin əsas mənbələrindən biri elmi tədqiqatlardan əldə edilən gəlirlərdir.

ABŞ-da elmin idarə edilməsi təcrübəsi xeyli maraq doğurur. Çünki söhbət təhsil, iqtisadiyyat sahələri və müxtəlif dövlət orqanları ilə sıx inteqrasiya edən dünyanın ən iri Elmi-Texniki Kompleksindən gedir. Burada universitetlərin tədqiqat mərkəzləri, sənaye korporasiyaları, milli dövlət laboratoriyaları, azad tədqiqat təşkilatları, kiçik və orta kommersiya və mühəndis şirkətləri, kooperativ təşkilatlar daxildir. Hökumət ETK-nın müstəqil fəaliyyətinin səmərəliliyini təmin edir, həmçinin elmi-texniki siyasətin formalaşması işinin təşkili ilə məşğul olur.

Milli Elm Fondu (MEF) federal hökumət tərkibində elm və texnikanın inkişafına məsul olan yeganə qurumdur. MEF əsasən universitetlərdəki kiçik, orta kommersiya və mühəndis firmalarındakı fundamental tədqiqat proqramlarını maliyyələşdirir.

Federal hökumətin büdcə maliyyəsi nəzəri elmin inkişafını stimullaşdıran əsas mənbə hesab olunur. Federal hökumətin maliyyəsi universitetlərin fundamental tədqiqat xərclərinin 65 faizini və qeyri-təhsil xərclərinin isə 60 faizini təşkil edir. Dövlət bu investisiyanı bütün elm sahələrində liderliyi saxlamaq məqsədilə ayırır.

Ali təhsil müəssisələri qabaqcıl fundamental tədqiqatların həyata keçirilməsində və yüksək ixtisaslı elmi kadrların yetişdirilməsində əsas rola malikdir. ABŞ ali məktəblərində təhsil prosesi ilə yüksək keyfiyyətli elmi tədqiqatlar bir-birilə sıx birləşir.

Bundan əlavə, ölkədə bir sıra elmi-tədqiqat institutları fəaliyyət göstərir. Bu müəssisələrin məqsədi tədqiqatların aparılması, biliklərin dərinləşdirilməsidir. Bu institutlar arasında 1916-cı ildə yaradılmış Dövlət Tədqiqatları İnstitutu (Institute for Government Research) və 1927-ci ildən fəaliyyət göstərən Brukinqs İnstitutu (Brookings Institution) daha məşhurdurlar.

## MƏKTƏBDƏ ÜMUMİ FƏALİYYƏTİN PLANLAŞDIRILMASININ ZƏRURİLİYİ

**Abdullayeva Gülbəniz Asif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*abdullayevagulbeniz94@gmail.com*

Kollektiv nəinki təşkil olunmalı, həm də “öz-özünü təşkil etməlidir”, yəni kollektiv öz fəaliyyətinin subyektinə çevrilməlidir. Gələcək hadisələri, prosesləri öncə görmədən, bilmədən məqsədyönlü və səmərəli idarə etmək çətindir. Ona görə də pedaqoji planlaşdırma və bu prosesə uyğun gələn çoxsaylı sənədlər, planlar yarandı. Hazırda tədris müəssisələrinin işini, məktəb tədbirlərinin hazırlanmasını və keçirilməsini, müəssisə rəhbərinin, onun müavinlərinin işini, valideynlərlə və “risk qrupu”na daxil olan uşaqlarla işi, müəllimlərin ixtisasartırmasını, fənn metodbirləşməsinin, uşaq təşkilatı rəhbərinin, sinif rəhbərinin, Pedaqoji şuranın işini plansız təsəvvür etmək çox çətindir. Yaxşı düşünülmüş planlaşdırma məktəbin pedaqoji kol-

lektivi və xüsusilə, müdriyyətin məqsədyönlü fəaliyyəti və səmərəli işinin təşkilinin vacib şərtlərindəndir. Nəticəyönümlü prosesdə real dönüş planlaşdırmadan başlayır. Əgər gözlənilən işin nəticələrinin proqnozlaşdırılması zamanı icraçıların real imkanları, maddi ehtiyatları nəzərə alınarsa, kifayət qədər gərgin, yəni burada bütün gərəkli imkan və ehtiyatlar fəaliyyətə başlarsa, o zaman plan əsas məqsədə xidmət edəcəkdir. Planlaşdırma zamanı məktəb, ailə, cəmiyyət, pedaqoji kollektiv və onun hər bir üzvünün vəhdətini təmin etmək məqsədilə planlaşdırma növlərinin (fərqli bölmələrin planları) müvafiqlik təminatı zəruridir. Bu tələbin reallaşması ümumtəhsil məktəbində problemlərin həllində kompleks yanaşmanın həyata keçirilməsinə zəmin yaradır. Planlaşdırma məqsədlərin nailiyyət proqramının tərtibatıdır. Məhz bu səbəbdən, fəaliyyətin planlaşdırılması konkret tədbirləryönlü səciyyəvi məqsədləri əhatə edən hədəflənmə ilə sıx əlaqədardır. Bütün planlaşdırılan tədbirlər qoyulmuş məqsədlər əsaslı olmalı, onların nailiyyəti üçün fəaliyyət göstərilməlidir. Yalnız bu halda, məktəb rəhbərliyi məqsədlər ardıcıllığını planlar, tədbirlər, qərarları idarə edə və əks etdirə bilər: pedaqoji fəaliyyətin proqnozlaşdırılan nəticələri, bu fəaliyyətin keyfiyyət xarakteristikası, onun şərtləri, planlaşdırma bu idarəetmə funksiyası təyinatının reallaşmasını təmin edəcək: sistem məsələlərini əks etdirəcək, rəhbər və icraçıların səylərini birləşdirəcək, işdə ardıcıllıq, bitkinlik və fasiləsizliyi təmin edəcəkdir.

Planda göstərilən kimi yaşamaq, planlaşdırılan kimi işləmək üçün qurulmur. Bəzən insanlar məhz belə də edirlər, həyat və fəaliyyətlərindəki uğurlu plana müvafiq qiymətləndirirlər. Yaxşı plan yalnız həqiqi həyatı müəyyən etmir, hər şeydən əvvəl o, ssenariləşir, öz gedişi, cari həyat vəziyyətlərinin dəyişməsi ilə müəyyənləşir. Belə ki, həyat daima dəyişir, onunla bərabər bizim planlarımız da dəyişir. Onların təyinatı nədən ibarətdir, onlar hansı rolu oynayırlar?

Keyfiyyətli planlaşdırma məktəbin pedaqoji kollektivinin əsas təşkilati və ritmik işinin şərtidir. İş prosesində planlılığı qorumaq, təhsil müəssisəsi, onun struktur bölmələri və fərqli icraçılarının gündəlik fəaliyyəti reallaşan bütün planlar arasında uyğunluq və əlaqəyə nail olmaq lazımdır. Bu planların icraçılara vaxtında çatdırılması və bütün tədbirlərin hazırlıq prosesinə nəzarət etmək vacibdir.

Planlaşdırma prosesində məktəb direktorunun şəxsi rəhbərliyi və iştirakı yüksək planlaşdırma keyfiyyətidir. Planın hazırlanmasında bilavasitə məktəb direktoru özü iştirak etməlidir.

Məktəb direktorunun əsas vəzifəsi, tədbirləri müəyyən etmək, onların icrası prosesini təşkil etməkdir. Hər ay ərzində təhsil müəssisəsinin gündəlik fəaliyyət planının icrasının təşkilində məhz direktorun şəxsi iş keyfiyyəti əsaslı əhəmiyyət daşıyır. Məktəb direktorunun əsas və vacib effektli fəaliyyətinin şərti onun işinin planlaşdırılmasıdır. Direktorun hər ay üçün hazırladığı şəxsi iş planı onun fəaliyyətinin planlaşdırılmasının təminatıdır. Hələ heç bir direktor planlaşdırılmamış işdə uğur əldə etməmişdir.

Ümumtəhsil məktəbinin illik fəaliyyəti planlaşdırılarkən bir çox prinsiplərin nəzərə alınması tövsiyə edilir. Fikrimizcə, təlim-tərbiyə prosesi haqqında yaranmış nümunəvi təsəvvürlərin əsası qoyulmuş ideya və qaydalar sırasına-sistemlilik, dəqiqlik, optimallıq, dialoq, fərdilik, elmilik, fasiləsizlik prinsiplərini də aidetmək olar. Bu prinsipləri nəzərdən keçirək:

Sistemlilik prinsipi təlim-tərbiyə prosesinə birneçə qarşılıqlı komponentlərin cəmindən təşkilolunmuş çətin bir sistem kimi baxmağı tövsiyə edir. Məlumdur ki, sinfin təlim-tərbiyə sisteminin tərkibinə bu komponentlər: insanlar (sinif rəhbəri, sinif şagirdləri, onların valideynləri, məktəbin müəllimləri və b.); onların fərdi və kollektiv maraqları, tələbatı, dəyərləri, birgə fəaliyyətin ünsiyyət və münasibəti, məqsədi, prinsipi, məzmunu, forması və təşkili üsulları; cəmiyyətin daxili və xarici əlaqələri; meyarları, göstəriciləri, təlim-tərbiyə prosesinin vəziyyətinin və nəticələrinin öyrənilməsi, təhlili və qiymətləndirilməsinin qayda və metodları daxildir.

Konkretlilik prinsipi plan tərtib edənlərə başqa tədris kollektivlərində görülən işləri təkrar etməməyi tövsiyə edir. Planlaşdırmada sinfin inkişafında iştirak etmiş kollektiv üzvlərinin maraq və tələblərini nəzərə almaq vacibdir.

Optimallıq prinsipi məktəbin idarəetmə işinin planlaşdırılmasının üç vacib halı ilə bağlıdır.

Birincisi, planlaşdırma yolu ilə müəllim-şagird və valideynlərin kollektiv aparılan işdə ən fəal iştirakının yolunu tapmalıdır. İkincisi, bu birgə fəaliyyətin nəticəsi məktəbdə həyat fəaliyyətini və oradakı təlim-tərbiyə prosesinin optimal variantını yaratmalıdır.

Üçüncüsü, məktəb rəhbəri fəaliyyət planının forma və quruluşunun elə optimal variantını seçməlidir ki, tərtib olunmuş sənəd gündəlik işdə istifadə üçün yaralı olsun.

Dialoq prinsipi aydınlaşdırır ki, planlaşdırma iştirakçılarının hərəkət və fikirlərinin dialoqu-plan hazırlığının əsas şərtidir. Kollektivin hər bir üzvünün fikirlərinə diqqətli münasibət, müxtəlif nöqteyi-nəzərlərin hesaba alınması, sinifdə həyat fəaliyyətinin və orada təlim-tərbiyə prosesinin yaranmasının düzgün təyin edilməsində böyük məna kəsb edir.

Fərdilik prinsipi planlaşdırma iştirakçılarına məktəbdə aparılan iş sistemi haqqında təsəvvür yaratmağa istiqamət verir. Burada hər bir şagirdin fərdiliyinin nəzərə alınmasını tələb edir.

Elmilik prinsipi məktəb rəhbərinin plan işi hazırlığında təlim, tərbiyə və inkişafın mahiyyəti və qanunauyğunluqları, müasir pedaqojikonsepsiyaları, gənclərin təlim-tərbiyəsi haqqındakı nəzəriyyələri, milli və xarici ölkə alimlərinin şagirdlərlə aparılan təlim-tərbiyə işinin təşkili və planlaşdırılması haqqındakı fikirlərinə arxalanmasının elmi ifadəsidir.

Fasiləsizlik prinsipi planlaşdırma prosesində fasiləsizliyin əsas xüsusiyyətlərindən biri olduğunu plan tərtibçilərinin nəzərinə çatdırır. Məktəbin fəaliyyət planının mükəmməlliyi, bu işin hələ tam başa çatmamasıdır. Hətta təcrübəli məktəb direktorları planın tərtibindən sonra, onda yeni düzəlişlər edir, çünki məktəbin təlim-tərbiyə işinin sistemi canlı orqanizmdir. Burada uşaq və böyüklərin maraqları, istəkləri mahiyyətcə dəyişir, şəxsi psixi-emosional və iş münasibətlərində düzəlişlər edilir, onları əhatə edən sosial və canlı mühitlə yeni əlaqələr yaranır. Bütün bunlar fəaliyyət planında dəyişikliklər etməyə məcbur edir.

## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TƏHSİLİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**Cəfərli Nigar Fuad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*jafarlingr@gmail.com*

Azərbaycan Ordusunun tarixi zəfər ilə yaddaşlarda iz qoymuş II Qarabağ müharibəsi dövründə Ali Baş Komandan cənab Prezident İlham Əliyev bütün təzyiqlərə sinə gərmiş, qətiyyət, prinsipiallıq, dəmir iradə və "Dəmir yumruq" əməliyyatı ilə münaqişənin hərbi yolla həllinin olduğunu sübut etmişdir. Bunun nəticəsidir ki, ölkəmiz münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini yerinə yetirdi. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin üçtərəfli bəyanat imzalaması ilə münaqişə başa çatdı. Ermənistan təslim oldu. Daxili həmrəyliyimiz, milli və ümumi məqsəd uğrunda birliyimiz bizə əlavə güc verdi. Bəzi mənfur xarici dairələrin Azərbaycanda öz çirkin planlarını həyata keçirməsinə imkan vermədi. İqtisadi güc, güclü ordu, beynəlxalq uğurlar, milli həmrəylik, birlik Azərbaycana qələbə gətirən amillər oldu.

Azərbaycan xalqı Böyük Vətən Müharibəsində qazanılan tarixi qələbənin əhəmiyyətini heç vaxt unutmayacaq. Bu qələbə işğal altındakı torpaqların 20 faizinin azad edilməsi deyil, həm də xalqın dirçəlişinin, oyanmasının mənəvi simvoludur. 44 günlük müharibə Azərbaycanın və azərbaycanlıların dünya miqyasında təsəvvürlərinin müsbətə doğru xeyli dəyişməsini əks etdirən qəhrəmanlıq səhifəsidir. Bu müharibə ilə dünya əmin oldu ki, Azərbaycan və

Azərbaycana möhtəşəm qələbə qazandırmış Ali Baş Komandan İlham Əliyev, qalib ordu və ən müasir silahlarla düşmənə tarixi dərs keçən liderdir.

Azərbaycan xalqı noyabrın 10-da Prezident İlham Əliyevin müraciətini Böyük Vətən müharibəsinin başa çatması kimi dəyərləndirmiş, Vətən müharibəsinin iştirakçılarının heç vaxt unudulmayacağına bir daha əmin olmuşdur.Qazilər də, şəhidlər də: "...Biz bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Ermənistan respublikası ilə 44 gün davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir.Bu ərazilər artıq 2 böyük iqtisadi rayona ayrılır: "Qarabağ" və "Şərqi Zəngəzur". İşğaldan azad edilmiş ərazilərin "Qarabağ" iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları və "Şərqi Zəngəzur" iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları aid edilir.

Azərbaycan hökuməti Böyük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası üçün təxirəsalınmaz işlərə başlayıb. İndi hökumətin əsas vəzifəsi sonrakı mərhələdə ilkin infrastrukturun tikintisi və yaşayış evlərinin tikintisi ilə paralel olaraq qısa müddətdə əraziləri minalardan təmizləyərək əhalinin öz torpaqlarına qayıtmasını təmin etməkdir. Lakin əhalinin qayıdışı təkcə fiziki olaraq deyil, həm də müvafiq idarəetmə institutlarının yaradılması fonunda baş verməlidir.

"Ağıllı kənd" pilot layihəsi

Prezident İlham Əliyev Zəngilana səfər zamanı Ağalı kəndində "Ağıllı kənd" təməlini qoymuşdur. Ermənistan sərhədləri yaxınlığında yerləşən bu kənddə ən müasir dünya standartlarına cavab verən layihələrin həyata keçirilməsi, kəndlərarası yeni yolların çəkilməsinə başlanmışdır. Çox qısa vaxt ərzində Zəngilanın Ağalı kəndi timsalında işğaldan azad olunmuş ərazilərdə ən müasir texnologiyalara əsaslanan quruculuq prosesinə başlanılması artıq məlumdur.

Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq: yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub.

Bunlar deməyə əsas verir ki, Zəngilandakı Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşəcək.

Ağalı kəndində Prezident bu layihələrdə iştirak edən Türkiyə, Çin, İsrail, İtaliya şirkətlərinin nümayəndələri ilə söhbət aparmışdır. Məlum oldu ki, bir çox şirkətlərlə yanaşı, texnologiyaları sahəsində dünyanın ən inkişaf etmiş kompaniyalarından olan "Huawei-Azərbaycan" şirkəti tərəfindən "Qiqabit AirPON" texnologiyası istifadəyə veriləcək. Şirkət "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq, "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemlərini də həyata keçirəcək.

Zəngilanda Beynəlxalq Hava Limanı, Zəngilan-Horadiz avtomobil yolu

Azərbaycan Prezidenti Zəngilana səfəri zamanı bölgənin gələcəyi üçün hərbi-iqtisadi strateji əhəmiyyət daşıyan hava limanının təməlqoyma mərasimində iştirak etdi. Burada xüsusilə vurğulamaq lazımdır ki, inşası artıq başa çatmış Füzuli aeroportu kimi Zəngilandakı hava limanı da bütün növ təyyarələri qəbul edəcək və beynəlxalq hava limanı statusu daşıyacaq. Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır.

Təhsillə bağlı aparılan tədbirlər

İşğaldan azad edilmiş ərazilərdə işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərmişdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə işğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyacları müəyyənləşdirilməli, mövcud təhsil infrastrukturunun vəziyyəti qiymətləndirilməli və fəaliyyətinin təşkili ilə bağlı planlar hazırlanmalıdır. İşğal olunmuş ərazilərdə mövcud problemlərin həlli üçün ciddi tədbirlər görülməli, ekoloji və mədəni irs nümunələrinin vəziyyəti təhlil olunmalı, ekoloji maarifləndirmə işi sistemləşdirilməli, təbii resurslardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi məsələləri prioritet istiqamətlər arasında ön sıralarda olmalıdır.

Növbəti illərdə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə bağlı "Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq işğaldan azad edilmiş rayonlarda da işlər inanırıq ki, uğurla davam etdiriləcəkdir.

**Ədəbiyyat:**

1. A.Ş.Həsənov. İşğaldan azad olunmuş ərazilərdə məskunlaşma problemlər və həll yolları. Bakı, 2021. – s. 215.

2.https://apa.az/az/xeber/sosial-xeberler-621763

3.http://www.shirvan-ih.gov.az/page/103.html

## MAGİSTRATURA SƏVİYYƏSİNDƏ TƏHSİLİN MƏZMUNUNUN HÜQUQİ-NORMATİV SƏNƏDLƏRDƏ ƏKSİ

**Ağayeva Fidan Asəf qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*fdnaghayeva99@gmail.com*

"Magistr" (lat. magister-rəhbər, müəllim)-magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsidir.

Normativ sənədlərdə, mövcud təhsil qanunvericiliyi aktlarında, rəsmi sərəncamlarda və eləcə də əsasnamələrdə magistr anlayışı və magistr hazırlığı ilə bağlı məlumatlara rast gəlirik. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Magistr hazırlığı haqqında" müvafiq qərarına əsasən 1997-1998-ci tədris ilindən respublikamızda ali təhsilin ikinci – magistratura səviyyəsinə keçilib. Bu qərarla əlaqədar olaraq 1997-1999-cu illərdə müvafiq normativ - hüquqi baza yaradılıb, respublikada magistr hazırlığını həyata keçirmək məqsədilə lazımi sənədlər hazırlanıb və təsdiq olunub. Həmin sənədlər Azərbaycan Respublikasında çoxpilləli və çoxsəviyyəli təhsil sistemində magistr hazırlığı (magistratura), magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları, magistrlik dissertasiyasının müdafiəsi üçün İxtisaslaşdırılmış Elmi Şuralar, magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu, ali təhsilin magistratura səviyyəsində professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodik və digər işlərin əsas növləri haqqında əsasnamələri əhatə edir.

Bunlardan biri də Təhsil haqqında Azərbaycan Respublikasının Qanunudur. Hesab edirəm ki, bu qanun mükəmməl bir hüquqi sənəddir və təhsilimizin konstitusiyasıdır. Qanunun "Əsas anlayışlar" bölməsində Maddə 1-də göstərilir ki, magistr-magistraturanı bitirmiş şəxslərə verilən ali elmi-ixtisas dərəcəsidir. Burada eyni zamanda magistr hazırlığı ilə bağlı digər məlumata da rast gəlirik. Belə ki, Maddə 22-də magistratura təhsili ali təhsilin səviyyələrindən biri olaraq ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlərdən ötrü dərindən öyrənilməsini nəzərdə tutur. Məzunlara peşəkar fəaliyyətlə, elmi-tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 saylı qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsində" göstərilir ki, ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadr hazırlığı üç səviyyədən: bakalavriat (tibb təhsili istisna olmaqla), magistratura (tibbi təhsili istisna olmaqla) və doktoranturadan ibarətdir. Magistratura ali təhsilin ikinci səviyyəsi olmaqla, ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və peşəkar məqsədlər üçün dərindən öyrənilməsini nəzərdə tutur.

Tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq ali təhsil müəssisələrində magistraturaların açılmasına razılıq Təhsil Nazirliyinin təqdimatı ilə Nazirlər Kabineti tərəfindən, müəyyən istiqamət və ixtisaslar üzrə, magistr hazırlığına icazə isə təhsil müəssisəsinin təqdimatı əsasında Təhsil Nazirliyi tərəfindən verilir.

Bunlarla əlaqədar magistr hazırlığı aparılan bütün istiqamətlər (ixtisaslaşmalar) üzrə magistr təhsil proqramları və tədris planları təsdiq edilib və müvafiq ali məktəblərdə müvəffəqiyyətlə tətbiq olunur.

Ali təhsil müəssisələrində magistr hazırlığını təmin edən şərtlər vardır ki, bu şərtlərdən biri də fənləri tədris edən müəllimlərlə bağlıdır. Belə ki, 13 fevral 1997-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistrhazırlığı (magistratura) haqqındaəsasnamə"də göstərilir ki, magistratura səviyyəsində kadr hazırlığına iddiaçı olan təhsil müəssisəsində istiqamət üzrə tədris prosesini təmin edən elmi-pedaqoji kadrların ümumi sayının ən azı 50 faizi, ixtisas üzrə isə ən azı 5 nəfəri elmi dərəcəli olmalıdır.Eyni zamanda burada o da göstərilir ki, ali təhsil müəssisəsində magistr hazırlığının məzmununu təmin edən şərtlər də vardır ki, bu şərtlərə: magistr təhsili proqramlarına daxil edilmiş fənlərin işçi proqramlarında nəzərdə tutulan tədris-informasiya vasitələrinin lazımi miqdarda olması və ali təhsil müəssisələrində müasir milli və beynəlxalq informasiya şəbəkələrinin və məlumat bankları ilə əlaqə terminallarının mövcudluğu və bunlar üçün zəruri miqdarda işçi yerlərinin olması təmin edilməlidir.

Bu gün konkret olaraq "magistr" dedikdə yüksək intellektual səviyyəyə, hərtərəfli hazırlığa, analitik-tədqiqatçılıq təfəkkürünə malik, elmi yaradıcılıq metodologiyasını mənimsəmiş, ən müasir informasiya-kommunikasiya texnologiyalarına yiyələnmiş, konsultativ, yaradıcı və praktik fəaliyyətli peşəkar mütəxəssis nəzərdə tutulur.

Magistr təhsilinin məzmunu tədris prosesinin və elmi tədqiqat işlərinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ, laboratoriya və s.), ayrı-ayrı fənlərin həcmini, ixtisasın ixtisaslaşmaları üzrə təhsil proqramında qoyulan tələbləri əhatə edir.

"Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2010-cu il tarixli qərarında göstərilir ki, tədris ili, bir qayda olaraq, iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq, yay semestri də təşkil oluna bilər. Əyani formanın təhsil müddətində nəzəri tədrisə — 45, elmi tədqiqat və elmi-pedaqoji təcrübələrə — 8, imtahan sessiyalarına isə 15 həftə ayrılır. Bu zaman auditoriya saatları 12-16 həftədir. Dissertasiya işinin hazırlanması və müdafiəsinə 12, tətillərə isə 14

həftə ayrılır. Tələbənin auditoriya və auditoriyadankənar (bütün tədris, elmi tədqiqat və elmi-pedaqoji) həftəlik yükünün həcmi 45 saatdır. Bu zaman dərslər 12-16 saat təşkil edir.

Biliyin qiymətləndirilməsinin çoxballı sistemi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə" ilə tənzimlənir. Biliyin qiymətləndirilməsinin çoxballı sistemi tələbələrin tədris fəaliyyəti nəticəsində əldə etdikləri bilik və bacarıqların qiymətləndirilməsinin yeni mexanizmidir. Tələbənin hər bir fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı tələbənin semestr ərzindəki fəaliyyətinə (cari qiymətləndirmə), digər yarısı isə imtahanın nəticələrinə görə toplanır. Balların maksimum miqdarının bölgüsü aşağıdakı kimi müəyyənləşdirilir: - 10 bal dərslərə davamiyyətinə görə; - 10 bal tələbənin sərbəst işinə görə; - 30 bal seminar (məşğələ) dərslərinin nəticələrinə görə; - 50 bal imtahanın nəticəsinə görə. Qeyd edim ki, sadəcə mühazirəsi olan fənlərdə 30 bal kollokviumlardan əldə edilir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 7 iyul 2021-ci il tarixli qərarı əsasında 2021-2022-ci tədris ilinin sonunda magistr dissertasiya işlərinin qiymətləndirilməsi İxtisaslaşdırılmış Şura tərəfindən aşağıdakı kimi həyata keçiriləcəkdir:

• dissertasiya işinin məzmununa görə - 60 bal;
• iddiaçının (magistrantın) məruzəsinə görə - 25 bal;
• iddiaçının (magistrantın) sualları cavablandırmasına görə - 15 bal.

Müvafiq ixtisas kafedrası magistrlik dissertasiya işinin müdafiəyə buraxılmasını tövsiyə edir.

Təhsil zamanı magistrant fərdi tədris planına ciddi riayət etməklə tədris olunan fənləri mənimsəməyə borcludur. Magistrant ali təhsil müəssisəsinin daxili intizam qaydalarını pozduğu halda ona müvafiq qaydada intizam tənbehi tədbirləri tətbiq edilir. Magistrant bir fənni ödənişli əsaslarla istənilən qədər seçə və dinləyə bilər.

**Ədəbiyyat:**


1. "Magistrant" dövri-elmi jurnalı, Bakı-2021, №1
2. «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununu (http://www.e-qanun.az/framework/18343)
3. Ali təhsil müəssisələrinin Əsasnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı (http://www.e-qanun.az/framework/14459)


## HUMANİTAR FƏNNLƏRİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ


**Yusifli İntizar Vilayət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*gulayayla949@gmail.com*
**Elmi rəhbər: dos. Ə.İ.İsmayılxanova**


Vətənpərvərlik tərbiyəsi təlim-tərbiyə prosesinin ən mühüm hissəsidir. Hər bir məktəbli dərslikdə olan mətnləri öyrənərkən elmi biliklərə yiyələnir, dərsliklərdəki nümunələrlə tanış olur, ən nəcib əxlaqi keyfiyyətlərin harada və necə istifadə olunması haqqında yeni-yeni təsəvvürlər əldə edirlər. Bunlar isə uşaqların bir şəxsiyyət kimi inkişafına güclü təsir edir. Məktəblilər xalq, Vətən, ədalət, azadlıq, doğma yurd uğrunda vuruşmuş qəhrəmanların timsalında Vətənini sevir, bütün vücudu ilə işğalçılara nifrət edirlər. Hər bir şagird Vətən yolunda canından keçmək duyğusu ilə yaşayırlar.

Ümumtəhsil müəssisələrində tədris olunan humanitar fənnlərdə vətənpərvərlik tərbiyəsi ilə bağlı olduqca çox materiallar vardır. İstər İkinci Dünya müharibəsində, istərsə də Birinci

Qarabağ müharibəsində iştirak etmiş qəhrəmanlar haqqında yazılmış hekayələr şagirdlərin hafizəsində özünə yer etmişdir.

2021-ci ilin sentyabr ayının 27-nə kimi torpaqlarımızın 20 faizinin mənfur düşmən tapdağında olması bizim bir vətəndaş kimi qəlbimizdə böyük bir yara idi və biz bu ağrılarla düz təxminən 30 il yaşadıq. Amma əyilmədik, yenilmədik, mübarizəmizi davam etdirdik. Heç vaxt ümidimizi itirmədik. Biz inanırdıq ki, gün gələcək hər kəs yenə doğma yurduna-yuvasına qayıdacaq. Nəhayət ki, o gün gəldi. Ali Baş Komandanımız, xalqımızın qəhrəman sərkərdəsi, Azərbaycan xalqının xilaskarı, cənab Prezidentimiz İlham Heydər oğlu Əliyevin başçılıq etdiyi mübariz ordumuzun rəşadətli döyüşləri nəticəsində torpaqlarımız geri alındı.

Orta məktəblərdə tədris edilən ədəbiyyat dərsləri vətənpərvərlik hisslərini aşılayan ən mühüm fənnlərdən biridir. Ədəbiyyat dərslərində məktəblilər vətənimizin azadlığı, suverenliyi uğrundakı mübarizənin ümumiləşdirilmiş obrazları ilə tanış olmaqla bərabər, qəhrəmanlarımızın nümunəsində igidlik, cəsurluq ruhunda tərbiyə edilirlər. Ədəbiyyat fənninin tədrisi məktəbliləri Vətənə qırılmaz tellərlə bağlanmağa, xalqının namusunu və şərəfini uca tutmağa, torpaqlarının keşiyində ayıq-sayıq dayanmağa sövq edir.

Beşinci sinifdən başlayaraq məktəblilərdə vətənpərvərlik hissləri haqqında təsəvvürlər yaranır. Şagirdlərə izah edilir ki, vətənpərvərlik obasına, elinə, torpağına dərin məhəbbət bəsləyən insanların ən ülvi, ən müqəddəs əxlaqi keyfiyyətlərindən birincisidir.

Ədəbiyyat fənni özünütərbiyənin, özünütəsdiqin, özünüdərketmənin, əsas vasitəsidir. Bu fənnin tədrisi uşaqlarda mədəniyyət, mənəviyyat, gözəllik tərbiyə edir. Şagirdlərə fikirləşməyi, düşünməyi öyrədir. Ədəbiyyat dərslərinin tədrisi zamanı bədii mətnləri təhlil edərkən ədəbi qəhrəmanların səciyyələndirilməsi zamanı atalar sözlərindən istifadənin də güclü təsir qüvvəsi vardır. Atalar sözlərimizin mayası məhəbbətdən yoğrulmuşdur desək səhv etmərik. Bunlara bir neçə nümunə göstərə bilərik: “Vətənsiz ölən kəfənsiz ölər”; ”Vətənin bir günü qürbətin min gününə dəyər”, ”Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı”, ”Qürbətdə xan olunca, Vətənində dilən, gəz” və.s. Bu cür atalar sözləri Vətən anlayışının müqəddəsliyini, vətəndaş məsuliyyətinin nə demək olduğunu anladır.

Azərbaycan xalqının ən böyük dəyəri olan “Kitabi-Dədə Qorqud” dastanı bu baxımdan təqdirəlayiqdir. “Kitabi-Dədə Qorqud” dastanı mədəniyyətimizi, mənliyimizi, şanlı keçmişimizi, dilimizi, dinimizi, adət-ənənələrimizi uşaqlara öyrətmək üçün zəngin materiala malikdir.

Fənn müəllimi eyni zamanda “Kitabi-Dədə Qorqud” dastanındakı nümunələr əsasında xalqının, millətinin bütövlüyünü pozmağa çalışan, ölkədə qarışıqlıq salmağa çalışan düşmənlərin daha azğın olduqlarına şagirdlərin diqqəti cəlb etməyə çalışır. Şagirdlərə anlatmağa çalışırlar ki, düşmənin əsas məqsədi məmləkətin dağılmasına, xalqların parçalanmasına, müstəqilliyin məhv olmasına istiqamətlənir. Dastanın tədrisi zamanı dərsə verilən pedaqoji tələblərin şərtləri də gözlənilməlidir. Təlim prosesində mövzu Azərbaycan Respublikasının apardığı çoxşaxəli milli müstəqillik siyasəti ilə əlaqələndirilməlidir və məktəblilərə Ümummilli liderimiz H.Əliyevin və onun davamçısı Ali Baş Komandan, cənab Prezidentimiz İ.Əliyevin müstəqilliyimiz, suverenliyimiz və dövlətçiliyimiz uğrunda yeritdiyi siyasət haqqında ətraflı məlumatlar da verilməlidir.

Xalqımızın daha bir məşhur incisi olan “Koroğlu” dastanının tədrisi də məktəblilərə çox şeylər təbliğ edir. İgidlik timsalı olan Koroğlu Azərbaycan xalqının mərd, qorxmaz, mübariz xalq qəhrəmanlarından biridir. Koroğlu öz xalqını, Vətənini sevmiş, yurdunun bir qarış torpağının yağı düşmən tərəfindən zəbt olunmasına imkan verməmişdir.

Hər yazıçı yazdığı əsərlərində Vətəni tərənnüm etmiş, hər bir bəstəkarın birinci nəğməsi Vətənə həsr olunub. Ədəbiyyat fənninin tədrisində şagirdlərə görkəmli insanların vətənpərvərliyindən söz açmağın əhəmiyyəti böyükdür. Səməd Vurğun yaradıcılığını tədris edərkən onun vətəndaşlıq dəyanəti, vətəndaşlıq qeyrəti daha çox diqqəti cəlb edir. Şairin vətəndaşlıq borcu qabarıq şəkildə özünü göstərir.

Azərbaycan dili, ədəbiyyat müəllimləri öz dərslərində tariximizin hər bir mərhələsində qəhrəmanlıq göstərən igid oğullarımız – Cavidan, Babək, Qacaq Nəbi, Qacaq Kərəm və

başqalarının vətənpərvərliyinin səbəblərini şagirdlərə açıqlayaraq bu sələflərin layiqli xələfləri olmalarına vəsilə olurlar. Hətta şagirdlər inşa yazarkən verilən mövzuların əksəriyyəti ana dilimiz, Vətənimiz, vətənpərvərliyimiz haqqında olur. Məktəblilərin vətənpərvərlik tərbiyəsində təlim fənnləri içərisində mövzu çoxluğu ilə seçilən daha bir fənn də coğrafiyadır.

Coğrafiya müəllimi istənilən bir mövzunu tədris edərkən (fərqi yoxdur xarici ölkə və ya Azərbaycan olsun) keçdiyi dərsdə Azərbaycanı digər ölkələrlə müqayisə edərək təbliğ etməlidir. Məsələn, şagirdlərə izah etməlidir ki, yer kürəsində 11 iqlim qurşağı vardır. Azərbaycan yeganə dövlətdir ki, 11 iqlim qurşağının 9-u Azərbaycandadır. Elə ona görə də istənilən tropik, subtropik bitkilərin Azərbaycanda yetişdirilməsi mümkündür. Təbabətdə min cür dərdə dərman olan 55 meyvə növü, müxtəlif dərdlərin dərmanı olan 350-dən çox ot və dərman bitkiləri respublikamızda yetişir.

Bundan əlavə qeyd edə bilərik ki, Azərbaycan dünyada neft-qaz ölkəsi kimi də tanınır. Ölkəmizin neftlə, qazla zəngin olmasını, adları dünyanın "Qırmızı kitab"ına düşən nadir heyvanların, quşların, bitkilərin olduğunu da deməklə ölkəmizi şagirdlərə sevdirmək mümkündür.

Coğrafiya müəllimi bir az da şair təbiətli olanda ölkəmizi şeir dili ilə şagirdlərə tanıda bilər. Azərbaycana səyahət edən bir çox səyyahlar olmuşdur ki, onlar da ölkəmiz haqqında xoş sözlər söyləmiz və gedərkən xoş təəssüratlarla ayrılmışlar. Böyük alman səyyahı Abex də ölkəmizə səyahət etmiş və hətta Kəlbəcər, Tərtər çayı hövzəsində olmuşdur. Təbiətimiz alman səyyahını o qədər valeh etmişdir ki, ölkəmizi tərənnüm edən bir cümlə ilə Azərbaycanı İsveçrə ilə müqayisə etmişdir.

Bildiyimiz kimi son iki əsrdə erməni faşistləri Azərbaycan torpaqlarını addım-addım işğal etmişlər. Tarix fənnini tədris edən hər bir müəllim bu məlum həqiqətləri öz şagirdlərinə çatdırmalıdır. Ölkəmizin tarixinin dərindən öyrədilməsi şagirdlərdə milli vətənpərvərlik hisslərinin tərbiyə edilməsində mühüm əhəmiyyət daşıyır. Fənnin tədrisində məktəblilərin vətənpərvərlik tərbiyəsində tarixi qaynaqlarımızdan istifadə etmək vacibdir.

Azərbaycan tarixi bu gün VI-X siniflərdə geniş tədris edilməkdədir. Tariximizin bu cür tədrisi məktəblilərimizi xalqımızın zəngin, zəngin olduğu qədər də qədim tarixini öyrənməyə, tarixi torpaqlarımızın, xalqımızın başına gətirilən məşəqqətləri dərindən dərk etməyə, I Qarabağ müharibəsindəki məğlubiyyətlərimizin səbəblərini araşdırmağa təhrik edir. İndi şagirdlərimizin bu tarixi həqiqətləri bilməsinə və düşmənlərimizin nədən bizə qarşı bu qədər amansız davrandıqlarını onlara izah etməyə borcluyuq. Bu hadisələri də şagirdlərə bildirmək və düşmənə amansız olmağı təbliğ etmək tarix müəllimlərinin vəzifəsidir.

Bütün fənnlərin tədrisi zamanı şagirdlərə anlatmaq lazımdır ki, Vətənə bağlılıq olmazsa nə azadlığımızı, nə istiqlaliyyətimizi, nə də Vətənimizin, torpağımızın bütövlüyünü qoruya bilərik. Onlar bilməlidir ki, torpaqdan pay olmaz. Düz əqidə, pak, təmiz, eyni zamanda özünə qarşı tələbkarlıq olmazsa şagirdlərdə mənəvi əqidə formalaşdırmaq mümkün deyildir.

Təbiət fənnlərinin tədrisi də şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Bu fənnlərin də imkanları genişdir.

Təbiətşünaslıq dərslərinin tədrisi zamanı şagirdlərə bildirmək lazımdır ki, onlar təbiətə yalnız seyrçi qalmamalıdırlar, eyni zamanda, onu həm sevməli, həm də sevdirməlidirlər. Ətraf mühitin qorunmasında fəal iştirak etməlidirlər. Təbiət dərslərinin bilavasitə təbiət qoynunda ekskursiyalar şəklində keçirilməsi tərsin keyfiyyətini daha da artırır. Şagirdlər öyrəndikləri materialı söz üzərindən deyil, birbaşa əşya üzərindən mənimsəyirlər. Bu zaman şagirdlərdə doğma yurdun təbiətinə, maddi zənginliklərinə məhəbbət yaranır, Vətənə bağlılıq hissləri möhkəmlənir. Təbiətə ekskursiyalar, gəzintilər məktəbliləri Vətənini tanımağa, onu sevməyə aparan işıqlı yoldur. Ekskursiyalar zamanı vətənpərvərlik duyğusunun zərrə-zərrə uşaqların incə qəlbinə süzülməsi onlarda nəcib duyğuların yaranmasına gətirib çıxarır. Təbiətin şagirdlərə sevdirilməsi onlarda ekoloji tərbiyənin inkişafına səbəb olur. Onlar təbiəti sevməklə bərabər onu qorumağı da özlərinə borc bilirlər.

Müasir dövrdə Azərbaycanda şagirdlərin vətənpərvərlik ruhunda böyüdülməsi mühüm əhəmiyyət kəsb edir. Respublikamız dünyanın ən qədim insan məskənlərindən olub, çox maraqlı mübarizə və qələbələrlə zəngin tarixə malikdir. Ölkəmizin bu cür tarixiliyinin özü vətənpərvərlik tərbiyəsi üçün geniş imkanlara malikdir. Azərbaycan Respublikası kimi möhtəşəm, şöhrətli və qüdrətli bir ölkənin vətəndaşı olmaq qürurverici bir hissdir və bu ölkəni sevmək, əzizləmək hər bir Azərbaycan vətəndaşının borcudur.

## TƏHSİL SİSTEMİNİN İDARƏ EDİLMƏSİ VƏ ONUN VƏZİFƏLƏRİ

**Zeynallı Göyçək Şükür qızı**
*goychakzeynalli@gmail.com*

İdarəetmə dedikdə insanların və ya müxtəlif növ müəssisələrin əməyinin təşkili ilə bağlı fəaliyyət sahəsi başa düşülür. Eyni zamanda, bu, effektiv idarəetmə imkanlarının öyrənildiyi bir təcrübə sahəsidir.

İdarəetmənin mahiyyəti onun funksiyalarında, yəni həlli üçün nəzərdə tutulmuş vəzifələrdə ifadə olunur. Dörd əsas funksiya var: planlaşdırma, təşkilat, motivasiya, nəzarət.

Bütün işləri insanlar gördüyü üçün bu funksiya vasitəsilə hər bir konkret tapşırığı kimin yerinə yetirməli olduğu və bunun üçün hansı vəsaitin tələb olunacağı müəyyən edilir. Menecer tapşırıq və səlahiyyətlər verir və ya nəticə üçün məsuliyyət daşıyır.

Məktəb problemlərinin tanınmış tədqiqatçısı V.İ.Zverev idarəetməni onun bütün alt sistemlərinin optimal fəaliyyətini təmin etməyə, onların hər birini daha yüksək inkişaf səviyyəsinə köçürməyə yönəlmiş təhsil müəssisələrinin rəhbərlərinin fəaliyyəti hesab edir. M.M.Potaşnikin “idarəetmə” anlayışında qeyd etdiyi kimi, optimal nəticə əldə etmək üçün fəaliyyətin məqsədyönlülüyü, pedaqoji prosesin subyektlərinin qarşılıqlı əlaqəsində idarəetmə qərarlarının işlənib hazırlanması və həyata keçirilməsi fərqləndirilir.

Məktəbdaxili idarəetmə optimal nəticə əldə etmək üçün onun obyektiv qanunlarını biliyə əsaslanan vahid pedaqoji proses iştirakçılarının məqsədyönlü, şüurlu qarşılıqlı əlaqəsidir. Pedaqoji proses iştirakçılarının qarşılıqlı əlaqəsi ardıcıl, bir-biri ilə əlaqəli hərəkətlər və ya funksiyalar zənciri kimi formalaşır: məqsəd qoyma və planlaşdırma, təşkilati, nəzarət, tənzimləmə və düzəliş, habelə həyata keçirilməsi həyata keçirilən bir sıra digərləri. təhsil müəssisəsinin həyatını hərtərəfli nəzərdən keçirməyə elmi yanaşmanı xarakterizə edən obyektiv, dərin və ətraflı pedaqoji təhlil əsasında.

Məktəbin yeni sosial-iqtisadi sisteminə tətbiq edilən idarəetmə funksiyalarının işıqlandırılması zərurəti müasir liderin məktəbi inkişaf rejiminə keçirməli olması ilə sübut olunur. Müasir şəraiti nəzərə alaraq, funksional tərkibi müəyyən etmək üçün aşağıdakı əsasları ayırmaq olar:

1) sistemli, hər hansı bir təşkilatı dəyişən mühitdə konkret məqsədlərə nail olmağa yönəlmiş bir-biri ilə əlaqəli və qarşılıqlı əlaqədə olan elementlərin məcmusu kimi nəzərdən keçirmək;

2) proses, idarəetməni bir-biri ilə əlaqəli idarəetmə funksiyalarının davamlı silsiləsi kimi nəzərdən keçirmək;

3) məlumat, menecerlərin və rəhbər işçilərin qərarların qəbulu üçün məlumatla təmin edilməsini təmin etmək;

4) rabitə, iki və ya daha çox şəxs arasında məlumat mübadiləsi üçün əlaqə və qarşılıqlı əlaqə yaratmaq sisteminin təmin edilməsi;

5) koordinasiya, müxtəlif səviyyəli elementlərin səlahiyyətlərinə uyğun olaraq qarşılıqlı əlaqəsinin qurulması sisteminin təmin edilməsi;

6) həvəsləndirici, şəxsi məqsədlərə və təşkilatın məqsədlərinə çatmaq üçün özünü və başqalarını hərəkətə keçməyə həvəsləndirmə prosesini stimullaşdırmaq.

Vurğulanan əsaslar onun sosial-pedaqoji sistem kimi özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla, məktəbin idarəetmə funksiyalarının tərkibini və məzmununu müəyyən etmək üçün kifayətdir. İdarəetmənin funksional əlaqələri nisbətən müstəqil fəaliyyət növləri hesab

olunur. Eyni zamanda, onların hamısı bir-birinə bağlıdır və ardıcıl olaraq bir-birini addım-addım əvəz edərək vahid idarəetmə dövrünü təşkil edir. Funksional elementlərdən hər hansı birinin düzgün qiymətləndirilməməsi bütün idarəetmə prosesinin dəyişməsinə və onun yekun nəticələrinin azalmasına səbəb olur.

İdarəetmə dövrünün bütün komponentləri zəncirində, idarəetmənin davamlılığı və bütövlüyü üçün eyni dərəcədə vacib olan, obyektin işləməsi və inkişafının keyfiyyətindən asılı olan xüsusi bir mərhələ var. təşkilati və icraedici funksiya. O, obyektiv olaraq idarəetmənin hər bir dövrünə aiddir, məktəbin sosial transformasiyası üçün əsas potensialı daşıyır. Qəbul edilmiş qərarları həyata keçirmək üçün sistemin hərəkətini, onun komponentlərinin optimal qarşılıqlı əlaqəsini təmin etmək üçün təşkilati əlaqələrin yaradılması mərhələsi lazımdır. Təşkilati münasibətləri insanlar arasında səlahiyyətlərin bölüşdürülməsi və onların birgə fəaliyyətinin funksiyalarının onlara həvalə edilməsi nəticəsində yaranan əlaqələr kimi müəyyən etmək olar. Rəhbərin həmkarları, tələbələri ilə daimi qarşılıqlı əlaqəsi təşkilati fəaliyyətə müəyyən şəxsiyyət yönümlü bir istiqamət verir. Məhz buna görə də məktəbdaxili idarəetmə şəxsiyyətlərarası qarşılıqlı əlaqənin təşkilini, psixoloji metodlardan istifadəni nəzərdə tutur.

Daha böyük müstəqillik şəraitində müəllim və şagirdin fəaliyyətini stimullaşdırmaq üçün məktəbdaxili idarəetmənin nəzarət-diaqnostik funksiyası xüsusi yer tutmalıdır. Məktəbdaxili inzibati və ictimai nəzarətin pedaqoji prosesin hər bir iştirakçısının introspeksiyası, özünə nəzarəti və özünə hörməti ilə birləşməsi məktəblərin təcrübəsinə daxil edilmişdir. Nəzarət, əldə edilmiş nəticələrin planlaşdırılanlarla müqayisə edildiyi idarəetmə prosesinin aktiv mərhələsidir. Əlaqə bütün nəzarət ölçmə sisteminin əsasını təşkil edir.

Tənzimləyici və düzəldici funksiya pedaqoji sistemin proqramlaşdırılmış səviyyədə saxlanması üçün idarəetmə prosesində operativ metodların, vasitələrin və qarşılıqlı əlaqələrin köməyi ilə düzəlişlər edir. Tənzimləmənin spesifik formaları və növləri çox müxtəlifdir və idarə olunan obyektin xüsusiyyətləri ilə müəyyən edilir.

Beləliklə, təhsil müəssisəsinin idarə edilməsi prosesi hər hansı bir rəhbərin yerinə yetirməli olduğu funksiyaların həyata keçirilməsindən ibarətdir. Yəni, təhsil müəssisəsinin idarə edilməsi məktəbin məqsədini formalaşdırmaq və həyata keçirmək üçün zəruri olan məlumat, planlaşdırma, təşkilatlanma, motivasiya, əlaqələndirmə və nəzarət prosesidir. Hər hansı idarəetmə funksiyasına məhəl qoymamaq praktikada idarəetmə tədbirlərinin effektivliyinin azalmasına gətirib çıxarır. Növbəti paraqrafda təhsil müəssisəsinin idarə edilməsinin effektivliyini nəzərdən keçirin.

## TƏHSİLDƏ KURİKULUMUN İDARƏ OLUNMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Atakişiyeva Nigar Aslan qızı**
*nigaratakisiyeva28@gmail.com*

Təhsil cəmiyyətin inkişafını və bacarıqlar əldə etməsini təmin edən çox əhəmiyyətli bir məfhumdur. Müasir təhsilin cəmiyyətin yeniləşməsində və inkişafındakı rolu çox böyükdür. Müasir təhsil sistemində təhsilin idarəetmə mexanizminin, təşkilati struktur və fəaliyyət sisteminin həlledici mahiyyəti vardır. Təhsil bütün sosial sferalarla əlaqəsi olan, ictimai mühitin bütövlüyünü saxlayan, cəmiyyətin inkişafını təmin edən, bəşəriyyətin tarixi-mədəni dəyərlərini formalaşdıran və inkişafetdirən bir vasitəsidir. Təhsil bütün tarixi dövrlərdə insanların həyat tərzinə və yaşam qaydalarına təsir edə bilmişdir. Təhsildə kurikulumun təkmilləşdirilməsi prosesi pedaqoji, psixoloji elmlərin və eyni zamanda, məktəbin inkişafına əlverişli şərait yaratdı. Təhsildə kurikulumun təkmilləşdirilməsi ehtiyac və tələbatlara uyğun olaraq aparılırdı. "Kurikulum" sözünün lügəvi mənası "kurs", "yol" deməkdir. Azərbaycanda "Kurikulum" sözündən keçən əsrin 90-cı illərinin axırlarından istifadə olunmuşdur.Təhsildə kurikulumun təkmilləşdirilməsi təhsilin keyfiyyətinin artmasında, praktik bacarıqların yerinə yetirilməsin-

də, biliklərin möhkəmlənməsində, davamlılığının artmasında əsas rol oynamışdır. Kurikulumun təkmilləşdirilməsi nəticəsində şagirdlərdə həyati bacarıq və vərdişlərə daha çox üstünlük verilir. Kurikulumda şəxsiyyətyönümlülük, şəxsiyyətin formalaşması, insanın şəxsi fəaliyyəti üçün lazım olan tələblər əsas götürülür. Kurikulumun təkmilləşdirilməsində başlıca qlobal problem şəxsiyyətin formalaşdırılması məsələsidir. Təhsildə kurikulumun idarə olunması və təkmilləşdirilməsi nəticəsində şagirdlərdə fəallıq, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmaq, müstəqil düşünmək, analiz-sintez etmək, yaradıcı fəaliyyət göstərmək kimi bacarıqlar inkişaf etdirilmişdir. Kurikulumun təkmilləşdirilməsində başlıca məqsəd pedaqoji prosesin tamlığına nail olmaq, təlimdə bərabər imkanların yaradılması, şagirdyönümlülük, inkişafyönümlülük, fəaliyyətin stimullaşdırılması, dəstəkləyici mühitin yaradılmasıdır. Kurikulumtədris prosesində şagirdləri aktivləşdirən, onların intellektual inkişafına şərait yaradan təlim prosesidir. Kurikulumun təkmilləşdirilməsində fərdi iş, cütlərlə iş, böyük qrupla iş və kiçik qruplarla kimi iş formalarının da böyük əhəmiyyəti vardır. Kurikulumşagirdlərə mövzu ilə bağlı biliklərini xatırladaraq, onlarda mövzuya maraq yaradaraq, onları düşünməyə yönləndirir. Kurikulumda yeni biliklər tətbiq etmə ilə möhkəmləndirilir. Təhsildə kurikulumun idarə olunması eyni zamanda pedaqoji prosesin təkmilləşdirilməsi məqsədini daşıyır. Çünki pedaqoji prosesi tənzimləməyə və keyfiyyətini yüksəltməyə xidmət edir. Kurikulumun təkmilləşdirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Ona görə də ümumtəhsil məktəblərində kurikulumun təkmilləşdirilməsi məsələsinə dair mühüm addımlar atılmışdır. Kurikulumun təkmilləşdirilməsini cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması, yeni münasibətlərin formalaşması, sosial şəbəkələrin daha çox həyatımızda yer alması kimi amillər zəruri edir. Kurikulumun təkmilləşdirilməsi özlüyündə dərsin yeni quruluşunu, qiymətləndirmənin dəyişməsini, əvvəlki dərsliklərin yeni dərsliklərlə əvəz olunmasını, tətbiq olunan üsulları, formaları, yeni dərsin planını, müəllimin qarşısında qoyulan yeni tələbləri də gətirdi. Kurikulumun təkmilləşdirilməsi nəticəsində şagirdlərdə sərbəst düşünmə və azad düşüncə əsas götürülməyə başlanıldı. Kurikulum sisteminin tətbiqi kompüterdən istifadə etməyi və dərsləri slaydlarla keçməyi tələb edirdi. Kurikulumun təkmilləşdirilməsinəticəsində bütün təhsil sahəsində olan hər kəs kompüterdən istifadə etməyi bacardı. Azərbaycandakı təhsilin dünya təhsil sisteminə inteqrasiya edə bilməsi üçün kurikulumun təkmilləşdirilməsi çox vacibdir.

## ŞAGİRDLƏRDƏ TƏDQİQAT VƏRDİŞLƏRİNİN AŞILANMASI

**Nuriyeva Gülər Fəxrəddin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aslanguler@mail.ru*

Coğrafiyanın tədrisi metodikası pedaqoji elmlərdən biridir. Bu elm məktəbin qarşısında qoyulmuş təlim-tərbiyə vəzifələrinə uyğun olaraq məktəb coğrafiyası kursunun məqsədini, məzmununu, sistemini işləyib hazırlayır, başqa sözlə, coğrafiya elmlərinin hansı məsələlərini şagirdlərə öyrətməli sualına cavab verir. Coğrafiyanın öyrədilməsi ilə əlaqədar olaraq şagirdlərin təlim-tərbiyə prosesinin qanunauyğunluqlarının tədqiqi də coğrafiya metodikasının predmetinə aiddir. Coğrafiyanın tədrisi metodikasının tədqiq etdiyi problemlərə aşağıdakılar daxildir:

1. *Məktəb coğrafiyasının təhsil və tərbiyə vəzifələri.*
2. *Məktəb coğrafiyasının məzmunu.*
3. *Müəllimin öyrədici fəaliyyəti.*
4. *Şagirdin öyrədilməsi.*
5. *Coğrafiyanın təlimi prosesində şagirdin tərbiyəsi və inkişafı.*

Şagirdlərin həyata, əməyə və yaradıcılığa hazır olmalarının əsası, təməli ümumtəhsil məktəblərində qoyulur. Buna görədə Müstəqil yaradıcı gənclər tərbiyə etmək məktəb qarşısında duran mühüm vəzifələrdəndir. Danılmaz faktdır ki, qabiliyyətli, istedadlı şəxslər cəmiyyətin aparıcı qüvvələridir.

İstedad, demək olar ki, hər bir şagirddə var. Ancaq bu istedadın üzə çıxarılması, inkişaf etdirilməsi məktəbin, müəllimin üzərinə düşür. İstedad, ilk növbədə fəaliyyət prosesində təşəkkül tapır. Təlim prosesi nə qədər məqsədəuyğun qurulsa, şagirdin istedadı da bir o qədər tez üzə çıxar və inkişaf edər. Deməli, hər bir şagirdin sirli, qəribə dünyasına ilkin olaraq müəllim daxil olur. Müəllim şagirdin qabiliyyətini düzgün müəyyənləşdirməkdə, ona fərdi yanaşmaqda, inkişafına düzgün istiqamət verməkdə yardım göstərir.Təlimdə müəllimin rolu böyükdür. Müəllim diskussiyanı idarə edir, köməkçi suallar verir, şagirdlərdə tənqidi fikirləri, öz-özünə nəzarəti, özünüqiymətləndirməni, müstəqilliyi və s. keyfiyyətləri üzə çıxarır və inkişaf etdirir. Müəllim şagirdlərə müəyyən biliklər verməsi ilə bərabər həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır. Müəllim və şagird təlim prosesində bərabərhüquqlu üzvlərdir və müəllim bələdçi rolu ilə şagirdlərdən fərqlənir. Sinifdə hər bir şagird özünü bərabərhüquqlu şəxsiyyət kimi dərk edir, yoldaşlarını şəxsiyyət kimi görür və özünə, onlara hörmət etməyə başlayır. Bu cür təlimdə şagirdlər qarşılıqlı hörmət, əməkdaşlıq mühitində fəaliyyət göstərirlər.

Müəllimin əməyi bu gün bir qədər şəklini dəyişir və öz metodikasına görə ənənəvi təhsil və tərbiyə formalarından fəqrlənir. doğrudan da bir müəllim kimi həm fəaliyyətimizdə, həm də düşüncə tərzimizdə böyük dönüş yaratmalıyıq. Bu günün uşaqları dünənin uşaqları deyil, onların maraq dairələri də, dünyaya baxışı da, dərslərə münasibətləri də tam fərqlidir. Təlimin keyfiyyətini yüksəltməyə çalışan, eyni zamanda şagirdlərin yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsinə nail olmaq istəyən hər bir müəllim, mənim fikrimcə, şagirdlərə fərdi yanaşmağı həmişə üstün tutmalıdır.

Bunun üçün dərsin tədrisi elə qurulmalıdır ki, yeni biliklərin mənimsənilməsi və onları praktikada uğurlu tətbiq etmək üçün şagirdləri sərbəst yaradıcılıq fəaliyyətinə cəlb etmək mümkün olsun.

Şagirdlərin tədqiqat aparması müasir dərsin ən böyük üstünlüklərindən biri olmaqla bərabər, həm də onların axtarıcılıq və tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir. Təcrübələr göstərir ki, təfəkkür fəaliyyətinin, fərqli fikirlərin müzakirəsi şagirdlərdə müzakirə etmək və düzgün nəticə çıxarmaq qabiliyyətini möhkəmləndirir. Dərsdə "səni öyrədirəm" yox, "biz birlikdə öyrənirik" prinsipi müəllim və şagirdlər arasında tərəfdaş, yoldaşlıq, hörmət, məhəbbət hisslərini formalaşdırır. Şəxsiyyətyönümlü təlim şagirdlərin idrak, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərini və fənlərə marağını artırır. Nəticədə, təlim-tərbiyə prosesində şagirdlərin fəallığını yüksəldir, psixoloji gərginliyi azaldır.

Təlimin məzmununun, metodlarının və təşkilat formalarının daim təkmilləşdirilməsi coğrafiya metodikasının əsas vəzifələrindən biridir. Digər elmlər kimi coğrafiyanın tədrisi metodikası da təcrübəya istinad edir. Metodika şagirdlərin təlim və tərbiyəsinin qanunauyğunluqlarını tədqiq edərək tədrisin təcrübəsini zənginləşdirir, tədris və tərbiyə işinin keyfiyyətini yüksəltməkdə müəllimlərə kömək edir, uzun illərdən bəri məktəblərdə coğrafiyanın öyrədilməsi sahəsində toplanmış zəngin təcrübəni ümumiləşdirərək onları müəllimlərə çatdırır. Bunun da sayəsində müəllim öz işinitənqidi surətdə nəzərdən keçirir, artıq məlum olan va təcrübədə sınaqdan çıxmış təlimin təşkilat formalarını və metodlarını yenidən kəşf etməklə məşğul olmur. Metodika coğrafiyanın tədrisi təcrübəsini zənginləşdirərək təlim-tərbiyyə işinin keyfiyyətini yüksəltməkdə müəllimə aşağıdakı məsələlərdə yaxından kömək edir:

1. Təhsil, əmək, əxlaqi və estetik tərbiyə sistemində, habelə şagirdlərdə elmi dünyagörüşün formalaşdırılmasında coğrafiyanın məqsəd və vəzifələrinin müəyyənləşdirilməsində;
2. Məktəb coğrafiya kurslarının məzmununun təkmilləşdirilməsində və elmi təhlilində;
3. Müəllimin ayrı-ayrı coğrafiya kurslarının məzmununa və şagirdlərin yaş xüsusiyyətinə müvafiq olan, elmi sürətdə əsaslan dırılmış təlim-tərbiyə metodları və pedaqoji prosesin müasir avadanlıq sistemi haqqındakı biliklərlə silahlandırılmasında;
4. Təlimin təşkilat formalarının müəyyənləşdirilməsində;
5. Şagirdin öyrədilməsi və onun inkişafının daha səmərəli yollarının tapılmasında;

6. Coğrafiya dərsliklərinə, xrestomatiyalara və sinifdənkənar oxu kitablarına qoyulan tələblarin müəyyənləşdirilməsində;

7. Coğrafiya üçün tədris avadanlığının və ondan istifada metodikasının hazırlanmasında;

8. Olkaşünaslığın va sinifdənkənar işin formaları, məzmunu və metodları ilə müəllimin tanış olmasında.

Coğrafiya metodikası coğrafiyanın təxmin nəzəriyyəsini işləyib hazırlayır, pedaqoji təcrübəyə rəhbər istiqamət verərək onu obyektiv surətdə təhlil edir, ümumiləşdirir. Muəllimə yeni yollar və iş priyomları göstərir. Coğrafiya metodikası birinci növbədə coğrafiya elmləri ilə sıxı surətda əlaqədardir Maşhur coğrafiyaşünas N.N.Baranskinin təbirincə, coğrafiya metodikası bu elm sahəsi kimi "elm coğrafiyadan məktəb fənni hazırlamalıdır. Metodika məktəbin qarşısında duran vəzifəni əldə rəhbər tutaraq coğrafiya elmlərindən ən böyük təlim va tərbiyə əhəmiyyətinə malik olan məsələləri seçib məktəb coğrafiya kursina daxil edir. Başqa sözlə, məktəb coğrafiyasını yaradır. Metodika məktəb coğrafiya kursunun məzmununa müvafiq olaraq yüksək pedaqoji effekt verən təlimin təşkilat formalarını və metodlarını müəyyənləşdirir. Məktəb coğrafiyasının məzmununu, quruluşunu, ardıcıllığını, dərinlik dərəcəsini, habelə təlimin təşkilat formalarını və metodlarını müəyyənləşdirərkən coğrafiya metodikası şagirdlərin yaş xüsusiyyətini, hazırlıq səviyyəsini nəzərə alır. Coğrafiyanın tədrisi metodikası məktəb coğrafiyasının məzmununu, təliminin taşkilat formalarini va metodlarını tədqiq edərkən pedaqogikanın xüsusi bir sahəsi kimi onun başqa sahalarinə, birinci növbədə didaktikaya, tərbiyə nəzəriyyəsinə, habelə psixologiyaya əssaslanır. Bununla yanaşı, coğrafiya təlimi metodikasının tədqiq etdiyi müddəa və qanunauyğunluqlar, məsələn, şagirdin öyrənmə və müəllimin öyrətmə fəaliyyətinin xüsusiyyətləri haqqında müddəa və qanunauyğunluqlar didaktikanı zənginləşdirir və müəyyən dərəcədə onun gələcək inkişafina müsbət təsir göstərir. Məsələn, təlimdə coğrafı xəritələrdən istifadə etmək metodikasının əsas müddəaları didaktikanın əsaslarına möhkəm daxil olmuşdur. Eyni zamanda coğrafiya metodikası pedaqogikanin göstərilən sahələrini va psixologiya elmini zənginləşdirir.

### Ədəbiyyat

1. O. Alxasov, Coğrafiyanın tədrisi metodikası, Ali məktəblər üçün dərslik, Bakı 2013

2. N.Seyfullayeva, Z.İmrani, Y.Şabanova, Metodik vəsait, Bakı 2018

3. N.Seyfullayeva, Z.İmrani, Y.Şabanova. VI sinif üçün Coğrafiya fənni üzrə dərslik, Bakı 2018

4. A.Y.Bibik. Orta məktəblərdə Coğrafiya təliminin metodikası. Bakı 1978

5. H.H.Allahverdiyev, H.Ə.Sadıclı, Coğrafiyanın tədrisi metodikası, Bakı 1976

## ÜMÜMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ VI-VIII SİNİFLƏRDƏ İQTİSADİ BİLİK VƏ BACARIQLARIN MÜSTƏQİL MƏNİMSƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**İsmayılzadə Şeyla Elşən qızı**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

*ismayilzade.weyla94@gmail.com*

**Xülasə**

Tezisdə şagirdlərin indiki və gələcək həyatlarında iqtisadi biliklərlə sahib olmasının əhəmiyyətindən bəhs olunur. Müasir coğrafiya dərslərində və dərsliklərdə nə dərəcədə iqtisadi biliklərə yer verilməsi, iqtisadi bacarıqlara sahib olmaları üçün fəaliyyət növlərinin miqdarı yetərli olub olmaması ilə bağlı məsələlərə toxunulur.

## ЗНАЧЕНИЕ САМОСТОЯТЕЛЬНОГО ПРИОБРЕТЕНИЯ ЭКОНОМИЧЕСКИХ ЗНАНИЙ И УМЕНИЙ В VI-VIII КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ

**Резюме**

В диссертации обсуждается важность наличия у студентов экономических знаний в их настоящей и будущей жизни. В современных уроках географии и учебниках под-

нимаются вопросы, связанные с тем, в какой степени включены экономические знания, и достаточно ли количество видов деятельности для того, чтобы иметь экономические навыки.

## IMPORTANCE OF INDEPENDENT ACQUISITION OF ECONOMIC KNOWLEDGE AND SKILLS IN VI-VIII GRADES IN SECONDARY SCHOOLS

**Summary**

The thesis discusses the importance of students having economic knowledge in their present and future lives. In modern geography lessons and textbooks, issues related to the extent to which economic knowledge is included, and whether the number of activities is sufficient for them to have economic skills.

Bu gün ümumtəhsil məktəblərinin qarşında duran əsas məsələlərdən biri də bugünki dövrə uyğun şagirdlər yetişdirməklə yanaşı hətta gələcək zamanın tələblərinə uyğun insan kapitalı yetişdirməkdir. Yəni təhsil cəmiyyətdə baş verən dəyişiklikləri qabaqllamalı, şagirdləri gələcəy inkişafa hazırlamalıdır.

Təbii ki, hər bir bacarıq və qabiliyyət kimi iqtisadi təfəkkür də gənc yaşda formalaşmalıdır ki, gənclər düzgün peşəni, maraq dairəsini seçsinlər, bizə lazım olan biliklərə yiyələnsinlər və ümumiyyətlə, gələcək inkişaf üçün möhkəm zəmin yaratsınlar. İqtisadi biliklərin şagirdlərə aşılanması şagirdlərdə cəmiyyətin inkişafına təsir edən amilləri təhlil etməyi və həmçinin tənqidi təfəkkürün inkişafına səbəb olur. İqtisadi biliklərə sahib olması şagirdlərin gündəlik həyatlarında və düzgün peşə seçimi etməsində də böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə iqtisadi bilik və bacarıqlara sahib olan insan resurslarının olması vacib məsələlərdəndir.Çünki bu gün bazar iqtisadiyyatının yetərincə inkişafı təhsil sisteminin qarşısına iqtisadi bilikləri üstün olan fərdlər yetişdirmək kimi öhdəlikləri qoyur. Umumi təhisil məktəblərini bitirən şagirdlərin iqtisadi biliklərinin olması bir başa ölkə iqtisadiyyatını inkişafını bir növü sığortalayır. Təbii ki iqtisadi biliklərin formalaşdırılmasının əsasını coğrafiya dərslərində iqtisadi biliklərlə bağlı məlumat bazasının artırılması və failliyyət növlərinin çoxluğu təşkil edir.

Son dövrdə coğrafiya fənnində, eləcə də digər fənlərdə dərsliklər və tədris proqramlarının xeyli dəyişməsi iqtisadi biliklərin «Azərbaycanın iqtisadi və sosial coğrafiyası» və «Dünyanın iqtisadi və sosial coğrafiyası» şəklində ayrıca müəyyən siniflərdə tədrisini dəyişmişdir. Artıq dərsliklər siniflər üzrə deyil, sadədən mürəkkəbə doğru anlayışları formalaşdırmağa yönəlmişdir. Əvvəlcə şagirdlərdə sadə iqtisadi anlayışlar formalaşdırılır daha sonra artıq anlayışları təhlil etməyi, qrafik və sxemləri təhlil etməyi və proqnoz vermək kimi bacarıqlar formalaşdırılmasını nəzərdə tutur.

### Ədəbiyyat

1. N. Seyfullayeva. Coğrafiyanı tədrisi metodikası. Dərslik. Bakı-2011.
2. N.Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı- 2008.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA DAVRANIŞ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Zamanova Mahnur Emzari qızı**
**Azərbaycan Pedaqoji Dövlət Üniversiteti**
*mahnurzamanova5@gmail.com*

**Xülasə**

Tezisdə qeyd olunur ki, məktəbəqədər yaş dövrü uşaq şəxsiyyətinin mənəvi qurulması üçün vacib dövrdür. Məhz uşaq bağçasışəraitində davranış mədəniyyətini müvəffəqiyyətlə tərbiyə etmək olar.Bu da uşağın sonrakı inkişafında və bütünlükdə cəmiyyətdə müsbət şəkildə əksini tapır.

**Формирование поведенческой культуры у детей школьного возраста**

**Резюме**

В диссертации отмечается, что школьное образование является важной вехой в нравственности ребенка.

Именно в среде детского сада можно успешно развивать культурупо ведения. Это отражается на последующем развитии ребенка и на обществе в öелом.

**Shaping behavioural culture in school-age children**

**Summary**

The thesis notes that schooling is an important milestone in the morality of a child. It is in a kindergarten environment that a culture of behavior can be successfully fostered. This is reflected in the child's subsequent development and in society as a whole.

***Açar sözlər:*** *uşaq,davranış,mədəniyyət,cəmiyyət*
***Ключевые слова:*** *дети, поведение, культура, общество*
***Key words:*** *children, behavior, culture, society*

Məktəbəqədər təhsil bütün təhsil sisteminin əsasıdır, belə ki, uşağın inkişafında vacib pillə hesab olunur. Məktəbəqədər təhsil dedikdə, uşağın fərdi xüsusiyyətləri nəzərə alınmaqla, məktəbəqədər təhsil müəssisələrinin dövlət standartlarına müvafiq təhsil praqramı vasitəsilə həyata keçirilən hərtərəfli inkişafına istiqamətlənmək prosesi başa düşülür. Məktəbəqədər təhsil ümumi mədəniyyətin, əxlaqi, intellektual, fiziki və şəxsi keyfiyyətlərin formalaşmasına, həmçinin tədris fəaliyyətinə zəminin yaranmasına, məktəbəqədər yaşlı uşaqların sağlamlığının saxlanmasına və möhkəmlənməsinə istiqamətlənmişdir. Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyəti uşaqların ümumi tərbiyəsinin mühüm tərkib hissəsidir. Belə ki, onların yaşı, beş yaşdan yeddi yaşa qədər dövri əhatə edir, davranış mədəniyyəti bacarıqlarının və vərdişlərinin formalaşması üçün əlverişlidir. Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin tərbiyəsində uşaq bağçası mühiti böyük rol oynayır. Uşaq bağçası mühiti- tərbiyəçilər, həmyaşıdları böyük əhəmiyyətə malikdir, məhz onlarla qarşılıqlı fəaliyyət prosesində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin tərbiyəsinin əsası qoyulur.

Məktəbəqədər yaşlı uşaq fiziki və psixi imkanları ilə fərqlənir. Onlar başlıca hərəkətləri mənimsəyir və fiziki cəhətdən daha möhkəm olurlar. Fiziki inkişaf yenə də əqli inkişafla bağlıdır, o vacib şərtə, fona çevrilir ki, burada müvəffəqiyyətlə uşağın müxtəlif cəhətli inkişafı baş verir. Əqli, estetik, əxlaqi, yəni məhz sosial inkişaf məktəbəqədər yaşda sürətlənir. Məktəbəqədər yaşlı uşaqlar üçün aparıcı fəaliyyət növü süjetli-rollu oyundur. Məhz burada uşaq böyüyün sosial, ictimai funksiyalarını yerinə yetirməklə öz üzərinə onun rolunu götürür. Məktəbəqədər yaşda uşaq artıq müəyyən oyun üçün lazım olan bütün əşyaları seçə bilir. Süjetli-rollu oyunla – məktəbəqədər yaşda aparıcı fəaliyyətlə birgə uşaqlarda qaydalı oyunlar yaranır. Məsələn, gizlənqaç və digərləri. Müəyyən qaydaya tabe olmaq bacarığı hər rolu özündə gizli qaydalara malik olan rollu oyun zamanı formalaşır. Oyunda onlar yalnız əşyalarla fəaliyyət və əməliyyatları deyil, eləcə də insanlar arasında qarşılıqlı münasibət əks etdirir. Uşağın fəaliyyətində, şüurunda və şəxsiyyətində əsas dəyişikliklər psixi proseslərin ixtiyariliyinin yaranmasından – öz davranışının və psixi proseslərinin məqsədyönlü idarə edilməsi bacarığından ibarətdir.

Məktəbəqədər yaşlı uşağın davranış mədəniyyəti cəmiyyət üçün faydalı olan məişətdə, ünsiyyətdə, müxtəlif fəaliyyət növlərinin, gündəlik sabit davranış formalarının toplusunu özündə birləşdirir. Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyəti üç hissədən ibarətdir: fəaliyyət mədəniyyəti, ünsiyyət mədəniyyəti, mədəni- gigiyenik vərdişlər.

Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyəti tərbiyəsinin üç qrupu qeyd olunur. Birincisi, şəxsiyyətin tərbiyəsi metodları, ikincisi, fəaliyyət və ictimai davranış təcrübələrinin təşkilat metodları, üçüncüsü, davranışın və fəaliyyətin stimullaşdırılması metodları. Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin tərbiyəsi vasitələri incəsənət vasitələrini, tə-

biəti, uşaqların şəxsi fəaliyyətini, onları əhatə edən vəziyyəti özündə birləşdirir. Böyüklərin göstərişlərinin yerinə yetirilməsi, davranış normalarının izlənilməsi, işə diqqət cəmləmək və onun sona qədər çatdırılması məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyəti tərbiyəsinin zəmini hesab olunur.

Məktəbəqədər yaşlı uşaqların əksəriyyəti özlərindən sonra oyuncaqları yığışdıra bilir, kollektivdə məmnuniyyətlə oyun, əmək fəaliyyətlərini yerinə yetirir, həmyaşıdları ilə daha çox da tərbiyəçilərlə çox nəzakətlidirlər, həmçinin mədəni- gigiyenik vərdişlərlə tanışdırlar, lakin həmişə onları yerinə yetirmirlər, bunun üçün çox vaxt tərbiyəçinin xatırlatması və ya xahişi tələb olunur. Bu səbəbdən məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyəti səviyyəsinin yüksəldilməsinə istiqamətləndirilmiş tədbirlər kompleksi hazırlanmışdır.

Məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin tərbiyəsi üzrə kompleks tədbirlər onun bütün tərkib hissələrini özündə birləşdirir. Davranış mədəniyyətini, ünsiyyət mədəniyyətini, mədəni – gigiyenik vərdişləri bunlara aiddir. Bunun üçün məktəbəqədər yaşlı uşaqların ünsiyyət davranış norması, davranışı ilə tanışlığını həyata keçirmək lazımdır. Davranış mədəniyyətinin tərbiyəsi məqsədilə əşyalara ehtiyatlı yanaşmaq, kollektivlik vərdişlərini, həmçinin sanitar- gigiyenik vərdişləri və özünə xidmət vərdişlərini inkişaf etdirmək lazımdır.

Təqdim olunmuş tədbirlər məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyəti səviyyəsinin yüksəldilməsini təmin edir ki, bu da gələcəkdə onlarda müsbət inkişaf yaradır.

### Ədəbiyyat


1. R.M.Kadırova. Uşaq bağçası şəraitində uşaqların əxlaqi tərbiyəsi:onun tərkib hissələri, prinsipləri, istiqaməti, vasitələri və metodları//Gənc alim.2015. N_7, 76 s.
2. Aydaşeva Q.A. Q.A.Aydaşeva, N.O.Puçiqina, S.V.Assaulovanın redaksiyası altında/Məktəbəqədər pedaqogika. M.:"Feniks" nəşriyyatı, 2016. 342s.
3. Miklyayeva N.V. Məktəbəqədər pedaqogika: Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi nəzəriyyəsi: ali təhsil müəssisələrinin tələbələri üçün dərs vəsaiti / N.V.Miklyayeva, Y.V.Miklyayeva. M.:Akademiya, 2017. 421s.


## MÜXTƏLİF FƏALİYYƏT NÖVLƏRİ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAF VASİTƏSİ KİMİ


**Aydınova Şəbnəm Bilal qızı**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
*shabnam.mammadova@inbox.ru*



***Açar sözlər:*** *uşaq, sosial, inkişaf*
***Ключевые слова:****ребенок, социальное, развитие*
***Key words:*** *child, society, development*


### Xülasə


Məktəbəqədər təhsil müəssisələrindəki hərtərəfli fəaliyyət uşağın sosial gerçəkliyə cəlb olunmasının həm vacib şərti, həm də vasitəsidir ki, onlar uşaqlara ətraf aləmi fəal şəkildə dərk etmək, həmçinin onun bir hissəsi olmaq üçün imkan yaradır.


### Резюме


Всесторонняя деятельность в дошкольных учреждениях является одновременно важным условием и средством вовлечения ребенка в соöиальную действительность, что позволяет детям активно познавать окружающий мир, а также быть его частью.

**Summary**

Comprehensive activities in preschools are both an important condition and a means of involving the child in social reality, which allows children to actively understand the world around them, as well as to be a part of it.

Psixoloji-pedaqoji işin məzmunu məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri və fərdi keyfiyyətləri nəzərə alınmaqla hərtərəfli inkişaf etdirilməsinə istiqamətlənmişdir. Uşaqların fiziki, intellektual və şəxsi keyfiyyətlərinin formalaşdırılması üzrə aparılan psixoloji-pedaqoji işin məsələləri bütün təhsil sahələrinin mənimsənilməsi əsnasında hər bir təhsil sahəsinin spesifikasını əks etdirən məsələlərlə yanaşı mütləq psixoloji müşayiətlə inteqrativ şəkildə həll olunur. Bu zaman təhsil proqramlarının məsələlərinin həlli bilavasitə təhsil fəaliyyəti çərçivəsində deyil, həmçinin, həm böyüklərlə uşaqların müştərək fəaliyyətində, həm də məktəbəqədər yaşlı uşaqların sərbəst fəaliyyətində nəzərdə tutulur.

Bu təhsil sahəsinin dörd istiqamətinin hər biri üzrə aparılan daimi, fasiləsiz iş hər bir uşağın sosial-kommunikativ inkişafına səbəb olur. Uşaqlar daha sərbəst, məqsədyönlü və özünə inamlı, ünsiyətcil, yaşıdlarına və böyüklərə qarşı daha diqqətli və qayğıkeş, anlayışa və əməkdaşlığa qadir olurlar. Uşaqlarda birlikdə qərar qəbul etmək və onu yerinə yetirməyə çalışmaq bacarığı formalaşır.

Oyun fəaliyyətinin inkişaf etməsi və çətinləşməsi uşaqları bir fikrə gəlməyə və öz fəaliyyətini öncədən planlaşdırmağa məcbur edir. Ünsiyyətə olan əsas tələbat uşağın yoldaşları ilə əməkdaşlığa can atmasından ibarətdir ki, bu da situasiyadankənar xarakter daşıyır. Ünsiyyətin aparıcı motivi dəyişir. Uşağın gözündə yaşıdının konkret obrazı yaranır. Bu səbəbdən də, dostluq və bağlılıq yaranır.

Emosional-praktik ünsiyyət forması uşaqları təşəbbüs göstərməyə vadar edir, emosional hisslər spektrinin genişlənməsinə təsir göstərir. Situativ-işgüzar mühit şəxsiyyətin, özünüidrakın, cəsarətin, optimizmin, yaradıcılığın inkişafı üçün əlverişli şərait yaradır. Situasiyadankənar-işgüzar mühit isə, ünsiyyətdə olduğu partnyorunu şəxsiyyət kimi qəbul etmək, onun hiss və düşüncələrini anlamaq bacarığını formalaşdırır.

Şəxsiyyətin formalaşması faktorunda sosial mühitin rolu haqqında bilən pedaqoq tərbiyəvi mühitin təşkilinə xüsusi diqqət yetirir.

Tərbiyəvi mühit - uşağı əhatə edən, onun şəxsiyyətinin inkişafına təsir edən və onun müasir mədəniyyətə cəlb olunmasına kömək edən sosial cəhətdən dəyərli halların birləşməsidir. Şəxsiyyətin sosial inkişaf faktoru olan mühitin məzmunu əşyavi əhatədən, sosial-davranış əhatəsindən, hadisə və informasiya əhatəsindən ibarətdir. Bunların obyektiv təsirindən peşəkar şəkildə istifadə edən pedaqoq, bu təsirə məqsədyönlü istiqamət verməklə pedaqoji şəkil verir və bununla da, tərbiyəvi mühit yaradır.

Mühitin təsirini nəzərə almayan, bu təsirə göz yuman və ya onu təmamilə rədd edən və ya mühitin uşağa təsirinin təsadüfi xarakter daşıdığını iddia edən pedaqoq şəxsiyyətin formalaşmasını öz axınına buraxır və bununla da, tərbiyəvi mühitin yaradılmasından imtina edir. Beləliklə, tərbiyə - uşağın sosial inkişaf faktoru kimi çıxış edən pedaqoq tərəfindən təşkil olunan mühitdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu 3-6 yaş). Təhsil Nazirliyi, 10 iyul 2012-ci il .

2. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı, ADPU, 2010.

3. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, ADPU, 2010

4. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006

## TƏHSİL İDARƏÇİLƏRİNDƏ EFFEKTİVLİK HİSSİ VƏ ONUN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Cəfərova Nərmin Bayram qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nerminbayramqizi@gmail.com*

Təhsildə keyfiyyəti idarəetmə sisteminin səmərəliliyi səlahiyyətli orqanın rəhbərliyindən, məktəb rəhbərliyinə qədər idarəetmə sistemindəki hər bir şəxsdən asılıdır. Məktəb rəhbərliyi məktəb proseslərini formalaşdırır və dolayısı ilə şagird nailiyyətlərinə təsir göstərir. Bu səbəbdən, məktəb rəhbərliyinə təsir edən xüsusiyyətlər haqqında biliklər idarəetmə və liderlik təcrübələrinin gücləndirməsinə şərait yaratmaq üçün istifadə edilə bilər.

Effektiv məktəblərdə aparılan tədqiqatlar göstərir ki, məktəb direktorunun liderlik qabiliyyətləri şagird nəticələrinin yaxşılaşdırılması üçün çox vacibdir. Direktorun liderlik qabiliyyəti ilə şagirdin təlim nəticələri arasında əlaqə dolayı xarekter daşıyır. Burada əsas qərarların qəbulu, məqsədlərin və strategiyaların düzgün seçilməsi, valideyn və ictimaiyyətin iştirakı, müəllim nəzarəti, bir sözlə bunların hamısı şagirdin performansına müəyyən qədər təsir göstərir. Effektiv məktəblərdə aparılan tədqiqatlar, xüsusən də ABŞ və digər inkişaf etmiş ölkələrdə ictimai təhsili təkmilləşdirmək səylərinə təsir etsə də, makro səviyyədən mikrosəviyyəli siyasət istiqamətlərinə keçən inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda da təhsil islahatlarını formalaşdırmışdır.

Şagirdlərin təlim nəticələrinin yüksəldilməsi məsələsini həll etmək məqsədi ilə kritik töhfələr arasında sinifdə öyrənmə təcrübələrini təkmilləşdirmək üçün müəllimlərə dəstək verən təhsil liderləri kimi məktəb direktorlarının da xüsusi yeri vardır.Uğurlu təhsil liderləri sinifdə şagirdlərlə əlaqəni optimallaşdırmaq üçün kurikulum və təlimat məsələlərində birbaşa müəllimlərlə işləyirlər.

Təhsilin idarə edilməsi məktəb və icma ilə əlaqəli təşkilati və siyasi dəyişənlərdən – məsələn, yerləşdiyi ərazi, məktəbin ölçüsü, məktəbin səviyyəsi, şagirdlərin sosial-iqtisadi vəziyyəti, yerli təhsil orqanı, icmanın maraqlı tərəfləri və işçi heyətinin təzyiqləri, həmçinin müdirin öz inancları və üstünlük verdiyi dəyərlərdən aslıdır.

Məktəb islahatının həyata keçirilməsində direktorun rolunu anlamaq üçün vacib olan sahə direktorların effektivlik hissi əsasən öyrənilməmiş olaraq qalır. Effektivlik hissi arzu olunan nəticələri əldə etmək məqsədi ilə fəaliyyət istiqamətini qurmaq üçün insanın öz imkanları haqqında mühakiməsidir. Tədris liderliyi kontekstində effektivlik hissi müəllimin şagirdib təlim nəticələri ilə bağlı məqsədlərinə nail olması üçün tədris proseslərini tənzimləmək və müəllim fəaliyyətlərini dəstəkləmək üçün zəruridir və bütün bunlar xüsusi idrak fəaliyyətlərini, davranış funksiyalarını yerinə yetirmək üçün direktorun özünü dərk etdiyi qabiliyyətidir. Effektivlik hissi məqsəd qoyma, istək səviyyəsi, səy, uyğunlaşma və əzmkarlığa əhəmiyyətli təsir göstərir. Buna görə də, strategiyaların inkişafı və bu strategiyaların lazım şəkildə icrası üçün funksional liderlik mərkəzi yer tutur. Özündə effektivlik hissi yüksək olan fərdlər daha çətin olan tapşırıqları yerinə yetirməyə çalışırlar, onları yerinə yetirmək üçün daha çox səy göstərirlər və maneələrlə qarşılaşdıqca öz səylərində daha əzmkar olurlar. Buna görə də, direktorun davranışını, onun müəyyən tapşırıqları yerinə yetirmək qabiliyyətini və məqsədə çatmaq üçün müəyyən hərəkətlərin təsirinə olan inamını yoxlamaq yolu ilə proqnozlaşdırmaq olar.

## AZƏRBAYCAN RESPUBLİKASI MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRA XARİCDƏ TƏHSİL ÜZRƏ DÖVLƏT PROQRAMLARI VƏ ONLARIN MAHİYYƏTİ

**Rəcəbli Nurxan Rəcəb oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rnurxan@mail.ru*

***Açar sözlər:*** *xaricdə təhsil, Dövlət Proqramı, təhsil, inkişaf, gələcək, sərəncam*

***Ключевые слова:*** *обучение зарубежом, Госпрограмма, образование, развитие, будущее, распоряжение*

***Key words:*** *study abroad, State Program, education, development, future, order*

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdikdən sonrakı dövr ərzində qəbul edilmiş Xaricdə təhsil üzrə Dövlət Proqramları və onların əhəmiyyətindən bəhs edilmişdir. Ali təhsil sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması təhsil sisteminin inkişafında və təhsil quruculuğunda əhəmiyyətli yer tutur. Bu vəzifənin uğurla icra edilməsi üçün atılan addımlardan biri də Azərbaycan gənclərinin təhsil almaq üçün dövlət vəsaiti hesabına xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almaq üçün göndərilməsidir. Müxtəlif vaxtlarda verilmiş qərarlar vasitəsilə gənclərin xarici ölkələrdə təhsil ala bilmələri üçün şərait yaradılmış və bu prosesdən minlərlə gənc faydalanmışdır. Xarici ölkələrdə təhsil almaq üçün göndərilən tələbələrlə müvafiq müqavilələr bağlanmış və həmin tələbələr təhsillərini başa vurduqdan sonra ölkəyə geri qayıdaraq vəzifələrə təyin olunmuşlar. Hazırda bu proses davam etməkdədir. Gənclərin xarici ölkələrə təhsil almağa göndərilməsi öz töhfəsini sadəcə təhsil sahəsində deyil bütün sahələrdə göstərməkdədir.

**НЕЗАВИСИМОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ГОСУДАРСТВЕННЫЕ ПРОГРАММЫ ПО ОБРАЗОВАНИЮ ЗА РУБЕЖОМ И ИХ ЗНАЧЕНИЕ**

**Резюме**

В статье рассматриваются Государственные программы за рубежом, принятые в период после обретения независимости Азербайджанской Республикой, и их значение. Подготовка высококвалифициро ванных специалистов в области высшего образования играет важную роль в развитии системы образования. Одним из шагов, предприятных для успешного выполнения этой задачи, является направление азербайджанской молодежи на обучение в престижные зарубежные вузы. Решения, принятыев разное время, создали условия для обучения молодежи за границей, и тысячи молодых людей получили пользу от этого процесса. Со студентами, направляемыми на обучение за грвницу, были подписаны соответствующие соглашения, и эти студенты вернулись в страну после окончания учебы и были назначены. Обучение за границей-это вклад не только в сфере образования, но и во всех областях.

**OF THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN STATE PROGRAMS FOR EDUCATION ABROAD AND THEIR SIGNIFICANCE**

**Summary**

The articlediscusses the State Programs on Education Abroad adopted after the restoration of the independence of the Republic of Azerbaijan and their importance. The training of highly qualified specialists in the field of higher education plays an important role in the development of the education. Sending young people to study at prestigious universities abroad at public expense. Thousands of young people have benefited from this process through decisions made at various times. Relevant agreements have been signed with students sent to study abroad and those students have been appointed to their studies. This process is currently underway. Sending young people to study abroad is a contribution not only in the field of education, but in all areas.

Ali təhsilli milli mütəxəssislərin hazırlanması təhsil quruculuğunda mühüm yer tutur.Bu vəzifənin icra edilməsi istiqamətlərindən biri də azərbaycanlı gənclərin xarici ölkələrin tanınmış ali məktəblərində təhsil almağa göndərilməsidir.

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdi və daha sonra dövlət quruculuğu sahəsində uğurlu addımlar atılmağa başlandı. Beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri inkişaf etmiş, dünyanın qabaqcıl ölkələri ilə müxtəlif sahələrdə inteqrasiya prosesində artım müşahidə olunmuşdur. İstər ölkədaxili, istərsə də ölkəxarici siyasətin təmin edilməsində, iqtisadiyyatın formalaşdırılmasında və s. müəyyən ixtisaslar üzrə kadr çatışmazlıqları problemi mövcud idi. Qloballaşma dövrünün fəal iştirakçılarından olan Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf etdirilməsi və müasir cəmiyyətin tələblərinə cavab verən yüksək hazırlıqlı kadrlara ehtiyac duyurdu. Müstəqilliyin bərpasından sonra iqtisadi sahədə olduğu kimi elm,təhsil və mədəniyyət sahələrində də inteqrasiya prosesinə cəlb olunma artmış tələbə, müəllim və alimlərin mübadiləsi prosesi geniş vüsət almışdır. Beləliklə, ölkənin intellektual potensialının zənginləşdirilməsi prosesi xarici ölkələrdə təhsil və kadr hazırlığı məsələsini aktuallaşdırmışdır. Ölkəmizin gələcəyə dair inkişaf strategiyasında müasir texnologiyalardan isdifadədə kadr ehtiyatının təmin edilməsi, müasir idarəetmə sistemində kadr bazasının tələblərə uyğun olaraq gücləndirilməsi, qeyri-neft sektorunun sürətlə inkişafının təmin edilməsi məqsədilə Azərbaycan gənclərinin dünyanın qabaqcıl xarici ölkələrində təhsil almalarına şərait yaradılması üçün müvafiq proqramların həyata keçirilməsi zərurəti meydana çıxmışdır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə Azərbaycan gənclərinin dünya ölkələrinin müxtəlif ali məktəblərinə təhsil almaq məqsədi ilə göndərilməsi siyasəti yenidən formalaşmışdır,müxtəlif ölkələrlə imzalanmış əməkdaşlıq müqavilələri çərçivəsində ayrılmış təqaüd yerləri vasitəsilə dövlət hesabına gənclərimizin xarici ölkələrdə ali təhsil almağa göndərilməsi üçün şərait yaradılmışdır.Azərbaycanlı gənclərin ölkəmiz üçün lazımlı olan ixtisaslar üzrə xarici ölkələrdə təhsil almalarını və ölkəmizin inkişafında mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli sərəncamı imzalanmışdır.Həmin sərəncama uyğun olaraq hazırlanmış “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nda istedadlı Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılması nəzərdə tutulmuşdur. Dövlət Proqramının əsas məqsədi ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi,Azərbaycanlı gənclərin ümumbəşəri dəyərlər əsasında layiqli təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir.[1]

Həmin məqsədlərin reallaşdırılması üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- Gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsili prosesinin normativ hüquqi bazasının yaradılması
- Gənclərin xarici ölkələrin ali məktəblərində təhsili prosesinin maliyyələşdirilməsi mexanizmlərinin yaradılması
- İxtisas və təhsil proqramları üzrə ölkənin ehtiyaclarının müəyyənləşdirilməsi
- Ölkənin ehtiyaclarına uyğun olaraq, xarici ölkələrin ali məktəblərinin müəyyənləşdirilməsi
- Seçim meyarlarının müəyyənləşdirilməsi
- Xaricdə təhsil alan gənclərin təhsilalma keyfiyyətinin monitorinq və qiymətləndirilməsinin aparılması və müvafiq məlumat bazasının yaradılması
- Məzunların potensialından səmərəli isdifadə edilməsi mexanizminin yaradılması. [1]

2007-2015-ci illər ərzində yerinə yetirilməsi nəzərdə tutulan bu proqram vasitəsilə 5000 (beş min) gəncin xarici ölkələrə təhsil almağa göndərilməsi nəzərdə tutulsada 3500 (üç min

beş yüz) nəfər gənc getmiş və onların təhsil ala bilmələri üçün 90 milyon manata yaxın vəsait ayrılmışdır.

“2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə və nailiyyətlərdən faydalanaraq, müasir kompetensiyalara malik insan resurslarına olan ehtiyacın Azərbaycan Respublikasının ali təhsil müəssisələrində hazırlanması yolu ilə Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” hazırlanmışdır. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. [6]

Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli hazırlanmış “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” qəbul edilmişdir.Dövlət Proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil almalarını təmin etməyi planlaşdırır. [7]

**Nəticə.** Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bir çox çətinliklərlə üzləşməsinə baxmayaraq artıq regionda lider dövlətə çevrilir. Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də inkişafa nail olmaq üçün mühüm addımlar atılmışdır. Cəmiyyətin inkişafı və potensial imkanlarının formalaşmasında təhsilin mühüm əhəmiyyəti var. Azərbaycan təhsili öz inkişafında bir sıra yadda qalan yeniliklərlə diqqət mərkəzinə çevrilmiş, ölkə vətəndaşları tərəfindən maraqla qarşılanmış eyni zamanda dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemi ilə tanış olmaq məqsədilə verilmiş önəmli qərarlardan biri də Xaricdə təhsil üzrə dövlət proqramlarının qəbul edilməsi olmuşdur. Xaricdə təhsil üzrə dövlət proqramları həqiqətən də Azərbaycan Respublikasının iqtisadiyyatının, gələcəyinin inkişafında gənclər üçün yeni imkanların yaradılması baxımından çox müstəsna bir əhəmiyyətə malikdir. Eyni zamanda xarici ölkələrə təhsil almaq üçün göndərilən tələbələrin təhsillərini başa vurduqdan sonra ölkəyə geri qayıtması və ölkənin inkişafına öz töhfələrini verə bilmələri üçün şəraitin yaradılmasının böyük əhəmiyyəti vardır.

**Ədəbiyyat:**

1) Hümeyir Əhmədov. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, 2010.

2) Misir Mərdanov. Azərbaycan Təhsili Yeni İnkişaf Mərhələsində. Bakı:Çaşıoğlu, 2009.

3) Misir Mərdanov. Azərbaycan Təhsili:İslahatların uğurlu nəticələri 2009-2010-cu illər, Bakı:Şərq-Qərb, 2010.

4) Misir Mərdanov. Azərbaycan Təhsil Tarixi. I cild. Bakı:Təhsil, 2011.

5) Misir Mərdanov. Davamlı İnkişaf və Təhsil. Bakı:Çaşıoğlu, 2009.

6)https://static.president.az/upload/Files/2018/11/16/23ujzb7j_dovlat_proqramı_2019_2023_cu_illar_uchun_Azarbaycan_respublikasında_ali_tahsil_sisteminin_beynalxalq_raqabatliliyinin_artirilmasi_uzra_rasmi_sanadlar_xarica.pdf

7) https://xaricdeoxu.com/2022/03/2022-2026-ci-iller-ucun-dovlet-proqrami-cercivesin-de-xaricde-tehsil/

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PEDAQOJİ İŞÇİLƏRİN PEŞƏKAR İNKİŞAFININ İDARƏ EDİLMƏSİ VƏ ONUN ƏHƏMİYYƏTİ

**Paşayeva Aysel Füzuli qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayselpasha97@gmail.com*
**Elmi rəhbər: p.ü.f.d., dos. Nəzərov Müslüm**

***Açar sözlər:*** *təhsil, pedaqoji idarəetmə, pedaqoji təhsil, məktəb, müəllim, peşəkarlıq, səriştəlilik, təcrübə, islahat, keyfiyyət*

***Ключевые слова:*** *образование, педагогический менеджмент, педагогическое образование, школа, учитель, профессионализм, компетентность, опыт, реформа, качество*

***Key words:*** *education, pedagogical management, pedagogical education, school, teacher, professionalism, competence, experience, reform, quality*

**Xülasə**

Təhsil müəssisələrində pedaqoji işçilərin peşəkarlığı orada təhsilin keyfiyyətinə əsaslı şəkildə təsir edir. Bu təsir həm təlim prosesini, həm də ümumi məktəbin fəaliyyətini və nüfuzunu əhatə edir. Bunları nəzərə alaraq pedaqoji işçilərin səriştə və peşəkarlığını artırmaq üçün məktəb rəhbərliyi və dövlət səviyyəsində xüsusi addımlar atılmasına, yeni təcrübə və nümunələrin gətirilməsinə ehtiyac vardır. Rəhbər şəxs son məqsədi unutmamalı, müstəqil şəkildə və istiqamətləndirmələrlə pedaqoji işçilərin məktəbdənkənar fəaliyyətlərdə iştirakını təmin etməlidir. Bütün qurumlar bu işə diqqət yetirməli, peşəkarlığın yüksək nəticələrə gətirdiyini unutmamalıdırlar.

**Резюме**

Профессионализм педагогических кадров образовательных учреждений оказывает существенное влияние на качество образования в них. Это влияние распространяется как на процесс обучения, так и на общую успеваемость и репутацию школы. С учетом этого необходимо предпринимать спеöиальные шаги на уровне администрации школы и государства для повышения конкурентоспособности и профессионализма педагогических кадров, привлечения нового опыта и примеров. Руководитель не должен забывать о конечной цели, обеспечить участие педагогического коллектива во внеучебной деятельности самостоятельно и под руководством. Все организации должны обратить внимание на эту работу, помня, что профессионализм ведет к высоким результатам.

**Summary**

The professionalism of pedagogical staff in educational institutions has a significant impact on the quality of education there. This impact covers both the learning process and the overall school's performance and reputation. With this in mind, there is a need to take special steps at the school administration and state level to increase the competence and professionalism of pedagogical staff, and to bring new experiences and examples. The leader must not forget the ultimate goal, to ensure the participation of pedagogical staff in extracurricular activities independently and with guidance. All organizations should pay attention to this work, remembering that professionalism leads to high results.

Təhsil həm bir proses, həm də bir nəticə olmaqla məxsusi təyin olunmuş təhsil müəssisələrində və ya müstəqil olaraq əldə olunur. Təhsil elə bir prosesdir ki, burada müstəqil öz

üzərində işləmə qabiliyyətinə sahib olan bir şəxs üçün də müəyyən baza və istiqamətləndirmə tələb olunur. Bu zaman müəyyən baza bilikləri ilə müstəqil həyata hazır gənc nəsili yetişdirən məktəbləri – təhsil müəssisələrini xüsusi qeyd etmək lazımdır. Məktəb ümumi həyati biliklərə, dünyagörüşünə malik, cəmiyyət üçün yararlı şəxsiyyətlər yetişdirilən və istiqamətləndirilən bir məkandır. Təhsil müəssisələrində təlim-tərbiyə prosesi və gənclərin istiqamətləndrilməsi işini həyata keçirən, onu təmin edən əsas qüvvə isə pedaqoji işçilərdir. Onların hər biri işinin peşəkarı və mütəxəssis olduqda bu işi uğurla aparmağa nail olurlar. Burada qeyd etməliyik ki, əməyin məzmunundan və xarakterindən asılı olaraq idarəetmə kadrlarının üç əsas kateqoriyasını göstərmək mümkündür: rəhbərlər, mütəxəssislər və texniki heyət. Ümumtəhsil məktəbinin qarşısında duran əsas vəzifələrin uğurla həyata keçirilməsi məktəbin idarə olunması, ona rəhbərlik və idarə edilmə səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Rəhbər şəxs pedaqoji işçilərin işinin keyfiyyətini artırmaq üçün tədbirlər və addımlar atmalıdır. Bu zaman gözlənilən nəticələri əldə edə bilər.

Pedaqoji işçi kimdir? Təhsil müəssisələrində pedaqoji işçi dedikdə, hər şeydən əvvəl, təlim-tərbiyə prosesi ilə məşğul olan müəssisələrə rəhbərlik edənlər, təsərrüfat fəaliyyəti ilə məşğul olanlar, maliyyə, hüquqi, informasiya, elmi-metodik, təşkilati-texniki və təhsil müəssisələrinin fəaliyyətini təmin edən xüsusi idarəetmə funksiyalarını həyata keçirən işçilər başa düşülür. [7, səh. 59] Pedaqoji işçilərin hər birinin öz vəzifə borcları vardır. Təhsil müəssisəsində verilən təhsilin keyfiyyətinin yüksək olması tək bir müəllimin, rəhbərliyin deyil, ümumi məktəbin nəticəsi hesab olunur.

İdarəetmə təhsildə vacib bir amilə çevrilmişdir. O, sosial mənada müəyyən obyektə təşkilati, planlı və sistemli şəkildə təsir etmək kimi anlaşılır. Bu təsir təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyət xüsusiyyətlərinin nizama salınması və qorunması, gələcək inkişafı və təkmilləşdirilməsini təmin edir. Bu əsasda hüquqi bazanın yaradılması ümummilli lider Heydər Əliyevin apardığı əsaslı işlərdən biridir. Heydər Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təhsil sahəsində hüquqi bazanın yaradılmasına təkan vermişdir. Bu illərdə Dünya Bankının dəstəyi ilə ümumi təhsilin məzmununun yeniləşdirilməsi, tədris-maddi bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi, idarə olunmasının təkmilləşdirilməsi, İKT ilə təmin edilməsi və s. sahələrdə xeyli iş görülmüşdür.

Təhsilin idarə olunması kimi mürəkkəb prosesi idarə etmək-planlaşdırmaq, əlaqələndirmək, lazımi məcraya istiqamətləndirmək, xalqın, cəmiyyətin, dövlətin tələbinə uyğun ona rəhbərlik və nəzarət etmək yüksək peşəkarlıq tələb edir. Müəllim, pedaqoq yeni insan tərbiyə edir, onun intellektual, mənəvi aləmini inkişaf etdirir, şəxsiyyət formalaşdırır. Görkəmli türk alimi və maarifçisi Aydın Özdəmir yazırdı ki, millətləri qurtaranlar yalnız və ancaq müəllimlərdir. Cümhuriyyət müəllimlərdən fikri nur, vicdanı nur, irfanı nur nəsillər istəyir. Təbii ki, belə bir istəyin yerinə yetirilməsi müəllimdən əhatəli və dərin bilik, səriştəlilik, bacarıq, yaradıcı düşüncə, öz pedaqoji məharətini daim inkişaf etdirmək istəyi və vərdişi tələb edir. Müəllim özünü inkişafa yönəldilməli, bunun üçün rəhbərlər tərəfindən xüsusi imkanlar da yaradılmalıdır. Müəllimin mövcud pedaqoji təcrübəni öyrənib tətbiq etməsi inkişafın, peşəkarlığa yiyələnmənin əsas yollarından biridir. Belə ki, konkret bir müəllim və ya məktəb yeniliyi, onun tətbiqi ilə yüksək nəticələr əldə edəcəyini müəyyən etdikdəbu yeniliyi dərindən öyrənmək və təhlil etməklə özü üçün müəyyən metodika, texnoloji plan hazırlamalıdır. Bu, öyrənməyin birinci mərhələsini təşkil edir. İkinci mərhələdə müəllim yeniliyi tətbiq etmək məqsədilə əlverişli öyrədici mühit hazırlamalıdır. Belə bir mühit olmadıqda yeniliyi tətbiq etmək və ya ondan müsbət nəticə əldə etmək mümkün olmadığından ona xüsusi diqqət ayırmaq olduqca vacibdir. Üçüncü mərhələdə artıq müəllim qəbul etdiyi yeniliyi özünün hazırladığı texnoloji plana əsaslanaraq tətbiq edir. Dördüncü mərhələdə müəllim aldığı nəticələri təhlil edərək ümumiləşdirmələr aparmalı, müvəffəq və nöqsanlı cəhətləri nəzərdən keçirməli, müəyyən korreksiyaedici işlər aparıb və nəticələr çıxarmalıdır.

Müasir təhsil müəssisəsi keyfiyyətli təhsilə nail olmaq üçün orada çalışan əsl pedaqoqların fəaliyyətinə arxalanır. Belə pedaqoqları necə təsvir edə bilərik? Onlar yüksək ixtisaslı, elmi-nəzəri və metodiki cəhətdən yetkin və səriştəli müəllim kadrlarıdır. Belə kadrlar olmasa, məktəbin fəaliyyətini pedaqoji cəhətdən məqsədəuyğun şəkildə təşkil etmək,təlim-tərbiyənin keyfiyyətini günün tələbləri səviyyəsinə qaldırmaq mümkün deyildir.Müəllimlərin elmi-nəzəri və praktik səviyyəsinin yüksəldilməsinə kömək edən amillərdən biri də məktəbdə müəllimlərlə aparılan metodik işlərdir. Hazırda məktəbdə metodik işlərin iki forması – fərdi və kollektiv formalar geniş yayılmışdır. Fərdi iş formasına-müəllimin öz planı əsasında qabaqcıl pedaqoji təcrübəni öyrənməsi, səriştəli həmkarlarının dərslərini, yaxud pedaqoji və metodik mövzulara həsr olunmuş radio və televiziya verilişlərini müntəzəm surətdə dinləyib özü üçün nəticələr çıxarması, İKT-nin imkanlarından istifadə etməklə internet vasitəsilə lazımi informasiyaları əldə etməsi,özünütəhsil yolu ilə pedaqoji, psixoloji və metodik ədəbiyyatı mütaliə etməsi, elmi-praktik konfranslarda,ixtisasartırma kurslarında,treninqlərdə vaxtaşırı iştirakı, pedaqoji və metodiki mövzularda layihə hazırlaması, məruzə ilə çıxış etməsi, məqalə yazması və s. daxildir.

Müasir dövrlə bərabər cəmiyyətimizin gələcək inkişafı da peşəkar və səriştəli müəllim hazırlığı üçün lazımi infrastrukturun və sistemin yaradılmasını tələb edir. Ölkədə ali pedaqoji təhsili inkişaf etdirmək və səriştəli müəllim hazırlığını təmin etmək məqsədilə bir sıra işlərin görülməsi bu baxımdan çox önəmlidir.Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ali pedaqoji təhsil müəssisələrinin müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi. Tədris prosesində onlardan gündəlik istifadə edilməsi mühitinin yaradılması.

2. Ali pedaqoji təhsil müəssisələrinin tədris planlarının, proqramlarının yeniləşdirilməsi və onların beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsi. Yeni təhsil texnologiyalarına əsaslanan tədris planı, proqramı və dərsliklərin tətbiqinə nail olunması.Proqramların praktik istiqamətinin gücləndirilməsi.

3. Pedaqoji prosesə məzmunu pedaqoji sistemlərin özünütəşkilatlandırma nəzəriyyəsində, prinsiplərində və qanunauyğunluqlarında əks olunmuş pedaqoji bilik sahəsindən ibarət olan sinergetik yanaşmanın təmin olunması.

4.Müəllim peşəsinin nüfuzunun yüksəldilməsi və tələblə təklifin uzlaşdırılması. Keyfiyyətin kəmiyyətdən və müvəffəqiyyətdən üstün olmasına nail olunması.

5. Pedaqoji təhsil sahəsində dünyada tanınmış ali məktəblərin təcrübəsinin öyrənilməsi və onların təcrübəsindən yaradıcılıqla istifadə edilməsi.

6. Ümumtəhsil məktəbləri ilə əməkdaşlığın genişləndirilməsi və onlarla müntəzəm əlaqəyə nail olunması. Ali pedaqoji təhsil müəssisələrinin bilavasitə tabeliyində olan baza məktəblərin şəbəkəsinin genişləndirilməsi.

7. Ali pedaqoji təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin səviyyəsinin və ona nəzarətin gücləndirilməsi.Elmi-tədqiqat işlərinin daha kompetensiyalı, müasir mövzulara həsr olunması və onların praktik istiqamətini gücləndirməklə tətbiqinə nail olunması.

8. Pedaqoji yönümlü ali məktəb məzunlarının işlə təmin olunmasına pedaqoji dəstəyin verilməsi.

Bütün bunlar müəllimlərin peşəkarlığı və səriştəliliyi ilə bilavasitə bağlı olduğundan ali məktəblərdə müəllimlərin peşəkarlığının və səriştəliliyinin səviyyəsinin yüksəldilməsi bu işlərin reallaşdırılmasında əsas yerlərdən birini tutur. Peşəkar müəllimi hazırlayan şəxs özü də səriştəli və bacarıqlı, yeni pedaqoji texnologiyalara bələd olmalı, onları tətbiq edə bilməlidir. Müasir dövrdə nə məktəbi texnologiyasız, nə də müəllimi onlardan istifadə etmə bacarığı olmadan təsəvvür etmək mümkün deyildir. Bu həm müəllim hazırlığına və müəllimlərin tədris prosesində fəaliyyətinə aid edilir.Görkəmli maarifçi F.Köçərli deyirdi: "Müəllim məktəbin canı və camaatın çırağıdır. O, öz peşəsini sevməli, şagirdləri övladı kimi istəməli, xeyir verən biliklər aşılamaqla əhalinin rəğbətini və məhəbbətini qazanmalıdır".[1, səh.13]

Qeyd olunmalı bir məqamdır ki, səriştəli və peşəkar müəllimin fənni tədris etmə forması digər müəllimlərdə olduğundan tamam fərqlidir. Belə ki, peşəkar müəllim təlimdə yeni üsullara və yanaşmalara müraciət edir, şagirdlərinə öz fənnini sevdirməkdə digərlərindən daha uğurlu nəticələrə nail olur. Əsas səbəb nədən ibarətdir? Səbəb ondan ibarətdir ki, səriştəli və bacarıqlı müəllim öz yenilikçiliyi ilə seçilir, şagird psixologiyasına dərindən yiyələnmişdir, onun dərslərində həvəsləndirmə və stimullaşdırma vardır, qapalı deyil, açıq düşüncə tərzinə malikdir. (K.Dvek-Düşüncə tərzi nəzəriyyəsi) Belə hallar təlimin daha məhsuldar olmasına, həll edilən problemin şagirdlər tərəfindən daha aydın, daha məzmunlu və daha dərindən mənimsənilməsinə səbəb olur. Şagirdlər müəyyən bilik,bacarıq və vərdişlərə yiyələnməklə yanaşı, onlarda təfəkkür inkişaf etdirilir.

Məktəbə rəhbərliyi məktəb direktoru, onun müavinləri, kollegial və ictimai özünüidarə orqanları birgə həyata keçirir. Onların iş dairəsi və vəzifələri Təhsil Qanunu, məktəbin Nizamnaməsi kimi vacib sənədlərlə müəyyən olunur. Vaxtilə məktəb direktoru işləmiş görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski insana belə yanaşmanı pedaqoji mədəniyyətin zirvəsi adlandırmış və göstərmişdir ki, yalnız insana, onun xeyirxah başlanğıcına inam onda bütün gözəllikləri, yaxşı cəhətləri oyatmağa və təsdiq etməyə qadirdir. Yaxşı müəllim insana inandığı kimi, habelə onda öz qüvvəsinə və gələcəyinə inam yaradır. Belə inam itərsə, bu halda ən incə təlim və tərbiyə metodları da öz təsirini itirir, insanda ümidsizlik və biganəlik baş qaldırır. [5, səh. 53]

Müəllimin peşəkarlığı ilə bağlı düşüncədə öyrədən-öyrənən qarşılıqlı münasibətlərinin formalaşmasında müəyyən texnikanın və üsulun üstünlük təşkil etməsi hazırda da öz mövcudluğunu saxlamışdır. Usta müəllimin müvəffəqiyyətinin sirri nədədir? Bu sirləri araşdırsaq,biz pedaqoji təsir üsullarının yonulmuşluğu, ən müxtəlif təcrübi məsələlərin sənətkarlıqla qoyuluşu və həlli ilə qarşılaşırıq. Burada ən mühüm rol həmin müəllimin xüsusi bacarıqları ilə bağlıdır. Bunlar şagirdləri intensiv idraki fəaliyyətə cəlb etmək, suallar qoymaq, kollektivlə və ya tək bir şəxsiyyətlə ünsiyyətdə olmaq, əhval-ruhiyyəsini, mimikasını, hərəkətlərini idarə edə bilmək və s.-dir.

Biz hansı müəllimi "peşəkar müəllim" adı ilə təqdim edə bilərik? Bu çox vacib məsələdir. A.Abdullayevə görə, "peşəkar müəllim elə mütəxəssisdir ki, peşə normalarını bilir, qarşısına müstəqil məqsəd qoyur, öz təşəbbüsü ilə peşə qabiliyyətini inkişaf etdirir, yüksək motivasiya və özünütənzim səviyyəsinə malik olur, öz fəaliyyətini düzgün idarə etməyi bacarır. Peşə bacarığına ixtisas (fənn) bacarıqlarından daha çox şəxsiyyət keyfiyyətləri daxildir" [1, səh.73]

Mövcud təcrübənin təhlili belə bir nəticəyə gəlməyə imkan yaradır ki, müəllimin peşəkarlıq səviyyəsinin artırılması iki formada həyata keçirilə bilər:

1.Tədrisdən ayrılmaqla ixtisasartırma kursları vasitəsilə;

2.Tədrisdən ayrılmadan öz üzərində müstəqil işləməklə.

Birinci forma məcburi qaydada planlı şəkildə tətbiq edilir. İkinci forma müəllimin mənəvi tələbatlarından və ehtiyaclarından ortaya çıxır, könüllü şəkildə yerinə yetirilir, ona kənardan heç bir müdaxilə olunmur, müəllim həvəsli və sərbəstdir. Müəllimin tədrisdən ayrılmadan öz peşə ustalığını artırması müxtəlif yollarla həyata keçirilə bilər ki, bunlardan aşağıdakılar daha səmərəli hesab olunur:

1.Müstəqil mütaliə yolu ilə;

2.Qabaqcıl iş təcrübəsinin öyrənilməsi yolu ilə.

Hər bir ölkədə təhsil müəssisələrində təhsilin keyfiyyəti aktual olmuş və bugün də aktualdır. Son zamanlar, bu problem daha da ciddiləşmişdir. Təsadüfi deyildir ki, Respublikanın Nazirlər Kabineti fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasını təsdiq etmişdir (Bakı şəhəri, 25 iyun 2007-ci il №102).Bu sənəddə qeyd edilir ki, beynəlxalq standartlara uyğun gələn, yüksək keyfiyyətli fasiləsiz müəllim hazırlığı sisteminin uğurla formalaşdırılması və tətbiqi üçün vacib olan altı strateji fəaliyyət istiqaməti müəyyənləşdirilmişdir:

1) müəllim hazırlığı kurrikulumunun keyfiyyəti;

2) müəllimlərin hazırlanması və təhsil sistemi müəssisələrinin müəllimlərlə təmin edilməsi;

3) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı müəssisələrinin təşkilati strukturu və funksiyaları;

4) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyət təminatı;

5) müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri;

6) fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı.

Ümummili liderimiz Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli 349 №-li Fərmanı İslahat Proqramının gedişinə güclü təkan vermişdir. Fərman ixtisasartırma təhsili və müəllimlərin təkmilləşdirilməsi işinin müasir tələblər səviyyəsində qurulmasını, bu proseslərdə yeni mexanizmlərə keçidin zəruriliyini tələb edir.Verilmiş Fərmanın 10-cu maddəsində göstərilir ki, məktəbəqədər tərbiyə müəssisələri və məktəblərin ibtidai sinifləri üçün pedaqoji kadr hazırlanması, habelə müəllimlərin ixtisasının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Müəllimlər İnstitutu və onun Naxçıvan (2004-cü ildən müstəqil universitetə çevrilmişdir), Gəncə, Sumqayıt, Mingəçevir, Şamaxı, Quba, Qazax,Ağcabədi, Salyan, Cəlilabad, Şəki, Zaqatala filialları yaradılsın. Bu bəndlə, demək olar ki, Azərbaycanda müəllim hazırlığının unikal modeli verilmişdir.

Bu gün fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasında qeyd edildiyi kimi, «fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı» sisteminin səmərəli idarə olunması üçün rəhbər pedaqoji kadr (menecer) hazırlığı fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı proqramının vacib tərkib hissəsini təşkil edilir. Bununla əlaqədar bu gün artıq ixtisasartırma və yenidənhazırlanma təhsil sistemi üzrə elmi proqramların, dərsliklərin, tədris vəsaitlərinin hazırlanmasına, təcrübəli professor-müəllim kadrlarına ehtiyacı var. Hazırda təşkil olunan qısamüddətli kurslar da pedaqoji kadrların imkanlarından asılıdır.

Respublikamızda vahid təhsil sistemindən uzun müddət istifadə olunmuşdur.Akademik M.Mehdizadənin fikrincə, dərsin müasir tələblər əsasında yenidən qurulması ixtiyari məsələ deyildir.Bu, həyatımızın bütün sahələrində baş verən elmi-texniki inqilabın, ictimai inkişafın obyektiv qanunlarından irəli gələn məsələdir. Biz müstəqil dövlət qururuq. Bununla əlaqədar olaraq, xüsusi fəal, təşəbbüskar, zirək, özünə, işinə, həyata tənqidi baxmağı bacaran yeni insanlar tərbiyə etməli və formalaşdırmalıyıq. [6, səh.18] Müstəqilliyə qədəm qoymuş respublikamızda indi məktəbin tipinin dəyişməsi üçün geniş imkan yaradılmışdır.Respublikamızda ümmutəhsil məktəblərində peşə üzrə siniflərin ixtisaslaşması, fənlər üzrə dərinləşdirilmiş proqramlarla işləyən sinifləri olan məktəblər, lisey, gimnaziya, eksperimental mərkəz, müəllif məktəbi, birliklər (bağça-məktəb, məktəb-ali məktəb) və s. yaradılmışdır.

Bu gün müəllimin funksiyası dəqiq müəyyənləşdirilməmişdir. Müəllim ondan dəqiq nə tələb olunduğunu bilmir. Fasiləsiz təhsil sistemində pedaqoji kadr hazırlığı üzrə həyata keçirilən geniş miqyaslı islahatlar çərçivəsində, faktiki olaraq, üç istiqamətdə xüsusi eksperimentlər aparılmışdır.Birinci istiqamət – ixtisasartırma təhsilində məzmunun yeniləşdirilməsi ilə bağlı iki fənn (Azərbaycan dili və ədəbiyyatı və riyaziyyat) üzrə müəllimlərin real tələbatı əvvəlcədən öyrənilməklə alternativ tədris plan-proqramlarının hazırlanması, onların sifarişçi tərəfə təklif edilməsi prinsipi üzərində qurulmuş proseslə müşahidə olunmuşdur.İkinci istiqamət – dayaq məntəqələrində fəaliyyətin təklif olunan mexanizmlərlə həyata keçirilməsi, müəllimlərin təkmilləşdirilməsi prosesinin düzgün tənzimlənməsi ilə əlaqədar beş eksperiment keçiriləcək rayonda proses tam nəzarətə götürülmüş, yeni mexanizmlə bağlı burada aparılan işlərə daim dəstək verilərək konkret əməli kömək göstərilmişdir.Üçüncü istiqamət – ixtisasartırma müəssisələri və struktur bölmələrində fəaliyyətin qiymətləndirilməsi üzrə yeni modelin tətbiqi ilə əlaqədar olmuşdur.Bu eksperiment altı müəssisədə aparılmışdır.

Artıq yeni dövrün tələbinə uyğun olaraq təhsil müəssisələri rəhbərlərində özünüqiymətləndirmədən istifadəyə maraq artmış, öz fəaliyyətlərini obyektiv qiymətləndirən müəssisələr özlərinin gələcək strategiyasını müəyənləşdirmək imkanı qazanmışlar.Keçirilən müşahidələrdən aydın olmuşdur ki, digər müəssisə rəhbərləri də bu cür qiymətləndirmə mexanizmlərinə üstünlük verirlər.

**Ədəbiyyat:**


1. A.Abdullayev. Müəllimin peşə bacarığının yüksəldilməsi faktorları və yolları. Bakı - 2013, 320 s.
2. F.İbrahimov, R.Hüseynzadə. Pedaqogika, Bakı – 2012,706 s.
3. F.Mirzəyev, X.Rüstəmova. Pedaqoji ustalığın əsasları. Bakı – 2012, 44 s.
4. M.İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı – 2018, 208 s.
5. M.İsmixanov, R.Bəxtiyarova. Məktəbin idarə edilməsi. Bakı – 2012, 119 s.
6. O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov. Təhsilin idarə olunmasının əsasları. Bakı – 2010, 230 s.
7. R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova, R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı – 2008, 238 s.


## TƏHSİL SİSTEMİNİN İDARƏ OLUNMASI KEYFİYYƏT TƏMİNATI KONTEKSTİNDƏ


**Məmmədzadə Nigar Şahin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mamedzadanigar@gmail.com*


Təhsilin inkişafı birbaşa cəmiyyətin inkişafı deməkdir və biz bu inkişafa nail olmaq istəyiriksə təhsilə adi bir proses kimi yanaşa bilmərik, çünkü təhsil sadəcə dərsin öyrədildiyi pedaqoji proses deyil, eyni zamanda həyatımızın hər bir anına təsirini göstərən psixoloji, sosial-mədəni, sistemli prosesdir. Bu prosesin idarə olunmasıda özünün icrası kimi olduqca mühümdür. İdarəetmə təhsil sahəsinə müxlətif dəyişikliklər ilə təzahür edir. Yeni aspektlər, metodlar formalaşdırılır. Hamı fakt olaraq bilir ki, təhsil sahəsi digər müəssisələrdən fərqlidir və inksanin hər tərəfli inkişafını təmin etməlidir. Ona görə də bu prosesdə keyfiyyətliliyin təmini olduqca mühümdür. Lazım olan səmərəyədə doğru idarə etmə sayəsində çatmaq olar.

Təhsil müəssisəsinin idarəedilməsi – planlaşdırma, təşkiletmə, rəhbərlik, monitorinq vasitəsilə təlim-tərbiyə prosesinin iştirakçılarının və köməkçi heyətin fəaliyyətini təhsilin və müəssisənin inkişaf məqsədlərinin həyata keçirilməsinə interaktiv şəkildə yönəldən fəaliyyət sahəsidir. Deməli, təhsil müəssisəsinin müasir tələblərə uyğun idarəedilməsi aşağıdakı funksiyaların həyata keçirilməsini tələb edir: planlaşdırma, təşkiletmə, rəhbərlik (motivləşmə), monitorinq (nəzarət).

**Planlaşdırma** – təhsil sahəsinin və ya müəssisənin əsas istiqamətlərini müəyyənləşdirmək və onlara nail olmaq üçün təhsil müəssisələrində çalışanların fəaliyyət sahələri haqqında müvafiq nəticələrin alınmasına dair uyğun qərarların qəbul edilməsidir.

**Təşkiletmə** – təhsil müəssisəsi qarşısında qoyulmuş məqsədə çatmaq üçün planlaşdırılmış işlərin yerinə yetirilməsinə dair mümkün işlək strukturun yaradılmasıdır.

**Rəhbərlik (motivləşmə)** – hər bir təhsil müəssisəsinin fəaliyyətinin əsas məqsədə çatmaq üçün, mövcud planlaşdırmaya və real struktura müvafiq effektiv qərarların qəbul edilməsidir.

**Monitorinq (nəzarət)** – təhsil müəssisəsi qarşısında qoyulmuş məqsədə çatmaq üçün məlumatların mütəmadi toplanması və təhlilidir. Monitorinq (nəzarət) planlaşdırma ilə birbaşa əlaqədə olub, nəticə etibarı ilə təhsil müəssisəsində qarşıya qoyulmuş məqsədin təmin olunmasına xidmət edir.

Təhsil müəssisəsinin idarə olunmasında bu funksiyaların tətbiqi prosesində əlaqələndirmə, tənzimləmə, qiymətləndirmə, informasiya təminatı kimi mexanizmlər də həyata keçirilməlidir. Bu işlərin yerinə yetirilməsi idarə olunmanın effektivliyini artırır, nəticənin tətbiqini sürətləndirir. Ona görə də pedaqoji prosesin iştirakçıları, sərbəst əmək fəaliyyətinə başlayan gənc müəllimlər təhsil sisteminin mürəkkəb idarəolunma mexanizminin prinsiplərinə, mahiyyətinə və məzmununa dair tam, dəqiq məlumata malik olmalı və bu prinsiplərin yerinə yetirilməsi üçün yeni texnologiyaların tətbiqi problemlərini araşdırıb nəticə çıxarmağı baxarmalıdır. Deməli, idarəetmə, eyni zamanda müstəqil elm sahəsi kimi özündə elm, təcrübə, yenilik, idarəetmə mədəniyyəti kimi əsas istiqamətləri cəmləşdirir və idarəetmə təfəkkürünün formalaşmasına şərait yaradır.

Təhsilin idarəsində planlı məqsədyönlü iş icra edib yüksək keyfiyyət əldə edmək istəyiriksə müəssisələrdə aşağıdakı məsələlərə nəzarət edilməlidir:

- Ümumtəhsilin təşkilati-pedaqoji məsələlərinin öyrənilməsi;
- Dövlət təhsil standartlarının və ümumtəhsil proqramlarının keyfiyyəti və yerinə yetirilməsi
- Şagirdlərin bilik, bacarıq və vərdişlərinin keyfiyyətinin yoxlanılmasına;
- Təhsil, tərbiyə və təlimin inkişafetdirici funksiyalarını həyata keçirən fənlərin tədrisinin vəziyyətinə;
- Dərsdənkənar tərbiyə işlərinin təşkilinə;
- Pedaqoji işçilərə işin qoyuluşu və icra vəziyyətinə;
- Şagirdlərin tərbiyəsinə.

Təhsil sisteminin dövlət-ictimai idarəolunmasının məqsədi, dövlətin və ictimaiyyətin səylərini birləşdirərək təhsilin müxtəlif problemlərinin keyfiyyətli həlli üçün təlim-tərbiyə prosesinin məzmununu, forma və metodlarını müəyyənləşdirməkdə, onun keyfiyyətini yüksəltməkdə, nəticələrinin qiymətləndirilməsində, müxtəlif tip tədris müəssisələrinin seçilməsində müəllimlərə, şagirdlərə, valideynlərə daha çox hüquq və azadlıqların verilməsinin təmin olunmasıdır.

Təhsilin keyfiyyəti təhsili məzmunun bütövlüyü, təlim texnologiyalarının, monitorinq üsullarının və subyektin həyatının öz müqəddəratını təyin etməsinin fərdi inkişafı və yeni sosial-iqtisadi şəraitdə cəmiyyətin tələbləri baxımından qiymətləndirilməsidir. Bu baxımdan təhsilin keyfiyyəti konsepsiya kimi qəbul edilir, təhsil sisteminə qoyulan məqsədlərə nail olmasını təmin etmək, müəyyən bir insanın təhsilə olan tələbatını, cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına uyğunluğunu təmin etmək üçün bacarığı əks etdirir.

Tədris prosesinin və təhsil sistemlərinin keyfiyyətinin idarə edilməsi nəticələrin obyektiv qiymətləndirilməsindən mümkün deyil və etibarlı bir monitorinq sistemin yaradılmasını tələb edir, çünki idarəetmə sistemi olmadan təlim prosesi effektiv ola bilməz. Nəzarət təkcə tədris prosesinin idarə edilməsi vasitəsi kimi deyil, həm də tələbə və təhsil sistemlərinin inkişafı vasitəsi kimi fəaliyyət göstərir.

Təhsil keyfiyyətinin təmin edilməsinin müstəsna əhəmiyyəti bu gün aşağıdakı obyektiv səbəblərlə müəyyən edilir:

1. Elmi və texnoloji tərəqqi sürətlənir və təhsil səviyyəsinə və miqyasına cəmiyyətin inkişafından asılılığı artır. Belə şəraitdə ali təhsil geniş yayılır və ali təhsil müəssisələrinə daxil olanların yaradıcı qabiliyyətlərini inkişaf etdirməyə şərait yaratmaq tələb olunur və peşə təhsili ümumi əhaliyə çatdırılır.

2.Cəmiyyətin iqtisadiyyatın sənaye mərhələsindən informasiya iqtisadiyyatına və informasiya sivilizasiyasının formalaşması mərhələsinə tədricən keçməsi labüddür. Bu proses, əsasən universitetlərin və onların məzunlarının iqtisadi və sosial rolunun artması ilə əlaqələndirilir.

3.Dünya informasiya sivilizasiyasının inkişafı ilə birlikdə, qloballaşma prosesi sürətlə inkişaf edir, bunun bir hissəsi Boloniya prosesinə uyğun olaraq elmi məlumatların yığılmasıdır, müxtəlif ölkələrin təhsil sistemlərinin iş keyfiyyəti səviyyəsinin uyğunlaşdırılmasını, gənclərin müəyyən universal meyarlara və standartlara uyğunluğunu, xüsusilə də məzunların və tələbələrin beynəlxalq hərəkətliliyini, onların məşğulluğunu və təhsil sertifikatlarının tanınmasını tələb edən bir beynəlxalq təhsilin verilməsi ilə əlaqədardır.

4.Azərbaycanın təhsil sahəsində sürətlə inkişafının nəzərərə almaqla maddi və texniki bazasını dünyanın texnoloji, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş ölkələri arasında özünə yer tutması məsələsi kəskin şəkildə öz əksini göstərir.

Təhsilin keyfiyyətini idarə etmək üçün yeni texnologiyalara keçmək, bütün təhsil sisteminin açıqlığını təmin etmək, dövlətin, iqtisadiyyatın və cəmiyyətin müxtəlifliyinə, onun daxili bütövlüyünü və yüksək akademik standartlarını qoruyub saxlamaqdan ibarətdir.

Təhsil müəssisəsinin inkişaf rejimində fəaliyyətin və keyfiyyətin idarə olunması məktəb rəhbərliyinin, təlim-tərbiyə prosesinin iştirakçılarının planlaşdırdıqları nəticəyə çatmaqda kömək edir. Düzgün idarə etmə yarandıqda və nəzarətdaimi olaraq həyatakeçdiyində sistemli olaraq istədiyimiz keyfiyyət dərəcəsinə çata bilərik. Bunun üçün də məktəblərdə təhsil ocaqlarında, dər saatlarının təyinindən tutmuş məktəb psixoloqunun fəaliyyətinə qədər hər şey qaydasında olmalıdır.

Təhsildə keyfiyyətin əldə olunması və standartlarımızın yüksəldilməsi mühümdür. Bu istiqamətdə əsaslı işlər icra olunur. Belə ki, Universitetlərimiz Xarici Universitetlərlə əməkdaşlıq edir və “İkili Diplom” prosesini icra edir, bu da inkişafa zəmin yaradır. Bununla bərabər onların da təhsil təcrübəsindən faydalanırıq. Bu gün Azərbaycan təhsili olduqca yüksək səviyyədədir, müasir tələblərə cavab verir və bu prosesdə səmərəliliyin davamlı olması üçün davamlı olaraq monitorinqlər həyata keçirilir. Bu da ürəkaçan nəticələr ilə təhsilimizi daha da irəli aparır.

## ŞAGİRDLƏRİN ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

**İsayeva Günel Şahin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Gunel200399@gmail.com*

Şəxsiyyət problemi müxtəlif dövrlərdə müasir pedaqogika, psixologiya, etika, sosiologiya və digər elmlərin daim diqqət mərkəzində durmuşdur. Şəxsiyyətin xarakteristikası ilə əlaqəli məsələlərin hərtərəfli öyrənilməsi onun fəaliyyətinin səmərəli idarə olunması üçün səmərəli mühit yaradır.Biz bilirik ki, hər bir insan fərd kimi dünyaya gəlir, yəni bioloji xüsusiyyətləri ilə insan kimi doğulur, lakin zaman keçdikcə o şəxsiyyətə çevrilir. Son dövrlərdə insan şəxsiyyəti ilə bağlı bu canlanmaya səbəb cəmiyyətdə şəxsiyyətin rolunun xeyli artmasıdır.

Hazırda cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır. Şəxsiyyətin inkişafı ilə bağlı məsələlərdə, fəaliyyətlərdə yalnız bugünkü təcrübənin deyil, həm də pedaqoji fıkrin zəngin ideyalarını nəzərə almaq çox vacibdir. Nəticədə də bununla bağlı olaraq insanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdir. Şəxsiyyətin inkişafı daxili və xarici amillərlə şərtlənir:daxili amillərə genetik, bioloji, fiziki, fizioloji amilləri daxil edə bilərik. Bu cəhətdən daxili amillər insanın şəxsi fəallığını, şəxsin marağını, insanlarla ünsiyyət və münasibətini də özündə birləşdirir. Xarici amillərə isə daxildir: fərdin müəyyən mədəniyyətə, sosial-iqtisadi sinfə və ailə mühitinə məxsusluğu. Bu baxımdan xarici amillər ictimai mühiti, kollektivi, ictimai qrupları, tərbiyəvi təsirləri də özündə birləşdirir.

İnsanın cəmiyyətdə formalaşmasında, düzgün tərbiyə edilməsində bir sıra amillər mühüm rol oynayır. İnsan ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlərə malik olur, onun xarakterində müəyyən yeniliklər, dəyişikliklər meydana gəlir. Buna görə də cəmiyyətimizin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında onun şəxsiyyəti inkişaf edir, onun inkişafında irsiyyətin, mühit və tərbiyənin rolu nədən ibarətdir. Şəxsiyyət şagirdin ictimai konkret tarixi həyat şəraitində onun təlim-tərbiyəsi prosesində daha çox formalaşır. Məktəb təliminə psixoloji hazırlıq şəxsiyyətin formalaşmasında bir sıra xüsusiyyətləri nəzərdə tutur.

Təlim-tərbiyə işinin təşkili məktəb mühitində aparılan fəaliyyətin başlanğıc və davamının uğurlu olmasının əsas təminatıdır. Tam təhsil mühiti yaratmaq və əsas məqsədə çatmaq xüsusi nizam-intizamdan və qaydaların tətbiqindən asılıdır. Təlim mühitində şagird şəxsiyyətinə təsir göstərən bir sıra amillər mövcuddur. Müasir təlim metodları məktəbdə şagirdi dövrün tələblərinə uyğunlaşa biləcək bir şəxsiyyət kimi formalaşdırmaqdan əlavə, eyni zamanda da qarşımızda bir çox vəzifələr qoyur. Çünki məktəb şagirdin müxtəlif yaş dövrlərinə uyğun olaraq təlim-tərbiyə sistemi həyata keçirir.

Bu yaradılmış mühit, orada aparılan fəaliyyətlər də hər yaş dövründə şəxsiyyətin xarakterinin düzgün şəkildə formalaşmasına mühüm təsir göstərir. Tərbiyə işi anlayışı ayrılıqda bir məna daşımır və bu prosesə təkcə bir prizmadan baxmaq doğru deyildir. Bir pedaqoq dərs dediyi şagirdin bacarıqlarının inkişafını təmin etmək üçün bütün müşahidə və diqqətini yönləndirərək, həm individual yanaşmalarla, həm kollektiv münasibətlərlə, həm də fərdi görüşlərlə bir metod müəyyənləşdirməli, hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq fəaliyyətini qurmalıdır. Müəllim mütləq tədqiqatçılıq qabiliyyətinə malik olmalıdır. Tədqiqatlar göstərir ki, müəllimlərin öz şagirdlərini öyrənməkdən ötrü tərtib etdiyi psixoloji-pedaqoji xarakteristika şəxsiyyətinin formalaşmasına lazımi imkanlar yaradır. Müəllim müxtəlif situasiyalarda şagirddə özünəinam hissini yaratmaq üçün həm dərs zamanı, həm də dərsdənkənar əlverişli şərait yaratmalıdır. Bununla bərabər hər bir təlim fəaliyyəti zamanı tərbiyə işi arxa plana keçməməlidir. Müasir təhsil sistemi təhsilalanlara daha geniş aspektdə yanaşaraq müxtəlif bacarıqların üzə çıxması üçün yeni metodikaların tətbiqini həyata keçirərək fənlərin tədrisini, həm də bacarıqların inkişafını birgə, əlaqəli şəkildə tətbiq edir. Nəticə etibarilə nailiyyətlər əldə olunur. Şagirdin dünyagörüşü, intellektual səviyyəsi və təfəkkürü daim inkişaf edir və bu da ən vacib məsələmiz olan şagirdin şəxsiyyətinin formalaşmasına şərait yaradır.

Məhz bugünkü təhsil sisteminin şagirdyönümlü olması da ondan xəbər verir ki, bu bilik və bacarığın bir-birinə müsbət təsirinə, möhkəmləndirilməsinə və inkişafına xidmət edir. Məktəbdə şagirdlərin fikrini sərbəst ifadə edə bilməsi və belə metodika ilə təhsil alması kreativ bir mühitin yaranmasına da səbəb olur. Mütəmadi olaraq belə davam edən şəraitdə şagirdlərin istedadları da artıq üzə çıxmağa, inkişaf etməyə başlayır. Xüsusi istedadlar seçilir və onlara xüsusi şəkildə fərdiyanaşmalar tətbiq edilir. Beləcə, məktəbin təhsil mühiti aktiv formada fəaliyyət göstərir.

Şagirdin dərsə olan marağı, digər tərəfdən müəllimlərin düzgün istiqamətləndirməsi sağlam bir rəqabət şəraiti meydana gətirir. Məktəbdə fəaliyyət göstərən dərnəklər, keçirilən tədbirlər bu prosesin daha da uğurlu nəticə verməsinə zəmin yaradır. Şagird hər zaman fikirlərini tətbiq etmək üçün mühit axtarışında olur və uğurlu nəticəni əldə edərək daha da motivasiyası artır. Dərnəklər bir növ də şagirdin asudə vaxtının səmərəli keçirilməsində faydalı olur. Əlavə təhsil və ya məşğələlər məktəblilərin dünyagörüşünün artırılmasına, eyni zamanda yaradıcı qabiliyyətlərinin genişlənməsinə də xidmət edir.

Təlim mühitində əksər şagirdlər təlim-tərbiyə prosesində aldığı biliklər sayəsində yüksək intellektli bir şəxsiyyət olmaq, yüksək mənəvi keyfiyyətləri dəyərləndirə bilmək təfəkkürünə malik bir şəxsiyyət kimi yetişirlər. Məktəb həyatında şagirdlərin bilik və bacarıqlarının artırılması ilə yanaşı onlarda gələcək həyatda hər hansı bir mövqe tutmasının təsəvvürünü yaratmaq müəllimin başlıca vəzifələrindəndir. Öz qabiliyyətlərinə əsaslanan seçimlərini düz-

gün yönəltmək lazımdır. Bu işdə ümumi orta təhsil bitirməkdə olan şagirdlərin valideynlərinin də maarifləndirilməsi çox vacib şərtlərdəndir.

## TƏDRİS PROSESİNİN TƏŞKİLİ VƏ DİZAYNI

**Yunusova Mədinə Rəhim qızı**
**Azərbaycan Dövlət pedaqoji Universiteti**
*medinayunusovaa@gmail.com*

Təhsil müəllimlərin müxtəlif tədris metodlarından istifadə etməklə öz təhsil və təlim fəaliyyətlərini sinif daxilində və sinifdən kənarda tətbiq etdiyi sistemidir. Effektiv öyrənmə mühitinin yaranması uyğun dizayn modelinin seçilməsindən və təlim texnologiyalarından səmərəli istifadə olunmasından asılıdır. Təhsil və təlimdə yeni öyrənmə mühitini hazırlamaq və yaxud daha əvvəl hazırlanmış təlim mühitindəki çatışmazlıqları yenidən təşkil etmək üçün bəzi məlumatlara, metodlara, alətlərə və üsullara ehtiyac var.

Dizayna başlamazdan əvvəl ilk olaraq plan, layihə və lazımi addımlar müəyyən edilməlidir. Daha sonra layihə hazırlanmış plan, müəyyən edilmiş vəsaitlər çərçivəsində həyata keçirilməlidir.Təhsil sahəsindən fərqli olaraq digər sahələrdə fəaliyyətlərin icrası zamanı biruzə verən problemləri müəyyən etmək və aradan qaldırmaq üçün alternativ yollar izlənə bilər. Lakin təhsil uzunmüddətli proses olduğundan onun nəticələrini qısa müddət ərzində əldə etmək mümkün deyil. Təhsil sahəsində edilən ən kiçik səhvi düzəltmək üçün illər lazımdır. Bunun əsas səbəbi bəzən ən sadə bir səhv belə qarşıya qoyulmuş məqsədə nail olmaqda mane yaradır. Buna görə də təhsil sistemində hər bir fəaliyyət icra olunmazdan əvvəl böyük diqqətlə hazırlanmalıdır.

Tədris prosesinin dizayn edilməsinin əsas məqsədi bütün təhsil fəaliyyətini səmərəli və səhvsiz təşkil etməkdir. Tədris prosesinin dizayn edilməsində əsas məqsəd öyrənməni daha səmərəli, təsirli və asan etməkdir. Ümumiyyətlə, düzgün tərtib edilmiş plan bizə vaxta və pula qənaət etməyimizdə kömək edir.Tədris planının tərtib olunmasında sistem yanaşması aparıcı rol oynayır. Tədris prosesinin təşkili zamanı icra olunacaq addımlar müəyyən ardıcıllıqla bir birilərini izləməlidir:

1. Təhsil prosesində tətbiq olunacaq fəaliyyətləri əvvəlcədən müəyyən edilmiş məqsəd və davranışlara uyğun təşkil etmək.
2. Tətbiq nəticəsində əldə edilən naliyətlərin ümumi qiymətləndirilməsini həyata keçirmək.
3. Qiymətləndirmə prosesində baş verən səhvləri müəyyənləşdirmək və aradan qaldırmaq.

Tədris prosesinin planı qurularkən təlimin məzmunu ilə yanaşı, şagirdin real vəziyyətini də nəzərə almaq lazımdır. Ənənəvi təlimdə isə sadəcə olaraq kursun hansı bilikləri əhatə etməli olduğu müzakirə olunur. Tədris prosesində öyrənmənin nəticələrinə təsir edən bir çox amillər vardır. İlk təlim məqsədlərinə çatmaq üçün tələbələrin hazırlıq səviyyəsi müəyyən edilməlidir. Qoyulmuş məqsədə və şagirdlərin fərdi xüsusiyyətlərinə müvafiq olaraq təlim strategiyaları, metodlar və üsullar müzakirə edilməlidir. İstifadə ediləcək resurslar dəqiqləşdirilməlidir. Keyfiyyətli təlim mühiti yaratmaq üçün mənbələrə tapılmalıdır. Əldə edilən nəticələr gözləntilərə cavab vermədikdə hansı dəyişikliklər aparılacağına qərar verilməlidir.

Tədris prosesini təşkil edərkən müəllim ilk növbədə işə əvvəlcə problemi müəyyən etməklə başlamalıdır. Sonra isə problemi həll etmək üçün hansı növ bilik və bacarıqların tələb olunduğunu müəyyənləşdirməlidir. Tədrisin səmərəli, keyfiyyətli və məqsədinə uyğun olması vacibdir. Tədris dizayneri üzərində işlədiyi mövzunun bütün aspektlərini aydınlaşdırmaq və təfərrüatlarını üzə çıxarmaq üçün daim araşdırma aparmalı və suallar verməlidir. Suallar vermək dizaynerin işinin bir hissəsi olmalıdır. Dizayn nəzəriyyəsinin əsaslarına təsir edən bir sıra elm sahələrini vardır. Təhsil mühitini planlaşdırarkən və təşkil edərkən dizayner eyni zamanda sosial elmlər, informasiya elmləri və idarəetmə elmlərindən faydalanmalıdır. Tədris

nəzəriyyəsinin əsaslarında qeyd olunan üç əsas fənn bir-biri ilə əlaqədədir. Məsələn, dizayner insan davranışlarının necə formalaşması və davranış formalarının beyində necə təzahür etdiyini anlaması üçün sosial elmlərdən faydalanmalıdır. Qoyulmuş məqsədə uyğun olaraq yeni inkişaf edən texnologiyaların seçilməsi və istifadəsi üçün informasiya elmindən bəhrələnməlidir. Bunların ümumi şəkildə sistemləşdirilməsi üçün idarəetmə elmindən, davranış formalarından və kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalıdır.

Buradan aydın olur ki, tədris prosesinin dizayn edilməsi çox mürəkkəb struktura malikdir. Bunlara əlavə olaraq, tədris dizayn edilməsinə təsir edən bir sıra təhsil amilləri vardır. Birinci amil dizayn öyrənmə və öyrətmə prosesinin xüsusiyyətlərinə əsasən təşkil olunmasıdır. Tədris prosesinin dizaynı edilməsinə təsir edən ikinci təhsil amili təhsildə kurrikulumun yanaşmalarının əsas götürülməsidir. Üçüncü əsas amil təhsildə istifadə olunan elektron yazı lövhələrinin, internet resurslarının, televiziya, kompüter texnologiyalarının aparat ölçüsüdür. Tədris dizayneri, dizayn nəzəriyyəsində, məqsədlərə uyğun olan avadanlığı seçərkən nəzərə alınacaq əsas amillərin müəyyən edilməsini təmin edir. Dördüncü əsas amil təhsil texnologiyalarının planlaşdırılması və idarə edilməsidir. Təhsil texnologiyaları səmərəli idarə olunarsa, əldə olunan az resurslardan daha səmərəli istifadə olunacaq.

Öyrənmə nəzəriyyələri ümumiyyətlə davranış, koqnitiv və strukturist nəzəriyyələr kimi sıralanır. Dizaynerin vəzifəsi bütün bu öyrənmə nəzəriyyələrinin əsas prinsiplərini sintez etmək və onları dizayn prosesində tətbiq etməkdir. Bunun əsas səbəbi şagirdlər arasında öyrənmə müxtəlifliklərinin mövcud olmasıdır. Effektiv və yaradıcı tədris mühiti yaratmaq istəyən müəllim prosesin bütün elementlərini nəzərə almalıdır.Eyni fənni tədris edən və eyni məqsədi hədəfləyən iki nəfər müəllim fərqli planlar tərtib edə bilər. Hər iki plan tələbələrin uğurlu nəticə əldə etməsinə şərait yarada bilər. Dizayn prosesi müəllim və tələbələr, tələbələr və məzmun arasında dinamik qarşılıqlı əlaqənin olmasını tələb edir və bu tələblər müxtəlif fəaliyyətlərlə təmin edilə bilər.

Tədris mühiti yalnız sinif otağı kimi düşünülməməlidir. Sahəyə uyğun olaraq informasiya məzmununun ötürülməsi üçün ən uyğun yer seçilməlidir. Tədris mühiti sinif otaqları ilə yanaşı, musiqi otağı, elm laboratoriyası, bədən tərbiyəsi zalı, muzey, zoopark kimi bir çox yer ola bilər.

Müasir təhsil üçün nəzərə alınmalı olan amilləri və mümkün problemləri araşdırdıqdan sonra məqsədə çatmaq üçün nə etmək lazım olduğunu müzakirə etmək lazımdır. Bu proses üçün əvvəlcə problemi düzgün müəyyənləşdirmək lazımdır. Fərdlər təhsil prosesini başa vurduqdan sonra cəmiyyətdəki dəyişikliklərə ayaq uydura biləcək xüsusiyyətlərə malik olmalıdır. Bu mənada təhsil sisteminin başa vurmuş fərdlərdə olması gözlənilən bir sıra xüsusiyyətlərin yanında ətraf mühitdə, cəmiyyətdə və dünyada baş verən dəyişiklikləri obyektiv qiymətləndirməyi bacarmaq, vətəndaşlıq vəzifə və öhdəliklərini yerinə yetirmək, daim özünü yeniləmək xüsusiyyəti, müxtəlif sosial qruplarla balanslı şəkildə ünsiyyət qurma bacarığı, tənqidi təfəkkür və yaradıcılıq bacarıqlara sahib olmalıdırlar. Bir sözlə, dövrün tələblərinə uyğunlaşa bilən fərdlər yetişdirməlidir.

Tədris dizaynı güclü elmi əsasları və uğurlu tətbiqləri olan bir iş sahəsidir. Öyrənmə-tədris fəaliyyətlərinin təşkili zamanı müəllimlərin tədris dizaynı, effektiv nəzəriyyələr və müxtəlif dizayn modelləri üzrə lazımi bilik və təcrübə qazanması dizaynlardan səmərəli nəticə əldə edəcək mühüm məqamlardan biridir.

Müasir dünyada yaxşı hazırlanmış təlim fəaliyyətləri mütləq yeni öyrənmə texnologiyalarından səmərəli istifadə etməyi tələb edir. Bu məsuliyyət çox vaxt müəllimin üzərinə düşür. Bunun əsas səbəbi məktəblər bu mütəxəssislərin heyətini formalaşdırmırlar, çünki onlar təlimin dizayn prosesinin təcrübə tələb edən sahə olduğunu bilmirlər. Bu təlim prosesində müəllimlər tədris dizaynı haqqında daha çoxməlumat əldə etməli, daha effektiv və tələbə mərkəzli dərslər hazırlamalı və öz ehtiyaclarına uyğun dərs planları və materialları ilə təchiz olunmalıdırlar.

**ORTA MƏKTƏB KİMYA KURSUNDA HİDROLİZ MÖVZUSUNUN TƏDRİSİNDƏ SXEMLƏRDƏN İSTİFADƏNİN VACİBLİYİ**

**Əliyeva Sara Mehman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sona1805@icloud.com*

***Açar sözlər:*** *kurikulum, məzmun xətti, alt standart, kimyəvi reaksiya, hidroliz,turşu,duz*

***Ключевые слова:*** *куррикулум, линия содержания, подстандарт, гидролиз, кислота, соль*

***Key words:*** *curriculum, content line, substandard, chemical reaction, hydrolysis, acid, salt*

**Xülasə**

Tezisdə əsas məqsəd müasir təlim üsullarından istifadə edərək hidroliz mövzusunu maraqli tədris etmək və mənimsətməkdir.

**Резюме**

Основной ѳелью дипломной работы является преподавание и освоение темы гидролиза с использованием современных методов обучения.

**Summary**

The main purpose of the thesis is to teach and master the topic of hydrolysis using modern teaching methods.

Dərsin müasirliyi dövrün müasirliyindən asılıdır. Müasir dərs idrak fəallığı şəraitində şagird şəxsiyyəti ön plana çəkilməklə, onların fərdi xüsusiyyətləri, maraq və meylləri, eləcə də cəmiyyətin tələbi nəzərə alınmaqla təşkil olunmalıdır. Dərsdə şagirdlərin müstəqil biliklər qazanmalarına şərait yaradılmalı, müəllim özünün bələdçilik funksiyasını düzgün yerinə yetirməli, dərsə bir texnoloji proses kimi yanaşmalıdır. Bu halda dərsin səmərəli nəticə verməsi müəllimin səriştəliliyindən və iki mühüm amildən asılıdır:

- dərsin məqsədinin dəqiq müəyyənləşdirilməsi;
- məqsədə nail olmaq üçün təlim üsullarının, vasitələrinin düzgün seçilməsi və onlardan peşəkarlıqla istifadə edilməsi.

Dərsin əsasını təşkil edən təhsilverici, tərbiyəedici və inkişafetdirici funksiyaları müasir dövrün tələblərinə uyğun olaraq yerinə yetirilməlidir.

- *Təhsilverici funksiya* – tədris materialının məzmunu və həcminin mənimsənilməsinin təmin edilməsi, alınmış biliklərin yaradıcı tətbiqi üçün şəraitin yaradılması və s.
- *İnkişafetdirici funksiya* – şagirdin intellektual qabiliyyətlərinin, fərdi keyfiyyətlərinin, tədqiqat, praktiki təlim fəallıqlarını planlaşdırmaq vərdişlərini və s. aşkara çıxarmaq üçün bütün psixi funksiyalar kompleksinin inkişafına yönəlmiş tədris materialı və metodlarından istifadə edilməsi
- *Tərbiyəedici funksiya* – ümumbəşəri və vətəndaş dəyərlərinin formalaşmasdırılması (sosial kamillik), şagirdin mənəvi keyfiyyətlərinin, yüksək davranış mədəniyyətinin tərbiyə olunması (mənəvi kamillik), təlim prosesinə uyğun psixoloji mühit, bilikləri əldə etmək həvəsinin, özünə hörmətin (şəxsi-emosional kamillik) formalaşdırılması, elmi dünyagörşü və estetik təfəkkürün inkişaf etdirilməsi.

İnteraktiv təlimin başlıca xüsusiyyətləri müəllim-şagird münasibətlərinin subyekt – subyekt xarakteri, iştirakçıların bütün dərs boyu fəallığı, dərsin dialoq şəklində aparılması, şagirdlərin emosional-şəxsi keyfiyyətlərindən fəal istifadə edilməsi, onların azadlıq və təşəbbüskarlığına geniş imkanlar yaradılması, məntiqə, yaradıcı təfəkkürə əsaslanma, ən əsası isə tədrisin forma və metodlarının çevikliyi, bilik mənbələrinin müxtəlifliyidir. Təlimin qarşısında duran ən mühüm vəzifələrdən biri şagirdlərdə özünütəhsil (müstəqil təhsil) vərdiş və bacarıq-

larını tərbiyə etməkdir.Bu səbəbdən orta məktəb kimya proqramında tədris olunan hidroliz mövzusunun cədvəl və sxemlərlə tədrisi daha məqsədəuyğundur.

*Duzların hidrolizi.*

Normal duzların tərkibində $H^+$ və $OH^-$ ionlarının olmamasına baxmayaraq, onların suda məhlulları qələvi, turş və ya neytral mühit göstərir. Duzların suda məhlullarının bu xüsusiyyəti hidrolizlə (hidro-su, lizis-parçalanma) izah olunur. Duzu əmələ gətirən ionlar ilə su molekullarının qarşılıqlı təsiri nəticəsində zəif elektrolitlərin əmələ gəlməsi ilə gedən reaksiyalara **duzların hidrolizi** deyilir. Duzun hidrolizə uğraması üçün duzu əmələ gətirən turşu və ya əsasdan heç olmazsa biri zəif olmalıdır. Suda həll olmayan duzlar hidrolizə uğramır.

*Hidrolizinə gözə duzlar dörd qrupa bölünür:*



# AZƏRBAYCAN DİLİ TƏLİMİNDƏ ŞAGİRD İNTELLEKTİNİN İNKİŞAF YOLLARI

**Mehdiyeva Təranə İbrahim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*taranamehdiyevaa@gmail.com*

İntellektual şagird yetişdirmək bugün məktəblərin qarşısında duran əsas məqsədlərdən biridir. Bu, birbaşa müasir dövrün tələbləri ilə bağlıdır. Hər bir ölkənin iqtisadi yüksəlişi onun yetişdirdiyi intellektual kadrlara bağlıdır. Cəmiyyətdə gördüyümüz yeniliklər (yeni texnologiyalar, insan faktorunu əvəz edən texniki qurğular) insan intellektinin təzahürüdür. Hər bir dövlət iqtisadi cəhətdən daha üstünlük əldə etmək üçün intellektual insanlar yetişdirməyi əsas məqsədə çevirir. Müasir təlim də məhz bu faktoru, əsas məqsəd kimi qəbul edir və müasir dövrdə sadəcə savadlı şagirdlərin kifayət olmadığını, intellektual şagird yetişdirməyin önəmini dərk edir.

İntellektual şagird yetişdirmək problemi daim pedaqoq və psixoloqların diqqət mərkəzində olmuşdur. Onlar bu problemi müxtəlif aspektlərdən tətqiq etmiş və keçən əsrin 60-cı illərindən başlayaraq, bu mövzuda müxtəlif əsərlər yazmışdılar. Prof. Əkbər Bayramov “Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri” monoqrafiyasında orta məktəblərdə şagirdlərin əqli keyfiyyətinin inkişaf etdirilməsinə diqqət yetirilmədiyindən şikayət edir. O bildirir ki, əqli keyfiyyətlərin inkişafının ilkin əlamətləri ibtidai sinif şagirdlərində nəzərə çarpır. Onlar əldə etdikləri bilikləri mənimsəyir, bu da onların birbaşa təfəkkürünün inkişafına səbəb olur. Professor şagirdlərin intellektual keyfiyyətlərinin inkişafı üçün yeni təhsil sisteminin zəruriliyini qeyd edir, lakin bu təhsil sistemini hələ özü, tam təsəvvür edə bilmirdi.

Digər fənlər kimi, “Azərbaycan dili” təlimində də şagird intellektinin inkişafı zəruri məsələlərdəndir. Ana dilinin incəliyini və gözəlliyini uşaqlar ilkin yaşlardan anlamalıdırlar. Hələ körpə yaşlarında beşikdə anaların oxuduqları laylalar, nağıllar, bayatılar ilə ana dilinin gözəllikləri ilə tanış olurlar. Bu gün məktəb biliklərin qavranılması və bacarıqların formalaşması meydanıdır. Təfəkkürü formalaşdıran suallar fakt və hadisələri keçilən dərsləri yada salmağa xidmət etmir, o, daim intellektə təkan verir, onu fəallaşdırır, təfəkkürü işə salır. Lakin sualları sadəcə müəllim ünvanlamır. Şagirdlərin müəllimə, müəllimin şagirdlərə verdiyi suallar eyni səviyyədə maraqlı olmalıdır.

İntellektin çevikliyi şagirdlərin əldə etməli olduğu ən vacib bacarıqlardan biridir. Danışanın fikrinin dərinliyində gizlənən mənanı anlamaq bacarığını şagirdlərə təlqin etmək üçün müxtəlif növ tapşırıqlar hazırlamaq olar. Bu tapşırıqlar ən sadə nümunələrdən başlayaraq, şagirdlərin yaş və anlaq səviyyələrinə uyğun olaraq, mürəkkəbləşə bilər. Müasir təhsilin qarşısında duran əsas vəzifələrdən biri təfəkkürün çevikliyinin inkişaf etdirilməsidir. Şagirdlər hər hansı sualı cavablandırarkən, bunu mümkün qədər tez etmək bacarığına yiyələnməlidirlər. Bu bacarıqlar xüsusi oyunlar vasitələsilə məşq edərək mənimsədilir. Məsələn, belə bir tapşırıq verilir: “Sonra nə oldu? Ardını fikirləş!”.

Siz nə düşünürsünüz, sonra nə olacaq? Hadisələr necə davam edəcək?

Şagirdlərə təklif olunur ki, öz düşüncələrini qeyd etsinlər və əsərin oxusu bitdikdən sonra əldə olunan nəticəni ilkin fərziyələri ilə müqayisə etsinlər.

Şagird təfəkkürünün inkişafında folklor nümunələrindən də istifadə etmək mümkündür. Şagirdi çaşdırıb, gülünc vəziyyətinə qoyan folklor nümunələrindən istifadə etmək olar. Belə olan zaman, gülünc vəziyyətə düşən şagird daha diqqətli olur ki, bir daha belə hal yaşanmasın.

Şagird intellektini inkişaf etdirərkən, müəllim müxtəlif incəsənət nümunələrinə müraciət edə bilər. Məsələn, “Cücələrim” mahnısının uşaqların dilində yayılmasının əsas səbəbi burdakı “c” səslərinin təkrarlanmasıdır. Eləcə də, yanıltmacların oxunmasının şagirdlər tərəfindən maraqla qarşılanmasının səbəbi səslərin ritmik alleterasiyasıdır. Uşaqlar yanıltmacları deyər-

kən, sözləri düzgün tələffüz etməyə diqqət edirlər ki, məna pozulmasın. Bu isə özlüyündə diqqəti möhkəmləndirir.

Uşaq intellektinin inkişafının bünövrəsi lap ilkin inkişaf dövründə qoyulur. Bu zaman, onların sərbəst düşüncəyə sahib olmasının qeydinə qalmaq lazımdır. Liz Loran demişdir: "Çox vacibdir ki, uşaqlar öz inkişafları dövründə fərdi azadlığı hiss etsinlər. Bütün uşaqlar müstəqil nəticə çıxarmalı və müstəqil qərarlar çıxarmağı bacarmalıdırlar".

Şagird intellektinin inkişafında dramatik oyunların da xüsusi rolu vardır. Uşaqlar obraza girməyi, müxtəlif heyvanların səsini çıxarmağı sevirlər. Misal olaraq, "Tıq-tıq xanım" kimi xüsusi səs təqlidi ilə seçilən əsərlərin səhnəyə qoyulması maraqlı olar.

Müasir təlimdə təfəkkür müstəqilliyi olduqca əhəmiyyətlidir. Şagirdlərdə müstəqil təfəkkürün inkişaf etdirilməsinə erkən yaşlarda başlanılmalıdır. Dəfələrlə sübut olunmuşdur ki, şagirdlərə bilikləri hazır şəkildə verməк lazım deyil, onlarda biliyi əldə etmək bacarığı formalaşdırılmalıdır. Müəllimin dəstəyi olmadan, şagird bilikləri sadəcə kitabdan əldə etməməli, onu əhatə edən mühitdən lazımi bilikləri almaq qabiliyyətinə malik olmalıdır. Yalnız bu halda, o ömür boyu öyrənmə və özünüinkişaf prosesində olar. Müəllim bu yolda, sadəcə rəhbərlik edə bilər. Təlim prosesində şagirdlərin müstəqil qazandığı bilik və bacarıqların şüurlu dərk edilməsi, onların təfəkkür müstəqilliyinə mühim təsir edir.

Şagirdin hər hansı problemin həllində şüurlu olması vacibdir. Lakin bu kifayət deyil. O, şüurunu təmizləmək və ona nəzarət etmə bacarığına yiyələnməlidir. Buna özünüdərk deyilir. Şagirdə özünün düşünmək qabiliyyətini yoxlamaq vərdişləri də aşılanmalıdır.

**Ədəbiyyat:**


1. Babayev M.B. Zəka oyunları. 2005, 144 səh.
2. Əlizadə Ə., Əlizadə H., Pedaqoji psixologiya. I kitab, Bakı, 2010, 315 səh.
3. Əlizadə Ə., Əlizadə H., Pedaqoji psixologiya. II kitab, Bakı, 2010, 286 səh.
4. Mehrabov A., Bəylərov E., Şagird intellektinin inkişafı. Bakı: Adiloğlu, 2006, 190 səh.


## MUSİQİ TƏMAYÜLLÜ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MUSİQİ DİNLƏNİLMƏSİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ


**Quliyeva Sara Ağalar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Manaflı.sara@mail.ru*


Musiqi - sənətin bir forması və incəsənətin əsas növlərindəndir. O, çox güclü emosional təsir qüvvəsinə malikdir. Musiqi söhbətdə iştirak edir, səs və intonasiya dilinin köməyi ilə dünya hadisələrindən danışır. Uşağın bu özünəməxsus dil haqqında biliyi musiqi səsinə ilk maraq dünyaya gəldiyi andan başlayır. Musiqi dinləmək uşaqlar üçün ən inkişaf edən və eyni zamanda çətin zamanda mənimsənilən musiqi fəaliyyət növlərindən biridir. Bu fəaliyyət növlərini mənimsədikləri zaman uşaqlar musiqi təəsüratları əldə edirlər. Musiqi insanların estetik düşünmə qabiliyyətinə, əxlaqına, təfəkkürünə, inkişafına olduqca güclü təsir göstərir. Bu səbəbdən musiqiyə və musiqi dinləmələrinə erkən yaşda başlamaq tövsiyə edilir.

Ümumtəhsil məktəblərində, eləcə də musiqi təmayüllü təhsil ocaqlarında musiqi təhsilinin məqsədi, incəsənətə musiqi mədəniyyətinə malik həssas bir mühitin hazırlanmasıdır. Musiqi mədəniyyətinə malik insan, passiv düşünən yox, bədii musiqi hadisələrinə tənqidi şəkildə yanaşan dinləyici olmalıdır. İntellektual, mədəni, musiqimizin tərəqqisindən asılı olan dinləyicilərin hazırlanması problemini həll etməyin zamanı yetişdirmişdir. Belə münasibət məktəb dövründə, musiqi dərslərinin tədrisi zamanı daha da formalaşır. Şagirdləri böyük musiqi sənət dünyası ilə tanış etmək, onlara musiqini bütün forma və janr zənginliyi ilə sevməyi öyrətmək, başqa sözlə musiqi sənətinə müvafiq tərbiyə etmək, mənəvi mədəniyyətlərini inkişaf etdirmək

gündəmdə olan, aktual problemlərdəndir. Müasir dövrdə musiqi təhsili, təlim və inkişafı birləşdirən sistem kimi anlaşılır.

Ümumtəhsil məktəblərində musiqi müəlliminin qarşısında duran əsas məqsəd, musiqi əsərlərini diqqətlə dinləməyi şagirdlərə öyrətməkdir. Onlar musiqini dərk edərəkdən, dinləməyi və təhlil etməyi öyrənməlidirlər. Dinləmə prosesində şagirdlərdə musiqi qavrama prosesi inkişaf edir, elementar təsəvvürlər, ifa etmə qabiliyyəti və yaradıcılıq formalaşır. Musiqi dinləməyin əhəmiyyəti və tərbiyəvi dəyəri qiymətli olduğundan müasir pedaqoqika belə musiqi fəaliyyətinə yüksək qiymət verir. Musiqi dinləmələri şagirdin emosional həyatının inkişafına, onun estetik mədəniyyətinə və musiqi qabiliyyətinə, ilk növbədə musiqi əsərinin bədii qavrayışına müsbət təsir göstərir. Musiqi dinlənilməsi ritm hissini, eşitməni, ümumi musiqi və estetik mədəniyyəti inkişaf etdirir. Əvvəlcədən düşünülmüş, proqramlaşdırılmış, yaxşı idarə olunan musiqi dinlənilməsi uşağın hərtərəfli inkişafına böyük töhvə verir. Musiqini dinləyərkən şagird, onun gözəlliyi, ahəngdarlığını duymağa başlayır, daha yüksək dərəcədə sevinc, estetik hissi keçirməyə qadir olur. Musiqi dinləmə uşaqların duyğularını həyəcanlandırır, onların təxəyyülünün və mütəmadi olaraq dinləmək istəyini fəallaşdırır. Uşaqların musiqi qabiliyyətlərinin inkişafı üçün musiqi dinləmək xüsusi əhəmiyyət kəsb edir. Bu müvafiq müsbət keyfiyyətlərə ancaq düzgün istiqamətləndirilmiş musiqi dinləmə ilə nail olmaq olar. Xüsusilə ibtidai sinif şagirdlərilə musiqi dinləmək bir qədər mürəkkəb prosesdir. Şagirdin musiqinin gözəlliyini qəbul edə bilməsi, onun səciyyəvi nitqini hiss etməsi üçün onda əsərin melodik konturunu tanımağa və ondan həzz almağa imkan verəcək xüsusi biliyi mənimsətmək lazımdır. Yalnız belə dinləmə musiqi ilə həqiqi ünsiyyət təcrübəsini təmin edir, yəni ona müsbət və ya mənfi münasibət yaradır, çünki musiqinin aktiv dinləməsində intellekt və fantaziyada üstünlük təşkil edir. Maraqsız, anlayışsız və diqqətsiz musiqi dinləmək passiv dinləmə adlanır.

Digər qabiliyyətlər kimi musiqini qavramaq qabiliyyəti də tədricən və sistemli şəkildə inkişaf edir. Bu o deməkdir ki, hər kəs musiqini məhsuldar şəkildə dinləmək üçün öyrətmə metodikasını planlaşdırmalıdır.

Musiqi dərsində musiqi ilə şagirdlər arasında əsas vasitəçi müəllimdir, o, şagirdləri musiqi ilə maraqlandırmaq üçün ən uyğun üsul tapmalıdır. Sinifdə musiqi qavrayışının inkişafının effektivliyi təyin edilmiş proqram vasitəsilə, müvafiq tədris və metodlarla birlikdə müəyyən edilir. Musiqi dinləmə dərslərində ümumi və xüsusi didaktik üsullardan istifadə oluna bilər. Ümumi didaktik metodların bir sıra tesnifatı var. Bilik mənbəyinə görə belə üsullar şifahi, vizual və praktiki cəhətdən fərqləndirilir. Musiqi təhsili və tərbiyənin mütərrəqi üsulları, kiçik yaşlı şagirdlərin musiqi qavrayışını artırmaq məqsədi daşıyır. Onların ən təsirlisi olan:

- Musiqi haqqında düşünmə üsulu;
- Empatiya metodu;
- Əsərlərin təzadlı müaqayisəsi üsulu;
- Öz duyğularını müqayisə etmək üsulu;
- Emosional dram metodu;
- Musiqinin emosional və sematik təhlili;
- Bədii və yaradıcı prosesin modelləşdirilməsi metodu;
- Kompozisiyaların yaradılması üsulu;
- Plastik intonasiya üsulunu göstərmək olar.

Bu metodların musiqi dərslərində dinləmələrlə praktiki tətbiqinə dair nümunələr vermək tövsiyə edilir. Musiqi əsərlərini dinləmək üçün, hər ilin təhsil proqramına uyğun mövzu seçilməlidir. Tapşırıq dialoq şəklində və seçilmiş musiqi nümunəsinə dair ola bilər. Müəllim şagirdlər üçün yeni mahnını oxuyur, sonra isə dinlənilən musiqi nümunəsinin xarakteri və müəllifi haqqında məlumat verir.

Musiqi dərslərində müəllim şagirdlərə musiqi savadı verməklə yanaşı, eyni zamanda müəllimin ifasında və ya müxtəlif texnikalardan (maqnitafon, internet) istifadə etməklə musiqi səsləndirirlər. Musiqi dinlənilməsinin estetik cəhətdən, həm də musiqi səviyyəsinin inkişaf

etdirilməsinin rolu böyükdür. Musiqi dinləmək eyni zamanda emosionallığı, musiqi səslərinə həssaslığı, musiqi haqqında təəsüratları sözlə ifadə etmək bacarığını inkişaf etdirməyə imkan verir ki, bu da son nəticədə şagirdin mənəvi inkişafına və intellektual inkişafına kömək edir. Musiqi dinlənilməsi müəyyən anlayış və terminləri əzbərləməkdən daha çox uşaqların musiqi və intellektual və əxlaqi inkişafına yönəldilməlidir. Ümumtəhsil məktəblərində musiqi dinlənilməsinin ilkin mərhələsində şagirdləri musiqi sənəti ilə tanış etməyə, dünyagörüşlərini genişləndirməyə imkan verir. Musiqi dinləmək prosesində musiqi eşitmə təxəyyülü zənginləşir, şagirdlərin təxəyyülü inkişaf edir, reallığa estetik münasibəti tərbiyə olunur. İbtidai siniflərdə musiqi müəlliminin vəzifəsi şagirdlərə musiqinin özlərinin bir hissəsinə çevrildiyini hiss etdirməkdir. Yadda saxlamaq lazımdır ki, şagirdlər az bilikli olsalar da, hər bir dinlənilən musiqi əsərinə öz münasibətini bildirməyi bacaran yaxşı bir dinləyici olmalıdırlar. Ona müəyyən musiqi bacarıqlarını öyrətmək, musiqi savadı sahəsindən anlayışlar vermək kifayət deyil, musiqi ilə ünsiyyət ehtiyacını oyatmaq vacib məsələlərdəndir. İbtidai sinif şagirdlərində musiqiyə marağı elə ilk dərslərdən formalaşdırmaq lazımdır ki, sonradan onlarda ciddi musiqiyə mənfi münasibət yaranmasın. Uşaqlar müxtəlif bəstəkarların əsərlərini nə qədər mütəmadi dinləyərlərsə, bir o qədər də bəstəkar yaradıcılığına maraq göstərməyə başlayır, onların əsərlərini digər məsərlərdən fərqləndirməyə vərdiş edirlər. Bəstəkarların fərdi təfəkkürünü, üslub xüsusiyyətlərini aydın əks etdirən musiqi əsərləri ilə tanış olan şagirdlər, onun yaradıcılığının mühüm sahəsinə dair təsəvvür əldə edir və konkret bəstəkarın üslubuna bələd ola, təyin edə bilərlər. Şagirdlər dəyərli musiqini nə dərəcədə tez öyrənib sevsələr, bu, onların musiqi qabiliyyətinin inkişafını, hisslərinın tərbiyəsini, şəxsiyyətinin formalaşmasını məsuldar edər. Musiqi dinləmə marağı, ona məhəbbəti inkişaf etdirir, musiqi üfüqlərini genişləndirir, şagirdlərin musiqi həssaslığını artırır.

**Ədəbiyyat:**


1. A.Axundova. Musiqi fənninin tədrisi zamanı şagirdlərin milli-mənəvi tərbiyəsi. Bakı, 2015
2. A.Nəzərov. “Müasir təlim texnologiyaları” fənni üzrə proqram. Bakı, 2010
3. İ.Məmmədova. Uşaqların musiqi dünyası, Bakı, 1960
4. İ.Məmmədov. Musiqi pedaqoqikası. Bakı, 2006
5. J.Qədimova. Musiqinin tədrisi metodikası. Bakı, 2007


## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ “TƏSVİRİ İNCƏSƏNƏT” FƏNNİ ÜZRƏ “DİEQO VELASKES” YARADICILIĞINA METODİK YANAŞMA


**Rzazadə Nuranə Namiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Nuna_fva@mail.ru*


Azərbaycan Respublikası müstəqiliiyini əldə etdikdən sonrakı və müasirləşməyə başladığı dövrdən etibarən ümumtəhsil məktəblərində tədris edilən fənlərdə dəyişiklik edilməsi zəruri hal almışdır. Dəyişikliklər yalnız həyatımıza deyil, insanın mənəvi dünyasının formalaşmasına da ciddi şəkildə təsir edən təhsil sahəsinə də yönəlmişdir. Müasir azərbaycanlı şagird artıq ənənəvi biliklərlə yanaşı – tənqidi düşünmə, problem həlletmə, müstəqil öyrənmə, texnologiyalardan sərbəst istifadə və s. kimi bacarıqlarla silahlanmış olmalıdır. Məhz bu səbəbdən cəmiyyətə ilk addımını məktəbdə atan, təhsilalan inkişaf etmiş təhsil sisteminə inteqrasiya edilərək orda XXI əsrdə lazım olan bacarıqların aşılanmasına nail olunur.

Təsviri incəsənət fənni öz növbəsində şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin şagirdlərə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsi ilə əyani şəkildə çatdırılması onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır.

Apardığımız "XVII əsr İspaniya incəsənətində barokko və realizm-Dieqo Velaskesin yaradıclığının ümumtəhsil məktəblərində tədrisi" adlı tədqiqat işində ümümtəhsil məktəblərində keçirilən Təsviri incəsənət dərslərinin tədrisi metodikası, şagirdlərin mövzuları qavrama texnikaları və konkret olaraq "Dieqo Velaskes", "İspaniya incəsənəti", "barokko və realizm" kimi üslublara ayrılan mövzular dərindən araşdırılmışdır. 7-ci sinif dərsliyi "Rəssam əsərində zadəgan geyimləri" adlı 16-cı mövzuda saray rəssamı olan Dieqo Velaskes yaradıcılığına aid portretlərə müraciət edilmiş, dövrün geyimlərinin nümayişi üçün realist təsvirlərə istinad verilmişdir. Kitabda orta əsr rəssamı olan Dieqo Velaskesin çəkdiyi portretlər zadəgan geyimlərini realist təsviri kimi nümunə təşkil edir. Şagirdlərə əhəmiyyətli mövzularda yeni məlumatlar ötürülmüş, rəssamın həyat və yaradıcılığı, tanınmış əsərləri ilə bağlı tanışlıq verilmişdir. Dieqo Velaskesin əsərlərinin başlıca xüsusiyyətləri haqqında, geyimlərin eskizləri barədə, insanın zahiri görünüşü ilə ifadəlilik və s. müzakirə edilmişdir. Dərslikdə xüsusi vurğulanması zəruri hesab etdiyimiz bir neçə nüansı qeyd etməyi lazım bilirik:

- Rəssamı təsvir etdiyi portretlərdə uşaq obrazlarının psixoloji, emosional cəhətlərinə xüsusi mərhəmət və qayğısı;
- Portret əsərlərində təsvir olunmuş insanların cəmiyyətdə tutduğu mövqelərindən asılı olmayaraq seçilməsi;
- Əsərlərdə kiçik boylu insanların təsvir etməsi isə cəmiyyətdə onların özünəməxsus mövqedə olmasını üzə çıxarması;
- Rəssamın sujet xarakterli və məişət səhnəsinin əks etdirdiyi əsərlərdəki illərdir davam edən simvolik sirlərin varlığının qeyd edilməsi və s.

Təbiidir ki, dərslik şagirdlərə bütün rəssamların yaradıcılığını tam və dolğun formada verə bilməz. Bununla bərabər İspan dahisi adlandırılan Dieqo Velaskes kimi rəssamın yaradıcılığına xas olan simvolizm və humanizm prinsiplərinin qeydi şagirdlərin marağına səbəb olacağını şübhəsiz edir.Nəzərə alsaq ki, məktəb yaşlarında olan şagirdlərin fantastika, mistika kimi məfhumlara meylli olması, rəssamın bir mistik əsərindəki simvolların açılması şagirddə digər əsərlərə baxmaq, sirləri aşkar etmək kimi fikirlərə səbəb olacaqdır. Habelə rəssamın sağlamlığı məhdud insan portretlərinin təsvirinə dair qeyd və ya təsvirlər inkluziv təhsillə olan bağlılığı artıracağı şübhəsizdir.

Tədqiqat işimiz Dieqo Velaskes yaracılığının ümütəhsil məktəblərində tədrisi ilə yekunlaşmayıb, realizm və barokko kimi üslubların araşdırılması da tələb etmişdir. Hər iki üslub D.Velaskes yaradıcılığında incələnmiş, rəssamın ayrı-ayrı əsərləri üslublara müvafiq ayrılmış və təhlil edilmişdir. Barokko və realizm terminləri incəsənətin ümumtəhsil məktəbi üçün vacib hesab edilən bir neçə sahəsində qeyd edilmişdir. Lakin Təsviri incəsənətlə birbaşa bağlı olan Musiqi fənni ilə inteqrasiyaya rast gəlinməmişdir. Belə ki, realizm və barokko musiqisi haqqında "Musiqi" dərsliyində olmadığı kimi "Təsviri İnəcəsənət" dərsliyində də məlumatlar verilməmişdir. Lakin Barokko musiqisi və Realist musiqilər Dünya incəsənətində şah əsər hesab ediləcək qədər məşhurluq və alqış qazanmışdır. Məsələn "Musiqi" fənninin dərsliyində "Musiqi və Təsviri incəsənət" başlıqlı bölmə olduğu halda "Təsviri İncəsənət" dərsliyində Musiqi ilə bağlı heç bir bölmə və bağlantı verilməmişdir. Bəzən rəssam musiqidən aldığı təəsüratlarla gözəl təsviri incəsənət əsəri yaradır. Ya da əksinə, bəstəkar gözəl incəsənət əsərlərindən vəcdə gəlib musiqi yarada bilir. Musiqi duyumlu şagirdlərin əksər hallarda Təsviri İncəsənətlə bağlılığı hər zaman müəllimləri tərəfindən aşkar edilmişdir. Beləliklə, üslublar haqqında olan mövzulara İnəcəsənətin geniş sahəsi olan Musiqi ilə əlaqəli informasiyaların verilməsi tərəfimizdən labüd hesab edilməkdədir.

Tənqid və təkliflərin, tövsiyə xarakterli əlavə və nəticələrin var olması inkişaf dinamikasına müsbət təsir etdiyi, dəyişikliklərin həyatın zəruriyyətindən doğulması və qarşısının alınmasının mümkünsüzlüyü fikrindəyik. Tədris prosesinin uğurlu və nəticəyönümlü olması-

nın əsas şərtlərindən biri də inkişafameyllli təhsil sistemi qurmaq və daima özünü təkmilləşdirən dərslik və metodik vəsaitlərin nəşr olunmasına şərait yaratmaqdır.


**Ədəbiyyat:**

1. Topçiyeva Ş.Ə. və b. Həyati bacarıqlara əsaslanan təhsil V-XI siniflər. Bakı,2006
2. Justi, Carl. Diego Velazquez and his Time. Transl. by Augustus Henry Keane. London: H.Grevel & Co,1889.


## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ M.F.AXUNDZADƏNİN "HEKAYƏTİ-MÜSYÖ JORDAN HƏKİMİ NƏBATAT VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH CADUKÜNİ – MƏŞHUR" KOMEDİYASININ TƏHLİLİ YOLLARI


**Nəsirova Aydan Rəcəb qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Elmi rəhbər: p.ü.f.d., dos.Bilal Həsənli**


Öz orijinallığı, maarifçilik ideyaları, sənətkarlıq xüsusiyyətləri ilə klassik ədəbiyyatımızın dəyərli nümunələrindən olan "Hekayəti-müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah caduküni –məşhur" komediyası qüdrətli sənətkar Mirzə Fətəli Axundzadənin bədii yaradıcılığında mühüm yer tutur. Azərbaycan dramaturgiyasının parlaq nümunələrindən olan bu komediya öz süjet və kompozisiya bitkinliyi, hadisələrin sürətli inkişafı və realist və satirik obrazların özünəməxsus səciyyəsi ilə diqqəti cəlb edir.

X sinifdə kurikulum üzrə ədəbiyyat dərslərində əsərin məzmununun mənimsənilməsi və təhlili üçün 4 saat nəzərdə tutulmuşdur. Komediyanın tədrisi ilə bağlı metodik mənbədə qeyd edilir ki, əsərin öyrənilməsinə maraq oyatmaq – motivasiya yaratmaq məqsədilə şagirdlərə S.Ə.Şirvaninin VIII sinifdə öyrəndikləri "Qafqaz müsəlmanlarına xitab" əsəri xatırladılmalıdır. Yığcam müsahibə ilə şairin ictimai bəlaların, mədəni geriliyin başlıca səbəbini elmsizlikdə gördüyü, yalançı dərvişlərin, "hoqqabazi-naqabillər"in yaramaz əməllərini ifşa etdiyi yada salınır." [4, s.142]

Komediyanın təhlili üzrə dərslərdə müzakirə, diskussiya, debat, müqayisə kimi interaktiv metodların, fərdi, cütlük çəklində, kiçik qruplarla və bütün siniflə işin təşkili, fəndaxili və fənlərarası inteqrasi imkanlarının reallaşdırılması təliminin səmərəliliyinin təmin edilməsinin mühüm amilləridir.

Metodist alim B.Həsənli yazr ki, fəal/interaktiv dərsin səmərəliliyi müəllimin planlaşdırma və bələdçilik (fasilitasiya) bacarıqlarından asılıdır. Müəllim dərsin bütün mərhələlərində görüləcək işləri dəqiq planlaşdırmalı, ciddi hazırlıq işləri görməlidir. Dərsə hazırlıq zamanı qarşıya qoyulan təlim məqsədlərinin (öyrədici, inkişafetdirici, tərbiyəetdirici məqsədlər) düzgün müəyyənləşdirilməsi, hansı idraki bacarıqlar üzrə iş aparılacağı (tətbiq etmək, tərkib hissələrinə ayırmaq, əlaqələndirmək, müqayisə etmək, ümumiləşdirmək, nəticə çıxarmaq və s.) aydınlaşdırılmalıdır. Təlimin məqsədləri müəyyənləşdirilərkən dərsin mövzu üzrə dərslər sistemində yeri, təlim materialının xarakteri, şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınır. [2, s.130.]

Əsərin təhlilinə hazırlıq mərhələsində şagirdlərin tarix dərslərində XIX əsrin ortalarındakı vəziyyət haqqında mənimsənilmiş biliklərindən istifadə edərək komediyadakı hadisələrin baş verdiyi dövrün, ictimai-siyasi quruluşun xüsusiyyətləri, mövzunun seçilməsi səbəbi müzakirə edilməlidir.

Müəllim komediyada əsas obrazların təhlili zamanı şagirdlərin fəallıq və müstəqilliyinə nail olmaq üçün düşünülmüş tapşırıqlar sistmindən məqsədyönlü istifadə etməlidir. Xüsusən təhlil dərsindən əvvəl Müsyö Jordan və dərviş Məstəli şah obrazları ilə bağlı əsərdən sitatlar, nümunələr seçilməsi müzakirənin səmərəliliyinin artırılması baxımından çox əhəmiyyətlidir. Bu tapşırığın icrasını zəruri edən səbəblər də şagirdlərə aydınlaşdırılmalıdır.

Araşdırma göstərir ki, dərsdə komediyanın obrazlarının təhlilinə əsas gülüş obyekti olan Dərviş Məstəli şah surəti ilə başlamaq məqsədəuyğundur. Müzakirə zamanı bu ümumiləşdirilmiş obrazın təhlili şagirdləri bu qənaətə gətirməlidir ki, ədib Məstəli şahın nümunəsində insanların avamlığından, cəhalətindən öz çirkin məqsədləri üçün istifadə edən, fırıldaqçıları, tüfeyliləri gülüş və tənqid obyektinə çevirmişdir.

Şagirdlər həmin məsələ ilə əlaqədar qeyd edirlər ki, dramaturq bu obrazın xarakterik xüsusiyyətlərini müxtəlif məqamlarda, hadisələrin inkişafı prosesində bütün detalları ilə əks etdirmişdir. M.F.Axundzadə realist sənətkar kimi tüfeyli, fırıldaqçı insanlara xas olan cəhətləri mənfi bir tip olaraq dərviş Məstəli şahın simasında cəmləşdirmişdir. O, həmin dövrdə Şərqdə, o cümlədən Azərbaycanda insanların cəhalətindən istifadə edən hiyləgər, acgöz, riyakar "caduküni – məşhurlar" ın tipik nümayəndəsidir.

Əsərdəki Müsyö-Jordan obrazının təhlili zamanı qeyd edilir ki, o, əsərdə həmin dövrdə Avropanın mədəni tərəqqisinin, elmə, maarifə çağırışın təmsilçisidir. Əsərdə Müsyö Jordan dərviş Məstəli şahla qarşılaşmasa da, əslində onların simasında köhnə həyatın, avamlıq və cəhalətlə yeniliyin mübarizəsi öz əksini tapmışdır. Müsyö Jordan Avropanın öz tədqiqatları ilə nəbatat elmində böyük uğurlar qazanmış, kəşflər etmiş təbiətşünas alimlərinin nümayəndəsidir.

Müzakirə prosesində Hatəmxan ağa, Şahbaz bəy, Şənrəbanu xanım, Şərəfnisə xanım obrazlarının səciyyələndirilməsi üzrə də iş aparılır, əsərdəki başlıca fikrin ifadəsində bu obrazların rolu müəyyənləşdirilir. Müəllim əlavə mənbədən istifadə edərək şagirdlərdə bu qənaəti yaradır ki, komediyada Şahbaz bəy surəti lirik-romantik planda qələmə alınmışdır. Pyesdə ilk səhnədən hiss edilir ki, müəllifin Şahbaza dərin məhəbbəyi, rəğbəti vardır.Şahbaz bəy "bataqlıq" adlandırdığı ətalət dnyasından qaçıb qurtarmaq, təhsilini davam etdirmək, başqa xalqların həyat tərzi ilə tanış olmaq, "izzət, hörmət" qazanmaq, cəmiyyətdə layiqli mövqe tutmaq, faydalı bir iş görmək arzusu ilə yaşayır, bunun üçün fürsət axtarır." [1, s.468.]

Təhlil nəticəsində şagirdlərdə əsərin konfliktinin maarifçilik idealı ilə gerilik və avamlığın təərəfdarları arasında mübarizə ideyasının avamlıq və cadugərlik olması qənaəti yaradılır. Belə bir nəticə çıxarılır ki, ideyanın, qoyulan problemin aktuallığı, həyat həqiqətlərinin yüksək sənətkarlıqla əks etdirilməsi, obrazların canlı, yaddaqalan təsviri, xarakterlərin tipikləşdirilməsi baxımından dramaturqun digər komediyalarından seçilir.

**Ədəbiyyat:**


1. Azərbaycan ədəbiyyatı tarixi. IV cild. Bakı:Elm, 2011.860 s.
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016, 455 s.
3. Həsənli B., Hüseynoğlu S., A.Mustafayev. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: Bakınəşr, 2017, 212 s.
4. Həsənli B., Hüseynoğlu S., Mustafayeva A.Ədəbiyyat. Müəllim üçün metodik vəsait. X sinif. Bakı: Bakınəşr, 2017, 208 s.


## AZƏRBAYCAN QƏHRƏMANLIQ DASTANLARININ ORTA MƏKTƏBDƏ TƏDRİSİ (8-Cİ SİNİF MATERİALI ÜZRƏ)


**Balaşov Saməddin Seyfəddin oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sameddinbalasov@gmail.com*


Araşdırma apardığımız "Qazan xan oğlu Uruz bəyin dustaq olduğu boy"la "Koroğlu Bolu bəy" qolu bir-birilə əlaqəli şəkildə tədrisi vacib olan materiallardır. Xalqın tarixini, soykökünü özündə əks etdirən bu dastan nümunələri millətimizin qəhrəmanlıq salnaməsidir. Boyda və qolda irəli sürülən ideyalar, hikmətamiz fikirlər tarixin hər bir mərhələsi üçün aktual və dəyərli nümunələrdir.

Qəhrəman xalq, ata-oğul, igidlər, tərbiyəvi fikirlər və s. kimi nümunələr hər dövr üçün diqqət mərkəzində saxlanılması vacib olan məsələlərdəndir. Biz Qazan xanın, Koroğlunun timsalında xalqla, aşağı zümrəylə edilməsi gərəkilən rəftarın şahidi oluruq. Onlar dar gündə vətəni qorumaqla yanaşı, həm də insanların çətinliklərini də aradan qaldırmağa çalışır, pis günlərində yanlarında olurlar. Bildiyimiz kimi "Koroğlu" dastanı "Kitabi-Dədə Qorqud" eposunun layiqli davamçısı kimi sonrakı mərhələlərdə formalaşmışdır. Hər bir kəsə məlumdur ki, tarixi min illərlə ölçülən bir xalqın yaratmış olduğu dastan onun keçmişini əks etdirən məlumat kitabçası, gələcəyini göstərən isə bir xəritədir. Həm KDQ, həm də "Koroğlu" eposu Azərbaycan türklərinin, ümumilikdə bütün türk dünyasının qiyməti ölçülə bilməyən nadir incilərdəndir.

"Qazan xan oğlu Uruz bəyin dustaq olduğu boy" və "Koroğlu və Bolu bəy" qolunun orta məktəbdə tədrisi zamanı müəllim və şagirdlər bəzi çətinliklərlə qarşılaşa bilərlər. Şagirdlər dastandakı qəhrəmanların bəzi hərəkətlərini və ifadə etdiyi fikirlərini düzgün dərk etməyə bilərlər. Buna nümunə kimi Qazan xanın Uruzun qaçdığını düşünüb, oğlunu öldürəcəyini deməsi, oğlu üçün tək başına düşmən üstünə getməsi, Burla xatunun döyüş meydanına yollanması, Koroğlunun tədbirsizliyi, düşmən hiyləsinə qanması, dəlilərin sözünə qulaq asmayıb aralarında soyuqluğa səbəb olması və s. kimi dərin məsələlərin dərkində şagirdlər çətinlik çəkə bilər. Müəllimlərin problemlərindən biri də məhz bundan sonra, yəni şagirdlərin materialı düzgün qavraya bilmədiyi zaman yaranır. Müəllim bu tipli məsələlərdə çox diqqətli olmalıdır. Belə hallarda müəllim şagirdləri öncədən düzgün istiqamətə yönləndirməlidir. Bununla yanaşı, həmin parçalara qədər olan hissələrin düzgün şəkildə şagirdlərə aşılanması, bu parçalardakı konfliktin şagirdlər tərəfindən düzgün dərkinə zəmin hazırlayır.

Dastanların orta məktəb ədəbiyyat dərsliklərinə salınması sistemli şəkildə həyata keçirilmişdir. Bu sistem şagirdlərin yaş psixologiyasına əsaslanaraq qurulmuşdur. Belə ki, aşağı sinif ədəbiyyat dərsliklərinə salınan dastan materialları daha çox hikmətamiz fikirləri, şagirdlərin tərbiyə və əxlaqına yön verəcək mətnləri özündə əks etdirməlidir. Yuxarı siniflərə qalxdıqca müsbət əxlaqi keyfiyyətlərlə zənginləşən şagird bir az daha mürəkkəb məsələlərin həllinə cəlb olunur. "Qazan xan oğlu Uruz bəyin dustaq olduğu boy" və "Koroğlu və Bolu bəy" qolu da həmin mürəkkəb məsələləri özündə ehtiva edən materiallardandırlar. Burada vətən, onun müdafiəsi, haqsızlığa etiraz, böyüyə hörmət, kiçiyə sevgi, başçının məsuliyyətləri və s. kimi məsələlər işlənmişdir. Bu və bunun kimi problemlərin həllində şagirdlərin fəal olması üçün aşağı siniflərdə verilən materialları dərindən mənimsəməsi vacibdir.

Şagirdlərin öyrəndiyi öncəki biliklərə müraciət etməsi və ya daha sonra öyrənəcəyi informasiyaya hazır olması məqsədilə müəllim dərslərdə inteqrasiyadan geniş şəkildə istifadə etməlidir. Bu imkanlar bir siniflə və ya bir ədəbiyyat fənni ilə məhdudlaşdırılmamalı, başqa sinifdəki materiallara və başqa fənlərə də mütləq diqqət yetirilməlidir. Bu şagirdlərin biliyi daha dərindən öyrənməsi ilə yanaşı, həm də sonrakı bilik üçün zəmin hazırlayır.

Həmçinin dastanların tədrisində fəal/interaktiv təlim metodlarından istifadə vacibdir. Lakin yeni metodlara əsaslanıb ənənəvi təlim üsullarından faydalanmamaq olmaz. Müəllim dərsdə bunların sintezini yaratmağı bacarmalıdır. Dərsin daha maraqlı, şagirdlər daha aktiv olması üçün vacib şərtlərdəndir.

## Ədəbiyyat:


1. Atif İslamzadə. Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu, Bakı, 2017
2. Əliyev S, Həsənov B, Mustafayeva A, Verdiyeva N, Məmmədova S. Ümumitəhsil məktəblərinin 8-ci sinif üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı-2019
3. Həsənli B.A Ədəbiyyatın tədrisi metodikası. Pedeqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı:Müəllim, 2016.-455 s.
4. Kitabı-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı:Öndər, 2004, 376 s.

# BƏDİİ ƏSƏRLƏRİN MƏKTƏBDƏ ÖYRƏDİLMƏSİ

**Baba Əlibabaoğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elibabaoglu@mail.ru*

İnformasiya əsrinin və qloballaşmaqda olan dünyanın tələbləri hər sahədə olduğu kimi, təhsil sahəsində də yeni yanaşmaların ortaya qoyulmasını tələb edir. Fənn proqramları (kurikulumları), dərsliklər və dərs vəsaitləri də məhz yeni tələblərə əsasən hazırlanır. Eyni tələblər bütün fənlər kimi ədəbiyyat fənninə də aid olduğu üçün burada da fənn kurikulumu, dərslik və dərs vəsaitlərində ənənəvi təlimdən fərqli yeni yanaşmaların mövcudluğunu görürük. Bədii əsərlərin öyrədilməsi ümumtəhsil məktəblərində ədəbiyyat fənninin tədrisi üzrə işin əsas hissəsinin təşkil edir. Məhz buna görə də ədəbiyyat fənn kurikulumunda bədii əsərlərin öyrədilməsi ilə bağlı ayrıca əsas və alt standartlar müəyyən edilmişdir. Bu standartlarda qoyulan tələblərə əsasən şagird əsərin, məsələn, məzmununun öyrənilməsi prosesində tanış olmayan sözlərin mənasını aydınlaşdırmalı, plan tərtib etməli, əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyən etməli və s. kimi tapşırıqları yerinə yetirməlidir. Ümumtəhsil məktəblərində istifadə olunan ədəbiyyat dərsliklərindəki tapşırıqlar məzmun standartlarının reallaşdırılması istiqamətində hazırlanmışdır. Metodik vəsaitlərdə müəllimlərə təqdim olunan metodik tövsiyələrdə də məzmun standartlarının reallaşdırılması yolları şərh edilmişdir.

Bədii əsərlərin öyrədilməsi metodik ədəbiyyatımızda həmişə diqqət mərkəzində olmuşdur. Bədii əsərlərin oxusu, məzmununun öyrədilməsi, təhlili hələ keçən əsrin 20-ci illərində çap edilmiş metodik yazılarda şərh olunmağa başlanmış, zaman keçdikcə daha da dərinləşdirilmiş və zənginləşdirilmişdir. Tədqiqatlar dərinləşdikcə məzmun üzrə işin rəngarəng tapşırıqların tətbiqi ilə təşkili məqsədəuyğun sayılmış və məktəbə ardıcıl praktik kömək göstərilmişdir.

Pedaqoji ədəbiyyatda, xüsysən "Azərbaycan dili və ədəbiyyatının tədrisi", "Kurikulum" kimi jurnallarda məsələ ilə bağlı müxtəlif alimlərin, qabaqcıl müəllimlərin məqalələrin dərc olunduğunun şahidi oluruq.

Bu gün ümumtəhsil məktəblərində bədii əsərlərin öyrədilməsi prosesində fəal təlim texnologiyalarından istifadə edilməsi təqdirəlayiqdir. Ədəbiyyat dərsliklərində bədii əsərlərin məzmununun öyrənilməsi üçün təklif edilmiş tapşırıqlar buna geniş imkan yaradır. "Bakınəşr"də çap olunmuş dərsliklərdə əksini tapmış tapşırıqlar məzmun standartlarının reallaşdırılması baxımından diqqəti cəlb edir. Dərsliklərdə bədii əsərlərin məzmununun müxtəlif formalarda – yığcam, geniş, yaradıcı danışılıması üzrə tapşırıq sisteminin verilməsi şagirdlərin məntiqi və yaradıcı təfəkkürünün inkişafı, şifahi nitqlərinin formalaşdırılması baxımından faydalıdır.

Deyilənlərdən aydınlaşır ki, bədii əsərin məzmununun öyrədilməsi özündə geniş məna yükü daşıyan metodik-filoloji mahiyyətə malik bir problemdir. Onun əhatəli araşdırılmasına hələ ehtiyac var. Bu ehtiyacı yaradan bir mühüm səbəb bədii əsərin öyrədilməsinin təlim-tərbiyəvi əhəmiyyətidir. Bir az da dəqiq desək, bədii əsərin öyrədilməsinin təlimi, tərbiyəvi və inkişafetdirici əhəmiyyətini unutmaq olmaz. Unudulmamalıdır ki, bədii əsərlərin məzmununun öyrədilməsi şagirdlərin ədəbiyyatşünaslıqla bağlı biliklərini genişləndirir, tətbiqinə imkan yaradır, onların bir şəxsiyyət kimi formalaşmasına təsir edir, məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına səbəb olur. Məhz bu səbəbdən ədəbiyyat müəllimləri bədii əsərlərin məzmununun əhatəli öyrənilməsinə xüsusi diqqət yetirir, ciddi qayğı göstərirlər.

Bədii əsərlərin məzmununun öyrədilməsinə həsr olunmuş dərslərin səmrəli təşkili üçün elmi-metodik ədəbiyyatı mükəmməl öyrənmək zəruridir. Lakin bu, işin bir tərəfidir. Məktəb təcrübəsini, xüsusən qabaqcıl təcrübəni əhatəli öyrənmək də vacibdir. Üçüncü və bunlardan az əhəmiyyətli olmayan isə yaradıcı işləməyə səy göstərməkdir. Meydana çıxan teni təlim texnologiyalarını mənimsəmək, ona yaradıcı yanaşmaqla tətbiq etməyə çalışmaq hər bir müəllimin məqsədinə çevrilməlidir. Buna nail omaq mümkündür, yetər ki, öz peşənin sevdalısı olasan,

həqiqi vətəndaş olasan, xalqının mənəvi sərvətini və körpə fidanlarını sonsuz məhəbbətlə sevəsən.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə fənn proqramı. (Kurikulum)". Bakı, 2012.
2. Həsənli B. "Ədəbiyyatın tədrisi metodikası". Müəllim nəşriyyatı. Bakı, 2016.
3. Həsənli B., Mustafayeva A., Hüseynoğlu S., Verdiyeva N. "Ədəbiyyat" Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı nəşriyyatı. Bakı, 2020.
4. Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quluyev Ə. "Ədəbiyyat" Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün metodik vəsait. Bakı nəşriyyatı. Bakı, 2020.
5. Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Məmmədova S. "Ədəbiyyat" Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı nəşriyyatı. Bakı, 2018.
6. Hüseynoğlu S. "Ədəbiyyatın məktəbdə öyrədilməsi". Bakı, 2019.
7. Muradov B. "Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi". Maarif nəşriyyatı. Bakı, 1992.


## MÜASİR TƏHSİL SİSTEMİ ƏSASINDA SİNİFDƏ TƏLİM FƏALİYYƏTİNİN TƏŞKİLİ ÜÇÜN MÜMKÜN İŞ FORMALARI


**Əhədov Zamin Zaur oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zaminehedov90@gmail.com*



**Xülasə**

Tezisdə sinifdə mühitə uyğun təlimin təşkili formalarından bəhs olunmuş, təlimin təşkilinin mümkün olan dörd iş forması qeyd edilmişdir. Daha sonra bu iş formaları haqqında qısa məlumatlar verilmiş müsbət və mənfi xüsusiyyətləri qeyd olunmuşdur.

**Резюме**

В диссертаöии рассматриваются формы организаöии обучения на занятиях в соответствии со средой и упоминаются четыре возможные формы обучения. Далее была дана краткая информаöия об этих формах работы, отмечены положительные и отриöательные черты.

**Summary**

The thesis discusses the forms of organization of learning in the classroom in accordance with the environment. There are four possible forms of training. Then, the positive and negative features of these forms of work were given.


Sinifdə dərs prosesinin təşkili təhsil sistemnin ən aktual məsələlərindən biridir. Buna görə də, həm müəllimlər, həm də başda Təhsil Nazirliyi olmaqla digər təhsil sturuktur idarələri sinifdə dərs prosesinin təşkilinə əhəmiyyət verirlər. Lakin burada başlıca məsuliyyət müəllimlərin üzərinə düşür. Çünki sinifdə dərs prosesi zamanı şagirdlərlə birbaşa ünsiyyətdə müəllim olur və şagirdlərə uyğun təlimin təşkili formasını seçmək müəllimin üzərinə düşür. İstənilən halda isə sinifdə təlimin təşkilinin dörd forması mümkündür: fərdi, cütlərlə, qrup, kollektivlə.

Bildiyimiz kimi sinifdə dərs prosesinin təşkilinin dörd forması mümkündür. Sinifdə təlimin təşkilinin mümkün dörd formasının hər birinin özünə məxsus müsbət və mənfi tərəfləri var. Sinifdə şagirdlərə uyğun təlimin təşkili formasısın seçilməsi olduqca əhəmiyyətlidir və dərs prosesinin səmərəli keçməsi birbaşa olaraq düzgün seçimdən aslıdır. Buna görə də, bütün müəllimlər sinifdə təlimin təşkili formasını seçərkən diqqətli olmalıdırlar.

Fərdi iş – Şagirdlərin dərs prosesi zamanı təkbaşına icra etdiyi fəaliyyət xətti nəzərdə tutulur. Özünə güvənən, özünəməxsus intelektə sahib şagirdlər üçün məqsədə uyğundur. Mənfi

cəhəti isə şagirdlərdə ünsiyyət qurmaq bacarıqlarının inkişafını ləngitmək və sinifdə şagird sayının çox olduğu halda vaxt itkisinə səbəb olmaqdır.

Cütlərlə iş - tədris prosesində iki şagirdin qarşılıqlı fəaliyyəti nəzərdə tutulur. Şəxslər arası intelektə sahib şəxslər üçün əlverilidir. Mənfi tərəfi isə şagirdlər arasındakı mənfi münasibətlər olarsa bu effektiv nəticəyə mane ola bilər.

Qruplarla iş – Şagirdlərin sinifdə komandalar şəklində fəaliyyət göstərərək tapşırığı həll etməsidir. Şagirdlərdə əməkdaşlıq etmək, ünsiyyət qurmaq kimi bacarıqların inkişafına şərait yaradır. Mənfi tərəfi isə şagirdlərin birinin az, birinin çox işləməsi səbəbindən yaranan konfiliktlərdir.

Kollektivlə iş - Eyni bir tapşırıq bütün sinifi əhatə edir. Bu da, bütün sinifin qarşılıqlı fəaliyyət göstərməsinə gətirib çıxarır. Mənfi tərəfi isə utancaq və passiv şagirdlərin diqqətdən kənarda qalması, sinifin idarə edilməsində zəiflik zamanı yaranan səs-küydür.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı,2009.
2. TAİM. Metodik vəsait. Bakı, 2021
3. G.Hüseynova. Kurikulm. Pedaqogika. Bakı, 2019
4. Z.Veysova. Fəal İnteraktiv Təlim.


## TÜRKİYƏ 11-ci SNİF COĞRAFİYA DƏRSLİYİNDƏ EKOLOJİ BİLİKLƏRİN VERİLMƏ SİSTEMİNİN TƏHLİLİ


**İsmayılzadə Səbinə Səxavət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sabina982018@hotmail.com*



**Xülasə**

Bu məqalədə Türkiyə 11-ci sinif coğrafiya dərsliyində ekoloji biliklərin verilməsi sistemi təhlil edilmişdir.

**Резюме**

В данной статье анализируется система преподавания экологических знаний в учебнике географии для 11 класса в Туроии.

**Summary**

This article analyzes the system of teaching ecological knowledge in the 11th grade geography textbook in Turkey.


Coğrafiya 11-ci sinif Gün yayınları 4-cü fəsildə bəhs edilən mövzular:

A) Mühit problemlərinin sinifləndirilməsi
B) Mədənlərin və enerji mənbələrinin istifadəsi
C) Tükənən və alternativ təbii mənbələr
Ç) Təbbi mənbələrin fərqli istifadəsi
D) Ərazi istifadə şəklinin ətraf mühitə təsiri
E) Qlobal mühit problemlərinin ortaya çıxması və yayılması
F) Təbii mənbələrin istifadəsi və təkrar emalı

Mühit problemlərinin sinifləndirilməsi başlığında ətraf-mühit problemləri 2 qrupa bölünür. Yerli mühit problemləri və qlobal mühit problemləri. Yerli mühit problemlərində fərqli olaraq qatı atıqların məhsuldar torpaqlara buraxılması, məhsuldar torpaqların sənaye və yerli məskunlaşma məqsədi ilə istifadəsi, işiq çirkliliyi, səs çirkliliyi. Mədənlərin və enerji mənbələrinin istifadəsi başlığında bəhs edilən başlıca mövzular belədir: mədənlərin və enerji mənbə-

lərinin istehlakı, mədənlərin və enerji mənbələrinin daşınması, mədənlərin və enerji mənbələrinin istifadəsi.

Tükənən və təbii alternativ mənbələr başlığında əsasən günəş enerjisi, külək enerjsi, biokütlə enerjisi, qabarma-çəkilmə enerjisi, dalğa enerjisi, geotermal enerji, hidroelektrik enerji və hidrogen enerjisidir.

Təbii mənbələrin fəqli istifadəsi başlığında təbii mənbələrin istifadəsində inkişaf səviyyəsinin inkişaf səviyyəsinin əhəmiyyəti, təbii mənbə istifadəsində ətraf-mühitin planlaması, Zonquldağ, Batın, Karabük layihəsinə (layihənin əsas məqsədi daş-kömür və dəmir-polad müəssisələrinin daha gəlirli etmək, müəssisələrdə yeni texnika və üsulları tətbiq etməkdir) yer verilmişdir.

Ərazi istifadə şəklinin ətraf mühitə təsiri başlığında Afyonkarahisarda ərazi istifadəsi, Avlon gölü, ərazi istifadəsində planalma prinsipləri göstərilmişdir.

Qlobal ərtaf-mühit problemlərinin ortaya çıxması və yayılması başlığında isə ətraf-mühit problemlərinin əmələgəlmə və yayılma dövrü, atıqlardan qorunma kimi mövzulara toxunulmuşdur.

Təbii mənbələrin istifadəsi və təkrar emalı başlığında tullantıların dəyərləndirilməsi və təkrar emalına yer verilmişdir.

**Ədəbiyyat:**


1) Orta öğretim Coğrafya 11 ders kitabı


## “CƏMİYYƏT” MƏZMUN XƏTTİ ÜZRƏ ŞAGİRDLƏRİN PRAKTİKİ VƏ MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİ METODİKASI (IX SİNİF)


**İbrahimova Pərvanə Telman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ibrahimova900@gmail.com*



**Xülasə**

Tezisdə müasir təhsil sistemi, onun əsas məqsədi, şagirdlərdə məzmun xəttlərinə uyğun praktiki və müstəqil işlərin təşkilinin öyrənilməsi qeyd olunub. Bacarıqların formalaşdırılması məsələlərinə vəbu sahədə olan çatışmazlıqlara toxunulmuşdur. Eyni zamanda şagirdlərin şəxsiyyət kimi formalaşmasında əhəmiyyəti əsaslandırılmışdır. Nəticə olaraq ümumi təlimin kefiyyətinin yüksəldilməsində düzgün metodlardan istifadə olunması xüsusi vurğulanmışdır.


## МЕТОДИКА ОРГАНИЗАЦИИ ПРАКТИЧЕСКИХ И САМОСТОЯТЕЛЬНЫХ УЧАЩИХСЯ ПО ЛИНИИ СОДЕРЖАНИЯ "ОБЩЕСТВО" (IX класс)


**Резюме**

В диссертации сделан акцент на современной системе образования, ее основном предназначении изучение организации практической и самостоятельной работы студентов в соответствии с содержательными линиями. Были затронуты вопросы наращивания потенциала и недостатки в этой сфере. При этом обосновывается значение студентов в формировании личности. В результате был сделан акцент на использовании правильных методов для повышения качества общего образования.


## METHODOLOGY OF ORGANIZATION OF PRACTICAL AND INDEPENDENT STUDENTS ON THE LINE OF "SOCIETY" CONTENT (IX grade)


**Summary**

The thesis emphasizes the modern education system, its main purpose, the study of the organization of practical and independent work of students in accordance with the content lines. The issues of capacity building and shortcomings in this area were touched upon. At the same time, the importance in the formation of personality is substantiated. As a result, the use of the right methods to improve the quality of general education was emphasized.

Müasir təhsil sisteminin əsas tərəfi təhsilalana subyekt kimi yanaşmaqla yeni insanın formalaşmasını cəmiyyətin əsas məqsədinə çevirməkdir. Bu isə insanların öz bacarıq və qabiliyyətlərinin reallaşması üçün maksimum şərait yaratmağı tələb edir. Müasir dövrdə ölkədə təhsilin əsas məqsədi böyüyən nəsildə əsil vətəndaşlıq keyfiyyətlərini formalaşdırmaqdan ibarət olmalıdır [1]. Çünki, təhsil insanın özünü və dünyanı dərk etməsinin təminatçısı rolunda çıxış edir. Ənənəvi təhsildə fakt və hadisələri əzbərləməyə diqqət yetirilirdisə, müasir məktəbin əsas məqsədi isə rəqabətçil, çevik və tənqidi təfəkkürə, sərbəst qərar qəbul etmək qabiliyyətinə malik, əməkdaşlıq etmə, ünsiyyətqurma müstəqil öz fikrini ifadə edə bilən şəxsiyyət formalaşdırmaqdır. Bu sadalanan faktorların reallaşması birinci olaraq dərs mühitindən başlayır.

Bildiyimiz kimi coğrafiya elmi fənn kurikulumunda coğrafi məkan, təbiət və cəmiyyət məzmun xəttləri üzrə müəyyən olunur [4]. Bütün məzmun xəttləri üzrə o cümlədən cəmiyyət məzmun xətti üzrə dərslərin təşkilində praktiki və müstəqil işlərin yerinə yetirilməsi keçirilən dərslərin kefiyyətinin artmasına səbəb olur. Bəzən dərsdə mövzunun qavranılması üçün düzgün metod və üsullardan istifadə edilmir və tədrisdə müəyyən çətinliklərə səbəb olur.

Praktik işlər metodu, şagirdlərin yiyələndikləri bilik və bacarıqların təcrübədə tətbiq olunmasına, təlimdə nəzəriyyə və təcrübənin arasında əlaqənin yaranmasına xidmət edir. Coğrafiyanın tədrisində praktik işlər mühüm rola malikdir. Praktik işlər nəzəri biliklərin möhkəmləndirilməsi və coğrafi bacarıqların formalaşdırılması məqsədi ilə yerinə yetirilir [1, 2]. Praktik işləri yerinə yetirməklə şagirdlər səbəb-nəticə əlaqələrini müəyyən edir, təbii kompleks daxilindəki komponentlər arasında qarşılıqlı əlaqəni təyin edir. Praktik işlər vasitəsilə şagirdlər üçün həyati əhəmiyyəti olan praktik bacarıq və vərdişlər aşılanır. Praktik işlər düzgün keçiriləndə şagirdlərin biliklərinin dərinləşməsinə, onlarda bacarıq və vərdişlərin formalaşmasına kömək göstərir.

Təlimdə şagirdlərin müstəqil işinin səmərəli təşkili onun mahiyyətini düzgün müəyyənləşdirməklə sıx bağlıdır. Pedaqoji ədəbiyyatlarda müstəqil işin təlim prosesində yeri ilə bağlı vahid fikir yoxdur. Müstəqil iş bəzən təlim metodu, şagirdin öyrənmə üsulu, təlim fəaliyyəti, fəaliyyət növü, təlim vasitəsi və ya forması kimi səciyyələndirilir [3]. Lakin bütün alınan nəticələri ümumiləşdirib belə deyə bilərik ki, şagirdlərin müstəqil işi müəllimin bilavasitə iştirakı olmadan, lakin onun tapşırığı ilə müstəqil iş üçün ayrılmış xüsusi vaxtda icra olunur. Bu zaman şagirdlər xüsusi səy göstərməklə bu və ya digər formada özlərinin əqli və ya fiziki fəaliyyətlərinin nəticələrini ifadə edərək tapşırıqda qarşıya qoyulmuş məqsədə nail olmağa şüurlu sürətdə cəhd göstərirlər.

Tədqiqatın nəticəsi olaraq, IX sinifdə cəmiyyət məzmun xətti üzrə mövzuların tədrisində praktiki və müstəqil işlərin təşkilinə dair şagird fəaliyyəti zəifdir. Yuxarıda qeyd olunan məsələləri nəzərə alıb coğrafiya müəllimi dərslərdə bu metodların tətbiq olunmasına xüsusi diqqət yetirməli və təmin etməlidir.

**Ədəbiyyat:**

1) A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov. Pedaqoji texnologiyalar. Bakı-2006.

2) "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənn kurikulumu (VI-XI siniflər)", Bakı, 14 yanvar 2011.

3) Ümumtəhsil məktəblərinin IX sinif üçün coğrafiya fənni üzrə dərsliyin metodik vəsaiti.

4) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı 2009.

# COĞRAFİYA DƏRSLƏRİNDƏ İSTİFADƏ EDİLƏN KARTOQRAFİK TƏSVİR VASİTƏLƏRİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**İbrahimzadə Aişə Adil qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aishaibrahimzade@mail.ru*

**Xülasə**

Tezisdə Coğrafiya dərslərində istifadə edilən kartoqrafik təsvir vasitələri, onların tədris prosesində rolu və əhəmiyyəti və onların istifadə mexanizmindən bəhs edilir. Burada kartoqrafik təsvir vasitələrinin nəinki keçmiş tədris prosesində, eyni zamanda bugünümüzdə də təlimin ən əsas əyani vəsaitlərindən biri olduğu qeyd edilmişdir. Kartoqrafik təsvir vasitələrinin (xəritə, plan, qlobus) şagirdlərin mənimsəmə prosesindəki əhəmiyyəti qeyd edilmişdir.

## РОЛЬ И ЗНАЧЕНИЕ СРЕДСТВ КАРТОГРАФИЧЕСКОГО ИЗОБРАЖЕНИЯ, ИСПОЛЬЗУЕМЫХ НА УРОКАХ ГЕОГРАФИИ

**Резюме**

В диссертаöии рассматриваются средства картографического описания, используемые на уроках географии, их роль и значение в учебном проöессе и механизм их использования. Здесь отмечается, что картографические изображения являются одним из основных наглядных пособий не только в прошлом учебном проöессе, но и сегодня. Отмечена важность средств картографического изображения (карта, план, глобус) в проöессе овладения учащимися.

## THE ROLE AND IMPORTANCE OF CARTOGRAPHIC IMAGING TOOLS USED IN GEOGRAPHY LESSONS

**Summary**

The thesis discusses the means of cartographic description used in geography lessons, their role and importance in the teaching process and the mechanism of their use. It is noted here that cartographic imagery is one of the main visual aids not only in the past teaching process, but also today. The importance of cartographic imaging tools (map, plan, globe) in the process of students' mastery was noted.

Bildiyimiz kimi coğrafiya dərslərində materialın nümayişi mühüm amil hesab olunur. Hər kəs çox yaxşı bilir ki, xəritəsiz coğrafiya elmi yoxdur. Xəritə tələbəyə kosmosda naviqasiya etməyə, ondan çoxlu sayda məlumat çıxarmağa imkan verir. Bilikləri təşkil edir, onların mənimsənilməsini və yadda saxlanmasını asanlaşdırır. Xəritənin rolunu N.N.Baranski mükəmməl şəkildə müəyyən etmişdir: "Xəritə coğrafiyanın ikinci dilidir... şagirdlərin qavrayışı üçün mətndən çox daha əlçatandır".

Xəritənin eskiz rəsmlərindən Yerin interaktiv təsvirlərinə qədər təkamülü insanın kartoqrafiyaya daimi marağından danışmağa imkan verir. Kartoqrafiya məlumatının elektron və ya çap şəklində öyrənilməsi bu gün məktəb coğrafiyasının əsas vəzifələrindən biridir. Xəritə coğrafi kəşfin məcburi şahididir. Müasir müəllim isə coğrafiya dərslərində yeni kəşflərə biganə qalmamalıdır.

Kartoqrafik təsvir vasitələrinin tədrisdə əsas əhəmiyyəti ondan ibarətdir ki, şagirdlər coğrafi obyektləri onlarsız öyrəndikdə materialın çox az hissəsini mənimsəmiş olurlarsa, xəritə və qlobusdan istifadə edərək və ya vizual olaraq görərək öyrəndiyi zaman daha çox məlumat öyrənmiş və daha uzunmüddət yadda saxlamış olurlar.

Müasir cəmiyyətdə kartoqrafiya elminin rolunun artması tendensiyası müşahidə olunur. Müasir insan xəritələrdən kitablar və kompüterdən istifadə etdiyi kimi vərdişlərə sahib olmalı və sərbəst şəkildə istifadə etməyi bacarmalıdır. Bu marağı bir neçə faktorla izah etmək olar:

məktəb coğrafiyasının praktiki yönümlü olması, bütün müasir elektron cihazlarda peyk xəritələrinin olması, rekreasiya coğrafiyasının artan rolu və insanın səyahət etmək qabiliyyəti.

Məhz elə buna görə də hər bir şagird sadə formada da olsa karoqrafik bilik və bacarıqlara malik olmalıdır. Bir növ bu biliklərə yiyələnmək müasir dövrün əsas kompetensiyasına çevrilməlidir. Təhsilin müasirləşdirilməsinin müasir mərhələsində kartoqrafik bilik və bacarıqlar şagirdlərin ümumi və coğrafi mədəniyyətinin əsasını təşkil edir, onlara kosmosda oriyentasiyanı, metafənni bilik və bacarıqlarının inkişafını təmin edir. Bu, şagirdlərin kartoqrafik bilik və bacarıqlarının keyfiyyətinin qiymətləndirilməsi metodları problemini coğrafi təhsilin prioritet vəzifələri sırasına qoyur. Bu problemin həyata keçirilməsində coğrafiyanın ilkin kursu əsasdır.

Kartoqrafiya bilikləri məktəb coğrafiyasının bütün məzmununa nüfuz edir və müasir şagirdin kartoqrafik savadının formalaşdırılması coğrafi təhsilin məqsədlərindən biridir.

**Ədəbiyyat**


1. A.Y.Bibik və başqaları. Orta məktəbdə coğrafiya təliminin metodikası. Bakı:Maarif, 1978
2. N.N.Allahverdiyev, H.Ə.Sadıxlı. Coğrafiya tədrisi metodikası. Bakı, APİ nəşri, 1978
3. Гильберг Т.Г., Паламарчук Л.Б., Безуглий В.С. География: учебник для 10-х классов общеобразовательных учебных учреждений. К.: Генеза, 2009. 224 с.


## COĞRAFiYA TƏDRİSİNDƏ MÜŞAHİDƏ VƏ TƏCRÜBƏLƏRİN KEÇİRİLMƏSİNİN BİLİK VƏ BACARIQLARIN MÜSTƏQİL MƏNİMSƏNİLMƏSİNDƏ ƏHƏMİYYƏTİ


**Omarova Nərminə Məqsəd qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nermine.omarova@icloud.com*



***Açar söz:*** *coğrafiya, şagird, metodika, bilik, müşahidə, təcrübə*
***Ключевые слова:*** *география, студент, методика, знания, наблюдение, опыт*
***Key words:*** *geography, student, methodology, knowledge, observation, experience*



**Xülasə**

Coğrafiya dərslərində təcrübə və müşahidələr şagirdlərin idrak qabiliyyətlərini fəallaşdırır, onlarda coğrafiyaya marağı artırır ki, bu da təlim və tərbiyə işinin keyfiyyətinin yaxşılaşmasına kömək edir. Müxtəlif əyani vasitələrin tətbiqindən fərqli olaraq, təcrübə və müşahidə şagirdlərə bilavasitə əşya və hadisələrin özü ilə tanış olmağa imkan verir.

**Резюме**

Опыт и наблюдения на уроках географии активизируют познавательные способности учащихся, повышают их интерес к географии, что в свою очередь способствует повышению качества учебно-воспитательной работы. В отличие от использования различных наглядных пособий, опыт и наблюдение позволяют учащимся самим познакомиться с объектами и событиями.

**Summary**

Experience and observations in geography classes activate students' cognitive abilities, increase their interest in geography, which in turn helps to improve the quality of teaching and educational work. Unlike the use of various visual aids, experience and observation allow students to become familiar with objects and events themselves.


Coğrafi müşahidələri, başlıca olaraq, ekskursiya və səyahət vaxtı təbiətdə aparmaq lazım gəlir. Lakin bəzi müşahidələr sinifdə də mümkündür. Sinfin pəncərəsindən göyün rəngi və və-

ziyyəti, buludların növü, külək, yağıntılar, günəşin nə dərəcədə hündürdə olması və bəzən hətta bürclər üzərində də müşahidə aparmaq olar. Coğrafiya müəllimi aşağı siniflərdən başlayaraq, belə müşahidələrə fikir verməlidir. Şagirdlər bəzi coğrafi müşahidələri, məsələn, yerli süxurlar və torpaq növləri (arx qazıldıqda inşaat tikintiləri aparılan yerlərdə və s.), habelə, yerli-flora, fauna üzərindəki müşahidələri məktəbə gələrkən yolda apara bilər. Şagirdlər belə müşahidələrə müxtəlif yollarla həvəsləndirilməlidirlər. Şagirdləri fenoloji müşahidələrlə, xüsusən baharda təbiətin canlanmasını müşahidə etməklə də maraqlandırmaq əhəmiyyətlidir. Müəllim sual və tapşırıq verməklə şagirdləri belə müşahidələrə həvəsləndirməlidir. Şagirdlər müəllimin onların müşahidələri ilə maraqlandığını gördükdə daha artıq həvəslə müşahidə aparır və bundan daha çox fayda əldə edirlər.

Coğrafiya dərslərində müşahidə və təcrübələr təşkil etmək üçün ən əlverişli yol coğrafiya meydançasıdır. Burada şagirdlər meteoroloji cihazlar vasitəsilə havanın elementlərini, ümumiyyətlə, atmosferin vəziyyətini müntəzəm olaraq müşahidə etməklə, olduqları coğrafi yerin iqlim xüsusiyyətini müəyyənləşdirə bilərlər. Hər bir şagird növbə ilə müəllimin təyin etdiyi vaxtda hava üzərində müşahidə aparmalı, hava haqqında məlumat tərtib etməlidir. Bu zaman şagirdlər havanın dəyişkənliyini doğuran başlıca səbəbləri və havanın elementləri arasındakı qarşılıqlı əlaqə və təsiri müəyyən etmək bacarığı əldə edirlər.

Şagirdlərin təbiət hadisələrini və obyektləri müşahidə etməsi ancaq coğrafiya meydançasında aparılan işlərlə məhdudlaşdırılmamalıdır, çünki belə iş məktəb yaxınlığındakı başqa sahələrdə də aparmaq olar. Şagirdlərin müxtəlif hadisə və obyektləri müşahidə etmələrinin düzgün təşkili müşahidələrin nəticələrinin çertyoj, eskiz, sxem və s. şəkildə qeydə alınmasını tələb edir.

Hər hansı bir təbiət hadisəsinin və coğrafi obyektin şagirdlər tərəfindən müşahidə edilməsi o zaman yaxşı səmərə verir ki, alınacaq nəticə qabaqcadan şagirdə məlum olmasın. Əgər şagird nəticəni özü müstəqil surətdə taparsa, o, böyük bir təbii hadisəni kəşf etdiyini güman edər. Müşahidə və təcrübələrin düzgün təşkili, bir tərəfdən şagirdlərdə coğrafi təfəkkürün inkişaf etməsinə səbəb olursa, digər tərəfdən, onlara gələcək müstəqil əmək fəaliyyətlərində bu və ya digər sahələrdə sərbəst hərəkət etmək vərdişlərini aşılayır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı, 2009.

2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (kurikulum) (VI-XI siniflər), Bakı, 2013.

3.Təbiəti mühafizə və təbiətdən istifadə haqqında hüququ sənədlər toplusu, Bakı, Azərnəşr, 1992.

# III BÖLMƏ
# TƏHSİLDƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT

## ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA TƏHSİLİN ROLU

**Əkbərova Gültac Ramazan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gultacakberova@gmail.com*

Şəxsiyyətin sosiallaşmasına təsir edən amillər içərisində təhsil əsas yer tutur. İnsan cəmiyyətə adaptasiyası üçün tələb olunan kefiyyətləri – bilikləri, sosial normaları və dəyərləri, sosial təcrübələri məhz təhsil prosesində mənimsəyir. Təhsil bilik, bacarıq, dəyərlər, əxlaq, inanclar, vərdişlər və şəxsi inkişafın mənimsənilməsi prosesidir. Bu gün təhsil məqsədləri getdikcə daha çox öyrənənlərin azadlığı, təqdim olunan məlumatlar haqqında tənqidi düşüncə, müasir cəmiyyət üçün lazım olan bacarıqlar, empatiya və mürəkkəb peşə bacarıqları kimi yeni ideyaları əhatə edir.

Sosial-pedaqoji ədəbiyyatda "təhsil" anlayışı iki mənada – geniş və dar mənada istifadə edilir. Geniş mənada təhsil sosial hadisə kimi, insanın sosiallaşması, cəmiyyət həyatına hazırlanması vasitəsi kimi qəbul edilir. Təhsil sosial hadisə kimi, cəmiyyət üzvlərinin təlim və tərbiyəsi funksiyasını həyata keçirən, şəxsiyyətin müəyyən biliklərə, ideya-mənəvi dəyərlərə, davranış normaları və vərdişlərinə yiyələnməsini təmin etməyə yönələn nisbi müstəqil sistem kimi qəbul edilir. Dar mənada təhsil dedikdə insanın bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi prosesi başa düşülür.

Təhsil özü bir insan hüququdur. İnsan hüquqlarını həyata keçirmək üçün təhsil əvəzsiz vasitədir. İnsanları qüvvətləndirmək hüququ kimi təhsil iqtisadi və sosial cəhətdən təcrid olunmuş böyüklərin və uşaqların özlərini yoxsulluqdan azad etmək üçün ilkin vasitədir.

Şəxsiyyətin təhsilliliyi dedikdə, onun sistemləşdirilmiş biliklərə, zehni və əməli fəaliyyət yollarına yiyələnməsi səviyyəsi və onun göstəricisi başa düşülür. Biliyi və bacarığı olan hər kəs heç də təhsilli adam sayılmır. Təhsilli adam həm də müstəqil düşünmə bacarığına, mənəvi keyfiyyətlərə, mədəniyyətə və dünyagörüşünə yiyələnməlidir.

Təhsillə tərbiyə bir-biri ilə sıx bağlıdır: insanı yetişdirərkən təkcə bilik bacarıqlar aşılamaqla kifayətlənməməli, onda həyatda lazım olan zehni, sosial-mənəvi kefiyyətlər formalaşdırılmalıdır. Təhsilin sosiallaşdırıcı təsiri bununla bağlıdır.

Şəxsiyyətin sosiallaşmasının mühüm bir istiqaməti təhsilin humanistlışdirilməsi ilə bağlıdır. Humanizm – insanlara yüksək dəyər kimi yanaşmaqda, onların azadlıqlarına hörmətdə ifadə olunur. İnsana humanist münasibət, umumi məqsədlər naminə qarşılıqlı kömək və əməkdaşlıq, ictimai həyatın əsası və hər kəsin fərdi inkişafının başlıca şərtini təşkil edir.

Təhsilin bəlkə də ən vacib funksiyası sosiallaşmadır. Uşaqların cəmiyyətdə aktiv fəaliyyət göstərmək üçün lazım olan normaları, dəyərləri və bacarıqları öyrənməlidirlərsə, onda təhsil belə öyrənmə üçün əsas vasitədir.

YUNESKO təhsilin əsas məqsədlərini aşağıdakı kimi qəbul etmişdir.

1***. Birlikdə yaşamağı öyrətmək:*** Bu, xüsusilə, digər insanlar ilə qarşılıqlı əlaqələr qurmaq üçün şəxsiyyətdə lazım olan bacarıq və qabiliyyətlərin təhsil vasitəsi ilə gücləndirilməsi deməkdir.

2***. Bilik əldə etməyi öyrətmək*:** Bu, o deməkdir ki, təhsil şəxsiyyətin bilik üzrə vasitələr əldə etməsinə kömək etməlidir:

3. ***İşləməyi öyrətmək*:** Təhsil şəxsiyyətə müxtəlif həyat situasiyalarında sosial və iş əlaqələrində fəaliyyət göstərməklə, yerli və qlobal bazarlarda iştirak etməklə, texnoloji vasitələrdən

istifadə etməklə və əsas ehtiyacları qarşılamaqla bağlı ətraflı qərarlar qəbul etməyə imkan verən peşə bacarıqlarını və sosial və psixoloji səriştəni əldə etməyə kömək etməlidir.

4. ***Şəxsi həyat qurmağı öyrətmək*:** Təhsil şəxsiyyətin inkişafına və insanların daha geniş müstəqil, ədalətli, tənqidi düşüncə və şəxsi məsuliyyət hissi ilə hərəkət edə bilməsinə yardımçı olmalıdır. O, potensialın bütün aspektlərini inkişaf etdirmək məqsədi daşımalıdır: bunlara yaddaş, düşüncə, estetik hisslər, mənəvi dəyərlər, fiziki imkanlar və ünsiyyət bacarıqları daxildir; sağlam həyat tərzi, idman və istirahətdən faydalanma, öz mədəniyyətini qiymətləndirmə, etik və mənəvi koda malik olmaq, öz adından danışmaq və özünü müdafiə etmək bacarığı; dözümlülük.

Təhsil, inkişafa, həmçinin sosial və iqtisadi uğurlara nail olmaq üçün fərdlərin və icmaların imkanları və potensialına əsaslı təsir göstərir. Təhsil inkişafın, eləcə də insanların gücləndirilməsi üçün lazım olan əsas faktorlardan biridir. Təhsil insanları bilik və məlumatlarla təmin edir, həmçinin özünəhörmət və özünəinam hissi yaratmağa və potensialı reallaşdırmağa kömək edir.

## ELMDƏ İNSAN POTENSİALININ TƏŞƏKKÜLÜ

**Talıbova Bənövşə Əlmusa qızı**
**Sumqayıt Dövlət Universiteti**
*benovshe1717@yahoo.com*

Şəxsiyyətin fərdi potensialı anlayışı alimlər tərəfindən müxtəlif aspektlərdə araşdırılmışdır. Hal-hazırda müxtəlif şərhlərə malik olan fərdi potensial anlayışı üzərində araşdırmalar və yeni teoremlərin analiz prosesi davam etməkdədir. Hər bir fərdin həyatı müxtəlif maneələr, çətinliklər və sınaqlarla əhatə olunmuşdur. Fərdin özlüyündə baş qaldıran və zaman-zaman onun fəaliyyətinə maneə törədən sosial fobiyalarını aradan qaldıraraq, bu problemlərin həllinə çatması həmin insanın imkanlarını, yəni öz fərdi potensialını ortaya qoyur.

Fəlsəfi nöqteyi-nəzərdən potensial hər bir fərdin daxilində olan pozitiv enerjidir. Onun fəaliyyət və inkişaf istiqaməti insanın özündən asılı baş verən və dəyişən bir prosesdir. Əksər hallarda, insan öz potensialını tamamilə dərk edə bilmir, belə ki, öz imkanları və bacarıqlarından belə xəbərdar olmur. Bu səbəbdən də insan müxtəlif şəraitlərdə öz fərdi potensialından istifadə edə bilmir.

Müxtəlif elm adamları tərəfindən fərdi potensial ilə bağlı bir çox araşdırmalar, tədqiqatlar aparılmışdır. Təbii olaraq, biri digəri ilə əlaqədar olan və ya olmayan saysız nəticələr yeni məlumat olaraq elmə daxil edilmişdir. Görkəmli sovet psixoloqu Lev Semyonoviç Viqotskinin də bu sahədə bir sıra fikirləri hallanmışdır. Viqotski 17 noyabr 1896-ci ildə anadan olmuşdur. Onun fəaliyyət sahəsini şəxsiyyət, onun inkişafına olan müxtəlif təsirlər, psixika, inkişaf və təlim arasındakı qarşılıqlı əlaqə və s. əhatə etmişdir. Şəxsiyyətə dair fikirlərində Viqotski fərdi potensial anlayışını ayrılmaz psixi funksiya kimi qeyd edirdi. O fərdi potensialın, özünün proksimal və faktiki inkişaf zonaları konsepsiyasının prizmasından nəzərdən keçirilməsinin aktual olduğunu bildirirdi. Zonanın proksimal inkişafı nüfuzlu psixoloq Lev Viqotskinin yaratdığı bir konsept olmuşdur. Proksimal inkişaf zonası sosial təlim prosesinin mühüm komponenti olub, insanın fərdi köməklə çıxış edə biləcəyi bacarıqları üçündür.

Bundan başqa Vasili Vasilyeviç Sokolovun fikrincə şəxsi potensialın strukturunda müxtəlif potensialların ayrı-ayrı növləri seçilir. Sovet və rus filosofu olan V.V.Sokolov 15 avqust 1919-cu ildə anadan olmuşdur. Onun fəaliyyət sahəsi əsasən fəlsəfəni əhatə etmişdir. O, fərdi potensialın elementlərini peşəkar potensial, iş qabiliyyəti, təhsil potensialı, yaradıcı potensial və mənəvi potensial kimi qeyd edirdi. Belə ki, Sokolovun fikrinə görə insan öz fərdi potensialından məntiqli şəkildə istifadə edərsə, cəmiyyət üçün dəyişməzliyi təmin etməyə nail olacaqdır.

Sokolovun fərdi potensialın elementlərindən biri kimi qeyd etdiyi yaradıcı potensial anlayışını ətraflı olaraq araşdırdıqda, sovet və rus alimi, psixologiya elmləri doktoru, profes-

sor Anatoli Alekseyeviç Derkaçın fikirləri nəzərə çarpır. Onun fəaliyyəti pedaqogika və psixologiya ətafında olmuş və bu sahədə bir çox nailiyyətlərə imza atmışdır. Potensial anlayış ilə əlaqədar araşdırmalarının nəticələrini və öz baxış bucağını, fikirlərini "Peşəkar potensial" və "İnsan kapitalı" mövzu adları altında ifadə etmişdir. 1994-cü ildə Rusiya Prezidentinin Fərmanı ilə Rusiya Federasiyasının əməkdar elm xadimi fəxri adına layiq görülmüş Anatoli Alekseyeviç Derkaçın fikrincə, yaradıcı potensialın inkişafı çox vaxt insanın ruhunda və dünyada baş verən prosesləri, hadisələri əks etdirmək qabiliyyətinin inkişafından asılıdır. Fərdi potensial insanın daxili inkişafı üçün yaranan ehtiyaclarının qarşılanmasını, o cümlədən özünü inkişaf etdirməsini təmin edir.

Şəxsi potensial, bunlarla yanaşı, ilk növbədə insanın daxili imkanlarını inkişaf etdirmək bacarığını ifadə edir. Şəxsiyyətin potensialı dedikdə ətraf mühitlə səmərəli əlaqə qurmaq, məhsuldar olmaq, effektiv təsir göstərmək, uğurla böyümək və inkişaf etmək bacarığı anlaşılır.

Bunlardan başqa, fərdi potensial anlayışı ilə bağlı olaraq, rus psixoloqu Dmitri Alekseyeviç Leontyevin də elmə əlavə edilmiş maraqlı fikirləri olmuşdur. Dmitri Alekseyeviç Leontyev 28 iyul 1960-cı ildə Moskvada anadan olmuşdur. Onun fikrincə, "fərdi potensial insanın şəxsi yetkinlik səviyyəsinin ayrılmaz xüsusiyyətidir". Leontyev bildirmişdir ki, insanın şəxsi potensialından istifadə etməsi üçün atdığı hər bir addım onun öz müqəddəratını təyin etməsidir. Onun nəzərində, fərdi potensial insanın çətin vəziyyətləri həll etmək qabiliyyətini müəyyən edir.

Psixologiya elmləri doktoru, professor Anatoli Gennadieviç Maklakovfərdi potensial anlayışına baxdıqda bildirmişdir ki, o insanın mövcud vəziyyətə adaptasiya olunması bacarığını göstərir. Fərdi adaptasiya potensialı insanın müəyyən dəyişkənliyə uyğunlaşmasına, onun motivasiyasına və sağlamlığının qorunmasına təsir edən daxili xüsusiyyətləridir.

Bəzi elm adamları müxtəlif dövrlərdə və tamamilə fərqli kontekstlərdə fərdin potensialını müəyyən etməyə çalışmışlar. Bu elm adamlarından biri sovet psixoloq və pedaqoqu Aleksey Nikolayeviç Leontyev olmuşdur. A.N.Leontyev 5 (18) fevral 1903-cü ildə Moskva şəhərində doğulmuş, Sovet psixologiya elminin inkişafında əvəzsiz rola sahib olmuşdur. Ümumilikdə baxdıqda "şəxsi potensial" anlayışı intellektual inkişaf, yaradıcı potensial, daxili aləmin dərinliyi və məzmunu ilə birbaşa əlaqəli deyil.

Qeyd olunan bütün fikirlər birbaşa fərdi potensialla əlaqədar olsa da, onun yalnız bəzi hüdudlarını göstərir. Bu zaman M.K.Mamardaşvili (1930-1990, professor və fəlsəfə elmləri doktoru) tərəfindən irəli sürülmüş başqa bir anlayışı - səy anlayışına nəzər sala bilərik. "Səy" konsepsiyanın mahiyyətinə baxdıqda düzgün insan həyat tərzi kimi xarakterizə etmək olar. Real həyatda bir cinayət hadisəsini təhlil edərkən biz insanı hüquqazidd əmələ təşviq edən bir səbəblər, meyarlar, ünsürlər və s. müəyyən edə bilərik. Digər tərəfdən isə bir insan xeyirxahlıq edən zaman onun bu işi hansı məqsədlərə dayanaraq etdiyini təyin etmək mümkün olmur. Xeyir əməllər səbəb-nəticə əlaqəsi ilə səciyyələnmir, bu insan səyi nəticəsində baş verir. Ehtimal ki, insan cəhdləri L.S.Vıqotskinin təsvir etdiyi inkişaf edən fəaliyyət, tənzimləmə, azadlıq və məsuliyyət mexanizmləri vasitəsilə aşkar edilir

İnsanda şəxsiyyət haqqında irəli sürülmüş iddialara əsasən, müəyyən nəzəri və eksperimental tədqiqatların keçirilməsində bir sıra çətinliklər meydana çıxır.

- Emosional faktura problemi və fərdi potensialın diaqnozu diqqət çəkir.
- Fərdi potensialın formalaşması prosesi və onun formalaşmasına müəyyən şərait yaradan və ya əksinə, mane olan ünsürlər ayırd edilir. E.Desi və R.Rayanın daxili avtonom motivasiyası istiqamətində, xüsusilə, mükəmməl şəkildə göstərilmişdir ki, sanki insan tərəfindən əks qarşılıqlı informasiya formasında alınan məlumatlar müxtəlif səviyyələrdə bu və ya digər motivləşdirilmiş cisimlərin və orientasiyaların səbəblərinin formalaşmasına yardım edir. Hər hansı bir məlumat insanın daxili motivasiyasını qaldırıb, onun öz səyi, cəhdi nəticəsində uğur qazana biləcəyinə inam yaradırsa, digər məlumatlar onun əksini təmin edir.
- Real davranış nəhayətində nəticələrin əksəriyyətinə cavabdehlik edən və əsas müstəqil dəyişən olan şəxsi potensialın işlənməsi sayılır. Nümunə olaraq, yüksək əxlaqi əqidələri

olan və bu inancları eyni şəkildə təbliğ edən iki şəxsi təslim etməyə icazə verilir. Lakin gözlənilməyən şərait yarandığı zaman şəxslərin hər birində fərdi potensial eyni səviyyədə olmadığından onların qarşılıq reaksiyaları da mütənasib olaraq müxtəlif olacaqdır. Yaranan bu vəziyyəti sovet filosofu M.K.Mamardaşvili analiz edərək, mənəvi dəyərlərin və inancların formalaşmış şəxsi strukturlara əsaslanmaması nəticəsində, onların real seçimdə təcəssüm olunmadığını sübut etdi. Yüksək mənəvi bir hərəkət üçün yalnız inanclar kifayət deyil, bunun üçün xüsusi yüksək mənəvi "əzələlər" də tələb olunacaqdır. Buna görə də, mexaniki şüursuz hərəkətlərdən daha çox davranış və bioqrafik dəyişənlərdən istifadə etmək daha məsləhətlidir, çünki bəzi meyllərin olması onların real həyatda təzahürünə zəmanət vermir.

## MUSİQİÇİ PEDAQOQUN PEŞƏKAR HAZIRLIĞI

**Abdullayeva Leyla Şahin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*abdullayeva2001.la@gmail.com*

***Açar sözlər:*** *peşəkarlıq, səriştəlilik, emosional, təfəkkür, dünyagörüşü, vətənpərvərlik, estetik hisslər və insani münasibətlər*

***Ключевые слова:*** *профессионализм, компетентность, эмоöии, мышление, мировоззрение, патриотизм, эстетические чувства и человеческие отношения*

***Key words:*** *professionalism, competence, emotional, thinking, worldview, patriotism, aesthetic feelings and human relations*

**Xülasə**

Musiqi həm duyğuları, emosiyaları, insani hissləri tərənnüm etmək üçün mühüm vasitədir, həm də dinləyicinin təfəkküründə həmin hissləri canlandırmaq, ifadələşdirmək üçün mühüm əhəmiyyətə malikdir. Musiqinin ən güclü cəhəti bədii hissin, əhval-ruhiyyənin ifadəsidir. Eyni zamanda musiqi vətənpərvərlik, insanların bir-abirinə münasibətdə nəzakətliliyi, böyük və kiçik münasibətlərini formalaşdırmağa kömək edir.

Fərdin bir musiqici pedaqoq kimi yetişməsi öyrədən və öyrənən, tərbiyəçi və tərbiyə olunan arasında baş verir.

## ПРОФЕССИОНАЛЬНАЯ ПОДГОТОВКА УЧИТЕЛЯ МУЗЫКИ

**Резюме**

Музыка является важным средством для воспевания чувств, эмоöий, человеческих переживаний, а также для оживления и выражения этих чувств в сознании слушателя. Самая сильная сторона музыки — это выражение художественного чувства и настроения. В то же время музыка помогает формировать патриотизм, вежливость друг к другу, большие и маленькие отношения.

Развитие личности как музыкального педагога происходит между учителем и учеником, воспитателем и воспитанником.

## PROFESSIONAL TRAINING OF MUSIC TEACHER

**Summary**

Music is an important tool for singing feelings, emotions, human feelings, as well as for reviving and expressing those feelings in the mind of the listener. The strongest aspect of music is the expression of artistic feeling and mood. At the same time, music helps to form patriotism, courtesy of people, big and small relationships.

The development of an individual as a music educator takes place between the teacher and the learner, the educator and the trainee.

Respublikamızda aparılan təhsil islahatları həm pedaqoji innovasiyalara geniş yol açmaq, həm Avropa təhsil sisteminə uyğun yeniliklər aparmağa, həm də yenilikləri tətbiq etməyi zəruri edir. Dünyanın hər yerində baş verən pedaqoji yenilikləri mənimsəmək, onlardan istifadə etmək, həmçinin yeniliklər yaratmaq pedaqoji fəaliyyətin aktual problemi olaraq təhsilimizin qarşısında durur. Müəllimlərin peşəkarlıq və səriştəlilik səviyələrinin artırılması da məhz bu zərurətlərdən irəli gəlir. Dünya təhsil sisteminin mövcud pedaqoji yeniliklərin öyrənilməsi, tətbiq edilməsi və həmçinin peşəkar pedaqoqlar və müəllimlər tərəfindən yeniliklərin yaradılması və tətbiq edilməsində müəllimlərin yaradıcı pedaqoji təfəkkür tələb etdiyindən onların səriştəlilik və peşəkarlıq səviyyəsinin artırılması mühüm əhəmiyyətə malikdir. [2. s. 14]

Peşəkarlıq və səriştəlilik müəllim üçün ən vacib amillər içərisində ilk növbədə durur. Bu iki keyfiyyət pedaqoji fəaliyyətin ən mühüm cəhətlərini özündə birləşdirir. Pedaqoji prosesin tamlığını, şəxsiyyətyönümlülüyünü, nəticəyönümlülüyünü təmin edir və şəxsiyyətin inkişaf etməsinə mühüm təsir göstərir. Gənc nəslin zəngin biliyə, dünyagörüşünə malik bir şəxsiyhət kimi formalaşmasına səbəb olur.

Müəllimin peşəkarlığı və səriştəliliyi əslində müəllimin pedaqoji prosesdə öz fəaliyyətini peşəkarca yerinə yetirməsi və səriştəli yanaşmasıdır. Peşəkarlıq və səriştəlilik bir-biri ilə sıx bağlıdır. Belə ki, bunlardan birinə malik olub digərinə yiyələnməmək mümkün deyildir. Peşəkarlıq – müəllimin lazımi biliyə, bacarığa, təhsilalanla yaradıcı şəkildə işləyə bilmək bacarığına malik olmasıdır. Səriştəlilik – müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli və rahat yollarla reallaşdıra bilməsidir. [2, s. 17-18]

Müəllimin pedaqoji fəaliyyəti onun şəxsi keyfiyyətlərindən ayrılmazdır. Belə ki, başqa peşə sahələrindən fərqli olaraq müəllimin şəxsiyyəti pedaqoji fəaliyyətə çox təsir göstərir. Müəllim ilk olaraq təhsilalanı öz şəxsiyyəti ilə tərbiyə edir və buna görə də müəllim əsl mənada şəxsiyyət olmalı və ən üstün şəxsiyyət səviyyəsinə yüksəlməlidir. Müəllimin şəxsi keyfiyyətləri çoxdur:

1. Müəllimin vətəndaşlıq keyfiyyətləri – buraya müəllimin vətəndaşlıq yetkinliyi, yüksək ziyalılığı, elmi dünyagörüşü, pedaqoji mərifəti və s. daxildir. Müəllim yüksək əqidəyə, vətənpərvərlik hissinə malik olmalıdır və gəncləridə bu ruhda yetişdirməlidir.

2. Müəllimin peşə keyfiyyətləri—buraya müəllimin dərin hafizəyə malik olması, metodik ustalığı, təlim-tərbiyə işini yüksək səviyyədə həyata keçirtmək qabiliyyəti, məsuliyyət və s. keyfiyyətlər daxildir. Bunlardan əlavə müəllimin ən başlıca keyfiyyəti öz elmini dərindən bilməsi və sevməsidir.

3. Müəllimin şəxsi-mənəvi keyfiyyətləri—buraya pedaqoji etika, sadəlik, vicdanlılıq, ədalətlilik, xeyirxahlıq və s. keyfiyyətlər daxildir.

4. Müəllimin iradi-emosional keyfiyyətləri— müəllim iradəli, səbrli, təmkinli olmalı, öz hissi-emosional halını idarə etməyi bacarmalıdır.[3. s. 42-44]

Müəllim təkcə bilik ötürməklə, hazır resepti yazıb tələbənin yaddaşında saxlaması ilə kifayətlənməməli, eyni zamanda tələbələrə düşünməyi öyrənməsi maqsədilə bağlı bilik də aşılamalıdır. Elə situasiyalar vardır ki, həmin an konkret bilik və hazır düstur işə yaramayacaq. Bu zaman situasiyanın təsiri altında tələbə həmin anda ən doğru qərarı vermək bacarığı olmalıdır.

Ali məktəb müəllimləri gənc nəsli təlim-tərbiyə edən məsuliyyətli və şərəfli bir peşəni yerinə yetirən pedaqoqlardır. Pedaqoji fəaliyyətdə müəllim əgər ünsiyyətin yaradılması mexanizminə yiyələnməyi bacarıbsa, onda həmin müəllim tələbələrdə təlim-tərbiyə prosesinin səmərəliliyini artırmağa nail ola biləcəkdir. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti formalaşır.

Ali məktəb auditoriyalarının kürsüsündə mühazirə oxuyan müəllimlər tədris etdiyi fənnin ali səviyyədə mənimsənilməsinə bilavasitə məsuldur. Belə müəllimlər öz ixtisaslarını mükəmməl bilməklə yanaşı, onun mənimsədilməsini də peşə qabiliyyətinə çevirməyi bacarmalıdırlar. Çünki cəmiyyətimizin gələcəyi ali məktəblərdə dərs deyən müəllimlərin pedaqoji ustalığının nəticəsindən asılıdır.

Yüksək ixtisaslı, peşəkar və səriştəli kadr hazırlığında tələbələrin pedaqoji təcrübələri çox mühüm əhəmiyyət kəsb edir. Tələbələr məhz burada pedaqoji peşənin praktik sahələrinə daxil olurlar. Onlar həm biliklərini təcrübədə tətbiq etməyi həm də yüksək ixtisaslı, peşəkar müəllim peşəsinin məzmun və mahiyyətinin nələrdən ibarət olduğunu daha yaxından öyrənirlər.

Pedaqoji təcrübə əsl təcrübə məktəbi kimi təşkil edildikdə gənc təhsilalanlar bu prosesdə yüksək müvəffəqiyyətlə iştirak edir və pedaqoji peşə biliklərini daha da inkişaf etdirirlər.

Qabaqcıl pedaqoji təcrübə çevik struktura malikdir. Bir neçə illər öncə mövcud olan qabaqcıl sayılan təcrübə bu gün aktual olmaya bilər. Yeni pedaqoji təfəkkürün meydana gəlməsi, təhsildə aparılan islahatlar, yeni təhsil texnologiyalarının tətbiqi qabaqcıl təcrübənin ünvanının tez-tez dəyişməsinə səbəb olduğu kimi onun məzmun və mahiyyətinin də dəyişməsinə səbəb olur. [2, s.148-149]

Gənclərin təlim-tərbiyəsində musiqi çox mühüm rol oynayır. Belə ki, musiqi həm duyğuları, emosiyaları, insani hissləri tərənnüm etmək üçün mühüm vasitədir, həm də dinləyicinin təfəkküründə həmin hissləri canlandırmaq, ifadələşdirmək üçün mühüm əhəmiyyətə malikdir. Musiqinin ən güclü cəhəti bədii hissin, əhval-ruhiyyənin ifadəsidir. Eyni zamanda musiqi vətənpərvərlik, insani keyfiyyətləri, estetik hissləri formalaşdırır.

Musiqi təlimində gənclərin bir pedaqoq kimi yetişməsinin, ictimai fəallığa cəlb olunmasının da özünəməxsus xüsusiyyətləri vardır.

Musiqi dərslərində gənclərin diqqətli olmalarına şərait yaratmaq musiqici pedaqoqun mühüm vəzifəsidir. Musiqi gənclərin şüuruna daxil ola bilmək, onun fəaliyyətinin xarakter və xüsusiyyətlərinə təsir etmək imkanına malikdir. [1, s. 18-20]

Musiqiçi pedaqoqların əsas məqsədi tələbələrdə musiqiyə sevgi yaradaraq, onları not, səs, temp, instrument və ritm daxil olmaqla musiqinin bütün yönləri haqqında dərs tədris edə biləcək səviyyədə ixtisaslı kadr olaraq yetişdirməkdir. Musiqi müəllimləri təhsil müəssisələrində və ya fərdi şəkildə çalışaraq gənclərin yaş qrupları və malik olduqları istedadları nəzərə olaraq, onların uyğun musiqi bilik və bacarıqlarına yiyələnmələrini təmin edirlər.

Musiqini tədris etmək heç də asan deyil. Musiqini ürəklə hiss etmək lazımdır. Əvvəlcə musiqiçi gənclərdə musiqiyə məhəbbət aşılamalı, sonra isə onu peşəkarlıqla öyrətməlidir. Musiqi müəlliminin peşə yönümü üzrə hazırlığına, professional çalğısına, nəzəri və praktik hazırlığına metodiki priyom və üsullardan istifadə tanınmış pedaqoqların təcrübələrindən dərs zamanı yeri gəldikcə istifadə üsullarını açıqlayır.

Musiqi tərbiyəsi, təlimi və təhsili əvvəlcədən hazırlanmış plan əsasında həyata keçirilir. Yəni musiqiçi pedaqoq dərs planını əvvəlcədən tərtib etməli, proqramda verilmiş və ya bilavasitə musiqi müəllimləri tərəfindən seçilmiş musiqi əsərləri gənclərin yaş xüsusiyyətlərinə, onların səviyyələrinə, maraq dairələrinə, psixoloji xarakterlərinə və qavrama qabiliyyətlərinə uyğun olduğunu müəyyənləşdirdikdən sonra iş planına daxil etməlidirlər.

**Ədəbiyyat:**


1. Məmmədova İ.A. Musiqi pedaqogikası. — Bakı- ABU-2009, 214 s.
2. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı:Elm və təhsil, - 2018, 208 s.

3. İsmixanov M., Bəxtiyarova R. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Pedaqogika kafedrası. Ali məktəb pedaqogikası. Bakı-2010, 131 s.

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN TƏLİM PROSESİNİN TƏŞKİLİNDƏ ƏNƏNƏVİ VƏ İNNOVATİV YANAŞMA

**Yunuszadə Aygün Rahim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aygun.yunuszade@gmail.com*

Tezis şagirdlərin akademik nailiyyətlərinə təsir edən həm ətraf mühit, həm də şəxsi amilləri müəyyən etməyə həsr edilmişdir. Təhsil psixologiyasında tədqiqatın iki mühüm istiqaməti məktəb iqliminin və təhsil sisteminin xüsusiyyətlərinin, daxili motivasiya, əzmkarlıq və akademik effektivlik kimi proseslərinin öyrənilməsidir. Tədqiqatlar müəyyən edir ki, həm məktəb iqlimi, həm də şagird motivasiyası davamlı olaraq akademik nailiyyətlərlə əlaqələndirilir. Bununla belə, cari tədqiqatlar məktəb mühitinin və innovativ təhsil sistemlərinin akademik nailiyyətlərə necə təsir etdiyinə dair dəyərli fikirlər təqdim etsə də, psixoloji nəzəriyyələrə əsaslanan innovativ təhsil sistemlərini akademik nailiyyətlərlə əlaqələndirən mexanizmlər və xüsusən də bu prosesdə motivasiyanın vasitəçi rolu haqqında az şey məlumdur. Bu tədqiqat öyrənmə mühiti (təhsil sistemi və məktəb iqlimi) və akademik nailiyyətlər arasında əlaqədə müxtəlif motivasiya növlərinin (məsələn, daxili motivasiya və müəyyən edilmiş xarici motivasiya) rolunu araşdırmaq üçün öz müqəddəratını təyinetmə nəzəriyyəsini tətbiq edir.

Təhsil ömür boyu davam edən bir prosesdir. Təhsilin məqsədi təhsil prosesinə istiqamət verməkdir. Təhsilin müxtəlif məqsədləri var, məsələn, sosial məqsəd, peşə məqsədi, mədəni məqsəd, mənəvi məqsəd, intellektual məqsəd və s.

Motivasiya davranışın altında yatan səbəblərləmüəyyən edilir; motivasiya təkcə kəmiyyətə görə deyil, həm də keyfiyyətə görə fərqlənir. Təhsilə tətbiq edilən bu üsul, şagirdlərin öyrənmə fəaliyyəti ilə məşğul olmasının səbəblərinə aiddir. Daxili motivasiya və xarici motivasiyanın müxtəlif növləri fərqləndirilir, yəni davranışın məndən, eqodan nə dərəcədə qaynaqlandığını rahat görə bilərik. Daxili motivasiya, optimal problemlərin mənimsənilməsindən əldə edilən maraq və ya həzz üçün, öz xatirinə fəaliyyətlə məşğul olmağa aiddir. Bunun əksinə olaraq, xarici motivasiya mükafat almaq, cəzalardan qaçmaq, özünə dəyər vermək və ya şəxsi məqsədlərə çatmaq kimi səbəblərə görə hər hansısa bir fəaliyyətlə məşğul olmaq deməkdir.

Motivasiyanın prosesinin məmnunluğu təmin edə bilən bir hərəkəti tamamladığı qeyd edilir. Təlim müəllimdən yaradıcı olmağı tələb edir və hər bir müəllim də şagirdləri həvəsləndirmək üçün istifadə edə biləcəyi üsullar araşdırıb tapmalıdır. Bir neçəsini nümunə kimi göstərək: aydın və başa düşülən hədəflər qoymaq, əvvəlcədən şagirdləri mövzu ilə tanış etmək, mövzunun məqsəd və vəzifələrini səlis dil ilə izah etmək. Bundan əlavə, pedaqoqlar müəllimlərin real performans hədəfləri təyin etmələrini və şagirdləri öz ağlabatan hədəflərini təyin etmələrinə təşviq edərək onlara uğura nail olmalarına inandırmalıdırlar. Qeyd olunur ki, müəllimlər sinifdəki şagirdlərin təcrübəsi, marağı və öyrənmə qabiliyyətlərini nəzərə alaraq tapşırıqların asan və ya ağır olmasını müəyyənləşdirə bilərlər. Müəllimlər, öyrənmə prosesində təhsil alanlara ötürülən məlumatları necə mənimsəmələri və real həyata necə tətbiq etməli olduqlarını başa düşmələrini təmin etməlidirlər. Bu müvəffəqiyyəti təmin etmək üçün bəzi üsullara aşağıdakılar daxildir: dərsin məqsədini bildirmək; sadə və aydın izahatlar vermək; şagirdlərdən şərhlərini, suallarını və fikirlərini bildirmələrini xahiş etmək; mümkün qədər tez-tez praktik fəaliyyət və tapşırıqlar tətbiqetmə və qiymətləndirmədə obyektiv olmaq. Əgər şagirdlər dərsin məqsədlərindən və qoyulan hədəflərdən xəbərdar deyilsə, şagirdlərin öyrənməyə marağı az və ya heç olmaya bilər.

Bir müəllim şagirdlərin dərsi bilməsinə ehtiyacı olduğunu göstərməlidir. Şagirdlərin dərslərin əhəmiyyətini bildiyini düşünürüksə, yanılırıq. Dərsin faydalarını şagirdlərin ehtiyac-

larında misallarla göstərmək daha məqsədəuyğun olar. İş və bilik funksional və öyrənənlər üçün sərfəli olmalıdır. Müəllimlər gündəlik həyat situasiyalarından və vəziyyətlərdən istifadə edən real həyat və məktəb fənləri, tapşırıqları və təcrübələr arasındakı əlaqələri vurğulamalı və lazım gələrsə məktəb biliklərini öz həyatından uygun misallar istifadə edərək göstərməlidirlər. Şagirdlərin real həyatı üçün mənalı olan tapşırıqlar onları daha çox həvəsləndirəcək. Şagirdlərin marağını və dərsə, biliyə olan həvəsini artırmaq müəllimin öhdəliyindədir. Müəllim nə qədər bir mövzuya həvəsli olduğunu göstərərsə, şagirdlər mövzunun onlar üçün dəyərli olduğuna inanmağa daha çox meylli olacaqlar. Yəni müəllimlərin həvəsi şagirdləri motivasiya edə bilər. Dərsi maraqlı etmək üçün giriş hissə önəmlidir. İlk beş-on dəqiqə şagirdin diqqətini toplamaq üçün sərf edilməli və bunun üçün keçiriləcək mövzu ilə əlaqəli bəzi maraqlı faktlar deyilə, lövhəyə rəqəmlər yazıla, şagirdlərin diqqətini cəlb etmək üçün bəzi nisbi suallar verilə bilər. Dərs təqdimatında maraqlı, həvəsli, izahlı və nümunəvi olunduğu təqdirdə, effektiv tədris vasitələrindən istifadə etdikdə, yumoristik və əyləncəli mühit yarandıqda öyrətmə prosesi də effektiv olacaq.

Dərsin ilk dəqiqələrində öyrənənləri asan başa çatdıracaqları tapşırıqlar üzərində işləməyə təşviq etmək onlarda öyrənməyə həvəs yaradacaqdır. Müəllimin şagirdlərə öz təhsillərinə mümkün qədər çox nəzarət etməsi lazım olduğunu bildirməsi onlarda məsuliyyət hissi formalaşdıracaq. Müəllimlər şagirdləri əllərindən gələni etməyə təşviq edərək, yüksək gözləntilər yaradaraq, şagirdlərə mümkün olduğu qədər bir seçim imkanı verərək və digər strategiyalar arasında daha yüksək səviyyəli düşünmə, əməkdaşlıq və şagird iştirakını özündə cəmləşdirən dərslərdən istifadə edərək motivasiyanı artıra bilər. Şagirdlərin özlərini maraqlandıran mövzularını seçməsinə icazə vermək onlarda çalışma səylərini təçviq edir. Müəllim şagirdləri öz anlayışlarını necə göstərdiklərinə daha çox nəzarət etmək üçün şagirdləri müxtəlif yollarla (testlər, sənədlər, layihələr və təqdimatlar) qiymətləndirməlidir.

Aşağıda şagirdlərə necə və hansı yollarla yanaşıldığı halda akademik motivasiyanı yüksəldə biləcəyimizin yolları izah edilməyə çalışılıb:

∗Tənqiddə şagirdləri azad olmağa təşviq etmək.

Öyrənmə və təhsilalma prosesinin həyatımız boyu bizimlə davam etdiyini və heç da asan olmadığını, zəhmət çəkməli olduğumuzu bilirik və bunu təlim keçdiyimiz şagirdlərə də aşılamağımız lazımdır. Müəllim şagirdlərin öyrənmədəki mahiyyətlərini anlamağa çalışmalı və daha sonra onları həvəsləndirici və ruhlandırıcı şəkildə qiymətləndirməli və tənqid etməlidir. Təlim prosesində tənqidi qəbul edə bilməyən şagirdlər də vardır. Belə şagirdlər öz yaşıdlarını onların lağa qoyacaqlarından qorxaraq yerində deyilən tənqiddən boyun qaçırırlar. Onlara prosesə alışmaları üçün vaxt vermək və şagirdi məcbur etməmək lazımdır. Əks halda, həmin şagird təhsildən geri qalacaq, oxuma və öyrənmə həvəsini itirəcəkdir. Məktəbdəki fərdlər sosial təsdiq üçün can atırlar və müəllimin dediyi hər bir qürurverici söz onlara özlərini tapmağa kömək olacaqdır. Sinifdəki əhval-ruhiyyəni qaldırmaq üçün mənfi rəylərdən, hamının içində cəzalandırmaqdan, emosional cavablardan uzaq qaçmaq ən yaxşı seçimdir.

∗Peşəkar rol model olmaq

İbtidai sinif şagirdləri valideyndən çox müəllimi özləri üçün nümunə seçir və təqlid edirlər. Dərsə gecikən, tapşırığı bilərəkdən ləng yerinə yetirən şagirdi danlayıb cəzalandırmaqdansa, müəllim və ya təlimçi özü dəqiq olmalı, rutinlə hərəkət etməli və şagirdlər qarşı münasibətdə canayaxın olmalıdır. Öyrətmək üçün motivasiya olun və öyrənənlər öyrənmək üçün motivasiya olacaqlar. Qeyd etmək vacibdir ki, narazı tədris tərzi, zəif təlim şəraiti, səmərəsiz təlim və idarəetmə, zəif şəxsiyyət münasibətləri şagirdləri ruhdan salır.

∗Lazımi imkan və mənbələr təmin etmək

Şagirdlərə onlardan gözlənilənləri təkbaşına etmək imkanı yaradıldığını bildirmək özünəinam hissini və motivasiyanı artırır. Şagirdlərə öz maraqlarına uyğun mövzunu seçməyə fürsət təklif edildikdə, bu, onları daha məsuliyyətli edir, seçimlərinin nəticələri barədə daha çox məlumat əldə edə bilərlər. Nəticə etibarilə, şagirdlər seçim etdikdə daha çox motivasiyalı

olacaqlar. Seçim variantları müəllim/təlimçi tərəfindən şagirdlərin ehtiyaclarına, maraqlarına, hədəflərinə, qabiliyyətlərinə və mədəni mənşəyinə görə əsaslanmalıdır. Seçimlərin çox sayda və ya mürəkkəb olmaması, eyni zamanda şagirdlərin dəyərləri ilə uyğunlaşması lazımdır. Şagirdlər problemlərin həlli üçün alternativ üsulları tapmağa əmin olmalı və bundan sonra hər hansı bir problemi müsbət və mənfi cəhətləri ilə mübahisə edə biləcəklər.

Şagirdlərin motivasiyası təhsildə və sonrakı həyatda müvəffəqiyyətin vacib bir hissəsidir, lakin müəllimlər tərəfindən tez-tez nəzərə alınmır. Bu məqalə, tədris və öyrənmə müddətində motivasiya dəyişkənliyinin şagirdlərin öyrənməsi üzərində gücləndirici təsir göstərdiyini nümayiş etdirdi. Müəllimlərin keyfiyyətini və effektivliyini artırmağa yönəlmiş səylər, çox sayda şagirdin öyrənməyə həvəs göstərməməsi halında, şagirdlərin müvəffəqiyyətini yaxşılaşdırmaq ehtimalı yoxdur. Buna görə də hazırkı məqalə müəllimlərə və pedaqoqlara şagirdlərin öyrənmə motivasiyası barədə dəyərli məlumatlar verir. Motivasiya məqsədlərinin, növlərinin və ölçülərinin hər birinin öyrənməyə necə təsir göstərdiyini başa düşmək müəllimləri və pedaqoqları çoxdan öyrənməkdə çətinlik çəkən şagirdlərə kömək etmək və dəstəkləmək üçün daha yaxşı bir vəziyyətə gətirəcəkdir.

## PSİXOLOJİ TRAVMANIN SƏBƏBLƏRİ

**Yusifzadə Məlahət Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*melahet.mehdiyeva96@gmail.com*

Psixoloji travmanın səbəblərini aydınlaşdıran bir sıra nəzəriyyələr mövcuddur. Onlardan birini nəzərdən keçirək. Amerikan psixoloqu C.Yalom travmatik stressin bütün problemlərinə ölüm, azadlıq, təcrid olma və mənasızlıq nöqteyi-nəzərindən yanaşmağı təklif edir.

Bunlar yaşanmışlarla bağlı təəsüratların real obyektləridir. Ölüm insanın qarşısında iki cür dayanır. Bir şəkildə insan başqalarının ölümünə şahid olur, digər halda isə öz ölümünün mümkünlüyünü düşünür. Adi həyatda insanın yaşaya bilməsi üçün psixoloji müdafiə mexanizmləri mövcuddur. Həmin psixoloji müdafiələr dərhal yaranmır. Ölüm qorxusu ilk dəfə insanda 3 yaşında yaranır. 3 yaşlı uşaq yatmaqdan qorxmağa və tez-tez valideynlərindən ölüb-ölməyəcəklərini soruşmağa başlayır. Daha sonra insanda illuziyalar bazası şəklində çıxış edən psixoloji müdafiələr əmələ gəlir. Bu illuziyaların üç növü var: öz ölümümüzlə bağlı olan illuziyalar, ədalət illuziyaları və dünyanın yaranması ilə bağlı olan illuziyalar.

Öz ölümümüzlə bağlı olan illuziyalar təqribən, “Mən bilirəm ki, bütün insanlar gec-tez öləcəklər, ancaq növbə mənə çatan zaman xilas olacam. O zamanadək ehtimal ki, ölümsüzlüklə bağlı nəsə kəşf olunacaq” şəklində olurlar.

Travmatik şərait ilə ilə ilk qarşılaşma uşağı reallıqla üz-üzə qoyur. O, ömründə ilk dəfə olaraq ölümün mümkünlüyünü qəbul etməyə məcbur olur. Əksər insanlar üçün bu kəşf dünya obrazını, rahat, təhlükəsiz formadan fəlakətli təsadüflər formasına çevirəcək qədər mühüm dərəcədə dəyişə bilər.

Posttravmatik stress vəziyyətində olan insanın ümidsizliyinin ən çıxılmaz dərinliyində depressiya başlayır. Bu, dünyada hər bir şeyin mənasız oldğu güman edilərkən əmələ gəlir. Heç kəs depressiya və ruh düşkünlüyü şəraitində yaşamaq istəməsə belə, ondan hər kəs qaça bilmir. Əksər zamanlar biz depressiyanın səbəbini başa düşə bilmirik. Bu anlarda biz yalnız pis və neqativ anlarımızı yada salırıq. İstənilən xoşagəlməz hadisə hətta ən mənasız olanı belə neqativ təfəkkür mexanizmini hərəkətə gətirir. Neqativ əhval-ruhiyyədə olarkən insanın ağlına ancaq uğursuz anlar və xoşagəlməz hadisələr gəlir. Nə qədər çalışsaq da, xoş anlarımızı xatırlaya bilmirik. İnsan elə bil neqativ təəssüratlar ilə buxovlanmış olur. Qeyd olunduğu kimi, depressiya əhvalın özünün gərəksizliyinin dərkindən irəli gəlməklə pessimizm, həvəsin azalması, hərəkətlərin ləngliyi, müxtəlif cür somatik pozuntularla xarakterizə olunur. Depressiya emosional pozuntu kimi fərqli səbəblərdən yaranır və hazırki dövrdə ondan çıxmaq nisbətən

asan olur. Əsas məsələ odur ki, özümüzdə depressiyanın olmasını anlamaqda ilişib qalmayaq, vaxtında vərdiş olunmuş həyata, mükəmməl düşüncəyə qayıda biləк.

Ədalət illuziyaları çox təsadüf edilən və eyni zamanda davamlı illuziyalardır. "Nə tökərsən aşına o da çıxar qaşığına". Başqa cür desək, uşaq valideynlərinin sözünə baxarsa, dediklərini edərsə heç bir pis hadisənin olmayacağını düşünür. Travmatik vəziyyətə düşmə dünyanın ədalət üzərində qurulması ilə bağlı illuziyaların qeyri-reallığını və yanlışlığını bütünlüklə əks etdirir. Uşaq üçün bu əsl travmadır. Çünki bu kəşf bütün cəhdləri gözdən salır. Doğurdan da əgər təhlükəsizliyimiz təmin olunmursa, o zaman yaxşı oxumağa və yaxşı insan olmağa nə gərək var?

Üçüncü ülluziyalar dünyanın yaranmasının sadəliyi ilə bağlı olan illuziyalar sayılır. İnsan dünyanın olduqca sadə olduğuna inanır. Elə bil ki, bütün dünya iki zidd hissədən ibarətdir. O, ağ və qara, qaranlıq və işıq, qurbanlar və təcavüzkarlar və s. hissələrə bölünüb. Şəxsiyyət nə qədər çox yetişirsə bir o qədər də çox razılaşmağa başlayır. Əgər insan psixoloji travma yaşayıbsa, bu halda hər şey onun bu travmanın öhdəsindən necə gəlməsindən asılıdır. İnsan öz yaşadığı hadisələrdən şəxsiyyət üçün vacib təcrübələr çıxardığı halda daha çox böyüyəcək, yetkinləşəcək və yaşından asılı olmayaraq, psixoloji cəhətdən üstün və dayanıqlı olacaq. O, həyatı və eyni zamanda ətrafdakı insanları daha yaxşı hiss edəcək və anlayacaq.

Diqqətə alınmalı digər vacib məsələ azadlıq mövzusudur. Azadlığımızı ən çox məhdudlaşdıran əslində xarici səbəblər deyil. onlar psixoloji reallıqla əlaqəli olmadıqları üçün məhdudlaşdırıcı kimi hesab oluna bilməzlər. İnsan özünü hətta həbsxanada belə azad hiss edə bilər. Buna təzad olaraq eyni zamanda insan tam sərbəst hərəkət etmə bacarıqlarına sahib olmasına baxmayaraq özünü azad və müstəqil hiss etməyə bilər. Buradan belə nəticəyə gəlmək olur ki, xarici səbəblər burda əsas rol oynamır. Ən güclü azadlığı məhdudlaşdıran günahkarlıq hissi ilə yanaşı müxtəlif borclar və öhdəçiliklərdir.

Günahkarlıq hissi isə ən faydasız hissdir. O heç kəsə demək olar ki, xeyir gətirmir. Bu hissi keçirən şəxs gələcəyə doğru aydın baxa bilmir, bəzən hətta yaşamağa belə layiq olmadığını düşünür. Bu cür yanaşma ilə də sanki keçmişdə ilişib qalır, həyatı özü üçün əziyyətə çevirir. Psixoloji travma keçirmiş insanlarda bu hiss üç şəkildə özünü göstərir.

1. Bu an günahkarlıq hissi təsəvvür edilə bilən xəyali hansısa bir qəbahətə əsasən yaranır. Misal olaraq, yaxınlarından kimisə itirmiş şəxs həmin insana münasibətini əvvəldən başlayaraq təhlil edib, analizlər apararaq onu incitmiş olduğuna dair nələrsə tapır.

2. Travmatik stress keçirmiş şəxslərdə günahkarlıq hissi hansısa bir işi etmədiyi üçün təzahür edir. Təbii olaraq, yaşanılmış hadisələr üzərindən analiz apardıqda əslində etməmiz lazım olan ancaq zamanında edə bilmədiyimiz və ya etmədiyimiz bir hərəkət hökmən tapılır. Bütün qeyd olunanlar təsəvvür olunan günahla əlaqəli olan günahkarlıq hissləridir. Ən ağır forma isə insanın günahkar olması halıdır.

3. Travmatik günahkarlıq hissinin üçüncüsü isə "sağ qalma" günahı adlanır və bu zaman insan yalnız başqalarının öldüyü, özünün isə sağ qaldığı üçün günahkarlıq hissləri keçirir. Bu cür şəxs inanılmaz şəkildə cavabdehlik hissi keçirərək, indi sanki öz aləmində həm özünün , həm də həmin adamın əvəzinə yaşamalı olduğunu düşünür.

Təcridolma travmatik psixoloji stress qurbanlarının çox yaxşı tanıdıqları hissdir. Bu tipli insanların çoxu təklikdən, tənhalıqdan, ətrafda olan insanlarla münasibət qurmağın çətinliyindən və hətta mümkünsüzlüyündən əziyyət çəkirlər. Bu şəxslərin təəsüratları o qədər az rast gəlinəndir ki, demək olar ki ətrafda olan başqa insanların omları anlamağı mümkün olmur. Bu insanların özləri də ətrafdaki insanları çox cansıxıcı, heç nəyi başa düşməyən , anlamayan insanlar kimi görürlər. Bu cür hisslərin qurbanı olan insanların bir-birinə meyl etməsi elə məhz bu səbəbdəndir. Onların fikrinə əsasən, yalnız onların başlarına gələn hadisənin eynisini və ya oxşarını yaşayan adam onları anlaya bilər.

Zərərçəkənin yalnızğı sadəcə psixoloji deyil, eyni zamanda da sosial reallqdır. Ətrafdaki insanlar bu halda olan şəxslərə fərqli münasibət göstərərək sanki onlara da keçəcəkmiş kimi

uzaq durmağa başlayırlar. Fəlakətlə, haqsızlıqla üz-üzə gələn insan eyni zamanda ətrafdakı insanların aqresiyası və fərqli münasibəti ilə qəbullanmalı olur. Bu səbəbdən də bu durumlarda yaxınlarının, doğmalarının, dostlarının kömək əllərini uzatmaları və onları anlamağa çalışmaları olduqca əhəmiyyətli və vacibdir.

Bütün bu deyilənlərdən belə qənaətə gəlirik ki, insan hər hansı bir məna tapa bildiyi hər şeyə, istərsə də çətinliyə davam gətirmək iqtidarındadır. Psixoloji travma isə fərqli xarakter daşıyaraq gözlənilməz, qəfil və eyni zamanda səbəbsiz olduğuna görə mənasız və səbəbsiz bir hal kimi qəbul edilir, ancaq bu o demək deyildir ki, ona qalib gəlmək mümkün deyildir. Qeyd olunan səbəbləri araşdıraraq, məsələyə dərin yanaşılarsa, təbii ki, bu problemi aradan qaldırmaq mümkündür.

## SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİL İMKANLARI

**Atakişiyeva Gülşən Seymur qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*a_gulsen00@mail.ru*

Sosial iş fərdlər, ailələr və qruplar üçün məna, fəaliyyət və fərq yaratmaq gücü ilə zəngin dinamik və oxşarı olmayan yardım peşəsidir. Sosial işin ilk məqsədi cəmiyyətin ümumi rifahını yaxşılaşdırmaqdır. Buraya əsasən, risk qruplarına daxil olan şəxslər aiddir. "Risk qrupları" cəmiyyətdəki problemlərdən ən çox təsirlənən şəxslərdir. Həssas qruplara əlillər, qocalar, uşaqlar, etnik azlıqlar, işsizlər, evsizlər, qaçqınlar və başqaları daxildir. Həmçinin, sağlamlıq imkanları məhdud uşaqlar da "risk qrupları"na daxildir. Sağlamlıq imkanları məhdud uşaq - yaşadığı müddətcə yaş, cins, sosial və mədəni faktorlarından asılı olaraq cəmiyyətdə oynaması lazım olan rolları səriştəsizlik səbəbindən yerinə yetirə bilməyən fərddir. Başqa sözlə desək, fərd ondan tələb olunan işi səriştəsizliyə görə müəyyən vaxtda edə bilmir.

Dünya əhalisinin təxminən 15%-i müxtəlif kateqoriyalara aid olan əngəlli şəxslərdir. Bu göstəricinin bir hissəsini sağlamlıq imkanları məhdud uşaqlar təşkil edir. Bu uşaqların böyük əksəriyyəti İEOÖ-də yaşayır. Bu uşaqlar çox zaman yaşadığı ərazilərdə həmyaşıdlarına təklif olunan əsas xidmətlərdən təcrid olunurlar. Məsələn, aşağı gəlirli ölkələrdə və İEOÖ- də sağlamlıq imkanları məhdud uşaqların təhsilalma faizi istənilən formada deyil. Sağlamlıq imkanları məhdud uşaqların təhsilinin hər bir addımı (məqsədi, prinsipi, təhsil planı, oyun, məktəb və ailə vəzifələri və s.) fərd, ailə, müəllim və cəmiyyət üçün vacibdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsilə yönləndirilməsinin bir sıra məqsələri vardır. Bunlara aşağıdakıları aid edə bilərik.

- ✓ Cəmiyyətdə öz rollarını yerinə yetirə bilən şəxsiyyətlər yetişdirmək;
- ✓ Özlərini təmin edə bilmək üçün ilkin həyat bacarıqlarını inkişaf elətdirmək;
- ✓ Mövcud istedad və qabiliyyətlərini ən faydalı şəkildə istifadə etmələrini təmin etmək;
- ✓ İstedad və ixtisaslarına uyğun olaraq ali təhsilə, biznes-peşə sahələrinə və həyata hazırlaşmaq;
- ✓ Sosial hadisələrlə maraqlanmaq, sosial mühitdə olmaqdan həzz almaq, işdə, oyunda və bütün münasibətlərdə başqaları ilə əməkdaşlıq etmək;
- ✓ Şəxslərin Konstitusiyamıza uyğun olaraq hüquqi olan icbari ibtidai təhsili başa vurmaq qabiliyyətinə uyğun olaraq inkişaf etmələrini və cəmiyyətə faydalı vətəndaş olmalarını təmin etmək;

Sağlamlıq imkanları məhdud uşaqların təhsilə yönləndirilməsinin 3 yanaşması var. Seqreqasiya (ayırma), inteqrasiya və inklüzivlik bura aiddir.

**Seqreqasiya- bu halda sağlamlıq imkanları məhdud olan uşaqlar xüsusi məktəblərdə və ya evdə təhsil alır.**

**İnkluziv təhsil- sağlamlıq imkanları məhdud olan uşaqlar bütün sistemin uşaqların ehtiyaclarını qarşılayacaq şəkildə dəyişdirildiyi normal məktəblərdə effektiv şəkildə öyrənirlər.**

**İnteqrasiya edilmiş təhsil- sağlamlıq imkanları məhdud olan uşaqlar ümumi məktəblərdə xüsusi siniflərə və ya bölmələrə gedirlər**

Seqreqasiya, inteqrasiya və inklüzivlik arasında olan fərqlilikləri nəzərə almaq vacibdir. Onların üstünlükləri və çatışmayan tərəfləri mövcuddur.

**Seqreqasiya-**buyanaşmada adi siniflərdə təhsil ala bilməyən, mürəkkəb problemləri olan uşaqlara xidmət göstərilir. Bu zaman xüsusi müəllimlər hazırlanır ki, onlar evdə təhsil prosesini həyata keçirirlər. Həmçinin, bu yanaşmada xüsusi məktəblərdə də təhsil həyata keçirilir. Bu məktəblərdə sağlamlıq imkanları məhdud uşaqlara tədris prosesinin rahat həyata keçirilməsi üçün xüsusi avadanlıqlar və resurslar mövcuddur. Bu yanaşmanın bir sıra çatışmayan tərəfləri var. Sosiallaşma imkanlarından məhrum olan uşaqlarda özünə inamın olmaması, özünə qapanma kimi pisxoloji problemlər yaradır. Davamlı təcrid olunma sağlamlıq imkanları məhdud olan uşaqlara qarşı ayrı-seçkiliyi gücləndirə bilər. Xüsusi təhsil nəqliyyat xərclərinin çox olmasını tələb edir.

**İnteqrasiya edilmiş təhsil-** Bu yanaşmanın əsas xüsusiyyəti mənfi yanaşmaların aradan qaldırılmasına şərait yaradır. Sosial inteqrasiyanı və icmalarda rolunun artmasını asanlaşdırır. Bu zaman valideyinlərin və ictimaiyyətin iştirakı bu prosesi daha da gücləndirir. Bu zaman sağlamlıq imkanları məhdud uşaqlar məktəb icmasının bir hissəsi kimi digər uşaqlar ilə sosiallaşa bilir. Bu yanaşma üçün nəqliyyat xərclərinin az olması özünü göstərir. Bəzi tədqiqatlar göstərir ki, inteqrasiya olunmuş şəraitdə olan sağlamlıq imkanları məhdud uşaqlar daha yüksək nailiyyət səviyyələrinə malikdirlər. Bu yanaşmanın da bir neçə çatışmayan tərəfləri mövcuddur. İlk olaraq qeyd edə bilərik ki, bu zaman bütün uşaqların öyrənmə ehtiyaclarını ödəyə bilmək mümkün deyildir. Məhdud resurslar bu prosesi tam həyata keçirməyə imkan vermir. Valideynlər, könüllülər və ya yaşı daha yuxarı olan uşaqlardan kömək tələb olunur.

**İnkluziv təhsil -** bu yanaşmanın həyata keçirildiyi məktəblər fərdi fərqliliklərə cavab verir. Bu səbəblə bütün uşaqlara fayda verir. Məktəblərdə bütün uşaqları bir yerdə öyrətməklə müxtəlifliyə münasibət dəyişilir.Valideyinlər üçün əlavə xərclərin olmaması sosial təminat xərclərinin və gələcək asılılığın azalmasına gətirib çıxarır. Ayrılmış şəraitdə uşaqların daha yüksək nəticə göstərməsi müşahidə olunur. Sağlamlıq imkanları məhdud uşaqlar daha az damğalanmış və sosial əhatəli olur. Ümumilikdə inkuliziv təhsil səmərəlidir. Həmçinin, yerli resurslardan və imkanlardan istifadə etməklə xərcləri minimuma endirmək olar. İnkluziv təhsilin bir sıra çatışmayan tərəfləri mövcuddur. Hansı ki, bu problemlərin aradan qaldırılması üçün addımlar atılmalıdır. Müəllimlərin bacarıqları, məktəb resursları, yüksək şagird- müəllim nisbəti təmin olunmalıdır. Sağlamlıq imkanları məhdud uşaqların iştirakını və ünsiyyətini yaxşılaşdırmaq üçün tədris vəsaitlərinin və materiallarının hazırlanması və təmin olunması əsas addımlardan biridir. Həmçinin məktəb infrastrukturunun uyğunlaşdırılması müəyyən xərclər tələb edir. Xüsusi təlim keçmiş mobil resurs müəllimlərə investisiyaların qoyulması kimi məsələlər həll edilməlidir.

Hər bir yanaşmanın özünəməxsus üstünlükləri və çatışmayan tərəfləri mövcuddur. Amma onların hər hansısa birinin tətbiq olunması sağlamlıq imkanları məhdud uşaqların təhsilə yönləndirilməsi onların yaşadıqları cəmiyyətlərdə öz mövqelərini tutmağa şərait yaradır. Uşaqların bacarıqlarının ortaya çıxarılmasına və onlarda özünə inam formalaşdırmağa əsaslı təsir edir.

## YENİYETMƏ VƏ GƏNCLƏRDƏ İNTİHAR HADİSƏLƏRİNİN BAŞ VERMƏ SƏBƏBLƏRİ

**Məmmədova Salatın Almaz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*salatin.m1999@gmail.com*

Yeniyetmələr arasında intihar hadisələrinin təhlili göstərir ki, bu yaşda intihar davranışı böyüklərdə analoji davranışla bir çox cəhəti ümumi olsa da, yaş özünəməxsusluğunu özündə daşıyır. Bu, özünəməxsusluq yeniyetmənin orqanizmində və şəxsiyyətində xas olan fizioloji və psixoloji mexanizmlərin spesifikasından irəli gəlir. Gənclərin və yeniyetmələrin aqressiv hərəkətləri son dərəcə təhlükəlidir.

Gənclər və yeniyetmələr üçün ölüm daha aydın hadisədir, lakin onlar, motosiklet sürərkən, təhlükəli maddələr ilə eksperiment apararkən, digər cəlbedici, lakin riskli fəaliyyəti ilə məşğul olarkən belə, ölüm hadisəsini inkar edirlər. Gələcəkdə yeniyetmə öz ölümü haqda düşüncəni qəbul edir, amma yaranmış həyəcanı aradan qaldıraraq, bu imkanın reallığını inkar edir. Gənclər və bir çox yeniyetmələr intihar etmənin ölümlə nəticələnəcəyini nəzərdə tutmurlar. Böyüklərdən fərqli olaraq, onlarda əsl intihar cəhdi ilə nümayişcəsinə - şantaj edən aqressiv əməl arasında dəqiq sərhədlər yoxdur. Ətrafdakıların onun ölümünə və ya “ikinci doğum” hadisəsinə necə reaksiya verməsi arzusu yeniyetmə yaşlarının intiharları üçün xarakterikdir. Yeniyetməlik dövründə ölüm haqqında təsəvvürlər bir neçə mərhələdən keçir: uşağın şüurunda ölüm haqqında təsəvvürün tamamilə olmamasından onun haqqında formal biliyə qədər və həyatdan ayrılma ritualları (matəm, dəfn və s. anlayışları) ilə tanışlıq. Yeniyetmələrdə ölümün dönməzliyi barədə təsəvvür formalaşmayıb. Ölüm qorxusunun olmaması yeniyetmə psixologiyasının fərqli bir xüsusiyyətidir. Məsuliyyətsizlik, intihar üsulları haqqında məlumatın olmaması, öz-özünə fəaliyyət formasından asılı olmayaraq, ölüm təhlükəsi yaradır.

Yeniyetmələrdə ölüm qorxusu formalaşır, lakin hələ də həyatın dəyəri haqqında şüurlu təsəvvürə əsaslanmır. Yeniyetmənin psixologiyasına xas olan ümumi qeyri-sabitlik, tənqidin çatışmazlığı, özünüqiymətləndirmə və eqosentrizmin yüksəlməsi həyat dəyərinin aşağı düşməsinə şərait yaradır ki, bu da yeniyetmənin emosionallığını neqativ şəkildə yüksəldir, münaqişəli vəziyyətdə isə intihar davranışına zəmin yaradır.

İntihar təhlükəsi olan münaqişəli vəziyyətləri təhlil edərkən, güman etmək olar ki, onlar uşaq və ya yeniyetmə üçün böyüklərə nisbətən az miqdarda çətinliklər yarada bilər. Lakin öz hərəkətlərinin əsl nəticələrini qabaqcadan görə bilməmək və yaranmış vəziyyətin nəticələrini proqnozlaşdırmaq, uşaqlıq dövrünə xas həyat təcrübəsinin olmaması və münaqişənin əlacsızlığı ümidsizlik və tənhalıq hissi yaradır. Bütün bunlar gənc üçün, xüsusilə də, yeniyetmə üçün hətta cüzi münaqişəli vəziyyətlər zamanı intihar riskini şərtləndirir.

Əgər böyüklər arasında intihar edənlərin əksəriyyətini kişilər təşkil edirsə, gənclər və yeniyetmə mühitində vəziyyət fərqlidir: qızlar arasında, təxminən, 2,5 dəfə çox potensial intihar hadisəsi qeydə alınıb, nəinki həmin yaşdakı oğlanlar arasında (3,9%-ə qarşı 1,6%). Burada məsələcinsi fərqlərdə deyil, bu,qızların yaş xüsusiyyətlərinin qabaqlayıcı inkişafından asılıdır.

Yaş faktorunun intihar sindromuna təsiri aşağıdakı göstəricilərdə kifayət qədər aydın şəkildə müşahidə edilir: 1,3% 10-11 yaşlı yeniyetmələr, 1,9% 12-13 yaş, 2,7% 14-15 yaşlılar və 4,5% 16 yaşdan 18 yaşadək olan yeniyetmələr kəskin şəkildə ölümə meyllidir.

Yeniyetmə yaşlarında intihar davranışının əsasında ailə faktorunun təsiri əhəmiyyətlidir. Araşdırmaya görə, intihara səbəb olan ata və ana faktoru “problemli” gənc və yeniyetmələrin

yalnız 21%-ində, “normal” oğlan və qız qruplarında isə bu göstərici ideal olaraq, 41% (ata üçün) və 56% (ana üçün) təşkil edir. Yeniyetmələrdə ən böyük inam ana olaraq göstərilir (bütün respondentlərin oğlan və qızların 77%-i). Ancaq yeniyetmənin intihar sindromu nə qədər güclü olsa da, o, hətta anasına, daha az isə atasına (23-29%) öz narahatlıqlarını etibar edəcək. Valideynlərlə etibarlılıq əlaqəsinin itirilməsi-yeniyetmələrdə intihar sindromunun ən güclü stimulyatorlarından biridir. İntihar düşüncələri yeniyetməni valideynlərinə daha az güvənən zaman narahat edir. Uşaqların valideynlərlə yaxşı münasibətləri intihar riskini 1%-ə qədər azaldır, əksinə, daimi mübahisələr bu riskin 18%-ə qədər artmasına gətirib çıxarır. Amma ən ağrılısı odur ki, yeniyetmələr hətta valideynlərlə münaqişələri qəbul edirlər, amma onların özlərinə qarşı laqeydliklərini qəbul etmirlər. Deməli, ətrafda olan onlarla insan – doğmalarınız, yaxınlarınız, dostlarınız və müəllimləriniz arasında kiçik bir insanın öz böyük ağrısını bölüşməsi, ruhunu yüngülləşdirməsi, rəğbət və ya faydalı məsləhət, dəstək almasının mümkün olmaması suisidal hərəkətlə nəticələnə bilir.

Gənc-yeniyetmə mərhələsinin özünəməxsusluğu ilə intihar davranışının motivasiyası və dinamikası da fərqlənir. İntihar bu yaşda və gizli depressiyada təhlükəsizdir. Yeniyetmələrin suisidial davranışının əsas motivləri bunlardır: a) 32% narazılıq b) 30% - etiraz; c) 38% - təklik, utanc, özündən narazılıq.

Yeniyetmələrin intihar problemini tədqiq edən tədqiqatçıları əksər hallarda bir sual maraqlandırır: Daha çox kim suisid edir? Yeniyetmələrdən kim "risk qrupu"na daxil olur? Yaş dövründən asılı olmayaraq insanlarda “intihar təhlükəsi” olduğunu müəyyən etmək mümkün olmasa da, aydındır ki, bəzi yeniyetmələr spesifik vəziyyətləri və onların qarşısında duran xüsusi problemlər üzündən intihar riski ilə üzləşirlər.

Yüksək intihar riski zonasında kimlərdir:

- depressiv yeniyetmələr;

-alkoqoldan və narkotik maddələrdən sui-istifadə edən, zorakılığa məruz qalan yeniyetmələr;

- intihara cəhdi edən və ya ailə üzvlərindən birinin intihar etdiyinə şahid olan yeniyetmələr;

- istedadlı və məktəbdə zəif oxuyan yeniyetmələr;

- nigahdan kənar hamilə qalan qız uşaqları;.

Ayrı-ayrılıqda götürülən bu vəziyyətlərin və ya problemlərin hər biri o demək deyil ki, onunla qarşılaşan yeniyetmə mütləq intihar riski zonasında olacaq. Ancaq bu cür problemlər, şübhəsiz ki, onun həyatını çətinləşdirəcəkdir. Heç olmasa bu vəziyyətlərdən və ya problemlərdən biri ilə rastlaşan gənc emosional, əqli və ya fiziki qüvvələrə, hər hansı digər xoşagəlməz hallara qarşı çıxa bilməz. Bu zaman intihar onun üçün yeganə məqbul çıxış yolu ola bilər. Gənc və yeniyetmə yaşlarında intihar davranışının formalaşması əksər hallarda intihar edən şəxsiyyətinin bəzi fərdi xüsusiyyətlərindən asılıdır. Suisidal hərəkətlər edən gənc və yeniyetmələrdə emosional qeyri-sabitlik, yüksək təsirlilik, impulsivlik aşkar edilmişdir.

Nəticə olaraq, yeniyetmələrdə intihara olan meyilin səbəbi kimi aşağıdakıları qeyd edək:

1.Yeniyetmələrdə ölümün mənalı bir görünüşü yoxdur. Yetkin bir insan ölümün həyatın sonu olduğunu başa düşür və yeniyetmə isə bunu başa düşmür. Onlar üçün bir növ virtual oyundur.

2. Yeniyetmələr üçün üç sahə vacibdir: ailə, məktəb, həmyaşıdları.

3. Yeniyetmələrin intihar səbəbi ilk baxışdan əhəmiyyətsiz ola bilər və bəzən də hətta təsadüfi ola bilər.

4. Yeniyetmə ona nə olduğunu, onun vəziyyəti və ya problemini təsvir və izah etmək çox çətin olur.

5. Bir yeniyetmə üçün ölməkdən daha çox olduğu reallıqda yaşamaq daha çətindir.

6. Yeniyetmənin suisidal davranışı daha çox yardım üçün bir qışqırıqdır, özünə qarşı diqqəti cəlb etməyə çağırışdır, problemlərini “böyüklər kimi” həll etməyə cəhddir.

**Ədəbiyyat**

1. Allahverdiyeva Ə.R., R.Ə.Cavadov, G.B.Tağıyeva. Uşaqların ekstremal şəraitlərə hazırlığının bəzi məsələləri / Ə.R.Allahverdiyeva, R.Ə.Cavadov, G.B.Tağıyeva // - Bakı: BDU-nun Elmi xəbərləri, - 2000, №3-4, - s. 77-81.
2. Cavadov R.Ə. Ekstremal şəraitdə psixoloji xidmət: Ali məktəblər üçün dərslik / R.Ə.Cavadov, G.B.Tağıyeva. – Bakı: ADPU, - 2006, - 260 s.
3. Павлова Е.В. Психология экстремальных ситуаций и состояний: Учебно-методическое пособие. – Благовещенск: Изд-во АмГУ, 2014. – 198 с

## ŞƏXSİYYƏTİN PEŞƏKAR İNKİŞAFINDA BÖHRANLAR

**Zamanova Günay Qılman qızı**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
*gunayzaman1999@gmail.com*

Şəxsiyyətin peşəkar inkişafı bir proses olaraq meydana çıxır. İnsanın peşəkar formalaşmasının ən mühüm meyarları onun peşəkar fəaliyyətində müstəqil olaraq şəxsi məna tapması, öz peşəkar həyatını yaratması, peşə seçimi, ixtisas və iş yeri ilə bağlı qərarları məsuliyyətlə qəbul etməsidir. Əlbəttə, bu həyati vacib problemlər insanın ömrü boyu onun qarşısında durur. Peşələr aləmində (və ya konkret peşədə) insanın yerinin daim aydınlaşdırılması, insanın ictimai və peşəkar rolunun dərk edilməsi, peşəkar işə münasibət, komandada öz yerini tapması insan həyatının mühüm komponentlərinə çevrilir. Sürətlə dəyişən sosial-iqtisadi vəziyyət peşə seçiminə və əmək bazarında davranışa yeni tələblər qoyur ki, insan həmişə bunların öhdəsindən gələ bilmir. Şəxsiyyətin peşəkar inkişaf prosesində insanlar peşələrinin onlara yük olmağa başlaması, öz peşəkar inkişafları ilə bağlı narazılıqlarla üzləşməsi, insanların peşəsindən uzaqlaşmaq istəməsi kimi hallarla üzləşə bilirlər. Böhranlar E.Erikson və başqalarının diqqət mərkəzində olmuşdur. Onlar insan həyatını dövrlərə, mərhələlərə bölərək, həyatda bir mərhələdən digərinə keçidin çətinliklərinə diqqət yetirirlər. Eyni zamanda, qadın və kişilərdə böhran hadisələrinin xüsusiyyətləri vurğulanır, böhranlara səbəb olan amillər təhlil edilir. Şəxsiyyətin peşəkar inkişafı prosesi bu mərhələlərdən ibarətdir: optasiya, peşəkar hazırlıq və təhsil, peşəkar adaptasiya, ilk və ikinci dərəcəli peşəkarlaşma və peşəkar bacarıq. Böhranlar bir mərhələdən digərinə keçid zamanı müşayiət olunur. Şəxsiyyətin peşəkar inkişafı optasiya mərhələsindən başlayır. Erkən gənclik (14-16) yaşlarında olan insanlarda peşəkar özünütəyinetmə müşahidə edilir. Bu dövrdə qız və oğlanlarda peşələr aləmi haqqında biliklər formalaşmışdır və arzuolunan peşələr haqqında təsəvvürlər mövcuddur. Bu dövrdə peşəkar məqsəddən asılı olaraq motivasiya da, inkişafın sosial situasiyası da dəyişir. Bu zaman arzuolunan gələcəklə real indiki anın toqquşması labüddür. Nəticədə təhsil-peşəkar istiqamət böhranı baş verir. X-XI siniflərdə təhsilini davam etdirən şagridlərdə bu böhran 16-17 yaşlarında özünü biruzə verir. Böhranın əsas mahiyyətini peşəkar təhsil və ya peşəkar hazırlığın əldə olunması üsullarının seçilməsi təşkil edir. Böhranın aradan qaldırılması üsulu - peşəkar təhsil müəssisəsinin və ya peşəkar hazırlığın seçilməsidir. Peşəkar hazırlıq mərhələsində tələbələrin əksəriyyətində sahib olduqları peşə ilə bağlı narahatlıq müşahidə olunur. Peşəkar seçimin düzgünlüyü ilə bağlı şübhələr yaranır, təhsilə maraq azalır. Peşəkar seçim böhranı baş verir. Bu böhran əsasən təhsilin ilk və son illərində müşahidə olunur. Böhranın aradan qaldırılma üsulları - təlim peşəkar fəaliyyətin dəyişilməsi, peşə seçiminin korreksiyasıdır. Peşəkar təhsil mərhələsi tamamlandıqdan sonra isə peşəkar adaptasiya mərhələsi başlayır. Gənc mütəxəssislər müstəqil olaraq əmək fəaliyyətinə başlayırlar. Bu zaman inkişafın peşəkar situasiyası əsaslı şəkildə

dəyişir: yeni kollektiv, istehsal sisteminin fərqli iyerarxik sistemi, yeni sosial-peşəkar dəyərlər və əsas fəaliyyətin yeni növü. Bu mərhələdə təhsil zamanı əldə olunan biliklər real surətdə tətbiq edilir. İlk zamanlar iş mühitinə uyğunlaşmada problemlər, çətinliklər ola bilir. Amma onlar böhranlı halların baş verməsi üçün əsas faktor olmur. Əsas psixoloji səbəb isə gizlənilən, təsəvvürdə canlandırılanlar ilə real peşəkar həyatın üst-üstə düşməməsidir. Bu zaman isə peşəkar ekspektasiya (gözləmə) böhranı yaranır. Bu böhranın həll olunmasının 2 yolu vardır: - konstruktiv- iş təcrübəsinin əldə olunması vasitəsilə peşəkar cəhdlərin aktivləşdirilməsi; - destruktiv - işdən azad olma, peşəkar funksiyaların keyfiyyətsiz, qeyri-məhsuldar icrası. Peşəkar ekspektasiya böhranının aradan qaldırılma yolları bunlardır: peşəkar cəhdlərin aktivləşdirilməsi, əmək motivlərinin və "Mən" konsepsiyasının korreksiyası, işdən çıxarılma, ixtisasın və peşənin dəyişdirilməsi. Növbəti böhran halı şəxsiyyətin işə başlamasından 3-5 il sonra müşahidə olunur. Bu vaxt ərzində mütəxəssis öz əmək fəaliyyətini məhsuldar şəkildə həyata keçirir. Keçmiş təcrübənin dinamikası, psixi inkişafın hərəkətsizliyi, işdə özünütəsdiq tələbatı peşəkar həyatda qeyri-məmnunluğa səbəb olur. Mütəxəssis şüurlu və ya şüursuz şəkildə gələcək peşəkar inkişafa, şöhrətə ehtiyac duyur. Nəticədə isə peşəkar inkişaf böhranı yaranır. Bu böhran zamanı işdən çıxma, peşənin dəyişdirilməsi kimi fikirlər meydana gəlir. Böhranın aradan qaldırılması üsulları – ixtisaslaşmanın təkmilləşməsi, karyera, iş yerinin fəaliyyət formasının dəyişilməsidir. Mütəxəssisin peşəkar inkişafı onun işə başlamasının ikinci ilində peşəkarlaşmaya imkan yaradır. Bu zaman mütəxəssis öz peşəkar fəaliyyətini yüksək keyfiyyətlə icra edir. Hər bir iş fəaliyyətinin həyata keçirilməsində fərdi-psixoloji xüsusiyyətlər mühim rol oynayır. Bir çox hallarda, peşəkar fəaliyyətin keyfiyyəti və məhsuldar icrası şəxsiyyətin öz peşəsini ötüb keçməsinə səbəb olur. Və beləliklə, şəxsiyyətin öz peşəsində qeyri-məmnunluq hissi güclənir, özünütəyinetmə və özünüreallaşdırma ehtiyacı yaranır. Arzuolunan kariyera ilə onun real perspektivləri arasındakı ziddiyyətlər peşəkar karyera böhranını əmələ gətirir. Bu zaman böhranın aradan qaldırılması üsullarıyeni vəzifə və ya işə keçid, yeni ixtisasın mənimsənilməsidir. Peşəkar ustalıq mərhələsində peşəkar fəaliyyətin həyata keçirilməsi yaradıcı səviyyə ilə xarakterizə olunur. Şəxsiyyətin peşəkar inkişafının növbəti faktoru kimi özünürreallaşdırma, özünüaktuallaşdırma ehtiyacı çıxış edir. Reallaşdırılmayan ehtiyaclar və ya sosial-peşəkar özünüaktuallaşdırma böhranı yaradır. Böhranın aradan qaldırılma üsulları bunlardır: fəaliyyətin həyata keçirilməsinin yüksək səviyyəsinə keçid, yüksək normativ sosial peşəkar fəaliyyət, yeni vəzifə və ya işə keçid, peşəkar vəziyyətin dəyişilməsi və s. Peşəkar inkişafın növbəti böhranlı vəziyyəti peşəkar həyatdan getmə ilə şərtlənir. Belə ki müəyyən olunmuş yaşdan sonra insanlar təqaüdə çıxırlar. Təqaüd dövrü bir çox insan üçün böhranlı xarakterə malik olur. Bu yeni sosial rol və davranışların mənimsənilməsi ilə əlaqədar olur. Bu zaman peşəkar fəaliyyətin itirilməsi böhranı yaranır. Bu böhran əmək fəaliyyətinin xarakterindən, ailə vəziyyətindən və sağlamlıqdan asılıdır. Bu zaman böhranı aradan qaldırmaq üçün həyat fəaliyyətinin yeni formalarına sosial-psixoloji hazırlıq, təqaüdçülərə sosial-iqtisadi köməyin təşkili, ümumi-faydalı fəaliyyətə daxil olma kimi üsullardan istifadə oluna bilər. Təqaüdə çıxdıqdan sonra isə sosial-psixoloji yaşlılıq əmələ gəlir. Sosial-psixoloji yaşlılıq intelektual proseslərin zəifləməsi, emosional vəziyyətin yüksəlməsi və ya aşağı düşməsi ilə müşahidə olunur. Bu dövrdə psixi fəaliyyətin sürəti zəifləyir, psixi gərginlik, mənfi emosiyalar yaranır. Nəticədə, sosial-psixoloji adekvatlıq böhranı yaranır. Böhranın aradan qaldırılma üsullarısosial-peşəkar aktivlik, fəaliyyətin yeni sosial faydalı növlərini mənimsəmə və s.-dir Belə nəticəyə gəlmək olar ki, peşəkar inkişafının məhsuldarlığı şəxsin özünütəyini ilə birbaşa əlaqədədir. Peşə böhranları şəxsin fərdi və cinsi xüsusiyyətlərindən asılı olaraq hər kəsdə müxtəlif xüsusiyyətlərdə ola bilər.

**Ədəbiyyat:**
1. Vəliyev M., Peşəseçmə psixologiyası. Bakı:Elm, 2013, – 91-100 səh
2. Эриксон Э. Идентичность: юность и кризис. М.Прогресс, Б. г., 1996, 340,[2] с.;

## UTANCAQ İNSANLARIN ŞƏXSİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ VƏ UTANCAQLIĞIN MƏNFİ NƏTİCƏLƏRİ

**Umudlu Aynur Tofiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*umudluaynur@yahoo.com*

Ünsiyyət olmadan, bildiyiniz kimi, nə cəmiyyət, nə təşkilat, nə də qrup təsəvvür edilə bilməz. F.Zimbardo qeyd edir:"Utancaqlıq çox qeyri-müəyyən bir anlayışdır. Ona nə qədər yaxından nəzər salsaq, bir o qədər çox utancaqlıq növləri ilə rastlaşırıq". [1] F.Zimbardoya görə: "Utancaqlıq ünsiyyətdən qaçmaq və ya sosial təmaslardan qaçmaq istəyi ilə əlaqəli insan xüsusiyyətidir".[2]

Oksford lüğəti "Utancaqlığı başqa insanların yanında xəcalət hissi" olaraq təyin edir.[3] "Rus dili lüğəti"ndə S.I.Ojegov, utancaqlığı "Bir insanın ünsiyyətdə, davranışda qorxaq və ya utancaq davranışa meyli" kimi xarakterizə edir. [4] Utancaqlıq bəzi insanların başqaları ilə danışarkən, bir yerdə olarkən, söhbət edərkən və ya kömək istəyərkən qarşılaşdıqları inamsızlıqdır. Utancaqlıq insanın şəxsiyyətinin çox ümumi və çox yönlü keyfiyyətidir. O, özünə qapanma, etibarsızlıq, qorxaqlıq, həssaslıq, xəcalət kimi özünü göstərir. Utancaqlıq bütün cəmiyyətə təsir edən gizli, şəxsi problemdir. Utancaqlığın təbiəti müxtəlifdir. Onun yaranması daha çox valideynlərdən, məktəbdən və sosial mühitdən asılıdır. Demək olar ki, heç kim utancaqlıqdan sığortalanmayıb. Utancaqlıq adətən tənhalıq, narahatlıq və depressiya hissləri ilə müşayiət olunur. Utancaqlıq təkcə problemlərlə dolu deyil, onun bir çox müsbət cəhətləri var. Utancaq olmağı sevən insanlar var. Utancaqlıq özünü təkmilləşdirməyə, müstəqilliyin və fərdiliyin inkişafına kömək edir. Utancaq insan öz hərəkətlərini təhlil edən tədbirli, ciddi insan təsiri bağışlayır. Beləliklə, utancaqlıq həm bədbəxtlik, həm xəstəlik, həm də kiçik bir xəcalət və ya cazibədar bir xarakter xüsusiyyəti ola bilər.

Utancaqlığın əsas mənbəyi insanlardan qorxmaqdır. Utancaqlığın bünövrəsi, təbii ki, uşaqlıqda, valideynlərin, məktəbin, sosial mühitin köməyi ilə qoyulur. Utancaqlıq təcrübəsi özünü dərketmənin intensiv artması ilə başlayır. "Mən" haqqında məlumatlılıq ağılda o qədər hakimdir ki, idrak prosesləri kəskin şəkildə yavaşlayır, düşüncə çatışmazlığına və səhv ehtimalının artmasına səbəb olur. Utancaq insanlar tez-tez təəssüratlara və sosial qiymətləndirmələrə əsaslanan bir özünüdərkə sahibdirlər.

Utancaqlıq çox müxtəlif formalarda özünü göstərə bilən, mürəkkəb bir vəziyyətdir. Bu, sadəcə olaraq utanc, təcrid, yöndəmsizlik, narahatlıq və gərginlik şəklində ola bilər. Amma bəzi hallarda utancaqlıq insanı nəinki dilsiz qoyur, yaddaşı öldürür, qavrayışı pozur. Həm də psixi pozğunluqların xroniki formalarını ala bilər. Xroniki utancaqlığın təzahürlərinə aşağıdakılar daxildir: alkoqolizm, təcavüz, qətl, depressiya və ən son addım intihardır. Ancaq unutmaq olmaz ki, utancaqlığın parlaq tərəfləri var. Müstəqilliyin və fərdiliyin inkişafında mühüm rol oynayır. Utancaqlıq fərdin həssaslığını azaltmağa kömək edir, özünütənqidi artırır, bu da daha adekvat mən-konsepsiyasının formalaşmasına kömək edir. Bu o deməkdir ki, utancaqlıq təkcə problemlərlə dolu bir fenomen deyil, bəzi insanlar üçün olduqca uyğun bir həyat

tərzidir. Yəni utancaqlıq ya kiçik bir çətinlik, ya böyük problem sayıla bilər. Utancaqlıq şəxsi təcrübənin bir hissəsi olsa da, bütün cəmiyyətə təsir edir.

Utancaq insanlar tez-tez etdikləri təəssürat və sosial qiymətləndirmələrə əsaslanan bir özünüdərkə sahibdirlər. Bir qrupda, kollektivdə utancaq insan adətən tək qalır, nadir hallarda söhbətə girir, hətta nadir hallarda özü söhbətə başlayır. Söhbətdə özünü yöndəmsiz aparır, diqqət mərkəzindən uzaqlaşmağa çalışır, daha az və daha sakit danışır. Belə insan həmişə özü danışmaqdansa dinləyir, lazımsız suallar verməyə, mübahisə etməyə cəsarət etməz, adətən öz fikrini cəsarətsiz və tərəddüdlə bildirir.

Utancaq insanı söhbətə çağırmaq çətindir, çox vaxt fikirləşib bir mövzu tapa bilmir, suallara cavabları adətən təkhecalı, qısa olur. Belə adam bəzən söhbət üçün düzgün söz tapa bilmir, tez-tez kəkələyir, hətta tamamilə dayanır. İctimai yerlərdə hər hansı bir səhv etmək qorxusu keçirir. Hər kəsin ona diqqət etməsi ilə o, əldən düşür, nə cavab verəcəyini, bir irad və ya zarafata necə reaksiya verəcəyini bilmir. Utancaq insan üçün ünsiyyət çox vaxt bir yükdür. Onun üçün qərar vermək çətindir. Utancaq bir insanın yaşadığı ünsiyyətdəki çətinliklər çox vaxt onun özünə qapanmasına səbəb olur və bu da öz növbəsində çox vaxt təkliyə, ailə qura bilməməyə gətirib çıxarır. Utancaq bir insanın insanlarla ünsiyyət zamanı yaşadığı stress nevrozlara səbəb ola bilər.

Tədqiqatlar göstərir ki, susmaq müəyyən vəziyyətlərdə hiss etdiyimiz narahatlığa bir ehtimal cavabdır. Fizioloji səviyyədə, utancaq insanlar, öz sözlərinə görə, aşağıdakı hissləri yaşayırlar: nəbz sürətlənir, ürək güclü döyünür, tər çıxır və utancaq bir insanın gizlədə bilməyəcəyi şey - o qızarır. Bütün insanlar vaxtaşırı qızarır, mədə krampını və ya ürək döyüntüsünü hiss edirlər. Bununla belə, utancaq insanlar öz fizioloji hisslərinə diqqət yetirməyə meyllidirlər. Bəzən onlar özlərini narahat edən və ya utandıran bir vəziyyətlə qarşılaşana qədər gözləmirlər. Onlar bu simptomları vaxtından əvvəl yaşayır və yalnız hər şeyin pis olacağı haqqında düşünürlər. Utancaq insanın ən diqqətçəkən xüsusiyyəti yöndəmsizlikdir, yöndəmsizlik isə insanın daxili aləminə həddindən artıq qayğı göstərməyin zahiri təzahürüdür.

P.Pilkonis və F.Zimbardoya görə həddindən artıq utancaqlığın mənfi nəticələri var:

“1. Utancaqlıq sosial izolyasiyaya kömək edir və bununla da insanı ünsiyyət və sosial (emosional) dəstək sevincindən tamamilə və ya qismən məhrum edir.

2. Sosial qarşılıqlı əlaqə bacarıqlarının inkişaf etməməsi səbəbindən insan stresli vəziyyətlərdə həssasdır.

3. Səmimi ünsiyyət təcrübəsi olmayan utancaq insanlar özlərini qüsurlu hesab edirlər, başqalarının da xəcalət çəkə biləcəyini bilmirlər. Bu cəhalət üzündən onlar sosial davranışları haqqında yanlış təsəvvür yaradırlar.

4. Utancaqlıq imkan vermir ki, başqa insanlar üçün xarakterik olan şəxsin ləyaqətini dəyərləndirsinlər. Onun utanc hissi həmişə kənar şəxslər tərəfindən tanınmır, xüsusən də utancaqlığını lovğalıq, iddialılıq, səs-küylü davranışla kompensasiya etməyə çalışır (bu, xüsusilə kişilərə xasdır). Bəzən utancaqlıq təcrid, uzaqlıq, təkəbbür kimi qəbul edilir və böyüklər çox vaxt yeniyetmələrin utancaqlığını gizlilik kimi səhv salırlar. Düzdür, bəzən bu xüsusiyyət, xüsusən də utancaqlıq başqaları tərəfindən insanın müsbət keyfiyyəti, məsələn, cəlbedici təvazökarlıq kimi qəbul edilə bilər.

5. Utancaqlıq insanı öz fikrini söyləməkdən və haqqını tələb etməkdən saxlayır.

6. Utancaqlıq, bir qayda olaraq, təklik, narahatlıq və depressiya kimi mənfi təcrübələrlə müşayiət olunur, özünə və davranışına diqqəti həddindən artıq gücləndirir, yəni insanı şikəst edən ruhi xəstəlikdir”.[2]

Utancaqlıq hissi irəli getməyə, uğur əldə etməyə və fikirləri açıq-aydın ifadə etməyə imkan vermir. Utancaqlıq problemi geniş yayılıb və psixologiyada da geniş araşdırılan bir problemdir. Fikri düzgün ifadə edə bilmək, rahat ünsiyyət qura bilmək bacarığı həyatda möhkəm addımlar atmağın və uğurun açarıdır. Utancaqlıq problemində genetikanın rolu qeyd edilsə belə, genetikadan daha çox digər həyati faktorların rolu böyükdür. Buna görə də narahatlığa əsas yoxdur, çünki insan öz üzərində hər gün müntəzəm şəkildə işləyərək, utancaqlıq problemini aradan qaldırmağa, bu problemi unutmağa vəünsiyyət qurmaqdan həzz almağa və müvəffəq ola bilər.

**Ədəbiyyat:**

1. Ильин Е.П. Психология общения и межличностных отношений. - СПб: Питер, 2009 г.

2. Зимбардо Ф. Застенчивость: Что это такое и как с ней справляться: Исследования проведены в сотрудничестве с П.А. Пилконисом СПб.: Питер: Питер-пресс, 1995г.

3. Словарь русского языка. С.И. Ожегова. Издательство "Азъ",1923г.

4. Омксфордский словарь. «Oxford University Press». Издание- 2005 г.

## PSİXOLOJİ MÜDAFİƏ MEXANİZLƏRİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

**Ağayarlı Vəfa Namiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*vafaagayarli@gmail.com*

Müasir dövrdə uşaq psixologiyasında tədqiqində əsas diqqət obyektlərindən biri uşaqlarda psixoloji müdafiə mexanizmlərinin öyrənilməsidir. Apardığımız tədqiqat ona görə aktualdır ki, onun məqsədi təkcə uşaqların psixoloji müdafiə mexanizmlərini və onun dinamikasını öyrənmək deyil, eyni zamanda insan üçün cəmiyyətdə daha əhəmiyyətli olan psixoloji müdafiə mexanizmlər və sosial adaptasiya kimi psixi proseslər arasındakı əlaqəni tədqiq etməkdir.

Müasir psixologiya elmi sahəsində valideynlərlə uşaqlar arasındakı qarşılıqlı münasibətlərdə psixoloji müdafiə mexanizmlərinin formalaşması məsələlərinə böyük diqqət verilir. Bununla yanaşı məktəbəqədər yaşlı uşaqların müntəzəm olaraq böhranlı inkişaf mərhələlərində rastlaşdıqları maneələrin, digər tərəfdən isə psixoloji müdafiənin formalaşmasında praktik çətinliklərin araşdırılmasına böyük ehtiyac vardır.

Bir çox tədqiqatçılar belə hesab edirlər ki, sosial adaptasiya uşaqların hərtərəfli şəxsiyyət kimi yetişməsində xüsusi rol oynayır. Odur ki, sosial adaptasiya problemi olan uşaqlarda müdafiə mexanizmlərinin tədqiq edilməsi günün vacib məsələlərindən sayılmalıdır.

Müasir tədqiqatlar psixoloji müdafiə mexanizminin genezisini konkret situasiyada deyil, fərdin inkişafının ümumi tendensiyalarında araşdırmışlar. R.M.Qrebennikovanın psixoloji müdafiənin xronoloji təsnifatında inkişaf tendensiyalarının yaş diapozonu göstərilmişdir: 0 yaşdan 1 yaşa qədər birləşmə tendensiyaları; 2 yaşdan 11 yaşa qədər - ayrılma tendensiyaları; 11 yaşdan 13 yaşa qədər birləşmə tendensiyaları.

R.M.Qrebennikovanın tədqiqat işlərində müdafiə mexanizmlərinin aktualizasiya və təhsillə bağlı olan stimullaşdırılmış situasiyaların xüsusiyyətləri mühüm yer tutur. Alim psixoloji müdafiənin təhsil prosesinə təsir edən faktorları müəyyən etmişdir:

- subyektin psixikasının dinamik xüsusiyyətləri;
- adaptasiyanın universal problemlərinin həlli təcrübəsi;
- şəxsiyyətin psixoloji tələbatlarının təmin olunması;
- mövcud spesifik situasiya;

● mühitin təsiri.

Psixikanın dinamik xüsusiyyətləri birçox hallarda, məsələn, problem situasiyada subyektin yanaşma üslubunu müəyyən edir:

- mühitin dəyişilməsinə yönəldilmiş fəal üslub (akkomodativ);
- mühitin yenidən qurulmasına yönəldilmiş passiv üslub ( assimulyativ).

Bu üslublar psixoloji müdafiə mexanizmlərinin formalaşmasının təməli kimi çıxış edir. Proyeksiya və reqressiya birinci üslub; sıxışdırılıb çıxarılma, inkaretmə və intellektualizasiya ikinci üsluba uyğun gəlir. Əvəzetmə və ya kompensasiya həm fəal, həm də passiv forma kimi davranışda təzahür edir.

Müasir dövrdə uşaqların tez-tez böhranlı inkişaf mərhələlərində rastlaşdıqları maneələrin, digər tərəfdən psixoloji müdafiə mexanizmalarının öyrənilməsindəki praktik çətinliklərin, psixi hadisənin qanunauyğunluqlarının araşdırılmasına böyük ehtiyac vardır.

Psixoloji müdafiə nədir? Psixoloji müdafiə psixi sağlamlığın qorunması məqsədilə travmatik həyəcanlara yönəlmiş şəxsiyyətin stabilliyinin xüsusi sistemidir. Həyat prosesində insan dəyişir, yəni o, öz baxışlarında, mənəvi dəyərlərində, təsəvvürlərində dəyişikliklər edir. Bəzən o, insan üçün gözlənilməz olur, bəzən də ondan ciddi səy tələb edir. Belə dəyişikliklər adətən insan tərəfindən dərk edilir. Bəzən elə hallar baş verir ki, insan qeyri-ixtiyari olaraq yeni təcrübədən imtina edir. Bunlar şüursuz requlyativ psixoloji mexanizmlərin hesabına həyata keçir. Bu psixoloji mexanizmlər hərəkəti bəzən dərketmə, bəzən də insanın iradəsi ilə baş verir. Həmin mexanizmlər psixikanı qoruyur və onu ağır yükdən müdafiə edir. Ona görə də bu mexanizmələr psixoloji müdafiə mexanizmləri adı verilmişdir.

Müasir psixoanalitiklərdən olan Brenner psixoloji mexanizmi təfəkkürün müvafiq aspekti kimi səciyyələndirir. O "Mən"(Eqo) və "O"(İd) arasındakı qarşılıqlı təsiri əks etdirir. Konfliktli situasiyaların xüsusiyyətlərindən asılı olaraq "Mən" müdafiə mexanizminin maraqlarının qənaətbəxş olması üçün onları müdafiə kimi qəbul etmək olar. Alim tədqiqatçı Brennerin fikri ilə razılaşaraq qeyd edə bilərik ki, müdafiə məqsədlərində "Mən" istənilən yönəlişlikdən, qavrayışdan, diqqətin yayınıqlığından, davranışa qıcıqlandırıcıların müdaxiləsindən istifadə edir.

Hal-hazırda psixoloji müdafiə anlayışı artıq uzun müddətdir ki, psixoanaliz çərçivəsindən kənar çıxmışdır və psixologiya psixoterapiyanın istənilən istiqamətlərində əhəmiyyətli məna kəsb etmişdir.

Psixoloji lüğətdə müdafiə şəxsiyyətin stabilliyinin xüsusi tənzimedici sistemi kimi müəyyən edilir və o, konfliktin dərki ilə bağlı təhlükə hissinin aşağı düşməsinə yönəldilmişdir. Belə anlayış funksional "Mən"i əks etdirir, lakin o, psixoloji müdafiənin məzmununu izah etmir. Müəlliflərin bir qismi həmin fenomeni geniş mənada nəzərdən keçirir, ona istənilən davranışı daxil edir, psixoloji diskomfortu aradan qaldırır.

Tədqiqatçılar arasında müdafiə məqsədlərinin anlaşılmasındakı ziddiyyətli fikirlərə az rast gəlinir. Onların əksəriyyəti bu məqsədi daxili psixi adaptasiyaya aid edir, onu koqnitiv və affektiv vəziyyətlərin diskomfortluğunun qarşısının alınması kimi xarakterizə edirlər. Problemdəki çətinliklər çox hallarda müdafiə prosesinin funksionallaşmasında və aktualizasiyanın şüursuz xarakterində şərtləndirilmişdir.

Psixoloji ədəbiyyatda psixoloji müdafiəni iki kateqoriyaya ayırırlar: birinci qrupda ona müvafiq psixi hadisənin mahiyyətinin əksi kimi diqqət yetirilir və aktivlik forması kimi baxılır. İkinci qrupda psixoloji müdafiə mexanizmlərinin məzmunu koqnitiv nəzəriyyələr terminində əks olunur ki, onu informasiyaların xüsusi işlənilməsində nəzərdən keçirirlər.

Psixoloji müdafiə fenomenini təhlil edərkən həmin anlayışa aid olanları aşağıdakı şəkildə fərqləndirdik:

- psixoloji müdafiə psixikanın xassələrinin sistemi kimi (İ.D.Stoykov);- psixoloji müdafiə şəxsiyyətin xassəsi kimi (A.Freyd, V.A.Taşlıkov, V.M.Volovik);- psixoloji müdafiə mexanizmləri və ya psixoloji müdafiənin reallaşmasının konkret üsulu kimi (K.Perri, E.S.Romanova);

- müdafiə hərəkətləri psixoloji müdafiə prosesinin xarici davranış xarakteristikası kimi (R.M.Qranovskaya);- müdafiə strategiyası və taktikası müdafiə üsulları və hərəkətlərinin davamlı sistemi kimi (E.T.Sokolova).

Deyilənləri ümumiləşdirsək belə nəticəyə gələ bilərik ki, psixoloji müdafiə mexanizmləri aşağıdakı spesifik xüsusiyyətlərə malikdir:

➢ Psixoloji müdafiə mexanizmləri sosial mühitə adaptasiyaya xidmət edirlər, "şüursuz" işləyirlər, istəklərin, arzuların istiqamətini dəyişirlər. Arzu olunmayan istək, hiss və fikirlərlə bağlı olan təhlükəni aradan qaldırırlar.

➢ Müdafiə mexanizmlərinin formalaşmasında uşaqlarla valideynlər arasındakı birgə fəaliyyətdə səhv seçimlər, ailədə münasibətlərin pozulması, qeyri-adekvat müdafiə üsullarının meydana gəlməsində mühüm rol oynayır.

➢ Emosional münasibətlərdə valideynlər tərəfindən uşaqlara qarşı gərginlik, təcavüz, cəzalandırma uşaqlarda qorxu və təhlükə hissinin artmasına səbəb ola bilər. Buna bağlı olaraq psixikanın şüursuz mexanizmlərindən danışarkən psixoloqlar təhlükə situasiyasında şüurlu mexanizmlərin ortaya çıxdığını qeyd edirlər.

## TƏLİM FƏALİYYƏTİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİ

**Qurbanova Aydan Qurban qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aydanqurbanova82@gmail.com*

Tədris prosesində müəllim-şagird münasibətləri mühüm rol oynayir. Məktəblərin qarşısında duran əsas məsələlərdən biri böyüməkdə olan nəslin hərtərəfli tərbiyəsidir. Bu mühüm məsələ məktəblərimizdə çalışan pedaqoji kollektivlərin hər bir üzvünün ümumi hazırlığından, dünyagörüşündən, pedaqoji-psixoloji bilik, bacarıq və qabiliyyətlərindən asılıdır. Tədris prosesi ilə bağlı müasir tədqiqatlarda da müəllim-şagird münasibətləri aspektinə daha çox diqqət yetirilir. Bu əlaqələrin keyfiyyəti təlimin effektivliyinə təsir edən ən mühüm amillərdən biri olduğundan onun üzərində davamlı olaraq iş aparılmalıdır. Müəllim və şagirdlərin qarşılıqlı əlaqəsi pedaqoji elmin aktual mövzularından biridir. Müəllim təlim fəaliyyətinin moderatorudur, aparıcısıdır. Eyni zamanda bu prosesdə müəllim aparıcı, eyni zamanda təşkiledici, idarəedici istiqamətləndirici rola malikdir. Müəllim üzərinə düşən bu məsuliyyətli prosesi,vəzifəni daha uğurlu yerinə yetirmək üçün, hər bir şeydən əvvəl ilk öncə ayrı-ayrı şagirdləri, bütünlükdə sinif kollektivini yaxından duymalı, hiss etməli, başa düşməli, tanımalıdır.Təlim prosesi zamanı şagirdlərə iş formasını seçilməsində, layihə partnyorlarının tapılmasında kömək edir. Müəllim vaxtdan səmərəli istifadə edən, tapşırıqları real qiymətləndirən, həll edən və məsuliyyət daşıyan liderdir. Şagird isə müəllimin istiqamətinə əsasən fəaliyyət göstərir. O, fəaliyyətə məcbur olunmur, sadəcə təhrik edilir. Onun mövqeyi kəşf edən, tədqiqatçı xarakteri daşıyır. Ona görə də müəllimin istiqaməti üzrə kiçik tədqiqatlara qoşulur, araşdırmalar aparır,

konkret nəticələrə gəlir. Şagird gəldiyi nəticələrini qiymətləndirməklə bir daha ona əmin olur. Müəllim öyrənmə təşkilatçısı, sinif dizaynı üzrə mütəxəssis və tədris prosesinin effektiv idarəçisidir. Xüsusən də onu qeyd etmək lazımdır ki, müəllimin şagirdləri ilə maraqlanması və onların hər birini qiymətləndirməsi, tələbələrin işini dəstəkləməsi və aydınlaşdırıcı suallar verməsi, hər bir şagirdin güclü və zəif tərəflərini bilməsi və buna uyğun olaraq tədbirlər görülməsi, həvəsləndirici tədbirlərin görülməsi müəllim-şagird münasibətlərinə müsbət təsir edən amillərdəndir. Eyni zamanda nəinki təlim prosesində, eyni zamanda sinifdən kənarda müəllim və şagird şəxsi mövzularda ünsiyyət qura bilər; müəllim sinfin həyatına nəzarət edir, səhvlərini necə etiraf etməyi bilir, əsəbiləşmir və şagirdləri alçaltmır. Əməkdaşlıq, ünsiyyət uşağın psixi funksiyalarının uğurlu inkişafına kömək edir, eyni zamanda, öyrənməyə üstünlük verir. Müəllim və şagird məktəbin iki ən mühüm şəxsiyyətidir. Müəllim və şagird arasındakı uğurlu münasibət, təhsil və tərbiyə prosesində uğur qazanmağa yardım edir. Ünsiyyət təhsilin və tərbiyənin əsasını təşkil edir: ünsiyyət vasitəsi ilə müəllim(lər) şagirdlərin davranışını və fəaliyyətini təşkil edir, onların işini və hərəkətlərini qiymətləndirir, baş verən hadisələr haqqında məlumat verir, qeyri-qanuni davranışlar haqqında müvafiq olaraq fikir əldə etmiş olur və buna qarşı bir tədbir görür, çətinliklərin öhdəsindən gəlməyə şagirdlərə kömək edir. Bunun üçün də ünsiyyəti ən effektiv şəkildə qurmaq üçün müəllim həm fərdi şagird, həm də sinif və ya bütövlükdə qrupla əlaqələr qurmağı bacarmalıdır. “Müəllim-şagird” münasibətlərinin strukturu ən sadə məkan, əqli və sosial təmaslardan tutmuş ən mürəkkəb sosial hərəkətlərə və sabit münasibətlərə qədər olan sosial əlaqələr sistemidir. Müəllimlə uşaq münasibətlərinə də təhsilin məzmunu tərəfdən baxılmalıdır. Müəllim müəyyən bir elmi bilik sahəsinin daşıyıcısıdır, təhsil prosesində pedaqoq, elmi dünyagörüşünün tərcüməçisi kimi çıxış edir. Eyni zamanda, o, şagirdlərlə qarşılıqlı əlaqədə yüksək əxlaqlı bir insan - vəzifə, vicdan, namus, xeyirxahlıq, ədalət daşıyıcısı kimi də çıxış etməlidir.Əsl müəllim uşaqlar və onların valideynləri üçün örnəkdir, müəllimlə şagird münasibətləri təhsil və tərbiyə prosesinin əsasını təşkil edir. Əsl müəllim uşaqlar və onların valideynləri üçün örnəkdir, müəllimlə şagird münasibətləri təhsil və tərbiyə prosesinin əsasını təşkil edir. Müəllimin şagirdlə əxlaqi münasibəti tərbiyənin ən mühüm vasitəsidir. Erkən məktəb yaşından etibarən bu münasibətlər praktiki olaraq şagirdləri müəyyən bir əxlaqi münasibət növünə daxil edir, onları mənəvi təcrübə ilə tanış edir - hörmət, dürüstlük, xoşməramlılıq təcrübəsi və ya hörmətsizlik, nifrət və düşmənçilik təcrübəsi. Yaranmış əxlaqi münasibətlər müəllim üçün də əhəmiyyət kəsb edir, çünki onlar onun pedaqoji işə münasibətinə təsir edir ki, bu da bəzi hallarda sevinc və həzz gətirə bilər, bəzi hallarda isə bu, onun üçün xoşagəlməz və sevincsiz vəzifəyə çevrilir.Müəllim və uşaq arasındakı bütün münasibətlər sisteminə nüfuz edən əsas komponent hər bir şagirdin şəxsiyyətinə hörmətdir. Müəllim-şagird münasibətlərin düzgün qurulmasına xüsusi diqqət edilməlidir. Pedaqoji ünsiyyət problemlərinin öyrənilməsi göstərir ki, “müəllim-şagird(lər)” münasibətləri köklü təlim-tərbiyə məsələsidir. Elmi araşdırmaların nəticələri nə qədər əsaslı olsa da, məktəb təcrübəsində hələ, sözün əsl mənasında, əks səda doğurmayıb. Müəllimlərin və məktəb rəhbərlərinin bir çoxu hələ də vaxtı keçmiş avtoritar tərbiyə üsullarından sadəcə olaraq əl çəkmirlər.

Müəllimlərin şəxsi xüsusiyyətləri ətraflı təhlil edərkən, görə bilərik ki, müəllimlərin bəzi xüsusiyyətləri (şagirdlərə emosional dəstək və onların akademik nailiyyətlərinə rəhbərlik) tələbələri təlim fəaliyyətinə cəlb etməyə və yüksək akademik nəticələr əldə etməyə həvəsləndirən etibarlı baza rolunu oynayır. Müəllim və şagirdlər arasındakı əlaqənin şagirdlərin akademik nailiyyətlərinə təsir edən əhəmiyyətli bir motivasiya amili olduğunu görə bilərik. Şagirdlər tərəfindən başa düşülən müəllim xoşbəxtdir. Həmçinin, müəllimi tərəfindən başa

düşülən şagirdlər xoşbəxtdirlər. Qarşılıqlı anlaşma istənilən təhsilin, istənilən tədrisin uğurunun açarıdır. Münasibətlər insanın həyatın müxtəlif aspektləri ilə şüurlu əlaqəsidir ki, bu da hərəkətlərdə, reaksiyalarda və təcrübələrdə ifadə olunur. Münasibətlər şəxsiyyətin hərəkətverici qüvvəsidir, maraq dərəcəsini, istəklərini, duyğuların və ehtiyacların gücünü müəyyən edir. Daha dəqiq mənada təhsil qarşılıqlı əlaqəsi (təhsil fəaliyyəti prosesində yaranan münasibətlər) "müəllim-şagird" sistemində fəallıq, məqsədyönlülük, qarşılıqlı əlaqənin dərk edilməsi ilə xarakterizə olunur. Onu da demək olar ki, "müəllim-şagird" sistemindəki münasibət müəllim və tələbələrin tədris fəaliyyəti prosesində qarşılıqlı əlaqədə xüsusi işarə formalarından istifadəni nəzərə alaraq həyata keçirdikləri qarşılıqlı əlaqədə olan hərəkətlər sistemidir. Müəllim-şagird" münasibətləri sistemi fəal, mehriban, demokratik ünsiyyət tərzinə - əməkdaşlığa əsaslanan davamlı prosesdir. Kiçik yaşlı şagirdlərin təhsil fəaliyyətinin formalaşması və inkişafı zamanı təkcə idrak hərəkətləri deyil, həm də şagirdlərin münasibətləri arasında qarşılıqlı əlaqə sistemi formalaşır. Ümumiyyətlə, pedaqoji ünsiyyət prosesi şərti olaraq "fəaliyyət" - "qarşılıqlı əlaqə" - "ünsiyyət" - "əlaqə" düsturu ilə təmsil oluna bilər. İbtidai məktəb yaşında uşaqlar öyrənməyi sevirlər və müəllimə münasibət öyrənməyə ümumi motivasiyadan formalaşır. Bu dövrdə şagirdlər üçün müəllim ən yüksək səlahiyyətdir və şagirdinin təcrübəsi onun münasibətindən asılıdır. Təbii ki, uşaqlar müəllimi əvvəlcə müəllim olduğu üçün, həm də dərs dediyi üçün sevir və ona hörmət edirlər, lakin bununla yanaşı, şagirdlərin də onunla bağlı müəyyən gözləntiləri olur və əgər müəllim bu ümidləri doğrultmursa, uşaqlar narazılıq yaşamaq. Şagirdlər müəllimə tənqidi yanaşır və deyilən hər bir söz qanundur. Amma eyni zamanda şagirdlər müəllimdən tələbkar və sərt olmasını istəyirlər. Şagirdin emosional sferasının formalaşmasında münasibətlərin rolunu və onun təhsil motivlərinin formalaşmasına təsiri məsələsini qlobal şəkildə nəzərdən keçirmək lazımdır.

## ÖZÜNÜDƏRKETMƏNİN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ


**Hüseynova Rəmziyyə Niyaz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Ramziyya1997@gmail.com*


Özünüdərketmənin mahiyyətini, məzmununu şəxsiyyətin, konkret olaraq, yemiyetmənin şəxsiyyət kimi formalaşmasında mövqeyini, yerini müəyyənləşdirmək üçün özünüdərketmənin bir sıra xüsusiyyətlərinə diqqət yetirmək lazımdır. Qeyd etməliyik ki, özünüdərketmənin ontogenetik inkişafda təşəkkül və təzahür xüsusiyyətlərinin, təlim-tərbiyə prosesində gərçəkləşməsinin ayrı-ayrı cəhətlərinin öyrənilməsi də aktual məsələlərdən biridir. Digər tərəfdən özünüdərketmənin ayrı-ayrı yaş dövrlərində inkişaf dinamikasını, davranış və fəaliyyətdə nə kimi yeni xüsusiyyətlərə malik olmasını müəyyənləşdirmək üçün də, onun formalaşmasının psixoloji xüsusiyyətlərinin öyrənilməsi çox vacibdir. Formalaşmanın xüsusiyyətlərinin dəqiq müəyyən etmədən özünüdərketmə probleminin ümumi mənzərəsi haqqına fikir söyləmək fikrimizcə çətin olardı.

Özünüdərketmə çox mürəkkəb, çoxsəviyyəli prosesdir və o, müəyyən zaman daxilində ayrı-ayrı şəxslərdə fərdiləşmək, zamana görə yeni keyfiyyətlər kəsb etmək xassəsinə malikdir. Özünüdərketmənin insan həyatında ən böyük bəhrələrindən biri insana fəal həyat mövqeyi qazandırmaqda yaxından kömək etməkdir. Şəxsiyyətin hərtərəfli fəal həyat mövqeyi qazanmasının əsasında onun özünü dərindən dərk etməsi, özünü bir şəxsiyyət kimi qiymətləndirməsi, həyata baxışlarını, həyat prinsiplərini işləyib hazırlaması kimi mühüm amillər durur. Şəxsiyyətin hərtərəfli inkişafı, təkmilləşməsi irəliyə doğru mütərəqqi inkişafın ən mühüm

amili, ən əsas tələbi kimi təzahür edir. İnsanın inkişafı, şəxsiyyətin öz fəaliyyəti, özünüdərk etməsi, öz xarakteri və iradəsi üzərində gərgin işləməsi sayəsində mümkün olur.

Problemlə bağlı çoxsaylı tədqiqatlar İ.İ.Cesnokovanın adı ilə bağlıdır. Müəllif qeyd edirki, "Ontogenetik inkişafın ilkin mərhələlərində uşaq özünü və başqalarını fərqləndirə bilmir. O, sadəcə olaraq özünün aktiv hərəkətlərini və böyüklərin köməyilə etdiyi hərəkətləri qismən differensasiya etmək iqtidarındadır. Belə olan halda aktiv və passiv hərəkətlər onlar tərəfindən tam fərqləndirilə bilməz".Uşağın bədəninin ayrı-ayrı hissələri ilə oynaması tədricən fiziki mənin dərk olunmasına, deməli aktiv və passiv hərəkətlərin differensasiyasına imkan yaratmış olur.

Ayrı-ayrı tədqiqatçılar özünüdərketmənin ilkin təzahürü kimi özünüduyma, özünüayırdetmə qabiliyyətlərinin ortaya çıxmasını əsas gətirirlər. Yaş və pedaqoji psixologiyada zəngin tədqiqatları ilə məşhur olan müəlliflər özünüdərketmənin ilkin təzahürlərinin 6 aylıq uşaqlarda mövcüdluğunu eksperiment vasitəsilə təsdiqləməyə çalışmışlar.

A.Vallonun fikrincə, özünü ətraf aləmin predmetlərindən ayrılmış şəkildə təsviri zamanı uşaq predmetlərin fərqləndirilməsini özünməxsus şəkildə, sensor sferanın köməyi ilə həyata keçirir. Əşyalarla manipulyasiya zamanı uşaq yalnız əşyaları tanımır o həm də özünü tanıyır.

Deməli özünüdərketmənin təşəkkülü fəaliyyət prosesi ilə bağlıdır. Sonrakı dövrlərdə isə bilik imkanlarının artması ilə özünüdərketmənin digər elementlərinin meydana çıxmasını şərtləndirir. Bu baxımdan Q.Gellapın apardığı tədqiqatlar da çox maraqlıdır. Ancaq Gellapın apardığı tədqiqatlar meymunlar üzərində aparılmışdır və çox zaman onun apardığı tədqiqatlar metodoloji baxımdan səhv hesab olunur

Gellapın təcrübələrinə bənzər eksperimentlər Brental və Fişer tərəfindən 16-22 aylıq uşaqlar üzərində də aparılmışdır. Ana uşağın üzünə barmağı ilə onun burnuna qırmızı rəng vurur. Uşağı güzgünün qarşısında oturtdururlar. Əgər uşaq əlini güzgüdəki şəkilə deyil, öz burnuna vurursa, psixoloqlar bunu uşağın güzgüdə özünü tanıması əlaməti hesab edirlər. Eksperiment prosesində 16 aylıq uşaqlardan heç biri əlini burnuna toxundurmur. Ancaq 22 aylıq uşaqların hamısı əlini burnuna toxundururdu. Müəyyən olunmuşdur ki, uşaqlar özlərini ilk dəfə olaraq 18 aylıq olanda tanıyırlar. Özünü güzgüdə tanımaq 20 aylıq uşaqlar üçün artıq adi haldır.

Özünüdərketmə çoxcəhətli bir proses olduğu üçün onu birtərəfli şəkildə öyrənmək olmaz. Hətta bəzi tədqiqatçılar özünüdərketməyə aktiv "mənlik şüuru" kimi də baxırlar. Qeyd etdiyimiz kimi özünüdərketmə mənlik şüuru ilə eyniləşdirilir və qarşılaşdırılır. Həmçinin özünüdərkin bəzən tərkib elementi bəzən isə ondan ayrı müstəqil proses kimi nəzərdən keçrilən özünüqiymətləndirmə, "Mən obrazı" və başqa fenomenlər fərqlənir.

Özünüdəretmənin və "Mənlik şüuru"nun sistemli izahı V.V.Stolin tərəfindən verilmişdir. O, "Mənlik şüuru"nun qurluşunu şaquli və üfüqi olmaqla iki yerə bölmüş, eyni zamanda şaquli quruluşu üç inkişaf səviyyəsini ayırd etmişdir: sosial, fərdi və şəxsiyyət səviyyələri. Fərdi səviyyədə insanın özünüdərketməsinin əsasında insanın fərdi xüsusiyyətləri durur. Sosial səviyyədə insanın özünü sosial dərketməsi, yəni sosial normaların və qaydaların dərk edilməsi nəzərdə tutulur. Şəxsiyyət səviyyəsində isə insanın öz şəxsi xüsusiyyətlərinin, xarakter, qabiliyyət, motiv və həyatın mənasını seçmək kimi cəhətlər durur.

Şüur insanın ətraf aləm haqqında biliklər sistemidir. Mənlik şüuru isə insanın özü haqqında biliklərini əks etdirir. Mənlik şüurunun özü şüurun strukturunda özünəməxsus yer tutur. Mənlik şüurunda şüurun bütün xüsusiyyətləri insanın "mən"i vasitəsilə əks olunur və şəxsiyyət hadisəsinə çevrilir. Mənlik şüuru ikili səciyyə daşıyır. Onda eyni vaxtda həm "mən"ə (subyektə), həm də "qeyri-mən"ə (obyektə) münasibət əks olunur. Məsələn, uşaq öz əlini dişlədikdə ağrı hiss edir, başqa adamların əlini dişlədikdə isə bunu hiss etmir. Deməli, o, öz əli ilə digər adamların əlini fərqləndirməyi bacarır .

Refleksiya - uşaqların özlərinə, əməl və hərəkətlərinə başqalarının gözü ilə baxması formalaşır. Bu özünüdərketmə prosesidir. Bu, mənlik şüurunun formalaşmasına təkan verir.

Mənlik şüuru insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesidir. Mənlik şüuru dedikdə insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münsibəti nəzərdə tutulur.

Mənlik şüuru sözün əsl mənasında yeniyetməlik və gənclik yaşlarında formalaşsa da onun mənbəyi əvvəlki yaş dövrlərinə təsadüf edir. Bu problemin kökü körpə uşaqların özlərini güzgüdə və ya fotoşəkildə tapması ilə bağlıdır. 6 yaşlı uşaqlarda bədənin sxemi haqqında təsəvvürlər formalaşır. Onlar şikəst adamların itmiş bədən orqanlarını tanıyırlar. 5-6 yaşlı uşaqlar onların başqaları tərəfindən müşahidə olunduqlarını duyurlar.

Məhz bu baxımdan, müəllimlər, tərbiyəçilər yeniyetmələri bir şəxsiyyət kimi, vətəndaş kimi həyata hazırlamaq üçün özünüdərk və onun inkişafına, formalaşmasına diqqət yetirməlidirlər.

## SOSİALLAŞMA PROSESİNDƏ TƏRBİYƏ TƏŞKİLATLARININ ƏSAS FUNKSİYALARI

**Aslanova Elnarə Fərman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elnareaslanova1@gmail.com*

***Açar sözlər**: sosiallaşma təşkilatı, sosiallaşma funksiyaları, tədris müəssisələri, həvəsləndirmə mexanizmləri, şəxsiyyət yönümü*

***Ключевые слова:** организация социализации, функции социализации, образовательные учреждения, механизмы стимулирования, личностная ориентация*

***Key words:** socialization organization, socialization functions, educational institutions, incentive mechanisms, personality orientation*

## ОСНОВНЫЕ ФУНКЦИИ ОБРАЗОВАТЕЛЬНЫХ ОРГАНИЗАЦИЙ В ПРОЦЕССЕ СОЦИАЛИЗАЦИИ

**Резюме**

Роль школы состоит в создании системы благоприятных условий для осуществления такого процесса личностного самопознания, самовыражения, самоопределения по отношению к природе, культуре, обществу, самому себе.

Достижение этого идеала связано со значительной перестройкой всей организаöии жизни школы и ее уклада.

Для обеспечения возможности ребенку познавать и развивать свою индивидуальность в школе самоопределения совершается переход от линейного и полностью регламентированного устройства к пространственной организации образовательной среды школы. учебное пространство, построенное на принципах свободы выбора учеником учителя, тем, способов работы, темпа освоения материала; привлечения к постановке личных образовательных целей и задач, к выработке коллективной и индивидуальной учебной программы; учета личного опыта, знания, стиля, способностей, интересов, отношений; побуждения к формированию личностного отношения к происходящему.

## THE MAIN FUNCTIONS OF EDUCATIONAL ORGANIZATIONS IN THE PROCESS OF SOCIALIZATION

**Summary**

The role of the school is to create a system of favorable conditions for the implementation of such a process of personal self-knowledge, self-expression, self-determination in relation to nature, culture, society, and oneself.

Achieving this ideal is associated with a significant restructuring of the entire organization of school life and its way of life.

In order to provide the child with the opportunity to learn and develop his individuality in the School of Self-Determination, a transition is made from a linear and fully regulated structure to the spatial organization of the educational environment of the school. an educational space built on the principles of freedom of choice by the student of the teacher, topics, ways of working, pace of mastering the material; involvement in the setting of personal educational goals and objectives, in the development of a collective and individual curriculum; taking into account personal experience, knowledge, style, abilities, interests, relationships; incentives to form a personal attitude to what is happening.

Qloballaşan dünyada sosiallaşma problemləri, ən əsas da tədris müəssisələrində bu prosesin tənzimlənməsi ciddi tədqiqat predmetidir. Məktəb müvəffəqiyyət əldə etmək üçün motivasiyaya fəal təsir göstərir - özünü dəyişdirmə amillərindən biridir. Tələbələrə təklif olunan fəaliyyətlərə müəyyən xüsusiyyətlər gətirir.

Nailiyyətlər şagirdin istəklərinin səviyyəsinə uyğun olan fəaliyyətlərlə həvəsləndirilir. Aydındır ki:

- fəaliyyətin yerinə yetirilməsi zərurətinin uşağın qarşısına qoyduğu vəzifələr həyata keçirilə bilər və onlardan çox səy tələb etməməlidir. Bu vəziyyətdə həm yaxşı motivasiyalı, həm də zəif motivasiyalı və uğursuzluqdan qaçmağa yönəlmiş uşaqlar öz qərarlarından imtina etməyəcəklər;
- fəaliyyət tələbəyə seçim imkanları yaratmalı, maraqlı olmalı və onun iddialarının səviyyəsinə uyğun olmalıdır;
- məktəb həyatında mümkün qədər çox şagirdin uğur əldə etməsinə imkan verən müxtəlif mürəkkəblik dərəcələrində tapşırıqlar olmalıdır.

Zəruri şərt məktəblilərin şəxsi təzahürlərinin və nailiyyətlərinin adekvat qiymətləndirilməsidir. Pedaqoji elmlər namizədi N.Nemova nailiyyət motivasiyasını stimullaşdıran qiymətləndirməyə dair tələbləri müəyyən edir (4, 38):

- məktəbliləri qiymətləndirmə fəaliyyətinə cəlb etmək, özünüqiymətləndirməni nəzərə almaq;
- eyni nəticə göstərən bütün tələbələri bərabər qiymətləndirmək;
- tələbənin özü üçün xüsusilə əhəmiyyətli olan fəaliyyət aspektlərini vurğuladığınızdan əmin olun;
- təkcə çatışmazlıqları deyil, həm də uğurları müəyyən etməyə çalışın;
- xoş niyyət və təmkin nümayiş etdirin, emosional stressdən, inciklikdən, qıcıqdan uzaqlaşın;
- tələbələr (qruplar) ilə səhvlərin səbəblərini və onların aradan qaldırılması yollarını müzakirə etmək;
- tələbənin qiymətləndirməni formal olaraq deyil, həqiqətən də qəbul etməsini və onu necə təkmilləşdirməyi başa düşməsini təmin etmək.

Yerli tədqiqatçı I.D.Eqoryçeva şəxsiyyət yönümünün dörd mümkün növünə diqqət çəkdi:

- humanist oriyentasiya (özünü qəbul etmək və başqa bir insanı tam qəbul etmək). Bu oriyentasiyaya malik insanlar muxtariyyətə can atmırlar, həm qrup daxilində, həm də ondan kənarda hər kəsin, o cümlədən özlərinin müstəqillik hüququnu tanıyırlar. Onlar həm özlərini, həm də digərini olduğu kimi qəbul edirlər və bənzərsizlik onları qıcıqlandırmır (1, 88). Özlərinin və başqalarının fikirlərinə, özlərinin və başqalarının maraqlarına hörmət edirlər, təmaslarda ədalət, humanizm, xoşməramlılıq və açıqlıq prinsiplərini rəhbər tuturlar. Başqaları ilə ünsiyyət ən vacib ehtiyaclardan biri kimi qəbul edilir. Münaqişədə kompromis və əməkdaşlıq axtarın. Mühakimə müstəqilliyinə, özünə inamına diqqət yetirərək, müstəqillik arzusu, dostluq münasibətləri ilə fərqlənirlər. Onlar yaradıcılığı, aktiv aktiv həyatı qiymətləndirirlər;
- eqosentrik oriyentasiya (özünü qəbul etmək və digərini rədd etmək). Onlar özlərinə, öz maraqlarına və problemlərinə diqqət yetirirlər ki, onları xüsusi dəyərli, hörmətə və tanınmağa

layiq görürlər, ətrafdakılar isə, onların fikrincə, həmişə buna layiq deyillər. İnsanlarda öz nöqteyi-nəzərini yeganə doğru hesab etdikləri üçün öz fikirləri ilə razılaşmağa dəyər verirlər. O, tez-tez özünü qiymətləndirmədiyini hiss edir. Başqalarının problemləri çox vaxt ona biganədir, lakin o, başqasının özünə qarşı laqeydliyini son dərəcə ağrılı şəkildə qəbul edir. Onlar aqressivdirlər, ümumiyyətlə sosial yönümlüdürlər, münaqişələrdə rəqabət və ya kompromis strategiyasına sadiqdirlər. Onlar yüksək emosional sabitlik, normativ davranış, dominantlığa can atma ilə xarakterizə olunur. Onlar maddi nemətlərə, ləzzətlərə maraq, eləcə də mühakimələrdə daha çox müstəqillik və şəxsi müstəqillik istəyi ilə xarakterizə olunur. Onlar şənliyi, cəsarəti, güclü iradəni, çatışmazlıqlara dözümsüzlüyü, rasionallığı yüksək qiymətləndirirlər;

- mənfi oriyentasiya (özünü qəbul etməmək, digərini qəbul etməmək). Bu tip insanlar cəmiyyətdəki yerlərindən razı deyillər, lakin adətən daha uyğun bir şey əldə etməyə cəhd göstərmirlər. Onların öz uğurları onları həvəsləndirmir, uğursuzluqlar onları sıxışdırmır, onlar üçün təbiidir. Belə bir insanla ünsiyyət olduqca ağrılıdır, xüsusən də tez-tez neqativizmlə özünü təsdiqləməyə çalışır;

- depressiv oriyentasiya (özünü qəbul etməmək, başqalarını qəbul etmək). Özünü başqaları ilə müqayisə edən belə bir insan daima başqalarında müsbət, özündə isə mənfi cəhətlər tapır. Onların işindən, onun nəticələrindən razılıqdan danışmağa ehtiyac yoxdur. Nəticə kəskin, həddindən artıq daxili aqressiya, son dərəcə yüksək düşmənçilik və günahkarlıq dərəcəsi, inciklik və şübhə, yüksək narahatlıqdır. Bu tip bir şəxsiyyətin formalaşması sistematik, erkən uşaqlıqdan özünə hörmətin boğulması, alçaldılması, müstəqil qərarların qarşısının alınması ilə əlaqələndirilir. Belə bir insan nikbinliyini və özünə inamını bərpa etməyə çalışan insanlara etibar etmir.

Müəllif məktəbləri arasında A.N.Tubelskinin Özünümüqəddərat Məktəbi modeli xüsusi yer tutur. (2, 81) Bu model həm ideyalar, həm də təklif olunan təşkilati həllər baxımından çoxşaxəlidir. Bu məktəbin fərqləndirici xüsusiyyətlərindən biri uşağın fərdiliyinin inkişafına, onun öz müqəddəratını təyinetmə qabiliyyətinə yönəldilməsidir.

Öz müqəddəratını təyinetmə məktəbinin kollektivi insanın öz həyatına, karyerasına, maddi və mənəvi rifahına cavabdeh olmasından, mövcud imkanlardan öz prioritetləri əsasında seçim etməsindən irəli gəlir. Yeni imkanların yaranması digər insanlarla əməkdaşlıqdan, onların müxtəlif birliklərdə, qruplarda birləşməsindən də asılı ola bilər ki, bu da cəmiyyətdə və dövlətdə müsbət dəyişikliklərə səbəb ola bilər.

Bu yanaşma İnsan ideyasına əsaslanır, onun əsas məqsədi insan mahiyyətini, fərdiliyini maksimuma çatdırmaq, özü olmaq və ya "mən nəyəmsə" olmaq, yəni universal və fərdi taleyini yerinə yetirməkdir:

- özünə güvənən, öz imkanlarını daim genişləndirən və onları reallaşdırmağa çalışan;
- həyatın daim dəyişən və gözlənilməz vəziyyətlərində hərəkət etməyi bacaran, peşəkar mobillik qabiliyyətinə malik;
- davamlı özünütəhsil qabiliyyətinə malik;
- öz güclü tərəflərini adekvat qiymətləndirməyi və onların tətbiqi imkanlarını tapmağı bilir;
- məqsədə uyğun qərar qəbul etməyi və nəticə əldə etməyi bacaran;
- başqalarının hüquq və azadlıqlarını pozmadan öz hərəkətlərinə görə məsuliyyət daşımağı bilir;
- özünə bənzəməyən digər insanlara qarşı dözümlü olmağı bilir;
- hakimiyyətdə olan insanların fikir və ambisiyalarını deyil, cəmiyyətdə qanunun aliliyinin zəruriliyini dərk edir, demokratik yolla qurulan qanunlara əməl etməyi və onlara əməl etməyi bilir.

Məktəbin rolu təbiətə, mədəniyyətə, cəmiyyətə və özünə münasibətdə şəxsi özünü tanıma, özünü ifadə etmə, öz müqəddəratını təyinetmə prosesinin həyata keçirilməsi üçün əlverişli şərait sistemi yaratmaqdır.

Bu ideala nail olmaq məktəb həyatının bütün təşkili və onun həyat tərzinin əhəmiyyətli dərəcədə yenidən qurulması ilə əlaqələndirilir.

Uşağa fərdiliyini öyrənmək və inkişaf etdirmək imkanı vermək üçün Özünümüqəddərat Məktəbi xətti və tam tənzimlənən strukturdan məktəbin təhsil mühitinin məkan təşkilinə keçiddən keçir:

1) müəllimin tələbəsi, mövzuları, iş üsulları, materialı mənimsəmə sürəti seçmək azadlığı prinsipləri əsasında qurulmuş təhsil məkanı; şəxsi təhsil məqsəd və vəzifələrinin müəyyən edilməsində, kollektiv və fərdi kurikulumun hazırlanmasında iştirak; şəxsi təcrübə, bilik, üslub, qabiliyyət, maraq, münasibətlər nəzərə alınmaqla; baş verənlərə şəxsi münasibət formalaşdırmaq üçün stimullar (tədris materialı, fenomen, fakt, hadisə, fərziyyə, nümunələr, iş forması, müəllimin və yoldaşların mövqeləri və hərəkətləri); mədəniyyətin inkişafı və ətraf mühitin dəyişdirilməsi üçün uşağı müstəqil fəaliyyət qurmağa həvəsləndirmək və öyrətmək; təhsil prosesinin bütün subyektlərinin fəaliyyətinin qarşılıqlı qiymətləndirilməsi; onların təhsil prosesinin və nəticələrinin özünüqiymətləndirməsi. Təhsil məkanı çərçivəsində həftəlik pulsuz seminarlar (ibtidai məktəb), açıq studiyalar parkı həyata keçirilir; immersion təhsil forması kimi. Kiçik yaşlı şagirdlər əl ilə yazılmış "Mən özüm" kitabını saxlayırlar, şəxsi nailiyyətlər sərgisində iştirak edirlər və müəllimlə birlikdə onların irəliləyiş meyarlarını müəyyənləşdirirlər. Əsas məktəbdə məktəblilərin müxtəlif fəaliyyətlərdə gücünü sınamaq üçün şərait yaratmaq vəzifəsi həll olunur. Orta məktəbdə bir neçə məcburi fənlər istisna olmaqla, tədris müəllimlərin və ya dəvət olunmuş mütəxəssislərin rəhbərlik etdiyi seminarlarda fərdi kurikulumlar üzrə aparılır (5, 93);

2) uşağa öz meyllərini, qabiliyyətlərini müəyyən etmək və digər tərəfdən dünyanı mənimsəmək və özünü ifadə etmək üçün bədii yaradıcılığın forma və üsullarından istifadə etmək üçün sənət sahəsində geniş seçim təmin edən bədii və yaradıcılıq məkanı; müxtəlif fəaliyyət sahələrində;

3) təhsil məkanında oyun sahəsi. Oyun müəyyən problemləri həll etmək, təlim prosesini canlandırmaq və ya tələbələrin motivasiyasını artırmaq üçün nəzərdə tutulmuş ayrı bir element kimi deyil, təhsil prosesinin əsası, nüvəsi kimi qəbul edilir. Bu oyunların əsas xüsusiyyətlərinə aşağıdakılar daxildir (6, 74):

- uşağın baş verənlərin mənasını, həyata keçirilən fəaliyyətlərin məqsəd və vəzifələrini başa düşməsi (oyun məqsəd və şərtləri müzakirə etdikdən sonra müəllimlərin və tələbələrin birgə qərarı nəticəsində başlayır),
- uşaqların bu cür oyunların dizaynının və təşkilinin bütün mərhələlərində iştirakı (uşaqlar böyüklər ilə birlikdə və nə qədər çox olsalar, oyunların prinsiplərinin, şərtlərinin və fərdi mərhələlərinin inkişafında iştirak edirlər, tədricən onların mövqeyinə çevrilirlər; oyun texnikləri),
- tələbə üçün öz müqəddəratını təyin etmək üçün təbii ehtiyac yaradan seçim sahələrinin (formalar, fəaliyyət üsulları, rollar, vəzifələr) olması (tələbə həm oyunda iştirak dərəcəsini, həm də iştirak formalarını, şəxsi məqsədləri və məqsədləri),
- uşağa davam edən prosesdəki yerini və mövqeyini daim izləməyə imkan verən açıq uzunmüddətli komanda və ya fərdi rəqabət elementi;
- yalnız oyun iştirakçıları üçün deyil, həm də onları əhatə edən sosial mühit üçün əhəmiyyətli olan, tez-tez təkcə "daxili" deyil, həm də "xarici" yönləndirilən, görünən bir tamamlamanın, fəaliyyətin nəticəsinin olması (belə Nəticədə ibtidai cəmiyyətin muzeyi meydana çıxdı, "Dekembristlər" tamaşası, bütün məktəb üçün Qələbə bayramı)
- həm oyunun özündə, həm də başa çatdıqdan sonra uşağı özünə və bu oyunun gedişində irəliləyişinə çevirən "əks sahələri"nin olması.

Oyun ayrıca müstəqil bir layihə kimi çıxış edir və təhsil prosesi ümumi diqqət mərkəzində olan və uşaq əsasları üçün görünən, başa düşülən bir-biri ilə əlaqəli layihələrin dövrü kimi qurulur. Uşaqların bu cür ardıcıl layihələrdən keçməsinin nəticəsi, digər məsələlərlə yanaşı, onların öz təhsilindən uzaqlaşmasının aradan qaldırılması və onlar tərəfindən bu təhsilin subyektinə çevrilmək qabiliyyəti və imkanı əldə edilməsidir;

4) hüquqi məkan. Məktəbdə vətəndaşlıq tərbiyəsinin effektivliyi daha çox məktəb həyatının atmosferindən, tədris prosesindən, müəllim və şagirdlərin, şagirdlərin öz aralarında münasibətindən, hər cür problem və münaqişələrin həllindən, məktəb həyatının norma və qaydalarından nə dərəcədə asılıdır. mahiyyətcə demokratik və qanuna əsaslanacaq.(3, 44)

Məktəbin belə yaşayış şəraitinin məcmusu məktəbin hüquqi məkanı adlanır. Məktəbin hüquqi məkanı aşağıdakı elementlərlə demokratik cəmiyyətin işlək modeli kimi təqdim olunur:

- məktəbdə dərs deyən və oxuyan, bərabər mülki hüquqlara malik məktəbin vətəndaşı statusuna malik olanlar (vətəndaşlıq hüquqları məktəb məzunlarına və valideynlərin xahişi ilə verilir);

— məktəb həyatının real vəziyyəti nəzərə alınmaqla, məktəb kollektivinin demokratik dəyərlərinin və münasibətlərinin açıq müzakirəsi üçün şərait yaradılmışdır; bu dəyərləri dərk etməyə təşviq edən xüsusi vəziyyətlər yaradılır,

- uşaqlar və böyüklər ümumi həyatın norma və qaydalarının yaradılmasında iştirak edirlər; məktəbin birgə işlənib hazırlanmış Konstitusiyası var, məktəb həyatının müxtəlif sahələrinə dair qanun və normativ hüquqi akt) (3, 48)

— birgə qəbul edilmiş normaların icrasına nəzarət edən və onlara şərait yaradan səlahiyyətli orqanlar var;

- hər bir tələbənin və müəllimin hər kəsə aid olan ən mühüm məsələlərin (ümumi yığıncaqlar, ödənişlər, referendumlar) həllində iştirak hüquqları təmin edilir;

- hər kəs ümumi həyat normalarının yaradılmasında və ya yenidən nəzərdən keçirilməsində iştirak edir;

- sinfi və digər ilkin kollektivlərdə özünüidarə orqanları var; onlara qanunlar əsasında qərar qəbul etmək səlahiyyəti verilir; ehtiyacı olanlara hüquqi yardım göstərən orta məktəb şagirdlərinin məktəb hüquq məsləhətxanası fəaliyyət göstərir;

5) əmək və ictimai təcrübə məkanı. Valideynlərlə birlikdə və böyük şəhərin imkanlarından istifadə edərək müxtəlif təşkilatlarda tələbələrin sosial və əmək təcrübəsinin təşkili üçün bir neçə sayt yaradılmışdır. Məktəbdə sosial və əmək təcrübəsi şöbəsi yaradılmışdır ki, burada müəllimlə birlikdə şagirdlər peşələr və onların sosial və şəxsi xüsusiyyətləri haqqında məlumat bazası yaradır, məktəblilərin məktəb şöbələrində və sosial mühitdə müvəqqəti məşğulluq məsələlərini həll edirlər. Müxtəlif yaşlarda olan məktəblilər üçün əldə edilmiş sosial təcrübənin refleksiv təhlilinin variantları hazırlanır və sınaqdan keçirilir.

Ümumiyyətlə, aydındır ki, məktəb şəraitində şəxsiyyətin özünü dəyişmə ehtiyacını və imkanını təsir edən və əvvəlcədən müəyyən edən kifayət qədər çox sayda amil və şərtlər var. Bu baxımdan onların təminatına kompleks yanaşma xüsusi maraq doğurur. Şəxsin xüsusiyyətlərini, oriyentasiyasını, özünü inkişaf etdirməyə hazırlığını və bu baxımdan həmyaşıdlarının, böyüklərin və onların yaratdığı icmaların köməyini qəbul etməsi xüsusi əhəmiyyət kəsb edir.

### Ədəbiyyat

1.Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya. Dərslik. "QAPP poliqraf", 2003

2. F.N.İbrahimov, R.L.Hüseynzadə. Pedaqogika. 2 cilddə. I cild. – Bakı:Mütərcim, 2012, s.

3. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı:"Təknur" nəşriyyatı, 2008, 334 s. səh 8–10.

4. Anthony Giddens, Sosiologiya, İstanbul, Qırmızı Nəşriyyat, 2012, s. 201.

5. Ritzer, George. Sociological theory. 8th ed. — N.Y.: McGraw-Hill, 2011

6. Ruth A. Wallace/ Alison Wolf, Çağdaş Sosiologiya Teoriləri-Klassik Ənənəni İnkişaf etdirmək, Doğu Batı Yayınları, Ankara, 2012, s. 355.

## YENİYETMƏLƏRİN SOSİALLAŞMA SƏVİYYƏSİNİN PSİXOLOJİ ƏSASLARI

**Seyidova Leyla Həsən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leyla.seyidli98@gmailçcom*

Sosiallaşma fərdin inkişafının sosial cəhətdən şərtlənməsidir. Bu prosesdə insan sosial varlıq kimi ətraf mühiti dəyişdirir, qarşılıqlı əlaqə və şəxsiyyətlərarası münasibətlər sistemin-

də inkişaf edib sosiallaşır. Sosial psixologiyada sosiallaşma anlayışı dar və geniş mənalarda başa düşülür. Bu anlayışa yanaşma B.D.Parıgin tərəfindən təklif edilmişdir. Dar mənada sosiallaşma anlayışı "sosial mühitə daxil olma", "ona uyğunlaşma" , geniş mənada " isə tarixi proses, filogenez" mənasını ifadə edir.

Tədqiqatçıalrdan:R.İ.Mokşansev və A.V.Mokşanseva sosializasiya anlayışının məzmununa növbəti komponentləri aid etmişlər:

* sosial normaların, bacarıqların və stereotiplərin mənimsənilməsi;

* sosial yönəlişliyin və inandırmanın formalaşması;

* fərdin sosial mühitə və sosial əlaqələr sisteminə daxil olması;

* şəxsiyyətin "mən" inin özünüaktuallaşdırılması;

* cəmiyyətdə, davranış və ünsiyyət formasında, həyati üslub variantında sosial təlimin qəbulu [3, səh.86].

Sosiallaşma prosesində subyekt sosial davranış modellərini, sosial norma və rollarını mənimsəyir. Onun vasitəsi ilə insanlar cəmiyyətdə yaşamağı, bir-biri ilə qarşılıqlı birgə fəaliyyətdə olmağı öyrənirlər. Nəticədə şəxsiyyət sosiallaşma prosesinin fəal subyekti kimi çıxış edir. Sosiallaşma prosesi insan yaşa dolduqca başa çatmır, o konkret məqsədləri və sonluğu olmayan qeyri-müəyyən bir prosesdir. Bu proses insanın bütün antogenezi boyu davam edir. Bu zaman fərdin passiv və aktivsosial mövqeyinin sosial-psixoloji dinamikası həyata keçirilir.

Q.M.Andreyeva sosiallaşmanı "fərdin sosial mühitə daxil olması", "sosial təcrübənin mənimsənilməsi", "sosial əlaqələr sisteminə onun qoşulması" prosesi kimi müəyyən etmişdir [2, səh.274].

Yenieytməlik yaş dövründə insanın inkişafı həmişə pedaqoq və psixoloqların diqqətini cəlb etmişdir. Müasir dövrdə yeniyetmələrin sosiallaşması onun bir şəxsiyyət, fərdiyyət və subyekt kimi funksionallaşmasına zəmin yaradır. Sosiallaşma prosesində yeniyetmələr müəyyən sosial qruplarda yaşlılarla və həmyaşıdları ilə qarşılıqlı münasibətdə, ünsiyyətdə yeni funksiyaları yerinə yetirirlər. Onlar fəaliyyətin müxtəlif ictimai əhəmiyyətli növlərinə daxil olmaqla ünsiyyət dairələrini genişləndirir, sosial dəyərləri mənimsəyir və şəxsi əxlaqi keyfiyyətlərini formalaşdıraraq sosiallaşırlar.

Adaptasiya anlayışının köməyi ilə sosiallaşma yeniyetmənin sosial mühitə daxil olub mədəni, psixoloji və sosial amillərə uyğunlaşması kimi nəzərdən keçirilir. Sosiallaşma prosesində yeniyetmə özünü nümunə göstərir, müxtəlif sosial rolları yerinə yetirir, bununla da özünü təzahür etdirə bilir.

Sosial rolların yerinə yetirilməsi dinamikasında yeniyetmə sosial aləmə daxil olmaqla ətrafındakı insanlarla qarşılıqlı münasibətlərinə dair şəxsi təsəvvürlərini əldə edə bilir. A.V.Mudrik yeniyetmələrin sosiallaşmasında həll ediləcək üç qrup vəzifəni müəyyən etmişdir: təbii-mədəni, sosial-mədəni və sosial-psixoloji [4].

* *Təbii-mədəni vəzifələr* yeniyetmələrin fiziki və seksual inkişafının müəyyən səviyyəsindəki uğurları ilə bağlıdır ki, onlar bu və ya digər ərazi-mədəni şəraitdə normativlərdəki fərqliliklərlə xarakterizə olunur. Yeniyetmə bu vəzifələri yerinə yetirməklə özünü cəmiyyətdə statusunu müəyyən edir və sosiallaşır.

* *Sosial-mədəni vəzifələr* idraki, əxlaqi-mənəvi, dəyər kimi vəzifələr olub tarixi sosiumda yeniyetməlik və gənclik yaş mərhələsi üçün spesifikdir. Bu vəzifələri yerinə yetirməklə yeniyetmə əxlaqi-mənəvi keyfiyyətləri özündə əxz edir, sosial norma və dəyərləri mənimsəyir, fəallıq göstərərək sosiallaşır.

* *Sosial-psixoloji vəzifələr* yeniyetmələrin özünüdərki, özünüreallaşdırması, özünütəyini, özünüaktuallaşdırması ilə bağlıdır ki, o psixoloji məzmuna və onlara nail olmaq üsullarına malikdir. Yeniyetmələr mənsub olduğu sosial qruplarda onu əhatə edən insanlarla qarşılıqlı təmasa daxil olur, özlərini yaşlılar və həmyaşıdları arasında təsdiq edir, sosiallaşaraq öz "Mən konsepsiyası"nı təzahür etdirirlər.

Tərbiyə prosesində adları çəkilən vəzifələrin həlli yeniyetmə şəxsiyyətinin inkişafını və onların sosiallaşmasının zəruriliyini təmin edir. Əgər hər hansı qrupdan olan vəzifələr sosializasiyanın bu və ya digər mərhələsində həll edilməmiş qalarsa, o gəncin sosiallaşmasının ləngiməsinə səbəb olar.

Apardığımız müşahidələr nəticəsində yeniyetmələrin sosiallaşmasının səviyyələri müəyyən edilmişdir:

*Birinci səviyyə aşağı səviyyədir*. Bu səviyyəyə idraki fəaliyyətin aşağı motivasiyası, potensial imkanlarının reallaşmasında passivlik, qeyri-təşəbbüskarlıq, sərvət dəyərlərində nizamsızlıq, davranışda qeyri-adekvat vasitələrin üstünlüyü, şəxsi hisslərini ifadə edə bilməmək, emosional gərginlik, davranışın böyüklər və başqaları tərəfindən tənzimlənməsi, həyati fəaliyyətin reproduktiv xarakteri aiddir.

Bütün bunlarla yanaşı olaraq birgə fəaliyyətdə şəxsiyyətlərarası biliklərə zəif yiyələnmə, yaşlılarla və həmyaşıdları ilə münasibət yaratmağa qeyri-şüurlu yanaşma, habelə sinifdaxili əlaqələrdə çətinliklər: sosial hadisələrə münasibətdə tədqidilik, münasibət qura bilməmək, həmyaşıdları arasında öz mövqeyində möhkəm durmağa cəhd etmək, sosial normalar çərçivəsindən çıxış edərək birgə fəaliyyətdə və qarşılıqlı münasibətlərdə qiymətləndirmənin olmaması və s. aiddir. Məsələn, Oqtay (14 yaş) çox çətinliklə dəyişən mühitə adaptasiya olunur, tez-tez sinif yoldaşları ilə mübahisə edir, sinfin ictimai işlərində qeyri fəaldır.

Başladığı işi sona çatdıra bilmir, müstəqil qərarların qəbulunda, hisslərini ifadə etməkdə çətinlik çəkir. Oqtayda passivlik və tənbəllik dominantlıq təşkil edir. Onun sinifdəki fəaliyyəti yoldaşları tərəfindən tənzimlənir. Deməli, Oqtayda sosiallaşma aşağı səviyyədədir.

*İkinci səviyyə orta səviyyədir*. Bu səviyyəyə situativ motivasiya və idraki fəaliyyətin əhəmiyyətliliyi, idraki maraq və qabiliyyətləri reallaşdırma axtarışı, sərvət dəyərlərinin kifayət qədər sabit olmaması, mənəvi ideal axtarışına cəhd göstərmə, davranışın daxilən tənzimlənməsində situativliyin təzahürü, şəxsi hisslərin ifadəsində situativ idarəçilik, həssaslıq, həyati fəaliyyətin produktiv xarakteri aiddir.

Bütün sadalananlarla yanaşı sosial norma və qaydaların mənimsənilməsi əsasında münasibətlərin tənzimlənməsinə seçici münasibət, müvafiq situasiyalara bələdləşmə bacarığı, habelə sosial mövqeyini, baxışlarını bildirmək, şəxsi və birgə fəaliyyəti qiymətləndirmək xarakterikdir. Bu səviyyədə gənc sosial münasibətlərdə biliklərə idraki fəallığını təzahür etdirir. Məsələn, Şəfəq (15 yaş) öz sinif yoldaşları və müəllimləri ilə ünsiyyətcildir, mübahisələrdə, diskussiyalarda şəxsi fikirlərində inadlıdır. Təlim fəaliyyətində kifayət qədər müvəffəqiyyətlidir, başladığı işi başa çatdırmağa cəhd edir.

Çətin situasiyalarda (ünsiyyətdə, riyazi tapşırıqların həllində), müstəqil qərarların qəbulunda çətinlik çəkir, yoldaşlarından və müəllimlərdən kömək üçün onlara tez-tez onlara müraciət edir, çox həssasdır. Bu qızın davranışının daxilən tənzimlənməsində situativlik özünü göstərir. Deməli, Şəfəqdə sosiallaşma orta səviyyədədir.

*Üçüncü səviyyə yüksək səviyyədir*. Bu səviyyə üçün idraki fəaliyyətin sabit və yüksək motivasiyası, təşəbbüskarlıq, işə yaradıcı yanaşmaq arzusu, kreaitivlik, emosional sabitlik, empatiya, fərdi qanunauyğunluqlarla ifadə olunmuş sərvət dəyərlərinin iyerarxik strukturu, uğura istiqamətlənmə, hərəkət və davranışların nəticəsini qabaqcadan görə bilmək xarakterikdir.

Apardığımız psixoloji tədqiqatın nəticələri göstərir ki, yeniyetmələrdə orta və yüksək səviyyədə sosiallaşma üstünlük təşkil etmişdir. Bir sözlə, yeniyetmələrin sosial varlıq kimi cəmiyyətdə sosiallaşmasına özünüdərk, "şəxsi Mən", başqa adamlarla qarşılıqlı münasibət, ictimai birliklərdə biliklərin üstünlüyü, ayrı-ayrı sosial institutlarda onların funksiyaları, ictimai əhəmiyyətli dəyər və normaların mənimsənilməsi, sosial yönəlişlik və sərvət dəyərlərinin formalaşması, praktiki vərdişlərin qazanılması və konkret fəaliyyətdə onların reallaşması aid edilir. Sosializasiya prosesində yeniyetmələr sosiallaşaraq adaptasiya, inteqrasiya, özünüinkişafa və özünüreallaşmaya nail olurlar. Onların birliyi ətraf mühitdə, birgə fəaliyyətdə

gəncin uğurlu sosiallaşmasını təmin edir. İdeal baxımdan sosiallaşmış gənc sosial tələblərə uyğun cəmiyyətdə hərəkət etməli, həyati situasiyaların inkişafında gedən neqativ hallara və onun fəaliyyətinin inkişafını ləngidən meyllərə qarşı durmağı bacarmalıdır.

**Ədəbiyyat:**

1. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı.: Araz, 2000, -196 s.

2. Андреева Г.М. Уровень соöиальной стабильности и особенности соöиализаöии в старшем школьном возрасте // Вестник МГУ. Серия 14. Психология. - 2002. - №4. - с.31.

3. Мокшанöев Р.И., Мокшанöева А.В. Соöиальная психология. М., Новосибирск: 2001. - 408 с.

4. Мудрик А.В. Соöиализаöия человека: учебное пособие. М.: Изд-во öентр "Академия", 2004, -304 с.

## MÜXTƏLİF YAŞ DÖVRLƏRİNDƏ AUTİZMİN ƏLAMƏTLƏRİ

**Qasımova Durna Mübariz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*durnagasimova@gmail.com*

Autizm sosial münasibətlərdə, uşağın nitqində problemin olması ilə özünü büruzə verən bir inkişaf problemi hesab olunur. Bu xəstəliyin əlamətləri iki yaşından müşahidə edilə bilir, diaqnoz isə əsasən 3 yaşından etibarən qoyulur. Autizmli uşaqların hər biri fərdi xüsusiyyətlərə malik olduğundan, onun əlamətlərini tam müəyyən etmək çətindir. Əksər uşaqlarda autizm sindromunun əlamətləri 18-24 ay arasında müşahidə edilir. Autizmli uşaqların 50-70%-i intellekt cəhətdən digər uşaqlarla müqayisədə geri qalırlar və təxminən 25%-də epileptik tutmalar müşahidə olunur. 2-3 yaşlı uşaqların təxminən 25%-i sonradan danışa və ünsiyyət qura bilirlər. 6-7 yaşından başlayaraq isə normal uşaqlarla birlikdə məktəbə gedə bilirlər. Qalan 75%-i isə ömürlük valideyn qayğısına ehtiyac duyurlar. Bu uşaqların əsas əlamətləriyaş dövrlərinə uyğun olaraq aşağıdakı kimi təsnif edilir.

**Körpəlik dövrü:** Körpəlik dövründə autizmli uşaqların inkişafı normal uşaqların inkişafından çox da fərqlənmir. Yuxu və qidalanmalarında problem görülsə də,inkişafları normal gedir. 12-24 aylarda isə inkişaf geriliyi müşahidə edilməyə başlayır. Onlarda iki növ davranış forması özünü göstərir. Birinci tipə aid olan uşaqlar dayanmadan ağlayır,narahat olurlar. Valideynlər onları nadinc körpə adlandırırlar. İkinci tip uşaqlar isə çox sakit olurlar,ac olsalar belə ağlamırlar. İnkişafı normal gedən bir uşaq 3 ayından başlayaraq ətrafındakı insanlara baxır, gülümsəyir. Amma autizmli uşaqlarda bu, müşahidə edilmir.

**Məktəbəqədər dövr**: Autizmin əlamətləri özünü bu dövrdə daha çox göstərir. Bütün hərəkətləri təqlid etməyə başlayırlar, oyun qurmaqda, oyun oynamaqda çətinlik çəkirlər. Əgər onlara oynamaq üçün maşın verilibsə, onu sürmək yerinə, təkərləri ilə oynamağa davam edirlər. Onlar göz kontaktı qurmaqdan daim qaçırlar. Bu dövrdə əlamətlər daha çox nəzərə çarpdığı üçün diaqnozun qoyulması çox vacibdir.

**Məktəb dövrü**: Bu dövr qismən də olsa digərlərindən fərqlənir. Çünki autizmli uşaqlar öz yaşıdlarına maraq göstərməyə başlayırlar. Bəziləri dildən ünsiyyət vasitəsi kimi istifadə etməsə də, digərləri az da olsa danışırlar. Amma onların nitqi məqsədli olmur və şəxs əvəzliklərindən istifadə də düzgün deyildir.

**Yeniyetməlik dövrü**: Bu dövrdə bəzi uşaqların inkişafı müsbətə doğru getdiyi halda, digərlərində geriləmə müşahidə edilə bilər. Bəzi hallarda isə nitqin itməsi ilə də nəticələnir. Onlar öz vəziyyətlərini dərk etməyə başlayırlar, bu zaman isə depressiyaya düşürlər və aqressiv olurlar. Narahat olduqları bir hadisə baş verdikdə bunu fiziki şiddətlə nümayiş etdirirlər.

**Yetkinlik dövrü**: Bu dövr çoxu üçün ağır keçir. Çünki onlar özlərini ətraf aləmdən təcrid edirlər. Çox az bir qismi isə öz həyatına normal davam edə bilir. Bunun əsas səbəbi isə onların hər hansı peşəyə yönləndirilməsidir. Peşə fəaliyyətinə cəlb edilmək yetkinlik dövrünün rahat keçirilməsinə kömək edir.

Autizmli uşaqların ümumi əlamətlərinə nəzər yetirsək görərik ki, onlar soyuğu, istini, ağrını çox da hiss etmirlər. Buna görə də, onlar yana bilirlər və ya yara içində olurlar. Bunun əsas səbəbi kimi, buğda və süd kimi proteinlərin lazimi qədər həzm olunub qana keçə bilməməsi göstərilir. Bu proteinlər bədəndə morfin təsiri yaradır. Ona görə də autizmli uşaqları bu növ qidalardan uzaq tutmaq lazımdır. Ümumiyyətlə, autizmli uşaqlarda təhlükə və qorxu hissi olmur. Məsələn,onlar qorxmadan maşın yoluna çıxırlar, odla oynayırlar. Bu səbəbdən də, onları gözdən qoymaq olmaz.

Autizmli uşaqlar qapı açma, qapı bağlama, rəqs etmə və üzmək kimi motor bacarıqlarına sahib deyillər. Bəzi autizmli insanlar əlləri vəqollarından fərqli istifadə edirlər. Məsələn, ayaq uclarında yeriyirlər, əllərini bir-birinə vururlar,öz ətraflarında fırlanırlar. Bu hərəkətlərin çoxu beyində azalan qan axımını artırmağa istiqamətlənmişdir.

Belə uşaqlar fiziki təmasdan hədsiz dərəcədə narahat olurlar, qucağa alınmaq istəmirlər. Vaxtlarının çoxunu tək oynayaraq keçirirlər. Normalda 9-10 aylıq uşaqlar ana, ata kimi sözlər deyirlər və ya müxtəlif səslər çıxarırlar. Autizmli uşaqlarda ilk diqqət çəkən məqamlardan biri, onların vaxtında danışa bilməmələridir. Cəmiyyətdə belə bir fikir formalaşmışdır ki, qızlara nisbətən, oğlan uşaqları gec danışır. Buna görə də, valideynlər bunun normal olduğunu düşünüb, həkimə müraciət etmirlər.

Bir az danışa bilən autizmli uşaqlar isə düzgün və mənalı danışmırlar. Və qarşısındakının ona dediyi sözləri dayanmadan təkrar edirlər. Onlar tam danışa bilmədikləri üçün, nəsə istədikdə kiminsə əlindən tutub, istədikləri şeyi işarə edərək göstərirlər.

ASP-li uşaqlar öyrəşdikləri nəyinsə dəyişdirilməsini qətiyyən istəmirlər. Məsələn, evdəki əşyaların yerinin dəyişdirilməsini istəmir, həmişə eyni paltarı geyinmək istəyirlər. Hərşeyi sırası ilə etməyi sevirlər. Əvvəl televizora baxır, sonra yemək yeyir və sonda oyun oynayırlar. Bu sıralamada kiçik bir dəyişiklik edilsə, çox qəzəblənirlər.

Onlarda qəzəblə yanaşı aqressivlik də müşahidə edilir. Autizmli uşaqlar başqalarını dişləmə, cırmaqlama kimi aqressiv hərəkətlər nümayiş etdirə bilirlər. Valideynlər uşaqların bu hərəkətlərinin hansı səbəbdən baş verdiyini müəyyən etməyi bacarmalıdırlar. "Uşaqda istədiyi bir şeyi küçədə və ya mağazada gördükdə əsəb tutması baş verərsə, yeganə həll yolu onu hadisənin baş verdiyi yerdən mümkün qədər cəld, lakin çaxnaşma yaratmadan və mümkün qədər sakit bir tərzdə uzaqlaşdırmaqdır" [3,səh 88]. Əsəb tutmaları baş verdikdə valideynlər sakit, səbrli qalmağa çalışmalı və uşağı başqa fəaliyyətə cəlb etməklə diqqətini yayındıra bilərlər.

**Ədəbiyyat:**


1. Əliyeva K. Autizm və təlim. Bakı, 2015
2. Əmrahlı L.Əlizadə O.Uşaq Autizmi.Bakı.2018
3. Uinq L.Autizm spektrı.Azərbaycan Respublikası Təhsil Nazirliyi,Bakı,2016


## TƏLƏBƏLƏRİN İDRAK TƏLƏBATLARININ FORMALAŞMASININ NƏZƏRİ ƏSASLARI


**Rüstəmova Aysel Akif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aysel.044@bk.ru*


Tələbələrdə idrak tələbatlarının formalaşdırılması, inkişafının səmərəli təşkili və idarə olunması, pedaqoji-psixoloji təminatı mürəkkəb problem olmaqla yanaşı, eyni zamanda mühüm sosial vəzifədir. Cəmiyyətin sosial-iqtisadi transformasiyası konstektində universitet tələ-

bələrinə yüksək tələblərin qoyulduğu, onların arasında peşəkarlığın, ictimai fəallığın və yaradıcılığın mühüm yer tutduğu şəraitdə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması əsas vəzifələrdəndir. Müasir tələbə çox vaxt öyrənmə üçün aşağı səviyyəli daxili motivasiyaya malikdir, əksər hallarda onun motivi yüksək keyfiyyətli bilikdən çox yüksək qiymət almaq istəyinə əsaslanır. Gənclik yaş dövründəki tələbə şəxsiyyəti inkişafın digər mərhələlərində olan insanlardan özünəməxsus xüsusiyyətləri: obyektiv reallığın spesifik olaraq dərk edilməsi, motivasiya sahəsinin olması, informasiya texnologiyalarından səmərəli istifadə etməsi və s. ilə fərqlənir. Tələbələrin ən səciyyəvi cəhəti biliyə olan tələbatlarıdır.

İdrak tələbatı yeni biliklərin əldə edilməsinə yönəlmiş fəaliyyətlərə olan ehtiyacdır. İdrak tələbatının əsas xarakterik xüsusiyyəti onun təkcə nəticəyə deyil, həm də stimullaşdırdığı fəaliyyət prosesinə yönəldilməsidir. B.Q.Ananyev qeyd edir ki, idrak tələbatının ödənilməsinin nəticəsi yeni biliklərin formalaşmasıdır: "bu tələbatın genezisi idrak fəaliyyəti təcrübəsində yatır". İdrak tələbatının predmeti bilik və onu əldə etmək yollarıdır. İnkişaf etmiş idrak tələbatı doyumsuzdur - o, ödənildikdən sonra yox olmur, əksinə, artır. A.N. Leontyevə görə, insanın mövcudluğunun mühüm şərti onun tələbatlarının olmasıdır.

Tələbat insanın nəyəsə ehtiyac duymasından, əldə edilmiş və zəruri olan arasında daxili ziddiyyəti əks etdirməsindən və insanı bu ziddiyyəti aradan qaldırmaq üçün fəaliyyətə sövq etməkdən ibarət olan haldır. Beləliklə, tələbatlar onlarda olan ziddiyyətlər vasitəsilə şəxsiyyəti aktivləşdirir, hərəkəti təmin edir. İnsanın tələbatları maddi və mənəvi olaraq fərqləndirilir. Tələbələrin idrak tələbatlarına biliyə tələbat (informasiyaya), bilik əldə etmə yollarını mənimsəmək tələbatı (öyrənmək bacarığı), idrak fəaliyyətinə tələbat, elmi yaradıcılığa tələbat və s. aiddir. İdrak tələbatlarının ödənilməsi idrak fəaliyyətinin aktivləşməsinə gətirib çıxarır.

Psixoloji və pedaqoji ədəbiyyat göstərir ki, insanın əqli inkişafına idrak motivləri olduqda əldə edilən biliklər daim və davamlı şəkildə təsir edir, onların inkişafı tələbələrin fəallığını və təlim prosesinin səmərəliliyini artırır və təhsilin inkişafı üçün əsas yaradır. Motivlər fərdin müəyyən ehtiyaclarının aktuallaşması ilə əlaqədar fəaliyyətə, davranışa daxili psixi çağırışlardır. Arxangelski idrak fəaliyyətini tədqiq edərək qeyd edir ki, motivasiya insanın reallığa münasibətini xarakterizə edir və "biliyə tələbatın yaranması ilə bağlıdır". Koqnitiv fəaliyyət üçün davamlı motivlər toplusu, onların idrak tələbatlarının formalaşmasına kömək edir.

Biliyin tələbənin əsas idrak motivinə çevrilməsi təlim prosesində baş verir. Hər təlim növü, hər didaktik sistem, müəllimin istifadə etdiyi hər bir, hətta ən innovativ pedaqoji texnologiya effektiv təlim problemini həll etməyə qadir deyil. Bir şey danılmazdır: tələbə müstəqil şəkildə öyrənmədə maksimum səy göstərməli, bilik əldə etmək üçün yüksək məqsədlər qoymalı, öyrənmə və təhsil və peşə bacarıqlarını əldə etmək üçün yüksək motivasiyaya sahib olmalı, öyrənilən fənlərə idraki maraq göstərməlidir, əks halda yüksək ixtisas hazırlığı olan professor ən böyük səylə belə ona keyfiyyətli bilik verə bilməyəcəkdir. Müəllimlər bilir ki, tələbə biliyin mənimsənilməsinə laqeyd yanaşırsa, təlim prosesində iştirak etmirsə, ona yüksək keyfiyyətli bilik vermək mümkün deyil. Odur ki, "öyrənən"in maraqları formalaşmalı və inkişaf etdirilməlidir ki, o, "öyrənən" olsun.

Tələbələrin idrak fəaliyyətinə az cəlb olunmasının və onların tədris və idrak fəaliyyətinə marağının olmamasının bəzi səbəblərini qeyd edək: Öyrənmək üçün motivasiya, idrak marağı və idrak fəaliyyətində yüksək aktivliyin təzahürü üçün zəruri olan təhsil prosesinin həyata keçirilməsi üçün şəraitin tam olmaması və ya qeyri-kafi olması; Müəllim tələbələrə maraqlı olmayan tədris materialını təqdim edir; Müəllimin maddi, təşkilati, metodik və davranış hərəkətlərinin məzmunu tələbələrdə maraq doğurmur, onlar darıxdırıcı və cəlbedici deyildir; Müəllim tələbələrdə idrak marağı yaratmaq üçün ənənəvi təlim metodlarının bütün potensialından istifadə etmir; Öyrənmək üçün bir çox motivlər yoxdur və ya yenilənmir.

Şüurlu öyrənmənin əsas motivləri gələcək fəaliyyətə hazırlaşmaq üçün təbii istək və biliyə maraqdır. İdrak maraqların inkişafı təlim prosesində biliklərin mənimsənilməsi və sistemləşdirilməsi kimi baş verir. Tələbələrin öyrənmə motivasiyası dəyişə bilər. Bu, onlarda

yeni maraqların yaranması ilə əlaqədardır ki, bu da aktuallaşan tələbatlardan irəli gəlir. Buna görə də, şəxsiyyətin oriyentasiyasının tərkib hissəsi kimi, bütövlükdə onun formalaşmasına və nəticədə tələbatların formalaşmasına təsir edən motivlərlə yanaşı, şəxsiyyətin maraqları kimi bir komponent də nəzərə alınmalıdır.

Hadisələrə fəlsəfi nöqteyi-nəzərdən yanaşan gənclər, maraqlarını cəlb etdiyi bilikləri dərindən mənimsəyirlər. Onlar sadəcə dərsliklə kifayətlənmir, əlavə materiallardan istifadə edir, müxtəlif yaradıcılıq sahələrinə dair maraqları artır. Tələbələrdə idrak marağının və fəaliyyətinin inkişaf etdirilməsi üsullarına müzakirə, söhbət, mənbə ilə iş (məsələn, kitab), nümayiş, illüstrasiya, idrak oyunu, situasiya metodu və s. kimi mühazirə növləri aiddir. Həmçinin məhsuldar düşüncə, müstəqilliyin təzahürü üçün motivasiya üsullarına müzakirələr, idrak oyunları, proqram öyrənmə metodları, eləcə də situasiya metodu daxildir. Öyrənmək üçün kifayət qədər motivasiya olmadıqda, tələbələr təkcə materialın öyrənilməsi zamanı deyil, həm də bütün təlim prosesi ilə əlaqədar olaraq fəaliyyətin azalmasını (və bəzən yox olması) yaşayırlar. Mövcud vəziyyəti uğurla həll etmək üçün təlim prosesində aparıcı rolun tələbələr arasında yeni öyrənmə motivlərinin formalaşmasına, onların təhsil prosesinə fəal münasibətinin inkişafına təsir edən pedaqoji şəraitin tutması lazımdır.

## KİÇİK MƏKTƏBLİLƏRİN ƏXLAQİ HİSSLƏRİNİN İNKİŞAFINDA MÜƏLLİM VƏ VALİDEYNİN ROLU

**Allahverdiyeva Mahizər Zaur qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mahizerallahverdiyeva2704@gmail.com*

Kiçik məktəblilərin əxlaq tərbiyəsi mürəkkəb, çətin, uzun bir prosesdir. Bu proses müəllimlərdən, valideynlərdən, ictimaiyyətdən şagird şəxsiyyətinin mənəvi sferalarına məqsədyönlü psixoloji-pedaqoji təsir tədbirləri həyata keçirməyi tələb edir. K.D.Uşinski əxlaqi təsirin "ümumilikdə zehni inkişaf etdirmək, hər kəsə şəxsi maraqlarını izah etməkdən" daha vacib vəzifə olduğunu qeyd edirdi. Kiçik məktəblinin bir şəxsiyyət kimi inkişafında məktəb mühüm rol oynayır. Burada məktəblinin dünyagörüşü formalaşır, dünyaya baxış şəkli dəyişir, insani münasibətləri, şəxsi və ictimai münasibətləri mənimsəyir. Əxlaqi hissləri "mənəvi hisslər", "dünyagörüşü hissləri" də adlandırırlar. Əxlaqi hisslər sosial mahiyyət kəsb etdiyinə görə ailə, məktəb, digər sosial institutlarda həyata keçirilən təlim-tərbiyə işləri ilə sıx əlaqədardır. Əxlaqi hisslər hər bir insanın cəmiyyətdə mövcud olan əxlaq normalarına bəslədiyi münasibətlə bağlıdır. Əxlaqi hisslər müsbət və yaxud mənfi ola bilər. Müsbət əxlaqi hisslərə-düzlük, doğruçuluq, humanizm, dostluq, yoldaşlıq, məsuliyyətlilik, intizamlılıq, vətənpərvərlik, mənfi əxlaqi hisslərə isə yalançılıq, düşmənçilik, fərdiyyətçilik, məsuliyyətsizlik, intizamsızlıq və s. aid edilir. Kiçik məktəblilərdə hisslər az keçiciliyi və davamlılığı ilə fərqlənir. Uşaqların əxlaq tərbiyəsi bütün həyatı boyu davam edir. Uşağın dünyaya gəldiyi, inkişaf etdiyi, böyüdüyü mühit onun əxlaqının formalaşmasında həlledici rola malikdir. Uşaq dünyaya ailədə göz açır və ilkin əxlaqi dəyərləri məhz ailədə öyrənməyə başlayır. Məşhur pedaqoqlardan biri olan H.K.Krupskaya ailə tərbiyəsinin təkcə uşaqlar üçün deyil, valideynlər üçün də vacib olduğunu qeyd etmişdir. Ona görə ki, bu proses bir növ özünütərbiyə prosesidir. Ailədə qəbul olunmuş davranış normaları uşaqlar tərəfindən çox tez mənimsənilir. Tərbiyə işində valideynlər bəzi hallarda səhvlərə yol verirlər. Ailələrdə bəzən valideynlər uşağın davranışına laqeyd münasibət göstərirlər. Bunun bir sıra səbəbləri mövcuddur. İlk növbədə buna səbəb ailə ilə məktəbin əlaqəsinin ya ümumiyyətlə olmaması,ya da zəif olması, valideynlərin uşağın yaş və fərdi xüsusiyyətləri haqqında kifayət qədər bilikli olmaması, müəllimlər ilə valideynlərin uşaqların qarşısına qoyduğu tələblərin müxtəlifliyi ola bilər. Bütün bunlar valideynlərin uşaqların əxlaqi inkişafına məsuliyyətsiz yanaşmasına gətirib çıxarır ki, bu da öz növbəsində bir müddət sonra mənfi nəticələr verir. Belə ailələrdə uşaqla valideyn arasında şəxsiyyətlərarası əlaqə demək

olar ki, yox dərəcəsindədir. Əxlaq tərbiyəsi mürəkkəb prosesdir, onun əsasında yetkin insanı səciyyələndirən, onu nəcib əməllərə ruhlandıra bilən yüksək əxlaqi hisslərin formalaşdırılması dayanır. Bu mühüm keyfiyyətlər uşaqda ailə adət-ənənələrinin, dəyərlərinin təsiri altında inkişaf edir. Psixoloqların fikrincə uşaqlarda əxlaqi hisslər böyüklər və həmyaşıdlar ilə münasibətlər prosesində təşəkkül tapsa da əsas yeri ailə tutur.Uşağın inkişafının uğuru, mənəvi rifahının dərəcəsi onu əhatə edən böyüklərin mədəniyyətindən, əxlaqi prinsiplərindən asılıdır. Erkən yaşda uşaqların bir sıra əxlaqi qaydalara riayət etməməsi təbii haldır. Erkən yaşda uşaq düzgün davranışın mahiyyətini tam dərk edə bilməsə də, bunu valideynin xoşuna gəlmək üçün edir. Məktəbə daxil olan uşaq təlim-tərbiyə prosesinin təsiri altında əxlaqi davranış qaydalarına, əxlaqi hisslərə yiyələnir. Artıq kiçik məktəbli müvafiq davranış normalarının, qaydalarının əhəmiyyətini, vacibliyini dərk edərək, müəllim tərəfindən irəli sürülən tələbləri icra etməyə hazır olur. Kiçik məktəblilərin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlər və psixoloqlar uşağın tərbiyəsinə ümumi baxışın olmamasını mənfi amil hesab edirlər. Belə ki, müəllim və valideyn münasibətlərinin əsasını əməkdaşlıq, məktəblinin inkişafı konsepsiyasının işlənib hazırlanması təşkil etməlidir. Müəllim valideynlərə izah etməlidir ki, onlar arasında əxlaqi hissləri təlqin etməkdə yaranan fikir ayrılıqları məktəblinin əxlaqi xarakterinin formalaşmasında çox böyük çətinlik yaradır. Bəzən məktəb təcrübəsində əxlaqi hisslərin formalaşdırılması müəllim tərəfindən lazımi səviyyədə qiymətləndirilə bilmir. Bunun nəticəsində uşaqlarda xüsusilə I-II sinif şagirdlərində təlimə qarşı müsbət münasibət zəifləyir, arzuolunmaz əxlaqi xüsusiyyətlər formalaşmağa başlayır. Müəllim uşaqlar arasında səmimi yoldaşlıq münasibətlərinin qurulmasına və onların ümumi maraq ətrafında birləşdirməyə çalışmalıdır. Müəllim kiçik məktəblilərdə müsbət əxlaqi hissləri formalaşdıraraq, mənfi əxlaqi hissləri aradan qaldırmağa nail olmalıdır. Belə olmasa müəllim "çətin tərbiyə olunan" şagird obrazı ilə üzləşməli olacaq. Təhsil müəssisələrində dərs əsas təlim-tərbiyə formasıdır. Kiçik məktəblilərin əxlaqi hisslərinin düzgün inkişaf etdirilməsi üçün ümumtəhsil məktəblərində müəllimlər tədris işinin təkmilləşdirmək üçün səmərəli yollar tapmalıdır. Azərbaycan dili dərslərində uşaqların həll etdiyi bir çox tapşırıqlar imkan verir ki, uşaq başqalarının keçirdiyi müəyyən hissləri qavrasın, yaşasın, mənimsəmiş olduğu əxlaq normalarına uyğun qiymətləndirsin. Müəllim təlim prosesində xüsusən əsərlərin seçilməsində diqqətli olmalıdır. Əsərlərin seçilməsi vətənpərvərlik, təbiətə hörmət, əməyə məhəbbət, ictimai əmək, xeyirxahlıq, düzlük, doğruçuluq, dürüstlük kimi əxlaqi hisslərin tərbiyəsi istiqamətində işləri əhatə edir. Nağılları, hekayələri, şeirləri oxuyaraq təhlil etmək, kiçik yaşlı şagirdlərə insanların hərəkətini anlamağa və qiymətləndirməyə kömək edir. Müəllimlər kiçik məktəblilərə dostluq, sədaqət, humanizm haqqında suallar doğuran ədəbi əsərləri onların başa düşəcəyi formada oxuya və müzakirə edə bilərlər. Xüsusilə şifahi xalq yaradıcılığı nümunələri kiçik məktəblilərdə əxlaqi hisslərin yaradılmasında əhəmiyyətli rola malikdir. Şifahi xalq yaradıcılığı nümunələri hər zaman ən vacib pedaqoji vasitələrdən olmuşdur. Kiçik məktəb yaşlı şagirdlərin əxlaqi tərbiyəsinin sosial-pedaqoji, psixoloji vasitəsi kimi atalar sözləri, tapmacalar, xüsusi əhəmiyyətə malikdir. Müəllimlərin kiçik məktəblilərə öyrətdiyi müxtəlif nağıllar, şeirlər əxlaqın fərqli aspektlərinin-yəni əxlaqi yaradıcılığın, əxlaqi hisslərin, əxlaqi keyfiyyətlərin, əxlaqi davranışların inkişafına təkan verir. Nümunə olaraq göstərə bilərik ki, heyvanlar haqqında nağıllar uşaqlara sevgini, xeyirxahlığı, qarşılıqlı yardımı təlqin edir. Əsərlərin qəhrəmanlarının timsalında uşaqlar yaranmış vəziyyətdən uyğun çıxış yolu tapmağı, empatiya qurmağı bir-birinə qarşı mehriban, dürüst, ədalətli olmağı öyrənirlər. Əxlaqi hisslərin formalaşmasında davamlılıq müəllimdən sinifdəki bütün münasibətlərdən daim xəbərdar olmağı, uşaqların bir-biri ilə münasibətlərində çətinlik və səhvlik yarandıqda uşaqların dərhal köməyinə gəlməsini tələb edir. Bu məktəbdə müsbət emosional əlaqə, kiçik məktəblilərdə şən əhval-ruhiyyə mühiti, sinif kollektivində dostluq münasibətlərinin yaranmasına kömək edəcəkdir. Məktəbdə kiçik məktəblinin öz sinif yoldaşları ilə qarşılıqlı münasibətində fərqli məqamlar müşahidə olunur. Təlim prosesi kiçik məktəbliləri bir birinə daha da yaxınlaşdırır. Kiçik məktəbli öz yoldaşına kömək etməyə, lazım gəldikdə dərdinə, kədərinə şərik olmağa

çalışır. Təkcə sinifdə deyil, sinifdənkənar fəaliyyətlər də əxlaqi hisslərin inkişafına müsbət təsir göstərir. Hər bir sinifdənkənar fəaliyyət, məzmunundan, keçirilmə qaydasından asılı olaraq kiçik məktəblilərin əxlaqi biliklərinin genişlənməsinə imkan yaradır.

## MƏKTƏBDƏ PSİXOLOJİ XİDMƏTİN İŞIQLI GƏLƏCƏYİ

**Əliyeva Nigar Ramiz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aliyeva_nigar_97@mail.ru*

Müasir məktəb müxtəlif psixoloji problemlərlə rastlaşır. Müəllim sinifdə, bu canlı psixoloji mühitdə praktik psixoloq kimi müxtəlif psixoloji problemlər həll edir. Bu zaman belə bir sual ortaya çıxır, görəsən, o, bu problemləri səriştə ilə araşdıra və müəyyənləşdirə bilirmi? Onları mütəxəssis kimi həll etmək üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmişdirmi? Bu suallar nə qədər ənənəvi görünsə də, əvvəlki illərdən fərqli olaraq bu gün aktual məsələ kimi səslənir. XXI əsr Azərbaycan məktəbinin uğurları bütün başqa şərtlərlə yanaşı, həm də məhz psixoloji biliklərin məktəb təcrübəsində səriştə ilə gerçəkləşməsindən asılı olacaqdır.

1990-1991-ci və ondan sonrakı illərdə Azərbaycan psixologiyası və məktəb tarixində fərəhli bir hadisə baş vermiş, məktəblərimizdə ilk dəfə olaraq psixoloji xidmət təşkil olunmuşdur. İnkişaf etmiş ölkələrdə ictimai təcrübənin müxtəlif sahələrində peşəkar psixoloqların fəaliyyətə başlaması əlamətdar hadisə sayılmışdır. Alimlər müəyyən etmişlər ki, müxtəlif ölkələrdə psixologiya elminə marağın artması həmin ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bağlıdır.

İnkişaf etmiş ölkələrdə psixologiya elminin geniş imkanlarından məharətlə istifadə olunur. Psixologiya tarixini araşdıranda bir cəhət nəzərə çarpır ki, bu işlə müxtəlif peşə sahibləri – filosoflar, təbiblər, fizioloqlar və b. məşğul olublar. T.Ribo özünün məşhur əsərlərinin birində həsrətlə yazırdı: “Görəsən elə bir vaxt gələcəkmi ki, fizika ilə fiziklərin, kimya ilə kimyaçıların məşğul olduğu kimi psixologiya ilə də psixoloqlar məşğul olacaqlar”?

Bu sual uzun illər ərzində müxtəlif ölkələrin psixoloji fikir tarixində “ölüm və qalım” problemi kimi səslənmiş və bizim respublikamız üçün də aktual məsələ olmuşdur.

Psixologiya elminə aid faktlardan faydalanmadan təlim-tərbiyə prosesini optimallaşdırmaq mahiyyətcə mümkün deyil. İlk praktik psixoloqlarımız artıq bəzi məktəblərimizə psixologiya elminin əsrarəngiz ab-havasını gətirmişlər. 90-cı illərin birinci yarısında bu sahədə nə qədər çox iş görülsə də, ancaq ilk məqsədyönlü addımlar atılmışdır. Respublikamızda psixoloji xidmətin gələcəkdə daha da genişlənməsi, hərtərəfli şəkildə məlumatlandırılmaqla inkişaf etməsi, bəlkə də bütövlükdə psixologiya elminin özünün taleyi məhz bu təcrübənin nə qədər uğurlu olmasından asılı olmuşdur.

Məktəbdə praktik psixoloq su və hava kimi vacibdir. Eksperimental tədqiqatlar da, inkişaf etmiş ölkələrin psixologiya sahəsində təcrübəsi də bunu sübut edir. İlk praktik psixoloqların yetişməsi zamanı belə bir sual yaranırdı, görəsən, respublikanın ilk məktəb psixoloqları məktəb direktorlarını, müəllimləri, valideynləri və nəhayət, şagirdlərin özlərini bu həqiqətə inandıra biləcəklərmi? Azərbaycan praktik psixologiyası üçün bu mahiyyətcə həll olunması gərəkən problemdir, onu, ilk növbədə, bu problemi yalnız peşə səriştəsinin gücünə inanmaqla uğurla həll etmək olar. Praktika zamanı köklü problemlər meydana çıxmışdır. Səriştəsizlik hallarının aradan qaldırılması üçün qətiyyətli mübarizə aparılmışdır. Məktəbdə praktik psixoloqun işi elə səviyyədə təşkil olunmalıdır ki, məktəb direktorları və müəllimlərlə birlikdə, valideyn və şagirdlər də ona inanmalı, etibarla yanaşmalı, ağıllı və təsirli məsləhətlərindən faydalanmağa maraqlı olmalıdırlar. Praktik psixoloqun işi elə təşkil olmalıdır ki, onun nəticəsi effektiv olsun. Onun məktəbdə statusu ancaq bu effektlərlə müəyyənləşə bilər.

Məktəblərdə psixoloji xidmət psixologiyanın tətbiqi sahələrindən biridir. Onun gələcək uğurları, hər şeydən əvvəl, akademik psixologiya ilə qarşılıqlı əlaqələrinin nə dərəcədə səmərəli olmasından asılıdır. Təəssüf ki, psixoloji biliyin bu iki mühüm sahəsində özünəməxsus uğursuz-

luq, rabitəsizlik müşahidə olunmuşdur. Bəzi psixoloqların fikrincə, peşə şüuru daxilində bu uyğunsuzluq onların koqnitiv strukturları sahəsində özünü aydın şəkildə göstərir. Holland psixoloqu R.Van der Vileystanın sözləri ilə desək, akademik və praktik psixologiya əslində iki müxtəlif elm kimi diqqəti cəlb edirlər. Onlar bu zaman müxtəlif dillərdən, müxtəlif təhlil vahidlərindən, müxtəlif məntiqi ölçülərdən istifadə edirlər. Akademik psixologiyanın dili adi dildən az seçilir. Şəxsiyyətdən süni şəkildə ayrılmış bütün psixoloji reallıqdan mahiyyətcə təcrid olunmuş, ayrı psixoloji proseslər və ya fenomenlər akademik psixologiyada təhlil "vahidlər" kimi götürülür.

Asılı və asılı olmayan kəmiyyətlərin ayırd edilməsi, onların arasındakı asılılıqların ölçülməsi akademik psixologiyanın ənənəvi məntiqinin kökünü təşkil edir. Praktik psixologiya isə ayrı-ayrı rabitələri kəmiyyət baxımından təsvir etməyə deyil, onları keyfiyyət axarında dərk etməyə səy göstərir

"Dilin", "məntiqin", "təhlil vahidlərinin" fərqliliyi akademik psixologiya ilə praktik psixologiya arasında özünəməxsus maneələr yaradır. Onlar çox vaxt bir-birilə sadəcə olaraq uyğunlaşa bilmir. Hər bir praktik psixoloq bunu öz gündəlik fəaliyyətində bütün aşkarlığı ilə hiss edir. Lakin bir cəhət aydındır ki, iki doğma elm arasındakı koqnitiv maneələr, hər şeydən öncə, praktik psixologiyanın elmi-nəzəri səviyyəsinə öz mənfi təsirini göstərir. Uşaqlarla aparılan iş zamanı bunun bir başa, dolayı və əlavə nəticələrini görməmək olmaz. Ona görə də, bütün bu problemləri, maneələri hərtərəfli öyrənməli, həll etməli, praktik psixologiya sahəsində aparılan bütün işlərin elmi-nəzəri səviyyəsini yüksəltməliyik. Məktəb psixoloqunun işi nə qədər praktik mahiyyət daşısa da, o, elmin nailiyyətlərinə arxalanmalı, özünün hərtərəfli yüksək elmi nəzəri səviyyəsi ilə seçilməlidir.

Eksperimental araşdırmalar məktəblə psixoloii xidmət arasında inteqrativ qurum kimi nəzərdən keçirmək və onun xüsusiyyətlərini 3 aspektdə - elmi (I), tətbiqi (II) və praktik (III) istiqamətdə müəyyənləşdirməyə imkanı verir. Bu aspektlərdən hər biri özünəməxsus əhəmiyyətə malikdir, lakin onlardan birinin nəticəsi zəruri surətdə digərinin səviyyəsindən asılıdır, başqa sözlə, məktəbdə psixoloji xidmət bu üç istiqamətin vəhdətinə, ayrılmaz qarşılıqlı əlaqəsinə əsaslanır. Onları bir-birindən ayırmaq elmi baxımdan birtərəflidir.

Müəyyən edilmişdir ki, Azərbaycan məktəblərində, o cümlədən Bakı məktəblərində praktik psixoloqların fəaliyyətində özünü göstərən başlıca nöqsanların və çatışmazlıqların çoxu bu kökdə meydana çıxır (İ.Məmmədov).

Məktəbdə psixoloji xidmət sistemində elmi, tətbiqi və praktik aspektlərdən hər birinin özünəməxsus prinsip, məqsəd və vəzifələri vardır. Elmi aspekt məktəbdə psixoloji xidmətin nəzəri-metodoloji problemlərinin həll olunmasını nəzərdə tutur. Bu istiqamətdə aparılan elmi araşdırmalarla psixodiaqnostik, psixokorreksiya, inkişafetdirici metodlar və məktəbdə psixoloji xidmətin proqramı nəzəri cəhətdən müəyyənləşdirilir və əsaslandırılır. Özünün bu xüsusiyyətinə görə psixoloji xidmətin elmi aspekti pedaqoji və yaş psixologiyasının əsas istiqamətlərindən biri kimi, məhz nəzəri-tətbiqi istiqamət kimi formalaşır və inkişaf edir. Məktəblərdə psixoloji xidmətin elmi-metodik səviyyədə təşkili üçün tətbiqi aspektin əhəmiyyəti öz əksini göstərir. Bötövlükdə təlim və tərbiyə prosesinin psixoloji təminatı – tədris proqramlarının tərtibi, dərsliklərin yaradılması, didaktik və metodik materialların psixoloji cəhətdən işlənilməsi tətbiqi aspektin ən önəmli məqsədidir. Göründüyü kimi, tətbiqi aspekt psixoloji bilikləri təhsil işçilərinin geniş şəkildə istifadə etməsini nəzərdə tutur. Bu istiqamətin "əsas iştirakçıları" psixoloqlarla birlikdə, ilk növbədə, pedaqoqlar, metodistlər, didaktik mütəxəssisləridir. Onların psixoloqlarla əməkdaşlığı şəraitində tədris proqramları və planlarının tərtibində, dərsliklərin yaradılmasında, didaktik va metodik materialların işlənilməsində, təlim və tərbiyə proqramlarının hazırlanmasında ən yeni psixoloji məlumatlardan istifadə edirlər və onları sözün əsl mənasında pedaqojiləşdirirlər.

Praktik aspekti isə bilavasitə məktəb psixoloqları, şübhəsiz ki, müəllimlər və tərbiyəçilərlə qarşılıqlı əlaqə şəraitində həyata keçirilsə daha səmərəli olar.

# ETNİK ÖZÜNÜDƏRK VƏ ETNİK İDENTİKLİYİN XÜSUSİYYƏTLƏRİ

**Zəkəriyəyeva Aygün Rüfət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aygunzaka18@gmail.com*

Hər bir toplumun xalq kimi formalaşmasında, inkişaf etməsində etnik özünüdərkin və etnik identikliyin özünəməxsus yeri var. Bildiyimiz kimi, bir millətin formalaşması uzun bir prosesdir və bu proses sabit şəkildə qalmır, daim inkişaf edir. Bu inkişaf prosesi də öz növbəsində özünüdərk və identiklikdən kənarda baş verə bilməz. Ümumiyyətlə, hər bir xalq, etnos özünü düzgün dərk edib qiymətləndirmək, inkişaf etmək, bir xalq kimi formalaşmaq üçün sadəcə sosial-iqtisadi keçmişinə deyil, həmçinin psixoloji keçmişinə nəzər salmalıdır.. Yəni, hər bir xalq və ya millət kim olduğunu, hansı stereotiplərə, mənəvi-psixoloji keyfiyyətlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını yaxşı bilməlidir. Bu isə xalqın etnik-psixoloji xüsusiyyətlərini tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir. Hər hansısa bir xalqın etnik-psixoloji xüsusiyyətlərini araşdırmaq üçün həmin xalqın etnogenezinə, orada baş verən etnik proseslərə xüsusi diqqət yetirmək lazımdır. Odur ki, xalqın ümumi etnik simasını, etnik xarakterini, digər etnik-psixoloji xüsusiyyətlərini, ilk növbədə etnosun özünüdərketməsinin xüsusiyyətlərini araşdırmaq üçün yazılı abidələr, folklor materialları xüsusi əhəmiyyət kəsb edir. [2, s.102]Bu yazılı abidələrin təhlil edilməsi xalqın etnik-psixoloji xüsusiyyətlərinin təşəkkül prosesini izləməyə imkan verir. Hər hansısa bir xalqın mifologiyasına, folkloruna, sənət yaradıcılığına dair dəqiq tarixi məlumatlar verən yazılı qaynaqların mövcudluğu həmin xalqın təfəkkür tərzinin, adət-ənənələrinin inkişaf mərhələlərinin düzgün şəkildə öyrənilməsini asanlaşdırır. Buna görə də bir etnosun özünüdərkini və özünüqiymətləndirməsini şərh edərkən məsələyə tarixi planda yanaşmaq vacib sayılır. Etnik özünüdərketmə və etnik mənsubiyyətin anlamı etnik əlamətlər sırasında başlıca yer tutur. Xalqın, etnosun formalaşması sosial-psixoloji mexanizm etibarı ilə “biz” və “onlar” münasibətlərinin dərk edilməsi və qiymətləndirməsi səviyyəsində cərəyan edir. Bu da xalqın özü haqqında fikirləri, mülahizələri ilə bərabər daha çox başqaları- yəni digər etnos haqqında bilik kimi xarakterizə olunur.

Etnik özünüdərketmə etnos üzvlərinin öz etnik birliklərinin davranış və rəftarı, münasibətlər sistemi, xarakteri, mənəvi keyfiyyətləri, nailiyyət və nöqsanları haqqında təsəvvür və mülahizələrlə ayrılmaz surətdə əlaqədardır. [1, s.52]Etnik psixoloji xüsusiyyətlərin təşəkkülünün əsasını “biz” və “onlar” qarşıdurması təşkil edir, yəni öz etnosunu başqa etnoslara qarşı qoymaqla öz oxşar və fərqli cəhətlərini müəyyənləşdirirlər. Etnoslar arasında olan bu qarşıdurma özünüdərketmənin olduğunu göstərir. Başqa etnosların xüsusiyyətlərinin dərk edilməsi öz etnosununda səciyyəvi cəhətlərinin dərk edilməsini tələb edir. Bu cəhət etnoslararası ümumiliyin və ya fərqlərin dərk edilməsi baxımından çox vacibdir. Etnik özünüdərketmə özünü adət-ənənələrdə, etnosun və ya millətin dilində, rəvayətlərində, mifologiyasında, musiqi və rəqsində, mətbəxində, özünə və ətraf aləmə olan münasibətində özünü göstərir. Etnik özünüdərketmə milli şüurun əsas tərkib hissəsi kimi hər hansısa bir etnos, etnik qrup təmsilçilərinə məxsus təsəvvürlərin, ənənə və anlayışların məcmusu kimi xalqın inkişaf tarixində həmişə mühüm yer tutmuşdur. Milli özünüdərk mənəvi və sosial-siyasi həyatda insanın müvafiq şəkildə öz müqəddəratını təyin etməsi üçün tələb edilən dəyər münasibətlərinin və mənəvi dəyərə əsaslanan təsəvvürlər sisteminin əsasını ehtiva edir. Milli özünüdərkin əsas funksiyası isə təşəkküllərin mənəvi-psixoloji və sosial-siyasi baxımdan birliyini yaratmaqdan və formalaşdırmaqdan ibarət olur.

Etnik özünüdərk hər bir xalqın millət kimi formalaşmasının ən mühüm aspektlərindən biri kimi çıxış edir. Xarici təcavüz daxil olmaqla əsarət və milli birliklərin assimilyasiyası, mədəniyyət və ya fiziki baxımdan məhvolma təhlükəsini daşıyan müstəmləkələşdirmə kimi

amillər adətən milli özünüdərkin inkişafını bu və ya digər şəkildə şərtləndirir və bir çox hallarda sürətləndirir. Bu kimi şəraitlərdə milli özünüdərk sürətlənmiş, hətta iqtisadi birliyin ümumiliyini təmin etmiş və millətin təşəkkülü işi yüksək səviyyədə həyata keçmişdir.

Etnik özünüdərketmənin ən əsas psixoloji mexanizmi etnik identifikasiyadır. Elə etnik özünüdərketmə etnik identifikasiyadan keçməklə baş verir. İdentifikasiya eyniləşdirmək deməkdir. [2, s.53] Daha geniş şəkildə identifikasiya insanın özünü başqaları ilə eyniləşdirməsidir. Bu cür eyniləşdirmə qrup səviyyəsində olduqda sosial identikliklə nəticələnir. Sosial identiklik isə öz qrupunu başqa sosial birliklərlə müqayisə prosesinin nəticəsi olaraq meydana çıxır. Sosial identiklik etnik identikliyin yaranmasının əsas mənbəyidir. Etnik identiklik insanın özünü müəyyən bir etnik ümumiliyə daxil etməsi və bunu dərketməsindən ibarət olan etnopsixoloji hadisədir. Etnik identikliyin iki əsas komponenti var: koqnitiv və affektiv.

Koqnitiv komponentə hər hansısa bir fərdin öz etnosunu, öz qrup xüsusiyyətləri haqqında bilik və təsəvvürləri, etno fərqləndirici əlamətlərin dərk edilməsi əsasında özünü həmin qrupun üzvü kimi dərk etməsi daxildir. Yəni, hər hansısa bir etnosun üzvünün həm öz qrupunun xüsusiyyətləri haqqında, həm də digər etnosların tarixi, adət-ənənələri, mədəni xüsusiyyətləri haqqında məlumatlara və təsəvvürlərə malik olması başa düşülür. Affektiv komponent isə fərdin daxil olduğu etnosa aid olmaq hiss, həmin qrupa olan münasibəti ilə bağlıdır. Etnik identikliyin affektiv (emosional) forması xalqın taleyi ilə bağlı məsələlərdə həmin xalqın nümayəndələrinin göstərdikləri emosional reaksiyalarda aydın başa düşülür. Etnik identiklik sadəcə özünün etnik toplumla olan eyniliyini dərk etməkdən ibarət deyil, həm də onun qiymətləndirilməsidir. Bu qiymətləndirmə özünü həm pozitiv, həm də neqativ şəkildə göstərə bilər. Pozitiv etnik identikliyə müsbət hisslər və davranışlar aid edilir. Yəni, insanın daxil olduğu cəmiyyətə məxsusluğundan razılığı, ona məxsus olmaq istəyini, xalqının əldə etdiyi uğurlara görə qürur hissini özündə ehtiva edir. Etnik identikliyin neqativ cəhəti isə daxil olduğu topluma qarşı neqativ hisslərin olmasıdır ki, bu da hətta öz etnik mənsubiyyətinin rədd edilməsi, alçalma, utanc hisslərinin yaşanması, digər qruplara üstünlüyün verilməsi şəklində özünü göstərir.

**Ədəbiyyat:**


1. Əliyev R.İ. Etnopsixologiya. Bakı – 2020
2. Bayramov Ə.S. Etnik psixologiya. Bakı -2001


## ETNIK ÖZÜNÜDƏRK VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ


**Burzuyeva Könül İdris qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*klburzuyeva@gmail.com*


Xalqın öz sosial-iqtisadi keçmişi ilə bərabər psixoloji keçmişinə də dərindən bələd olması, onun özünü düzgün dərk etməsində və inkişafa nail olmasında başlıca faktorlardır. Hər bir xalq öz keçmişini, milli mənəvi dəyərlərini, stereotip və yönümlərinə dərindən bələd olmalıdır. Bunun üçün xalqın psixoloji xüsusiyyətləri tarixi planda araşdırılmalıdır. Məlum olduğu kimi etnosa məxsus etnik psixoloji xüsusiyyətlər ilk növbədə həmin xalqın folklorunda və bədii ədəbiyyatında əks olunmuşdur. Xalqa məxsus tarixi abidələr eyni zamanda yazılı ədəbiyyatın psixoloji təhlili xalqın etnik psixoloji xüsusiyyətlərinin tərəqqisini izləməyə imkan yaradır. Şifahi xalq ədəbiyyatı nümunələri, həmçinin görkəmli ədiblərimizin yaratdıqları əsrarəngiz nümunələr bu cəhətdən xüsusi qiymətləndirilir. Bu əsərlərdə türk xalqlarına məxsus etnik psixoloji keyfiyyətlər, streotip və yönümlər, davranış tərzi, adət və ənənələri öz əksini tapmışdır. Etnosun özünüdərki və etnik şüur səviyyəsi etnik-psixoloji xüsusiyyətlər içərisində diqqəti xüsusi cəlb edir. Bu xüsusiyyətlər etnik əlamətlər sırasında başlıca yer tutur. Etnosun öz birliyi haqqında məlumatı özünüdərketmə, digər etnoslar haqqında bilikləri isə etnik şüur adlanır. Etnoslar arasında özünüdərketmənin mövcudluğunu yoxlamaq üçün onlarda "biz" və "onlar" qarşıdur-

masına nəzər yetirmək lazımdır. Bu bir etnosu digəri ilə müqayisə edərək və qarşılaşdıraraq onların oxşar və fərqli cəhətlərinin dərk edilməsi şəklində özünü büruzə verir. Etnosun özünü başqa qruplardan və etnoslardan fikrən ayırması, onun özü haqqında aydın reallıq kimi nəzərə çarpır. Etnos üçün millətlərarası əlaqənin mövcudluğu, adət-ənənələrini qoruyub saxlaması, identikliyini hifz etməsi onun mövcudluğu və özünüdərkinin ayrılmaz xüsusiyyətləridir. Özünüdərketmə mürəkkəb prosesdir və burada əsas amil etnosun özünü, öz keyfiyyətlərini, imkanlarını və digər etnoslar arasında yerini dərk etməsindən asılıdır. Etnosun özünü düzgün qiymətləndirməsinə, davranış və rəftarının qeyri-adekvat olmasına, emosionallıq və həyəcanının artmasına onun real imkanları və iddia səviyyəsi arasında olan ziddiyətlər səbəb olur. Bunun nəticəsi olaraq da digər etnoslarla konfliktlər yarana bilər. Etnosun özünü dərk etməsində ora daxil olan hər bir fərdin özünüdərk etmə səviyyəsi daxildir. Burada məşhur mütəfəkkir Sokratın sözünü misal çəkmək yerinə düşər. Sokrat qeyd edirdi ki, "İnsan birinci növbədə özünü dərk etməlidir, özünü düzgün dərk edən fərd bütün dünyanı dərk etmək iqtidarındadır".

Əzəmətli tarixi olan Azərbaycan xalqı böyük bir milli özünüdərk prosesindən keçib. Zaman-zaman xalq bu mərhələlərdən keçərək öz dövlətçiliyini formalaşdırıb və milli özünüdərkin ən yüksək səviyyəsinə çatıb. XXI əsrin ortalarından Azərbaycan xalqının ədəbi, bədii, mədəni fəaliyyət potensialı artaraq milli ideya ətrafında birləşib. Bu proses həmçinin ədəbi düşüncədə də öz əksini tapıb. Cümhuriyyət dövründə milli özünüdərk yeni mərhələsinə, bəlkə də ən yüksək mərhələsinə daxil oldu. Bu mərhələni şərtləndirən əsas amil özünüdərkin dövlətçiliklə birləşməsidir. Dövlətçilik bir xalq üçün siyasi təfəkkürün ən yüksək mərhələsidir. M.Ə.Rəsulzadə Azərbaycan cümhuriyyətinə gələn yolda milli şüurun formalaşmasında rolu olan faktorlar içərisində M.F.Axundzadə ilə başlayan, H.Zərdabi, N.Vəzirov, C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyli kimi yazarları, eləcə də xalqın milli şüurunun formalaşmasında mühüm rol oynayan mətbuat orqanlarını xüsusi vurğulayır və azadlığı "Azərbaycan xalqının öz ruhundan doğan bir ümumilli hərəkat, hadisə hesab edirdi " (1, s.18).

İnsanın xoşbəxtliyi müxtəlif meyarlarla ölçülə bilər. Ancaq Vətən uğrunda ölmək daha böyük xoşbəxtlikdir. Azərbaycan xalqı tarixin bütün dönəmlərində qəhrəmanlar yetirmiş bir toplum olduğu üçün XX əsrin sonlarında baş vermiş hadisələr, xüsusən Ermənistanın Azərbaycana xaincəsinə təcavüzü zamanı da sözün əsl mənasında milli qəhrəmanların üzə çıxacağı heç kimdə şübhə doğurmurdu. Vətənin belə bir çətin zamanda mərd, sadiq gənclərə böyük ehtiyacı var. Məhz buna görə də gənclərdə etnik özünüdərk və özünüqiymətləndirmə hislərinin daha da gücləndirilməsi sahəsində məqsədə uyğun və sistemli iş aparılır. Hər bir millətin gələcəyi uşaqlara və gənclərə bağlıdır. Təlim, tərbiyə və təhsil müəssisələrində, mətbuatda, cəmiyyətdə hərbi vətənpərvərlik tərbiyəsinin təbliği şəhidlər, milli qəhrəmanlar, düşmənə nifrətlə bağlı müxtəlif yönümlü söhbətlər aparmalı, yazılar yazılmalı verlişlər göstərilməli, reklamlar yayımlanmalıdır. Etnik özünüdərk elə bir emosional hissdir ki, bütün şəxsi maraqlarını vətən yolunda qurban verməyə, vətənin və xalqın marağını daha uca tutmağa daim hazır olmalısan (2, s.3).

Azərbaycan gənclərinin formalaşmasını və onların mənəvi simasını səciyyələndirən əsas sosial-psixoloji akt milli özünüdərk və özünüqiymətləndirmədir. Müasir təhsilin əsas vəzifələrindən biri də gənclərin mənəvi dəyərlər ruhunda tərbiyə olunmasıdır. Yetişən gənc nəsildə milli özünüdərkin formalaşması fikri təhsil islahatlarına aid sənədlərdə, təlim tərbiyə müəssələri də çalışan mütəxəssislərin qarşısına mühüm vəzifə kimi qoyulur. Milli adət ənənələr, həmçinin azərbaycançılıq ideyası gənc nəslin milli ruhda inkişaf etməsinə zəmin yaradan amillər içərisində mühüm yer tutur. Gənclərdə özünüdərk və özünüqiymətləndirməyə zəmin yaradan səbəb ümumtəhsil məktəblərində onlara azərbaycançılıq ideyasının aşılanmasıdır. Millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bu məfkurənin azərbaycançılıq ideyasının məzmunu Azərbaycanda ilk dəfə ümummilli liderHeydər Əliyev tərəfindən açılmışdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinəgörə qürur hissi keçirməlidir və bu azərbaycançılığı – Azərbaycanın dilini,mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq [3,

s.218]. Ulu öndərin kəlamları müasir gənclik üçün örnəkdir və dəyərlər siusteminin formalaşmasına kömək edir.


**Ədəbiyyat:**

1. Əliyev R.İ . Etnopsixologiya . Bakı – 2020
2. Bayramov Ə.S. Etnik Psixologiya. Bakı -2001
3. Ə.T.Baxşəliyev, Q.Q.Əzizov"Milli özünüdərək və özünüqiymətləndirmə müasir gənclərin mənəvi psixoloji səciyyəsi kimi"
4. Formation of national self-awareness and national consciousness in Azerbaijani youth
5. https://525.az/news/160950-edebi-dusuncede-milli-ozunuderk-problemleri-6-ci-meqale


## DEVİANT DAVRANIŞLI YENİYETMƏLƏRİN FƏRDİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARA PEDAQOJİ TƏSİR


**Möhsümzadə Sadiq Rəfail oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sadiqmohsum@gmail.com*


Pedaqoji təcrübədə idrak fəaliyyətində çətin yeniyetmələrə fərdi yanaşmanın müxtəlif üsulları geniş şəkildə istifadə olunur. Lakin əksər hallarda bu cür üsullar epizodik xarakter daşıyır. Məktəbdə yeniyetmələrin davranışında, müəllimlərlə ünsiyyətdə və ya həmyaşıdları ilə münasibətlərdə müxtəlif növ əyintilərin aradan qaldırılması üçün müəllimin yeniyetmələrlə qarşılıqlı əlaqəsini təşkil etmək və elə idarə etmək lazımdır ki, bu fəaliyyət son nəticədə normal qarşılıqlı münasibətlərin qurulmasına gətirib çıxarsın. Yeniyetməyə humanist münasibətin həyata keçirilməsində əsas prinsip hər bir şagirdin yüksək səviyyədə təhsil alması üçün əlverişli şəraitin yaradılmasıdır. Belə geniş və dərin təhsil vəzifələrini yerinə yetirmək, yeniyetmələrin davranışındakı əyintiləri aradan qaldırmaq üçün müəllimlərin və yuxarı sinif şagirdlərinin qarşılıqlı əlaqəsində bütün məktəblilərin diqqətini cəlb edəcək pedaqoji təsir sisteminin qurulması mühüm əhəmiyyət kəsb edir. Buna görə də, qarşılıqlı fəaliyyətin təşkilati mərhələsinin müəyyən tapşırıqlarını yerinə yetirdikdən sonra pedaqoqlar tərəfindən lazımi baza hazırlanmış və konkret olanları həyata keçirilmişdir. Daha sonra yeniyetmələr arasında qanunsuz halların aradan qaldırılması üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, ibtidai məktəb şagirdlərinin və çətin yeniyetmələrin davranışlarında ilkin əyintilərın aradan qaldırılması sistemini işlənib hazırlanmışdır. Həmçinin bu hadisələrin yaranmasına səbəb olan amillərin təhlili və konkret halların müəyyən edilməsi, hər bir konkret halda müxtəlif əyintilərin görünməsidir. Eyni zamanda, ümumi qəbul edilmiş davranış normaları zonasından çıxmaq və adi davranış tərzinin pozulmasıdır. İşin mürəkkəbliyi həm də ondan ibarətdir ki, hər birinin davranışının ilk baxışdan yalnız şəxsiyyətin hərəkətlərində dəyişikliklər olan, lakin gələcəkdə ciddi pozuntulara səbəb ola biləcək davranış xüsusiyyətlərini müəyyən etmək lazımdır. Buna görə də həm hər birinin fərdi xüsusiyyətlərinə, həm onların dəyişmələrinə, həm də bütövlükdə sinif kollektivinin sisteminə nəzarət etmək lazımdır. Bütün bunları nəzərə almaq və buna nail olmaq lazımdır ki, orta məktəb şagirdləri kollektivlərində hər bir şagirdin davranışının tam və başa düşülən mənzərəsi olsun. Məhz bu yanaşma yeniyetmələrin davranışındakı əyintilərin düzəldilməsini təmin etməyə imkan verir.

Fərdi yanaşma tipik və ya ümumi bütövə (komanda vasitəsilə qarşılıqlı əlaqə) qarşı deyildir. Diqqət eyni vaxtda hər üç qarşılıqlı əlaqə obyektinə yönəldilir. Bununla belə, ba°langıcda ən məqsədəuyğun və rasional olan, eyni zamanda, nüfuzlu yeniyetmələr arasında münasibətlərin fərdi strukturlarına müraciət idi. Bunlardan tipik xüsusiyyətləri ayırmaq həmişə mümkün olmuşdur. Daha böyük ümumiləşdirmə ilə sinfin və kollektivin xüsusiyyətlərini əldə etmək mümkündür. Erkən tanınma, bir sıra müəlliflərin sübut etdiyi kimi, lazımi tədbirləri tez və vaxtında görməyə imkan verir.

Beləliklə, ardıcıl olaraq başlanğıcda diaqnozu, sonra təsirini və nəhayət, ən rasional şəxsiyyət xüsusiyyətlərinin proqramlaşdırılmasını həyata keçirmək lazımdır. Müəllimlərin əsas vəzifələri yeniyetmələrin mənfi davranışlarının düzəldilməsində gözlənilən nəticələri ilə ardıcıl təsirlərin müqayisəli təhlilini həyata keçirməkdir. Qarşılıqlı fəaliyyət sisteminin inkişafı və sınaqdan keçirilməsinə bu cür yanaşma məktəblilərin davranışındakı əyintilərin aradan qaldırılması üçün görülən tədbirlərin effektivliyini mühakimə etməyə imkan veririr. Bu mövqelər bütün eksperimental iş zamanı əhəmiyyətlidir ki, bu da müəllimlərin və yuxarı sinif şagirdlərinin qarşılıqlı qəbul etdiyi normalara əsas verir. Bu müəllimlərin, orta məktəb şagirdlərinin məqsəd və vəzifələrinin qarşılıqlı asılılığıdır. Təhsil prosesinin subyektləri yeniyetmələrdə deviant davranışın qarşısının alınmasında sosial-psixoloji əsas təşkil edir.

## SOSİAL TƏHSİL FƏRDİN CƏMİYYƏTƏ İNTEQRASİYASI KONTEKSTİNDƏ SOSİAL-MƏDƏNİ HADİSƏ KİMİ

**Aslanova Elnarə Fərman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elnareaslanova1@gmail.com*

İnsanın sosial tərbiyəsi dedikdə şəxsi keyfiyyətlərin formalaşması və insanın cəmiyyətdə yaşaması üçün zəruri olan bilik və bacarıqların inkişafı başa düşülür.Yuxarıdakı insanın sosial tərbiyəsi anlayışı pedaqogika üçün qənaətbəxş hesab edilə bilər və insanın sosial tərbiyəsinin nə olduğu sualına qayıtmadan pedaqoji hadisələrin nəzərdən keçirilməsinə keçməyə imkan verir. Bu, adətən pedaqogikada baş verir, o zaman baş verir ki, müəyyən anlayışlar, məsələn, təhsil və ya təlim, bu anlayışların düzgünlüyünü sübut etmədən və ya əsaslandırmadan, sonra nə etmək lazım olduğu və təhsili necə səmərəli şəkildə həyata keçirmək barədə öz fikirlərini inkişaf etdirərkən. və təlim. Bu texnika elm baxımından kifayət qədər düzgün deyil. Biz bu təcrübəni dəyişdirmək istərdik və növbəti təcrübəyə keçməzdən əvvəl pedaqogikanın məzmununu təşkil edən hadisələr haqqında mühakimələrin hansı əsaslarla qurulacağını nəzərdən keçirəcəyik.

Sosial formasiyalar da digər reallıq hadisələri kimi insana təsir edir, onun beynində izlərini buraxır. Bu baxımdan, müxtəlif formasiya növlərinin insana təsiri arasında əsaslı fərqlər yoxdur. Beləliklə, məsələn, hələ ana bətnində olan uşaq sosial mühitin mütəşəkkil səsi (musiqi, nitq, nəğmə, səs-küy), ananın sosial hadisələrin yaratdığı təcrübələr və s. vasitəsilə sosial təsirləri yaşayır. Amma burada sosial hadisələr və ya təsirlər faktiki olaraq xüsusi olaraq uşağa yönəldilməmiş, bu hal üçün idarə olunmur və kortəbii olur, digər ətraf mühit təsirlərindən yalnız mənşə səbəbinə görə fərqlənir: bəziləri rasional insan fəaliyyəti, digərləri isə insan fəaliyyəti nəticəsində yaranmır.

Beləliklə, sosial təsirlər arasında, müəyyən bir uşağın bəzi xarakterik xüsusiyyətlərini və keyfiyyətlərini dəyişdirmək məqsədi ilə xüsusi olaraq həyata keçirilən və xüsusi diqqət yetirməyənləri ayırmaq olar. Amma həm o, həm də digər sosial hərəkətlər uşağın bədəninə çataraq ona təsir edir və öz izini buraxaraq bu və ya digər qüvvənin reaksiyalarına səbəb olaraq bu və ya digər şərti refleksləri əmələ gətirir. Sosial təsirlər doğuşdan sonra da davam edir və onlardan hansının yaxın gələcəkdə özünü göstərəcəyini, bir çox məzmun daşıyıcısı tərəfindən tanınacağını və dərk ediləcəyini sosial təsirlərin izlərindən heç kim bilə bilməz. Cəmiyyət böyüyən vətəndaşlara bu cür münasibətə yol verə bilməz və lazımi bilik və bacarıqlar ehtiyatına malik olan insanları uşaqlara böyüklərin sosial təcrübəsini mənimsəmələrinə kömək edən fəaliyyətlər üçün istifadə edə bilməz. Bu fəaliyyətdə cəmiyyətin mütərəqqi inkişafını təmin edən sosial təcrübənin ötürülməsinin xüsusi formaları yaranır və inkişaf edir. İndi biz insanların sosial tərbiyəsinin bu formalarına keçirik.

Sosial təhsilin inkişafı humanitar elmlərin daxili idrak məkanında yeni mövzulardan biridir, onun yaranması təcili ehtiyacla diktə olunur.

Sosial təhsilin aktuallığı ilk növbədə müasir insanın son dərəcə inkişaf etməmiş sosial bacarıqları ilə bağlıdır. Konstruktiv təmas qura bilməmək, başqaları ilə çevik dialoq qura bilməmək, cəmiyyətdə və qrupda öz şəxsi mövqeyini müəyyən edə bilməmək, emosional özünütənzimləmə yolları haqqında elementar fikirlərin olmaması - bütün bunlar qeyri-adekvat müdafiə reaksiyalarına səbəb olur. Bir adam. Problemlər yeni sosial mühitə daxil olduqda daha da dərinləşir.

Müasir, dinamik inkişaf edən cəmiyyətdə fərd bəzən gözlənilmədən sosial statusunu, qarşılıqlı əlaqə və ünsiyyət dairəsini dəyişmək məcburiyyətində qaldıqda, sosial əlaqələrin problemləri, tarazlıq, nizam-intizam, dəyişikliklərin harmoniyasının mümkünlüyü ön plana çıxır. Yaranan ziddiyyətlərin aradan qaldırılması zərurəti açıq, dəyişən, inkişaf edən cəmiyyətdə sosial sistemin təcridini və sosial-mədəni inteqrasiyanı aradan qaldırmağı zəruri edir.

Şəxsiyyətin sosial-mədəni inteqrasiyası dedikdə, qarşılıqlı paylaşılan dəyərlərə, dəstəkləyici resursların balansına və sistemdaxili qarşılıqlı təsir mexanizmlərinə və onlardan istifadə imkanlarına əsaslanan çoxsistem məkanında sosial aktorların sabitliyinə nail olmaq prosesi başa düşülür [1, səh. 27].

İnsana yönəlmə və cəmiyyətin heterojenliyini nəzərə almaq təhsili özünün siyasi, iqtisadi, sosial və mənəvi təməli baxımından yeni səviyyəyə çıxarır.

Eyni zamanda, sosial təhsilin inkişafı sivilizasiyanın sistem formalaşdıran ilkin şərtinə çevrilir, onun məzmunu və təşkili şəxsiyyət və cəmiyyət arasında açıq sosial dialoqa əsaslanır [3, s. 6-7].

Bu "dialoq" strategiyası ona nəinki müasir proseslərə uğurla uyğunlaşmağa, həm də çətin həyat vəziyyətlərini dəf etməyə, reabilitasiya və korreksiyaya, tam sosial qarşılıqlı əlaqəyə, özünü həyata keçirməyə və özünümüdafiə etməyə imkan verən şəxsiyyət xüsusiyyətlərinin formalaşmasını nəzərdə tutur. Sosial-mədəni aspektdə inteqrasiya prosesinin ayrılmaz şərti və nəticəsi kimi inteqrativ keyfiyyətlər. Burada sosial tərbiyə sosial-mədəni hadisə kimi sosial təhsilin tətbiqi aspektlərinin öyrənilməsini tələb edən inteqrasiya prosesinin səmərəliliyinin ən mühüm amillərindən biridir.

Peşəkar yanaşma çərçivəsində aşağıdakı şərhləri ayırd etmək olar:

1. “Sosial təhsil öz mahiyyətinə və məzmununa görə sosial sahədə peşəkar fəaliyyətə yönəlmiş şəxsin hazırlanmasına və tərbiyəsinə yönəlmişdir” [3, s. 560].

2. “Müasir sosial təhsilin strategiyası inkişaf və özünü inkişaf etdirməkdir. [4, s.27].

3. Sosial təhsil “sosial sfera sahəsində nəzəriyyə və praktika ilə, xüsusilə sosial iş adlanan nəzəriyyə və praktika ilə getdikcə daha çox eyniləşdi” [4, s. 5].

4. Sosial tərbiyə “insanın cəmiyyətdə, həyatının sosial mühitində sonrakı özünü dərk etməyə öyrənməsi (hazırlanması) prosesi və ya nəticəsi kimi” müəyyən edilir [1, s. 34]. Əslində söhbət hər bir insanın ehtiyac duyduğu ümumi sosial təhsildən və sosial sahədə işləmək istəyənlər üçün zəruri olan peşəkar sosial təhsildən gedir.

“Sosial təhsil” anlayışının çoxşaxəliliyini S.İ.Qriqoryev qeyd edir və onu belə başa düşür: sosial elmlər sahəsində mütəxəssislərin hazırlanması və yenidən hazırlanması; sosial elmlər üzrə müxtəlif profilli mütəxəssislərin hazırlanması, onların sosial tərbiyəsi; sosial sahə və idarəetmə müəssisələri üçün mütəxəssislərin hazırlanması və yenidən hazırlanması; sosial tərbiyə, əhalinin maarifləndirilməsi, onun müəyyən ictimai-tarixi məkan və zaman çərçivəsində cəmiyyətdə qarşılıqlı fəaliyyət qabiliyyətinin formalaşması; müəyyən mentalitetin, sosial-mədəni prinsiplər sistemlərinin, sosial mədəniyyətin, ictimai intellektin, həyat tərzinin əsasını təşkil edən sosial idealların formalaşması və təkrar istehsalı [2, s. 37].

Sosioloq tədqiqatçı L.Q.Quslyakova vurğulayır ki, “geniş mənada sosial təhsil dedikdə müəyyən mentalitetin, sosial mədəniyyətin əsasını təşkil edən sosial-mədəni prinsiplər sistemlərinin, həyat oriyentasiyalarının formalaşması, təkrar istehsalı başa düşülür..., eləcə də kütləvi sosial tərbiyə, ümumi əhalinin sosial tərbiyəsi, onların cəmiyyətdə qarşılıqlı fəaliyyət şəraitində yaşamaq qabiliyyətinin formalaşdırılması” [5, s. 33-34].

Mənasına və istiqamətinə görə sosial təhsil ümumi təhsildən daha genişdir, çünki o, təkcə fərdin öyrədilməsi və tərbiyəsi prosesini, onun məqsədyönlü inkişafını deyil, həm də sosial təlimə, fərdin sosial formalaşmasına və inkişafına, onun mənəvi-əxlaqi inkişafına xidmət edir. Mədəniyyət. Sosial tərbiyə ümumtəhsillə yanaşı, cəmiyyətin sosial mədəniyyətinin təkrar istehsalını, onun bütövlüyünü və sabitliyini qoruyub saxlayan amil kimi qəbul edilir. Sosial tərbiyənin məqsədi kimi cəmiyyətin mənəvi-əxlaqi dəyərləri ilə tanışlıq həm çətin vəziyyətlərdə kömək kimi, həm də sosial münasibətlərin subyekti olmaq üçün insanın öz təcrübəsinin genişləndirilməsi kimi mümkündür və zəruridir.

## AZƏRBAYCANDA SOSİAL PEDAQOJİ FİKRƏ DAİR MÜNASİBƏTLƏR

**Novruzova Sima İlham qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sima-novruzova@mail.ru*

Azərbaycan xalqının tarixi göstərir ki, onun mədəniyyətində, hətta qəbilə münasibətləri dövründə də zəif və imkansız insanlara, xüsusən də uşaqlara qarşı ən müdafiəsiz və həssas insanlar kimi humanist, mərhəmətli münasibət ənənələri formalaşmağa başlamışdı. Azərbaycanda sosial pedaqogikanın inkişafın da bir çox mütərəqqi insanların əməyi olmuşdur. Xüsusilə, XIX əsrin ortalarında Azərbaycan pedaqoji fikrində C.Məmmədquluzadənin, R.Əfəndiyevin, N.Nərimanovun əsərlərinin nəşri ətraf mühitin uşağın tərbiyəsinə və inkişafına, sosiallaşmasına diqqətini artırdı. Onlar məktəbin təhsil öhdəliklərini ətraf mühitlə birləşdirir, sosial mühitin uşağın tərbiyəsinə cəlb edilməsini, yəni məktəblə ətraf mühit arasında əlaqə olmadan tərbiyə problemlərinin həllinin mümkünsüzlüyünü qeyd edirdilər.

Sosial pedaqogika müstəqil elm kimi müasir Azərbaycan cəmiyyətində öz yerini tapdı və tanındı. Müasir sosial sistemlərdə uşaqların həyata hazırlanmasında ən düzgün həll yollarının axtarışı müəllimləri belə bir fikrə gətirdi ki, insanın xarici aləmdə adaptasiyası üçün ən əlverişli şəraiti təmin edəcək sosial-pedaqoji mühit yaratmaq üçün mürəkkəb, inteqrativ bilik lazımdır. Pedaqogika, psixologiya, sosiologiya, politologiya və digər əlaqəli bilik sahələrinin nailiyyətlərinə diqqət yetirən sosial pedaqogika sosial dizaynda və sosial reallığın yeni modellərinin yaradılmasında nəzəri və praktiki fəaliyyət həyata keçirir. Sosial-pedaqoji nəzəriyyə və praktikanın məzmununu həmişə cəmiyyət müəyyən edib. Konkret insanların və bütövlükdə sosial sistemin spesifik ehtiyacları sosial-pedaqoji fəaliyyətin stimullaşdırılmasında üstünlük təşkil edən prioritetdir. Eyni zamanda, müəyyən sosial sistemdə insanın rahatlığı faktoru kifayət qədər əhəmiyyətlidir. Sosial sistemlər inkişaf etdikcə təkcə idarəetmə modeli mürəkkəbləşmir. İlk növbədə, yaranan problemlərin həlli üçün daha yüksək bilik səviyyəsini və sosial-mədəni təcrübənin formalaşdırılması yollarını tələb edən sosial əlaqələr və sosial münasibətlər mürəkkəbləşir. Müasir sosial pedaqogika sahəsində gələcək mütəxəssislərin hazırlanmasında istifadə olunan kifayət qədər yüksək elmi potensial mövcuddur. Sosial pedaqogikanın aşağıdakı prinsipləri ayırd edilir:

Təbiətəmüvafiqlik prinsipi. İnsan ictimai varlıqdır və ictimai təbiət qanunları çərçivəsində fəaliyyət göstərir və inkişaf edir. O, bu qanunların tələblərinə uyğun hərəkət edəndə daha çox uğur qazanır, əks halda uğuru azalır. Təbiətə uyğunluq prinsipinin mahiyyəti bununla bağlıdır, yəni insan öz təbii imkanlarını nəzərə alaraq sosial təbiət qanunları çərçivəsində inkişaf etməlidir. Bildiyiniz kimi, hər bir insan müəyyən qabiliyyətlərlə doğulur. Bu imkanlar hər bir insan üçün unikal və təkrarolunmazdır. Sosial tərbiyə prosesində sosial pedaqoq bu təbii imkanları müəyyən etməli, bu imkanların inkişaf qanunauyğunluqlarına istinad etməli və onların inkişafına kömək etməlidir. Bu, təbiətə uyğunluq prinsipinin tələbidir.

Fərdi yanaşma prinsipi. Bu prinsip insanın bütün xüsusiyyətləri, keyfiyyətləri, qabiliyyəti və çatışmazlıqları ilə qəbul edilməsinə əsaslanır. İnsan münasibətlərinin cəminə görə fərdi dünyadır. Ona görə də hər bir fərdin inkişafı, təhsili və fərdi sosial potensialının tam

reallaşdırılması üçün sosial-pedaqoji fəaliyyətə xüsusi yanaşmalar olmalıdır. Yəni, sosial-pedaqoji fəaliyyət prosesində obyektin fərdi xüsusiyyətlərinin nəzərə alınmasına üstünlük verilməlidir.

Humanizm prinsipi. “Humanizm” insanın mahiyyətini müxtəlif hüquqlara malik bir şəxs kimi görən baxışlar sistemidir. Hər bir uşağın təhsil almaq, öz maraq və qabiliyyətlərini inkişaf etdirmək, cəmiyyətdə özünü təsdiq etmək və s. hüquqları var. Sosial pedaqoq uşağa bu nöqteyi-nəzərdən yanaşmalı və onun yaxşı tərbiyə olunması, maraq və qabiliyyətlərinin maksimum inkişafı, özünü təsdiqi üçün maksimum şərait yaratmalıdır. Humanizm prinsipinin tətbiqində də müəyyən güzəştlərə yol verilir. Bu, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyərkən edilir. Güzəştlərin mahiyyəti uşağa mehribanlıq edərək həyatda tək və çarəsiz olmadığını göstərmək və bununla da, onun hərtərəfli inkişafını və özünə inamını reallaşdırmaqdır.

Şəxsiyyətə yaradıcı yanaşma prinsipi. Həyata keçirilən sosial-pedaqoji fəaliyyət hər bir sosial pedaqoqun fərdi üslubuna uyğundur. Lakin sosial pedaqoq fəaliyyətinin gedişində müxtəlif insanlarla sosial-pedaqoji iş aparır və təbii olaraq, eyni şəxsin həyata keçirdiyi pedaqoji fəaliyyət müxtəlif insanlar tərəfindən fərqli qəbul edilir. Hər bir şəxslə ictimai işdə sosial-pedaqoji iş elə təşkil edilməlidir ki, obyekt onu düzgün mənimsəyə bilsin. Sosial pedaqoqun yaradıcılıq fəaliyyəti fərdi xarakter daşıyır. Təcrübədə pedaqoq bildiyini bacardığı qədər tətbiq edə bilər, lakin onu müxtəlif insanlara tətbiq etmək yaradıcılıq olmalıdır. Belə nəticəyə gəlmək olar ki, nəticə təkcə müəllimin pedaqoji ustalığından deyil, həm də onun insanlara yaradıcı münasibətindən asılıdır.

Sosial pedaqoqun peşəkarlığı ilə sosial-pedaqoji fəaliyyətinin qarşılıqlı əlaqəsi prinsipi. Mütəxəssisin peşəkarlığı nə qədər yüksəkdirsə, onun sosial-pedaqoji fəaliyyətin ən optimal variantını seçmək və həyata keçirmək şansı bir o qədər çox olur. Bu prinsip sosial pedaqoqun peşəkar hazırlığının və təcrübəsinin nəzərə alınmasını tələb edir.

Mədəniyyətəuyğunluq prinsipi. İnsan sosial varlıq olaraq öz həyat və fəaliyyəti zamanı müəyyən mədəniyyətdə yaşayır, bu mədəniyyəti mənimsəyir, bu əsasda inkişaf edir və formalaşır. İnsan mədəniyyətlə yanaşı, çalışdığı mühitə xas mentalitet də qazanır. Bu prinsipin təbliği təhsilin bu incəlikləri ilə bağlıdır. Bu prinsip ilk dəfə Disterverq tərəfindən təklif edilmişdir. O, tərbiyəsində doğulduğu və yaşadığı vaxtla yanaşı, ərazisini də nəzərə alıb. İnsanın öz dövrünün və bu zamanın mədəniyyətinin məhsulu olması artıq aksioma çevrilib.

Mühiti nəzərəalma prinsipi. Ətraf mühit insanın özünü dərk etdiyi yerdir. Yəni insanın inkişaf səviyyəsi ətraf mühitdən asılıdır. Eyni mühitdə iki insan yoxdur. Bunun nəticəsi insanların mədəniyyəti, inkişaf səviyyəsi, təhsili arasındakı fərqlərdir. Müxtəlif mühitlərdə böyümüş insanların mədəniyyətində, inkişafında, tərbiyəsində də fərqliliklər var. Ona görə də bu prinsip sosial tərbiyə prosesində ətraf mühitin rolunun nəzərə alınmasını tələb edir. Ətraf mühit amilləri sosial tərbiyə prosesini stimullaşdıra, zənginləşdirə, neytrallaşdıra və hətta mənfi təsir göstərə bilər.

Sosial şərtlənmə prinsipi. Bu prinsipin mahiyyəti dövlət strukturunun, siyasətin və dövlətin sosial institutlarının fəaliyyətinin şəxsiyyətin formalaşması prosesinə təsirini nəzərə almaqdan ibarətdir. Hər bir dövlətdə təhsil onun sosial-pedaqoji siyasətinə uyğun həyata keçirilir. Ölkəmizin siyasəti elə qurulub ki, hər kəsdə sosial təminat hissi geniş olsun.

Texnologiyalarla sosial-pedaqoji prosesin qarşılıqlı əlaqəsi prinsipi. Sosial pedaqoq insanlarla işləyərkən müxtəlif texnologiyalardan istifadə edir. Bu texnologiyalar çoxlu və müxtəlifdir. Onların hər biri sosial-pedaqoji fəaliyyət baxımından əhəmiyyətlidir. Sosial-pedaqoji fəaliyyətin səmərəliliyi texnologiyanın düzgün seçilməsindən asılıdır. Sosial pedaqoq düzgün texnologiya seçmək üçün görəcəyi işin mahiyyətini dərk etməli, öz fənnini dərindən öyrənməli və yalnız bundan sonra texnologiya seçməlidir.

Bu prinsiplər arasında sıx əlaqə var. Onların heç biri fərdi sosial-pedaqoji fəaliyyətin səmərəliliyini müəyyən edə bilməz. Pedaqogika hər gün müəllimə nümunəvi davranış və yüksək özünü idarə etməyi öyrədən çətin bir işdir. Sosial pedaqoq özündən tələb edir, daim düzgün həll yolunu axtarır, çünki onun vəzifəsi biliyi ötürmək və ahəngdar inkişaf etmiş şəx-

siyyət formalaşdırmaqdır. Sosial pedaqoq psixoloji rahatlıq və təhlükəsizlik mühiti yaratmağa kömək edir, hüquq və azadlıqlarının müdafiəsi üçün tədbirlər görür. Beləliklə, sosial pedaqogika münasibətlər sahəsində mühüm təcrübə təqdim edir, insan davranışının xüsusiyyətlərini və motivlərini izah edir, problemlərin həlli yollarını və üsullarını göstərir.

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN SOSİAL TƏRBİYƏSİNDƏ AİLƏ İLKİN SOSİALLAŞMA İNSTİTUTU KİMİ

**Əliyeva Ülviyyə Gülağa qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ulviyyealiyeva98@mail.ru*

Sosial tərbiyə-sosial inkişafın, insanın şəxsiyyətinin sosial formalaşmasının məqsədyönlü şəkildə idarə olunan prosesidir, insana ailədə və cəmiyyətdə formalaşmış əxlaqi münasibətlərin mənimsənilməsinə və qəbul edilməsinə, hüquqi, iqtisadi, mülki və məişət münasibətlərinin mənimsənilməsinə kömək edir. İnsanın şəxsi və sosial problemlərini nəzərə alaraq, ətraf mühitin və onun həyatının sosial ehtiyaclarına uyğun olaraq istiqamətləndirilmiş tərbiyə formasıdır. Sosial tərbiyənin nəticəsi sosial cəhətdən formalaşmış, şüurlu və müstəqil yaradıcı fəaliyyətə hazır, məqsəd qoymağa və sosial əhəmiyyətli vəzifələri həll etməyə qadir şəxsiyyət olacaqdır.

Ailənin ən mühüm sosial funksiyası yetişməkdə olan nəslin tərbiyəsidir. Müasir cəmiyyətdə ailə uşağın ilkin sosiallaşması institutu kimi qəbul edilir. Valideynlik sosial-mədəni təbiətə malikdir, uşaqlara qayğı və ailədə tərbiyə funksiyalarının valideynlər arasında bölüşdürülməsini tənzimləyən mədəniyyət və cəmiyyət tərəfindən müəyyən edilmiş norma və qaydalar sistemi ilə xarakterizə olunur. Valideynlər ontogenezin hər bir mərhələsində uşağın yaş xüsusiyyətlərinə uyğun gələn, onun şəxsi və zehni inkişafı üçün optimal imkanlar təmin edən şərait sisteminin təşkili üçün cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Valideynlik tarixində ailə institutunun əhəmiyyətinin artması tendensiyası getdikcə daha aydın görünür. Lakin ailə tərbiyəsi çərçivəsində uşağın sosiallaşması vəzifələrinin dəyişməsi ilə onun inkişafının hər bir yaş mərhələsində, tərbiyəvi təsirlərin konkret forma və vasitələri, uşağın valideynləri ilə münasibətlərinin xarakteri də dəyişir.

Ailə insanın həyatında ilk sosial addımdır. O, kiçik yaşlarından uşaqların şüurunu, iradəsini, hisslərini istiqamətləndirir. Ailə insanın mənəvi doğulmasının beşiyidir, hər bir fərdin inkişafında mühüm və bir çox cəhətdən əvəzolunmaz mərhələdir. Ailənin tərbiyədə xüsusi rolunun birinci səbəbi sabitlik, davamlılıq, uzunmüddətli təsirdir. İkincisi, onun çoxyönlü olmasıdır. Ailə kiçik şagirdin inkişafı və tərbiyəsi üçün təməl qoyan özəyi təşkil edir. Dünyagörüşünün əsaslarının formalaşmasında, əxlaqi davranış normalarının mənimsənilməsində, insanlara, onların əməl və hərəkətlərinə münasibətin müəyyənləşməsində ailənin rolu böyükdür. Ailə tərbiyəsinin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, öz məzmununa görə emosionaldır və valideynlərin uşaqlara sevgisini və uşaqların valideynlərinə qarşı qarşılıqlı hisslərini ehtiva edir.

Ənənəvi olaraq ailə əsas təhsil müəssisəsidir. İnsan ailədə nə əldə edirsə, onu sonrakı həyatı boyu özündə saxlayır. Ailədə şəxsiyyətin əsasları qoyulur. Ana, ata, qardaşlar, bacılar, babalar, nənələr və digər qohumlar ilə sıx münasibətlər prosesində həyatın ilk günlərindən uşaqda şəxsiyyət quruluşu formalaşmağa başlayır. Ailədə təkcə uşağın deyil, həm də valideynlərinin şəxsiyyəti formalaşır. Uşaqların tərbiyəsi böyüklərin şəxsiyyətini zənginləşdirir, onun sosial təcrübəsini artırır.

M.Propekeva, ailəni uşaqların həyatı və inkişafı üçün şəxsi mühit olan gənc nəsillərin sosiallaşmasının ən vacib institutu hesab edir [5, s.19]. Onun keyfiyyəti müəyyən bir ailənin bir sıra parametrləri (demoqrafik - ailə strukturu) ilə müəyyən edilir. Sosiallaşma, bir insanın həyatı boyu mənsub olduğu cəmiyyətin sosial normalarını və mədəni dəyərlərini mənimsəməsi prosesidir. “Sosiallaşma” anlayışının məzmununa aşağıdakılar daxildir:

- sosial normaların, bacarıqların, stereotiplərin mənimsənilməsi;

- sosial münasibət və inancların formalaşması;
- fərdin sosial mühitə daxil olması;
- fərdin sosial əlaqələr sisteminə daxil edilməsi;
- şəxsiyyətin “Mən”nin özünü aktuallaşdırması;
- sosial təsirlərin fərd tərəfindən mənimsənilməsi;
- cəmiyyətdə qəbul edilən davranış və ünsiyyət formaları.

Sosiallaşmanın məqsədi uşağın əldə etməli olduğu şəxsi keyfiyyətlər və öyrənməli olduğu sosial davranışdır. Demək lazımdır ki, insanın gələcək şəxsiyyəti, deməli, onun gələcək həyatı ailənin sosial cəhətdən nə dərəcədə firavan olmasından, ailənin uşağa nə dərəcədə qayğı göstərməsindən asılıdır. Ailə böyüklərin şəxsiyyətinə təkcə uşaqların tərbiyəsi ilə bağlı təsir göstərmir. Ailədə müxtəlif nəsillərin nümayəndələri, eləcə də eyni nəsil daxilində (həyat yoldaşları, qardaşlar, bacılar, babalar, nənələr) arasındakı münasibətlər mühüm rol oynayır. Ailə kiçik sosial qrup kimi öz üzvlərinə təsir göstərir. Eyni zamanda, onların hər biri öz şəxsi keyfiyyətləri, davranışı ilə ailə həyatına təsir göstərir. Bu kiçik qrupun ayrı-ayrı üzvləri üzvlərinin mənəvi dəyərlərinin formalaşmasına töhfə verə, bütün ailənin məqsədlərinə və münasibətlərinə təsir göstərə bilər.

İnkişafın bütün mərhələləri insandan yeni sosial şəraitə uyğunlaşmağı tələb edir, fərdin yeni təcrübə ilə zənginləşməsinə, sosial cəhətdən daha yetkinləşməsinə kömək edir. Ailənin inkişafının bir çox mərhələlərini qabaqcadan görmək və hətta onlar üçün hazırlamaq olar. Lakin həyatda elə vəziyyətlər olur ki, onları qabaqcadan görmək mümkün deyil, çünki dərhal yaranır, sanki kortəbii olaraq, məsələn, ailə üzvlərindən birinin ağır xəstəliyi, xəstə uşağın doğulması, sevilən birinin ölümü, işdə çətinlik və s. Bu cür hadisələr ailə üzvlərindən də uyğunlaşma tələb edir, çünki münasibətlərin yeni üsullarını tapmalıdırlar.

Şəxsiyyətin inkişafı üçün ailə böyük əhəmiyyət kəsb edir. Özlərinə yaxın insanlardan ibarət kiçik bir qrupun həyatında birbaşa və daim iştirak etmək imkanından məhrum olan uşaqlar çox şey itirirlər. Bu, xüsusilə ailədən kənarda - uşaq evlərində və bu tipli digər müəssisələrdə yaşayan azyaşlı uşaqlarda nəzərə çarpır. Ailə üzvləri sosial rolları ilə müəyyən edilən öz quruluşuna malikdir: ər və arvad, ata və ana, oğul və qız, bacı və qardaş, baba və nənə. Bu rollar əsasında ailədə şəxsiyyətlərarası münasibətlər formalaşır.

Ailə cəmiyyətin həyatında və fəaliyyətində böyük rol oynayır. Ailənin funksiyalarına həm cəmiyyətin məqsədlərini həyata keçirmək, həm də cəmiyyət qarşısında öhdəliklərini yerinə yetirmək nöqteyi-nəzərindən baxmaq olar. Ailə mikrostruktur olaraq mühüm sosial ehtiyacları ödəyir və mühüm sosial funksiyaları yerinə yetirir.

Ailə reproduktiv funksiyasına görə insan həyatının davamının mənbəyidir. Bu, ilkin olaraq insanın şəxsiyyətini formalaşdıran sosial qrupdur. Ailə cəmiyyətin yaradıcı və məhsuldar qüvvələrinin artmasına kömək edir. Ailə özünün yeni üzvlərini cəmiyyətə təqdim edir, onlara dili, adət-ənənələrini, bu cəmiyyətdə məcburi olan əsas davranış nümunələrini ötürür, insanı cəmiyyətin mənəvi dəyərlər aləminə təqdim edir, davranışlarına nəzarət edir. Ailənin sosial funksiyaları təkcə uşaqlara deyil, həm də həyat yoldaşlarına münasibətdə özünü göstərir, çünki evlilik cəmiyyətin həyatında böyük rol oynayan bir prosesdir. Ailənin əsas funksiyalarından biri onun bütün üzvlərinin şəxsiyyətinin inkişafı üçün şərait yaratmaqdır. Ailə fərdin müxtəlif ehtiyaclarını ödəyir. Uşaqların doğulması təkcə öz növünün davamı şüurundan sevinc doğurmur, həm də gələcəyə daha inamla baxmağa imkan verir. Ailədə insanlar bir-birinin qayğısına qalırlar. Həmçinin, ailə insanın müxtəlif ehtiyaclarını ödəyir. Bir insanın evli həyatında sevgi və qarşılıqlı anlaşma, tanınma, hörmət və təhlükəsizlik hissi ən aydın şəkildə özünü göstərir.

Valideynlərin uşaqların şəxsi və mənəvi inkişafına qayğısı, onların birgə təcrübələri ətrafda müsbət sosial mühit yaradacaq, ailə tərbiyəsinə pedaqoji təsir göstərəcəkdir. Beləliklə, insanın tərbiyəsi prosesində müasir şəraitdə müstəqil fəaliyyət göstərə bilən hərtərəfli və ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşdırılması əsas məqsəddir.

**Ədəbiyyat:**

1. Əlizadə H. Sosial pedaqogika. Bakı: Bakı Universiteti, 2013. 365 s.
2. Андреева Г.М. Социальная психология. М.: Аспект пресс, 2005. 290 с.
3. Загвязинский В.И. Личностно-социальный подход в воспитании // Педагогика. 2006. № 3. с. 106-108.
4. Кириллов И.Л., Девятых С.Ю. Социально-психологические проблемы и исследования детства: ребенок в семье, институтах образования и группах сверстников: материалы международной научно-практической конференции. М.: Социосфера, 2012. 210 с.
5. Прокопьева М.М. Психология семьи: учеб.пособие для студ.высш.учеб. заведений. Якутск: Издательский дом СВФУ, 2013, 144 с.

## ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

**Bağırova Arzu Məzahir qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*arzubagirova98@mail.ru*

İnsan dünyaya bir fərd kimi gəlir və ictimai münasibətlər sistemində şəxsiyyət kimi formalaşır. Şəxsiyyət dedikdə, müəyyən sosial keyfiyyətlərə, mənlik hissinə malik olan şüurlu fərd başa düşülür. İnsan fərd (bioloji varlıq) kimi doğulur, sonradan müxtəlif amillərin təsiri ilə şəxsiyyətə çevrilir.

Şəxsiyyətin inkişafı dedikdə, insanın müəyyən keyfiyyətlərə yiyələnməsi və özünü təkmilləşdirməsi başa düşülür. Şəxsiyyət birdən-birə formalaşmır; o, müəyyən səviyyələrdən keçir. Şəxsiyyətin formalaşması insan həyatının müəyyən mərhələsində bitməyən, davamlı olaraq davam edən bir prosesdir. Şəxsiyyət termini kifayət qədər çoxşaxəli anlayışdır və buna görə də bu terminin iki eyni şərhi yoxdur. Şəxsiyyətin əsasən başqa insanlarla ünsiyyət zamanı formalaşmasına baxmayaraq, şəxsiyyətin formalaşmasına təsir edən amillər onun formalaşma mərhələsindədir. Şəxsiyyətin inkişafına dair iki baxış mövcuddur: metafizik və dialektik baxış. Metafizik baxış inkişafı mexaniki proses kimi başa düşür: ona kəmiyyət dəyişməsi kimi baxır, inkişafın mənbəyini isə genetik proqramda axtarır. Dialektik baxış isə şəxsiyyətin inkişafına kəmiyyət dəyişmələrindən keyfiyyət dəyişmələrinə keçid kimi yanaşır, inkişafın mənbəyini ziddiyyətlərin həlli prosesi ilə bağlayır. Dialektik baxışa görə, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsini ziddiyyətlərin yaranması və həlli təşkil edir. Əsas ziddiyyət insanın tələbatları ilə imkanları arasındakı ziddiyyətdir. İnsan öz ehtiyacını ödəmək üçün bütün imkanlarını səfərbərliyə alır və nəticədə tələbatını ödəyir. Bu prosesdə öz inkişafında irəliyə doğru müəyyən addım atır - bu və ya digər keyfiyyətə yiyələnir.Alimlər uzun müddətdir ki, onları tədqiq edir və belə qənaətə gəlirlər ki, iqlim və coğrafi mövqeyə qədər bütün ətraf mühit şəxsiyyətin formalaşmasında iştirak edir. Təbii ki, insan-fərd bir varlıq kimi inkişaf edərək formalaşır. Bir çox görkəmli dünya alimləri fərdin inkişafına irsiyyət nöqteyi-nəzərindən yanaşmaqda haqlıdırlar. İnkişaf təbiət və cəmiyyət hadisələri ilə bağlıdır və hərəkətlə, tərəqqi ilə, yaradıcılıqla səciyyələnir. Bu, eyni zamanda mühit və tərbiyə ilə də şərtlənir. İnsanın inkişafı deyərkən 3 mühüm əlamət-fiziki anatomik-fizioloji inkişaf, yəni insanın bioloji fərd kimi inkişafı, psixoloji inkişafı və sosial inkişaf, insanın vətəndaş-şəxsiyyət kimi yetişməsi nəzərdə tutulur.Şəxsiyyətin formalaşmasına daxili (bioloji) və xarici (sosial) amillər təsir edir. Bioloji amillərdən əsas təsir, doğuş zamanı aldığı fərdingenetik xüsusiyyətləridir. İrsi xüsusiyyətlər şəxsiyyətin formalaşması üçün əsasdır. Bioloji amillər dedikdə, onun genetik proqramına xas olan müəyyən keyfiyyət və xüsusiyyətlərin valideynlərdən uşaqlara ötürülməsi başa düşülür. Genetika məlumatları bir orqanizmin xüsusiyyətlərinin bir orqanizmin xüsusiyyətləri haqqında bu məlumatları saxlayan və ötürən bir növ genetik kodda şifrələndiyini iddia etməyə imkan verir. Şəxsiyyətin inkişafında irsiyyət amili müəyyənedici, sosial amillər isə həlledici rol oynayır. İrsiyyətin müəyyənedici rolu onunla əlaqədardır ki, irsi imkanlar tərbiyə və mühitin

iştirakı olmadan öz-özünə inkişaf edib qabiliyyətlərə çevrilə bilməz. Tərbiyə və mühit insanın təbii imkanlarını üzə çıxarıb inkişaf etdirə də bilər, onların inkişafına mane də ola bilər. Buna görə də hər bir uşağın təbii imkanlarını vaxtında üzə çıxarmaq və onların inkişafı üçün əlverişli şərait yaratmaq lazımdır. Əks halda cəmiyyət bir çox istedadlardan məhrum ola bilər.

Şəxsiyyətin inkişafında insanın şəxsi fəallığının da rolu qəbul edilir. İnsan mühitin və tərbiyənin passiv obyekti deyildir; o, mühitə fəal təsir göstərə bilər. Şəxsiyyətin formalaşmasında tərbiyə ilə yanaşı, insanın özünütərbiyəsi də mühüm şərtdir. Şəxsiyyət haqqında bir sıra nəzəriyyələr vardır. Bu nəzəriyyələri fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, bunların heç də hamısı bir başa şəxsiyyətin psixoloji mahiyyətini müəyyənləşdirməyə yönəldilməyib. Psixologiyada şəxsiyyət bir fərdi bənzərsiz edən və həyati şərtləri qarşısında davranışlarını təyin edən subyektiv xüsusiyyətlərin məcmusu kimi başa düşülür. Dünya üzrə məşhur professor Zigmund Freyd qeyd edir ki, şəxsiyyət bir sistem kimi inkişafının konkret hərəkətverici mexanizmlərinə malikdir. O, şəxsiyyətin strukturunu müəyyənləşdirir.Freydə görə 3 instansiya əsas yer tutur: 1) id (o), 2) eqo (mən), 3) super eqo (super mən). Freyd belə hesab edirdi ki, şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi, hər şeydən əvvəl, libido, cinsi enerjidir. Freydin fikrincə, həyata keçirilməyən arzular nevroz yaradır. O qeyd edir ki, insana heç vaxt ağıldan bəla gəlmir, bəla arzudan gəlir. Arzuların çoxluğu patologiya yaradır. Arzu və onun ödənilməməsi arasındakı uyğunsuzluq insanın xəstələnməsinə səbəb olur. Bütün bunları əsas götürən Freydin fikrincə, şəxsiyyətin formalaşmasında həmin tələbatların ödənilməsi şəxsiyyətin normal inkişafını təmin edir. Həmçinin o qeyd edirdi ki, qorxunu qorxu ilə müalicə etmək olar.

## MÜASİR GƏNCLƏRDƏ MİLLİ HİSSLƏRİN FORMALAŞDIRILMASINDA AİLƏ MÜNASIBƏTLƏRİNİN ROLU

**Nəsibova Yeganə Mürsəl qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*yegana.nasib@mail.ru*

Müasir dövrdə cəmiyyətimiz üçün fərdi və ailə həyat tərzinin yaxşılaşdırılması və eyni zamanda bununla bağlı ailə adət ənənələrinə diqqət yetirilməsi ən əsas məsələlərdən biridir. Ailə mərasimləri xalqın mənəviyyatının ayrılmaz mühüm bir hissəsidir, mühüm mənəvi dəyər, effektiv bir tərbiyə vasitəsidir. Ailə mərasimlərində özünü göstərən əxlaq və xeyirxahlıq kimi keyfiyyətlər gənclərimizin mənəviyyat hissinin formalaşmasında vacibdir. Xalq adət-ənənələri kimi vacib bir dəyərlərin qiymətləndirildiyi bir ailədə böyüdülən gənclər nümunəvi əxlaqları ilə fərqlənirlər. Cinayətkarlar, xuliqanlar və eyni zamanda pis vərdişlərə sahib olanlar bu cür ailələrdən gəlmir. Buna görə məhz gənclərimizi xalq adətləri və ailə ənənələri ilə tərbiyə etmək daha vacibdir. Uşaqlara vətənpərlik hissləri, milli hisslər kiçik yaşlardan aşılanmalıdır. Uşaqlar vətənpərvərlik anlayışına yiyələnməli, dövlət rəmzlərini tanımalı və onlara hörmət etməyi bacarmalıdırlar. Bu həm uşaqların həm də dövlətimizin gələcəyi üçün olduqca mühüm amillərdən biri sayılır. Milli hisslərlə, vətənpərvərlik hissləri ilə zəngin olan uşaq öz millətinə, dövlətinə hörmətlə yanaşacaqdır. Azərbaycan xalqı qədim zamanlardan öz adət və ənənəsi ilə hər zaman seçilib. Qədim tarixi keçmişimizə baxsaq o vaxtdan vətənə, millətə sevgi, böyüklərə və yaşlılara hörmət hissi daim gənclərimizə aşılanmışdır. Azərbaycan xalqı qədim vaxtlardan bu xüsusiyyəti ilə seçilmişdir. Bu gün müasir dövrdə də bu məsələyə olduqca ciddi bir şəkildə yanaşılmalıdır. Öz vətəninə, millətinə, dininə, dilinə, millətinə hörmətlə yanaşmağı bacarmayan gənc öz vətəninin müdafiəsinə qalxa bilməz. Bu isə öz vətəninin müdafiəsinə qalxa bilməyən gəncin vətənə vurduğu ən böyük zərbələrdən biri olar. Məhz elə buna görə də ailə həyatından başlayaraq bağçalarda, məktəblərdə, məktəbəqədər təlim-tərbiyə müəsissələrində uşaqlara bu kimi milli vətənpərvərlik hissləri aşılanmalıdır. İstər təlim-tədrislə bağlı bütün məktəblərdə istərsə də ailədə müəllim və valideylər bu kimi ciddi məsələlərə diqqətli yanaşmalıdırlar. Milli

vətənpərvərlik hissinin formalaşdırılması kiçik yaşlardan başlanılmalıdır. Kiçik yaşlı məktəblilərdə vətənpərvərlik kimi milli hisslərin formalaşdırılmasının mahiyyəti, onların davranışına təsir göstərən etnik və sosial amillər ətraflı şəkildə öyrənilməli və bu yolda vacib işlər görülməlidir. Kiçik yaşlı məktəblilərə həya hissinin tərbiyə edilməsi kimi vacib olan faktorlar göstərilməlidir. Milli hisslər hər bir insanın bir dövlətə və ya bir millətə mənsubiyyət hissidir. Vətən qüruru və vətəninə sevgisi yüksək olan, vətənpərvər hisslərlə zəngin insan əsl vətənpərvərlik nümunəsini göstərə bilən insandır. Öz torpağına, bayrağına, xalqına, millətinə yüksək sevgi ilə bağlı olan insan öz vətəninə həddən artıq sədaqət hissi ilə yanaşar. Eyni zamanda bu isə öz növbəsində həmin xalqın yenilməzliyini göstərir. Vətəni ayaqda tutan amillərdən biri də millətin, xalqın vətəninə sədaqəti və sadiqliyidir. Ona görə də bu hissi kiçik yaşlardan uşaqlarda da formalaşdırmaq lazımdır.Ailə dəyərlərinin inkişafı ailədə olan hər bir ailə üzvünün bir-birinə qarşı qayğı və hörmətlə yanaşmasından asılıdır. Ailədə olan ata-ana münasibəti uşağın gələcəkdə bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Ailədaxili münasibətlərdə bir-birinə qarşılıqlı şəkildə hörmət etmək, əməkdaşlıq, mehribanlıq, mərhəmət, xeyirxahlıq, tolerantlıq, insanlıq, böyüklərə hörmət etmək, kiçiklərə hörmət etmək kimi mənəvi dəyərlərin təcəssüm etdirilməsi vacibdir. Ailədə bu cür mənəvi dəyərlərə riayət olunduqca sağlam ailə təməli yaranmağa başlayır. Bu isə öz növbəsində gənc nəslin milli hisslərinin və milli şüurunun formalaşmasında vacib rol oynayır. Ailə tərbiyəsi uşağın sonradan həyatı boyu alacağı maarifləndirmə və həyat dərsi üçün əsas olan ümumbəşəri prosesin bir mərhələsidir. Belə düzgün tərbiyə üçün hər bir valideyn öz məsuliyyətlərini dərk etməli, ailənin sağlam təməl üzərində qurulması üçün mənəvi dəyərlərə əməl etməlidir. Hər bir ailədə valideyn övladının təlim-tərbiyəsi üçün məsuliyyət daşıyır. Övladlarımızın doğru tərbiyəsi üçün vacib olan şərt ailələrin güclü və mənəvi cəhətdən sağlam bir zəmində qurulmasıdır ki, bu da hər bir təməli möhkəm olan ailə üçün vacib faktorlardan biridir. Bu baxımdan biz valideynləri uşaqların ilk müəllimi adlandıra bilərik. Çünki bir uşağın vətənpərvər gənc kimi yetişməsində, dil öyrənməyə və oxumağa olan marağı məhz ailədən başlayır. Bu gün övladlarımızı insanlıqdan uzaqlaşdıran bütün pisliklərdən qorumaq üçün onları kitab oxumağa həvəsləndirmək, maarifləndirmək lazımdır. Hər bir valideyn öz növbəsində övladının təlim-tərbiyəsi üçün əlindən gələni etməlidir, çünki ailədə sağlam bir mühit olduqda, hərtərəfli sağlam bir insan meydana gətirilə bilər. Xüsusilə fiziki cəhətdən güclü olan, əqli cəhətdən sağlam, ümumbəşəri bir mədəniyyətə, yüksək səviyyəyə, müasir biliyə və peşəyə sahib olan nəslin tərbiyəsində ailə mənəviyyatının rolu xüsusidir. Tərbiyənin əsası isə ailə mühitində qoyulur. Uşaq evdə gördüklərini götürərək, təqlid edərək böyüyür. Məhz elə buna görə ailədə valideyn münasibəti düzgün qurulmalı, onlar sakit, mehriban, nəzakətli, vətənini sevən, milli rəmzlərinə, milli hisslərinə hörmət edən olmalıdırlar. Uşağın tərbiyəsinə ailədə xüsusi olaraq diqqət yetirilməlidir. Əsasən də qız uşaqlarının təlim-tərbiyəsinə, onun təhsilli olmasına önəm verilməlidir. Çünki hər şeydən əvvəl qız uşağı gələcəyin bir anasıdır və onda formalaşan dəyərləri o da öz növbəsidə öz övladına ötürür.

## MƏKTƏBLİLƏRLƏ APARILAN SOSİAL PEDAQOJİ İŞİN SİSTEMİ

**Abbasova İnci Vəfa qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*inciabbas97@gmail.com*

Məktəb ilkin sosial institut kimi gənc nəsli həyata hazırlamalıdır. Sosiallaşma yalnız elmlər haqqında məlumatların verilməsi formasında həyata keçmir. İnsanın bir şəxsiyyət və fəaliyyətin subyekti kimi məktəbdə inkişafı bir neçə mərhələ ilə həyata keçir. Buraya intellektin inkişafı, emosional inkişaf, özünə inam və s daxil etmək olar. Şəxsiyyətin sosiallaşması prosesi XX əsrin problemləri içərisində xüsusi yer tutur. İbtidai sosiallasma ailə daxilində baş verir və uşaqların əvvəlcə öz fərdi kimliklərini öyrəndikləri, dil qazandıqları və idrak bacarıq-

larını inkişaf etdirdikləri məkandır. Uşaqlar ailə daxilində əxlaq, mədəni dəyərlər və sosial rollar haqqında xüsusi düşüncə tərzləri ilə məlumatlanırlar. Məktəb mühiti, müəllimlər və həmyaşıd qrupu isə uşaqların məktəb mühitində sosiallaşmasına təsir göstərir. Ailədə uşaq müəyyən bacarıqlara yiyələnsə də, məktəbdə o bacarıqlarını daha da genişləndirir, sosiallaşır, unsiyyət qurma, dinləmə, öz fikrini deməyi, əks arqument bildirməkdən çəkinməməyi, yaxşını, pisi seçməyi, cəmiyyətin fəal üzvü kimi - şəxsiyyət kimi böyüməyi öyrənir.

Tərbiyə fasiləsiz prosesdir. İnsan doğulduğu gündən ömrünün sonuna kimi davam edir. Onu ictimailəşdirmək üçün tərbiyə təşilatları fəaliyət göstərir.

Tərbiyə təşkilatları isə ümumi sinif daxilində öyrənməyə maneə yaradan xüsusi sosial, emosional və davranış problemləri olan uşaqlar üçün qısa müddətli, diqqətli müdaxilədir. Tərbiyə dəstəyi yalnız tərbiyə qrupu ilə məhdudlaşmır, çünki bütün məktəblər tərbiyə prinsiplərini və praktikasını bütün məktəb səviyyəsində tətbiq edəcək və məktəbə gedən bütün şagirdlərə müvafiq dəstək verəcək tərbiyə qrupu yoxdur. Tərbiyə qrupu köməyilə onlar ünsiyyət quraraq cəmiyyətin sosial-mədəni dəyərlərini mənimsəyir, fərdi inkişafı ücün lazım olan tələblərə malik olur. Tərbiyə işində müəllim şəxssiyyətinin böyüklüyü ondadır ki, o, şagird şəxsiyyətinin də böyüklüyünü görə bilir. Məlumdur ki, uşaqların, yeniyetmələrin, gənclərin onları daim ruhlandıran nümunələrə ehtiyacları olur. Onlar çox vaxt müəllimi təqlid edirlər, müəllim şagirdlərin ideya hamisidir. İdeya təsiri isə o vaxt güclü olur ki, şagirdlər öz müəllimlərində qabaqcıl ideyaların təcəssümünü görürlər.

Pedaqoji fikir tarixində uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı müxtəlif nəzəriyyələr və pedaqoji cərəyanlar mövcud olmuşdur. Valdorf pedaqogikası da bu nəzəriyyələrdən biridir. Valdorf təhsili müstəqil və bir o qədər də əhatəlidir. Valdorf məktəblərində irqindən, cinsindən, dilindən, dinindən,sosial statusundan asılı olmayaraq bütün uşaqlar birlikdə təhsil alır və birlikdə yaşamağı öyrənir. Bu məktəblərin vacib özəlliklərindən biri budur ki, uşaqların hər cür inkişafını dəstəkləyir, məntiqi və tənqidi düşüncəyə malik, müstəqil hərəkət edən, müstəqil qərarlar alan, həyati bacarıqlara yiyələnmiş, gələcəyin çətinliklərinə hazır, ömürboyu öyrənmə hissi aşılanmış şəxsiyyətlər yetişdirir. Sadəcə bilik əldə etmək deyil, bu biliklərdən necə istifadə etmək lazım olduğu diqqət mərkəzindədir. Ən önəmli məsələ isə şəxsiyyətin düzgün inkaşafına diqqət edilməsidir. Bu məsələyə bir Afrika atalar sözü (otları dartdıqda daha tez uzanmır) deviz olaraq götürülərərək yanaşılır və hərşeyi öz zamanında etmək lazım olduğu bildirilir Valdorf pedaqogikası əzbərçiliyə və məcburiyyətə tamamilə tənqidi mövqedə durur, bunu təbii metodlarlar vasitəsilə ritmi yolla gündəlik həyatın öyrədilməsi ilə əvəzləyir. Valdorf Məktəbləri uşaqlara necə və nəyi öyrətməkdə antroposofiyanın elementlərindən istifadə etsələr də, müasir dövrdə antroposofiya tədris edilmir və müəllimlərdən "antroposofist" olmaları tələb olunmur, baxmayaraq ki, bir çoxları Steinerin mühazirələrini və yazılarını öyrənir və onlardan öz anlayışlarını bildirmək üçün istifadə edirlər.

Şagirdin bir şəxsiyyət kimi formalaşdırılması təhsilin humanistləşdirilməsi, demoktarikləşdirilməsi, eyni zamanda təlim prinsiplərinin inkişafetdirici və tərbiyəedici olması humanist pedaqogikanın tələblərindən irəli gəlir

Dövrümüzün əsas tələbi təhsil alana, şəxsiyyət kimi yanaşmaqla,onu cəmiyyətin əsas aparıcı qüvvəsinə çevirməyə nail olmaqdır. Bununla əlaqədar olaraq təhsil sistemində başlıca diqqət təlim-tərbiyənin məzmununun daim modernləşdirilməsinə və humanistləşdirilməsinə yetirilir. Şəxsiyyətin yüksək intellektual qabiliyyətinə və insani keyfiyyətlərinə əsaslanan bu təhsil sistemi yeni – mütərəqqi dəyərlərin daşıyıcısı olan, sosial-mədəni baxımdan daim aktiv olan, çağdaş mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə qadir olan gənc şəxsiyyət formalaşdırır. Məhz bu cür müasir təlim və tərbiyə sistemi həqiqəti bütün dəyərlərdən üstün tutan, dünyanın durmadan gözəlləşdirilməsi və humanistləşdirilməsi naminə var gücünü və enerjisini sərf etməyə hazır olan, gələcək üçün daim məsuliyyət hiss etməyi bacaran yeni şəxsiyyəti yetişdirməyə qadirdir.

**Ədəbiyyat:**

1. Əliyeva T. Müəllimlik peşəsi və müəllim şagird münasibətləri metodik vəsait, Bakı, 2010
2. Paşayev Ə., Rüstəmov F. Pedaqogika(yeni kurs), Bakı, 2012
3. https://www.eani.org.uk/school-management/nurturing-approaches-in-schools-service-nass
4. https://www.waldorfschool.com/about-wsoc/waldorf-education/
5. https://www.waldorfeducation.org/waldorf-education

## MÜHARİBƏDƏ VALİDEYNİNİ İTİRMİŞ UŞAQLARIN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Kazımova Yasəmən Elçin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*yasamankazimova@gmail.com*

Yetkinlərlə müqayisədə müharibədən daha çox uşaqlar əziyyət çəkirlər. Müharibə və onunla bağlı hər şey insana bədbəxtlik, ölüm, dağıntı, aclıq, məhrumiyyət gətirir. Və hər şeydən əvvəl uşaqlar əziyyətə qatlaşmaq məcburiyyətində qalırlar. Müharibə gözlənilmədən onların həyatına qədəm qoyur, uşaqları evindən, ailəsindən, dostlarından məhrum edir, qayğısız xoşbəxt uşaqlığını, ana məhəbbətini, ata məhəbbətini əlindən alır, erkən böyüdür.

Hər iki valideynini və ya valideynlərindən birini itirən və onlarsız böyümək məcburiyyətində qalan uşaqlar şəxsiyyətin formalaşması prosesində bir çox çətinliklərlə üzləşirlər. Onların psixologiyası bu vəziyyətdən çox təsirlənir. Təbii ki, valideynsiz hər bir uşaqda psixoloji və ya sosial problemlərin yaranacağı bir hal deyil, həm də inkişaf çağında və ya yetkinlik dövründə valideynlərin olmaması müşahidə olunan mənfi təsirlərə səbəb ola biləcəyi də bir həqiqətdir. Uşaqların emosional, davranış və sosial inkişafı baxımından valideynləri ilə qurduqları əlaqə onların gələcəkdə sağlam həyat sürmələri üçün çox əhəmiyyətlidir. Valideynlərdən birinin və ya hər ikisinin olmaması uşaq üçün çox təsir edici nəticələrə səbəb ola bilir. Ancaq atasızlığın gətirə biləcəyi psixoloji pozğunluqlar anaların ala biləcəyi bəzi tədbirlərlə azaldıla və ya tamamilə qarşısı alına, ataların görə biləcəyi bəzi tədbirlərlə anasızlığın gətirə biləcəyi psixoloji pozğunluqlar azaldıla və ya tamamilə qarşısı alına bilər.

Müxtəlif səbəblərdən (xüsusi ilə də müharibə nəticəsində) valideynsiz və ya tək valideynlə böyümək məcburiyyətində qalan uşaqların hərəkətlərində asılılıq, aqressivlik, hirsləri idarə etməkdə və stresslə mübarizə aparmaqda çətinlik, akademik nailiyyətlərin azalması və bir çox mənfiliklərə rast gəlinməkdədir. Valideynsiz böyüyən uşaqlarda görünə bilən əsas problemləri emosional, davranış və sosial problemlər kimi təsnif etmək olar. Xüsusən də müharibədə valideynini itirdikdən sonra emosional olaraq həssaslaşan və hisslərini qəzəblə ifadə edən uşağın cinayət nisbəti digər uşaqlara nisbətən daha yüksəkdir. İtirmə hissi güclü olan uşaqda tənhalıq və xəyal qırıqlığı nəticəsində qəzəb yarana və bu qəzəbi ətrafına əks etdirə bilər. Nəticədə cinayət törətmək, cəmiyyətə zidd davranışlar sərgiləmək, zorakılıq hərəkətləri etmək və ya səlahiyyəti olmadığı üçün qaydalara məhəl qoymamaq və sosial uyğunsuzluq uşağın daha asan cinayət törətməsinə səbəb ola bilər.

Uşaq valideynsiz olmasına baxmayaraq, tək olmadığını hiss edirsə, özünə inamı dəstəklənirsə və keyfiyyətli ünsiyyət qurula bilirsə və yaxın biri ilə sağlam şəkildə əlaqə qurub onu özünə nümunə götürə bilirsə, o, kədər prosesindən daha asan çıxacaq və yaralarını sağalda biləcək. Əks halda, tək valideynlə böyüyən və ya hər iki valideynini itirən uşaqların psixologiyası onların gələcək həyatına mənfi təsir göstərəcək, cəmiyyətdən qopmuş, özünü düşünən, aqressiv, dağıdıcı nəsil yetişəcək. Bu cür pozğunluqlar, etik dəyərlərdən uzaqlaşmaq, əxlaqi dəyərlərə məhəl qoymamaq cəmiyyətlərin dağılmasını sürətləndirir. Bəşəriyyətin gələcəyi olan uşaqlarda müşahidə olunan psixoloji problemlər həm cəmiyyətə, həm təhsil sisteminə, həm siyasi quruluşa, həm də ailə nəzəriyyələrinə mənfi təsir göstərir. Müharibə uşağı uşaqlıqdan, xəyal qurmaqdan, yaşıdları ilə oynamaqdan, uşaq olmaqdan məhrum edir. Uşaqların

həyatını məhv edir, yaxşılığa, xoşbəxtliyə inamını öldürür. Bunun nəticəsidir ki, valideynsiz və ya təkbaşına böyüyən uşaqlarda bəzi neqativ hallar müşahidə olunsa da, zəruri tədbirlər görülərsə, gələcək nəslin quruculuğunda mənəvi, vicdan və insani dəyərlərə əməl olunarsa, hər bir uşaq ümid mənbəyidir.

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN SOSİAL-PEDAQOJİ İNKİŞAFI

**Soltanova Gülşən Gündüz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gul.sultan1999@gmail.com*

İbtidai məktəb yaşı uşaqların məktəb dövrünün ən mühüm mərhələsidir. Məktəb dövrü vaxtında dəstəklənməsi vacib olan gizli inkişaf imkanları ilə zəngindir. Bu yaş dövrünün yüksək həssaslığı uşağın hərtərəfli inkişafı üçün böyük potensialı müəyyən edir.

Sosial-pedaqoji inkişaf uşaqlara sosiallaşma prosesində kömək etmək və onun sosial-mədəni təcrübəsini mənimsəmək, habelə cəmiyyətdə özünü formalaşdırmaq üçün şərait yaratmağa yönəlmiş peşə fəaliyyətidir. Sosial-pedaqoji fəaliyyət çox profilli və çoxşaxəlidir, lakin burada əsas məqsəd insanlarla, ilk növbədə uşaqlarla işləməkdir. Sosial-pedaqoji fəaliyyət kiçik yaşlı məktəblilərə özünü, onun psixoloji vəziyyətini müəyyən etməyə, ailədə, məktəbdə, cəmiyyətdə normal münasibətlər qurmağa, digər sözlə, sosiallaşmasına və özünü dərk etməsinə kömək etməyə yönəlmiş fəaliyyətdir.

Kiçik yaşlı məktəblilərin sosial və pedaqoji fəaliyyəti birbaşa şagirdin sosial qarşılıqlı əlaqəsinin pedaqoji tənzimlənməsinin effektiv mexanizminin mövcudluğundan asılı keyfiyyətləri inkişaf etdirməyə yönəldilmişdir. Bu, aşağıdakı istiqamətlərin həyata keçirilməsini nəzərdə tutur: uşağın sosial inkişaf şərtlərinin öyrənilməsi, uyğunlaşma prosesində müəyyən çətinliklərin aradan qaldırılması, şagirdin sosial mühitlə aktiv qarşılıqlı əlaqəyə daxil edilməsi, uşaqlarla bağlı yaranan problemlərdə və onların həllində valideynlərin cəlb edilməsi, təhsil müəssisəsində sosial profilaktikanın təşkili, sosiallaşmasında mövcud problemləri olan uşaqlara sosial-pedaqoji yardımın göstərilməsi, mütəxəssislərin ailələr və məktəblilərlə işə cəlb edilməsi, sosial mühitin fəaliyyəti üçün sosial institutların qarşılıqlı fəaliyyətinin təşkili.

Kiçik yaşlı məktəblilərin sosial-pedaqoji fəaliyyətinin inkişaf etdirilməsi zamanı onların maraqlı olduğu yönlərini müəyyən etmək və bu yönümdəki bacarıqlarını inkişaf etdirməkdən ibarətdir. Bununla da uşaqların həm istedadları üzə çıxarılır və onların inkişafı üçün şərait yaradılır.

Ümumiyyətlə, uşaqların sosiallaşmasında məhz təlim-tərbiyənin əsas mərkəzlərindən biri olan məktəb əsas rolu oynayır. Məktəblərdə uşaqlarla pedaqoji iş prosesində uşaqların sosiallaşması aparılır. Həyata keçirilən sosiallaşma prosesi bir çox müxtəlif üsullarla (idrak fəaliyyəti, əyləncə, idman, mənəvi və praktiki vasitələrlə) təşkil edilir. Məktəblərdə həyata keçirilən bu kimi işlər sosial səciyyə daşıyır.

Kiçik yaşlı uşaqların sosiallaşmasında breyn-rinq (beyin halqası), maraqlı oxuma müsabiqələrinin təşkili, əyləncəli idman günləri, müxtəlif ziyalı (və ya qəhrəmanlarla) insanlarla tanış olmaq, ailələrin də iştirakı ilə sərgilərin və yarmarkaların, müxtəlif şənliklərin və tədbirlərin keçirilməsi, rollu oyunların, konkursların təşkili, kollektiv yaradıcılıq və əmək fəaliyyətinin təşkili olduqca zəruridir.

Tədris zamanı müəllimin uşaqlara yönəltdiyi qrup işləri nəticəsində isə daha rəsmi səciyyə daşıyan ilk münasibət şəkli formalaşır. Bununla da kollektiv daxilində şagirdlərin birliyi özünü göstərir. Qrup işi prosesində şagirdlərin hər biri eyni məqsəd üçün çalışdığından bunu yüksək səylə həyata keçirməyə çalışırlar. Bu zaman isə onlar arasında qeyri-formal sayılan dost münasibətləri də başlamış olur. Qeyri-formal münasibət uşaqlarda

ünsiyyətin təkmilləşdirilməsi və bu istiqamətdəki ehtiyacların ödənilməsindən ibarətdir. Bu isə uşaqlar üçün olduqca zəruridir

Məlum olduğu kimi, uşaqların, xüsusilə kiçik yaşlı uşaqların davranışı, onların bir çox xüsusiyyətləri məhz sosiallaşmanın və sosial-pedaqoji təcrübənin nəticəsində qazanılır. İnsanların cəmiyyətə inteqrasiya olunması ilə sosial təcrübə əldə olunur.

### Ədəbiyyat

1. Ucar X. Exploring different perspectives of social pedagogy: Towards a complex and integrated approach. Educ. Policy Anal. Arch. 2013, 21, 1–15.

2. Колесова С.В. Позитивная педагогика: постановка проблемы / С.В. Колесова // Мир науки, культуры, образования. – 2013. – №6 (43) декабрь. – С. 234–237. – ISSN 1991-5500.

3. Ə.Ə.Ağayev, Y.T.Rzayeva, T.M.Hüseynova, T.Ə.Vahabova. *Sosial pedaqogika*. Bakı, 2008.

4. Киселева Ольга Андреевна. Социально-педагогическая деятельность в начальной школе. Екатеринбург. 2017.

5. Popova L.V. (2011). Gifted Education: European Public Policy countries. Psychological science and education, 4, 56-62.

## ÜNSİYYƏT VƏ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA AİLƏ MÜNASİBƏTİLƏRİNİN ROLU

**Rufullayeva Sara Rahid qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*srflyv@gmail.com*

Vətəndaş cəmiyyətində insanlar müxtəlif sosial qruplar yaratmaq imkanına sahib olur. İnsanların təsis etdiyi sosial qruplardan ən önəmlisi ailədir.

Ailə vətəndaş cəmiyyətini formalaşdıran əsas elementlərdən biri sayılır. Ailə yaxın qohumların birlikdə yaşadıqları sosial qrupdur. Lakin buna adi qrup kimi baxmaq da doğru deyil. O, kiçik sosial qrupdur və cəmiyyətin ilkin özəyidir. Bu baxımdan da ailə cəmiyyətin mühüm təsisatlarından biri sayılır. Ailə hər bir cəmiyyətin sosial strukturunun mühüm komponenti olub, çoxlu sosial funksiyalar yerinə yetirməklə həmin cəmiyyətin inkişafında mühüm rol oynayır.

Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından, valideynlərin isə ən mühüm vəzifələrindən biridi. Heç bir ailədə uşaq kortəbii şəkildə tərbiyə edilmir. Hansı valideyn olur olsun, o, uşaqların tərbiyəsində mütləq müəyyən pedaqoji məqsədi rəhbər tutur.

Valideynlərin bir qisminin pedaqoji məqsədləri çox vaxt aydın xarakter daşımır, dəqiq olmur. Bu da uşaqların tərbiyəsi işinə böyük ziyan vurur. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, ata-ananın böyük əksəriyyətinin öz qarşısına qoyduqları pedaqoji məqsədlər dəqiqliyi ilə seçilir.

Şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danışanda məhz bu cəhəti – ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsirini nəzərdə tuturlar. Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərtlənir, onlardan ikisini ayrıca qeyd etmək gərəkdir. Birinci tip amillərə ailə münasibətləri – ata ilə ana valideynlərlə uşaqlar, bacı ilə qardaş, və s. Arasındakı münasibətlər daxildir. Ailənin maddi vəziyyəti, mənzil şəraiti, quruluş ikinci tip amillər sırasına daxil edilir.

İkinci tip amillər uşaqların tərbiyəsinə bu və ya digər dərəcədə təsir göstərir. Lakin psixoloji tədqiqatlardan görünür ki, onları gənc nəslin tərbiyəsində həlledici hesab etmək olmaz.

Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə, uşaqların min bir tellə bağlı olduğunu ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz.

Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. formalaşır.

Böyüməkdə olan nəslin tələbat – motivasiya sahəsinin, əxlaqi şüurunun və s. formalaşmasına xüsusi diqqət yetirilməlidi. Uşaq da özü haqqında aydın təsəvvür yaradılmalıdı. O, özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə məşğul olmalıdır. Bundan ötrü bir tərəfdən, uşağı ictimai münasibətlər sisteminə daha geniş cəlb etmək, ətrafdakı adamlarla onun ünsiyyətini dolğunlaşdırmaq, digər tərəfdən isə onun fəaliyyət sahəsini genişləndirmək zəruridir.

A.S.Makarenko deyirdi:"Tərbiyə işinin əsl mahiyyəti... heç də sizin uşaqla təklikdə söhbət etmənizdən, uşağa müstəqim təsir göstərməyinizdən ibarət deyil, ailənizin, şəxsi və ictimai həyatınızın təşkilindən, aşağın həyatını təşkil etməkdən ibarətdir".

Ailə tərbiyəsinin çox mühüm bir xüsusiyyəti var: valideynlərlə uşaqlar arasında münasibətlər şəxsi – emosional xarakter daşıyır. Ana uşaqla hisslərin dili ilə danışır. Ata məhəbbəti də şirindi. Övladların qəlbini riqqətə gətirir. Ailə tərbiyəsinin üstünlüyü də, zərifliyi də məhz buradadı. Fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etmək üçün uşağa, hər şeydən əvvəl, valideyn məhəbbəti gərəkdir. Ancaq bir şərtlə: ata – ananın məhəbbəti uşağı inkişaf etdirməlidir. Onun nəinki bugünkü, həm də sabahkı xoşbəxtliyinin rəhni olmalıdır.

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ƏXLAQ TƏRBİYƏSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

**Bayramova İnara Fərail qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nara.bayramova.98@mail.ru*

Qloballaşan dünyada təlim-tərbiyə işinin milli zəmin üzərində qurulması, xalqımızın əxlaqi-mənəvi dəyərlərindən istifadə edilməsi, onların öyrənilməsi gənclərimizin milli ruhda tərbiyələnməsində mühüm rol oynayır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli xəzinə onun milli-mənəvi dəyərləridir. Bu dəyərlərin xarici təsirlərdən qorunaraq saxlanması, onun inkişaf etdirilməsi cəmiyyətin əsas özəyini təşkil edən insanların əxlaqi-mənəvi dəyərlərə malik olma səviyyəsindən asılıdır. Ona görə də milli-mənəvi dəyərlər gənc nəslə daha da zənginləşdirilmiş halda ötürülməlidir.

Ətraf aləmə zahiri münasibəti və özünəməxsus daxili xüsusiyyətləri ilə səciyyələnən insanın mənəviyyatının əsası irsi amillərlə şərtlənsə də, əsasən, sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada insanın böyüdüyü ailə mühiti, inkişaf etdiyi təbii və sosial mühit, yaşadığı ictimai-tarixi dövr, ümumilikdə cəmiyyətin mədənimənəvi həyatı mühüm rol oynayır. İnsanın formalaşdığı ictimai-tarixi mühit mövcud əxlaqi-mənəvi və millimədəni dəyərlər sistemi, sosial-hüquqi normalar, təsərrüfat-iqtisadi münasibətlər, ailəməişət münasibətləri, təhsil-tərbiyə sistemi və bu kimi digər mühüm elementlərin sintezindən ibarətdir. Bütün bu elementlərin vəhdətinin daşıyıcısı olan insanlar ayrı-ayrılıqda ahəngdar inkişaf etmiş şəxsiyyətlər kimi cəmiyyətin mədəni inkişafında aparıcı qüvvə hesab olunur. Bu gün xeyli miqdarda idarə olunan və idarə olunmayan informasiya kanallarının, xüsusən televiziyanın, mətbuatın, müxtəlif internet saytlarının əxlaqa və ümumən milli mənəviyyata yad elementlərin təsiri altına düşdüyü bir vaxtda milli-mənəvi mühitin qorunması və cəmiyyətin mədəni inkişafı problemi olduqca

aktualdır. Burada milli özünüdərk prosesi ilə əxlaqi-mənəvi dəyərlərin vəhdəti güclü təsirə malik hərəkətverici qüvvə kimi özünü göstərir.

Hazırda Azərbaycanın Avropa məkanına daxil olması, dünya ölkələrinə inteqrasiyası bütün sahələrdə olduğu kimi, iqtisadi-siyasi, sosial-mədəni sferalara da qlobal miqyasda təsir göstərmişdir. Lakin bu təsir əxlaqi, milli-mənəvi sahəyə də təsirsiz qalmamışdır. Azərbaycan xarici ölkələrlə sıx əlaqədədir. Xarici jurnallar, televiziya kanalları və digər informasiya vasitələri ilə Avropanın, Amerikanın və bütün planetin mənəviyyat sahəsində olan problemlər, nöqsanlar digər ölkələr kimi, Azərbaycanın da milli məkanına daxil olur. Əlbəttə, insanlar milli şüur səviyyəsinə malikdirsə, mənəviyyatca yetkindirsə, möhkəm iradə və xarakter əlamətlərinə yiyələnibsə, onların kənar təsirlərə qarşı daxili müqavimət qüvvəsi böyük olacaqdır. Bununla yanaşı milli varlığı, milli mənafeyi qoruyub saxlamaq funksiyasını dövlət öz üzərinə götürür. Gənc nəslin əxlaqi-mənəvi tərbiyəsi işi ümumi tərbiyə prosesinin əsas komponenti, onun tərkib hissəsidir. Ümumi tərbiyənin məqsədi hərtərəfli inkişaf etmiş həqiqi insan yetişdirməkdir

Cəmiyyətin mədəni inkişafını, gələcək tərəqqisini gənc nəslin mükəmməl təhsil almasında görən ümummilli lider Heydər Əliyev deyirdi: “Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Əlbəttə, bu da təhsil sistemimizin qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyası, təhsilin modernləşdirilməsi yolu ilə həyata keçirilə bilər.

Müstəqil dövlətimizi möhkəmləndirmək üçün müasir gəncliyə elmi-texniki biliklər vermək, praktik vərdişlər mənimsətmək bacarıqları ilə yanaşı, milli-mənəvi dəyərlərə malik olmaq, milli xüsusiyyətlərinə hörmətlə yanaşmaq kimi hislər də aşılamaq lazımdır... Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir, tariximizi, dilimizi, milli ənənələrimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz...

Bu gün mənəvi tərbiyə, bəlkə də, keçmiş illərdən daha çox lazımdır” . Dünya xalqları arasında millimənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı özünəməxsus bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Qədim tarixi köklərə malik Azərbaycan xalqı əsrlər boyu özünəməxsus olan maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Xalqın mövcudluğunun əsas göstəricilərindən olan əxlaqi-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, milli xüsusiyyətlərimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. İstər təhsil sistemi, istər gənclərin mədəni-mənəvi həyatı elə bir mühit yaratmalıdır ki, bu mühitin xarici təsirlərə qarşı reaksiya qabiliyyəti güclü olsun. Yəni insanla xarici təsir arasında qoruyucu bir sahə olmalıdır. İnsanla mədəni-mənəvi mühit arasında qoruyucu sahədə boşluqlar olduqda yad təsirlər yaddaşa təsir edir. Bu zaman dünyagörüşü aşağı səviyyədə olanlar, zəif iradəlilər, əxlaqi-mənəvi dəyərlərdən uzaq olanlar asanlıqla bu təsirlərə boyun əyirlər. Bununla əlaqədar olaraq gənc nəslin əxlaqi-mənəvi inkişafının, milli özünüdərk hissinin səviyyəsini, iradi qabiliyyətlərini yüksəltmək istiqamətində aparılan işlər sistemli şəkildə yerinə yetirilməlidir. Bu zaman ənənəyə sadiqlik, yüksək mənəvi dəyərlərimizi, milli mənliyimizi qorumaq prinsipi diqqət mərkəzində saxlanmalıdır.

Cəmiyyət dəyişdikcə, yeni yetişən gənc kadrların tərbiyə sistemi, onlara verilən biliklərin məzmununa münasibət də dəyişməlidir. Hər bir cəmiyyətdə tərbiyə onun başlıca vəzifəsi hesab edilir. İnsan amilinin əsas yer tutduğu müasir dövrdə gənc nəslin dünyagörüşünə, yüksək əxlaqi keyfiyyətlərə malik olan, sosial cəhətdən fəal olan, mənəvi zənginliyi, əxlaqi saflığı, fiziki kamilliyi və fiziki mədəniyyəti özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması bir vəzifə kimi qarşıda durur. İnsanların öz nəslini artırıb inkişaf etdirməsi, tərbiyə edib formalaşdırması cəmiyyətin mədəni inkişafı üçün zəruridir. Yaşlı insanlar həm öz nəsillərini, həm də ümumilikdə cəmiyyəti yaşatmaq və inkişaf etdirmək üçün uşaqları ictimai həyata ha-

zırlamalı, onları tərbiyə etməlidirlər. Bu isə onu göstərir ki, tərbiyə insanların ictimai əmək fəaliyyəti prosesində yaranmış, bəşəriyyətin praktik tələbatından asılı olmuş və cəmiyyətin yarandığı ilk vaxtlardan meydana gələrək onun inkişafına təsir göstərən mühüm bir vasitə olmuşdur.

Adət-ənənələr əsasında dayanan əxlaqi-mənəvi dəyərlər xalqın ülvi hislərinin parlaq ifdəsidir. Bəşəriyyətin yüz illər boyu əldə etdiyi, zənginləşdirdiyi və gələcək nəsillərə ötürdüyü əxlaqi-mənəvi dəyərlər şəxsiyyətin formalaşmasında mühüm amil kimi çıxış edir. Bununla yanaşı, insanın sosial-mənəvi mühitdə mövqeyi, intellektual səviyyəsi, daxili aləmi, həyat tərzi, mentaliteti onun şəxsiyyət kimi formalaşmasını təmin edir. Əxlaqi-mənəvi keyfiyyətlər insanların fəaliyyəti ilə sıx bağlıdır. Nəzərə almaq lazımdır ki, ayrı-ayrı kollektivlərdə yaxşı tərbiyə görmüş, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik olan insanların olması yerinə yetirilən işin effektli olmasına təkan verdiyi kimi, ümumilikdə cəmiyyətdə də belə insanların olması cəmiyyətin mədəni inkişafının əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Belə insanlar ayrı-ayrı adamlara, kollektivə və cəmiyyətə yüksək dərəcədə fayda verdikləri kimi, özləri də cəmiyyətdən daha səmərəli şəkildə faydalanırlar. İnsanın əxlaqi-mənəvi keyfiyyətləri həm sosial mühitin təsiri ilə, həm tərbiyənin, pedaqoji amillərin təsiri ilə, həm də onun şəxsi fəallığı və iradi keyfiyyətləri ilə sıx bağlıdır. İnsan cəmiyyətdə yaşayır, cəmiyyət isə insan əxlaqına, onun mənəvi simasına, əxlaqa zidd hərəkətlərinə etinasız yanaşa bilməz. Çünki əxlaqi keyfiyyətlər nəinki tərbiyə prinsipi, həm də bəşəri dəyərlərdir. Ailə mühitindən başlayaraq təhsilin müxtəlif pillələrində və səviyyələrində davam edən ümumi tərbiyə prosesi şəxsiyyətin formalaşmasında əhəmiyyətli olan milli, əxlaqi-mənəvi münasibətlər zəminində qurulur.

Gənc nəslin yiyələndiyi mədəni-mənəvi münasibətlər onlarda yüksək əxlaqi prinsiplərlə fəaliyyət göstərməyə, kollektivçilik və birgə yaşayış qaydalarına əməl etməyə daxili tələbat oyadır. Y.A.Komenskinin təbirincə desək, biz insanın tərbiyəsi ilə məşğul oluruqsa, bu sahədə uğur qazanmaq istəyiriksə, insanın mahiyyətini düzgün öyrənməliyik. İnsanlar bir-birindən öz qabiliyyətlərinə görə nə qədər fərqlənsələr də, onlara eyni üzvlərə malik bəşəri-təbiət xasdır. Müasir dövrdə Şərq xalqlarının, o cümlədən İslam dünyasının tarixən yaratdığı adət-ənənələrin, milli-mənəvi dəyərlərin öyrənilməsi imkanlarından səmərəli istifadə edilməsi aktual əhəmiyyət kəsb edir. Milli-mənəvi tərbiyənin imkanları dedikdə, buraya şəxsiyyətin formalaşmasına təsir göstərən dəyərlər şamil edilir. Milli-mənəvi tərbiyə pedaqoji prosesdə həyata keçirilən müxtəlif növlü fəaliyyətin stimullaşdırılması və təşkilini nəzərdə tutur.

Ümummilli lider Heydər Əliyev gənclərimizin əxlaqi-mənəvi dəyərlərə hörmət və məhəbbət ruhunda tərbiyə olunması üçün onların milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə edilməsini vacib hesab edirdi. O, insanın mənəvi cəhətdən zənginləşməsinə birinci dərəcəli əhəmiyyət verərək deyirdi ki, insanın çoxlu pulu, malı, dövləti ola bilər. Amma onun mənəviyyatı yoxdursa, onların da heç bir dəyəri, qiyməti yoxdur. Mənəvi, əxlaqi dəyərlər sırasında və mənəvi tərbiyə prosesində ana dilinin böyük əhəmiyyəti Heydər Əliyevin nəzəri irsində xüsusi əhəmiyyət kəsb etmişdir. Öz ədəbiyyatını, ana dilini yaxşı bilməyən gənc mənəvi cəhətdən tam zəngin ola bilməz. Ona görə də bir nömrəli vəzifə ondan ibarətdir ki, gənc nəsil öz xalqının milli-mənəvi dəyərlərini, keçmiş nəsillərin ideya-mənəvi irsini dərindən dərk etsin və onlardan sərbəst istifadə edə bilsin. Heydər Əliyevin mənəvi, əxlaqi irsində Azərbaycan xalqının tarixi şəxsiyyətlərinə diqqət, onların həyatını, fəaliyyətini dərindən öyrənmək məsələsi önəmli yer tutur ki, gənclərin mənəvi tərbiyəsində bu nümunələr xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar ulu öndər Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində demişdir: "Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır

Cəmiyyətin mədəni inkişafı probleminə ümummilli lider Heydər Əliyevin irəli sürdüyü konsepsiya baxımından yanaşsaq, qeyd edə bilərik ki, milli dəyərlərin, əxlaqimənəvi keyfiyyətlərin gənc nəslə çatdırılması və inkişaf etdirilməsi üçün aşağıda göstərilən cəhətlərə yüksək

səviyyədə əməl edilməsi mühüm şərtdir: - azərbaycançılıq; - müstəqilliyin, milli dövlətçiliyin qorunması və ona məhəbbət; - ana dilinin qorunması və onun təbliği; - hüquqi dövlətin Əsas Qanunu Konstitusiyası, bayrağı, himni, gerbi və başqa atributlarına hörmət və onların qorunması; - milli-mənəvi sərvətlərin qorunması və onlara qayğı; - mədəniyyət abidələrinin qorunması və onlara qayğı; - dini dəyərlərə hörmət və s.

Bu baxımdan İslam mənəvi dəyərlərinin gənc nəslə mənimsədilməsi çox önəmlidir. Mövcud şəraitin, milli adətənənələrin, təlim alanların yaşayış tərzinin, mənəvi səviyyəsinin nəzərə alınması böyüməkdə olan nəslin İslam mənəvi dəyərləri əsasında tərbiyəsinin səmərəliliyində mühüm şərtdir. İslam dəyərləri zəngin nəzəri bazaya malikdir. Bu, özünü müqəddəs "Qurani-Kərim"də, Məhəmməd Peyğəmbərin hədislərində daha aydın surətdə göstərir. Hazırda respublikamızda gənclərlə bağlı strategiyalar, müxtəlif layihələr icra olunur.

## YENİYETMƏ YAŞ DÖVRÜNDƏ AİLƏ TƏRBİYƏSİNİN ƏHƏMİYYƏTİ

**Hüseynova Validə Bayram qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Valide.huseynova@icloud.com*

Hər bir valideyn uşaqları böyütməkdə özünə bir neçə vəzifə qoyur: uşağın böyüməsi və inkişafı üçün ən əlverişli şəraitin yaradılması; fərdin psixoloji dəstəyi və müdafiəsi; ailə ənənələrinin qorunması və inkişafı, yaşlı nəslə hörmətli münasibətin tərbiyəsi.

Ailə uşağın əqli inkişafına böyük təsir göstərir, onun öyrənməyə münasibətinə təsir edir, onun uğurunu böyük ölçüdə müəyyənləşdirir. Uşağın problemləri diqqətlə diqqət tələb edir, çünki onlar ilk növbədə ailənin, sonra isə təhsil müəssisəsinin və dövlətin problemləridir. Eyni zamanda, onlar ayrılmaz şəkildə bağlıdır: ailədəki problem, münaqişəli vəziyyətlər, maddi və psixoloji çətinliklər cəmiyyətdə böhran vəziyyətlərinə səbəb olur.

Yeniyetməlik dövrünə qədəm qoyan uşaqların "çözülməzliyindən" şikayət edən valideynlərin sayı artır. Bəziləri uşağın hərəkətlərinə nəzarət edə bilmədiklərini, onunla əlaqə saxlamadıqlarını deyirlər. Bu ona görə baş verir ki, bu valideynlər, bəlkə də, uşaqlarının inkişafında baş verən dəyişiklikləri başa düşmürlər, bəzi hərəkətlərə düzgün reaksiya vermirlər, onlara düzgün qiymət tapmırlar.

Ədəbiyyatlarda yeniyetməlik dövründə düzgün olmayan tərbiyənin mənfi nəticələri haqqında çox danışılır, müsbət imkanlardan isə çox az danışılır. Bu arada, yeniyetməlik dövrü uşağın xarakterində ən müsbət dəyişikliklərin, onun gizli qabiliyyətlərinin ən gözlənilməz təzahürlərinin (uşaqlar şeir yazmağa başlayır, həyəcanla oxuyur) vaxtı ola bilər.

Yeniyetməlik dövründə baş verən dəyişikliklərə müsbət təsir göstərmək, yeniyetmələrin artan enerjisini düzgün istiqamətləndirmək həm valideynlərin, həm də müəllimlərin əsas tərbiyə işlərindən biridir.

Uşağın ideal tərbiyəsinin necə olması lazım olduğunu mühakimə etmək çətindir. Yetkinlər və uşaqlar arasında ahəngdar ailə münasibətləri aşağıdakı şərtlər daxilində yaranır: uşağın əsas ehtiyaclarının ödənilməsi (təhlükəsizlik, psixoloji dəstək), uşağın fərdiliyini qəbul etmək, tanımaq və anlamaq, fərdi xüsusiyyətlərə adekvat olan qarşılıqlı əlaqə tərzinin yaradılması. Uşağın, həmçinin ailədə ahəngdar münasibətlərin əvəzsiz şərti və nəticəsi valideyn-övlad arasında emosional yaxınlıqdır.

Valideynlərdən növbəti tez-tez verilən sual: uşağın gözündə necə nüfuzlu olmaq olar? Bunun üçün ilk növbədə, böyüklər uşağı emosional olaraq qəbul etməli və ağlabatan tələblər sisteminə sahib olmalıdırlar. Uşaqların gözündə onlara qarşı həssaslıq, həssaslıq və anlayış göstərən böyüklər nüfuzlu olurlar. Valideynlər və uşaqlar arasında emosional yaxınlıq varsa, belə uşaqların davranışı açıqlıq, ünsiyyətcillik, tərbiyəçilərə, müəllimlərə və həmyaşıdlarına qarşı güvən, mehriban, münaqişəsiz münasibət ilə xarakterizə olunur. Belə uşaqlar daha uğurlu olurlar. Valideynlər məsafə saxlayırsa, uşağı özlərindən uzaqlaşdırırlarsa, o zaman ye-

niyetmələrin davranışlarında düşmənçilik, ünsiyyətin olmaması, münaqişələrin artması, yaxınlıq özünü göstərir.

Yeniyetmələrin tərbiyəsi zamanı valideynin ondan xahiş edilmədiyi halda belə, həmişə kömək edən insan mövqeyini tutduğu ailədə böyüklər və uşaq arasında ən etibarlı münasibətlərin və əməkdaşlığın qurulduğuna dair yanlış bir inanc var. Çox vaxt bir valideynin simasında yeniyetmələr köhnə dostunu, yəni yalnız uşağın özü heç bir çətinliyi dəf edə bilməyəndə köməyə gələcək birini görmək istəyirlər. Digər hallarda isə yeniyetməyə öz problemlərini təkbaşına həll etmək imkanı verilir.

Və ən əsası, valideynlər yadda saxlamalıdırlar ki, uşaqların intellektinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, onların mənəvi-estetik formalaşması, emosional mədəniyyəti, fiziki sağlamlığı və xoşbəxtliyi daha çox ailədən asılıdır və ailə tərbiyəsinin əsas vəzifələridir.

**Ədəbiyyat:**


1. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanları: STBM. Bakı, 2018 (PDF)

2. Avropa Şurasının Gender Bərabərliyi Strategiyası 2018-2019.(PDF)

3.Самекин А.С. Возрастная динамика точности и адекватности межличностного восприятия. М.: МГУ, 2011. 28 стр.

4.https://www.acarindex.com/pdfler/5088-7105.pdf


## ÜNSİYYƏT İNSANIN HƏYAT FƏALİYYƏTİ VƏ ELMİ FENOMEN SFERASI KİMİ


**Babazadə İnci Kamal qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*injibabazadeh94@gmail.com*


Ünsiyyətin insan həyatında oynadığı rolun əhəmiyyəti danılmazdır. Bu haqda bir çox alimlər, filosoflar da fikir bildirmişlər. Görkəmli azərbaycan filosofu Nəsrəddin Tusi ünsiyyətin fərdlər arasında xoş münasibətə gətirib çıxardığı qənaətində idi. O, öz yazılarında ailə üzvləri, təhsilverənlər və təhsilalanlar, tanışlar, dostlar arasında mövcud olan ünsiyyətdən bəhs etmişdir. Filosofa görə, əgər söhbət aparılan şəxslə ümumi maraqlara malikiksə bu zaman həmin şəxslə xoş münasibət yaratmaq asanlaşır. Həmçinin bir sıra başqa görkəmli şəxslər də ünsiyyətin insanın həyat fəaliyyətindəki vacib rolundan bəhs etmişlər.

Müasir şəraitdə, insanın xarici aləmlə təmasının sayının artdığı, insanlarla ünsiyyət qurmaq bacarığının həyatda uğur qazanmaq istedadına malik olmaqdan qat-qat vacib olduğu vaxtda ünsiyyət mədəniyyəti xüsusi əhəmiyyət kəsb edir. Həqiqətən də, ünsiyyət insanın həyat şəraiti, onun normal inkişafı və varlığı üçün şərtdir. Ünsiyyət insan fəaliyyətinin bütün növlərinin zəruri komponentidir. Bu gün aydın olur ki, insan tərbiyəsi təkcə biliyə, əmək vərdişlərinə yiyələnmək deyil, həm də ünsiyyət mədəniyyətinə yiyələnməkdir. Əlbəttə, bəzi insanlar ünsiyyətcil, açıq fikirli (ekstravert), bəziləri isə qapalı xarakterə malik - özündə daha dərindir, yəni introvert tipdir. Lakin insanların bütün bu psixofizioloji xüsusiyyətləri ünsiyyət üçün ilkin şərtlərdir və ya müvafiq şəxsi keyfiyyətlərin tərbiyəsi, özünütərbiyəsi, onların insanda yetişdirilməsi ehtiyacını ləğv etməyən davranışdır.

Aydındır ki, ictimai faktorların təsiri ilə dil qüvvətlənir. Bu faktorlardan ən başlıcası elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyatdır. Bütün bu faktorların köməyi ilə dilin zənginləşməsinə nail olmaq mümkündür. Cəmiyyət özü də dilə təsir edir və bununla ünsiyyətin keyfiyyətində tərəqqiyə nail olunur. Burada daha çox iki yol diqqəti çəkir:

1. Cəmiyyətin arasıkəsilməz və şüurlu surətdə dilə təsiri. Yəni dilin ədəbi üslubunun formalaşması və güclənməsi.

2. Cəmiyyətin stixi yolla dilə təsiri. Bu yol dilin qeyri-ədəbi ünsiyyət formasında müşahidə olunur və onun inkişafına təkan verir.

Bunların hər ikisi də bizim üçün faydalıdır. Belə ki, rəsmi qurumlarda, işgüzar münasibətlər zamanı, kütləvi informasiya vasitələrində və s. bu qəbildən olan yerlərdə ədəbi üslub, yaxınlarla, dostlarla ünsiyyət zamanı isə qeyri-ədəbi üslubun istifadə olunması məsləhətdir.

Dedik ki, ünsiyyət insanın həyat fəaliyyətidir. Həqiqətən də, adamların bir-birini başa düşməsi üçün ünsiyyət vasitələrinə ehtiyacı olmadığı hər hansısa bir fəaliyyət sahəsi yoxdur. Dil, ünsiyyət insanların hər cür fəaliyyətində iştirak edərək cəmiyyətin mədəni inkişafını təmin edir.

Ünsiyyət mədəniyyətinin mühüm hissəsi nitq etiketidir, çünki nitq etiketi hər hansı bir milli mədəniyyətin vacib elementidir. Hər bir xalqın özünəməxsus nitq etiketləri vardır ki, bunlar da həmin xalqın nümayəndələrinin davranışında, adət-ənənələrində, həyat tərzi və məişət şəraitində, habelə ünsiyyət formalarında öz əksini tapmışdır. Nitq etiketi davranış etiketini şifahi şəkildə ifadə edən nitqdəki dil vahidlərinin sahəsini təyin etməyə imkan verir. Bu, insanın xarakteri ilə sıx bağlı olan, onun əxlaqi-etik münasibətlərinin əksi olan dil kateqoriyasıdır: başqalarına qarşı xeyirxah olmaq, incitməmək, vicdanlı olmaq, kiçikləri qorumaq.

Belə bir şəraitdə şəxsi ünsiyyət mədəniyyətinin formalaşdırılması ən mühüm sosial problemlərdən biridir. Onun həlli sosial-iqtisadi, siyasi, əxlaqi, mədəni və psixoloji amillərin təsiri nəzərə alınmaqla sistemli olmalıdır. İnsanın ünsiyyət mədəniyyətinin formalaşması və fəaliyyətinin mürəkkəb, ziddiyyətli prosesi onun müəyyənləşdirilməsi cəhdlərində öz ifadəsini tapmışdır. Bəzi tədqiqatçılar şəxsi ünsiyyət mədəniyyətini cəmiyyətdə qurulmuş münasibətlər normalarına riayət etmək kimi başa düşürlər. Aydındır ki, "şəxsi ünsiyyət mədəniyyəti" termininin bu cür şərhləri bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır, müxtəlif aspektləri əks etdirir. Fikrimizcə, şəxsiyyətin ünsiyyət mədəniyyəti şəxsiyyət mədəniyyəti strukturunun dinamik və nisbətən sabit komponentləri arasında birləşdirici əlaqə rolunu oynayır.

İnsanın ünsiyyət mədəniyyətinin davranış alt strukturunun ayrılması onun iki əsas komponentini nəzərdən keçirməyə imkan verir:

1) normativ (verilən sosial norma və standartların mənimsənilməsi);
2) yaradıcı (ünsiyyət zamanı normaların yaradılması və qurulması).

Şəxsi ünsiyyət mədəniyyəti icazə və qadağa ilə tənzimlənən sosial normaların miqyasına görə dəyişir. Bununla belə, bu mədəniyyət növünün normaları ünsiyyət mədəniyyəti kimi dəyişkəndir. Cəmiyyətdə baş verən dəyişikliklər onların transformasiyasına gətirib çıxara bilər. Əgər etiket və ya gündəlik ünsiyyət normaları nisbətən asanlıqla dəyişdirilə bilərsə, cəmiyyət üçün ən vacib sahələri tənzimləyən normaları dəyişdirmək olduqca çətindir və onların müəyyən cəmiyyətin üzvləri tərəfindən dəyişdirilmiş mühitdə qəbul edilməsi son dərəcə ağrılı ola bilər. Müasir mədəni şəraitdə ünsiyyət mədəniyyətinin formalaşdırılmasına, habelə praktiki və tətbiqi məqsədlərlə ünsiyyət bacarıqlarını inkişaf etdirməyə yönəlmiş müxtəlif təlimlər ortaya çıxır. Əlbəttə ki, ünsiyyət subyekti kimi deyil, təsir obyekti kimi qəbul edilən başqalarını manipulyasiya etmək üçün kommunikasiya texnologiyalarının mənimsənilməsi insanda inkişaf etmiş müəyyən ünsiyyət mədəniyyətinin olması haqqında danışmağa əsas vermir.

Ünsiyyət mədəniyyəti dedikdə, bəziləri ancaq dilin təsvir və ifadə vasitələrindən istifadə formalarını başa düşmüş, digər alimlər fikri düzgün, yığcam ifadə etməyi nitq mədəniyyət hesab etmişlər. Öz düşüncəsini düzgün danışmaq və yazmaqla ifadə edərək kamil nitqə malik olmaq mədəni nitqin əsas əlamətidir. Yüksək nitq mədəniyyətinə yiyələnən hər bir kəs ictimai-siyasi, iqtisadi və mədəni həyatda daha məhsuldar çıxış etmək imkanına yiyələnir. Nitq mədəniyyətini təkmilləşdirmək üçün insanlar kitab, qəzet və jurnallar mütaliə etməli, kino və teatra vaxtaşırı getməli, radio və televiziya verilişlərindən nümunə götürməlidirlər. Bunlar nitqi ən şüurlu şəkildə inkişaf etdirmək yollarıdır. Lakin təbii ki, hər kəs bu mətbuat orqanlarına və digər sadalananlara müraciət edərkən aralarından ən sanballı olanlarını seçməli, onların nit-

qinə, ünsiyyət mədəniyyətinə həqiqətən faydalı olacaq nümunələrini özləri üçün müəyyənləşdirməlidirlər.

## ÖZÜNÜTƏRBİYƏNİN METODLARI, YOL VƏ VASİTƏLƏRİ

**Mustafayeva Rəvanə Tərlan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rvnnyy01@gmail.com*

Yeniyetməlik dövründə, insan özünü dərk etməyə başlayanda, öz psixikasında ətraf aləmlə münasibətlərə və yeni informasiyanın mənimsənilməsinə təsir göstərən bir çox möhkəmlənmiş hissləri, fikirləri, baxışları müəyyən edir. Bu tanınmayan hisslər, baxışlar insana güclü təsir edir. Psixologiya "özünütərbiyə" anlayışı altında insanın daxili mənəvi dünyasının müstəqil inkişaf etmək bacarığını nəzərdə tutur. Filosoflar, psixoloqlar iddia edirlər ki, məhz insanın ruhunda, mənəviyyatında onun inkişafının hərəkətverici qüvvələri yerləşir. "Beləliklə də, şəxsiyyət inkişaf etdikcə özünütərbiyə daha böyük rol oynamağa, daha aydın və səmərəli şəkildə özünü göstərməyə başlayır. Deməli, özünütərbiyə şəxsiyyətin həyat şəraiti və tərbiyə ilə şərtlənən əxlaqi - psixoloji yetginliyinin müəyyən səviyyəsində özünə yeredir" [2, s.508].

İnsanın öz xarakterində və davranışında bu və ya digər nöqsanları aradan qaldırmağa ehtiyac yarandıqda, dəqiq məqsəd qoymaq və ona nail olmaq zərurəti vacib olur. Bu məqsədi bir neçə gün ərzində, o şüurda möhkəmləndirinə qədər ucadan və ya öz daxilində səsləndirmək faydalıdır. Bundan əlavə, özünütərbiyə üçün ətraflı bir proqram hazırlamaq və konkret olaraq hansı keyfiyyətlərə nail olmaq üçün olanları müəyyən etmək lazımdır. Əlbəttə, sadə proqramlardan başlamaq daha yaxşıdır, məsələn: düşünülməmiş hərəkətlər etməmək, həmsöhbətin sözünü kəsməyin pis bir vərdişini aradan qaldırmaq, sözünə əməl etmək. Özünütərbiyə üzrə təcrübə əldə etdikcə, proqramlar mürəkkəbləşməli, təkmilləşməli, daha uzunmüddətli olmalıdır.

Özünütərbiyə etmək şəxsiyyətin müəyyən inkişaf, onun özünüdərk səviyyəsini təhlil etmək bacarığını, öz hərəkətlərini digər insanların hərəkətləri ilə şüurlu surətdə müqayisə etdikdə nəzərdə tutulur. İnsanın öz potensial imkanlarına münasibəti, özünü qiymətləndirmənin düzgünlüyü, öz çatışmazlıqlarını görmək bacarığı insanın yetkinliyini səciyyələndirir və bu, özünütərbiyənin təşkilinin əsas şərtidir.

Özünütərbiyə insan tərəfindən ifadə edilən məqsədlər, fəaliyyət proqramları, proqramın icrasına nəzarət, əldə edilən nəticələrin qiymətləndirilməsi, öz-özünə korreksiya əsasında qurulmuş özünüidarəetmə prosesində həyata keçirilir.

Özünütərbiyə üsulları arasında aşağıdakıları qeyd etmək olar: özünüinandırma, özünütəlqinetmə, özünütənqid, empatiya, özünütəhriketmə, özünücəzalandırma.

Özünüinandırma - özünüqiymətləndirməyə əsaslanan bir üsuldur. Yeniyetmə özündə hər hansı pis hərəkəti aşkar edərək, adətən, şüurluşəkildə özünü bu çatışmazlığın aradan qaldırılmasının zəruriliyinə inandırmağa çalışır.

Özünütəlqinetmə üsulunda artıq yeniyetmənin çatışmazlıqları deyil, yalnız məqsədləri səsləndirilir. Belə hərəkət edərək, insan özünü daha yaxşı görür və öz gücünə və imkanlarına daxili inamı yüksəlir. Məsələn, pis vərdişi aradan qaldırmaq üçün yeniyetmə öz-özünü danışmalıdır: "Mən gözəl, təmiz, savadlı danışıram. Mənim çıxışım başqalarına xoşdur. Mənim hər bir sözümü eşitmək xoşdur". Belə deyərək, insan öz şüurunda hərəkətinə rəhbərlik edərək gələcəkdə öz davranışını müəyyən edən bu qaydaları təsbit edir.

Özünütənqid-insanın şüurunda daxili ziddiyyət yaradan üsuldur. Bu üsul yeniyetməni öz üzərində işləməyə, şəxsi keyfiyyətlərin təkmilləşdirilməsinə, pisliyin kökünün kəsilməsinə təhrik edir.

Empatiya- özünü başqa insanın və ya canlının yerində hiss etmə bacarığı, başqasının dərdinə şərik olma hissidir. Bu üsul özündə mənəvi keyfiyyətlərin, yardım göstərməyə can atmağın və s.-in tərbiyəsində xüsusilə effektivdir.

Özünütəhriketmə üsulundan iradə tərbiyəsində tətbiq olunmalıdır. Əgər yeniyetmə hər hansı bir hərəkəti əməl etmək zərurətini dərk edirsə, lakin onun yerinə yetirilməsi üçün kifayət qədər iradəyə malik deyildirsə, özü-özünü təhrik etməli, imkan daxilində isə özünə şifahi əmr verməlidir. Əmr əminliklə, möhkəm, kəskin, etiraz qəbul edilmədən olmalıdır. Daim özünü nəyəsə məcbur edərək, yeniyetmə hər dəfə öz iradəsinə tabe olmaq daha asan olur və iradəli səylərin nəticəsində çatışmazlığı tədricən aradan qaldıra bilir.

Özünücəzalandırma-nəzərdə tutulmuş qaydalara riayət olunmasına nəzarətin monitorinqinə əsaslanan metoddur. Bu üsulun tətbiq etmədən yeniyetmə nəzərdə tutduqlarından bir dəfə geri çəkilərsə, etdiyi hərəkətə görə təəssüflənməyərək növbəti dəfə yenə də eyni cür hərəkət edə bilər. Öz üzərinə cəza qoyaraq, insan bundan sonra onun qarşısını almaq istəyindən əlavə, onun yerinə yetirilməsi üçün səy göstərir ki, bu da şəxsiyyətin formalaşmasında böyük əhəmiyyətə malikdir.

Yeniyetmə özünütərbiyə prosesini aşağıdakı mərhələlərdə qurur:

- düzgün davranış normaları və tələbləri ilə tanışlıq;
- həmin norma və tələblərə münasibətin formalaşdırılması: düzgün davranış motivlərinin və arzusunun aşılanması;
- ictimai davranış normalarına baxış və əqidənin formalaşdırılması;
- düzgün davranış təcrübəsinin, adətlərinin yaradılması;
- tərbiyənin özünütərbiyəyə keçməsi, insanda özünütərbiyə tələbatının yaranması.

Məktəbdə özünütərbiyə işi üç əsas istiqamət üzrə aparılır:

1) yeniyetmələrdə özünütərbiyənin zəruriliyi və müstəsna əhəmiyyəti barədə davamlı inancının formalaşması;

2) bu prosesin həyata keçirilməsi üçün yeniyetmələrə özünütərbiyə üsulları və vasitələrinin izahı;

3) şagirdlərə köməliyin edilməsi və özünütərbiyə prosesinin tənzimlənməsi.

Birinci istiqamətin mahiyyəti şagirdlərə özünütərbiyənin nə qədər vacib olduğunu anlamaqdan ibarətdir. Bir çox yeniyetmələr bunu etməkdən utanırlar və bunu yoldaşlarından, valideynlərindən, müəllimlərindən gizli edirlər.

İkinci istiqamət bu prosesin həyata keçirilməsi ilə bağlıdır. Bu istiqamətdə işə başlayarkən yeniyetmələrə öz ideallarını tapmağa, hədəfləri seçməyə, öz xarakterinin zəif tərəflərini, kifayət qədər inkişaf etmiş keyfiyyətləri üzə çıxarmağa kömək etmək lazımdır. Sonra psixoloq tərəfindən özünütərbiyə etmək mövzusunda müxtəlif söhbətlər aparılır, bu zaman özünütərbiyə metodları və vasitələri haqqında suallar cavablandırılır, onlardan istifadə nümunələri göstərilir. Tanınmış görkəmli insan, müharibə qəhrəmanları, istehsalatın qabaqcıl nümayəndələri olan, müxtəlif fəaliyyət növlərində böyük uğurlar qazanmış insanlar, şəhid ailələrin üzvləri, qazilər müəllimlər, şagirdlər qarşısında müxtəlif çıxışları yaxşı effekt verir. Belə çıxışlarda özünütərbiyə etməyin vacibliyindən bəhs edilir və öz həyatından nümunələr verilir. Bütün bunlar şagirdlərin şüurunda özünütərbiyənin zəruriliyi və səmərəliliyi barədə fikirləri möhkəmləndirir, özünütərbiyə üsullarının praktiki tətbiqi barədə bilik verir və onları öz tərbiyəsini həyata keçirməyə sövq edir.

Özünütərbiyə üzrə işin təşkilinin üçüncü istiqaməti praktiki xarakter daşıyır. Bu mərhələdə yeniyetmə öz qarşısına düzgün məqsədlər qoymağı, onun nailiyyətlərinin proqramını işləyib hazırlamağı və yerinə yetirməyi, bunun üçün özünütərbiyə etməyin ən məşhur və ən effektiv üsullarından istifadə etməyi öyrənirlər. Səhv hərəkətlərin aradan qaldırılması və yaxşı işlərin nəticələrinin hesaba alınmasında effektiv vasitə kimi gündəliyin aparılması mütləqdir. Belə gündəlik özünütərbiyə prosesinə nəzarət etməyə, bu

və ya digər metodların effektivliyini təhlil etməyə, özünütərbiyə məsələlərinin həlli üçün ən optimal yolları seçməyə imkan verir [2, s.68].

Beləliklə, şəxsiyyətin inkişafının, onun intellektual bacarıqlarının və ictimai özünüdərkin müəyyən mərhələsində yeniyetmə yalnız xarici məqsədlərini deyil, həm də öz tərbiyəvi məqsədlərini başa düşməyə başlayır. O, özünə tərbiyə subyekti kimi yanaşır və özünütərbiyə etməyə çalışır. Şəxsiyyətin formalaşmasında özünəməxsus olan bu yeni faktorun meydana gəlməsi ilə insan özü tərbiyəçi olur.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN HƏYATINDA OYUNCAQLARIN ROLU

**Həsənova Elmira Vahid qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elmirahesenova3098@gmail.com*

***Açar sözlər:*** *oyuncaq, məktəbəqədər, uşaq, oyun*
***Ключевые слова:****игрушка,дошкольное, ребенок, игра*
***Key words:****toy, preschool, child, game*

**Xülasə**

Uşaq oyunlarıın atributu oyuncaqlardır. Oyuncaqlar uşaq oyunlarını daha məzmunlu və əhəmiyyətli edir. Uşaqlar oyuncaqlar vasitəsilə ətraf mühiti dərk edir, onlarda cəmiyyət haqqında ümumi fikirlər yaranır.

**РОЛЬ ИГРУШЕК В ЖИЗНИ ДОШКОЛЬНИКОВ**

**Резюме**

Игрушки атрибут детских игр. Игрушки делают детские игры боле значимыми. Через игрушки дети познают окружающую среду, имеют общее представление об обществе.

**THE ROLE OF TOYS IN THE LIVES OF PRESCHOOL CHILDREN**

**Summary**

Toys are an attribute of children’s games.Toys make children’s games more meaningful and important.Through toys,children understand the environment,they have a general idea of society.

Məktəbəqədər yaş dövründə həm oyunlar, həm də bu zaman istifadə edilən oyuncaqlar uşaqların mənəvi, sosial, əqli, həm də fiziki tərbiyələrini inkişaf etdirib, daha sonra formalaşdırır. Uşaq oyunu inkişaf üçün böyük əhəmiyyət kəsb edir. Uşaq nə qədər çox oynayarsa, dərketmə, yetkinləşmə, həyata pozitiv münasibət bir o qədər yüksək olar.

Uşaqlar oyuncaqlar vasitəsilə ətraf mühiti dərk edir, onlarda cəmiyyət haqqında ümumi fikirlər yaranır. Uşaqlıqda oyuncağı olmayanlar böyüyəndən sonra cəmiyyətə qarşı da soyuqqanlı olurlar. Bununla belə, deyə bilərik ki, uşağın inkişaf mərhələsində hər yaşın özünə uyğun oyuncağı olur. Kiçik yaşlı uşaqlar üçün hazırlanan oyuncaqlarda göz oxşayan rənglərdən, səslərdən və s. istifadə edilir. Bu aspektdə uşaq həmin oyuncaqlarla oynayarkən rəng və forma anlayışlarını öyrənirlər. Qeyd olunan hal vərdişə çevrildikdə artıq uşağın yaddaşı da güclənir. Çünki o, qeyd etdiyimiz xüsusiyyətləri daşıyan oyuncaqlardan dəfələrlə istifadə edir.

Oyuncağın məzmunu tərbiyəvi xarakter daşımalı, oyuncaq insan həyatını, milli kolariti və milli hissləri özündə əks etdirməlidir. Hazırda elmin, texnikanın inkişafı ilə əlaqədar olaraq oyuncaqların da istehsal sahəsi genişlənib. Texniki oyuncaqlar uşağın özünün düzəltdiyi oyuncaqdır. Bu, onlarda daha çox maraq doğurur. Oyuncaqda uşaq yaradıcılığı özünü göstərir. Valideynlər uşağın oyuncaqdan istifadə etməsinə, özləri tərəfindən hazırlanmasına şərait

yaratmalıdır. Oyuncaqda yumor da olmalıdır, hərəkət də olmalıdır. Oyuncaqlar gigiyenik tələblərə cavab verməlidir.

Uşaqların dünyagörüşünün genişləndirilməsi, oyunların müxtəlif istiqamətlərdə təşkili və aparılması tərbiyəçi-müəllimdən yaradıcı pedaqoji bacarıq tələb edir. Bunun üçün öncə uşaqların əqli inkişafı və tərbiyəsinin xüsusiyyətləri nəzərə alınır. Bu məqsədlə aparılan tədqiqat materiallarından məlum olur ki, məktəbəqədər yaş dövrünün bütün mərhələlərində oyunlardan istifadə etmək səmərəli nəticə verəcəkdir. Uşaq öz oyununda öyrəndiyini, nağıldakı sevimli qəhrəmanını təsvir edərkən əvvəlcə onun diqqətini daha çox cəlb edən xarici cəhətlərini, sonra danışıq və davranış, idraki cəhətləri, əxlaqi keyfiyyətlərini təqlid edir. O, özünü sevimli obrazla birləşdirir, onun hissləri ilə yaşayır, xeyirxah hisslərin, səylərin onun şüurunda tez-tez təkrar edilməsi uşaqda həmin keyfiyyətlərin yaranmasına və inkişaf etməsinə səbəb olur. Ona görə də oyunun məzmunu, ifa olunan rol şəxsiyyətin formalaşmasına, əqlinin inkişafına, fikirləşib nəticələr çıxarma, yeri gəldikdə, onlardan istifadə etmə qabiliyyətinin inkişaf etdirilməsinə böyük təsir göstərir.

**Ədəbiyyat:**

1. Mursaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika. Bakı, 2011
2. Мухина В.С. Возрастная психология. Учебник для студ. вузов. М.: Академия, 1999.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARA İSLAM DƏYƏRLƏRİNİN AŞILANMASININ VACİBLİYİ

**Musabəyli Aygün Şahbaz qızı**
**Azərbaycan Pedaqoji Dövlət Universiteti**
*aygun.musabeyli@bk.ru*

***Açar sözlər:*** *uşaq, din, İslam, tərbiyə*
***Ключевое слово:****дети, религия, ислам, воспитание*
***Key word:*** *children, religion, Islam, discipline*

**Xülasə**

İslam dəyərlərinin kiçik yaşlı uşaqların yaş xüsusiyyətlərini, anlaq səviyyələrini nəzərə alaraq aşılamaq vacib bir məsələdir.Uşaqların bir şəxsiyyət kimi yetişməsində və formalaşmasında bu dəyərlər mütləq nəzərə alınmalıdır. Belə halda yetişməkdə olan gələcək nəslin etiqad seçimi daha düzgün olar.

## ВАЖНОСТЬ ПРИВИТИЯ ИСЛАМСКИХ ÖЕННОСТЕЙ ДЕТЯМ ШКОЛЬНОГО ВОЗРАСТА

**Резюме**

Важно прививать исламские öенности в свете возраста и нравственности маленьких детей. Эти öенности необходимо учитывать при развитии и становлении детей как личностей. В этом случае следующее поколение верующих будет более точным.

## THE IMPORTANCE OF INSTILLING ISLAMIC VALUES IN SCHOOL-AGE CHILDREN

**Summary**

It is important to instill islamic values in light of the age and morality of young children. These values must be taken into account in the development and formation of children as individuals. In that case, the next generation of believers will be more accurate.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-ənənəvi dəyərlərinə qayıdışı sürətləndi. Müstəqil ölkəmizdə gənc nəslin tərbiyəsi milli və bəşəri zəmində təşkil

olunmağa başladı. Bu prosesdə təbiiki, islam dəyərlərinə də istinad olunur. İslanı əxlaqı mahiyyətinə, bəşəri dəyərlərinə görə ən zəngindir.

İslam dəyərlərinin kamil bir insan yetişdirməkdə rolu çox böyükdür. Kamil insan sözündə, əməlində, insanlarla rəftarında nümunvi olan bir sözlə hər bir işdə örnək olan insana deyilir. Bütün bu müsbət kefiyyətləri kiçik yaşlardan aşılamaq vacib bir məsələdir. Kiçik yaşlı uşaqların islam dəyərləri ilə tanış edilməsi, bu dəyərləri onların yaş xüsusiyyətlərini, anlaq səviyyələrini nəzərə alaraq aşılamaq vacib bir məsələdir. Kiçik yaşlardan uşaqlara Allaha, Peyğəmbərə və İslamın müqəddəs kitabı olan Qurani Kərimə hörmət aşılanmalıdır. Uşaqlara sevgini, saflığı, paklığı, ədalətliyi, halalığı aşilamaq gələcəkdə kamil insan yetişməsinə təkan verməkdir.

İslam dəyərləri bizim üçün çox qiymətli bir xəzinədir.Qurani Kərimdə qoyulan qayda qanunlar ilk öncə insanları inamsızlıqdan, ziyankarlıqdan, zülumkarlıqdan, yalandan, əxlaqsızlıqdan uzaqlaşdırmağa kömək edir bir sözlə bütün insalığı doğru yola səsləyir. İslam dəyərləri haqqında məlumat tərbiyə və təlim prosesinin bütün mərhələlərində, o cümlədən, uşaq bağçalarında ətraf aləm və ictimai həyat hadisələri ilə tanışlıq, bədii ədəbiyyat və nitq inkişafı məşğələlərində, ibtidai siniflərdə isə oxu dərslərində, gəzinti və ekskursiyalar, bayramlar, kütləvi tədbirlər zamanı verilə bilər.

Dini dəyərlərin rolunu uşaqlara ilkin yaşlarında çatdırmaq lazımdır ki, bu ideyalar onların ruhuna hakim kəsilsin. Kiçik yaşlı uşaqlara dini dəyərləri elə aşılamaq lazımdır ki, bu hisslər sonrakı həyat yollarında mənəvi qüvvəyə çevrilsin və özünəməxsus kefiyyətlərin formalaşmasına kömək etsin.

İslam dinin müqəddəs kitabı olan Qurani-Kərim bütün müsəlmanlar üçün dəyərli bir dərslikdir. Bu müqəddəs kitabda vurğulanan və insana aid bütün gözəl xüsusiyyətlərin uşaqlara aşılanmasında əsas iş valideyn və tərbiyəçilərə düşür.

Hər bir azərbaycanlı ailəsində böyüyən uşağa islamın mahiyyəti izah olunmalıdır.Bu əsasda onların yaş və anlaq səviyyələri nəzərə alınaraq uşaqları islam dəyərləri ilə tanış etməlidirlər. Ümumiyyətlə, onların şəxsiyyət kimi yetişməsində və formalaşmasında bu dəyərlər mütləq nəzərə alınmalıdır. Belə halda yetişməkdə olan gələcək nəslin etiqad seçimi daha düzgün olar.

Professor V.Məmmədəliyev qeyd etmişdır ki: “Mən belə hesab edirəm ki, dini tərbiyə nəinki orta məktəbdən, hətta məktəbəqədər müəssisələrdən başlanmalıdır. Hər uşağın yaşına, təfəkkür tərzinə uyğun müvafiq təbliğat işləri apanhnalıdır”.

Uşaqların təlim-tərbiyə işində islam dəyərləri çox vacib amildir və insan əqidəsinə təsiredici rolu əvəzsizdir. İslam dinin bütün dəyərlərinin uşaqlara öyrətmək mümkünsüzdür, ancaq daha vacib olanları seçib təlim-tərbiyə işinə daxıl elmək mümkündür. Uşaqlara aşılanması vacib olan islam dəyərlərinin həcmi bütöv olmalıdı və bu proses sistemli, məqsədyönlü həyata keçməlidir. Burada əsas iş ailələrə və uşaq bağçalarında çalışan tərbiyəçi-müəllimlərə düşür.

**Ədəbiyyat**


1. Baxışova Ş.A. Kiçikyaşlı uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə. Bakı: ADPU-nun mətbəəsi, 2005, 38 s.
2. Balayev M.N. İslam və onun ictimai-siyasi həyatda rolu. Bakı:Azərnəşr, 1991, 151 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Elm, 1980, II cild, 424 s.


## EKOLOJİ MƏDƏNİYYƏTİN FORMALAŞMASI MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN FORMALAŞMASININ MÜHÜM AMİLİ KİMİ


**Teyyubova Urqiyəxanım Rüfət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*urgie.teyubova@mail.ru*



***Açar sözlər:*** *ekoloji mədəniyyət, məktəbəqədər yaşlı uşaqlar, mənəvi tərbiyə*
***Ключевые слова:*** *экологическая культура, дошкольники, духовное воспитание*

***Key words:*** *ecological culture, preschool children, spiritual education*

**Xülasə**

Məktəbəqədər yaşlı uşaqlarınekoloji mədəniyyətinin formalaşdırılmasının məqsədi uşaqların çoxşaxəli, mənəvi cəhətdən yetkin, yaradıcı şəxsiyyətini tərbiyə etmək, onlarda təbiətə məsuliyyətli, diqqətli münasibət formalaşdırmaqdır. Ekoloji təhsil bu gün müasir məktəbəqədər yaşlı uşaqlarınvə bütövlükdə təhsil sisteminin inkişafı üçün prioritet sahələrdən biridir. Gələcək nəsillərdə ekoloji şüurun əsaslarının formalaşması cəmiyyətin həyat qabiliyyətinin, dövrümüzün aktual problemlərinin həllində dinamik tərəqqisinin mühüm göstəricisinə çevrilir.

## ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ КАК ВАЖНЫЙ ФАКТОР В ФОРМИРОВАНИИ ДОШКОЛЬНИКОВ

**Резюме**

Цель формирования экологической культуры дошкольников состоит в том, чтобы воспитать в детях многогранную, нравственно зрелую, творческую личность, сформировать у них ответственное и внимательное отношение к природе. Сегодня экологическое образование является одним из приоритетных направлений развития современных дошкольников и системы образования в целом. Формирование основ экологического сознания у будущих поколений становится важным показателем жизнеспособности общества, динамичного прогресса в решении актуальных проблем современности.

## FORMATION OF ECOLOGICAL CULTURE AS AN IMPORTANT FACTOR IN THE FORMATION OF PRESCHOOL CHILDREN

**Summary**

The purpose of forming the ecological culture of preschool children is to bring up children's multifaceted, morally mature, creative personality, to form in them a responsible and attentive attitude to nature. Today, environmental education is one of the priority areas for the development of modern preschool children and the education system as a whole. The formation of the foundations of ecological consciousness in future generations is becoming an important indicator of the viability of society, the dynamic progress in solving current problems of our time.

Sosiallaşma insanı cəmiyyətlə təbii qarşılıqlı təsiri və rəal, bəzən də müxtəlif istiqamətli həyat hadisələrinin təbii təsirli prosesində insanın inkişafı üçün şəraitin məqsədyönlü şərait şəkildə yaradılması prosesində, yəni təlim-tərbiyədə baş verir.

Ekologiya yunan sözü olub, iki hissədən ibarətdir: "Oykos" ev, yurd, vətən və "loqos" elm mənasını verir və yurd, ev, vətən anlayışları ilə qarşılıqlı əlaqədə olan məsələləri – təbiətlə orqanizm arasındakı əlaqələri öyrənir.

Azərbaycan Respublikasının Konustitusiyasında nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək ölkə vətəndaşlarının ekoloji mədəniyyətinin inkişaf etdirilməsi alimlər, pedaqoq, müəllim və tərbiyəçilər qarşısında mühüm vəzifə olaraq qoyulmuşdur. Mədəniyyətin formalaşdırılması fasiləsiz olaraq ailədə, məktəbəqədər təhsil müəssisələrində, orta məktəblərdə və nəhayət ali məktəblərdə aparılmalıdır. Məktəbəqədər təhsil müəssisələri insanların dünyagörüşünün genişlənməsi üçün bir mərhələdir. Məlum olduğu kimi müasir dünyanın ən böyük problemlərindən biri ekoloji problemdir. Ekologiyanın pisləşməsi, ətraf mühitin çirklənməsi bütün ölkələrdə olduğu kimi Respublikamızda da ciddi narahatlıq doğurur. Elə buna görə də, Prezident İlham Əliyev 2008-ci il sentyabrın 26-da Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər, plan haqqında sərəncam imzalamışdır.

Uşaqların ekoloji mədəniyyətinin formalaşmasında mühüm yerlərdən birini də məktəbəqədər müəssisələrinin ailə ilə qarşılıqlı əlaqəsi tutur. Lakin hər ailə uşaqla qarşılıqlı təsir kompleksini tam şəkildə həyata keçirə bilmir, bunu isə səbəbləri müxtəlifdir, bəzi ailələr uşağa tərbiyə vermək istəmir, başqaları bunu bacarmır, digərləri bunun onlara nə üçün lazım olduğunu anlamırlar. Hər bir halda məktəbəqədər təhsil müəssisələrinin peşəkar köməyi lazımdır.

Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski çox haqlı olaraq deyirdi ki, uşaqların barmaqlarının ucunda onların yaradıcılıq qabiliyyətinin və istedadlarının bünövrəsi var.

Təcrübələr bir daha göstərir ki, təbiət mənzərələri, təbiət gözəllikləri həmin qabiliyyət və istedadı inkişaf etdirməkdə çox qüvvətli təsir gücünə malik olan vasitələrdir. Buna görə də, təbiətlə qarşılığın vasitəsi olaraq məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyə problemi daha çox diqqət obyektinə çevrilmiş sistemlə tədqiq olunmalıdır. Təbiətdən alınan təəssürat əsasında erkən yaşlardan uşaqların ekoloji tərbiyə problemi daha çox diqqət obyektinə çevrilmiş sistemlə tədqiq olunmalıdır.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmə münasibəti-uşaqların ətraf aləmə göstərdiyi marağın istiqaməti ikincisi isə ətraf aləm haqqında qavrayışların təzahürüdür. Məktəbəqədər dövrdə uşaqların ətraf aləmə marağı təbii sayılmalıdır, çünki maraq uşaq çağlarından başlamış yetkinlik yaşa qədər, şəxsiyyətin ümumi inkişafı ilə birlikdə oyun, təlim və əmək fəaliyyəti prosesinə qədər mürəkkəb inkişaf yolu keçir.

Psixoloq Viqotskinin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, artıq orta qrupda təkcə ətraf aləmin gözəlliyini müşahidə etmək qabiliyyəti tərbiyə etmək azdır, həm də onu yaratmağa can atmaq, həvəs artirmaq, tərbiyə etmək lazımdır.

Əxlaqın mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər iddia edirlər ki, insan ictimai varlıqdır, onun fəaliyyəti də ictimai mühitə, ictimai qaydalara təyin edilir. İctimai varlıq olan insanın əxlaqı öz başlanğıcını həyatdan alır. Buna görə də əxlaq ictimaidir. Digər qrup alimlərə görə insan hər şeydən əvvəl canlı varlıqdır,canlı orqanizmdir, onun yaşayış tərzi canlı təbiət qanunları əsasında baş verir. İnsan da başqa canlılar kimi doğulur, mübarizə aparır. İctimai mühit yalnız insan nəslinin yaşaması, artıb-törəməsi üçün şərait olmaqla kifayətlənmir, bioloji prosesin baş verməsinə heç cürə malik olmur, əksinə özü insanı bioloji prosesində fəaliyyət göstərməsini təsdiq edir.

Əxlaqı, mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biri milli mənlik şüurunun formalaşdırılmasıdır. XX əsrin son illərində aşkarlıq və demokratiyanın təsiri ilə Azərbaycan xalqı öz kökünə, tarixinin açılmamış səhifələrinə müraciət edərək, xalqın tarixi kökləri, tariximizin bəzəyi olan görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənir, milli özünüdərkin, milli özünütəsdiqin, milli özünəməxsusluğun bütün əlamətlərini aşkar etməyə çalışır. Milli rəmzlərə, adətlərə, ənənələrə yeni həyat verilir, dini etiqatlar, müqəddəs bayramlar xalqın özünə qaytarılır. Bu qayıdışda yeni bir ruh, yeni təfəkkür, yeni mədəniyyət öz əksini tapır.

Məhz milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti bu köklərdən rişələr alır, yeni nəsilləri azadlığa, müstəqilliyə çağırır. Hər bir uşaqda milli mənlik şüuru belə bir zəmin üzərində təşəkkül tapır və belə bir həqiqəti təsdiq edir ki, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı xalqın böyüklüyündən və kiçikliyindən deyil həmin xalqın müdrikliyindən, zəngin təfəkkür tərzindən asılıdır. Kiçik yaşlı uşaqların müsbət əxlaqi keyfiyyətlərinin, mənəviyyatının inkişafı milli mənlik şüurunun formalaşması ilə bilavasitə bağlıdır.Yekun olaraq deyə bilərik ki, formalaşan pedaqoji və sosial amilləri məktəbəqədər yaşlı uşaqların müasir ekoloji mədəniyyətinin formalaşdırılması problemlərinin həllinin vahid prosesində birləşdirməyə çalışmaq lazımdır.

**Ədəbiyyat:**

1. Ətraf mühitin problemlərinin həllində təhsilin rolu / Təhsil hökumətlərarası IV kionfransın materialları. Bakı:Marif,2009, 170 s.

2. Əfəndiyev G. Əxlaq və mənəvi dəyərlərin qarşılıqlı münasibətləri// Ekologiyanın fəlsəfi problemləri.I buraxılış, Bakı:Elm, 2000, 133 s

3. Məsimov İ.M., Nuriyev Ş.D. Ekoloji tərbiyənin aktual məsələləri. Bakı: Bilik, 2011, 49 s.

# MÜXTƏLİF FƏALİYYƏT NÖVLƏRİ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAF VASİTƏSİ KİMİ

**Aydınova Şəbnəm Bilal qızı**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
*shabnam.mammadova@inbox.ru*

***Açar sözlər:*** *uşaq, sosial, inkişaf*
***Ключевые слова:*** *ребенок, соöиальное, развитие*
***Key words:*** *child, society, development*

**Xülasə**

Məktəbəqədər təhsil müəssisələrindəki hərtərəfli fəaliyyət uşağın sosial gerçəkliyə cəlb olunmasının həm vacib şərti, həm də vasitəsidir ki, onlar uşaqlara ətraf aləmi fəal şəkildə dərk etmək, həmçinin onun bir hissəsi olmaq üçün imkan yaradır.

**Резюме**

Всесторонняя деятельность в дошкольных учреждениях является одновременно важным условием и средством вовлечения ребенка в соöиальную действительность, что позволяет детям активно познавать окружающий мир, а также быть его частью.

**Summary**

Comprehensive activities in preschools are both an important condition and a means of involving the child in social reality, which allows children to actively understand the world around them, as well as to be a part of it.

Psixoloji-pedaqoji işin məzmunu məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri və fərdi keyfiyyətləri nəzərə alınmaqla hərtərəfli inkişaf etdirilməsinə istiqamətlənmişdir. Uşaqların fiziki, intellektual və şəxsi keyfiyyətlərinin formalaşdırılması üzrə aparılan psixoloji-pedaqoji işin məsələləri bütün təhsil sahələrinin mənimsənilməsi əsnasında hər bir təhsil sahəsinin spesifikasını əks etdirən məsələlərlə yanaşı mütləq psixoloji müşayiətlə inteqrativ şəkildə həll olunur. Bu zaman təhsil proqramlarının məsələlərinin həlli bilavasitə təhsil fəaliyyəti çərçivəsində deyil, həmçinin, həm böyüklərlə uşaqların müştərək fəaliyyətində, həm də məktəbəqədər yaşlı uşaqların sərbəst fəaliyyətində nəzərdə tutulur.

Bu təhsil sahəsinin dörd istiqamətinin hər biri üzrə aparılan daimi, fasiləsiz iş hər bir uşağın sosial-kommunikativ inkişafına səbəb olur. Uşaqlar daha sərbəst, məqsədyönlü və özünə inamlı, ünsiyyətcil, yaşıdlarına və böyüklərə qarşı daha diqqətli və qayğıkeş, anlayışa və əməkdaşlığa qadir olurlar. Uşaqlarda birlikdə qərar qəbul etmək və onu yerinə yetirməyə çalışmaq bacarığı formalaşır.

Oyun fəaliyyətinin inkişaf etməsi və çətinləşməsi uşaqları bir fikrə gəlməyə və öz fəaliyyətini öncədən planlaşdırmağa məcbur edir. Ünsiyyətə olan əsas tələbat uşağın yoldaşları ilə əməkdaşlığa can atmasından ibarətdir ki, bu da situasiyadankənar xarakter daşıyır. Ünsiyyətin aparıcı motivi dəyişir. Uşağın gözündə yaşıdının konkret obrazı yaranır. Bu səbəbdən də, dostluq və bağlılıq yaranır.

Emosional-praktik ünsiyyət forması uşaqları təşəbbüs göstərməyə vadar edir, emosional hisslər spektrinin genişlənməsinə təsir göstərir. Situativ-işgüzar mühit şəxsiyyətin, özünüidrakın, cəsarətin, optimizmin, yaradıcılığın inkişafı üçün əlverişli şərait yaradır. Situasiyadankənar-işgüzar mühit isə, ünsiyyətdə olduğu partnyorunu şəxsiyyət kimi qəbul etmək, onun hiss və düşüncələrini anlamaq bacarığını formalaşdırır.

Şəxsiyyətin formalaşması faktorunda sosial mühitin rolu haqqında bilən pedaqoq tərbiyəvi mühitin təşkilinə xüsusi diqqət yetirir.

Tərbiyəvi mühit - uşağı əhatə edən, onun şəxsiyyətinin inkişafına təsir edən və onun müasir mədəniyyətə cəlb olunmasına kömək edən sosial cəhətdən dəyərli halların birləşməsidir. Şəxsiyyətin sosial inkişaf faktoru olan mühitin məzmunu əşyavi əhatədən, sosial-davranış əhatəsindən, hadisə və informasiya əhatəsindən ibarətdir. Bunların obyektiv təsirindən peşəkar şəkildə istifadə edən pedaqoq, bu təsirə məqsədyönlü istiqamət verməklə pedaqoji şəkil verir və bununla da, tərbiyəvi mühit yaradır.

Mühitin təsirini nəzərə almayan, bu təsirə göz yuman və ya onu təmamilə rədd edən və ya mühitin uşağa təsirinin təsadüfi xarakter daşıdığını iddia edən pedaqoq şəxsiyyətin formalaşmasını öz axınına buraxır və bununla da, tərbiyəvi mühitin yaradılmasından imtina edir. Beləliklə, tərbiyə - uşağın sosial inkişaf faktoru kimi çıxış edən pedaqoq tərəfindən təşkil olunan mühitdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu 3-6 yaş). Təhsil Nazirliyi, 10 iyul 2012-ci il.
2. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı, ADPU, 2010.
3. Əliyeva Ş. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, ADPU, 2010
4. Солодянкина О.В. Сообиальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006


## DİSLALİYANIN NÖVLƏRİNİN MÜXTƏLİF TƏSNİFATI


**Yunus Akbaş**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**



***Açar sözlər:****dislaliya, nitq, dil,diş, hava axını, tələffüz pozulmaları*

***Ключевые слова:*** *дислалия, речь, язык, зубы, воздушный поток, нарушения произношения*

***Key words:*** *dyslalia, speech, tongue, teeth, airflow, pronunciation disorders*


**Xülasə**


XX əsrin 50-ci illərin əvvələrində A.M.Smirnova böyük kliniki material əsasında tələffüz qüsurlarının təsnifatını dərc edir. Bu təsnifat M.E.Xvatsevin təqdim etdiyi təsnifatdan əhəmiyyətli dərəcədə fərqlənir. Eyni zamanda, O.Pravdina dislaliyanın fərqli şərhini verir: eşitmə qüsurları ilə şərtlənmiş pozulmalar xüsusilə ixtisar edilir. O, M.E.Xvatsevdən fərqli olaraq dislaliyanın yalnız iki formasını müəyyən edir: funksional və mexaniki forma. Mexaniki formanın tərkibinə isə rinolaliyanı da daxil edir. Daha sonralar, XX əsrin 60-cı illərində S.S.Lyapidevskinin və O.V.Pravdivanın işlərində tələffüz qüsurlarının dislaliya və dizartriya kimi iki terminə bölünərək ümumiləşdirici termin olan “dilaltı” termininindən imtina edilməsi istiqamətində tendensiyanın olması müşahidə edilir. Həmən ildə B.M.Grinshpun və S.S.Lyapidevskinin işlərində rinolaliya mexaniki dislaliyanın tərkibindən çıxarılaraq fərqli nitq pozulması kimi qələmə alınır. Bu, dislaliya anlayışını müəyyən formada daha da daraldaraq onu bir qədər də müəyyən formaya salır.


## КЛАССИФИКАЦИЯ РАЗЛИЧНЫХ ВИДОВ ДИСЛАЛИИ

**Резюме**


В начале 50-х годов А.М.Смирнова опубликовала классификацию дефектов произношения на основе обширного клинического материала. Эта классификация существенно отличается от классификации, представленной М.Е.Хватцевым. В то же время О.Правдина дает иную трактовку дислалии: особенно редуцируются расстройства, обусловленные нарушениями слуха. В отличие от М.Е.Хватцева, он выделяет только две формы дислалии: функöиональную и механическую. К механической форме относится также ринолалия. Позднее, в 1960-х годах, в работах С.С.Ляпидевского и

О.В.Правдивой наметилась тенденция к разделению дефектов произношения на два термина, например, дислалия и дизартрия, и к отказу от обобщающего термина «подъязычный». В том же году в работах Б.М.Гриншпуна и С.С.Ляпидевского ринолалия была исключена из механической дислалии и описана как иное расстройство речи. Это определенным образом сужает понятие дислалии и придает ему более определенную форму.


## CLASSIFICATION OF DISCALY TYPES BY DIFFERENT RESEARCHERS

**Summary**

In the early 1950s, A.M.Smirnova published a classification of pronunciation defects based on extensive clinical material. This classification differs significantly from the classification presented by M.E.Khvattsev. At the same time, O. Pravdina gives a different interpretation of dyslalia: disorders caused by hearing impairments are especially reduced. Unlike M.E.Khvattsev, he distinguishes only two forms of dyslalia: functional and mechanical. The mechanical form also includes rhinolalia.


XX əsrin əvvəllərində Rus ədəbiyyatlarında dislaliya anlayışı Kussmaul və Qutsman işlərində qəbul edilmiş anlayışlardan fərqlənmirdi. Lakin bu anlayış 30-50-ci illərində əhəmiyyətli dəyişikliklərə məruz qalır. M.E.Hvattsev dislaliyanı "dilaltı" formaların biri kimi (tələffüz pozulmalarının bütün formaları bu termin altında ümumiləşdirilmişdi) nəzərdən keçirir. O, bura periferik nitq orqanlarının zədələnməsi və ya pozulmaları ilə şərtlənmiş olan səs tələffüzü pozulmalarınını daxil edir. M.E Xvatsev dislaliyanın 3 formasını müəyyən edir:

1. Nitq orqanlarının kobud anotomik pozulmaları ilə (damaq yarıqları, dilaltı yüyənin balaca olması və s.) şərtlənmiş olan mexaniki dislaliya;
2. Periferik ağıreşitmə, dil, diş, damaq və çənələrin anomaliyaları ilə şərtlənmiş olan üzvi dislaliya;
3. Yumşaq damağın əzələ zəifliyi, dil ucunun kifayət qədər hərəkətli olmaması, nəfəs vermə, hava axınının zəifli və s. ilə şərtlənmiş olan funksional dislaliya.

50-ci illərin əvvələrində A.M.Smirnova böyük kliniki material əsasında tələffüz qüsurlarının təsnifatını dərc edir. Bu təsnifat M.E.Xvatsevin təqdim etdiyi təsnifatdan əhəmiyyətli dərəcədə fərqlənir. Eyni zamanda, O.Pravdina dislaliyanın fərqli şərhini verir: eşitmə qüsurları ilə şərtlənmiş pozulmalar xüsusilə ixtisar edilir. O, M.E.Xvatsevdən fərqli olaraq dislaliyanın yalnız iki formasını müəyyən edir: funksional və mexaniki forma. Mexaniki formanın tərkibinə isə rinolaliyanı da daxil edir [4, s.285]. Daha sonralar, 60-cı illərdə S.S.Lyapidevskinin və O.V.Pravdivanın işlərində tələffüz qüsurlarının dislaliya və dizartriya kimi iki terminə bölünərək ümumiləşdirici termin olan "dilaltı" terminindən imtina edilməsi istiqamətində tendensiyanın olması müşahidə edilir. Həmən ildə B.M.Qrinshpun və S.S.Lyapidevskinin işlərində rinolaliya mexaniki dislaliyanın tərkibindən çıxarılaraq fərqli nitq pozulması kimi qələmə alınır. Bu, dislaliya anlayışını müəyyən formada daha da daraldaraq onu bir qədər də müəyyən formaya salır. Dislaliyanın funksional və mexaniki olaraq bölgüsü getdikcə daha çox müəllimlər tərəfindən bölünməyə başlandı. Baxmayaraq ki, dislaliyanın məzmunu və onun tərəfindən müəyyən edilən pozulmaların növü həmişə üst-üst düşməsə də, günümüzdə "dislaliya" termini beynəlxalq xarakter alıb. Bu qeyri-müvafiqliklər tədqiqat zamanı pozulmanın təsviri üçün hansı əsaslara dayanılması ilə əlaqədardır: anatomik-fizioloji, psixoloji və ya linqvistik. Kliniki meyarların istifadə olunduğu ənənəvi təsvirlərdə dislaliya növündə müxtəlif tələffüz pozulmaları bəzən eyninövlü pozulmalar kimi nəzərdən keçirilir. Əsasında psixoloji və linqvistik meyarların durduğu təsvirlərdə dislaliyanın tərkibinə gah onun müxtəlif forma və növləri, gah da fonetik və fonetik-fonematik səs tələffüzü pozulmaları daxil edilir (məsələn, R.E.Levinanın işlərində).

Müasir elmi pozisiyalarda dislaliyanın kritik analizinin öyrənilməsi loqopediyada müəyyən edilmiş təsvirlərin yenidən baxılmasını tələb edir. Öz neyri-fiziki və psixoloji mexanizminə əsasən

tələffüz qüsurları uşağın ümumi nitq inkişafı və maneələrin dəf edilməsi bəzən müxtəlif rollarda olurlar. Bugünki gündə dislaliya tələffüz qüsurunun daha çox yayılmış forması hesab edilir. Yerli və xarici tədqiqatçıların statistik məlumatları göstərir ki, məktəbəqədər yaşlı uşaqların 25-30%-də (5-6 yaş), məktəbyaşlı uşaqların 17-20%-də (1-2-ci sinif) tələffüz qüsurları müşahidə olunur. Yuxarı yaşlı məktəblilər arasında tələffüz qüsurları 1% təşkil edir.

Dislaliya normal eşitmə zamanı və nitq aparatının normal innervasiyasının saxlanılması zamanı səs tələffüzünün pozulması hesab edilir. O.Martynova dislaliya üçün bu cür müəyyənləşdirmə verdi:

-Dislaliya, nitqin elə bir pozulmasıdır ki, bu zaman uşaq bu və ya digər səsləri düzgün tələffüz edə bilmir, onları digərləri ilə əvəz edir və ya onları öz aralarında qarışıq salır. Pozulmanın yerləşməsi və səs tələffüzü qüsurunu şərtləndirən səbəblərdən asılı olaraq dislaliyanı – funksional və mexaniki (üzvi) olaraq qruplaşdırırlar. Üzvi pozulmalar (periferik və mərkəzi olaraq şərtlənmiş) müşahidə olunmadığı zamanlar bunu funksional dislaliya olaraq müəyyən edirlər. Periferik nitq aparatının quruluşunda geriliklər müşahidə olunduğu zaman bunu mexaniki (üzvi) dislaliya kimi təyin edirlər. Funksional dislaliya kiçik yaş dövründə tələffüz sisteminin mənimsənilməsi prosesində peydə olur. Mexaniki dislaliya isə periferik nitq aparatının zədələnməsi nəticəsində istənilən yaş dövründə yarana bilər. Funksional dislaliya zamanı bir və ya bir neçə səsin səsləndirilməsi pozula bilər. Mexaniki dislaliya zamanı isə bir qrup səs pozulmuş halda ola bilir. Bir sıra hallarda funksional və mexaniki qüsurların kombinə olunması müşahidə oluna bilər. Funksional dislaliya zamanı hərəkətlərin icrasına mane ola biləcək mərkəzi sinir sisteminin hər hansı bir üzvi zədələnməsi müşahidə olunmur. Səslərin tələffüzü üçün vacib hesab edilən artikulyasiya orqanlarının mövqeləri, ixtiyarı şəkildə qəbul etmənin xüsusi nitq bacarıqları formalaşmamış ola bilər. Bu, uşaqda ayrı-ayrı səslərin artikulyasiya və ya akustik nümunələrinin əmələ gəlməməsi ilə əlaqədar ola bilər. Belə halda verilmiş səsin hər hansı əlaməti uşaq tərəfindən mənimsənilməmiş olur. Fonemlər öz səslənməsinə görə fərqlənmir, bu isə onların əvəzlənməsinə getirib çıxarır. Artikulyasiya bazası tam olmur çünki nitq üçün vacib hesab edilən hərəki-eşitmə əmələgəlmələrin (səslərin) hamısı formalaşmış vəziyyətdə olmur. Səs əlamətlərindən hansının – akustik və ya artikulyasiya-formalaşmamasından asılı olaraq səs əvəzlənmələri fərqlənəcək. Funksional dislaliya tələffüzün pozulmasının elə bir formasıdır ki, burada artikulyar aparatda heç bir çatışmamazlıq müşahidə edilmir. Artikulyar aparatda orqanik (üzvi) qüsur olmur. Əsasən fonematik qavramanın inkişafından qalması psixi inkişafın ləngiməsi, eşitmənin zəifləməsi, əqli inkişafın ləngiməsi və s.Mexaniki dislaliya – periferik nitq aparatının (artikulyasiya orqanları) anatomik qüsurları ilə şərtlənmiş səs tələffüzü pozulmasıdır. Ona bəzən üzvi dislaliya da deyirlər. Aşağıdakılar ilə şərtlənmiş tələffüz qüsurlarına daha çox rast gəlinir:

1. Diş-çənə sisteminin anomaliyası: ön dişlər arasında diastemanın mövcudluğu;
2. Kəsici dişlərin mövcud olmaması və ya onların anomaliyası;
3. Yuxarı və ya aşağı kəsicilərin düzəlməyən vəziyyətləri və ya üstlə alt çənənin əlaqəsi (dişləm qüsuru);

Bu anomaliyalar inkişaf qüsurları nəticəsində və ya zədələnmələr nəticəsində, diş xəstəlikləri və yaş artımı ilə əlaqədar baş verən dəyişikliklər nəticəsində yarana bilər. Bəzi hallarda onlar sərt damağın anomal qurulu ilə şərtlənmiş ola bilərlər [4, s 48]. Mexaniki dislaliya zamanı perferik nitq aparatının anatomik defekti ilə əlaqədar olaraq yaranır. Belə pozuntu anadangəlmə və sonradan qazanılmış ola bilər. Dişləmin anormallığının bir neçə növü var : Proqnatiya, Prodeniya, Ön açıq dişləm. Mexaniki dislaliyanın əmələ gəlməsinin başlıca səbəbi kimi dilaltı pərdənin qısalığını göstərmək olar. Belə ki, dilaltı pərdənin qısa olması dilin hərəkətini məhdudlaşdırır və səs tələffüzünü çətinləşdirir. Bundan əlavə dilin həddindən artıq böyük enli və ya qısa ensiz olmasıda dislaliyanın yaranmasını şərtləndirir.

Təqdim edilən meyarlara müvafiq olaraq dislaliyanın üç əsas forması müəyyən edilir: akustik-fonematik forma, artikulyator-fonematik forma və artikulyator-fonetik forma.

A k u s t i k – f o n e m a t i k d i s l a l i y a. Nitq qavrayışı mexanizminin sensor həlqəsindəki akustik ölçülərinə müvafiq fonemlərin emaledilmə əməliyyatlarının formalaşmamış seçiciliyi ilə şərtlənmiş nitqin səs qeydiyyatının qüsurları bura aid edilir. Belə əməliyyatlara səsin akustik əlamətlərinin müqayisəsi, müəyyən edilməsi, tanınması və fonem haqqında qərarın qəbul edilməsi daxildir. Pozulmasının əsasında fonematik eşitmənin kifayət qədər formalaşmaması dayanır. Bu fonematik eşitmənin məqsədi sözün tərkibinə daxil olan fonemlərin tanınması və fərqləndirilməsidir.

A r t i k u l y a t o r – f o n e m a t i k d i s l a l i y a. Nitq istehsalının motor həlqəsindəki artikulyator ölçülərinə müvafiq fonemlərin seçim əməliyyatının formalaşmaması ilə şərtlənmiş pozulmalar bura daxil edilir. Pozulmanın iki əsas variantını müəyyən edirlər. Birinci variantda artikulyasiya bazası kifayət qədər formalaşmış, reduksiya edilmiş olmur. Pozulmanın ikinci variantında isə artikulyator baza tamamilə formalaşmış vəziyyətdə olur.

A r t i k u l y a t o r – f o n e t i k d i s l a l i y a. Buraya nitqin səs qeydiyyatı qüsurları daxildir. Bu qüsurlar qeyri-düzgün formalaşmış artikulyasiya mövqeləri ilə şərtlənmiş olur.

Hazırda dislaliyanın iki forması mövcuddur:

- Artikulyasiya aparatının quruluşunun kobud olmayan pozulmaları ilə şərtlənmiş–mexaniki dislaliya;
- Səs tələfüzzünün pozulması olan–funskional dislaliya.

Eləcə də, qüsurdan asılı olan bir sıra səbəblərlə əlaqədar olaraq loqopediyada dislaliyanın üç əsas forması müəyyən edilir: akustik-fonematik forma, artikulyator-fonematik forma və artikulyator-fonetik forma. Akustik-fonematik dislaliyaya nitq qavrayışı mexanizminin sensor həlqəsindəki akustik ölçülərinə müvafiq fonemlərin emaledilmə əməliyyatlarının formalaşmamış seçiciliyi ilə şərtlənmiş nitqin səs qeydiyyatının qüsurları bura aid edilir. Belə əməliyyatlara səsin akustik əlamətlərinin müqayisəsi, müəyyən edilməsi, tanınması və fonem haqqında qərarın qəbul edilməsi daxil edilir. Pozulmanın əsasında fonematik eşitmənin kifayət qədər formalaşmaması dayanır. Bu fonematik eşitmənin məqsədi sözün tərkibinə daxil olan fonemlərin tanınması və fərqləndirilməsidir. Bu pozulma zamanı fonem sistemi öz tərkibinə əsasən tam formalaşmamış vəziyyətdə olur. Uşaq mürəkkəb səsin (hansındakı bir fonem digərinə əks yerləşdirilmiş halda olur) bu və ya digər əlamətini müəyyənləşdirə bilmir. Bunun nəticəsində nitqin qavranılması zamanı əksər əlamətlərin ümumiliyinə əsasən bir fonemin digərinə bənzədilməsi prosesi baş verir. Bu və ya digər əlamətin müəyyən edilməməsi nəticəsində səs düzgün tanınmır. Bu, sözlərin yalnış qavranılmasına səbəb olur. Bu çatışmazlıqlar həm danışan, həm də dinləyən üçün nitqin düzgün mənimsənilməsinə maneə törədir. Akustik-fonematik pozulmalar zamanı uşaqda eşitmə pozulması mövcud olmur. Qüsur onu göstərir ki, uşaqda bəzi fonemlərin eşitmə vasitəsi ilə fərqləndirilməsi funksiyası seçilmiş olaraq formalaşmamış olur. Akustik-fonematik dislaliyadan bəzi kobud pozulmaları fərqləndirmək lazımdır. Bu kobud pozulmalar nitq qavrayışı proseslərinin perseptiv və semantik səviyyəsində yayılır və onun inkişafsızlığına gətirib çıxarır. Artikulyator-fonematik dislaliyaya nitq istehsalının motor həlqəsindəki artikulyator ölçülərinə müvafiq fonemlərin seçim əməliyyatının formalaşmaması ilə şərtlənmiş pozulmalar bura daxil edilir. Pozulmanın iki əsas variantını müəyyən edirlər. Birinci variantda artikulyasiya bazası kifayət qədər formalaşmış, reduksiya edilmiş olmur. Seçim zamanı lazım olan səs yox, artikulyasiya əlamətləri baxımından ona yaxın olan səs seçilir. Subsituasiya və ya bir səsin digəri ilə əvəzlənməsi qeyd olunur. Əvəzləyici rolunda artikulyasiya cəhətdən daha sadə səslər çıxış edir. Pozulmanın ikinci variantında isə artikulyator baza tamamilə formalaşmış vəziyyətdə olur. Səslərin istehsalı üçün bütün artikulyasiya mövqeləri mənimsənilib. Lakin səslərin seçilmləsi zamanı yalnış qərar qəbul edilir. Bunun nəticəsində sözün səs görünüşü qeyri-sabit olmağa başlayır. Səslərin əsassız istifadəsinin kifayət etməyən differensasiyasına görə bu, səslərin qarışdırılmasına gətirib çıxarır. Dislaliyanın bu formasındakı əvəzləmələr və qarışıqlıqlar səslərin artikulyasiya baxımından yaxınlığı əsasında həyata keçirilir. Amma öncəki pozulmalar qrupunda olduğu kimi bu hallar əsasən səslər və yasəs

sinifləri arasında müşahidə olunur. Bu səslər və ya səs sinifləri aşağıdakı əlamətləri ilə fərqlənir: fitvari və fışıltılı – s-ş, z-j, partlayışlı küylü dilönü və dilarxası səslər arasında- t-k, d-q (tam-kam, daş-qaş), artikulyasiya cəhətdən qoşa, dil, yumşaq və sərt fonemlər arasında. Bucür hallar əmələgəlmə baxımından eyni olan səslər arasında, c-ç affrikatları və r-l sonorları arasında da müşahidə edilə bilər.

Artikulyator-fonetik dislaliyaya nitqin səs qeydiyyatının qüsurları aid edilir. Bu qüsurlar qeyri-düzgün şəkildə formalaşmış artikulyasiya mövqeləri ilə daha da ağırlaşmış olur. Baxmayaraq ki, dislaliyanın bu forması zamanı fonematik sistem tamamilə formalaşmış vəziyyətdə olur, buna baxmayaraq səslər verilmiş dilin bu fonetik sistemə görə təhrif olunmuş, qeyri-normativ şəkildə tələffüz edilir. Fonemlər qeyri-normal, vərdiş halında olmayan bir variantda həyata keçirilir. Düzgün səslənməyən səs əksər hallarda öz akustik effektlərinə görə düzgün səslənən səsə yaxın olur. Dinləyən şəxs hər hansı bir çətinlik olmadan tələffüzün o variantını müəyyən fonemlə uyğunlaşdırır. Tələffüz, bacarıq və vərdişlərinin mənimsənilməsinin gedişatı zamanı uşaq öz eşitmə idarəsi altında normal akustik effektə müvafiq gələn artikulyasiya mövqelərini pozmuş olur. Bu mövqelər uşağın yaddaşında qeydə alınır və sonradan müvafiq zamanlarda canlandırılır. Nitqin tələffüz tərəfinin pozulmaları arasında bütün ifadə əməliyyatlarının normal fəaliyyəti zamanı onun səs (fonem) qeydiyyatında olan seçici pozulmalar daha çox yayılmış hesab edilir. Bu pozulmalar nitq səslərinin səsləndirilmə qüsurlarında özünü büruzə verir: onların tələffüzünü təhrif edir (qeyri-normativ), bəzi səsləri digərləri ilə əvəz edir, səslərin qarışdırılması və bəzən də onların ötürülməsi.

**Ədəbiyyat:**

1. N.Hüseynova, T.Ağayeva –Loqopediya, Bakı, 2018
2. T.H.Ağayeva, S.M.Əliyeva – Loqopediyanın nəzəri-praktik əsasları. B., 2000.
3. S.Sədiyev. Loqopediya – I-II hissə.
4.. Л.С.Волкова, С.Н.Шаховская – Логопедия. М.1999.
5.. К.П.Беккер, М.Совак – Логопедия. М.1981.
6. Р.Е.Левина – Основы теории и практики логопедии. М.1973.
7. Понятийно-категориальный словарь логопеда. Под ред. В.И.Селеверстова. М.1997.
8. Р.М.Боскис – Глухие и слабослышыщие дети. М.1963.
9. К.Г.Коровин – Усвоение основных грамматических понятий учащимися старших классов школы слабослышащих. М.1982.
10. Л.Г.Пармонова – Методические указания по выявлению и коррекции дефектов звукопроизношения и связанных с ними нарушений письма у слабослышащих учащихся. Л.1984.

## VƏTƏN QƏHRƏMANLARI NÜMUNƏLƏRİ VASİTƏSİLƏ UŞAQLARDA MİLLİ İFTİXAR HİSSİNİN FORMALAŞDIRILMASI

**Qafarova Vüsalə Ağabəy qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*qafarovavusale2@gmail.com*

***Açar sözlər:*** *milli iftixar hissi, məktəbəqədər yaşlı uşaqlar, nümunə, qəhrəmanlar*
***Ключевые слова:*** *чувство национальной гордости, дети дошкольного возраста, пример, герои*
***Key words:*** *a sense of national pride, preschool children, sample, heroes*

**Xülasə**

Məktəbəqədər yaşlı uşaqların milli iftixar hissinin formalaşdırılmasında bir sıra metodların xüsusi rolu vardır ki bunlardan biri də nümunədir. Nümunəni bir neçə növü vardır.

Tesizdə "Qabaqcıl adamların nümunəsi"nə aid olan Vətən qəhrəmanları nümunəsi elmi şəkildə araşdırılmışdır.

**Резюме**

Ряд методов имеет особую роль в формировании чувства национальной гордости дошкольников, и один из них является примером. Существует несколько типов узоров. Научно исследован пример героев Отечества, относящийся к главе «Пример передовых людей».

**Summary**

A number of methods have a special role in shaping the sense of national pride of preschool children, and one of them is an example. There are several types of patterns. The example of the heroes of the Motherland belonging to the chapter "Example of advanced people" has been scientifically researched.

Ölkəmizdə təhsilin əsas məqsədi "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sahib olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir". [1,11] Bu baxımdan məktəbəqədər yaşlı uşaqlarda milli iftixar və qürur hissinin, vətənpərvərlik hissinin inkişaf etdirilməsi müasir dövrdə ən vacib məsələlərindən biridir. Xüsusən də Azərbaycan müstəqillik əldə etdikdən sonra yetişməkdə olan gənc nəslin milli vətənpərvərlik tərbiyəsi əsas məsələlərdən birinə çevrilmişdir. Hal hazırda milli iftixar və vətənpərvərlik kimi keyfiyyətlərin formalaşdırılması məktəbəqədər tərbiyə müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biridir.

Doğma Vətənə qarşı məhəbbət, vətənpərvərlik hissi milli iftixar hissinin tərbiyəsi ailədən başlayır və məktəbəqədər tərbiyə müəssisələrində davam etdirilir. Bu mənada məktəbəqədər təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət düşür. Məktəbəqədər müəssisələrdə bu iş həm məşğələ zamanı, həm də məşğələdənkənar fəaliyyət prosesləri zamanı həyata keçirilir. Hal-hazırda məktəbəqədər müəssisələrdə uşaqlara aşılananlar müstəqil bir Azərbaycan vətəndaşı yetişdirməyə yönəlmişdir. Uşaqlarda milli iftixar hissi və vətəndaşlıq hissinin formalaşdırılmasında nümunənin böyük rolu vardır. Nümunə metodu uşaqlarda milli iftixar və vətənpərvərlik hisslərinin formalaşdırılmasında ən çox istifadə olunan və müsbət nəticələri olan metodlardan biridir.

Məktəbəqədər yaşlı uşaqlarda milli iftixar hissinin formalaşdırılmasında istifadə olunan nümunələr aşağıdakı kimi təsnif olunur:

- Qabaqcıl adamların nümunəsi
- Tarixi şəxsiyyətlərin nümunəsi
- Bədii ədəbiyyatda təsvir olunan müsbət qəhrəmanların nümunəsi
- Valideynin şəxsi nümunəsi
- Müəllimin şəxsi nümunəsi
- Yoldaşlarının nümunəsi və s. [3,168]

"Qabaqcıl adamların nümunəsi"nə, xüsusilə də müharibə dövründə qəhrəmanlıq göstərmiş əsgərlərin nümunəsini göstərmək olar. Torpaqlarının müdafiəsində durmuş, onun təhlükəsliyi üçün çanından keçmiş bu qəhrəmanların həyatı, onların döyüş yolu ən təsirli tərbiyə nümunəsidir. Həm məşğələ prosesində, həm də məşğələdənkənar zamanlarda onların uşaqlara tanıdılması, bu mövzuda söhbətlərin aparılması, bədii ədəbiyyat nümunələri ilə tanışlıq, cizgi filmlərin izlənməsi və s. uşaqları bu nümunələrlə tanış etməyin ən yaxşı üsullarıdır. Kiçik yaşlardan uşaqları Vətənin tarixi, tarixi şəxsiyyətləri ilə tanış etmək vacibdir. Milli iftixar hissi uşaqlarda məhz tarixi adət-ənənələrlə, tarixi abidələrlə, tarixi şəxsiyyətlərlə tanışlıq zamanı inkişaf edir. Hər bir azərbaycanlı öz Vətəninin tarixini, keçmişini bilməlidir. Uşaqlar öz Vətəninin tarixi günləri ilə tanış olmalı, hər bir tarixi gün uşaqların nəzərlərinə çatdırılmalı və həmin gün haqda uşaqlara məlumat verilməlidir. Bədii ədəbiyyat nümunələrində uşaqlar qəhrəman obrazlarla tanış olurlar. Uşaqları bu obrazlarla tanış etməyin əsas məqsədi

odur ki, uşaqlar Vətənini qorumuş, onun uğrunda canından keçmiş qəhrəmanları tanıyır, onları örnək şəxs kimi görür və onlara bənzəməyə can atırlar. Xüsusən də məktəbəqədər dövrdə uşaqlar milli, vətənpərvərlik mövzusunda olan nağıllar vasitəsilə qəhrəmanlıq anlayışının nə olduğunu öyrənir və bilir ki, vətənini sevən, onu qoruyub canını fəda etməyə hazır olan qəhrəmanlar bütün bunları öz vətəninin azad olması üçün edir. Tərbiyəçi uşaqlara bildirməlidir ki, Vətəni uğrunda igidlik göstərmiş insanlara qəhrəman deyilir, onlara böyük hörmət və dəyər göstərilir, adları əbədiləşdirilir, onlar üçün heykəllər ucaldılır.

**Ədəbiyyat:**


1. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı:Hüquq ədəbiyyatı, 2010.
2. Axundov S., Həsənov A. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı:Maarif, 1989.
3. Əhmədov H.M. İbtidai məktəb şagirdlərinin kommunist əxlaqi tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları. Seçilmiş pedaqoji əsərləri. III cild. Bakı:Təhsil, 2006.


## DİSLALİYA ZAMANI KORREKSİYA-LOQOPEDİK İŞİN TƏŞKİLİ


**Yunus Akbaş**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**



***Açar sözlər:*** *nitq,fonetik-fonematik inkişafsızlıq, korreksiyaedici iş, tələffüz, loqoped, tərbiyəçi*

***Ключевые слова***: *речь, фонетико-фонематическое развитие, коррекционная работа, произношение, логопед, воспитатель*

***Key words:*** *speech, phonetic and phonemic development, correctional work, pronunciation, speech therapist, educator*


**Xülasə**


Nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaq qruplarına normal eşitmə qabiliyyətinə və intellektə malik olan 5 və 6 yaşlı uşaqlar qəbul edilir.1 il müddətində təhsil alacaq uşaqlar 12 nəfərlik qruplarda yerləşdirilir. Uşaq o halda nitqin fonetik-fonematik inkişafsızlığı olan qrupa daxil edilir ki, onda iki fonematik qrupdan 5-6-dan az olmayaraq səslərin tələffüz pozulması qeyd olunsun. Belə qruplarda korreksiyaedici qarşılıqlı təsir nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaqların xüsusi təlim və tərbiyə proqramına müvafiq şəkildə həyata keçirilir. Bu proqram hər bir qrup üzrə fərdi şəkildə hazırlanır. Yuxarı yaşlı uşaq qrupları üçün hazırlanmış proqramın müəllifləri T.B.Filiçeva, Q.V.Çirkina (2002) hesab olunur. Hazırlıq qrupu məktəbəqədər yaşlı uşaqlar üçün proqam Q.A.Kashe, T.B.Filiçeva tərəfindən tərtib olunmuşdur.


## ОРГАНИЗАЦИЯ КОРРЕКЦИОННО-ЛОГОПЕДИЧЕСКОЙ РАБОТЫ ПРИ ДИСЛАЛИ

**Резюме**


В группы детей с фонетическим и фонематическим развитием речи принимаются дети 5 и 6 лет с нормальным слухом и интеллектом Дети, которые будут обучаться 1 год, размещаются в группах по 12 человек. Ребенок включен в группу с фонетико-фонематическим развитием речи, в которой отмечается не менее 5-6 фонематических нарушений двух фонематических групп. Коррекционное взаимодействие в таких группах осуществляется в соответствии со специальной программой обучения и воспитания детей с фонетико-фонематическим развитием речи. Данная программа разрабатывается индивидуально для каждой группы. Авторами программы, разработанной для групп детей старшего возраста, являются Т.Б.Филичева, Г.В.Чиркина (2002). Программу подготовительной группы для дошкольников разработали Г.А.Каше, Т.Б.Филичева.

**ORGANIZATION OF CORRECTION-LOGOPEDIC WORK DURING DISLALY**

**Summary**

In groups of children with phonetic and phonemic development of speech, children of 5 and 6 years old with normal hearing and intelligence are accepted. Children who will study for 1 year are placed in groups of 12 people.The child is included in the group with phonetic-phonemic probabilistic statements, in which there are at least 5-6 contextually combined two phonemic groups. Corrective interaction in such groups is carried out in accordance with the public education and upbringing of children with phonico-phonematically manifested speech. This program is manifested individually for each group.

Nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaq qruplarına normal eşitmə qabiliyyətinə və intellektə malik olan 5 və 6 yaşlı uşaqlar qəbul edilir.1 il müddətində təhsil alacaq uşaqlar 12 nəfərlik qruplarda yerləşdirilir. Uşaq o halda nitqin fonetik-fonematik inkişafsızlığı olan qrupa daxil edilir ki, onda iki fonematik qrupdan 5-6-dan az olmayaraq səslərin tələffüz pozulması qeyd olunsun. Belə qruplarda korreksiyaedici qarşılıqlı təsir nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaqların xüsusi təlim və tərbiyə proqramına müvafiq şəkildə həyata keçirilir. Bu proqram hər bir qrup üzrə fərdi şəkildə hazırlanır. Yuxarı yaşlı uşaq qrupları üçün hazırlanmış proqramın müəllifləri T.B.Filiçeva, Q.V.Çirkina (2002) hesab olunur. Hazırlıq qrupu məktəbəqədər yaşlı uşaqlar üçün proqam Q.A.Kashe, T.B.Filiçeva tərəfindən tərtib olunmuşdur.

Nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaqların xüsusiyyətləri bütün pedaqoji prosesin, uşaqların bütün həyatının və fəaliyyətinin loqopedizasiyasının vacibliyinə, eləcə də korreksiyaedici-tərbiyəvi işdə aksentlərin bir qədər yerdəyişməsinə gətirib çıxartdı. Hər şeydən öncə fiziki inkişaf və uşaqların sağlamlıqlarının inkişafı üzrə işlər gücləndirildi. Bura daxildir: gündəlik bədən tərbiyəsi və möhkəmləndirmə, səhər gimnastikası, özünümasaj, günorta yuxusundan sonra korreksiyaedici gimnastika, gündə 3 dəfədən az olmayaraq artikulyasiyaedici və barmaq gimnastikası.

Tibbi tədbirlərin rolu və yeri genişləndirilmişdir (psixonevrozun müşahidəsi, medikamentoz yəni dərmanlarla müalicə, müalicəvi masaj, oksigen kokteyli).

Gün rejimində və məşğələ fəaliyyətində deyişikliklər edildi:

a) Gündüz yuxusu uzadılıb;

b) Günün ikinci yarısından frontal məşğələlər çıxardılmışdır;

c) Fərdi və alt qrup məşğələlərinin keyfiyyərinin, kəmiyyətinin xüsusi kütləsinin artırılması hesabına frontal məşğələlərin (həm tərbiyəvi, həm də loqopedik) ümumi miqdarı azaldılmışdır.

d) Frontal loqopedik məşğələlər həftədə iki dəfə (üç) saxlanılıb.

Bütün bunlar məşğələlərin böyük effektivliyini, materialın daha dəqiq və qənaətcil secilməsini, korreksiyaedici işin metod və üsullarının daha ciddi və düşünülmüş işlənilməsini, biliklərin bəzi quruluş və xarakterinin dəyişdirilməsini (birgə məşğələlər aparıcı olub) tələb edir.

Nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaqların təlim prosesində aşağıdakı məsələlər həll olunur:

- Uşaqlarda dilin fonematik sisteminin formalaşdırılması yəni saxlanılmış səslərin tələffüzünün möhkəmləndirilməsi və dəqiqləşdirilməsi, eləcə də pozulmuş səslərin tələffüzünün düzəldilməsi;
- Onlarda hərtərəfli fonematik eşitmə və qavrayışın inkişaf etdirilməsi yəni xüsusi tədbirlərin köməyi ilə uşaqlara eşitmə vasitəsi ilə səsləri fərqləndirməyi öyrətmək, səslərin və hecaların sırasını yadda saxlamağı və onları səsləndirməyi öyrətmək;
- Səs-heca təhlili və sintezi bacarıqlarının formalaşdırılması yəni sözü heca və səslərə bölmək bacarığının inkişaf etdirilməsi ilə bərabər onların ardıcıl təhlilinin həyata kecirilməsi və əks əməliyyatların aparılması: səslərdən hecanın düzəldilməsi, hecalardan sözün düzəldilməsi (sintez);

- Analitik-sintetik fəaliyyət əsasında uşaqlar tərəfindən savad bacarıqlarının bəzi elementlərinin mənimsənilməsinin təmin edilməsi;

Kifayət qədər aydın olan fərqlərə baxmayaraq, yuxarı və hazırlıq qruplarındakı uşaqlar üçün olan korreksiyaedici təlim və tərbiyənin tərkibində olan seçilmiş çalışmaların məznunu əsaslandırılmış hesab olunur. Fonetik-fonematik inkişafsızlıq qruplarına daxil olan uşaqlar ümumtəhsil məktəbində uğurlu təhsil üçün vacib olan əsas bacarıq, vərdişlər və biliklərə yiyələnməlidirlər. Korreksiyaedici təlim həmçinin uşağın müəyyən yaş mərhələsində ətraf aləm haqqında müəyyən təsəvvürlərin olması və müvafiq lüğət ehtiyatının olmasını da nəzərdə tutur.

Nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaqların təlim proqramı aşağıdakıları daxil edir:

- uşağın nitq inkişafı xüsusiyyətləri;
- nitq müayinəsi;
- böyük qrupun gün rejimi (hazırlıq qrupu);
- loqopedik sənədləşmə.

Rejim loqoped və tərbiyəci tərəfindən keçirilən məşğələlərin optimal qaydada ardıcıllığını təyin edir. Burada onların kəmiyyəti və müddəti göstərilir. Ardıcıllığa əsasən loqoped üççür məşgələ keçirdir:

- Fərdi yəni hər uşaqda ayrı-ayrılıqda. Hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə almaq lazımdır- artikulyasiya aparatının quruluşu və hərəkətliliyini, eşitmə qavrayışının inkişaf dərəcəsini, düzgün tələffüz olmayan səslərin miqdarını, səs təhlililin səviyyəsi, nitqin qrammatik quruluşunun formalaşma dərəcəsini, iş qabiliyyətini. Bütün bu məlumatlara əsasən hər bir uşaqla aparılan işin məzmunu fərqli olacaqdır.
- Alt qrup yəni üç və ya dörd uşaqla birgə. Bu qruplara oxşar nitq qüsurları olan uşaqları daxil edirlər. Qrupun tərkibi hər bir uşağın fərdi nailiyyətləri və təlimin bu və ya başqa dövründəki dəqiq məqsəd və vəzifələrindən asılı olaraq il ərzində dəyişə bilər.
- Frontal yəni bütün uşaqlarla birgə və ya qrupun yarısı ilə-nitq inkişafının dərəcəsindən asılı olaraq. Artikulyasiyanın dəqiqləşdirilməsi, fonematik qavrayışın inkişafı və uşaqları sözün səs tərkibinin təhlil və sintezinə hazırlamaq üzrə aparılan frontal məşğələlər mütləq bütün uşaqların (qrupdakı) düzgün tələffüz etdiyi səslər üzrə aparılmalıdır. Daha sonra loqoped müəyyən ardıcıllıqda frontal məşğələlərə artıq bu zamana kimi düzəlmiş səsləri əlavə edir.

Müasir loqopediyada tələffüz üzrə frontal loqopedik məşğələlər üçün mövcud olan tələblər loqoqruplarda bütün frontal və alt qruplara aid edilir:

1. Məşğələnin məqsədi və mövzusu onun bütün mərhələlərini, bütün iş növlərini əhatə edir.
2. Öyrənilən səsin, leksik və qrammatik materialın maksimal boluğu;
3. Təlim və oyun formalarının birgəliyi;
4. Materialın tərkibinin əyaniliyi uşağın yaşından, işin mərhələsindən asılı olması;
5. Diqqət, yaddaş, təffəkkürün inkişafı üzrə sistemli iş;
6. Daimi olan səs-heca təhlili və sintezi;
7. Yazı və nitq vərdişlərinin gündəlik möhkəmləndirilməsi;
8. Artan çətinlik üzrə rabitəli nitqin inkişafı;
9. Qüsurlu səslərin istifadəsinin yolverilməməsi.

Bu məşğələlərin növbələşməsi loqopedik işin maksimal effektivliyini təmin edir. Korreksiyaedici işin planlaşdırılması və həyata keçirilməsi zamanı nitqin fonetik-fonematik inkişafsızlığı olan uşaqlarda ali psixi funksiyaların axıcılğının mümkün xüsusiyyətlərini nəzərə almaq lazımdır. Ona görə də onlarla loqopedik iş təşkil edərkən məqsədəyönlü şəkildə:

- Psixi və yaş xüsusiyyətlərini nəzərə alaraq hər bir uşaq üçün yüksək fərdi yanaşma həyata keçirmək;
- Korreksiyaedici qarşılıqlı təsirin effektivliyinin artırılması məqsədi ilə tapşırıqların yerinə yetirilməsinin müsbət motivasiyasını təmin etmək;
- Müxtəlif fəaliyyət növlərinin növbələşməsi;

- Diqqət, yadda, təfəkkür əməliyyatları və s. inkişafı üçün məşğələlərə təlim tapşırıqlarının daxil edilməsi

Loqoped və tərbiyəçinin işinin qarşılıqlı əlaqəsi.

Loqoped tərbiyəçi ilə sıx əlaqəli şəkildə işləməli və eyni zamanda bu işin aydın davamlılığını təmin etməlidir. Korreksiyaedici işi müştərək həyata keçirən zaman loqoped və tərbiyəçi normalda nitqin səs tərəfinə yiyələnmə prosesinin qanunauyğunluqlarını nəzərə almalıdırlar. Ona görə də loqopedik qrupun tərbiyəçisindən uşaqların psixoloji-pedaqoji özəlliklərini bilmək və onlara fərdi şəkildə yanaşmağı bacarmaq tələb olunur. Tərbiyəçinin mümkün qədər frontal məşğələlərə iştirak etməsi arzu olunandır. Bu, loqopedin dərslərində uşaqlardan hansının tapşırığın icrasında və hansı tapşırığın icrasında çətinlik çəkməsini öyrənmək məqsədi ilə həyata keçirilir.

Bəzi xüsusi metodik vasitələrə tanışlıq tərbiyəçiyə nəinki loqoped tərəfindən keçirilmiş materialı effektiv şəkildə möhkəmləndirməyə kömək olacaqdır, həm də onunla tərbiyəvi məsələlərin həllini savadlı şəkildə koordinasiya etməyə kömək edəcəkdir. Loqoped və tərbiyəçi uşaqların nitq inkişafı üzrə aparılan işi birgə planlaşdıraraq hər bir müəyyən inkişaf mərhələsində uşaqların nitqinə müvafiq leksik material və tələbləri məşğələlərin məzmununu və mövzusunu təyin edir. Tərbiyəçi verilmiş mövzular üzrə uşaqları leksik materialla tanış etməyi planlaşdırır, loqoped isə onun avtomatlaşdırılmasını və müstəqil nitqə yeridilməsini təmin edir.

Loqopedin valideynlərlə apardığı iş.

Loqoped bir il müddətində valideynlərə uşağın fərdi dəftərçələrini izləməyə,onları incələməyə şərait yaradır. Bunun sayəsində valideynlər uşaqlarının təlim dinamikasını izləyə bilir, hər həftə valideynlərlə axşam söhbətini apara bilir və uşaqların ev tapşıqlarının yerinə yetirilməsində onların iştirakını təşkil edir. Bundan əlavə loqoped valideynlər üçün mövzu sərgilərinin və stendlərinin keçirilməsini təşkil edir. İldə 3 dəfədən az olmamaq şərti ilə valideyn iclasını keçirir və uşaqların göstərişli çıxışlarını və s. planlaşdırır.

**Ədəbiyyat**:


1.N.Hüseynova, T.Ağayeva "Loqopediya" , Bakı 2018

2. T.H.Ağayeva, S.M.Əliyeva – Loqopediyanın nəzəri-praktik əsasları. B.2000.

3. S.Sədiyev – Loqopediya, I-II hissə.

4.. Л.С.Волкова, С.Н.Шаховская – Логопедия. М.1999.

5.. К.П.Беккер, М.Совак – Логопедия. М.1981.

6. Р.Е.Левина – Основы теории и практики логопедии. М.1973.

7. Понятийно-категориальный словарь логопеда. Под ред. В.И.Селеверстова. М.1997.

8. Р.М.Боскис – Глухие и слабослышыщие дети. М.1963.

9. К.Г.Коровин – Усвоение основных грамматических понятий учащимися старших классов школы слабослышащих. М.1982.

10. Л.Г.Пармонова – Методические указания по выявлению и коррекöии дефектов звукопроизношения и связанных с ними нарушений письма у слабослышащих учащихся. Л.1984.


## ƏLİLLİYİ OLAN UŞAQLARLA TƏLİM-TƏRBİYƏ İŞİNİN MAHİYYƏTİ VƏ ƏSAS İSTİQAMƏTLƏRİ


**Hüseynli Əzizə Tofiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aziza.huseynli123@icloud.com*


Bu gün ümumən əlillik və xüsusilə uşaqlıq əlilliyi problemi olduqca aktualdır. Əlilliyi olan və sağlamlıq imkanları məhdud uşaqların təhsil alması onların uğurlu sosiallaşması, cəmiyyətdə tam iştirakının təmin edilməsi, müxtəlif peşə və sosial fəaliyyət növlərində özünü

səmərəli formalaşdırması üçün əsas və əvəzsiz şərtlərdən biridir. Hətta növbəti onillikdə əlil uşaqlarla iş YUNESKO tərəfindən prioritet məsələ elan edilmişdir. Bununla da dövlət dövlət xüsusi pedaqoji yanaşmalar əsasında əlilliyi olan uşaqların təhsil alması, inkişaf pozuntularının düzəltməsi və sosial adaptasiyası üçün şərait yaradır.

Bu zaman müəllimlərin, pedaqoqların və valideynlərin əsas vəzifəsi əlilliyi olan uşaqlara tək olmadıqlarını, cəmiyyətdən kənarda qalmadıqlarını və həmyaşıd uşaqlarla bərabər şəkildə böyüyə, inkişaf edə və yeni nailiyyətlər əldə edə bildiklərini başa düşməyə kömək etməkdir. Uşaqlarla ünsiyyət qurmaq, uşağa düşünməyi, empatiya qurmağı öyrətmək lazımdır.

Dünya təcrübəsi çoxdan sübut etmişdir ki, əlilliyi olan uşaqların sağlam uşaqların olduğu qruplarda tədrisi həm əlil uşaqların özləri, həm də həmyaşıdları üçün müsbət nəticələr verir. Bu, fərdin uğurlu sosiallaşmasına kömək edir. Uğurlu sosiallaşmanın və daim dəyişən sosial şəraitə uyğunlaşmanın əsasları uşaqlıq dövründə qoyulur. Beləliklə, məktəbəqədər yaşda uşaq öz səviyyəsinə görə ilkin davranış normalarını mənimsəyir. Kiçik yaşlarda uşaq sosiallaşma mexanizmlərini fəal şəkildə mənimsəyir. Məhz buna görə də inklüziv proqramların formalaşmasında məktəbəqədər yaşlı uşaqlara xüsusi diqqət yetirilməsi vacibdir.

İnklüziv təlim metodu təhsil sisteminin fərdi xüsusiyyətlərindən (psixo-fizioloji, sosial, psixoloji, etno-mədəni, milli, dini və s.) asılı olmayaraq istənilən uşağı qəbul etməyə və ona optimal sosial inkişaf vəziyyətini təmin etməyə hazır olan sistemdir.

Əlilliyi olan uşaqların təhsil müəssisələrində təlim-tərbiyəsinin əsas mahiyyətini təşkil edir:

1) uşaqların şəxsiyyətində ümumi mədəniyyətinin formalaşdırılması, onların sosial, mənəvi, estetik, intellektual, fiziki keyfiyyətlərinin, təşəbbüskarlığının, müstəqilliyinin və məsuliyyətinin təkmilləşdirilməsi;

2) təhsil münasibətlərinin bütün iştirakçılarında əlilliyi olan uşaqlara və onların ailələrinə xeyirxah münasibətin formalaşdırılması;

3) xüsusi qayğıya ehtiyacı olan uşağın ailəsinə psixoloji və pedaqoji dəstəyin göstərilməsi və valideynlərin pedaqoji səriştəsinin səviyyəsinin artırılmasına kömək edilməsi;

4) uşaqların cəmiyyətə uğurla uyğunlaşması və inteqrasiyası üçün başqaları ilə emosional müsbət qarşılıqlı əlaqənin qurulması;

5) müxtəlif inkişaf pozğunluqları olan uşaqlarda ətraf aləm haqqında bilik və təsəvvürlərin genişlənməsi;

6) sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafını təmin etmək üçün ailə ilə qarşılıqlı əlaqə;

7) uşaqların fiziki və psixi sağlamlığının, o cümlədən onların emosional rifahının qorunması və möhkəmləndirilməsi;

8) insanın, ailənin, cəmiyyətin mənafeyinə uyğun olaraq cəmiyyətdə qəbul edilmiş mənəvi, əxlaqi və sosial-mədəni dəyərlərə və davranış qaydalarına və normalarına əsaslanan təlim və tərbiyənin ayrılmaz təhsil prosesində birləşdirilməsi.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı." Bakı: Azərbaycan Respublikasının Prezidenti, 2017.

2. UNESCO IBE. İnklüziv şagirdlərin qiymətləndirilməsi. Kurikulumun hazırlanması 80 üçün təlim vasitələri. Cenevrə: UNESCO IBE, 2017.

3. Alekhina S.V. Inclusive education for children with disabilities // Modern educational technologies in working with children with disabilities: monograph; Krasnoyarsk, 2013. 102 p.

4. Stephen Thompson. Education for children with disabilities. Institute of Development Studies. 26 May 2017.

# MİLLİ QƏHRƏMANLARIN DÖYÜŞ YOLU MÜASİR AZƏRBAYCAN GƏNCLƏRİNDƏ VƏTƏNPƏRVƏRLİK HİSSİNİN FORMALAŞDIRILMASINDA ƏSAS AMİL KİMİ

**Adgözəlov Elvin İkram oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elvin.bx@gmail.com*

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan inamını, ümidlərini gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkədə ən başlıca məsələdir. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın əsas aparıcı qüvvələrindən biri olmaqla bərabər, cəmiyyətin islahatları hərəkətə gətirən hissəsi və yaşlı nəslin davamçısı hesab olunur, gənclər cəmiyyətin ən hərəkətverici qüvvəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində cəmlənirlər. Nəsillər tədricən dəyişir, ölkələr inkişaf edir. Ancaq adət-ənənələr, milli dəyərlər gənc nəslin vətənpərvərlik ruhunda yetişməsi, tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının və ölkənin çiçəklənməsinin rəmzidir.

Gənclik hər bir cəmiyyətin aparıcı qüvvəsidir. Eyni zamanda daim axtarışda olan, yeniliyi sevən bir qüvvədir. Sağlam gənclik sağlam nəsil deməkdir. Gənclik millətin gələcəyinin, inkişafının təməl daşı olmaqla onun mövcudluğu üçün sağlam gənclik də vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların hərəkətverici qüvvəyə çevrilməsindən çox asılıdır.

Azərbaycan gənci daima döyüş meydanlarında, zəfərlərdə böyümüş, inkişaf etmişdir. Azərbaycan gənci böyük elmi ixtiraları, kəşfləri ilə dünya sivilizasiyasının yaranmasında öz möhürünü vurmuşdur. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi də bu tarixi kökdən, bu gendən gələn milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Azərbaycan gənci öz həyatını qurarkən ilk öncə müstəqil Azərbaycanın bugünü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Buna gənclərin yüksək potensialı, əldə etdikləri elmi bilikləri, güclü vətənpərvərlik hissləri tam imkan verir.

Qədim dünya tarixindəki Roma və digər dövlətlərin ordusundan danışırdıqsa, bundan sonra Vətən müharibəsində iştirak edən generallarımızın da hər biri şagirdlərimizə çatdırılacaq. Yalnız dərsliklərdə yox, həmçinin, müxtəlif əsər və filmlərdə qəhrəmanlıq tariximizi əks etdirməliyik. Gənclərimiz Polad Həşimovun, İlqar Mirzəyevin həyatından və döyüş yolundan nümunə götürməlidirlər.

"İnsan var evdən gedir, insan var eldən" məsəlini xatırlayıram. General-mayor Polad Həşimovun şəhidliyi də bu atalar sözünün mahiyyətinə uyğundur. Eldən gedənlərin ölümü daha ağrılı olur. Onu yaxından tanıyanlar da, xidmət yoldaşları da generalın döyüşünü, şəhidliyini Vətən sevgisinin təzahürü bilir. Bu şəhidlik ictimaiyyətdə təəssüflər yaratdı. Bu təəssüfü sevgi yaratmışdı. Azərbaycan Ordusuna sevgi, Azərbaycan Ordusunun şəhid zabitinə, generalına sevgi. Şəhidlik Vətənə görə olur; şəhidlik müqəddəsdir. Müqəddəs şəhidliyin doğurduğu təəssüf də həmişə müqəddəs olur…

Generalımızın şəhadətindən sonra uşaqdan-böyüyə hər kəs ondan danışır. Hər bir evdə onun itkisi ürəkləri dağlayır. O gözəl təbəssüm dolu çöhrəsindən oxunur şəhidlik zirvəsinə çatdığı üçün necə qürurlu olduğu. Hamı ona oxşamaq, Polad kimi qəhrəman olmaq istəyir. Ondan söhbət açıldıqca, “İntiqamınızı alacağıq!” deyə söz verdi gənclik və aldı da.

Polad Həşimov haqqında xatirələri oxuduqca, dinlədikcə mükəmməl bir insan,əməli, əqidəsi düz bir vətən aşiqini, sözün əsl mənasında bir Vətəndaşımızı itirdiyimizi dərk etdirik. Allah tərəfindən seçilmişlərin talehləri isə sanki göylərdə yazılıb ömürləri tarixə çevirilir.

Öz qəhrəmanlıq əməli ilə tarixə düşmüş Milli qəhrəman zirvəsinə şəhid məqamına ucalmış belə adamlardan biri də İlqar Mirzəyevdir. General-mayor Polad Həşimovla eyni gündə eyni döyüşdə şəhid olan polkovnik İlqar Mirzəyev də əsgərlərin həyatının təhlükəyə atmamaq üçün özünü qurban etmişdir.

Tovuz döyüşləri onu göstərdi ki, Azərbaycan ordusunda yüksək rütbəli zabitlər də torpağını qorumaq üçün ön xəttə əsgərlə bərabər döyüşür. Döyüşün ağırlığınıda da, qalibiyyəti də birgə yaşayırlar. 14 iyul döyüşlərində erməni təxribatının qarşısı Azərbaycan silahlı qüvvələrinin çox dəyərli hərbiçilərini şəhidliyi bahasına alındı. Zəfərimizin qığılcımını alovlayan Polad Həşimov və İlqar Mirzəyevə “8 Noyabr” zəfərini görmək qismət olmasa da, Azərbaycan xalqı dəmir yumruq kimi birləşərək 30 illik işğala 44 gündə son qoydu.

Elə insanlar var ki, ömürləri illərin, ayların, günlərin sayı ilə ölçülür. Hər bir insanın taleyi onun əməlində təzahür edir. Tarixdə Poald Həşimov və İlqar Mirzəyev kimi qəhrəmanların adları əbədi olaraq qızıl hərflərlə yazılmış qalacaq.

İnanırıq ki, Polad və İlqar kimi igid Azərbaycan oğullarının qəhrəmanlıq məktəbindən dərs alacaq gənclər doğma vətənimizi layiqincə müdafiə edəcəklər.

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ƏXLAQ TƏRBİYƏSİNİN FORMALAŞMASINDA MƏKTƏBİN ROLU

**Məmmədova Könül Ədalət qızı**
**Mingəçevir Dövlət Universiteti**
*memmedovakonul921@gmail.com*

Şəxsiyyətin harmonik, yüksək bəşəri tələblərə cavab verəcək bir səviyyədə inkişafında tərbiyənin təkib hissəsindən biri olan əxlaqi tərbiyə böyük əhəmiyyət daşıyır. Qədim yunan sözü olan əxlaqia «estanomay» sözündən olub hərfi mənası «hisslərlə qavramaq» deməkdir. Ümumtəhsil məktəblərində ibtidai sinif müəllimlərinin üzərinə xüsusi və böyük məsuliyyət düşür. Müəllimlərin ən önəmli vəzifəsi ibtidai sinif şagirdlərində təlimə həvəsin yaradılması və inkişaf etdirilməsidir. Hal-hazırki dövrdə əxlaqi tərbiyəyə yüksək qiymət verilir, şəxsiyyətin hərtərəfli formalaşmasında və inkişafında rol oynadığı bildirilir. Əxlaqi tərbiyə prosesi yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi istiqamətində əsas rol oynayır. Bu prosesdə tərbiyə olunanlar gözəlliyin mahiyyətini dərk edir, əxlaqi keyfiyətlərini inkişaf etdirir, bilik və vərdişlərə yiyələnirlər. Danışıqda və bəzi pedaqoji ədəbiyyatlarda «əxlaqi tərbiyə» anlayışı bəzən «bədii tərbiyə» anlayışı ilə eyniləşdirilir. İbtidai sinif şagirdlərinin tərbiyəsinə verilən əxlaqi tərbiyə qarşısında aşağıdakı vəzifələr durur:

1. Əxlaqi tərbiyə əxlaqi hissələr yaratmalı və inkişaf etdirməlidir. Müəllim şagirdlərə gözəlliyin bütün təzahür formalarını dərketməsinə kömək etməlidir.

2. Əxlaqi tərbiyənin şagirdlərdə əxlaqi baxışlar və mühakimələr yaratmasına kömək etməlidir. İnsanların gözəllikdən sadəcə həzz almaları ilə kifayətlənmək olmaz. Müəllim onlarda həmçinin gözəlliyi qiymətləndirmə bacarığıda yaratmalıdır. Hər bir tərbiyə olunan uşaq gözəlliyi ayırmalı, dərk edə bilməli, dinləməyi bacarmalıdır. Ancaq bu halda şagirdlərdə əxlaqi baxış yaradıla bilər.

3. Əxlaqi tərbiyə şagirdlərdə əxlaqi yaradıcılıq bacarığını inkişaf etdirməli, onlarda incəsənətin müvafiq sahələri üzrə bilik, bacarıq və vərdişlər yaratmalıdır [3].

Rəsm və musiqi dərslərində şagirdlərdə vətəndaşlıq keyfiyyətlərinin formalaşdırılması bütün təhsil sistemində təlim vətərbiyə, o cümlədən məktəbdənkənar tərbiyə müəssisələrinə pedaqoji gerçəkliyin bütün sahələrində aparılan əxlaqi tərbiyəyə aid edilməlidir.

Əxlaqi tərbiyə məqsədi ilə istifadə edilən material diqqətlə seçilməlidir, onların ideyaca üstün, bədii cəhətcə zəngin və qiymətli olmasına xüsusi fikir verilməlidir. Bu hər şeydən əvvəl müəllimin diqqət mərkəzində durmalıdır.

Sağlam vətəndaş yetişdirmək üçün, əxlaqi tərbiyə vasitələri sadədən mürəkkəbə doğru seçilməlidir. Ən əsas iş isə əxlaqi tərbiyə işində sistematikliyə və ardıcıllığa əməl etməkdir.

Məlumdur ki, sistematiklik və ardıcıllıq həm təlim, həm tərbiyə prinsipidir. Ona görə də bu prinsip həm əxlaqi təlimdə həm də əxlaqi tərbiyədə aktual yerdədir. Hər bir müəllim incəsənət, təbiət, həyat gözəlliklərini dərk etdikcə, onu özünün fəaliyyətində, rəftarında, geyimində əks olunmalıdır. İbtidai sinifdə əxlaqi tərbiyə elə aparılmalıdır ki, tərbiyə olunanlar öz davranışına, insanlarla ünsiyyətinə gözəllik elementləri daxil edə bilsinlər. Tərbiyə işi elə qurulmalıdır ki, yaradılan əxlaqi anlayışlar şüurlu dərk olunaraq şəxsi münasibətlərə çevrilsin. Şagirdlər tərəfindən mənimsənilən əxlaqi biliklər həyati bacarıq və vərdişlərə çevrilməlidir. Əgər şagirddə incəsənətin bu və ya digər sahəsinə aid güclü meyl və istək varsa, onda tərbiyə olunanda həmin istiqamətdə daha səmərəli iş aparmalı, onun qabiliyyətinin inkişafı üçün geniş şərait yaradılmalıdır. Bununla yanaşı tərbiyə olunanların yaşı nəzərə alınmalı,tərbiyənin bütün sahələrində olduğu kimi əxlaqi tərbiyədə də tərbiyə olunanların fiziki, psixoloji, intellektual inkişafına istinad edilməlidir. Bu prinsiplərə riayət zamanı şagirdlərin ahəngdar inkişafı diqqət mərkəzində olmalıdır [3].

Böyüyən nəslin əxlaqi tərbiyəsinin müvəffəqiyyəti, təhsil müəssiəsi ilə ailənin əlbir işindən asılıdır. Bu isə valideyn və müəllimlərin özlərinin əxlaqi mədəniyyətinin yüksəldilməsini tələb edir.

Əxlaqi tərbiyənin prinsipləri ibtidai siniflərdə rəhbər tutulmaqla yanaşı, həm də məktəbdən kənar tərbiyə müəssisələrində aparılan əxlaqi tərbiyə işlərində də rəhbər tutulur. Əxlaqi tərbiyənin bir çox elementləri mövcuddur. Bunların tərkibində:

a) insanların təbiətlə əlaqəsi;

b) ictimai-sosial həyat;

v) əmək fəaliyyəti əsas yer tutur.

Şagirdlərin gözəlliklə, təbiətlə əlaqəsi nəticəsində onlarda gözəl hisslər oyanır, təbiətə vurğunluq yaranır. Əxlaqi tərbiyənin ikinci vaitəsi şagirdlərin sosial həyatıdır [2].

İbtidai siniflərdə əxlaqi tərbiyənin elementləri içərisində əmək xüsusi yer tutur. Əxlaqi tərbiyənin metodları olan əxlaqi biliklərin verilməsində istifadə edilən təlim metodları;

əxlaqi hiss və əxlaqi görüşlərin tərbiyə edilməsində istifadə olunan tərbiyə metodları;

əxlaqi görüşlərin özünə məxsus olan spesifik metodlardır.

Məktəblərdə tədris edilən dərslərin, demək olar ki, hamısında əxlaqi tərbiyə imkanı vardır. Bir sıra fənlər isə bilavasitə əxlaqi tərbiyə və təliminə xidmət edir. Bədən tərbiyəsi dərslərində hərəkətlərin bədii şəkildə icrası, dərsin musiqi ilə müşayiət edilməsi, qamətin düzgün inkişafı kimi məsələlər əxlaqi tərbiyə baxımından çox faydalıdır. Təlim prosesində tərbiyə olunmuş bu əxlaqi baxışlar, hissələr insanların müstəqil həyatı və fəaliyyəti prosesində daha da möhkəmlənir və inkişaf edir. Həmçinin bu hisslər, baxışlar və onlarda tərbiyə olunmuş, formalaşdırılmış əxlaqi bacarıq və adətlər əsasında öz həyatlarını, iş yerlərini gözəllik qanunları əsasında qurmağa səy göstərirlər. Daha doğrusu səmərəli əxlaqi tərbiyə əxlaqi özünütərbiyəyə çevrilir. Rəsm dərsləri əxlaqi tərbiyədə daha geniş imkanlara malikdir. Bu dərslər vasitəsilə tərbiyə olunanlarda rəssamlıq və onun müxtəlif sahələrinə aid biliklər, anlayışlar yaradılır, zəruri bacarıqlar formalaşdırılır. Nəğmə dərsəlri də rəsm dərsləri kimi əxlaqi tərbiyədə böyük əhəmiyyətə malikdir. Nəğmə dərslərində səs, musiqi, onun ahəngi haqqında məlumatlar verilir, musiqini dinləmə, dərk etmə qabiliyyət və bacarıqları formalaşdırılır. Istər nəğmə istərsə də rəsm dərslərində məktəblilərin bu sahədə xüsusi qabiliyyətləri üzə çıxırılır və inkişaf etdirilir. Əxlaqi tərbiyəni təkcə təlim prosesi ilə məhdudlaşdırmaq olmaz. Dərsdə təməli qoyulmuş əxlaqi tərbiyə dərsdənkənar tədbirlər zamanı və məktəbdənkənar tərbiyə müəssisələrində davam etdirilir. Sinifdənkənar tədbirlər prosesində şagirdlərin təlim zamanı qazandıq-

ları bilik, bacarıq və vərdişləri daha da inkişaf etdirilib təkmilləşdirilir. Təlim prosesinə nisbətən sinifdənkənar tədbirlər məktəblilərin fərdi tələbatına, arzu və istəklərinə, maraq dairələrinə uyğun şəkildə təşkil edilir. Maraqlı sinifdənkənar əxlaqi tərbiyə işlərinə müxtəlif dərnəklər, kütləvi tədbirlər ekskursiyalar və s. aid etmək olar. Bu məşğələlər təlim məşğələləri olduğu üçün təlimə verilən bütün pedaqoji tələblər onlara da verilir. Elmi pedaqoji yeniliklər təlimin bu sahəsinədə tətbiq edilir. Mədəniyyət müəssisələrində təşkil edilən bu tip məşğələlər də təlim və tərbiyə məşğələləri hesab edilir və şəxsiyyət formalaşdırılması məqsədlərinə xidmət edir. Əxlaqi tərbiyə işində bədii yaradıcılıq xüsusi yer tutur. Bura rəqs, rəsm, tikiş və s. dərnəklər daxildir. Uşaqlar və gənclər arasında geniş yayılmış incəsənət növlərindən biri də rəqsdir ki,uşaq və yeniyetmələr bayram təntənələrində, şənliklərdə həvəslə rəqs edirlər. Uşaqlar, yeniyetmələr və gənclər rəqs zamanı əylənir, sevinir və fərəh hissi keçirirlər. Rəqs zamanı hər kəs öz bacarıq və istedadlarını səfərbərliyə alır, gördüklərini yadda saxlamağa çalışır, hərəkətləri üzərində düşünür. Bu isə onlarda həm də hafizə və təfəkkürü inkişaf etdirir. Məktəbdənkənar və mədəniyyət müəssələrində təşkil edilən rəqslər yaşauyğun təşkil edilir. Ona görə də dərnəklər eyni yaşlı, heç olmazsa yaşlarında az fərq olan insanları birləşdirir. Rəqs zamanı geyimlər də gözəl, milli və ya müasir olmalıdır. Yeniyetmə və gənclərin əxlaqi tərbiyəsində dram dərnəkləri də böyük əhəmiyyət kəsb edir. Bu proses şagirdlərdə təxəyyül, fantaziya, yaradıcılıq qabiliyyətlərini də inkişaf etdirir [1].

Hazırlanan tamaşa ibtidai sinif şagirdlərinə, ümumiyyətlə tərbiyə olunanların yaşlarına və səviyyələrinə uyğun olmalıdır. Sinifdənkənar və məktəbdənkənar tərbiyə işlərində incəsənət əsərlərinə daha artıq fikir verilməlidir.

Əmək işlərinin müvəffəqiyyətinin təmin edilməsi iştirakçılar arasında vəzifə bölgüsünün düzgün aparılması və s. kimi şərtlərdən də asılıdır. Kütləvi tədbirlər də əxlaqi tərbiyənin mühüm formalarından biridir. Bura incəsənətin ayrı-ayrı sahələrinə həsr olunmuş məruzə, mühazirə və söhbətlər, ədəbi-bədii gecələr, radio və televiziya verlişlərinin müzakirəsi, təbiətə və incəsənət muzeylərinə ekskursiyalar, teatr və kino tamaşalarına kollektiv gedişlər, mədəni əyləncələr, bədii albom, kütləvi oyunlar və s. daxildir. Təbiət, cəmiyyət və incəsənətdəki gözəllikləri müşahidə etməkdə və dərk etdirmək də şagirdlərdə əxlaqi zövqü, mühakimə və baxışı formalaşdırmaq nöqteyi-nəzərindən bütün bu tədbirlərin çox böyük əhəmiyyəti vardır və insanın bədii zövqünü və əxlaqi zövqünü inkişaf etdirir [2].

İşin müvəffəqiyyəti əvvəlcədən hazırlıq aparılmasını tələb edir. Bu zaman tərbiyə olunanlara baxacaqları film və ya teatrın süjeti ideyası haqqında qısa məlumat verilir. Sonra isə baxılmış əsər müzakirə edilir, hər kəsin şəxsi fikri üzə çıxarılır. Tərbiyə olunanların incəsənət muzeylərinə ekskursiyaları da əhəmiyyətli yer tutur. Bu ekskursiyalar zamanı şagirdlər və tələbələr incsənət nümayəndələri və onların növləri ilə rəssamın, heykəltəraşın, memarın yaratdığı xarüqələr ilə tanış olurlar.

Təbiətə ekskursiyalar da tərbiyə olunanların əxlaqi tərbiyəsində, doğma vətənimizin gözəlliklərini dərk edib, sevməkdə əhəmiyyətli yeri tutur. Təbiətin əxlaqi gücü haqqında K.D.Uşinski «Bəs şəlalələr, bəs təbiət, şəhərin gözəl ətrafı, bəs ətirli çəmənliklər və dalğalı səhralar, bəs güllü-çiçəkli bahar və qızıla bənzər payız bizim tərbiyəçilərimiz olmayıblarmı? Mən həyat təəssüratımın dərin etiqadı nəticəsində bilirəm ki, gənc ruhun tərəqqisində gözəl mənzərənin tərbiyəvi təsiri o qədər əhəmiyyətlidir ki, müəllimin təsiri ona rəqib ola bilməz». Ailədə əxlaqi tərbiyəyə diqqət yetirmək xüsusi yer tutur.

Əxlaqi tərbiyə böyüyən nəslin zövqünü tərbiyə edib təkmilləşdirməkdə böyük rol oynayır. Tərbiyə olunanı əhatə edən şəraitin özü də gözəl olmalıdır hətta.

Y.A.Kominski qeyd edirdi ki, məktəbin özü gözləri cəlb edəcək xoş bir yerdə durmalıdır. Məktəbin foyesi və dəhlizləri məşhur şəxsiyyətlərin portretləri, tarixi hadisələrin təsviri, ornament nümunələri ilə bəzənmiş olmalıdı. Məktəbin xaricində isə gəzinti bağı olmalıdır ki, şagirdlər ağacların bitki və çiçəklərin görünüşündən zövq alsınlar. Pedaqoqun bu sözlərindəki həqiqət indi də öz əhəmiyyətini saxlayır. Bu tələb təhsil müəssisələrinə, həmçinin məktəbdən-

kənar tərbiyə müəssisələrinə də aid edilir. Şagirdlərin özünün zəngin daxili aləminə və nəcib hərəkətlərinə uyğun gəlməlidir. Bu nöqteyi-nəzərdən geyim insanın əxlaqi mədəniyyəti və zövqü haqqında müəyyən təsəvvür verə bilir.

Hər bir yeniyetmə və gənc təkcə danışıqda deyil, hər şeydə; danışığında, yerişində, rəftar və hərəkətlərində, başqalarına qarşı münasibətdə əxlaqi olmalıdır.

Şagirdlərinəxlaqi tərbiyəsində bütün yaş dövrlərində ailə daha çox rol oynayır. Belə ki, ailənin yaşlı üzvləri, valideyinlər gəzintilər zamanı təbiətdəki gözəllikləri onlara müşahidə etdirməli, bu gözəllikləri onlara dərk etdirməyə çalışmalıdırlar. Ümumiyyətlə tərbiyənin digər tərkib hissələrində olduğu kimi əxlaqi tərbiyədə də ailə mühum, əvəzedilməz rola malikdir.

**Ədəbiyyat:**


1. S.K.Məmmədova. Mədəniyyətşünaslıq. Bakı. Koorperasiya nəşr. 2001
2. Adil Əsədov. Gözəlliyin fəlsəfəsi. Bakı. 2005
3. Raymond Bayer. Estetika tarixi. Fransa. 2011


## PSİXOTERAPİYA PSİXOLOJİ XİDMƏTİN TƏRKİB HİSSƏSİ KİMİ


**Məmmədzadə Xanım Xaqani qızı**
**Azərbaycan DövlətPedaqojiUniversiteti**
*xanim_memmedzade@bk.ru*


Psixoloji məsləhət ən çox istifadə edilən psixoloji yardım formalarından biridir. Psixiatriya və Nevrologiya İnstitutunun nəşr etdiyi 2010-cu il Statistika İllik Kitabına görə (Səhiyyə Təşkilatları Departamenti, 2010), kişi sağlamlığı klinikalarında təxminən 730 000 psixoloji məsləhət verilmiş və 150 000-ə yaxın insan psixoterapiyadan keçmişdir. Bu iki xidmət arasındakı nisbət uşaq və gənclər üçün psixi sağlamlıq klinikalarında və psixoloji məsləhət mərkəzlərində oxşardır; onların psixoloji və pedaqoji məsləhət mərkəzlərində və psixoterapevtlərin şəxsi kabinetlərində də tez-tez təklif olunduğu ehtimalı yüksəkdir.

Psixoterapiya həm də tibb müəssisələrində və psixoterapevtlərin şəxsi təcrübəsində tətbiq olunan psixoloji yardım üsuludur. Psixoterapiyada olan insanların sayını təxmin etmək və bu müxtəlif müəssisələrdə təklif olunan psixoterapiyanın əslində nə olduğunu təsvir etmək çətindir. Son vaxtlara qədər Polşa Milli Sağlamlıq Fondu səhiyyə müəssisələrində psixoterapiya aparmaq üçün Polşa Psixiatriya və Psixoloji Assosiasiyalarının sertifikatlı psixoterapevtləri ilə müqavilə bağlamışdı. Bir neçə ildir ki, səhiyyə müəssisələrində psixoterapiya bir neçə onlarla psixoterapevtik assosiasiyadan hər hansı birinin “sertifikatlı” psixoterapevti tərəfindən aparılması şərti ilə Milli Səhiyyə Fondu tərəfindən yenidən maliyyələşdirilir.

**Məsləhət və psixoterapiyanın tərifləri**

Helena Sęk (2001, s. 182) məsləhəti “həyat problemləri, uyğunlaşma çətinlikləri və inkişaf böhranları ilə üzləşən sağlam insanlara verilən yardım forması” kimi müəyyən edir. Amerika Məsləhət Assosiasiyası məsləhətçiliyi “müxtəlif fərdlərə, ailələrə və qruplara psixi sağlamlıq, sağlamlıq, təhsil və karyera məqsədlərinə çatmaq üçün səlahiyyət verən peşəkar münasibət” kimi təsvir edir. Psixoterapiyanın müxtəlif tərifləri var. Başlamaq üçün, Aleksandrowicz tərəfindən təklif olunan bir terif var: Psixoterapiya təcrübi pozğunluqlara səbəb olan şəxsiyyət xüsusiyyətləri də daxil olmaqla, xəstəliyin əlamətlərini və səbəblərini aradan qaldırmaq məqsədi daşıyan, təcrübi və davranış pozğunluqlarını aradan qaldırmaq məqsədi daşıyan psixososial müdaxilə formasıdır. Xəstənin psixi proseslərində dəyişiklik etməklə bədən orqanlarının əməliyyat vəziyyətinə, təcrübəsinə və davranışına təsir edən bu müdaxilələr iki şəxs və ya qrup arasında şəxsiyyətlərarası münasibətlərin bir hissəsi kimi həyata keçirilir (tərcümə: Aleksandrowicz, 2000, s. 11-12). Norcross (1990, s. 218) aşağıdakı tərifi verir:

Psixoterapiya insanlara davranışlarını, idraklarını, emosiyalarını və/və ya digər şəxsi xüsusiyyətlərini iştirakçıların arzuolunan hesab etdiyi istiqamətlərdə dəyişməyə kömək etmək

məqsədilə müəyyən edilmiş psixoloji prinsiplərdən irəli gələn klinik metodların və şəxsiyyətlərarası mövqelərin məlumatlı və məqsədyönlü şəkildə tətbiqidir.

Psixoterapiya psixi pozğunluğu aşkarlanmış insanların müalicəsi üsuludur. Psixi pozğunluqların meydana gəlməsini izah edərkən, psixoterapiyanın bütün nəzəriyyələri bu pozğunluqları yaşayan insanda baş verən patogen hadisələrə istinad edir. Psixoanalitik və psixodinamik yanaşmalarda vurğulanan şey, erkən uşaqlıq dövründəki emosional travmaların başqaları ilə münasibətlərdə patogen təsiri, eləcə də bu travmaların öhdəsindən gəlmək üçün inkişaf etdirilən müdafiə mexanizmlərinin əhəmiyyəti və sonrakı təcrübə, qavrayış və davranış yollarına təsir etməkdir. Koqnitiv-davranış yanaşmasında psixi pozğunluqların səbəblərinin yanlış qazanılmış inanclarda, idrak sxemlərində və davranışlarda olduğu güman edilir ki, bu da mənfi həyat təcrübələri vəziyyətində inkişaf edir. Humanist psixoterapevtlər hesab edirlər ki, psixi pozğunluqlar şəxsi təcrübəyə əsaslanan fəaliyyətlərdən, yəni insanın onlar üçün yaxşı olduğuna inandığı şeylərdən imtina edərək təbii özünü inkişaf meylinin inhibə edilməsinin nəticəsidir. Nəhayət, ailə terapiyasında psixi pozğunluqların səbəbləri ailə sistemində, xüsusən də ailədəki münasibətlərin və ünsiyyətin strukturunda və nümunələrində axtarılır (müq. Prochaska & Norcross, 2006; Czabała, 2013). Bütün psixoterapevtik yanaşmalarda məqsəd mənfi həyat təcrübələri nəticəsində yaranmış patomexanizmi "təmir etmək"dir.

## TƏDRİS PROSESİNDƏ MƏNFİ EMOSİYALAR VƏ ONLARIN ARADAN QALDIRILMASI

**Umudova Ziyafət Mübariz qızı**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
*zina.umudova@gmail.com*

Görülən hər bir işin nəticəsi həm uğurla, həm uğursuzluqla nəticələnə bilər. Gündəlik həyatımızda, iş həyatında, təhsil prosesi və təlim-tərbiyyə zamanı ən çox rast gəlinən problem mənfi emosiyaların öhdəsindən gəlməkdir.

Bu hal ən çox təhsil prosesi zamanı özünü biruzə verir. Təlim-tərbiyyənin, ətraf mühitin və hətta xarakterin də mənfi emosiyaların idarə olunmasında, onların qət edilməsindəönəmli rolu vardır.

Təlim-tərbiyyə zamanı bir çox şagirdin keçə bilmədikləri sərhəd uğursuzluqla qarşılaşdıqda mübarizə aparmadan təslim olmasıdır. Uğursuzluqla üzləşdikdə ümidsizliyə qapılmadan səhvlərindən dərs alaraq, daha əmin addımlarla yoluna davam edən çox az insana rast gəlmək olar.

Tomas Edisonun akkumlyator hazırlaması onun dəfələrlə uğursuzluğa düçar olması ilə nəticələnmişdir. O, müsahibəsi zamanı özünü necə hiss etdiyini soruşan müxbirə belə cavab vermişdir: "Nə üçün uğursuzluq deyirsiniz. Bu gün akkumlyatorun necə hazırlanmayacağına dair 25000 metod bilirəm. Bəs siz nə bilirsiniz? Bir dəfə belə məğlub olmadım. Üstəlik 2000 mərhələ tələb edən lampa icad etdim."

Təhsil zamanı şagird uğursuzluq, təşviş, qəzəb, məyusluq, inciklik, ayıb kimi mənfi emosiyalarla qarşı-qarşıya qalır. İştirak etdiyim "Qorxuların Psixologiyası" təlimində bütün bu emosiyalara zəmin yaradan hissin qorxu olduğunu müşahidə etdim. Bir çox insan qorxuları ilə üzləşməkdən çəkinir və bunu mümkün qədər təxirə salır. Amma uğursuzluq qorxusu ciddi mövzudur və bir çox insanın həyat keyfiyyətinə mane olan, inkişaf edib irəli getməyini ləngidən amildir.

Corc Bernard Şoua necə belə gözəl natiq olduğu haqda sual verilir. O cavab verir: "Buz üstündə sürüşməyin öyrənildiyi kimi... yəni tam öyrənənə kimi davamlı axmaq vəziyyətinə düşərək."

İnsan uğur qazanmaq istəyirsə, ilk öncə qorxuların öhdəsindən gəlməyi, onlardan qaçmaq əvəzinə üzləşməyi öyrənməlidir. 67 yaşında labaratoriyası yanan zaman Tomas Edisonun

illərlə üzərində çalışdığı hər şey, demək olar ki, bütün əməyi yanmışdı. Amma o, "fəlakkətdən alınacaq dərs var idi. Bütün səhvlərimiz yandı. Şükürlər olsun ki, hər şeyə yenidən başlaya bilərik" demişdir.

Vinston Çörçil demişdir: "uğur- uğursuzluqdan uğursuzluğa ruh yüksəkliyini itirmədən addımlamaqdır."

Heç danılmazdır ki, təhsil prosesində və hətta təlim-tərbiyyə zamanı müəllimin rolu çox böyük və əhəmiyyətlidir. Müəllimlər şagirdləri doğru motivə etməkdə, onları həvəsləndirməkdə və şagirdlərin şəxsiyyət kimi formalaşmasında önəmli rol oynayırlar.

Ümummilli lider Heydər Əliyev müəllim haqqında belə qiymətli sözlər söyləmişdir:

**"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq".**

Hər bir müəllim tədris etdiyi fənnlə yanaşı, həm uşaq psixologiyasını, həm də pedaqoqikanı yaxşı bilməlidir. Müəllim hər bir şagirdə qayğı göstərməli, fərdi yanaşmalı, və onun şəxsiyyət olduğunu dərk etməlidir. Yalnız əmək sevən, tərbiyyənin gücünə inanan, hər bir uşağın şəxsiyyətini və ruhunu oxuya bilən, şagirdin daxilindəki "mən"i görə bilən yəni, sənətinin vurğunu olan insan həqiqi müəllim ola bilər. Yəni müəllim şagirdə sadəcə tədris etdiyi fənnin sirlərini deyil, eyni zamanda ona humanistliyi də öyrətməlidir.

Təhsildə uğursuzluq qorxusu şagird zehnini yoran, daha çox məğlubiyyətə səbəb olan düşüncə qəlibidir. Çünki qələbənin olduğu yerdə məğlubiyyət də vardır və bu məğlubiyyətlər insan motivasiyasını tamamilə zəiflədən ünsürə çevrilə bilər. Şagird istədiyi nəticəni ala bilmədikdə təşvişə düşmüş olur. Bu təşviş zamanla onun adaptasiya olmasına, normal fəaliyyət göstərməsinə mane olur, bacarıqlarını aşkar edə bilmə imkanlarını azaldır. Hətta bir çox hallarda o gülünc vəziyyətə düşəcəyindən qorxduğu üçün tam fəaliyyətsiz qalır, özünü gülünc, aciz, qorxaq hiss edir.

Təbii ki, bu qorxunun arxasında bunun yaranmasına zəmin hazırlayan digər qorxular da dayanır. Insanın qorxusu artdıqca, özünə inamı azalır.

Təhsil zamanı müəllim, şagirdin qorxularının əsiri olmadan, onların öhdəsindən gəlməsinə yardım edə biləcək ən təsirli qüvvədir. Daha doğrusu, həm yardım edə bilər, həm də o qorxunun əsirinə çevirə bilər. Əgər bir müəllim şagirdə rişxənd edirsə, onun zəif cəhətlərini bütün şagirdlərin içində ifşa edib daha çox utandırırsa, heç şübhəsiz, o şagird özünə daha çox qapanacaq, müəllimə olan inamı, təhsilə olan marağı azalacaq. Təbii ki, bu hal təkcə şagird olduğu dövrlə məhdudlaşmayacaq, şagirdin gələcək həyatına siraət edəcək.

Müəllim şagirdlərinə səhv etməyin normal olduğunu qələbə ilə yanaşı məğlubiyyətin varlığını izah etməlidir. Yəni edilən səhvlər uğursuzluqlar fəlakət deyil, əksinə bu yalnışlar nəticəsində doğruya daha çox yaxınlaşmaqdır. Məs: bir məğlubiyyət yaşanılan zaman əldə edilən təcrübəni heç bir kitab, heç bir qaynaqdan əldə edə bilmərik. Yəni yaşanılan şey bəlkə də nəzəriyyə olaraq sözlə izah edilsəydi, bu qədər dərin dərk edilməz, başa düşülməzdi.

Eyni zamanda müəllim və şagird hətta valideynlər birgə əməkdaşlıq edərərk bu qorxunun kökünü tapmalı vər birgə aradan qaldırmalıdırlar. Təbii ki, bu zaman hər bir tərəfin səbirli olmağının önəmi çox böyükdür.

Bir işdə uğursuz olsan belə, qorxu zaman-zaman azalar, təcrübə isə yeni nailiyyətlərə, müvəffəqiyyətlərə yol açar. "Qorxularının üzərinə get!" ifadəsi hər bir psixoloqun öz pasientlərinə etdikləri ən önəmli və həlledici məsləhətidir. İlk olaraq onlar bu qorxuların mənşəyini araşdırb tapırlar və yalnız bundan sonra qorxu üzərində işləyirlər. Müəllimlər də məhz belə davransalar daha gözəl nəticə əldə etmiş və şagirdlərin inamını qazanmış olarlar.

Əksər şagirdlər öz bilik-bacarıqlarını və potensialını doğru qiymətləndirə bilmirlər. Bu zaman müəllim onlara yardım etməli və şagirdə özünəinamı aşılamalıdır. Və məhz bunun sayəsində özünəinamlı, hərtərəfli inkişaf etmiş vətəndaşlar yetişə bilər.

# IV BÖLMƏ
# TƏDRİSİN MÜASİR PROBLEMLƏRİ

## MUSİQİ QABİLİYYƏTİNİN YAŞA GÖRƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Məmmədəliyeva Aytac Müşfiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aytac.memmedaliyeva@mail.ru*

Uşaqların erkən yaşda musiqi tərbiyəsi müasir təhsilin aktual problemlərindən biridir və bununla məktəbəqədər təhsil müəssisələrinin musiqi rəhbərləri məşğul olurlar. Hər bir insanın istər fiziki,istər psixoloji inkişafı onun yaş xüsusiyyətləri ilə bilavasitə bağlıdır. Alimlər sübut edir ki, uşaq doğularkən qabiliyyətlər ona irsən keçmir,lakin o,müəyyən imkanlarla doğulur. Hansı ki,həmin imkanlar uşaqlarda musiqi qabiliyyətlərinin yaranması üçün zəmin yaradır. Psixoloqlar belə hesablar edirlər ki, uşaqlarda musiqiyə maraq, musiqi qabiliyyəti hələ kiçik yaşlarından inkişaf etməyə başlayır. Məhz uşaqlardakı fəallıq, hər şeyə maraq, sərbstlik meyli onların psixi inkişafına aid olunur. Ən son psixoloji-pedaqoji tədqiqatlar göstərmişdir ki, məktəbəqədər yaşda tərbiyə üçün itirilmiş vaxtı kompensasiya etmək çətindir.

İntensiv inkişaf mərhələsi hesab edilən uşaqlıq bu səbəbdən yaş dövrlərinin təsnifatında xüsusilə seçilir. Məsələn, körpəlik dövründə uşaqlar musiqiyə qulaq asarkən olduqca şən reaksiyalar nümayiş etdirirlər. Hətta onlar musiqinin yüksək və ya əksinə, alçaqdan səslənməsini bir-birindən aydın şəkildə seçirlər. Musiqiyə marağın yaradılması körpənin musiqi inkişafının əsasını təşkil edir. O, körpədə müsbət emosiyalar oyadır ki, bu da öz növbəsində uşağı qarşılıqlı əlaqəyə açıq edir. Maraq insanı aktivləşdirir, onun yaradıcı təzahürlərinin əsası olmaqla onu fəaliyyətə sövq edir. 3 yaşlı uşaq musiqiyə zövqlə qulaq asır və ona emosional reaksiya verir. Ancaq o,musiqini qısa müddətdə dinləyə bilər, buna görə də körpə daim alternativ aktiv və sakit fəaliyyətlər etməlidir, yalnız bu şəkildə eyni musiqiyə, mahnıya bir neçə dəfə qulaq asa bilər və ya fərqli mahnıları dinləyə bilər.

Sonrakı mərhələ uşaq bağçaları ilə davam edir. Uşaq baxçalarında musiqinin həvəskar tədrisinə başlanılır. Bağça yaşlı uşaqlarda ictimai fəallığın yaradılmasında musiqi məşğələləri əhəmiyyətli dərəcədə rol oynayır. Belə ki, baxçada uşaqlara mahnılar oxudulur, rəqslər öyrədilir və cizgi filmindəki məşhur mahnılar dinlədilir,onlar tərbiyəçilərin hərəkətlərini çox diqqətlə izləyirlər. Nəzərə almaq lazımdır ki, müəyyən bir mahnı və ya melodiya olduqca tərbiyəedici xarakter daşıyır. Hansı ki,həmin mahnı və ya melodiyalar lazımi səviyyədə uşaqlara öyrədilir və onlar öyrəndiklərini asanlıqla tətbiq edirlər. Bununla belə onlar ilkin rəqs bacarıqlarına, müəyyən qədər söz ehtiyatına və nəğmə oxumaq qabiliyyətinə yiyələnmiş olurlar. Uşaqlar musiqi fəalliyətinin müxtəlif növlərinə ancaq o halda müvəffəqiyyətlə yiyələnə bilər ki, onun özünəməxsus xüsusiyyətləri nəzərə alınsın. Bütün bunları nəzərə alaraq məktəbəqədər uşaqların ümumi musiqi inkişafının xüsusiyyətlərini aşağıdakı kimi verə bilərik:

**1. Emosiya-sadə reaksiyadan, müxtəlif emosional reaksiyaya keçid;**

**2. Musiqi yaddaşı-müxtəlif musiqi ifadə vasitələrini bir-birindən fərqləndirmə bacarığından irəli gəlir;**

**3. Musiqiyə münasibət-ilkin musiqi bacarığının əmələ gəlməsi;**

Məktəbyaşlı uşaqlarda proses bir qədər mürəkkəbləşir. Belə ki,artıq onlar ardıcıl surətdə təlim almağa başlayırlar. Bu yaş dövründə uşaqlarda mexaniki hafizə daha güclü olur. Məsələn, irihəcmli bir mətni əzbər söylədikləri halda, onu öz sözləri ilə deməkdə çətinlik çəkirlər. Uşaqların musiqi qabiliyyətinin hərtərəfli inkişafı təlim prosesinin başlanması ilə sürətlə inki-

şaf edir. **Qabiliyyətlər-bilik, bacarıq və bacarıqların mənimsənilməsini,habelə müxtəlif fəaliyyət növlərinin uğurunu müəyyən edən fərdi xüsusiyyətlərdir.** Uşaqda aşkarlanan musiqi qabiliyyətləri uşağın musiqiçi olacağına zəmanət vermir. Bir çox qabiliyyətlər orqanizmin spesifik xüsusiyyətlərini tələb edən fəaliyyətlərlə əlaqələndirilir.

Şagirdlərin musiqi mədəniyyətinin tərbiyəsi onların musiqi qabiliyyətlərinin inkişafı ilə eyni vaxtda baş verir.Xüsusi qabiliyyətlərin ətraflı təsviri A.G.Şapova məxsusdur:

**- musiqinin məzmununu yaşamaq bacarığı;**
**- musiqi üçün qulaq və ritm hissi;**
**- musiqiçinin - ifaçının xatirəsi;**
**- motor və texniki qabiliyyətlər;**
**- oyuna nəzarət etmək bacarığı.**

Alekseyev xüsusi qabiliyyətlərin mürəkkəb kompleksində üç böyük bloku ayırır:

**- ümumi bədii qabiliyyət;**
**- ümumi musiqi qabiliyyətləri (musiqi qabiliyyəti, musiqi və ritm üçün qulaq, musiqi yaddaşı);**
**- xüsusi fortepiano bacarıqları.**

Bu triada yalnız funksional olaraq vahid ola bilər. Aparıcı amil şəxsiyyətin bədii oriyentasiyasıdır.Musiqi təxəyyülü musiqi təsvirləri ilə işləyir. Musiqi obrazları varlıq tərzinə və xarakterinə görə bölünür:

**- ardıcıl - daxili eşitmə qabiliyyəti hesabına sabitlənmiş xüsusi həssas mövcudluq yolu;**

**- Sinxron - vizual ifadələr, musiqi məzmununu əks etdirən tamaşalar.**Sinxron və ardıcıl obrazlar bir-birindən ayrı mövcud deyil,ayrılmaz bütövlük təşkil edir. Musiqi obrazlarının yaranması və sabitləşməsi üçün,xüsusi hiss təəssüratlarının toplanması tələb olunur. Emosional-obrazlı və məntiqi təzahürlərin nisbəti musiqi təxəyyülünün xarakterik xüsusiyyətidir. Musiqi təxəyyülü proseslərinin öyrənilməsinin vacibliyi bəstəkarların öz təcrübələrində istifadə etdikləri bədii obrazların qurulması üsullarını nəzərdən keçirmək zərurətinə səbəb olur. Musiqi təxəyyülü proseslərinin öyrənilməsinin vacibliyi bəstəkarların öz təcrübələrində istifadə etdikləri bədii obrazların qurulması üsullarını nəzərdən keçirmək zərurətinə səbəb olur.

### Ədəbiyyat:

1. Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası, Bakı-2010
2.Qədimova J. Musiqinin tədrisi metodikası, Bakı-2007
3.Məmmədova İ. Musiqi pedaqogikası. Bakı-2009
4.Vəliyev M. İnkişaf və yaş psixologiyası, Bakı-2015
5.Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın əsasları, Bakı-2003
6.Çələbiyev N. Uşaq psixologiyası, Bakı-2005

## DEVİANT DAVRANIŞ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

**Babayeva Gülay Telman qızı**
**AzərbaycanDövlətPedaqojiUniversiteti**
*zekeriyyeyevagulay@gmail.com*

Deviant davranış cəmiyyətin hökm sürən normalarına zidd olan hər hansı bir davranışdır. Bioloji, sosioloji və psixoloji izahatlar da daxil olmaqla, deviant davranışa səbəb olan bir çox fərqli səbəblər var. Deviant davranışın sosioloji izahatları sosial strukturların, qüvvələrin və münasibətlərin qidalanmaya, fiziki və bioloji fərqlərin izahatlarına və onların necə ola biləcəyinə necə yönəldiyinə diqqət yetirsə də, psixoloji şərhlər fərqli yanaşma tələb edir.

Bütün bunlara psixoloji yanaşmaların bir sıra ümumi əsasları var. Birincisi, fərd analitikin əsas vahididir. Bu o deməkdir ki, psixoloqlar yalnız cinayətkar və ya deviant insan davranışlarına görə məsuliyyət daşıyırlar. İkincisi, insanın şəxsiyyəti insanlarda davranışı idarə edən əsas motivasiya elementidir. Üçüncüsü, cinayətkarlar və deviantlar şəxsiyyət qüsurlarından əziyyət çəkirlər, yəni cinayətlər şəxsin şəxsiyyətində anormal, funksional və ya qeyri-adekvat psixi proseslər nəticəsində baş verir. Nəhayət, bu qüsurlu və ya anormal psixi proseslər xəstənin psixikası, uyğun olmayan təlim, düzgün olmayan modellərin olmaması modellərinin gücü və təsiri də daxil olmaqla bir çox şeyi əhatə edə bilər .

Bu əsas fərziyyələrə əsaslanaraq, deviant davranış üçün psixoloji izahatlar əsasən üç nəzəriyyədən irəli gəlir: psixoanalitik nəzəriyyə, koqnitiv inkişaf nəzəriyyəsi və öyrənmə nəzəriyyəsi.

Ziqmund Freyd tərəfindən hazırlanmış psixoanalitik nəzəriyyə bütün insanların təbii və şüurlu şəkildə çətinlikləri yatırdığını iddia edir. Bundan əlavə, bütün insanların cinayətə meyilləri var. Lakin bu meyllər sosiallaşma prosesi ilə məhdudlaşır. Ola bilsin ki, sosial cəhətdən qeyri-adekvat uşaqda xaricdən antisosial impulsları yönləndirməyə səbəb olan şəxsiyyət pozğunluğu yarana bilər.

Koqnitiv inkişaf nəzəriyyəsinə görə, cinayətkar və deviant davranış insanların öz əxlaqı və qanunları ilə düşüncələrini təşkil etmə tərzindən qaynaqlanır. İnkişaf psixoloqu Lawrence Kohlberg deyir ki, mənəvi əsaslandırmanın üç səviyyəsi var. İlkin mərhələdə mənəvi əsaslandırma itaət və cəzadan yayınmağa əsaslanır. İkinci səviyyə normal səviyyə adlanır və orta uşaqlığın sonunda əldə edilir. Bu mərhələdə mənəvi əsaslandırma uşağın ailə və digər vacib insanlar üçün olacağı gözləntisinə əsaslanır. Mənəvi əsaslandırmanın üçüncü səviyyəsi erkən yetkinlik dövründə insanı sosial konvensiyalardan kənara çıxara bilən post-konvensional səviyyəyə çatır. Yəni sosial sistemin qanunlarına qiymət verirlər. Bu mərhələlərdə inkişaf etməyən insanlar mənəvi inkişafda əzilir və zamanla azğın və ya cinayətkar ola bilərlər .

Deviant davranış nəyi, necə öyrənir? Öyrənmə nəzəriyyəsi, insan davranışının nəticələrini öyrəndiyini güman edən davranış psixologiyasının prinsiplərinə əsaslanır. Beləliklə, insanlar başqa insanları müşahidə edərək, onların davranış və rəftarlarının mükafat və ya nəticələrinin şahidi olmaqla, deviant və cinayətkar davranışları öyrənirlər. Məsələn, dostunun əşyasını müşahidə edən və yaxalanmayan şəxs, yoldaşının etdiyi hərəkətə görə cəzalandırılmadığını və oğurlanmış əşyanı ələ keçirdiyi üçün mükafat aldığını görür. Əgər həmin şəxs eyni nəticə ilə mükafatlandırılacağına inanırsa, alış-veriş etmək ehtimalı daha yüksəkdir.

Hər bir cəmiyyət özünün sosial normalarına malikdir və müəyyən qaydaları var. Bu normalara riayət edilməməsi də deviant davranış adlanır sosiallaşmadan uzaq düşmə kimi hesab olunur. Deviant davranış qanun və cəmiyyətdə üstünlük təşkil edən standartları pozur. Lakin kənarda, kütləvi insan fəaliyyətinin bütün formaları ifadə tapır və davranış müəyyən edilmiş qaydalara uyğun olmayan bir sosial fenomen hesab olunur.

## TƏHSİL SİSTEMİNİN İDARƏEDİLMƏSİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ

**Mirzəyeva Leyla Fizuli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*lmirzayeva11@gmail.com*

Beynəlxalq Təhsil Texnologiyaları Cəmiyyətinin (International Society for Technology in Education - ISTE) məlumatına görə, bugünkü yüksək tələbatlı iş yerlərinin çoxu son on ildə yaradılıb. Texnologiyada irəliləyişlər qloballaşma və rəqəmsal transformasiyanı sürətləndirdiyinə görə müəllimlər də tələbələrə gələcək karyeralarında uğur qazanmaq üçün lazımi bacarıqları əldə etməyə kömək edə bilər.

Texnologiya təhsildə nə dərəcədə vacibdir? İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafının ən böyük töhfə verdiyi sahələrdən biri də təhsildir. Təhsildə yeni texnologiyanın tətbiqi həm tədris prosesinin keyfiyyətini yüksəldir, həm də gənc nəslə İKT-nin mənimsənilməsi üçün şərait yaradır. COVID-19 pandemiyası onlayn təhsilin niyə tədris və öyrənmənin vacib hissəsi olması lazım olduğunu tez bir zamanda nümayiş etdirdi. Texnologiyanı mövcud kurikulumlara inteqrasiya etməklə, ondan yalnız böhranın idarə edilməsi vasitəsi kimi istifadə etmək əvəzinə, müəllimlər onlayn öyrənməni güclü təhsil vasitəsi kimi istifadə edə bilərlər.

Siniflərdə rəqəmsal öyrənmə vasitələrindən səmərəli istifadə şagirdin fəallığını artıra, müəllimlərə dərs planlarını təkmilləşdirməyə kömək edə və fərdiləşdirilmiş öyrənməni asanlaşdıra bilər. O, həmçinin tələbələrə 21-ci əsrin əsas bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Virtual sinif otaqları, video, robotlar və digər texnoloji alətlər nəinki dərsi daha canlı edə bilər, həm də əməkdaşlığa və maraqlanmağa kömək edən və müəllimlərə şagird performansı haqqında məlumat toplamaq imkanı verən daha inklüziv öyrənmə mühitləri yarada bilər.

Yenə də qeyd etmək lazımdır ki, texnologiya təhsildə istifadə olunan bir vasitədir və özlüyündə son deyil. Təhsil texnologiyasının vədi, pedaqoqların onunla nə etdiyi və tələbələrinin ehtiyaclarını ən yaxşı şəkildə dəstəkləmək üçün necə istifadə edildiyidir.

Hesablamalara görə, müəllimlərin 92 faizi texnologiyanın təhsilə təsirini başa düşür. Mənbələrə əsasən, orta məktəb şagirdlərinin 59 faizi rəqəmsal təhsil vasitələrinin onlara qiymətləri və test balları ilə bağlı kömək etdiyini deyir. Texnoloji vasitələr o qədər populyarlaşıb ki, Dünya İqtisadi Forumunun məlumatına görə, təhsil texnologiyaları bazarının 2025-ci ilə qədər 342 milyard dollara qədər genişlənəcəyi proqnozlaşdırılır.

Pedaqoqlar onlayn təhsil məzmununu inkişaf etdirməyi və onları nəzərə almağı bacarmalıdır, xüsusən də tələbələri mövzuya müxtəlif perspektivlərdən baxmağa təşviq etməlidirlər. Lakin bəzi narahatlıqlar var, məsələn, hər məktəb rayonunda şagirdləri noutbukla təmin etmək üçün resurslar yoxdur və evlərdə internet bağlantısı etibarsız ola bilər. Bununla bağlı olaraq, bəzi tələbələr onlayn təhsil şəraitlərində uğur qazansalar da, bəziləri yaranan problemlərə görə geri qalırlar.

Çətinliklərə və narahatlıqlara baxmayaraq, təhsildə texnologiyanın üstünlüklərini, o cümlədən əməkdaşlığın və kommunikasiyanın artması, təhsilin keyfiyyətinin yüksəldilməsi və tələbələrdə təxəyyül və bilik axtarışına kömək edən nüansları qeyd etmək vacibdir.

Müəllimlər şagird performansını artırmaq istəyirlər və texnologiya onlara bu məqsədə çatmaqda kömək edə bilər. Texnologiya tələbələrə asan əldə edilən məlumatlar, sürətləndirilmiş öyrənmə və öyrəndiklərini praktikada tətbiq etmək üçün əyləncəli imkanlar təqdim edir. Bu, tələbələrə yeni mövzuları kəşf etməyə və çətin anlayışları dərk etməyə imkan verir. Texnologiyanın sinif daxilində və xaricində istifadəsi sayəsində tələbələr gələcək peşələr üçün zəruri olan 21-ci əsrin texniki bacarıqlarını əldə edə bilərlər.

Yenə də uşaqlar istiqamətləndirmə ilə daha effektiv öyrənirlər. Dünya İqtisadi Forumu bildirir ki, texnologiya gənc tələbələrə oyun vasitəsilə öyrənməyə və bilik əldə etməyə kömək edə bilsə də, sübutlar göstərir ki, öyrənmə böyüklərin, məsələn, müəllimin rəhbərliyi ilə daha təsirli olur.

Aşağıda texnologiyanın təhsildə nə qədər vacib olduğuna və onun tələbələr və müəllimlərə verdiyi üstünlüklərə dair nümunələr verilmişdir.

Təhsil texnologiyaları əməkdaşlığı inkişaf etdirə bilər. Müəllimlər təkcə dərs zamanı tələbələrlə deyil, həm də tələbələr bir-biri ilə ünsiyyət qura bilirlər. Onlayn dərslər və öyrənmə oyunları vasitəsilə tələbələr problemləri həll etmək üçün birlikdə işləyirlər. Birgə fəaliyyətlərdə tələbələr öz fikir və ideyalarını paylaşa və bir-birlərinə dəstək ola bilərlər. Eyni zamanda, texnologiya müəllimlərlə təkbətək qarşılıqlı əlaqə yaratmağa imkan verir. Tələbələr siniflə bağlı suallar verə və başa düşülməsi çətin olan mövzularda əlavə yardım istəyə bilərlər. Evdə tələbələr ev tapşırıqlarını yükləyə, müəllimlər isə noutbuklarından istifadə edərək tamam-

lanmış tapşırıqlara daxil ola və baxa bilərlər. Texnologiya təhsil resurslarına 24/7 çıxış imkanı verir. Dərslər noutbuk və ya mobil cihaz vasitəsilə tamamilə onlayn keçirilə bilər. Əlavə bir üstünlük, tələbələrin öz sürətlərində öyrənə bilmələridir. Əsas anlayışları daha yaxşı başa düşmək üçün sinif materialını nəzərdən keçirmək lazım olduqda, tələbələr dərs planında videoları nəzərdən keçirə bilərlər. Bu onlayn fəaliyyətlər vasitəsilə əldə edilən məlumatlar müəllimlərə hansı tələbələrin müəyyən fənlər üzrə mübarizə apardığını görməyə və əlavə yardım və dəstək təklif etməyə imkan verir. Müəllimlər yeni məhsuldarlıq səviyyələrinə nail olmaq üçün texnologiyadan istifadə edə, tələbələrin öyrənmə imkanlarını genişləndirmək üçün faydalı rəqəmsal alətləri tətbiq edə, tələbə dəstəyini və fəallığını artıra bilərlər. O, həmçinin müəllimlərə öz təlim metodlarını təkmilləşdirməyə və öyrənməni fərdiləşdirməyə imkan verir. Məktəblər fiziki təlimat materiallarının xərclərini azaltmaqla, təhsil proqramının səmərəliliyini artırmaqla və müəllim vaxtından ən yaxşı şəkildə istifadə etməklə texnologiyadan faydalana bilər.

Belə müşahidə edirik ki, texnologiyaların tətbiqi təhsil üçün faydalı və səmərəlidir. Bu həm müəllimlər, həm də tələbələr üçün əlverişlidir. Ən əsası da, təhsilin inkişafı üçün təhsildə, təhsilin idarə edilməsində texnologiyalardan istifadə mütləqdir, bu dövrün tələbidir. Dövrün tələbinə uyğun olaraq, dövr dəyişdikcə, inkişaf etdikcə, texnologiyada da inkişaf edir, yeni avadanlıqlar, müasirləşmə gedir. Buna görə də, təhsildə müasir texnologiyalardan istifadə dövrün tələbinə görədir.

## İNKLÜZİV TƏHSİLİN İNKİŞAFINDA SOSİAL-HÜQUQİ MƏRHƏLƏ

**Hüseynova Leylan Rakif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leylan.huseynova@gmail.com*

İnklüziv təhsil uşaqlara qarşı hər hansı ayrı-seçkiliyi istisna edən, bütün insanlara bərabər münasibəti təmin edən, lakin bütün insanlara münasibət yaradan ideologiyaya əsaslanır(xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün). İnklüziv təhsil bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşma baxımından hamı üçün təhsilin mövcudluğunu nəzərdə tutan, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən ümumi təhsilin inkişafı prosesidir.

İnklüziv təhsil kontekstində bütün uşaqlar unikaldır, inkişaf və həmçinin öyrənmə xüsusiyyətlərinə malikdirlər. İnklüziv təhsil bütün uşaqların təhsil ehtiyaclarını müəyyən etməyə və ödəməyə hazır olmalıdır. Sağlamlıq imkanları məhdud vətəndaşların təhsil hüquqlarını reallaşdırmaq və sosial mühitə inteqrasiya etmək məqsədilə Təhsil Nazirliyi təhsilin inklüzivləşdirilməsi məqsədilə təhsil sistemində islahatlar aparır. İnklüziv təhsil təhsil sistemindən pedaqoji və psixoloji sahələrdə yüksək səriştəyə malik olmasını tələb edir ki, bu da son nəticədə məktəbdə təhsilin özünün keyfiyyətini artırır.

İnklüziv təhsilin hədəf qrupu təkcə sağlamlıq imkanları məhdud olan uşaqlar deyil. O, təhsil-təlim prosesində iştirak edən hər bir uşağın maraqlarını və təhsil ehtiyaclarını nəzərə alır. Eyni zamanda, inklüziv təhsil akademik biliklərlə yanaşı, sosial səriştənin artırılmasına və uşaqlara həyati bacarıqların öyrədilməsində də böyük rol oynayır. İnklüziv siniflərdə təlim prosesi fərdiləşdirilir və hər bir uşağın ehtiyacları təmin edilir.

İnklüziv təhsili həyata keçirmək üçün dəyişməli olan ilk şey uşaqları tipik uşaqlara və sağlamlıq imkanları məhdud uşaqlara bölməməkdir.İnklüziv təhsilin əsasını uşaqlara qarşı hər hansı ayrı-seçkiliyi istisna edən və bütün insanlara bərabər münasibəti təmin edən, eyni zamanda xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün lazımi şərait yaradan ideologiya təşkil edir. Yəni, bütün uşaqlar intellektual, fiziki və eləcə də digər xüsusiyyətlərinə baxmayaraq ümumi təhsil sisteminə daxil edilsinlər.Təhsil sistemində islahatların aparılması üçün Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə

təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" həyata keçirilir. Burada inklüziv təhsilin inkişafı prioritet istiqamətlərdən biri kimi qeyd olunub.

2015-ci il martın 18-də təhsil naziri Azərbaycanda ibtidai təhsil səviyyəsində inklüziv təhsilin tətbiqinə yönəlmiş Təhsil Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNİCEF) birgə layihəsini təsdiqləyib.29 mart 2015-ci il tarixdə təhsil naziri tərəfindən "Azərbaycan Respublikasında təhsilin inkişafı Strategiyasının icrası çərçivəsində illik tədbirlər planı" təsdiq edilmiş və bu planda da nazirliyin prioritet istiqamətləri və mərhələli tədbirlər öz əksini tapmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 18 yaşınadək 72 979 nəfər əlil yaşayır, onlardan 5 422 nəfəri xüsusi məktəb və internat məktəblərində təhsil alır. Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı Uşaq Fondunun (UNICEF) hesablamalarına görə, Azərbaycanda qeydiyyatda olan sağlamlıq imkanları məhdud uşaqların ümumi sayından 54 mini məktəb yaşındadır. Bu, sağlamlıq imkanları məhdud uşaqların ümumi sayının 20 faizini təşkil edir və onların əksəriyyəti ixtisaslaşdırılmış internat məktəblərində təhsil alır. Buna baxmayaraq, bütün sivil dünyada əlil uşaqlar çoxdan ümumtəhsil məktəblərində oxuyur, sonra isə ümumi şərtlərlə universitetlərə daxil olurlar.

Dünya ictimaiyyəti hesab edir ki, əlilliyi olan insanlar bütün digər vətəndaşlarla eyni hüquqlara malikdirlər və bu hüquqlardan istifadə etmək üçün onlara bərabər imkanlar yaradılmalıdır. Bu gün dövlətin və cəmiyyətin vəzifəsi ondan ibarətdir ki, sağlamlıq imkanlarından asılı olmayaraq bütün uşaqlar təhsil alsınlar və mümkün qədər həyatı dolğun yaşasınlar. İnklüziv təhsil sistemi əlilliyi olan uşaqların təhsil hüquqlarını tam şəkildə həyata keçirməyə imkan verir.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏ FOLKLOR NÜMUNƏLƏRİNDƏN İSTİFADƏ

**Cümşüdova Nərmin Qalib qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ncumshudova@mail.ru*

***Açar sözlər:*** *məktəbəqədər, uşaq, tərbiyə, folklor*
***Ключевые слова:****дошкольное,ребенок,воспитание, фольклор*
***Key words:*** *preschool, child, upbringing, folklore*

### Xülasə

Tezisdə qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqların əxlaqi tərbiyəsi aktual və mühüm problemdir. Şəxsiyyətin inkişafında əsas şərtlərdən biri əxlaq tərbiyəsinin ahəngdarlığı və xalq pedaqogikası ilə ayrılmaz əlaqəsidir.

## ИСПОЛЬЗОВАНИЕ АЗЕРБАЙДЖАНСКИХ ФОЛЬКЛОРНЫХ ОБРАЦОВ В НРАСТВЕННОМ ВОСПИТАНИИ ДОШКОЛЬНИКОВ

### Резюме

В статье говорится о том что, нравственное воспитание детей дошкольного возроста является актуальной и важной проблемой. Одно из главным условием в развитии личности является гармония нравственного воспитания и его не разрывная связь с народной педагогикой.

## PRE-SCHOOL ADULT AZERBAIJAN USAGE IN THE SPIRITUAL UPBRINGING OF THE CHILDREN FROM FOLKLORE EXAMPLES

### Summary

It is marked in the article that pre-school adult harmony organize his people pedagogy spiritual upbringing problems of the children with examples from the most necessary problems of the development as very urgent , ripe man today.

Bu gün gənc nəslin mənəvi tərbiyəsində milli-mənəvi dəyərlərimiz misilsiz xəzinədir. Tərbiyə prosesində onlardan istifadə, müstəqil və suveren dövlətimizin gələcək vətəndaşlarının öz xalqına, dövlətinə, soykökünə bağlı şəxslər kimi formalaşmasında mühüm rol oynayır.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir.

Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz.Yenə də deyirəm, hər xalqın özünə, öz tarixinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mənəvi səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik" (1).

Bu proqram xarakterli bəyanat gənc nəslin tərbiyəsi ilə bağlı bütün sosial institutların, o cümlədən məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoqların qarşısında daha ciddi, şərəfli və məsuliyyətli vəzifələr qoymuşdur.

Şifahi xalq ədəbiyyatının elə bir nümunəsi tapılmaz ki, orada uşaqların, ümumiyyətlə insanların mənəviyyatına, əxlaqına, ağlına, zəkasına aid fikirlər söylənilməsin. Şifahi xalq ədəbiyyatı nümunələrində Azərbaycan ictimai-siyasi, fəlsəfi, pedaqoji fikri aydın surətdə özünü göstərir.

Folklor nümunələrində Azərbaycan xalqının milli ləyaqəti, vətənpərvərliyi, qorxmazlığı, özünəhörməti, qəhrəmanlığı və digər milli-mənəvi dəyərləri toplanmışdır.

Müasir dövrdə məktəbəqədər yaş dövründən başlayaraq uşaq və yeniyetmələri, gənclərimizi milli ruhda böyüdüb, onları həyata əsl azərbaycanlı kimi hazırlamaq üçün onları bu mənəvi dəyərlərlə silahlandırmaq lazımdır.

Təsadüfi deyil ki, Azərbaycan xalq ədəbiyyatında, atalar sözü və məsəllərdə "mən" və "haqq" insan və vicdan, ağıl və şəxsiyyət anlayışları bir-birindən ayrılmır. İnsanilik hər şeydən ucadır.Azərbaycan şifahi xalq yaradıcılığının insan və şəxsiyyətə məxsus bu və ya başqa keyfiyyətləri həmişə ön planda verilir. İnsanın mənəvi psixoloji dəyərləri göstərilir və hamı bu dəyərlər uğrunda mübarizə aparmağa səfərbər olunur.

Zəhmətkeş xalq tərbiyə işini lap ilk anlardan, yəni uşağın beləkdə olduğu vaxtlardan başlamağı vacib bilmişdir: "Qırxında öyrənən gorunda çalar" ,yaxud "Qocanı öldürmək olar, öyrətmək olmaz" və s. Odur ki, xalq obrazlı şəkildə deyir: "Uşağı beləkdə, küçüyü dəlməkdə". Başqa bir atlar sözündə deyilir: "Ağac yaş ikən əyilər". Bu atalar sözünün məzmunu pedaqoq-müəllim M.T.Sidqinin sözlərindən daha geniş şəkildə şərh olunur: "Uşaqlar yaş ağaca bənzər, yaş ağac hər nə qədər əyri olsa, düzəltmək asandır və insanın da kiçiklikdən tərbiyə qəbul etməsi vacib mətləblərdəndir"(2, s.39).

Ümumən, xalqa görə uşaq erkən vaxtlarından elə tərbiyə edilməlidir ki, cavanlıqda başqalarına, ehtiyacı olanlara kömək əli uzada bilsin, cavanlıqda da elə formalaşmalıdır ki, yaşa dolduqda ağıllı söz-söhbəti və məsləhətilə başqalarına hikmət öyrədə bilsin.

Tərbiyənin ayrı-ayrı məsələlərinə dair xalqın fikri, mülahizələri xalq yaradıcılığı olan folklorumuzda-nağıl və dastanlarda, bayatı və laylalarda, atlar sözü və məsəllərdə kifayət qədərdir. Başlıca məsələ onlardan səmərəli, düzgün və müntəzəm şəkildə istifadə etməkdir. Bunsuz nə milli, nə də ümumbəşəri dəyərlərə yiyələnmək çətindir.

Təkcə atalar sözləri, zərb məsəllər, bayatılar, laylalar, nağıllar, dastanlar və bu kimi xalq yaradıcılığı nümunələri deyil, xalqımızın min illər boyu yaratdığı və yaşatdığı mərasimlər, adət-ənənələr, bayramlar da uşaqların mənəvi tərbiyələrində zəngin xəzinədir. Azərbaycan folklorunun elə bir janrı yoxdur ki, orada gənc nəslin mənəvi tərbiyəsinə xüsusi yer verilməsin. Bayatılarda, atalar sözü və məsəllərdə, nağıl və dastanlarımızda, ümumiyyətlə folklorumuzun bütün lirik və epik növlərində tərbiyə mövzusu yüksək sənətkarlıq, xüsusi qayğı və

məhəbbətlə işlənmişdir. Lakin Azərbaycan şifahi xalq ədəbiyyatında sırf uşaqlara aid olan əsərlər də çoxdur.Onların böyük bir hissəsi azyaşlı uşaqlara həsr olunmuşdur.


**Ədəbiyyat:**

1. Heydər Əliyev. Milli-mənəvi dəyərlərimizi qoruyaq/İctimai-siyasi, sosial qəzei.14 avqust 2001-ci il.
2. Mollayev İ.A. Məhəmməd Tağı Sidqinin pedaqoji görüşləri. Bakı:Maarif, 1996
3. Əliyev R.Xalq müdrikliyi. Bakı,1986
4. Ş.Əliyeva. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində milli qaynaqlardan istifadə. Bakı, 2008.


## COĞRAFİYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN KARTOQRAFİK VASİTƏLƏR ÜZƏRİNDƏ İŞİNİN TƏŞKİLİ METODİKASI


**İsgəndərli Aytac Kamal qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Elmi rəhbər: Dadaş Ələsgərov**



***Açar sözlər:*** *kartoqrafik vasitələr, coğrafiya, öyrənmə, sinif, coğrafi xəritə*

***Ключевые слова:*** *картографический инструментарий, география, обучение, класс, географическая карта*

***Key words****: cartographic tools, geography, learning, class, geographical map*



**Xülasə**

Kartoqrafiya işləri nəticəsində xəritələr, planlar, vahid elektron kartoqrafiya bazası və digər kartoqrafiya materialları yaradılır. Bütün coğrafi xəritələr müəyyən kartoqrafik proyeksiyalarda hazırlanır.

**Резюме**

В результате картографических работ создаются карты, планы, единая электронная картографическая база данных и другие картографические материалы. Все географические карты выполнены в определенных картографических проекöиях.

**Summary**

As a result of cartographic work, maps, plans, a single electronic cartographic database and other cartographic materials are created. All geographical maps are made in certain cartographic projections.


**Giriş.** Bu gün coğrafiyanın öyrənilməsini kartoqrafik məlumatlardan istifadə etmədən təsəvvür etmək mümkün deyil. Xəritə təkcə yer səthinin müstəvidə tanış təsviri deyil, həm də hazırda informasiya texnologiyalarının işığında müəyyən informasiya və tədris məhsulu kimi təqdim oluna bilən məlumat mənbəyi hesab olunur.

L.S.Berqin "Xəritə coğrafiyanın alfa və omeqasıdır" ifadəsi sarsılmaz olaraq qalır. Xəritə xarici dünya ilə əlaqəni vizual, zehni olaraq hiss etməyə imkan verən əsas bilik mənbəyidir. Müasir insan coğrafi xəritələrdən kitablar və ya kompüter kimi vərdişlə və sərbəst şəkildə istifadə etməyi bacarmalıdır. Şagirdlərin xəritəyə marağını bir neçə faktorla izah etmək olar:

- tələbələrin səyahət etmək bacarığı (valideynlər və qruplarla),
- məktəb coğrafiyasının praktiki yönümlü olması;
- kitab oxumağa marağın ümumi azalması (xəritə kitabsız ərazinin görüntüsünü yaratmağa imkan verir).

Coğrafiya dərslərində əsas tədris vasitələrindən biri xəritə - elmin əsası, onun ikinci dilidir. Məktəb coğrafiyasında xəritənin rolu çox böyükdür, həm tədris, həm də tərbiyəvi funk-

siyaları yerinə yetirir. Şagirdlər ilk dəfə ibtidai siniflərdə xəritə ilə tanış olur və bütün təhsil illəri boyu onunla işləməyə davam edirlər. Şagird xəritənin məzmununun xüsusiyyətlərini hərtərəfli öyrənərək ondan bilik əldə etmək mənbəyi kimi istifadə edə bilər.

**Coğrafi təhsilin məqsədi kimi kartoqrafiya**

Coğrafi təhsilin məqsədlərindən biri də müasir tələbənin kartoqrafik savadının formalaşdırılmasıdır ki, onu mərhələlərə bölmək olar.

1. **5-6-cı siniflər:**

- ümumi coğrafi xəritələri tematik xəritələrdən fərqləndirməyi öyrətmək;
- xəritənin riyazi aparatından istifadə bacarıq və bacarıqlarını formalaşdırmaq (məsafələri, istiqamətləri, coğrafi koordinatları müəyyən etmək);
- xəritənin əfsanəsindən istifadə etməyi öyrətmək (şərti işarələr, hündürlük və dərinliklərin miqyası);
- proqramla müəyyən edilmiş coğrafi obyektlərin nomenklaturasına dair bilikləri möhkəmləndirmək, onları müxtəlif miqyaslı xəritələrdə tez tapmaq bacarığı.

2. **7-8-ci siniflər**

- xəritələri miqyasına, ərazisinin əhatə dairəsinə, məzmununa görə təsnif etməyi öyrətmək;
- müxtəlif məzmunlu və miqyaslı xəritələri müqayisə etmək və təhlil etmək bacarığını formalaşdırmaq;
- coğrafi xəritələrə əsasən ayrı-ayrı coğrafi obyektlərin və ərazilərin qısa fiziki-coğrafi xarakteristikalarını verməyi öyrətmək;
- kontur xəritələri əsasında sadə xəritələr və kartoqramlar hazırlamaq.

3. **9-10-cu siniflər**

- xəritələrin təhlili, müqayisəsi, qrafiklərin, diaqramların, kartoqramların və xəritələrin tərtib edilməsi bacarıq və bacarıqlarını genişləndirmək və dərinləşdirmək;
- kartoqrafik materiallarda olan məlumatlara əsasən obyektlərin, ərazilərin, ölkələrin mürəkkəb fiziki və iqtisadi-coğrafi xüsusiyyətlərini tərtib etmək bacarığını formalaşdırmaq və möhkəmləndirmək;
- məktəb coğrafiyası kursunda öyrənilən bütün coğrafi obyektləri və əraziləri bilmək və xəritələrdə sərbəst tapmaq.

Kartoqrafiya savadının inkişafı prosesində coğrafi bilik mənbəyi kimi xəritədən "bilik – anlama – istifadə" halqələrindən ibarət zəncir kimi təlim prosesini təşkil etməyə imkan verən texnika və metodlara müraciət etmək lazımdır. Hər dərs kartoqrafik materiallardan (coğrafi atlaslar, divar və kontur xəritələri və s.) istifadə edilməklə keçməlidir.

**Kartoqrafiya bir elm kimi, coğrafi elmlər sistemində yeri.**

Coğrafiya elmləri sistemində kartoqrafiya xüsusi yer tutur. Bu, xəritələrin yaradılması və istifadə üsullarını öyrənən elmdir. O, həm fiziki, həm də iqtisadi coğrafiya ilə sıx bağlıdır. Kartoqrafiya üsullarından geologiya, okeanologiya, tarix və başqa elmlərdə geniş istifadə olunur. Bu gün kartoqrafik istehsalda kosmik fotoşəkillərdən, avtomatlaşdırmanın və kompüter texnologiyasının nailiyyətlərindən çoxlu materiallar istifadə olunur. Xəritələrin elmi tədqiqatlarda, xalq təsərrüfatında, hərbi işlərdə, nəqliyyatın inkişafında və bir çox başqa fəaliyyət sahələrində geniş tətbiqi bu elmi-texniki istiqaməti təsərrüfat fəaliyyətinin mühüm sahəsinə çevirir. Lakin əvvəlcə kartoqrafiya topoqrafiya və geodeziyanın inkişafına əsaslanırdı.

**8-9-cu siniflərdə kartoqrafik bacarıqlar**

Coğrafi təhsilin fəaliyyət xarakterini gücləndirmək məzmunun fəaliyyət komponenti kimi bacarıqların rolunun artmasına səbəb olmuşdur. Məktəb coğrafiyasında müstəsna mühüm rolu əhəmiyyəti daim artan kartoqrafik bacarıqlar oynayır. Coğrafi biliklərin güclü informasiya massivinin yığcam toplanması və onun obrazlı və əyani formada təqdim edilməsi vasitəsi kimi xəritə idrak və bacarıqların formalaşması üçün əvəzsiz vasitədir. Coğrafi təhsilin müasir

təcrübəsində onun ekolojiləşdirilməsi ilə bağlı olan ekoloji-coğrafi məzmun xəritəsindən istifadəyə rast gəlinir.

Kartoqrafiya bacarıqları və kontur xəritəsi ilə işləmək bacarıqları cədvəl şəklində təqdim edilə bilər.

| Sinif | Kartoqrafiya bacarıqları | Fəaliyyət növü | Nə formalaşır? |
|---|---|---|---|
| 6 | Kontur xəritəsində istiqamətləri, coğrafi koordinatları müəyyən etmək və təyin etmək bacarığı; Coğrafi obyektləri təyin edin (relyef, hidroqrafiya). | Coğrafi obyektlərin kontur xəritəsində rəsm çəkmək; coğrafi diktə; Rəqəmlərlə daimi kontur xəritələri ilə işləmək. | Obyektlərin yerləşdirilməsinin məkan təsvirlərinin qavranılması. |
| 7 | Coğrafi obyektləri təyin etmək, kontur xəritəsini xətti şərti işarələrlə (cərəyanlar, küləklər) doldurmaq üsulları ilə bağlı bacarıqların formalaşmasını davam etdirin. | Kontur xəritəsində dəstəkləyici qeydlər; coğrafi diktə; göstərici oxları; nömrələri olan daimi kontur xəritələri; kompozit kontur xəritələri. | Hadisələri xəritədə göstərməyin bir yolu. |
| 8 | Xəritələrin tərtibinin qəbulu, keyfiyyət fonu (təbii ərazilər) üsulu ilə xəritələrin tərtib edilməsi. | Əsas qeydlər; Suallarla kontur xəritələrinin fraqmentləri; Kompozit kontur xəritələri; Nömrələrlə daimi kontur xəritələri (bütün və seqmentlər). | Təbiət obyektlərinin yerləşdirilməsinin məkan təsvirinin və onların bir-biri ilə əlaqəsinin qavranılması. |
| 9 | Nişanlardan istifadə edərək xəritələr qurmağı bacarın. | Nişanlar; göstərici oxları; keyfiyyətli fon; hərəkət əlamətləri (nəqliyyat, bir-biri ilə əlaqə sahələri). | Obyektlərin yerləşdirilməsi haqqında fəza təsəvvürlərinin konsolidasiyası, belə yerləşdirmə prinsiplərinin izahı. |
| 10 | Kartoqramma və kartoqram hazırlamağı bacarın. | Kartoqrafiya praktiki və müstəqil iş. | Həm kartoqrafik, həm də coğrafi biliklərin əldə edilməsində çox yönlü bacarıqlar. Proses və hadisələrin inkişaf və yerləşdirilməsi qanunauyğunluqlarını izah etməyi bacarmalıdır. |

Hər sinifdə şagirdlərin hazırlıq səviyyəsindən asılı olaraq kontur xəritəsi ilə müxtə lif iş növləri tətbiq etmək olar. Kartoqrafiya materialı ilə işin əsası təhsilin aparıcı prinsiplərindən biridir: maraqlı olmalıdır. Maraq güclü hərəkətverici qüvvədir. Şagirdlər maraqlanırsa, tapşırığı yerinə yetirmək üçün şüurlu şəkildə səylərini göstərirlər. Əyləncəli suallar, oyunlar, tapşırıqlar coğrafi xəritə haqqında biliklərin formalaşmasına kömək edir.

***Nəticə***

Kartoqrafiyanın predmetini və metodunu müxtəlif cür şərh edən bir neçə nəzəri anlayış var. Elmi-koqnitiv və ya model-koqnitiv konsepsiya əsasən tədqiqat meylinə malikdir, kartoqrafik modelləşdirmə vasitəsilə geosistemlərin və onların komponentlərinin xəritələşdirilməsi və tədqiqi nəzəriyyəsi və metodlarının öyrənilməsinə yönəldilir və xəritənin özünü reallıq modeli hesab edir.

8 və 9-cu sinif coğrafiya dərsliklərində qeyd olunduğu kimi kartoqrafik simvollar yalnız xəritəçəkmə obyektləri haqqında müəyyən məlumatları çatdırmaq üçün deyil, həm də onların məkan yerini vizuallaşdırmaq üçün istifadə edilə bilən xüsusi bir dildir. Təsviri və ya riyazi kimi digər məlumat ötürmə vasitələri bunu idarə edə bilməz.

Alimlərin araşdırmasına görə, xəritə vərəqində 1:100.000 miqyasda təsvir olunan ərazini xarakterizə etmək üçün təxminən 200 min lazımdır. sözlər. Bu təsvir ən azı 400 səhifə çap olunmuş mətni götürəcəkdir.

Obyektlərin, hadisələrin və proseslərin ərazi bölgüsünün təsviri üçün kartoqrafik təsvir üsulları adlanan simvol sistemləri mövcuddur.

Xəritə coğrafiya dərslərində tədris vasitəsi kimi əsas bilik mənbəyi olub, var və olacaqdır. Lakin zaman keçdikcə kompüter texnoloqları həyatımıza getdikcə daha möhkəm inteqrasiya olunur. Təhsil də kənarda qalmamalıdır.

**Ədəbiyyat**


1. Галай И.П. Методика обучения географии - Минск: Аверсэв. 2006. 157 с.
2. Душина И.В. Методика преподавания географии - М., 1996. 192с.
3. Карплюк Л.В., Екеева Э.В. Методика преподавания географии: учебно-методический комплекс– Горно-Алтайск: РИО ГАГУ, 2010. 110 с.
4. Крылова О.В., Крылов А.И., Корниенко П.А. Методические рекомендаöии по работе с интерактивными наглядными пособиями по географии – М.: Дрофа. 2007. 150 с.
5. Методика обучения географии: учебник и практикум для академического бакалавриата / В.Д.Сухоруков, В.Г.Суслов. — М.: Юрайт. 2016. 359 с.


## AZƏRBYCANDA PEDAQOJİ KADRLARIN HAZIRLIĞI TARİXİNƏ NƏZƏR


**Səfərova Ceyran Arif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ceyran.neptun@gmail.com*


XIX əsrin sonlarından başlayaraq bu günə kimi pedaqoji kadrların hazırlanması məsələsi öz aktuallığını saxlamaqdadır. Bu dövlət səviyyəsində vacib məsələlərdən biridir. Tarixin müxtəlif dövrlərində bütün sosial quruluş sistemlərindəki əsaslı dəyişiklik qaçılmaz olaraq təhsil sisteminə yenidən baxılmasını tələb etmişdir. Beləliklə, ötən əsrin ortalarından etibarən bütün təhsil sahəsinin modernləşdirilməsi tələb olunanda, ölkəmiz də eyni problemlə üzləşdi.

Pedaqoji kadrların hazırlanması, dövlətin təhsildə rolu və funksiyaları dövlətin tarixi inkişafının gedişatına öz təsirini göstərir. Hazırda təhsilin müasirləşdirilməsi dövründə müəllim hazırlığı sisteminin idarə edilməsi və inkişafının, ali təhsilin fəaliyyətinin tarixi təcrübəsinin öyrənilməsi onun strukturunun inkişafı, pedaqoji, elmi- tədqiqat fəaliyyətinin maliyyələşdirilməsi aktuallaşır. Pedaqoji kollektiv təhsilin əsasını təşkil edir. Pedaqoji kollektiv bir sıra mühüm funksiyaları yerinə yetirir. Onlara biliyin və mədəni dəyərlərin yayılması missiyası həvalə olunur, onlar yeni mütəxəssislərin şəxsiyyətlərini formalaşdırırlar.

XX əsrin əvvəllərindən etibarən dövlətin və onun orqanlarının fəaliyyətində xüsusi pedaqoji təhsilli mütəxəssislərin məqsədyönlü hazırlanması, müəllimlərin təhsil səviyyəsinin yüksəldilməsi işinə xüsusi diqqət yetirilməyə başlandı. Bununla paralel olaraq əhali arasında savadsızlığın aradan qaldırılması, müəllimlərin və geniş kütlələrin ideoloji tərbiyəsi, xalq maarif sisteminin bütün sahələrində politexnikanın gücləndirilməsi istiqamətində işlər aparılırdı.

19-ci əsrin sonlarında Azərbaycanda müəllim hazırlığı üçün xüsusi təhsil müəssisələri yox idi. Bu funksiyanı başqa məqsədlər güdən təhsil müəssisələri yerinə yetirirdi.

XIX əsrin sonu XX əstin əvvəllərində - ibtidai dövlət məktəblərinin müəllimlərinin hazırlanması üçün cəmi 3-4 müəllim seminariyası fəaliyyət göstərirdi. Elə bu səbəbdən də bu sahədə bir sıra islahatların həyata keçirilməsinə başlanıldı.

İslahatdan sonrakı dövrdə ölkəmizdə artan ictimai-pedaqoji hərəkat şəraitində təhsilin demokratikləşdirilməsi problemləri, xalq üçün sinifsiz məktəblərin yaradılması, təhsilin yeni didaktik prinsiplər əsasında təşkili, o dövrün insan elmlərinin nailiyyətlərini nəzərə alaraq

aktuallaşdı. Eyni zamanda, təhsilə qoyulan yeni tələblərin həyata keçirilməsinin ən mühüm şərti müəllimlərin hazırlanması və daha da davamlı olaraq peşəkarlığının artırılması olmuşdur.

Bütün bu görülən işlərin nəticəsində 1921-ci ildə müəllimləri peşəkar təhsil alamsı üçün Ali Pedaqoji İnstitut yarandı. Yarandığı dövrdən bu günə kimi şərəfli tarix yolu keçmiş bu institut 2021-ci ildə yüz illik yubileyini qeyd etdi.

Müəllim hazırlığında pedaqoji nəzəriyyənin əhəmiyyəti pedaqoji dairələrdə şübhə doğurmurdu. Pedaqoji fənlərə aşağıdakılar daxildir: pedaqogika, pedaqogika tarixi, ümumi didaktika, psixologiya, tədris metodları, yaşa bağlı anatomiya və fiziologiya, antropologiya, məktəb gigiyenası və məktəb elmi. Nəzəri pedaqoji hazırlığın belə proqramı dərhal qəbul edilmədi, uzun müddət müzakirə edildi. Mübahisələrə və pedaqoji fənlərin təhsilin hansı mərhələsində - tələbənin tədrisi prosesində və ya ümumi təhsilini başa vurduqdan sonra tətbiq edilməsinin zəruriliyi sualına səbəb oldu.

Bəzi pedaqoqlar universitetin yalnız ümumi elmi hazırlığı təmin etmək üçün nəzərdə tutulduğu və müəllim namizədlərinin onun divarlarından kənarda xüsusi pedaqoji təhsil alması ilə bağlı ənənəvi fikrə sadiq qaldılar.

Yuxarıda qeyd edildiyi kimi, müzakirə iştirakçılarının əksəriyyəti universitetlə əlaqəli olan yuxarı struktur təhsil müəssisəsinin (institut, kurslar, müəllimlər seminariyası) yaradılmasını nəzərdə tutan kompromis təklif etdilər.

Eyni zamanda pedaqoji mətbuatda, müxtəlif iclaslarda, təhsil işçiləri komissiyalarında universitetlərin tarix-filologiya və fizika-riyaziyyat fakültələrinin strukturuna pedaqogika kafedrasının daxil edilməsi problemi müzakirə olunurdu.

Universitet fəaliyyət göstərdiyi bu uzun müddətdə ölkənin müxtəlif ərazilərində onlarla filiallarını açmış, bu filiallarda da neçə-neçə alimlər, ziyalılar, savadlı pedaqoqlar yetişdirmi°dir.

Düşünürəm ki, təhsil hər bir şəxs üçün həyati vacib amillərdən biridir. Çünki biz yalnız elm, bilik, təhsillə müəyyən bir mərtəbəyə çata bilərik. Bu yolda isə daim bizə dəstək olan təhsil işçilərinin rolu danılmazdır. dövlətimiz də daim təhsil işçilərinə, müəllimlərə xüsusi diqqət, qayğı göstərir.

Ümumilli lider Heydər Əliyevin də dediyi kimi "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq".

## ƏBU REYHAN BİRUNİNİN PEDAQOJİ FİKİRLƏRİ

**Xanverdiyeva Aytac Hüseynqulu qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aytac310399@gmail.com*

Bu gün bütün dünyada gənc nəslin mənəvi-əxlaqi tərbiyəsi problemi aktuallaşır. İnsanların, xüsusən də gənc nəslin mənəvi tərbiyəsi siyasi, dini və digər inanclarından asılı olmayaraq bütün dövlətlərin əsas vəzifəsinə çevrilməlidir.

Mənəviyyat insanın ən dəyərli əxlaqi keyfiyyətlərini - dürüstlüyü, iradəsini, empatiya və mərhəmət qabiliyyətini ifadə edən, ali məqsəd və vəzifə naminə hər cür çətinliyə qalib gəlməyə hazır olan məfhumdur. Mükəmməl şəxsiyyət yetişdirmək ideyası qədim ənənələrə malikdir. Əl Biruni, Əl Farabi, İbn Sina kimi böyük mütəfəkkirlərin əsərlərində öz əksini tapmışdır.

Əbu Reyhan Biruni böyük alim, Şərq mütəfəkkiri idi. O, 973-cü ildə Xarəzmin Kət şəhərində dünyaya gəlmişdir. Bir çox elm sahələrində dəyərli fikirləri olmuşdur. Biruni daha yaxşı araşdırma edə bilmək üçün müxtəlif dilləri dərindən öyrənmişdir. O, hər bir xalqa dinindən, milli mənsubiyyətindən asılı olmayaraq tolerant münasibət bəsləyirdi.

Pedaqogika elminə də həmçinin önəmli qatqıları olmuşdur. O, insanları xurafata inanmaqdan, cahil düşüncələrdən çəkindirməyə çalışırdı. O, hər bir məsələnin elmi açıqlaması ol-

duğuna inanırdı. Biruniyə görə elmin inkişafı üçün bir sıra məsələlərə diqqət yetirmək gərəkdir.

1. Fikir azadlığına üstünlük verilməlidir.
2. Elmi araşdırılmalarda düzgün seçilmiş metodlardan istifadə etməki gərəkdir.
3. Elm xurafatdan tamamilə uzaq olmalıdır.
4. Elmi inkişaf etdirmək üçün maddi, texniki və sosial baxımdan hər cür imkan yaradılmalıdır.
5. Elmlə məşğul olan insanlara və elmə hörmət göstərmək lazımdır.
6. Cəmiyyətin diqqətini elmə yönəltmək lazımdır.

Biruni, insanın öhdəsindən gəlməli olduğu pis vərdişləri, mənfi mənəvi-əxlaqi keyfiyyətləri ortaya qoyur. O, bütün bəşəriyyət üçün ən təhlükəli təhdidlərin cəmini qısa şəkildə ümumiləşdirir: "Zorakılıq, yalançı şahidlik, vəfasızlıq, saxta yolla müsadirə, oğurluq və dünyaya və bəşər övladına zərər vuran digər pisliklər".

Böyük alim, insanın başqalarının və bütün cəmiyyətin sahib olması gərəkən müsbət keyfiyyətləri, fəzilətləri haqqında öz baxışlarını ortaya qoyur. Biruninin xüsusilə bəyəndiyi əsas müsbət keyfiyyətlərdən biri də ədalət və həqiqətə can atmaqdır, çünki onlarsız başqa fəzilətləri formalaşdırmaq mümkün deyil. Yaradıcılığında digər məsələlər kimi cəmiyyətdə ədalətin önəmini də göstərir. Ədalətsiz cəmiyyətin elmin inkişafına maneə olduğuna inanırdı.

Əbu Reyhan Biruni insanın mahiyyəti, mənəvi-əxlaqi kamilliyinin bünövrəsi və zirvəsi olan ən yüksək mənəvi fəzilətlərdən biri olan elm istəyinə işarə edir.

Biruni, insanlara xeyirxahlığı, yardımsevərliyi, digər insanların problemlərinə həssaslıqla yanaşmağı, insanların hisslərini anlamaq üçün özünü onun yerinə qoya bilməyi gənc nəslə aşılamağa çalışırdı. Dostluğa çox böyük önəm verirdi. Onu insanın həyatına bəxş edilən hədiyyə adlandırırdı.

Biruninin fikrincə, elmi fikir və təhsildə sərbəstlik olmalı, rasional üsullardan istifadə edilməli, elmi araşdırmalar aparan insanlar təşviq edilməli, onların əməyinə hörmət edilməli, onların qarşısındakı hər cür maneə aradan qaldırılmalıdır.

İnsanların əksəriyyəti mənəvi xəstəliklərdən əziyyət çəkir. Bu xəstəliklər sahibini haqqı və həqiqəti görə bilmir, qəlbi kor, qulağı kar edir. Təəssübkeşlik, başqalarına qalib gəlmək, öz nəfsinin arxasınca getmək, pis nəfs və şıltaqlıq, rütbə və məqam dalınca getmək və bu kimi pis vərdişlər alimə yaraşmaz. Ona görə də hər kəs alim ola bilməz. Bilik yolu çətin bir yoldur. Ancaq əldə etmək imkansız deyil. Haqqı vəhəqiqəti axtararkən insan mümkün olan ən yaxın, ən həqiqi və əsaslı məlumatlardan yapışmalıdır.

Biruninin müxtəlif elmlərlə bağlı araşdırmaları həm Şərq, həm də Qərb ölkələrində elmin inkişafında xüsusi əhəmiyyəti olmuşdur.

## İBTİDAİ SİNİFLƏRDƏ SİNİFDƏNKƏNAR TƏDBİRLƏR ZAMANI MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI YOLLARI

**Əsədullayeva Fidan Elşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*fidan.esedullayeva.98@gmail.com*

Milli-mənəvi dəyərlər məktəb həyatının əsasını təşkil etməli, uşaqların dərsdə, sinifdənkənar və məktəbdənkənar fəaliyyətlərini müəyyən etməlidir. Belə bir məkanın təşkili üçün məktəbin ailə, ictimai və dini birliklər, əlavə təhsil, mədəniyyət və idman müəssisələri, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəsi zəruridir. Belə qarşılıqlı əlaqənin məqsədi şagirdlərin mənəvi-əxlaqi inkişafı və təhsili üçün birgə şərait yaratmaqdır. İbtidai sinifşagirdlərdə milli-mənəvi dəyərlərin formalaşmasınışərtləndirən amillərdən kiçik məktəblini əhatə edən obyektiv şəraitini, subyektiv təsir vasitələrini göstərmək olar. Kiçik məktəblilərin sinifdənkənar fəaliyyəti - onların tərbiyəsi və sosiallaşması problemlərinin həllinin mümkün və məqsədəuy-

ğun olan işləri olub, məktəbdə təhsil prosesinin ayrılmaz hissəsidir. Ümumi təhsil üçün təhsil standartlarının tələblərinin həyata keçirilməsinə kömək edir. Məktəbdə ibtidai siniflərdə sinifdənkənar tədbirlərin məqsədi: uşaq tərəfindən sərbəst seçim əsasında öz maraqlarının təzahürü və inkişafı üçün şərait yaratmaq, mənəvi-əxlaqi dəyərləri və milli-mənəvi ənənələri dərk etməkdir.

Kiçik yaşlı məktəblilərlə idman və istirahət, mənəvi-əxlaqi, sosial, ümumi intellektual, ümumi mədəniyyət kimi şəxsiyyətin inkişafının müxtəlif istiqamətləri üzrə sinifdənkənar tədbirlər təşkil olunur. Kiçik yaşlı məktəblilərdə milli-mənəvi dəyərlərin formalaşmasını mənəvi-əxlaqi istiqamətə aid etmək olar. Milli komponentə müraciət şagirdlərin mənəvi-əxlaqi tərbiyəsini dərinləşdirməyə kömək edəcək və onun həyata keçirilməsi məktəbdənkənar fəaliyyətin aşağıdakı formalarında mümkündür: klub təşkilatları, sinifdənkənar məşğələlər, dərnəklər, diyarşünaslıq işləri, ekskursiyalar, dizayn, axtarış və elmi tədqiqatlar. Məktəbdəsinifdənkənar fəaliyyət kiçikyaşlı şagirdlərin üfüqlərini genişləndirməyə, onların ümumi mədəniyyətini inkişaf etdirməyə, dünya mədəniyyətinin ümumbəşəri dəyərlərinə, milli mədəniyyətin mənəvi dəyərlərinə, xalqının mənəvi-əxlaqi dəyərlərinə bələd olmağa yönəldilməlidir. Məktəbdə ibtidai siniflərdə milli-mənəvi dəyərlərin formalaşdırılmasının ən vacib yollarından biri sinifdənxaric oxudur. Sinifdənxaric oxu gənc nəsildə mənəvi obraz və əxlaqi keyfiyyətlər formalaşdırır. O, uşağın intellektual, emosional və estetik inkişafında liderdir. İbtidai sinifdə sinifdənxaric oxu əcdadların, ailənin, mədəni-tarixi irsin dərk edilməsi yolu ilə şəxsiyyətin formalaşmasını təmin edir. Şagird onun ruhuna toxuna biləcək yüksək bədii əsərlər oxuyarsa, xüsusi mütaliə vərdişlərinə və bacarıqlarına yiyələnirsə, yazıçının və oxucunun əməkdaşlığı baş verir. Ona görə də ədəbi qiraət əsas milli dəyərləri inkişaf etdirməyin ən yaxşı yoludur.

Dərnək müxtəlif istiqamətli dərnəklərin və seksiyaların təşkilindən ibarət uşaqlar üçün əlavə təlim formalarından biridir. Dərnək şagirdlər üçün xüsusi bir fəaliyyət sahəsidir. Maksimum müxtəliflik, qeyri-rəsmilik, uşaqların fərdi maraqlarına və meyllərinə diqqət yetirmək onların təşkilatının mühüm prinsipləridir. Düzgün təşkili ilə hər bir uşaq üçün özünü dərk etmək və təsdiq etmək, uğur hissini yaşamaq imkanı yaradan məhz dərnək məşğələləridir.

Sinifdənkənar tədbirlərdə oyunlardan, nağıllardan, tapmacalardan, atalar sözlərindən fəal istifadə olunur. Kiçikyaşlı şagirdlərdə xarici aləmi mənimsəmək valideynlər, müəllimlər, digər böyüklər, uşaqlarla əməkdaşlıqda baş verir, sinifdənkənar fəaliyyətlərdə mənəvi irsin, əxlaqın formalaşdırılmasının müxtəlif yolları mövcuddur.Sinifdənkənar tədbirlər uşaqların dünyagörüşünün genişləndirilməsinə yönəlib, onları ümumbəşəri, mənəvi və mədəni dəyərlərin aktiv şəkildə mənimsənilməsinə cəlb etməyə imkan verir.

Əlavə edə bilərik ki,dərnək məşğələsi şəklində həyata keçirilən mənəvi-əxlaqi istiqamətdə sinifdənkənar məşğələlərdə uşağı xalqın mədəniyyəti ilə yaxından tanış etmək vacibdir ki, bu da millətinə, xalqına hörmət, qürur hissi tərbiyə edir, yaşadığı ölkənin milli dəyərlərinə hörmət hissi, sərvətlərini başqa ölkələrdən qorumaq və artırmaq istəyini formalaşdırır. Həmçinin, uşaqlar öz xalqlarının uzaq keçmişi ilə təmasda olur, dövlətin yaranma tarixini öyrənir, onun şəcərəsini öyrənir, öz ailəsinin adət-ənənələrini, xalq bayramlarını hazırlayır və keçirir, doğma yurdun mədəniyyətini öyrənir.İbtidai sinifdə Dərnək işi şagirdlərin biliklərini dərinləşdirmək və genişləndirmək məqsədi daşıyır. Ona görə də buna artıq təhsilin ilkin mərhələsindən başlanılmalı və yuxarı siniflərdə davam etdirilməlidir. Şagirdlərin marağını artırır, kiçik yaşlı şagirdlərin təhsilində daha əhəmiyyətli nəticələr əldə etməyə kömək edir, şagirdlərin bacarıqlarını inkişaf etdirir və şəxsi keyfiyyətlərin nümayiş etdirilməsi üsuludur.

Milli-mənəvi dəyərlərin sinifdənxaric işlər zamanı formalaşdırılmasının ən vacib yollarından biri kimi fakültativ məşğələrdə bir neçə mövzunun keçirilməsi böyük əhəmiyyət kəsb edir. Tapşırıqlar yaradıcı, proyektiv, problem həll etmə, tədqiqat və oyun xarakterində aparıldı.

İbtidai siniflərdə milli-mənəvi dəyərlərin formalaşması məktəbdə bayramların keçirilməsi zamanı da baş verir. Bayramlar xalqın mənəvi mədəniyyətinin, məişətinin tərkib hissəsidir. Bəşəriyyət tarixində elə bir dövr tapmaq mümkün deyil ki, orada bayram olmasın.İbtidai

məktəb yaşlı uşaqlar müəyyən bayramlardan əvvəlki ənənələri (səməni qoymaq, yumurta boyamaq, şirniyyatlar hazırlamaq, evi təmizləmək) tam başa düşə bilmirlər. Ümumiyyətlə, uşaqlara başa salmaq lazımdır ki, bu adət - ənənələr tarixən formalaşıb və bu gündə icra olunmaqdadır, bundan başqa küsülülər bu bayramda barışmalı, ölülərin qəbri ziyarət etməli, qohumlarla bayramlaşmaq lazımdır. Bu da onu göstərir ki, bizim milli bayramlarımız milli birliyimizə səbəb olur.

Belə bayramlardan başqa bizim dini bayramlarımız da vardır. Bunlar Orucluq bayramı, Qurban bayramıdır. Kiçik məktəblilərə onların da mahiyyətini izah etmək lazımdır. Hər şey bayramların tamlığı, düzgün təfsiri ilə bağlıdır. Dini və el bayramları vasitəsilə xalqımız zəhmətkeş, işgüzar, səbirlilik və qonaqpərvər kimi formalaşmışdır.

Milli bayramların məktəbdə keçirilməsi uşaqları çox sevindirir. Bayram diqqətli hazırlıq və təşkilatçılıq tələb edir, bunun sayəsində bayramın dolğunluğu və düzgün ardıcıllığı təmin edilir. Bayram tədbirlərinin təşkili və keçirilməsi uşaqların ölkə tarixində əlamətdar tarixlər, bayramın özünün tarixi, ailədə necə qeyd olunması haqqında biliklərini genişləndirir. Bayram ona görə vacibdir ki, ümumi maraqlar əsasında uşaqlar kommunikativ, bədii, estetik, oynaq, əxlaqi və uşağın böyüklər dünyasına uğurla daxil olması üçün zəruri olan digər mədəniyyət növlərini formalaşdırırlar. Tətil zamanı uşaq sevinc hissi, kollektivdə birgə fəaliyyətdən məmnunluq hissi doğuran müsbət emosiyalar alır, bu onun emosional vəziyyətində rahatlıq yaradır, bu da şagirdin şəxsi inkişafı üçün vacibdir.

## MÜASİR MUSİQİ MÜƏLLİMİNİN KOMMUNİKATİV SƏRİŞTƏSİNİN FORMALAŞMASI

**Quliyeva Çinarə Rafiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*chinaragulieva@yahoo.com*

***Açar sözlər:*** *musiqi müəllimi, kommunikativ səriştə, yaradıcı ünsiyyət, əməkdaşlıq*
***Ключевые слова:****учитель музыки, коммуникативная компетенция, творческое общение, сотрудничество*
***Key words:*** *music teacher, communication competence, creative communication, cooperation*

**Xülasə**

Musiqi müəlliminin kommunikativ səriştəsi öz spesifik xüsusiyyətlərilə fərqlənir. O da, musiqi dərslərinin məzmununun yaradıcı xarakteri, musiqi və pedaqoji problemlərin həllinin çoxvariantlılığı, qarşılıqlı əlaqə subyektlərinin (şagird və müəllim) yaradıcı potensialının üzə çıxarılması, musiqi ideyasının çatdırılmasında vasitələrin axtarışı, musiqi əsərinin müxtəlif interpretasiyanın mövcudluğu ilə müəyyən edilir. Musiqi müəlliminin kommunikativsəriştəsi aşağıdakı əsas xüsusiyyətlərə malikdir: yaradıcılıq, çeviklik, mobillik.

## ФОРМИРВАНИЕ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНТНОСТИ СОВРЕМЕННОГО УЧИТЕЛЯ МУЗЫКИ

**Резюме**

Коммуникативная компетентность учителя музыки отличается специфичскими особенностями. Это связано с творческим характером содержания предмета освоения, многовариантностью решения музыкально-педагогических задач, мобилизацией творческого потенциала субъектов взаимодействия (ученика и педагога) в поиске средств передачи музыкальной идеи, возможности существования различных интерпретаций музыкального произведения. Она обладает следующими основными характеристиками: креативность, гибкость, мобильность.

**SHAPINGTHE COMMUNICATIVE COMPETENCE OF A MODERN MUSIC TEACHER**

**Summary**

The communicative competence of a music teacher is distinguished by specific features. This is due to the creative nature of the content of the subject, the multivariability of solving musical and pedagogical problems, the mobilization of the creative potential of subjects of interaction (student and teacher) in the search for means of transmitting a musical idea, in the possibility of the existence of various interpretations of a musical work. It has the following main characteristics: creativity, flexibility; mobility.

Ölkədə, cəmiyyətdə baş verən dəyişikliklər, təhsilin islahatlarının prioritet milli layihəsinin icrası müasir müəllimin qarşısına yeni tələblər irəli sürür. Buna uyğun olaraq təhsil sistemi dinamik inkişaf edən mühitdə təhsilli, yaradıcı, səriştəli və rəqabətli şəxsiyyətin formalaşmasına və inkişafına yönəlmiş yeni vəzifələr qoyur.

***Müəllimlər təkcə biliklər vermir, eyni zamanda mədəni vərdişlər, emosiyalar, mənəviyyat anlayışlarını şagirdlərə çatdırır. Məhz elə buna görə də müasir təhsildə müəllimin yeri və rolu ictimaiyyətin diqqət mərkəzindədir.***

***Aydındır ki, yeni nəsil müəllimi– hər gün öz peşakarlığını inkişaf etdirən və dövrün çağrışlarına cavab verən peşakardır. Təhsilin milli modelinə keçidin baş verdiyi bir şəraitdə müasir məktəbin yeni tip müəllimə - yaradıcı surətdə düşünən, müasir təlim metodlarına və təhsil texnologiyalarına yiyələnmiş, peşəkar fəaliyyət reflekslərinə malik və təhsilin mümkün inkişaf istiqamətlərini proqnozlaşdırmağı bacaran müəllimə ehtiyacı vardır.***

Müəllimlərin peşə fəaliyyətinin səmərəliliyi çoxlu sayda peşə səriştələrindən asılıdır. Onların arasında kommunikativ səriştə xüsusi yer tutur.

Bir sıra müasir tədqiqatçılar (V.A.Pyatin, E.V.Qrebenyuk, H.H.Lobanova, N.V.Kuzmina, D.Yu.Osyagin, A.A.Muraviyeva, M.İ.Rojkov, L.M.Mitina və s.) kommunikativ səriştəni müəllimin həyata keçirdiyi müxtəlif funksiyalar və fəaliyyətlər kimi şərh edirlər, sürət, çeviklik və təfəkkürün orijinallığı, məlumat və intellektual mədəniyyət, dərin peşəkar bilik, real şəraitə uyğunlaşma, güclü və müsbət təmas qurmaq bacarığı. Tədqiqatçıların fikrincə, peşə səriştəsinin kommunikativ komponentinin əsasını problemli vəziyyətin aradan qaldırılması təşkil edir.

Tədqiqatların əsasında demək olar ki, kommunikativ səriştə müəllimin peşəkarlığının əsasını təşkil edir. Bu, digər insanların fikirlərini dinləmək və nəzərə almaq, müzakirələrdə iştirak etmək və öz fikrini müdafiə etmək, ictimaiyyətdə çıxış etmək, əlaqə qurmaq və saxlamaq, qərar qəbul etmək, danışıqlar aparmaq, komandada işləmək və əməkdaşlıq etmək qabiliyyətidir. Müasir dövrün siyasi, iqtisadi və sosial dəyişiklikləri ölkə təhsilinin məzmunu və formalarına yeni yanaşmalara və tələblərə səbəb oldu. .

***Müəllimin müasir siması təkcə şagirdlərin düşüncəsində ideal müəllim modeli qismində keyfiyyət göstəriciləri toplusu ilə deyil, eyni zamanda pedaqoqun yeni kommunikativ imici ilə müəyyən olunur.***

***Müəllim şagirdlərlə daimi ünsiyyətdə olduğuna görə onun pedaqoji fəaliyyətində kommunikativ qabiliyyətlər də mühim yer tutur.***

***Kommunikativ qabiliyyətlər uşaqlarla düzgün qarşılıqlı əlaqə yaratmağa imkan verir. Kommunikativ qabiliyyətlərə şagirdlərlə ünsiyyət qabillik, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaq bacarığı, şagirdlərlə pedaqoji nöqteyi-nəzərdən məqsədə müvafiq qarşılıqlı əlaqə yarada bilmək bacarığı aiddir.*** Müəllim nəinki daimi öz kommunikativ bacarığını inkişaf etdirməlidir, həm də şagirdlərə ünsiyyət mədəniyyətini aşılamalıdır. Şagird məktəbdə olduğu ilk günlərdən sinif yoldaşları və müəllimləri ilə şəxsiyyətlərarası qarşılıqlı əlaqə prosesinə daxil edilir. Şagirddə kommunikativ bacarıqların olmaması təkcə

ailədə deyil, həm də məktəb kollektivində bir çox münaqişələrə səbəb ola bilər. Bu münasibətlər tez-tez ağrılı olur, uşağa travma verir.Şagirddə anlaşılmazlıq, tənhalıq, rəğbətsizlik hissi yaranır. Buna görə də müəllimin işində psixoloji yanaşma ön planda olmalıdır. Belə situasiyalarda müəllim şagirdlərdə kommunikativ bacarıqları formalaşdırmağa çalışmalıdı.

Musiqi müəlliminin kommunikativ səriştəsi öz spesifik xüsusiyyətlərilə fərqlənir. O da, musiqi dərslərin məzmununun yaradıcı xarakteri, musiqi və pedaqoji problemlərin həllinin çoxvariantlılığı, qarşılıqlı əlaqə subyektlərinin (şagird və müəllim) yaradıcı potensialının üzə çıxarılması, musiqi ideyasının çatdırılmasında vasitələrin axtarışı, musiqi əsərinin müxtəlif interpretasiyanın mövcudluğu ilə müəyyən edilir. Musiqi müəlliminin kommunikativ səriştəsi aşağıdakı əsas xüsusiyyətlərə malikdir: yaradıcılıq, çeviklik; mobillik. Musiqi-pedaqoji fəaliyyətdə müəllimin kommunikativ səriştəsinin mühim göstəricilərinə aşağıdakılar daxildir:

- musiqiçi-müəllim peşəsi üçün zəruri olan şəxsi keyfiyyətlərin formalaşma səviyyəsi;
- tələbələr tərəfindən kommunikativ və psixoloji maneələrin aradan qaldırılması;
- əks əlaqə yaratmaq bacarığı;
- verbal «imic»,müəllimin şəxsi və professional imici, verbal şəkildə (nitq bacarğı vasitəsilə) özünü təqdim etmək bacarığı;
- münaqişəni həll etməyə hazır olmaq;
- yaradıcı fəaliyyət təcrübəsi.

Kommunikativ səriştəlilik, ilk növbədə, ünsiyyət qurmağa imkan verir: məlumat ötürmək, qəbul etmək, anlamaq, başqa bir insanı dərk etmək, anlamaq və digər əlaqələr, digər insanlarla təmasların tənzimləyicisi kimi çıxış edir.

Gələcək musiqi müəllimin kommunikativ səriştəsini formalaşdırmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır:

- müzakirə olunan məsələnin mahiyyətini ifadə etmək bacarığını inkişaf etdirmək;
- söz ehtiyatını artırmaq, üfüqləri genişləndirmək;
- düşüncələrini öz sözləri ilə ifadə etmək bacarığını formalaşdırmaq;
- tələbə yoldaşlarını dinləmək, digər insanların fikirlərini nəzərə almaq bacarığını öyrənmək;
- qrupdaişləməkbacarığınıöyrənmək;
- tolerantlığıartırmaq;
- işlərinin nəticələrini müxtəlif yollarla təqdim etmək, bacarıq, fəaliyyət metodlarını praktikada tətbiq etmək bacarığını formalaşdırmaq;
- yaradıcı bacarıqlarını inkişaf etdirmək.

Musiqi müəllimin kommunikativ səriştəsi bacarıqlarının formalaşdırılması musiqi–pedaqoji təhsilin zəruri tərkib hissəsinə çevrilməlidir və bir-biri ilə əlaqəli olan üç aspektdə baxılmalıdır: a) şəxsi, b) psixoloji, c) davranış.

Yaradıcı təfəkkür və yaradıcılıq “idrakının” ən yüksək nöqtəsi kimi ,“insait” musiqi müəllimi üçün aktualdır. Musiqi dərslərin əsası olan fantaziya, təxəyyül, emosiyalar kimi spesifik psixoloji strukturlardan danışarkən, qeyd etmək lazımdır ki, onlar şagirdin yaradıcı şüurunun inkişafına təkan verir. İnamla demək olar ki, qeyd etdiyimiz psixoloji strukturlar musiqinin tədrisində müəllimin kommunikativ səriştəsinin tərkib hissəsidir.

Musiqi müəlliminin kommunikativ səriştəsi, yaradıcı ünsiyyət və tərəfdaşlıq bacarığı kimi,pedaqoji yardımın və müəllim-şagird arasında qarşılıqlı əlaqənin xüsusi sahəsi kimi, tədris prosesinin metodiki dəstəyindən kənara çıxır və müəllimin yaradıcılıq qabiliyyəti ilə xarakterizə olunur, şagirdlərin "yaradıcı enerji"ilə yükləyən "emosional fon", "mənəvi enerji" yaranır.

Kommunikativ səriştə mürəkkəb ünsiyyət bacarıqlarına yiyələnmək, yeni sosial strukturlarda adekvat bacarıqların formalaşması, ünsiyyətdəki mədəni normalar və məhdudiyyətlər, ünsiyyət sahəsindəki adətlər, ənənələr, etiket qaydaları, ədəb - hörməti yaxşı yetişdirmə, kommunikativ vasitələrdə oriyentasiya deməkdir.

# MÜƏLLİMİN ESTETİK MƏDƏNİYYƏTİ

**Haqverdiyeva Arzu Eldar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*arzuhaqverdiyeva99@gmail.com*

Estetik mədəniyyət müəllimin pedaqoji peşə mədəniyyətinin tərkib hissəsidir. Məhz bun görə də, hər bir müəllim estetik mədəniyyətinin inkişafına xüsusi diqqət yetirməlidir.

Müəllim rəssam, şair, aktyor, rejissor kimi daim öz işini yüksək estetik səviyyədə qurmaqla yaradıcı, cəlbedici formalar tətbiq etməyə çalışır. Bu baxımdan o həm də gözəl nitq mədəniyyətinə, davanış estetikasına və səliqəli xarici görkəmə malik olmalıdır.

Müəllim ilk növbədə, estetik pedaqoji texnikaya , yəni: ifadəli, enerjili, xoşagələn səs tembrinə; öz fikirlərini hislərini, əhvali-ruhiyyəsini ötürə bilmək üçün zəruri mimikaya; isti, səmimi, xeyirxah baxışa; təsiredici jestlərə; daxili zənginliyini ehtiva edən üz ifadəsinə sahib olmalıdır. Müəllim xarici görünüşü və səmimi davranışı, xüsusilə kiçik yaşlı məktəblilərdə xoş təəssüratlar oyadır.

Məktəbə yenicə qədəm basan şagird öz müəlliminin savadı, pedaqoji bacarıqları haqqında hələ heç bir təsəvvürə malik deyildir. Onu pedaqoji fəaliyyətin yalnız xarici tərəfləri cəlb edir: müəllim onun başını sığalladı, xoş söz dedi, təriflədi və s. Bu estetik -tərbiyəvi təsir tamamilə fərdidir, orijinaldır, uşaqlarda gözəl duyğular oyadır və müəllimə məhəbbət formalaşdırır. Ona görə də, müəllim xarici görkəminə daim diqqət yetirməli,onun geyimi, saç düzümü, maneraları, hətta yerişi,duruşu da estetik təsir oyatmalıdır.

Pedaqoji fəaliyyətin estetik tərəflərini nəzərdən keçirərkən təlim-tərbiyə prosesinin məzmununun estetik imkanları ilə yanaşı şagirdlərin gözəlliyə münasibətini formalaşdırmaq üçün rəngarəng sinifdənkənar tədbirlərin, xüsusilə təbiətin qoynuna gəzintilərin, muzeylərə, sərgilərə, ekskursiyaların, müxtəlif oyunların, müsabiqələrin, ədəbi-bədii gecələrin keçirilməsini də diqqət mərkəzində saxlamaq vacibdir.

Xüsusi mənəvi keyfiyyətlərdən sayılan estetik mədəniyyət estetik ənənələrin məcmusundan təşkil olunur. Estetik mədəniyyət estetik şüur, estetik dəyərlər, onların yaradılması və istifadə edilməsi üsullarını, bədii estetik fəaliyyət formalarını özündə əks etdirir. Düzgün estetik mədəniyyətə malik olan müəllim, pedaqoji imkanlardan səmərəli istifadə etməklə şagirdlərinin cəmiyyətdə fəal iştirakını təmin etməli, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən öz maraq dairələrinə uyğun istifadə etməyi aşılamalı və bu proseslərdə onlara düzgün istiqamət verməlidir. Vebral və qeyri-vebral ünsiyyət də müəllimin estetik-pedaqoji mədəniyyətinin üzvi tərkib hissələrindəndir.

Müəllimin estetik mədəniyyəti dedikdə, estetik bilik, bacarıq və bacarıqlar sisteminin formalaşmasında, onları gələcək peşə fəaliyyətində tətbiq etmək bacarığında təzahür edən dinamik inteqrativ fərdi tərbiyə nəzərdə tutulur.

Müəllimlik peşəsi kontekstində estetik mədəniyyət təkcə öz estetik potensialını reallaşdırmaq və artırmaq bacarığı və istəyini deyil, həm də müxtəlif növ təhsil və məktəbdənkənar fəaliyyətlərdə formalaşan şəxsiyyətin estetik inkişafı üçün metodoloji üsullara sahib olmağı nəzərdə tutur. Müəllim estetik mədəniyyətinin bir sıra funksiyaları vardır. Bu funksiyalara idrak, aksioloji, normativ, semiotik, tərcümə, proyektiv (cədvəl) kimi funksiyalar daxildir. Estetik mədəniyyətin bizim müəyyən etdiyimiz funksiyaları bir-biri ilə bağlıdır, bir-birindən asılıdır, məzmunca bir-birinə nüfuz edir, bu da onların əlaqələndirilməsini təmin edir, müəllimlərdə peşəkar inkişafı təmin edən zəruri peşəkar səriştələrin formalaşmasına diqqət yetirir. Eyni zamanda qeyd etmək lazımdır ki, bu funksiyalar "imkanlar" xarakteri daşıyır və onların həyata keçirilməsi üçün sinifdə tədris praktikasında müəyyən pedaqoji texnika, metodlar toplusundan istifadə etmək lazımdır.

Estetik mədəniyyətin formalaşması peşə hazırlığının yüksək səmərəliliyini təmin edən vasitədir. Onun funksiyaları peşəkar biliklərin güclü və dərin mənimsənilməsinə, peşəkar nor-

ma və dəyərlərin dərk edilməsinə, inkişaf etməkdə olan şəxsiyyətin estetik potensialının aktivləşdirilməsinə kömək edir. Bu, funksiyalar formalaşmaqda olan bir şəxsiyyət kimi tələbənin estetik mədəniyyətini xarakterizə edir.

Beləliklə, pedaqoji və estetik mədəniyyətə sahib olan müəllim təlim-tərbiyə və təhsilin estetik aspektlərini diqqət mərkəzində saxlamalı, şagirdlərdə müsbət emosiyalar oyatmalı, estetik dəyərlər aşılamalıdır. Həmçinin estetik biliklərə, yaradıcı təxəyyülə və təfkkürə, müxtəlif texnologiyalara yiyələnməlidir.

## XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNNOVASİYALAR VASİTƏSİLƏ MÜASİR METODLARIN AŞILANMASI

**Əsgərova Əfsanə Aydın qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*e.asgerova126@mail.ru*

Xarici dillərin tədrisində müasir metod və texnologiyalardan istifadə tədrisi daha maraqlı etmək və təkmilləşdirmə baxımından tədris prosesini daha məhsuldar etmək üçün bir çox imkanlar təqdim edir. Mənim nöqteyi-nəzərimdən, müvafiq və effektiv innovasiyaların tətbiq olunmadığı tədris prosesi tədris prosesi sınığı olan bir qabı doldurmağa bənzəyir - həmin qabı nə qədər doldurmağa çalışsaq da, o, daima sızdıracaq və əsla tam dolmayacaqdır. Ali və orta təhsil müəssisələrində internet, audio-video, multimedia vasitələri kimi yeni informasiya texnologiyalarından geniş istifadə olunur. Bütün bu texnologiyalar tələbələrin yaradıcılığının inkişafı üçün əlavə imkanlar yaratmağa kömək edir, eləcə də, onların dərsə maraqlarını artırır. Dərslərdə maqnitofonlar, interaktiv lövhələr, proyektorlar və müxtəlif multimedia avadanlıqlarından istifadə olunur ki, bu da xarici dilin öyrənilməsi prosesində müxtəlifliyi təmin edir. Məlumdur ki, müasir dövrün tələbə və şagirdlərinin maraqları, dərsdən gözləntiləri on illər əvvəlki tələbə və şagirdlərdən fərqlidir və bir çox müəllimlərin də ən çox şikayətləndiyi məsələlərdən biri də tələbələrin dərsdə aşağı fəallığı və maraqlarının aşağı olmasıdır. Məhz bu zaman interaktiv metodlar təlim prosesinin daha səmərəli nəticə verməsinə böyük töhfə verir. Hazırda təhsil müəssisələrində interaktiv təlim tapşırıqları və metodlarından geniş istifadə olunur. Onlar yaş qrupundan asılı olaraq yüksək effektivlik nümayiş etdirirlər. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar: Komandalarda qrup işi (dialoqlar, dəyirmi masalar, müzakirələr, mini konfranslar və s.), müxtəlif oyunlar və s. Bütün bunlar yeni və köhnə lüğətdən istifadəni təkmilləşdirir, tələbələrin dərsə marağını daha da artırır, "xarici dildə danışmaq qorxusu"ndan azad olmağa kömək edir. Nitqin və digər bacarıqların inkişafı üçün təhsil ocaqlarında audio və video materiallardan istifadə olunur. Onlar yeni məlumatlar əldə etməyə, mətnləri dinləməyə və tələffüz etməyə və məşq etməyə imkan verir.

## KOMPÜTERLƏRDƏN DƏRSLƏRDƏ İSTİFADƏ OLUNMASI

**Kərimova Gülnur Tofiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rizvanhikmetli@gmail.com*

21-ci əsr kompüter əsri adlandırılır, çünki kompüterin tətbiq olunmadığı bir sahə tapmaq demək olar ki qeyri-mümkündür. Müasir dövrdə texnoloji vasitələrdən tibdə, mühəndislikdə, təhsildə, hökümət məsələlərində və bir çox başqa sahələrdə geniş istifadə olunur. Belə ki, gündəlik həyatımızda müəyyən məsələləri həll etmək üçün ən azından minimal texnoloji biliklərinə sahib olmaq çox vacibdir. Həyatımızın bütün sahələrində tətbiq olunan texnoloji vasitələr təhsil sahəsinə də öz təsirini göstərir. Kompüter bacarıqlarının vacib olduğu bu dövrdə ilk öncə təhsildə texnoloji vasitələrin istifadəsi prioritet məsələlərdən birinə çevrilməlidir. Belə vasitələrin təhsilə gətirilməsindən sonra kompüterlərə əsaslanan dil tədrisi metodikaya gətirildi.

İngilis dilinin öyrənilməsində kompüter fərd üçün çoxtərəfli öyrənmə mühiti təmin edir. Kompüter vasitəsilə ingilis dilində yazılmış müxtəlif növ mətnlərə vizual və səsli şəkildə daxil olmaq, söz ehtiyatını artırmaq və interaktiv şəkildə qrammatik tapşırıqları yerinə yetirmək mümkündür. Aydındır ki, kompüterlər İKT ailəsinin ən əsas qurğusudur. Müəllimlər və tələbələr İKT-in təqdim etdiyi xüsusi proyektorlar və interaktiv lövhələrdən yararlanırlar. İnteraktiv lövhə kompüter proyektoruna qoşulan böyük interaktiv displeydir. Proyektor kompüterin iş masasını lövhənin səthində əks etdirir və burada istifadəçilər qələm, barmaq və stilusdan istifadə edərək kompüteri idarə edirlər.

Texnoloji yeniliklər nəticəsində dil tədrisində kompüterlərin multimedia imkanlarından geniş istifadə olunur. Multimedia vasitələri əyaniliyi gücləndirir və informasiya məntiqi və obrazlı şəkildə mənimsənilir. Belə vasitələr dil laboratoriyaları adlanan xüsusi otaqlarda quraşdırılır. Dil laboratoriyaları kompüterlərlə təchiz olunmuş otaqlardır və ingilis dilini öyrənmək üçün tələbələrə audio-vizual imkanlar təklif edir. Tələbələr ingilis dilində materiallar dinləyərək danışıq və dinləmə bacarıqları üçün məşq edirlər.

Kompüterlərdən istifadə edərək tələbələr fərqli öyrənmə üslubları olan vizual və ya kinestetik öyrənmə üsullarına yiyələnirlər. Bugünün tələbələri onları əhatə edən ətraf mühit haqqında məsələlərlə bağlı tənqidi yanaşmalar sərgiləyir. Kompüter texnologiyalarının təsiri ilə formalaşan tənqidi düşünmə bacarıqları onları mövzu haqqında daha dərindən düşünməyə sövq edir və gələcəkdəki peşə fəaliyyəti üçün yeni nailiyyətlər qazandırır.

## AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNİN KEYFİYYƏTİNİN ARTIRILMASINDA “QIZIL QAYDA”

**Babayev Toğrul Möfil oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*togrulbabayev1998@mail.com*

Azərbaycan dili dərslərinin tədrisi prosesində əyanilik prinsipini gözləməklə şagirdlərdə təlim prosesinə həvəs yaratmaq, mövzunun daha tez, asan, şüurlu mənimsənilməsini təmin etmək, şagirdlərin təfəkkürünü inkişaf etdirmək mümkündür.

Müasir təlimdə qəbul olunan əsas prinsiplər bunlardır:

1) Təlimin həyatla əlaqələndirilməsi prinsipi.
2) Təlimin təhsilverici, tərbiyəedici və inkişafetdirici prinsipi.
3) Təlimdə elmilik prinsipi.
4) Təlimdə sistemlilik və ardıcıllıq prinsipi.
5) Təlimdə əyanilik prinsipi
6) Təlimdə şüurluluq, fəallıq və müstəqillik prinsipi.
7) Təlimdə fərdi yanaşma prinsipi

Təlimin prinsipləri pedaqoji ədəbiyyatlarda təlimin səmərəliliyini artıran başlıca tələb, əsas ideya, ilkin ideya kimi izah edilmişdir. Əgər müəllim bu prinsiplərə düzgün əməl edərsə, təlim prosesi müvəffəqiyyətlə nəticələnər. Əyanilik prinsipi təlim prosesini mücərrəd sözlər əsasında deyil, təhsilalanlar tərəfindən birbaşa qavranılan əşyalar, hadisələr əsasında təşkil etməyə deyilir. XVII əsrin tanınmış pedaqoqu Komenski filosof Bekonun fəlsəfi fikirlərinə əsaslanaraq əyanilik prinsipini irəli sürmüşdür. Komenski biliyə yiyələnməkdə duyğu orqanlarının rolunu xüsusi qeyd edirdi. Komenski məşhur “Böyük didaktika” əsərində yazır: “Duyğularda olmayan heç bir şey, şüurda da olmadığından ağıl bütün düşüncələr üçün materialı yalnız duyğulardan alır”. [5, s. 227] O, təlimdə biliyin hissi qavrayışdan başlamasını irəli sürmüş və vurğulamışdır ki, söz qabıq, əşya isə onun nüvəsidir, başı nüvəsiz olan qabıqla doldurmaq lazım deyil. O, əyaniliyini təlimin “qızıl qayda”sı adlandırırdı. Deyirdi ki, qoy təlim üçün mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək qızıl qayda olsun. Görünən görmə duyğusuna, səs eşitmə duyğusuna, iy iybilmə duyğusuna, toxunula bilən lamisə duyğusuna

təqdim olunsun. Əgər bir şeyi eyni anda bir neçə duyğu üzvü ilə qavramaq mümkündürsə, bir neçə duyğu üzvü ilə qavrama təmin edilsin.

Əyaniliyin aşağıdakı funskiyalarından istifadə etməklə təlim prosesinin idarə olunmasını yaxşılaşdırmaq mümkündür:

1) əyanilikdən empirik məlumatları əldə etmək vasitəsi kimi;

2) əyanilikdən deduktiv nəticələrin təsdiqi vasitəsi kimi;

3) əyanilikdən induktiv nəticəyə gəlmək, ümumiləşdirmənin, sistemləşdirmənin əsaslandırılması vasitəsi kimi;

4) əyanilikdən, bərpaedici fəaliyyətdən evristik fəaliyyətə keçid şəraitinin yaradılması vasitəsi kimi;

6) evristik fəaliyyətin illüstrasiya təminatını yaxşılaşdırmaq vasitəsi kimi. [4, s. 618]

Əyanilik həyata keçirilməsi müxtəlif vasitələrlə mümkündür:

a) təbii əyanilik: təbii halda əşya və proseslərin nümayiş etdirilməsi;

b) təsviri əyanilik: əşyanın şəkli, maketi, diafilm, kino, televiziyadan istifadə;

c) sxematik əyanilik: sxem, cədvəl, diaqram və s. üzrə iş;

ç) obrazlı əyanilik: şagirdlərin şəxsi təcrübəsi, təsəvvürləri, müəllimin sözü, ədəbiyyat və incəsənət vasitəsilə canlı obrazlar, təsəvvürlər yaratmaq;

d) simvolik əyanilik: qlobus, xəritə və s. üzrə iş.

Azərbaycan dili fənninin orta ümumtəhsil məktəbləri üçün tərtib olmuş proqramındakı bütün bölmələrin tədrisi zamanı əyanilikdən istifadə etmək mümkündür. Sadə bir misal kimi qeyd edə bilərik ki, müəllim isim bölməsini tədris edərkən şagirdlərdən sinifdə gördükləri əşyaları saymalarını istəyə bilər. Şagirdlər əşyaları saydıqca müəllim sayılan adları lövhəyə yazıb sonra bunu isim mövzusu ilə əlaqələndirə bilər. Bu əyaniliyə sadə misaldır. Müəllim əyaniliyi yüksək səviyyədə təmin etmək,şagirdlərin dərsə olan marağını və diqqətini daha da artırmaq istəyirsə, mütləq təlimin müasir texniki vasitələrindən istifadə etməyi bacarmalı, internet resursları ilə işləməyi bilməli, müxtəlif kompüter proqramlarında sərbəst şəkildə lazım olan materialları hazırlamağı bacarmalıdır.

Təlimin texniki vasitələri üç yerə bölünür:

1. Akustik (məktəb radio qovşağı, maqnitafon);
2. Vizual (epidiaskop, kodoskop, proyektor);
3. Audio-vizual (televizor, video-maqnitafon, kompüter və s.) [3, s. 328].

Bəli, qeyd etdiyimiz kimi müəllim təlimin texniki vasitələrindən istifadə etməyi bacarsa, qarşıya qoyulan məqsədə daha asan çatmış olar. Tutaq ki, müəllim dərs zamanı şagirdlərə tanış olmayan sözlərin onlar tərəfindən mənimsənilməsini təmin etməlidir. Bu zaman əyanilikdən istifadə etməyin əhəmiyyəti böyükdür. Məsələn, müəllim əbanın nə olduğunu şagirdlərə izah edəcək. İlk olaraq onu da qeyd edək ki, müəllimin nitqi də əyaniliyi təmin edən vasitələrdəndir və düzgün istifadə olunsa, əvəzsizdir. Müəllim əbanı sözlə təsvir edə bilər, onun şəklini göstərə bilər, natural əyanilikdən istifadə edib əbanın özünü göstərə bilər.Bu saydıqlarımızdan daha cəlbedici olan hər hansı bir filimdən müəyyən bir hissə nümayiş etdirə bilər. Məsələn, "Dəli Kür" filmində olan Molla Sadığın keçdiyi hər hansı bir hissəni göstərə bilər. Əba sözündən çıxış edərək deyə bilərik ki, tarixizmlərin izahında əyaniliyin çox ciddi rolu vardır.Müxtəlif cədvəllərdən istifadə edərək də əyaniliyi təmin etmək olar. Məsələn, bir neçə semantik arxaizmdən ibarət olan cədvəl hazırlamaq olar. Burada sözün əvvəlki dövrdə və indiki zamanda hansı mənanı ifadə etdiyini qarşılaşdırmaq olar.

Əyani vasitələrin tətbiqi zamanı əyani vasitələrdən ifrat dərəcədə istifadə olunmamalıdır. Bu şagirdlərin aktivliyinə, mövzunun mənimsənilməsinə mənfi təsir edə bilər. Əyani vasitələrdə şagirdin fikrini mövzudan yayındırıb başqa məsələləri düşünməyə təhrik edəcək nüanslar olmamalıdır.Əyani vasitə tətbiq olunarkən şagirdlərin imkanları nəzərə alınmalıdır. Araşdırmalar göstərir ki, bəzi insanlar eşitdiyini, bəziləri gördüyünü, bəziləri toxunduqlarını

daha yaxşı qavrayırlar. Müəllim ancaq nitqi vasitəsilə təlimi təşkil etsə, bir qrup şagirdə "haqsızlıq" etmiş olar. Əyanilik bu "haqsızlığ"ın "düşmən"idir.

**Ədəbiyyat:**

1. Abbasov Ə., Cavadov İ., İbadova B. və b. Kurikulum bələdçisi. Bakı: Elm və təhsil, 2019.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014.
3. Həsənli B. Ədbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.
4. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. I cild. Bakı: Mütərcim, 2012.
5. Qasımova L., Mahmudova R. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012.

## TƏHSİL STANDARTLARININ CƏMİYYƏTİN İNKİŞAFINDA ROLU

**Cabbarlı Seymur Elxan oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*cabbarlisenan1@gmail.com*

***Açar sözlər:*** *təhsilstandartları, müasir təlim, mədəni səviyyə*
***Ключевые слова:*** *образовательные стандарты, современное обучение, культурный уровень*
***Key words:****educationalstandards, modern training, cultural level*

**Xülasə**

Tezisdə təhsilin cəmiyyətin inkişafında oynadığı roldan, təhsilstandartlarının instusional əsaslarından, həmin standartların tətbiqi çərçivəsində müəllimin peşə hazırlığından söhbət açılır. Müasir təlim prosesinin standartlarına uyğun yeni didaktik tələblərdən bəhs edilir.

**Резюме**

В тезисе рассматривается роль образования в развитии общества, институцио-нальная основа образовательных стандартов, профессиональная подготовка учителя в рамках применения этих стандартов. Обсуждаются новые дидактические требования в соответствии со стандартами современного учебного процесса.

**Summary**

The thesis discusses the role of education in the development of society, the institutional basis of educational standards, the teacher's professional training within the application of these standards. New didactic requirements in accordance with the standards of the modern learning process are discussed.

Təhsil standartlarında təhsilin təkcə milli-mənəvi dəyərlər deyil, eyni zamanda ümumbəşəri dəyərlərə yönəldilməsi, tərbiyənin əsas amillərdən biri kimi daxil edilməsi, ünsiyyət bacarıqları, davranış, etik normaların mənimsənilməsi mühüm addım olaraq dəyərləndirilməlidir. Beləliklə, standartla müəyyən edilmiş təhsilin məzmunu təkcə fənn bilik və bacarıqlarını deyil, eyni zamanda şagirdin fərdi inkişafı və sosiallaşması üçün zəruri olan keyfiyyətləri formalaşdırmağa imkan verir. Burada həmçinin, müəllimlər və şagirdlər üçün kitabların, dərsliklərin, elektron kitabxanaların, kompüter avadanlıqlarının, bir sözlə, təhsilin keyfiyyətini yüksəldə biləcək hər bir şəraitin qurulması da önəmli faktordur.

Təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması, həmçinin, fərdin həyatının daha da yüksək səviyyədə qurulması üçün imkan verir. Təhsil insanlara texnologiyalarla işləmək bacarığı, əmək bazarında layiqli yer tutmaq, sağlam həyat tərzini formalaşdırmaq, ətraf-mühitlə düzgün davranmaq bacarıqlarını aşılayır. Hər şey bununla bitmir. Təhsil prosesində əldə olu-

nan bilik və bacarıqlar, etik-əxlaqi dəyərlər hər bir şagirdin cəmiyyətə layiqli üzv olmaq imkanı verir, onları zəkası və davranışıyla nümunəvi həmkara, ailə fərdinə, ən başlıcası layiqli vətəndaşa çevirə bilir. Bütün bunlar təhsil müəssisələri tərəfindən istifadə üçün məcburi olan kurrikulumda öz əksini tapır.

Hər bir fərdin mədəni inkişaf prosesinin tarixi ailədən başlayır və cəmiyyətə inteqrasiya ilə davam edir. Məlumdur ki, bütün ailələr özünəməxsus şəkildə ailədir. Əgər ailə öz mentalitetinə söykənən dəyərləri saxlaya bilirsə, o, ailə institudur. Yəni o, süzgəcdən keçən hökmləri saxlayır. Ona görə də o artıq institutdur. Bütün ailələr özlərinəməxsus şəkildə institutdur, amma ümumi institut deyil. Yəni o ailə dəyərləri ki var, məxsusiliyi baxımından o institutdur, amma bir var hər hansı bir universitetin filialı, bir də var ki, Lomonosov adına Moskva Dövlət Universiteti. Hər ikisi universitetdir, amma fərq ortadadır. Güman edirik ki, fikrimizi çatdıra bildik.

Burada başqa bir məsələ məntiqlə birbaşa bağlıdır. Məntiq aksiomatik əsaslıdır, amma hər bir insanın məntiqi var. Bir kəs başqalarının məntiqini qəbul etmirsə, onun özü məntiqsizdir. Əgər bir adam öz subyektiv anlamına uyğun şəkildə nəyisə dərk edirsə, ictimai var olaraq o sistemə daxil olduğuna görə onu dinləmək bizim mədəni səviyyəmizdir. Əgər yoxdursa, deməli, biz özümüz bu məntiqə söykənə bilmirik. Dolayısı ilə mədəni səviyyəmiz buna imkan vermir. Məlumdur ki, mədəniyyətin 4 elementi var: bilik, bacarıq, vərdiş və birgə yaşayış normaları. Dinləmək birgəyaşayış normalarına daxil edilir.

Onu da qeyd edək ki, dinimizdə də bir insanın fikrini dinləməmək haram sayılır. Bəli, çünki insan, Allahın əmanətidir. Hər hansı bir fikir ruhdur. Söz ruhun varlığıdır, hərəkət formasıdır. Ona görə də, cism olaraq biz yarım cismik, o biri tərəfində sosial bizi tam hala gətirənimiz var. İnsanın ötürdüyü bütün enerjilər ki var, onlar hər hansı şəkildəsə gücə malikdir. Biz nəyisə hökmlə özümüzdən kənar ediriksə, bizim tamlığımızda hansısa elementlər bizdən gen düşüb. Amma biz gerçəkdən var olduğumuza görə, o mütləq hansı şəkildəsə bizi bizə qaytarmalıdır. Bu zaman bizim mədəni səviyyəmiz öz tarixi köklərindən qidalanan, mənəvi keyfiyyətləri tamamilə əks etdirəcəkdir.

Mədəni inkişaf səviyyəsinin formalaşmasında ikinci böyük yük isə təhsil müəssisələrinin üzərinə düşür. Çünki ailədən cəmiyyətə atılan uşaqlar məhz təhsil ocaqlarında kollektiv fəaliyyət nəticəsində hərtərəfli inkişaf edirlər. Burada müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Hər bir müəllim öncə şəxsiyyətdir. O, şagirdlərdə bilik və bacarıqları formalaşdırmaqla yanaşı, onlara nümunə olacaq davranışları da sərgiləməlidir.

Hazırda təhsil sistemində tətbiq olunan kurikulum əsaslı dərs proqramlarının əsas məqsədi təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, empirik biliklərin və səriştənin vacibliyini ön plana çəkməkdir. Səriştəli müəllim əldə etdiyi bilikləri praktik fəaliyyətində də yüksək səviyyədə tətbiq etməyi bacarmalıdır. Bu cür təhsil təbii olaraq sosial-iqtisadi inkişafa daha effektli təsir göstərir ki, buna da yüksək kompotensiyaya malik müəllimlər nail ola bilər.

Müəllimin peşə kompotensiyası onun uğurlu pedaqoji fəaliyyətini əks etdirəcək peşə və şəxsi keyfiyyətlərinin cəmini ehtiva edir. Uğurlu pedaqoji fəaliyyət bütövlükdə əldə edilən bilik və bacarıqların empirik fəaliyyətdə tətbiq olunması bacarığı, sosial həyatda özünü ifadə edə bilmək, dürüst və vicdanlı vətəndaş olmaq, nümunəvi şagirdlər yetişdirə bilmək bacarığını əhatə edir. Yəni bu keyfiyyətləri özündə birləşdirən, onlara sahib olan müəllimlər uğurlu pedaqoji fəaliyyətin peşəkar nümayəndələridir.Bu cür müəllimlər təhsil standartlarına uyğun təlim texnologiyalarının köməyi ilə gənc nəslin yetişdirilməsində yüksək nəticələrə nail olurlar.

Bütün fənlər kimi tarix dərsləri də şagirdlərdə idrak fəallığının təmin edilməsini hər seydən önəmli hesab edir. Burada əsasən iki hal diqqətdə saxlanılır: idrak fəallığının yaradılması və onun davamlılığının təmin edilməsi. Yeni təlimdə tarixin özünəməxsus didaktik tələbləri, metodları mövcuddur. Yeni didaktik tələblər dedikdə problemli vəziyyətin yaradılması, dioloq və əməkdaşlığın zəruriliyi, şagird-tədqiqatçı, müəllim bələdçi, psixoloji dəstək, hörmət və etibar nəzərdə tutulur.

Hazırkı tezisdə mövzunun şərhi üçün aşağıdakı məqsəd və vəzifələr müəyyənləşdirilmişdir.

1. Təhsil standartlarının instutisional əsaslarının elmi şərhini vermək;
2. Bu standartların təhsilin inkişafında əhəmiyyətini müəyyənləşdirmək;
3. Müəyyənləşdirilmiş materiallar əsasında müqayisəli və mərhələli şəkildə tədqiqat aparmaq.

**Ədəbiyyat**


1. Историка культурный стандарт в системе ФГОС: Системный подход к преподованию истории в школу и вузе. Сборник материалов всероссийского семинара. Тула, издателство ТГПУ им. Л.Н. Толстого, 2016.
2. Современные образовательныу технологии. Москва, 2010.
3. Machlup F. The production and Distribution of Knowledge in United States. Princeton, N.J.: PrincetonUniversity Press, 1962.
4. http://istorik-samara.ru/files/Istoriko-kulturnyj_standart.pdf
5. https://scholar.harvard.edu/files/nunn/files/culture_and_historical_process.pdf


## HUMANİTAR FƏNLƏRİN TƏDRİSİNDƏ MOTİVASİYANIN TƏŞKİLİ YOLLARI


**Əliyeva Füruzə Füzuli qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aliyevafiruza7@mail.ru*


Humanitar fənlər məktəbdə öyrənilən ən vacib fənlərdəndir. Məhz bu fənlərin öyrənilməsi tərbiyə işinin təşkili ilə daha çox bağlıdır, çünki məktəbdə həll edilməli olan tərbiyə vəzifələrinin əsas məzmun-semantik yükü dərsdənkənar işə deyil, təhsil prosesinə yönəldilmişdir.

Ümumtəhsil məktəblərində şagirdlərin öyrəndiyi humanitar fənlər onların şəxsiyyət kimi formalaşmasında xüsusi rola malikdir. Söhbət tarix, ədəbiyyat, ana dili, xarici dil, coğrafiya kimi fənlərdən gedir.

Humanitar fənlərin tədrisi prosesində təhsilin müxtəlif sahələrinə aid edilə bilən təhsil vəzifələri həll edilir: mənəvi-əxlaqi, vətənpərvərlik, mülki, ekoloji, iqtisadi, əmək (peşəkar), fiziki, estetik, etik, hüquqi və s. Tədris prosesində təhsil növləri kompleks, ayrılmaz, inteqrativ şəkildə həyata keçirilir. Bu zaman müəllimin tədris etdiyi fənlərin tədris imkanlarından istifadəsində bütün əlaqələri və qarşılıqlı asılılıqları görmək çox vaxt çətin olur.

Təhsilin hər bir istiqaməti məqsəd, məzmun, forma, üsul, nəticələr baxımından müəyyən spesifikliyə malikdir.

Şagirdlərin təhsilində humanitar fənlərin mərkəzi yeri onların şəxsiyyətinin, dünyagörüşünün, şagird münasibətinin, maraq və istiqamətlərinin formalaşmasında aparıcı rolu ilə müəyyən edilir. Humanitar biliklər çərçivəsində dünya insana maddi-təbii şəkildə deyil, mənəvi-semantik şəkildə dərk və şərhə tabe olan dəyər kimi verilir.

Şagirdin səmərəli idrak fəaliyyəti o şərtlə mümkündür ki, şagird yüksək keyfiyyətli təhsil, məlumat mənbələrinə çıxış əldə etsin, öz tədris işlərini təşkil etmək üçün müvafiq bacarıqlara malik olsun, təlim prosesində özünə nəzarət və özünüidarəetməyi, həmçinin müvafiq tədris materialını müəyyən həcmdə və müəyyən vaxtda mənimsəməyi, tədris metod və vasitələrini bilərək onları tətbiq etməyi bacarsın.

Müəllimin sinifdəki ilk vəzifəsi idrak motivlərini aktuallaşdırmaqdan ibarətdir. Motivasiya sahəsi olduqca mürəkkəb bir fenomendir. Onun tədqiqatı ilə həm psixoloqlar, həm də pedaqoqlar məşğul olur. Təlim motivasiyası şagirdləri məhsuldar idraki fəaliyyətə sövq edən, təhsilin məzmununu fəal mənimsəməyə həvəsləndirən proseslərin, metodların, vasitələrin ümumi adıdır. Təlim motivasiyasının inkişafına müəllimlər və şagirdlər birgə təsir göstərir.

Öyrənmək üçün motivasiya fərdin fəaliyyətini, davranışını tənzimləyən aparıcı amildir. Şagird ilə hər hansı pedaqoji qarşılıqlı əlaqə yalnız onun motivasiyasının xüsusiyyətləri nəzərə alınmaqla səmərəli olur.

Motivasiya fəal dərsin ilk mərhələsi olmaqla şagirdləri idraki cəhətdən fəallaşdırır. Onun necə qurulması dərsin digər mərhələlərinə və şagirdlərin mənimsəmə prosesinə təsir göstərir. Bu təsirin müsbət olması üçün müəllim motivasiyanı düzgün qurmalıdır. Humanitar fənlərin tədrisi zamanı motivasiyanı təşkil etmək üçün müxtəlif və rəngarəng yollar vardır. Bunlara anlayışın çıxarılmasını, beyin həmləsini, söz assosiasiası, auksion, BİBÖ, müxtəlif şəkillər və xəritələrdən istifadəni və digərlərini göstərmək olar. Motivasiyanın təşkil zamanı belə üsul və vasitələri seçərkən həm fənnin öz xüsusiyyətlərini, həm dərsin mövzusunu, məqsədini, həm də şagirdlərin maraqlarını nəzərə almaq lazımdır.Müəllimin bu mərhələni düzgün təşkil etməsi təkcə şagirdlərin dərsi mənimsəməsinə maraq yaratmır, eyni zamanda müəllimə dərsin digər mərhələlərinin idarəsində kömək edir.

Şagirdlərdə erkən yaşlarda öyrənmə motivasiyasının inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirərək əminliklə deyə bilərik ki, öyrənmə üçün daxili motivasiyanın inkişafı peşəkar biliklərin əldə edilməsi üçün zəruri şərtdir. Bu, filologiya kimi ixtisasların tələbələri üçün lazımdır, burada əldə edilən biliklərin əhəmiyyəti və aktuallığı çox vaxt gələcək mütəxəssislər tərəfindən lazımi səviyyədə qiymətləndirilmir. Eyni zamanda, burada təlim texnologiyasının seçimi son dərəcə vacibdir. Fəal təlim texnologiyaları şagirdlərə qarşılıqlı fəaliyyət prosesində bilikləri tətbiq etməyə, təşəbbüs göstərməyə, yeni təcrübə və yeni bacarıqlar əldə etməyə imkan verir. Bu biliyin dəyərini dərk etmək şagirdə öz imkanlarını düzgün qiymətləndirməyə, humanitar fənlərin mənimsənilməsinə marağın artmasına, şəxsi və peşəkar yüksəliş istəyinə təsir göstərir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİN NÖVLƏRİ

**Quliyeva Leylaxanım Vüqar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leyla.guliefa98@gmail.com*

Con Dyui və davamçıları tərəfindən təhsil sahəsinə gətirilən layihələr metodu təhsilalanların müstəqilliyini, tənqidi təfəkkürünün inkişafını, əldə etdikləri bilikləri praktikada tətbiq etmək bacarığını təmin edir. Şagirdlərin layihə fəaliyyətinin formalaşdırılması onları müxtəlif problemlərin, o cümlədən təhsil problemlərinin həllində bacarıqlarından yüksək dərəcədə istifadə etmələri üçün lazımdır. Layihələr metodu şagirdlərin öz məqsədlərinə çatmasına yönəlmiş prosesdir. Layihə metodu pedaqoji metod və texnologiyaları məharətlə özündə birləşdirir. Layihədə üstünlük təşkil edən metoda uyğun olaraq, aşağıdakı layihələr növlərini ayırd etmək olar:

- Informasiyayönümlü (məlumat xarakterli) layihələr;
- Tədqiqatyönümlü layihələr;
- Tətbiqi və ya praktikayönümlü layihələr;
- Yaradıcı layihələr.

Informasiyayönümlü layihələr hər hansı bir obyekt, hadisə haqqında məlumat, informasiya toplamaq məqsədi daşıyır. Yəni, bu layihələrin əsas məqsədi müəyyən obyekt və ya hadisə haqqında informasiyanın yığılması, həmin informasiyaının təhlili, ümumiləşdirilməsi və tədqimatının verilməsidir. Belə bir layihənin strukturunu aşağıdakı kimi təyin etmək olar: layihənin məqsədi, aktuallığı, məlumat mənbələri, beyin həmləsi, məlumatın işlənməsi (təhlil, ümumiləşdirmə, məlum faktlarla müqayisə, əsaslandırılmış nəticələr), nəticə (məqalə, referat, hesabat)və təqdimat. Bu cür layihələr, tədqiqat layihələri kimi, yaxşı düşünülmüş struktur, yol boyu sistemli korreksiya imkanları tələb etdiyindən çox zaman tədqiqat layihələri ilə birləşdirilir və onların üzvi hissəsinə, moduluna çevrilir. Informasiyayönümlü layihələr məlumat yığımının konkret obyektinin olmasını, şagirdlərin istifadə edəcəyi mənbələrin müəyyənləşdirməsini, nəticələrin təqdim edilməsinin formalarının seçilməsini tələb edir.

Tədqiqatyönümlü layihələr layihənin strukturunun hərtərəfli düşünülməsini, məqsədlərin düzgün seçilməsini, layihənin bütün iştirakçılar üçün aktual olmasını, onun sosial əhəmiyyətliliyini, habelə metodlardan, təcrübələrdən alınan nəticələrin emalını tələb edir.Bu tip layihələr tədqiqat üçün götürülmüş mövzunun aktuallığını müzakirə etməyi, tədqiqat problemini, onun predmetini və obyektini tərtib etməyi, tədqiqat metodlarını, məlumat mənbələrini müəyyənləşdirməyi, tədqiqat metodologiyasını təyin etmək, elmi tədqiqat metodologiyasını seçməkdən ibarətdir. Həmçinin problemin həlli üçün fərziyyələr irəli sürmək, onun həlli yollarını hazırlamaq, o cümlədən əldə edilmiş nəticələrin müzakirəsi, nəticələri, tədqiqatın gələcək inkişafı üçün yeni problemlərin təyin edilməsi bu layihələrin həyata keçirilməsi üçün vacibdir.

Tədqiqat və ya praktikayönümlü layihələr şagirdlərin fəaliyyətinin dəqiq müəyyən edilmiş nəticələri ilə fərqlənir. Bu layihələr mütləq ki, şagirdlərin şəxsi maraqlarına arxalanmalıdır. Burada iştirakçıların fəaliyyətlərinin ssenarilərin, nəticələrin və son dizaynın verilməsi vacib ünsürdür. Şagirdlər burada real işlər aparmalı və nəticələri təqdim etməlidirlər. bu nəticələr şagirdlərin maraq dairələrinə və məsələlərin aktuallığına əsaslanmalıdır. Belə layihəlırin nəticələri videofilm, reklam, tamaşa formasında və ya bağın salınması, qanun layihəsinin proyekti şəklində təqdim oluna bilər.

Layihələr metodu özündə yaradıcılıq tələb edən metoddur. Hətta ümumilikdə götürsək, bütün layihələri yaradıcı adlandıra bilərik. Yaradıcı layihələrin digər növlərdən fərqi ondan ibarətdir ki, sonda qeyd olunan nəticələr müvafiq dizayn tələb edir. Bu layihə növündə də iştirakçılardan yüksək yaradıcılığa və maraq dairələrinə uyğun dizayna ehtiyac duyulur. Lakin burada birgə əmək və fikir mütləqdir. Məsələn, birgə qəzet hazırlamaq, tamaşada oyun sərgiləmək, esse yazmaq və s. Belə ki, yaradıcı layihələr şagirdlərin qabiliyyət və istedadlarına əsaslanan layihə növü olduğundan onun nəticələri rəsm sərgisi, ədəbi əsərlər, dizayn studiyası kimi verilə bilər.

Əlbəttə, praktikada çox vaxt tədqiqat və yaradıcılıq əlamətləri, eləcə də digər layihələrn növləri qarşılıqlı şəkildə icra oluna bilər. əsas olan odur ki, hazır biliklər şagirdlərin idrak fəaliyyətinin təşkilatçısına çevrilsin.

## KOMPÜTERİN DƏSTƏYİ İLƏ TƏDRİS OLUNAN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNİN ÜSTÜNLÜKLƏRİ VƏ ÇATIŞMAZLIQLARI

**Qurbanova Pəri İman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*periqurbanova2@gmail.com*

Müasir informasiya texnologiyalarının təhsil sahəsinə nüfuz etməsi müəllimlərə təhsilin məzmununu, metodlarını və təşkilati formalarını keyfiyyətcə dəyişməyə imkan verir. Təhsildə bu texnologiyaların məqsədi informasiya cəmiyyətində şagirdlərin intellektual imkanlarının gücləndirilməsi, o cümlədən tədris prosesinin humanistləşdirilməsi, fərdiləşdirilməsi, intensivləşdirilməsi və təhsil sisteminin bütün pillələrində təhsilin keyfiyyətinin yüksəldilməsidir. Bu gün Azərbaycan dilinin tədrisində kompüter vasitələrinin imkanlarından geniş şəkildə istifadə olunur. Azərbaycan dilinin tədrisində kompüter vasitələrinin iştirakının dəstəkləyici xarakteri onlardan istifadənin məqsədəuyğunluğunda özünü tapır. Məktəb kursunun əsas bölmələrində (qrafika, orfoqrafiya, qrammatika, müxtəlif səviyyələrdə nitq inkişafı) kompüter dəstəyi ənənəvi təlim növlərinin kompüter analoqlarında özünü göstərir. Azərbaycan dilinin kompüter dəstəyi ilə tədrisi eyni didaktik sistemə (fərdiləşdirmə, görmə qabiliyyəti, fəallıq, əyləncəli və s.) və düzgün metodoloji prinsiplərə (kommunikativ, yazılı nitqə münasibətdə şifahi nitqin mənimsənilməsini irəli aparan, ədəbi nümunəvi nitq mühiti) tabedir.

Azərbaycan dilinin ilkin tədrisi üçün kompüter dəstəyinin həyata keçirilməsi üçün əlavə fundamental müddəalar aşağıdakılar ola bilər:

❖ didaktik kompüter mühitində nümunəvi ədəbi nitqin qorunması;

❖ kompüter savadının formalaşması ilə əlaqədar Azərbaycan dilinin tədrisi.

Kompüter dəstəyinin formaları (qrup, fərdi, kollektiv, cütlərlə) Azərbaycan dilinin tədrisi formaları ilə əlaqələndirilir və kompüter dəstəyi formalarının seçimi didaktik məqsədlər, materialın öyrənilməsi mərhələləri ilə müəyyən edilir. Azərbaycan dilinin ilkin tədrisində kompüter dəstəyi onların birləşməsinə imkan verən köməkçi və nüfuzedici səviyyələrdə həyata keçirilə bilər. Azərbaycan dilinin kompüter dəstəyi ilə tədrisi tədris materialının məzmununda fənlərarası əlaqələr, onun təqdim edilməsi ardıcıllığı nəzərə alınmaqla şagirdlər üçün texnoloji təlim kursuna əsaslanmalıdır. Ənənəvi vasitələrlə müqayisədə Azərbaycan dilinin tədrisi üçün kompüter vasitələrinin maarifləndirici potensialı aşağıdakı imkanlarla müəyyən edilir:

- şifahi və yazılı nitqin vizuallaşdırılması və səsləndirilməsi əsasında təkrar istehsalı;
- təhsil məlumatlarını təqdim etmək üçün bir neçə formatdan eyni vaxtda istifadə;
- “virtual reallıq” vasitəsilə tədris dili materialının uyğunlaşdırılması və ona batırılması;
- interaktivlik;
- linqvistik hadisələrin müxtəlif modelləşdirilməsi;
- təlimin audiovizual təminatı;
- öyrənmə probleminin həllinə nəzarət;
- kompüter dəstəkli cavabların qurulmasınınmobilliyi.

Bununla belə, orta məktəblərdə Azərbaycan dili fənninin xüsusiyyətləri vəşagirdlərin yaş xüsusiyyətləri kompüter alətlərindən istifadəni genişləndirir.Yazılı nitqin öyrədilməsində kompüter dəstəyi tələbələrin kommunikativ, idrak, yaradıcılıq fəaliyyətinin inkişafına kömək edən kompüter ünsiyyəti sahəsinə daxil olmağa imkan verən internet vasitələrinin inkişafı ilə təmin edilir. Kompüter ünsiyyətinin şagirdlərin yazılı nitqinin inkişafına təsiri birmənalı deyil, buna görə də onun həyata keçirilməsi yazılı nitqin inkişafı üzrə ənənəvi işlərlə birləşdirilərək birgə fəaliyyətlər çərçivəsində pedaqoji cəhətdən tənzimlənməlidir. [2, 186 s.]

Kompüterin dəstəyi ilə tədris olunan Azərbaycan dili dərslərinin çatışmazlıqları sırasında aşağıdakı müddəaları göstərmək olar:

✓ hər bir Azərbaycan dili müəlliminin öz şəxsi kompüterinin olmaması tədris prosesini çətinləşdirə bilər,

✓ kompüter vasitəsilə hazırlanan slaydların, videomətnlərin mövzu ilə bağlılığının az olması,

✓ bəzən təqdim olunan videomətnlərdəki şəkillərin və səslərin uyğunsuzluğu nəticəsində şagird diqqətinin yayınması,

✓ bəzi müəllimlər Azərbaycan dili dərslərini kompüterin dəstəyi ilə deyil, ənənəvi qayda ilə tədris etməyi daha asan hesab etməsi.

Bu gün kompüterdən istifadə bacarığına yiyələnmək və təlim prosesində ona istinad etmək müəllimin intellektual səviyyəsinin göstəricisi kimi çıxış edir [1, 155 s.].

Nəticədə, Azərbaycan dilininkompüterin dəstəyi ilə tədrisi zamanı dərsin səmərəliliyi artır, şagirdlərinbilik və bacarıqları inkişaf edir, həmçinin şagirdlərin kompüter savadlılığının artımı “başlanğıc” istifadəçi səviyyəsindən “inamlı”, “təcrübəli” istifadəçi səviyyəsinə yüksəlir.

**Ədəbiyyat:**


1. Balıyev H.H., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı:Qismət, 2014, 384 səh.
2. Bannikov S.V. Müəllimin işində kompüter texnologiyaları. / Sinif rəhbərinin dərsliyi. - 2007. № 12.
3. Bespalko V.P. Kompyuterlərin iştirakı ilə təhsil və təlim (III minilliyin pedaqogikası): Dərslik.-Metod. müavinət / V.P.Bespalko. M.: MPSI; Voronej: NPO "MODEK", 2002.
4. Kapitanskaya A.K. İnformasiya və kommunikasiya texnologiyalarından istifadə edərək dərsin tərtib edilməsi http://www.mec.tgl.ru/pages/Kubischka/konsturoka.doc

5. Kodzhaspirova G.M., Petrov K.V. Texniki tədris vasitələri və onlardan istifadə üsulları. Moskva. From. AKADEMİYA. 2008.

## PEDAQOJİ İŞÇİLƏRİN PEŞƏKARLIĞINI ARTIRMAQ TƏHSİLDƏ KEYFİYYƏTİ YÜKSƏLDƏN ƏSAS AMİL KİMİ

**Paşayeva Aysel Füzuli qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ayselpasha97@gmail.com*

"Heç bir millət qılınc, tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür".

XIX əsrin görkəmli maarifçisi Nəriman Nərimanova aid olan bu fikir danılmaz bir həqiqətdir ki, bugün də öz aktuallığını və gücünü qorumaqdadır. Bəli, bugün təhsil sahəsində, elmdə əldə etdiyi nailiyyətlər hər bir dövlətin inkişafının əsas göstəricisidir. Artıq təhsil sahəsindəən vacib amil insan kapitalıdır. Bu sahədə çalışanların müasir kompetensiyalara sahib peşəkar bir şəxs olması dünya ölkələrində olduğu kimi Azərbaycanda da əhəmiyyəti artan məsələlərdən biridir. 2013-cü il 24 oktyabr tarixli sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndadeyilən - "Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir... Müəllim fəaliyyətinin keyfiyyəti artırılmalıdır" - fikri də onun təsdiqidir. Burada müəyyən edilən əsas beş strateji istiqamətdən ikincisində insan resurslarının müasirləşdirilməsi nəzərdə tutulmuşdur ki, bunun üçün mütərəqqi addımlar atılmaqdadır. Araşdırmalardan və təcrübələrdən də bu nəticəyə gəlmək olur ki, təhsil müəssisələri nə qədər mükəmməl maddi-texniki, tədris bazası, infrastruktura və texnoloji avadanlıqlara malik olursa olsun,pedaqoji işçiləri tam yerində olmazsa və peşəkarlığın artırılmasına önəm verilməzsə, keyfiyyət əldə edilə bilməz.Təhsilalanlarda standartlara uyğun bilik və bacarıqların formalaşdırılması səviyyəsi təhsil işçilərinin də təyin olunmuş keyfiyyət göstəricilərinə sahib olmalarından olduqca asılıdır.

Bilirik ki, təhsil sonu olmayan bir öyrənmə prosesidir. Artıq "ömür boyu təhsil" və "davamlı təhsil" anlayışlarına pedaqoji ədəbiyyatlarımızda tez-tez rast gəlinməkdədir. İnsanlar yalnız davamlı olaraq rəsmi və ya qeyri-rəsmi fəaliyyətlərə qoşularaq, öz üzərində davamlı işləyərək sahəsində uğur qazana bilər, dövrün sürətlə dəyişən tələbləri ilə ömür boyu təhsil vasitəsilə ayaqlaşa bilərlər.Təhsil işçiləri - menecerlər,psixoloqlar,xüsusən də pedaqoqlar öz peşəkarlığı və bacarıqlarını artırmaq üçün xüsusi planla hərəkət etməli,yenilikləri mənimsəmək üçün hər gün "Dama-dama göl olar" düşüncəsi ilə çalışmalıdırlar. Burada özünü təkmilləşdirməklə bərabər pedaqoji işçiləri istiqamətləndirən də idarəedici şəxslərdir. Özündə olmayan səriştəni, bacarığı qarşısındakı müəllimdən tələb edən menecerlərə də rast gəlmək mümkündür.Menecer ilk növbədə özündə dəyişikliklər etməlidir.

Ötən əsrin 90-cı illərindən başlayaraq təhsildə davamlı inkişafyönümlü işlər görülür. Təhsilin məzmunu, ona bələdçi olan sənədlər, standartlar yenilənmiş, bu sahədə çalışanların bacarıq və qabiliyyətlərinə olan tələblər dəyişmişdir. Ümumtəhsil müəssisələrində keyfiyyəti qiymətləndirmək üçün Təhsil Nazirliyi tərəfindən keyfiyyət standartları hazırlanmışdır ki, bu standartlar da 5 əsas fəaliyyət sahəsi üzrə qruplaşdırılmışdır: Məktəbin idarə olunması, pedaqoji heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, təlim-tərbiyə prosesinin təşkili və idarə olunması, şagird şəxsiyyətinin formalaşdırılması, məktəbin valideynlər və ictimaiyyətlə birgə fəaliyyəti.

Pedaqoji heyətin əsas üzvü olan müəlliminpeşəkarlığıpedaqoji fəaliyyətə hazırlıq və onun həyata keçirilməsi prosesində baş verən hadisədir.Ali məktəblərdə pedaqoji fəaliyyətə hazırlıq mərhələsində psixologiya və pedaqogika ilə bağlı təsəvvürləritətbiqetmə bacarığına malik olmadannəzəriyyə səviyyəsində saxlamaq, bilikləri bacarıqlardan üstün tutmaq, peşəyə

sevgini, pedaqoji mədəniyyəti, pedaqoji ünsiyyət qabiliyyətini diqqətdən kənarda qoymaq yeni kadrın gələcək fəaliyyətini çətinləşdirən səbəblərdir. İbtidai və orta təhsil səviyyələrinin idarə edilməsində isə vacibdir ki, təhsil işçilərinin-müəllimlərin davamlı peşəkar inkişafını təmin etsinlər, nəinki şagirdlərində ən yaxşı öyrənmə nəticələrini müxtəlif yollarla ortaya qoysunlar. Onsuz daşagirdlərdə yaxşı öyrənmə nəticələrinin əsasında pedaqoji işçilərin- təhsilverənlərin peşəkar inkişafının dayanması məlum məsələdir.

Tədqiqatlar göstərmişdir ki, şagird nailiyyətləri müəllimlərin peşəkarlığının artırılması nəticəsində 21 faizə qədər yüksələcəkdir. Müəllimlik ixtisasına yiyələnmədədövrün ən böyük tələbi peşəkarlıqdır. Bütün karyera ərzində müəllimlərə təcrübə və bilik kifayət deyildir və olmayacaqdır. Ayrı-ayrı ölkələrdə təhsil işçilərinin peşəkarlığı və səriştəsinin ölçülməsi üçün qiymətləndirmədən - sertifikatlaşdırmadan istifadə olunur. ABŞ-da müəllimlərin milli peşə standartları hazırlanmışdır ki, bu da "çərçivə" xarakteri daşıyır. Sertifikatlaşdırma əsasında 5-10 il qüvvədə olan NBPTS (National Board for Professional Teaching Standards)sertifikatı əldə olunur. Bu sertifikat peşədə yüksək nailiyyətlərin sübutu olmaqla xaricdə müəllimlər üçün peşəkar inkişaf yollarınıaxtarmaq və şagirdlərə yaxşı təlim verməklə bağlı mövcud təhsil standartlarına riayət etmək üçün əsas seçimlərdən biridir. NBPTS sertifikatı olmayan müəllimlərin şagirdləri ilə müqayisədəona malik olan müəllimlərin dərs dediyi şagirdlərin bütün fənlərdən daha yüksək bal topladığı təsdiqlənmişdir.

Təhsil texnologiyasının yeniləşməsi, məktəblər üçün təlimatlarvə kurikulumlar üçün standartlar daim dəyişir, müəllimlərin təhsil sahəsindəki tendensiyalarla, ən yaxşı qabaqcıl pedaqoji təcrübələrlə ayaqlaşmalarını çətinləşdirir. Müəllimlərin peşəkar inkişafı nəticəsində bu gün tələbələr üçün faydalı və fərdiləşdirilmiş dərslər hazırlamaq mümkün olur. Bu müəllimləri daha güclü pedaqoqlara çevirir.

Dövrümüzdə təhsil və tərbiyənin funksiyası getdikcə artır, bir sıra keyfiyyətlər xüsusilə ön plana çıxır: rəqabətqabiliyyətli olmaq, çevik ağıla malik olmaq, yeni texnologiyaya yiyələnmək, problem həlletmə qabiliyyəti, stressi idarə edə bilmək və digər vacib keyfiyyətlər. Bu səbəbdən ali təhsil müəssisələrində belə kadrların hazırlanmasına diqqət yetirilməlidir.

Ümumilli lider Heydər Əliyevin "Müəllim sənəti, peşəsi cəmiyyətdə yüksək qiymətə layiq olan bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur. Çünki onlar xalqın elminin inkişaf etməsinin əsasını qoyanlardır" – deməsi də təhsil sahəsində yüksək nəticələrin müəllimdən asılı olduğu fikrini dəstəkləyir.

## TARİX DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRDƏ SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASININ DİDAKTİK VƏ TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

**Əhmədzadə Aysun Əlövsət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aysunehmedova98@gmail.com*

***Açar sözlər:*** *siyasi mədəniyyət, mənavi tərbiyə, siyasi şüur, siyasi təcrübə, siyasi əqidə*
***Ключевые слова:*** *политическая культура, нравственное воспитание, политическое сознание, политический опыт, политическая вера*
***Key words:*** *political culture, moral education, political consciousness*

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycandakı suverenliyi əmin-amanlığı qorumaq üçün ölkə vətəndaşlarının intellektual, milli adət ənənələrə hörmət edən, milli və ümumbəşəri dəyərləri qoruyan, demokratik amillərə hörmət edən vətəndaşlara ehtiyacı vardır. Bu təhsil vəzifələrinə yiyələnməyin əsas yollarından biri də ölkədə siyasi mədəniyyəti yüksək olan şəxslər yetişdirməkdir. Buna isə yalnız orta təhsil müəssisələrində keçirilən tarix dərsləri zamanı şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmaq yolu ilə nail olmaq olar.

Hal-hazırda vətənimizi hər an müdafiə etməyə hazır güclü ordumuz vardır. Lakin cəmiyyətimizdəki siyasi mədəniyyəti yüksək olan hər bir vətənpərvər şəxs düşmənlərə qarşı həm də siyasi təfəkkürü ilə siyasi düşüncə tərzi ilə mübarizə aparmağa qadir olur. Düşüncə ilə aparılan mübarizə isə istənilən güclü silahdan üstündür.

Məktəblilərdə siyasi şüurun formalaşdırılması, onları siyasi cəhətdən sayıq və yetkin edir. Bu isə gələcəkdə Azərbaycanın idarəçiliyində yer alacaq şəxslərin düzgün yetişdirilməsi və əxlaqi baxımından da çox vacibdir. Şagirdlərdə siyasi sayıqlığı isə yalnız siyasi mədəniyyəti formalaşdırmaqla əldə edə bilərik.

Siyasi mədəniyyət – nəsillər boyu formalaşan siyasi ənənələr, siyasi təcrübənin qüvvədə olan normalarını, ictimai-siyasi təsisatların qarşılıqlı münasibətlərinə aid olan ideyaları, konsepsiyaları və inamları, insanların mövcud olan qaydalara münasibətini müəyyən edən prinsipləri və oryentasiyaları əhatə edir [1, s.54]. Siyasi mədəniyyət vətəndaş və hakimiyyət arasındakı qarşılıqlı münasibətlərə aid olan mövqelərin, sərvətlərin və davranış məcəllərinin məcmusudur.

Siyasi mədəniyyətdir mənəvi tərbiyənin komponentidir. Siyasi mədəniyyət özündə insanın maddi və mənəvi həyat tərzini, əmək şəraitini, təhsil və bilik səviyyəsini, ictimai-siyasi fəaliyyətini dialektik qarşılıqlı əlaqəsini təmin edən keyfiyyətlər sistemidir. Şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması motivləşdirən ictimai şüur formalarına elmi, dini, iqtisadi, estetik, siyasi, hüquqi, əxlaqi, fəlsəfi, ekoloji daxildir.

Siyasi mədəniyyət ictimai həyatın ayrılmaz hissəsidir. Əgər cəmiyyətdə demokratiya, demokratik təsisatlar və ənənələr lazımi səviyyədə inkişaf etməmişdirsə, həmin cəmiyyətin üzvlərində siyasi mədəniyyət də lazımi səviyyədə ola bilməz.

Siyasi mədəniyyət mənəvi tərbiyənin bir komponenti olmaqla yanaşı, cəmiyyətdə mövqe tutmaq, onu dərk etmək istəyən, öz mövcudluğunu təmin etmək üçün mübarizə aparan insanın əqli nəticələrinin bir növ məcmusudur.

Siyasi mədəniyyət ümumi əhəmiyyət kəsb edən siyasi biliklərin səviyyəsi və xarakterini səciyyələndirir, vətəndaşların siyasi təcrübə ilə şərtlənən fəaliyyətini və davranışını ifadə edir. Eyni zamanda siyasi mədəniyyət siyasi davranışın müəyyən tiplərinin formalaşmasına imkan yaradır və ona spesifik istiqamət verir [2, s.202].

Siyasi mədəniyyət problemi mənəvi tərbiyənin xüsusi komponenti və onun tərkib hissələrindən biridir. Ümumiyyətlə, mədəniyyət ictimai həyatın bütün sahələrində özünü göstərən geniş mahiyyətli hadisədir. İnsanların fəaliyyətinin əsas növlərinə uyğun olaraq mədəniyyət iki qrupa bölünür: maddi mədəniyyət, mənəvi mədəniyyət. Maddi mədəniyyətə insanların yaratdıqları maddi dəyərlər daxildir. Mənəvi mədəniyyət mənəvi istehsalı, ideyalar istehsalını (idrak, əxlaq, maarif, hüquq, fəlsəfə, etika, estetika, elm, incəsənət, ədəbiyyat, din və s.) əhatə edir. Məhz bu baxımdan siyasi mədəniyyəti mənəvi mədəniyyətə aid edirlər.

Problemimiz baxımından siyasi mədəniyyətin təhsil və tərbiyə funksiyaları xüsusi əhəmiyyət kəsb edir. Təhsil funksiyalarının məzmunu siyasi ideyaların, nəzəriyyələrin və biliklərin mütəşəkkil, məqsədyönlü, sistemli və ardıcıl şəkildə əhalinin şüuruna çatdırılmasında ifadə olunur.

Tərbiyə funksiyası adamların sosial-siyasi təcrübəsinin zənginləşməsində, onlarda müəyyən siyasi əqidənin formalaşmasında özünü göstərir. Təhsil və tərbiyə funksiyalarının qarşılıqlı əlaqəsi insanın faydalı sosial fəaliyyətə, səmərəli konkret sosial-siyasi davranışa sövq edilməsinə ciddi təsir göstərir.

Problem baxımından proqramların, dərsliklərin imkanlarını araşdırarkən aydın olur ki, ictimai şüur formalarının mənimsənilməsinə yönəldilmiş mövzular kifayət qədərdir. Dövlət əmin-amanlığın, xalqın təhlükəsizliyinin təminatçısıdır. Sərhədlərin toxunulmazlığını, millətin varlığını, xalqın adət və ənənələrini, milli dəyərləri qoruyub saxlamaqda əvəzsiz rola malikdir. Ona görə də tarix təliminin məzmununda dövlətin rolu obyektiv işıqlandırılmalıdır. Təlim prosesində şagirdlərə elmi, dini, iqtisadi, estetik, siyasi, hüquqi, əxlaqi, fəlsəfi və ekoloji şüur formaları aşılanmalıdır.

Şagirdlərin siyasi mədəniyyətinin formalaşmasında siyasi informasiyanın mühüm əhəmiyyəti var. Bununla bütün fənn müəllimləri, əsasən də tarix müəllimləri məşğul olmalıdır. Siyasiya informasiyanın məqsədləri: müasir siyasətə marağın oyadılması, qəzetlə müstəqil iş bacarığının formalaşdırılması, hadisələrin analizinə obyekiv münasibətin tərbiyə olunması, auditoriya qarşısında çıxış etmək bacarığını inkişaf etdirmək və s.

Ümumtəhsil məktəblərində tarix üzrə beş əsas məzmun xətti – tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət götürülüb. Tarix fənninin təhsilin hər hansı pilləsində tədris olunmasına baxmayaraq sadalanan məzmun xətlərinin tələblərinə uyğun tədris edildikdə təhsilalanlarınformalaşmasına motiv yaranır. Bu proses texniki peşə, orta ixtisas və ali məktəblərin proqram və dərsliklərində də öz əksini tapmışdır.

Pedaqoji prosesdə təhsilalanlara göstərilən təsirlər yaranmış daxili ziddiyyətlərin həllinə yönəldikdə inkişaf daha səmərəli nəticələr verir, fəallıq təmin olunur, o, öz üzərində daha səylə çalışır.

Azərbaycan tarixinin kurikulum üsulu ilə tədrisi zamanı ibtidai icma quruluşundan başlayaraq müasir dövrümüzə qədər olan hadisə və proseslərin şagirdlərə öyrədilməsi, baş verən bu hadisə və proseslər arasında təhlil, müqayisələr, ümumiləşdirmələr, səbəb-nəticə əlaqələrinin tapılması bacarığını formalaşdırmaq, ümumdünya mədəniyyətinə maraq yaradıb onu qorumağa sövq etmək, Azərbaycan tarixi ilə bağlı biliklərlə digər ölkələrin tarixi ilə bağlı bilikləri əlaqələndirib şagirdlərdə yaşadıqları ərazinin ümumi dünyanın bir parçası olması haqqında inam formalaşdırmaq kimi tələblər qoyulmuşdur. Bu tələblər dolayı yolla siyasi mədəniyyətin formalaşmasına da təkan verən amillərdən sayıla bilər.

Demokratik cəmiyyətdə vətəndaşlar hüquqlarının müdafiəsi üçün minimum siyasi mədəniyyətə malik olmalıdırlar. Deməli vətəndaşlarda siyasi mədəniyyəti formalaşdırmaq zərurəti meydana çıxır. Bu zərurətdən irəli gələn məsələlərdən biri də tarix təliminin məzmununda olan dövlətçilik, mədəniyyət və şəxsiyyətlə bağlı olan mövzuların tədrisində şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmaqimkanlarından yetərincə istifadə edilməsidir.

Şəxsiyyəti formalaşdırmaq üçün biliyi əqidəyə çevirmək lazımdır. Müxtəlif pedaqoji üsullardan dönə-dönə istifadə edilməsi nəticəsində təhsilalanların şəxsiyyəti mərhələ-mərhələ formalaşır. Bunun üçün tarix müəllimləri aşağıdakı şərtləri gözləməlidirlər:

1) ictimai şüur formalarının təhsilalanlar tərəfindən mənimsənilməsi, ictimai-siyasi məsələlərin reallıqla dərk edilməsi, hər hansı məsələdə Azərbaycanın siyasi dövlət və ictimai-ümumxalq mənafeyinin müdafiə olunması zəruriliyinin əsaslandırılması və onların fəaliyyətlərinin bu ruhda davametdirilməsi;

2) təhsilalanların daxili inamı sayəsində azərbaycançılığa, vətənpərvərliyə yiyə-lənmələrinə nail olunması;

3) təhsilalanların mərhələlərlə ictimai-siyasi proseslərdə iştiraka hazırlanmaları. Yəni orta ümumtəhsil məktəblərində təcrübi xarakter daşıyan tədbirlərin keçirilməsi ilə şagird şəxsiyyətinin siyasi yönümdə inkişaf etdirilməsinə nail olunmasıdır.

Hüququ və qanunu yaxşı bilən şagird sosial-siyasi hadisələrdən kifayət qədər baş çıxara bilir. Bu baxımdan tarix müəllimləri məktəbdə hüquq təliminə və tərbiyəsinə bilavasitə rəhbərlik etməlidirlər. Görkəmli metodist-alim N.Q.Dayri yazır: "Şagirdlərə öyrədiləcək təlim materialının həcmi, məzmunu müəyyənləşdirilməli və mənimsəniləcək anlayışlar dəqiqləşdirilməlidir" [3, s.87].

Ümumilikdə siyasi mədəniyyətlə bağlı xarici və Azərbaycan tədqiqatçılarının fikrinə əsaslanaraq belə qənaətə gələ bilərik ki, siyasi mədəniyyət özünü insanın bütün fəaliyyət sahələrində göstərir. Onun sayəsində insan öz hüquq və maraqlarını müdafiə etmək bacarığına yiyələnir, cəmiyyətin sosial amilinə çevrilə bilər [4, s.66]. Dəyişən mühitə adaptasiya olaraq öz şəxsi mövqeyini nümayiş etdirir. Müasir dövrümüzdə də siyasi mədəniyyət əsas tədqiqat obyekti kimi qalmaqdadır. Bu mövzu ilə bağlı tədqiqatlar bu gün də davam edir.

Ümumiləşmiş şəkildə deyə bilərik ki, tarix dərsliklərində elmi, dini, iqtisadi, estetik, siyasi, hüquqi, əxlaqi, fəlsəfi və ekoloji şüuru özündə ehtiva edən mövzular didaktikanın tələblərinə uyğun tədris edildikdə təhsilalanlarda siyasi mədəniyyətin formalaşdırılmasına zəmin yaranır. Sənətini sevən hər bir müəllimə belə didaktik imkandan istifadə etməlidir.

Şagirdlərdə siyasi mədəniyyətin pedaqoji psixoloji əsaslarını formalaşdıran zaman bütün məktəb kollektivi əlbir hərəkət etməlidir. Şagirdlərin sosial fəallığının artırılmasında məktəb rəhbərliyi və fənn müəllimi başda olmaqla ümumi pedaqoji kollektiv və digər təşkilatlar da var gücü ilə çalışmalıdır [5, s.97]. Azərbaycan tarixi dərslərində şagirdlərdə siyasi mədə-niyyətin pedaqoji və psixoloji əsaslarının formalaşdırılma prosesinin məzmunu, forma və metodları ölkəmizin milli mənafeyinə, daxili və xarici siyasətinə uyğun təşkil edilməlidir.

**Ədəbiyyat:**


1. Əfəndiyev M.Ə. Siyasi elmin əsasları. Bakı, Siyasət, 2004, 603 s.
2. Əhmədli C. Cəmiyyət, siyasət, ideologiya. Bakı: Siyasət, 1998, 235 s
3. Əmirov M.M. Tarix dərslərində şagirdlərdə elmi dünyagörüşün formalaşdırılması. Bakı: "ADPU-nun nəşriyyatı", 2014, 126 səh.
4. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası, Bakı: "ADPU-nun nəşriyyatı", 2014, 707 səh
5. Əmirov M.M. Tarixin tədrisində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi. Bakı: "Mütərcim nəşriyyatı", 2004, 174


## İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ ÜZRƏ CARİ VƏ PERSPEKTİV PLANLAŞDIRMANIN PROBLEMLƏRİ


**Vələdova Fidan Cabir qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*veledova.fdn@gmail.com*


Hər bir ölkənin əsas özəyi onun savadlı cəmiyyətdən ibarət olmasıdır ki, bunun üçündə, ilk növbədə, təhsil və təhsilin planlaşdırılmasına xüsusi diqqət ayırmaq vacib məsələlərdəndir. Təhsilin yüksək səviyyədə olması gələcəyə inamlı və möhkəm addımların atılması deməkdir. Plan təsərrüfatın istənilən sahəsinin bünövrəli iş icrasını özündə cəm edir. Təhsildən istənilən nəticələrin əldə edilməsi üçün mütləqdir ki, onun öncədən düzgün planlaşdırılması təşkil edilsin. Təhsil alanların əsas hüquqlarından biri keyfiyyətli təhsil almaqdır. Lakin bugün real olan odur ki, təhsilin istər cari, istərsədə perspektiv planlaşdırılmasında bir sıra problemlər ilə hələ də qarşılaşırıq. Xüsusilə ibtidai siniflərdə Azərbaycan dili üzrə belə vəziyyətlə daha çox rastlaşmaq mümkündür. Tədqiqat zamanı onlaröyrənilmiş, nəzəri və praktiki fəaliyyətə təsir edən problemlər olmaqla aşağıdakı kimi ümumiləşdirilmişdir.

1. İbtidai siniflərdə ənənəvi təlim metodu ilə dərs keçən bir çox təcrübəli Azərbaycan dili müəllimlərinin yeni fənn proqramlarını tətbiq edərkənfəal təlim metodlarına keçmək istəklərinin olmaması, yaxud buna münasibət bəsləməmələri.
2. Təhsil müəssisələrinin elmi-texniki təchizatının hələdə tamamlanmaması.
3. Şəhər və kənd məktəblərindəAzərbaycan dili təlim prosesinin qurulması və mək-təblərin əyani vəsaitlərlə təmin edilməsi baxımından böyük fərqlərin olması.
4. İbtidai sinif müəllimlərinin yeni fənn proqramı əsasında cari və illik planlaşdırmanın aparılmasına dair maarifləndirici təlimlərin təşkilinə zəif yanaşması.
5. Cari və illik planlaşdırmada nəzərdə tutulan təlim materiallarının və onlar əsasında formalaşdırılan bacarıq və səriştələrin valideyinlər tərəfindən şagirdlər üçün çətinlik və artıq yüklənmə kimi qəbul edilməsi və onaların mənimsənilməsinəbiganə yanaşılması. Bu münasi-bətin müəllimin tədris fəaliyyətində çətinlik yaratması.

Cari və perspektiv planlaşdırma zamanı qarşıya çıxan praktiki problemlərin bir çoxu Azərbaycan dili dərsi deyən müəllimlərin metodiki bacarıqları ilə zəncirvari formada əlaqədardır. Metodiki bacarığından asılı olaraq istər ənənəvi, istərsə də fəal təlim metodu ilə dərs keçən müəllim yeni dərsin mənimsədilməsi prosesini şagirdlər üçün rəngarəng və əyləncəli formaya sala bilər.

6. Bir dərs saat ərzində aktiv fəaliyyətin aparılması zamanı dərsin mərhələlər üzrə düzgün vaxt bölgülərinə uyğun olaraq aparılmaması və müəllimin bu baxımdan risklərlə qarşılaşması. Bu da bəzi mərhələlərin icrasına səthi olaraq ötəri şəkildə yanaşılmasına gətirib çıxarır ki, nəticədə nəzərdə tutulmuş məqsədə tam nail olmaq işində bəzi çatışmazlıqlar meydana çıxmış olur.

7. Təlim prosesi zamanı sinfin idarə edilməsində, şagirdlərin nizam-intizam qaydalarına riayət etməsində müəllimlərin çətinlik çəkməsi.

8. Valideyinlərin şagirdlərin bal sistemi ilə qiymətləndirilmələrinə etiraz etməsi, ənənəvi olaraq 4,5 qiymətləndirmə sisteminin tələb etmələri.Müşahidələr göstərir ki, bu baxımdan ibtidai siniflərdə Azərbaycan dili dərsi deyən müəllimlər, eləcə də məktəblər hələ də şagirdlərin dərsin bütün mərhələləri üzrə qiymətləndirilməsində böyük problemlər yaşayırlar.

9. Cari dərsin planlaşdırılması zamanı bəzi müəllimlərin dərsin məzmununa uyğun düzgün metod və üsul seçə bilməməsi.Yaxud ümümi tapşırıqlar ilə aktiv şagird fəaliyyətinə səthi yanaşması.

10. Tədqiqat sualına uyğun işçi vərəqlərinin hazırlanmasında çətinlik çəkmələri.

Bütün bunlar ümumi olaraq təhsil keyfiyyət səviyyəsinin yüksəlməsinə mane olan problemlər kimidiqqəti cəlb edir. Onların həlli yollarının tapılması üçün isə yekdil şəkildə ümumi olaraq birgə çalışmaq, bu problemlərin aradan qaldırılmasına nail olmaq vacib hesab edilir. Odur ki,istər məktəb rəhbəri, istər müəllim, istərsə də valideyn kollektivi təlimin cari və perspektiv planlaşdırılmasında maraqlı olmalı və həyata keçiriləcək tədris işlərindəqarşılıqlı fəaliyyət qurmağa çalışmalıdırlar.

## İBTİDAİ SİNİF DƏRSLİKLƏRİNDƏ ƏXLAQİ DƏYƏRLƏRİN ƏHƏMİYYƏTİ VƏ ROLU

**Nuriyeva Gülanə Tərlan qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gulanehuseynovaHG@gmail.com*

İbtidai təhsil ümumtəhsil sisteminin ilk pilləsi olmaqla gələcək təhsilin əsasını qoyur Bu təhsil mərhələsində kiçik yaşlı məktəblilərə yoldaşlıq və dostluq, sadəlik və təvazökarlıq, yaxşılıq və xeyirxahlıq, böyüklərə hörmət, dostluq və yoldşalıq, düzlük və doğruçuluq, vətənpərvərlik, təbiətə sevgi, məhəbbət və qayğı və s. kimi əxlaqi keyfiyyətləri aşılanır. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi bu sahədə ən etibarlı, ən zəngin və formalaşmış bir vasitədir. Xalqın yaratdığı ən müqəddəs milli mənəvi dəyərlər onun mənəviyyatını, tarixini, pedaqoji-psixoloji ideyalarını özündə əks etdirən, yaradan, yaşadan, nəsildən-nəslə ötürdüyü milli sərvəti olan ana dilidir.

Qeyd edək ki, məktəb illərində, ilk növbədə isə, ibtidai siniflərdə həm təlim və həm də tərbiyə prosesində kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsi daim xüsusi diqqət mərkəzindədir. Kiçik yaşlı məktəbliləri milli-mənəvi, əxlaq tərbiyəsi ruhunda tərbiyə etmək üçün, ilk növbədə, onlara milli-mənəvi dəyərlərimizi, ana dilimizi, milli adət-ənənələrimizi dərindən mənimsətməliyik.

Ümummilli liderimiz, ulu öndərimiz Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə, xüsusilə müstəqillik dövründə yetişən gənc nəslin milli-mənəvi rugda, əxlaqi dəyərlər əsasında tərbiyə edilməsini başlıca vəzifə kimi qarşımıza qoymuşdur. Dahi rəhbər Gənclərin Birinci Ümumrespublika Forumunda bu məsələyə xüsusi diqqət yetirərək demişdir: *“Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın fəaliyyətində formalaşmışdır. Milli-mənəvi*

*dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz"* .

Bəli, xalqı, milləti millət edən onun milli-mənəvi dəyərləri, milli əxlaqıdır. Buna görə də, indi başlıca vəzifə xalqımızın milli adət-ənənələrini, milli əxlaqi və mənəvi dəyərlərini yaşadan, onu daha da inkişaf etdirən, onları gələcək nəsillərə ötürə bilən şəxsiyyətlər, vətəndaşlar tərbiyə etməkdən ibarət olmalıdır.

Məktəb təkcə bilik təlim müəssisəsi deyil, o həm də şagirdlərin inkişafını təmin edən tərbiyə, əxlaq, mənəviyyat məktəbidir. Burada uşaqlar geniş biliklər əldə etməklə yanaşı, hərtərəfli tərbiyə olunur, həyati estetik vərdişlərə, mədəni etik davranışlara, xəlqilik, millilik, vətənpərvərlik dəyərlərinə yiyələnirlər. Kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsinə müxtəlif amillər, vasitələr təsir edir. Bunların içərisində isə ibtidai sinif dərsliklərinin, xüsusilə I-IV sinif Azərbaycan dili dərsliklərinin böyük rolu və əhəmiyyəti vardır.

Bu dərsliklərdə verilən bədii mətnlərin, bədii parçaların kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində böyük rolu və əhəmiyyəti olduğunu qeyd edərkən həmçinin uşaqlarda aşılıancaq əxlaqi keyfiyyətlərin ümumi şəkildə təsnifatını göstərə bilərik: Sadəlik və təvazökarlıq, düzlük və doğruçuluq, mərhəmət və qayğıkeşlik, vətənpərvərlik və əməksevərlik, böyüklərə hörmət, diqqətlilik və həssaslıq və s.

Azərbaycan dili dərsliklərindən istifadə edərək ibtidai sinif şagirdlərinin əxlaq tərbiyəsi ilə məşğul olmaq üçün sinif müəllimin əlində geniş imkanlar vardır. Nümunə üçün IV sinif Azərbaycan dili dərsliyinin bölmələrinə baxaq. Bu dərslikdə mətnlər 8 bölmə üzrə qruplaşdırılmışdır ki, onlar aşağıdakılardır: 1.Ailə və məktəb; 2. Niyə belə deyirik; 3 Əməksevərlik; 4.Yüz min niyə; 5. Dostluq; 6. Ana təbiət; 7. Əxlaqi dəyərlər; 8. Kainatın sirləri. Bu bölmələrdən 7-ci bölmə bilavasitə əxlaq tərbiyəsi ilə bağlı olsa da digər bölmələrdə verilən mətnlərin hər birində şagirdlərdə əxlaqi keyfiyyətlər formalaşdırmaq üçün müəllimin əlində geniş imkan və yollar vardır [5]. Bu bölmələrdə verilən bədii parçalar uşaqların davranışı haqqında (Ailə və məktəb bölməsində), məmləkətimizin şəhərləri, yurdumuzun təbiət gözəllikləri, dağları, çayları, gölləri (Ana təbiət bölməsi), kainatda baş verən təbii hadisələrin sirri (Kainatın sirrləri bölməsi), nəcib insanlar, əxlaqi keyfiyyətlər (Əxlaqi dəyərlər bölməsi) barədə ətraflı söhbət açmalıdır.

Müəllimin bədii mətnlərin oxusu zamanı xalqımızın sülhsevərliyi, vətənpərvərliyi, comərdliyi, mübarizliyi, dövlətçiliyi, şərəf, ləyaqəti, namus və vicdan məsələlərini, dostluq və yoldaşlıq, sədaqətlilik, ədalətlilik və s. kimi milli-mənəvi dəyərlərin mahiyyətini şagirdlərə aşılaması çox vacibdir. Kiçikyaşlı məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi işini asanlaşdırmaq məqsədilə "Azərbaycan dili" dərsliklərinə müxtəlif bədii mətnlər - şeir, hekayə, rəvayət, nağıllar, dastanlardan parçalar, təmsillər, atalar sözləri və məsəllər, tapmacalar daxil edilmişdir. Həmin materiallar şagirdlərin şüuruna və hisslərinə təsir göstərmək, mənəvi mövzuda söhbətlər aparmaq üçün əlverişli imkan yaradır. Bu cəhətdən məktəblərdə, xüsusən ibtidai siniflərdə Azərbaycan dili dərslərinin imkanlarından daim səmərəli istifadə edilməlidir.

## SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏR VASİTƏSİLƏ ŞAGİRDLƏRİN QƏHRƏMANLIQ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI YOLLARI

**Musayeva Humay Novruz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*umaymusayeva1998@gmail.com*

Müstəqil Azərbaycan Respublikasının ləyaqətli, mərd, qəhrəman vətəndaşlarının formalaşmasında təlimlə yanaşı sinifdənxaric işlər də böyük əhəmiyyət daşıyır. Şagirdlərdə qəhrəmanlıq kimi keyfiyyətlərin tərbiyəsində,qəhrəmanlıq şüuru ilə hərəkətlərin təlim edilməsində sinifdənxaric ekskursiya, müqəddəs yerlərə ziyarətlər, tarixi abidələr önündə görüşlər, ədəbi-bədii əsərlərin müzakirəsi, Milli Qəhrəmanların həyat və fəaliyyəti ilə tanışlıq, əxlaqi söhbətlərin və disputların təşkili və keçirilməsi kimi formaları mühüm rol oynayır. Buna görə də bir sıra qabaqcıl

məktəblərdə belə tədbirlərin təşkilinə geniş yer verilməlidir. Bu kimi tədbirlərə sinifdənxaric və məktəbdənkənar tədbirləri aid etmək olar.

Sinifdənxaric işlərin məzmunu, maraqlı təşkili məktəblilərin öz doğma diyarlarının tarixini öyrənməyə həvəsini artırır, maraqlarını gücləndirir, ictimai hadisələri, onların mahiyyətini anlamağa kömək göstərir. Şagirdlər elm, texnika, incəsənət yenilikləri ilə tanış olur, onlarda qəhrəmanlıq şüuru inkişaf edir, qəhrəmanlıq, vətənpərvərlik kimi müqəddəs mənəvi keyfiyyətlər təşəkkül tapır, mənəvi əqidə yaranır. Bir sıra məktəblərdə təşkil edilən müxtəlif məzmunlu sinifdənxaric işlər şagirdlərin elmi dünyagörüşünün formalaşmasına, qəhrəmanlıq keyfiyyətlərinin insanpərvərlik münasibətləri və əlaqələri ilə qovuşmasına imkan verir.

Sinifdənxaric tədbirləri ayrı-ayrı fənn müəllimləri, sinif rəhbərləri, uşaq və gənclər birlikləri, şagird özünüidarə orqanları nümayəndələri, məktəb rəhbərləri hazırlayıb, həyata keçirirlər. Hazırda sinifdənxaric tədbirlərin hazırlanmasında pedaqoji kollektivin yaxın köməkçisi şagird özünüidarə orqanlarıdır. Bu orqanların mühüm iş sahələrindən biri məktəblilərin asudə vaxtlarını düzgün, səmərəli təşkil etmək, onların mənəviyyatına təsir göstərən mühüm amilləri zərərsizləşdirməkdir. Sinifdənxaric tədbirlər kiçik məktəblilərin mənəvi aləminin də aşkarlanmasına iradi keyfiyyətlərinə görə dözümlü olmalarını, Vətənə, xalqa dərin məhəbbət bəsləmələrini, bütövlükdə şəxsiyyət bütövlüklərini üzə çıxarır.

Sinifdənxaric tədbirlər zamanı qəhrəmanlıq tərbiyəsinin səmərəli təşkilinə aşağıdakılar kömək göstərir:

- Ailə ənənələri;
- Xalq qəhrəmanlarının şəxsi nümunələri;
- Müəllimlərin şəxsi nümunələri;
- İbtidai sinif şagirdləri üçün yazılımış bədii əsərlər və s.

Nəzərə almaq lazımdır ki, qəhrəmanlıq tərbiyəsi baxımından bir sıra sinifdənxaric tədbirlər kiçik yaşlı məktəblilərin yaşına və idrak səviyyəsinə uyğun olmadığından məsələn:disput, məruzə və s. onlardan istifadə etmək qeyri-mümkündür. Eyni zamanda belə maraqlı və mürəkkəb problemin ibtidai siniflərdə həyata keçirilməsi müəllimdən dərin pedaqoji bilik, metodiki hazırlıq və tədbirin həyata keçirilməsi gərgin əmək tələb edir. Məktəblərdə həyata keçirilən sinifdənxaric tədbirlərdə qəhrəmanlıq tərbiyəsini müvəffəqiyyətlə həyata keçirmək üçün aşağıdakı pedaqoji-psixoloji tələblərin müəllimlər tərəfindən nəzərə alınması olduqca vacibdir.

-Qəhrəmanlıq tərbiyəsi üzrə sinifdənxaric tədbirlər təşkil olunarkən ibtidai sinif şagirdlərinin yaşı və idrak səviyyəsi nəzərə alınmalıdır;

-Tədbirlərdə əyaniliyə, oyunvariliyə daha geniş yer verməklə məktəblilərin fəallığı təmin edilməlidir;

-Tədbirlərin rəngarəng olmasına diqqət artırılmalıdır və s.

Lakin çox təəssüflər olsun ki, məktəblərdə sinifdənxaric işin formalarından qəhrəmanlıq nümunəsində tərbiyə etmək məqsədi ilə zəif istifadə olunur. Bir çox sinif rəhbərlərinin "Tərbiyəvi işlər"planları yarıtmaz haldadır, bəzi tədbirlər nəzərdə tutulsa da, həyata keçirilməmiş qalır. Sinifdənxaric tədbirlərə məktəb rəhbərlərinin, tərbiyə işlərinin təşkilatçısının nəzarəti və rəhbərliyi zəifdir. Ayrı-ayrı tədbirlərin təşkilində ailənin və ictimaiyyətin qüvvəsindən istifadə edilir. Qəhrəmanlıq aşılayan təbirlər keçirilərkən, iş formaları seçilərkən şagirdlərin arzu və istəkləri heç də həmişə nəzərə alınmır. Lakin çox az olsa da, bəzi məktəblərdə qəhrəmanlıq tərbiyəsi üzrə tədbirlər səmərəli şəkildə hazırlanır və həyata keçirilir.

Unutmaq olmaz ki, şagidlərin təlim-tərbiyəsi vahid proses olub onların fəaliyyətinin bütün sahəsini əhatə edir. Xüsusən sinifdənxaric işlrərdə gənc nəsli vətənin müdafiəsinə hazırlamaq mühüm yer tutur. Mövzunun tədrisində qəhrəmanlıq tərbiyəsi qarşıya tərbiyə məqsədi kimi qoyulursa, o sinifdənxaric işlərdə daha da möhkəmləndirilməli, eləcə də sinifdəxaric tədbirdə həyata keçirilən tərbiyəvi vəzifə, yeri gəldikdə, təlim prosesi ilə əlaqələndirilməli, sinifdənxaric işin təşkili və həyata keçirilməsi prinsip və metodlarına ciddi surətdə əməl edilməlidir.

# ƏLİ BƏY HÜSEYNZADƏNİN YARADICILIĞINDA ANA DİLİ VƏ ONUN TƏDRİSİ MƏSƏLƏSİ

**Hüseynzadə Afaq Umudvar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*afaqhuseynzade81@gmail.com*

XIX əsrin 60-cı illərindən etibarən Azərbaycanda türk dilinə maraq oyanmağa baş-lamışdı. Türk dilinin nüfuz qazanması, fars dilinin əhəmiyyətinin azalmasında Mirzə Fətəli Axundov ilə Həsən bəy Zərdabinin əhəmiyyətli dərəcədə rolu olmuşdur. Əsrlərdir xalqın dili ilə ədəbi dil arasında qopuqluğun aradan qaldırılması üçün Mirzə Fətəli Axundovun xidmətləri böyük olmuşdur. Həsən bəy Zərdabi və onun qəzeti "Əkinçi"yə gəldikdə isə,bu qəzet kəndlilərə səsləndiyi üçün xalqın danışdığı dildə idi. "Əkinçi" qəzetində dilin sadəliyinə və asanlığına xüsusi yer verilirdi. Bu iki şəxsin səyi ilə ədəbiyyat və mətbuatda xalq dilinə ağırlıq verilməsi 1900-cu illərəqədər davam etdi. Daha sonradan İsmail bəy Qaspiralinin nəşr etdirdiyi "Tərcüman" qəzetində "Dildə, Fikirdə, İşdə Birlik" ideyası yavaş-yavaş Azərbaycanda yayılmağa başladı.

İsmail bəy Qaspirali türk birliyinin düşünən və eyni zamanda bunu canlandırmağa çalışan ilk ziyalılarından biridir. İsmail bəy Qaspirali türk dilini canlandırarkən Osmanlı ləhcəsini əsas ələ almağa çalışırdı. Azərbaycanda bu cəryandan ən çox təsir alan Əli bəy Hüseynzadə olmuşdu. Əli bəy Hüseynzadə İsmail bəy Qaspirali kimi Türklər üçün ortaq ədəbi və danışma dilinin olmasının vacibliyini müdafiə etmişdi. Əli bəy Hüseynzadə İsmail bəy Qaspiralı kimi Osmanlı türkçəsinin bu amalda böyük uğurla həyata keçirilə biləcəyinə inanmış və bu isdiqamətdə Azərbaycanda ən çox iş görmüş ziyalılarımızdan biri olmuşdur. Əli bəy Hüseynzadədən sonra"ortaq ədəbi Türk dili" fikri Azərbaycanda yayılmağa başlamışdı.

Sonrakı illərdə Rusya türkləri dil birliyi uğrunda çox böyük işlər gördülər.Bu ideya ətrafındakı işlər ortaq bir vasitə olması ilə bərabər Rusya türklərini Osmanlı türklərinə yaxınlaşdırma məqsədinidə güdürdü. Bu baxımdan 16-21 avqust 1906-cı ildə Nijni-Novqorodda keçirilən Rusya müsəlmanlarının III Konqresi də olduqca böyük əhəmiyyət kəsb edirdi. Dil birliyi ilə bağlı məsələyə bu konqresdə "Müsəlman biliyi parti" sinin proqramında yer verilmişdi. Belə ki,bu partinin 30-cu maddəsinin Osmanlı Türkçəsinin Müsəlmanların(ın) orta məktəblərinin ikinci və üçüncü sinflərində tədris edilməsi xüsusi ilə qeyd edilmişdi.

Rus hökumətinin qoyduğu əngəllərə baxmayaraq Rusyada Türklər dil baxımında daha asan və terminoloji baxımdan daha inkişaf etmiş olan Osmanlı Türkçəsini qəbul etdilər. Osmanlı türkçəsinin qəbul olunmasımda İsmail bəy Qaspiralı və Əli bəy Hüseynzadənin əməyi danılmazdır. Əli bəy Hüseynzadənin ana dilinə olan sevgi və hörmətinə gəlincə onuda demək lazımdır ki, Rus hökumətinin, müəllimlərin Türkçə ilə əlaqəli mənfi münasibəti onun diqqətini daha "Müsəlman Məktəbi" də və "Birinci Tiflis Klassik Gimnaziya"sında oxuduğu illərdə çəkmişdi. Adı keçən bu məktəblərdə tədris türk dilindən başqa dillərdə tədris olunmaqda idi.Türk dilinə həmişə məktəblərdə laqeyd yanaşılması Əli bəyin yaddaşında yaxşı qalmış və sonralar bu məsələ ilə bağlı öz fikirlərini yazılarında dilə gətirmişdir.

Hətta özü "Türk olduğum halda Türkçə bilmədim" deyə üzüntülü bir halda etiraf etmişdir. Buna görə də o Azərbaycanda yazı həyatına başladığı andan etibarən bu məsələnin xüsusi əhəmiyyətini göz önünə gətirmiş və "Həyat" qəzetinin "Gazetimizin Mesleği" №1, 7 iyun 1905-ciildə dil barədə öz fikrini demişdir: "Ulum və maarif ekseriyyet beyninde intişar etmek için lazımdır ki, milletin öz ana dili malum ve marrif tahsiline alet olsun". Bunun üçün şərqdə elmin inkişafı üçün Türk dilinin məktəblərdə tədris edilməsini şərt qoymuşdur. Əli bəyin fikrincə şərqdə türk dilinin qüdrətli bir dil halına gəlməsi İslam dinin qəbul edilməsi ilə bağlı idi. Türklər İslam dinini qəbul etdikdən sonra lüğətlərinə ərəb və fars dilindən kəlmələr almağa başlayaraq daha bir zəngin dil halına gətirmişlər. Əli bəyyeni dövrün mədəniyyət dili kimi Türk dilinin "din və məzhəb" dili olan ərəbcədən bir zamanlara qədər ədəbi dil olaraq qəbul edilən farscadan daha üstün vəzifədə olduğunda israrlıydı. Əli bəyə görə türk dili dünyada

məkanca ən yayqın dil halına gəlmişdi. Mancuriyadan və Sibiryadan şimal-şərqindən axan Lena çayının sahillərindən gələn Altay, Qaraqum, Pamir, Qafqaz, Kırım dağlarından Balkan yarımadasına qədər, Ural dağlarının Afrikanın Sahara səhrasına qədər olan yerlərdə yaşayan əhalinin böyük bir qismi türk dilində danışırdı. Ancaq bununla yanaşı onları mədəniyyət yolu-na aparacaq vasitə nə ərəb, nə rus, nə fars nə də frəng dili olacaqdı. Hüseynzadəyə görə belə bir vasitə ancaq türk dili idi. Türklər arasında ortaq ədəbi dil yaradılması məsələsinə gəldikdə isə biz öz müxtəlif şivə və ləhcələrimizi islah edib özümüzəməxsus mədəni və ədəbi bir ümümi türk dili yarada bilərik deyirdi. Keçici olaraq Osmanlı türkcəsini bu baxımdan ən gözəl örnək olaraq göstərirdi. Ona görə ərəb və fars kəlimələrinin sayəsində türk dilinin Osmanlı şivəsi genişlənmiş və inkişaf etmiş ən yüksək, ən dərin, fikiri və duyğuları ifadə etmədə ərəb və fars dillərindən belə daha qüvvətli və qüdrətli hala gəldiyini demişdi. Eyni zamanda türk dili bir lisan olaraq avropa lisanı ilə rəqabət edəcək bir vəziyyətdə olduğuda bir gerçək idi.

Eyni mövzuyla əlaqədar olaraq Hüseynzadə öz fikirlərini "Yazımız, Dilimiz, İkinci İlimiz" adlı məqaləsindədə davam etdirmişdi. Əli bəy bu yazısında da Osmanlı türkcəsinin türklər arasında ortaq bir ədəbi dil olaraq mənimsənilməsindən yana olduğunu müdafiə etmiş və Osmanlıcanın "cedide-i medeniye" üçün ən əlverişli bir dil olduğu düşüncəsini dəstəkləmişdi.

Ana dilinə hörmət və sevgi ilə yanaşmayan bir xalqın millət olaraq təşəkkül etməsi mümkün olmadığını çox yaxşı başa düşən Əli bəy Hüseynzadə ədəbi Osmanlı türkcəsinin Azərbaycanda yayılması fikrini irəli sürməklə bərabər, Azərbaycan xalqının öz ana dilini öyrənməsinə də böyük əhəmiyyət vermişdi. Bu məsələ ilə bağlı o, öz fikrini belə dilə gətirmişdi: "Lazımdır ki, xalqöz dilini öyrənməyə rəğbət etsin".

## ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ ИНТЕГРИРОВАНИЯ

**Ибрагимова Севда Сахават гызы**
**Бакинский Славянский Университет**
*sevdaibra1412@gmail.com*

На современном этапе развития педагогической науки интегрированное обучение представляет собой один из наиболее эффективных способов осуществления главной задачи начальной школы – воспитание и обучение всесторонне развитой личности, обладающей познавательными способностями и широким кругозором. Актуальность проблемы интеграции в обучении обусловливается развитием в сфере науки и производства, а также новыми социальными требованиями, предъявляемыми к школе и имеет не только теоретическое, но и практическое значение. К основным целям обучения в начальной школе, построенного на интегрированной основе, являются:

- формирование в сознании учеников младшего школьного возраста целостной системы взглядов на окружающий мир;
- развитие логического и творческого мышления учащихся;
- повышение познавательного интереса учеников начальных классов;
- содействие развитию таких психических процессов личности, как памяти, внимания, речи и воображения;
- выработка умений самостоятельной работы и работы в коллективе.

Понятие интегрированного обучения является предметом исследования, главным образом, педагогики и дидактики, и взаимосвязано с психологией, философией и рядом других наук. Проблема интеграции тесно связана с психологией обучения, занимающейся процессами и механизмами учебной деятельности и исследующая наиболее оптимальные способы психологического развития учащихся на протяжении всего учебно-воспитательного процесса, а также формирования языковых знаний и речевых умений и навыков.

Уроки, построенные на интегрированной основе, применяются главным образом для систематизации знаний и являются эффективной формой организации занятий, поскольку осуществляется синтез знаний различных учебных предметов, в результате чего образуется новое качество, которое представляет собой единое целое, достигнутое всесторонним и углублённым взаимопроникновением этих знаний. Преимуществами интегрированных занятий с психологической точки зрения являются:

1) активизация познавательной деятельности;
2) повышение интереса к предмету или теме;
3) снятие напряжённости, утомления и неуверенности;
4) содействие сознательному усвоению тех или иных фактов, подробностей, понятий;
5) формирование творческих способностей и логического мышления.

Исследования психологов показывают, что использование межпредметных связей на первоначальных этапах обучения способствует активизации знаний учащихся и выступают в роли побуждающего мотива. Младшие школьники, решая межпредметные познавательные задачи направляют свою деятельность на поиск неизвестных отношений, в которых находятся известные предметные знания, а также на формирование новых понятий на основе установленных конкретных межпредметных связей. Большинство исследователей понимают под интеграцией одну из сторон процесса развития, связанную с объединением в единое целое ранее разрозненных частей.

Интегрирование, выступающее ведущим принципом при постановке учебной цели, определении содержания, форм и методов обучения, предполагает взаимосвязь всех компонентов учебно-воспитательного процесса и обеспечивает целостность и системность педагогического процесса. Основу интеграции как новой технологии обучения составляет концепция укрупнения дидактических единиц (УДЕ), разработанная в середине XX века профессорами В.Ф.Шаталовым, П.М.Эрдниевым и С.Н.Лысенковой. Данная концепция рассматривалась с точки зрения её возможностей для построения целостной современной технологии обучения, в максимальной степени реализующей задачу развития личности ученика.

Характерной особенностью занятий, организованных на основе интегрирования, является наличие благоприятной психологической атмосферы и активной познавательной деятельности, в процессе которой происходит передача систематизированных знаний и умений учителем и их сознательное усвоение учащимися. В настоящее время школы, где создаются соответствующие условия интегрированного обучения, демонстрируют сравнительно лучшие образовательные результаты.

- Современные проблемы обучения

## MÜSTƏQİL İŞ PROSESİNDƏ TAPŞIRIĞIN ÇƏTİNLİK DƏRƏCƏSİNİN NƏZƏRƏ ALINMASI

**Xəlilova Fatimə Vidadi qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*fatimaxalil0@gmail.com*

Tədqiqatçılar arasında şagirdlərin müstəqil işinin bəzən lazımı səmərə vermədiyinin səbəblərini öyrənmək təşəbbüsləri də olmuşdur. P.İ.Pidkasistının və N.K.Dayrinin fikirləri buna misal ola bilər. Məsələn, P.İ.Pidkasistı yazır ki, müstəqil işlərin müxtəlif növlərinin təlim əhəmiyyəti, hələlik, lazımınca öyrənilməmişdir. Onun fikrincə, müstəqil işlər bəzən ona görə lazımi nəticələr vermir ki, bu işlərin təşkili zamanı «… müxtəlif yaşlı şagirdlərin idrak fəaliyyətlərinin psixoloji xüsusiyyətləri nəzərə alınmır».

N.G.Dayri bu müvəffəqiyyətsizliyin bir sıra səbəbləri olduğunu qeyd edir: çətinliyi olan müstəqil işlərin həllinə sinfin lazımi qədər hazırlanmaması: müəllimin müstəqil işləri metodik

baxımdan düzgün təşkil edə bilməməsi, həddən artıq çətin olan məsələlərin problem kimi müstəqil işə daxil edilməsi.

Söylənən mülahizələr ibtidai siniflərə də şamil edilə bilər. Müşahidələr göstərir ki, aşağı siniflərdə də şagirdlərin müstəqil işi heç də həmişə uğurlu olmur.

Müəllim şagirdlərin işlərini yığıb təhlil edir. O, müəyyənləşdirir ki, sinifdəki şagirdlərin demək olar ki, əksəriyyəti tapşırığı yerinə yetirərkən cümlələrdə yol veilmiş uzlaşma səhvlərini duymuş və onları düzəltmişdir. Bundan sonra sinifdə söhbət keçirilmişdir. Şagirdlərə belə bir sual verilmişdir: həmin cümlələri nə üçün səhv hesab edirsən? Məlum olmuşdur ki, sinifdə şagirdlərin böyük əksəriyyəti cümlələrin nə üçün səhv olduğunu izah etməkdə çətinlik çəkir. Uşaqların xarakterik cavabları belə olmuşdur: «Elə yazmaq olmaz», «elə yazmaq düz deyil», «belə yazmaq düzdür». Siniflərdə yalnız ən hazırlıqlı şagirdlər səbəbi, qismən, izah edə bilirdi. Çoxqüvvətlihesabedilənşagirdlərdənbirinincavablarınadiqqətedək:

1.«Payız fəsli saralır». Şagird cümləni oxuyub fikrə gedir, lakin səhvi müəyyənləşdirə bilmir. Müəllim ikinci cümləni oxumağı məsləhət görür.

2. «Quşlar göldə gəzirlər». Şagird yenə fikirşləşir. Şagird cümlədəki incəliyi-quşun göldə gəzmədiyini, üzdüyünü duya bilmir. Müəllim üçüncü cümləni oxumasını şagirdə təklif edir: O, cümləni düz oxuyur.

3. «Biz məktəbə gedirik» olar, «gedirəm» olmaz (səbəbini isə izah etmir). Şagird dördüncü cümləni də düzgün oxuyur:

4. «Uşaqlar dərslərini oxuyurlar» olmalıidi… «dərslərindən» deyəndə cümlə düz gəlmir (izah edir). Şagird son cümləni də düz oxuyur:

5. «Müəllim sinfə daxil olur» yazılmalı idi.

Göründüyü kimi, eyni müstəqil işin icrası ilə əlaqədar olan iki tələbdən birinin öhdəsindən şagirdlər gələ bilmiş, lakin ikinci tələbi ödəməkdə xeyli çətinlik çəkmişlər. Bu cür çətinliklər isə müəllimin diqqətindən yayınmamalıdır. Çünki, təlim prosesinin, eləcə də müstəqil işlərin kiçik məktəbyaşlı şagirdlərin inkişaf səviyyələrinə uyğun qurulmaması onların təlim işinə olan maraqlarının azalmasına, öz qüvvələrinə inamın, idrak müstəqilliyinin zəifləməsinə səbəb ola bilər.

Qarşıya çıxacaq çətinlikləri müəllim əvvəlcədən görə bilməli və şagirdləri müəyyən dərəcədə bu çətinlikləri aradan qaldırmağa hazırlamalıdır.

Lakin müstəqil işlər üzrə tapşırıqların seçilməsində gücə müvafiqliyin gözlənilməsi heç də o demək deyildir ki, bu tapşırıqlar həddindən artıq asan olmalıdır. Heç vaxt yol vermək olmaz ki, tapşırığın yerinə yetirilməsi üçün qarşıya qoyulmuş tələblərin səviyyəsi şagirdlərin malik olduqları əqli inkişaf səviyyəsindən aşağı olsun. Buna görə də şagirdlərin müstəqil işləri üçün tapşırıqlar seçərkən müəllim yalnız köçürmə tələb edən tapşırıqlara mümkün qədər az müraciət etməlidir. Çünki «şagirdlərin təfəkkürlərinin inkişafı çox zaman ona görə ləngiyir ki, bəzi müəllimlər uşaqların təfəkkürlərini fəallaşdırmağa təhrik etməyən sadə, şablon tapşırıqlarla kifayətlənirlər».

## MUSİQİ TƏFƏKKÜRÜNÜN XÜSUSİYYƏTLƏRİ

**İmanova Aygün Zahid qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aygunimanova8@ mail.ru*

***Acar sözləri:*** *təfəkkür, xüsusiyyət, obraz, spesifika, bacarıq*
***Key words:*** *thinking, feature, image, specificity, ability*

### Xulasə

İnsanın şüuurunun xüsusiyyətləri elementar kompozisiyanın məntiqini dətk etmək, əsərlərin səslənməsində texniki və bədii oxşarlıq və fərqləri tapmaq, öz obrazlı təsvirlərini təhlil etmək və ümumiləşdirmək bacarıgı ilə xarakterizə olunur. Obrazlı təsəvvürlərin for-

ma və məzmunu onun məkan, zaman. əxlaqi-estetik, bədii, musiqi, mövzu mahiyyətindən xəbər verir.

## FEATURES OF INUSICAL THINKING

**Summary**

Features of the human mind are characterized by the ability to understand the logic of elementary composition, to find technical and artistic similarities and differences in the sound of works, to analyze and generalize their figurative descriptions. The form and content of figurative imagination is its space, time. informs the essence of moral-aesthetic, artistic, musical, theme.

Musiqi təfəkkürünün tipik əlaməti kimi onun obrazlılığı çıxış edir ki, o, bu sənət növünün intonasiya təbiəti ilə, ifadə vasitələrinin spesifikası ilə, əsərin məzmununu dərk etmək üçün birgə yaradıcılıq xarakter daşıması ilə şərtlənir.Bütövlükdə insanın şüurunun bu xüsusiyyəti elementar kompozisiyanın məntiqini dərk etmək, əsərlərin səslənməsində texniki və bədii oxşarlıq və fərqləri tapmaq, öz obrazlı təsvirlərini təhlil etmək və ümumiləşdirmək bacarığı ilə xarakterizə olunur. Şagirdlər tərəfindən musiqi parçası ilə qarşılıqlı əlaqə prosesinin struktur şəkildə dərk edilməsi B.V.Asafyevin məşhur “imt” düsturuna tam uyğundur ki, burada “i” – ilkin impuls, “m” – hərəkət, inkişaf, “t” – tamamlanmadır (1).

Məğzinə görə obrazlı təsəvvürlər təfəkkürün səbəb-nəticə xarakterini əks etdirir. Obrazlı təsəvvürlərin forma və məzmunu onun məkan, zaman, əxlaqi-estetik, bədii, musiqi, mövzu mahiyyətindən xəbər verir. Öz növbəsində, qavrama, yaddaş, təxəyyül, təfəkkür və digər proseslər ilə fərdi spesefik üslubla əlaqəli olan uşağın obrazlı təsəvvürləri ümumiləşdirilmiş bütövlüyü ilə xarakterizə olunur. Onlar onun həyati və təlim təcrübəsinə əsaslanır. Uşaqlarda fantaziyanın intensiv inkişafına baxmayaraq, onların musiqinin obrazlı təfsiri məzmun mənalığı və konkretliyi ilə seçilir.

Bədii əsər bəstəkarın, ifaçının və dinləyicinin obrazlı təfəkkürünün həm obyektidir, həm də nəticəsidir. Ezoterik prosesin hər bir iştirakçısının yaradıcı təxəyyülü kompozisiyada xüsusi xarakterik nüansların müəyyən edilməsi ilə bağlıdır. Bəstəkarın təfəkkürü mənəvi ehtiyacın, peşəkar fəaliyyətin və ya ictimai sifarişin tələb etdiyi eksklüziv bədii məhsul yaratmaq problemini həll edir. İfaçının təfəkkürü not mətnini “deşifrə edilməsi” və orijinal ifası ilə məşğuldur. Dinləyicinin təfəkkürünün “birgə yaradıcılıqda” iştirakı isə təqdim olunmuş bəstənin emosional-obrazlı dərk edilməsində cəmləşir. Burada böyük rolu musiqinin məzmunu oynayır. Onun məzmunu tükənməzdir. Dinləyici tərəfdən onun təfsiri gözlənilməz ola bilər. O, təkcə əsərin obyektiv səslənməsi ilə deyil, lakin ilk növbədə onun subyektiv qavaranılması, dinləyicinin nə dərəcədə musiqi informasiyanı dərk edə bilməsi, onun emosional əhvalı ilə şərtləndirilir.

Beləliklə, musiqinin məzmunu duyğulu, obrazlı və rasional komponentlərdən ibarətdir və onun dərk edilməsi üçün müəllim şagirdlərdə qavrama mədəniyyətini, təxəyyülü, həssaslığı və eyni zamanda məntiqi təhlil etmə bacarığını aşılamalıdır.

Musiqi qavramanın nəticəsi kimi emosional məmnunluqla yanaşı həm də fəal idrak, həyəcan, bədii əsərin məzmununun estetik dəyərləndirilməsi çıxış edir. Bu prosesdə təxəyyülün xüsusi əhəmiyyəti vardır. Musiqi təxəyyülünün əsasını obrazlı təsəvvürlər təşkil edir. Onlar isə təfəkkür ilə vəhdətdə fəaliyyət göstərirlər. Həyati təcrübə, müxtəlif fənlərə dair biliklərin sintezi, mənəvi-estetik ideallar təxəyyülün mənbəyidir. İlk baxışdan orta statistik bir insan üçün elmi biliklər və incəsənət, xüsusilə də musiqi arasandakı qarşılıqlı əlaqə o qədər də gözəçarpacaq deyildir. Lakin məhz bunların sintezi axtarış təfəkkür tipinin (pifaqorey təfəkkürü) formalaşmasının əsasını təşkil edir.

İstisnasız olaraq, musiqi vasitəsilə insanın yaşadığı, hiss etdiyi, fikirləşdiyi, düşündüyü hər şeyi ifadə etmək olar. Təxəyyül insanın istənilən fəaliyyətinə xasdır. Lakin məhz musiqi qavrama və obrazlı təfəkkür proseslərində o, xüsusi rol oynayır. B.M.Teplovun fikrincə, musiqi təxəyyülünün spesifikliyi eşitmə yolu ilə yaranan assosiasiyalarla müəyyən edilir. Tə-

xəyyül təkcə qavramanın nəticəsi olaraq deyil, həm də fəal bədii yaradıcılıq üçün vadaredici impuls kimi çıxış edir. Bu yaradıcılığın nəticələri həm musiqi əsərlərində, həm musiqi ifaçılığında və dinləyicidə yaranan obrazlarda da öz əksini tapır. Alim qeyd edirdi: "Musiqinin qavranılması – aləmin musiqili idrakıdır, lakin emosional idrakıdır." (2, 23.).

V.K.Beloborodova musiqinin qavranılmasına "bəstəkar və dinləyicinin birgə yaradıcılıq prosesi" kimi baxır. Burada alim "bigə keçirilən həyacanı və bəsətəkarın əsərinin təxəyül vasitəsilə dinləyicinin daxilində onun təcrübəsi, hissləri, assosiasiyaları ilə zənginləşdirilərək sanki yenidən yaradılmasını" nəzərdə tutur. (3, 22.). Bu zaman emosiyalar və estetik həyacan şagirdin əqli fəallığı üçün başlanğıc şərti və fəaliyyətinin tənzimləyicisi kimi çıxış edir.

Bununla bağlı L.Vıqotski qeyd edirdi: "Emosiya müəyyən bir anda bizə sahib olan əhval-ruhiyyə ilə uyğun gələn təəssüratları, düşüncələri və obrazları yaratmaq qabiliyyətinə malikdir." (4, 13.). Bunu nəzərə alaraq təhsil prosesinin səmərəli forması kimi "emosiyalar lüğətinin" yaradılması çıxış edə bilər. Onun vasitəsilə müəyyən janrda və üslubda olan musiqinin intonasiya dilinə uyğun şagirdlərin ən tipik əhvallarını və onunla bağlı obrazlı təsəvvürlərini strukturlaşdırmaq olar. Bu zaman şagirdlər bədii təfəkkür üsullarına yiyələnirlər: əsərin məzmununun məna əsasını aşkar etməyi, üstünlük təşkil edən hissi ayırd etməyi, musiqi ifadəlik vasitələrini müəyyən etməyi öyrənirlər.

Yaradıcılıq fəaliyyətində məmnunluq, zövq alma, insayt, uğur, özünəgüvən və onlara tam əks olan emosiyalar böyük əhəmiyyət kəsb edir ki, bunlar əqli əməliyyatlar nəticəsində müvafiq obrazlı təsəvvürlərə çevrilirlər. Alınmış məlumatların intellektual emalı məhz bundan başlanır. Obrazlı təsəvvürlər mənəvi və qavranılan informasiyanın musiqi ilə aktivləşdirilən və maddiləşdirilən, transformasiyaya uğrayan xəyali cisimlərə, əşyalara, hadisələrə, ideyalara çevrilmiş əksidir.

Musiqi əsərinin spesifikliyinə baxmayaraq, şagirdlərin təsəvvürləri daha çox bədii obrazda toplanmış həyat konteksti ilə sintez olunur. Bununla yanaşı, musiqini qavrama mədəniyyəti onların səsyüksəkliyi, tempo-ritmik, dinamik, tembr xüsusiyyətlərini və konkret əsərin kompozisiya quruluşunu ayırd edə bilmək qabiliyyətləri ilə bağlıdır. Yalnız bu şərtlərdə məktəblilərin emosional reaksiyası və obrazlı təsəvvürləri ən azı müəyyən dərəcədə musiqinin obrazlı məzmunu ilə mütanasib olacaqdır.

Buna görə də musiqi müəllimi aşağıdakı qanunauyğunluqları nəzərə almalıdır:

a) uşaqlarda qeyri-müəyyən assosiativliyin yaranması və cəmləşməsi onların feal bədii fəaliyyəti ilə müəyyən edilir;

b) məktəblilərdə obrazlı təsəvvürlərin inkişafının başlanğıc şərti onların estetik tezaurusunun (estetik anlayışlar toplusunun) mövcudluğudır;

c) şagirdlərin musiqini qavrama mədəniyyətinin səviyyəsinin yüksəldilməsi təhsil prosesində həyata keçirilir.

Beləliklə, biliklərin sintezi vasitəsilə yaranan inteqrasiya nəticəsində musiqini qavrama, təxəyyül və təfəkkür prosesləri birgə fəaliyyət göstərərək uşağın musiqi mədəniyyətini formalaşdırır.

Pedaqoji təcrübənin ümumiləşdirilməsi və ümumi musiqi təhsilinin vəziyyətinin təhlili aşağıdakı ziddiyyətləri üzə çıxarmışdır:

- fənlərarası sintez prosesində şagirdlərdə qavrama, obrazlı təfəkkür və təxəyüllərinin inkişaf etdirilməsi zərurəti və bu problemin həlli üçün metodoloji əsasların qeyri-müəyyənliyi arasında;

- məktəbdə tədris olunan fənlər sırasında musiqi dərsinin statusunun aşağı qiymətləndirilməsi ilə şagirdlərin mənəvi-estetik tərbiyəsində onun obyektiv əhəmiyyəti arasında;

- tədris proqramına uyğun olaraq dərs üçün bədii repertuarın seçilməsi ilə uşaqların musiqi marqlarının, üstünlüklərinin nəzərə alınması zərurəti arasında;

- musiqi əsərlərinin stereotipli bədii-pedaqoji təhlili ilə onun fənlərarası informasiya ilə zənginləşdirilməsinin məqsədəuyğunluğu arasında;

- musiqi ilə həyat arasındakı əlaqənin səpələnmiş, ara-sıra, nizamsız nümunələri və onun bir sənət növü kimi əks etdirən mahiyyətinin sistemli şəkildə izahına ehtiyacı arasında;

- uşaqlarda mənəvi həssaslığın tərbiyəsində musiqinin fundamental əhəmiyyəti ilə onu digər tədris fənlərilə əvəz etmək üçün sistemli cəhdlər arasında (xüsusilə ibtidai siniflərdə).

**Ədəbiyat:**


1. Асафьев М. – Музыкальная форма как проöесс – М., 1947, 378 с.
2. Теплов В.М. – Психология музыкальных способностей – М. 1947, 488 с.
3. Белобородова В.К. – Музыкальное воспитание школьников- М. 1975, 232 с.
4. Выготский Л.В. – Психология искусства – М., 1965, 4001с.
5. Ветлугина Н.А. – Музыкальное развитие ребёнка – М., 1968, 101 с.


## AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ TARİXİ ŞƏXSİYYƏTLƏR NÜMUNƏSİNİN AŞILANMASI ŞAGİRDLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASI VƏ CƏMİYYƏTDƏ DÜZGÜN MÖVQE TUTMASININ ƏSASI KİMİ


**Mustafayev Mustafa Qılman oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Univeristeti**
*mustafa.mustafayev.j5@gmail.com*



**Xülasə**

Tezisdə Azərbaycan tarixində iz qoymuş tarixi şəxsiyyətlərin məktəblilərin şəxsiyyət kimi inkişafında və təlim-tərbiyyə prosesinin səmərəliliyin artırılmasında əhəmiyyəti, eləcə də şəxsiyyətlərin tədrisinin nəzəri problemləri əks olunmuşdur.

**Резюме**

В тезисах отражено значение исторических деятелей истории Азербайджана в развитии учащихся как личности и повышении эффективности образовательного проöесса, а также теоретические проблемы обучения личности.

**Summary**

The thesis reflects the importance of historical figures in the history of Azerbaijan in the development of students as individuals and increasing the effectiveness of the educational process, as well as the theoretical problems of teaching personalities.


Tarix keçmişin təcrübələrinin məcmusu kimi olduqca böyük əhəmiyyətə malikdir. Bu təcrübənin gələcək nəsillərə çatdırılması, keçmişin səhvlərinin təkrarlanmaması, əldə olunan uğurların davam etdirilməsi baxımından vacibdir. Tarixi hadisələr və tarixi proseslərlə yanaşı, tarixi şəxsiyyətlərin, onların həyat və fəaliyyət yolunun öyrənilməsi, həm tarixi təcrübədən dərs çıxarmaqda, həm də təhsilalanların cəmiyyətə faydalı bir şəxsiyyət kimi yetişmələrində böyük imkanlara malikdir. Çünki, xalqın və dövlətin inkişafında, onun dünya ölkələri içərisində mütərəqqi yer tutmasında tarixi şəxsiyyətlərin rolu əvəzedilməzdir. Şübhə yoxdur ki, tarixdə iz qoymuş hər bir şəxsiyyət müsbət nümunəyə malik deyildir. Onlar arasında uğursuz siyasi, hərbi və ya iqtisadi fəaliyyət göstərən, xalqın rifahının artırılmasına şərait yaratmayan, atdıqları addımlarla inkişafın hər hansı bir yönünü zəiflədən şəxsiyyətlər də vardır. Lakin tarixin tədrisi prosesində uğursuzluğu ilə seçilən şəxsiyyətlərin tarixdə müsbət yöndə işlər görmüş, cəmiyyətin tərəqqisində böyük addımlar atmış tarixi şəxsiyyətlərlə paralel təqdim edilməsi gərəkdir. Çünki təhsilalan müsbət keyfiyyətləri ilə seçilən şəxsiyyətlərdən nümunə götürdüyü kimi, mənfi xüsusiyyətləri ilə seçilən şəxslərin nələrə səbəbiyyət verdiyini də yaxşı bilməlidir. Öyrənənlər tarixi şəxsiyyətlərin uğurlarından bəhrələnməli, yanlış addımlarından dərs çıxarmalı və yaxşını pisdən ayırmağı bacarmalıdır. Bu, eyni zamanda müxtəlif dəyər və

prinsiplərə malik şəxsiyyətlərin müqayisəli təhlili təcrübəsinə imkan verəcək və şagirdlərdə analitik qabiliyyətlərin inkişafına səbəb olacaq.

Məktəblilərin tarixi şəxsiyyətlər haqqında biliklər əldə etməsi, onların nümunəsi əsasında tərbiyyələnməsinin əsaslı təşkili məktəb mühitində baş tutur. Bu işin həyata keçirilməsində məktəbin pedaqoji kollektivi və ən əsası tarix müəllimləri əsas rol oynayır. Müəllimin yüksək pedaqoji ustalığı sayəsində şagirdlərin Azərbaycan tarixinə olan marağı daha da artır. Bu onları tarixi şəxsiyyətlər haqqında daha çox biliklər əldə etmələrinə təşviq edir.

Gənc nəsli vətənpər ruhda böyütmək, onlarda Vətənə, torpağa sevgi və sadaqət hissi formalaşdırmaq tarix tədrisinin prioritet məsələlərindəndir. Bu xüsusda həm dünya müharibələrində, həm də Qarabağ münaqişəsi dövründə uzaqgörənliyi, ağlı, igidliyi və cəsarəti ilə örnək olan tarixi şəxsiyyətlərimizin nümunəsinin aşılanması çox vacibdir. Beləcə Allahverdi Bağırov, Albert Aqarunov, Çingiz Mustafayev, Mübariz İbrahimov, Polad Həşimov, Şükür Həmidov və digər qəhrəmanlarımızın nümunəsi hərbi vətənpərlik hisslərinin aşılanmasında çox önəmlidir.

Tarixi şəxsiyyətlərimiz haqqında biliklərin şagirdlərə çatdırılmasında Azərbaycan tarixi dərsliklərinin də özünəməxsus yeri vardır. Müstəqil Azərbaycanın müasir dərslikləri tarixi şəxsiyyətlərin təsviri baxımından zəngindir. Lakin hazırda istifadə edilən dərsliklərdə bir sıra çatışmayan cəhətlər mövcuddur. Bu dərsliklərdə Azərbaycan tarixinin istər dövrlər üzrə təsvirində, istərsə də tematik məzmun keyfiyyətlərində balanslaşdırılmaya, ümumi təkmilləşdirməyə ehtiyac vardır.

Məktəb təcrübəsi və dərsliklərin ümumi təhlili belə bir fikri ifadə etməyə imkan verir ki, hazırda tarixin tədrisində təkmilləşdirilməsi vacib məsələlərdən biri, tarixin iqtisadi, sosial, mədəni və d. aspektlərinin siyasi və hərbi tarix səviyyəsində və ya ona yaxın şəkildə tədris edilməməsidir. Tarixi şəxsiyyət kimdir deyə soruşulduqda məktəblilərin ilk təsəvvürlərinə gətirdikləri və adlarını çəkdikləri şəxsiyyətlər içərisində ya görkəmli dövlət başçıları, ya da sərkərdələr üstünlük təşkil edir. Bu şübhəsiz fəxr ediləsi bir məqamdır. Lakin görkəmli mədəniyyət və incəsənət xadimlərinin, ziyalıların, xalqa kömək əlini uzadan şəxsiyyətlərin adlarının da eyni sayda yada düşməsi və səslənməsi cəmiyyətin mədəni dünyagörüşünün inkişafında mühüm rol oynayacaqdır. Zənnimizcə, bu, balansın qorunması və siyasi elita nümayəndələri ilə yanaşı elm və mədəniyyət mütəfəkkirlərinin də tarixin tədrisinin mərkəzinə qoyulması məsələsini aktuallaşdırır.

Cəmiyyət nə qədər inkişaf etsə də, problemlərdən bütünlüklə xilas ola bilmir. Belə problemlər içərisində məktəbli qızların müxtəlif səbəblərlə təhsildən uzaqlaşmasıdır. Ölkəmizdə məktəbli qızları təhsillərini davam etmələrinə təşviq etmək mühüm və aktual məsələdir. Onları istər iqtisadi, istərsə də mənəvi cəhətdən öz ayaqlarının üzərində dayanmalarına cəsarətləndirmək üçün tariximizdə iz qoymuş qadın tarixi şəxsiyyətlərin nümunəsi əvəzedilməzdir.

Məktəbli qızlarımızın Tomiris cəsarəti, Sara Xatunun diplomatik bacarıqları, Məshəti Gəncəvinin və Xurşudbanu Natavanın ədəbi sözü, Tuti Bikənin sədaqəti, Qəzvinli Zərrintac və Zeynəb paşanın mübarizliyi, Şəfiqə xanım Qaspralı-Yusifbəylinin dünyagörüşü, Mehriban xanım Əliyevanın intellektindən nümunə götürməsi cəmiyyətin struktur əsasını təşkil edən ailənin möhkəm təməllər üzərində qurulmasını təmin edir.

Gənc nəslin tariximizə verdiyi dəyərin göstəricisi tariximizi yaxşı bilmələri, tarixi şəxsiyyətlərimizi düzgün qiymətləndirmələridir. Bu dəyərin formalaşdırılmasında ümumtəhsil məktəblərinin şagirdin ailə və sosial mühiti ilə qarşılıqlı əlaqəsi böyük imkanlar yaradır. İKT-nın geniş istifadə olunduğu cəmiyyətimizdə tədris prosesi də şagirdlərin tətqiqatçılıq bacarığının inkişafını təmin etməyə çalışır. Lakin bu tətqiqatçılıq fəaliyyəti zamanı informasiya zənginliyinin müşahidə olunduğu internet məkanında hamıya açıq olan mənbələrdən rahatlıqla istifadə etmək mümkündür. Məktəb-ailə qarşılıqlı münasibətləri də bu xüsusda ön plana çıxır. Belə ki, əldə olunan informasiyanın etibarlı mənbədən alınmasına ilk növbədə müəllim və müəllimlə sıx əməkdaşlıq içərisində olan valideyn nəzarət etməlidir. Tarixi biliklərin, xüsusən də tarixi şəxsiyyətlər haqqında məlumatların qeyri-obyektiv şəkildə öyrənilməsi şagirdlərin tarixi dünyagörüşü və baxış bucağına mənfi təsir göstərə bilər. Bunun qarşısını almaq üçün

məktəbliləri doğru istiqamətləndirmək və onların sərbəst tətqiqatçılıq fəaliyyətlərini pedaqoji baxımdan nəzarətdə saxlamaq vacibdir.

Məktəblilər Nizamini, Füzulini, Şah İsmayılı, H.Zərdabini, H.Z.Tağıyevi, M.Ə.Rəsulzadəni, Heydər Əliyevi və d. görkəmli tarixi şəxsiyyətləri tanımalı, onların fəaliyyət yoluna nəzər salmalıdırlar. Şübhəsiz ki, Azərbaycan tarixi istənilən fəaliyyət sahəsində örnək götürülə biləcək tarixi şəxsiyyətlərlə zəngindir. Bu bir xalqın, bir cəmiyyətin məğrur duruşu, qürurlanma səbəbidir.

**Ədəbiyyat:**

1. Həsənov A.M., Ağayev Ə.Ə. Pedaqogika. Dərslik. Bakı:"Nasir" nəşriyyatı, - 2007, səh. 496

2. Qasımova A. Q. Tarixi şəxsiyyətlərə dair materialların öyrənilməsi yeniyetmələrin tərbiyəsinin vasitəsi kimi.GDU.- Bakı, 2004.- 157 s.

3. Paşayev T.S. Tarixin tədrisi: Tarixilik və müasirlik. M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı – 2006

## ŞİFAHİ NİTQİN İNKİŞAFINDA İSTİFADƏ OLUNAN METODLARIN ƏHƏMİYYƏTİ

**Əsədova Sevda Hakim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sevda.asadova.99@bk.ru*

***Açar sözlər:*** *ünsiyyət, metod, inkişaf, qarşılıqlı əlaqə, CLT*

İnsanlar birlikdə yaşayıb işləyərkən bir-biri ilə daima məlumat mübadiləsi aparır, qarşılıqlı əlaqədə olur və ya bir-birini qavrayıb başa düşürlər. Başqa sözlə, insanlar bir-birilə ünsiyyət qururlar. Ünsiyyət insanın bütün fəaliyyəti üçün zəruri şərtdir və ünsiyyət və ya şifahi nitq olmadan insanların birgə işləməsi mümkün deyil.

Ünsiyyət insanlar arasında əlaqənin qurulması və inkişafı prosesi kimi meydana çıxır. Oradakı insanlar arasında təmas olmadan heç bir insan cəmiyyəti birgə fəaliyyət göstərə bilməz və onlar arasında qarşılıqlı anlaşma ola bilməz. Ünsiyyət, birgə fəaliyyət ehtiyacından doğan insanlar arasında çoxşaxəli təmas prosesidir. Başqa sözlə desək, ünsiyyət insanların münasibətlərini aydınlaşdırmaq və ümumi nəticəyə nail olmaq üçün səylərini əlaqələndirməyə və birləşdirməyə yönəlmiş qarşılıqlı əlaqədir.

Ünsiyyət həyatımızda böyük rola malikdir çünki, o həm insanların, həm də təşkilatın mövcudluğu və yaşaması üçün əsasdır. Bu, bir yerdən, şəxsdən və ya qrupdan digərinə ideyaların, məlumatların, baxışların, faktların və hisslərin yaradılması və paylaşılması prosesidir. Ünsiyyət idarəetməninistiqamətləndiricifunksiyasınınaçarıdır.

Məsələn, menecer yüksək ixtisaslı və bacarıqlı ola bilər, lakin yaxşı ünsiyyət bacarığı yoxdursa, onun bütün bacarıqları əhəmiyyətsiz olur. Menecer işi düzgün yerinə yetirmək üçün öz göstərişlərini effektiv şəkildə tabeliyində olan insanlara çatdırmalıdır.

Ünsiyyət prosesi

Rabitə, əsasən üç elementi əhatə edən davamlı bir prosesdir, yəni, göndərən, mesaj və qəbul edən. Rabitə prosesində iştirak edən elementlər aşağıda ətraflı izaholunur:

1. Göndərən

Göndərən və ya kommunikator mesajı yaradır və onu qəbul edənə çatdırır. O, mənbə və ünsiyyəti başladandır

2. Mesaj

Məhz ideya, məlumat, baxış, fakt, hiss və s. göndərici tərəfindən yaradılır və sonra qarşı tərəfə çatdırılması üçün nəzərdə tutulur.

Bildiyimiz kimi niqtin iki forması var: bunlardan birincisi fuksional və tarixilik baxımından qədim, ilk və əsas olan şifahi nitq, ikincisi isə törəmə və yardımçı olan yazılı nitqdir. Bu iki nitq bir sıra xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Şifahi nitq və yazılı nitq arasındakı əsas fərqlər aşağıdakılardır:

1. Şifahi nitq göndərənin mesajı şifahi danışıq yolu ilə qəbulediciyə ötürdüyü rabitə növüdür. Məlumat mübadiləsi üçün yazılı və ya çap olunmuş mətndən istifadə edilən rabitə növü isə yazılı nitq kimi tanınır.

2. Yazılı ünsiyyətdə ilkin şərt iştirakçıların savadlı olmasıdır, halbuki şifahi ünsiyyətdə belə bir şərt yoxdur.

3. Düzgün qeydlər yazılı ünsiyyətdə var, bu da şifahi ünsiyyət vəziyyətində əksinədir.

4. Şifahi ünsiyyət yazılı ünsiyyətdən daha sürətlidir.

5. Şifahi ünsiyyət vəziyyətində bir dəfə deyilən sözlərigeri qaytarmaq olmaz. Digər tərəfdən, yazılı ünsiyyətdə orijinal mesajın redaktəsi mümkündür.

6. Mesajın yanlış təfsiri şifahi ünsiyyətdə mümkündür, lakin yazılı ünsiyyətdə deyil.

7. Şifahi ünsiyyətdə alıcıdan ani rəy alınır ki, bu da yazılı ünsiyyətdə mümkün deyil.

Şifahi nitqin inkişafında bir sıra metodlardan istifadə olunur. Bu metodlara CLT-Commnicative language teaching (Komunikativ dilin tədrisi), Direct Method (Birbaşa metod) və yaxud Natural Method (Təbii üsul) daxildir. Müsair dövrdə bu metodlardan ən geniş istifadə olunan metod Communicative language teaching-yəni Kommunikativ dilin tədrisi metodudur. Kommunikativ dil öyrətmə metodlarının arxasında duran əsas məqsəd təkrarlanan şifahi təcrübələr və öyrənən-rabitəçi əməkdaşlığı vasitəsilə tələbələri müxtəlif real həyat kontekstləri üçün inamlı ünsiyyət quran insanlar kimi hazırlamaqdır.J.Harmer və Sandra J.Savignona görə CLT yanaşması həm müəllimlər, həm də tələbələr üçün bir çox üstünlüklər təklif edir. Bunlar aşağıda qısa şəkildə ümumiləşdirilir.

Birincisi, CLT öyrənənlərə aydın və aşkar fayda verir - onlar əslində öyrəndikləri bacarıqlardan hədəf dillərində ünsiyyət qurmaq üçün istifadə edə bilirlər. CLT yalnız öyrənmək üçün öyrənmək deyil, aydın və müəyyən edilə bilən bir məqsədi var. Öyrənənlər müxtəlif real həyat kontekstlərində düzgün qrammatikadan, lüğətdən və cümlə strukturundan istifadə edə bilən və şəraitin diktə etdiyi kimi uyğunlaşmaq üçün kifayət qədər çevik olan səriştəli ünsiyyətçi olurlar.

Beləliklə, CLT adətən hədəf dildə daha çox səlis danışıq əldə etmək üçün ətraflı qrammatik qaydaların əzbər öyrənilməsinə daha az diqqət yetirir. Öyrənələr məlumatı geri qaytarmaq qabiliyyətinə görə deyil, onların kommunikativ bacarıqlarının səviyyəsinə görə qiymətləndirilir. Bu yanaşma həm də öyrənənlərə digər insanlarla ünsiyyət qurarkən tez bir zamanda özünə inam qazanmağa imkan verir ki, bu da onlara yeni tapdıqları dil bacarıqlarından istifadə etməkdən həzz almağa kömək edir.

CLT yanaşması adətən tələbələrin dərslərində iştirakına həvəsi artırır. Sinif resursları və tapşırıqları gündəlik situasiyalara əsaslandıqda, dərhal aydın, real dünya tətbiqi ilə tələbələr canlanır. Onlar kənarda seyr edən tamaşaçılardansa, öyrənmə mərkəzində baş qəhrəmana çevrilirlər. Bundan əlavə, tələbələr dərhal öyrəndiklərini götürə və onları sinifdən kənarda doğma danışanlarla ünsiyyətdə tətbiq edə bilirlər.

CLT yanaşmasını qəbul etmək adətən ənənəvi, təkrarlanan Təlimat tapşırıqlarının əhəmiyyətinin azaldığını ifadə etdiyindən, müəllimlərin sinifdə yaradıcı olmaq üçün daha geniş imkanları olur. Bu, müvafiq tədris resurslarının hazırlanması üçün əlavə vaxt tələb olunduğu anlamına gəlsə də, tələbə cəlbinin və motivasiyasının artmasında əhəmiyyətli fayda var.

Nəhayət və bəlkə də ən əsası, CLT dil öyrənmədə dörd makro bacarığın – danışma, dinləmə, oxuma və yazma bacarığının inkişafını təşviq edən güclü tədris yanaşmasıdır. Bunlar lap əvvəldən CLT-nin əsas hissəsidir, çünki aktiv ünsiyyət müxtəlif bacarıqları birləşdirməyə xidmət edir. Orijinal və ya həqiqi tədris materiallarından (broşürlər, flayerlər, cədvəllər və

jurnallar) istifadə də tələbələrin bu əsas bacarıqları inkişaf etdirən fəaliyyətlərlə işləyərkən müvafiq qrammatika və lüğəti inkişaf etdirməsinə kömək edir.


**Ədəbiyyat**

1. Jeremy Harmer – The Practice of English Language Teaching, Longman, 1995
2. Richard, Jack C. & Theodore S. Rodgers. Approaches and Methods in Language Teaching. Beijing: ForeignLanguageTeachingandResearchPress, 2000.
3. Thornbury, S., 2007. How to teach speaking. Harlow: Pearson Education Limited.
4. Richards, J.C. (2006). Communicative Language Teaching Today, New York: Cambridge University Press.
5. Littlewood, W.T. Communicative language teaching:An Introduction, Cambridge University Press,1981


## CİSMİN HƏCMİ VƏ SƏTHİ HAQQINDA ÜMUMİ ANLAYIŞLAR


**Quliyeva (Agayarova) Yasəmən Bəhruz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*agayarova.yasemen@gmail.com*


Stereometriyanın əsas predmeti həndəsi cisimlər və onların səthidir. Həndəsi cisim və yaxud sadə cisim anlayışı həyatdan, praktikadan, təbiətdən götürülmüşdür. Həndəsi cisim-real mövcud olan fiziki cismin fəzada tutduğu hissədir. Fiziki cismin fiziki və digər xassələri həndəsi cisimdə nəzərə alınmır. Həndəsi cisim üçün mühüm keyfiyyət real fiziki cismin forması və tutduğu fəza hissəsidir.

Cismə aid olmayan nöqtədən cismin səthinin ən yaxın nöqtəsinə qədər məsafəyə nöqtədən cismə qədər məsafə deyilir.

**Çoxüzlü**

Səthi sonlu sayda müstəvi çoxbucaqlılardan ibarət olan cismə çoxüzlü deyilir.





Çoxüzlülər olduqca mürəkkəb quruluşa malik ola bilər. Evləri, binaları, stolları nəzərdən keçirməklə siz bunu əyani görə bilərsiniz. Kristallar təbiətdə olan real çoxüzlülərdir. Çoxüzlünün səthini təşkil edən müstəvi çoxbucaqlılara çoxüzlünün üzləri deyilir. Çoxbucaqlının tərəflərinə çoxüzlünün tilləri deyilir. Çoxüzlünün təpə nöqtələrində olan Çoxüzlü bucağa onun Çoxüzlü bucağı deyilir. Çoxüzlünün sərhəddi müstəvi çoxbucaqlılardan təşkil olunmuş Çoxüzlü səthdir.

İstənilən üzünün müstəvisinin bir tərəfində qalan çoxüzlüyə qabarıq çoxüzlü deyilir. Bir üzə aid olmayan iki təpəni birləşdirən parçaya Çoxüzlünün diaqonalı deyilir. Düzgün tetraedrin dioqanalı yoxdur. Kubun isə dörd dioqanalı vardır.

Çoxüzlüləri təpələrindəki hərflərin hamısını yazmaqla və ya qısa olaraq bir diaqanalın uclarındakı hərflərlə işarə edirlər. Çoxüzlülərinin sayı ilə adlandırılır: dördüzlü (tetreadr), beşüzlü (pentaedr), altıüzlü (hekseadr).

**Prizma**

İki üzü paralel müstəvilərüzərində olan çoxbucaqlı, qalan üzü paraleloqram olan çoxüzlüyə prizma deyilir. Paralel müstəvilər oturacaqlar adlanır.

Prizmanın oturacaq müstəviləri arasındakı məsafəyə prizmanın hündürlüyü deyilir. Yan tili oturacağına perpendikulyar olan prizmaya düz, perpendikulyar olmayan prizmaya mail prizma deyilir.

Prizmanın bir üzünə aid olmayan iki yan tilindən keçən müstəvi ilə kəsişməsinə onun diaqonal kəsiyi deyilir. Prizmanın oturcağına paralel müstəvi ilə kəsiyi oturacaqlara paralel və onlara bərabər çoxbucaqlıdır. Prizmanın bir üzü üzərində olmayan iki təpəsini birləşdirən parçaya onun diaqonalı deyilir. Üçbucaqlı prizmanın diaqonalı yoxdur.










Oturacağı düzgün çoxbucaqlı olan düz prizmaya düzgün prizma deyilir. Prizmanın yan tilinə perpendikulyar müstəvi ilə kəsişməsindən alınan çoxbucaqlıya onun perpendikulyar kəsiyi deyilir.

Düz prizmada perpendikulyar kəsik oturacaqlara, yan til isə prizmanın hündürlüyünə bərabərdir.

Prizmanın üzlərinin sahələri cəminə prizmanın tam səthinin sahəsi və ya, sadəcə tam səth deyilir.

Yan üzlərinin sahələri cəminə prizmanın yan səthinin sahəsi deyilir.

Teorem. Prizmanın yan səthi

Prizmanın yan səthinin sahəsi onun perpendikulyar kəsiyinin perimetri ilə yan tilinin uzunluğu hasilinə bərabərdir.

$$Syan=P*L$$

Nəticə. Düz prizmanın yan səthinin sahəsi onun oturacağının perimetri ilə hündürlüyü (yan tili) hasilinə bərabərdir.

$$Syan=Pot*H$$

Tam səthi tapmaq üçün yan səthin sahəsini oturacaqların sahələrini əlavə etmək lazımdır.

$$Stam = S\ yan + 2Sot$$

**Cismin həcmi**

Stereometrik fiqur müəyyən bir səthlə məhdudlaşmış bir məkan bölgəsidir. Belə bir rəqəmin əsas kəmiyyət xüsusiyyətlərindən biri həcmdir. Həndəsi bir cismin həcmini təyin etmək üçün onun həcmini kub vahidində hesablamalısınız.

**Addım 1**

Həndəsi cismin həcmi ona verilən bəzi müsbət rəqəmdir və sahə və perimetrlə birlikdə əsas ədədi xüsusiyyətlərdən biridir. Bədənin həcmi varsa, buna kub deyilir, yəni vahid uzunluğu tərəfi olan müəyyən sayda kubdan ibarətdir.

**Addım 2**

İxtiyari bir həndəsi cismin həcmini təyin etmək üçün onu sadə formalı hissələrə ayırmaq və sonra həcmlərini əlavə etmək lazımdır. Bunu etmək üçün üfüqi bölmə sahəsi funksiyasının müəyyən bir inteqrasını hesablamaq lazımdır:

V = ∫_ (a, b) S (x) dx, burada (a, b) S (x) funksiyasının mövcud olduğu Ox koordinat oxundakı aralıqdır.

**Addım 3**

Xətti ölçüləri (uzunluğu, eni və hündürlüyü) olan bir gövdə çoxsaylıdır. Bu cür fiqurlar həndəsədə geniş yayılmışdır. Bunlar standart tetraedr, paralelepiped və onun növləri, prizma, silindr, kürə və s. Bunların hər biri üçün problemləri həll etmək üçün istifadə olunan hazır sübut olunmuş düsturlar mövcuddur.

**Addım 4**

Ümumiyyətlə, həcm baza sahəsini hündürlüyə vurmaqla tapıla bilər. Bəzi hallarda vəziyyət daha da sadələşdirilir. Məsələn, düz və düzbucaqlı paralelepipeddə həcm bütün ölçülərinin məhsuluna bərabərdir və bir kub üçün bu dəyər üçüncü gücə tərəfin uzunluğuna çevrilir.

**Addım 5**

Prizmanın həcmi yan kənarına və bu kənarın uzunluğuna dik en kəsiyi sahəsinin məhsulu ilə hesablanır. Prizma düzdürsə, onda birinci dəyər bazanın sahəsinə bərabərdir. Prizma, bazasında çoxbucaqlı olan bir növ – ümumiləşdirilmiş silindrdir. Həcmi aşağıdakı düsturla təyin olunan dairəvi silindr geniş yayılmışdır:

$$V = S \cdot l \cdot \sin \alpha$$

burada S baza sahəsi, l yaradan xəttin uzunluğu, α bu xətt ilə baza arasındakı bucaqdır. Bu bucaq düzdürsə, $V = S \cdot l$, $\sin 90° = 1$. Dairəvi silindrin bazasında bir dairə olduğundan, $V = 2 \cdot \pi \cdot r^2 \cdot l$, burada r onun radiusudur.

**Addım 6**

Məkanın kürə ilə məhdudlaşmış hissəsinə top deyilir. Həcmini almaq üçün yan səth sahəsinin x ilə 0-dan r-ə qədər müəyyən bir inteqrasiyası tapmalısınız:

$$V = ∫_ (0, r)\ 4 \cdot \pi \cdot x^2\, dx = 4/3 \cdot \pi \cdot r^3.$$

## QƏRBİ AVROPA MEMARLIQ NÜMUNƏLƏRİNDƏ BAROKKO ÜSLUBLU “MÜQƏDDƏS PYOTR KİLSƏSİ”

**Bəşirova Nübar Müslüm qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nubar18.nq@gmail.com*

Barokko memarlığı bir sıra tarixi və regional bədii üslubları, cərəyanları və məktəbləri, habelə Avropa və Amerikada (xüsusilə Mərkəzi və Cənubda) memarlığın inkişafında mühüm bir dövrü əhatə edən bir bədii istiqamət və memarlıq üslubudur. Barokko üslubu İtaliyada, əsasən XVIəsrin ortalarında Roma memarlığı nəzdindəyaranmış və XVIII əsrin ikinci yarısında İtaliyada, digər ölkələrdə isə həmin əsrin sonlarında başa çatmışdır.Barokko üslubu öz tarixi inkişafında incəsənətin bütün növlərini, ilk növbədə memarlığı əhatə etməklə yanaşı, həm də rəssamlıq, teatr (və əlaqəli ədəbiyyat, musiqi), heykəltəraşlıq, qrafika, dekorativ-tətbiqi sənətdə özünü göstərmişdir.

Barokko üslubunun kökləri İtaliyadakı İntibah memarlığına dayanır.Barokko sarayları və kilsələri dəbdəbəli, qəribə fasadlar, formaların mürəkkəbliyi, əyri planlar və konturlar sayəsində ətraf məkana tökülür kimi mənzərəlilik və dinamizm əldə edir. Mərasim interyerlərində memarlıq heykəltəraşlıq, qəlibləmə və oyma ilə birləşdirilir. Barokko üslubunda ən möhtəşəm ansambl kafedral və Romada Müqəddəs Pyotr bazelikasidır.

Eramızın 1-ci əsrində, indiki meydanın yerində, iki Roma təpəsi – Vatikan və Janikulum arasında, bağlar və İmperator Neronun sirki var idi. Və burada, əfsanələrə görə, böyük Pyotr

çarmıxa çəkildi. 326-cı ildə dəfn olunduğu yerdə kiçik bir bazilika yarandı. Onun qarşısında indiki meydanın əsas nöqtəsinə çevrilən şənliklər üçün yer ayrıldı.

16-cı əsrdə burada yeni bir kafedralın tikintisinə başlanıldı, ona Kaliqula tərəfindən Misirdən gətirilən nəhəng bir *obelisk* (dikilidaş) köçürüldü. Meydanın ən qədim elementi olan bu obeliskdir, çünki əfsanəyə görə, Pyotr orada edam olunanda artıq Neron bağlarında dayanmışdı. Ancaq Müqəddəs Pyotr bazilikasının bu gün sahib olduğu görünüşü memar və heykəltəraş Bernini sayəsində aldı. O, 1656-1667-ci illərdə onun üzərində işləmiş, təkcə memarlıq şah əsəri deyil, həm də bir növ iman simvolu yaratmışdır.

Barokko üslubunun lideri və klassiki italyan heykəltəraş və memar Lorenzo Bernini hesab olunur (1598-1680). Katolik dünyasının əsas ziyarətgahı olan Pyotr bazilikasına heç bir dəyişiklikəəl atmadan, yalnız sırf barokko üsullarından, yəni monumental heykəltəraşlıq və kiçik formaların memarlığını birləşdirərək məbədin daxili görünüşünü dəyişdirə bildi. Bernini kafedraldakı işinə üzərində bir çardaq qurduğu qurbangahla başladı. Müqəddəs Katedralin əsas qurbangahı. Pyotrun mərkəzi qübbəli məkanda, birbaşa Müqəddəs Peterin əfsanəvi dəfn yerinin üstündə yerləşir. Məhz burada Bernini nəhəng (29 m hündürlükdə) bir çardaq tikdi və bu, məbədə daxil olduqları andan parishionerlərin diqqətini çəkən kompozisiya mərkəzinə çevrildi. Kanop məbədin "ideoloji" və vizual mərkəzinə, eləcə də memarlıq ansamblının özəyinə çevrilərək kafedralın günbəzi ilə ziddiyyət təşkil edirdi. Günbəzin özü başgicəlləndirici bir hündürlüyə qalxır, ondan işıq axınları tökülür, baş verən hər şeyin məntiqsizliyi hissini doğurur. İnsan gördüklərinin fövqəltəbii, dəhşətli miqyası qarşısında özünü tamamilə əzilmiş hiss edir. Ancaq bu, Roma Katolik Barokko ideyasının ideal təcəssümüdür.

Berninin daha əzəmətli yaradıcılığı məbədin qarşısındakı nəhəng meydanın çərçivəsini düzəldən 284 sütun və 19 m hündürlüyündə 80 sütundan ibarət möhtəşəm kolonnada idi. O, kilsənin qarşısındakı meydanı məbədin davamı kimi dizayn edib. Birbaşa fasadın kənarlarından, geniş bir məbəd eyvanı olan məbədin qarşısında trapezoidal bir hissə meydana gətirən örtülü qalereya-dəhlizlər çox irəlidə uzanırdı və qalereyaların uclarından elliptik əyrilər boyunca Toskana sütunlarının iki kolonnası ayrıldı. Bernini özü kolonadanın qollarını kilsənin qolları ilə müqayisə etdi, bütün əzabları qoynunda qəbul etməyə hazır idi. Həqiqətən, meydan çox sayda insanı qəbul edir və onları kafedralın məkanına çəkir.

Barokko təsviri sənətində dini, mifoloji və alleqorik xarakterli virtuoz dekorativ kompozisiyalar, insanın imtiyazlı sosial vəziyyətini vurğulayan mərasim portretləri üstünlük təşkil edirdi. Onlarda obrazın ideallaşdırılması, cilovsuz hiperbola fırtınalı dinamika, gözlənilməz kompozisiya və optik effektlər, fantaziya ilə reallıq, vurğulanan həssaslıqla dini asketizm birləşdi. Gözəllik barokko rəngkarlığının əsas meyarı hesab olunurdu. Eyni zamanda sənətkarlar gözəlliyi təbiətdə, həyatın nəsrində deyil, mistik işıqlandırmada görürdülər. Buna görə də, tez-tez portretlərdə və natürmortlarda ayrı-ayrı obyektlərin konturları izlənilmir və onların ifadəliliyinə qaranlığın qalınlaşmasına daxil olan rəng gamutu və işıq vurğuları əldə edilir.

Barokko üslubunun Romada meydana gəlməsi təsadüfi deyildi, çünki Barokko memarlığının mənbələrindən biri qədim Roma sənətinin abidələri, xüsusən də Romalıların Yunan nizam sistemini "Roma memarlıq hücrəsi" şəklində yenidən düşünməsi idi. Memarlıqda ilk dəfə ənənəvi nizam anlayışından kənara çıxan Mikelancelo olmuşdur. Barokko üslubunun yaranması və inkişafı üçün digər mənbə və ən mühüm stimul XVI-XVII əsrlərdə insanların zaman və məkan haqqında təsəvvürlərini xeyli genişləndirən böyük coğrafi və elmi kəşflərdir. Üçüncü mənbə katolikliyin ideologiyası və estetikası, əks-islahat ideoloji hərəkatı və katolik kilsəsinin Trent şurasının qərarları hesab olunur. Buna görə də barokko üslubu həm də "əks-reformasiya üslubu" və "illüziya sənəti" adlanır.

XV əsrdə on bir əsrdir mövcud olan bazilika dağılma təhlükəsi ilə üzləşdi və Papa V Nikolayın dövründə onlar onu genişləndirməyə və yenidən qurmağa başladılar. II Yuli bu məsələni kökündən həll etdi, qədim bazilikanın yerində həm bütpərəst məbədlərə, həm də

mövcud xristian kilsələrinə kölgə salmalı və bununla da papalıq dövlətinin möhkəmlənməsinə və kilsənin yayılmasına töhfə verməli olan nəhəng bir kafedral tikməyi planlaşdırdı.

Barokko üslubunda hazırlanmış memarlıq abidələri indi də mühafizə olunur və müxtəlif ölkələrdən turistlər tərəfindən maraqla ziyarət olunur.

**Ədəbiyyat:**


1) Pevsner N., Honour H., Fleming J., Lexikonder Weltarchitektur. — München: Prestel, 1966.

2) Власов В.Г. Римский классицизм // Власов В.Г. Новый энциклопедический словарь изобразительного искусства. 2008.

3) Loktev. V.L. Mikelancelodan Guariniyə qədər barokko. Moskva, “Memarlıq-S”, 2004


## İSLAM ŞƏRQİNDƏ DEKORATİV-TƏTBİQİ SƏNƏT


**Quluzadə Jalə Çingiz qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*jale.quluzade1994@gmail.com*


Dekorativ-tətbiqi sənət bəşər cəmiyyətinin inkişafının ilkin mərhələsində artıq mövcud olmuş və uzun əsrlər boyu ən mühüm, bir sıra tayfalar və millətlər üçün bədii yaradıcılığın əsas sahəsi olmuşdur. Cəmiyyətin sinfi təbəqələşməsinin başlanğıcı ilə materialın və dekorasiyanın zənginliyinə, onların nadirliyinə və incəliyinə maraq getdikcə daha çox aktuallaşır.

Dekorativ tətbiqi sənət nümunələrinin dəyəri təkcə obyektiv dünyanı və maddi mədəniyyəti təmsil etməsində deyil, həm də mənəvi mədəniyyət abidəsi olmasındadır. Dövrümüzdə xüsusilə artmaqda olan mənəvi əhəmiyyətli xalq sənəti nümunələri getdikcə bizim həyatımıza faydalı obyektlər kimi deyil, estetik ideallarımıza uyğun olan və zamanın tarixi kontekstini qoruyub saxlayan bədii əsərlər kimi daxil olurlar. Xalq incəsənəti keçmişi bu günlə bağlayır və milli bədii ənənələrini, müasir bədii mədəniyyətin bu canlı mənbəyini qoruyub saxlayır.

Müxtəlif ərazilərdəki müsəlman xalqlarının estetik zövqlərini daha aydın şəkildə xalçalar nümayiş etdirir. Bildiyiniz kimi xalçaçılıq həmişə köçəri tayfalar arasında geniş yayılmış sənət növü olmuşdur. İlk xalçalar primitiv kompozisiya quruluşuna sahib idi. Lakin rənglər və istehsal texnologiyası inkişaf etdikcə xalça məhsulları sənət əsərlərinə çevrildi. Xalçalara olan elmi maraq XIX əsrin ikinci yarısında ortaya çıxan bədii keyfiyyətlərinə görə Yaxın Şərq xalqlarının xalça nümunələrinin yüksək qiymətləndirilməsi ilə paralel olaraq Qərbi Avropada meydana gəldi. Qədim xalça nümunələrinin böyük əksəriyyəti İslam mədəniyyətinə aiddir, çünki bir müsəlman üçün xalça namaz qıldığı müqəddəs yer idi. Bəzən xalça həm də bir müsəlman üçün dəfn kəfəninə çevrilirdi.

Yaxın Şərq ölkələrində bədii keramika sənətinin inkişafına təkan, çox güman ki, VIII-IX əsrlərin əvvəllərində idxal olunan Çin çini məmulatları olmuşdur. Mesopotamiyada, Misirdə, Türkiyədə və xüsusilə Farsda İran ərazisində əla keramika qabları yaradılmışdır. Kaşan şəhərindən çilçıraqlarla boyanmış qablar, firuzəyi şirli incə çevrilmiş əşyalar, qədim Ragidən (indiki İranda Rey) minay üslubunda mürəkkəb məmulatlar, Türkiyənin İznik şəhərindən ağ-göy rəngli keramika məmulatları xüsusilə seçilirdi.

Ərəblər gəlməmişdən əvvəl Yaxın Şərqdə metal emal olunurdu. Lakin müsəlman fəthlərinin başlaması ilə silah emalatxanaları geniş vüsət aldı, çünki onlar uclu silahlar və odlu silahlar düzəldirdilər.

Şəhərlərin böyüməsi və inkişafı ilə əl sənayesi istehsalı praktik olaraq şəhər əhalisinin əsas məşğuliyyətinə çevrildi. Silah ustaları lonca icmaları öz qanunlarına uyğun yaşayırdılar. Hər yeni gələn şəxsin peşəkarlığı ciddi şəkildə sınaqlara tabe edilir və çox saylı müraciətlər arasından diqqətlə seçilirdi

Metaldan hazırlanmış dekorativ və məişət əşyaları çox məşhur idi. Hökmdarlar ən yaxşı dəmirçilərdən qab-qacaq sifariş edirdilər, ona görə də onların çoxunda müştərinin adı yazılmış kartuş və ya qurşaq var idi. Lakin tədricən bu cür məhsullar kütləvi alıcı üçün hazırlanmağa başlandı. Həmin dövrdə yeməklər odda hazırlandığından qab-qacaqlar da istehlaka uyğunlaşdırılırdı.

**Ədəbiyyat:**


1. Б.В.Веймарна и Ю.Д.Колпинского - Москва: Государственное издательство “Искусство”, 1961'Всеобщая история искусств. Том 2, книга вторая \\Под общей редакцией.

2. Пиотровский М.Б. Мусульманское искусство. Санкт-Петербург между Китаем и Европой: Гос. Эрмитаж, 2008.

3. Зеленцова О.В., Кузина И.Н. Некоторые итоги раскопок в 13 квартале города Владимира в 2007 г. // Археология Владимиро-Суздальской земли: Материалы научного семинара. Задача 2.М., 2008.


## ŞUŞA AZƏRBAYCANIN MƏDƏNİYYƏT DİYARIDIR


**Mustafayeva Aytəkin Ayəddin qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mvaaytkin@gmail.com*


*“Azərbaycan xalqı bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə inkişaf edəcəkdir”.*

**Heydər Əliyev**

Mədəniyyət əcdadlarımızın yaratdığı və nəsildən-nəslə ötürülən maddi və mənəvi dəyələrdir. Azərbaycan xalqının çox qədim tarixə malik olması, mədəniyət irsinin bu günə kimi qorunub saxlanması millətin millət olduğunu sübut edən tarixi yaddaşdır. Mədəniyyət bir millətin varlığının sübutudur, xalqa verilən sərvətdir.

Corc Zeydanın dediyi kimi, “Bir millətin əsl tarixi bir millətin mədəni tarixidir”.

Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir. Bunu qədim mədəniyyət şəhərlərimiz olan Şuşa, Qobustan və Kəlbəcərdəki mədəniyyət abidələri,memmarlıq nümunələri sübut edir. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmasıda əbəs yerə deyilmiyib. Şəhərin əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuşdur. Şuşa şəhərinin sahəsi 5,5 km2, dir. Şuşanın mədəniyyət abidələrindən xan sarayları (Pənah xan (XVIII əsr), İbrahimxəlil xan (XVIII əsr), Xan sarayı və s.), bulaqlar, sənətkarların ev muzeyləri (Kəlbə Yusif, Məşədi Qara, Məşədi Zülfüqar, Üzeyir Hacıbəyli, Bülbül) və s. vardır.

Prezident İlham Əliyevin mayın 7-də Şuşanın mədəniyyət elan edilməsi haqqında imzaladığı sərəncamda deyilir: "Azərbaycan xalqı üçün tarixi-mədəni və mənəvi dəyər Şuşaya xüsusi diqqət və qayğını şərtləndirir. Bu baxımdan Şuşada dövlət idarəçiliyi və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi, onun bərpası və qorunub saxlanmasına xidmət göstərilir. Şəhərdəki tarixi və mədəni irs, onun davamlı inkişafı üçün şərait yaradılacaqdır.

Tarixi Şuşa şəhərinin işğaldan azad edilməsini mədəniyyətimizin bir növ xilası hesab etmək olar. Çünki erməni vandalizminə məruz qalmış abidələrimiz bərpa olunaraq Azərbaycan xalqının maddi mədəniyyətini bir daha dünyaya nümayiş etdirə bilər. Mikayıl Müşfiq demişkən: “Azad olunmayan mədəniyyət mağmundur. Azadlığı

"Azərbaycan qoşunları Çanaqçı kəndini işğaldan azad etmiş, ardındanda strateji Şuşa – Laçın yolunun bir hissəsinin nəzarətini ələ keçimişdir.

Şuşanın işğaldan azad edilməsi müharibənin həlledici anı olmuş və Azərbaycana strateji üstünlük vermişdir.

Şuşa coğrafi mövqeyinə görə alınmaz qala idi. Alınmaz qala müasir qüvvə, pilotsuz təyyarə, raket və artilleriya olmadan azad edildi. Şuşinin xüsusi təyinatlı qüvvələrimizin peşəkarlığı ilə azad edilməsi hərb tariximizin ən şanlı səhifələrindən biridir.

Sentyabrın 27-dən başlayaraq öz torpaqlarının işğaldan azad edilməsi uğrunda gedən 44 günlük müharibədə Azərbaycanın nümayiş etdirdiyi taktika bütün dünya dövlətləri tərəfindən yüksək qiymətləndirilir.

Şuşanın işğaldan azad edilməsindən sonra erməni vandalizminə məruz qalmış mədəniyyət və maarif abidələrinin bərpasına, yeni yolların çəkilməsinə, eləcə də bir sıra beynəlxalq festivalların keçirilməsinə başlanılıb. Bu festivallardan biri də Qarabağın simvoluna çevrilmiş Xarı bülbül festivalıdır. Hazırda ölkə başçısının tapşırığı ilə Şuşada Xarı bülbül festivalının keçirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. İlham Əliyev festivalla bağlı deyib: “İndi Şuşaya yeni yol çəkilir. Düzdür, bu yol çox çətin relyefli ərazidə salınıb. Amma biz ora çatacağıq. Bu il Şuşada iki tədbirin - Xarı bülbül festivalının və Vaqif Poeziya Günlərinin keçirilməsi planlaşdırılır.

## KİMYANIN TƏDRİSİNDƏ FƏNNLƏRARASI İNTEQRASİYANIN ROLU

**Quliyev Elnur İsrayıl oğlu**
**Lənkəran Dövlət Universiteti**
*asya21-89@mail.ru*

Kimya fənninin təlimində indiyədək istifadə etdiyimiz məzmun standartlarının çoxu əsasən bilik və fənn yönümlü olmuşdur, daha çox nəzəri xarakter daşıyır, onların fənndaxili və fənlərarası əlaqələrinə, inteqrativ formada öyrənilməsinə az diqqət ayrılmışdır. Bir çox ölkələrdə kurikulumların bu və ya başqa formada inteqrasiya edilməsi müsbət nəticələr verir.

İnteqrasiya - ayrı-ayrı hissələrin məntiqi surətdə bütöv bir tam halında bir-birilə qarşılıqlı əlaqədə birləşməsi deməkdir. İnteqrasiya vaxtdan səmərəli istifadə etməyə imkan yaradır, şagirdlərin təlim yükünü azaldır, inteqrativ bilik və bacarıqların formalaşmasına şərait yaradır, bilik və bacarıqların qazanılmasında öyrənmənin intensivliyini, səmərəliliyini artırır, həddən artıq xırdalanmanın qarşısını alır, təlimə marağın artmasına imkan yaradır.

Sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyin təmin olunması, eləcə də fənn üzrə məzmun xətlərini əlaqələndirmək, müvafiq məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin etmək tədrisin keyfiyyətini yüksəldir. Şagirdlərin əldə etdikləri biliklərdən istifadə etmək bacarıqlarını inkişaf etdirir.

Tədris prosesində inteqrasiyadan istifadə etməklə şagirdlərin ayrı-ayrı fənlərdən biliyi uzlaşdırılır. Bu isə şagirdlərin fəallığının artırılmasına, mövzunun ətraflı mənimsədilməsinə, şagirdlərin dünyagörüşünün formalaşmasına kömək etməklə təhsilin stimullaşdırılmasına yardım edir. Fənlərarası əlaqənin müəyyənləşdirilməsi metodikası müasir didaktikanın əsas vacib məsələlərindən biridir. Tədrisdə çoxtərəfli inteqrasiya imkan verir ki, bütün fənlər bir-biri ilə əlaqəli şəkildə tədris olunsun. Bu tip qarşılıqlı inteqrasiya yaradıldıqda şagirdlərin biliyi tamamlanır və bütövləşir.

Tədrisdə çoxtərəfli inteqrasiya imkan verir ki, bütün fənlər bir-biri ilə əlaqəli şəkildə tədris olunsun. Bu tip qarşılıqlı inteqrasiya yaradıldıqda şagirdlərin biliyi tamamlanır və bütövləşir. Bir neçə fənnin (kimyanın tədrisində: biologiya, fizika, riyaziyyat və s.) əhatə etdiyi ortaq arayış, bilik və bacarıqların sintezi olmaqla fənnə aid olan anlayışların və metodların digər bir fənnin öyrənilməsində istifadəsini fənlərarası inteqrasiya həyata keçirir.

Məsələn, riyaziyyatda öyrənilən tənasüb, faiz kimi anlayışlar "Məhlullar və onlara aid məsələlərin həlli" mövzusunda ən çox sintez edilən anlayışlardandır. "Maddə kütləsinin saxlanması qanunu", "Maddə tərkibinin sabitliyi qanunu", "Avoqadro qanunu" və s. mövzulara

aid mKimyanın tədrisində fəndaxili və fənlərarası inteqrasiyaya ilk dərslərdən diqqət yetirmək lazımdır.

Məsələn, "Valentlik" mövzusu öyrənilən zaman ayrı-ayrı atomların xarici elektron təbəqəsində yerləşən elektronların sayının qrupun nömrəsindən asılılığı, onların valentlik elektronları adlandırılmasının səbəbləri aydınlaşdırılmaqla şagirdlər mövzular arasında əlaqəni araşdırır, valentliyin yaranma səbəblərini və əhəmiyyətini öyrənmiş olurlar.

Məsələlərin həllində riyaziyyata və fizikaya aid anlayışlardan, "Aminlər, aminturşular", "DNT və RNT", "Karbohidratlar" və s. öyrənilməsində biologiyaya dair biliklərdən geniş istifadə olunur.

Fizika və biologiyaya aid məlumatdan kimya dərslərində istifadə edilməsi dərsi daha da canlı şəkilə salır, şagirdlərin diqqəti səfərbərliyə alınır, öyrənilən məsələyə onların marağı daha da artır, müşahidəçilik və elmi ədəbiyyatı müstəqil öyrənmək vərdişi inkişaf edir. Fənlərarası əlaqənin inkişaf etdirilməsində iki müxtəlif elm sahəsinin sintezindən yaranmış sintetik elmlərin nailiyyətlərindən müvəffəqiyyətlə istifadə edildikdə dərsin keyfiyyəti və effektivliyi xeyli yüksəlir. Hər bir müəllimin də pedaqoji məhsulunun özünəməxsus keyfiyyət nişanı şagirdlərin möhkəm və dərin biliklər almasını təmin etmək və bu bilikləri praktikada həyata keçirmək bacarığı və vərdişlərini inkişaf etdirməkdir. Bu nöqteyinəzərdən təbiət elmləri arasındakı əlaqəni təlim prosesində qabarıq şəkildə nümayiş etdirmək və bu məqsədlə biofizika, kibernetika, radiobiologiya, molekulyar biologiya, molekulyar genetika, aqrofizika, biokimya və bir sıra başqa sintetik elmlərin nailiyyətlərindən istifadə etmək böyük əhəmiyyət kəsb edir.

Müsbət haldır ki, müxtəlif fənlərə aid, lakin bir-birini tamamlayan, eləcə də oxşar mövzuların tədrisi vaxt etibarilə bir-biri il uzlaşdırılır. Bu da fənlərarası əlaqəni daha asan və məhsuldar edir. Belə əlaqənin yaradılması şagirdlərin bilik və bacarıqlarından yaradıcı istifadəni təmin edir.

## ƏDƏBİYYAT NƏZƏRİYYƏSİNİN PREDMETİ VƏ BAŞQA FƏNLƏRLƏ ƏLAQƏSİ

**Şirinova Gültac Əbülfət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Ədəbiyyatşünaslıq ən qədim elmlərdən biridir. Bu elmin qədim və dövrümüzə qədər gəlib çıxmış klassik nümunəsi – Aristotelin “Poetika” əsəri yeni eradan əvvəl dördüncü əsrdə Yunanıstanda meydana çıxmışdır. Sonrakı iyirmi dörd əsr ərzində dünya xalqlarının yüzlərcə dilində milli ədəbiyyatlar yaranmış və inkişaf etmişdir. Ədəbiyyatların belə milli əlvanlığına baxmayaraq onların hamısını birləşdirən ümumi xüsusiyyətlər vardır. Bunlar ədəbi dilin, bədii qavrayışın, bədii əsərin quruluşunun və yaradılması prosesinin ümumix üsusiyyətlərinə aiddir. Bu xüsusiyyətləri, onları əks edən əsas anlayış və terminləri ədəbiyyatşünaslığın əsasları və ədəbiyyat nəzəriyyəsi öyrənir. Ədəbiyyatşünaslığın əsasları ədəbiyyat elmi haqda ümumi məlumat verir və onun əsas anlayış və terminlərini yığcam, sistemli şəkildə izah edir. Bu fənn adətən filoloji təhsilin əvvəlində, birinci kurslarda tədris edilir. Yalnız ədəbiyyat tarixi və dünya ədəbiyyatı barədə geniş biliklər alındıqdan sonra ədəbiyyat nəzəriyyəsi bu bilikləri nəzəri cəhətdən əlaqələndirən və müqayisəli şəkildə izah edən və sistemləşdirən bir fənn kimi öyrənilir.

Ədəbiyyat nəzəriyyəsinin əsas termin və anlayışlarını yaxşı mənimsəmək və təsəvvür etmək üçün üç-dörd ədəbiyyatın tarixini, təcrübəsini az-çox bilmək zəruridir. Ədəbiyyat tarixini ilk dəfə fransız filosofu F.Bekon 1605-ci ildə öz traktatlarından birində müstəqil elm adlandırmışdır. Bu elmin Avropa universitetlərində tədrisi isə XIX əsrdən başlanır. İlk ədəbiyyat tarixi kursları yunan-Roma ədəbiyyatları tarixinə aid idi, sonralar konkret Avropa ədəbiyyatlarının tarixləri də müstəqil fənlər kimi tədris olunmağa başlamışdır. Bu ədəbiyyatlar sırasında Qərbi Avropa ədəbiyyatı kursu xüsusilə vacibdir, Rusiya və Azərbaycan da müstəqil fənn

kimi tədris olunur. Ədəbiyyat nəzəriyyəsinin əsas nəzəri və terminoloji əsasları bu ədəbiyyatlarda, xüsusilə qədim yunan-Roma ədəbiyyatında yaranmış və digər xalqların ədəbiyyatlarına keçmişdir.

Yunan-Roma ədəbiyyatının əsas nümunələri VII-IX əsrlərdə ərəb dilinə də tərcümə olunmuşdur və nəticədə ərəb dilində müsəlman ədəbiyyat nəzəriyyəsi – Şərq poetikası və onun terminoloji bazası da yaranmışdır. Bu terminlərin bir qismi şərq yolu ilə Azərbaycan dilinə keçmişdir. Ona görə bir sıra müsəlman xalqları, məsələn biz azərbaycanlıların dilində paralel olaraq həm Avropa ədəbiyyat nəzəriyyəsi məktəbinə, həm də qismən müsəlman ərəb dilli poetika məktəbinə aid terminlər işlənir. Məsələn, poeziya-şeir, oda-qəsidə, proza-nəsr, stil-üslub və s. Müasir elmi dilimizdə bu anlayışlar elmi sinonimlər kimi işlədir (4).

Qərb-xristian və şərq-islam ədəbi termin ənənəsindən başqa Azərbaycan dilində və başqa xalqlarda ədəbi terminologiyanın üçüncü milli bir qismi də mövcuddur. Hər xalqın və hər dilin özünəməxsus olan milli ədəbi terminologiyanın əsas mənbəyi, ilk növbədə, həmin dildə olan şifahi xalq ədəbiyyatıdır. Bu terminlər keçmişlərdən el içində yaşayıb yaratmış söz ustaları tərəfindən işlənib yaddaşlarda möhkəmlənmişdir. Bayatı, qoşma, nağıl, oxşama kimi terminlər buna misal ola bilər. “Dədə Qorqud” dastanlarında da dastan mənasında “boy”, təhkiyə mənasında “söyləmə” kimi mühüm terminlər işlənir. Əlbəttə, bütün dünyada yunan-Roma mənşəli terminlərə üstünlük verilir və onları işlətmək elimi dəqiqlik və yekmənalıq baxımından daha münasibdir, Qərb dillərini öyrənmə zamanı da yardımçı ola bilir.

Ədəbiyyat nəzəriyyəsinə yaxın olan fənlərdən biri də ədəbi tənqiddir. Tənqid müasir ədəbi prosesi izləyən və araşdırıb qiymətləndirən elm sahəsidir. Tənqid mətbuatla qırılmaz şəkildə bağlı olsa da, öz təbiəti etibarilə nəzəri bir elmdir. Ədəbiyyat tarixinə və nəzəriyyəyə aid bütün klassik traktatlar bir qayda olaraq müasir ədəbiyyatdakı faktlar və mübahisələrlə bağlı yaranmışdır.

Sonradan bu əsərlərin nəzəri əhəmiyyəti ədəbiyyat tarixçilərinə məlum olmuşdur. Ədəbiyyat nəzəriyyəsinin əsas vəzifələrindən biri ədəbi termin və nəzəriyyələrin tarixi aspektdə öyrənilib mənimsənilməsidir. Bu fənn termin və nəzəriyyələr arasında əlaqələri onların yarandığı ardıcıllıqla bərpa edir. Sovet vaxtı yazılan ədəbiyyat nəzəriyyəsi dərsliklərində buna əhəmiyyət verilmir və klassik filologiyanın ənənələrinə laqeydlik göstərilirdi (3).

Marksist ədəbiyyat nəzəriyyəsi çox zaman ədəbiyyatın spesifikasına laqeydlik göstərir və dialektik və tarixi materializm adlandırılan öz rəsmi fəlsəfi doktrinasını ədəbiyyat nəzəriyyəsinə və estetikaya da süni surətdə tətbiq edirdi. Bunun nəticəsində sovet vaxtı buraxılan ədəbiyyatşünaslığın əsaslarına dair dərsliklərdə partiyalılıq və xəlqilik, yaradıcılıq metodu, forma və məzmun vəhdəti, ideyalılıq və tipiklik kimi ədəbiyyatın spesifikasını çox zəif əks etdirən nəzəri problemlər işıqlandırılırdı. Bu gün onlar ədəbiyyat nəzəriyyəsinin əsaslarında ciddi yer tuta bilməz Biz sayırıq ki, ədəbiyyat nəzəriyyəsinin əsas məqsədlərindən biri ədəbi termin və anlayışların yarandıqları tarix ardıcıllıqla və onların ilkin mənalarını açaraq şərh edilməsidir. Bu istiqamətdə klassik filologiya məktəbində də təşəbbüslər olmuş və tarixi poetika adı almışdır. Bundan başqa Hegel kimi böyük nəzəriyyəçilər ədəbiyyat nəzəriyyəsinin kateqoriyalarını tarixi ardıcıllıqla və insan təfəkkürünün inkişafına paralel şərh edilməsinə xüsusi əhəmiyyət vermişlər. Biz də sayırıq ki, tarixilik prinsipi ədəbiyyat nəzəriyyəsinin şərhində və izahında əsas metodoloji istiqamət və əsas olmalıdır.

Ədəbiyyat nəzəriyyəsinin əsas problemlərindən biri ədəbiyyatın insan fəaliyyətinin sahələrindən biri kimi mənşəcə ciddi surətdə izah edilməsidir. Ədəbiyyat necə yaranıb, o insanların hansı ehtiyaclarını ödəyir? Marksist ədəbiyyatşünaslıq bu suallara ancaq ümumi şəkildə cavab verir və ədəbiyyatı ictimai şüurun formalarından biri kimi səciyyələndirirdi. Lakin bu, qaneedici sayıla bilməz, çünki ədəbiyyat mənşə və funksiyaca ictimai olduğu qədər də fərdi şüur formasıdır və biz bu kitabda həmin məsələyə geniş yer ayırmışıq (1).

Ədəbi qavrayış, bədiilik, yaradıcılıq prosesi, ədəbi obraz kimi ədəbiyyat nəzəriyyəsinin fundamental anlayışları məhz fərdi yaddaş və şüurla ilk növbədə bağlıdır. Biz ədəbiyyat

nəzəriyyəsini ədəbiyyatın termin və anlayışlarının törəmə tarixi kimi şərh etməyə əsas diqqət yetirmişik. Bu prosesdə elə problemlər ortaya çıxıb ki, onlar ənənəvi ədəbiyyat nəzəriyyələrində heç zaman qoyulmayıb. Bunlardan biri dilin mənşəyi və ya semiotikanın ortaya qoyduğu vahid mətn mədəniyyəti və onun mənşəyi məsələsidir. Bu problemi əhatəli şəkildə qoymaq üçün biz dilin mənşəyi haqqında öz nəzəriyyəmizi şərh etmişik və ədəbiyyatın mənşəyini də bu nəzəriyyə işığında izah etmişik. İndiyə qədər belə hesab olunub ki, əvvəlcə şifahi ədəbi dillər və folklor formalaşıb, sonra isə onların əsasında yazılı dil və ədəbi dillər yaranıb. Biz bu geniş yayılmış nəzəriyyəni yanlış hesab edirik. Bu kitabda fonetik dilin inkişafı və müasir sərhədsiz, vahid mətn mədəniyyətini yaratması yazının yaranmasının nəticəsi kimi izah edilmişdir. Bu nəzəriyyəni geniş şərh etmək üçün biz dilin mənşəyi, ədəbi dillərin formalaşması prosesini də ədəbiyyat nəzəriyyəsinin predmetinə daxil etmişik. Məsələnin belə qoyuluşu zamanı mifin və mifyaratmanın dilin mənşəyi və təbiəti ilə ayrılmaz bağlılığı üzə çıxır. Belə halda yazılı dil anlayışı və onun nəzəriyyəsi ədəbiyyat nəzəriyyəsinin tərkib ünsürü olur və müasir dilçılıkdə olduğundan fərqli bir məna qazanır. Yazılı dilin normativliyini hazır bir şey kimi alıb araşdıranda o, mətbuat dili anlayışı ilə eyniləşir. Lakin ədəbi dillərin formalaşmasına tarixilik prinsipini tətbiq edəndə, o yazının və xüsusilə vahid mətn mədəniyyəti anlayışının tarixi baxımda izah edən bir elmə, dilin mənşəyinin təkamül nəzəriyyəsinə çevrilir.

**Ədəbiyyat:**


1. Aslanov M., Babayev A., Mustafayeva R., Mikayılov Ş. Orta məktəbdə ədəbiyyat tədrisi. Bakı:Maarif. 1976, 302 səh.
2. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. ADPU-nun nəşriyyatı. Bakı, 2005.- 367 səh.
3. Xəlilova A. Dərsdə yeni təlim metodlarının seçilməsi və tətbiqi // Azərbaycan dili və ədəbiyyatın tədrisi, 2011, Ns3, səh. 23-27.
4. İsgəndərov İ. Azərbaycanın ümumi təhsil sahəsində islahatları. // Kurikulum, 2010, səh. 7-11.
5. Quliyeva V. Təlim fəallığının yüksəldilməsində lirik əsərlərin rolu // Azərbaycan məktəbi, 2018, N22, səh. 80-84.73


## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ HECA VƏZNLİ ƏSƏRLƏRİN TƏDRİSİNİN BƏZİ MƏSƏLƏLƏRİ


**Axundova Miradə Əhməd qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*miradeaxundova@gmail.com*


Çoxəsrlik tarixə malik olan heca vəzni ədəbiyyatımız üçün əvəzsiz dəyərdir. Hecanın milli-mənəvi əhəmiyyəti onun ana dilimizlə, müasir ədəbi dilimizlə ayrılmaz bağlılığıdır. Ədbi dillər xalqların tarixi yaddaşını və təcrübəsini ifadə edən milli dəyərlərdən biridir və xalqların tanınmasında başlıca rol oynayan xüsusiyyətdir.

Şeirin zahiri cəhətlərindən danışarkən vəzn və qafiyəyə diqqət yetirilməlidir. Bunu da qeyd etmək lazımdır, şeirin mahiyyətinin tam açılması deyildir. Beləliklə şeirin mahiyyətindən bəhs edərkən hansı vəzndə yazılması amilini kənarda saxlamaq, ikinci dərəcəli məsələ kimi qəbul etmək olmaz.

Bu vəznin əsası Azərbaycan dilindəki harmoniya qanunu ilə qırılmaz şəkildə bağlıdır. Azərbaycan və digər türk dillərində eyni tipli saitlərin sözlərdə bir-birini izləməsi qanunu var. Nəticədə hecaların adi tələffüzü türk dillərində müəyyən ahəng yaradır. Belə sözlər misralarda sadalananda hər bir heca tələffüz məxrəcini saxlayır və poetik ritm yaradan əsas vasitəyə çevrilir. Ona görə də bu vəznin heca adlandırılması tamamilə düzgündür. Beytlərin misralara bölünməsində əsas rol oynayan hecalar misraların sabitləşməsində də əsas rol oynamışdır. Bu rol

o qədər böyük idi ki, Azərbaycan poeziyasında misralarda hecaların sayı sabitləşdi. Bu sabitliyin pozulması ritmikliyi də pozduğundan hecanın heca tərkibinin sabitliyi heca vəzninin əsas xüsusiyyətinə çevrilmişdir. Sabit hecaların sırası qanunu misralara da şamil edilir. Ritmiklik tələbinə görə hər bir bənddə misraların müəyyən sayda sıralanması qanununa tələb öz əksini tapmışdır.Belə bir sıralama qanunu misralarda heca sayının sabitləşməsi ilə nəticələnmişdir. Heca vəzni nəinki şagirdlər, ədəbiyyatı tədris edən müəllimlər üçün, demək olar ki, bütün peşə sahibləri üçün də zəruridir.

Eləcə də şagirdlər heca vəznində yazılmış şeirlərlə tanış olarkən bu vəznə, onun bölgü məsələlərinə diqqət yetirməyi öyrənirlər. Heca vəzninin uzun və qısa hecalar baxımından ritmik xüsusiyyəti haqqında da konkret məlumatlara sahib olurlar və sillabik vəzn, tonik vəzn, metrik vəzn anlayışlarını dərk edirlər.

Heca vəzni özünəməxsus qaydaları, daxili bölgüsü, məntiqi və emosional vurğusu, ritmi, ahəngliyi baxımından çox funksiyalıdır. Əsərin ideya-bədii xüsusiyyətlərinin tədrisi birbaşa olaraq əsərin vəzn sisteminin düzgün öyrədilməsindən asılıdır. Düzgün intonasiya, fasilə və ahəng əsərin həm üzdə olan, həm də gizlin olan mətləblərinin açılmasına yardımçı olur.

Ümumtəhsil məktəblərinin V-IX siniflərinin ədəbiyyat proqramına 42 lirik şeir daxil edilmişdir. Bu lirik şeirlərin bir qismi də heca vəznindədir.

Orta məktəbdə tədrisi nəticəsində şagirdlər heca vəznli şeirləri məzmununa uyğun ifadəli oxumağı bacarır, poetik nümunələrdə bədii təsvir vasitələrini müəyyənləşdirir, tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır və s.

Heca vəznində müxtəlif hecalı, mövzulu, ideyalı, təsirli poeziya nümunələri göstərmək olar. Bundan əlavə, heca vəznində daxili bölgü, ritm, ahəng məsələlərinin tədrisi araşdırılmışdır.

Nümunə olaraq məktəb təcrübəsində tədrisinə 3 saat vaxt ayrılan heca vəznli “Hayıf ki, yoxdur” qoşmasına nəzər salaq. Bu 3 saatın 1 saatı məzmun üzrə işə, 2 saat isə təhlil üzrə iş ayrılmışdı. Bildiyimiz kimi, şifahi xalq şeiri üslubunda yazılan şeirlər, o cümlədən Vaqifin “Hayıf ki, yoxdur ” qoşması da dilin sadəliyi, aydınlığı ilə seçilir. Beləki qoşmada işlənilən sözlər, ifadələr canlı danışıq dilinə yaxın olduğu üçün adi oxucu tərəfindən də başa düşülür.

VIII sinifdə “Hayıf ki, yoxdur”, qoşmasının tədrisi üçün keçəcəyi dərsi planlaşdıran müəllim metodik vəsaitdə verilən alt standartlardan istifadə edə bilər:

1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram, poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.5.Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafora, bədii təzad, kinayə) müəyyənləşdirir.

2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir.

3.1.3. 2-2,5 səhifə həcmində mühakimə, təsvir, informasiya,xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

Alt standartın seçilməsi məsələsinə diqqətlə yanaşılmalı, bununla yanaşı alt standartın reallaşdırılması üçün dərsin planlaşdırılmasına diqqətlə yanaşılmalıdır. Dərsi planlaşdırılarkən fəal/interaktiv metodlardan, iş formalarından, İKT-nin imkanlarından istifadə, şagirdlərin fəallığının təmin olunması dərsin uğurlu qurulması üçün mühim əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, heca vəznli şeirlərin tədrisində müəllimlər dərsin planlaşdırılmasına diqqətlə yanaşmalıdır. Əgər dərs düzgün qurulduğu təqdirdə şagirdlərin heca vəznli şeirlərin xüsusiyyətlərini öyrənməsinə və əruz vəznli şeirlərdən fərqləndirməyi bacarmasını təmin edir.

**Ədəbiyyat:**


1. Əliyev S., Həsənov B., Məmmədova S., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün “Ədəbiyyat” fənni üzrə dərslik. Bakı: Bakınəşr, 2018

2. Əliyev S., Həsənov B., Verdiyeva N., Mustafayeva A., Məmmədova S. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün “Ədəbiyyat” fənni üzrə dərslik. Bakı:Bakınəşr, 2019

3. Əliyev S. Ədəbiyyatın məktəbdə öyrədilməsi (metodik vəsait). Bakı, 2019
4. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, ali mətəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı, 2017

## MÜASİR TƏLİM PROSESİNİN ƏSAS VƏZİFƏSİ

**Yusubova Gültəkin Valeh qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*yusubovagultekin104@gmail.com*

Elmin və təhsilin inkişafı ölkənin, cəmiyyətin tərəqqisinə təkan verən başlıca amillərdəndir. Bu inkişafın başlanğıcını, təməlini ümummilli lider Heydər Əliyev qoymuşdur. Onun rəhbərliyi ilə Azərbaycan təhsil sistemində islahat başlandı və əsas məqsəd respublikanın gələcəyi üçün təhsil sisteminin inkişaf etdirilməli sahə olduğu, ölkədə elmin və mədəniyyətin inkişafı, təhsil alanın şəxsiyyət kimi formalaşdırılması, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsi başlıca vəzifə hesab edildi.

Həmin sənəddə gözlənilən nəticələrdə qeyd edilmişdir ki, ümumi və peşə təhsilinin bütün pillə və səviyyələrində dövlət təhsil standartlarına müvafiq təhsil proqramları və tədris planları, dərslik və dərs vəsaitləri yenidən hazırlanacaq. Təlim-tərbiyənin məzmunu təhsil alanların imkanlarına uyğun dövlətin, ictimaiyyətin və şəxsin tələbatı əsasında qurulacaq. Buna uyğun olaraq müasir məktəbdə müəllimin fəaliyyətinin əsas məqsədi hər bir şagird üçün uğurlu təlim mühiti yaratmaqdır. Yəni şagirdin nailiyyət sevincini yaşaması, öz imkan və qabiliyyətlərini dərk etməsi, özünə və güclü tərəflərinə inamı deməkdir. Sinifdə şagirdin uğur vəziyyəti öyrənmə motivasiyasını artırır, təhsil işinin yüksək səmərəliliyini stimullaşdırır, şəxsi xüsusiyyətlərini inkişaf etdirmək istəyini təmin edir, yaradıcılığı, təşəbbüskarlığı inkişaf etdirir və əlverişli psixoloji iqlimi qoruyur.

Təhsildə təlim strategiyası qarşıya qoyulan məqsədə çatmaq üçün öyrətmə metod və üsullarından bacarıqla istifadə etmək deməkdir. Təlim strategiyaları aşağıdakı əsaslar üzrə qurulur: fəal və özünüidarə edən təhsil; şagirdlərin bilik və bacarıqlarına əsaslanma; refleksiyaya istiqamətlilik; şagirdin idrakının, sosial kompetentliyinin inkişafı; təlim prosesində interaktivlik və kooperativlik (həmrəylik). Bu əsaslar sürətlə inkişaf edən cəmiyyətin məktəb qarşısına qoyduğu məqsədlərdir. Təhsil prosesində təlim strategiyası ilə yanaşı, pedaqoji texnologiyalar da tətbiq edilir. Təlim strategiyasının təlim texnologiyası ilə ümumi oxşarlıqları və fərqləri var. Təlim strategiyası daha çox bilik və bacarıq əldə etməyə, qoyulan məqsədə çatmağa köməklik edir. Fərq olaraq isə bunları qeyd edə bilərik: təlim strategiyası "məqsədə çatmaq ücün biz nə edirik?" Təlim texnologiyası isə "təlim məqsədlərinə effektli çatmaq üçün biz nə etməliyik?" sualına cavab verir.

Pedaqoji prosesin təşkilində təlim strategiyasından səmərəli şəkildə istifadə olunması əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından qurulmasını tələb edir. Müasir təlim prosesinin əsas vəzifəsi insanın imkanlarının sərhədlərinin, öz fəaliyyətinə təsir etmək qabiliyyətinin, məsuliyyəti öz üzərinə götürməyə, mürəkkəb və tanış olmayan vəzifələri həll etməyə hazır olmasını təmin etməkdir. Buna əsaslanaraq, fərz etmək olar ki, əsas təlim nəticələri fənn deyil, fərdi və meta-fənn nəticələridir ki, bu da təlimin müxtəlif formalarının nisbətinin dəyişməsinə gətirib çıxarır.

Əsas kompetensiyalar müxtəlif fəaliyyət növlərində tələb olunur, onlar təhsilin keyfiyyətinə, gündəlik həyat problemlərinə nə qədər yaxın olduğuna dəlalət edir, onların həllinin uğurunu müəyyənləşdirir. Bu zaman daha çox şagirdin mövqeyi ilə bağlı olan tədris özünü tənzimləyən təlimdir.

Ümumi təhsil üzrə təsdiq edilmiş fənn kurikulumu təhsil müəssisələrində, bütün səviyyələrdə şagirdlərin təhsil standartında göstərilən nəticələrə nail olması, şagirdlərin şəxsiyyət kimi formalaşması; özünü inkişaf etdirməyə hazırlığı; bilik və öyrənmə üçün motivasiya;

sosial əhəmiyyətli şəxsiyyət xüsusiyyətləri; ictimai əhəmiyyətli fəaliyyətlərdə fəal iştirakını tələb edir.

Bu vəzifələrin həllinə aşağıda qeyd etdiklərimiz kömək edə bilər: məktəbdə rəqəmsal təhsil mühitinin formalaşdırılması, təhsilin bütün səviyyələrində hər bir şagirdin qabiliyyət və yaradıcılığının "artırılmasının" səmərəli sisteminin təmin edilməsi. Bütün bunları təlimin məzmununu yeniləmədən yaratmaq mümkün deyil.

Yeni məzmun və forma qazanmış Azərbaycan dili əsas təlim fənni kimi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dili tədrisində yeni normalara uyğun pedaqoji fəaliyyətin icrası üçün aşağıdakı prinsiplərdən istifadə məqsədə müvafiq hesab edilir. Mövzumuz da təlim strategiyasına daxil olan müasir təlimin prinsipləri və Azərbaycan dili təliminin təşkilinə verilən əsas tələblər haqqındadır. Metodist alimlərin son tədqiqatlarına əsaslanaraq Azərbaycan dili dərslərinin təşkilində nəzərə alınması vacib olan aşağıdakıları qeyd edə bilərik:

- təlim zamanı dərs deyil, məqsədə nail olmaq planlaşdırılır (modullar);
- təlim prosesinin yeni hissəsi: məqsədlərin planlaşdırılması, ona nail olmaq yollarının seçilməsi, qiymətləndirmə, tənzimləmə;
- fərdi və ya komanda şəklində məqsədə nail olmağın müxtəlif yolları müəyyən edilir;
- dərs tamamilə birgə işə, komandanın qarşılıqlı fəaliyyətinə həsr olunur.
- nəzərdə tutulmuş hədəfə çatmaq, nəticələr əldə etmək uzun müddət tələb etdiyi üçün məqsədin hər bir elementi üçün tapşırıqlar, əldə edilmiş nəticəni yoxlamaq üçün materiallar təklif olunur.
- təhsil məqsədinə çatmaq üçün zəruri olan bütün mərhələlərdən keçmək imkanı;
- həm müəllim, həm də şagirdlər üçün mühüm ideyaları görmək və həyata keçirmək mkanı;
- məqsədlərin, işin gedişatının və həcminin, nəticənin təsvirinin vahid qavrayışı;
- ümumi strukturu pozmadan təlim modulunu dəyişən materiallar əlavə etmək bacarığı;

Bütün bunlara düzgün əməl olunarsa, təlim strategiyalarından səmərəli şəkildə istifadə etməklə dərsin keyfiyyətini artırmaq, standartları reallaşdırmaq olar.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası. Bakı, 2013, 24 oktyabr.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.
3. Qurbanov V. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, 2005.

## MORFOLOJİ NORMALAR ÜSLUBİ MORFOLOGİYANİN ƏSASI KİMİ

**Bağırova İlkanə Əlizadə qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*baghirovailkane1@gmail.com*

Müasir Azərbaycan dili təlimi ənənəvi təlimdən fərqli olaraq tərif və qaydaların mənimsədilməsi, onlara aid dil faktları üzərində işlər aparmaqla yekunlaşmır. Yeni dərsliklərin məzmununa aid məsələlər elmi, publisistik və bədii mətnlərdə, müəllif yazılarında öz əksini tapır və təlim prosesi də həmin mətnlər üzrə iş əsasında qurulur.

Dərsin mərhələləri, motivasiya və tədqiqat sualları, müzakirə və ümumiləşdirmələr, reallaşdırılan standartlara müvafiq təlimi nəticə mətn konteksində həll olunur, dil qaydalarına da mətn vasitəsilə keçid edilir.

Şagird morfem, morfoloji vahid, morfoloji kateqoriyalar haqqında nəzəri məlumatları da dinləyib-anlama və danışma prosesini başa vurduqdan, oxu və yazı məzmun xətləri üzrə işdə müəyyən bacarlıqlar qazandıqdan sonra alır. Aldığı nəzəri məlumatlar isə bir vasitə olaraq

onun şifahi və yazılı nitqini formalaşdırır, təkmilləşdirir. Yəni morfologiyaya aid mənimsənilən qaydalar morfoloji cəhətdən ədəbi dil normalarına əməl etməyə imkan yaradır. Üslubi morfologiya, morfoloji vahidlərin fünksional üslubdakı rolu haqqında ilk təsəvvürlər də bu zaman yaranır.

Məntiqə əsaslanaraq, ilk öncə, morfologiyaya aid tərif və qaydalar öyrənilir, həmin qaydaların ədəbi dildəki yeri dəqiqləşdirilir, ədəbi dil üçün zəruri olan morfoloji normalar sistemləşdirilir. Məsələn, isimlərə kəmiyyət, mənsubiyyət, hal, xəbərlik kateqoriyası əlamətlərinin *(şəkilçilərin)* artırılma ardıcıllığının gözlənilməsi bir morfoloji normadır.

Bu cür morfoloji norma və anlayışlar fonetika, leksika ilə inteqrasiyada mənimsədilərsə, təlimi nəticə daha uğurlu alınar və sintaksis təlimi üçün də əsaslı bünövrə qoyulmuş olar. Morfoloji normaların digər ədəbi dil normaları ilə əlaqədə mənimsədilməsi fənn üzrə ümumi bilik, bacarıq və vərdişlərin keyfiyyətcə yüksəlməsinə, ümumi nitq inkişafının formalaşmasına əsaslı zəmin yaratmış olar.

Təbii ki, morfoloji vahid, onun qrammatik əlamətləri həm də mətnin qurulma materiallarıdır və yazı, oxu, məzmun xətləri üzrə işlərdə də bu vahidlərin səciyyəvi cəhətləri nəzərə alınır. Ancaq bizi daha çox morfologiyaya aid dil qaydalarının öyrənilməsi və onların üslubi imkanları maraqlandırır.

Morfologiya tədrisinə, bəhslə bağlı metodiki işin təşkilinə müxtəlif yanaşmalar mövcuddur. "Azərbaycan dilinin tədrisi metodikası" (3) dərslyinin müəllifləri morfologiya üzrə təlim işini təxminən aşagıdakı istiqamətlərdə qurmağı tövsiyə edirlər:

1. Ən mühüm morfoloji məfhumların mənimsədilməsi üzrə aparılan işlər;
2. Morfologiyanın digər dilçilik bölmələri ilə əlaqəli tədrisi;
3. Morfologiya üzrə veriləcək bilik və bacarıqların ədəbi dil normalarının mənimsədilməsində rolu;
4. Morfologiya tədrisində orfoepiya və orfoqrafiya məsələləri;
5. Morfologiya tədrisi ilə əlaqədar üslubiyyat üzrə işlərin təşkili.

Ən mühüm məfhumlar dedikdə əsas və köməkçi nitq hissələri, onlara aid kateqoriyalar, təlim prosesində qarşıya çıxan çətinliklərin həll olunması yollarının tapılması nəzərdə tutulur. "Bunun üçün çətinliklərin səbəbini bilmək, onları aradan qaldırmaq naminə effektli, səmərəli yollar aramaq, nəyə və nə üçün xüsusi diqqət yetirməyin zəruri olduğunu bilmək və bacarmaq lazımdır" (3, 205).

Məsələn, ismin tədrisində yiyəlik və təsirlik hallardakı qeyri-müəyyənlik, hal və mənsubiyyət şəkilçilərinin omonimliyi, şəxs şəkilçiləri və xəbərlik kateqoriyasının əlamətləri ilə bağlı vəziyyət, sifətin leksik məna qruplarının dəqiqləşdirilməsi və substantivləşmə məsələsi, işarə və qeyri-müəyyən əvəzliklərin, təsirli-təsirsiz feillərin, feil formalarının tədrisindəki çətinliklərin aradan qaldırılmasının metodiki yolları tapılmalı, köməkçi nitq hissələri ilə əsas nitq hissələrini fərqləndirən əsas əlamətlər dəqiqləşdirilməlidir.

Yekun olaraq şagirdlər morfologiya nəyi öyrənir sualına cavab tapmalı, hər bir nitq hissəsini əlamətlərinə *(suallar, ümumi qrammatik məna, morfoloji əlamət, kateqoriyalar, sintaktik rol və s.)* görə təhlil etməli, nitq hissələrinin tam təsvirini verməyi bacarmalıdır.

Morfologiya dil bəhsi kimi nəyi öyrənir?, Nitq hissələri necə təsnif olunur?, Morfologiyanın fonetika, leksika, sintaksislə inteqrasiyası necə təmin olunmalıdır? kimi suallara qənaətləndirici cavab alınmalıdır.

Hər bir morfoloji vahidin müəyyən mənası var və bu mənalar nitqdə aparıcı funksiya daşıyır müddəasından çıxış edərək mənaya əsasən sinonimlik yaratma cəhətləri əsasında onların üslubi imkanları da araşdırılmalıdır. "Şəkilçilərin hansı mövqedə, hansı şəraitdə, hansı məqsədlə işlədilmisi (*tələbələrdir də, tələbədirlər də*) müəyyən üslubi çalara xidmət edir" (3, 293).

İsmin hal, kəmiyyət, mənsubiyyət, sifətin dərəcə, feilin zaman kateqoriyalarından danışanda, feili sifət, feili bağlama, məsdər, zərf, köməkçi nitq hissələrininn tədrisi prosesində üslubiyyat məsələlərinə xüsusi diqqət yetirilməlidir.

İsmin leksik məna növləri, xəbərlik kateqoriyası da müəyyən üslubi çalara malikdir. Məsələn, "*Oğul arxadır, dayaqdır, köməkdir.*" formasında olan cümləni "*Oğul arxa, dayaq, köməkdir.*" kimi yazdıqda və ya dedikdə nitqdəki ağırlıq aradan qalxır. Burada xəbərlik kateqoriyasına aid şəkilçinin ixtisarı belə bir rahat nitq situasiyası yaradır.

Professor N.Abdullayev bu cür nüansları nəzərə alaraq özünün "Nitq mədəniyyətinin əsasları" adlı dərs vəsaitində yazır: "Nitq hissələri dilimizin üslubi cəhətdən zənginləşməsində geniş imkanlara malikdir. Onlar cümlədə öz morfoloji funksiyasını yerinə yetirir, həm də nitqin aydınlığını, yığcamlığını, səlisliyini, təsirliliyini təmin edir" (2, 201).

**Ədəbiyyat:**


1. Azərbaycan dili – 7. Dərslik. Bakı,
2. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2010, 389 s.
3. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2019, 380 s.
4. Xəlilov B. Azərbaycan dilinin morfologiyası. Bakı, 2003, 354 s.


## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN IX SİNİFLƏRİNDƏ MÜRƏKKƏB CÜMLƏLƏRİN TƏDRİSİ MƏSƏLƏLƏRİ


**Tağıyeva Xumar Habil qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*xumartagiyeva0909@gmail.com*


Ümumtəhsil məktəblərinin IX siniflərində mürəkkəb cümlənin tədrisinə 9-cu sinif Azərbaycan dili dərsliyində nəzərdə tutulmuş 4-cü mövzu - "Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim" mətni ilə başlanılır (1, səh.60). Həmin mətnə aid 5-ci mövzu birbaşa mürəkkəb cümlə mövzusunun tədrisinə həsr olunubdur (1, səh. 90). Metodik vəsaitdə 5-ci mövzu ilə əlaqədar qarşıya qoyulmuş məqsəd də mövzuya müvafiqdir. Şagirdlər bu mövzuda dil vahidlərindən istifadə etməklə müxtəlif formalı mətnlər qurmalı, mətn daxilində verilmiş mürəkkəb cümlələri sadə cümlələrdən fəqləndirməyi bacarmalıdır. Mövzunun tədrisi zamanı fənn müəllimi dərsin motivasiya mərhələsini 14-cü tapşırığın kollektiv şəkildə icra edilməsi ilə qura bilər. Dərslikdə verilmiş 14-cü tapşırığın şərti isə belədir: "Mətndə (səh. 60) fərqləndirilmiş cümlələrin sadə cümlə olduğunu əsaslandırın. Bu cümlələrin quruluşunu necə dəyişmək olar?" (1, səh. 63) "Azərbaycanı Avropada tanıdan ilk kimyaçı alim" mətnində fərqləndirilmiş cümlələr bunlardır: "*O dövrdə Bakı böyük neft sənayesi mərkəzinə çevrilmişdi. İndi olduğu kimi, onda da bütün dünyanın diqqəti bu qədim şərq şəhərində idi.*"(1, səh.60) Güman etmək olar ki, şagirdlər verilmiş sadə cümlələri ilk olaraq tabesiz mürəkkəb cümlələrə çevirəcəklər. Təxmin etmək olar ki, şagirdlərdən bəziləri bu cümlələri "*O dövrdə Bakı böyük neft sənayesi mərkəzinə çevrilmiş, indi olduğu kimi, onda da bütün dünyanın diqqəti bu qədim şərq şəhərində idi.*" şəklində tabesiz mürəkkəb cümləyə çevirəcəklər. Bu zaman şagirdlərdə mürəkkəb cümlə haqqında ilkin təsəvvür yaranacaqdır. Bu isə öz növbəsində tədris iştirakçılarında-şagirdlərdə müəyyən suallar yaradacaqdır. Ehtimal etmək olar, iki cümləni bir mürəkkəb cümləyə çevirən şagirdlərdən biri müəllimə belə bir sualla müraciət etsin: "Müəllim, mürəkkəb cümlə nə deməkdir?" bu sualın yaranmasına nail olan müəllim yaratdığı elmi zəmindən istifadə edərək, dərsliyin 64-cü səhifəsində mürəkkəb cümlə haqqında elmi məlumatları şərh etməlidir. Müəllim şagirdlərə dərslikdəki mürəkkəb cümlə haqqında məlumatlardan yararlanaraq izah etməlidir ki, mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin məna və qrammatik cəhətdən birləşməsi nəticəsində yaranır. Bu izah dərsi dinləyən şagirdlər arasında "İki sadə cümlənin mənaca birləşməsi nə deməkdir?"; "İki sadə cümlənin qrammatik cəhətdən birləşməsi deyiləndə nə başa düşülür?" kimi sualların yaranmasına səbəb olarsa o zaman müəllim qeyd etməlidir ki, mənaları uyğun gəlməyən iki cümlə birləşib mürəkkəb cümlə yarada bilməz, iki cümlənin bir cümlə kimi dərk olunması üçün hər iki cümlə bir-biri ilə məna əlaqəsində olma-

lıdır. Məsələn, “Məni gördükdə heyrətdən donub qaldı, əlindəki zənbil yerə düşdü”.Qeyd etdiyimiz cümlə lövhəyə yazılıb şagirdlərə bildirilə bilər ki, bu mürəkkəb cümlədə birinci cümlə ikinci cümlənin yaranmasına səbəb olmuşdur. Bundan başqa şagirdlər tərəfindən qrammatik əlaqə ilə bağlı verilmiş sual da şərh edilməlidir. Qeyd olunmalıdır ki, iki cümlə arasında tabesizlik əlaqəsi mövcuddur. Bu zaman 8-ci sinifdə tədris edilmiş sintaktik əlaqələr mövzusuna interqrasiya edilməli, göstərilməlidir ki, bu cümlələr bir-birindən qrammatik əlaqə baxımından asılı deyil, birinci cümlədən sonra asanlıqla nöqtə işarəsindən istifadə edilərək cümlələr arasında sərhədi bərpa etmək, cümlələri yenidən sadə cümlələrə çevirmək mümkündür. Hətta nümunə üçün müəllim lövhəyə tabeli mürəkkəb cümləyə aid nümunə yazıb məsələn, “Məlum oldu ki, kəndlilər bu gün sahəyə gəlməmişlər” izah edə bilər ki, bu nümunədə birinci cümlədən sonra “Məlum oldu ki..” nöqtə işarəsindən istifadə etməklə cümlələri ayırmaq olmaz, çünki sual yaranacaqdır “Nə məlum oldu?” Müəllim tabeli mürəkkəb cümləni lövhəyə yazdıqdan, müəyyən müqayisəli izah verdikdən sonra yaxşı olardı ki, həmin cümlənin sadələşmiş variantını da təqdim etsin. Məsələn, “Kəndlilərin sahəyə gəlmədiyi (mübtəda) məlum oldu (xəbər)” Bu müəllimə imkan verəcəkdir ki, sadə və mürəkkəb cümlələrin fərqini izah etsin. Mürəkkəb cümlənin izahı zamanı mürəkkəb cümlənin tərəfləri sadə cümlələrdən təşkil olunur-izahını verən müəllim yaxşı olardı ki, 8-ci siniflərdə tədris olunan “Sadə cümlənin şəxsə görə növləri” mövzusuna da inteqrasiya etsin və göstərsin ki, mürəkkəb cümlənin tərəfləri sadə cümlənin şəxsə görə bütün növləri ilə ifadə edilə bilər. Bu fikrin şərhi üçün isə müəllim belə bir nümunəni “Qonaqları masaya dəvət etdilər, hamı süfrə arxasında əyləşdi” –cümləsini lövhəyə yazıb bildirə bilər ki, bu tabesiz mürəkkəb cümlənin birinci cümləsi sadə cümlənin şəxsə görə növlərindən qeyri-müəyyən şəxsli, geniş, nəqli, ikinci cümləsi isə müəyyən şəxsli, geniş, nəqli cümlədir. Qeyd etmək yerinə düşərdi ki, metodik vəsaitdə inteqrasiyanın “xarici dil, söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərinin izahı”ilə aparılması tövsiyə edilir (2, səh.90). Fikrimizcə, dərsin gedişində inteqrasıya fənndaxili və ya mövzulararası olsa daha effektiv olar.

Dərsin sonrakı mərhələsində müəllim tədqiqat sualını səsləndirə bilər. Təsəvvür edək ki, müəllim “Mürəkkəb cümlənin dilimizdəki rolu nədən ibarətdir?” şəklində tədqiqat sualı səsləndirmişdir. Belə bir tədqiqat sualı ilə sinfə müraciət edən müəllim tədqiqatın aparılması üçün şagirdləri fərdi qaydada dərsliyin 64-cü səhifəsindəki 15, 65-ci səhifədəki 16-cı tapşırıqlara yönəldə bilər.

15-ci tapşırıq üzərində tədqiqat aparan şagirdlər müəyyən edəcəkdir ki, mətndə verilmiş cümlələrin birincisi quruluşuna görə sadə, müəyyən şəxsli, geniş; ikincisi quruluş baxımından sadə, həmcins tamamlıqlı, həmcins mübtədalı, həmcins xəbərli, geniş, müəyyən şəxsli; üçüncü və dördüncü cümlələr quruluş baxımından tabeli mürəkkəb tamamlıq budaq cümləli; sonuncu cümlə-beşinci cümlə isə quruluş baxımından tabesiz-səbəb nəticə əlaqəli cümlədir. Bu tapşırıq üzərində aparılan tədqiqat müəllimə imkan verəcəkdir ki, şagirdlərin sadə və mürəkkəb cümlə ilə əlaqədar əldə etdikləri bilikləri müəyyən etsin, onların cümlələri quruluşuna görə fərqləndirib, fərqləndirə bilməməsi ilə bağlı bacarıqlarını üzə çıxarsın. Dərsliyin 65-ci səhifəsində verilmiş 16-cı tapşırıqda mətndən kənar yeni 5 cümlə verilir və tələb edilir ki, bu cümlələr arasından mürəkkəb cümlələr seçilsin, seçilmiş cümlələrin komponentləri sintaktik təhlilə cəlb edilsin, durğu işarələri bərpa edilərək qoyulma səbəbləri müəyyənləşdirilsin, 3 və 4-cü cümlələr sadə cümlələrə çevrilsin, çevrilmə zamanı müşahidə edilən dəyişikliklər müəyyənləşdirilsin, səbəbləri göstərilsin, mürəkkəb cümləyə çevrilə bilən cümlə müəyyən edilsin. (1. səh.65) 16-cı tapşırıq üzərində tədqiqat aparan şagirdlər müəyyənləşdirəcəklər ki, 1-ci cümlə sadə, geniş, həmcins tamamlıqlı, müəyyən şəxsli cümlədir, bu cümlədə iki qrammatik əsas yoxdur. 2-ci cümlə müəyyən şəxsli cümlələrdən təşkil olunmuş qarşılaşdırma məzmunlu, ismi xəbərli tabesiz mürəkkəb cümlədir. Şagirdlər birinci qrammatik əsasdan sonra durğu işarəsi kimi vergüldən istifadə edəcəklər. 3-cü cümlə tərəfləri müəyyən şəxsli cümlələrdən təşkil edilmiş mübtəda budaq cümləli tabeli mürəkkəb cümlədir və burada da birinci cümlədən sonra vergül işarəsi qoyulmalıdır. 4-cü tabeli mürəkkəb, 5-ci cümlə isə iki müstəqil cümlələrdən

ibarətdir, burada şagirdlər cümlələri tabesizlik intonasiyası ilə birləşdirib tabesiz mürəkkəb cümləyə çevirəcək, birinci qrammatik əsasdan sonra vergül işarəsindən istifadə edəcəklər.

İş formasını kollektiv və fərdi iş; iş üsullarını interaktiv mühazirə, klaster; resurs kimi mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri ilə dərsi təşkil edən müəllim şagirdlər tədqiqat apardıqdan sonra dərsin məlumat mübadiləsi və müzakirəsi mərhələsində mürəkkəb cümlənin yaranma yolları, növləri haqqında təqdimatı dinləyəcək, müzakirədən sonra yuxarıda qeyd etdiyimiz nəticələrə gələcəkdir. Nəticə olaraq şagirdlər öyrənəcəklər ki, mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin birləşməsindən yaranır; mürəkkəb cümlələr nisbətən yüksək intellektin dildə təzahür forması olub yazılı və şifahi nitqdə fikri daha geniş, əhatəli, dolğun və dəqiq ifadə etmək üçün lazımdır.

**Ədəbiyyat**:


1. T.Hacıyev, S.Bektaşi, Y.Hüseynova. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün “Azərbaycan dili” (tədris dili kimi) fənni üzrə dərslik Bakı: Şərq-Qərb, 2020
2. S.Cavadova. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün metodik vəsait. Bakı: Şərq-Qərb, 2020.


## ŞİFAHİ NİTQ ÖYRƏNMƏNİN TƏMƏL ÜNSÜRLƏRİNDƏN BİRİ KİMİ


**Əzizov Elnur İmran oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*lnuraziz.99@gmail.com*


Müasir məktəb biliyə malik olmaqla yanaşı, bu biliklərdən həyatda istifadə etməyi bacaran, ünsiyyət qurmağı bilən, daxili mədəniyyətə malik, dərk edən, düşünən şəxsiyyət hazırlamalıdır. Məqsəd şagirdin mümkün qədər çox şey bilməsi deyil, onun istənilən vəziyyətdə hərəkət edə bilməsi və problemləri həll edə bilməsidir. Dilin və nitqin mənimsənilməsi ictimai fəal şəxsiyyətin formalaşması üçün zəruri şərtdir.

Aydın və qrammatik cəhətdən düzgün danışmaq, öz fikirlərini şifahi və yazılı şəkildə sərbəst ifadə etmək, emosiyalarını müxtəlif intonasiya vasitələri ilə çatdırmaq, ünsiyyət qabiliyyətini inkişaf etdirmək və nitq mədəniyyətinə malik olmaq hər kəs üçün vacibdir. Buna görə də şagirdlərin təliminin müasir mərhələsində ən mühüm vəzifələrdən biri nitq fəaliyyətinin inkişafıdır.

Nitqin inkişafı anlayışı həm fəlsəfi və psixoloji, həm də elmi və metodoloji mənalarda özünü göstərir. Bu, insanın mənəvi inkişafı ilə bilavasitə əlaqədə olan, onun daxili aləmini zənginləşdirən, insanın həyatı boyu daim inkişafda olan nitqin və onun mexanizmlərinin mənimsənilməsi prosesidir.

İnsanın mənəvi həyatı təkcə onun ictimai fəaliyyətində deyil, həm də nitq hərəkətlərində, linqvistik davranışında, yəni yaratdığı mətnlərdə maddiləşir, fəlsəfi və estetik yanaşmalar nitqin formalaşması problemini dərk etməyə yüksək səviyyədə kömək edir. Şifahi kommu-nikativ fəaliyyət şagirdinmənəvi maraqlarının inkişafı ilə birlikdənitqinin intensiv inkişafına səbəb olur. Bu baxımdan bədii ədəbiyyatın mütaliəsinin də şifahi nitqin inkişafında əvəzsiz rolu vardır. Azərbaycan dili dərslərini ədəbiyyat dərsləri ilə inteqrasiya olunmadan tədrisi isə şifahi nitq inkişafına daha güclü stimul yaradır.

Nitq əxlaq və əxlaqi dəyərlərdən, insan davranışlarından ayrılmazdır. Klassik filosoflar və natiqlər əsl natiqliyi natiqin yüksək mənəvi səviyyəsi ilə əlaqələndirmiş və demişlər ki, heç kim fəzilətli olmadan natiq ola bilməz. Natiqlik daxili kamilliyin səsidir.

Daha dar, elmi-metodiki mənada nitqin inkişafı dedikdə, müəllim və şagirdlərin nitqin mənimsənilməsinə yönəlmiş xüsusi təhsil fəaliyyəti kimi başa düşülür.Məktəblilərin şifahi nitqinin inkişafı problemi getdikcə daha çox sosial əhəmiyyət kəsb edir, çünki nitq şəxsiyyətin mənəvi mədəniyyətinin inandırıcı göstəricisidir.

İncəsənət hadisələri insanlar arasında ünsiyyət tərzini dəyişdirir, onu mövzuların genişlənməsinə, şifahi nitqin zənginliyindən daha dolğun istifadəyə, həmsöhbətin şəxsiyyətinə diqqət yetirməyə yönəldir. İnsan sosial varlıqdır və cəmiyyətin ünsürü kimi davamlı olaraq ətrafla münasibətdə olur. İctimai münasibətlər zəminində nitq mədəniyyəti özünün ən mükəmməl səviyyəsinə çatmış olur. Orta məktəbin əsas vəzifələrindən biri məktəblilərin həm şifahi, həm də yazılı nitqini inkişaf etdirməkdir. Bu vəzifə bütün təlim və tərbiyə prosesində həyata keçirilir. Məktəb təlimi şagirdlərin nitq inkişafının imkanlarını və mənbələrini artırmaqda xüsusi rola malikdir. Şagirdlər təbiət və insanların əməyi üzərində müşahidələr aparmaqla, yoldaşları və ətrafdakılarla ünsiyyət saxlamaqla, çox kitab oxumaq və müxtəlif çıxışlar etməklə daim nitqlərini inkişaf etdirirlər.

Məktəbdə şagirdin şəxsiyyətinə, onun mənəvi inkişafına, mədəniyyətinə, düşüncə və nitq tərzinə, yaradıcılıq qabiliyyətinə də diqqət artır. Cəmiyyətə sözünü deyən, öz əqidəsini, baxışını müdafiə etməyi bacaran, müzakirə aparan, şəxsiyyətlərarası ünsiyyət prosesində yaradıcılıqla iştirak eməyi bacaran insanlar lazımdır.

Şifahi nitq şagirdlərin həm sosial, həm də akademik uğur üçün mənimsəyə biləcəyi ən vacib bacarıqlardan biridir. Şagirdlər bu bacarıqdan gün ərzində təlimatları emal etmək və çatdırmaq, sorğu vermək, suallar vermək, yeni məlumatlar almaq və həmyaşıdları ilə ünsiyyət qurmaq üçün istifadə edirlər. Bu günün şagirdinə cəmiyyətimizin gələcək qurucusu olaraq baxmalı, onları hərtərəfli yetişdirməliyik. Şagirdlərin şifahi nitq bacarıqlarının inkişafı olduqca önəmlidir.

Şifahi nitqi – danışığı gözəl, ifadəli, təsirli, bəlağətli, aydın olan şəxslər hər zaman başqalarından fərqlənir. Eyni zamanda ifadəli nitq liderliyin başlıca xüsusiyyətlərindəndir. Əgər biz gələcəyin liderlərini yetişdirmək istəyiriksə, bu gündən şagirdlərin şifahi nitq bacarıqları barədə düşünməli, bu istiqamətdə işlər aparmalıyıq. Bu mənada aşağıdakı təklif və tövsiyələri nəzərdən keçirək.

Bir müəllim olaraq şagirdlərimizdə güclü şifahi dil bacarıqlarının inkişafını dəstəkləmək üçün gündəlik dərslərimiz zamanı edə biləcəyiniz çox şey var. Məsələn:

- Şifahi dil öyrənmənin təməl ünsürlərindən biridir. Bu istiqamətdə bədii ədəbiyyatın oxunmasını, audio kitabların dinlənilməsini şagirdlərdə bir bacarıq kimi aşılamaq müəllimlərin üzərinə düşən məsuliyyətlərdən biridir.
- Televior, radio və sosial media hesablarında faydalı çıxışlar edən məşhur natiqlərin, insanların çıxışlarını dinləmək, dinlətmək və şagirdləri düzgün nitq quran insanlar ilə gö-rüşdürmək, onları məktəbə qonaq kimi dəvət etmək də müəllimlərə bu istiqamətdə işlərini inkişaf etdirmək üçün mühüm imkanlar verir.
- Şagirdləri kiçik yaşlardankukla teatrına, daha sonra məktəblilər üçün təşkil olunan teatr tamaşalarına aparmaq faydalıdır.
- Yeni yaranan “Book cafe” lərdə, kitab mərkəzlərində ədəbi-bədii görüşlər, kitab təqdimat mərasimləri, şeir gecələri, müxtəlif mövzularda müzakirələr, nağıl saatları da şagirdlərin dərsdənkənar fəliyyətləri olaraq şifahi nitq bacarıqlarının inkişafında mühüm rol oynayır.

Orta məktəbdə uşaqlar ədəbi dil normaları ilə tanış olduqca həm də şifahi və yazılı nitqin bir sıra sirlərini öyrənirlər. Bütün bunlarla eyni zamanda uşaqların nitqinin zənginləşdirilməsi və düzgün qurulması üzrə məqsədyönlü işlər aparılmalıdır. Şagirdlərin nitqi praktik şəkildə mənimsəmələri üçün bütün fənlərin tədrisində, həmçinin, evdə, tənəffüslərdə, sinifdənxaric məşğələlərdə, ictimai-faydalı işlərdə, əmək prosesində və s. ardıcıl iş getməlidir. Şagirdlərin gələcək akademik və sosial uğurları üçün lazım olan şifahi və yazılı nitq, nitq mədəniyyəti faktoru daim müəllimlərin diqqət mərkəzində olmalıdır.

**Ədəbiyyat:**

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2013, 277 s.

2. Abdullayev A.S. Müəllimin nitq mədəniyyəti haqqında //Azərbaycan dili və ədəbiyyatın tədrisi, 1964, s.60-64
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU-nəş. 2016, 404 s.
4. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU-nəş. 2019, 430 s.
5. Cəfərova N.Nitq inkişafı üzrə işin metodikası. Bakı, ADPU, 2018, 234 s.

## ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏNİN METODİKASI

**Zeynalov Murad Hilal oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*muradzeynalzade13@gmail.com*

Müstəqillik şansı qazanmış ölkələrdə öz milli təhsil sistemlərini yaratmaq zəruriyyəti ortaya çıxdı. Milli təhsil sisteminin yaradılmasının vacibliyi ittifaqdan ayrılan bütün ölkələr tərəfindən təşəbbüs kimi irəli sürüldü. Qeyd edək ki, sosialist təhsil sistemini hansı təhsil sistemi ilə əvəz etmək və yeni sistemin meyarlarını necə müəyyənləşdirmək işində işlər mütəxəssislər, istərsə də siyasi hakimiyyətin idarəedicilləri arasında fikir müxtəlifliyi mövcud idi. Bu da bir həqiqətdir ki, qloballaşan dünyada baş verən forma və məzmun dəyişikliyi təhsil sisteminin kökündən dəyişilməsi məsələsini gündəmə gətirərək aktuallaşdı. Yəni, sosialist təhsil sisteminin yerini demokratiya, bazar iqtisadiyyatı yolunu tutmuş Azərbaycan Respublikasına xidmət göstərməli olan yeni və milli dəyərlərimizi özündə ehtiva edən təhsil sistemi tutmalıdır.

Nəticədə keçid dövrünün ilk mərhələlərində sosialist təhsil sistemi əsasında əldə edilmiş müsbət amillər köklü şəkildə dəyişdi, vəziyyət tənəzzülə doğru üz tutdu. Bunu ört-basdır etməyə yönəltmiş cəhdlər vəziyyəti daha da pisləşdirdi. Belə ki, sosialist iqtisadiyyatı və avtoritar idarəetmə sistemi ilə bazar iqtisadiyyatı və açıq siyasi sistem arasında kəskin fərq təhsil sisteminin də əsaslı fərqini üzə çıxardı, ciddi nöqsanları və səhvləri gizlətməyə yer qalmadı.

Təhsil sistemində mövcud olan narahatçılığı aradan qaldırmaq, uyğun milli forma və məzmununa malik yeni təhsil yaratmaq məqsədilə ulu öndər Heydər Əliyev təhsil islahatı barədə iki fərman imzaladı, proqram təsdiq etdi. Bu tarixi sənədlərə əsasən təhsil sistemində ciddi islahatlar aparılmağa başladı. Təhsil üzrə kompleks islahatın əsas məqsədi iqtisadiyyatın və cəmiyyətin davamlı inkişafında müstəsna rol oynayan, müstəqil və məhsuldar iş icra etməyi bacaran sağlam vətəndaş formalaşdırmaqdan ibarət idi. Bu məqsədə nail olmaq üçün bir sıra məsələləri araşdıraraq həll etmək ehtiyacı yaranmışdır.

İlk növbədə "milli təhsil sistemi" anlayışına aydınlıq gətirildi. Birinci, onun prioritet istiqamətləri müəyyənləşdirildi. Həmin zəmin üzərində milli, təhsil sisteminin inkişaf strategiyası və bunun tətbiqi üçün mərhələləri kompleks proqramlar hazırlanması və çoxtərəfli işlər həyata keçirilməli idi. "Milli təhsil sistemi" dedikdə, dünyəvi elmlərin əsaslarını, milli-mənəvi və ümumbəşəri mütərəqqi dəyərlərin qədrini biləcək, onlardan yararlanacaq, bu xəzinələrə öz payını verən firavan həyat qurmağa, yaşamağa və yaşatmağa qadir olmalıdır.

Milli təhsil sisteminin əsasını aşağıda göstərilən ümumi prinsiplər təşkil edir:

Birinci, təhsil sisteminin cəmiyyətin sosial-iqtisadi və siyasi sisteminə uyğunluğu prinsipi.

İkinci, təhsil almağa bərabər imkanların yaradılması prinsipi.

Üçüncü, təhsil sistemini müəyyənləşdirmənin onun məqsəd və vəzifələrinə uyğunluğu prinsipi.

Dördüncü, təhsil sisteminə dövlət rəhbərliyi və inzibati-idarəetmə ilə təhsil xidmətinə məsuliyyətin uyğunluğu prinsipi.

Beşinci, təhsil sisteminin insanın inkişafına verilən ən ümumi tələblərə uyğunluğu prinsipi.

Altıncı, təhsil sistemi ilə təbiət-cəmiyyət – insan sisteminin qarşılıqlı təsir və inkişaf prinsipi.

Milli təhsil strategiyasında təhsil sistemini təşkil edən bütün parametrlər: təhsilin və tərbiyənin məzmunu, forma və metodları, texniki və elmi-texniki təminatı, maliyyələşdirmə sistemi, kadr təminatı, hərəkət texnologiyaları, fəaliyyətin və nəticələrin qiymətləndirilməsi qaydaları əhatə olunduğuna görə onun qarşısında konkret məqsədlər qoyulur:

Keçid dövrünün indiki mərhələsindən milli təhsil strategiyasının qarşısında belə məqsədlər qoymaq olar:

- Milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında və inkişaf etdirilməsində insnaların güzəranının yaxşılaşdırılmasında hamının fəallığının təyin olunması üçün onların normal təhsil almalarına bərabər imkanların yaradılması;

- Hamıya stabil, keyfiyyətli və həqiqi təhsil xidməti təmin etmək üçün təhsil sisteminin müəyyənləşdirilməsi işini Avropa standartlarına uyğunlaşdırmaq, hər il milli təhsilin saxlanması və inkişafı məqsədilə ayrılan maliyyə vəsaitinin hər manatının səmərəsini artırmaq, xərclərə nəzarəti tam şəffaflaşdırmaq;

- Dərin, möhkəm və praktik əhəmiyyət kəsb edən, daimi inkişaf etdirmə imkanı olan bilik, bacarıq vərdişlərə sahib müdrik insanlar yetişdirmək məqsədilə təhsil sisteminə məxsus bütün resurslardan səmərəli istifadə etmək;

- Təhsil sisteminin planlaşdırılması, ona dövlət rəhbərliyi və inzibati idarəçilik təcrübəsini əsaslı şəkildə təkmilləşdirmək, yeniləşdirmək, Avropa standartlarına uyğunlaşdırmaq;

- Ədalətli seçim, forma və metodları tətbiq etməklə, hər kəsin bacarığına, arzu və imkanlarına görə layiq olduğu mövqeyə çıxarılmasına nail olmaq;

- Təhsilin məzmununa hesablanmış bütün təhsil pillələri üçün təhsil proqramlarının o cümlədən inteqrasiya olunmuş proqramların hazırlanması, eksperimentdən keçirilməsi və tətbiqi məsələləri;

- Bütün təhsil pillələri üzrə tədris proqramlarına və tədris planlarına uyğun dərs vəsaitlərinin, dərsliklərin hazırlanması, sınaqdan keçirilməsi, çapı və istifadəçilərə çatdırılması məsələləri;

- Müəllimlərin hazırlanması, təkmilləşdirilməsi və yenidən hazırlanması üzrə kompleks iş planı.

Strateji məqsəd, məqsədyönlü proqramların icrası prosesində həyata keçirilir. Bunu nəzərə alaraq bir neçə proqram mövzusunu təqdim etdik.

Bunların hamısı bir-biri ilə bağlı olur, biri-digərini tamamlayır, vahid və bütöv proqramın əmələ gətirir. Kompleks proqram daha hərəkətdə, inkişafda olur, təhsil strategiyasının bütövlükdə həyata keçirilməsini təmin edir. Proqramın nəzəri və praktik əhəmiyyəti həm də fəal təlim metodlarının tətbiqi zamanı təlim prosesinin metodoloji və elmi-nəzəri əsaslarının dəqiqləşdirilməsində də müstəsna rol oynayır.

“Metod” yunan sözü olub, həqiqətə doğru hərəkət vasitəsi deməkdir. Pedaqoji ədəbiyyatda təlim metodu məfhumunun mahiyyəti və rolu ilə əlaqədar vahid fikir mövcud deyildir. Bir qisim alim hesab edir ki, təlim metodu müəllim və təlim alanların təhsil vəzifələrinə yönəlmiş birgə fəaliyyətin tənzimlənməsi üsulu anlamını verir.

Bəziləri isə təlim metodu məfhumunu şagirdlərin idrak fəaliyyətinin təşkili mənasında düşünürlər. Didaktika tarixində təlim metodunun rəngarəng təsnifatı mövcuddur. İ.Y.Lemerin, M.N.Skatkin, M.M.Mehdizadə, Y.Ş.Kərimovun tədqiqatlarında beş təlim metodunun fərqləndiyi qeyd edilir. Metodların hər birində digərinə nisbətən yeni fəaliyyət nümunəsi və dəyişiklik ifadə edilir.

**Ədəbiyyat:**

1. Əhmədov H., Zeynalova N. Pedaqogika (Dərslik), elm və təhsil, Bakı – 2016, 455 s.

2. Paşayev A., Cəfərov E. Azərbaycan dili və ədəbiyyat dərslərində interaktiv təlim metodlarının tətbiqi imkanları, Bakı:Mütərcim, 2006, 209 s.

3. Kurikulumların hazırlanması və tətbiqi məsələləri, Bakı:Kövsər, 2008, 223 s.

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ İRİHƏCMLİ NƏZM ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

**Əbilova Nərminə Həsən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nerminebilova@gmail.com*

Ədəbi növ kimi özünəməxsus xüsusiyyətlərə malik olan epik əsərlərdə hadisələr, əsasən, nəqletmə vasitəsi ilə oxucuya çatdırılır. Bu növün nümunəsi olan əsərlər istər nəsrlə, istərsə də nəzmlə yazılır. Yazılı ədəbiyyatda epik növün janrlarını fərqləndirən bir cəhət də irihəcmli nəzm əsərlərin yazılmasıdır. Orta məktəbdə ədəbiyyat dərslərində epik növün müxtəlif janrları tədris olunur. Belə bədii örnəklərdən biri də poemalardır.

Ümumtəhsil məktəblərində irihəcmli nəzm əsəri olan poemaların tədrisinə X sinif ədəbiyyat fənn kurikulumunda yer verilmişdir. "Təcrübə göstərir ki, şagirdlər epik əsərin ayrı-ayrı komponentlərini bütöv şəkildə qavramaqda çətinlik çəkirlər. Əsərin süjetinin, kompozisiyasının müxtəlif elementlərinin, obrazların, sənətkarın istifadə etdiyi təsvir vasitələrinin, əsərdə qaldırılan problemlərin əlaqələndirilməsi və bunun üçün optimal metodik variant seçilməsi müəllimin qarşısında duran ciddi vəzifədir." [2, s. 246] Bu əsərlərin tədrisində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün müasir metodik tövsiyələrdən məqsədyönlü istifadə, təli-min təşkilinə müəllimin yaradıcı yanaşması zəruridir.

İrihəcmli nəzm əsərlərinin tədrisi zamanı məzmununun mənimsədilməsi üzrə işin optimal təşkili olduqca vacibdir. Məlumdur ki, bir əsərin məzmununun dərindən mənimsənilməsinə nail olmadan onun təhlilinə keçmək olmaz. Məzmunun mənimsədilməsi prosesində bədii əsərin oxusu, tanış olmayan sözlərin müəyyənləşdirilməsi, mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrininin tapılması, plan tərtibi, nağıletmənin müxtəlif növlərindən istifadə böyük əhəmiyyət kəsb edir. Həmin əsərin təhlili zamanı isə əsərin mövzusu, ideyası, qoyulmuş problem, obrazlar sistemi, bədii sənətkarlıq məsələləri araşdırılır."Dərsdə irihəcmli epik əsərlərin ideya-məzmununu bütünlüklə əhatə etməyə, təsvir olunanların hamısını eyni dərinliklə öyrənməyə ehtiyac yoxdur. Əksər hallarda bu, heç mümkün deyildir. Bunu nəzərə alaraq müəllim epik əsərdəki bütün məsələlərin təhlilinə çalışmamalıdır."[2, s.247]

X sinif üzrə ədəbiyyat proqramına daxil edilən irihəcmli nəzm əsərlərinə Nizami Gəncəvinin "İskəndərnamə", Şah İsmayıl Xətainin "Dəhnamə" və Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemaları daxildir. Bu əsərlərin hər birinin tədrisinə 4 dərs saatı ayrılmışdır.

Nizami Gəncəvinin yaradıcılığında həcmcə ən böyük poeması olan "İskəndərnamə " əsərinin xüsusi mövqeyi vardır. Ümumtəhsil məktəbləri üçün X sinif ədəbiyyat dərsliyinə poemadan bir sıra parçalar daxil edilmişdir. Məlumdur ki, X sinif şagirdləri qısa vaxt ərzində "İskəndərnamə"ni bütövlükdə oxuya bilməzlər və ona görə də müəllim əvvəlcədən əsər üzərində əgər demək mümkündürsə, tədqiqat aparmalı , əsərin süjet xəttini təsəvvür etməyə imkan verən hissələri müəyyənləşdirməlidir, başqa sözlə layihələşdirməlidir." [ 6, s.191]

Həmin parçaların məzmununun mənimsənilməsi üzrə dərslərdə və müstəqil oxu zamanı şagirdlər əsərdə tanış olmayan sözləri müəyyənləşdirir, hadisələrin mahiyyəti, obrazların xarakteri, hərəkətləri, qarşılıqlı münasibətləri barədə biliklərə yiyələnirlər.

X sinifdə tədris olunan digər irihəcmli əsər–Şah İsmayıl Xətainin "Dəhnamə" poeması anadilli ədəbiyyatımızın məzmunu, ideya-bədii xüsusiyyətləri ilə seçilən incilərindəndir. Təcrübə göstərir ki, ədəbiyyat dərslərində "Dəhnamə" poemasının tədrisi zamanı qarşıya bir sıra çətinliklər çıxır. Əsərin həcmi ilə yanaşı, mətndə arxaik sözlərin, təriqət ideyalarının öz əksini tapması bu çətinliyin əsas səbəbidir.Müəllim bu əsərin tədrisi zamanı interaktiv təlim metodlarından istifadə etməklə əsərin ideya-məzmununun dərindən qavranılmasına nail ola bilər.

Ədəbiyyatımızın qüdrətli nümayəndələrindən olan Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması da irihəcmli nəzm əsəri kimi təlim prosesində xüsusi yanaşma tələb edir. Poemada şair öz zəmanəsinin bir sıra aktual problemlərini, mənəvi-əxlaqi məsələləri əks

etdirmişdir. Ədəbiyyat dərslərində irihəcmli klassik nəzm əsərlərinin öyrənilməsi üçün səciyyəvi olan problemlər bu poemanın tədrisində də mövcuddur. Qarşıya çıxan problemlərin həlli qeyd etdiyimiz kimi, müəllimin metodik tədqiqatlardan yaradıcılıqla bəhrələnməsi, yeni təlim texnologiyalarının tətbiq edilməsi zəminində mümkündür.

Ümumtəhsil məktəblərində klassik irihəcmli nəzm əsərlərinin tədrisi prosesini – məzmunun mənimsənilməsi və təhlilini müəllim yarana biləcək çətinlikləri nəzərə almaqla təşkil etməli, dərsə hazırlıq mərhələsində konkret sinfin səviyyəsinə uyğun sual və tapşırıqlar sistemi hazırlamalı, məzmun standartlarının reallaşdırılmasını təmin etməlidir. Bu baxımdan fəal/ interaktiv metodlardan səmərəli istifadə etmək, müzakirə, müsahibə metodlarının, şagirdlərin müstəqil işinin tətbiqinə geniş yer verilməlidir.

**Ədəbiyyat:**


1. Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası.Təhsil, Bakı, 2003, 318 s.
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016, 455 s.
3. Həsənli B., Hüseynoğlu S., A.Mustafayev. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakınəşr, 2017, 212 s.
4. Həsənli B., Hüseynoğlu S., A.Mustafayev. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti Bakınəşr, 2017, 208 s.
5. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019, 264 s.
6. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi Bakı: Ozan .2008 ,696 s.


## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİTQ İNKİŞAFI ÜZRƏ İŞİN TƏŞKİLİ


**İbrahimova Nərmin Rasim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*themamedova26@gmail.com*


Yeni təhsil proqramlarında – kurikulumda şagirdlərin nitqinin inkişaf etdirilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bununla bağlı ayrıca məzmun xətlərinin müəyyənləşdirilməsi təsadüfi deyildir. Unudulmamalıdır ki, nitq mədəniyyəti ümumi mədəniyyətin tərkib hissəsi hesab olunur və bu istiqamətdə məktəbdə məqsədyönlü işin aparlması zəruridir. Nitq inkişafı üzrə ardıcıl, sistemli işin aparılması isə Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisi prosesində gerçəkləşdirilir. Bu, fənn müəlliminin məsuliyyətini daha da artırır. Nitq inkişafı həmin fənlər üçün müştərək predmetdir. Lakin fərqli cəhətlər də yox deyildir. Dil dərslərində daha çox qrammatik qayda, tərif və s. fonunda nitqin inkişafı üzrə iş təşkil edilir. Hətta yazı işlərində də fənnin özəl tələbləri üstünlük təşkil edir. Ədəbiyyat dərslərində isə bədii əsərin öyrədilməsi nitq inkişafı üçün, belə demək olarsa, mənbə rolunu oynayır. Ədəbiyyat dərsliklərinin təhlilindən aydınlaşır ki, onlarda istər şifahi, istərsə də yazılı nitqin formalaşdırılmasına imkan yaradan rəngarəng tapşırıqlar sisteminə geniş yer verilmişdir. Bədii əsərlərin öyrədilməsinin bütün mərhələlərində şifahi nitqin inkişaf etdirilməsi üzrə müxtəlif iş növlərinin tətbiqi faydalı sayılmış, maraqlı nümunələr əks etdirilmişdir. Şifahi təqdimatların hazırlanması üçün konkret mövzular təklif olunmuş, bədii əsərin məzmununun öyrənilməsi prosesində fərqli formalarda nağıletmələrin tətbiqi vacib hesab edilmişdir. Məzmunun yığcam, geniş, yaradıcı danışılması şagirdlərin şifahi nitqinin inkişafına əhəmiyyətli təsir etməklə məhdudlaşmır. Nağıletmələr şagirdlərdə ümumiləşdirmə bacarığının, yaradıcı təfəkkürün formalaşmasına da imkan yaradır. Məsələn, yığcam nağıletmə şagirdlərdə sözə həssas münasibətin yaranmasına, ümumiləşdirmə bacarığının zənginləşməsinə güclü təsir edir. Yaradıcı nağıletmə obrazlı təfəkkürün, yaradıcı düşüncənin inkişafına səbəb olur.

“Şifahi nitq” məzmun xəttinin tələbi şagirdlərin lüğətlərdən istifadə edərək söz ehtiyatını zənginləşdirməsi qayğısına qalmasıdır. Bu istiqamətdə iş davamlı və sistemli şəkildə həyata keçirilməlidir. Buna görə də müəllim şagirdə həm də müstəqil mütaliə imkanı verməli, onlarda öyrəndiklərini şifahi ifadə etmək bacarığı yaratmalıdır. Şifahi nitqin inkişaf etdirilmə-

si zamanı müəllim bir sıra qaydaları əldə rəhbər tutaraq şagirdin müzakirələrdə fəal iştirakını təmin etməlidir. Şagird çıxışı zamanı dediyi hər bir fikrə müəllim tərəfindən hörmətlə yanaşılacağını hiss etməlidir. Bu da şagirdlərdə dialoq və kollektiv müzakirələrdə öz fikrini sərbəst bildirməklə ümumi rəyə gəlmək bacarığını formalaşdırmış olur.

Alt standartlara verilən tələblərin sinifdən-sinfə keçdikcə dəyişməsi şifahi nitq məzmun xəttində də öz əksini tapır. Belə ki, aşağı siniflərdə şagirdlər ifadəli oxu bacarıqlarına yiyələnməklə verilən bədii nümunələrin hissələrə ayrılması, nağıl edilməsi və bu hissələrə uyğun plan tərtib etmək, suallar hazırlamaq kimi işləri yerinə yetirirlər.

Yuxarı siniflərdə, VII sinif və xüsusən də VIII sinifdə şagirdlər şifahi təqdimatlar hazırlamaqla bədii mətnlərə uyğun bir neçə məsələlərə tolerant mövqedən çıxış edərək münasibətlərini bildirirlər. Dərslikdə nəzərdə tutulmuş bədii nümunələrdəki ifadəlilik xüsusiyyətininin mənimsədilməsi, sözlərin üslub zənginliyindən istifadə edərək şagirdlərin nitqində istifadə etməsi əsas rol oynayır. Bu imkanlar yuxarı sinif şagirdləri üçün dünyagörüşünün formalaşması mövqeyində çıxış edir.

Ədəbiyyat dərslərində lirik şeirlərin tədrisi şifahi nitqin inkişafına güclü təsir edir. Lirik şeirlərin tədrisində ahəngdarlığın, intonasiyanın, emosional çalarların nəzərə alınması əsasdır. Xüsusilə lirik əsərlərin təhlili üzərində görülən işlər şifahi nitqin inkişafını təmin edir.

Ayrı-ayrı siniflərdə inşa və essenin təşkilinə saat ayrılmış, bu yazı növlərinin yerinə yetirilməsi ilə bağlı dərslikdə və müəllim üçün vəsaitdə əhatəli metodik tövsiyələr verilmişdir. Məsələn, yeddinci sinfin dərsliyindəki "İnşa və esseni necə yazmalı?" başlıqlı mətn şagirdlərə praktik kömək baxımından çox qiymətlidir. Yazı işinə hazırlıq, yazının icra olunması, nəticənin təhlili, qiymətləndirilməsi həmin mətndə aydın şəkildə izah olunmuşdur.

Yığcam inşa, essenin icra olunması üçün dərsliklərdə mövzuların təklif edilməsi, bir sıra hallarda ev tapşırığı kimi verilməsi şagirdlərdə yazı bacarıqlarının formalaşdırılmasına əhəmiyyətli dərəcədə təsir edir.

Bütün fənlərdə olduğu kimi, dil və ədəbiyyat dərslərində müəllimin nitqi şagirdlərdə şifahi nitqin formalaşmasına güclü təsir edir.

Məlumdur ki, ədəbiyyat dərslərində inşa, esse iki istiqamətdə – sərbəst və ədəbi mövzularda təklif edilir. Onların hər birinin üstün cəhətləri vardır. Məsələn, sərbəst mövzular şagirdlərdə yaradıcı təfəkkürün inkişafına əhəmiyyətli təsir edirsə, ədəbi mövzular məntiqi və tənqidi təfəkkürün formalaşmasına səbəb olur. Eləcə də ədəbi yazılar şagirdin təfəkkürünü inkişaf etdirməklə yanaşı, düzgün yazı qaydalarına əməl olunmasını, bədii mətnin dərindən mənimsənilməsini və dəyərləndirilməsini təmin edir. Yazılı nitq bacarıqlarının formalaşdırılmasında nəsrəçevirmə yazı, inşa, esse kimi yazı növlərindən istifadə olunur. V, VI, VII siniflərdə şagirdlərin yazılı nitqi inşa və esse yazılarda əksini tapır. VIII sinifdən artıq şagird məruzə şəklində öyrəndiyi mövzu, problemə uyğun öz münasibətini bildirir.

Müasir dövrdə texnologiyaların inkişafı üstünlük təşkil edir. Belə bir zamanda şifahi ünsiyyət vasitəsi kimi sosial şəbəkələrdən "ifrat dərəcədə" istifadə yazı mədəniyyətinin getgedə sıradan çıxması təhlükəsini yaradır. Buna görə də, ədəbiyyat dərslərində yazılı nitq bacarığının formalaşdırılması müəllimin diqqət mərkəzində dayanmalıdır. Bunu da qeyd etmək vacibdir ki, müəllimin nitqi aydın, səlis, düzgün, fikir zənginliyi ilə yanaşı, fonetik, leksik və qrammatik normaların gözlənilməsi ilə də şagirdlərə nümunə olmalıdır.

**Ədəbiyyat:**


1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2013, 277 s.
2. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Metodik vəsait. Bakı. ADPU, 2019. 264 s.
3. Hüseynoğlu S. İfadəli oxunun əsasları". Bakı. ADPU. 2019. 220 s.
4. Muradov B. Ədəbiyyat dərslərində şifahi və yazılı nitqin inkişaf etdirilməsi. Bakı, APİ, 1990. 80 s.
5. Yusifov F. Ədəbiyyat tədrisi metodikası. Bakı, 2018. 349 s.

# LEKSİKOLOGİYA TƏDRİSİNDƏ ÜSLUBİYYAT MƏSƏLƏLƏRİ

**Nəcəfova Sahilə Nizami qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*SAHILA86@mail. Ru*

Cəmiyyətdə ünsiyyət marağının artması və kommunikativ ehtiyacların güclənməsi Azərbaycan dili təlimini səmərəli təşkil etməklə şagirdlərin nitq mədəniyyətini formalaşdırmağı tələb edir. Bu tələbata görə dil üzrə mənimsənilən materiallar təfəkküryönümlü və koqnitiv xarakterdə olmalı, əldə olunan idraki biliklər sayəsində şagirdlər praktik nitq səriştəsinə yiyələnməlidirlər. Azərbaycan dili kursunun, o cümlədən, leksikologiya bölməsinin tədrisində üç əsas koqnitiv məqsəd vardır ki, onların gözlənilməsi zəruridir: a) şagirdlərin linqvistik dünyagörüşünün formalaşdırılması; b) şagirdləri dil və nitqə aid biliklərlə təchiz etmək; c) fənnin köməyi ilə tərbiyəvi-estetik nəticələrə nail olmaq.

Yaxşı bilirik ki, təlim, tərbiyə və inkişafın əsas məqsədi insanı cəmiyyətin fəal, intellektual üzvünə çevirmək, onu fiziki baxımdan sağlam, mənəvi cəhətdən zəngin bir şəxsiyyət kimi təkmilləşdirməkdir. Bu təkmilləşmədə humanitar fənlərin, o cümlədən, Azərbaycan dili və ədəbiyyatın rolu danılmazdır. Çünki davranış, ünsiyyət bacarığı daha çox bu fənlərin təlim materialları əsasında təkmilləşir. Rabitəli mətn qurmaq bacarığı oxu, yazı, dil normaları əsasında yaranan ümumiləşdirilmiş qabiliyyətdir. Dilin lüğət tərkibi, leksik normalar, üslubi leksika bu ümumiləşdirilmiş qabiliyyətin yaranmasında xüsusi çəkiyə malikdir. Təlim tapşırıqları, onun linqvodidaktik sistemi və metodları sözün əsasında qurulur ki, söz də məna, mənşə və s. etibarı ilə leksikologiyanın materialıdır.

Söz, onun lüğəvi mənası haqqında ilkin məlumatlar ibtidai təlim səviyyəsində verilsə də, leksikologiya bir təlim kursu kimi V sinifdə öyrədilir və "Söz ehtiyatları" rubrikası altında ona aid izahatlar ümumtəhsil məktəblərinin son siniflərinə qədər davam etdirilir. "Kurikuluma görə leksikanın əsas elementləri (sözün leksik və qrammatik mənası, məcazi mənalanma, çoxmənalılıq, omonim, sinonim, antonim, arxaizm və frazeoloji birləşmələr) V sinifdə "Niyə belə deyirik" bölməsindəki mətnlər kontekstində tədris olunur" (3,174) və təlim nəticəsi olaraq şagirdlər aşağıdakı leksik bacarıqlara yiyələnirlər:

- sözün leksik və qrammatik mənalarını fərqləndirir;
- mətnlərdə məcazi mənalı sözləri müəyyən edir;
- çoxmənalı sözlə omonim sözü ayırd edə bilir;
- təqdim olunan sözün sinonim və antonimlərini tapır;
- alınma sözləri milli sözlərdən ayırır;
- sözləri məna qruplarına görə fərqləndirir;
- bədii təsvir vasitələri (metafora, epitet və s.) barədə təsəvvürü olur;
- frazeoloji vahidləri tapır, mənalarını izah edir və nitqində istifadə edə bilir;
- bır sıra lüğətlərlə işləyə bilir və s.

Müasir təlimin müsbət cəhətlərindən biri də odur ki, şagirdlər bu bacarıqlara dil qaydasını əzbərləməklə deyil, mətnlər üzrə iş prosesində, dil qaydalarından əvvəl gələn məzmun xətləri ilə inteqrasiyada qazanırlar. Müasir təlimdə mətn nitq vahidi kimi çıxış edir və onun yaradılmasında iştirak edən leksik hadisələr, leksik vahidlər, onlara aid dil normaları mətn daxilində mənimsənilir. Yəni ənənəvi təlimdən fərqli olaraq leksikologiya mətndən leksemə doğru öyrənilir.

Biz yuxarıda da qeyd etdik ki, ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi, ilk növbədə, mətn qurmaq bacarığını inkişaf etdirməyə yönəlib.Yəni şagird dil təliminin yekun nəticəsi olaraq şifahi və yazılı mətnlər qurmağı, fikrini məntiqı əsasda ifadə etməyi bacarmalıdır. Mətnin məzmunu, fünksional üslubu isə onu təşkil edən leksemlərin və müxtəlif leksik sistem kateqoriyalarının tərkibi ilə müəyyən edilir.

Təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması, cəmiyyətin demokratikləşməsi və informnasiya-kommunikasiya imkanlarının genişləndirilməsi mətnin tərtibinə qoyulan

tələbləri də artırıb və bu tələblər əsasında yaradılan mətnlər müvafiq bacarıqları formalaşdırmağa kifayət etməlidir.

Təbii ki, tərtib edilən mətnlərin semantikası onu təşkil edən leksemlərin tərkibi ilə müəyyən edilir və leksik səviyyə mətn təqdimatının məntiqini formalaşdırır. Mətnin hansı funksional tipə uyğun gəldiyini müəyyən edir. Sözün semantikasının mətnin semantikasına münasibəti mənanı və funksional üslubu müəyyənləşdirir. Biz mətn daxilində sözlərin bir-biri ilə əlaqəsini dəqiqləşdirdikdən sonra onun hansı üslubda olduğunu müəyyən edə bilirik. Deməli, leksikologiya və onun materialı olan söz həm də dil normalarına tabe üslubun və funksional tiplərin yaranma materialıdır.

Professor N.Abdullayev "Nitq mədəniyyətinin əsasları" adlı dərs vəsaitində yazır: "Leksik normalar sözlərin incəlik, zəriflik, rəvanlıq cəhətdən daha geniş işlənməsi, mənasının asan dərk olunması və s. baxımdan uyarlısının müəyyənləşdirilməsi və ədəbi dilə gətirilməsinə xidmət edir" (2,140). Deməli, incəlik, rəvanlıq, ifadəlilik və mənaya uyarlıq həm də bir üslub məsələsidir.

Əgər biz dili nitq fəaliyyəti baxımından öyrənir və bu öyrənmədə koqnitiv-kommunikativ yanaşmaya üstünlük veririksə sözün semantikasını da həm ayrıca, həm də mətn kontekstində izah edə bilirik. Bəzən sözün ayrılıqda bir lüğəvi mənaya, mətn daxilində isə başqa məna yükünə sahib olmasını da görə bilirik. Bu cür mənalanmalar dilin üslubunun, üslubi imkanlarının nailiyyətidir. Danışıq üslubunda olan sözü bədii, elmi və ya publisistik üslubda ifadə etmək böyük məsuliyyət, bacarıq tələb edir. "Dilin leksikası, söz və ifadələri üzərində işlərin təşkili şagirdlərin nitqini inkişaf etdirmək, onların nitq mədəniyyətini yüksəltmək baxımından faydalı yollardan biridir. Buna görə də dil və ədəbiyyat müəllimi sözlərin bütün xüsusiyyətlərini (semantik quruluşunu, əmələgəlmə səbəblərini və yollarını, məna növlərini) şagirdlərə mənimsətməli, onlarda fikri ifadə etmək üçün söz, ifadə seçimində məsuliyyət hissi formalaşdırmalıdır." (3, 287).

Təbii ki, V sinifdə üslubi leksika və dilin funksional tipləri üzrə geniş işlər aparılmasa da sözün məcaziliyi, çoxmənalılığı, sinonim və antonimliyi barədə, frazeoloji ifadələr haqqında söhbət getdikdə üslubiyyat məsələləri də diqqət mərkəzinə gətirilir, nitqin çalarları barədə məlumat verilir. "Azərbaycan dilinin üslubiyyatı" adlı dərs vəsaitində deyildiyi kimi "... üslubiyyat həm də sinonimlərin məqsədəuyğunluq baxımından seçilməsi qanun-qaydaları sistemindən bəhs edən elmdir" (4,95).

Mətnlər üzrə işdə və leksik normaların mənimsənilməsində ona nail olmaq lzaımdır ki, şagirdin lüğət ehtiyatı fikri ifadə etməyə imkan versin, mətndəki sözün dəqiq mənasını bilsin, sinonimlərdə və frazeoloji vahidlərdən məqamında istifadə etsin, nitqini vulqar söz, dialekt və əcnəbi kəlmələrlə korlamasın. Bütün bunlara nail olmaq üçün leksik vahidlər ədəbiyyat materialları ilə inteqrasiyada mənimsənilməli və şagird mütaliəsinə geniş yer verilməlidir.

**Ədəbiyyat:**

1. Azərbaycan dili -5. Müəllim üçün metodik vəsait. Bakı, 2012, 199 s.
2. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2017, 316 s.
3. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2019, 380 s.
4. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 2010, 389 s.
5. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, 2012, 400 s.

## MƏNTİQİ TƏFƏKKÜRÜ İNKİŞAF ETDİRƏN QRAMMATİK ÇALIŞMALAR

**Əliyeva Elsanə Qənbər qızı**
**Azərbaycan Dövlət PedaqojiUniversiteti**
*emil_z2011@inbox.ru*

Yaddaş məktəbindən düşüncə məktəbinə keçid dövründə şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi təhsilin keyfiyyətini təmin edən ən zəruri tələblərdən biridir. Pedaqoji prosesin düzgün təşkili, təlimi nəticənin əldə olunmasına səbəb olan məzmun və strategiyanın

əsaslı seçimi uşaqlarda məntiqi təfəkkürü inkişaf etdirir, onlarda ciddi düşünmə ardıcıllığı formalaşdırır. Məntiqi zəmində qazanılan bacarıqlar şagirdlərə hökmlərlə danışmağa, bildiklərini sübut etməyə imkan yaradır.

Əslində hər hansı bir fənnin mənimsənilməsi prosesi hazır məntiqi əməliyyat və standartlara uyğun həll edilmir. Təlimdə "hər hansı bir tərif, qayda bu məntiq əsasında mənimsədilməlidir" deyə bir yanaşma da mövcud deyildir. Sadəcə, bilik, tərbiyə və inkişafetdiricilik kimi dəyərlər vəhdətdə, şagirdlərin yaş, qavrama, anlam səviyyələrinə, fənnin məzmununa uyğun formada mənimsədilir. Mənimsədiləsi biliklər anlama, tətbiqetmə, təhlil, sintez, yaratma mərhələlərindən keçir və təfəkkürün formalarına uyğunlaşdırılır. Yaradıcı təfəkkür səviyyəsi olan yaratmaq bir fenomen kimi təlimin kreativ tərəflərinə işıq salır.

Dediklərimizi B.Blumun idraki taksonomiyasına əsasən dəyərləndirsək şagirddə inkişaf sadədən mürəkkəbə doğru düşünmə bacarıqlarının formalaşması sayəsində olur. Dərketmə, idrak "canlı müşahidədən" başlayır. "Canlı müşahidə, yaxud hissi idrak bütün biliklərimizin mənbəyini təşkil edir. Canlı müşahidə prosesində insan maddi aləmlə birbaşa təmasda olur, bunsuz dərketmə prosesi yoxdur" (1,11).

Azərbaycan dili təlimində şagird üçün canlı müşahidə materialı mətnlər, dinləyib-anlama və danışmanı, oxunu, yazını formalaşdıran, dil qaydalarını öyrədən materiallardır. Şagird müəllimin fasilitatorluğu altında, ilk növbədə, canlı müşahidə materiallarını duyur, qavrayır, təsəvvür edir və hissi idrakın bu üç formasının vəhdətində biliklərin mənbəyini müəyyənləşdirir.

Növbəti mərhələdə həmin mənbələrin mahiyyətini dərk etməyə çalışır. Bu anlama, tətbiq, analiz səviyyəsində təfəkkür inkişaf edir, məntiqi idrakın formaları da buradan qaynaqlanır. İnsanı digər canlılardan fərqləndirən mücərrəd təfəkkürün sayəsində gerçəkliyin ümumiləşdirilməsi başlayır.

Bu ümumilik, mücərrədləşmə "...sözlərdə, söz birləşmələrində də dil terminlərində möhkəmlənərək, insan beyninin xüsusi keyfiyyətini təşkil edir"(1,17). Buradan da dil və təfəkkür vəhdəti yaranır. Məfhumlar, hökmlər, əqli nəticələr, analogiyalar, sübut və təkziblər, fərziyyələr məntiqi təfəkkürün arqumentləri rolunda çıxış edir.

Söz, söz birləşməsi, cümlə, mətn və onlara aid digər ifadələr əslində qrammatik məfhumlardır və onların dərki də müəyyən sistem üzrə getməlidir. Ə.Fərəcov qeyd edir ki: "Qrammatik məfhumlar bir-biri ilə dialektik əlaqədədir. Onlar üzvi surətdə müxtəlif tərif və qaydaların tərkibinə daxil olur və qrammatika elminin məfhumlar sistemini yaradır" (3,43).

Azərbaycan dili təlimində bir qrammatik məfhumu tam anlamaq üçün həmin məfhumun digər qrammatik məfhumlarla müqayisə edilməsi, yaxın və uzaq əlamətlərin dəqiqləşdirilməsi vacibdir.

Sözün tərkibi, nitq hissələri arasında olan ümumi və xüsusi cəhətləri müəyyənləşdirmədən, inteqrasiyanı təmin etmədən morfoloji məfhumlar haqqında əsaslı biliyə yiyələnmək olmaz.

Şagirdlərin məntiqi və yaradıcı təfəkkürünü inkişaf etdirmək yalnız qrammatik tərif və qaydaların əzbərlədilməsi ilə əldə olunmur. Mahiyyət elementar qaydalardan mürəkkəb qaydalara istiqamətdə açıldığı kimi, məntiqi bacarıqları formalaşdıran tapşırıqlar da elementardan mürəkkəbə, azdan çoxa prinsipi ilə hazırlanmalıdır. Bu didaktik baxımdan ən məqsədəuyğun variantdır.

Uşaqlar davamlı olaraq təhlil etməli, müqayisə aparmalı, ifadələr və cümlələr qurmalı, ümumiləşdirmələr aparmalıdır. Bu onlarda diqqət, yaddaş, müxtəlif düşüncə növü və ən əsası məntiqə əsaslanan nitq formalaşdırır.

Anlayış "bütöv" *(uzaqgörənlərimizin*) və "hissələr"(*uzaq-gör-ən-lər-imiz-in*) kimi, yaxın anlayışların qruplaşdırılması formasında (Məsələn, *avtobus, təyyarə, helikopter, gəmi, fayton* kimi sözlər toplusunda *təyyarə və helikopter* daha yaxın sözlərdir), əksmənalı anlayışlar sistemində (*sağlam – xəstə, dəli - ?)* mənimsədilə bilər.

Müəllim bu cür tapşırıqlarla yanaşı qeyri-ənənəvi tapşırıqlardan da istifadə edə bilər. Bu şagirdin bir sıra vacib intellektual keyfiyyətlərini inkişaf etdirir. Şagirdlər qeyri-ənənəvi tapşırıqlarla işləmə prosesində mühakimə yürütməyi, nəticə çıxarmağı öyrənirlər.

Məsələn, hər iki istiqamətdə eyni cür yazılan və oxunan sözlər (*dad, sos, damad*), cümlələr ( *"Ey Mələk, kələm ye"*) qur, eyni sözdə bir hərfi dəyişməklə yeni söz (*dağ-bağ-sağ-yağ-çağ*) yarat və s. Məntiqi təfəkkürü inkişaf etdirən tapşırıqları təxminən aşagıdakı istiqamətlərdə hazırlamaq olar:

1. Verilmiş əlamətə görə əşyaları seç;
2. Əşyanın ən vacib xüsusiyyətlərini say;
3. Müqayisəyə gələn sözləri ayrı-ayrı sütunlarda yaz;
4. Verilmiş əlamətlərə görə sözləri qruplaşdır.
5. Sadə cümlələləri mürəkkəb cümləyə, yaxud mürəkkəb cümləni sadə cümləyə çevir.

Bu tip çalışmaların həlli prosesi göstərir ki, uşaqların məntiqi təfəkkürü böyüklərin məntiqi təfəkküründən fərqlənir. Məktəbəqədər yaşdan başlayaraq vizual-effektiv təfəkkürdən vizual-obrazlı və məntiqi təfəkkürə keçid baş verir.

Bütün psixoloji və pedaqoji tədqiqatlarda məntiqi təfəkkürün təməli kimi məntiqi əməliyyatların əhəmiyyəti xüsusi vurğulanır. Bu zaman uşaqlarda obyektlərin oxşarlığının və fərqliliyinin səbəbini müəyyən etmək bacarığı inkişaf edir. Müqayisə əməliyyatları formalaşmağa başlayır. Şagird bir dil materialını tərkib hissələrinə parçalamağı, sonra onları cəmləyib bir yerə toplamağı öyrənir. Təsnifat etmə bacarığı şagirdlərə əsas əlamətləri fərqləndirməyə imkan verir.

Azərbaycan dilinə aid qaydaların məntiqi çalışmalar əsasında öyrənilməsi mücərrəd elm sahəsi olan qrammatikanın daha arqumentli dərkinə kömək edir. Ümumilikdə qrammatikanın uğurlu öyrənilməsi üçün məntiqi təfəkkürün inkişafı mütləq lazımdır.

**Ədəbiyyat:**


1. İsrafilov M. Məntiq. Bakı, 1987, 333 s.
2. Standart və kurikulumlar: nəzəri və praktik məsələlər. Bakı, 2016, 499 s.
3. Fərəcov Ə. Qrammatik məfhumların mənimsənilməsi. Bakı, 1967, 120 s.
4. Выготский Л.С. Мышление и речь — М.: Педагогика, 1982. — 504 с.


## ELMİ ÜSLUB ÜZRƏ İŞİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ


**Veysəlova Günay Nazim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunayveyselova9@gmail.com*


Normal ünsiyyət qurmaq istəyi bütün dövrlərdə və bütün cəmiyyətlərdə olmuşdur. Təhsilin ən böyük funksiyalarından biri də tədris olunan fənlərin məzmunu səviyyəsində şagirdlərin yazılı və şifahi nitqini formalaşdırmaqdır. Nitqin formalaşması üçün linqvistik dünyagörüşü, dil haqqında nəzəri biliklər kifayət deyildir. Şagird nəzəri bilikləri əsaslandıran, tətbiqə imkan verən cümlələr, tapşırıqlar, mətnlərlə də təchiz olunmalı, həmin mətnlər onun tərbiyəvi-estetik dünyasını zənginləşdirməlidir. Təbii ki, biz kommunikativ tapşırıqlar, mətnlər tərtib edərkən hansı leksik-semantik vasitələrə ehtiyacımız olduğunu müəyyən edir və müxtəlif üslublardan yararlanırıq. Mətn hansı məlumatı çatdırmalı, hansı funksiyanı yerinə yetirməlidirsə, üslub da ona nəzərən seçilir və onun mahiyyəti funksional üslublar adı altında müəyyənləşdirilir.

"Dil inkişaf etdikcə, onun xidmət sahəsi genişləndikcə, üslubi vasitələr zənginləşir və dilin üslubları da artır" (5,18). Yəni dilin fonetik-qrammatik vahidlərlə bağlı inkişafı onun üslubi inkişafına da öz təsirini göstərir və müxtəlif üslubi təsnifatlara yol açır. Ə.Dəmirçizadə, A.Məhərrəmov, Ə.Bağırov, T.Hacıyev, T.Əfəndiyeva, M.Cahangirov, M.İsmayılova və başqalarının funksional üslubları müxtəlif aspektlərdən təsnif etməsi, müxtəlif sayda göstərməsi də bu dinamizmin, inkişafın nəticəsidir. Bu gün ümumtəhsil məktəblərində funksional üslubların aşağıdakı növləri fərqləndirilir və öyrənilir:

a) danışıq üslubu;

b) bədii üslub;
c) elmi üslub;
d) publisistik üslub
e) rəsmi-işgüzar üslub.

Funksional üslubların mənimsənilməsi məsələlərinə X sinifdəki mətnlər üzrə iş prosesində geniş yer verilsə də, şagirdlərdə danışıq üslubu, elmi, bədii üslub haqqında ilkin təsəvvürlər aşağı siniflərdə, ayrı-ayrı fənlərin tədrisində formalaşır. "Muğan" poeması (bədii üslub), "Xəzər dənizi" (elmi üslub), "Sən dili əvəzinə "mən" dili" (publisistik üslub), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu" (rəsmi-işgüzar üslub) mətnləri üzrə işlərdə ayrı-ayrı funksional üslubların linqvistik-psixoloji xarakteri, fərqli və oxşar cəhətləri mənimsənilir. Təbii ki, bütün tədris boyu ədəbi dil normalarının gözlənilməsinə nəzarət də bir başa danışıq üslubunun təkmilləşdirilməsinə xidmət edir. Bundan başqa uşaqlar ədəbiyyat dərsində məktublaşma janrı kimi epistolyar üslub haqqında da məlumat alırlar.

"Xəzər dənizi" mətni üzərində işə qədər şagirdlər həm Azərbaycan dili, həm digər fənlərin tədrisi prosesində "elm", "elmi yanaşma" kimi anlayışların mənasını dərk edir, həm də leksikologiya bəhsində terminlərlə bağlı məlumat veriləndə onların elmi üslub üçün əsas olduğunu öyrənmiş olurlar. Mətn üzrə işdə isə onlar terminlərin elmi nitq üslubu üçün əsas göstərici olduğunu bir daha, elmi üslubun digər xüsusiyyətlərini də öyrənirlər. Mətn və ayrı-ayrı çalışmalar üzərində iş sayəsində bu nəticəyə gəlirlər ki, "Elmi mətni yazmaq üçün dilin qrammatik quruluşunu bilmək, terminləri digər sözlərlə düzgün əlaqələndirmək, ədəbi dilin normalarına uyğun cümlələr formalaşdırmaq lazımdır" (1,72).

Mətn, çalışmalar, əlavə təlim materialları və dil qaydası məzmun xətti üzrə işin metodiki təşkili elə istiqamətdə qurulmalıdır ki, şagirdlər elmi üslubun kitab üslubu olduğunu, bir sıra ümumi şərtlər və linqvistik xüsusiyyətlərlə (bəzi ifadələrin ilkinliyi, monoloji xarakter, normaya salınan nitqə meyl) xarakterizə olunduğunu da bilsinlər. Öyrənsinlər ki, kommunikativlik və koqnativlik elmi məlumatı ötürməyə, yeni biliklər əldə etməyə kömək edir və fikrin dəqiq, məntiqli, birmənalı ifadə olunması elmi ünsiyyətin əsas cəhətidir.

Təfəkkür özü ümumiləşdirilmiş xarakter daşıdığından onun dinamikasının linqvistik təcəssümü məntiqi ardıcıllıqla düzülmüş elmi anlayış, mühakimə və nəticələrin köməyı ilə ifadə olunur. "Elmi əsərlərdə şərh etmək, izah etmək, müəyyən bir məsələ haqqımnda fikir söyləmək, bundan nəticə çıxarmaq daha xarakterikdir" (5,36). Deməli, elmi nitq birmənalılıq, gizli emosionallıq, təqdimat obyektivliyi, bir qədər də qətilik tələb edir. Elmi nitqdə obrazlı ifadələr ümumi dil xarakteri daşıyır, xüsusi ifadəlilik, emosionallıq mövzudan, janrdan, ünsiyyət formasından və müəllifin fərdi xüsusiyyətlərindən asılıdır. Elmi nitqin ifadəliliyi, ilk növbədə, sözlərin istifadəsinin dəqiqliyi və təqdimatın ardıcıllığı ilə əldə edilir.

Telefon-rabitə vasitəsilə elmi əlaqələrin genişlənməsinə, kütləvi informasiya vasitələrinin inkişafına baxmayaraq yazılı nitq elmi üslubun əsas forması olaraq qalır. Ona görə də elmi mətnlərin öyrənilməsində, yazılı nitq üzrə işlərdə aşağıdakı məsələləri diqqət mərkəzində saxlamaq lazımdır:

1. Elmi mətn semantik tamlıq, bütövlük, ardıcıllıqla və nəticə ilə xarakterizə olunur;
2. Elmi nitq konkret oxucuya deyil, geniş insanlar dairəsinə ünvanlanır;
3. Elmi mətndə müəllif daha çox *"biz"* əvəzliyindən, yaxud *fikrimizcə, zənnimizcə* kimi ifadələrdən istifadə edir;
4. Elmi nitqin leksik vasitələrinin əhəmiyyətli hissəsini ümumi elmi istifadədə olan sözlər, mücərrəd lüğət və terminlər təşkil edir;
5. Elmi üslubda danışıq koloritinə aid sabit ifadələrə, məhdud istifadəli sözlərə (məcaz, arxaizm, jarqon, dialekt sözlər və s.) çox az təsadüf edilir;
6. Elmi mətndə daha çox səbəb və nəticə, zaman, şərt budaq cümləli tabeli mürəkkəb cümlələrə rast gəlinir və s.

Müəllim funksional üslublar, o cümlədən, elmi üslub haqqında məlumat verdikdə mətnlər üzrə işlərlə, tərif və qaydaların mənimsənilməsi və ayrı-ayrı üslubların oxşar, fərqli cəhətlərinin aydınlaşdırılması ilə kifayətlənməməli, hər üsluba aid mətnlər tərtib edə bilmək bacarıqları da formalaşdırmalıdır. Məsələn, X sinifdə "Bəşəriyyətin yaddaşı" mətni üzrə işdən sonra müəyyən bir mövzu ("Dilimiz və tariximiz", "Yazının yaranması") üzrə elmi mətn hazırlamaq tapşırığı verməli, qruplarla iş aparmaqla qarşıya çıxan çətinlikləri müəyyən etməyə çalışmalıdır. Təlimdə nəticə olaraq ona nail olmalıdır ki, şagirdlər yazacağı mətnin üslubunu müəyyənləşdirsin və elmi üslubda mətn hazırlasın. Hazırlayacağı mətndə yuxarıda adını çəkdiyimiz məsələləri imkan daxilində nəzərə alsın.

**Ədəbiyyat**


1. Azərbaycan dili – 10. Dərslik. Bakı, 2017, 208 s.
2. Azərbaycan dili – 10. Metodik vəsait. Bakı, 2017, 208 s.
3. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2017, 316 s.
4. İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2016, 307 s.
5. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı,2010, 389 s.


## KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN TƏDRİSİNDƏ FƏNDAXİLİ İNTEQRASİYA


**Məmmədova Nərmin Natiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*narminmammadova1397@gmail.com*


Müasir dövrdə təhsildə inteqrasiya qaçılmazdır. İnteqrasiya bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əsas istiqamətlərdən biridir. İnteqrativlik müasir təlimi xarakterizə edən başlıca pedaqoji prinsiplərdəndir. Təlimdə inteqrasiya biliklərin hərtərəfli, sistemli mənimsənilməsinə şərait yaratmaqla yanaşı, şagirdlərin dünyagörüşünün inkişafında da böyük rola malikdir.

Fəndaxili inteqrasiya fənnin aşıladığı bilik və bacarıqların bir-biri ilə əlaqələndirilməsi, sistemləşdirilməsidir. "Vaxtında və məqsədə söykənən inteqrasiya təlim prosesində dilə bütöv bir sistem kimi yanaşmağı, hər bir mövzunun zəncirin qırılmaz həlqələri olduğu fikrini dərk etməyi tələb edir. Əgər zəncirin həlqələri bir-biri ilə möhkəm və daha sıx bağlanmazsa, onun tez-tez qırılmaq ehtimalı yüksəkdir". (2,36)

Köməkçi nitq hissələrinin tədrisində də həm əvvəlki bölmələrlə: fonetika, leksikologiya, morfologiya, həm də sonrakı bölmə ilə-sintaksis ilə inteqrasiya imkanları genişdir. Köməkçi nitq hissələri ilə əlaqədar dil qaydalarını mənimsədərkən fonetika, leksikologiya, morfologiya bölmələri üzrə qazanılmış bilikləri sistemləşdiririksə, sintaksis bölməsi üçün də zəmin hazırlayırıq.

Köməkçi nitq hissələrinin tədrisində dilin ilk halqası olan fonetika bölməsi ilə inteqrasiya mümkündür. Köməkçi nitq hissələrinin tələffüzü, orfoqrafiyası haqqında danışarkən fonetika bölməsi ilə əlaqə yaratmaq lazımdır. Ümumtəhsil məktəblərinin VII sinfi üçün "Azərbaycan dili" fənni üzrə dərslikdə də qoşmaların deyilişi və yazılışı, ədatların orfoqrafiyası ilə bağlı nəzəri məsələlər ayrılıqda dil qaydası kimi verilmişdir ki, bu da fonetika bölməsi ilə inteqrasiya üçün şərait yaradır.

Köməkçi nitq hissələrinin tədrisi zamanı leksikologiya bölməsi üzrə qazanılan biliklərdən də yan keçə bilmərik. Köməkçi nitq hissələrinin tədrisinə başlayan zaman ilk olaraq leksikologiya bölməsinə müraciət etməliyik. Sözün leksik və qrammatik mənası, onların oxşar və fərqli cəhətləri haqqında biliklərin yada salınması əsas və köməkçi nitq hissələri anlayışlarının, onların oxşar və fərqli cəhətlərinin öyrədilməsində mühüm rola malikdir. Sözlərin leksik və qrammatik mənası haqqında biliklərə şagirdlər V sinifdə yiyələnirlər və bu bilikləri təkrarlamadan keçmək mümkün deyil.

Köməkçi nitq hissələrinin omonimliyindən, sinonimliyindən bəhs etdikdə də leksikologiya bölməsi ilə inteqrasiya mütləq və vacibdir.

Köməkçi nitq hissələrinin tədrisində morfologiya bölməsi ilə inteqrasiya yaratmamaq qeyri-mümkündür. Morfologiya bölməsi üzrə əvvəl qazanılmış biliklərə istinad etməklə köməkçi nitq hissələrini sistemli şəkildə mənimsədə bilərik. Xüsusilə də qoşmaların tədrisi zamanı ismin hal kateqoriyası ilə əlaqə qurmaq mütləqdir. Qoşmaların tədrisində hal kateqoriyası anlayışı, adlıq, yiyəlik, yönlük, çıxışlıq hallar, onların morfoloji əlaməti, sintaktik vəzifəsi haqqında biliklər yada salınmalıdır. Qoşmalar eyni zamanda substantivləşən nitq hissələrinə də qoşulur. Deməli, qoşmaların tədrisində yalnız isimlə deyil, həmçinin sifət, say, zərf ilə də inteqrasiya mümkündür.

Ədatların tədrisində də morfologiya bölməsi ilə inteqrasiya mümkündür. Ədatlar həm əsas nitq hissələri ilə, həm bağlayıcı ilə, həm də şəkilçilərlə omonimlik xüsusiyyətinə malikdir.

Ədatların tədrisində felin təsriflənən formaları ilə əlaqə yaratmağı unutmamalıyıq. Felin təsriflənən formaları onun şəkilləridir. Felin şəkilləri subyektin iş, hal və hərəkətə müxtəlif münasibəti ilə bağlıdır. Bəzən subyekt işin icrası haqqında məlumat verir, bəzən işin icrasını arzu edir, bəzən işin vacib və ya lazım olduğu bildirir, bəzən də işin icrasını tələb edir və s. Əmr ədatlarının, arzu ədatlarının tədrisində felin əmr şəkli və arzu şəkli ilə bağlı nəzəri məsələlərə də toxunmaq məqsədəuyğundur. Həm də ədatın məna növləri gələcəkdə cümlənin məqsəd və intonasiyaya görə məna növlərinin tədrisində də qarşımıza çıxacaq.

IX sinifdə tədris olunan mürəkkəb cümlələrin tədrisində bağlayıcılarla inteqrasiya vacib məsələlərdəndir. Tabesiz mürəkkəb cümlələrin tədrisində də köməkçi nitq hissələri ilə bağlı mənimsənilmiş biliklərə istinad etməyə ehtiyac vardır. Tabeli mürəkkəb cümlələrin tədrisində də köməkçi nitq hissələri–tabelilik bağlayıcıları ilə inteqrasiya yaratmağı unutmamalıyıq.

Gördüyümüz kimi, köməkçi nitq hissələrinin inteqrasiya imkanları olduqca genişdir. Müəllim də tədris zamanı bu imkanlardan istifadə edərək dərsi daha səmərəli qurmaq üçün çalışmalıdır.

**Ədəbiyyat:**


1. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı:Qismət, 2014, 384 s.
2. Hümmətova R. Qoşma və bağlayıcının tədrisində inteqrasiya. Bakı:Elm və təhsil, 2018, 208 s.


## QƏHRƏMANLIQ DASTANLARINN TƏDRİSİNİN ƏHƏMİYYƏTİ


**Həsənova Leyla Ziyafət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Leylamuzi@gmail.com*


Folklor nümunələri hələ də məktəb dərsliklərində öz mövqelərini qoruyub saxlayır. Onlar milli bədii mədəniyyətin formalaşmasında, onun orijinallığının formalaşmasında ən erkən mərhələni təmsil edir, vətənpərvərlik, mənəvi və estetik tərbiyə vəzifələrinə töhfə verirlər. Şifahi xalq yaradıcılığı əsərləri qiymətli tarixi material, xalq həyatının canlı təsvirləri, xalq fantaziyasının oyunu və həyati dəyərlər sistemi sayıla bilər ki, onların arasında həmişə doğma torpağa məhəbbət, rəmzi mənada ən mühüm yer tutur. Xalq ədəbiyyatı şagirdlərə cəsarət, qorxmazlıq, dürüstlük, vətən sevgisi, xalqın mənəvi dəyərlərinə hörmət, təbiəti sevmək və qorumaq kimi nəcib hissləri aşılamaq baxımından müstəsna imkanlara malikdir. Bunun əsas şərtlərindən biri və bəlkə də başlıcası müəllimin pedaqoji qabiliyyətləridir. Bütün bunlar onu deməyə əsas verir ki, şifahi xalq ədəbiyyatının tədrisi prosesində şagirdlərə əxlaqın bütövlüyünü təmin etməyə imkan verən etnopedaqoji nümunələrdən və düzgün iş metodlarından istifadə etmək lazımdır.

Azərbaycan ədəbiyyatında qəhrəmanlıq dastanlarının ən gözəl nümunələri sırasında "Kitabi-Dədə-Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" və s. dastanları göstərə bilərik. Bu dastanların hər biri öz dövrünün aynasıdır.

Hal-hazırda orta məktəblərdə qəhrəmanlıq dastanlarımızdan “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanları şagirdlərə tədris olunur. Bu dastanların tədrisi zamanı düzgün iş üsullarından və metodlardan istifadə edilməsi şagirdlərə həmin dastanları daha dərindən anlamaq və təhlil etmək bacarıqları aşılayacaqdır. Bu cəhətdən metodik vəsaitlər müəllimlər üçün ən əsas köməkçi vasitədir və hər bir müəllim bu vəsaitlərdən yaradıcı istifadə etməyi bacarmalıdır.

Hal-hazırda fəal təlimin qarşısında duran başlıca məqsədlərdən biri də şagirdlərdə vətənpərvərlik hissini inkişaf etdirmək, vətəninə, millətinə, torpağına bağlı övladlar yetişdirməkdir. Bütün bunların həyata keçirilməsində ən təsirli vasitələrdən biri də qəhrəmanlıq dastanlarıdır. Bu dastanların tədrisi zamanı müəllimlər dastandakı hadisələrdən nümunələr gətirməklə, qəhrəmanların hansı məqsədləri qarşılarına qoyduqlarını izah etməklə qəhrəmanlıq dastanlarının tədrisi zamanı şagirdlərdə vətənpərvərlik hissini mükəmməl şəkildə inkişaf etdirə bilərlər.

Bütün qəhrəmanlıq dastanlarının vahid məqsədi vardır.Bu məqsəd şagirdlərdə hələ uşaqlıqdan haqsızlığa, zülmə, ədalətsizliyə kəskin etiraz; dövlətimizə, millətimizə, adətlərimizə, vətənimizə sevgi yaradır. Eyni zamanda onların bir şəxsiyyət kimi formalaşmalarına yardım edir. Tarixi faktların bəzilərində müəyyən dəyişikliklər ola bilər, lakin həm ədəbiyyat, həm də tarix birlikdə inteqrativ şəkildə öyrədildikdə hadisələr uşaqlar üçün daha aydın olur. Qəhrəmanlıq dastanlarının tədrisi nəticəsində şagirdlərdə vətənpərvərlik hissinin inkişaf etdirilməsi günümüzün aktual məsələlərindən biridir və hər bir müəllim bu dastanların tədrisinə xüsusi qayğı və diqqətlə yanaşmalıdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı, 2013. 93 s.
2. Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007. 272 s.
3. Əliyev K. Çağdaş folklorşünaslığın problemləri. Bakı:Elm və təhsil, 2017. 362 s.
4. Əfəndiyev P. Dastan yaradıcılığı: Filologiya fakültəsi tələbələri üçün. Bakı: ADPU, 1999, 168 s.
5. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası: mühazirə mətnləri. Bakı: Müəllim, 2011,. 324 s.
6. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi (metodik vəsait). Bakı, 2019. 264 s.
7. Quluzadə T. Qəhrəmanlıq dastanlarında Azərbaycan etnoqrafiyasının əksi. Bakı: Elm və təhsil, 2018. 236 s.

## DƏRS PROSESİNDƏ DİNLƏYİB-ANLAMA-DANIŞMA ZAMANI MEYDANA ÇIXAN PROBLEMLƏR

**Mahmudova Günel Elxan qızı**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
*mahmudovagunel199@gmail.com*

Müasir təhsil sistemində dinləyib-anlama olduqca geniş işlənən və araşdırılan bir anlayışdır. Azərbaycan dili fənninin məzmun xətlərindən biri olması isə bu anlayışın müasir təhsil sistemindəki vacibliyini bir daha sübut edir. İnsan yarandığı gündən dinləyib-anlama məfhumu mövcud olmuşdur. İstər ənənəvi, istərsə də müasir təhsil sistemində dinləyib-anlama Azərbaycan dili dərslərində təlimin uğurlu keçməsi üçün vacib olan ilkin mərhələdir. Məhz buna görə dinləyib-anlama zamanı meydana çıxan problemlərin müəyyənləşdirilməsi və aradan qaldırılması dərs prosesinin uğurlu keçməsi üçün mühüm əhəmiyyətə malikdir.

Dinləyib-anlama zamanı meydana çıxan problemləri aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1.Diqqət

2.Müəllim nitqinin anlaşılan olmaması.

3.Mətnin məzmununun şagirdlərin yaş, anlaq səviyyəsinə və maraq dairəsinə uyğun olmaması.

4.Dinlənilən mətni anladığını nümayiş etdirə bilməmək və s.

5. Vaxt problemi.

Diqqət problemini izah etməmişdən əvvəl, eşitmə və dinləmənin fərqlərinə nəzər yetirək. Eşitmə:biz gün ərzində müxtəlif səsləri, sözləri, ifadələri, məlumatları eşidirik, lakin onları dinləmirik. Dinləmə zamanı isə insan məqsədli olaraq bir məlumatı, informasiyanı dinləyir. Belə bir ifadə var ki, eşitmək qulaqlardan dinləmək ağıldan keçir. Eşitmə və dinləmə fəaliyyətində qulaqlar iştirak edir və qulaqlar vasitəsilə biz səsləri qavrayırıq, anlayışları yox. Eşitdiyimiz səslərin təhlili və şüurlu şəkildə başa düşülməsi dinləmədir.

Şagird mətni dinləyərkən indicə eşitdiyi məlumatları unudur, yadda saxlamaqda çətinlik çəkir. Mətnin, audio mətnin, video-çarxların həcminin böyük olması şagirdin diqqətinin pozulmasına səbəb ola bilər. Bu diqqət problemleminin aradan qalxması üçün ilk növbədə mətnin və audio mətnin, dinləmə üçün istifadə etdiyimiz video-çarxların həcminin qısaldılması məqsədə uyğundur. Mətni bütünlükdə yox, hissələrə bölərək fasilələrlə oxumaq da dinlənilən mətnin anlanılmasına və danışılmasına xidmət edir. Diqqət problemini aradan qaldırmağın yollarından biri isə müəllim və valideynlərin birgə əməkdaşlığı ola bilər. Valideyn gün ərzində şagirdin diqqətini daha çox nələrin pozduğunu müəyyənləşdirməklə və müəllimlə birgə əməkdaşlıq nəticəsində problemi həll edə bilər.

Mətnlərin oxusu müəllimin ifadəli oxusu vasitəsilə bütövlükdə və ya fasilələrlə həyata keçirilməlidir. Bu zaman mətni dinləyən şagirdlərin mətni anlaması üçün heç sübhəsiz ki, müəllimin nitqinin anlaşıqlı, aydın olması mühüm əhəmiyyətə malikdir. Müəllim nitqi dialekt və şivələrdən uzaq olmalı, ədəbi dilin normalarına riayət etməlidir. Bu zaman şagirdlər üçün mətnin dinlənilməsi, məzmunun mənimsənilməsi daha asan və rahat olacaq.

Dinləyib-anlama üçün seçilən hər bir mətn şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun olmalı, maraq və tələbatına cavab verməlidir.7-ci sinifdə oxu mətnləri “Fərd və Cəmiyyət”, “Hər sözün bir taleyi var”, “Ana təbiət”, “Kamilliyə doğru”, “Dəyərlərimiz”, “İxtiralar və kəşflər”, “Kitabın tarixi” bölmələrində verilmiş mətnlər şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun olduğuna görə, dinləyib-anlama və danışma üzrə iş uğurla qurula bilər.

Dinləyib-anlama bacarığından sonra gələn ilk bacarıq danışmadır. Dinləyib-anlama üzrə iş düzgün qurulmalıdır ki, şagirdlər dinləyərək anladıqları məlumatları danışaraq anladıqlarını nümayiş etdirsinlər. 1.1 Dinlədiyi fikri anladığını nümayiş etdirir. Bu standartı reallaşdırmaq üçün təlimimiz də işimizi düzgün qurmalıyıq. Şagirdlər fikirlərini yığcam şəkildə nümayiş etdirməyi, danışarkən cümlələri düzgün qurmağı, fikrini aydın və konkret şəkildə çatdırmağı bacarmalıdır. Bu bacarıqları şagirddə formalaşdırmaq üçün onların bədii mütaliəyə marağını artırmaq lazımdır, həmçinin dərs prosesində diskussiyalara, debatlara, müzakirələrə geniş yer verilməli, şagirdlərin öz fikirlərini, hətta yanlış olsa belə,səsləndirmələrinə şərait yaratmaq lazımdır.

Hər bir bacarığın formalaşması üçün vaxt ən başlıca ünsürdür. Dərs prosesinin hər bir mərhələsinə həsr oluncaq zaman əvvəlcədən müəyyənləşdirilməlidir. Hər dərs və müvafiq mətn üzrə dinləyib-anlama-danışma üçün nə qədər vaxt sərf olunacağı əvvəlcədən müəyyənləşdirilməlidir. Əgər nəzərdə tutulan vaxtdan çox və ya az vaxt ayrılarsa, bu bacarıqların formalaşdırılması zamanı çatışmazlıqlar özünü göstərəcəkdir.

**Ədəbiyyat:**


1. Azərbaycan dili - tədris dili fənni üzrə 5-ci sinif üçün metodik vəsait, Bakı:Altun kitab, 2020 , 200 səh.
2. Azərbaycan dili - tədris dili fənni üzrə 7-ci sinif üçün metodik vəsait, Bakı:Altun kitab, 2018, 179 səh.
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (5-9 cu siniflər) Bakı 2012.
4. Qurbanov.V Azərbaycan dili tədrisinin bəzi problem məsələləri. Bakı 2008.

# LİRİK ŞEİRLƏRİN TƏHLİLİ YOLLARI

**Orucova İlahə Zülfüqar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*orucovatehsil@mail.ru*

Lirik növdə olan əsərlərə məktəb ədəbiyyat kursunda xeyli yer verilmişdir. Ədəbiyyatın tədrisinin hər iki mərhələsində (V-VII və X-XI siniflərdə) heca vəznində yazılmış şeirlərin tədrisi önəmli yer tutur. Əruz vəznində yazılmış şeirlərin tədrisinə isə səkkizinci sinifdən başlanılır. Bu, əlbəttə, təsadüfi deyildir; əruz vəzninin özünün mürəkkəbliyi, bu ölçüdə yazılmış klassik şeir nümunələrinin mənimsənilməsinin yaratdığı çətinliklər nəzərə alınmışdır. Ümumiyyətlə lirik şeirlərin tədrisinin özəl xüsusiyyətlərinin və bu ədəbi növün öyrənilməsinin müəyyən çətinlikləri olduğunu etiraf etmək lazımdır. Müşahidələrdən, metodik ədəbiyyatın təhlilindən aydın olur ki, lirik şeirlərin mənimsənilməsində meydana çıxan ən mühüm çətinlik bu əsərlərdəki hiss və həyəcanların duyulması ilə bağlıdır. Həyat təcrübələri yetərincə olmayan V-IX sinif şagirdlərinin hisslər aləmi də qədərincə zəngin deyildir. Bu, şagirdlərin lirik qəhrəmanın mənəvi aləmini başa düşmələrinə, onun hiss-həyəcanlarına şərik çıxmalarına mane olur. Problemi araşdıran S. Hüseynoğlu bu barədə yazır: "O lirik şeirləri mənimsəmək şagirdlər üçün çətin olur ki, onlarda obrazlılıq daha güclüdür. Və üstəlik belə əsərlərdə zəngin hisslərin, əvəzlənən ruhi halların mürəkkəbliyi qavramaya çətinlik yaradır. Obrazlılıq, təbiidir ki, emosionallıq yaratmalıdır, emosionallıq mövcuddursa, estetik təsir də olmalıdır. Bu qəbildən lirik şeir şagirddə – hissi, duyumu, "emosional yaddaşı" və təcrübəsi zəngin olmayan oxucuda adekvat təəssürat doğura bilmir, əsərdən "yan keçən" məktəbli-oxucu şeirdəki zəngin hisslər aləminə daxil ola bilmir və nəticədə laqeyd oxucu kimi formalaşır" **[1.s. 55].**

Elə lirik şeirlər də vardır ki, onlarda əks olunmuş kiçik bir obraz (məişətlə, təbiətlə bağlı və s.) mətnin qavranılmasını xeyli dərəcədə asanlaşdırır. Buna səbəb bu cür təsvirin hissdən çox, düşüncəyə təsir etməsidir. Təsadüfi deyildir ki, süjetli lirika nümunələrinin mənimsənilməsi məktəbdə ciddi çətinlik törətmir.

Bunu da xatırlatmaq yerinə düşər ki, müxtəlif vəznlərdə yazılmış lirik şeirlərin mənimsənilməsində də fərqli vəziyyət müşahidə olunur. Əruz vəznli şeirlərdə poetik düşüncənin qavranılması ilə bağlı yaranan çətinliklə yanaşı, şeir ölçüsünün (əruz vəznunin) özəlliyindən irəli gələn əngəllər də mövcuddur. Eləcə də sərbəst şeirlərin mənimsənilməsində vəznin mahiyyətindən doğan çətinliklər şagird qavramasına da, təlim prosesinin uğurlu təşkilinə də əhəmiyyətli dərəcədə təsir edir.Bütün bu çətinliklərin aradan qaldırılması üçün metodik ədəbiyyatda yollar göstərilmiş, müəllimlərə praktik kömək məqsədilə yazılar çap edilmişdir. Lakin problemin aradan qalxdığını deməyə ciddi bir əsas yoxdur. Məktəbdə hələ də yuxarıda göstərilən çətinliklər müşahidə olunur. Bunun bir mühüm səbəbi də ümumtəhsil məktəblərində çalışan müəllimlərin əksəriyyətinin metodik araşdırmalara laqeyd münasibətləridir.

Tədqiqat zamanı lirik şeirlərin mənimsənilməsindəki çətinliklər diqqət mərkəzində saxlanılmış, eksperiment materiallarının metodik baxımdan əhatəli hazırlanmasına səy göstərilmişdir. İlk növbədə tapşırıqlar, eləcə də metodik tövsiyələr lirik şeirlərin məzmunu, növ və janr xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmışdır. Diqqət mərkəzində saxlanılan ikinci məsələ eksperiment materiallarının – lirik şeirlərin xarakterinə müvafiq təlim metodu, iş növlərinin seçilməsi olmuşdur. Təlim texnologiyalarının qarşılıqlı əlaqədə tətbiqi eksperiment tədqiqatının bütün mərhələlərində ön plana çəkilmişdir. Eksperiment materialı kimi müəyyənləşdirilmiş S.Vurğunun "Azərbaycan" şeirinin yeddinci sinifdə təhlilinin səmərəli keçməsi üçün əsərin öyrənilməsinə həsr edilmiş iki əvvəlki mərhələlərə də (oxu, məzmunun öyrənilməsi) istiqamət verilmişdir. Əsərin tədrisinə ayrılmış üç saatın iki əvvəlki saatı məzmunun öyrənilməsinə həsr edilmişdir. Məzmunun öyrənilməsi üzrə işin səmərəli təşkili təhlilin effektli olmasına imkan yaratmışdır.

Təhlil prosesində dərslikdəki “Əsərlə bağlı aşıqlamalar” mətninin oxusuna və mənimsənilməsinə önəm verilmişdir. Bu mətn müəllimin giriş sözünü uğurla əvəz edir və təhlildə hansı məsələlərə diqqət yetirməyin vacib olması barədə şagirdlərə istiqamət verir. Təhlil dərsində motivasiyanın yaradılması tədqiqt sualının formalaşdırılması ilə yekunlaşır. Motivasiyanın yaradılması üçün suallardan istifadə yolu seçilmiş, əsasında “Vətənimiz haqqında çoxlu sənət əsərlərinin yazılmasına səbəb, sizcə nədir?” sualı dayanan müsahibə aparılmışdır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə başa çatmışdır. Sonrakı addım kiçik qruplarda işin təşkili olmuşdur. İş vərəqlərində əks etdirilmiş tapşırıqlar qruplara təqdim edilmişdir. Məzmun standartlarının reallaşmasına xidmət edın tapşırıqlar şagirdləri düşünməyə, müstəqil fikir söyləməyə yönlənmişdir. Onlar, həmçinin məntiqi, tənqidi və yaradıcı təfəkkürün formalaşdırılması baxımından da məqsədyönlü olmuşdur. Tapşırıqlarda əsərin mövzusunun müəyyənləşdirilməsi, ideyasının aydınlaşdırılması, bədii xüsusiyyətlərinin izah olunması məsələləri diqqət mərkəzində saxlanmışdır.Tapşırıqda şeirin vətən mövzusunda yazılmış digər bir əsərlə müqayisə edilməsi tələbinə də yer verilmişdir. Bunun üçün şagirdlərə müqayisədən necə istifadə edilməsi, müqayisə cədvəlinin hazırlanması qaydaları barədə də məlumat verilmişdir. Şagirdlərə izah olunmuşdur ki, müqayisə eyni əsaslar üzrə aparılmalıdır. Bu əsaslar aşağıdakı şəkildə müəyyənləşdirilmişdir:

– mövzuya görə müqayisə;
– ideyaya görə müqayisə;
– bədii cəhətlərə görə müqayisə.

“Bədii cəhətlər” anlayışı geniş anlamdadır. Buraya növ, janr, dil xüsusiyyətləri, xüsusən, bədii təsvir və ifadə vasitələri aiddir.

Söylənmiş fikirlərin əsərdən seçilmiş nümunələrlə təsdiq edilməsi tapşırıqda bir tələb kimi diqqətə çatdırılmışdır. Məsələn, onlardan biri aşağıdakı şəkildə təqdim edilmişdir: “Əsərin bədii təsir gücünün artmasında təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın. Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın”.

Tapşırığın yerinə yetirilməsi zamanı şagirdlərin bədii mətnlə yanaşı, digər mənbələrə müraciət etmələrinə də imkan yaradılır. Müxtəlif mənbələrdən məlumatların seçilməsi, müqayisə edilməsi, ümumiləşdirilərək nəticə çıxarılması şagirdlərdə tədqiqatçılıq bacarığının inkişafına əhəmiyyətli dərəcədə təsir edir.İşin icrası prosesində, ehtiyac yaranan hallarda yönləndirici suallar vasitəsilə şagirdlərə kömək göstərilir. Təhlil dərslərində ən mühüm məqam isə əldə olunmuş nəticələrin müzakirəsidir. Bu mərhələdə bütün sinfin müzakirədə fəal iştirak etməsi, diskussiya şəraitinin yaradılması vacibdir.

**Ədəbiyyat:**

1. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatın tədrisi metodikası. Bakı:Maarif.1968.
2. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı.
3. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016.
4. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2007.
5. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çıraq, 2011.

## BƏDİİ MƏTNLƏRİN OXUSU VƏ MƏZMUNUNUN MƏNİMSƏNİLMƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**Quliyeva Elnarə Yavər qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Elnare.quliyeva.2019@mail.ru*

Məlumdur ki, orta məktəbdə şagirdlərin mütaliə maraqları müəyyən qədər azalmaqdadır. Bunun bir sıra səbələri vardır. Həmin səbəblər içərisində dərslərdə onların oxusu və məzmununun mənimsədilməsinə dair görülən işlərin nə dərəcədə səmərəli olması xüsusi yer

tutur. Bəs görəsən bədii əsərin məzmununun öyrənilməsində dərslərdə hansı üsullardan istifadə edirlər, bu üsullar səmərə verirmi, müəllim və şagirdlər oxu prosesində və məzmunun mənimsədilməsi işində hansı çətinliklərlə qarşılaşırlar və bunları necə aradan qaldırırlar? Bu kimi məsələləri aydınlaşdırmağa çalışaq.

Şagirdlərdə mütaliəyə marağı aşağı siniflərdən də əvvəl ilkin olaraq evdən, ailə mühitindən başlamaq lazımdır. Kiçik yaşlı uşaqlarda kitaba, ədəbiyyata maraq, sevgi yaradılmalıdır. Biz bunu M.Arazın nümunəsində aydın sürətdə görə bilərik: “Aşağı siniflərdən ədəbiyyata, şeir oxuyub əzbərləməyə xüsusi həvəsim vardı. Yaxşı şeiri bircə dəfə oxuyardım – yaddaşımda həkk olunardı. Evimizin taxça – boxçasında hara əl atsan – bir dastan, bir nağıl, “ Aşıq şeirləri” kitabı çıxardı. “Aşıq Ələsgər” elə həmişə kürsünün üstündə idi. Anam bu kitabları bizə oxudardı.” [1. s. 108]

Mütaliə mədəniyyəti ailədən, beşik başında laylaların, nağılların, tapmacaların, bayatıların və s. oxunması ilə başlanır. Şagirdin kitaba olan sevgisini isə “ get dərsini oxu”, “get kitabını oxu” sözünü eşitməkdən daha çox özündən böyüklərin davranışı, kitaba olan rəftarı ilə əldə etmək olar. Uşaq evdə valideynlərinin kitab oxuduğunu, hər ay evə bir dənə də olsun yeni kitab alındığını gördükdə onda da mütaliə mədəniyyəti formalaşmış olur və bu proses məktəb mühitində də mütəmadi olaraq davam etdirilməli, əsərlərin ifadəli oxusu, mətnin məzmununun yığcam fikirlərlə nağıl edilməsi, təhlil bacarıqlarının formalaşması daha da təkmilləşdirilməlidir.

Tədris prosesi, məktəb mühiti ilə bağlı ilk növbədə belə bir fikri xatırlamaq yerinə düşər. “ ... Bir faktı xatırlatmaq istəyirik. Əgər müəllim istənilən bir mətni əlinə götürüb onu elə - belə nəzərdən keçirəndə bu cür fikirləşsə ki, mətn ona aydındır, onun məzmununu bilir, deməli o, özünü aldatmış olur.” [4, s. 278] Bu deyiləndən aydın olur ki, işə ilk öncə müəllimlərin peşə hazırlığından, öz işlərinə yaradıcı münasibətdən, şagirdlərə səbrlə, məhəbbətlə yanaşmalarından və dərsdə psixoloji mühitin tənzimlənməsindən başlamaq lazımdır.

10-cu və 11-ci siniflərdə müəllimin şagirdin fikirlərini dərs mühitinə cəlb etməsi ilk öncə həmin dərsin real həyatdan gətirilən nümunələrlə bağlanması, şagirdin şəxsi həyat təcrübəsi ilə səsləşməsinin təmin edilməsi şagirdlərin tədris olunan mövzuyla bağlı marağının daha çox artmasına səbəb olur. Belə olduqda hər şagird mövzu ilə bağlı öz həyat təcrübəsini səsləndirməyə cəhd edir, mövzu ilə bağlı fikirlərini müəllimi ilə bölüşməyə həvəs göstərir. Yuxarı siniflərdə şagirdlər əsərin oxunmasından, məzmunun nagıl edilməsindən daha çox yazıçının həyatından gətirilən maraqlı həyat hadisələrinin dinlənilməsinə maraq göstərirlər. 11- ci sinifdə Rəsul Rzanın “Qızılgül olmayaydı” poeması tədris olunarkən müəllim mövzuya maraq yaratmaq, əsərin oxusuna həvəs oyatmaq üçün Mikayıl Müşfiqlə Rəsul Rzanın ilk dəfə görüşərkən aralarında yaşanmış olan maraqlı tanışlıqlarının ifadə edildiyi aşağıdakı misraları qeyd etməklə yarada bilər.

Əlini uzatdı:
- Mikayıl Müşfiq,-
- Sonra əlavə etdi:
- Qoçaqsan
- Qafiyə tapsan!
- Dedim:- Ağır olar bu yük!- [ 3. S 112]

Yazıçının həyatı ilə bağlı dəyərli, maraqlı faktların şagirdlərin özü tərəfindən müstəqil sürətdə toplanılmasına da həvəslə yanaşıldığının şahidi oluruq. Bundan istifadə edərək 11 – ci sinif şagirdlərinə ədəbiyyat fənnini tədris edən müəllim yazıçı həyatında rast gəlinən belə maraqlı faktların onların yazmış olduğu əsərlərində də öz əksini tapdığını şagird nəzərinə çatdırılması, hətta əsərdən maraqlı epizodların seçilib müəllim tərəfindən obrazlı şəkildə səsləndirilməsi ilə olduqca böyük səmərə əldə edə bilər.

11- ci sinifdə tədris olunan “Qızılgül olmayaydı” poemasının tədrisi ilə bağlı mövzuya uyğun bir sıra məsələləri nəzərdən keçirsək deyə bilərik ki, məzmun dərsində müəllimin görəcəyi ilkin işlərdən biri şagirdin diqqətini dərsə yönəltmək, tədris prosesinə canlılıq, fərqlilik qatmaq üçün bu poemanı Rəsul Rzanın özünün səsləndirmiş olduğu görüntülü videoçarxın

göstərilməsi ilə ola bilər. Müəllim bunu internet resuslarından çox asanlıqla əldə edə bilər. Daha sonra müəllim ilkin müsahibə ilə əsərdə söylənilən fikirlərlə bağlı şagirdlərin repressiya haqqında nə bildiklərini, əsərdə repressiya qurbanları haqqında söylənilən fikirlərin nə dərəcədə doğru olması, əsərdəki çarşaflı qadının kim olması ilə bağlı şagirdlərin fikirlərinin dinlənilməsini həyata keçirə bilər.

Dərs prosesində istifadə olunan fəal interaktiv təlim metodlarının aşagı siniflərdən tədrisinin həyata keçirildiyi üçün eyni şeylərin dəfələrlə təkrarlanmasından şagirdlərin təngə gəlməməsi üçün müəllimlər yuxarı sinifdə bu metodların tədbiqi prosesinə yüksək həssaslıqla yanaşaraq öz yaradıcılıqlarını qata bilərlər və ya şagirdlərin fikirlərini bu haqda soruşa bilərlər. Məsələn: uşaqlar biz BİBÖ üsuluna daha hansı yeni başlıq əlavə edə bilərik? İkihissəli gündəlikdəki başlıqları başqa hansı adlarla əvəz etmək istəyərdiniz və s. Unutmaq olmaz ki, şagird fikirlərini hər zaman diqqət mərkəzində saxlamaq və onların həvəs göstərəcəyi istiqamətdə dərsi təşkil etmək daha məqsədə müvafiqdir. Metodik vəsaitdə “Qızılgül olmayaydı” poemasının məzmunu üzrə ayırılmış bir saat dərsdə heç bir fəal təlim metodunun tədbiqi məsləhət görülməmiş, daha çox sualları kiçik qruplarda birləşərək cavablandırmaq məsləhət görülmüşdür.

Həyatdan hadisələrin geniş əksini tapdığı belə bədii mətnlərin tədrisi zamanı məzmun dərslərində əsərin səssiz, fərdi oxusunu həyata keçirməklə yanaşı, ikihissəli gündəlik metodundan da istifadə etmək olar. Real həyatda yaşanmış hadisələrin şagird tərəfindən xarakterizə edilməsi onların daha çox marağına səbəb ola bilər.

Unutmaq olmaz ki, məktəb şagird üçün hər gün gedib-gəlməli olduğu gündəlik bir iş deyil, onun hər gün şəxsiyyətinin inkişafına gündən-günə zənginlik qatacağı bir xəzinə olmalıdır. Bu iş isə kompleks şəkildə ailə, məktəb, müəllim, təhsil sitemi və ətraf mühitin faydalı təsiri ilə mümkün ola bilər. Ədəbiyyatımızın görkəmli simalarından olan, maarif yükünü çiyinlərində böyük şərəflə daşıyan, fədakar müəllim Sultan Məcid Qənizadənin sözləri ilə tamamlaya bilərik: “Bizlər üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şöləsindən yanacaqdır. Cəhalət mülkünə əgər bir məhtab doğacaq isə, yenə məktəb divarlarından tülu edəcəkdir.”

**Ədəbiyyat:**


1. Həsənli Bilal. Ədəbiyyatın tədrisi metodikası. Bakı:Müəllim, -2016. 449 səh.
2. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı- 2018. 208 səh.
3. Ümumtəhsil məktəblərinin 11- ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı-2018 . 207 səh.
4. Yusifov Fəxrəddin. Ədəbiyyatın tədrisi metodikası. Bakı-2017. 304 səh.


## DRAMATİK ƏSƏRLƏRİN TƏHLİLİ ÜZRƏ İŞİN TƏŞKİLİ


**Qurbanova Səbinə Namiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*qurbanovasebine518@gmail.com*


Orta məktəbdə öyrədilən bədii əsərlər içərisində dramatik növdə olan əsərlər də üstünlük təşkil edir. Dramatik əsərlərinin tədrisi metodikası lirik və epik əsərlərin öyrədilməsi və təhlili üsullarından müəyyən dərəcədə fərqlənir. Bir halda ki, öyrənilən bədii əsərlər arasında ədəbi növ və janr etibarilə fərq var, onların tədrisi üsulları da bir-birindən az-çox ayrılmalıdır. Məlumdur ki, dramatik növə məxsus əsərlər səhnədə oynanılmaq üçün yazılır, onların həqiqi gözəlliyi, estetik təsiri daha çox səhnədə, tamaşa prosesində özünü büruzə verir və duyulur.

Təhsil proqramının tələblərinə uyğun olaraq, dramatik növə aid əsərlər 8-ci sinifdən etibarən tədris edilir. Dramatik əsərlərin tədrisi çətindir. Bu çətinlik ədəbi növün mahiyyətindən irəli gəlir. Personajların xarakteri, həyata baxışı onların dilindən və əsərin digər iştirakçılarının danışığından irəli gəlir. Dramaturqun niyyəti, ideyaları əsərin qəhrəmanları tərəfin-

dən bəyan edilir, əhvalat və hadisələr də çox vaxt danışıq-nitq nəticəsində təsəvvür olunur. Bütün bunlar dramatik növə daxil olan əsərlərin kifayət qədər mütaliə təcrübəsi olmayan şagirdlər tərəfindən çətin qavranılmasına səbəb olur.

Dramatik əsərlərin təhlili özəlliyi ilə seçilir. Dramatik əsərlərin təhlilinə nədən başlamaq lazımdır? sualına cavab verməklə həmin özəllikləri aydınlaşdırmaq mümkündür. Metodist alimlərin fikrincə, faciə janrında olan əsərin təhlilinə konfliktin aydınlaşdırılması ilə, komediyanın təhlilində baş qəhrəmanın ön plana çəkilməsi ilə, dram janrının təhlilində isə konfiliktin və problemin ön plana çəkilməsi ilə başlamaq məqsədəuyğun sayılır.

Ədəbiyyat dərsliklərində dramatik əsərlərin təhlili, əsasən, aşağıdakı komponentləri əhatə edir:

1. Əsərin mövzusunun və ideyasının aydınlaşdırılması
2. Əsərdəki obrazların təhlili
3. Konfliktin və problemin müəyyən edilməsi
4. Əsərin bədii xüsusiyyətlərinin araşdırılması

Dərslikdəki təhlil materiallarında, bu ardıcıllıq, əsasən, gözlənilsə də, tapşırıqların hazırlanmasında, təhlilin aparılması strukturunda sərbəstlik vardır.

Dramatik əsərlərin təhlilində süjet xəttinə, qəhrəmanların nitqinə, jest və mimikalarına, hərəkət motivlərinə xüsusi diqqət yetirilməlidir. Şagirdlər müəllifin niyyətini remarka, dialoq, monoloq, replikalar vasitəsilə başa düşməyə çalışmalıdır.

Dramatik əsərlərin tədrisində yeni texnologiyaların tətbiqi də maraqlı nəticələrlə müşayiət olunur. İlk növbədə dramatik növün təbiəti dərsdə rəngarəng iş növlərinin, metod və priyomların tətbiqini tələb edir. Bu rəngarənglik, müxtəliflik o vaxt faydalı olur ki, yerində olsun, məqamına düşsün.

**Ədəbiyyat:**

1. S.Hüseynoğlu. Ədəbiyyatın metodikası: laboratoriya məşğələləri. Dərs vəsaiti. Bakı , 2020, 176 səh.
2. S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal / interaktiv təlim. Müəllim üçün vəsait. Bakı, 2009, 200 səh.
3. S.Hüseynoğlu. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Metodik vəsait. Bakı, 2019, 264 səh.

## AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MƏNTİQİ ÇALIŞMALAR ÜZRƏ APARILAN İŞLƏRİN SİSTEMİ (1-4-cü siniflər)

**Qədirli Leyla Talıb qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leylaqadirli@gmail.com*

***Açar sözlər:*** *məntiqi çalışmalar, dil normaları, formalaşdırma, mənimsəmə, innovativ təcrübə, məntiqi çalışmaların səciyyəvi modelləri*

***Ключевые слова:*** *логические упражнения, языковые нормы, формирование, овладение, инновационная практика, типовые модели логических занятий*

***Key words:*** *logical exercises, language norms, formation, learning, innovative experience, typical models of logical exercises*

Azərbaycan dilindən məntiqi çalışmalar1-4-cü siniflərdə də dörd məzmun xəttini və həmin xəttlərin standartlarının reallaşdırılması ilə şagirdlərdə bacarıq və vərdişlərin yaradılmasını, formalaşdırılmasını və möhkəmləndirilməsini təmin edir. Əlbəttə, Azərbaycan dilindən fənn kurikulumlarının məzmun xəttləri müxtəlif olduğu kimi çalışmaların da mənaları, növləri və məzmunu müxtəlifdir, rəngarəngdir. Məntiqi çalışmaların şərtlərində əsasən, "düşün və tap", "anlayışlara görə qruplaşdır", "sıraları davam etdirməklə sözləri düz", "buraxılmış sözü əlavə etməklə fikri tamamla", "beşindən biri səhvdir", "cümlələri bölmələrə görə yerləşdir", "yazılışı çətin sözləri adlardan fərqləndir", "tələffüzü yazılışından fərqli sözləri seçib yaz və

şərhini ver" və s. kimi tələbləri olur. Həmin çalışmalar bir qayda olaraq dinləyib-anlama və danışma ilə dil qaydaları məzmun xəttinin çalışmaları hesab olunur. Çünki, məhz həmin məzmun xəttlərinin standartları təfəkkür inkişafı aşılayan icra şərtlərinə malik olur.

Metodikamızda məntiqi çalışmaların səciyyəvi cəhətləri və nümunələri az tədqiq olunduğundan biz tezisimizi də həmin aktual olan mövzulara həsr edirik.

1) Məntiqi çalışmalar şagirdlərin təfəkkür inkişafına uyğun hesablanmalı, şagirdlərdə dərk etmək və tədqiqat aparmaq bacarıqları formalaşdırmalıdır;

2) Məntiqi çalışmaların icra şərtləri anlayışlar və sübutlu mühakimə aşılamaq üslubunda qurulmalıdır;

3) Dil qaydalarının aşılanması, möhkəmləndirilməsi və təkmilləşdirilməsi məqsədli çalışmaların icra şərtləri əqli nəticələr şəklində olmalıdır;

4) Məntiqi çalışmalar tədqiqat yönümlü qurulmalıdır;

5) Motivasiyalar məntiqin qanunları əsasında icra şərtləri tələb edir;

6) Mətnlərə ad vermək və onların ideya-məzmun təhlili məntiqi tapşırıqlarla müəyyən olunmalıdır;

7) Ümumiləşdirici çalışmalar məntiqi qayda-qanunlara uyğun tərtib edilməlidir;

8) Bütün məzmun xəttlərinin ümumiləşdirilməsi üçün məntiqi çalışmalar sistemi yaradılmalıdır;

9) Müəllimləri məntiqi çalışmaların metodikası ilə silahlandırmaq və onları bu sahənin mütəxəssislərinin rəhbərliyi ilə treninqlərə cəlb etmək lazımdır.

10) Məntiqi çalışmalardan ibarət didaktik materiallar hazırlanıb, müəllimlərə təqdim olunmalıdır;

11) Məntiqi çalışmaların tərtibi prinsipləri Azərbaycan dilinin tədrisi metodikası fənnində xüsusi mövzu kimi öyrənilməlidir;

12) Məntiqi çalışmalarla və innovasiya haqqında məktəblərdə seminarlar və müşavirələr keçirilməli və müəllimlərə strateji istiqamətlər verilməsində pedaqoji təcrübə keçən tələbələrin fəal iştirakı təmin edilməlidir;

13) Dil normalarının mənimsənilməsində məntiqi çalışmaların rolu təbliğ olunmalıdır.

## AZƏRBAYCAN DİLİ TƏDRİSİNDƏ YAZI ÜZRƏ NİTQ FƏALİYYƏTİNİN MÜASİR SƏCİYYƏSİ

**Mirzəyeva Sona İmran qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sona.mirzayeva1999@gmail.com*

Təhsilimizin hazırkı mərhələsində şagirdlərin yazılı nitq fəaliyyətinə dair məktəbdə vəziyyəti aydın təsəvvür etmək üçün konfransda aşağıdakı tezislər və onların geniş şərhi əsasında danışmağa çalışacağıq:

1. Yazılı nitq fəaliyyətinin növlərinə bələd olmaq. Azərbaycan dilindən fənn kurikulumununa dair ədəbiyyatı, yazı məzmun xəttinin standartlarını hərtərəfli öyrənmək lazımdır. [Bax 1, 2, 3]

2. V-XI siniflər üzrə Azərbaycan dilində yazı növlərinin tədrisi sadədən mürəkkəbə, asandan çətinə prinsipinə cavab verməlidir.

3. Dərsliklərdə əsas mətnlər üzərində 20-yə qədər bacarıq növləri üzrə işlərin sistemlə həyata keçirilməsi müsbət hal kimi nəzərə alınmalıdır.

4. Çalışma növləri üzrə bacarıq və vərdişlərin üç səviyyəyə görə qurulması əsas şərt olmalıdır.

5. Orta məktəblərin V-XI siniflərində yazı növlərinin ardıcıl, sistemli, məqsədyönlü təşkili təmin olunmalıdır.

6. İfadə yazı metodikasının imkan və yollarının bələdlikdə nəzəriyyə ilə təcrübə vəhdət təşkil etməlidir.

7. İnşa yazı nitq inkişafında zirvə kimi dəyərləndirməlidir.

8. Esse yazı bacarıqları üzrə nitq fəaliyyəti məktəb didaktikasında yeni məsələdir, onun metodikası kütləviləşdirilməyə möhtacdır. Müəllimlərin esse metodikasına, innovasiyalara yiyələnmədikləri nəzərdə saxlanılmalıdır.

9. Ərizə, elan, bildiriş, akt, protokol tərtib etmə bacarığı aşılayan çalışmalardan gözlənilənlər maksimum dərəcədə olmalıdır.

10. İfadəni inşaya çevirmək innovativ yaradıcılıq tələb edən bacarıqlardandır. Dərsliklərdə və metodik vəsaitlərdə bu məqsədlə çalışmaların sayını artırmaq şagirdləri zəruri bacarıqlarla silahlandırmaqla nəticələnməlidir.

11. İnşa mövzuları üzrə material toplanması və onların ümumiləşdirilməsi həyati bacarıq olaraq qiymətlidir.

12. Yazı məzmun xəttinin digər məzmun xətləri ilə inteqrasiyada qurulması didaktik ideya olaraq yenidir və onun əhəmiyyəti nəzəri cəhətdən şərh olunmalıdır.

13. Yazı məzmun xəttinin standartları digər xətlərin standartları ilə əlaqədə gerçəkləşdirilməlidir.

14. Dərsliklərdə və metodik vəsaitlərdə yazı nitq fəaliyyəti ilə bağlı ümumiləşdirici dərslərin genişləndirilməsinə diqqət artırılmalıdır.

Azərbaycan dili tədrisində yazı nitq fəaliyyətinin müasir səciyyəsi haqqında tezislər:

Azərbaycan dili dərslərində şagirdlərin yazı üzrə nitq fəaliyyəti xüsusi didaktika olaraq özündə öyrənməyi və öyrətməyi ehtiva edir. Orta məktəblərin V-XI siniflərində yazıların səmərəli təşkilinin şagirdlərin ümumi inkişafına təsiri danılmazdır. Çünki yazı bacarıq və vərdişləri praktik səciyyə daşıyan əməli sahədir və təhsil sistemində geniş sahəni özündə əhatə edir.

Azərbaycan dilindən V-IX siniflər üzrə dərsliklərdə və müəllim üçün metodik vəsaitlərdə yazı məzmun xətti inkişafetdirici təlim üçün çox geniş imkanlara malikdir. Hesab edirik ki, həmin mənbələrlə ciddi məşğul olmaq müəllimlərin nəzəri və təcrübi cəhətlərdən silahlandırılmasında rolu inkaredilməzdir. Magistrlərə kurikulum fəlsəfəsini öyrənməkdə müəllim üçün metodik vəsaitlər əsasında hər bir dərsin texnoloji quruluşunu izləməyi məsləhət bilirik. Konfransda da tezislərimizlə bu istiqamətdə geniş məruzə etməyi nəzərdə tutmuşuq.

**Ədəbiyyat:**

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı:Kövsər, 2007.
2. V-IX siniflər üzrə fənn standartları. Bakı:Kövsər, 2013.
3. V-XI siniflər üzrə "Azərbaycan dili" dərslikləri və müəllim üçün metodik vəsaitlər, Bakı, 2012-2021-ci illər.

## LİRİK VƏ EPİK ƏSƏRLƏRİN TƏDRİSİNDƏ MÜQAYİSƏ PRİYOMUNDAN İSTİFADƏ

**Məhərrəmova Sona Elşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Sona.meherremova123@gmail.com*

Ədəbiyyat nəzəriyyəsi ilə bağlı anlayışlar şagirdlərə ibtidai sinifdən etibarən verilməyə başlayır və V sinifdən şagirdlər bu məlumatları daha sistemli şəkildə öyrənməyə başlayırlar. İbtidai sinifdə şagirdlər kiçik həcmli epik əsərlər oxuyur, şeirlər əzbərləyirlər. Onlar bu növlərə aid olan janrları bir-birindən qeyri-ixtiyari, müəllimlərinin verdikləri səthi məlumatlarla fərqləndirirlər. Ancaq yuxarı siniflərdə ədəbi növləri öz forma, məzmun xüsusiyyətlərinə görə fərqləndirməyi bacarırlar. Bu da bir həqiqətdir ki, bəzən şagirdlər lirik və epik növlər ara-

sındakı fərqləri müəyyən etməkdə çətinlik çəkir və janrlarını fərqləndirə bilmirlər. Bu zaman biz müqayisə priyomundan istifadə edə bilərik.

Ədəbi növlər (eləcə də janrlar) bir-biri ilə dialektik əlaqədə olub, biri digərinin ünsürünü özünə daxil edə bilər. Onların arasında fərqli cəhətlər olduğu kimi, ümumi əlamətlər də mövcuddur. "Ədəbi növ və janrlar bir-birindən təcrid olunmuş-tamamilə ayrılmış şəkildə deyillər. bu janrda digər janrın ünsürləri, momentləri və bəzi xüsusiyyətləri ola bilər". [3, 136 s.]

Epik və lirik növdə yazılmış əsərləri müqayisə etməzdən əvvəl şagirdlər lirik və epik növün əsas xüsusiyyətlərini bilməlidirlər. Şagirdlər bilməlidirlər ki, lirik növ,əsasən, nəzmlə, epik növ isə, əsasən, nəsrlə yazılır. Epik növdə təsvir və təhkiyə, lirik növdə isə tərənnüm əsasdır. Yəni epik növdə yazılmış əsərlərdə bir hadisə nəql edilir, danışılır, lirik növdə isə müəyyən bir hadisənin yaratdığı hiss və həyəcan qələmə alınır. Epik növdə müəyyən bir əhvalat danışıldığı üçün epik növdə yazılmış əsərlər yazıçıya fikrini ətraflı şəkildə ifadə etməyə geniş imkan yaradır. Lirik növdə isə belə deyil. Lirik növ ani və qüvvətli hisslərin məhsuludur. Epik növün yazılı ədəbiyyatdakı janrlarına: təmsil, hekayə, novella, roman, oçerk, memuar və s. daxildir. Lirik növün yazılı ədəbiyyatdakı janrlarına isə: qəzəl, qəsidə, qitə, məsnəvi, müxəmməs, müsəddəs və s. daxildir.

Müəllim lirik və epik növlər haqqında şagirdlərə məlumat verdikdən sonra Venn diaqramından istifadə etməklə nəzəri baxımdan lirik və epik növlər arasındakı fərqi şagirdlərin tapmasını istəyə bilər. Və yaxud da iş üsulu kimi auksionu seçə bilər. Dərs zamanı lirik və epik növlər haqqında fərqləri soruşa bilər və ən son fərqi deyə bilən auksionun qalibi seçilmiş olar. Müəllim dərsi müasir iş formaları və üsulları ilə keçməklə həm şagirdlərə biliyi müstəqil şəkildə mənimsəməyə, həm də həmin mənimsənilən biliyin uzun müddətli şagird yaddaşında qalmasına şərait yaratmış olur.

Ədəbi növlərin (lirik və epik) spesifik xüsusiyyətlərinin öyrədilməsində müqayisənin mühüm əhəmiyyət kəsb etdiyini göstərmək məqsədi ilə B.Vahabzadənin "Qocalar"la (lirik növün nümunəsi kimi), İ.Krılovun "Ağac" təmsilinin (epik növün nümunəsi kimi) müqayisəsini nəzərdən keçirək.

Müqayisə üçün nəzmlə yazılmış təmsilin seçilməsi təsadüfü deyildir; bəzən şagirdlər elə düşünürlər ki, bütün nəzm şəklində olan əsərlər lirik növə daxildir. Ancaq epik növün janrlarının bir neçəsi nəzmlə də yazıla bilər. Bunlardan biri də təmsildir.

Əsərləri müqayisə etməklə ədəbi növlərin spesifik xüsusiyyətlərini şagirdlərə öyrətməyi qarşısına məqsəd qoyan müəllim bilməlidir ki, müəyyən bir növdə yazılmış əsərdə digər növün ünsürlərini göstərməklə iş bitmir. Bu prosesdə müxtəlif ədəbi növə aid olan əsərlərin həyat materiallarını əhatə etmək imkanları aydınlaşdırılmalı, süjet, kompozisiya cəhətdən spesifik xüsusiyyətləri və s. müəyyənləşdirilməlidir.

Epik növdə və lirik növdə yazılmış iki əsərin müqayisəsini vermək üçün müəllim bir dərs saatı ayırır və əsasən, müsahibə metodundan istifadə edir. Müəllimin ilk sualı belə olur:

-Sizcə, bu iki bədii nümunəni bir-birinə yaxınlaşdıran hansı cəhətlər var?

Şagirdlər qeyd edirlər ki, hər iki əsər nəzmlə yazılmışdır, hər iki əsər yazılı ədəbiyyat nümunəsidir.

Daha sonra müəllim deyilənləri ümumiləşdirərək başqa bir sualla sinfə müraciət edir.

-Bu iki ədəbi nümunə arasında hansı fərqli cəhətlər müşahidə etdiniz?

Şagirdlər "Ağac" təmsilində müəyyən bir əhvalatın danışıldığına, nəql edildiyinə görə onun epik növə daxil olduğunu, "Qocalar" şeirində isə insanın qocalıq dövründəki əhval-ruhiyyəsinin tərənnüm olunduğunu bildirərək bunun lirik növə daxil olmasını əsaslandırırlar.

Müqayisə priyomundan istifadə etməklə şagirdlərə ədəbi növləri daha dərindən və daha ətraflı mənimsətmək mümkündür.

**Ədəbiyyat:**

1. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı:Maarif, 1978, 199 s.
2. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 2009, 201 s.

3. Hacıyev C.X. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958, 220 s.
4. Paşayev M. C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1972, 279 s.
5. Rəfili M. Ədəbiyyatşünaslığa giriş. Bakı, 1958, 274 s.
6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2017, 240 s.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARA VƏTƏNPƏRVƏRLİK KEYFİYYƏTLƏRİNİN AŞILANMASI YOLLARI

**Hüseynli Zeynəb Səməd qızı**
**Azərbaycan Dövlət Pedaqoji Üniversiteti**
*znbhuseynli@gmail.com*

***Açar sözlər:*** *məktəbəqədər, uşaqlar, vətənpərvərlik, yollar və vasitələri*
***Ключевые слова:*** *школы, дети, патриотизм, дороги и средства*
***Key words****: schools, children, patriotism, roads and means*

**Xülasə**

Uşaqlarda vətənpərvərlik keyfiyyətlərinin formalaşması uşağın Vətəninə, xalqına olan məhəbbəti, xalqın hər bir vətəndaşına hörməti, ənənələrinin qorunması deməkdir. Uşaq öz doğma yurdunun maddi və mənəvi sərvətinə, mədəniyyətinə yaxşı yiyələnmədən o əsl vətəndaşvə vətənpərvər kimi formalaşa bilməz..

**Резюме**

Развитие патриотических качеств у детей означает любовь ребенка к своей стране, своему народу, уважение к каждому гражданину наöии, сохранение его традиöий. Ребенок не может быть сформирован как подлинный гражданин и гражданин без хорошего понимания материальных и моральных богатств и культуры своей родины.

**Summary**

The development of patriotic qualities in children means a child's love for his country, his people, respect for every citizen of the nation, and the preservation of his traditions. A child cannot be shaped as a genuine citizen and a citizen without a good understanding of the material and moral riches and culture of his homeland.

Uşaqlarda vətənpərvərlik keyfiyyətlərinin aşılanmasında sosial mühit amillərinin təsirini daima diqqət mərkəzində saxlamaq vacibdir. Tərbiyəni sosial mühitlə vəhdət şəklində həyata keçirmək daha məqsədəuyğundur. Kiçik yaşlı uşaqları sosial mühitlə tanış etmənin müsbət tərəfi odur ki, o uşaqların dünyagörüşünün artmasına, əxlaqi keyfiyyətlərinin formalaşmasına və sosial həyat barədə düzgün təsəvvür formalaşmasına kömək edir. Zəhmətkeş insanların əməyini onlara anlatmaq və ya göstərmək onda əməyə qarşı müsbət hiss yaradır, həmçinin kollektivçilik kimi xüsusiyyətlər inkişaf edir. Digər tərəfdən onları vətən uğrunda öz canını verməyə hazır olan qəhrəmanlarla tanış etmək və onların hekayəsini anlatması uşaqlarda vətənpərvərlik keyfiyyətinin formalaşmasına müsbət təsir edir. Uşaqlarda vətənpərvərlik keyfiyyətlərinin formalaşdırılması dedikdə, uşağı ölkəsinə, xalqına sevgi, xalqın hər bir vətəndaşına qarşı hörmətlə yanaşmaq, adət-ənənələrini qorumaq xüsusiyyətləri aiddir. Vətəni sevmək, vətənpərvər kimi özünü yetişdirməklə uşaq onun bir hissəsi kimi özünü qəbul edir. Milli-mənəvi dəyərlərimizə malik olmadan istədiyimiz formada təhsilə yiyələnmək də mümkün olmur. Bu cür çətin pedaqoji prosesin təməlində emosiyaların formalaşdırılması durur. Valideynlərə, ətrafındakı digər insanlara hörmət və məsuliyyət hissi vətənpərvəlik keyfiyyətlərinə aiddir.

Məktəbəqədər yaş dövründə uşaqlarda şəxsiyyətin inkişaf etdirilməsi zamanı vətənpərvərlik keyfiyyətlərini özündə birləşdirən sosial emosional hisslərin inkişafı üçün gücə sahib-

dir. Vətənpərvərlik keyfiyyətlərini uşaqlara aşılayarkən ilk öncə bu hissi ötürməyin yollarını axtarmalı və onu müəyyənləşdirməli, həmçinin hissi idraki proses olmasa bu hiss əmələ gəlməyəcəyini müəyyən etmək lazımdır. Vətənpərvərlik öz vətənini sevmək, ona bağlanmaq, onu qorumaq, müdafiə etmək və cavabdehlik kimi anlaşılırsa, kiçik yaşlı uşaqlara isə nəyəsə bağlılıq çatdırılır. Hər bir şəxs vətənini sevmədən öncə onda empatiya hissi formalaşdırılmalıdır. Əgər uşaq ətrafındakı şeylərin cazibədarlığını görməyi bacarırsa, bu zaman onu vətənin mədəni və maddi dəyərləri valeh edir

Uşaqlara vətənpərvərlik keyfiyyətlərinin aşılanmasının xüsusi əhəmiyyəti vardır, çünki bu hiss onlarda sosial, həmçinin mənəvi inkişafında mühüm təsirə malikdir. Kiçik yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsi aşılanarkən sosial mühitə, cəmiyyətə və ailədaxili münasibətlərə əsas üstünlük verilir. Onlarda bu hisslərin artmasında ən qüvvətli təsir edən başlıca sosial amillərə bunları daxil etmək mümkündür. Sosial amillərə ailə, vətənimizin memarlıq mühiti, muzeylər, milli-mənəvi dəyərlər, bayramlar, əlavə təhsil və özlərindən böyük şəxslərlə və qohumlarla söhbət və s aiddir. Əxlaqi tərbiyənin ən mühüm vəzifələrinə vətənpərvərlik tərbiyəsi daxildir. Bu tərbiyə sosial mühitdə uşaqların həyat fəaliyyəti prosesində inkişaf edir..

## Ədəbiyyat:


1. Əliyeva Ş.Q. Sosial pedaqogika. Bakı: ADPU, 2021.
2. Əliyeva S.A. Məktəbəqədər yaşlı uşaqlarla tərbiyə işinin təşkili metodikası. Bakı: ADPU, 2019.
3. Sadıqova S.M. Uşaq bağçasının təlim məşğələlərində uşaqların hərbi-vətənpərvərlik tərbiyəsi. Bakı:ADPU, 2004.


# TƏLİM PROSESİNDƏ UŞAQ HÜQUQLARININ ÖYRƏDİLMƏSİ METODLARI VƏ VASİTƏLƏRİ


**Bağırova Fidan Bağır qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*fidanbaghirova97@gmail.com*



***Açar sözlər:*** *təhsil, uşaq hüquqları, tədris metodları, Uşaq Hüquqları Konvensiyası*

***Ключевые слова:*** *образование, права ребенка, методы обучения, Конвенőия о правах ребенка.*

***Key words:*** *education, children's rights, teaching methods, Convention on the Rights of the Child*



## Xülasə

Son vaxtlar məktəbəqədər təhsil müəssisələrində tədrisin metod və formalarının fəal şəkildə inkişafı müşahidə edilir. Təlimin təşkilinin hansı üsul və formalarına daha çox tələbat olduğunu daha ətraflı nəzərdən keçirmək lazımdır. Bu prosesdə uşaq hüquqlarının nəzərə alınması və bunların öyrədilməsi xüsusi əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsildə bunun üçün geniş imkanlar vardır. Təlim prosesində tərbiyəçi müəllimlər bunları xüsusi olaraq nəzərə almalıdırlar.



## Резюме

В последнее время наблюдается активное развитие методов и форм обучения в дошкольных учреждениях. Необходимо более подробно рассмотреть, какие методы и формы обучения наиболее востребованы. В этом проőессе особенно важно учитывать и обучать правам детей. В дошкольном образовании для этого есть много возможностей. Педагоги должны учитывать это в проőессе обучения.

**Summary**

Recently, there has been an active development of teaching methods and forms in preschools. It is necessary to consider in more detail which methods and forms of training are most in demand. In this process, it is especially important to take into account and teach children's rights. There are many opportunities for this in preschool education. Educators should take this into account in the training process.

Cəmiyyətin gələcəyinin təməl daşları olan uşaqların həm fiziki, həm də psixi sağlamlığı, öz dəyərlərinə şüurlu şəkildə tərbiyə olunması onların təhsilini üzərinə götürən müəllimlərin keyfiyyəti ilə çox sıx əlaqəlidir. Hər bir uşağın bir şəxsiyyət olaraq əsas hüquq və azadlıqlarından istifadə etməsinin təmin olunması təhsil praktikasını həyata keçirən müəllimlərin üzərinə ciddi məsuliyyət qoyur. Uşaqların ən təməl hüquqlarını, inkişaf hüquqlarını öyrənmələri lazım olan dövr təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil dövrüdür. Uşağın inkişafını dəstəkləmək məktəbəqədər müəllimlərin ən vacib vəzifəsidir. Uşaq hüquqları məktəbəqədər təhsil müəssisələrinin müəllimləri üçün uşağın inkişafını dəstəklənyən bir bələdçidir. (1)

İnkişaf hüquqları təhsil, məlumat, oyun, istirahət, asudə vaxt və mədəni fəaliyyətlərdə iştirak, fikir, din və vicdan azadlığını əhatə edən hüquqlar qrupudur. Məktəbəqədər təhsildə uşaqların inkişaf hüquqlarını qorumaq üçün məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimləri uşaq hüquqları maarifləndirilməsini həyata keçirən, uşaqlara hüquqlarını dəyər kimi verən məktəbəqədər tərbiyəçi-müəllim olmalıdır. Tərbiyəçi-müəllimlərin uşağın həyatında xüsusi yeri var. Uşağın bu xüsusi məsuliyyətdə inkişafına dəstək vermək məktəbəqədər təhsil müəllimlərinin ən mühüm vəzifəsidir. Uşaqların layiq olduqları təhsili alması üçün onlara uşağın hüquqlarını bilən və onları nəzərə alan tərbiyəçi-müəllimlər lazımdır.Uşaq Hüquqları Konvensiyasını imzalamaqla dövlət böyüklər və uşaqlar arasında Konvensiya haqqında biliklərin yayılmasını zəruri hesab etdi. Konvensiyanın 29-cu maddəsində göstərildiyi kimi uşaqların təhsili "insan hüquqlarına və əsas azadlıqlarına hörmətin inkişaf etdirilməsinə", o cümlədən "uşağın anlaşma, sülh, əmin-amanlıq ruhunda azad cəmiyyətdə şüurlu həyata hazırlanmasına" yönəlməlidir. Məktəbəqədər təhsil siyasətinin əsas prinsiplərindən biri "ümumbəşəri insan hüquqlarının prioritetinə əsaslanmasıdır".İnsan hüquqları üzrə təhsil insanın öz hüquqlarını qorumaq və başqalarının hüquqlarına hörmət etmək məqsədilə bilik, bacarıq və davranışı daim təkmilləşdirməyə yönəlmiş davamlı prosesdir.

Uşaqlar üçün yalnız öz hüquqlarını bilmələri kifayət deyildir. Onlar öz hüquqlarını müdafiə etmək, başqalarının hüquqlarına hörmətlə yanaşmaq və onları qorumaq üçün bu bilik əsasında davranmağı bacarmalıdırlar. Bu məqsədə nail olmaq üçün uşaqlara insan hüquqlarını, həmçinin əlaqəli dəyərləri və münasibətləri tətbiq etmək, və müdafiə etmək imkanı verən bacarıqlar lazımdır. Beləliklə, tərbiyəçi-müəllimlərin və uşaq bağçası rəhbərlərinin uşaq hüquqlarına şagirdlərin müəyyən fənlər çərçivəsində öyrənməli olduğu bir mövzu kimi deyil, daha da geniş mənada baxması zəruridir. (2)

Tərbiyəçi-müəllimlər təlim prosesində aşağıdakı insan hüquqları prinsiplərinə əməl etməlidir:

• uşağın təcrübəsini, biliyini, analitik qabiliyyətlərini zənginləşdirən interaktiv metodlardan tədris prosesində istifadə etmək;

• uşaqların fəal iştirakını və onların məsuliyyətini təşviq etmək;

• fikir və ideyaların ifadəsi üçün şərait yaratmaq, hər kəsin dinlənilmək hüququnu təmin etmək.

• aydın təlim məqsədləri müəyyən etmək və onların həyata keçirilməsinə nəzarət etmək; uşaqların ehtiyaclarına cavab vermək;

• xüsusi ehtiyacı olan uşaqları inteqrasiya etmək;

• hər kəsin iştirak etmək üçün bərabər imkanlara malik olması üçün şərait yaratmaq.(3)

**Ədəbiyyat:**
1. Məktəbəqədər təhsilin kurikulumu (layihə) BAKI -2017
2. Məktəbəqədər təhsilin yeni məzmununun xüsusiyyətləri. Metodik tövsiyə. Bakı-2015
3. http://www.e-qanun.az/framework/3292

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINDA DİDAKTİK OYUNLARIN ROLU

**Cəlilova İradə Mayıl qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*irade.calilova@gmail.com*

***Açar sözlər:*** *uşaq,təlim, bilik, bacarıq, didaktik oyun*
***Ключевые слова:*** *дети, образование, знания, умения, дидактическая игра*
***Key words:****children, education, knowledge, skills, didactic game*

**Xülasə**

Didaktik oyun daha sağlam uşaqlığa, ətraf aləmin dərk edilməsinə, uşaqların intellektual inkişafına və eyni zamanda nitq qabiliyyətinin stimullaşdırılmasına kömək edir. Didaktik oyun uşağın zehni tərbiyəsinin mühüm vasitəsidir.

**Резюме**

Дидактическая игра способствует оздоровлению детства, осознанию окружающей среды, интеллектуальному развитию детей и в то же время стимулирует речевые способности. Дидактическая игра является важным инструментом для воспитания ума ребенка.

**Summary**

The didactic game helps to promote a healthier childhood, awareness of the environment, intellectual development of children and at the same time stimulate speech ability. Didactic play is an important tool for raising a child's mind.

Məktəbəqədər yaşlı uşaqlar üçün müxtəlif oyunlar arasında ən məqbul sayılan didaktik oyunlardır. Bir çox müəllimlər, pedaqoqlar, psixoloqlar uşaqların praktik təcrübəsini genişləndirməyə imkan verən didaktik oyunların mühüm rolunu qeyd edirlər.

Didaktik oyunlar coxplanlı, mürəkkəb pedaqoji hadisədir. Belə ki, didaktik oyun, əsasən psixoloji aspekt daşımaqla diqqətin, qavrayışın, hafizənin, təfəkkürün, nitqin inkişafına xidmət göstərir. O həm də şəxsiyyətin hərtərəfli tərbiyəsinin mühüm vasitəsidir.

Didaktik oyunun əsas mahiyyəti ondan ibarətdir ki, onda təlim vəzifələri - didaktik məqsəd uşaq qarşısında birbaşa açılmır, gizlədilir. Bu oyunlarda uşaqlar hər şeydən əvvəl, oyun situasiyasına cəlb edilirlər. Didaktik oyuna zamanı uşaqlar hiss etmirlər ki, onlar həm də öyrənirlər. Bu zaman yenini yadda saxlayır, təsəvvürləri genişlənir, fantaziyaları inkişaf edir. Bu vaxt oyunlarda öyrənmə və əyləncə birləşir. Didaktik oyunlar təlimi uşaqlar üçün daha əlverişli və cəlbedici formada həyata keçirməyə imkan yaradır. Bu zaman təlim vəzifəsi həm də uşağın oyun vəzifəsi olur. Didaktik oyunlardan müxtəlif pedaqoji məqsədlərlə (ana dili, sadə riyazi təsəvvürlərin verilməsi, ətraf aləmlə tanışlıq və s.) istifadə olunur. Didaktik oyunlar vasitəsilə tərbiyyəçi-müəllim uşaqlara müstəqil düşünməyi, yiyələndikləri biliklərdən istifadə etməyi öyrətməlidirlər.

Didaktik oyun zamanı tərbiyyəçi-müəllimlər uşaqlardan öz fikirlərini sözlə ifadə etməyi tələb edirlər ki, bunun nəticəsində də onların nitqi daha yaxşı inkişaf etmiş olur.

Oyunlar uşaqların tərbiyəsinə çox müsbət təsir göstərir.Lakin digər oyunlara nibətən uşaqların əqli inkişafı və təlimində didaktik oyunların rolu daha çoxdur.Belə ki,didaktik oyun-

lar sırf təlim xarakteri daşıyır və uşaqları təlim əməyinə hazırlayır. Uşaqlar əqli əməyə alışdırmaq üçün onu maraqlı, əyləncəli etmək vacib şərtdir. Buna görə də tərbiyəçinin didaktik oyunlardan istifadə etməsi daha məqsədə uyğundur.

Prof.M.Muradxanov, Y.Kərimov qeyd edir ki, oyun prosesi ilə başlayan didaktik oyun fəaliyyətində inkişaf edən uşaq daha sonra təlim məşğələlərində daha da inkişaf edir və bu da uşaqların məktəb təliminə hazırlanmasında mühüm rol oynayır.

Didaktik oyunlar öyrənənlərin yaş, intellektual və ümüumiyyətlə, inkişaf səviyyələrinə uyğun şəkildə tətbiq olunması vacib məsələdir. Məşğələlərdə didaktik oyunların bütün növlərindən istifadə edilməlidir.

Təlim zamanı biliyin asan mənimsənilməsini, əşya və hadisələr haqqında düzgün təsəvvürlərin yaranmasında, nitq və təfəkkürün inkişafında, biliklərin uzun müddət hafizədə qalmasında, məşğələnin maraqlı keçməsində uşaqların fəallığını təmin etmək üçün didaktik oyunlar əvəzedilməzdir. Lakin təlim prosesi zamanı bir sıra səhvlərə də yol verilir. Təlim zamanı buraxılan səhvlər, eləcə də uşaqların emosional narahatlığı idrak fəaliyyətini və idrak prosesini artırmağa imkan vermir.

Bütün bunları ümüumiləşdirərək onu qeyd edə bilərik ki,didaktik oyun uşağın zehni tərbiyəsinin mühüm vasitəsidir. Didaktik oyunun əhəmiyyəti ondan ibarətdir ki, o, uşaqların təfəkkürünün və nitqinin müstəqilliyini və fəallığını inkişaf etdirir. Didaktik oyunlar məktəbəhazırlıq qruplarında kommunikativ bacarıqların formalaşdırılması vasitəsi kimi oyunun ənənəvi olaraq uşaqlıq dövrü ilə əlaqəli olması səbəbindən bu gün xüsusilə aktualdır

**Ədəbiyyat:**


1. Əliyeva Ş.Q. Məkətəbəqədər təhsilin aktual problemləri. Bakı:Elm, 2010, 283 s.
2. Sadıqova T.B. Uşaqlann məktəb təliminə hazırlanmaları prosesində didaktik oyunlardan istifadənin imkan və yolları. Ped.elm.nam.dis. Bakı,006, 159 s.
3. https://tierient.com/didaktik-oyun-tuerleri/ - didaktikoyuntürleri 2022.


## VIII SİNİF ŞAGİRDLƏRİNİN BİLİK VƏ BACARIQLARININN İNKİŞAFINDA FİZİKANIN TƏDRİSİNİN KİMYA İLƏ İNTEQRASİYASINDAN İSTİFADƏ TEXNOLOGİYASI


**Yunusova Lalə Vahid qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*muttalibova997@gmail.com*
**Elmi rəhbər: prof. İsa İsmayılov**



***Açar sözlər:*** *fizika, kimya, inteqrasiya, maddə, atom, molekul, yanma*
***Ключевые слова****:физика, химия, интеграйия, материя, атом, молекула, горение*
***Key words:****physics, chemistry, integration, matter, atom, molecule, combustion*



**Резюме**

В современной науке все отчетливее становится взаимосвязь двух основных тенденйий ее развития: интеграйии и дифференйиайии научных направлений и соответствующих им учебных дисйиплин. Поэтому важно показать, что решение стоящих перед обществом проблем требует привлечения знаний из разных областей науки. Это можно сделать с помощью межтематических ссылок. На уроках, интегрированных в систему школьного образования, можно сформировать в сознании учащихся йелостную и неделимую картину мира, направить учащихся на развитие. Интеграйия создает структурные связи между всеми компонентами содержания обучения.

**Summary**

In modern science, the interrelationship of two main trends in its development is becoming increasingly clear: the integration and differentiation of scientific fields and their corresponding academic disciplines. Therefore, it is important to show that the solution of the problems facing society requires the involvement of knowledge from different fields of science. This can be done using inter-subject links. In the lessons integrated within the school education system, it is possible to form a whole and indivisible image of the world in the minds of students, to direct students to development. Integration builds structural connections between all content components of learning.

Hazırda məktəb təhsil sistemində kurikulumun tələbləri əsasında keçirilən dərslərdə müasir tələblərin yerinə yetirilməsi, xüsusəndə motivasiya mərhələsinin düzgün qurulması fizika müəlli-mindən yüksək səriştəlilik tələb edir. Bu baxımdan müxtəlif fənlər arasında xüsusən də fizika və kimya fənləri arasında əlaqənin yaradılmasını tələb edən mövzuların tədrisində motivasiyanın yaradılması elmi-texniki və həyati nümunələrə istinad edildiyindən bəzi fizika müəllimləri bu sahədə müəyyən çətinliklərlə rastlaşırlar. Belə olan halda, şagirdlər mövzuda verilmiş anlayışları bir-birindən asılı olmayan informasiyalar şəklində öyrənəcək və onlar fənlər arası mənalı bir əlaqə quraraq sistemli biliklərə yiyələnməkdə çətinlik çəkəcəklər. Buna görə də bir sıra anlayışların daha asan başa düşülməsi üçün inteqrasiya olunmuş tədris yanaşmasından istifadə etmələri fizika müəllimləri üçün daha faydalı hesab olunur.

Fizika bütün təbiət hadisələrinin xüsusiyyətlərini öyrənir və digər elmlərdən fərqli olaraq öz daxilində bütün fənlərlə birmənalı əlaqə yaradır. Fizika ilə kimyanın inteqrasiyası da elə bu prinsiplərə əsaslanır. Məhz buna görədə fizikanın tədrisində ən yeni təlim texnologiyalarının istifadə etmək daha məqsədə uyğundur. Təlimdə inteqrasiya iki baxımdan çox əhəmiyyətli hesab olunur. Bunlardan biri, şagirdlərdə ətraf aləm haqqında tam təsəvvür yaradılır (burada inteqrasiya məqsəddir). İkincisi isə, fənn üzrə biliklərin əlaqələndirilməsi üçün ümumi müstəvinin yaranmasına xidmət göstərir (burada inteqrasiya vasitədir).

Təbiətdə baş verən prosesləri düzgün dərk etmək və əməli fəaliyyətdə düzgün qərar çıxartmaq üçün bilgilərin bütövlüyünə (tamlığına) böyük ehtiyac var. Bu ehtiyacı ödəməyin ən doğru yolu inteqrasiyadır.

Fizika ilə kimya fənlərinin inteqrasiyasının nə qədər faydalı oldupunu fizika dərs mövzusu <u>*Yanacağın yanma istiliyi*</u> nümunəsi əsasında izah edə bilərik:

Dərsin ilk maraqoyatma mərhələsində müəllim şagirdlərə bu cür suallar yönəldə bilər: *Yanacaq dedikdə nə başa düşürsünüz? Məişətdə, istehsalat və texnikada hansı yanacaqlardan istifadə olunur?*. Nə üçün eyni kütləli müxtəlif növ yanacaq tam yandıqda onlardan fərqli miqdarda istilik ayrılır? (şəkil.1)




Şəkil1.

Şagirdlər bu suallara cavab tapmaq üçün əvvəlcədən əldə etdikləri biliklərdən istifadə etməyə çalışacaqlar. Bunun üçündə daha öncədən kimya dərsində əldə etdikləri biliklərdən istifadə edəcəklər. Şagirdlər VII sinif kimya dərsindən bilirlər ki, yanma prosesi oksigenin yanar maddələrlə qarşılıqlı təsiridir. Maddələrin oksigenlə qarşılıqlı təsiri zamanı çoxlu miqdarda istilik və işıq ayrılması ilə gedən reaksiyalara yanma reaksiyası və ya, sadəcə, yanma deyilir. Yanma reaksiyaları sürətlə gedən oksidləşmə prosesidir. Onlara artıq məlumdur ki, istilik enerjisi almaq üçün müxtəlif yanacaq növlərindən istifadə edilir. Bu yanacaq növləri aqreqat hallarina görə bərk maye və qaz halında ola bilər.Bu mövzuda *Q - yanacağın yanma istiliyi, m - yanacağın kütləsi, q — yanacağın xüsusi yanma istiliyi haaqında məlumat verilir. İzah edilir ki,* ***yanacağın yanma istiliyi yanacağın tam yanması zamanı ayrılan enerjiyə deyilir. Yanacağın yanma istiliyinin nədən asılı olduğu araşdırılır.*** Yanacağın xüsusi yanma istiliyinin fiziki mahiyyəti izah edilir və yanacağın yanma istiliyinin düsturu bu şəkildə verilir:

$$Q = qm \text{ burada } q = \frac{Q}{m}$$

Bu izah edilən məlumatlardan istifadə edərək şagirdlər maddələrin xüsusi yanma istiliyindən istifadə edərək həmin maddələrin xüsusi yanma istiliyini hesablaya bilirlər. Həmin mövzunun sonunda şagirdlər yanacağın tam yanması zamanı ayrılan enerjinin nədən asılı olduğunu izah edə bilirlər və "xüsusi yanma istiliyi" anlayışının fiziki mahiyyətini izah edib ona aid məsəslə həll edə bilirlər.

Yuxarıda yazılanlar ilkin olaraq müəllim tərəfindən izah olunaraq dərk edilir, lakin bir çox hallarda şagirdlər bunları bəzən tam dərk edilmir. Bunun səbəbi prosesin vizual olaraq tam təzahür etməməsidir. Bu baxımdan kimya dərsində verilmiş elmi məlumatları izah etməklə biz yaranmış problem aradan qaldıra bilərik. Kimyadan qazanılmış biliklərdən istifadə etməklə biz bu mövzunu aşağıdakı formada izah edə bilərik. Qeyd edilir ki, yanacağın yanması onun tərkibində olan atomların birləşməsi zamanı ayrılan prosesdir. Yanma prosesinin oksigenin yanar maddələrlə qarşılıqlı təsirinə əsaslandığı qeyd edilir.

VII sinif kimya dərsində keçirilən *"Oksigenin kimyəvi xassələri"* və "*Yanma. Yanacaqların səmərəli yandırılması"* dərslərindən istifadə edərək izah edilir ki yanacağın tərkibində olan karbon ilə oksigen atomları birləşərək karbon dioksid molekulu əmələ gəlir və bu zaman enerji ayrılır. Maddələrin oksigenlə qarşılıqlı təsiri zamanı çoxlu miqdarda istilik və işıq ayrılması ilə gedən reaksiyalara yanma reaksiyası və ya, sadəcə, yanma deyilir. Aqreqat halına görə yanacaqlar: bərk, maye və qaz halında olur. Bərk yanacaqlara kömür (daş kömür, antrasit, boz kömür), torf, yanar şirstlər və odun; maye yanacaqlara, əsasən, neft məhsulları—benzin, kerosin (ağ neft), qazoyl, mazut; qaz yanacaqlarına isə təbii qaz (metan), neftlə birlikdə çıxan qazlar (propan, butan və s.) və başqaları aiddir. Yanacağın dəyəri onun **istiliktörətmə qabiliyyəti** ilə müəyyən olunur. 1 kq yanacaq yandırıldıqda ayrılan istiliyin miqdarı (kC-la) onun istiliktörətmə qabiliyyəti adlanır.

Bütün bu materiallardan kompleks istifadə etməklə həm fənlər arası inteqrasiyanı, həmdə düzgün motivasiyanın qurulmasını həyata keçirə bilərik ki, bu da sonda şagirdlərdə sistemli bilik, bacarıq və vərdişlərin formalaşmasını təmin edəcəkdir.

**Ədəbiyyat:**


1. Abbasov M., Abbasov V., Abışov N., Əliyev V. Kimya. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, 2019
2. Əlizadə Ş.H., İsmayılov İ.N. Fizikanın tədrisi metodikası. Bakı 2018.
3. İmanov S.Ş. Orta məktəbdə fizikanın tədrisi metodikası. Bakı 2004
4. M.Murquzov, R.Abdurazaqov, R.Əliyev, D.Əliyeva. Fizika. Ümumtəhsil məktəblərin VI sinfi üçün dərslik. Bakı 2019.

5. M.Murquzov, R.Abdurazaqov, R.Əliyev, D.Əliyeva. Fizika. Ümumtəhsil məktəblərin VIII sinfi üçün metodik vəsait. Bakı 2019.
6. M.Murquzov, R.Abdurazaqov, R.Əliyev, D.Əliyeva. Fizika. Ümumtəhsil məktəblərin VIII sinfi üçün dərslik. Bakı 2019.
7. Gülər Hüseynova. Kurikulum və Pedaqogika, Bakı-2019

## HƏNDƏSƏ ELEMENTLƏRİNİN ORTA MƏKTƏBİN RİYAZİYYAT KURSUNDA ROLU VƏ YERİ

**Uluxanova Telli İlyas qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*tuluxanova@gmail.com*

Təhsil sisteminin inkişafının indiki mərhələsində orta məktəb yeni tədris planı və proqramları kurikulumla işləməyə keçmişdir. Həndəsə materiallarının yeni proqrama daxil edilməsi ənənəvi məqsəd və vəzifələrdən çox kənara çıxır, belə ki, başlıca olaraq məktəbliləri həndəsi kəmiyyətlərin ölçülməsilə tanış edirdi və orta məktəb tərəfindən də möhkəm mənimsənilmişdir. Yeni proqramda (kurikulumda) riyaziyyatın öyrənilməsində həndəsə materiallarının da rolu artmışdır. Bu yalnız məktəblilərə böyük miqdarda həndəsi fiqurlarla tanış etmək deyil, həm də bu fiqurların xassələri və fiqurların münasibəti, real aləmin həndəsi formaları ilə də tanış olmasının təmin olunmasıdır.

Qeyd edilənlər hər bir riyaziyyat müəllimləri üçün böyük əhəmiyyət daşıdığından onların daha dərin riyazi hazırlığında, riyaziyyatın perspektiv tədrisində başlıcasını ayırmağa, ikinci dərəcəli əhəmiyyət daşıyan çalışmaların həlli ilə təlimin yüklənməsindən kənarlaşmağa imkanlar yaradır. Ən başlıcası isə öyrətmə metodikasının təkmilləşdirilməsində müəllimlərin yaradıcı axtarışları üçün ilkin şərtdir.Bu məqsədlə biz həndəsə elementlərinin orta məktəbin riyaziyyat kursunda yeri və rolu üzərində dayanmağı və bu məsələni tədqiq etməyi zəruri sayırıq.

Həndəsə çox qədim elmdir. Bu elmin tarixi insan mədəniyyətinin tarixi qədər qədimdir. Bu elm özünün birinci inkişaf pilləsində (Qədim Misir, Assuriya, Babilistan) təcrübi, empirik xarakterli olmuşdur. Bu dövrdə həndəsə təcrübə ilə əldə edilmiş bir sıra qaydalardan ibarət idi.

Həndəsə fəzanın müəyyən dəyişilməz (zamandan asılı olmayan) forma və xassələrini öyrənir. Həndəsədə bu barədə xüsusi olaraq göstərilir ki, ilkin olaraq torpaq sahələrinin ölçülməsi haqqında elm kimi meydana çıxmışdır. Başqa təbiət elmləri kimi (biologiya, kimya, fizika və s.) həndəsə də özünün inkişafının birinci pilləsində ətraf fəzanın xassələrini xarakterizə edən faktların toplanması ilə məşğul olmuş, bu faktlar arasındakı münasibət tədqiq edilmiş, ortaya çıxan, aşkar edilən qanunauyğunluqlar müəyyən edilib və ümumiləşdirilmişdir.İnsan öz praktik fəaliyyəti ilə əlaqədar olaraq əşyaların formalarını öyrənir.

Həndəsədə qəbul edilmiş terminologiyalar şahidlik edir ki, həndəsi anlayışlar real əşyaların mücərrədləşdirilməsi yolu ilə yaranmışdır. Böyük rus riyaziyyatçısı N.İ. Lobaçevski göstərirdi ki, məs. “nöqtə” sözü qaz lələyinin iti kəsilmiş ucudur. Bunun kimi düz xəttində “ linum” – xətt sözünün mənşəyindən yaranıb.

Digər təbiət elmlərindən fərqli olaraq həndəsə sadə olub, faktların və münasibətlərin sadəliyi ilə fərqlənir. Bu fərq özünü hadisələrin tərəflərinin keyfiyyət baxımından öyrənilməsilə biruzə çıxır.Məhz bu vəziyyətə görə, aşkardır ki, həndəsədə başqa təbiət elmlərindən əvvəl ən rasional tədqiqat metodu olan–deduksiya tətbiq edilmişdir.Deduktiv metodun imkanlarından istifadə sürətlə ona gətirdi ki, insanların hiss etdikləri əlaqələr tədricən həndəsənin bir müddəasından digərinə məntiqi nəticələr çıxarmaqla keçməyə şərait yaratdı.

Tədricən həndəsi teoremlər haqqında anlayışlar və onların isbatı, əsas müddəaları, onlardan da digərlərinin çıxarılışları, yəni həndəsənin aksiomları aydın əksini tapmış olur.

Beləliklə, bunların nəticəsində həndəsə sadə faktlar məcmuindən düzgün riyazi nəzəriyyəyə çevrilmiş oldu. Həndəsə 2500 il bundan əvvəl əsas müddəaları ilə riyazi nəzəriyyə kimi formalaşdı. Akademik A.D.Aleksandrovun sözləri ilə desək qədim yunan alimi Evklidin "Əsaslar"ında (b.e.ə.III əsr) həndəsə elə gözəl bir sistemdə verilmişdi ki, N.İ.Lobaçevskiyə kimi bir neçə min ildə ona heç nə əlavə etmək mümkün olmamışdır. N.İ.Lobaçevskinin kəşfindən sonra Avropanın bir sıra böyük riyaziyyatçıları müasir səviyyədə "Həndəsə əsasları" yazmaq cəhdində oldular. Bu sahədə XIX əsrin sonunda XX əsrin əvvəllərində aparılmış tədqiqatlar və onlardan alınan nəticələr təqdirəlayiqdir. 1899-cu ildə alman alimi D.Hilbertin və 1905-ci ildə isə rus alimi V.Kaqanın "Həndəsə əsasları" kimi fundamental əsərləri elmi nəzəriyyələr cərgəsində öz yerlərini tutdular. Bu əsərlərin hər birində müxtəlif metodlarla Evklid həndə-səsinin müasir səviyyədə elmi əsasları verilir.

İndiki dövrdə həndəsənin həyatın, texnikanın və istehsalatın müəyyən sahələrində tətbiqini tapan digər mühüm sahələri də yaradılmışdır. Bunlara nümunə olaraq qeyri–evklid həndəsəsini (məsələn, Lobaçevski həndəsəsini), analitik həndəsəni, diferensial həndəsəni, proyektiv həndəsəni, tərsimi həndəsəni göstərə bilərik. Bu həndəsələrin heç biri bu və ya digər dərəcədə məktəb həndəsə fənninə kiçik və ya böyük dərəcədə münasibəti olsa da, ancaq onların heç birinin əsasları aşkar şəkildə kursda əksini tapmayıb.Həndəsə elminin yaranması haqqında kiçik tarixi ekskursiyadan aşağıdakı nəticələr çıxara bilərik:

1. Orta məktəbin riyaziyyat təlimində həndəsə elementləri evristik rolu oynayır. Bu ilk növbədə həndəsə elementlərinin real həyata olan münasibətdə özünü göstərir. Orta məktəb şagirdləri isə öz həyatlarının müxtəlif sahələrində həndəsi fiqurlarla rastlaşır, məişətdə isə bu fiqurlardan istifadə edirlər. Bu baxımdan tədris prosesində ibtidai sinif müəllimi qeyd edilmişləri daim diqqətdə saxlamalı və dərsdə onlardan yeri gəldikcə əyani vasitə kimi bu ehtiyat fondundan səmərəli istifadə etməlidir.

2. Orta məktəbin riyaziyyat kursunun əvvəllər "hesab" adlandırıldığı halda, mövcud kurs isə " Riyaziyyat" adlandırılmasının səbəbi bu kursa cəbr və həndəsə elementlərinin daxil edilməsidir. Həndəsə tarixinə aid apardığımız araşdırma göstərdi ki, riyaziyyatın bir elm kimi inkişafında həndəsənin xüsusi yeri və rolu olmuşdur, hətta riyaziyyatdan ilk elmi əsər yunan alimi Evklidin "Başlanğıclar"ı olmuşdur. Bu elmdə istifadə olunan isbat etmə bir metod kimi sonradan riyaziyyatın digər sahələrində də uğurla tətbiq olunmuşdur.

3. Əvvəlki riyaziyyat proqram və dərslikləri işləmiş riyaziyyat müəllimlərinin indiki mərhələdə elmi-pedaqoji səviyyələrinin yüksəldilməsi tədris etdiyi riyaziyyat fənninin, xüsusən onun bir bölməsi olan " Həndəsənin" yaranma tarixi, inkişafını bilməsi və tətbiqi, onların proqramda nəzərdə tutulmuş məzmununun tədrisinə daha dərindən və peşəkar- pedaqoji istiqamətli olacaqdır.

4. Həndəsənin inkişaf tarixinin yolunu bilməklə riyaziyyat müəllimi hər bir fiqur haqqında məlumat verərkən o anlayışın necə yaranması, inkişaf etməsi və indiki məzmununu necə aldığını bilməsi real aləmin dərk edilməsində riyazi metodların rolunu düzgün qiymətləndirmək bacarıqlarını formalaşdırdılar.

## EYNİLİK ÇEVİRMƏLƏRİVƏ HESABLAMALARIN ÖYRƏNİLMƏSİ METODİKASI

**Məmmədova Püstəxanım Rafət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*pustexanimmammadova98@gmail.com*

Eynilik çevirmələri və hesablamalar məktəb riyaziyyat kursunun əhəmiyyətli bir hissəsini təşkil edir və bütün siniflərdə öyrənilir. Hesab əməllərinin xassələrinə əsaslanan eynilik çevirmələri ibtidai təhsil mərhələsində və V-VI siniflərdə öyrənilir. Mürəkkəb eynilik çevirmələri və hesablamalar əsasən VI-XI siniflərdə öyrənilir.

VII sinifdə eynilik, eynilik çevirməsi anlayışları daxil edilir: «Dəyişənlər daxil olan bərabərlik dəyişənlərin bütün mümkün qiymətlərində doğru ədədi bərabərliyə çevirilirsə, onda belə bərabərlik eynilik adlanır»; «ifadəni ona eynilik kimi bərabər olan ifadə ilə əvəz etmək eynilik çevirməsi adlanır». Eynilikləri iki sinfə ayırmaq olar. Birinci sinfə istənilən kommutativ qrupda doğru olan müxtəsər vurma düsturları və istənilən meydanda doğru olan $\frac{ab}{ac}=\frac{b}{c}\ (a \neq 0)$ eyniliyi aid edilir. İkinci sinfə isə hesab əməlləri ilə elementar funksiyaları (və ya onların müxtəlif superpozisiyalarını) bağlayan eyniliklər aid edilir.

Müxtəlif siniflərdən olan çevirmələrin öyrənilməsi metodları bir-birindən çox az fərqlənir.

Riyazi ifadələrin çevirmələrinin öyrənilməsi prosesini aşağıdakı mərhələlərə bölmək olar:

1) cəbrin başlanğıcı mərhələsi;

2) konkret növdən olan çevrilmələri aparmaq bacarıqlarının formalaşdırılması mərhələsi;

3) çevirmə aparmaq bacarıqlarının sistemləşdirilməsi mərhələsi.

Birinci mərhələnin əsas məqsədi şagirdlərin sadə tənliklərin həllini, ifadələrin sadələşdirilməsini, hesablamaları tələb olunan surətdə aparmasına nail olmaqdır. İkinci mərhələnin əsas məqsədi konkret sinifdən olan eynilik çevirmələrinin xarakteristik xüsusiyyətlərinin mənimsənilməsinə və onları tətbiq etmək bacarıqlarının formalaşmasına nail olmaqdır. Üçüncü mərhələnin məqsədi isə şagirdlərə müxtəlif tədris tapşırıqlarını yerinə yetirmək üçün lazım olan çevirmələrin tam və güclü sistemini öyrətməkdir. Eynilik çevirmələrinin öyrənilməsində xüsusi tərtib olunmuş tapşırıqlar sistemi mühüm rol oynayır. Konkret sistemdəki tapşırıqlar bir eyniliyin öyrənilməsinə aid olur. Tapşırıqlar sistemdə çətinliklərin artmasına görə yerləşdirilir. Sistemdəki tapşırıqlar iki qrupa bölünür. Birinci qrupu öyrənilən eyniliyi sadə hallarda tətbiq etməyi tələb edən tapşırıqlar təşkil edir. İkinci qrupa isə öyrənilən eyniliyin müxtəlif situasiyalarda tətbiqini tələb edən tapşırıqlar aid edilir.

Yerinə yetirilmə üsuluna görə hesablamaları şifahi, yazılı və texniki vasitələrin tətbiqi ilə aparılan hesablamalara bölmək olar. Eynilik çevirmələrini isə şifahi və yazılı aparılan çevirmələrə bölmək olar.

Şifahi hesablamaların və çevirmələrin aparılması çox az vaxt tələb edir. Hesablama və ya çevirməni başlamazdan əvvəl aşağıdakıları aydınlaşdırmaq lazımdır:

1) hesablamanın (və ya çevirmənin) yerinə yetirilməsi ardıcıllığını;

2) şifahi aparılacaq hesablamanı (və ya çevirməni);

3) hesablamanı (və ya çevirməni) asanlaşdıran xassəni;

4) nəticəni yoxlamaq qaydasını və s.

Şagirdlərin hesablamaları yerinə yetirmək bacarıqları aşağıdakı əlamətlərlə xarakterizə olunur:

1) ədədi çoxluqlarda təyin olunmuş cəbri əməllərin xassələrini və həmin əməllərin yerinə yetirilməsi qaydalarını bilmək;

2) qoyulmuş məsələrin şərtinə görə verilən kəmiyyətlərin qiymətlərinin dəqiq və ya təqribi olduğunu təyin edə bilmək;

3) yazılı, şifahi və texniki vasitələrdən istifadə etməklə aparılan hesablamaları düzgün əlaqələndirə bilmək;

4) hesablamaları aparmaq üçün ən əlverişli üsulu seçə bilmək;

5) hesablamaları səhvsiz və sürətli apara bilmək;

6) hesablamaların nəticəsini ən əlverişli üsulla yoxlamağı bacarmaq;

7) hesablamalarda tətbiq edilən qaydaları əsaslandırmağı bacarmaq və s.

Qeyd edək ki, hesablamaları və çevrilmələri apara bilmək bacarıq və vərdişlərinin formalaşdırılması da təlimin təhsil, tərbiyə və inkişafetdirmə məqsədlərinin həyata keçirilməsinə xidmət edir.

Eynilik çevirmələrini də yerinə yetirilməsi formasına görə şifahi və yazılı çevirmələrə ayırmaq olur.

Hesablama (və ya eynilik çevirmələri) aparmaq bacarıq və vərdişlərinin formalaşdırılması prosesində şagirdləri aşağıdakı tələblərə əməl etməyə öyrətmək lazımdır:

1) əgər hesablamanı (eynilik çevirməsini) şifahi aparmaq mümkün deyilsə, onda onu yazılı aparmaq üçün optimal üsulun olub-olmadığını müəyyən etmək lazımdır;

2) hesablamanı (çevirməni) şifahi apardıqda cari nəticələri yadda saxlamaq çətin olduqda onları yazmaq lazımdır;

3) hesablamaların (və çevirmələrin) aparılması zamanı hərf və rəqəmləri səliqəli və aydın yazmaq lazımdır;

4) hesablamanı və ya çevirməni yoxladıqdan sonra onun nəticəsini doğru hesab etmək lazımdır və s.

## HƏNDƏSİ ÇEVRİLMƏLƏR VƏ ONLARIN MƏSƏLƏ HƏLLİNƏ TƏTBİQİNİN ÖYRƏDİLMƏSİ METODİKASI

**Nəsibova Aynurə Akif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aynuraa.nasib@gmail.com*

Məlumdur ki, obyektiv aləmin fəza formalarını məktəb illərində ilk dəfə şagirdlərdə yaradan fənnlər içərisində riyaziyyatın mühüm rolu vardır. Riyaziyyatın həndəsə məzmun xəttinin əsas funksiyalarından ən başlıcası aşağı siniflərdən sistematik sadə fəza formalarından başlayaraq, yuxarı siniflərdə daha mürəkkəb fəza fiqurları, onların xassələri, səthi, həcmi və s. didaktik tələbləri yerinə yetirməkdən ibarətdir.

Həndəsə məzmun xətti üzrə öyrədilən həndəsi çevrilmələr və onların tətbiqləri xüsusi bir əhəmiyyət kəsb edir və onun öyrədilməsində, eləcədə mənimsənilməsində müxtəlif metodiki çətinliklər mövcuddur. Bu çətinliklərin aradan qaldırılmasının səmərəli yollarından biri həndəsi çevrilmələrin müxtəlif fənlərdə tətbiqi ilə əlaqəli məsələlərin tədris prosesində nəzərə alınmasıdır. Təbii olaraq elmlər arasındakı qarşılıqlı əlaqələronların əsaslarının ilkin öyrənildiyi tədris fənlərində öz əksini tapmalıdır.

Həndəsi çevrilmələrin müxtəlif növləri, hərəkət, paralel köçürmə, homotetiya, simmetriya, əsasəndə vektorların digər fənlərdə istifadəsi, tətbiqi fənlərarası əlaqə probleminin d-idaktik aspektlərindən biridir. Xüsusilə riyaziyyat və fizika fənlərinin əlaqəsi ümumi-nəzəri, eləcə də elmi-metodik baxımdan üstünlük təşkil edir. Riyaziyyatın fizika fənni ilə dəyişən kəmiyyətlər nöqteyi nəzərdən funksional əlaqəsi ilə yanaşı, həndəsi çevrilmələrlə əlaqəli bir sahələri vardır. Bunlardan bir neçəsini qeyd edək:

1. Simmetriya ideyası molekulyar fizikada kristalların molekul quruluşunu, ontikada müstəvi güzgülərdə təsvirlərin qurulmasını, daha ümumi elmi mülahizələr əsasında öyrənməyə, atom fizikasında isə simmetriyanın tətbiqilə elektron hissəciklərin xassələri ilə tanış olmağa imkan verir.

2. Vektor anlayışı, vektorlar haqqında təlim yerdəyişmə, sürət, təcil və qüvvələrin toplanmasını və çıxılmasını həndəsi olaraq yerinə yetirməyə gətirir.

3. Homotetiya, optika bölməsində müxtəlif güzgü proyeksiyalarının qurulmasında homotetiyanın xassələrindən istifadə və s.

Fizikada sürət, təcil və qüvvə vektorial kəmiyyətlərdir. Uyğun miqyas seçməklə müxtəlif fiziki təbiətli vektorial kəmiyyətləri, həndəsi çevrilmələr olan vektorlarla təsvir etmək olar. Bu halda, vektorial kəmiyyətlərin toplanmasına və ədəd qurulmasına, bu vektorların təsvirlərinin toplanması və ədədə hasili uyğundur.

Vektor kəmiyyətlərin həndəsi vektorlarla təsvir edilməsi miqyasın seçilməsini tələb etdiyini göstərməkdir. Həndəsi vektorun müəyyən uzunluğu var. Sürətin isə özlüyündə uzunluğu yoxdur. Lakin miqyas seçildikdən sonra o, müəyyən uzunluğu olan vektorla təsvir edilir. Sürət və təcilin təsviri üçün müəyyən miqyaslar seçməklə bunları həndəsi vektorlarla təsvir edə

bilərik. Fizikada sadəcə olaraq deyilir ki, sürət və ya təcil vektordur. Məsələn, dəmir rels üzərində bərabər sürətlə irəliləmə hərəkəti qaldırıcı kranın hərəkəti zamanı kranın bütün hissələri eyni bir istiqamətdə yerini dəyişir. Bu hərəkət paralel köçürmə, yəni həndəsi vektordur.

## BƏZİ FUNKSİYALARIN QİYMƏTLƏR ÇOXLUĞU

**Bağırzadə Fatimə Bəxtiyar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*bagirovbextiyar800@gmail.com*

Funksiya anlayışı əsas anlayışlardan biri olmaqla, məktəb riyaziyyat kursunda mühüm yer tutur. Funksiyalar, onların xassələri, qrafiklərinin öyrədilməsinin şagirdlərin riyazi təhsilində, o cümlədən, funksiya xəttinin tənlik və bərabərsizliklərin həllində tətbiqinin mənimsənilməsində əhəmiyyətli rolu vardır.

Funksiya anlayışının araşdırılmasında vacib məsələlərdən biri onun təyin oblastının və qiymətlər çoxluğunun tapılmasıdır. Kəmiyyətlər arasında funksional asılılıqlar müxtəlif olduğundan, hər bir funksiya üçün ayrılıqda təyin oblastı və qiymətlər çoxluğu öyrənilir.

Apardığımız araşdırmalar göstərir ki, funksiyaların təyin oblastının tapılması sahəsində şagirdlər daha çox biliyə malikdirlər. Bu ondan irəli gəlir ki, bəzi funksiyaların təyin oblastının tapılması müxtəlif funksiyalar üçün tənlik və bərabərsizliklər həllinin araşdırılması ilə əlaqədardır. Lakin müşahidələrdən belə nəticə çıxarmaq olar ki, funksiyaların qiymətlər çoxluğunun tapılması sahəsində şagirdlərin bilik və bacarıqları qənaətbəxş deyildir.

Bunun əsas səbəblərindən biri dərsliklərdə bu sahəyə aid nəzəri biliklərin və çalışmalar sisteminin az olması və bəzi müəllimlərimizin bu istiqamətdə şagirdlərdə bilik və bacarıqların formalaşdırılmasına az diqqət yetirməsidir.

Belə ki, müxtəliflik nöqteyi-nəzərdən bəzi funksiyaların qiymətlər çoxluğunun tapılmasında şagirdlərin qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq üçün bəzi xüsusi hallara münasibət bildirməyi məqsədəuyğun hesab edirik. Odur ki, bəzi funksiyaların qiymətlər çoxluğunu nəzərdən keçirək.

$a \neq 0$ olduqda, $y = ax^2 + bx + c$ şəklində olan funksiyaya kvadratik funksiya deyilir. a=1, b=0, c=0 olduqda, kvadratik funksiya $y = x^2$ şəklində olur və $y = x^2$ funksiyasının qiymətlər çoxluğu $E = [0; +\infty)$ olur.

$a \neq 0$; b=0; c=0 olduqda, kvadratik funksiya $y = ax^2$ şəklində olur və $y = ax^2$ funksiyasının qiymətlər çoxluğu a-nın işarəsindən asılı olaraq, dəyişir. $a > 0$ olduqda, $E(y) = [0; +\infty)$ ; $a < 0$ olduqda isə $E(y) = (-\infty; 0]$ şəklində olur.

İndi isə, $y = ax^2 + bx + c$ şəklində olan kvadratik funksiyanın qiymətlər çoxluğuna baxaq. Bu funksiyanın qiymətlər çoxluğu a-nın işarəsindən asılı olaraq, yəni $a > 0$ olduqda, $E(y) = [n; +\infty)$ ; $a < 0$ olduqda, $E(y) = (-\infty; n]$ olur. Burada, n kvadratik funksiyanın təpə nöqtəsinin koordinatlarından biridir. Kvadratik üçhədlinin vuruqlara ayrılmasına əsasən, $y = ax^2 + bx + c = a(x - m)^2 + n$. (m; n) kvadratik funksiyanın qrafikinin təpə nöqtəsinin koordinatlarıdır. $n = \frac{4ac - b^2}{4a}$ düsturu ilə tapılır.

İndi isə, $y = a^{Ax^2+Bx+C}$ şəkilli üstlü funksiyasının qiymətlər çoxluğuna baxaq.

Biz bu funksiyanın qiymətlər çoxluğunun tapılmasında 4 hala baxırıq.

**1-ci hal:** $0 < a < 1;\ A > 0A > 0$ *olduğundan,* $g = Ax^2 + Bx + C$ kvadratik funksiyasının qiymətlər çoxluğu $E(g) = [n; +\infty)$. Onda, $y = a^{Ax^2+Bx+C}$ üstlü funksiyasının qiymətlər çoxluğu $E(y) = (0; a^n]$ olur.

**2-ci hal:** $0 < a < 1;\ A < 0A < 0$ *olduğundan*, $g = Ax^2 + Bx + C$ kvadratik funksiyasının qiymətlər $E(g) = (-\infty; n]$. Onda, $a^{Ax^2+Bx+C}$ üstlü funksiyasının qiymətlər çoxluğu $E(y) = [a^{\dagger}n; +\infty)\dashv$ olacaqdır. **3-cü hal:** $a > 0;\ A > 0A > 0$ olduğundan, $g = Ax^2 + Bx + C$ kvadratik funksiyasının qiymətlər çoxluğu $E(g) = [n; +\infty)$ olur. O zaman $y = a^{Ax^2+Bx+C}$ üstlü funksiyasının qiymətlər çoxluğu $E(y) = [a^n; +\infty)$ olur.

**4-cü hal:** $a > 0;\ A < 0A < 0$ olduğundan, $g = Ax^2 + Bx + C$ kvadratik funksiyasının qiymətlər çoxluğu $E(g) = (-\infty; \vdash n]$ olur. O zaman üstlü funksiyasının qiymətlər çoxluğu $E(y) = (0; \vdash a^{\dagger}n]$ olur.

$y = 5^{x^2-x+3}$ üstlü funksiyasının qiymətlər çoxluğunu tapaq. Burada, $a > 0;\ A > 0$ -dır. $y = x^2 - x + 3$ kvadratik funksiyasında A=1; B=-1; C=3; $n = \frac{4 \cdot 1 \cdot 3 - (-1)^2}{4 \cdot 1} = \frac{11}{4}$. Onda, $E(y) = \left[5^{\frac{11}{4}}; +\infty\right)$ olacaqdır.

## FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ÜSLUBİ İMKANLARI

**Qədirsoy Pərvanə Samәddin qızı**
**Lənkəran Dövlət Universiteti**
*Turane-turan@mail.ru*

Bildiyimiz kimi, söz birləşmələri sabit və sərbəst olmaqla iki yerə bölünür. Onların arasında olan bir oxşarlıq hər birinin söz birləşməsi olmasıdır. Qalan digər məqamlarda sabit və sərbəst söz birləşmələri bir-birindən tamamilə fərqlidirlər. Söz birləşmələri sintaksis bölməsində öyrənilirsə, sabit söz birləşməsi adlandırdığımız frazeoloji birləşmələr, əsasən, leksika bölməsində öyrənilir. Morfologiya bölməsində də frazeoloji birləşmələrdən feil mövzusunun tərkibində, mürəkkəb feil kimi bəhs olunur.

Hər hansı bölmə, yaxud mövzu haqqında məlumat verərkən, ilk növbədə onun məna açılışını qeyd etmək lazımdır. Frazeologiyanın təlimi zamanı da bu sözün, "ifadə" mənasını verən yunan mənşəli "pharis" və "elm" mənasını verən "loqos" sözlərindən yarandığını qeyd etmək lazımdır. Bildirmək lazımdır ki, "ifadə haqqında elm" olan frazeologiya dilimizdə olan elə ifadələri, ibarələri öyrənir ki, onları ayırmaq olmur və onlar bir leksik mənaya malik olur.

Frazeoloji birləşmələrin üslubi imkanları haqqında danışmazdan əvvəl onun aşağı siniflərdən başlayaraq işlənmə dairəsinə baxmaq lazımdır. Onlar haqqında məlumat verərkən, ilk növbədə, belə birləşmələrdə məcaziliyin olmasını qeyd etmək və müqayisələr aparmaqla hansının frazeoloji birləşmə olduğunu müəyyənləşdirmək lazımdır.

Məktəb qrammatikasından fərqli olaraq, elmi qrammatikada frazeoloji birləşmələr yalnız feillərlə məhdudlaşmır. Bir leksik mənaya malik olan, təhlil zamanı parçalana bilməyən ismi frazeologizmlər də vardır ki, bunlar daha çox təyini söz birləşmələrinə bənzəyirlər. Müqayisə üçün bir neçə nümunəyə baxaq:

1. *Çörək ağacı, ana uşağı, dəvəsi ölmüş ərəb* və s.
2. *Çörək ətri, dağ havası* və s.

Bu nümunələrin arasında formaca fərq yoxdur, hər biri təyini söz birləşməsi şəklindədir. Lakin biz bilirik ki, təyini söz birləşmələri sərbəst birləşmələrdir və tərəflərinin ayrı-ayrılıqda mənası vardır. Birinci sırada verilən nümunələr isə təyini söz birləşmələrindən fərqli olaraq, bir leksik mənaya və məcaziliyə malikdirlər ki, bunlar da frazeologizmlərə xas olan xüsusiyyətlərdir. Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz əvvəlki mənalarından uzaqlaşaraq tamamilə yeni və fərqli bir məna kəsb edir və bu sözlər birləşmənin leksik-semantik ünsürlərinə çevrilmiş olur, bir leksik vahid kimi çıxış edirlər. Feili frazeoloji birləşmələrlə

feili birləşmələr də formaca eynidirlər, lakin ikincilərin əsas və asılı tərəfləri olduğu halda, birincilər bir leksik mənaya malik olduqları üçün əsas və asılı tərəflərə malik deyillər, yəni biri digərinə tabe deyil. Nümunələrə nəzər yetirək:

*1. Su tökmək, kitab almaq, yoldan keçmək, evə gəlmək, ip çəkmək, su vermək.*

*2. Dil tökmək, intiqam almaq, ürəyindən keçmək, dilə gəlmək, dərd çəkmək.*

Gördüyümüz kimi birinci sıra sərbəst, ikinci sıra isə sabit birləşmələrdən ibarətdir. Sərbəst birləşmələrin tərkibində verilən *tökmək, almaq, keçmək, gəlmək, çəkmək, vermək*sözləri sabit birləşmələrin tərkibində öz həqiqi mənalarından uzaqlaşmış və yeni, məcazi, vahid leksik məna qazanmışlar.

Sərbəst birləşmələrlə sabit birləşmələrin fərqini izah edərkən onu da qeyd etmək lazımdır ki, sabit birləşmələri bir sözlə əvəz etmək olur, sərbəst birləşmələri isə bir sözlə əvəz etmək mümkün deyildir. Başqa bir fərq isə ondan ibarətdir ki, frazeoloji birləşmələr sərbəst söz birləşmələrindən fərqli olaraq bütöv şəkildə sintaktik təhlilə cəlb olunur. "Cümlələr üzərində sintaktik təhlil aparmaqla bir daha şagirdlərdə belə bir qənaət möhkəmləndirilməlidir ki, frazemi yaradan sözlərin ümumi mənalarının cəmi frazeoloji vahidin tam ümumi mənasına bərabər ola bilməz və frazeoloji birləşmə birlikdə cümlənin bir üzvü olur " (1,191).

Frazeoloji birləşmələr üslubi imkanlarının genişliyi ilə də seçilir. Belə birləşmələr məcazi mənaya malik olduqları üçün söz sənətkarlarının yaradıcılığında dil materialı kimi mühüm əhəmiyyət kəsb edirlər. İstənilən bədii mətnin tərkibində frazeoloji birləşmələrdən istifadə etməklə həmin mətni daha ekspressiv etmək olar. Yaxud, frazeoloji birləşmələrin iştirak etdiyi mətnlərin üslubunu şagirdlər asanlıqla müəyyənləşdirə bilərlər. Frazeoloji birləşmələr bədii mətnlərdə üslubi tapıntılar üçün əsas mənbə rolunu oynayır. Ona görə də ədəbiyyatşünaslar frazeoloji birləşmələri obrazlılıq vasitəsi kimi qiymətləndirirlər. Atalar sözlərinin, hikmətli sözlərin, aforizmlərin, qanadlı ifadələrin yaranmasında da frazeoloji birləşmələrin rolu vardır. "Frazeoloji vahidlər zəngin semantik üslubi xüsusiyyətlərlə çıxış edir, düşdüyü kontekstdə təsvir və tərənnüm obyektini təsirli poetik vüsətlə canlandlrır"(2,388).

Frazeoloji birləşmələr yazıçının dil sənətkarlığını öyrənmək baxımından da xüsusi əhəmiyyətə malikdir. Belə ki, frazeologizmləri bədii dilin üslubi imkanları baxımından tədqiq etmək və araşdırmaqla yazıçının, şairin, ümumiyyətlə, söz sənətkarlarının dil-üslub xüsusiyyətlərini müəyyənləşdirmək olar.

Frazeoloji birləşmələrin şeir və ya nəsr mətnlərində işlənməsi onlara zahiri gözəllik gətirmək məqsədi ilə deyildir. Doğrudur, dilin estetikasının da təzahürü kimi düşünmək olar, lakin onlar daha çox daxili mənanın, mahiyyətin, obrazlılığın mövcudluğu, göstəricisi kimi mətnlərə daxil edilirlər. İstər yazılı, istərsə də şifahi ədəbiyyatda obrazlılıq yaradan frazeoloji birləşmələrə çox rast gəlmək olar.

*Əzizim hər ayından,*
*El yatmaz harayından,*
*Gündə bir kərpic düşür*
*Ömrümün sarayından.*

Şifahi xalq ədəbiyyatı nümunəsi olan bu bayatıda frazeoloji birləşmənin obrazlılıq, ekspressivlik yaratdığını görmək olar. Aşağıdakı nümunə isə N.Kəsəmənlinin "Buluddan yuxarı" şeirindəndir və şair şeirdə "Göydə əlimə düşmüsən" frazemini məharətlə işlətmişdir:

*Danışdıq ömürdən olub keçəni,*
*Sən bahar soraqlı qarlı qışmısan?*
*Yerdə axtarırdım axı mən səni,*
*Neyləyim, əlimə göydə düşmüsən.*

"Frazeoloji birləşmələrin fundamental yaradıcılıq prosesindəki üslubi vəzifələrindən biri də konkretlik, müəyyənlik yaratma vasitəsidir, aydın müəllif mövqeyinin ifadəçisi olmasıdır" (3,29).

Frazeoloji birləşmələr öz əvvəlki mənalarından uzaqlaşsalar belə, yeni kontekstdə konkretlik qazanaraq aydın məna ifadə edə, obraz bolluğu yarada bilirlər. Ümumilikdə frazeoloji

birləşmələr bədii təsvir və ifadə vasitələrinin yaranmasında birbaşa iştirak edir. Deməli, frazeoloji birləşmələrin üslubi imkanları çox genişdir və dil təlimində buna ciddi yanaşmaqla şagirdlərin bədii təfəkkürünü, nitq qabiliyyəti formalaşdırmaq mümkündür.

**Ədəbiyyat:**


1. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı, 2015, 286 s.
2. H.Balıyev, A.Balıyev. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014, 380 s.
3. M.Hüseynov. Dil və poeziya. Bakı, 2008, 433 s.
4. M.Hüseynov. Poetik frazeologiya. Bakı, 2003, 166 s.


## X SİNİFDƏ KOMBİNATORİKA ELEMENTLƏRİNİN TƏDRİSİ HAQQINDA


**Məmmədzadə Gülşən Mehman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gulsenm321@gmail.com*


Təhsilin islahatlar nəticəsində yeni məzmuna keçməsi tədris prosesində qarşıya müəyyən çətinliklərin çıxmasına səbəb olur. Bu onunla əlaqəlidir ki, kurikuluma daxil olan yeni anlayışların birdən-birə lazımi səviyyədə mənimsəmə səviyyəsinin qənaətbəxş olmamasıdır. Bu isə doqquzuncu sinifə qədər əsası qoyulmuş materiallarla əsaslandırılmalıdır. 9-cu sinfin riyaziyyat dərsliyində təkrar üçün materiallar yeni mövzularla üzvü surətdə əlaqələndirilir, yəni artıq məlum olan ifadələr, təriflər dəqiqləşdirilir, yeni simvollar daxil edilir.

Son illərdə məktəb riyaziyyat kursuna yeni anlayışlar daxil edilmişdir ki, bu anlayışların bəziləri doqquzuncu sinif riyaziyyat dərsliyinə daxil edilmişdir. Bu anlayışlardan ən əsası mövcud tələbatdan irəli gələrək daxil edilmiş kombinatorika elementləridir. Müasir dərsliklərdə çoxluq, onun elementləri və s. anlayışları şagirdlərə aşağı siniflərdən məlum olsa da, n sayda elementli çoxluğun k sayda elementlərinin yerdəyişmələrinin sayı, yəni düzülmə sırasına görə mümkün variantların sayı ${}_nP_n$ permutasiyalar şagirdlərin başa düşəcəyi şəkildə şərh edilmişdir. Eləcə də, n elementli çoxluğun k sayda elementli nizamlı alt çoxluqlarının sayının təyini, yəni permutasiyanın yerləşdirilməsi– aranjemanların, yaxud onun yeni simvolu ${}_nP_k$ ilə işarələnməsi şagirdlərin başa düşə biləcəyi səviyyədə verilmişdir. Çoxluğun elementlərinin hansı ardıcıllıqla düzülüşünün və seçilməsini zəruri edən seçimlərin isə kombinezonlarla ifadə olunması məqsədəuyğun şəkildə verilmişdir.

Şagirdlər kombinatorika elementlərinin mahiyyətini mənimsədikdən sonra permutasiyaların, aranjemanların və yaxud kombinezonların sayı haqqında ümumiləşdirmələri bacarmalı, onlara aid düsturları bilməlidirlər. Şagirdlər faktorial daxil olan ifadələri bacarmalıdırlar. Xüsusilə n sayda ardıcıl natural ədədin hasilinin faktoriallarla faktorial şəkildə göstərməyin mümkünlüyünü mənimsəmək zəruridir.

Kombinezonların xassələrinin mənimsənilməsi xüsusilə sadə $C_5^2 = C_5^3$ və s. bərabərliklərin doğruluğunu göstərdikdən sonra $C_n^m + C_n^{m+1} = C_{n+1}^{m+1}$ eyniliyinin isbatı əhəmiyyət kəsb edir. Birləşmələrə aid hesablama düsturları və xassələrinin tətbiqilə kombinator tənlik və bərabərsizliklər həll edilir. Bu eyni zamanda gələcəkdə keçirilən bəzi anlayışların, məsələn Nyuton binonun və s. öyrədilməsində mühüm rol oynayır.

Fikrimizi aşağıdakı misal həlli nümunəsi üzərində izah edək:

$C_{n+1}^{m+1} : C_{n+1}^{m} : C_{n+1}^{m-1} = 5 : 5 : 3$ olduğunu bilək. m və n-i tapın.

Həlli: Hər bir nisbəti ayrı-ayrı hesablayaq, yəni birinci həddin ikinci həddə və ikinci həddin üçüncü həddə nisbətini tapaq və ixtisarları etsək

$$\frac{(n+1)!}{(m+1)!\,(n-m)!} : \frac{(n+1)!}{m!\,(n-m+1)!} = \frac{n-m+1}{m+1}$$

$$\frac{(n+1)!}{m!\,(n-m+1)!} : \frac{(n+1)!}{(m-1)!\,(n-m+2)!} = \frac{n-m+2}{m}$$

Məsələnin şərtində verilən nisbətlərə uyğun

$\frac{n-m+1}{m+1}$ =1 və $\frac{n-m+2}{m}$ = 2

tənlikləri alarıq. Bu tənlikləri sistem kimi həll edib m=3 və n=6 olduğunu alarıq.

## MƏKTƏB RİYAZİYYAT KURSUNDA KƏSR RASİONAL İFADƏLƏRİN ÇEVRİLMƏSİNİN TƏTBİQİNİN YERİ VƏ ROLU

**Qasımova Ramella Aqil qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ramellaq@gmail.com*

Orta məktəb riyaziyyat kursunda öyrədilən tənliklər və bərabərsizliklər arasında kəsr rasional tənlik və bərabərsizliklərin özünəməxsus yeri vardır. Bu yer ilk növbədə ondan ibarətdir ki, bu cür tənliklərin həllinə qədər ki mərhələdə, şagirdlərin həll etdikləri tənliklərin hamısının, müəyyən bir həll alqoritmi vardır. Xətti kvadrat tənliklər və s. buna nümunə ola bilər. Kəsr rasional tənlik və bərabərsizliklərin həll yolu isə, şagirdlərə birdən-birə deyil müəyyən bir ardıcıllıqlarla tədris edilir. Bu tip tənliklərin həlli VIII sinifdən etibarən şagirdlərə tədris olunur. Ancaq onun tədrisinə qədər rasional cəbri kəsrlər və onların xassələri, onlar üzərində əməllər, həmçinin kəsrin ixtisarı, habelə, rasional ifadələrin eyniliklə çevrilməsinə lazımı qədər yer ayrılır. Kəsr rasional ifadələrin çevrilməsinin tədrisinə isə daha geniş yer verilir. Bu tip çevrilmənin incəliyi ondan ibarətdir ki, kəsr rasional ifadələrin surət və məxrəcini tam ifadə olan kəsr şəklində göstərmək mümkün olsun. Dərslikdə, kəsr rasional ifadələrin eyniliklə çevrilməsinin şagirdlərə mənimsədilməsi üçün kifayət qədər, müxtəlif çətinliklərdə çalışmalar həll edilir.

Kəsrlər və onlar üzərindəki əməllər şagirdlərə tədris olunarkən dərslikdə elə tənliklərə baxılır ki, bu tənliklərin məxrəcində dəyişəni olan kəsr ifadələr iştirak etsin. Bu tip tənliklərin həll prosesində, rasional kəsrlərin xassələri, həmçinin, kəsrin sıfıra bərabər olması üçün zəruri və kafi şərtlərə baxılır. Xüsusilə, məxrəcində dəyişən iştirak edən tənliklərin həlli prosesində, kəsrin sıfıra bərabər olması üçün zəruri və kafi anlayışı daha çox istifadə edilir. Bu baxımdan $P(x)$ və $Q(x)$ rasional ifadələr olduğu halda $\frac{P(x)}{Q(x)} = 0$ şəklində olan tənliklərin həllinin olmasının öyrənilməsi mövzunun lap əvvəlində aydınlaşır.

$VIII$ sinif dərsliyində kəsr rasional tənliklərin həllinin daha genişlənmiş variantına baxılır və yuxarı siniflərdə isə artıq bu üsullar tədricən şagirdlərə mənimsədilir. Həmçinin, onu da vurğulayaq ki, yuxarı siniflərdə öyrədilən cəbri və transendent tənliklərin həlli prosesində kəsr rasional tənliklərlə şagirdlər tez-tez qarşılaşırlar. Onu da qeyd etmək lazımdır ki, bu tip bütün tənliklərin özünəməxsus həll yolu olmasına baxmayaraq, onların həll prosesində, kəsr rasional tənliklərin həlli üçün istifadə olunan ümumi prinsiplər gözlənilir. Aşapıda verilmiş kəsr rasional tənliklərin həllini nəzərdən keçirək.

1) İlk olaraq, $\frac{2n}{n-1} + \frac{n-5}{n^2-1} = 1$ tənliyinin həllinə baxaq. $n \neq \pm 1$ , DMQ şərtini qeyd etməklə tənliyin hər iki tərəfini $(n-1)(n+1)$ -ə vuraq. Onda $2n(n+1) + (n-5) = (n+1)(n-1)$ ifadəsini alırıq. Mötərizələri vurub açsaq: $2n^2 + 2n + n - 5 = n^2 - 1$ alarıq, burdan da $n^2 + 3n - 4 = 0$ tənliyini almış oluruq. $n^2 + 3n - 4 = (n+4)(n-1)$ olduğundan, deməli, $(n+4)(n-1) = 0$ . Tənliyin köklərinin

$n=-4, n=1$ olduğunu alırıq. DMQ şərtinə görə $n=1$ tənliyi mənasız edən qiymətdir və köklərinə daxil deyil. Cavab: $n=-4$

2) $x/(x+2)+(x+1)/(x+5)-(7-x)/(x\uparrow 2+7x+10)=0$ tənliyinə baxaq.

$x+2\neq 0 \Rightarrow x\neq -2, x+5\neq 0 \Rightarrow x\neq -5, x^2+7x+10\neq 0 \Rightarrow (x+2)(x+5)\neq 0 \Rightarrow x\neq -2, x\neq -5,$

DMQ şərtini qeyd etməklə, $\frac{x}{x+2}+\frac{x+1}{x+5}-\frac{7-x}{(x+2)(x+5)}=0$ tənliyinin hər iki tərəfini $(x+2)(x+5)$ -ə vuraq. Onda $\frac{x(x+2)(x+5)}{x+2}+\frac{(x+1)(x+2)(x+5)}{x+5}-\frac{(7-x)(x+2)(x+5)}{(x+2)(x+5)}=0$ tənliyini alırıq. Və bu tənlikdə məlum ixtisarları aparsaq, aşapıdakı kimi tənlik alırıq: $x(x+5)+(x+1)(x+2)-7+x=0$. Mötərizələri vurub açsaq və uypun hədləri toplasaq, $2x^2+9x-5=0$ şəkilində bir kvadrat tənlik almış oluruq. Bu tənliyi isə köklər düsturu vasitəsilə həll edək. Bunun üçün $D$ diskrimnatı tapaq: $D=81+40=121$. $x=\frac{-b\pm\sqrt{D}}{2a}$ düsturuna əsasən, tənliyin kökləri $x_{1;2}=\frac{-9\pm 11}{4}\Rightarrow x_1=-5, x_2=\frac{1}{2}$. DMQ şərtinə görə $x_1=-5$ tənliyi mənasız edən qiymətdir və köklərinə daxil deyil. Cavab: $x_2=\frac{1}{2}$

## MƏKTƏB RİYAZİYYAT KURSUNDA VEKTOR ANLAYIŞININ YERİ VƏ ƏHƏMİYYƏTİ

**Süleymanova Rəhimə Valeh qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*1srehime@gmail.com*

Riyazi üsullarla həll ediləcək yeni məsələlər, problemlər çox vaxt qeyri-riyazi sahələrdə yaranır. Kimya, biologiya, fizika və s. kimi sahələrdə nəticələr çox vaxt riyaziyyat vasitəsi ilə həll edilməli olan ədədi məlumatlara əsaslanır. Müasir dövrümüzdə elm və texnikanın inkişafı ilə əlaqədar olaraq riyaziyyat və onun tətbiq sahələri daim inkişaf edir. Riyaziyyatın çox böyük tətbiqi əhəmiyyətə malik olan sahələrindən biri də vektorlar nəzəriyyəsidir.

"Vektorlar" müxtəlif dövrlərdə həmişə aktual olmuşdur. Bir çox fizik, riyaziyyatçı və metodist (K.Vessel, R.Dekart, J.Arqan, Z.A.Skopets, A.N.Kolmoqorov, A.D.Aleksandrov, V.A.Qusev, Yu.M.Kalyagin, T.A.İvanova) bu mövzunu diqqətdən kənarda qoymamışdır. Hal-hazırda vektor anlayışının tərifinə bir neçə yanaşma mövcuddur. Şagirdlərə vektorları və xüsusən vektor metodunu öyrətmək üçün özəl metodlar işlənib hazırlanmışdır. Vektorların əsas məqsədi - həndəsi məsələlərin həlli üçün cəbri üsulların istifadəsi ideyasına əsaslanır. Bununla vektor üsulu ilə həll olunan tapşırıqlar müəyyən edilir və vektor metodunun bir hissəsi olan bacarıqlar vurğulanır.

Qeyd edək ki, orta məktəb riyaziyyat kursunda Vektor anlayışı və onun tətbiq üsulları nisbətən yaxın tarixdə, keçən əsrin altmışıncı illərinin əvvəllərində ortaya çıxmışdır. Buna baxmayaraq, demək olar ki, vektor anlayışı məktəb riyaziyyat kursunun aparıcı anlayışlarından birinə çevrilmişdir.

Biz bilirik ki, məktəb riyaziyyat kursu 5 məzmun xətti üzrə birləşdirilib. Vektorlar nəzəriyyəsi "Həndəsə" məzmun xətti üzrə tədris edilir. Bununlada vektor anlayışından həndəsi hesablamalarda müxtəlif şəkildə istifadə edilir. Vektor hesabı şagirdlərin həndəsi təsəvvürlərini kifayət qədər genişləndirir.

Təlim strategiyasının əsas istiqamətlərindən biritəlimdə inteqrativliyi təmin etməkdir. Alt-standartın funksiyalarından biri olan inteqrativlik dərsdə iki və daha çox fənnin mövzusunu birləşdirməyə, eyni mövzunu əvvəlki siniflərlə əlaqələndirməyə və ya öyrənilən mövzunu həyatla əlaqələndirməyə imkan verir. Məktəb riyaziyyat kursunda vektor anlayışının tədrisi

prosesində üfüqi və şaquli əlaqələrdən, fənlərarası inteqrasiyadan geniş istifadə olunur. Vektorların öyrədilməsində fizika fənninə inteqrasiya bunu deməyə imkan verir. Digər tərəfdən, vektor anlayışının riyazi məsələlərin həllinə tətbiqi də genişləndirilmişdir.

Vektorlara aid məsələ həlli şagirdin məsələdə verilən mətnə uyğun qrafik təsviri çəkmə, vektorların toplanması, komponentlərinin müəyyən edilməsi kimi əlaqəli bacarıqlarını inkişaf etdirir. Şagirdlərə məsələləri fərdi iş kimi müstəqil olaraq yerinə yetirmələri, sonra isə həllini təqdim etmələri (sözlü və qrafik olaraq lövhədə) tövsiyə edilir.

Vektorlar metoduna aid məsələ nümunələrinə baxaq.

***Məsələ 1:*** $ABCD$ paraleloqramının diaqonalları $O$ nöqtəsində kəsişir. $\overrightarrow{BA}$ vektorunu $\vec{a} = \overrightarrow{AO}$ və $\vec{b} = \overrightarrow{BO}$ vektorları ilə ifadə edin.

*Həlli:*



$ABO$ üçbucağında $\overrightarrow{BO}$ vektorunu ifadə etmək üçün $\overrightarrow{BA}$ vektorunun başlanğıcı ilə $\overrightarrow{AO}$ vektorunun sonunu birləşdiririk. Bu zaman $\overrightarrow{BO}$ vektoru $\overrightarrow{BA}$ vektoru ilə $\overrightarrow{AO}$ vektorunun cəminə bərabərdir. Bunu nəzərə alaraq aşağıdakıları yaza bilərik.

$\overrightarrow{BO} = \overrightarrow{BA} + \overrightarrow{AO} \Rightarrow \vec{b} = \overrightarrow{BA} + \vec{a} \Rightarrow \overrightarrow{BA} = \vec{b} - \vec{a}$

Cavab: $\vec{b} - \vec{a}$

***Məsələ 2:*** $\vec{a}$ və $\vec{b}$ vektorlarına görə vektorlarının kordinatlarının cəbri ifadəsini təyin edin: $\vec{a} = \{4; 2; 1\}, \vec{b} = \{5; 3; -1\}$

*Həlli:*

Verilmiş məsələni həll etmək üçün əvvəlcə $3\vec{a}$ vektorunu hesablayaq. Bunun üçün ədədin vektora vurulması qaydasından istifadə edəcəyik.

$$2\vec{a} = 2 \cdot (4; 2; 1) = (8; 4; 2)$$

Eyni qayda ilə ikinci cəm olan $4\vec{b}$ vektorunu hesablayaq.

$4\vec{b} = 4 \cdot (5; 3; -1) = (20; 12; -4)$




Vektorlar cəminin məlum xassəsindən istifadə edərək $2\vec{a} + 4\vec{b}$ vektorunu hesablayaq.

$2\vec{a} + 4\vec{b} = \{8 + 20; 4 + 12; 2 - 4\} = \{28; 16; -2\}$

olacaqdır.

## BİRDƏYİŞƏNLİ FUNKSİYANIN QRAFİKİNİN ELEMENTAR ÜSULLA VƏ DİFERENSİAL HESABININ TƏTBİQİ İLƏ QURULMASININ MÜQAYİSƏSİ

**Bayramova Firəngiz Polad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*fira.bayramova98@mail.ru*

"Funksiya" riyaziyyatın əsas anlayışlarından biridir və məktəb riyaziyyat kursunda mühüm yer tutur. Tərif 1: $X$ çoxluğundan hər bir $x$ elementinə $Y$ çoxluğunun yeganə $y$ elementini qarşı qoyan uyğunluğa funksiya deyilir və $y = f(x)$ kimi işarə olunur. Funksiya əsasən üç üsulla verilir: analitik üsul, cədvəl üsulu və qrafik üsul. Funksiyanın qrafiki onun bir çox əlamətlərini görməyə analitik ifadəyə nəzərən daha çox imkan verir. Qrafik həmçinin eksperi-

mentin nəticələrinə əsasən dəyişənlər arasındakı asılılığı da əyani nümayiş etdirir. Əgər funksiyanın qrafiki məlum olarsa, onun ekstremum nöqtələri, asimptotu, artma, azalma, qabarıqlıq, çöküklük intervalları haqqında ətraflı məlumat əldə edə bilərik. Bir çox birdəyişənli funksiyalar vardır ki, onların qrafikini elementar üsulla qurulması texniki çətinliklə icra olunur. Onların qrafikini törəmənin tətbiqi ilə daha asanlıqla qurmaq olar. Diferensial hesabı tətbiq etməklə funksiyanın qrafikinin qurulması həm dəqrafikin daha dəqiq qurulmasını təmin edir. Bu istiqamətdə diferensial hesabın əsas teoremlərinin tətbiqləri əsaslı yer tutur. Funksiyanın qeyd edilən xassələrinin öyrənilməsi əsasən diferensial hesabının əsas teoremlərinə: Ferma, Roll, Laqranj, Koşi teoremlərinin köməyi ilə öyrənilir. Bu teoremlərin tətbiqi ilə funksiyanın artma, azalma, sabitlik, qabarıqlıq, çöküklük intervalları, ekstremum nöqtələri, asimptotları tətbiq edilir. Aşağıdakı funksiyaya baxaq. Bu funksiyanın qrafikini həm elementar üsulla, həm də diferensial hesabı vasitəsilə quraq. Misal: $f(x) = 3x - x^3$ funksiyasının qrafikini qurun. Həlli: İlk öncə bu funksiyanın qrafiki elementar üsulla quraq. Yəni, arqumentə qiymətlər verək və funksiyanın aldığı qiymətlərə uyğun qrafiki quraq. Daha sonra diferensial hesab vasitəsilə qrafiki quraq.




Bu funksiya bütün ədəd oxunda kəsilməzdir. Ona görə də şaquli asimptotu yoxdur.
$f(-x) = -3x + x^3 = -(3x - x^3) = -f(x)$ olduğundan təkdir. Deməli, bu funksiyanın qrafikikoordinat başlanğıcına nəzərən simmetrikdir. Bu funksiyanın maili asimptotu yoxdur. Çünki,

$$\lim_{x\to\pm\infty}\left(\frac{f(x)}{x}\right) = \lim_{x\to\pm\infty}\frac{3x - x^3}{x} = \lim_{x\to\pm\infty}(3 - x^2) = -\infty$$

Bu funksiya bütün ədəd oxunda kəsilməzdir. Ona görə də şaquli asimptotu yoxdur. $f(-x)=-3x+x^3=-(3x-x^3)=-f(x)$ olduğundan təkdir. Deməli, bu funksiyanın qrafiki koordinat başlanğıcına nəzərən simmetrikdir. Bu funksiyanın maili asimptotu yoxdur.

Artma və azalma aralıqlarını tapmaq üçün I tərtib törəməni tapaq:

$$f'(x) = 3 - 3x^2 = 3(1 - x)(1 + x)$$

$f'(x) > 0$ və $x_2 = 1$ nöqtələri verilmiş funksiyanın böhran nöqtələridir. $(-\infty; -1)$ və $(1; +\infty)$ aralıqlarında $f'(x) > 0$ olduğundan $f(x)$ funksiyası $(-\infty; 1)$ və $(1; +\infty)$ aralığında azalan, $(-1; 1)$ intervalında isə artandır. $x_1 = -1$ nöqtəsinin solundan sağına keçərkən $f'(x)$-in işarəsi mənfidən müsbətə dəyişdiyindən bu nöqtə ciddi lokal minimum nöqtəsidir və $f(-1) = -3 + 1 = -2$ lokal minimum qiymətidir. $x = 1$ nöqtəsi ciddi lokal maksimum nöqtəsidir və $f(1) = 2$ lokal maksimum qiymətidir. Verilmiş funksiyanın qabarıqlıq və çökükülük aralıqlarını tapmaq üçün ikinci tərtib törəməsini hesablayaq:

$$f''(x) = -6x$$

Aydındır ki, $x > 0$ olduqda $f''(x0) < 0$, $x < 0$ olduqda $f''(x) > 0$, $x = 0$ olduqda isə $f''(x) = 0$ olur. Deməli, $(0; +\infty)$ aralığında funksiya qabarıq, $(-\infty; 0)$ aralığında isə çükükdür. $M)(0; 0)$ nöqtəsi əyilmə nöqtəsidi r.

Bu funksiyanın absis oxu ilə kəsişmə nöqtələri $x = 0$ və $\overline{x} = \pm\sqrt{3}$ nöqtələridir.

Beləliklə, verilmiş funksiyanın qrafiki aşağıdakı kimi olar.

Birdəyişənli funksiyanın qrafikinin qurulmasında diferensial hesabdan istifadə edən zaman: 1) Qrafikin qurulması asanlaşır; 2) Qrafikin dəqiqliyi artır; 3) Şagirdlərin törəmə mövzusunu mənimsəməsini sitimullaşdırır; 4) Törəmənin tətbiqi əhəmiyyətini göstərməklə şagirdlərin bu mövzuya diqqətini cəlb edir.

# TRİQONOMETRİYANIN TƏTBİQİ İLƏ STEREOMETRİYA MƏSƏLƏLƏRİNİN HƏLLİ TEXNOLOGİYASI

**Sabirli Nazxanım Rəhman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sabirlinazxanim@gmail.com*

Təlim-tərbiyə prosesinin təşkilində məsələ həllinin mühüm rolu vardır. Müasir şəraitdə riyaziyyatın təlimində məsələlər həm təlim məqsədi, həm də təlim vasitəsi olmaqla şagirdlərin riyazi inkişafını təmin edən vasitə hesab olunur. Məsələlər riyazi yaradıcılığın əsas vasitələrdən biridir.

Təcrübə göstərir ki, triqonometriyanın tətbiqi ilə stereometriya məsələlərinin həlli şagirdlər çətin mənimsəyirlər. Buna görə də proqramda həndəsə məsələlərinin həllinə "triqonometriyanın tətbiqi" adlı bölmə verilmişdir. Stereometriya məsələlərini triqonometriyanın tətbiqi ilə həll etmək üçün triqonometrik çevirmələri yaxşı bilmək vacibdir. Hər bir məsələnin həllində aşağıdakı mərhələlər nəzərə alınmalıdır:

1. Düzgün təsəvvürə malik olmaqla məsələnin şəklini qurulması;
2. Məsələdə verilənlərin və tələb edilənlərin düzgün yazılması;
3. Məsələni ardıcıl izahda həll etmək, yəni teoremi, düstur və təriflərdən daha əlverişli surətdə istifadə etmək;
4. Ümumi şəkildə həll edilmiş məsələlərin cədvəllərin köməyi ilə ədədi qiymətini hesablanması;
5. Məsələnin araşdırılması.

Stereometriya məsələrinin həllində göstərilən qayda nəzərə alındıqda şagirdlər məsələ həllini daha yaxşı mənimsəyirlər.

Məsələ: Oturacağın radiusu $r$ olan konusun doğuranı oturacaq müstəvisilə $\varphi$ bucağı əmələ gətirir. Konusun xarici oturacağı düzbucaqlı üçbucaq olan piramida çəkilmişdir. Düzbucaqlı üçbucağın iti bucağından biri $\alpha$ -ya bərabərdir. Piramidanın həcmini və yan səthinin sahəsini tapın.

Tutaq ki, piramidanın oturacağı $C$ bucağı düz, $A$ bucağı $\alpha$ olan $ABC$ üçbucağıdır. Piramidanın $SO$ hündürlüyü konusun hündürlüyü ilə, üzlərinin apofemləri isə bir-birinə bərabər olub konusun doğuranı ilə üst-üstə düşür. Piramidanın yan üzlərinə konusun yan səthinin toxunma xətləri, yan üzlərin apofemləridir. (Şəkil 1)



Şəkil 1

Piramidanın həcmi:

$$V_{pir} = \frac{1}{3} S_{\Delta ABC} \cdot h \qquad (1)$$

Yan səthinin sahəsi:

$$S_{pir.y.s} = S_{ABS} + S_{ASC} + S_{BSC} = Pl \qquad (2)$$

düsturları ilə hesablanır. $P - ABC$ üçbucağının perimetrinin yarısı, $l$ isə yan üzlərin apofemləridir. Beləliklə, məsələ $h$ hündürlüyünün, $l$ apofeminin $ABC$ üçbucağının tərəflərinin tapılmasına gətirilir.

$ESO$ bucağında $OE = r$ , $\angle SEO = \alpha$ məlumdur.

Bunlardan istifadə edərək, $h$ hündürlüyünü

$CO = h = r\, tg\alpha$

və $l$ apofemini

$SE = l = \dfrac{r}{tg\varphi}$ tapılır.

Piramidanın oturacağına baxaq (Şəkil 2). Burada

$CE = OE = r$ , $AE = r\,ctg\frac{\alpha}{2}$ olduğundan $AC = AE + CC = r\cdot\left(ctg\frac{\alpha}{2}+1\right) = \sqrt{2}\,r\frac{\sin\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sin\frac{\alpha}{2}}$
olar.

$ABC$ düzbucaqlı üçbucağında $AC$ kateti və $A$ bucağı məlum olduğundan $BC$ tərəfini tapaq:

$$BC = AC\,tg\alpha = \sqrt{2}r\frac{\sin\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sin\frac{\alpha}{2}}\,tg\alpha$$

Pifaqor teoremindən istifadə edərək, $AB$ hipetonuzunu hesablayırıq:

$$AB = \sqrt{AC^2+BC^2} = r\sqrt{2}\,\frac{\sin\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sin\frac{\alpha}{2}\cos\alpha}$$



Şəkil 2

$ABC$ üçbucağının sahəsi və perimetrinin yarısını tapaq:

$$S_{\Delta ABC} = \frac{1}{2}\cdot AC\cdot BC = r^2\frac{\sin^2\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sin^2\frac{\alpha}{2}}\,tg\alpha \quad ;$$

$$P = \frac{1}{2}(AB+BC+AC) = r\frac{\sin\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sqrt{2}\sin\frac{\alpha}{2}}\left(\frac{1}{\cos\alpha}+tg\alpha+1\right) = 2r\frac{\sin^2\left(45^\circ+\frac{\alpha}{2}\right)ctg\frac{\alpha}{2}}{\cos\alpha}$$

Piramidanın $h$ hündürlüyü və $S_{ABC}$ oturacağının sahəsi üçün tapılmış qiymətləri (1)-də yerinə yazaq, onun həcmini hesablayaq:

$$V_{pir} = \frac{1}{3}r^2\frac{\sin^2\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sin^2\frac{\alpha}{2}}\cdot\frac{2\sin\frac{\alpha}{2}\cos\frac{\alpha}{2}}{\cos\alpha}\,tg\varphi$$

Nəticəni çevirək:

$$V_{pir} = \frac{1}{3}r^3\frac{\sin^2\left(45^\circ+\frac{\alpha}{2}\right)}{\sin^2\frac{\alpha}{2}}\cdot\frac{2\sin\frac{\alpha}{2}\cos\frac{\alpha}{2}}{\cos\alpha}\,tg\varphi = \frac{r^3}{3}\,ctg\left(45^\circ-\frac{\alpha}{2}\right)ctg\frac{\alpha}{2}\,tg\varphi$$

Piramidanın yan səthinin sahəsini tapmaq üçün $l$ apofemini və oturacağın perimetrinin yarısının qiymətlərini (2)-də yerinə yazaq:

$$S_{pir.y.s} = 2r\frac{\sin^2\left(45^\circ+\frac{\alpha}{2}\right)ctg\frac{\alpha}{2}}{\cos\alpha}\cdot\frac{r}{\cos\varphi}$$

Sadələşdirək:

$$S_{pir.y.s} = \frac{r^2 ctg\left(45^\circ-\frac{\alpha}{2}\right)ctg\frac{\alpha}{2}}{\cos\varphi}$$

Triqonemetriyanın tətbiqi ilə stereometriya məsələlərinin həlli ardıcıl olaraq bir neçə üçbucağın həllinə gətirilir. Ona görə də bu tip məsələləri həll etməmişdən əvvəl ixtiyari üçbucağın elementləri arasındakı münasibətləri təkrar etdirmək lazımdır.

## DƏYİŞƏNİ MÜTLƏQ QİYMƏT İŞARƏSİ DAXİL OLAN PARAMETR BƏRABƏRSİZLİKLƏR


**Quliyeva Jalə Afət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*jale.quliyeva0407@gmail.com*


Hazırki məktəb riyaziyyat kursunda, dəyişəni mütləq işarəsi daxilində olan bərabərsizliklərin həlli VII sinifdən öyrədilir (2.2.3).

Hər şeydən əvvəl $|f(x) < a|$ və $|f(x) > b|$ şəklindəki bərabərsizliklərə baxaq, burada $a$ və $b$ - mənfi olmayan həqiqi ədədlər, $f(x)$ isə bir arqumentli funksiyadır.

1. $|f(x) < a|$ olduqda mütləq qiymətin tərifinə görə,

$$\begin{cases} f(x) < a, f(x) \geq 0 \text{ və ya } 0 < f(x) < a \text{ olduqda,} \\ -f(x) < a, f(x) \leq 0 \text{ və ya } -a < f(x) \leq 0 \text{ olduqda} \end{cases}$$

olur. Bunlardan o nəticəyə gəlirik ki, verilmiş bərabərsizlik $-a < f(x) < a$ bərabərsizliklər sistemi ilə ekvivalentdir.

2. $|f(x) > b|$ olduqda mütləq qiymətin tərifinə görə,

$$\begin{cases} f(x) > b, f(x) \geq 0 \text{ və ya } f(x) > b \text{ olduqda,} \\ -f(x) > b, f(x) \leq 0 \text{ və ya } f(x) < -b \text{ olduqda} \end{cases}$$

olur. Bunlardan o nəticəyə gəlirik ki, verilmiş bərabərsizlik $f(x) > b$ və $f(x) < -b$ bərabərsizlikləri ilə ekvivalentdir. Həllin düzgün olması ümumi qayda ilə yoxlanılır, yəni yoxlama iki bənddən ibarət olur:

1) Tapılmış sərhədlərin düzgünlüyünün müəyyənləşdirilməsi;
2) və ya işarələrinin seçilməsinin düzgünlüyünün müəyyənləşdirilməsi.

Fərz edək ki, $f(x) > \varphi(x)$ bərabərsizliyinin həlli $x > a$ -dır. Deməli,

1. $f(x_1) > \varphi(x_1)$ olarsa, $a$ (sərhəd) düzgün tapılmışdır.
2. $x_1 > a$ üçün $f(x_1) > \varphi(x_1)$ olarsa, bərabərsizlik düzgün seçilmişdir.

**Misal 1:** $a$ parametrinin hansı qiymətlərində $x^2 + 4|x - a| \geq a^2$ bərabərsizliyi $x$ -in bütün qiymətlərində ödənilir.

**Həlli:** $x \geq a$ bərabərsizliyi aşağıdakı bərabərsizliklərlə eynigüclüdür. $x^2 + 4(x - a) - a^2 \geq 0$ yaxud da $(x - a)(x - (a - 4)) \geq 0$ kvadrat bərabərsizlik bütün $x$ -lər üçün $a \geq -a - 4$ şərti ödənilərsə, $x \geq a$ aralığında ödənilir. Bu şərtdən isə $a \geq -2$ alarıq. Əgər $x < a$ olarsa, onda əvvəlki hala analoji olaraq $(x - a)(x - (4 - a)) \geq 0$ bərabərsizliyi $a \leq 4 - a$ yəni, $a \leq 2$ olduqda bütün $x$ -lər üçün ödənilər.

**Misal 2:** $a - x > |1 - |x||$ bərabərsizliyini $a$ parametrinin qiymətindən asılı olaraq həll edin.

**Həlli:** Bərabərsizliyi $a > x + ||x| - 1|$ şəklində yazaq. Bərabərsizliyin hər tərəfinə bir funksiya kimi baxaq: $y_1 = a$ ( $OX$ oxuna paralel düz xətt) və $y_2 = x + ||x| - 1|$. $y_2$ funksiyasını mütləq qiymətin açılışına uyğun aşapıdakı kimi yazaq



$$y_2(x) = \begin{cases} -1, x < -1 \text{ olduqda} \\ 2x + 1, -1 \leq x \leq 0 \text{ olduqda} \\ 1, 0 \leq x \leq 1 \text{ olduqda} \\ 2x - 1, x \geq 1 \text{ olduqda} \end{cases}$$

Şəkildən göründüyü kimi $y_2(x)$ funksiyasının qrafiki sınıq xətlər olacaq. Bərabərsizliyin həlli $x$ -in elə qiymətləri olacaq ki, $y_1 = a$ qrafikinin nöqtələri $y_2(x)$ -in qrafikindən yuxarıda yerləşən nöqtələr olacaq. Şəkildən göründüyü kimi $a \leq -1$ olduqda belə nöqtələr yoxdur. $a \in (-1; 1)$ aralığında bu nöqtələr $a > 2x + 1$ şəklində yəni, $x < a - \frac{1}{2}; a = 1$ olduqda, həlli $x < 0$ aralığı, $a > 1$ olduqda həlli $a > 2x - 1$ bərabərsizliyindən alarıq ki, $x < a + \frac{1}{2}$.

**Cavab:** Əgər $\begin{cases} a \leq -1 \text{ olarsa, } \textbf{həll} \text{ yoxdur} \\ -1 < a \leq 1 \text{ olarsa, } x < a - \frac{1}{2} \\ a > 1 \text{ olarsa, } x < a + \frac{1}{2} \end{cases}$ olar.

## FIRLANMA CİSİMLƏRİNİN SAHƏ VƏ HƏCMLƏRİNİN HESABLANMASINA AİD MƏSƏLƏLƏRİN HƏLLİ METODİKASI


**Qurbanov Qara Mürsəl oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*qaraqurbanov18@gmail.com*


Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Riyaziyyat dərsliyində "Fırlanma fiqurları. Silindr, konus, kürə" başlığı ilə aşağıdakı əsas və alt məzmun standartlarını əhatə edir.

Müasir dərsliklərdə fırlanma ilə bağlı mövzuları öyrənmək üçün yeni yanaşmalara – fiqurun modelinin müxtəlif materiallarından verilməsi, hazır modellərin kəsilərək səthlərinin hesablanması verilmişdir.

Bu dərslərdə verilən tapşırıqları yerinə yetirməklə fiqurların səthlərinin sahələri və həcmləri üçün düsturları real olaraq seçə bilir.

Şagird bu tapşırıqları həll etməklə səthin sahəsinin və həcminin real olaraq nəyi ifadə etdiyini başa düşdükdən sonra məlumatları həndəsi fiqurlarla düzgün əlaqələndirib, düsturları məsələ həllinə düzgün tətbiq edə bilirlər.

**Silindr.** Paralel müstəvilər üzərində yerləşən və paralel köçürmədə üst-üstə düşən iki konqruyent müstəvi fiqur və onların uyğun nöqtələrini birləşdirən bütün parçaların yaratdığı fəza fiquruna silindr deyilir. Bu müstəvi fiqurlar silindrin oturacaqları,onların uyğun nöqtələrini birləşdirən parçalar isə silindrin doğuranı adlanır .Doğuranı oturacaq müstəvisinə perpendikulyar olan silindrə düz silindr, əks halda mail silindr deyilir .

$$S_{yan} = 2\pi RH$$
$$S_{tam} = 2S_{ot} + S_{yan}$$
$$S_{tam} = 2\pi R(R + H)$$

**Konus.**Hər hansı müstəvi fiqurun nöqtələrini onun müstəvisinə aid olmayan nöqtə ilə birləşdirən bütün parçaların yaratdığı fəza fiquruna konus deyilir. Müstəvi fiqura konusun oturacağı, həmin nöqtəyə isə konusun təpə nöqtəsi deyilir. Konusun təpəsindən oturacaq müstəvisinə endirilmiş perpendikulyara konusun hündürlüyü deyilir. Oturacağı dairə olan konusa dairəvi konus ,təpəsi oturacağının mərkəzinə perpendikulyar proyeksiyalanan dairəvi konusa isə düz dairəvi konus deyilir .

$S_{yan} = \frac{1}{2}C \cdot l = \pi Rl$

$S_{tam} = S_{ot} + S_{yan} = \pi R^2 + \pi Rl = \pi R(R + l)$

Konusun doğuranı , hündürlüyü və radiusu arasında $l^2 = h^2 + r^2$ münasibəti doğrudur (Pifaqor teoreminə görə).

**Sfera** - Fəzanın verilmiş nöqtəsindən (sferanın mərkəzi) müsbət r məsafədə olan nöqtələr çoxluğuna deyilir.

Sfera həmçinin yarımçevrənin öz diametri ətrafında fırlanmasından alınan fiqurdur.

$S=4\pi r^2$

$S=\pi d^2$

**İkiölçülü sfera (Üçölçülü fəzada).**

Sferanın tənliyi $(x-x_0)^2+(y-y_0)^2+(z-z_0)^2=R^2$ burada $(x_0, y_0, z_0)$ — sferanın mərkəzinin koordinatı, R - onun radiusudur. Mərkəzi $(x_0,y_0,z_0)$ nöqtəsində olan sferanın parametrik tənliyi aşağıdakı kimidir:

$x = x_0 + R \cdot \sin\alpha \cdot \cos\beta$

$y = y_0 + R \cdot \sin\alpha \cdot \sin\beta$

$z = z_0 + R \cdot \cos\alpha$

burada $\beta \in [0, 2\pi]$, $\alpha \in [0, \pi)$

**Kürə** - Fəzanın verilmiş nöqtəsindən müsbət r məsafəsini aşmayan nöqtələr çoxluğudur. "r" kürənin radiusu adlanır. Kürə həmçinin yarımdairənin radiusu ətrafında fırlanmasından yaranan həndəsi cismdir. Kürənin səthi sfera adlanır.

$V = 4/3\pi r^3$

## ORTA MƏKTƏBDƏ NYUTON-LEYBNİS DÜSTURUNUN ÖYRƏDİLMƏSİ METODİKASI

**Məmmədova Aytac Oktay qızı**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

*mmmdova.aytac@inbox.ru*

Orta məktəbdə şagirdlərin bilik səviyyəsinin yüksəldilməsində riyaziyyat fənni mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda ali riyaziyyat elementlərinin məktəb riyaziyyat kursuna daxil edilməsi şagirdlərin məntiqi təfəkkürünü və idrak fəallığını inkişaf etdirir.

Müəyyən inteqral anlayışı riyaziyyatın vacib bölmələrindən biridir. Bir çox həndəsi fiqurların sahəsinin tapılması məktəb həndəsə kursundan məlumdur. Lakin elə sahələr vardır ki, bu fiqurların sahələrini həndəsədən məlum olan sahə anlayışı və ona aid düsturlarla tapmaq mümkün deyil. Məsələn əyrixətli trapesiya yaxud müxtəlif xətlərlə hüdudlanan fiqurun sahəsi. Bu kimi məsələləri həll etmək üçün müəyyən inteqral anlayışı daxil edilir. Müəyyən inteqral anlayışı həmçinin cisimlərin həcminin hesablanmasına da tətbiq edilir. Şagirdlərə əvvəlcə ibtidai funksiya anlayışı öyrədilir sonra isə inteqral, tərifi, xassələri öyrədilir.

Tərif: Verilmiş aralığın bütün nöqtələrində $F'(x) = f(x)$ bərabərliyini ödəyən F(x) funksiyasına həmin aralıqda f(x) funksiyasının ibtidai funksiyası deyilir.

Teorem: Tutaq ki, F(x) funksiyası verilmiş aralıqda f(x) kəsilməz funksiyasının ibtidai funksiyasıdır. Onda ibtidai C sabiti üçün

1. F(x) + C funksiyası da həmin aralıqda f(x) funksiyasının ibtidai funksiyasıdır.
2. f(x) funksiyasının verilmiş aralıqda istənilən ibtidai funksiyası F(x) +C şəklindədir.

F(x) +C verilən funksiyanın ibtidai funksiyalar çoxluğudur, eyni zamanda ibtidai funksiyaların ümumi ifadəsidir. F(x) + C ifadəsində C sabitinə istənilən qiyməti verə bilərik. Buradan alarıq ki, f(x)-in ibtidai funksiyaları sonsuz saydadır və bir-birindən sabit toplananla fərqlənirlər.

Müəyyən inteqral anlayışının daxil edilməsi şagirdlərin elmi dünyagörüşünün formalaşdırılmasında bilik dairəsinin genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Həmçinin

müəyyən inteqral vasitəsilə sahə və cisimlərin həcmlərinin hesablanması riyaziyyatın digər fənnlərlə əlaqəli şəkildə öyrənilməsinə kömək edir, şagirdlərə tədrisin çətinliyinin aradan qaldırılması üçün imkanları verir.

Müəyyən inteqralın ibtidai funksiyasının artımı şəklində verilməsi şagirdlər üçün daha əlverişlidir.

Tərif: f funksiyasının a-dan b-yə qədər inteqralı F ibtidai funksiyasının F(b) – F(a) artımına deyilir və $\int_a^b f(x)dx$ ilə işarə olunur.

Burada f(x) inteqralaltı funksiya, f(x)dx inteqralaltı ifadə, x inteqrallama dəyişəni, ∫ inteqral işarəsi, a və b isə inteqralın sərhədləridir.

Müəyyən inteqral anlayışı verildikdən sonra Nyuton-Leybnis düsturu daxil edilir.

Nyuton – Leybnis düsturu. Əgər f(x) funksiyası $[a;b]$ parçasında kəsilməzdirsə və F(x) onun ibtidai funksiyasıdırsa, yəni F'(x) = f(x) olarsa, onda

$$\int_a^b f(x)dx = F(b) - F(a)$$

F(x)$\geq 0$ olduqda , $\int_a^b f(x)dx$ müəyyən inteqralı həndəsi olaraq y = f(x) əyrisi , Ox oxu və Ox oxuna perpendukilyar x = a, x = b xətləri ilə hüdudlanan əyrixətli trapesiyanın S sahəsini verir.




Nyuton – leybnis düsturu inteqral hesabının əsas düsturu adlanır.

Aşağıdakı misal nümunələrinə baxaq:

**Misal 1**. $\int_{\frac{\pi}{2}}^{\frac{\pi}{2}} x sinx dx$ .

**Həlli.**x = u götürək, du = dx , sinxdx = dv olarsa, v = - cosx olar

$$\int_{\frac{\pi}{2}}^{\frac{\pi}{2}} x sinx dx = 2\int_0^{\frac{\pi}{2}} x sinx dx = 2\left(-x cosx\Big|_0^{\frac{\pi}{2}} + \int_0^{\frac{\pi}{2}} cosx dx\right) =$$

$$= -2(x cosx)\Big|_0^{\frac{\pi}{2}} + 2\int_0^{\frac{\pi}{2}} cosx dx = 2sinx\Big|_0^{\frac{\pi}{2}} = 2\left(\sin\frac{\pi}{2} - \sin 0\right) = 2.$$

**Misal 2.** $y = x^2 - 6x + 8$ parabolası ilə Ox oxunda $x = 1$ və $x = 6$ düz xətləri ilə hüdudlanmış fiqurun sahəsini tapın.

**Həlli.** Əvvəlcə parabolanın OX oxu ilə kəsişməsini və kəsişmə nöqtələrinin absislərini araşdırmaq lazımdır.

$x^2 - 6x + 8 = 0 \quad x_1 = 2, x_2 = 4$

Məlumdur ki, $x \epsilon [1;2] \cup [4;6]$

parçası $y \geq 0, x\epsilon[2;4]$ parçası isə $y \leq 0$

olduqda doğru olur. Bu intervallara görə də aşağıdakı cavabı alarıq




Şəkil1

$$S = \int_1^2 (x^2 - 6x + 8)dx - \int_2^4 (x^2 - 6x + 8)dx + \int_4^6 (x^2 - 6x + 8)dx =$$

$$= \left(\frac{x^3}{3} - 3x^2 + 8x\right)\Big|_1^2 - \left(\frac{x^3}{3} - 3x^2 + 8x\right)\Big|_2^4 + \left(\frac{x^3}{3} - 3x^2 + 8x\right)\Big|_4^6 =$$

$$= \frac{8}{3} - 12 + 16 - \frac{1}{3} + 3 - 8 - \frac{64}{3} + 48 - 32 + \frac{8}{3} - 12 + 16 + \frac{216}{3} - 108 + 48 - \frac{64}{3} + 48 -$$

$$32 = \frac{103}{3} - 25 = 9\frac{1}{3}.$$

# TƏLİMDƏ BEYİN HƏMLƏSİ ÜSULUNUN PRAKTİK PROBLEMLƏRİ

**Fətullayev Aykan Zabit oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Aykanf9@gmail.com*

Müasir dövrdə təhsilin inkişafı istiqamətində əsaslı islahatlar həyata keçirilir. Təhsil islahatlarının əsas məqsədi təhsil alanlarda şəxsiyyətin formalaşdırılması, onlarda müstəqillik qabiliyyətinin inkişaf etdirilməsidir. Burada əsas məsələlərdən biri də təhsilin dünya təhsil sisteminə inteqrasiyasıdır. Respublikamızda yerinə yetirilən məqsədyönlü təhsil islahatları elmi-pedaqoji tədqiqatlar qarşısında da ciddi vəzifələr qoymuşdur.

Məlumdur ki, Yaponiya və Almaniya, iqtisadiyyatlarını təhsil sayəsində yüksək səviyyəyə qaldırmışlar. Bu faktoru nəzərə alsaq deyə bilərik ki, beynəlxalq təcrübənin öyrənilməsinin əhəmiyyəti böyükdür. Qabaqcıl təcrübə olaraq təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmaqla üsul və vasitələri tətbiq etmək olar.

Təlimin başlıca texnologiyası metod və üsullardır. Bu üsullardan biri də tətqiq etdiyimiz əqli hücum metodudur. O ali məktəblərdə fikirlərin sürətli generasiyası üçün və fəallığı artırmaq üçün 10-15 dəqiqədə keçirilən üsuldur. Məqsədi, suala cavab tapmaq və ya konkret problem həlli olan bu üsul dərsin motivasiya, informasiya mübadiləsi və ümumiləşdirmə mərhələlərində keçirilə bilər. Motivasiya mərhələsində keçirilən beyin həmləsi, öyrənənlərin mövzuya olan həvəsini artırmaq məqsədi güdür. İnformasiya mübadiləsi və ümumiləşdirmə mərhələlərində isə bir növ öyrənənlərin özlərini sorğulaması üçün təşkil edilir. Belə ki, artıq onlar nəyi pis (və ya yaxşı) bildiklərini dərk edib ona uyğun şəkildə fikir təlatümü edirlər. Həmçinin sonda olan refleksiya ilə onlar öyrənmə prosesini qiymətləndirə bilərlər.

Lakin bu üsulu tətbiq edərkən bəzi praktik problemlər yarana bilər. Bu problemləri bilmək və onlar üçün qabaqlayıcı tədbir görmək hər bir müəllimin vəzifəsidir. Onlar aşağıdakılardır:

1) vaxtın uzun çəkməsi - bu iki halda mümkündür:

a) mövzu çətin olduqda;

b) tələbələrdə mövzu ilə bağlı məlumat azlığı olduqda.

Hər iki halda vaxtın nizamlanması üçün müəllim tələbələrə istiqamətverici ip ucları verərək vaxtdan səmərəli istifadə etməyə çalışmalıdır. Çünki müəllim bütün dərsi beyin həmləsi ilə keçmir, digər üsullardan da istifadə edir. Burada hər hansı vaxt itkisi dərsin səmərəsini azalda bilər.

2) İrəli sürülən fikirlərin təkrarı və ya mövzudan kənar fikir təlatümü - Bu halda müəllim prosesə müdaxilə edə və fikirləri düzgün məcraya yönəldə bilər. Proses zamanı fikirlər arası yaxınlıq olsa da tələbələrin təkrarçılığa yol verməməsi üçün müəllim tələbələri tənbih etməli və fikirlərə istiqamət verməlidir.

3) Artıq səs-küy və fikirlərə qarşı qeyri-tolerantlıq – bu hal müəllimin auditoriyanı ələ ala bilməsindən asılıdır. Doğrudur, tələbələrə dərs prosesində azad iqlim, sərbəst fəaliyyət imkanı yaradılmalıdır, amma bu dərs etikası daxilində olmalıdır. Əməkdar müəllim Akif Nəzərov bu problemi "işgüzar səs-küy" adlandırmışdır. Müəllim isə bu prosesə bələdçilik edir. Başqa sözlə desək, bu problemin həlli, elə fəal təlimin əsas mahiyyəti olan "dərsin maksimum idarə olunan formaya düşməsi" deməkdir.

Təhlil edib gəldiyimiz nəticə ondan ibarətdir ki, nəzəri baxımdan problemsiz görünən bu üsul praktik məsələlərdə problemsiz deyildir.Bu üsulu tətbiq edən hər bir şəxs bu problemləri nəzərə almalı və ona uyğun istiqamət götürməlidir.

## Ədəbiyyat:

1. Nəzərov A.M. "Müasir təlim texnologiyaları". Bakı, ADPU: 2012, 103 s.

2. Əmirov M.M. Fəal interaktiv təlim metodikası Ali məktəblərin tarix fakültəsi üçün dərs vəsaiti. Bakı, ADPU-nun mətbəəsi, 668 səh.

3. Mehrabov A.O., Abbasov Ə.M., Zeynalov Z.Ə., Həsənov R.V. Pedaqoji texnologiyalar. Mütərcim. Bakı-2006. Səh 372.

4. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri: monoqrafiya. Bakı: Mütərcim, 2012.

5. https://www.muallim.edu.az/www.old/arxiv/2012/14/21.htm

## BƏZİ XARAKTERİK İKİDƏRƏCƏLİ BƏRABƏRSİZLİKLƏRİN QRAFİK ÜSULLA HƏLLİ

**Mirzəzadə Nərmin Xosrov qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nermin.mirzeyeva99@mail.ru*

İkidərəcəli bərabərsizliklər cəbr və elementar funksiyalar kursunda əsas mövzulardan biridir. Bu mövzunun tədrisi şagirdlərdən kvadrat funksiyanın qrafiki, bərabərsizliklər və onlar üzərində əməllər, bərabərsizliklərin eynigüclülüyü, birdərəcəli birməchullu iki bərabərsizlik sisteminin həlli, kvadrat üçhədlinin tam kvadrat hissəsinin ayrılması kimi mövzuları yaxşı bilməyi tələb edir. Biz həmin məqalədə bəzi xarakterik ikidərəcəli bərabərsizliklərin qrafik üsulla həllinə dair fikirlərimizi şərh edək.

Əvvəlcə $\frac{ax^2+bx+c}{mx+n} > 0$ və $\frac{ax^2+bx+c}{mx+n} < 0$ bərabərsizliklərini qrafik üsulla həllniverək. Hər iki bərabərsizlikdəki kvadrat üçhədlidə diskriminantın $D > 0$ olduğu nəzərdə tutulur.Sadəlik üçün aşağıdakı ədədi əmsallı misalları götürək:




Misal1. $\frac{x^2-10x+21}{x+5} > 0$ bərabərsizliyi həll edin.

Əvvəlcə aşağıdakıları müəyyən edək:

1) $a = 1 > 0$
2) $D = 25 - 21 = 4 > 0$
3) Kvadrat üçhədlinin kökləri $x_1 = 3$ , $x_2 = 7$
4) Kvadrat üçhədlinin tam kvadratına ayırsaq: $x^2 - 10x + 21 = (x-5)^2 - 4$ .

$y = x + 5$ xətti funksiyanın qrafikini iki nöqtəsinə görə quraq. $x = 0$ olsa, $y = 5$ və $y = 0$ olarsa $x = -5$ olar. Verilmiş nöqtələrə görə eyni düzbucaqlı koordinat sistemində $y = (x-5)^2 - 4$ və $y = x + 5$ funksiyasının qrafiki quraq. Deməli, $x > 7$ və $-5 < x < 3$ intervalları bərabərsizliyin həlli olur.




Misal 2. $\frac{x^2+2x-15}{x+1} < 0$ bərabərsizliyini həll edin.

1) $a - 1 > 0$
2) $D = 1 + 15 = 16 > 0$
3) Kvadrat üçhədlinin kökləri $x_1 = -5$ , $x_2 = 3$ olar.
4) Kvadrat üçhədlini tam kvadratına ayırsaq

$x^2 + 2x - 15 = (x+1)^2 - 16$ olar.

$y = x + 1$ xətti funksiyası ilə $y = (x+1)^2 - 16$ funksiyasının qrafiklərini eyni koordinat sistemində quraq.

$x < -5$ və $-1 < x < 3$ intervallarında hər iki funksiyanın koordinatları müxtəlif işarəli olduğundan bərabərsizliyin həlli $x < -5$ və $-1 < x < 3$ olar.

İndi də $\frac{ax^2+bx+c}{a_1x^2+b_1x+c} > 0$ və $\frac{ax^2+bx+c}{a_1x^2+b_1x+c} < 0$ şəklində olan bərabərsizliklərə baxaq. Hər iki bərabərsizlikdə kvadrat üçhədlilər üçün D>0 olduğu nəzərdə tutulur.

Misal 3. $\frac{x^2+7x+10}{x^2-13x+40} > 0$ bərabərsizliyinin həlli.




1) $a = 1 > 0$ ; $a_1 = 1 > 0$

2) Hər iki kvadrat üçhədlilərdə: $D > 0$ -dır.

3) Kvadrat üçhədlilərin kökləri uyğun olaraq $x_1 = -5;\ x_2 = -2$ və $x_1 = 5;\ x_2 = 8$ -dir.

4) Kvadrat üçhədlilərin tam kvadrat hissəsini ayıraq:

$$x^2 + 7x + 10 = \left(x + \frac{7}{2}\right)^2 - \frac{9}{4};$$

$$x^2 - 13x + 40 = \left(x - \frac{13}{2}\right)^2 - \frac{9}{4}$$

İndi eyni düzbucaqlı koordinat sistemində verilmiş:

$y = \left(x + \frac{7}{2}\right)^2 - \frac{9}{4}$ və $y = \left(x - \frac{13}{2}\right)^2 - \frac{9}{4}$ funksiyalarının qrafiklərini quraq. Misalın xarakteri tələb edir ki, *x*-in hansı qiymətlərindəhər iki parabola ordinatlarının eyni işarəli olduğunu tapaq. Bərabərsizliyin həlli $-2 < x < 5, x > 8$ və $x < -5$ intervalları olur. Eyni qayda ilə bu kimi digər bərabərszliklərin də həllini vermək olar.

## PRİZMANIN MÜSTƏVİ KƏSİKLƏRİNİN QURULMASI METODLARI (İZLƏR VƏ UYĞUNLUQ METODU)


**Abduləzova Aynurə Şükür qızı**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

*aynureabdulezova@gmail.com*


Prizmanın müstəvi kəsiklərinin qurulmasının bir neçə üsulları var. Həmin metodlardan izlər metodu, uyğunluq metodu haqqında qısa məlumat verək.

**İzlər metodunun mahiyyəti**: bu metodun mahiyyəti ondan ibarətdir ki, bu halda əvvəlcə kəsən müstəvi ilə fiqurun oturacaq müstəvisnin kəsişmə xətti, yəni izi qurulur. Sonra həmin düz xətt ilə fiqurun üzünün müstəvilərinin kəsişmə nöqtələri tapılır. Növbəti addımda tapılan nöqtələr kəsən müstəvinin verilən nöqtələri ilə birlikdə axtarılan kəsiyin tərəflərinə aid olan düz xətləri müəyyən edir. Indi bu metodun tətbiqi ilə məsələ həllinə baxaq.

**Məsələ 1.** $ABCDA_1B_1C_1D_1$ prizmasının $DD_1$ yan tili üzərində L nöqtəsi və ABCD alt oturacaq müstəvisi üzərində oturacağın AB və BC tərəflərinin hər ikisini kəsən MN düz xəttindən və L nöqtəsindən keçən müstəvi kəsiyinin qurulması .

**Həlli.** Məsələnin şərtində verilənlərə əsasən prizma şəkli çəkilir və işarələmələr aparılır. burada qeyd edirik ki, məsələnin şərtində verilən MN parçası kəsən müstəvinin oturacağı

kəsdiyi düz xətt üzərindədir. Buna görə də MN xətti kəsən müstəvinin outracaq müstəvisindəki izidir.



Şəkil 1.

Məsələdə sözü gedən qurma prosesi ardıcıl olaraq yerinə yetirilir; kəsən müstəvi L nöqtəsindən keçdiyi üçün prizmanın $AA_1D_1D$ və $DD_1C_1C$ yan üzlərini də kəsməlidir, çünki $L \in AA_1D_1D$ və $L \in DD_1C_1C$. $AA_1D_1D$ və $DD_1C_1C$ yan üzlərinin verilən müstəvi ilə kəsişməsinin bir L nöqtəsi məlumdur. Ikinci belə kəsişmə nöqtəsi tapılmalıdır. Bunun üçün isə əvvəlcə $AA_1D_1D$ müstəvisinin DA şüası ilə MN-in T kəsişmə nöqtəsi qurulur. T nöqtəsi L nöqtəsi ilə eyni zamanda $AA_1D_1D$ müstəvisi üzərində olacaqdır. Ona görə TL kəsən müstəvi ilə $AA_1D_1D$ müstəvisinin kəsişmə xətti olacaqdır, onda $Q=TL \cap AA_1$ qurulmuş olar (müstəvilərin kəsişməsi aksiomuna əsasən). Eyni qayda ilə $G=LS \cap C_1C$ qurulacaqdır. Beləliklə, axtarılan MNGLQ kəsiyi alınacaqdır.

**Uyğunluq metodunun mahiyyəti:** Bu üsulun mahiyyəti verilən fiqurun oturacaq müstəvisi proyeksiyalama müstəvisi, yan tili isə proyeksiya istiqaməti qəbul etməklə kəsən müstəvinin istənilən proyeksiyalayıcı düz xətt ilə kəsişməsini tapmaqdan ibarətdir.

Uyğunluq metodunun tətbiqi ilə prizmanın müstəvi kəsiyinin qurulmasına aid məsələlərə baxaq:



Şəkil 2.

**Məsələ 1:** $ABCA_1B_1C_1$ üçbucaqlı prizmasının (şəkil 5) $AA_1B_1B$, $BB_1C_1C$ və $CC_1A_1A$ üzlərində uyğun olaraq M, N və P nöqtələri verilmişdir. Prizmanın bu nöqtələrdən keçən müstəvi kəsiyini qurmalı.

**Həlli**. Məsələdə qurma prosesi ardıcıl olaraq aparılır. Məlumdur ki, MNP-nin prizmanın tillərindən hər hansı birini, məsələn, $AA_1$ tili ilə kəsişmə nöqtəsi olan bir K nöqtəsini bilsək, məsələ həll edilmiş olar. bunun üçün

- prizmanın tilləri proyeksiyalama istiqaməti, ABC oturacağı isə proyeksiya müstəvisi qəbul edilir,
- M və N nöqtələrinin ABC müstəvisi üzərində $M_1$ və $N_1$ proyeksiyaları qurulur,
- düz xətt aksiomuna əsasən A nöqtəsi ilə $N_1$-i, $M_1$ nöqtəsi ilə P-ni birləşdirilir və kəsişmə nöqtəsi $O_1$ ilə işarə olunur.

- $MM_1P_1P$ müstəvisində $O_1$ nöqtəsinə uyğun nöqtəni qurmaq üçün $O_1$-dən prizmanın tillərinə paralel düz xətt çəkilir. Bu düz xətt $M_1P_1$ parçasına uyğun MP parçasını bir O nöqtəsində kəsəcəkdir.

- Növbəti addımda $AN_1N$ müstəvisində NO şüası çəkilir, onda bu şüa $AA_1$ tilini bir K nöqtəsində kəsəcəkdir.

- KM şuasının $BB_1$ tilini kəsdiyi nöqtəni E ilə işarə etsək, onda KDE prizmanın tələb edilən müstəvi kəsiyi olacaqdır.

## METALLAR MÖVZUSUNUN TƏDRİSİNDƏ TULLANTILARDAN İSTİFADƏ İLƏ ŞAGİRDLƏRİN TANIŞ EDİLMƏSİ

**Quliyeva Çiçək Elşad qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Quliyeva.iek@mail.ru*

Kimya sənayesi və onun inkişafı , ölkəmizin mineral sərvətləri və onun qorunması əsas yer tutur. Ona görə də kimya müəllimi adi və ümumiləşdirici dərslərdə, dərskonfranslarda şagirdlərin aldıqları biliklərdən istifadə edərək onlarda ekoloji bilikləri formalaşdırmalı, məsuliyyət hissi aşılamalıdır. Müəllim "Metallar" mövzusunu keçib qurtardıqdan sonra metalların alınması zamanı əmələ gələn tullantıların təkrar emalından alınan xammaldan tikinti materialları sənayesində istifadə olunması ilə şagirdləri tanış etməlidir. Sənaye tullantılarından bir çox qabaqcıl ölkələrdə və respublikamızda əsas yeri silikat tikinti materiallarının istehsalı tutur. Bura sement, şüşə, dəmir-beton, asbest-sement, kərpic və s. aiddir. Bu məhsulların istehsalı üçün tozuducu, elektrofiltirli qurğulardan istifadə edilir. Udulan tullantı işlənərək əsas komponentlər ayrıldıqdan sonra tullantı tozdan sement istehsalı ilə yanaşı həm də yaxşı gübrə kimi istifadə edilir. Sənaye tullantıları öz kimyəvi tərkibinə görə çox müxtəlif və təbii xammala yaxın olub, sənaye sahəsi üçün potensial xammal mənbəyidir. Bu xammaldan tikinti materiallarının istehsalında da istifadə edilir [1, 2].

Kimya müəllimi şagirdlərin ekoloji biliklərinin təkmilləşdirilməsində aktiv mövqe tutmalı, aşağıdakı istiqamətlərdə iş aparmalıdır:

- Ekoloji materialın seçilməsi və ayrı-ayrı dərslərdə öyrənilmiş materiallar əsasında ümumiləşdirici dərsin mövzusu seçilməlidir;
- Şagirdlərin ekoloji tərbiyəsi ilə təbiətin mühafizəsi arasında olan praktik işlərdən istifadə edilməlidir;
- Kimya dərslərində və dərsdən kənar tədbirlərdə ölkəmizin təbii resurslarına məsuliyyət hissi aşılamaqdır. Dərsin bu cür qurulması şagirdlərin psixologiyasını dəyişir, onlarda ekoloji mədəniyyət aşılayır. Şagirdlərdə biosferin qorunmasında şəxsi məsuliyyət hissini inkişaf etdirir.

Azərbaycanda özünə məxsus əhəmiyyət kəsb edən xammalardan biri dəmir filizidir. Onun dünyada 1200-dən artıq yataqları aşkarlanmışdır. Ehtiyatı 0,6 mln tondan çox olan və XX əsrin II yarısından Rustavi metallurgiya kombinatını konsentratla təmin etmiş Kiçik Qafqazın Daşkəsən yatağı Qafqazda istismar olunan ən böyük dəmir filizi yatağı sayılır . Müəllim izah etməlidir ki, qara metallurgiyada tikinti sənayesi üçün birinci yeri domna şlakı tutur. Bu tullantı dəmir filizindən çuqunun alınmasında əmələ gəlir. Domna şlakının tərkibi çox mürəkkəbdir. Onun tərkibində 30-a qədər müxtəlif kimyəvi element oksid şəklində olur: $SiO_2$, $Al_2O_3$, CaO, MgO, az miqdarda isə FeO, MnO, S, $B_2O_3$, $TiO_2$, $V_2O_5$ və s. olur[3-5]. Ən çox effektli istehsal metallurgiya zavodu ilə sement zavodunun birlikdə işləməsi nəticəsində yaranır. Metallurgiya zavodunda alınan tullantı sement istehsalı zavoduna verilir. Şlakdan bu cür effektiv istifadə yüksək keyfiyyətli sement istehsal etməyə, xüsusilə tezbərkiyən sement istehsalına imkan verir. Müəyyən edilmişdir ki, domna prosesində əmələ gələn və tərkibində 15% MgO olan maqneziumlu şlak şlaklıportland sement istehsalında istifadə oluna bilər. Maqne-

ziumlu şlakdan alınan portland sement nəhəng hidroqurğuların tikintisində istifadə edilir. Bu gün tullantılardan alınan sement istehsalı 1,5-2 dəfə artmışdır. Buraxılan M 300 markalı dəmir-beton konstruksiyaların, şlakportland sementin əsasında domna şlakı durur. Domna şlakından başqa qara metallurgiyada ferromanqanlı şlakdan da aşağı temperatura davamlı keyfiyyətli tikinti materialları istehsal edilir.

Müəllim şagirdlərə izah edir ki, Azərbaycanda Gəncə alüminium zavodu alüminium zəyindən əsas məhsul olan $Al_2O_3$ alınır və təmiz oksid Sumqayıt alüminium zavoduna göndərilir, orada elektrokimyəvi üsulla alüminium alınır. Alüminium istehsalında əmələ gələn tullantıdan, təkrar işlənmədən sonra mühüm əhəmiyyətli məhsullar alınır.Təbii resurslar kimya dərslərində tədricən asandan çətinə, sadədən mürəkkəbə prinsipləri əsasında öyrədilməlidir. Şagirdlərin yaddaşında uzun müddət qalması üçün müəllim müstəqil işlərə istinad etməlidir. O, təbii resurslar, onların yataqları, istismarı, istehsalı, iqtisadi əhəmiyyəti, iqtisadiyyatın inkişafında rolu və digər məsələlərə dair şagirdlərə təqdimat, layihə, stend, kimi müstəqil işlərə cəlb etməklə onlarda nəzəri biliklərinin praktikada tətbiqinə nail ola bilər. Belə müstəqil işlərin hazırlanması ilə şagirdlər ölkənin təbii sərvətlərini öyrənməklə həmin sahələrin inkişafı, daha səmərəli təşkili, müasir texnikanın bu sahədə tətbiqi məsələlərini həll etmək kimi bilik və bacarıqlar əldə edərlər.

## YEDDİNCİ SİNFİN KİMYA KURSUNDA ŞAGİRDLƏRDƏ FƏNNƏ MARAĞIN FORMALAŞMASINDA KİMYA BİLİKLƏRİNİN HƏYATLA ƏLAQƏLƏNDİRİLMƏSİNİN ROLU

**Quliyeva Rəhimə Arif qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rahimakuliyeva@gmail.com*
**Elmi rəhbər: dos. A.C.Quliyev**

Ümumtəhsil məktəblərində şagirdlərin kimya fənninə maraqlarının, dərketmə aktivliklərinin inkişaf etdirilməsinə təlim prosesinin həyatla əlaqələndirilməsi prinsipi əsasaında nail olmaq mümkündür. Yeddinci sinfin kimya kursunun proqramı və dərsliyinə daxil edilmiş mövzuların tədrisində həyatla əlaqə prinsipindən istifadə olunması üçün geniş imkanlar mövcuddur.

Elmi-metodik ədəbiyyatların araşdırılması və kimya müəllimlərinin iş təcrübəsi ilə tanışlıqdan məlum oluşdur ki, kimya tədrisində biliyin həyatla əlaqələndirilməsi prinsipindən istifadə olunmasının metodikası lazımi səviyyədə işlənməmişdir.

Tədqiqat işində əsas məqsəd yeddinci sinfin kimya kursunda mövzuların həyatla əlaqələndirilməsi imkanlarını müəyyən etmək, təlim prosesini şagirdlərdə nəzəri biliklərin və praktik bacarıqların formalaşmasına istiqamətləndirməyin metodikasını işləyib hazırlamaqdan ibarət olmuşdur.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən olunmuş və həyata keçirilmişdir:

* eksperiment və kontrol siniflər müəyyən olunmuşdur.

* eksperimentin aparıldığı siniflərdə kimya biliklərinin həyatla əlaqələndirilməsi prinsipindən istifadə olunmuşdur.

* şagirdlərin kimya fənninə maraqları öyrənilmişdir.

* kimya biliklərinin həyatla əlaqələndirilməsinə şagirdlərin münasibəti müəyyən olunmuşdur.

* şagirdlərin kimyadan nəzəri biliklərin praktika ilə əlaqəsinə maraqları öyrənilmişdir.

* kimya eksperimentinin müxtəlif növlərinin (nümayiş təcrübələri, laboratoriya işləri və praktik işlər) aparılmasında həyatla əlaqə prinsipindən istifadə etməklə şagirdlərin fənnə marağının inkişaf etdirilməsi həyata keçirilmişdir.

* şagirdlərdə fənnə marağın formalaşması metodikası hazırlanmışdır.
* təlim prosesində fəal təlim metodlarından istifadə olunmuşdur.

Eksperiment və kontrol siniflərdə şagirdlərin kimya fənninə maraqlarının inkişaf etdirilməsində həyatla əlaqə prinsipindən istifadə olunmasının rolu müəyyən olummuşdur.

Eksperiment aparılan siniflərdə "Məhlullar" müvzusunun həyatla əlaqələndirilməsinin şagirdlərin fənnə marağınına təsirinin nəticələri birinci cədvəldə verilmişdir.

***Cədvəl 1.***

**"Məhlullar" mövzusunun həyatla əlaqələndirilməsi prinsipindən istifadə olunması ilə tədrisi prosesində şagirdlərin meyar cədvəli üzrə qiymətləndirilməsi,%**

| Qrup | Bərk maye və qaz halında maddələrin suda həllolmasına təsir edən amilləri izah edir. Həll olan maddə və həlledicini rabitənin tipi ilə xarakterizə etməyi bacarır. | Maddələrin həllolmasını onların aqreqat hallarına görə izah edir. Maddələrin həllolmasının fiziki-kimyəvi proses oldugunu dərk edir. | Məhlullarin təbiətdə və canlı orqanizmlərin həyatında rolunu dərk edir. Kimya elminin nailiyyətlərinin insan fəaliyyətinin müxtəlf sahələrində tətbiqinə dair bilkləri öyrənməyə maraq göstərir. | Ümumu nəticə,% |
|---|---|---|---|---|
| I | 87 | 92 | 98 | 92 |
| II | 93 | 88 | 79 | 87 |
| III | 89 | 91 | 87 | 89 |
| IV | 77 | 85 | 92 | 85 |
| V | 94 | 86 | 79 | 86 |

"Məhlullar" müvzusunun tədrisində həyatla əlaqə prinsipindən istifadə olunması prosesində qrupların ümumi qiymətləndirilməsi meyar cədvəli üzrə aşağıdakı kimi hesablanmışdır:

I qrup: (87 + 92 + 98) : 3 = 92
II qrup: (93 + 88 + 79) : 3 = 87
III qrup: (89 + 91 + 87) : 3 = 89
IV qrup: (77 + 85 + 92) : 3 = 85
V qrup: (94 + 86 + 79) : 3 = 86

Qruplar üzrə alınan nəticə göstərir ki, "Məhlullar" mövzusunun tədrisində həyatla əlaqə prinsipindən istifadə olunması şagirdlərin dərketmə fəallığının və fənnə marağın yüksəlməsinə şərait yaradır.

## TARİXİ ANLAYIŞLARIN ÖYRƏDİLMƏSİNİN MAHİYYƏTİ

**Mikayılzadə Samirə Sabir qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mikayilzadesamire@gmail.com*

Hər hansı bir elmin əsaslarını mənimsəmək üçün onun anlayışlar sistemini mənimsəmək zəruridir. Təlim prosesində anlayışların təfsirinə məntiqi yanaşma ən çox istifadə olunur. Məntiqi nöqteyi-nəzərindən istənilən məfhum termin və məna ilə xarakterizə oluna bilər.

Anlayışlar adətən aşağıdakı növlərə bölünür: 1) tək və ümumi, 2) kollektiv və qeyri-kollektiv, 3) konkret və mücərrəd, 4) müsbət və mənfi, 5) nisbi olmayan və korrelyativ.

Ümumi anlayışlar obyektlər sinfinin əsas xüsusiyyətlərini ifadə edən anlayışdır. Məsələn, "monarxiya" "respublika" anlayışları üçün "idarəetmə forması" anlayışı ümumi xarakter daşıyır.

"Qarabağ tarixi" kursunda bir çox anlayışlar öyrənilir. Onların arasında əhatə dairəsi çox genişdir. Məsələn, "cəmiyyət", "mədəniyyət", "sivilizasiya". Bu anlayışların əksəriyyətinin əlamətləri nəzəri təhlillə müəyyən edilir və çox vaxt kifayət qədər abstrakt xarakter daşıyır.

Kursa, həmçinin geniş anlayışlarla ümumiləşdirilən hadisələrin spektrinin bir hissəsini əhatə edən daha kiçik anlayışlar da daxildir. Bunlar özəl anlayışlardır. Nisbətən kiçik anlayışlar da ("vergi", "dövlət büdcəsi" və s.) mövcuddur ki, onlar çox spesifik fərqləndirici əlamətlər toplusuna malikdir.

Müxtəlif əsaslara malik ola bilən anlayışların təsnifatı mühüm rol oynayır. Təsnifatlardan biri tarixi materialın məzmunu ilə müəyyən edilir:

a) iqtisadi anlayışlar, əmək alətləri, müxtəlif tarixi dövrlərdə təsərrüfat fəaliyyət növləri, təsərrüfat prosesləri ilə bağlı anlayışlar;

b) ictimai-siyasi məfhumlar ictimai münasibətləri, dövlətin siyasi quruluşunu açan məfhumlardır. Məsələn, "torpaq sahibləri" və "kəndlilər", "hüquqi dövlət", "inqilab";

c) tarixi-mədəni anlayışlar maddi və mənəvi mədəniyyətin nailiyyətlərini əks etdirən anlayışlardır. Məsələn, memarlıq, rəssamlıq, poliqrafiya.

Tarix anlayışlardan istifadə etməklə öyrənilir. Assosiativ nəzəriyyədən belə nəticə çıxır ki, nöqteyi-nəzərindən mühüm əlamətlərin ümumi, zəruri və fərqləndirici əlamətlər olması, anlayış isə müəyyən xassələrə malik olan bütün obyektlərin (hadisələrin) sinfidir.

Müxtəlif sahələri əhatə etməklə tarixi anlayışların tədrisi tarixi materialının məzmununun nəzəri komponentinə aiddir. Onların formalaşması prosesi həmişə məktəb təhsilinin mühüm tərkib hissəsi olmuşdur, çünki tarixçilər elmi biliklər sisteminin "özəyini" anlayışlar baxımından görmüş və görməkdədirlər də. Bu baxımdan da konsepsiya dedikdə obyekt haqqında məntiqi şəkildə formalaşmış ümumi düşüncəni, bir şey haqqında təsəvvürü nəzərdə tuturuq. Tarixi anlayışların mənimsənilməsi tarixi faktların ən mühüm, səciyyəvi xüsusiyyətlərinin şagirdlər tərəfindən mənimsənilməsi, keçmiş və indiki hadisələrin, eləcə də proseslərin onların şüurunda ən mühüm əlaqə və münasibətlərdə əks olunması deməkdir. Bu, şagirdlərin tarix kurslarında qarşılaşdıqları çoxlu tarixi faktların dərk edilməsi, onların sistemləşdirilməsi və ümumiləşdirilməsi üçün əsasdır. Bu da öz növbəsində aparıcı dünyagörüşü ideyalarının formalaşmasına, məktəb tarix kurslarında anlayışların seçilməsi, xarakterizə edilməsi və formalaşmasına onların bir neçə əsasda aparılan təsnifatı kömək edir. Tarixi materialların məzmununa görə tarixi anlayışlar aşağıdakılara bölünür: iqtisadi, sosial-siyasi, tarixi-mədəni, ideoloji. Şagirdlərin yaşına uyğunluğuna bağlı idraki imkanlarını nəzərə alaraq, bu anlayışlar qrupunun seçilməsində və onların müəyyənləşdirilməsində aşağıdakı meyarlar tətbiq edilir:

1) verilmiş dövrün, öyrənilən faktlarının keyfiyyətcə unikallığını xarakterizə etmək üçün kifayətlik.

2) şagirdlər tərəfindən tarixi hadisə və ya hadisələrin mahiyyətinin elementar başa düşülməsinə ehtiyac;

3) eyni ardıcıllıqla yeni faktların öyrənilməsində faydalılıq.

Anlayışlarla məqsədyönlü işləmək üçün, ilk növbədə onların strukturunu aydın başa düşmək lazımdır. Şərti olaraq, onu aşağıdakı düsturla təsvir etmək olar: anlayış = termin + tərif, burada termin anlayışı bildirən söz və ya sözlərin birləşməsini, tərif isə iyerarxik ardıcıllıqla xüsusiyyətlərin qısa və ya ətraflı siyahısı deməkdir: ümumi, xüsusi və əlavə.

Tarixin tədrisində ardıcıl təşkil olunmuş mərhələlərdən ibarət anlayışlar sisteminin formalaşmasından danışmalıyıq; xüsusi tarixi anlayışların (firon, demos) tətbiqi; sonra ayrı-ayrı xüsusiyyətlər və onların daha yüksək səviyyəli anlayışlara (qədim Şərq despotizmi) ümumiləşdirilməsi; sonra xüsusi xüsusiyyətlərin mücərrədləşməsi, ümumiyə yüksəliş. Bu, anlayışların induktiv formalaşması yoludur. Bunun əksi də tətbiq olunur - deduktiv: əvvəllər təqdim edilmiş anlayışın ümumi xüsusiyyətləri konkret və fərdi olanlar tərəfindən konkretləşdirilir və onların əsasında ümumi tarixi və xüsusi tarixi anlayışlar təqdim olunur.

Tarixi anlayışların səmərəli formalaşdırılmasının metodoloji şərtləri kimi aşağıdakılar tanınır:

✓ bir-biri ilə əlaqəli və bir-birindən asılı faktların şagirdlər tərəfindən mənimsənilməsi əsasında nəzəri ümumiləşdirmələrin mənimsənilməsi;

✓ öyrənilən anlayışın və ya qanunauyğunluğun məntiqində faktların sistemləşdirilməsi və ümumiləşdirilməsi;

✓ dərsdən dərsə onlar haqqında bilikləri dərinləşdirməyə və genişləndirməyə imkan verən anlayışların formalaşmasının ən uyğun mərhələlərinin müəyyən edilməsi;

✓ yeni anlayışların formalaşmasında ideyaların və tipik obrazların rolunun daim nəzərə alınması;

✓ terminin və konsepsiyanın xüsusiyyətlərinin tədqiq olunan materiala optimal erkən daxil edilməsi və bu əsasda onun sistemləşdirilməsi;

✓ tarixi anlayışların müxtəlif qruplarının xüsusiyyətlərini nəzərə almaq;

✓ anlayışların ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqədə açıqlanması;

✓ yeni anlayışlardan istifadə etmək üçün şagirdlərin fəal idrak fəaliyyətinin təşkili;

✓ tədris tarixi materialının təqdim edilməsində emosional və məntiqi amillərin düzgün nisbəti;

✓ anlayışlar üzərində işləmək prosesində məktəblilərin təfəkkürünün inkişafı.

Beləliklə, müəllim nəinki anlayışın tərifini diktə etməli, həm də şagird ilə birlikdə onu təhlil etməli, başqaları ilə müqayisə etməli, ümumi və xüsusi olanı vurğulamalıdır.

## FİZİKA MÜƏLLİMİ HAZIRLIĞINDA TERMODİNAMİKA BAXIMINDAN SƏTHİ GƏRİLMƏNİN TƏDRİSİ

**İmranlı Reyhanə Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ryhnmrnl@list.ru*

Maye molekulları arasındakı cazibə qüvvəsinin mövcudluğu, mayenin səthi istiqamətində yönələn və səthi genişləndirməklə səthə toxunan istiqamətdə yönələn tangensial qüvvənin yaranmasına səbəb olur. Sistemin dayanıqlı halı onun enerjisinin minimum olmasına uyğun gəldiyindən, hər bir maye öz səthini kiçiltməyə və nəticədə əlavə səth enerjisini azaltmağa çalışır. Maye səthində istənilən bir xəyali xətt seçsək, bu xəttin hər bir nöqtəsinə əks istiqamətdə yönəlmiş və maye səthini gərməyə çalışan qüvvə təsir edəcək. Bu xətt mayenin səth konturunu məhdudlandıran kontur xəttidir. Səthi gərilməni kəmiyyətcə xarakterizə etmək üçün maye səthində baxılan molekula təsir edən qüvvələrin əvəzləyicisi nəzərə alınır. Bu qüvvə səthi gərilmə qüvvəsi adlanır. Toxunan olmaqla mayenin səth konturunu məhdudlanıran kontur xəttinin uzunluğuna təsir edən qüvvə səthi gərilmə əmsalı adlanır və $\sigma$ ilə işarə edilir.




$$\sigma = \frac{F}{l} \quad (1)$$

Mayenin səthi gərilməsi onun yerləşdiyi fiziki şəraitdən, maye ilə sərhədlənən mühitin təbiətindən və mayenin təmizlik dərəcəsindən asılıdır. Səthi gərilməyə bu aspektdən yanaşmaqla deyə bilərik ki, bir sıra maddələr əlavə etməklə mayelərin səthi gərilməsini dəyişdirmək mümkündür. Mayenin səthi gərilməsini azaldan maddələr səthi aktiv maddələr, səthi gərilməsini artıran maddələr isə səthi inaktiv maddələr adlanır. Maye səthini böyütmək məqsədilə səthaltı təbəqədə (səth pərdəsində) yaranan səthi gərilmə qüvvəsinə qarşı iş görmək lazımdır. Çubuqdan düzəldilmiş, bir tərəfi mütəhərrik olan düzbucaq formalı çərçivəni sabunlu su-

ya daxil edib çıxardıqda çərçivənin daxili hissəsində sabunlu su pərdəsinin yarandığını müşahidə etmiş oluruq.

Asanlıqla hərəkət edə bilən $l$ uzunluqlu hissəni $F$ qüvvəsi ilə $\Delta x$ qədər sürüşdürən zaman pərdənin gərilməsi nəticəsində onun sahəsi $\Delta S_n = 2\ell\Delta x$ qədər artaraq $\Delta x$ qədər yerdəyişmə zamanı $F$ qüvvəsinin gördüyü iş **F**

$$-\Delta A = F \cdot \Delta x = \sigma \cdot \ell \cdot \Delta x = \sigma \cdot S_n^* \quad (2)$$

olar. Bu ifadədən

$$\sigma = -\frac{\Delta A}{S_n^*} \quad (3)$$

alarıq.

Son ifadəyə əsasən deyə bilərik ki, səthi gərilmə əmsalı maye səthini vahid qədər artırmaq üçün görülən işə bərabərdir. Mənfi işarəsi səthin böyüməsi nəticəsində görülən işin mənfi olmasını göstərir.

Adiabatik prosesdə termodinamikanın I qanununa görə səthaltı təbəqənin gərilməsi zamanı görülən iş daxili enerjinin dəyişməsinə $(\Delta U)$ bərabərdir. Daxili enerjinin dəyişməsi səth pərdəsinin genişlənməsi zamanı yaranan səth ($\Delta U_s$) və həcm ($\Delta U_V$) enerjilərinin dəyişmələri cəminə bərabərdir:

$$\Delta U = \Delta U_s + \Delta U_V \quad (4)$$

Səthin adiabatik genişlənməsi zamanı görülən iş daxili enerji hesabına baş verdiyindən səth təbəqəsinin temperaturu azalmalıdır. Temperaturun azalması gərilmə prosesində böyük kinetik enerjiyə malik həcmi molekulların səthə çıxması və bunun nəticəsində onların kinetik enerjisinin qismən potensial enerjiyə çevrilməsi ilə əlaqədardır. Enerjinin yalnız səth enerjisi hesabına azalması üçün səth pərdəsinin gərilməsi izotermik olaraq baş verməlidir. Xaricdən pərdəyə $\Delta Q = T \cdot \Delta S$ istiliyi verdikdə bu hal yarana bilər ($\Delta S$ -pərdənin entropiyasının dəyişməsidir). Səth pərdəsinin genişlənməsi zamanı mayenin həcmində heç bir dəyişiklik baş vermədiyindən, daxili enerjinin dəyişməsi yalnız səth enerjisinin dəyişməsinə bərabər olur. Bu dediklərimizi nəzərə alsaq,

$$\Delta U = \Delta U_s = -\Delta A + \Delta Q = \sigma \Delta S_n^* + \Delta(TS) \quad (5)$$

olar. Buradan isə

$$\sigma = \frac{\Delta(U_s - TS)}{\Delta S_n^*} = \frac{\Delta E_s}{\Delta S_n^*} \quad (6)$$

ifadəsini almış oluruq. $\Delta E_s$ - sistemin halının izotermik dəyişməsi zamanı enerjinin işə çevrilən hissəsidir.

Beləliklə, səthi gərilmə anlayışının formalaşdırılması zamanı ona bir-birinə ekvivalent olan iki aspektdən yanaşmaq mümükündür :

- ✓ Səthi gərilmə - toxunan olmaqla, mayenin səth konturunu məhdudlandıran kontur xəttinin vahid uzunluğuna təsir edən qüvvədir.
- ✓ Səthi gərilmə - mayenin vahid səthinin sərbəst enerjisidir.

Birinci aspekt səthi gərilməni ***qüvvə***, ikinci aspekt isə ***energetik*** baxımdan təsvir edir.

*Təhsilin təşkili və idarə edilməsi*

## Ədəbiyyat:


1. E.Eyvazov, N.Niftiyev, S.Ş.Qurbanov, A.M.Allahverdiyev, Ş.X.Xəlilov, V.İ.Hüseynov. Mexanika və molekulyar fizika (laboratoriya praktikumu). Bakı, 2014, s. 199-215.
2. E.Ə.Eyvazov, S.Ş.Qurbanov, Ş.X.Xəlilov. Molekulyar fizika və termodinamikaya giriş. Bakı, 2010, s. 602.
3. Əhmədov F.A. Mexanika və molekulyar fizika. Bakı, BDU, 2005.

4. С.Оно, С.Кондо. Молекулярная теория поверхностного натяжения в жидкостях. Москва, 1963.

5. А.К.Кикоин, И.К, И.К.Кикоин. Молекулярная физика. Москва, Наука, 1976, с. 340-344.

## X SİNİFDƏ I MƏZMUN XƏTTİ ƏSASINDA "DİNAMİKANIN ƏSASLARI" TƏDRİS VAHİDİNƏ AİD MƏSƏLƏLƏRİN SEÇİLMƏSİ və TƏDRİSİNƏ DAİR

**Rəcəbova Günel Ceyhun qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunel_racabova@mail.ru*

X sinifdə "Dinamikanın əsasları" tədris vahidi üzrə "Fiziki hadisələr, qanunauyğunluqlar və qanunlar" məzmun xəttinin reallaşdırılması üçün seçilmiş məsələlərin məzmununa diqqət yetirilməsi prinsipi ön plana çəkilməlidir. Fəsildə I məzmun xəttinin reallaşdırılması nəzərdə tutulan alt standartları aşağıdakılardır:(sxem 1.)

*1.1.1.Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarını şərh edir.*

*1.1.2.Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.*

*1.1.3.Mexaniki hərəkəti, istilik hərəkətini xarakterizə edən kəmiyyətlər arasındakı əlaqəni şərh edir.*

*1.1.4.Mexaniki və istilik hadisələrinin tətbiqinə dair təqdimatlar edir. [1]*

***Sxem 1.***

Nəzəri və praktik araşdırmalardan məlum olmuşdur ki, öyrənənlər anlayış və kəmiyyətlərin mahiyyətinin tam başa düşülməsində bir sıra çətinliklərlə qarşılaşırlar. Buna görə elə məsələ tiplərinə baxmaq lazımdır ki, o təlim materialı ilə bilavasitə əlaqəli olub onu tam mənimsəməyə xidmət etsin. Hesab edirik ki, bu çətinlikləri məsələ həllinin köməyilə aradan qaldırmaq olar. İndi isə göstərilən alt standartların həyata keçirilməsində istifadə olunacaq müxtəlif xarakterli məsələ tiplərinə baxaq.

X sinifdə I məzmun xəttinin "1.1.1.Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarını şərh edir." alt standartının həyata keçirilməsi üçün keyfiyyət xarakterli məsələ tiplərindən geniş istifadə edilsə, fizika hadisələr və qanunauyğunluqlar dəqiq təsvir edilər və tədris olunan mövzu daha da möhkəmlənər:

***Tapşırıq 1.***

Son illər dəniz əyləncələrinə yenisi əlavə olunub. Şəkil.3-də dəniz suyunu itələyən və dənizdə irəliləyişə səbəbolan bu əyləncə alətinin müxtəlif funksiyaları var. ***"Flyboard"*** adlanan bu alət təqribəndəniz səviyyəsindən 10 m yüksəkliyə qalxa bilər. Bundan əlavə, bu alət dənizə doğru daxil olaraq delfinlərin hərəkətləri kimi oxşar hərəkətlərə imkan yaradır. Sizcə bu alətin iş prinsipi nə ola bilər? (Şəkil 2.)



**Şəkil 2.**“Flyboard”

X sinifdə I məzmun xəttinin “1.1.3.Mexaniki hərəkəti, istilik hərəkətini xarakterizə edən kəmiyyətlər arasındakı əlaqəni şərh edir.” alt standartının həyata keçirilməsində müxtəlif xarakterli məsələ tiplərindən istifadə edilməsi məqsədəuyğundur. Belə ki, aşağıdakı məsələ tipləri xarakterikdir: *kəmiyyət xarakterli və qrafik tipli məsələlər*. Belə məsələlərə üstünlük verilməsində əsas məqsəd odur ki, şagirdlər fiziki kəmiyyətlər olan qüvvə, təcil və kütlə arasındakı əlaqəni kəmiyyət baxımdan öyrənib şərh edirlər. Qeyd olunanlar bununla bitmir, çünki məsələnin seçilməsi ilə bərabər onu təsvir edəcək şəkilin və ya sxemin başa düşülən olması gərəklidir. Tapşırıq o zaman effektli olar ki, onun şərti həm fiziki hadisə və qanunauyğunluqları təsvir etməklə yanaşı, əyaniliyə də uyğun olsun. Şəkillərin əyani və rəngli olaraq həyatdan götürülməsi həqiqətən şagirdləri fizika elminin həyatla əlaqəsini anlamağa sövq edəcək. Deyilənləri nəzərə alaraq bir neçə kəmiyyət xarakterli məsələ nümunələrinə baxaq:



***Şəkil.3***

***Tapşırıq 2.***

Bucaq altında yerləşdirilən lövhələrin üzərində kütləsi 150 kq, üfüqlə 37° bucaq əmələ gətirən qayıq şəkildəki kimi tarazlıqdadır. Qayığa təsir edən sürtünmə qüvvəsini tapın. (Şəkil 3.)

(g = 10 N/kq; sin 37° = 0,6; cos 37° = 0,8)

***Tapşırıq 3.***

Samir sabit halda dayanan 3 kq kütləli yükə 20 N qüvvə tətbiq edərək hərəkət edir. (Şəkil 5.)

a) Yükə təsir edən qüvvənin qiymətini hesablayın. (Sürtünmə nəzərə alınmır)

b) Döşəmənin sürtünməli olduğunu nəzərə alaraq yükə təsir edən qüvvənin qiymətini hesablayın (sürtünmə əmsalı 0,5-ə bərbərdir).




***Şəkil 5.***

*Tapşırıq 4.*

a təcili ilə hərəkət edən vaqonların tavanlarından asılmış m, 2 m və 3 m kütləli kürələr şaquli istiqamətdə a, β və θ bucaqları əmələ gətirərək tarazlıqdadır. a, β və θ bucaqları arasında müqayisə aparın. (Şəkil 6.)




*Şəkil 6.*

**Ədəbiyyat:**


1. İsmayılov İ. Fizikanın tədiri metodikasının müasir problemləri. Bakı-2019. 378 səh.
2. Ekstrem yayıncılık. 10-cu sınıf Fizik. Konu anlatımlı soru bankası.
3. Tutku yayıncılık. 9-cu sınıf. Orta öğretim fizik ders kitabı.
4. Palme yayıncılık. Fizik ilkeleri. Problem çözümleri. J.Fredick, Jerde, A.David, J.Bueche. Ankara, 2003


## YARIMKEÇİRİCİ DİOD MÖVZUSUNA DAİR DƏRSİN TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ


**Niftəliyev İlham Mais oğlu**
**Azərbaycan Dövlət Pedoqoji Univerisiteti**
*ilhamfatihiniftaliyev@gmail.com*
**Elmi rəhbər: prof. Şükür Həmid Əlizadə**


Texnologiya dövründə yaşadığımıza görə artıq ənənəvi təlim metodlarında qarşıya müəyyən qədər problemlər çıxır. Xüsusən fizika kimi fənni tədris edən müəllim daim yenilik axtarışında olmalı, öyrəniləcək mövzunu necə sadə və anlaşıqlı şəkildə tədris edə biləcəyinin yollarını axtarmalıdır. Müəllimin vəzifəsi şagirdə fənni tədris edərkən məlumatları beyninə anbar kimi depolatmaq (əzbərlətmək) yox, məlumatları beynində emal edə bilməyi, mövzuların bir-birilə əlaqəsini anlamağı, onlara tənqidi yanaşa bilmək və praktik həyatla əlaqələndirmək bacarığı formalaşdırmalıdır. Müasir, innovativ müəllim şagirdləri məntiqi, tənqidi, yaradıcı təfəkkür əməliyyatlarına sövq etməlidir. İnter – ingilis sözü (Enter) olub üç məna ifadə edir: “Daxilə təsir”, “Qarşılıqlı fəaliyyət”, “Dialoq” mənasını verir. Hər üç məna təlim prosesinin fəallaşdırılmasına, yaradıcı və səmərəli olmasına, daha öyrədici, inkişafetdirici, tərbiyəedici olmasına əlverişli imkan və şərait yaradır. Fəal və interaktiv təlim metodları kollektiv fəaliyyət olaraq dinləyici şəxsiyyətinin fəallaşması, onun idrak prosesinə fəal qoşulması vasitələridir ki, bu da şagirdlərdə özünə, öz qüvvəsinə, yaranan problemləri həll edə bilməyinə inam hissi yaradır, yaradıcı fəaliyyətə istiqamətlənir. Böyük alman pedaqoqu A. Disterveq demişdir: "Bacardıqca uşaqlara az öyrətməli, amma daha çox düşünməyi öyrətməli. Uşaqların başını biliklərlə doldurmayın. Sobanı da ağzınadək odunla doldursan o yanmaz, tüstüləyər. Amma, az odun qoysan və onu sistemli qoysan soba alovlanıb yanar. Uşaqlara fikirləri deyil, daha çox fikirləşməyi öyrətmək lazımdır".

**Nümunə. IX sinifdə “p – n keçidi. Yarımkeçirici diod” mövzusu**. Bu mövzu üzrə alt standartlar və həmin standartlar üzrə təlim nəticələri aşağıdakı kimidir (Murquzov, 2018):

**Alt STANDARTLAR**

2.1.3. Maddəni quruluşuna və xassələrinə görə təsnif edir.

3.1.1. Elektromaqnit (maqnit və işıq), atom və nüvə hadisələrinə uyğun cihazlardan istifadə edir.

**TəlimNƏTİCƏLƏRİ**

İki müxtəlif yarımkeçirici kristalda kontakt elektrik keçiriciliyinin fiziki mexanizmini izah edir.

Yarımkeçirici diodun quruluş və iş prinsipini şərh edir, onu üstünlüklərinə görə vakuum diodundan fərqləndirir.

**İş forması**: Əməkdaşlıq, Böyük və kiçik qruplarla iş

**İş üsulu**: BİBÖ, beyin həmləsi, müsahibə

**Resurslar**: interaktiv lövhə, fərdi kompüter, nümayiş diodu, sabit cərəyan mənbəyi, rezistor, ampermetr, açar, birləşdirici naqillər, sabit cərəyan mənbəyi,

Göründüyü kimi, bu dərsdə öyrənənlərə iki müxtəlif yarımkeçirici kristalda kontakt elektrik keçiricliyinin fiziki mexanizmini, yarımkeçirici diodun quruluş və iş prinsipini, onu üstünlüklərinə görə vakuum diodundan fərqləndirməyi şərh etməyi aşılanmalıdır. İndi isə interaktiv metodla dərsin müəyyən mərhələlərin araşdıraq.

1. **Motivasiya.**Fizikanın tədrisində motivasyanın qurulması xüsusi əhəmiyyət kəsb edir. Motivasiya müxtəlif yollarla yaradıla bilər rəsm, fotoşəkil, ədəbi əsərdən parça, tapmaca və s. Bu halda öyrənənlər hadisəni vizual olaraq gördüyünə görə yadlarında daha qalıcı olar. Belə ki, Şəkil 1-i göstərərək müraciət etmək olar. Məlumdur ki, birtərəfli klapanı olan borularda su bir istiqamətdə axır. Şəkildən göründüyü kimi də su soldan sağa doğru axaraq klapanı itələyir və ordan keçərək axmağa başlayır. Öyrənənlərə aşağıdakı suallarla müraciət edirəm.

- Şəkildə su tərs (sağdan sola doğru) axsa nə baş verər?
- Nə üçün su klapandan axmadı?



**Şəkil 1**

Göründüyü kimi belə motivasya yaratmaq şagirdi düşündürməkdən əlavə həyatla da əlaqələndirməsinə köməklik edəcəkdir. Müəllim öyrənənlərin fikirlərini alır, amma cavablandırmır və "motivasyanın sualının cavablarına növbəti mərhələlərdə aydınlıq gələcəyini" qeyd edərək növbəti mərhələyə keçir.

**2. Tədqiqat sualı və aparılması.**

*Tədqiqat sualı:*Yarımkeçirici elementdən cərəyan niyə bir istiqamətdə keçir. Bu mərhələdə p-n keçidinin fiziki mahiyyətinin aydınlaşdırmaqdan ötrü sinifi 4 qrupa ayırırıq. Dərslikdə də verilmiş (Murquzov, 2018) "diod niyə birtərəfli keçiriciliyə malikdir" araşdırmasını yerinə yetirəcək. Araşdırmanın necə yerinə yetirləcəyi ilə bağlı müəllim öyrənənləri bir neçə dəqiqəlik təlimatlandırır. Sonra öyrənənləri qruplara ayırır.

I qrup. Donor və akseptor aşqarları kontakta gətirdikdə nə baş verir?

II qrup. Vakuum diodunda katod və anodun fiziki mahiyyətini şərh edin.

III qrup. Yarımkeçirici elementin vakuum diodundan hansı üstünlükləri var?

IV qrup. Elektrik cərəyanı niyə keçmədi təcrübəsini yerinə yetirin (Murquzov, 2018).

**3. Məlumat mübadiləsi və müzakirəsi.** Hər bir qrupun lideri qrupun aldığı nəticələri müəllimə təqdim edir. Müəllim onları dinləyir və digər qrup üzvləri də öz münasibətini bildi-

rir, öyrənənlərin çətinlik çəkdiyi yəni mövzuya aid yeni anlayışların izahını verir. Bu mərhələnin əsas məqsədi şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsidir.

**4. Ümumiləşdirmə və nəticələrin çıxarılması.** Əvvəldən başlayaraq motivasiya sualı təhlil oluna bilər və ya öyrəndiklərimizi sistemləşdirə bilərik.

**5. Yaradıcı tətbiqetmə.**

Öyrənənlər fərdi kompütürlərindən istifadə edərək. "Auidino" proqramında led lampalarının fasilə ilə yanmasına dair işi icra etmək tapşırıla bilər və ya təchizat yoxdursa BİBÖ cədvəlindən istifadə edərək bildiklərini təkminləşdirə bilərlər.

**7.Refleksiya və qiymətləndirmə.** Bu mərhələdə müəllim şagirdlərin yeni mövzunu nə dərəcədə mənimsədiklərini müəyyənləşdirmək məqsədilə formativ qiymətləndirmə apara bilər Dərsin təlim məqsədlərinə nail olmaq dərəcəsini müəyyən meyarlar (Murquzov, 2018) üzrə qiymətləndirmək olar. Bununla yanaşı, müəllim şagirdlərə yeni mövzu ilə əlaqədar aşağıdakı sualları verə bilər və ya bu sualları cədvəl şəklində tərtib edərək şagirdlərə təqdim edib onlardan özlərini qiymətləndirmələrini xahiş edə bilər:

- Bu gün nələri öyrəndiniz?
- Hansı məsələlər sizin üçün aydın olmadı?
- Bügünkü dərsin 2 əsas çətin məqamını qeyd edin.
- Mən (müəllim olaraq) sizə mövzunu anlamaqda hansı köməyi göstərə bildim?
- Mövzu ilə bağlı xoşunuza gələn bir neçə məqamı qeyd edin.

**Ev tapşırığı.** Diodların tətbiqləri haqqında esse yazmağı tapşırmaq olar.

### Ədəbiyyat:


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2013].Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı(kurikulumu). Bakı.

2.Murquzov M., Abdurazaqov R., Əliyev R., Şərifov Q. Fizika. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik, Bakı 2018.

3. Abdurazaqov R., Əliyev R. Fizika. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün metodik vəsait, Bakı 2018

4. İsmayılov İ. Fizikanın tədrisi metodikasının müasir problemləri, Bakı 2019, s 83

5. Diesterweg A. Guide to the education of German teachers. Selected pedagogical essays. Moscow: Uchpedgiz, 1956.

6. Əlizadə Ş., İsmayılov İ. Fizikanın tədrisi metodikası, Bakı 2018 s 165

7. Şərifov Q.M. (2019). Fizika dərsində uğurlu motivasiya. Kurikulum, c.12, N 1 (45), s.53-57.

8. Kaderoğlu A., Kaya N. 12-cı sınıf fizik ders kitapı, 2019, s 247

9.Akpınar Y. "Öğretmenlerin yeni bilgi teknolojileri kullanımında yüksek öretimin etkisi" Turkish Online Journal of Educational Technology, 2003, sayfa 11.

10.Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Dərs vəsaiti, Bakı, 2014


## IX SİNİF TEXNOLOGİYA DƏRSLİKLƏRİNDƏ "KOMPÜTERİN TİPİ VƏ NÖVÜ. KOMPÜTERİN İŞ PRİNSİPİ "MÖVZUSUNUN TƏDRİS PROSESİNDƏKİ ROLU


**Bağırova Gülnar Qasım qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gulnarbaghirova10@gmail.com*



***Açar sözlər:*** *texnologiya, elektron texnologiyaları, kompüter, müəllim, şagird, yeni təlim texnologiyaları*

***Ключевые слова:*** *технология, ıлектронная техника, компьютер, учитель, ученик, новые технологии обучения*

***Key words:*** *technology, electronic technology, computer, teacher, student, new learning technologies*

**Xülasə**

Məqalədə yeni təlim texnologiyalarından bəhs olunmuş və “kompüterin növü və tipi, iş prinsipi” mövzusunun müasir şəraitdə dərsliklərin səmərəli və keyfiyyətli tədrisindəki rolu nəzərə alınmışdır.

**Резюме**

В статье рассматриваются новые технологии обучения и роль «компьютерного типа и типа, принöипа работы» в ıффективном и качественном преподавании учебников в современных условиях.

**Summary**

The article discusses new learning technologies and the role of "computer type and type, working principle" in the effective and quality teaching of textbooks in modern conditions.

Təhsil sisteminin informasiyalaşdırılmasında əsas vəzifələrdən biri də ölkə miqyasında müəllimlərin, şagirdlərin, valideynlərin və təhsillə maraqlanan hər bir kəsin mənafeyinə xidmət edən, özündə təhsil-tərbiyə proseslərinin müxtəlif aspektləri barədə məlumatları cəmləşdirən vahid təhsil şəbəkəsinin yaradılması və təhsil müəssisələri arasında operativ informasiya mübadiləsinin təmin edilməsidir.Məlumdur ki, texnologiya dərsliklərində kompüterin tipi, növü və iş prinsipi mövzusunun tədris prosesində rolu, şagirdlərin təfəkkür fəaliyyətinin inkişafındakı əhəmiyyəti olduqca böyükdür. IX sinif texnologiya dərsliyindəki elektron texnologiyaları bölməsində şagirdlər texnika elementləri (kompüterlər, bankomatlar, paltaryuyanlar, tozsoranlar, mikrodalğalı sobalar və.s.) ilə yaxından tanış olurlar. Bu sahəylə bağlı zəruri bilikləri öyrənir və həmin bilikləri günlük həyatında səmərəli şəkildə istifadə edirlər.[4] Kompüterlərdən istifadə edə bilməyən şagird məlumdur ki, artıq yeni təlim texnologiyalarından da səmərəli, əlverişli şəkildə yararlana bilməyəcək. Buna görə də IX sinif texnologiya dərsliklərində tədris olunan "Kompüterin tipi və növü. Kompüterin iş prinsipi" mövzusunun tədris prosesindəki rolu olduqca böyük əhəmiyyət kəsb edir.

XX əsrin ən böyük kəşflərindən biri hesab edilən kompüter texnologiyası böyük bir sürətlə inkişaf edərək, cəmiyyətin inkişafetdirici qüvvəsinə, elmi-texniki, iqtisadi tərəqqinin, ictimai-siyasi münasibətlərin, bir sözlə həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu gün dünyamızı kompütersiz təsəvvür etmək demək olar ki, mümkün deyil. Artıq bütün sahələrdə kompüterin istifadəsi bizim gündəlik işimizə çevrilmişdir. Hal-hazırda dünyada kompüter texnologiyasında ictimai həyatın bütün sahələrində istifadə edildiyi kimi təhsil sahəsində də geniş tətbiq edilməkdədir. Dünyanın bir çox ölkələri bir neçə illərdir ki, bu sahədə bir sıra uğurlu addımlar atmışdır. Məsələn, ABŞ-da kompüter texnologiyasından əsasən 60-70-ci illərdən geniş istifadə edilməyə başlamışdır, ictimai həyatın müxtəlif sahəsində istifadə olunmağa başlamışdır. Bu sahədə digər Avropa ölkələri öndə gedən ölkələr sırasındadır. [1,2] Bu istiqamətdə hər məktəbin internet saytının yaradılması, həmin saytda məktəb, pedaqoji heyət, oxuyanlar haqqında ətraflı məlumatların yerləşdirilməsi, müəllim, uşaq və valideynlər üçün xüsusi forumların təşkil edilməsi, forumlarda təhsilin aktual problemləri, yeniliklər, təzə kitablar və s. haqqında müzakirələrin aparılması mühüm əhəmiyyətə malikdir. Məktəbin internet saytında dərs planlarının, cədvəllərinin, məktəbdə keçiriləcək tədbirlər barədə məlumatların və soraq xarakterli informasiyaların yerləşdirilməsi də məqsədəuyğundur. Vahid təhsil şəbəkəsinin ümumdünya informasiya məkanına inteqrasiya etdirilməsi isə müəllim və şagirdlərin təhsil üçün faydalı olan dünya internet resurslarına daxil olmasına, virtual kitabxanalardan, fayl arxivlərindən, verilənlər bazasından istifadə etməsinə və xarici təhsil müəssisələri ilə yaxından əlaqə saxlamasına əlverişli şərait yaradacaqdır. Valideynlər təhsil şəbəkəsindən öz uşaqlarının davamiyyəti və müvəffəqiyyəti barədə də operativ informasiya ala biləcəklər.

Kompüterin tipi dedikdə oxşar funksionallığa və ya istifadə qaydalarına malik kompüterlər qrupu nəzərdə tutulur. Kompüterlərin növü dedikdə müəyyən hesablama texnikası və xarici görünüşlərində oxşarlıq olan fərqləndirici imkanlara malik hesablama qurğuları nəzərdə

tutulur.[3]Bu da texnologiya fənnində tədris olunan elektron texnologiyası bölməsinin nə dərəcədə zəruri olduğunu bir daha nəzərə çatdırır. Distant, onlayn təhsilin bir sıra üstünlükləri vardır:

Kompüterdə işləmək marağı artır; zamana qənaət; gələcək üçün lazım ola biləcək distant təhsil ilə işləmək bacarıqlarının inkişafı; əlavə tədris materiallarını daha dərindən öyrənmə imkanı; tədris materiallarının müstəqil öyrənmə bacarıqlarının inkişafı; evdə təhsil alma imkanı.

Lakin müasir dövrün müəllim, pedaqoq heyəti elm və texnika günü-gündən inkişaf etdiyinə görə sadəcə kompüterlərlə kifayətlənmir, bununla yanaşı daha müasir üsullardan istifadə edirlər. Tədrisdə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə edən müəllimlərin sözlərinə görə, İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim - şagird - dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, uşağın dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və yekun etibarilə şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır.

Tədris prosesində interaktiv lövhədən istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir. Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. "Ağıllı" lövhə, həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini "möcüzəli" ekranda izləyə bilərlər. Bu isə şagirdlərin nəzəri-metodoloji biliklərini, praktiki bacarıq və təcrübələrini inteqrasiya etməklə tədrisi xeyli canlandırır, uşaqlarda yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətini daha da artırır.

"Ağıllı" lövhənin bir üstün cəhətini də xüsusi qeyd etmək lazımdır ki, onun üzərində aparılan bütün əməliyyatları, dərsin gedişini, hazırlanmış şablonları, modelləri kompüterin daimi yaddaşında saxlamaq və dəfələrlə istifadə etmək olar. Belə imkanlar müxtəlif səbəbdən dərsləri buraxan şagirdlər və ya təlimdən geri qalan uşaqlar üçün xüsusi əhəmiyyətə malikdir. Belə ki, şagird iştirak edə bilmədiyi dərsin elektron variantı ilə sonradan tanış ola bilər və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana kimi təkrar-təkrar kompüterdə izləyə bilərlər.

Məktəblərdə STEM dərsləri-Layihənin tətbiq olunduğu bütün təhsil ocaqları maddi-texniki baza ilə təmin olunub, kadr hazırlıqları həyata keçirilib. Hazırda Bakının 42 məktəbində (biri özəl məktəb olmaqla) STEM dərsləri tədris olunur. Yeni tədris ilində həftədə 2 saat olmaqla təhsilalanlarda qurma, yaratma, müxtəlif layihələrin reallaşdırılması, 3D printerlərdə çap, micro:bitlə proqramlaşdırma və tətbiqi prosesləri, CNC lazer kəsiciləri, pilotsuz uçan hava aparatları (tədris dronları) üçün hazırlanmış kurikulum üzrə STEM dərslərinin tədrisinə başlanılacaqdır. [4]

Göründüyü kimi artıq kompüter texnologiyaları çox böyük inkişaf yolu keçmişdir. "Virtual reallığ"ın əsas üstünlüyü müxtəlif məkanlarda olan insanları bir auditoriyada toplamaq və sonsuz sayda siniflər yarada bilmək imkanıdır. Ən kiçik zal 30 nəfərlikdir. Səs və görüntü 3D-dir. Bu distant təhsil proqramı VR eynəkləri ilə yanaşı, istənilən kompüter proqramında da işləyə bilir. Burada bütün idarəetmə müəllimdə olur. Ən vacib üstünlüklərdən biri də virtual reallıqda olanların sosiallaşa bilməsi, ünsiyyət qurmasıdır. Bu üsulla dərslərin tədrisi olduqca

əlverişli və səmərəli hesab olunur. Şagirdlərin öyrəndiklərini anlamalarını asanlaşdırır və eyni zamanda gerçəkliyi yaşamalarına imkan yaradır. Virtual reallıq təhsil sistemində bir çox imkanlar açır .


**Ədəbiyyat:**

1. Azad Qurbanov, Elçin Məmmədov, Aygün Hüseynova. Kompüter texnikası və proqramlaşdırma. Bakı 2010

2.Basic of computer and information technology Ashok Arora, 2015

3. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Texnologiya fənni üzrə dərslik, Bakı, 2020

4.https://www.muallim.edu.az/www.old/arxiv/2014/40/37.htm,http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm


## TEXNOLOGİYA DƏRSLƏRİNDƏ İSTİFADƏ OLUNAN METODLAR


**Rzayeva Nərmin Namiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nerminrzayeva_98@mail.ru*


İnsan cəmiyyətinin inkişafı üçün sosial təcrübəni getdikcə daha çox yeni nəsillərə ötürməlidir. Sosial təcrübənin gənc nəsillərə ötürülməsi zərurəti cəmiyyətin yaranması ilə eyni vaxtda yaranmışdır və onun inkişafının bütün mərhələlərində mövcud olacaqdır. Valideynlər öz təcrübələrini övladlarına, böyüklər kiçiklərə, daha təcrübəli olanlar daha az təcrübəlilərə və s. İnsan cəmiyyəti inkişaf etdikcə bəşəriyyətin təcrübəsi daha həcmli və rəngarəng olur. Əsrlər boyu sosial təcrübənin ötürülməsi prosesi insanın mövcudluğu üçün təbii olaraq davam edirdi və sosial tədqiqatın predmeti deyildi. Bəşəriyyətin inkişafının müəyyən mərhələsində o qədər təcrübə toplanmışdı ki, təbii mövcudluq zamanı onu mənimsəmək mümkün deyildi. Həmin andan sosial təcrübənin ötürülməsi prosesi önə çıxdı və məqsədyönlü oldu. Bu hadisə pedaqoji proses adlanır.Pedaqoji proses böyüklər və kiçiklər arasında xüsusi təşkil olunmuş qarşılıqlı əlaqədir. Bu qarşılıqlı əlaqənin məqsədi cəmiyyətdə həyat və işləmək üçün zəruri olan sosial təcrübənin böyüklər tərəfindən ötürülməsi və kiçiklərin inkişafıdır. “Texnologiya” fənninin mövzusu məqsədlərin, məzmunun və təlim prosesinin qarşılıqlı əlaqəsidir.Əsas götürülən texnoloji təhsil konsepsiyası “Texnologiya” təhsil sahəsinin aşağıdakı məqsəd və vəzifələrini irəli sürür:-İntellektual potensialı, təhsili və peşəkarlığı artırmaq.

-Tədris sisteminin formalaşmasına yaradıcı yanaşmanı təmin etmək.

-Şagirdi bir şəxsiyyət kimi tərbiyə etmək

-Şagirdlərə həyati bilik və bacarıqların öyrətmək.

-İqtisadiyyat, menecment, marketinq sahələrində bilikləri tətbiq etmək bacarığı formalaşdırmaq.

**Dərsin məqsədlərini müəyyən etmək**.

Dərslərə hazırlaşarkən, təşkilati formasından asılı olmayaraq, müəllim həm kurrikulumun bütün bölməsinin, həm də ayrıca dərsin məqsəd və vəzifələrini dəqiq müəyyən etməyi bacarmalıdır.

Tədris prosesində məqsəd tələbələrlə birlikdə həll edilməli olan konkret təhsil vəzifəsi kimi başa düşülür. Üç növ təlim məqsədi var:maarifləndirici; inkişafetdirici; tərbiyələndirici

Məqsədin həyata keçirilməsi üçün müxtəlif metodlardan istifadə olunur.Bir çox alimlər tədris metodlarının müxtəlif təsnifatlarını təklif etmişlər. Məsələn, E.Ya.Qolant şagirdlərin fəaliyyət səviyyəsinə görə təsnifat təklif etdi. M.N.Skatkin məhsuldar fəaliyyətdə iştirak səviyyəsinə görə təsnifat hazırlamışdır. Tamamilə fərqli bir yanaşma E.I.Perovski və D.O.Lordkipanidze, bilik mənbələrinə görə təsnif etməyi təklif etdi.Bir çox təsnifat əlavə edərək, elm adamları aşağıdakı üsulları fərqləndirirlər: **1. İzahlı və illüstrativ**. Bu metodun mahiyyəti ondan ibarətdir ki, müəllim hazır məlumatı bildirir, şagirdlər isə onu qavrayaraq düzəldirlər.

Buraya hekayə, mühazirə, dərsliklə işləmə kimi texnikalar daxildir; **2.Reproduktiv üsul.** Bu, əvvəlcədən müəyyən edilmiş bir alqoritmə uyğun olaraq şagird tərəfindən təhsil hərəkətlərinin təkrar istehsalından ibarətdir; **3. Problemin ifadəsi**. Müəllim şagird qarşısında problem qoyur və onun həlli yolunu özü göstərir. Şagirdlər problemin həlli məntiqinə əməl edirlər; **4. Qismən axtarış (evrestik) metodu**. Nəticə ondan ibarətdir ki, müəllim problem tapşırığını alt problemlərə bölür və şagirdlər onun həllini tapmaq üçün ayrıca addımlar atırlar; **5.Tədqiqat metodu**. Şagirdlər lazımi üsulları seçərək müəllimin qarşıya qoyduğu problemi müstəqil həll edirlər.

## VIII-IX SİNİF TEXNOLOGİYA DƏRSLƏRİNDƏ "SADƏ TƏMİR İŞLƏRİ"NƏ AİD MÖVZULARDA BİLİK VƏ BACARIQLARIN FORMALAŞDIRILMASININ ARAŞDIRILMASI

**Ələkbərov Qadir Nizaməddin oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Kadir.alekberov@bk.ru*

***Açar sözlər:*** *texnologiya, elektron texnologiyaları, kompüter, müəllim, şagird, yeni təlim texnologiyaları*

***Ключевые слова:*** *технология, электронная техника, компьютер, учитель, ученик, новые технологии обучения*

***Key words:*** *technology, electronic technology, computer, teacher, student, new learning technologies*

**Xülasə**

Orta məktəbdə texnolgiya fənninin tədris olunması texnologiyanı təkcə ümumtəhsil predmenti kimi deyil, həm də cəmiyyətin tələblərinə cavab verən gənclərə zəruri bilik və bacarıqları qazandıraraq ümumi və peşə təhsilində yeni istiqamətlər və geniş imkanlar yaradılması ilə bağlıdır.

**Резюме**

Преподавание технологии в вузе является не только предметом общего образования, но и создает новые направления и возможности в общем и профессиональном образовании, обеспечивая молодежь необходимыми знаниями и умениями для удовлетворения потребностей общества.

**Summary**

Teaching technology in high school is not only a subject of general education, but also creates new directions and opportunities in general and vocational education, providing young people with the necessary knowledge and skills to meet the needs of society.

Son 30 ildə Azərbaycanda ümumi təhsil sistemindəki dəyişikliklər bir çox fənlərin tədrisinin məzmun və texnologiyalarının dəyişməsinə səbəb oldu, həmçinin praktiki olaraq "Texnologiya" fənninin məzmununa təsir göstərmişdir. Hal-hazırda Texnoloji təlimin məzmununun ənənəvi materiallara və onların emalı texnologiyalarına istiqamətləndirilməsi məhs məişət mədəniyyətinin və ümumi əmək mədəniyyətinin formalaşmasına imkan verir, son 30 ildə baş vermiş islahatların nəticəsində texnologiya fənni artıq müasir dövrün tələblərinə cavab verir. Müasir dövrdə texnologiya fənni, müasir cəmiyyətin və müvafiq elm və texnologiya dünyasının, həmçinin istehlakçıların ehtiyaclarının (tələblər, onların valideynləri, peşə təhsilli müəssisələri, işəgötürənlər) bütün tələblərini tam qarşılayır. Təsadüfi deyil ki, bu hal son 10 ildə məktəblilər üçün texnoloji təhsilin inkişaf vektorunun fəal müzakirəsi müxtəlif təhsil müəssisələrinin ehtiyaclarını nəzərə alaraq tədris materialının məzmununu müasir dövrün və texnoloji cəmiyyətin tələblərinə uyğunlaşdırmaq məqsədi ilə tam üst-üstə düşür.

Müasir dövrdə elə bir vəziyyət yaranmışdır ki, yalnız bir ixtisasla kifayətlənmək mümkün deyil. İnsan öz texnoloji bacarıqları sayəsində universal istehsal sahələrində fəaliyyət göstərə bilməlidir. Ona görə də məktəblərdə gələcəyin geniş profilli mütəxəssislərinin formalaşdırılmasının ilkin təməlinin qoyulması problemi aktual problem kimi vacib sayılır. Orta məktəbdə də tədris olunan texnologiya fənnində keçirilən mövzularda sadə təmir işləri ev əşyalarının təmiri və dizaynla bağlı bilik və bacarıqların təməli qoyulur. Eyni zamanda şagirdlərin əl işlərinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı ilə yanaşı təsərrüfat təhsilinin də təməli qoyulur. Məişət mədəniyyətinin tədrisi zamanı öyrədilən bilik və bacarıqlar vasitəsilə şagirdlər həyatda insana lazım olan davranış qaydalarına riaət etmək təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına riayət etmək sadə təmir-tikinti işlərini yerinə yetirmək və bitkilərə qulluq etmək bacarıqlarını qazanırlar.Eyni zamanda şagirdlərdə ailə-məişət mədəniyyəti və ənənələri, interyer tərtibatı və dizayn habelə ictimai yerlərdə (evdə, nəqliyyatda, məktəbdə, qonaq getdikdə və s.). Davranış və ünsiyyət qaydalarına əməl etmək, öz işi və yaşayış yerlərini təşkil etmək bacarığı formalaşır.

Texnologiya fənninin orta məktəblərdə tədrisi zamanı ən diqqət ayırılan mövzulardan biri də məişət mədəniyyətinə aid olan sadə təmir işləri mövzularıdır.

VIII sinifə təhsil şagirdlər aşağıdakı mövzularla tanış olurlar.

1.Mənzildə aparılan təmir işlərinin texnologiyası. Divarların işlənməsi

2.Divar kağızlarının çəkilmə texnologiyası. Divar və tavanların rənglənməsi.

3.Tavanın təmirolunma texnologiyası

4.Su təchizat sistemi elementlərinin təmiri texnologiyası. Axıdıcı çən

5.Santexnika sistemi elementlərinin təmiri texnologiyası. Sifon

Məzmun standartları

VIII:

3.1 Məişətdə zəruri hesab olunan bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.

3.1.1 Xidmət sahəsində mədəni davranış və ünsiyyət qaydalarını şərh edir

3.1.2 Yaşayış yerində və məktəbdə sadə təmir işləri aparır, dekorativ bəzək işlərini yerinə yetirir.

Yuxarıda qeyd olunan mövzular nisbətən mürəkkəb və kompleks olsa da şagirlərin artıq aşağı siniflərdən sadə təmir işlərinə dair ilkin biliklərə malik olduğundan qeyd olunan mövzuların mənimsənilməsi nisbətən daha asan olur. Artıq şagirdlər su təchizatı və santexnik işlər ilə bağlı sadə təmir işlərini yerinə yetirir. Yaşayı yerlərinə və məktəbdə sadə təmir işlərini aparır. Dekorativ bəzək işlərini yerinə yetirir. Bununla yanaşı şagirdlər bu sinifdə asanlıqla sadə təmir işlərini yerinə yetirə bilirlər. Şagirdlər artıq məktəb və mənzillərdə divar kağızlarının çəkilməsi divar və tavandan sadə təmir işlərini santexnik sistem elementlərinin sadə təmir işlərini yerinə yetirmək üçün lazım olan bilik və bacarıqlara tam yiyələnirlər.

Sadə təmir işlərinin tədris olunduğu dərslərin əsas məqsədi şagirdləri müstəqil həyata hazırlamaqdır.

IX sinif və şagirdlər nisbətən kompleks mövzularla tanış olurlar. Bu mövzular aşağıda sırası ilə qeyd olunmuşdur.

1.Ağacdan hazırlanmış pəncərələrin təmir texnologiyası

2. Plastik kütlə və onun insan həyatındakı rolu

3. Plastik kütlədən olan pəncərələrin konstruktiv elementləri və təmiri texnologiyası

4. Yaşayış yerinin interyerinin formalaşması

Məzmun standartları:

IX sinifdə şagird:

3.1 Məişətdə zəruri hesab edilən bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.

Yuxarıda qeyd olunan mövzuların tədrisi zamanı şagirdlər sadə təmir işlərini qavrayır və sahə üzrə lazım olan bütün bilik və bacarıqlara yiyələnir.

**Ədəbiyyat:**

1. Ümumtəhsil məktəblərinin 8-ci sinifi üçün Texnologiya üzrə dərslik (səh.35-49/96) Bakı. 2018
2. Ümumtəhsil məktəblərinin 9-cu sinifi üçün Texnologiya üzrə dərslik (60-75/128) Bakı 2018
3. Əsgərov Ş.Təhsilimiz: dünən, bu gün, sabah (səh 309) Bakı 2003
4. Ümumtəhsil məktəbləri üçün fənn kurikulumu(səh.309) Bakı 2008

# TEXNOLOGİYA DƏRSLƏRİNDƏ İSTİFADƏ OLUNAN TƏDRİS VƏ TƏQDİMAT METODLARI

**Rzayeva Nərmin Namiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nerminrzayeva_98@mail.ru*

***Açar sözlər:*** *texnologiya, bilik, bacarıq, üsul, frontal, təlimat, elektrotexnika*

***Ключевые слова:*** *технология, знания, навыки, метод, фронтальное, обучение, ıлектротехника*

***Key words:*** *technology, knowledge, skills, method, frontal, instruction, electrotechnology*

**Xülasə**

Təhsil vəzifələri məktəblilərin mənəvi və şəxsi keyfiyyətlərini formalaşdırmaq üçün nəzərdə tutulmuşdur. Texnologiya dərsləri əmək tərbiyəsi və ümumi mədəniyyətin inkişafı üçün ən əlverişli şərait yaradır. Texnologiya dərsləri yeniliyə həssaslığı inkişaf etdirməyə, həmçinin elektrotexniki düşüncəni inkişaf etdirməyə imkan verir.

Elektrotexniki işlərə dair dərslərin keçirilməsi metodikasının işlənib hazırlanması prosesində bir sıra təlim metodlarından istifadə olunur.

Texnologiya dərslərində şagirdlər sxem yığa, təcrübə edə, yaradıcılıqlarını göstərə, uşaqlarda işə müsbət münasibət inkişaf etdirə, təşəbbüskarlıq və müstəqillik inkişaf etdirə bilərlər.

**Резюме**

Учебные задания предназначены для формирования нравственных и личностных качеств учащихся. Технологические занятия создают наиболее благоприятные условия для трудового воспитания и развития общей культуры. Технологические занятия позволяют развивать восприимчивость к инноваöиям, а также развивать ıлектротехническое мышление.

В проöессе разработки методики проведения занятий по ıлектромонтажным работам используется ряд обучающих методик.

На занятиях по технологии учащиеся могут собрать схему, поıкспериментировать, проявить свои творческие способности, сформировать у детей положительное отношение к труду, развить иниöиативу и самостоятельность.

**Summary**

Educational tasks are designed to shape the moral and personal qualities of students. Technology classes create the most favorable conditions for labor education and the development of general culture. Technology classes allow to develop sensitivity to innovation, as well as to develop electrotechnical thinking.

A number of training methods are used in the process of developing a methodology for conducting classes on electrical work.

In technology classes, students can assemble a scheme, experiment, show their creativity, develop a positive attitude to work in children, develop initiative and independence.

İnsan cəmiyyətinin inkişafı üçün sosial təcrübəni getdikcə daha çox yeni nəsillərə ötürməlidir. Sosial təcrübənin gənc nəsillərə ötürülməsi zərurəti cəmiyyətin yaranması ilə eyni vaxtda yaranmışdır və onun inkişafının bütün mərhələlərində mövcud olacaqdır. Valideynlər öz təcrübələrini övladlarına, böyüklər kiçiklərə, daha təcrübəli olanlar daha az təcrübəlilərə və s. İnsan cəmiyyəti inkişaf etdikcə bəşəriyyətin təcrübəsi daha həcmli və rəngarəng olur. Əsrlər boyu sosial təcrübənin ötürülməsi prosesi insanın mövcudluğu üçün təbii olaraq davam edirdi və sosial tədqiqatın predmeti deyildi. Bəşəriyyətin inkişafının müəyyən mərhələsində o qədər təcrübə toplanmışdı ki, təbii mövcudluq zamanı onu mənimsəmək mümkün deyildi. Həmin andan sosial təcrübənin ötürülməsi prosesi önə çıxdı və məqsədyönlü oldu. Bu hadisə pedaqoji proses adlanır.

Pedaqoji proses böyüklər və kiçiklər arasında xüsusi təşkil olunmuş qarşılıqlı əlaqədir. Bu qarşılıqlı əlaqənin məqsədi cəmiyyətdə həyat və işləmək üçün zəruri olan sosial təcrübənin böyüklər tərəfindən ötürülməsi və kiçiklərin inkişafıdır.[1]

“Texnologiya” fənninin mövzusu məqsədlərin, məzmunun və təlim prosesinin qarşılıqlı əlaqəsidir.

Əsas götürülən texnoloji təhsil konsepsiyası “Texnologiya” təhsil sahəsinin aşağıdakı məqsəd və vəzifələrini irəli sürür:

-İntellektual potensialı, təhsili və peşəkarlığı artırmaq.

-Tədris sisteminin formalaşmasına yaradıcı yanaşmanı təmin etmək.

-Şagirdi bir şəxsiyyət kimi tərbiyə etmək

-Şagirdlərə həyati bilik və bacarıqların öyrətmək.

-İqtisadiyyat, menecment, marketinq sahələrində bilikləri tətbiq etmək bacarığı formalaşdırmaq.

**Dərsin məqsədlərini müəyyən etmək**.

Dərslərə hazırlaşarkən, təşkilati formasından asılı olmayaraq, müəllim həm kurrikulumun bütün bölməsinin, həm də ayrıca dərsin məqsəd və vəzifələrini dəqiq müəyyən etməyi bacarmalıdır.

Tədris prosesində məqsəd tələbələrlə birlikdə həll edilməli olan konkret təhsil vəzifəsi kimi başa düşülür.

Üç növ təlim məqsədi var:

- ✓ maarifləndirici;
- ✓ inkişafetdirici;
- ✓ tərbiyələndirici.

Məqsədin həyata keçirilməsi üçün müxtəlif metodlardan istifadə olunur.

Bir çox alimlər tədris metodlarının müxtəlif təsnifatlarını təklif etmişlər. Məsələn, E.Ya.Qolant şagirdlərin fəaliyyət səviyyəsinə görə təsnifat təklif etdi. M.N.Skatkin məhsuldar fəaliyyətdə iştirak səviyyəsinə görə təsnifat hazırlamışdır. Tamamilə fərqli bir yanaşma E.I.Perovski və D.O.Lordkipanidze, bilik mənbələrinə görə təsnif etməyi təklif etdi.[3] Bir çox təsnifat əlavə edərək, elm adamları aşağıdakı üsulları fərqləndirirlər:

**1. İzahlı və illüstrativ**. Bu metodun mahiyyəti ondan ibarətdir ki, müəllim hazır məlumatı bildirir, şagirdlər isə onu qavrayaraq düzəldirlər. Buraya hekayə, mühazirə, dərsliklə işləmə kimi texnikalar daxildir.

**2. Reproduktiv üsul.** Bu, əvvəlcədən müəyyən edilmiş bir alqoritmə uyğun olaraq şagird tərəfindən təhsil hərəkətlərinin təkrar istehsalından ibarətdir.

**3. Problemin ifadəsi**. Müəllim şagird qarşısında problem qoyur və onun həlli yolunu özü göstərir. Şagirdlər problemin həlli məntiqinə əməl edirlər.

**4. Qismən axtarış (evrestik) metodu**. Nəticə ondan ibarətdir ki, müəllim problem tapşırığını alt problemlərə bölür və şagirdlər onun həllini tapmaq üçün ayrıca addımlar atırlar.

**5. Tədqiqat metodu**. Şagirdlər lazımi üsulları seçərək müəllimin qarşıya qoyduğu problemi müstəqil həll edirlər.

Texnologiya üzrə “Elektrotexniki” işlərə aid dərslərdə daha çox izahlı-illüstrativ metoddan, problemin təqdim edilməsi metodundan və reproduktiv metoddan istifadə olunur.[4]

**Şagirdlərin fəaliyyətinin təşkili formasının seçimi**.

Əmək təliminin təşkilati forması dedikdə, təhsil işi üçün şagird komandasının təşkili yolları, məktəblilərin fəaliyyətinə rəhbərlik formaları, habelə təlim məşğələlərinin qurulmasının strukturu başa düşülür.[2]

“Elektrotexniki” işlərə aid dərsdə konkret işin necə təşkil olunmasına yalnız texnologiya müəllimi qərar verir.

Hazırda texnologiya dərslərində şagirdlərlə işinin dörd formasından istifadə olunur:

Fərdi iş

Cütlərlə iş

Qruplarla iş

Bütün siniflə iş

“Elektrotexniki” işlərə aid mövzuların tədrisində aşağıda qeyd etdiklərimizi nəzərə almaq lazımdır: birincisi, biliklərin mənimsənilməsi, peşəkar bacarıq və bacarıqların inkişaf etdirilməsi baxımından hansı formaların daha effektiv olduğunu müəyyən etmək vacibdir.

İkincisi, təlimin təşkili zamanı məktəblilərdə istehsal və müasir texnoloji proseslərin real ideyasına uyğun olanının formalaşdırılması vacibdir.[5]

Dərsin effektli alınması üçün iş formalarından ən uyğununu seçmək lazımdır. Şagirdlər kiçik qruplara bölünür (3-6 nəfər).Qrupun tərkibi daimidir. Şagirdlər şəxsi baxışları (dostluq, ümumi maraqlar və s.) rəhbər tutaraq özləri qruplar yaradırlar. belə ki, o, həm güclü, həm də zəif, düşüncə tərzi ilə fərqlənən şagirdləri əhatə edir. Qrupun işinə şagirdlərin müstəqil seçdiyi və hər növbəti dərsdə dəyişən usta rəhbərlik edir. [9] Bu təşkilat formasının üstünlükləri göz qabağındadır. Bu, məktəblilərə əməyin müasir təşkili haqqında düzgün təsəvvür yaratmağa imkan verir.

**Dərsin tədris materialı və avadanlıqları.**

“Elektrotexniki” işlərə aid dərslərinin müvəffəqiyyəti əsasən onların maddi-texniki təminatını müəyyən edir. İşsizlik sinifdə nizam-intizamın bəlasıdır. Məktəblilər üçün iş obyektlərini diqqətlə seçməklə müəllimin maddi təminatdan asılılığını xeyli dərəcədə azaltmaq olar. Əmək obyektlərinin seçiminin iki aspekti var: çox sadə, nisbətən material tutumlu olmayan, şagirdlər üçün maraqsız ola bilər və istehsalda maraqlı - olanlarla təmin etmək çətindir. Müəllimlər əmindirlər ki, biliklərin ünsiyyətinə kompleks yanaşma, şüurlu müstəqil iş bacarıqlarının formalaşdırılması mütləq şagirdlərin yaradıcılıq fəaliyyətini aktivləşdirir. Müəllim yerli şəraitdən asılı olaraq hansı əmək obyektlərinin seçiləcəyinə özü qərar vermək hüququna malikdir. Onların məktəblilər arasında müsbət motivasiya formalaşdırması vacibdir. Şagirdləri öyrənməyə həvəsləndirmək didaktikanın ən mühüm tələbidir. Texnologiya dərslərində bu yanaşma tədris prosesinin ayrılmaz tərkib hissəsinə çevrilməlidir.[6]

Görkəmli alim-müəllimlər (E.D.Novojilov, V.M.Kazakeviç, A.F.Ktitorov) əmindirlər ki, uşaqların yeniyetməlik dövrünün xüsusiyyətlərini nəzərə alaraq, onların fiziki və əqli inkişafı məqsədilə məktəb emalatxanalarında əl əməyinə müəyyən dərəcədə qənaət edilməlidir.

Məktəblilər arasında texnoloji bacarıqların inkişaf etdirilməsi prosesində müvəffəqiyyət əməyin təşkilinə və iş obyektlərinin seçilməsinə səriştəli elmi-metodiki yanaşmalardan, pedaqoji təhlildən və təlim emalatxanalarında məktəblilərin bütün fəaliyyətinin təlim və tərbiyəvi əhəmiyyətindən asılı olacaqdır.

Məktəbdə elektrotexniki işlərlə məşğul olmaq üçün emalatxanalarında ən mühüm şərtlərdən biri də tədris prosesini zəruri alətlərlə (fərdi və ümumi istifadə), aparat və əyani vəsaitlərlə təmin etməkdir. Normalara uyğun olaraq “Müxtəlif tipli tədris-istehsalat emalatxanalarının siyahıları” standartı hazırlanmışdır. Standart siyahılar texnologiya otaqları üçün də hazırlanır.

Vurğulamaq lazımdır ki, təlim üçün tədris-maddi bazanın zəruri alətlər və avadanlıqlarla təmin olunması fənn müəlliminin və təhsil müəssisəsinin rəhbərinin fəaliyyətindən asılıdır.

**Şifahi və vizual təqdimat üsullarının mahiyyətinin təsviri**.

Bu üsullar qrupu ən böyük və inkişaf etmişdir. Müxtəlif təlim məqsədlərinə nail olmaq üçün müxtəlif təşkilati formalara malik bəzi metodlardan istifadə oluna bilər.

Bu üsullar:

-yeni biliklər əldə etmək;

-faktiki bacarıqların inkişafı və təhsil fəaliyyətində təcrübənin toplanması;

-öyrənilən materialın təhlili;

-şagirdlərin qarşılıqlı fəaliyyətinin təşkili.

Təqdimat üsulları (metodları) şifahi və vizualdır. [7] Şifahi üsullara aşağıdakılar daxildir:

**Hekayə.** Bu üsul təhsil fəaliyyətinin təşkilində ən çox yayılmışdır. Hekayə müəllim tərəfindən öyrənilən materialın məzmununu hekayə şəklində təqdim etmək üsuludur. Bu üsul təhsilin bütün mərhələlərində tətbiq olunur. Daha tez-tez bu üsul digər elementlər içərisində kəsişdikdə istifadə olunur: müəllimin əsaslandırması, təqdim olunan faktların təhlili və s.

**İzah.** İzahat təqdim olunan materialın müxtəlif müddəalarının şifahi izahı, təhlili, sübutu və şərhi kimi başa düşülməlidir.

**Məktəb mühazirəsi.** Məktəb mühazirəsi şagirdlərin idrak fəaliyyətini artırmaq üsulları ilə birlikdə tədris materialının uzun şifahi təqdimatıdır (əsas fikrin yazılması, qeydlərin aparılması)

**Söhbət.** Söhbət müəllimin diqqətlə düşünülmüş suallar sistemi yaratmaqla şagirdləri düşünməyə həvəsləndirdiyi və şagirdləri yeni materialı başa düşməyə sövq etdiyi və ya artıq öyrənilənlərin mənimsənilməsini yoxladığı dialoqlu tədris metodudur.

Söhbət öz formasında fərdi, qrup və frontal ola bilər.

- Danışıq üsulları aşağıdakı üstünlüklərə malikdir:
- tələbələrin fəaliyyətini aktivləşdirir;
- onların yaddaşını və nitqini inkişaf etdirir;
- biliyə nəzarət etməyə kömək edir;

**Vizual üsullara aşağıdakılar daxildir**:

**Kitab işi.** Bu, ən vacib üsullardan biridir. Kitabla iş iki formada təşkil edilə bilər: müəllimin birbaşa rəhbərliyi altında və müstəqil iş şəklində.Bu metodun mahiyyəti yeni biliklərin mənimsənilməsindən ibarətdir, o zaman şagird materialı öyrəndikdə və oradakı faktları və nümunələri dərk edir, eyni zamanda kitabla işləmək bacarığına yiyələnir.

**Müşahidənin təşkili.** Metod ondan ibarətdir ki, şagirdlər bir hadisəni və ya obyekti müşahidə etsinlər və müəllimin rəhbərliyi altında onun ən mühüm xüsusiyyətlərini vurğulasınlar.

**İllüstrasiya.** İllüstrasiya metodu şagirdlərə illüstrativ vasitələrin göstərilməsini nəzərdə tutur: plakatlar, cədvəllər, sxemlər, lövhədə eskizlər və s.

**Nümayiş.** Bu üsul filmlərin, alətlərin, təcrübələrin, texniki qurğuların və s. nümayişi ilə əlaqəli şifahi və vizual texnikanın sintezidir.

**Subyektlərarası ünsiyyətin həyata keçirilməsi prosesinin təsviri.**

Fənlərarası əlaqələr ətraf aləmin proses və hadisələrinin təbii qarşılıqlı əlaqəsini əks etdirərək təhsilin elmi səviyyəsini yüksəldir. Fənnlərarası ünsiyyət elə aparılır ki, bir akademik fənnin digər akademik fənnin qarşısında duran problemlərin həlli üçün bir vasitə rolunu oynasın. "Texnologiya" kursunun demək olar ki, istənilən mövzusu fənlərarası əlaqələri müəyyən etməyə və həyata keçirməyə imkan verir. Məsələn, elektrotexniki işlər bölməsi fizika ilə sıx bağlıdır.

**Dərsin inkişaf məqsədlərinin həyata keçirilməsi prosesinin təsviri.**

İnkişaf məqsədləri məktəblilərdə peşəkar bacarıq və yaradıcı tətbiqetmənin formalaşdırılmasını nəzərdə tutur. Dərsin ab-havası, müəllimlə şagirdlərin birgə fəaliyyəti əmək vərdişləri, şagirdlərdə əməyə şüurlu münasibətin inkişafı üçün əlverişli şərait yaradır.

İnkişaf məqsədlərinə aşağıdakılar daxildir:

- ***Şagirdlərin bacarıqlarını inkişaf etdirilməsi***:

- təhlil etmək

- suallar vermək

- nəticə çıxarmaq

- mövcud bilikləri praktikada tətbiq etmək
- tapşırıqları formalaşdırmaq

Şagirdlərdə peşəkar maraqların inkişafı

Şagirdləri şüurlu peşə seçiminə hazırlamaq

İnkişaf məqsədi əmək təliminin praktiki yönümünü rəhbər tutmalıdır, bu keyfiyyət onun pedaqoji dəyərini həlledici dərəcədə müəyyənləşdirir.[8]

**Ədəbiyyat:**


1. Н.Н.Малюков, В.К.Устименко. Методические указания. Москва 2003 г.
2. С.А.Смирнов. Педагогика. Педагогические теории, системы, технологии. Издательский центр «Академия». Москва 1999 г.
3. Г.И.Кругликов. Методика преподавания технологии с практикумом. Издательский центр «Академия». Москва 2002 г.
4. В.М.Казакевич. А.В.Марченко. Оценка качества подготовки выпускников основной школы по технологии. Издательство «Дрофа». Москва 2000 г.
5. В.Д.Симоненко. Учебник «Технология» 6 класс. Издательство «Вентана-Граф», Москва, 2000 г.
6. Е.В.Якушина. Методические рекомендации. Издательство «Интерсигнал» Москва 1997 г.
7. И.А.Белоусова. Организация питания в школе. Издательство «Учитель» 2007 г.
8. А.Я.Лабзина. Обслуживающий труд. Издательство «Просвещение» 1982г.
9. Ümumtəhsil məktəblərinin V-VI siniflər üçün Texnologiya dərslikləri


## MÜASİR DÖVRDƏ DİYARŞÜNASLIQ PRİNSİPLƏRİNDƏN İSTİFADƏ YOLLARI


**İsmayılov Valeh Əhəd oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*valeh-ismayilov@mail.ru*



***Açar sözlər:*** *diyarşünaslıq, ekskursiya, ətraf mühit, ekspedisiya,ekspanat, relyef, obyekt, metodika*

***Ключевые слова:*** *ıтнография, ıкскурсия, среда, ıкспедиöия, ıкспозиöия, рельеф, объект, методология*

***Key words:*** *ethnography, excursion, environment, expedition, exposition, relief, object, methodology*



**Xülasə**

Mətndə şagirdlərin diyarşünaslıq prinsiplərinə uyğun olaraq ekskursiya etməsi, ekskursiya zamanı görüləcək ehtiyyat tədbirləri, Müşahidə zamanı bir çox qaydalara əməl etmək, ölkənin müxtəlif coğrafi obyektlərini səyahət etmək və eyni zamanda milli dəyərlərimizi qorumaq aşılanır.

**Резюме**

Текст учит учащихся отправляться в ıкскурсии в соответствии с принöипами ıтнографии, мерами предосторожности, которые необходимо соблюдать во время ıкскурсии, соблюдать множество правил при наблюдении, путешествовать по разным географическим объектам страны и при том беречь наши наöиональные öенности.

**Summary**

The text teaches students to go on excursions in accordance with the principles of ethnography, precautions to be taken during the excursion, to follow many rules during the observation, to travel to different geographical objects of the country and at the same time to protect our national values.

“Ümumi təhsil məktəbləri şagirdlərin təlim-tərbiyəsinin daha da təkmilləşdirilməsi və onların əməyə hazırlanması” haqqındakı 22 dekabr 1977-ci il tarixli qərarda deyilir: İndi ölkədə tam orta təhsilə keçidin yerinə yetirildiyi bir dövrdə orta məktəb məzunları təhsil müddətində elmin əsaslarını və xalq təsərrüfatında işləmək üçün əmək vərdişlərinin dərindən mənimsənilməsini, müəyyən ixtisasa ciddi yanaşmalıdırlar. Təlimin inkişafı istər müəllim fəaliyyətinin istərsə də şagirdlərin daha müasir formada inkişafı deməkdir. Təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəlməsi məktəblilərin idrak marağının inkişafı, müstəqil bilik əldə etmək vərdişlərini seçmək, və onların əməyə məhəbbətini tərbiyə etmək, istehsalatda əməyə hazırlıq şəraiti yaratmaq- bütün bunlar “Azərbaycan mənim vətənimdir” diyarşünaslıq ekspedisiyasının iştirakçılarının işi olub, əsas məqsədə cavab verməlidir. Ekspedisiya doğma vətənin, Azərbaycan Konstitusiyasında qeyd olunmuş nailiyyətlərini öyrənən gənc turist və diyarşünaslar birləşdirir. Məktəbdənkənar işlərin aşağıdakı əsas prinsipləri vardır: Uşaqların könüllü birliyi, özfəaliyyəti və təşəbbüşçülüyü axtarışları yaradıcı xarakteri, onun ictimai faydalı istiqaməti, məktəblilərin kollektiv fəaliyyətinin müxtəlif formaları.

Məktəbdənkənar işlərdən biri də doğma diyarda ekspedisiyaların təşkilidir. Bu ekspedisiyalarda məqsəd məktəblilərin sağlamlığı, fizik inkişafı, dünya görüşlərinin artması, öz diyarlarının təbiətini və sərvətini, tarixi abidələrini, sənayesini və başqa obyektləri öyrənməkdir. Bu məqsədlə təşkil ediləcək ekspedisiyaya uyğun onun iş planı və ədəbiyyatı, məlumat kitabları ilə tanış olmaq ekskursiya işçiləri arasında vəzifə bölgüsü aparmaq, müvafiq tapşırıqlar vermək, lazımi turist vəsaiti və ləvazimatı hazırlamaq lazımdır. Məktəblilərin inkişafinda hər tərəfin maraqlarının təmin edilməsində məktəbdənkənar işin böyük əhəmiyyəti vardır. Şagirdlərin coğrafiyaya həvəsi məhdud olduğu üçün, müəllim öz işində dəqiq olsa da hamısını bir dərsdə ödəyə bilməz. Məhz ona görə də, məktəbdənkənar iş tədris məşğələlərinə zəruri əlavədən biridir. Şagirdlərin müstəqil əqli fəaliyyətinin inkişafına böyük kömək etməklə, məktəbdənkənar iş inkişaf etməkdə olan təlim vəzifələrinin həyata keçməsinə kömək edir. Müəllim coğrafiyanın ayrı-ayrı məsələlərinin öyrənilməsini nəinki daha dərin, həm də əyləncəli edə bilər. Məktəbdənkənar iş şagirdlərin təşəbbüsü, fəallığı və müstəqil fəaliyyəti arasında genişlənir. Diyarşünaslıq tapşırıqların yerinə yetirilməsi gənc turistlərinaxtarış, təqdiqat ekspedisiya yaradıcılığını təşkil edir. Arxiv materialları ilə işləmək muzeylərin və fondların ekspedisiyasını öyrənmək, olarla yazışmaq, qocaman sakinlərlə, yerli diyarşünaslarla, əmək və müharibə veteranları ilə görüşmək, onların söhbətlərini dinləmək, faydalı qazıntılar axtarmaq, doğma diyarın təbiətini (relyefini, havasını, suyunu, bitki və heyvanlar aləmini, mədəniyyətini) öyrənmək tələb olunur. Yaxşı təşkil edilmiş axtarış işi məktəb tədrisi proqramında diyarşünaslıq prinsipini fənn kabinələrini, yəni diyarşünaslıq materialları və əyani tədris vasitələri ilə zənginləşdirməyi həyata keçirmək imkanı verir. Fəaliyyət göstərən məktəbimizin fondunun külli miqdarda materiallarla zənginləşməsi məktəblilərin turist, diyarşünaslıq və ekskursiyaya işlərinin planlı və yaradıcı təşkilinin nəticəsidir. Yeni məktəb muzeyinin açılışını o vaxt təşkil etmək olar ki, həmin məktəbdə bunun üçün əlverişli şərait olsun. Eksponatlar qeydiyyatı təmin edilsin, tarixi əhəmiyyəti olan sənəd və materiallardan düzgün istifadə etmək və onları saxlamaq mümkün olsun.

Orta ümumi təhsil məktəblərində şagirdlərin fəallığının artırılmsı məqsədi ilə hər bir sinifdə müxtəlif tədbirlər həyata keçirilir. Hər hansı sinifdə oxumağından asılı olmayaraq müxtəlif yarışlar, qrup yarışları təşkil edilməklə şagirdlərdə tədrisə olan həvəsi artırmaq mümkündür. Tədris edilən fənnə uyğun olaraq müxtəlif ekskursiyalar təşkil etməklə diyarşünaslıq haqqında geniş məlumata malik olurlar. Onlarda vətənə sevgi hissini yaratmaq yüksək peşəkarlıq tələb edir. Müəllim peşəkarlığı həm şagirdlərdə ərazi haqqında geniş məlumat əldə etməyə kömək edir, həm də şagirdlərin ictimai işlərə cəlb edilməsinə şərait yaradır. Hər bir şagirdə məsuliyyətli olmağı izah edir, nizam intizamlı olmağa istiqamətləndirir. Səyahət zamanı istifadə ediləcək vasitələrin uyğun formada istifadə edilməsi ətraflı izah edilir. Yol boyu müxtəlif məlumatların verilməsi, təlim vasitələrinin istifadə qaydası, eyni zamanda şagirdlərin özləri ilə

götürməsi vacib olan əşyalar haqqında məlumat verilir. Müəllim hər bir əşyanın istifadə qaydası haqqında göstəriş verir. Qarşıya çıxacaq hər hansı maneənin vaxtında aradan qaldırılması tam şəkildə izah edilir. Şagirdlərin diyar ekspedisiyalarına cəlb olunması onların uzun müddət yaşadığı ərazinin daha da yaxından tanımasına səbəb olurlar. Bir çox hallarda şagirdlərin şəhər gəzintiləri zamanı müəyyən nöqsanlar aşkarlanır. İstər ictimai nəqliyyatdan istifadə, istərsə də yolda davranış qaydalarına əməl etmək şagirdlərə aşılanır. İşıqforun qaydalarına əməl etməklə şəhər diyarşünasları küçədə davranış qaydalarına əməl edirlər. Diyarşünaslığın xüsusi özəlliyyi ondan ibarətdir ki, şagird eyni prosesi həyata keçirdiyi zaman müxtəlif məlumatlara yiyələnmiş olur. Burada istər şagirdlərin maarifləndirilməsi istərsə də texniki qaydalara müvafiq əməl edilməsi əsas götürülür. Nəticədə daha faydalı, qayğıkeş cəmiyyətə sahib oluruq. Coğrafiya fənninin tədrisi zamanı əsas məqsəd təhsilalanların daha səmərəli yolla daha geniş biliklər əldə etməsindən ibarətdir. Hər bir vətəndaş öz yaşadığı ölkə haqqında geniş məlumata malik olmalıdır. Ərazinin relyefi, iqlimi, təbiəti haqqında geniş biliklər əldə etməlidir.

Diyarşünaslığın əsas prinsipləri şagirdlərdə coğrafi biliklərin inkişafını daha da artırmaq, eyni zamanda istənilən ərazinin coğrafiyası haqqında məlumat əldə etməkdən ibarətdir. Bildiyimiz kimi 6-cı sinifdə coğrafiya fənninin tədrisi zamanı şagirdlərdə coğrafi biliklər haqqında ilkin təsəvvürlər formalaşır, buna baxmayaraq bir çox fənlərin tədrisi zamanı müxtəlif proses və hadisələr haqqında şagirdlərə dolayı məlumatlar verilir.

Diyarşünaslıq termini əsasən şəgirdlərin vizual təsəvvürünü formalaşdırır. Öyrənmənin prinsiplərini yada salsaq görərik ki, insanın yadda saxlama və ya tətbiq etmə metodologiyasında məlumatı gözlə görmək əsas prinsipdir. Elə buna görə də istər aşağı sinif şagirdləri istərsə də yuxarı sinif şagirdləri diyarşünaslıq prinsipini həyata keçirərək ərazi haqqında geniş biliyə malik olurlar. Diyarşünaslığın əsas məqsədi tətbiq zamanı tədrisin məqsədinə cavab verməlidir. Diyarşünaslıq şərait yaradır ki, hər bir təhsilalan qarşısına qoyduğu məqsədə plan üzrə nail ola bilsin. İnformasiyanı asandan çətinə prinsipi ilə yadda saxlamağa köməklik göstərir.

Diyarşünaslığın iki əsas məqsədi var. Birincisi insana öz yaşayış yeri, doğma diyarı haqqında məlumat toplmağa şərait yaradır, ikincisi isə coğrafiya dərslərinin daha effektiv öyrənilməsini təmin edir. Müasir dövrün tələbinə uyğun olaraq coğrafiya dərslərinin tədrisi zaman müxtəlif materiallardan istifadəni təmin edir.

Fənnin özəlliyi ondan ibarətdir ki, hər hansı səyahət və ya ekskursiyanı həyata keçirən zaman diyarşünaslıq prinsiplərindən istifadə olunur. Rayon, kənd, şəhər haqqında geniş məlumat əldə etmək mümkündür. Xüsusi olaraq diyarşünaslıq həmin səyahət və ya ekskursiyanı qeyri-peşəkar şəxslər tərəfindən də həyata keçirilməsini də təmin edir. Ərazinin öyrənilməsində həyata keçirilən əsas tədbir qeyd olunmuş ərazinin təbiəti, coğrafi mövqeyi, relyefi haqqında geniş məlumat əldə etməklə daha effektiv nəticəyə yiyələnmək mümkündür. Ərazi haqqında informasiyanı səyahətin icrası zamanı səyahət üzvlərindən ibarət komandada əsas öhdəlik coğrafiyaçı mütəxəsslərin üzərinə düşür. Çünki başqa ixtisas sahiblərindən fərqli olaraq coğrafiyaçı rayonun təbiətini, əhalisinin təsərrüfat fəaliyyətini, müxtəlif komponentlərin ərazi üzrə paylanmasını kompleks həyada keçirir.

Professor A.S.Barkov yazır ki, diyarşünaslıq məzmunca və tədqiqat metodikasına görə müxtəlif olan bir sıra elmi fənlərin kompleksidir. Deməli diyarşünaslıq coğrafiya fənninin bir hissəsi kimi baxmaq olaz. Diyarşünaslıq hər hansı ərazinin təsviri, əhalinin məşğuliyyəti və eyni zamanda vətənə sevgi hissini özündə cəmləşdirən bir elmdir.

Bundan başqa diyarşünaslıq işlərindən turizmin inkişafı, hər hansı idman yarışlarının keçirilməsi zamanı istifadə olunur. Lakin diyarşünaslıq prinsiplərinin əsas məzmunu məktəblə bağlı olur. Çünki orta məktəbdə istər coğrafiya fənninin istərsə də digər fənlərin tədrisi zamanı tətbiq edilmiş məlumatlar diyarşünaslığın daha geniş formalaşmasına səbəb olur.

Dövlət tərəfindən bu sahədə müxtəlif tədbirlər həyata keçirilir. Diyarşünaslıq muzeylərinin inkişafı buna misal ola bilər. Ölkənin bir çox şəhərlərində diyarşünaslıq muzeyləri vardır ki, həmin muzeylər vaxtaşırı olaraq yenidən yaradılır və ya əsaslı təmir olunur. Diyarşünaslıq

muzeylərinə bu cür diqqət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Regionların İnkişaf Proqramı" çərçivəsində həyata keçirilir. Eyni zamanda müxtəlif orta ümumitəhsil məktəblərində yaradılmış muzeylər diyarşünaslıq prinsiplərini daha da inkişaf etdirməyə şərait yaradır.

Qeyd olunmuş diyarşünaslıq işləri şagirdlərin dünya görüşlərinin genişlənməsinə xidmət edir. Şagirdlər müşahidə apardığı ərazilərin keçmişi, tarixi və gələcəyi haqqında geniş məlumat əldə edirlər. Lakin diyar haqqında məlumat toplanan zaman qısa vaxt ərzində əldə edilmiş məlumatlar uyğun olmaya bilər, çünki müəyyən bir ərazinin təbiəti, iqlimi haqqında məlumat verməzdən əvvəl nəzərə almaq lazımdır ki, ərazinin iqlimi əsasən çoxillik məlumatlara əsasən müəyyən edilir. Bu formada diyar müşahidələri zamanı verilmiş məlumatların həqiqəti daha çox əks etdirməsi üçün coğrafiyaçıların məlumatlarından daha çox istifadə edilir.

**Coğrafi diyarşünaslığın digər elmlərlə əlaqəsi.** İstənilən şəxs istər öz yaşayış yerini öyrənsin istərsə də hər hansı ərazi istiqamətində səyahətə çıxmasından asılı olmayaraq əvvəlcə həmin ərazi haqqında geniş məlumata malik olmalıdır. Həmin rayonun təbiəti, əhalisinin məşquliyyəti, həmin rayona aid elmi coğrafi məlumatlar öyrənməlidir. Buna misal olaraq qeyd edə bilərik ki, coğrafiya institutunun elmi iş aparan əməkdaşı ölkənin hər hansı iqtisadi coğrafi rayonu üzrə tədqiqat aparan zaman bir çox məsələlərə aydınlıq gətirməlidir. Diyarşünaslıq prinsiplərindən biri təhlükəsizlik prinsipidir ki, bu zaman ərazinin sərt relyefi, eroziyaya daha çox məruz qalmış ərazilər əvvəlcədən müəyyən edilməlidir. Meşəlik ərazidə ağacların daha sıx olduğu hissələrini təyin etmək, həmin ərazi boyunca səyahət cığırını dəqiq müəyyən etmək vacib şərtlərdən hesab edilir. Yol boyunca qarşıya çıxa biləcək maneənin vaxtında aradan qaldırılması üçün bir çox vasitələrin özləri ilə götürməsi məqsədəuyğun hesab edilir. Buna misal olaraq yolda cığıra ağac hissələrinin qoparaq düşməsi nəticəsində yolun bağlanmasının aradan qaldırılması üçün istənilən kəsici alət götürmək lazımdır. Müxtəlif relyefə malik ərazilərdə diyarşünaslar sərt keçidlərdə daha diqqətli olması üçün müvafiq təlimatlar verilir. Diyarşünasların elmi tədqiqat işləri zamanı əldə etdikləri məlumatlar diyarşünaslıq materialı kimi istifadə edilir. Ərazinin təbiəti haqqında qeyd olunmuş məlumatlar daha dəqiqliklə izlənildikdən sonra uyğun ərazi quruluşuna görə müəyyən edilir. Diyarşünaslar ərazi boyunca qarşısına çıxan muxtəlif obyektlər o cümlədən bulaq, çay, göl, nadir və endemik ağac növləri müəyyən edilir. Əldə edilmiş məlumatlar aydın şəkildə ərazi üzrə uyğun yazılır. Həmin məlumatlar qeyd olunmuş regionun internet məlumatları bazasına əlavə edilir. Qeyd edildiyi kimi diyarşünaslıq təkcə ərazini öyrənmək yox həm də bir çox ərazi haqqında geniş məlumatlar əldə edir. Bu həm də coğrafiya elminə bir töhfədir.

**Ədəbiyyat:**


1. E.Əlizadə, N.Seyfullayeva, İ.Aktorpaq, Y.Şabanova. "Coğrafiya" dərsliyi. 6-cı sinif,
2. Y.Qəribov, N.Seyfullayeva, Ş.Hümbətova, Y.Şabanova, T.İsmayılova. "Coğrafiya" dərsliyi. 7-ci sinif
3. N.N.Allahverdiyev, H.Ə.Sadıxlı. Coğrafiya tədrisi metodikası APİ-nin nəşriyyatı, Bakı, 1976
4. "Tarix, İctimayyət və Coğrafiyanın tədrisi" jurnalı, Bakı, №4, 1980


## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ, VIII SİNİFLƏRDƏ EKOLOJİ BİLİK VƏ BACARIQLARIN MÜSTƏQİL MƏNİMSƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ


**Rafiqova Səmayə Salman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*semaye.rafigova@gmail.com*
**Elmi rəhbər: dos. M.İ.Verdiyeva**


**Xülasə**


Tezisdə şagirdlərdə ekoloji bilik və bacarıqların formalaşdırılması üçün ətraf mühitin öyrənilməsinin əhəmiyyəti, ekskursiyaların keçirilməsi, diyarşünaslıq işlərinə cəlb olunmala-

rının əhəmiyyəti əks olunmuşdur. Ekoloji bilik və bacarıqların müasir dövr, eyni zamanda da gələcək nəsillər üçün aktuallığı əsaslandırılmışdır. Ekoloji təhsildə müşahidə və təcrübələr məsələsinə toxunulmuş, şagirdlərin orta məktəblərdə ekoloji bilikləri daha yaxşı mənimsəmələri üçün, çöl tədqiqatları aparılması haqqında müxtəlif mülahizələr, ümumiləşdirmələr aparılmışdır. VIII sinif poqamında şagirdlərin fəaliyyətləri araşdırılmışdır.

## ЗНАЧЕНИЕ САМОСТОЯТЕЛЬНОГО ПРИОБРЕТЕНИЯ ıКОЛОГИЧЕСКИХ ЗНАНИЙ И УМЕНИЙ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ VIII КЛАССОВ

**Резюме**

Важность изучения окружающей среды, проведения ıкскурсий, занятий ıтнографией находит отражение в формировании ıкологических знаний и умений у учащихся. Обоснована актуальность ıкологических знаний и умений для современной ıпохи, а также для будущих поколений. Был затронут вопрос наблюдений и ıкспериментов в ıкологическом образовании, высказаны различные мнения и обобщения о проведении полевых исследований с öелью лучшего усвоения учащимися ıкологических знаний в общеобразовательных школах. Исследована деятельность учащихся восьмого класса.

## THE IMPORTANCE OF INDEPENDENT ACQUISITION OF ENVIRONMENTAL KNOWLEDGE AND SKILLS IN SECONDARY SCHOOLS, VIII GRADES

**Summary**

The importance of studying the environment, conducting excursions, and being involved in ethnography is reflected in the formation of ecological knowledge and skills in students. The relevance of environmental knowledge and skills for the modern era, as well as for future generations is justified. The issue of observations and experiments in ecological education was touched upon, various opinions and generalizations were made about conducting field researches in order for students to better master ecological knowledge in secondary schools. The activities of students in the eighth grade were studied.

Təhsil haqqında Azərbaycan Respublikasının qanununda təhsilin əsas məqsədi milli və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüs və yenilikləri qiymətləndiməyi bacaran, nəzəri-praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaqdır. [1] Respublikamızda ekoloji təhsil əsasən coğrafiya və biologiya fənlərinin daxilində, həmin fənlərin proqamlarına salınmışdır. 30 illik işğal zamanı ekoloji sistemin pozulması, mədəni obyektlərin dağıdılması, təbii ehtiyatlardan səmərəsiz istifadə olunması həmin arazilərdə ekoloji vəziyyəti gərginləşdirmişdir. Bu gün Azərbaycanda ekoloji təhsil vacib xarakter daşıyır. Yaxın gələcəkdə rayonlarımızın bəpası üçün ekoloji mütəxəssislərə, ixtisaslı kadrlara ehtiyac çoxdur. Müasir dövrdə bir çox kompetensiyalara malik olmaq artıq zəruri olmuşdur.

XXI əsr-informasiya əsrində məlumatların əldə edilməsi və elmi biliklərin toplanması çox asan və mürəkkəb xarakter almışdır. Şagird internet vasitəsilə istədiyi bir ərazinin fiziki coğrafi mövqeyini, heyvan, bitki aləmini ekoloji vəziyyətinin öyrənə bilir. Lakin əsas məsələ sistemli və elmi formada biliklərin qazanılmasıdır. Oyun şəraitində öyrənmə, müəllimin fasilitator mövqeyi daşımasının əsas məqsədi şagirdin müastəqil formada biliklər qazanmasıdır. Pedaqoji cəhətdən dəyərləndirdikə müstəqil öyrənmə öz aktuallığını qoruyur, əsas problem olaraq dəyərləndirsək isə bu gün dünya güc liderlərinin təbii mühitə pərakəndə mövqeyi və göz qırpmadan müharibəyə başlaması, ekoloji vəziyyəti kollaps hala gətirməsi, AES fəlakətinə səbəb olacaq qədər irəli getməsi təbiətin məhvinə gətirib çıxardır.30 illik işğal zamanı ekoloji sistemin pozulması, mədəni obyektlərin dağıdılması, təbii ehtiyatladan səməsəiz istifadə olunması həmin arazilərdə ekoloji vəziyyəti gəginləşdirmişdir. Bu gün Azərbaycanda

ekoloji təhsil vacib xaakte daşıyır. Yaxın gələcəkdə rayonlarımızın bəpası üçün ekoloji mütəxəssislərə, ixtisaslı kadlara ehtiyac çoxdur.

Şagirdlərin ekoloji bilik və bacarıqlara yiyələnməsi, fəaliyyətin stimullaşdırılması, dəstəkləyici mühitin yaradılması və s. onların maraqlarına və dövlətin maraqlarına uyğun qurulmalıdır. Əsas məqsəd isə şagirdlərin özlərinə ən yaxın məkandan mühitdən başlayaraq, müşahidə prosesində təbiəti daha yaxşı tanımalarıdır. Ətraf mühiti müstəqil formada öyrənə bilən şagird artıq sərbəst bir tədqiqatçı kimi mühitdə qiymətləndirmə aparacaq, mühit faktorlarının ekoloji vəziyyətinin sistematik şəkildə verə biləcəkdir. Orta məktəblərdə VIII sinif coğafiya dərsliyində ekoloji bilik və bacarıqlara aid standartları araşdırdıq. [2]

| Bilik | Fəaliyyət |
|---|---|
| Yeni elm sahələri | **izah edir** |
| İqlim əmələ gətirən amillər və dünyanın iqlimində baş verən dəyişikliklər | **izah edir** |
| Biosferin digər təbəqələr ilə əlaqəsi | **şərh edir.** |
| Təsərrüfatın inkişafında təbii ehtiyatlar | **rolunu qiymətləndirir.** |
| Ekoloji problemlərin insan həyatına təsiri | **izahedir.** |
| Yeni elm sahələri | **izah edir** |

Göründüyü kimi ekoloji biliklərin öyrənilməsində VIII siniflərdə ümumiyyətlə müşahidə və təcrübə aparmaqla bağlı heç bir fəaliyyət yoxdur. Müşahidə və təcrüblər həm coğraiya kabinetlərin və meydançalarında, həm də ətraf mühitin bərpasının və ekoloji biliklərin öyrənilməsinin aktual olduğu zamanda Ekskursiyaların təşkili zamanı aparıla bilər. Ekskursiyalarda həm müəllimlər, həm də şagirdlər maraqlı olmalıdırlar. Ekskursiyalar pərakəndə yalnız istirahət xarakteri deyil, müəyyən formada mövcud vəziyyəti qiymələndirmək, tənqidi və məntiqi düşünmək qabiliyyətlərinin inkişaf etdirilməsinə yönəlməli və şagirdin sərbəst tədqiqatçıya çevimədlidir.

Dünyada soyuq müharibə gedişində güc liderləri təbii ekoloji sistemi düşünmədən kollaps vəziyyətə gətirir, eyni zamanda da işğaldan azad edilmiş rayonlarda ekoloji sistemin bərpası üçün ixtisaslı kadrlara ehtiyac var. Bu baxımdan da şagirdlər aşağı siniflərdən ekoloji bilikləri çöl tədqiqatları şəraitində öyrənməkləri onların gələcək mütəxəssis kimi fəaliyyətlərində böyük əhəmiyyət daşıyır.

Ekoloji təhsilin dünya səviyyəsində aktuallığının şərtləndirən xüsusiyyətlər isə onun hüquqi, metodoloji, metodiki və texniki bazasını yaratmaqdır. Bu gün dünyanın bir çox ölkələri YUNEP və YUNESKO kimi təşkilatlar o cümlədən də digər beynəlxalq təşkilatlar ekoloji təhsillə bağlı beynəlxalq məlumat bazası formalaşdırmaq fikrindədirlər. Bununla bağlı olaraq da ekoloji elmi-tədqiqatlar olduqca böyük zəmində həyata keçirilməyə başlamışdır. Hal-hazırda İngiltərə, Avstraliya, Kanada, ABŞ, Türkiyə, Bosniya və s. ölkələrin tədris proqramlarında ekoloji biliklərin verilməsi ilə əlaqədar müəyyən mövzular və müxtəlif praktiki dərslər salınmışdır. Nəzərə alsaq ki, ekoloji problemlər həm lokal həm də qlobal xarakter daşıyır şagirdlərin ekoloji biliklərə yiyələnməsi həm ölkəmiz həm də dünya üçün vacib səciyyə daşımaqdadır. Respublikamızda da bu zəmində müxtəlif tədbirlərin keçirilməsi zəruridir. Ekoloji təhsilə yiyələnən şagird sosial mühitində də təbliğat aparır.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı, 2009.

2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (kurikulum) (VI-XI siniflər), Bakı, 2013.

3.Təbiəti mühafizə və təbiətdən istifadə haqqında hüququ sənədlər toplusu, Bakı, Azərnəşr, 1992.

# COĞRAFİYA DƏRSLƏRİNDƏ DİYARŞÜNASLIQ PRİNSİPİNİN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI

**İsmayılov Valeh Əhəd oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*valeh-ismayilov@mail.ru*

Diyarşünaslığın əsas prinsipləri şagirdlərdə coğrafi biliklərin inkişafını daha da artırmaq, eyni zamanda istənilən ərazinin coğrafiyası haqqında məlumat əldə etməkdən ibarətdir. Bildiyimiz kimi 6-cı sinif coğrafiya fənninin tədrisi zamanı şagirdlərdə coğrafi biliklər haqqında ilkin təsəvvürlər formalaşır, buna baxmayaraq bir çox fənlərin tədrisi zamanı müxtəlif proses və hadisələr haqqında şagirdlərə dolayı məlumatlar verilir.

Diyarşünaslıq termini əsasən şəgirdlərin vizual təsəvvürünü formalaşdırır. Öyrənmənin prinsiplərini yada salsaq görərik ki, insanın yadda saxlama və ya tətbiq etmə metodologiyasında məlumatı gözlə görmək əsas prinsipdir. Elə buna görə də istər aşağı sinif şagirdləri istərsə də yuxarı sinif şagirdləri diyarşünaslıq prinsipini həyata keçirərək ərazi haqqında geniş biliyə malik olurlar. Diyarşünaslığın əsas məqsədi tətbiq zamanı tədrisin məqsədinə cavab verməlidir. Diyarşünaslıq şərait yaradır ki, hər bir təhsilalan qarşısına qoyduğu məqsədə plan üzrə nail ola bilsin. İnformasiyanı asandan çətinə prinsipi ilə yadda saxlamağa köməklik göstərir.

Diyarşünaslığın iki əsas məqsədi var. Birincisi insana öz yaşayış yeri, doğma diyarı haqqında məlumat toplmağa şərait yaradır, ikincisi isə coğrafiya dərslərinin daha effektiv öyrənilməsini təmin edir. Müasir dövrün tələbinə uyğun olaraq coğrafiya dərslərinin tədrisi zaman müxtəlif materiallardan istifadəni təmin edir.

Fənnin özəlliyi ondan ibarətdir ki, hər hansı səyahət və ya ekskursiyanı həyata keçirən zaman diyarşünaslıq prinsiplərindən istifadə olunur. Rayon, kənd, şəhər haqqında geniş məlumat əldə etmək mümkündür. Xüsusi olaraq diyarşünaslıq həmin səyahət və ya ekskursiyanı qeyri-peşəkar şəxslər tərəfindən də həyata keçirilməsini də təmin edir. Ərazinin öyrənilməsində həyata keçirilən əsas tədbir qeyd olunmuş ərazinin təbiəti, coğrafi mövqeyi, relyefi haqqında geniş məlumat əldə etməklə daha effektiv nəticəyə yiyələnmək mümkündür. Ərazi haqqında informasiyanı səyahətin icrası zamanı səyahət üzvlərindən ibarət komandada əsas öhdəlik coğrafiyaçı mütəxəsslərin üzərinə düşür. Çünki başqa ixtisas sahiblərindən fərqli olaraq coğrafiyaçı rayonun təbiətini, əhalisinin təsərrüfat fəaliyyətini, müxtəlif komponentlərin ərazi üzrə paylanmasını kompleks həyada keçirir.

Professor A.S.Barkov yazır ki, diyarşünaslıq məzmunca və tədqiqat metodikasına görə müxtəlif olan bir sıra elmi fənlərin kompleksidir. Deməli diyarşünaslıq coğrafiya fənninin bir hissəsi kimi baxmaq olaz. Diyarşünaslıq hər hansı ərazinin təsviri, əhalinin məşğuliyyəti və eyni zamanda vətənə sevgi hissini özündə cəmləşdirən bir elmdir.

Bundan başqa diyarşünaslıq işlərindən turizmin inkişafı, hər hansı idman yarışlarının keçirilməsi zamanı istifadə olunur. Lakin diyarşünaslıq prinsiplərinin əsas məzmunu məktəblə bağlı olur. Çünki orta məktəbdə istər coğrafiya fənninin istərsə də digər fənlərin tədrisi zamanı tətbiq edilmiş məlumatlar diyarşünaslığın daha geniş formalaşmasına səbəb olur.

Dövlət tərəfindən bu sahədə müxtəlif tədbirlər həyata keçirilir. Diyarşünaslıq muzeylərinin inkişafı buna misal ola bilər. Ölkənin bir çox şəhərlərində diyarşünaslıq muzeyləri vardır ki, həmin muzeylər vaxtaşırı olaraq yenidən yaradılır və ya əsaslı təmir olunur. Diyarşünaslıq muzeylərinə bu cür diqqət ölkə başçısı cənab İlham Əliyevin imzaladığı "Regionların İnkişaf Proqramı" çərçivəsində həyata keçirilir. Eyni zamanda müxtəlif orta ümumitəhsil məktəblərində yaradılmış muzeylər diyarşünaslıq prinsiplərini daha da inkişaf etdirməyə şərait yaradır.

Qeyd olunmuş diyarşünaslıq işləri şagirdlərin dünya görüşlərinin genişlənməsinə xidmət edir. Şagirdlər müşahidə apardığı ərazilərin keçmişi, tarixi və gələcəyi haqqında geniş məlumat əldə edirlər. Lakin diyar haqqında məlumat toplanan zaman qısa vaxt ərzində əldə edilmiş məlumatlar uyğun olmaya bilər, çünki müəyyən bir ərazinin təbiəti, iqlimi haqqında

məlumat verməzdən əvvəl nəzərə almaq lazımdır ki, ərazinin iqlimi əsasən çoxillik məlumatlara əsasən müəyyən edilir. Bu formada diyar müşahidələri zamanı verilmiş məlumatların həqiqəti daha çox əks etdirməsi üçün coğrafiyaçıların məlumatlarından daha çox istifadə edilir. Orta ümumi təhsil məktəblərində şagirdlərin fəallığının artırılmsı məqsədi ilə hər bir sinifdə müxtəlif tədbirlər həyata keçirilir. Hər hansı sinifdə oxumağından asılı olmayaraq müxtəlif yarışlar, qrup yarışları təşkil edilməklə şagirdlərdə tədrisə olan həvəsi artırmaq mümkündür. Tədris edilən fənnə uyğun olaraq müxtəlif ekskursiyalar təşkil etməklə diyarşünaslıq haqqında geniş məlumata malik olurlar. Onlarda vətənə sevgi hissini yaratmaq yüksək peşəkarlıq tələb edir. Müəllim peşəkarlığı həm şagirdlərdə ərazi haqqında geniş məlumat əldə etməyə kömək edir, həm də şagirdlərin ictimai işlərə cəlb edilməsinə şərait yaradır. Hər bir şagirdə məsuliyyətli olmağı izah edir, nizam intizamlı olmağa istiqamətləndirir. Səyahət zamanı istifadə ediləcək vasitələrin uyğun formada istifadə edilməsi ətraflı izah edilir. Yol boyu müxtəlif məlumatların verilməsi, təlim vasitələrinin istifadə qaydası, eyni zamanda şagirdlərin özləri ilə götürməsi vacib olan əşyalar haqqında məlumat verilir. Müəllim hər bir əşyanın istifadə qaydası haqqında göstəriş verir. Qarşıya çıxacaq hər hansı maneənin vaxtında aradan qaldırılması tam şəkildə izah edilir. Şagirdlərin diyar ekspedisiyalarına cəlb olunması onların uzun müddət yaşadığı ərazinin daha da yaxından tanımasına səbəb olurlar. Bir çox hallarda şagirdlərin şəhər gəzintiləri zamanı müəyyən nöqsanlar aşkarlanır. İstər ictimai nəqliyyatdan istifadə, istərsə də yolda davranış qaydalarına əməl etmək şagirdlərə aşılanır. İşıqforun qaydlarına əməl etməklə şəhər diyarşünasları küçədə davranış qaydalarına əməl edirlər. Diyarşünalığın xüsusi özəlliyyi ondan ibarətdir ki, şagird eyni prosesi həyata keçirdiyi zaman müxtəlif məlumatlara yiyələnmiş olur. Burada istər şagirdlərin maarifləndirilməsi istərsə də texniki qaydalara müvafiq əməl edilməsi əsas götürülür

**Ədəbiyyat:**


1. E.Əlizadə, N.Seyfullayeva, İ.Aktorpaq, Y.Şabanova . "Coğrafiya" dərsliyi, 6-cı sinif,
2. Y.Qəribov, N.Seyfullayeva, Ş.Hümbətova, Y.Şabanova, T.İsmayılova. "Coğrafiya" dərsliyi, 7-cı sinif.
3. N.N.Allahverdiyev, H.Ə.Sadıxlı. Coğrafiya tədrisi metodikası APİ-nin nəşriyyatı, Bakı, 1976.
4. Tarix, İctimayyət və Coğrafiyanın tədrisi jurnalı, Bakı №4, 1980.


## COĞRAFİYA DƏRSLİKLƏRİNDƏ ƏYANİ VASİTƏLƏRDƏN İSTİFADƏNİN TƏLİM-TƏRBİYƏ ƏHƏMİYYƏTİ


**Rüstəmova Günel Elman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunel.rustemova06@gmail.com*


Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkənin hər bir sahəsində gedən dəyişikliklər təhsil sahəsindədə özünü göstərmişdir. Nəticədə təhsil sistemi müasir dövrün tələblərinə uyğunlaşdırıldı. Coğrafiya fəninin öyrənilməsinin böyük əhəmiyyəri vardır. Kurikulum istalahatı tətbiq edildikdən sonra isə yeni dərsliklər yaranmağa başladı. Bu dərsliklər tamamilə müasir dövrün tələblərinə uyğun idi. Respublikamızda aparılan təhsil islahatına uyğun olaraq məktəbdə tədris olunan fənlərin yeni kurikulumları hazırlanmışdır. O cümlədən coğrafiya fənni üzrə də yeni kurikulum hazırlanaraq tətbiq olunmağa başlanmışdır. Aydındır ki, yeni proqram əsasında yeni coğrafiya dərslikləri də hazırlanmışdır. Kurikulum əsasında yazılan ilk dərslik 2013-cü ildə VI sinif dərsliyindən başlayaraq məktəblərdə istifadə olunur.

Ənənəvi proqram və dərsliklərdə biliklərin həcmi daha çox olduğundan bu dərsliklərdə mətn materialları üstünlük təşkil edir, illüstrasiyalar nisbətən az idi. Bu da dərslərdə şagirdlərin fəaliyyətinin təşkil edilməsini çətinləşdirirdi. Şagirdlərin bir sıra bacarıqlara yiyələnməsi

üçün dərslikdə müvafiq metodik vəsaitlər olmalıdır ki, onların köməyi ilə praktik işlər yerinə yetirə bilsinlər.

Yeni proqramda (kurikulum) biliklərin həcmi azalmaqla, şagird fəaliyyətinin artırırlması nəzərdə tutulmuşdur. Odur ki, dərsliklərdə fəaliyyət tələb edən çalışmalara, tapşırıqlara daha çox yer verilir. Bu tipli çalışma və tapşırıqların yerinə yetirilməsi üçün isə dərslikdə müvafiq illüstrasiyalar – xəritə-sxem, diaqram, qrafik, sxem, şəkil və s. olmalıdır. Bu vasitələrin köməyi ilə şagirdlər praktik və müstəqil işləri yerinə yetirməyə alışır, bütün dərs boyu fəaliyyəti təşkil olunur, tədqiqatçılıq qabiliyyətləri inkişaf edir.

Bu da ilk növbədə şagirdlərin dərsliklə fəal şəkildə işləmək arzusundan və bacar-ıqlarından çox asılıdır. Dərslik və onun metodiki aparatı dərslərdə fəal təlim metodlarının və yeni pedaqoji texnologiyaların səmərəli şəkildə istifadə edilməsinə imkan verir. Müasir dərsliklərə verilən ən başlıca tələb, onların yüksək elmi səviyyəsinin və pedaqoji cəhətdən düzgün əsaslandırılmış metodik aparatının olmasından ibarətdir. Bunlar da çox mühüm bir vəzifəni– şagirdlərə öyrənməyi öyrətmək kimi vacib vəzifənin həllinə yönəldilməlidir.

Mətn xəritələri ilə işin təşkili zamanı ilk növbədə onların biliklərin formalaşmasındakı rolunu müəyyən etmək lazımdır. Bu zaman mətnlə əlaqəni araşdırmaq görüləcək işlərin növlərini təhlil etmək lazımdır. Dərsliklərdə verilən xəritə-sxemlərin çoxu müvafiq sual və tapşırıqlarla müşayiət olunur ki, məqsəd hadisə və proseslərin yerləşməsinin və inkişafının səbəblərinin təhlil edilməsinə, hadisələrin dinamikasını müəyyən etməyə, onlar arasındakı oxşar və fərqli cəhətlərin tapılmasına nail olmaqdır. Ancaq bəzi xəritə-sxemlər dərslikdə yalnız mətndə verilən əsas məsələnin illüstasiyasına, nümayişinə xidmət edir ki, bu halda mətn xəritələrinin təhlili üçün müəllim özü suallar hazırlamalı olur. Mətn xəritələrində tapşırıqların olmadığı halda müəllim müxtəlif qruplara bu xəritələrin təhlili ilə bağlı fərqli tapşrııqları verə bilər və onların müzakirəsini təşkil edə bilər.

Yeni coğrafiya dərsliklərində əyani vasitələrdən istifadə son dərəcə aktual məsələlərdən biridir. Müasir dövrdə dərsliyə verilən tələblər daha da artırılır, təhsilin keyfiyyəti və nəticəsi dərslik ilə işdən birbaşa asılıdır. Bu da ilk növbədə şagirdlərin dərsliklə fəal şekilde işlemek arzusundan və bacarıqlarından çox asılıdır.Coğrafiya dərsliklərində əyani vasitələrdən istifadə geniş yayılmışdır. Bu da hər bir təhsil alanın öyrəndiyi mövzunu əyani şekilde görerek,daha yaxşı qavramasına şərait yaradır. Əyani vasitələrə misal olaraq aşağıdakıları aid etmək olar: Kartoqrafik, statistik materiallar, sxemlər, foto və s. aid etmek olar. Xüsusilə də coğrafiyadan yeni proqram əsasında hazırlanmış dərsliklər üzərində işə xüsusi diqqət yetirilməlidir. Müəllimlər onların müsbət və mənfi cəhətlərini nəzərə alaraq, dərslərin təşkilində metodik tövsiyələrini hazırlamalıdırlar. Əksər müəllimlər dərslik ilə işin təşkili zamanı onun imkanlarının tam reallaşmasına nail olmuşlar. Dərsliyin mətninə çox diqqət yetirsələr də onun əyani materiallarına o qədər də fikir verilmir, onlarla işi tam şəkildə təşkil etmirlər. Bəzən də əksinə olur ki, müəllim dərslikdəki praktiki işlərə daha çox vaxt ayırır, mətnin nəzəri materiallarının möhkəmləndirilməsinə zəif yanaşırlar. Dərslik bilik mənbəyi olmaqla, elmi biliklər proqramı əsasında müəyyən edilən sistem və həcmdə şərh edilmiş tədris vəsaitidir. Dərsliyin köməyi ilə elmi biliklərə yiyələnərkən, müxtəlif bilik mənbələri ilə işə əsaslanırlar.Bu dərsliyin əyani materiallarıdır. Bu materiallar ilə iş şagirdlərin çox fərqli fəaliyyətlərinin təşkil edilməsini tələb edir. Məsələn, xəritəyə əsasən müəyyən etmək, cədvəli doldurmaq, profil çəkmək və.s bacarıqların formalaşması məhz əyani materiallar ilə işin nəticəsində baş verir.

Son vaxtlar məktəblərdə əyani vasitələrdən az istifadə olunur, bəzən isə heç istifadə olunmur. Kompüter meydana çıxandan müəllimlər çalışırlar ki, hər şeyi kompüterdə göstərsinlər. Lakin şagirdlər bitkilərin eləcə şeklini görüb adını eşitməklə, onu heç də yaxşı qavramırlar. Qlobusu, süxurları, kolleksiyasiyaları sinifə gətirdikdə, ondan danışarkən həmin vasitələrə toxunmasına imkan verdikdə, bunun effekti qat-qat artıq olur. Bunun əsasında qavrama, yadda saxlama prosesi güclənir. Hər hansı bir fənnin tədrisində əyani vasitələrin dəyərini qiymətləndirmək çətindir, bunlar olmadan tədris prosesini təşkil etmək mümkün deyil.




Təlim keyfiyyətinin təmin edilməsində əyanilik mühüm şərtdir. Əyani vasitələr olaraq təbiət mənzərələrini əks etdirən peyzajlar, müxtəlif illüstrasiyalar, portretlər, fotoalbomlar, plakatlar və s. nəzərdə tutulur. Ənənəvi dərslərdə əyani vasitələrə bilik mənbəyi kimi baxılır və mövzuların daha asan qavranılması imkanları kimi başa düşülür.Yuxarıda qeyd etdiklərim məhz əyaniliyi bu yönümdən izah edir. Bu gün əyaniliyə tələb bir qədər artmışdır. Dərsə verilən hər bir əyani vəsait polemika üçün şərait yaratmalıdır. Əgər onun diskussiya predmetinə çevrilmə imkanı yoxdursa, o hərəkətsizdirsə, onda hər bir materialı birtərəfli qaydada monoloqvari, şabloncasına şagirdlərə çatdırmaq məcburiyyətində qalırıq. Deməli əyani vəsaitlər imkan daxilində biliyin müzakirə, interaktiv yolla qavranılmasına imkan yaratmalıdır.

Vizual təhsil elə bir təlimdir ki, burada hadisələrin qavranılması əsasında və onların təsvirlərinin köməkliyi ilə yeni-yeni anlayışlar və ideyalar öyrənilir. Vizuallaşdırmadan istifadə edən hər bir müəllim dərsə əlavə bir maraq qatır. Yəni müəllim dərsə son dərəcə vacib məqamı-canlı düşüncəni nümayış etdirir. Hər bir fənnin mövzuları mücərrəd şəkildə deyil, tələbənin və şagirdin bilavasitə qavradığı konkret obrazlar üzərində qurulur. Vizuallaşdırma öyrənmə prosesinin ən mühüm və vacib komponentlərindən biridir. Ümumiyyətlə hər bir fikir və ideyalar əhatəli şəkildə aydınlaşdırılaraq müzakirə edilməlidir. Əyani vasitələrdə ümumiləşdirilmiş şəkildə əks olunan hadisə və faktlar bilavasitə qavrayışın bütövlüyünü ortaya qoyur. Tədrisdə sadəcə obrazlı təsəvvürləri formalaşdırmaq üçün deyil, eyni zamanda bir çox anlayışları formalaşdırmaq, mücərrəd əlaqə və asılılıqları daha aydın başa düşmək üçün əyani vasitələrdən istifadə edilməsinin böyük əhəmiyyəti vardır. Və əyani vasitələrdən istifadə didaktikanın ən mühüm müddəalarından biridir.

Xəritələr, sxemlər və diaqramlar olduqca böyük əhəmiyyətə malikdir. Coğrafiya informasiyaların təqdim edilməsinin müxtəlif üsulları və formaları vardır. İnformasiyalar mətn, xəritə, şəkil, sxem, cədvəl, diaqram, kartodiaqram və s. formada verilə bilər.Coğrafi informasiya mənbələrində biri qrafik və diaqramlardır.Qrafik və diaqramlar statistik məlumatların əyani təsviridir. Onlarda məlumatlar bir-biri ilə birləşdirilmiş nöqtələr vasitəsilə təsvir olunur. Diaqramlarında özlərinin növləri vardır. Bunlara dairəvi, sütunlu və sahəvi diaqramları göstərmək olar. Məsələn planetin torpaq fondunun quruluşunu dairəvi diaqramda göstərmək olar. Və yaxud sahəvi diaqramlarda 19-cu əsrdə ilkin enerji ehtiyyatlarının dünya üzrə istifadəsini göstərmək olar. Adətən metodistlər və müəllimlər rəsm və fotoşəkillərə,diaqram və cədvəllərə, xəritələrə və qrafiklərə tədris vasitəsi kimi yanaşır və onlar üçün müxtəlif üsul və formalar hazırlayır. Diaqram və qrafiki oxuyarkən ilk növbədə onlarda nəyin təsvir edildiyini, hansı təbii hadisə və ya prosesin burada əks olunduğunu bilmək lazımdır. Sonra qrafik təsvirin rəqəm materialları nəzərdən keçirilir. Onların illər üzrə məhsulun növünə görə dəyişməsini izləyərək dəyişikliyin hansı istiqamətdə getdiyini müəyyənləşdirirlər.

Dərsliklərdə həddindən artıq statistik rəqəmlərə üstünlük verilir. Bütün bunları şagirdlər və tələbələr yadda saxlamaqda çətinlik çəkirlər. Bu cür statistik rəqəmlərdənsə, daha çox əyani vasitələrə üstünlüyün verilməsinin böyük əhəmiyyəti vardır. Təbii ki, statistik materialların və əyani vasitələrin verilməsinin əhəmiyyəti böyükdür, amma miqdarının çox olmaması şərti ilə verilərsə daha əlverişli olar.

Əyani vasitələrin diyarşünaslıq əhəmiyyətidə böyükdür. Bu da şagirdləri və tələbələri vətənpərvərlik yönündə tərbiyələndirir. Məsələn, öz kəndimizə və yaxud şəhərimizə aid bir əyani vasitələrin əldə edilməsinin böyük əhəmiyyəti vardır. Bunlardan biri də kolleksiyalardır. Bunlara torpaq, bitki, heyvan və digər mikroorqanizmlərin qurudulmuş kolleksiyaları aiddir. Kolleksiyaların toplanması şagird və tələbələri tədqiqatçıya çevirməkdədə böyük əhəmiyyətə malikdir.

Bəzən bəzi mövzular olurki onların şagirdlər tərəfindən qavranılması çox çətin olur. Amma müəllimlər həmin mövzuları cədvəl daxilində göstərərək, mövzunun daha asan başa düşülüb qavranılmasına köməklik etmiş olur. Məhz buna görə də əyani vasitələrin tədrisdə rolu olduqca çox böyükdür.

Fotoşəkillərin dərsliklərdə verilməsi olduqca vacibdir. Məsələn, şagirdlərə təbii zonalar mövzusunu keçərkən şagird həmin ərazini təsəvvür edə bilmir. Və yaxud şagirdlərə yerin qatlarını izah edərkən tam anlaya bilmir. Amma fotoşəkillər vasitəsilə bunlar asanlıqla qavranıla bilər. Və yaxud müəyyən qisa videolar ilə sel hadisələrini,vulkan püskürməsini, sunami və s. kimi təbii fəlakətlərin göstərilməsi şagirdlərin daha yaxşı qavramasına şərait yaradır. Bütün bunlar təkcə şagirdlərin müəyyən mövzunu qavramasını deyil eyni zamanda onlarin dərsə və mövzuya olan marağının artmasına da şərait yaradır.

Dərslərdə əyani vasitələr, xüsusilə dərsliyin illüstrasiyaları ilə işin aparılması metodikası haqqında coğrafiyanın tədrisi metodikası üzrə dərslik və dərs vəsaitlərində də ətraflı yazılmışdır. “Orta məktəbdə coğrafiya təliminin metodikası”(A.Bibikin redaktəsi ilə) adlı metodik vəsaitdə illüstrasiyaların dərsdə istifadə edilməsi metodikası şərh edilmişdir. Coğrafiya fənninin tədrisində əyanilikdən geniş istifadə edilməsinin vacibliyi və əhəmiyyətini qeyd etmişem. İstifadə edilən əyani vasitələr içərisində dərslikdə verilən illüstrasiyativ materiallar xüsusi yer tutur. Ona görə ki, dərslik həmişə şagirdin istifadə etməsi üçün onun əlində olur, istənilən vaxtı ona müraciət edə bilir. Digər əyani vasitələrə həmişə baxmaq və ya istifadə etmək mümkün olmur. Yeni dərsliklərin ən başlıca xüsusiyyəti yuxarıda qeyd etdiyimiz kimi illüstrasiya materiallarının çox olmasından ibarətdir. Odur ki, bizim mövzumuz olan VIII və IX sinif coğrafiya dərsliklərindəki illüstrasiya materiallarının vəziyyətini öyrənmək lazım gəlir. Dərsliyin heç bir mövzusunda motivasiya üçün verilən materiallarda illüstrasiyalardan istifadə edilməmişdir. Amma məlumdur ki, motivasiyanın təşkili üçün nə qədər müxtəlif yollar və formalar var. Bu zaman illüstrasiya materialları nə qədər faydalı ola bilərdi.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏN İNDİKİ DÖVRƏDƏK AZƏRBAYCAN TƏHSİLİNDƏ YARANMIŞ PROBLEMLƏR

**Əhədov Zamin Zaur oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zaminehedov90@gmail.com*

**Xülasə**

Elmi məqalədə təhsilin əhəmiyyətindən bəhs olunmuş və dövlətlərin inkişafında təhsil sisteminin rolunu anlamaq üçün nümunələr göstərilmişdir. Daha sonra ölkəmizin müstəqillik illərindən bəri təhsil sistemindəki problemlərdən bəhs olunmuşdur.

**Резюме**

В научной статье рассматривается значение образования и приводятся примеры для понимания роли системы образования в развитии государств. Затем были обсуждены проблемы в системе образования нашей страны за годы независимости.

**Summary**

The scientific article discusses the importance of education and gives examples to understand the role of the education system in the development of states. Then the problems in the education system of our country since the years of independence were discussed.

**Giriş**

Təhsil dövlətin öz milli və ümumbəşəri maraqları uğruna gələcək nəsilləri yetişdirmək siyasətidir. Hər bir dövlət öz varlığını qoruyub saxlamaq və öz inkişafını təmin etmək üçün təhsil siyasəti yürüdür. Bunu dövlətlər timsalında dünyanın coğrafi mənzərəsinə nəzər salsaq açıq-aşkar görə bilərik. Belə ki, Asiya, Afrika və Latın Amerikasındakı bəzi ölkələrə baxsaq görərik ki, ölkələrin təhsillilik səviyyələri aşağı səviyyədədir. Bu da öz növbəsində həmin ölkələrin iqtisadi inkişafına müəyyən dərəcədə təsir göstərir. Lakin inkişaf etmiş ölkələrə baxsaq görərik ki, onların təhsil sistemi necə inkişaf edib. Təhsil sahəsindəki bu inkişaf əlbəttə dövlətin başqa sahələrdə inkişafına yol açmaqdadır.

Ölkəmizdə hal-hazırda təhsilə olduqca önəm verilir. Buna ölkənin oxuma yazma səviyyəsinə baxsaq anlayarıq. Hal-hazırda ölkəmizdə oxuma yazma səviyyəsi 99% üzərində bir rəqəmdir. Bu da o deməkdir ki, ölkə əhalisinin demək olar ki, hər bir fərdi ən azından oxuma-yazma bilir. Bu amil ölkəmizin iqtisadi, mədəni, siyasi inkişafına öz töhfəsini verir. Lakin ölkədə təhsillilik səviyyəsinin 99% üzərində olmasına baxmayaraq ölkənin təhsil sistemində ciddi problemlər qalmaqdadır. Ölkəmizin müstəqil olduğu illərdən təhsil sisteminə nəzər salsaq görərik ki, ölkə müstəqillik əldə etdiyi illərdə təhsil sistemimizdə ciddi şəkildə böhranlı vəziyyət yarandı. Bu böhranlı vəziyyətin yaranmasına səbəb SSRİ dövründəki dərsliklərin müstəqillik qazanmış Azərbaycan Respublikasının milli-mənəvi maraqlarına, dövlətçilik siyasətinə uyğun olmaması idi. Buna görə də ölkədə milli maraqlara cavab verən dərsliklərin hazırlanmasına başlandı. Qısa müddət ərzində ölkənin qabaqcıl alimlərinin iştirakı ilə milli dərsliklərimiz hazırlandı. Hazırlanmış milli dərsliklər müəyyən dərəcədə həmin dövür üçün ölkənin təhsil tələbatlarını ödəsə də bu dərsliklərdə ciddi problemlər vardı. Bu problemlərin olmasının başlıca səbəbi qısa bir zamanda az maiddiyyatla hazırlanması idi. Çünki qısa müddətdə əsaslı elmi araşdırma aparmaq və yeni dərsliklər hazırlamaq praktik cəhətdən mümkünsüz idi. Buna görə də, keçmiş dövrlərdəki tədqiqatlardan istifadə edərək yeni dərsliklər hazırlandı. Bu dərsliklər isə dövrünün tələbatlarını qismən ödəyirdi.

1990-cı illərin sonundan ölkəmizin təhsil sisteminə inteqrasiya olunmağa başlayan "Kurikulm Təhsil Proqramı" ölkəmizin təhsil sisteminə yeni baxış bucağı yaratdı. Bu isə ilk növbədə təhsil sistemində inkişafla yanaşı problemli vəziyyət yaratdı. Artiq on ildən artıq bir müddətdir ki, ölkə məktəblərində tətbiq olunmağa başlayan kurikulm təhsil sistemində problemlər hələ də qalmaqdadır. İlk öncə onu qeyd etmək istərdim ki, "Kurikulm Təhsil Proqramı"nın ölkə təhsil sisteminə inteqrasiyasının ilk illərindən son illərədək bir neçə mərhələsi olmuşdur. Bu mərhələlərdən ən təlatümlüsü bəlkədə müəllimlərin bu təhsil proqramına hazırlıq mərhələsi olmuşdur. Uzun müddət ənənəvi təhsil sistemi ilə dərs keçmiş müəllimə yeni metodlarla dərs keçməsini təlim keçmək heç də bütün müəllimlər tərəfindən bir mənalı qarşılanmadı. Bəzi müəllimlər və vətəndaşlar bu sistemin gərəksiz olduğunu söyləsələrdə artıq orta məktəblərdə yeni təhsil sistemi ilə məzun buraxılışları olmuş və kifayət qədər uğurlu nəticələr əldə olunmuşdur. Onu da, qeyd etmək lazımdır ki, artiq uzun zamandır ölkəmizdə tətbiq olunan yeni təhsil sisteminin olmasına baxmayaraq hələ də, bəzi məktəblərdə ənənəvi təhsil sistemi ilə dərs keçən müəllimlər vardır. Bu problemin olmasının başlıca səbəbi bəzi yaşlı müəllimlərin yeni təhsil sisteminə uyğunlaşa bilməməsidir.

**Nəticə**

Təhsil sistemindəki problemlərin olmasına səbəb bir tərəfdən maiddiyyata bağlı problemlər olsada bir tərəfdəndə bu sahədə çalışan işçilərdir. Bu kimi problemləri aradan qaldır-

maq üçün dövlət, valideyn, və bu sahədə çalışan işçilərin həmrəyliyi mütləqdir. Bu həmrəylik əldə olunmadıqca təhsil sahəsində problemlər qalacaqdır.

**Ədəbiyyat:**


1. Vikipediya.az /Təhsilin müasir problemləri
2. ARTİ / Azərbaycan təhsili
3. Vikipediya .az/ Təhsilimiz dünən və bu gün
4. Təhsil.az / Coğrafiya tarixi


## "COĞRAFİ MƏKAN" MƏZMUN XƏTTİ ÜZRƏ ŞAGİRD FƏALİYYƏTİNİN TƏŞKİLİ METODİKASI (VII sinif)


**Əliyeva Fidan Elnur qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*fidaneliyeva536@gmail.com*



**Xülasə**

Tezisdə coğrafiya fənn kurikulumunun yazılması, təlim prosesinin cari planlaşdırılmasındakı problemlər, həll yolları göstərilmişdir. "Coğrafi məkan" məzmun xətti üzrə mövzuların tədrisi prosesini müasir metodlarla və keyfiyyətli təmin edilməsini həyata keçirməsində coğrafiya müəllimlərinin əsas uğuru kimi diqqət ediləcək məsələlər göstərilmişdir. Şagird fəaliyyətini düzgün təşkil etməyin elmi əhəmiyyəti izah edilmişdir. Nəticədə, təlimin keyfiyyətinin yüksəldilməsi üçün tədris olunacaq mövzunun və şagird fəaliyyətinin əvvəlcədən planlaşdırılması birmənalı olaraq qeyd edilmişdir.


## МЕТОДИКА ОРГАНИЗАӦИИ СТУДЕНЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ПО СОДЕРЖАТЕЛЬНОЙ ЛИНЕЙКЕ ГЕОГРАФИЧЕСКОГО ПРОСТРАНСТВА (VII классе)


**Резюме**

В дипломной работе показано написание учебного плана по географии, проблемы текущего планирования учебного проӧесса, пути их решения. Обозначены вопросы, которые следует считать главными успехами учителей географии в реализаӧии современных методов и обеспечении качестваучебного проӧесса темам посодержательной линии "Географическое пространство". Объясняется научная значимость правильной организаӧии студенческой деятельности. В результате однозначно было отмечено заблаговременное планирование темы и обучаемой деятельности студентов для повышения качества преподавания.


## METHODOLOGY OF ORGANIZING STUDENT ACTIVITIES ON THE LINE OF GEOGRAPHICAL GRADUATES (VII grade)


**Summary**

The thesis shows the writing of the curriculum of geography, the problems in the current planning of the learning process, the ways of the hall."Issues to be considered as the main success of geography teachers in the implementation of modern methods and quality assurance of the teaching process of topics on the content line "Geographical space" are indicated. The scientific importance of proper organization of student activities was explained planninghasbeenunequivocallynoted.


Müasir təhsil qarşısında qoyulan tələblər milli kurikulumun və ümumtəhsil orta məktəbləri üçün fənn kurikulumlarının yazılmasını aktuallaşdırdı. Fənn kurikulumunda coğrafiya elminin 3 məzmun xətti müəyyən edildi. Onlardan biri coğrafi məkan məzmun xəttidir [1].

Coğrafiya müəllimi məzmun xəttləri üzrə şagird fəaliyyətini planlaşdırarkən, ilk öncə mövzu əsasında alt standartı seçməli və ona uyğun fəaliyyət planı hazırlayaraq, şagirdləri praktik bacarığa sövq etməlidir. Beləcə, dərs prosesi daha keyfiyyətli və maraqlı olar. Dərsi tədris edən coğrafiya müəllimi iki məsələ xüsusi diqqət etməlidir:

1) Müəllim şagirdlərin hansı elmi biliyi və praktik bacarığı əldə edəcəyini müəyyən etməli, dərslikdəki mövzunun elmi-coğrafi məzmununu analiz etməlidir.

2) Müəllim standartın bilik və fəaliyyət hissəsinin nəyi tələb etdiyini, yəni biliyin və fəaliyyətin kateqoriyalarını araşdıraraq, müəyyən etməlidir.

Şagird fəaliyyətini təşkil edərkən müəllim, bütün nüansları nəzərə almalıdır. Onların yaşına və bilik səviyyəsinə uyğun fəaliyyət planı hazırlanmalıdır ki, həm daha maraqlı olsun, həm də bütün sinif şagirdlərinin iştirakına imkan yaratsın. Bilik səviyyəsindən asılı olmayaraq sinifdəki bütün şagirdlərin fəaliyyətə cəlb olunması, təhsilin keyfiyyətini artırır. Əksər hallarda şagird fəaliyyəti sinif şəraitində aparılır. Buna da əsas səbəb kimi praktik işlərin yüksək səviyyədə təşkili üçün coğrafiya kabineti və meydançasının bir çox məktəblərdə olmamasıdır. VII sinifdə "Coğrafi məkan" məzmun xətti üzrə mövzuların tədrisi zamanı şagirdləri praktik fəaliyyətə cəlb etmək üçün əsasən mətndənkənar materiallardan istifadə edildiyi məlum olmuşdur. Şagirdlərin fəaliyyəti stimullaşdırılmalı, onların maraqlarına və dövlətin maraqlarına uyğun qurulmalıdır. Dərslik üzərində qurulan praktik bacarığı nəzərdən keçirdikdə aydın olur ki, VII sinifdə coğrafi məkan məzmun xəttinə uyğun şagird fəaliyyətində təcrübə və müşahidələrlə bağlı ümumiyyətlə heç bir fəaliyyət yoxdur. Təcrübə və müşahidələr həm coğrafiya kabineti və meydançasında, həm də təbiətlə birbaşa təmas üçün ekskursiyalar təşkil etməklə aparıla bilər. Şagird fəaliyyətinin açıq təbiətdə təşkili, onlarda coğrafi obyektlər haqqında daha aydın təsəvvürlər formalaşdırır, təbiəti müşahidə bacarıqları inkişaf edir. Bu şəkildə təşkil edilən fəaliyyət şagirdlərin yaddaşında uzun müddət qalacaq, onlarda məntiqi, tənqidi və yaradıcı təfəkkür inkişaf edəcək, nəticədə onlar tədqiqatçı ruhda tərbiyələnəcəkdir. Şagird yaşadığı doğma diyarında əvvəllər heç nəyə fikir vermədiyi halda, müşahidə aparmağı öyrəndikdən sonra təbiətdə gördüyü və rastlaşdığı hər bir hadisə və obyektlərə başqa formada yanaşaraq, daha çox nəzər yetirməyə başlayır.

Bütün bu nüansları nəzərə alaraq bildirək lazımdır ki, müasir kurikulum təhsil sistemində şagirdləri fəaliyyətə cəlb edərkən sadəcə dərslik üzərində verilən fəaliyyətlərlə və informasiya texnologiyası əsasında təşkil etmək, onların birtərəfli inkişafına imkan yaradır.Coğrafiya fənnini tədris edən müəllim digər fənn müəllimlərindən daha aktiv olmalı, şagirdləri tez-tez müxtəlif ərazilərə aparıb təbiətlə birbaşa təmasını təmin etməlidir. Çünki, coğrafiya fənninin tədrisi bunları tələb edir.

**Ədəbiyyat**


1) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı 2009.

2) "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənn kurikulumu (VI-XI siniflər)", Bakı, 14 yanvar 2011.

3) Ümumtəhsil məktəblərinin 7-ci sinif üçün coğrafiya fənni üzrə dərsliyin metodik vəsaiti.


## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ESTETİK İNKİŞAFINDA MƏŞĞƏLƏLƏRİN ROLU


**Rüstəmova Səbinə Mehman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rustamovasebine@gmail.com*


Məktəbəqədər təhsil kiçik yaşlı uşaqların bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Kiçik yaşlardan başlayaraq uşaqların şəxsiyyət kimi formalaşması üçün müəyyən bacarıqlar aşılanmalıdır. Bu bacarıqlar onların cəmiyyətdə sosiallaşmasına, vətəndaş kimi yetişməsində böyük rol oynayır. Bununla yanaşı, şəxsiyyətin formalaşmasında estetik tərbiyənin rolu əvəzedilməzdir.

Estetik tərbiyə dedikdə, incəsənət və real həyatdakı gözəlliklərin duyulmasına, qavranılmasına, estetik hisslərin və bədii qabiliyyətlərin inkişafına yönələn təsirlərin məcmusu hesab olunur.

Məktəbəqədər təhsil müəssisələrində estetik tərbiyə çox böyük əhəmiyyətə malikdir. Estetik tərbiyə məktəbəqədər müəssisələrdə daha sistemli xarakter daşıyır. Uşaqlarla estetik məzmunlu məşğələlər - musiqi, təsviri fəaliyyət, gil, applikasiya, təbiət və ətraf aləmlə tanışlıq, əmək məşğələləri aparılır, musiqili-didaktik oyunlar keçirilir, bayram və əyləncələr yüksək estetik səviyyədə təşkil olunur.

Məktəbəqədər müəssisələrdə təşkil olunan müxtəlif növ məşğələlər prosesində uşaqlar sadə estetik məzmunlu bilik və təsəvvürlərlə tanış olurlar. Məşğələlərdə uşaqlara çatdırılacaq bilik və təsəvvürlər bəzən əyani və illüstrativ materiallara istinad edilir ki, bu da uşaqları daha həvəsləndirir. Buna görə də estetik-emosional əsasda qurulan məşğələlər onlarda hər şeyi öyrənməyə maraq hissini artırır, elmi bilikləri daha yaxşı qavramasına kömək olur.

Məktəbəqədər müəssisələrdə təşkil olunan məşğələlərdə estetik tərbiyə imkanlarından geniş istifadə etmək lazımdır. Təşkil olunan məşğələlərin hamısı estetik tərbiyənin vəzifələrini həll etmək baxımından mühüm əhəmiyyətə malikdir. Burada tərbiyəçi pedaqoji ustalıq və yaradıcılıq qabiliyyətlərini göstərməklə uşağın hisslərinə təsir göstərməli, onun qavrama qabiliyyətini və dərketmə bacarığını və digər müsbət, mənfi cəhətləri göz önünə alaraq dərsi obrazlı şəkildə tədris etməyi bacarmalıdır.

Məhz buna görədə məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsini inkişaf etdirməyin birinci yolu bütün məşğələlərdə əlverişli vasitələrdən istifadə etməklə uşaqlarda estetik-emosional vəziyyəti yaratmaqdan ibarətdir.

Estetik tərbiyəni inkişaf etdirməyin ikinci yolu keçirilən hər bir məşğələdə bədii keyfiyyəti ilə seçilən əyani-illüstrativ vasitələrdən geniş şəkildə istifadə olunmasıdır.

Məşğələlərdə uşaqların estetik tərbiyəsini inkişaf etdirməyin üçüncü yolu məşğələlərarası inteqrasiyaya geniş yer verilməsidir. Nitq inkişafı məşğələsi, fiziki mədəniyyət, sadə riyazi təsəvvürlərin formalaşdırılması və s. məşğələlər arasında qarşılıqlı əlaqə yaradılması, hər bir məşğələnin daxilində heyrət doğuran fakt və hadisələrə, ədəbiyyat və incəsənət nümunələrinə istinad edilməsi məşğələnin maraqlılığını artırır.

Uşaqların estetik tərbiyəsini inkişaf etdirməyin dördüncü yolu estetik tərbiyənin səciyyəvi xüsusiyyətlərindən asılı olaraq hər bir məşğələ zamanı estetik hiss, estetik həyəcan, estetik həzz, estetik zövq və bədii fəaliyyətin vəhdətinə nail olmaqdan ibarətdir.

Məşğələlərdə uşaqların estetik tərbiyəsini inkişaf etdirməyin beşinci yolu bilavasitə tərbiyəçilərin özlərinin şəxsi nümunəsi, pedaqoji-estetik mədəniyyəti ilə bağlıdır. Məşğələ zamanı tərbiyəçilərin yüksək humanizmi, uşaqlara olduqca səmimi, mehriban yanaşması bu cəhətdən xüsusilə vacibdir. Məşğələlər zamanı uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması, onların uğurlarının düzgün qiymətləndirilməsi hər bir məşğələdə estetik mühit yaradır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlarda bədii qabiliyyəti tərbiyə edən məşğələlər spesifik xüsusiyyətlərə malikdir. Rəsm məşğələlərində uşaqlar nəinki əyşaları düzgün təsvir etməyi öyrədirlər, həm də onların rənglərini düzgün seçmə bacarığını inkişaf etdirirlər. Musiqi məşğələrində isə həm düzgün, həm zərif, həm də gözəl hərəkət etməyi öyrədirlər.

Məktəbəqədər yaşlı uşaqların estetik inkişafına musiqi məşğələlərinin də təsiri böyükdür. Musiqi məşğələləri üç istiqamət üzrə keçirilir: musiqi dinləmək, mahnı oxumaq və rəqs etmək. Musiqi dinləmək bacarığı uşaqlara musiqi əsərləri haqqında məlumat verilməsini, səslərin notlarla ifadəsini öyrənməyi nəzərdə tutur. Mahnının öyrədilməsi müəyyən ardıcıllıqla, musiqi alətinin müşayiəti ilə musiqi məşğələlərində nəğmələrin oxunmasını öyrətməyi nəzərdə tutur. Bu zaman uşaqlar bir qayda olaraq xorla oxuyurlar. Mahnının xorla oxunmasının böyük bədii və pedaqoji əhəmiyyəti vardır.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsində təsviri fəaliyyət məşğələləri də mühüm rol oynayır. Bu məşğələlərin əsas məqsədi təsviri incəsənət vasitələri ilə estetik tərbiyənin əsas vəzifələrini yerinə yetirməkdən ibarətdir.

İncəsənətin bir sahəsi olan rəsm bütün uşaqları maraqlandırır. Təsviri fəaliyyət məşğələləri uşaqların görmə qabiliyyətini, təxəyyülünü, zövq və bədii yaradıcılıq bacarığını inkişaf etdirir. Bu məşğələlər uşağa cisim və hadisələrin, forma və məzmun gözəlliyinin seçilməsində, qiymətləndirilməsində və gözəllik yaratmaqda yardım edir. Təsviri fəaliyyət məşğələlərində əldə olunan qabiliyyət, bacarıq və vərdişlər uşağın ümumi inkişafına, eləcə də estetik tərbiyəsinə çox kömək olur.

Məktəbəqədər təhsil müəssisələrində rəsm məşğələləri əsasən 4 sahəni əhatə edir: naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ rəsm və niyyət üzrə rəsm

Uşaqlar təsviri fəaliyyət məşğələlərində rəsmin 4 sahəsi üzrə öyrənməklə yanaşı, həm də rəssamların həyat və yaradıcılığı ilə tanış olur, onların çəkdikləri şəkillərdəki ideya və sujeti duymağı öyrənirlər. Rəssamların çəkdikləri şəkillərdən tərtib olunmuş albomlar və eləcə də sərgilər, uşaqları təsviri incəsənət aləminə daxil edir, gözəlliyi duymaq və qiymətləndirmək sahəsində onlarda həssaslığı artırır. Rəsm məşğələlərində uşaqların əldə etdikləri müvəffəqiyyətlə kifayətlənməməli, onların rəsm üzrə bacarıqlarını möhkəmləndirmək lazımdır. Uşaqları davamlı olaraq rəsm sərgilərinə aparmalı, görkəmli rəssamların əsərləri haqqında məlumatlar verməlidir.

Məktəbəqədər yaşlı uşaqların estetik inkişafında təbiət gözəlliklərindən istifadə mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə məktəbəqədər təhsil müəssisələrində təbiətlə tanışlıq məşğələləri keçirilir. Bu məşğələlərdə uşaqlar həm təbiət gözəlliklərini görür, həm də onlara necə qulluq edilməsini öyrənirlər.

Məktəbəqədər təhsil müəssisələrində keçirilən məşğələlərin düzgün pedaqoji ustalıqla aparılması, uşaqlara kiçik yaşdan düzgün istiqamət verilməsi onların estetik tərbiyəsinə öz təsirini göstərmiş olur. Beləliklə, estetik düşüncə uşaqları, digər məşğələləri də dərindən öyrənməyə alışdırır və onların məktəbəqədər müəssisələrin bütün ictimai həyatında iştirak etməyə istiqamətləndirir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ, VII SİNİFLƏRDƏ "TƏBİƏT" MƏZMUN XƏTTİ ÜZRƏ ŞAGİRDLƏRDƏ FƏALİYYƏT İSTİQAMƏTİNİ GENİŞLƏNDİRMƏK ÜÇÜN FİZİKİ-COĞRAFİ BİLİKLƏRİN DƏRİNLƏŞDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Əhədov Fərhad Zöhrab oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ferhad.ehedov98@gmail.com*

**Xülasə**

Tezisdə şagirdlərdə Coğrafiya fənnində VII sinif "Təbiət" məzmun xətti üzrə fiziki-coğrafi anlayışların daha da dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunmuş, milli kurikulum proqramının tətbiqinin qeyd olunan mövzu üzrə şagirdlərin fəaliyyət istiqamətlərində müsbət təsirləri, o cümlədən verilən bilik və bacarıqların şagirdlərdə fiziki-coğrafi obyektlərə qarşı münasibətin daha da inkişaf etdirilməsi öz yerini tapmışdır.

### ОБОСНОВАНА ВАЖНОСТЬ УГЛУБЛЕНИЯ ФИЗИКО-ГЕОГРАФИЧЕСКИХ ЗНАНИЙ ДЛЯ РАСШИРЕНИЯ НАПРАВЛЕНИЯ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ VII КЛАССОВ ПО ЛИНИИ СОДЕРЖАНИЯ «ПРИРОДА»

**Резюме**

В диссертации подчеркивается важность углубления физико-географических понятий по предмету «География» в предмете 7 класса «Природа», положительные эффекты от применения национальной учебной программы по предмету, а также отношение учащихся к физико-географические объекты дальнейшее развитие нашло свое место.

### THE IMPORTANCE OF DEEPENING PHYSICAL AND GEOGRAPHICAL KNOWLEDGE TO EXPAND THE DIRECTION OF ACTIVITY OF STUDENTS IN GENERAL EDUCATION SCHOOLS, IN THE VII GRADES ON THE CONTENT LINE "NATURE"

**Summary**

The thesis emphasizes the importance of deepening the physical-geographical concepts in the subject of Geography in the subject of Grade 7 "Nature", the positive effects of the

application of the national curriculum on the subject, as well as the attitude of students to the physical and geographical objects. further development has found its place.

Azərbaycan Respublikasının təhsil qanununda təhsilin əsas məqsədi milli və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüs və yenilikləri qiymətləndiməyi bacaran, nəzəri-praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü vərəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaqdır.[1]

Müasir kurikulum proqramının ölkəmizdə tətbiq olunmağa başlanmasıyla birlikdə təhsildə olan dəyişikliklər Coğrafiya elminə, o cümlədən onun sahələrinin, tərkib hissələrinin də ciddi mənada dəyişilməsinə, əsaslı struktur problemlərinin meydana çıxmasına səbəb olmuşdur. Bildiyimiz kimi "Təbiət" məzmun xəttinin əsas strukturunu fiziki-coğrafi biliklərin şagirdlər tərəfindən mənimsənməsi, şagirdlərdə təbiətə qarşı marağın daha da artırılmasında, eyni zamanda şagirdlərin fəaliyyət cəhətdən daha inkişaf etməsi və daha da təkmilləşməsini nəzərdə tutur.

Müasir dərsliklərin yazılmasında əsas məqsəd qeyd etdiyimiz kimi verilən elmi məlumatların daha da dərindən şagirdlər tərəfindən mənimsənilməsi və eyni zamanda fiziki-coğrafi biliklərin şagirdlər tərəfindən həyatla əlaqələndirilməsini nəzərdə tutur. 7-ci sinifdə şagirdlər əsas fiziki-coğrafi bilikləri əldə etməklə yanaşı bu bilikləri diyarşünaslıq nöqteyi-nəzərdən mənimsəməyi və gələcək həyat fəaliyyətində tətbiqetmə bacarıqlarını da inkişaf etdirərək əldə etdiyi biliklərə daha da dərindən yiyələnirlər.[2]

Yeni dərsliklər hazırlanarkən biliklərin əsasını təşkil edən coğrafi anlayışların şagirdlər tərəfindən daha da dərindən qavranılması və eyni zamanda fiziki-coğrafi biliklərlə yanaşı bu əldə edilmiş biliklərin iqtisadi-coğrafi anlayışlarla da paralel olaraq tətbiq edilməsi həm öyrədilən mövzunun şagirdlər tərəfindən daha yaxşı qavranılmasına, həm də əldə edilmiş biliklərin gələcək həyatlarında şagirdlərin əmək fəaliyyətində tətbiqinə zəmin yaradır. [3]

Əlavə olaraq qeyd etmək lazımdır ki dərsliklərdə müəyyən edilmiş anlayışlar elmi cəhətdən əsaslandırılmış olmaqla yanaşı şagirdlərin yaş səviyyəsinə uyğunluğu əsasən müəyyən edilməli, eyni zamanda şagirdlərin daha da yaxşı qavraması üçün onların psixoloji vəziyyəti də nəzərə alınmalıdır. Bütün bu qeyd etdiklərimiz bilavasitə fənn müəlliminin pedaqoji, psixoloji və fasilitatorluq bacarıqlarından asılıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı, 2009.
2. Alxasov O. Coğrafiyanın tədrisi metodikası, Bakı:Elm və təhsil, 2013.
3. Qəribov Y., Seyfullayeva N., Hümbətova Ş., Şabanova Y., İsmayılova T. Coğrafiya 7-ci sinif, Dərslik, Bakı:Qanun, 2014

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ IX-XI SİNİFLƏRDƏ REKREASİYA EHTİYATLARININ ÖYRƏNİLMƏ POTENSİALI

**Salmanova Fidan Vəfa qızı**
**Azərbaycan Dövlət Pedoqoji Universiteti**
*salmanovafidan9@gmail.com*
**Elmi rəhbər:dos. Mirvari Verdiyeva**

***Açar sözlər:*** *coğrafiya, turizm, rekreasiya*
***Ключевые слова:****география, туризм, отдых*
***Key words:****geography, tourism, recreation*

**Xülasə**

Təqdim edilən tezisdə rekreasiya ehtiyatlarının mahiyyəti, təsnifatı, orta məktəb dərsliklərində verilmə metodikası yer almışdır. Turizm və rekreasiya ehtiyatlarına aid biliklərin IX-XI siniflərdə tədris edilmə potensialı araşdırılmışdır.

**Резюме**

В представленной диссертаöии содержится сущность, классификаöия рекреаöионных ресурсов, методика преподавания в учебниках для вузов. Изучены возможности обучения знаниям, связанным с туристско-рекреаöионными ресурсами в IX-XI классах.

**Summary**

The presented thesis contains the essence, classification of recreational resources, methods of teaching in high school textbooks. The potential of teaching knowledge related to tourism and recreation resources in IX-XI grades was studied.

Rekreasiya dedikdə, insanların sağlamlığı, mənəvi istirahəti üçün təbiətin qoynunda səyahət etmək və ya turist gəzintiləri yolu ilə əmək qabiliyyətinin bərpa olunması nəzərdə tutulur. Rekreasiya ehtiyatlarına isə rekreasiya və turizmin təşkili üçün istifadə edilə bilən,nadir tarixi və mədəni dəyərə malik olan, estetik cazibədarlığı və müalicə-sağlamlıq əhəmiyyətinə malik olan təbii və antropogen obyektlər daxildir.

Turizm və rekreasiya zonaları insanların əyləncəsini, istirahətini, müalicəsini və sağlamlığını təmin edən, müvafiq turizm infrastrukturuna malik olan, xüsusi ekoloji, rekreasiya, tarixi, mədəni əhəmiyyət daşıyan təbiət və mədəniyyət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, milli və mədəni irsi qoruma, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmə, maarifçilik, elmi və digər məqsədlər üçün istifadə olunan, regionların sosial-iqtisadi inkişafına kömək edən və müvafiq idarəetmə qurumlarına malik ərazilərdir.[1]

Rekreasiya ehtiyatları dörd əsas qrupa ayrılır:

1. Müalicə ehtiyatları- müalicə əhəmiyyətli mineral sular aiddir. Bu ehtiyatlara aid bilikləri orta məktəb dərsliklərində təsvir etmək, xəritə üzərində iş təşkil etməklə şagirdlərə tanıtmaq mümkündür.
2. İkinci qrupa rekreasiya-sağlamlıq sahələri, balneoloji mərkəzlər daxil edilir. Bu obyektlərin müalicəvi əhəmiyyəti ilə bağlı biliklərə daha çox yer verilməlidir.
3. Üçüncü qrupa rekreasiya-idman mərkəzləri, məsələn, dağ-xizək idman mərkəzləri aid edilə bilər. Bu qrupa daxil olan obyektlər daha çox insanların asudə vaxtlarını keçirməsi üçün nəzərdə tutulmuşdur.
4. Dördüncü qrupa aid olan rekreasiya ehtiyatlarına tarixi obyektlər, mədəni mərkəzlər, xüsusi dəyərə sahib olan arxitektura nümunələri aiddir. Bu obyektlər tarixi və mədəni irsin qorunması, vətəni tanıma və sevmə məsələləri üçün ətraflı öyrənilməsi, məqsədli şəkildə təbliğ olunması əhəmiyyətlidir.

IX-XI siniflərdə orta məktəb dərsliklərinə diqqət yetirdiyimizdə görərik ki, Turizm və rekreasiya ehtiyatlarına aid biliklərə dərindən yanaşılmamışdır. Fikrimizcə, göstərilən mövzu metodik baxımdan yetərsiz qalmış, təsvir üsulları və tapşırıqlar sayca azlıq təşkil etmişdir. Ümumiyyətlə, turizm və rekreasiya ehtiyatlarına aid biliklərə X və XI siniflərdə demək olar ki, yer ayrılmamışdır. Burada şagirdlərin müstəqil fəaliyyətinin təşkil edilməsi üçün kifayət qədər material yoxdur. Şagird müstəqil şəkildə turizm və rekreasion bilikləri internet və digər resurslardan öyrənə bilər, lakin faydalı, lazımlı bilikləri mənimsəmək üçün onlara istiqamət verilməsi zəruridir.

**Ədəbiyyat:**

1. Rəhimov Sabir. Turizm-ekskursiya işinin təşkili. Bakı-2004. 310 s
2. http://www.e-qanun.az/framework/14919
3. https://az.wikipedia.org/wiki/Rekreasiya_ehtiyatlar%C4%B1
4. https://azerforum.com/az/rekreasiya-resurslarimiz

# 9-CU SİNİF COĞRAFİYA DƏRSLİYİNDƏ "CƏMİYYƏT VƏ İQTİSADİYYAT" BÖLMƏSİNİN ÖYRƏNİLMƏ METODİKASI

**Layışova Şəfa Musa qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Shefa_00@mail.ru*
**Elmi rəhbər: dos.O.Alxasov**

***Açar sözlər:*** *coğrafiya, cəmiyyət, iqtisadiyyat, metodika, dərslik*
***Ключевые слова:*** *география, общество, ıкономика, методика, учебник*
***Key words:*** *geography, society, economics, methodology, textbook*

**Xülasə**

Tezisdə coğrafiya dərsliyinin tədris prosesinin əsas vahidi olduğu, dərsliyin tarixindən, tərkibindən, strukturundan bəhs olunmuşdur. Bundan əlavə dərsliyin üstün və çatışmayan cəhətləri, yeni coğrafiya dərsliklərinin ənənəvi dərsliklərdən fərqi də qeyd olunmuşdur. Şagirdlərin bilik və bacarıqlarının formalaşdırılması üçün dərslik komponentindən düzgün istifadə edilməsi əsas götürülmüşdür. "Cəmiyyət və iqtisadiyyat" bölməsinin mövzuları, bölmədə istifadə olunmuş köməkçi materiallara nəzər salınmışdır.

**Резюме**

В дипломной работе говорилось о том, что учебник географии является основной единиöей учебного проöесса, об истории, составе, структуре учебника. Кроме того, были отмечены преимущества и недостатки учебника, а также отличие новых учебников географии от традиöионных. За основу было взято правильное использование учебной составляющей для формирования знаний и умений учащихся. Рассмотрены темы раздела" Общество и ıкономика", вспомогательные материалы, использованные в разделе.

**Summary**

In the thesis, The Geography textbook is the main unit of the educational process, the history, composition and structure of the textbook are mentioned. In addition, advantages and disadvantages of the textbook, the difference of New Geography textbooks from traditional textbooks were noted. It was based on the correct use of the textbook component for the formation of students' knowledge and skills. The topics of the section" society and economics" and auxiliary materials used in the section are considered.

Coğrafiya üzrə vahid kurs ideyası çox mütərəqqi xarakter daşıyır və uzun illər coğrafiyaçılar (N.Baransky, Yu.Kalesnikov, Gerasimov və başqaları) tərəfindən dəstəklənir. Nəticədə coğrafiyanın müxtəlif bölmələrinin bir kursda birləşdirilməsi tamamilə yeni tipli dərsliyin yaradılmasını tələb edirdi. Ona görə də yeni coğrafiya dərslikləri ənənəvi dərsliklərdən xeyli fərqlənirdi və yeni metodikanın həyata keçirilməsinə yönəlmişdi.

2013/2014-cü tədris ilində yeni kurikulum hazırlandıqdan sonra məktəbdə yeni struktur və məzmunlu ilk coğrafiya dərsliyi nəşr edilərək tədrisə başlanılıb. Bu seriyanın sonuncu dərsliyi 2018/2019-cu tədris ilində XI siniflər üçün dərslik olub. Bu dərsliklərin hamısı eyni sxemdə, eyni üslubda yazılmışdır. Düzdür, dərsliklərdə müəyyən çatışmazlıqlar var və onların aradan qaldırılması vacibdir. Lakin qeyd etmək lazımdır ki, bunlar ilk nümunələrdir, bu tip dərsliklərin hazırlanması təcrübəsi yoxdur. Dərsliklərin gələcək nəşrlərində bu çatışmazlıqlar, təcrübənin genişləndirilməsi və s.

Bu materialların işlənib hazırlanması üçün nəzərdə tutulduğundan, onun metodik aparatını təşkil edən bəzi köməkçi materiallarla (çertlər, diaqramlar, qrafiklər, xəritələr və s.) təchiz edilmişdir. Metodiki aparatın əsas vəzifəsi tədris materiallarını mənimsəməyə kömək etmək-

dir. Bu materiallar bilavasitə dərsliyin mətni ilə bağlı olduğundan onların arasında məntiqi ardıcıllıq var.

Dərslikdə sual və tapşırıqlar sistemi də var. Bu sual və tapşırıqları mətnin müxtəlif yerlərində həm mövzunun əvvəlində, həm ortasında, həm də sonunda qeyd etmək olar. Məqsəd təkcə şagirdlərin biliyini yoxlamaq deyil, həm də müəyyən müstəqil tapşırıqları yerinə yetirmək, müxtəlif bacarıq və bacarıqların formalaşmasına nail olmaqdır.

Hər bir dərslik onunla ciddi işləməyi tələb edir. Müəllim dərs ilinin əvvəlində şagirdləri yeni dərsliklə tanış etməli, onu izah etməli, metodik aparatın xüsusiyyətlərini izah etməlidir. Burada xəritələrin əhəmiyyəti, illüstrasiyaların rolu və problemlərin həllinin vacibliyi vurğulanmalıdır.

Bölmədə 3 tədris vahidi ayrılır və bütövlükdə 21 mövzu öyrənilir. Bizim tədqiqat işinin mövzusu da məhz bu bölmənin tədrisi metodikasına həsr edilmişdir. Bu bölmənin tədrisi nəticəsində şagirdlərin iqtisadi təhsilinin, ekoloji tərbiyəsinin həyata keçirilməsi müzakirə olunur.

Bu mövzuların tədrisi iqtisadi və sosial coğrafiyanın bir qolu olan əhali coğrafiyasının öyrənilməsinə həsr edilmişdir. Bu blokda əhatə olunan mövzularda əhalinin təbii artımı, artımın yaratdığı problemlər, əhalinin yaş və cins strukturu, əmək resursları, yaş piramidası, dünya və Azərbaycan regionları üzrə əhalinin paylanması və tərkibi kimi məsələlər araşdırılır.

Modulun tədrisi zamanı tələbələr bir sıra həyati bacarıq və vərdişlərə yiyələnirlər. Onlar qrafikləri oxuyur və çəkir, qrafiklər qurur, statistik məlumatları təhlil edir, xəritələrdən məlumat alır və s. Bu, onlara müxtəlif bilik mənbələri ilə işləməyə və yeni tətbiq sahələrini öyrənməyə imkan verir. Bütün mövzuların məzmununa şagirdlərin fəaliyyətinin təşkili baxımından diqqəti cəlb edən fəaliyyətlər daxildir.

Bununla belə, bəzi mövzuların praktiki məşğələlər kimi seçildiyini qeyd etmək lazımdır. Bu mövzulardan biri də əhali coğrafiyasından "Cunq-Cin Piramidasının tikintisi" praktiki dərsidir. Şagirdlər təkcə köhnə piramidanı oxumağı bacarmalı, həm də statistik materiallar əsasında bu piramidanın necə qurulacağını öyrənməlidirlər.

Gördüyümüz kimi, dərslik problemi məktəbin işində, müəllim və şagirdlərin fəaliyyətində əsas vasitədir. Ona görə də hər bir sinfin dərsliyi ilə tanış olmaq, onun metodik aparatını öyrənmək, materiallarla tanış olmaq və tədris prosesini təşkil etmək vacibdir. Bütün bunlar dissertasiyanın mövzusunun nə qədər aktual olduğunu göstərir. Dərsliklə tanışlıq, onun tədris prosesindəki əhəmiyyətinin ətraflı təhlili bakalavriat tələbələri, müəllimlər, doktorantlar üçün qiymətli materiala çevrilə bilər.

**Ədəbiyyat**


1. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, 2012.
2. O.Alxasov. Coğrafiyanın tədrisi metodikası.
3. Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Müəllimlər üçün vəsait (müəllif qrupu). (İREX təşkilatının xətti ilə). Bakı, 2005
4. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait(müəllif qrupu) Bakı, 2005 (İREX təşkilatının xətti ilə).
5. Z.Veyisova. Fəal/interaktiv təlimş Müəllimlər üçün vəsait, 2007.


## ƏDƏD ANLAYIŞININ YARANMASI VƏ GENİŞLƏNMƏSİ


**Hüseynova Mətanət Natiq qızı**


Ədəd anlayışının yaranması və inkişafı insan cəmiyyətinin tələbatı, təsərrüfatın, ticarətin inkişafı ilə əlaqədardır. İbtidai insanlar bir neçə ilk ədədlərlə kifayyətlənmişlər. Mədəniyyətin inkişafı nəticəsində getdikcə böyük ədədlər tələb olunmuşdur. Bu proses çox yüzilliklər ərzində davam etmişdir.

Əmək məhsullarının dəyişdirilməsi nəticəsində əşyaların sayının ölçülərinin müqayisə edilməsi tələbi yaranmışdır. Bu mərhələdə "çoxdur", "azdır", "həmin qədərdir", yaxud "bərabərdir" anlayışıları yaranmışdır. Bu mərhələdə insanlar ədədləri birləşdirməyə (toplamağa)

başlamışlar. Çox sonralar onlar ədədləri çıxmağa, sonra isə vurmağı və bölməyi öyrənmişlər. Hətta orta əsrlərdə ədədlərin bölünməsi çox mürəkkəb hesab edilirdi.

Ədədlərlə əməliyyat, onlar üzərində əməllər hesab elmini yaratmışdır. Uzun müddət hesabda nisbətən böyük olmayan ədədlərlə iş aparılmışdır. Məsələn, Qədim Misirdə ən böyük ədəd "mirada"-10000 olmuşdur. Hələ bizim e.ə. III əsrdə insanlar bilmirdi ki, ədədlərin natural sırası sonsuzdur. Elə o vaxt Arximed özünün "Qum dənələrinin hesablanması" əsərində istənilən qədər böyük ədədi ifadə etməyə imkan verən sistemi işləmişdir və göstərmişdir ki, natural ədədlər sistemi sonsuzdur. Sonsuz kiçik və sonsuz böyük ədədlərin varlığını Anaksaqor (b.e.ə. 500-428) daxil etmişdir.

B.e.ə. IV əsrdə Pifaqor məktəbinin yunan riyaziyyatçıları ölçülə bilməyən parçaları müəyyən ediblər ki, uzunluğunu nə tam ədədlər, nə də kəsr ədədlə ifadə edə bilmirdilər. Belə parçalardan biri tərəfi vahidə bərabər olan kvadratın diaqonalı olmuşdur. (Müasir dövrdə bu $\sqrt{2}$-dir). Həmin dovrün riyaziyyatçıları ancaq rasional ədədlərlə məşğul olurdular və irrasional ədədi qəbul etmirdilər.

Göründüyü kimi ədəd anlayışı uzun inkişaf yolu keçmişdir: əvvəl tam ədədlər, sonra kəsr, rasional (müsbət və mənfi), nəhayət həqiqi.

Bununla inkişaf bitmir. Tənlik həllində $\sqrt{-1}$ ilə ifadə olunan ədədlərlə rastlaşmışlar. Onu xəyali vahid adlandırmışlar. Uzun müddət xəyali ədədlər ədəd kimi qəbul edilmişdir. Norveç riyaziyyatçısı Qaspar Vesel (1745-1818) xəyali ədədi həndəsi ifadə etdikdən sonra xəyali ədəd kompleks ədədlər çoxluğunda öz yerini tapmışdıır.

Kardano kompleks ədədi $a + b\sqrt{-1}$ kimi ifadə etmişdir. Eyler isə $\sqrt{-1} = i, i^2 = -1$ qəbul edərək bu ədədi $a + bi$ kimi yazmışdır.

Çevrənin uzunluğunun diametrə nisbətinin müasir $\pi$ simvolu ilə ilk dəfə 1708-ci ildə ingilis riyaziyyatçısı U.Conson olmuşdur. O bu simvolu yunanca çevrə mənasında olan "periferiya" sözünün birinci hərfi kimi qəbul etmişdir.

Eylerin işlərində bu simvoldan istifadə edildikdən sonra 1736-cı ildə bu simvol ümumi qəbul olunmuşdur. XVIII əsrin sonunda A.Lejandr isbat etmişdir ki, $\pi$ irrasional ədəddir.

Beləliklə, zaman-zaman yeni ədədlərin yaranması ədəd anlayışını genişləndirir və bu gün bizə məlum olan aşağıdakı genişlənmə prinsipini məktəb riyaziyyat təlimində şagirdlərə öyrədirik. Bunlar belə ardıcıllıqla düzülüb: natural ədədlər, tam ədədlər, rasional, irrasional və həqiqi ədədlər. Digər ədədlər isə daha da geniş şəkildə ifadə edilir.

## İKİDƏYİŞƏNLİ XƏTTİ TƏNLİKLƏR SİSTEMİ

**Paşayeva Şəbnəm Sahid qızı**
*shebnempashayeva8@gmail.com*

***Açar sözlər:*** *tənlik, ikidəyişən, sistem, xətt, üsul*
***Key words:****equatio, binary, system, line, method*

**Xülasə**

VII sinifdə "İkidəyişənli xətti tənliklər sistemi" mövzunun öyrənilməsinin metodik xüsusiyyətləri müəyyən edilmişdir. Mümkün çətinliklərin və onlardan çıxış yollarının ətraflı təhlili aparıldı.

## METHODOLOGY OF TEACHING THE TOPIC "SYSTEM OF TWO-VARIABLE LINEAR EQUATIONS" IN VII GRADE

**Summary**

The article identifies the methodological features of the study of the topic "System of two-variable linear equations and its solution by graphical methods" in VII grade. A detailed analysis of possible difficulties and ways out of them was conducted.

VII sinif cəbr kursunun mühüm mövzularından biri də “İki dəyişənli xətti tənliklər sistemləri” mövzusudur. VII sinifdə bu mövzunun öyrənilməsi prosesində uşaqlar tənliklər sistemlərinin əsas anlayışlarını və sistemləri üç yolla həll etmək bacarığını aydın şəkildə başa düşməlidirlər ki, bu da biliklərin daha da inkişafı üçün zəruri əsas olacaqdır. Fəslin materialı təkcə nəzəri əhəmiyyət kəsb etmir, həm də praktiki məzmunlu bir çox problemlərin həlli üçün zəruri hesablama vasitəsi kimi xidmət edir.

Tənliklər sistemi bir neçə (və ya bir) dəyişəndə bir neçə tənliyin eyni vaxtda yerinə yetirilməsindən ibarət şərtdir. Başqa sözlə, bir, iki və ya daha çox məchul ilə bir neçə tənlik verilirsə və bütün bu tənliklər (bərabərliklər) eyni vaxtda yerinə yetirilməlidirsə, belə tənliklər qrupuna sistem deyilir [5, s 104].

a, b c hər hansı ədədlər, x və y dəyişən olduqda ax+by=c şəklində tənliyə ikidəyişənli xətti tənlik deyilir.

Misal 0: x+5y=0 tənliyini həll edək.

a=1, b=5, c=10

Bu tənliyin bir kokünü (10; 0) yazsaq, onda (10; 0) ədədlər cütü bu tənliyin kökü olar və yaxud (5;1); (0;2) və s. yazsaq onda bu qayda ilə müxtəlif ədədlər cütünü bu tənliyə kök kimi tapmaq olar. Bu nöqtələri koordinat sistemində qeyd edin birləşdirsək, bir düz xətt alarıq. Yəni, ax+by=c tənliyinin köklərini ardıcıl olaraq birləşdirsək, bu zaman bir düz xətt almış olarıq.

Dəyişənlərin ikidəyişənli xətti tənliyi doğru bərabərliyə çevirən qiymətləri cütünə ikidəyişənli xətti tənliyin həlli deyilir.

$a_1x+b_1y=c_1$ və $a_2x+b_2y=c_2$ şəklində olan iki tənlik ikidəyişənli xətti tənliklər sistemidir. Burada $a_1$, $b_1$, $c_1$, $a_2$, $b_2$, $c_2$ ədədləri əmsallar, x və y isə dəyişənlərdir. Sistemin hər iki tənliyi doğru bərabərliyə çevrilən (x; y) cütünə sistemin həlli deyilir. İkidəyişənli xətti tənliklər sistemi aşağıdakı kimi yazılır:

$$\begin{cases} a_1x + b_1y = c_1 \\ a_2x + b_2y = c_2 \end{cases}$$

Dəyişənlərin ikidəyişənli xətti tənliklər sisteminin hər bir tənliyini doğru ədədi bərabərliyə çevirən qiymətləri cütünə ikidəyişənli xətti tənliklər sisteminin həlli deyilir.

Qeyd etmək lazımdır ki, bu tərif istənilən ikidəyişənli tənliklər sistemi üçün də doğrudur.

şəklində verilmiş tənliklərə ikidəyişənli xətti tənliklər sistemi deyilir.

Misal 1. (1;2) cütünün $\begin{cases} 2x + 3y = 8 \\ 3x + 2y = 8 \end{cases}$ sisteminin həlli olduğunu yoxlayaq.

Sistemin 2x+3y=8 tənliyində x=1, y=2 götürsək, 2·1+3·2=2+6=8 və 3x+2y=7 tənliyində x=1, y=2 götürsək, 3·1+2·2=3+4=7 doğru bərabərliyini alarıq. Deməli, (1;2) cütü verilmiş sistemin həllidir.

İkidəyişənli xətti tənliklər sistemini həll etmək, onun həllərini tapmaq və ya həllinin olmadığını isbat etmək deməkdir.

Tənliklər sistemini həll etmək onun bütün həllərini tapmaq və ya heç birinin olmadığını müəyyən etmək deməkdir. İkidəyişənli tənliklər sisteminin həlli sistemin hər bir tənliyini həqiqi bərabərliyə çevirən dəyişənlərin bir cüt dəyəridir. Sistemin bütün tənliklərinin eyni vaxtda həlli olan dəyişənlərin hər bir cütü sistemin həlli adlanır [2. s. 169].

Xətti tənliklər sistemini həll etmədən onun həllərinin sayını müvafiq dəyişənlərin əmsalları ilə müəyyən etmək olar.

İkidəyişənli xətti tənliklər sistemini həll edərkən çox zaman əvəzetmə üsulundan istifadə olunur. Əvəzetmə üsulu aşağıdakı ardıcıllığa uyğun yerinə yetirilir:

1. Tənliklərin birində dəyişənlərdən biri digəri ilə ifadə edilir.
2. Əvəz edilmiş dəyişənin qiyməti ikinci tənlikdə yerinə yazılır.
3. Alınmış birdəyişənli xətti tənlik həll edilərək dəyişənin qiyməti tapılır.

4. Tapılan dəyişənin qiyməti birinci tənlikdə (dəyişənin birinin digəri ilə ifadə edildiyi tənlikdə) yerinə yazılır və ikinci dəyişənin qiyməti tapılır.

5. Cavab cüt şəklində yazılır.

Aşağıdakı misallara baxaq:

$$\begin{cases} 3x + y = 6, \\ 2x + 3y = 11 \end{cases}$$

tənliklər sistemini əvəzetmə üsulu ilə həll edin.

*Həlli:* Birinci tənlikdə $y$ dəyişənini $x$ ilə ifadə edək: $y = 6 - 3x$. İkinci tənlikdə $y$-i $x$-lə əvəz edək: $2x + 3(6 - 3x) = 11$.

Tənliyi həll edərək $x$-i tapaq: $2x + 18 - 9x = 11$, yəni $x = 1$. $x$-in alınan qiymətini $y = 6 - 3x$ əvəzləməsində yerinə yazaraq $y$-i tapaq: $y = 6 - 3\cdot 1 = 3$. Beləliklə, $x = 1$ və $y = 3$. Cavab: (1; 3)

**Yoxlanması:** (1; 3) cütünü hər iki tənlikdə yerinə yazaraq bərabərliklərin doğru olduğunu yoxlayaq: $3\cdot1 + 3 = 6$ və $2\cdot1 + 3\cdot3 = 11$.

$$\begin{cases} 3x + 4y = 3, \\ 2x - 3y = 19 \end{cases}$$

tənliklər sistemini əvəzetməüsulu ilə həll edin.

Həlli: Birinci tənlikdə $x$ dəyişənini $y$ ilə ifadə edək. Alınan tənliklər sistemi arasında eynigüclülük $\Leftrightarrow$ işarəsiqoyulur.

$$\begin{cases} 3x + 4y = 3, \\ 2x - 3y = 19 \end{cases} \Leftrightarrow \begin{cases} 3x = 3 - 4y, \\ 2x - 3y = 19 \end{cases} \Leftrightarrow \begin{cases} x = \dfrac{3-4y}{3}, \\ 2\cdot\dfrac{3-4y}{3} - 3y = 19 \end{cases} \Leftrightarrow \begin{cases} x = \dfrac{3-4y}{3}, \\ 6 - 8y - 9y = 57 \end{cases} \Leftrightarrow$$

$$\begin{cases} x = \dfrac{3 - 4\cdot(-3)}{3}, \\ y = -3 \end{cases} \Leftrightarrow \begin{cases} x = 5, \\ y = -3. \end{cases}$$

**Cavab:** (5; –3).

**Ədəbiyyat**


1. Abdullayeva M. Riyaziyyatın tədrisi metodikası-1. Bakı:Elm və təhsil, 2020, 208 s.
2. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. ADPU-nun nəşriyyatı, Bakı, 2015, 350 s.
3. İsmayılova S. Riyaziyyat-7, Bakı, 2018, 317 s.
4. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Riyaziyyat" fənnindən dərslik. Bakı: 201, 224 s.
5. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Riyaziyyat" fənnindən dərslik. - Bakı: Şərq-Qərb, 2016. - 224 s.


## RİYAZİYYAT TƏLİMİNDƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ƏSASLANDIRILMASI


**İbrahimli Arzu Rəfail qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*arzush.ibrahimli@mail.ru*


Riyaziyyat təlimində fəndaxili və fənlərarası inteqrasiyanın təşkili inkişafı müasir təlimində qarşıya qoyulan problemlərdən biridir. Texnologiyanın inkişafı ilə yeni elm sahələrinin meydana çıxması bu prosesin vacibliyini daha dəqiq ifadə edir. Yeni informasiyaların fərqli metodlarla mənimsənilməsi inteqrativ təlim əsasında həyata keçirilir. Öncəliklə, qeyd etmək lazımdır ki, riyaziyyatın əsas məqsədləri belədir:- real obyektlərin və hadisələrin riyazi təsəvvürlərlə dərk edilməsini təşkil edir, cəmiyyətin əsas hərəkətverici qüvvəsi olmaqla, mədəniy-

yətin tərkib hissəsini təşkil edir, başqa fənlərin mənimsənilməsi və istənilən ixtisas üzrə təhsilin davam etdirilməsi üçün lazım olan bilik və bacarıqları şagirdlərə mənimsətmək üçün real zəmin yaratmaq. Bu məqsədlər, müasir təhsil proqramında qeyd edilmişdir.Riyaziyyatda istifadə edilən təsviretmə və dərketmə metodu fəndaxili və fənlərarası iteqrasiyanın qurulmasında böyük rol oynayır. Fəndaxili və fənlərarası inteqrasiya öz tərkiblərinə görə ayrı- ayrılıqda təsnif olunur.

Riyaziyyat təlimində fəndaxili inteqrasiya daxili imkanlar hesabına uyğunluğu pozmadan məzmun xətlərinin əlaqələndirilməsini təmin edir və modeldə özünü göstərir: şaqüli və üfüqi.

Üfüqi inteqrasiya- məzmun xətləri arasında əlaqənin düzgün təmin edilməsi üçün əsas sistemdir. Riyaziyyatda beş əsas məzmun xətti var. Bunlar arasında əlaqə düzgün qurulmadıqda təlimdə sistemlilik və tamlıq prinsipi pozulmuş olur. Məsələn, VI sinif riyaziyyat dərsinin tədrisi zamanı birinci faiz, sonra isə tənasüb dərsi keçilsə, təlimdə uğursuzluq qaçınılmaz olacaqdır.

Şaqüli inteqrasiya- tədris ediləcək mövzuların həcminin siniflər üzrə düzgün təşkilini, məzmun standartlarının yarımilliklər üzrə planlaşdırılmasını təmin edir. Şaqüli inteqrasiya fəndaxili əlaqələrə əsaslansa da fənlərarası inteqrasiyanın da təşkilində əhəmiyyət daşıyır. Şaqüli inteqrasiya qurularkən siniflər üzrə fənnin məzmununun genişlənməsinə əsaslanmaq lazımdır.

Riyaziyyat kurikulumunda məzmun standartı hər sinif üçün ayrı tərtib edilsə də, məzmun xətləri siniflər üzrə sabit saxlanılmalıdır. Lakin qeyd etmək lazımdır ki, məzmun xətləri qurularkən asandan çətinə, sadədən mürəkkəbə prinsibləri gözlənilməlidir. Məzmun xətlərində ifadə edilən riyazi anlayışlar və riyazi təkliflər sadəcə bu siniflərə üçün məhdudlaşdırıla bilməz. Riyaziyyat dərsinin tədrisi zamanı daxil edilən məzmun xətləri şagirdlərin yaş kateqoriyalarına və bilik səviyyələrinə uyğun olmalıdır. Əlavə olaraq deyə bilərik ki, məzmun xətləri arasında varislik prinsipi nəzərə alınmalıdır. Hələ ibtidai sinfdən şagirdlər bu 5 məzmun xəttiilədə tanış olurlar. Lakin əldə edilən informasiya dərin deyil, səthi biliklərdən ibarət olur.

Fənlərarası inteqrasiya- müxtəlif fənlər arasındakı qarşılıqlı əlaqənin qurulmasına əsaslanır. Bu prosesdə əsas məqsəd eyni vaxtda tədris edilən fənlər arasındakı oxşar və fərqli cəhətlərin nəzərə alınması yolu ilə kortəbii deyil daha şüurlu şəkildə mənimsənilməni təmin etməkdir. Məsələn, VIII sinif dərsliyində “Kvadrat tənliklər və onun həlli üsulları” mövzusu ilə fizikada tədris olunan və kvadraat tənlik qurmaqla həll edilən məsələlər arasında inteqrasiyanın təmin edilməsi əsasən bu fənn üzrə standartların daxil edilməsindən asılıdır. Fənlərarası əlaqələrin düzgün təşkil edilməməsinin bir sıra obyektiv və subyektiv səbəbləri mövcuddur. Bu proses çox mürəkkəbdir və düzgün təşkil edilməsi qismən çətinlik yaradır. Fəndaxili inteqrasiya isə qeyd edilənlərə nisbətən daha sadə prosesdir.

Fəndaxili və fənlərarası əlaqələrin qurulnasında pedaqoji-psixoloji amillər nəzərə alınmalıdır. Məsələn, riyaziyyat təlimi prosesində fizikaya, kimyaya və coğrafiyaya aid həll olunan məsələlərin məzmunda mücərrədləşdirmə prosesi anlayışın fiziki və kimyəvi əlamətlərinə təsir etməməlidir. Bu tip məsələlərin sırf hansı fənnə aid olmasında şagirdlər bəzən çətinliklər çəkirlər və bu təbiidir.

V-IX siniflərdə məsələ həlli ilə təlimin səmərəli olması ьзьп fənlərarası inteqrasiya həmişə pedaqoq və riyaziyyatçıların diqqətində olmuşdur. Fəndaxili əlaqədə şagirdlərin yaddaşı möhkəmləndirilir, fənlər arasında kompleks əlaqənin olduğunu hiss edirlər, riyaziyyat fənninin digər fənlərin öyrənilməsində rolunu müəyyən edirlər. Eyni zamanda digər fənlərin köməyi ilə riyazi anlayışların məzmununu mənimsəyirlər. Həndəsə məzmun xətlərində daxil edilən anlayışlar riyazi dilə çevrilərək fizikada, astronomiyada, kimyada, coprafiyada və s. istifadə olunur.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ (IX-XI SİNİFLƏR ÜZRƏ) SXEM VƏ CƏDVƏLLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**İbadova Sevda Telman qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ibadovasevda2018@gmail.com*

Mövzunun tədrisi zamanı məlumatların qarışıq şəkildə şagirdlərə ötürülməsi onların informasiyanı mənimsəməsini çətinləşdirir. Bunun qarşısını almaq üçün müxtəlif vasitələrdən (qrafik təsvirlər, sxemlər, cədvəllər və s.) istifadə olunur. Bu vasitələr həm də dərsdə vaxt itkisinin qarşısını almağa xidmət edir. Dövr dəyişdikcə, zaman keçdikcə bütün sahələrdə olduğu kimi təhsil sahəsindədə özünəməxsus canlanma, inkişaf, tərəqqi müşahidə olunur və idraki biliklərin, proseslərin şagirdlərə ötürülməsi ön plana çəkilir. Artıq müasir fəal dərslərdə şagirdlər passiv dinləyici tərəf olaraq deyil, aktiv, tədqiqatçı tərəf kimi çıxış edir, onlardan araşdırmaq, kəşf etmək, ümumiləşdirmək, nəticə çıxarmaq tələb olunur. A.Enşteynin qeyd etdiyi kimi "Təhsil düşünmənin məşq etdirilməsidir". Karl Albrext ardıcıl düşünməni məntiqi təfəkkürün əsası kimi qeyd edir. Onun fikrincə ardıcıl düşünmək məntiqi təfəkkürə istiqamət verir.

Fəal təlimin əsas məqsədlərindən biridə şagirdlərdə ümumiləşdirmə, nəticə çıxarma, sistemləşdirmə, konkretləşdirmə bacarıqlarının inkişaf etdirilməsidir. Dərsdə ümumiləşdirmənin şagirdlər tərəfindən aparılması xüsusi əhəmiyyət kəsb edir. Matrialın ümumiləşdirilməsi çox da asan proses deyildir. Şagirdlərin bir qismi ümumiləşdirməni düzgün başa düşməkdə çətinlik çəkir və uzun cümlələrlə fikirlərini aydın olmayan şəkildə izah etməyə çalışırlar. Biraz əqli cəhətdən zəif şagirdlər informasiyanın sistemə salınmasında, qısa, lokonik şəkildə ifadə olunmasında çətinlik çəkirlər.

Sxem və cədvəllər ümumiləşdirmə, strukturlaşdırma hesabına öyrənmə vaxtını artırmadan şagirdlərə böyük həcmdə məlumatları mənimsəməyə kömək edir. Onlar şagirdlərin təsnifat qabiliyyətini, məlumatı qısaltmaq və genişləndirmək qabiliyyətini inkişaf etdirməyə, idrak maraqlarını aktivləşdirməyə, onların sinifdəki fəallığını artırmağa, yorğunluğu azaltmağa və ev tapşırıqlarını yerinə yetirmək üçün vaxtın miqdarını azaltmağa imkan verir.

Sxem və cədvəllər dərsdə aşağıdakı məqsədləri güdə bilər: öyrənilәni izah etmək, alınan fikirləri birləşdirmək, materialı ümumiləşdirmək, müəllimə kömək etmək, şagirdlər tərəfindən biliklərin mənimsənilməsi dərəcəsini müəyyənləşdirmək.

Dərsdə cədvəllərdən istifadə informasiya səriştəsinin inkişafına kömək edir. Şagirdlər məlumatı bölmək və genişləndirmək bacarığına yiyələnirlər (dərsliyin və istinad ədəbiyyatının mətninə uyğun cədvəl tərtib edərkən, cədvəl əsasında ətraflı cavab hazırlayarkən və s.).

Qeyd etdiyimiz kimi tədris zamanı zehni proseslərin əyaniləşdirilməsi məqsədilə qrafik göstəricilərdən də istifadə olunur. T- sxemlər, konseptual cədvəllər, Ven diaqramı qrafik göstəricilərin tədris üçün ən səmərəli formalarıdır. Konseptual cədvəllər bir neçə obyektin və ya cəhətin müqayisəsi nəzərdə tutulan zaman səmərəli vasitə sayılır. Bu cür cədvəllərdən biologiya dərslərində hadisə və proseslərin müqayisəsi, canlılar arasında fərqli və oxşar əlamətlərin aşkarlanması məqsədilə istifadə olunur. Cərgələr, sütunlar və şərti işarələr sistemindən, ədəbi və mətni qeydlərdən ibarət yazılar cədvəl adlanır. Bəzən cədvəl tərtibinə ikinci dərəcəli, bəzən isə çətin və mürəkkəb iş kimi baxılır.

İnformasiyanın tərkib hissəsi və onlar arasındakı əlaqələrin şərti işarələrlə əks etdirilməsi – sxem adlanır. Sxemlər vasitəsilə məlumat müəyyən qədər sadələşdirilir, lakin onun quruluşu və tərkib hissəsi dəyişdirilmir.

Hadisə və ya proseslərin sxemini qurmaq bacarığının şagirdlərə aşılanması onların böyük informasiya tutumlu mövzuları sadələşdirilmiş şəkildə təhlil etməsinə şərait yaradır. Sxemin hazırlanması çətin və vaxt aparan proses kimi görünsədə dəfələrlə sxemlərin hazırlanması təkrarlandıqda artıq bir vərdiş halını alır. Belə bir vərdişə yiyələnməyin şagirdlər üçün üstün-

lükləri çoxdur. Burada əsas məzmun aydın şəkildə göstərilir, əsas anlayışlar və faktlar işıqlandırılır.

## ORTA MƏKTƏBLƏRDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ FƏNDAXİLİ ƏLAQƏNİN YARADILMASI İMKANLARI

**Rüstəmova Nazəndəxanım Fikrət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rustemovanaze@gmail.com*

Bu gün Azərbaycan Respublikasının orta məktəblərində tətbiq edilən fənn kurikulumlarının reallaşdırılması təlim prosesinin optimallaşdırılmasına, onun keyfiyyətinin yüksəldilməsinə yeni yanaşmanı tələb edir. Məzmun və strukturu dəyişdirilmiş dərsliklərdə, İKT-nin imkanlarından istifadə etməklə, təlim materialının zənginləşdirilməsi, fəal təlim metodlarının məqsədə uyğun seçimi, öz imkan və şəraitlərini nəzərə alaraq təlim strategiyalarının hazırlanması fənn müəllimlərini məzmun və fəaliyyətin əlaqələndirilməsinə, inteqrasiyanın yaradılmasına istiqamətləndirir. Elmi pedaqoji ədəbiyyatlarda inteqrativ əlaqələrin səviyyəsinə görə üç növü xarakterizə olunur. Fəndaxili əlaqələrin təlim prosesində rolu və əhəmiyyəti göstərilir. Lakin bütün bunlar istiqamətverici xarakter daşıyır, çünki fəndaxili əlaqənin yaradılması fənnin xüsusiyyətlərinin nəzərə alınması ilə həyata keçirilməlidir.

Biologiya ümumtəhsil məktəblərində tədris olunan təbiət elmləri içərsində, aparıcı fənlərdən biridir. O, şagirdlərin gələcək həyata hazırlanmasında, özünü və ətraf aləmi dərk edən bir şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Çünki, həyatımızın elə bir sahəsi yoxdur ki, onun biologiya ilə inteqrativ əlaqəsi olmasın. Biologiya fənni üzrə yeni məzmunda biliklərin verilməsi, bacarıqların formalaşdırılması sadədən mürəkkəbə doğru istər bölmələr istərsə də siniflər üzrə şaquli və üfüqi istiqamətdə inteqrasiyanı nəzərə almaqla təqdim olunur. Təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən olunan məzmun əsasında dörd məzmun xətti müəyyənləşdirilir. Ona görə də yeni dərsliklərdə təlim materialı VI sinifdən başlayaraq məzmun xətləri üzrə verilir. Belə ki, canlılar aləminin müxtəlif qruplarına dair dərsliklərə daxil edilən yeni məzmun, fəndaxili inteqrasiyanın yaradılmasına geniş imkanlar açır. Onların bioloji, ekoloji xüsusiyyətlərinin müqayisəli şəkildə öyrədilməsinə, oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsinə inteqrativ yanaşmanı tələb edir.

Müəllim üçün metodik vəsaitdə hər bir mövzunun tədrisi üzrə verilən metodik göstərişlər sırasına fəndaxili əlaqə daxil edilməmişdir. Onun təlim prosesinə tətbiqi fənn müəllimlərinin ixtiyarına verilir. Ona görə də, müəllim dərsə hazırlıq mərhələsində tədris vahidinin məzmununa müvafiq fəndaxili inteqrasiyanın imkan və yollarını müəyyənləşdirməlidir. Dərsin məqsədi ilə bağlı seçmiş olduğu təlim strategiyalarında fəndaxili inteqrasiyanı nəzərə almalıdır. Bu məqsədlə interaktiv təlim metodlarında, İKT-nin imkanlarından istifadəyə daha çox üstünlük verməlidir. Təcrübə göstərir ki, təlim prosesində problemin həllini səmərəli təşkil etmək üçün, şagirdlərin əvvəllər qazanılmış bilikləri ilə, öyrəniləcək yeni təlim materialı arasında əlaqənin yaradılması, sistemli və ardıcıl aparılmalıdır.

## HƏLLİ KVADRAT TƏNLİYƏ GƏTİRİLƏN TƏNLİKLƏR HAQQINDA

**Nurməmmədov Bilal Eynulla oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nur.bilall123@gmail.com*

Məktəb riyaziyyat kursunda tənlik anlayışı ən mühüm anlayışlardan biridir. Belə ki, məktəb riyaziyyatında öyrədilən materialların və məsələlələr həllinin 13 hissəsindən çoxunu tənlik və bərabərsizliklər təşkil edir. Tənliklər şagirdlərin müxtəlif kəmiyyətlər arasındakı asılılığı və bu asılılığın real həyatdakı xarakterin təzahür formaların, onun riyazi ifadəsini başa düşməyə kömək edir.

İbtidai siniflərdən başlayaraq tənlik, sadə xətti tənlik və onun həlli qaydasını mənimsəyirlər. Səkkizinci sinifdə isə şagirdlər kvadrat tənlik anlayışı ilə tanış olurlar. Kvadrat tənliyin tərifi, kvadrat tənliyin növləri, kökləri düsturunun çıxarılması, kvadrat tənliyə gətirilən məsələlərin həlli, Viyet teoremi və köklərinə görə kvadrat tənliyin qurulmasını mənimsəmək ən vacib şərtlərdən biridir. Qeyd edək ki, yuxarı siniflərdə tənliklərin müxtəlif sinifləri öyrənilir ki, bu öyrədilən funksiyalar xəttlə əlaqəlidir.

İstər cəbri və istərsədə öyrədilən transendent tənliklərdə, yeni dəyişən daxil etməklə hər bir növ tənliyin həlli kvadrat tənliyə gətirilir. Doğrudur, bəzən tənliklərin həllində o xüsusi metod kimi qəbul edilib və bu metod yeni dəyişən daxil etmə metodudur. Ancaq yeni dəyişən daxil etməklə tənlikdən alınan yeni tənlik əsasən kvadrat tənlikdir ki, onun həllini şagirdlər bacarırlar.

Həlli kvadrat tənliyə gətirilən tənlikləri iki sinfə ayırmaq olar. 1) Kvadrat tənliyə gətirilən cəbri tənliklər. Bunlara aşağıdakı tənliklər daxildir.

a) Bikvadrat tənliklər və daha yüksək dərəcəli tənliklər

b) Rasional tənliklər

c) İrrasional tənlikər

d) Simmetrik və qayıtma tənlikləri

Hər bir tənliyi əvəzləmədən sonra, alınan kvadrat tənliyin həlli nəticəsi verilmiş tənliyin mümkün qiymətləri çoxluğuna daxil olub-olmadığını yoxlamaq lazımdır.

2) Transendent tənliklərdə də yeni dəyişəni daxil etməklə tənliyi məlum cəbri tənliyə, kvadrat tənliyə gətirməklə həlli asanlaşdırılır.Bu tip tənliklərə aşağıdakı tənliklər daxildir.

a) Üstlü tənliklər

b) Loqarifmik tənliklər

c) Triqonometrik və tərs triqonometrik tənliklər

Mövcud dərsliklərdə həlli kvadrat tənliyə gətirilən kifayət dərəcədə tənliklər verilmişdir. Burada əsas məqsəd əvəzləmənin düzgün aparılmasıdır. Fikrimizi tənliklər içərisində yalnız triqonometrik tənliyin həlli üzərində aydınlaşdıraq. Triqonometrik tənlikləri bu üsulla həll edərkən, şagirdlərə xatırlatmaq lazımdır ki, burada əsas əvəzləmənin düzgün seçilməsidir. Çünki, əvəzləmədən asılı olaraq eyni bir tənlik həm irrasional tənlik şəkilinə və həmdə kvadrat tənlik şəkilinə düşə bilər.

Məsələn: $2\cos^2x + 4\cos x=3\sin^2x$ tənliyində $y=\sin x$ əvəzləməsi aparsaq, verilən tənlik irrasional tənliyin $2(1-y^2)+4\sqrt{1-y}=3y^2$ həllinə gətirilir.

Əgər $y=\cos x$ əvəzləməsini aparsaq, onda tənlik bir rasional $2y^2+4y=3(1-y^2)$ yox, $5y^2+4y-3=0$ kvadrat tənliyə gətirilir.

## BİOLOGİYANIN TƏDRİSİNDƏ BİOETİK DAVRANIŞLARIN AŞILANMASININ İMKAN VƏ YOLLARI

**Ağamalıyeva Dəstə Faiq qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aghamaliyeva13@gmail.com*
**Elmi rəhbər:prof.B.İ.Ağayev**

İnsan mənəviyyatını formalaşdıran keyfiyyətlərdən biri bioetik davranışlardır.

Bioetik davranışları insanlar və insanlarla diger canlılar arasında mövcud olan münasibətlər və bu münasibətlərdən irəli gələn vəzifələr təşkil edir. Vəzifələr isə insanlara xoşbəxt olmağı deyil, xoşbəxtliyə necə nail olmağı aşılayır. Çünki bioetik davranışlar kamilliyin, xeyirxahlığın, fəzilətin formalarından olub, paylamaqla azalmayan, xərcləməklə qurtarmayan bir sərvətdir.

Müəllim dahi şəxsiyytələrimizin bioetik davranışlara dair fikirlərinə istinad edərək biologiya dərslərində mövzu ilə əlaqəli bioetik davranışları şagirdlərin nəzərinə çatdırır. Qeyd

edir ki, əxlaq kateqoriyaları ümumi şəkildə insanlar arasında, insanla cəmiyyət arasındakı bioetik davranışları əks etdirir. Humanistlik insanlara və digər canlılara qayğı, diqqət, məhəbbət bəxş etmək kimi bioetik davranışların cəmi hesab olunur.

Dahilərin bioetik davranışlara dair ideya, fikir və vəsiyyətləri fənlərin, o cümlədən biologiyanın tədrisində şagirdlərə bioetik anlayışların aşılanmasına geniş imkanlar açır. Belə ki, biologiyadan bitkilərin, heyvanların anatomiyası, morfologiyası, fizioloji prosesləri, yayılması, artırılması məsələləri öyrədilərkən insanların, xüsusilə uşaqların onlarla bioetik davranışları da izah edilir. Bitki və heyvanlarla qeyri-etik davranışları pislənilir, onlara sədaqətlə qulluq qaydaları öyrədilir. İnsanın anatomiya və fiziologiyası, sağlamlığına dair mövzuların tədrisində sağlamlığın əsas amillərindən biri kimi insanların bioetik münasibətləri göstərilir. Müəllimin şagirdlərlə etik münasibətləri məktəblilər üçün örnək olur. Canlıların uzun həyat sürməsi üçün təbiətin qorunması, cansız təbiətə qayğılı yanaşılması əsas problem kimi qarşıya qoyulur. Bioetik davranışlara malik insan həm özünün, həm onu əhatə edən insanların sağlamlığına, digər canlıların normal yaşayışına, təbiət komponentlərinin qənaətlə istifadəsinə, ekoloji tarazlığın qorunmasına böyük töhfələr verir.

Biologiyadan hər bir mövzunun tədrisində şagirdlərə bioetik davranışlar aşılanması mümkündür. Problemin həlli müəllimin bioetik davranışlara hansı səviyyədə yiyələnməsindən, onun didaktik bilik, bacarığından asılıdır.

## AZƏRBAYCANIN BİTKİ SELEKSİYASININ XX-XXI ƏSRLƏRDƏ ƏLDƏ EDİLMİŞ NALİYYƏTLƏRİNİN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİ İLƏ ƏLAQƏLƏNDİRİLMƏSİNİN MAHİYYƏTİ

**Həsənova Ülviyyə Adil qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ulviyye.h.ova.m@mail.ru*

Azərbaycan xalqı qədim zamanlardan bəri bol məhsuldar Azərbaycan torpaqlarında əkinçiliklə, dolayısı ilə bitki seleksiya ilə məşğul olmuşlar. Hər bir əkinçi istər-istəməz şüursuz şəkildə olmuş olsa da belə seçmə ilə məşğuldur.

Şüurlu seçmə istiqamətində isə Azərbaycan alimlərinin çoxsaylı nailiyyətləri olmuşdur. Həmçinin bu tip nailiyyətlərin əldə olunması istiqamətində görülən işlər bu günki gündə də həyata keçirilir. Seleksiyaçı Azərbaycan alimləri kimi İ.D.Mustafayev, Ə.M.Quliyev, Ə.Sadıqov, İ.K.Abdullayev, X.R.Verdiyev, C.Ə.Əliyev və başqalarını qeyd edə bilərik. Azərbaycanda dənli, texniki yem və meyvə-tərəvəz bitkiləri üzərində seleksiya işləri görülür. Ən əsas yeri isə pambıq və dənli bitkilər tutur. Uzun illərdir ki, Azərbaycanda seleksiya işləri görülməsinə baxmayaraq təəssüflər olsun ki, seleksiya işləri tam olaraq qənaətbəxş sayılmır. Son illərdə ölkə iqtisadiyyatının dirçəldilməsi üçün qeyri-neft sektoruna xüsusi diqqət yetirilir. Bu istiqamətdə gəlirli yollardan biri də əkinçilik hesab olunur. Dövlət tərəfindən fermerlərə müxtəlif istiqamətli dəstəklər göstərilsə də yəni subsidiyalar və müəyyən güzəştli kreditlər verilsə də fermerlərimiz geniş miqyaslı əkinçilikdən qaçırlar. Bunun əsas səbəbi dövrümüzün əsas bəlası olan iqldəyişikliyi ilə əlaqədar yaranan quraqlıqla əlaqədar olaraq nəzərdə tutulmuş məhsulun götürülə bilməməsidir. Əlbəttə ki, yüksək məhsul əldə etmək üçün yüksək xüsusiyyətli toxum lazımdır. Yüksək məhsuldar toxum əldə etmək üçün ölkədə seleksiya işlərinin daha gücləndirilməsi vacibdir. Bundan əlavə xaricdən toxum almaq əvəzinə xaricə toxum satmaq ölkə iqtisadiyyatına müsbət təsir göstərmiş olar. Gələcəkdə də bu problemlərin yaşanmaması üçün savadlı seleksioner kadırların hazırlanması çox mühimdir. Bunun başlıca həlli yolu dərsliklərdə seleksiya elminə daha çox yer verilməli və ən əsası uşaqlara seleksiya elminin mahiyyəti dəqiq öyrədilməlidir.

Bundan əlavə ümumtəhsil məktəblərində biologiyanın tədrisinin Azərbaycanın bitki seleksiyasının naliyyətləri ilə əlaqələndirilməsi:

• Şagirdlərin seleksiya elmi ilə tanışlığına imkan yaradır;
• Şagirdlərin seleksiya sahəsi üzrə peşə seçimlərinə kömək edir;
• Şagirdlərə vətənpərvərlik tərbiyəsi aşılanır.
• Şagirdlərdə bitki seleksiyası sahəsinə maraq yüksəlir;
• Biologiyanın tədrisində mövzuların mənimsənilməsi asanlaşır;
• Təlimin keyfiyyəti artır ;
• Şagirdyönümlülük təmin olunur .

## ŞAGİRDLƏRDƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI

**Həmidova Məhbubəxanım Rövşən qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mehbube072@gmail.com*
**Elmi rəhbər: ped.ü.f. d. Mahmudova Könül**

Şagirdlərin biliklərə, mənəvi keyfiyyətlərə yiyələnməsi onların idrak qabiliyyətinin inkişafından, habelə əxlaqi, intellektual, estetik hisslərin inkişafından asılıdır. Onların münasibətlər sistemi müxtəlif istiqamətlərdə formalaşır. Yuxarı siniflərdə şagirdlərin təlimə münasibəti aşağı siniflərdən fərqlidir. Onların bir şəxsiyyət kimi formalaşması prosesində müxtəlif fəaliyyət sahələri mühüm rol oynayır. Bu fəaliyyət sahələri də bu və ya digər dərəcədə təlimlə bağlıdır. Şagird şəxsiyyətinin formalaşmasına təfəkkürün inkişaf etdirilməsi vasitəsilə nail olmaq olar.

Hər bir idrak fəaliyyəti hissetmə və qavrayışla bağlıdır, sonra təfəkkürə keçir. Bu, əvvəlcə təsəvvür, sonra isə anlayış səviyyəsində baş verir. Anlayışlar eyni zamanda həm real obyektlərin inikas formaları, həm də xüsusi fikir əməliyyatları kimi fəaliyyət göstərməklə elmi biliklərin elementlərini təşkil edir. Təfəkkürün 3 növü vardır: məntiqi təfəkkür, tənqidi təfəkkür, yaradıcı təfəkkür.

İdrak fəaliyyətinin gedişində şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf edir. Məntiqi təfəkkür həyatın bütün sahələrində insana lazım olan vərdişdir. Təfəkkürün normal fəaliyyəti yalnız düşüncə aydın olduğu halda mümkündür. Düşüncənin bu və ya başqa dərəcədə pozulması təfəkkürün yeknəsəkliyinə, əlaqəsizliyinə, bəzən isə avtomatik fəaliyyət göstərməsinə səbəb olur. Təfəkkür insanın yaradıcı fəaliyyətinin əsasını təşkil edir. Ona əsaslanaraq biz maddi nemətlər istehsal edir, sənət əsərləri yaradır və fəaliyyətimizi idarə edirik. Təfəkkür prosesi zamanı biz faktları təhlil edir, ümumiləşdirir və yeni nəticələrə gəlirik. Təfəkkürü inkişaf etdirmək üçün şagirdlərə ibtidai sinifdən başlayaraq bu istiqamətdə müxtəlif tipli tapşırıqlar işlədilməlidir .

Təlim prosesində şagirdlər bilik əldə etməklə yanaşı, bu nəzəri məlumatlar üzərində düşünür, axtarır, araşdırır. Deməli, öyrənmənin bilik əldə etmənin əsasında idrak prosesi durur. Bu da şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirir. Şagirdlər aldıqları məlumatları özləri araşdırmalı və onlara əlavələr etməlidirlər. Hər hansı məsələ, fakt və hadisə haqqında bir-biri ilə müzakirə etməli, öz fikirlərini və mülahizələrini bildirməli, fikirlərini əsaslandırmaqla yanaşı yoldaşlarının da fikirlərini dinləməli, onların fikirlərinə hörmətlə yanaşmalıdırlar. Bu şagirdlərdə məntiqi təfəkkürü möhkəmləndirir. Məntiqi inkişaf etdirən müxtəlif tipli tapşırıqlar vardır və müəllimin tətbiq etmək qabiliyyətindən asılıdır. Məntiqi təfəkkürü inkişaf etdirən əyləncəli oyunlara **“alqoritmin çıxarılması – analizdən sintezə”, “canlının adını tapın”, “bioloji loto”, “kim tez və çox”, “oyun-tapmaca”, “oyun-yarış”, “dağılma (parçalanma)”, “ən mühümü”, “krossvord”, “sözü tap” və s. aiddir.**

Hər yaş dövrünün özünəməxsus xüsusiyyətləri olduğu kimi, ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri də öz spesifik xüsusiyyətlərinə görə digər yaş dövrlərindən kəskin fərqləndiyindən bu yaş dövründə təfəkkürün inkişafına nail olmaq üçün seçilən metodlar da digərlərindən fərqlənir. Dünyada inkişaf sürətləndikcə bu daha da aktuallaşır.

## BİOLOGİYANIN TƏDRİSİNDƏ MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏNİN APARILMASI

**Hüseynzadə Əsmər Taleh qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esmer.huseynzade@list.ru*
**Elmi rəhbər:dos.E.F.Səfərova**

Müasir təlimdə məktəbdaxili qiymətləndirmənin aşagidaki novlərindən istifadə edilir.

İlkin səviyyənin qiymətləndirilməsi diaqnostik qiymətləndirmə adlandırılır.

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsinin müəyyənləşdirilməsinə və bunun əsasında hər bir şagirdin potensial imkanlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Dərs ilinin, bölmə və ya tədris vahidinin əvvəlində, şagird başqa ümumi təhsil müəssisəsindən gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, fərdi yanaşmanı təmin etmək və təlim strategiyasını müəyyənləşdirmək məqsədi ilə müəllim tərəfindən aparılır. Bu qiymətləndirmənin nəticələri sinif və formativ qiymətləndirmə jurnallarında qeyd olunmur, müəllimin qeyd dəftərində öz əksini tapır .

Diaqnostik qiymətləndirmənin müxtəlif üsulları:müsahibə, söhbət, müşahidə, tapşırıqlar valideynlərlə və digər fənn müəllimlər ilə əməkdaşlıq və s. mövcuddur.

Yeni məktəbdaxili qiymətləndirmənin əsas mahiyyətini formativ qiymətləndirmə təşkil edir. Yeni və ənənəvi qiymətləndirmə arasında əsas fərq gündəlik rəqəmli qiymətlərin yazılmaması və şagirdin təlim fəaliyyətinin daim izlənməsidir. Bu izləmələr şagirdin təlim nəticələrinə nail olması və nəticədə summativ qiymətləndirmədə nailiyyət qazanmasına kömək məqsədilə aparılır.

Formativ qiymətləndirmə sayəsində şagird gündəlik təlim fəaliyyəti ərzində rəqəmli qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır. Formativ qiymətləndirmə şagirdin qəbul edilmiş standartların reallaşmasına yönəlmiş irəliləmələrini və geriləmələrini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı dərslərdə istiqamətləndirmək məqsədilə aparılır. Formativ qiymətləndirmənin dərslərdə müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işləri, test tapşırıqları və s. Üsulları tətbiq edilir

Summativ qiymətləndirmənin üç növü: şifahi təqdimatlar, testlər və nailiyyətlərin nümayişi vardır. O, kiçik və böyük summativ qiymətləndirmədən ibarətdir.

Kiçik və böyük summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə (bəhs və ya fəslin, yarımilin sonunda) yekun vurmaqla, müvafiq məzmun standartlarına uyğun qiymətləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır. Summativ qiymətləndirmənin nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Summativ qiymərləndirmə şifahi təqdimatlar, testlər, nailiyyətlərin nümayişi kimi üsullarla tətbiq edilir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VIII SİNİFLƏRİNDƏ BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ YOLUXUCU XƏSTƏLİKLƏRİN ÖYRƏDİLMƏSİ

**Şərifova Məleykə Oqtay qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*meleykewerifovaa@gmail.com*
**Elmi rəhbər: ped.ü.f.dok. Mahmudova Könül**

Yoluxucu xəstəlikləri mikroorqanizmlər törədir. Həmin törədicilərin bir xəstədən digərinə yoluxması ilə də xəstəlik yayılmağa başlayır. Buna görə də belə xəstəliklər yoluxucu xəstə-

liklər adlanır. Mikroorqanizmlər virus, bakteriya, göbələk, parazitlər, helmintlər və s. kimi qruplara bölünür.

Müasir biologiya fənn kurikulumunu araşdırarkən onun məzmununda insan və onun sağlamlığına ayrıca yer ayrıldığı nəzərə çarpır. Bu çox təqdirəlayiq bir haldır. İnsan və onun sağlamlığı məzmun xətti üzrə şagirdlər insanın psixi xüsusiyyətləri, sosial mahiyyəti ilə tanış olur, insan orqanizmindəki bəzi pataloji halları, onları doğuran səbəbləri və aradan qaldırılma yollarını, sağlamlığın şərtlərinə əməl etmək, xəstəliklər, zəhərlənmə və zədələnmələr zamanı özünə və ətrafındakılara ilk yardım göstərmək bacarığına yiyələnmiş olurlar.

Şagirdlər insan orqanizmi üçün yoluxucu xəstəliklərin çox qorxulu olduğunu həmişə özünü və ətrafdakıları bu xəstəliklərdən qorumalı olduğunu öyrənməli, yoluxucu xəstəliklərin asanlıqla xəstə adamdan sağlam adama keçib sürətlə yayıldığını bilməlidir.

Müasir proqramın yeni məzmununa və bu məzmuna uyğun tərtib olunmuş Biologiya dərsliklərinə nəzər yetirdikdə bütün siniflər üzrə yoluxucu xəstəliklər, onlardan qorunma yolları ilə bağlı kifayət qədər məlumatın olduğunun şahidi oluruq. Xüsusən VIII sinfin Biologiya kursu şagirdin öz orqanizmini daha yaxşı tanımasına, orqanlar, orqanlar sisteminin işini, onların funksiya pozğunluqlarının səbəblərini, xəstəlikləri, bu xəstəliklərə yoluxma və xəstəliklərdən qorunma yolları və s. mövzuları əhatə edir. Məsələn: Qan-damar sistemi ilə tanış olarkən şagird qanla yoluxan xəstəliklərdən QİÇS, hepatitlər və s., tənəffüs sistemi ilə tanış olarkən qrip, vərəm və s. kimi yoluxucu xəstəliklər, bu xəstəliklərdən qorunma yolları ilə tanış olur. Bundan əlavə həzm sistemi ilə tanışlıq zamanı “Həzm orqanlarımızı qoruyaq” başlığı altında verilən vəba, hepatit və s. xəstəliklərə, bu xəstəliklərlə mübarizə tədbirlərinə rast gəlirik.

Mövzuları tədris edərkən şagirdlərdə «Yoluxucu xəstəliklər» haqqında izah etmə, şərh etmə, referat hazırlama, təqdimat hazırlama və s. bacarıqlar formalaşdırılmalıdır. Bu bacarıqları formalaşmadırmaq üçün müəllim fəal dərslər qura bilər, müxtəlif təlim metodları və üsullarından istifadə edə bilər, müxtəlif resurslardan istifadə edə bilər (videoçarx, audio-video izah, tablolar və s.) və ya həkimlə müsahibə apara, müəyyən mövzuları inteqrativ olaraq məktəbin həkimi ilə birgə həyata keçirə bilər.

Ümumtəhsil məktəblərinin VIII siniflərində biologiyanın tədrisində yoluxucu xəstəliklərin öyrədilməsi yolları düzgün aparılarsa şagirdlər bu qlobal və hər zaman aktual olan problemə qarşı daha məlumatlı və hazırlıqlı olar, müəyyən qədər özünü və yaxınlarını qoruya bilər, problemlə üzləşdikdə artıq təmkinli davranmağı bacarar, öz sağlamlığının və ətrafındakıların sağlamlığının qorunmasında dünyaya faydalı bir fərd kimi rol oynayar. Bu bacarıqların hər biri, seçilən metodlardan, üsullardan, dərsin gedişatında müəllim-şagird münasibətlərinin, birgə fəaliyyətlərinin düzgün təşkilindən birbaşa asılıdır.

## BİOLOGİYANIN BİOETİK BİLİKLƏRLƏ ƏLAQƏLİ TƏDRİSİ

**Əsədova Ləman Malik qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esedovaleman123@gmail.com*
**Elmi rəhbər: dos. Hacıyeva Həqiqət**

Müasir dövrün qovşaq elmlərindən biri hesab edilən bioetikanın sərhədləri genişlənməkdədir. Bioetika biologiyanın və təbabətin eksperimental və nəzəri fəaliyyət sayəsində, habelə aparılmış tədqiqatların nəticələrinin praktiki tədqiqində təsir göstərən etnik standartlar sistemidir. Mütəxəssislər bioetikanı insanın təbabət və biologiyasındakı fəaliyyətinin mənəvi tərəfləri haqqında elm kimi nəzərdə tuturlar. Onların fikrincə, bioetika biotibbi elmlərin tərəqqisi və ən yeni texnologiyaların insanın gündəlik həyatına tətbiqi ilə əlaqədar yaranan etnik, tibbi, bioloji və hüquqi problemlərlə məşğul olan elmlərarası tədqiqat sahəsidir. Bioetika ənənəvi etikanın hüquq, fəlsəfə və təbabətin elementlərini özündə birləşdirir. Hazırda bioetika və tibbi hüququn bərqərar olması yüksək biotibbi texnologiyalar sahəsindəki inqilabi nailiyyətlərlə

şərtlənmişdir. Bioetika yunan dilindən tərcümədə həyat və etika sözlərindən götürülüb, müxtəlif yönlü mənəvi problemlərin müzakirəsinə və həll yollarının tapılmasına istiqamətlənmiş fənlərarası tədqiqat sahəsi mənasını verir. Burada biotibbi elmlərin və səhiyyənin ən yeni uğurları özünü büruzə verir.

Bioetika elmindən ilk dəfə 1974-cü ildə holland əsilli amerikalı biokimyaçı onkoloq Van Repseller Potter " Bioetika: gələcəyə körpü" kitabında istifadə etmişdir. V.R. Potterin tədqiqatları sayəsində sistem kimi formalaşan bioetika elminin yaranması əslində bir növ tibbi və bioloji tədqiqatlar sahəsinə nabələd olan, lakin tez-tez həkimlərin və alimlərin heç də həmişə nəzarət etmək istəmədikləri tədqiqatların mənfi nəticələri ilə üzləşən insanlara cəmiyyətin ictimai şüurunun "kömək səsi" idi. Təbabət və biologiya elmlərinin sürətli inkişafı yalnız həkimlərin deyil, həmçinin adi insanların da qarşısına cavablandırılması vacib sayılan bir sıra heyrətamiz və maraqlı suallar qoyurdu. Tibb elminin müasir səviyyəsi demək olar ki, ona bütün xəstəliklər aləminə nüfuz etməyə, dünən sağalmaz görünən xəstəliklərə bu gün cəsarətlə baş çəkməyə imkan verirdi. Lakin qeyd etməliyik ki, xəstələrə və xəstəliklərə heç də bütün həkimlər "Hipokkrat andı" na sədaqət nümayiş etdirmirlər. Bu vəziyyət müasir tibb elmində bir sıra əlavə çətinliklərin və mənəvi problemlərin yaranmasına səbəb olmuşdur. Hazırda tibbi etikanın bir sıra ənənəvi məsələləri, o cümlədən xəstənin öz xəstəliyi və onun müalicəsinin gedişi haqqında məlumatlandırılması əvvəlki dövrlərlə müqayisəsindən fərqli həll edilir. Əgər əvvəllər xəstəyə onun ölümü ilə nəticələnəcək xəstəliyi barədə məlumat verilmirdisə, hazırda ona belə bir informasiyanın verilməsi xəstənin öz vacib işlərini sahmana salması və zəruri qərar qəbul edə bilməsi baxımından çox vacibdir. Bundan əlavə, xəstəyə onun mübtəla olduğu xəstəliyin müalicəsi yolunda qazanılmış nailiyyətlər və onun metodları haqqında da məlumat verilməlidir. Belə informasiyalar xəstənin əhval-ruhiyyəsini qaldırmaqla onun müalicəsində uğurlu nəticəyə yaxşı şans yarada bilər.

Biologiya elmi ilə tibb ellərinin bir-birinə yaxınlığı onun tədrisində tibbi bioetikanın şagirdlərə aşılanmasına geniş imkanlar açır. Lakin, biologiyanın tədrisinin bioetik biliklərlə əlaqələndirilməsi müəllimdə bir sıra bilik və bacarıqların, peşəkarlığın olmasını tələb edir.

## ALİ TƏHSİLDƏ BOLONİYA SİSTEMİ VƏ AVROPA TƏCRÜBƏSİ

**Behbudova Bənövşə**
*behbudovabenovwe@gmail.com*

***Açar sözlər:*** *ali təhsil, boloniya sistemi, Avropa təcrübəsi, təhsildə keyfiyyət, xaricdə təhsil*
***Key words:*** *high education, bologna system, European experience, qualitx in education, studying in abroad*

Müstəqil təhsil sistemini yaratmaq və onun səviyyəsini yüksəltmək istiqamətində aparılan axtarışlar onu baloniya prosesinə qoşulmağa gətirib çıxardı. Qeyd etmək lazımdır ki, bu prosesə qoşulmaq ali təhsil və tədris sahəsində mövcud olan problemləri avtomatik olaraq həll etmir. O, ölkə qarşısında xeyli problemləri həll etmək kimi böyük vəzifələr qoymuşdur. Bu vəzifələrin nəhəngliyinə və çətinliyinə baxmayaraq Azərbaycan həmin istiqamətdə xeyli işlər görmüşdür. Düşünürük ki, ali təhsil sahəsində ölkədə keçirilən islahatlar ölkə ictimaiyyətinin, xüsusən də ali məktəb müəllim və tələbələrinin fəallığından, onların proseslərdə yaxından iştirakından çox asılıdır. Məhz bu nöqteyi-nəzərdən həyata keçirilən layihələrlə bağlı nəzəri və praktik məsələlərin araşdırılması ilə yanaşı, insanların diqqətini bu məsələyə daha çox cəlb etmək, onlar arasında maarifləndirmə işi aparmaq və onların gücünün səfərbər olunmasına kömək etmək kimi məqsədlər qarşıya qoyulmuşdur. 1988-ci ildə Boloniyada Avropanın ən qədim universitenin 900 illik yubileyində "Boloniya xartiyası"nin qəbul edilməsi bu işin rəsmiləşdirilməsindən xəbər verirdi. 1999-cu ilin 19 iyununda 29 Avropa dövlətinin nümayəndəsinin Boloniya deklarasiyasını imzalaması ilə bu proses rəsmi olaraq başlandı. O, öz

adını da imzalandığı yerin adından götürərək "Boloniya prosesi" adlanmağa başladı. Əvvəl 29 Avropa dövlətinin qoşulduğu bu prosesin üzvlərinin sayı ilbəil artırdı. 2005-ci ildə Norveçdə Bergen toplantısında Azərbaycan Respublikası Boloniya prosesinə qoşulur. O zaman bu prosesə qoşulan dövlətlərin sayı 45-ə çatırdı. Üzvlərin sayının artması ümumavropa ali təhsil məkanının genişlənməsindən xəbər verirdi. Azərbaycanın atdığı bu addım onun qabaqcıl Avropanın təhsil sistemində tamhüquqlu üzvə çevrilmək istiqamətində gördüyü işlərin məntiqi davamı idi. Avropa özünün ali təhsil sistemində islahatlar keçirərək müvafiq addımlar atanda ilk növbədə öz maraqlarından çıxış edir. Bu prosesə qoşulan hər bir dövlət, xüsusən də ümumavropa məkanından kənarda olan və bu məkana can atan postsovet ölkəsi bilməlidir ki, özünün imkanlarından, inkişaf səviyyəsindən asılı olaraq orada müxtəlif rollarda təmsil oluna bilər. Bu prosesin tam hüquqlu iştirakçısına və ya təsir obyektinə çevrilmək olar. Bunun üçün ölkənin ali məktəblərinin səviyyəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin gücləndirilməsi istiqamətində köklü dəyişikliklərin edilməsi, onların maddi-texniki bazasının tam təmin edilməsi tələb olunur. Həmin keyfiyyətlərin təmin edilməsi üçün birinci növbədə bu problemlərin ciddiliyinin cəmiyyət tərəfindən dərk olunması, onun gücünün birləşdirilərək məqsədyönlü şəkildə istiqamətlənməsi lazımdır.

## AZƏRBAYCAN ƏDƏBİYYATI, MƏDƏNİYYƏTİ VƏ İNCƏSƏNƏTİ İLƏ TANIŞLIQ PROSESİNDƏ GƏNC NƏSLİN MİLLİ RUHDA TƏRBİYƏ EDİLMƏSİ

**Süleymanova Tamella Rasim qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*suleymanovatamella3@gmail.com*

Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənəti ilə tanışlıq gənc nəslin milli ruhda tərbiyə edilməsi üzrə I sinifdə savad təliminə hazırlıq dövründə dərsliyin 10-11-ci səhifələrindəki şəkillər üzrə söhbət keçirildi. Uşaqlar məktəblilərin səhnədə xorla mahnı oxuduqlarını, bir oğlanın onları təbrik etməyə hazırlaşdığını bildirdilər. O biri səhifədə qızın rəsm çəkdiyini, oğlanın isə plastilindən heyvan fiquru düzəltdiyini söylədilər. Səhifənin aşağısında rəssamlıq və heykəltaraşlığa aid material və alətlər valideyndən, onlar barədə söz açıldı. Müəllimin Azərbaycanda rəssamlıq və heykəltaraşlığa dair sadə təsəvvür yaratması da yaxşı olardı. Bu məqsədlə S.Bəhlulzadə, M.Abdullayev və T.Salahovun bəzi əsərlərini, C.Qaryağdının, F.Əbdürrəhmanovun ucaltdıqları heykəllərin şəkillərini şagirdlərə göstərmək mümkündür. Diqqət ilk növbədə bu heykəllərdəki milli çalara, ümumiyyətlə, sənət sahəsinə yönəldilməlidir. Dərslikdəki uğurlu şəkillərin milli koloriti, rəssamın laboratoriyası, həmçinin xalçanın toxunuşu, xalça üzərində uşaqların oynamaları şagirdlərin nəzərinə çatdırılır. Səhifənin ikinci hissəsindəki musiqi alətlərinin şəkilləri üzrə müsahibə prosesində tarın, sazın milli çalğı aləti olması, tütək və kamançada, qaval və nağarada gözəl xalq mahnılarını səsləndirməyin mümkün olduğunu öyrənirlər. Şagirdlər, həmçinin, böyük bəstəkar Üzeyir Hacıbəyli ilə, uşaqlar üçün gözəl mahnılar yazan Oqtay Zülfüqarovla tanış olur, tanıdıqları bir neçə müğənninin adını çəkirlər. Sonra isə çalğı alətləri mağazasında atanın oğluna tar alması, xanəndənin tar, kamança və qavalın müşayiətilə oxuması, səhifədə zurnanın sədaları altında uşaqların oynamaları şagirdlərdə milli mədəniyyətimizə, ədəbiyyat və incəsənətimizə maraq oyadır.

II sinfin «Oxu» dərsliyi şagirdlərin I sinifdə təsviri sənət və musiqi sahələri ilə əlaqədar aldıqları bilikləri inkişaf etdirməyə bir o qədər də imkan vermir. Yalnız «Mahnı bayramı» mətni oxunarkən öyrənirlər ki, Azərbaycan xalqı musiqini, mahnını sevən xalqdır, uşaqlarımız da kiçik yaşlarından xalq mahnılarını oxumağı xoşlayırlar. Mətndə III sinif şagirdlərinin «Qarabağ şikəstəsi» oxumasından, xalq artisti Tofiq Quliyevin uşaqların mahnı bayramına rəhbərlik etməsindən, Telli sazdan, zurna-balabandan, ölkəmizdə yaşayan azsaylı xalqların mahnı və rəqslərindən söz açılır.

«Mahnı üçün sərhəd yoxdur» fikrinin şərhi başqa xalqların mahnılarını başa düşməyə, onlar hörmətlə yanaşmağa şərait yaradır. Çox rəngarəng və zəngin xalq musiqisinə malik olduğumuzu öyrənən şagirdlər milli-mədəni sərvətimizlə fəxr edirlər.

Dərsliklərdə elm, mədəniyyət, incəsənət və ədəbiyyatla əlaqədar materialların azlığını nəzərə alaraq bu istiqamətdə əlavə məlumatların verilməsi və sinifdənxaric tədbirlər zamanı həmin biliklərin genişləndirilməsi məsləhətdir. Hər şeydən əvvəl, III sinifdə N.Gəncəvi, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, R.Əfəndiyev, S.Vurğun, O.Sarıvəlli, İ.Əfəndiyev, M.Dilbazi, B.Vahabzadə, H.Arif, N.Xəzri, T.Elçin, T.Bayram, M.Seyidzadə haqqında I-II siniflərdə qazanılmış biliklər artırılmalıdır. Dərslikdə müxtəlif xalqların folklorundan, yazılı ədəbiyyatından verilmiş nümunələr də problemlə bağlı maraqlı iş aparmağa şərait yaradır. Şagirdlər «Əlifba» dərsliyində L.Tolstoyun, V.Oseyevanın hekayələri, hind nağılı ilə, II sinifdə türk yazıçısı A.Ardağı, F.F.Tülbəndçi, rus yazıçılarından A.S.Puşkin, İ.Krılov, L.Tolstoy, B.Ryabkin, alman yazıçıları Qrimm qardaşları, italyan rəssamı Leonardo da Vinçinin əsərləri, hind, Adıgey, qazax xalq nağılları ilə, III sinifdə türk yazıçısı Z.Göyalp, Ə.K.Barmaqsız, rus yazıçısı İ.Krılov, K.D.Uşinski, Danimarka yazıçısı H.Anderson, qırğız, əfqan, qazax xalq nağılları ilə tanış olurlar.

Müəllimlər, yeni gəldikcə xalqlar və yazıçılar haqqında yığcam məlumat verir və maraqlı hadisələrdən söz açırlar. Şagirdlərdə onlara məhəbbət hissi baş qaldırır. Məktəblilər oxuduqları əsərlərin təhlili prosesində çox şey öyrənirlər. Həmin əsərləri bizim əsərlərimizlə, adət-ənənələrimizlə müqayisə edirlər.

## RƏQƏMSALLAŞMA TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİR GÖSTƏRƏN AMİL KİMİ

**Aslanova Hakimə Rəfail qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*Hakimaaslanova16@gmail.com*

Öyrənmə mühiti 10 il hətta 5 il öncəki öyrənmə mühitindən daha dinamikdir və nəticədə bugünki təhsil alanlar mövcud təhsil sisteminin nəzərdə tutduğu mühitdən çox fərqli bir sistemlə əhatə olunmalıdır. Texnologiyanın inkişafı ilə sinif otaqları, fənn kabinetləri müasir dövrdə öyrənənlərin ehtiyaclarını daha çevik ödəmək bir sıra üsullarla yenidən qurulur.

İnformasiya kommunikasiya texnologiyaları təhsilin keyfiyyətini, səmərəliliyini və optimallığını yüksəltmək üçün istifadə olunan əsas vasitələrdən biridir. Bu da özlüyündə təhsil prosesinin icrasını və qiymətləndirilməsini müasir təhsil-tədris üsullarının köməyi ilə etməyə imkan verir. Rəqəmsal vasitələrdən istifadə edərkən biz ilk növbədə istifadə etdiyimiz alətlərin və tətbiqlərin təhsil üçün əhəmiyyətinə, onların bilik əldə edilməsində nə dərəcədə adekvat olduğuna, istifadəçilər və alətlər arasında qarşılıqlı əlaqənin və onlardan istifadənin müsbət təsirlərinin olub-olmamasına diqqət yetirməliyik.

Bildiyimiz kim hər bir şagirdin vizual, eşitmə və kinestik qavraması fərqlidir. Rəqəmsal alətlərdən istifadə şagirdlərin informasiyanı daha yaxşı qəbul etməsinə gətirib çıxarır. Həmçinin kommunikasiya texnologiyalarının tətbiqi şagirdləri müstəqil işləməyə sitimullaşdırır və onlar sərbəst tədqiqatçı kimi yetişə bilirlər.

Bir çox müəllimlər ənənəvi təlim metodlarına etibar etməyi xoşlasalar da, texnologiyanın sinifə daxil olduğu andan yaranan imkanlar isə sonsuz olur. İlk növbədə geniş çeşidli öyrənmə üslublarından istifadə etmə təhsilə çıxışı əhəmiyyətli dərəcədə genişləndirir. Texnologiya təhsildə hərəkətverici qüvvədir. Bir çox qapılar açmaqla şagirdləri qarşıda duran yeniliklərə hazırlayır. Müxtəlif texnologiyaların istifadəsi daha çox fərdiləşdirilmiş öyrənməyə şərait yaradır, həmçinin real dünyaya inteqrasiyaya və müxtəlif qiymətləndirmələrə imkan verir.

Hər kəsə məlum olduğu kimi, Azərbaycan həm Təhsil Nailiyyətlərinin Dəyərləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın keçirdiyi kurikulum istiqamətli beynəlxalq tədqiqatlarda,

həmdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən keçirilən tədqiqatlarda iştirak edir. Bu tədqiqatlarda Azərbaycanın kompüterəsaslı iştirakı 2018-ci ildə PİSA (Proqram for İnternational Student Assessment-Şagird nailiyyətlərinin *beynəlxalq qiymətləndirilməsi* Proqramı) tədqiqatına təsadüf edir ki, həmin ildən sonra mütəmadi olaraq keçirilmiş tədqiqatlarda şagirdlərnəticələrini kompüter vasitəsilə qeyd etmişlər. Xüsusilə qeyd etmək lazımdır ki, şagirdlərin kompüter və informasiya savadlılığını daha da artırmaq məqsədi ilə ölkəmiz 2022-ci ildə Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyasının keçirdiyi ICILS (İnternational Computer and İnformation Literacy Study – Kompüter və informatika üzrə savadlılıq) tədqiqatında sınaq məqsədilə iştirak etməsi planlaşdırılır. Tədqiqatın əsas mərhələsinin isə 2023-cü ildə keçilməsi nəzərdə tutulub.

Ümumiyyətlə, şagirdlərin İKT bacarıqlarını artıraraq onları qlobal miqyaslı arenaya hazırlamaq məqsədi ilə bir çox tədbirlər görülür. 2022-ci ildən etibarən Bakının 40 ümumtəhsil müəssisəsi böyük summativ qiymətləndirmə üzrə rəqəmsal qiymətləndirmə mərhələsinə keçid etdi. Burada proses şagirdlər üçün təşkil olunacaq qiymətləndirmənin kağız üzərində deyil, tamamilə rəqəmsal formada kompüter üzərindən həyata keçirilməsidir. Bu prosesin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Seçilmiş 40 ümumtəhsil müəssisəsində 5-ci, 6-cı, 7-ci və 8-ci siniflər üzər təşkil olunmuş 3 fənn üzrə böyük summativ qiymətləndirmə "Virtual məktəb" platforması üzərində aparılır. Burada şagirdlər öz virtual məktəb profillərinə daxil olur və müəllim tərəfindən təyin olunmuş test tapşırıqlarını cavablandırırlar və geri göndərirlər. Bu qiymətləndirmənin həm müəlllim, həm şagird, həm rəhbərlik, həm də valideynlər üçün çox böyük faydaları var. Beləki, kağız üzərində qiymətləndirmə zamanı şagirdlərin öz nəticələrini öyrənməsi uzun bir müddət alsa da, elektron formada keçirilən qiymətləndirmə zamanı şagirdlər nəticələri ilə anında tanış olurlar və geri dönərək öz səhvlərinə də baxa bilirlər. Eyni zamanda valideynlər də öz övladlarının nəticələrini və onların hansı sahələrdə çətinlik çəkdiyini, boşluqlarını aydınlaşdıra bilərlər. Müəllimlər üçün faydalı tərəflərinə toxunmalı olsaq, deyə bilərik ki, kağız üzərində olan qiymətləndirmədən sonra nəticələrin indivudual olaraq yoxlanması müəyyən vaxt itkisinə və müəllimin əlavə olaraq əməksərf etməsinə səbəb olurdu. Bu istiqamətdə rəqəmsallaşma müəllimlərin öz inkişaflarına ayıracağı zamandan daha səmərəli istifadə etməsinə gətirib çıxaracaq.

Qeyd etdiyimiz rəqəmsal qiymətləndirmə forması 2021-ci ildə 8 rayon üzrə 26 təhsil müəssisəsində pilot şəklində həyata keçirilmişdir. Proses zamanı monitorinqlər nəticəsində qarşıya çıxan çətinliklər, çatışmazlıqlar araşdırıldıqdan sonra daha geniş miqyasda təhsil müəssisələrində keçirilmişdir. Həmçinin qeyd edək ki, 2022-ci tədris ilinin 2-ci yarısında daha çox məktəbin rəqəmsal qiymətləndirməyə qoşulması planlaşdırılır. Bundan əlavə də qeyd etdiyimiz 40 təhsil müəssisəsinin digər siniflərinin də bu qiymətləndirmə formasına cəlb olunması nəzərdə tutulmuşdur.

Müasir tələblərə cavab verən informasiya infrastrukturunu qurulmasının vacibliyi müxtəlif sənədlərdə öz əksini tapır. Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azəbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 4-cü strateji istiqamətində göstərildiyi kimi bu istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

Təhsilin keyfiyyəti və qlobal təhsil məkanlarına uyğunlaşması birbaşa təhsilin səviyyəsindən, həmçinin təhsilin informasiya ehtiyatlarına çıxış imkanlarından asılıdır. İnformasiya-komunikasiya texnologiyalarının həyatımıza, xüsusilə təhsil sferasına nüfuzu dərinləşdikcə

məktəblərdə mövcud olan infrastruktur çatışmazlıqları daha vacib monitorinq obyektinə çevrilir. Məktəblərdə olan çatışmazlıqlar təhsilin keyfiyyətinə bilavasitə, bəzən bilvasitə təsir edir. Belə ki, İKT avadanlıqları kasad olan məktəblərdə təhsil işçilərinin yeniliklərə çıxışları məhdud olduğundan onların peşə hazırlıq səviyyəsi də yeniliklərlə uzlaşmır. Bu cür vəziyyətin uzun müddət davam etməsi məktəbin informasiya resurslarının idarə edilməsində, o cümlədən, İKT-yə əsaslanan təhsil xidmətlərinin göstərilməsi sahəsində keyfiyyətin lazımi səviyyəyə yüksəldiməsinə imkan vermir ki , bu da öz növbəsində təhsilin effektivliyini köklü surətdə azaldır. Sözsüz ki, müasir texnologiyalar XXI əsrdə cəmiyyətin formalaşmasına təsir edən əsas faktorlardan sayılır. Buna görə də məktəblərin öhdəliyinə düşən əsas məsələ informasiya infrastrukturunun inkişafının ən mühüm elementlərini sistemli və vahid yanaşma ideyalarından istifadə edərək tələb olunan informasiya ehtiyatlarını layihələndirmək, yaradılmasına dəstək olmaq və idarə etməkdir.

Təhsilin keyfiyyətinin monitorinqinin səmərəli aparılması üçün məktəblərin kompüterləşdirilməsi rəhbərliyə və müvafiq qurumlara informasiyanın emalı, nəticələrin işlənməsi və saxlanması üçün elektron formada ötürülməsi dövrümüzdə daha mühüm əhəmiyyət kəsb edir. Bu da özlüyündə bütün informasiya axınlarının vahid bir şəkildə və bir yerdə sistemləşdirməyə imkan verir.

## MÜRƏKKƏB FUNKSİYA VƏ ONUN TƏYİN OBLASTI

**Eminova Vüsalə Təyyar qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*vusalaeminova97@gmail.com*

Tutaq ki, $y = f(u)$ ilə $u = \varphi(x)$ funksiyaları verilmişdir. $u = \varphi(x)$ funksiyası $X$ çoxluğunda təyin olunmuşdur, qiymətləri isə $y = f(u)$ funksiyasının təyin oblastına daxildir.

Əgər $X$ çoxluğundan götürülmüş istənilən bir $x = x_0$ qiymətinə qarşı $u = \varphi(x)$ funksiyasının $u_0 = \varphi(x_0)$ qiyməti, həmçinin bu qiymətə qarşı $y = f(u)$ funksiyasının $y_0 = \varphi(u_0)$ qiyməti varsa, o zaman $x$ – dən asılı olan yeni funksiya təyin olunur. Həmin funksiyaya $y = f(u)$ və $u = \varphi(x)$ funksiyalarının yaratdığ mürəkkəb funksiya deyilir

$$y = f[\varphi(x)]$$

kimi işarə olunur.

Beləliklə $y$ dəyişəni $u$ dəyişənin vasitəsi ilə $x$ dəyişənin mürəkkəb funksiyasıdır və burada $u$ aralıq arqument , $x$ əsas arqument adlanır.

Misal. $u = \varphi(x) = x - 1$ və ya $y = f(u) = lg\,u$ funksiyalarını götürdükdə, $f$ funksiyasının təyin oblastı $(0, +\infty)$ intervalı, $\varphi$ funksiyasının həm təyin oblastı, həm də ki, qiymətlər çoxluğu $(-\infty; +\infty)$ intervalıdır. Əgər $\varphi$ funksiyasının qiymətlər çoxluğu $1 < x < +\infty$ olarsa , $f$ funksiyasının təyin oblastına daxil olur. $-\infty < x < 1$ olduqda, daxil olmur. Onda $y = f(\varphi(u)) = lg(x - 1)$ mürəkkəb funksiyasını yalnız $(1; +\infty)$ intervalında yazmaq olar və məhz bu interval onun təyin oblastıdır.

$f$ funksiyasına şərti olaraq xarici, $\varphi$ funksiyasına daxili funksiya deyilir. Əməllər mürəkkəb funksiyada sağdan-sola yerinə yetirilir. Yəni, əvvəl $\varphi$ funksiyası üzərində, daha sonra isə $f$ funksiyası üzərində əməllər aparılar. Beləliklə , $y = f[\varphi(x)]$ mürəkkəb funksiyasına da $y = f(u)$ və $u = \varphi(x)$ funksiyalarının superpozisiyası və yaxud kompozisiyası deyilir və

$$f[\varphi(x)] = (f \circ \varphi)(x)$$

kimi işarə olunur. $f[\varphi(x)] = F(x)$ götürsək onda belə $F = f \circ \varphi$

Məlumdur ki, $f \circ \varphi$ ilə $\varphi \circ f$ kompozisiyaları bərabər deyildir. Bu kompozisiya yalnız xüsusi bir halda $f \circ \varphi = \varphi \circ f$ kimi ola bilir. Mürəkkəb funksiyada aralıq arqumentinin sayı iki və yaxud daha çox ola bilir. Misal olaraq, $y = f(u), v = \varphi(x), u = g(v)$ olduqda

$$y = f\{g[\varphi(x)]\}$$

kimi mürəkkəb funksiya alınır. Bu cür yazılışa mürəkkəb funksiyanın “zəncir “ kimi yazılışı deyilir və bu funksiyaların kompozisiyası isə $(f \circ \varphi \circ g)(x)$ *və* yaxud $f \circ \varphi \circ g$kimi yazılır.

*Mürəkkəb funksiyanın təyin oblastı.* $y = f[\varphi(x)]$funksiyasının tərifindən məlum olur ki, həmin funksiyanın təyin oblastına $x$ arqumentinin elə qiymətlər çoxluğu daxil olur ki, həmin qiymətlərdə həm $u = \varphi(x)$ funksiyası təyin olunur, həmdə ki, bu funksiyanın aldığı qiymətlərdə $y = f(u)$ funksiyası təyin olunur. Bunu isə qısa şəkildə yazsaq

$$D(f \circ \varphi) = \{x: x \in D(\varphi) \mid \varphi(x) \in D(f)\}.$$

Yazdığımız $u = \varphi(x)$ funksiyasının $X$ ilə təyin oblastını işarə edək. Əgər $\varphi(x) x \epsilon X$ funksiyasının qiymətlər çoxluğunu$X_1$ işarə etsək , $X_1 \subset X$ olmalıdır.

## MÜNDƏRİCAT

## I BÖLMƏ
## İNNOVASİYALAR VƏ TƏHSİLİN KEYFİYYƏTİ


**Qasımzadə Z.M.** *Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasının innovasiyalı təhsilin keyfiyyətinə təsiri*......3
**Aslanova N.S.** *Ümumi orta ixtisas təhsil müəssisələrində müəllimin ümumi xüsusiyyətləri və müəllimə verilən tələblər*......4
**Dadaşova T.Y.** *Ümumi tarix dərslərində modul təlim texnologiyasından istifadənin mahiyyəti*......6
**Məmmədli A.İ.** *Ümumtəhsil məktəblərinin IX siniflərinin ümumi tarix dərslərində İKT-dən istifadənin səmərəli yolları*......8
**Yaqubova N.İ.** *Müəllimin pedaqoji ustalığı-təlim keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi*......12
**Yaqublu L.Ş.** *Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində innovativ metodlardan istifadənin səmərəli təşkili*......14
**Hacızadə B.M.** *Ali pedaqoji məktəblərdə innovativ təlim metodlarının tətbiqi ilə keçirilən Azərbaycan tarixi dərslərinin mahiyyəti*......17
**Seyidov Ş.F.** *Ümumi tarix kursunun tədrisində interaktiv təlim üsullarında tarixi mənbələr üzərində işin təşkil edilməsinin mahiyyəti və əhəmiyyəti*......19
**Rəhimova A.R.** *Ali məktəblərdə tarixi kursunun öyrədilməsində səhnələşdirilmiş dialoq və epizodlardan istifadənin yolları*......21
**Cəfərli G.M.** *Ali təhsil müəssisələrində tarixin tədrisində tələbələrdə müqayisəli təhlil aparmaq bacarığının formalaşdırılmasının rolu və əhəmiyyəti*......22
**İsayeva A.İ.** *Pedaqoji texnologiyaların funksiyaları, prinsipləri və struktur komponentləri*......24
**Həsənova L.İ.** *Dərsliklərin planlaşdırılması və yazılması*......26
**Həsənova K.V.** *Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin artırılmasında monitorinq və qiymətləndirmənin rolu*......27
**Niftəliyeva A.M.** *Təhsildə İKT-dən istifadənin əhəmiyyəti*......29
**Yusifli G.Y.** *Kiçik yaşlı məktəblilərdə təhsilə marağın formalaşdırılması yolları*......30
**Бао Сюеин.** *Преимущества и недостатки выпускников колледжов посравнению с выпускниками ВУЗ*......32
**Гоу Юйюань.** *Воспитание личности в процессе обучения в общеоброзовательной школе КНР*....34
**Əsgərzadə F.Ə.** *Müəllim peşəkarlığının formalaşmasında təhsilin modernləşdirilməsinin rolu*......37
**Qaralova N.Ş.** *Təlim prosesinin keyfiyyəti və idarəolunma məsələləri*......38
**Nəsirova N.M.** *Təlim modullari üçün məzmun hazırlanması yolları*......40
**Əfəndizadə A.E.** *Tədris prosesində inteqrasiyanın rolu*......43
**Zeynalova X.F.** *Sənətkarın həyat və yaradıcılıq yolunun tədrisində İKT-dən istifadə*......43
**Mirzəyev T.Ə.** *Coğrafiya fənninin tədrisində İKT-dən istifadə imkanları*......45
**Mirzəyev T.Ə.** *Müasir kompüter proqramlarının coğrafiya dərslərinə tətbiqi*......47
**İsayeva A.İ.** *Pedaqoji texnologiyalarin funksiyalari, prinsipləri və struktur komponentləri*......51
**İsmayılova L.Q.** *Ümumtəhsil məktəblərində virtual laboratoriya işlərindən istifadənin əhəmiyyəti*......53
**İbrahimova T.B.** *Biologiyanın valeoloji biliklərlə inteqrasiyası*......54
**Şirinzadə A.M.** *Təhsil müəssisələrində qiymətləndirmənin həyata keçirilməsi və bu prosesdə müəllimin rolu*......55
**Qurbanova G.G.** *Kimyanin tədrisi zamanı şagirdlərdə yaradıcı təfəkkürün inkişaf etdirilməsi*......56
**Ramazanova M.F.** *Biologiyanin tədrisində "fəallaşdirma" metodları kommunikativ bacarıqların inkişafı amili kimi (VIII sinif)*......56
**Mirzəyev V.Ə.** *Sabirabad torpaqlarında suyun torpağa hopma sürəti*......59
**Həbibzadə L.V.** *İngilis dilinin tədrisində danışıq bacarıqlarının öyrədilməsi üçün yenilik və yaradıcılıq*......61
**Məmmədova H.N.** *Xarici dil tədrisində tapşırıq əsaslı təlim metodundan istifadə*......62
**İmaməliyeva F.A.** *Şagirdlərə kommunikativ bacarıqların tədrisi*......64
**Məmmədova A.T.** *Xarici dil dərslərində oxu bacarığının əhəmiyyəti və onun tədrisində istifadə olunan metodlar*......65

**Qurbanova Ü.R.** *Kimyanin tədrisində zehin xəritələrinin rolu. Atomun quruluşu zehin xəritələrində* ..... *66*
**Abdullayeva A.B.** *Fizika dərsərində ETT-nin əsas istiqamətlərinin öyrədilməsinin əhəmiyyəti* ..... *68*
**Abdullalı F.İ.** *Ağac materialların bədii emal texnologiyası* ..... *70*
**Abdullalı F.İ.** *Ağac materialların müasir üsulla bədii emal texnologiyasının bəzi aspektləri* ..... *71*

## II BÖLMƏ
## TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

**Məlikova F.E.** *Təhsilin idarə edilməsi və keyfiyyətli təhsilin verilməsi yolları* ..... *74*
**Xəlilova M.E.** *Monitorinq və qiymətləndirmə ümumi təhsilin idarə olunmasının mühüm vasitəsi kimi* ..... *76*
**Nəbiyeva T.N.** *Təhsil sektorunda biznes strukturları ilə əməkdaşlığın mühüm aspektləri* ..... *77*
**Qaralova N.Ş.** *Təhsili idarəetmənin keyfiyyətinin təminatında monitorinq və qiymətləndirmənin yeri və rolu* ..... *79*
**Əliyeva N.S.** *Məktəb təhsilinin innovativ inkişafının idarəedilməsinin təkmilləşdirilməsi* ..... *80*
**Abdullayeva Z.F.** *Menecment işinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsində qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi* ..... *82*
**Sadıxlı X.T.** *XI sinif cografiya dərsliyində interaktiv metodlardan istifadə* ..... *84*
**Məmmədova S.B.** *Ümumtəhsil məktəblərində (VI-VIII siniflərdə) biologiyadan tədqiqatın aparılması mərhələsinin təşkili əhəmiyyəti* ..... *85*
**Bəylərli X.F.** *Ali pedaqoji təhsil müəssisələrində vətən tarixinin tədrisində tələbələrdə azərbaycançılıq ideologiyasının formalaşdırılmasının imkan və yolları* ..... *86*
**Şeydayeva Ş.M.** *Azərbaycan tarixi dərslərində fəal təlim metodlardan istifadənin şagirdlərin inkişafına təsiri* ..... *89*
**Mirzəli R.N.** *Təlim prosesində şagirdlərin idrak fəaliyyətinin səmərəli idarə edilməsi imkanları* ..... *90*
**Şərifova N.R**. *İbtidai təhsildə "Portfolio" texnologiyasindan istifadənin rolu* ..... *92*
**Fərmanova N.N.** *Funksıonal asılılıqların reallaşdırılmasında həndəsə elementlərinin rolu* ..... *93*
**Məmizadə Z.E.** *İbtidai siniflərin fənn kurikulumunda qiymətləndirmə mərhələsinin rolu* ..... *95*
**Quliyeva N.B.** *İbtidai siniflərdə təlim nəticələrinin qiymətləndirilməsinin yeni yolları* ..... *96*
**Miralayeva L.N.** *Ulu öndər H.Əliyev və milli-mənəvi dəyərlərimiz* ..... *97*
**Behdiyeva G.S.** *Uşaqlarda humanist hisslərin tərbiyə edilməsinin məktəbəqədər tərbiyə prosesində mövqeyi* ..... *98*
**Əliyeva E.M.** *Məktəbəqədər təhsildə texnoloji biliklərdən istifadənin aktuallığı* ..... *100*
**Hüseynova A.Ə.** *Məktəbəqədər yaş dövründə uşaqların inkişafında ətraf aləmlə tanışlıq məşğələlərin rolu* ..... *102*
**Paşayeva Ə.S.** *Məktəbəqədər təhsil müəssisələri üçün kadr hazırlığının təkmilləşdirilməsi yolları* ..... *104*
**Həmidli A.M.** *Şagirdlərə tibbi-gigiyenik davranışların aşılanmasının əhəmiyyəti* ..... *106*
**Vəkilova A.M.** *Ekskursiyaların təşkili ilə VII sinif şagirdlərində ekoloji bilik və bacarıqların formalaşdırılması* ..... *107*
**Əlizadə B.M.** *Biologiya dərslərində şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyəti* ..... *108*
**Əlizadə G.G.** *Biologiya elmində biomüxtəlifik problemi* ..... *109*
**Məmmədova A.M.** *Orta məktəblərdə tarixin tədrisində taksonomiyaların tətbiqinin əhəmiyyəti* ..... *110*
**Qurbanova Ə.E.** *Ümumi tarix kursunun tədrisində tarixi sənədlərdən istifadənin əhəmiyyəti* ..... *112*
**Xankişiyev Ə.Z.** *Azərbaycan tarixinin tədrisi prosesində tələbələrdə vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasının səmərəli yolları* ..... *113*
**Rüstəmova X.R.** *X-XI siniflərdə Azərbaycan tarixinin tədrisində vətəndaşlıq tərbiyəsinin inkişaf etdirilməsinin imkan və yolları* ..... *116*
**Bayramova R.A.** *V sinifdə Azərbaycan tarixinin tədrisində şagirdlərin tarixi şəxsiyyətlər nümunəsində tərbiyə edilməsi işinin aktuallığı* ..... *117*
**Əsədova N.Q.** *Ümumtəhsil məktəblərində tarix üzrə dərsdənkənar işlərin təşkilinin imkan və yolları* ... *118*
**Şahmirova G.N.** *Şəxsiyyətyönümlü təhsil və ona verilən tələblər* ..... *121*
**Adgözəlova A.M**. *İbtidai sinif şagirdlərinin təlim-tərbiyəsində sinif müəlliminin işininin əsas xüsusiyyətləri* ..... *122*

**Hümbətli L.R.** *Heydər Əliyevin təhsil siyasəti təhsil haqqinda normativ-hüquqi sənədlərin bazası kimi* ........ 124
**Haciyeva G.R.** *Ümumtəhsil məktəblərində metodbirləşmələrin fəaliyyət istiqamətləri* ........ 125
**Əhmədova L.M.** *Kiçikyaşlı məktəblilərlə aparılan sinifdənkənar təhsil-tərbiyə işinin xüsusiyyətləri* .... 127
**İsgəndərli Ş.R.** *Valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət qayğısı* ........ 128
**Mustafazadə A.R.** *Milli təhsil tariximizin əsasi olan seminariyalar və azərbaycançılıq idealogiyası* ... 129
**Abdullayeva G.M.** *Müasir dövrdə təhsilin inkişaf istiqamətləri* ........ 131
**Əsədli G.R.** *Azərbaycanda kitabxana işinin təşkili tarixindən* ........ 134
**Дэн Чжаочжэнь.** *Содержание образования в средних школах Китайской Народной Республики* ........ 136
**Дэн Чжаочжэнь.** *Цель образования в средних школах Китайской Народной Республики* ........ 138
**Əhmədova E.F.** *Məktəbdə şagirdlərin peşəyönümü işlərinə rəhbərlik və onun idarə edilməsi* ........ 140
**Yusifli İ.V.** *Şagirdlərin vətənpərvərlik tərbiyəsinin əsas istiqamətləri* ........ 141
**Yusifli İ.V.** *Şagirdlərin vətənpərvərlik tərbiyəsində məktəbdənkənar və sinifdənxaric tərbiyənin rolu* ........ 144
**Rzayeva A.Ə.** *Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan xalqının və onun silahlı qüvvələrinin döyüş ənənələrinin rolu* ........ 146
**Qaralova N.Ş.** *Müasir təhsil sistemində əlverişli fəaliyyətin təşkili və onun inkişaf dinamikası* ........ 147
**Şükürlü L.H.** *Milli təhsil sisteminin idarə edilməsi* ........ 149
**Kazımova A.Ə.** *Ali təhsil müəssisələrində sosiallaşdırmanın qiymətləndirilməsi problemi* ........ 150
**Mirzəyeva Ç.N.** *Amerika Birləşmiş Ştatlarında təhsilin idarə olunması xüsusiyyətləri* ........ 152
**Abdullayeva G.A.** *Məktəbdə ümumi fəaliyyətin planlaşdirilmasının zəruriliyi* ........ 153
**Cəfərli N.F.** *İşğaldan azad edilmiş ərazilərdə təhsilin təşkili məsələləri* ........ 155
**Ağayeva F.A.** *Magistratura səviyyəsində təhsilin məzmununun hüquqi-normativ sənədlərdə əksi* ........ 157
**Yusifli İ.V.** *Humanitar fənnlərin tədrisində şagirdlərin vətənpərvərlik tərbiyəsi* ........ 159
**Zeynallı G.Ş.** *Təhsil sisteminin idarə edilməsi və onun vəzifələri* ........ 162
**Atakişiyeva N.A.** *Təhsildə kurikulumun idarə olunması və təkmilləşdirilməsi* ........ 163
**Nuriyeva G.F.** *Şagirdlərdə tədqiqat vərdişlərinin aşılanması* ........ 164
**İsmayılzadə Ş.E.***Ümumitəhsil məktəblərində VI-VIII siniflərdə iqtisadi bilik və bacarıqların müstəqil mənimsənilməsinin əhəmiyyəti* ........ 166
**Zamanova M.E.** *Məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin formalaşdırılması* ........ 167
**Aydınova Ş.B.** *Müxtəlif fəaliyyət növləri məktəbəqədər yaşlı uşaqların sosial inkişaf vasitəsi kimi* ....... 169
**Cəfərova N.B.** *Təhsil idarəçilərində effektivlik hissivə onun təhsilin keyfiyyətinə təsiri* ........ 171
**Rəcəbli N.R.** *Azərbaycan Respublikası müstəqilliyinin bərpasından sonra xaricdə təhsil üzrə dövlət proqramları və onların mahiyyəti* ........ 171
**Paşayeva A.F.** *Təhsil müəssisələrində pedaqoji işçilərin peşəkar inkişafinin idarə edilməsi və onun əhəmiyyəti* ........ 175
**Məmmədzadə N.Ş.** *Təhsil sisteminin idarə olunması keyfiyyət təminatı konteksində* ........ 180
**İsayeva G.Ş.** *Şagirdlərin şəxsiyyətinin formalaşdırılması məsələləri* ........ 182
**Yunusova M.R.** *Tədris prosesinin təşkili və dizaynı* ........ 184
**Əliyeva S.M.** *Orta məktəb kimya kursunda hidroliz mövzusunun tədrisində sxemlərdən istifadənin vacibliyi* ........ 186
**Mehdiyeva T.İ.** *Azərbaycan dili təlimində şagird intellektinin inkişaf yolları* ........ 188
**Quliyeva S.A.** *Musiqi təmayüllü təhsil müəssisələrində musiqi dinlənilməsinin təşkili məsələləri* ........ 189
**Rzazadə N.N.** *Ümumtəhsil məktəblərində "Təsviri incəsənət" fənni üzrə "Dieqo Velaskes" yaradıcılığına metodik yanaşma* ........ 191
**Nəsirova A.R.** *Ədəbiyyat dərslərində M.F.Axundzadənin "Hekayəti-Müsyö Jordan həkimi Nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyasının təhlili yolları* ........ 193
**Balaşov S.S.** *Azərbaycan qəhrəmanlıq dastanlarının orta məktəbdə tədrisi (8-ci sinif materialı üzrə)* ........ 194
**Əlibabaoğlu B.** *Bədii əsərlərin məktəbdə öyrədilməsi* ........ 196
**Əhədov Z.Z.** *Müasir təhsil sistemi əsasında sinifdə təlim fəaliyyətinin təşkili üçün mümkün iş formaları* ........ 197
**İsmayılzadə S.S.** *Türkiyə 11-ci sinif coğrafiya dərsliyində ekoloji biliklərin verilmə sisteminin təhlili* ........ 198

**İbrahimova P.T.** *“Cəmiyyət” məzmun xətti üzrə şagirdlərin praktiki və müstəqil işlərin təşkili metodikası (IX sinif)*......199
**İbrahimzadə A.A.** *Coğrafiya dərslərində istifadə edilən kartoqrafik təsvir vasitələrinin rolu və əhəmiyyəti*......201
**Omarova N.M.** *Coğrafiya tədrisində müşahidə və təcrübələrin keçirilməsinin bilik və bacarıqların müstəqil mənimsənilməsində əhəmiyyəti*......202

**III BÖLMƏ**
**TƏHSİLDƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT**

**Əkbərova G.R.** *Şəxsiyyətin sosiallaşmasında təhsilin rolu*......204
**Talıbova B.Ə.** *Elmdə insan potensialının təşəkkülü*......205
**Abdullayeva L.Ş.** *Musiqiçi pedaqoqun peşəkar hazırlığı*......207
**Yunuszadə A.R.** *İbtidai sinif şagirdlərinin təlim prosesinin təşkilində ənənəvi və innovativ yanaşma*......210
**Yusifzadə M.R.** *Psixoloji travmanın səbəbləri*......212
**Atakişiyeva G.S.** *Sağlamlıq imkanları məhdud uşaqların təhsil imkanları*......214
**Məmmədova S.A.** *Yeniyetmə və gənclərdə intihar hadisələrinin baş vermə səbəbləri*......216
**Zamanova G.Q.** *Şəxsiyyətin peşəkar inkişafında böhranlar*......218
**Umudlu A.T.** *Utancaq insanların şəxsiyyətinin xüsusiyyətləri və utancaqlığın mənfi naticələri*......220
**Ağayarlı V.N.** *Psixoloji müdafiə mexanizmlərinin sosial-psixoloji təhlili*......222
**Qurbanova A.Q.** *Təlim fəaliyyətində müəllim-şagird münasibətləri*......224
**Hüseynova R.N.** *Özünüdərketmənin sosial-psixoloji xüsusiyyətləri*......226
**Aslanova E.F.** *Sosiallaşma prosesində tərbiyə təşkilatlarının əsas funksiyaları*......228
**Seyidova L.H.** *Yeniyetmələrin sosiallaşma səviyyəsinin psixoloji əsasları*......232
**Qasımova D.M.** *Müxtəlif yaş dövrlərində autizmin əlamətləri*......235
**Rüstəmova A.A.** *Tələbələrin idrak tələbatlarının formalaşmasının nəzəri əsasları*......236
**Allahverdiyeva M.Z.** *Kiçik məktəblilərin əxlaqi hisslərinin inkişafında müəllim və valideynin rolu*......238
**Əliyeva N.R.** *Məktəbdə psixoloji xidmətin işıqlı gələcəyi*......240
**Zəkəriyəyeva A.R.** *Etnik özünüdərk və etnik identikliyin xüsusiyyətləri*......242
**Burzuyeva K.İ.** *Etnik özünüdərk və özünüqiymətləndirmə*......243
**Möhsümzadə S.R.** *Deviant davranışlı yeniyetmələrin fərdi xüsusiyyətləri və onlara pedaqoji təsir*......245
**Aslanova E.F.** *Sosial təhsil fərdin cəmiyyətə inteqrasiyası kontekstində sosial-mədəni hadisə kimi*......246
**Novruzova S.İ.** *Azərbaycanda sosial pedaqoji fikrə dair münasibətlər*......248
**Əliyeva Ü.G.** *Kiçik yaşlı məktəblilərin sosial tərbiyəsində ailə ilkin sosiallaşma institutu kimi*......250
**Bağırova A.M.** *Şəxsiyyətin formalaşmasına təsir göstərən amillər*......252
**Nəsibova Y.M.** *Müasir gənclərdə milli hisslərin formalaşdırılmasında ailə münasibətlərinin rolu*......253
**Abbasova İ.V.** *Məktəblilərlə aparılan sosial pedaqoji işin sistemi*......254
**Kazımova Y.E.** *Müharibədə valideynini itirmiş uşaqların sosial-psixoloji xüsusiyyətləri*......256
**Soltanova G.G.** *Kiçik yaşlı məktəblilərin sosial-pedaqoji inkişafı*......257
**Rufullayeva S.R.** *Ünsiyyət və şəxsiyyətin sosiallaşmasında ailə münasibətilərinin rolu*......258
**Bayramova İ.F.** *Kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində mənəvi dəyərlərin rolu*......259
**Hüseynova V.B.** *Yeniyetmə yaş dövründə ailə tərbiyəsinin əhəmiyyəti*......262
**Babazadə İ.K.** *Ünsiyyət insanın həyat fəaliyyəti və elmi fenomen sferası kimi*......263
**Mustafayeva R.T.** *Özünütərbiyənin metodları, yol və vasitələri*......265
**Həsənova E.V.** *Məktəbəqədər yaşlı uşaqların həyatında oyuncaqların rolu*......267
**Musabəyli A.Ş.** *Məktəbəqədər yaşlı uşaqlara islam dəyərlərinin aşilanmasının vacibliyi*......268
**Teyyubova U.R.** *Ekoloji mədəniyyətin formalaşması məktəbəqədər yaşlı uşaqların formalaşmasının mühüm amili kimi*......269
**Aydınova Ş.B.** *Müxtəlif fəaliyyət növləri məktəbəqədər yaşlı uşaqların sosial inkişaf vasitəsi kimi*......272
**Yunus Akbaş.** *Dislaliyanın növlərinin müxtəlif təsnifatı*......273
**Qafarova V.A.** *Vətən qəhrəmanları nümunələri vasitəsilə uşaqlarda milli iftixar hissinin formalaşdırılması*......277

**Yunus Akbaş.** *Dislaliya zamanı korreksiya-loqopedik işin təşkili*......................................................279
**Hüseynli Ə.T.** *Əlilliyi olan uşaqlarla təlim-tərbiyə işinin mahiyyəti və əsas istiqamətləri*....................282
**Adgözəlov E.İ.** *Milli qəhrəmanların döyüş yolu müasir Azərbaycan gənclərində vətənpərvərlik hissinin formalaşdırılmasında əsas amil kimi*.......................................................284
**Məmmədova K.Ə.** *İbtidai sinif şagirdlərinin əxlaq tərbiyəsinin formalaşmasında məktəbin rolu*..................285
**Məmmədzadə X.X.** *Psixoterapiya psixoloji xidmətin tərkib hissəsi kimi*.............................................288
**Umudova Z.M.** *Tədris prosesində mənfi emosiyalar və onların aradan qaldırılması*...........................289

## IV BÖLMƏ
## TƏDRİSİN MÜASİR PROBLEMLƏRİ

**Məmmədəliyeva A.M.** *Musiqi qabiliyyətinin yaşa görə inkişaf xüsusiyyətləri*.......................................291
**Babayeva G.T.** *Deviant davranış və onun xüsusiyyətləri*...................................................................292
**Mirzəyeva L.F.** *Təhsil sisteminin idarə edilməsində müasir texnologiyalardan istifadə*.......................293
**Hüseynova L.R.** *İnklüziv təhsilin inkişafında sosial-hüquqi mərhələ*..................................................295
**Cümşüdova N.Q.** *Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində folklor nümunələrindən istifadə*........296
**İsgəndərli A.K.** *Coğrafiya dərslərində şagirdlərin kartoqrafik vasitələr üzərində işinin təşkili metodikası*.................................................................................................298
**Səfərova C.A.** *Azərbycanda pedaqoji kadrların hazırlığı tarixinə nəzər*..............................................301
**Xanverdiyeva A.H.** *Əbu Reyhan Biruninin pedaqoji fikirləri*..............................................................302
**Əsədullayeva F.E.** *İbtidai siniflərdə sinifdənkənar tədbirlər zamanı milli-mənəvi dəyərlərin formalaşdırılması yolları*...........................................................................303
**Quliyeva Ç.R.** *Müasir musiqi müəlliminin kommunikativ səriştəsinin formalaşması*.....................305
**Haqverdiyeva A.E.** *Müəllimin estetik mədəniyyəti*...........................................................................308
**Əsgərova Ə.A.** *Xarici dillərin tədrisində innovasiyalar vasitəsilə müasir metodların aşılanması*..................309
**Kərimova G.T.** *Kompüterlərdən dərslərdə istifadə olunması*..............................................................309
**Babayev T.M.** *Azərbaycan dili dərslərinin keyfiyyətinin artırılmasında "Qızıl qayda"*........................310
**Cabbarlı S.E.** *Təhsil standartlarının cəmiyyətin inkişafında rolu*.........................................................312
**Əliyeva F.F.** *Humanitar fənlərin tədrisində motivasiyanın təşkili yolları*...............................................314
**Quliyeva L.V.** *Ümumtəhsil məktəblərində həyata keçirilən layihələrin növləri*........................................315
**Qurbanova P.İ.** *Kompüterin dəstəyi ilə tədris olunan Azərbaycan dili dərslərinin üstünlükləri və çatışmazlıqları*.....................................................................................316
**Paşayeva A.F.** *Pedaqoji işçilərin peşəkarlığını artırmaq təhsildə keyfiyyəti yüksəldən əsas amil kimi*.........318
**Əhmədzadə A.Ə.** *Tarix dərslərində şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılmasının didaktik və tərbiyəvi əhəmiyyəti*.........................................................319
**Vələdova F.C.** *İbtidai siniflərdə Azərbaycan dili üzrə cari və perspektiv planlaşdırmanın problemləri*........................................................................................322
**Nuriyeva G.T.** *İbtidai sinif dərsliklərində əxlaqi dəyərlərin əhəmiyyəti və rolu*......................................323
**Musayeva H.N.** *Sinifdənxaric və məktəbdənkənar tədbirlər vasitəsilə şagirdlərin qəhrəmanlıq tərbiyəsinin formalaşdırılması yolları*.................................................................324
**Hüseynzadə A.U.** *Əli bəy Hüseynzadənin yaradıcılığında ana dili və onun tədrisi məsələsi*.......................326
**Ибрагимова С.С.** *Психолого-педагогические предносылки интегрирования*...................................327
**Xəlilova F.V.** *Müstəqil iş prosesində tapşırığın çətinlik dərəcəsinin nəzərə alınması*...........................328
**İmanova A.Z.** *Musiqi təfəkkürünün xüsusiyyətləri*.............................................................................329
**Mustafayev M.Q.** *Azərbaycan tarixinin tədrisində tarixi şəxsiyyətlər nümunəsinin aşılanması şagirdlərin şəxsiyyət kimi formalaşması və cəmiyyətdə düzgün mövqe tutmasının əsası kimi*......................332
**Əsədova S.H.** *Şifahi nitqin inkişafında istifadə olunan metodların əhəmiyyəti*.......................................334
**Quliyeva (Agayarova) Y.B.** *Cismin həcmi və səthi haqqında ümumi anlayışlar*..................................336
**Bəşirova N.M.** *Qərbi Avropa memarlıq nümunələrində barokko üslublu "Müqəddəs Pyotr kilsəsi"*..........338
**Quluzadə J.Ç.** *İslam Şərqində dekorativ-tətbiqi sənət*.......................................................................340
**Mustafayeva A.A.** *Şuşa Azərbaycanın mədəniyyət diyarıdır*..............................................................341
**Quliyev E.İ.** *Kimyanın tədrisində fənnlərarası inteqrasiyanın rolu*......................................................342
**Şirinova G.Ə.** *Ədəbiyyat nəzəriyyəsinin predmeti və başqa fənlərlə əlaqəsi*.........................................343
**Axundova M.Ə.** *Ədəbiyyat dərslərində heca vəznli əsərlərin tədrisinin bəzi məsələləri*.......................345

**Yusubova G.V.** *Müasir təlim prosesinin əsas vəzifəsi* ... 347
**Bağırova İ.Ə.** *Morfoloji normalar üslubi morfologiyanın əsası kimi* ... 348
**Tağıyeva X.H.** *Ümumtəhsil məktəblərinin IX siniflərdə mürəkkəb cümlələrin tədrisi məsələləri* ... 350
**Əzizov E.İ.** *Şifahi nitq öyrənmənin təməl ünsürlərindən biri kimi* ... 352
**Zeynalov M.H.** *Şagirdlərin idrak fəallığının inkişaf etdirilməsində fəal təlim metodlarından istifadənin metodikası* ... 354
**Əbilova N.H.** *Ədəbiyyat dərslərində irihəcmli nəzm əsərlərinin öyrədilməsi xüsusiyyətləri* ... 356
**İbrahimova N.R.** *Ədəbiyyat dərslirində nitq inkişafı üzrə işin təşkili* ... 357
**Nəcəfova S.N.** *Leksikologiya tədrisində üslubiyyat məsələləri* ... 359
**Əliyeva E.Q.** *Məntiqi təfəkkürü inkişaf etdirən qrammatik çalışmalar* ... 360
**Veysəlova G.N.** *Elmi üslub üzrə işin təşkili istiqamətləri* ... 362
**Məmmədova N.N.** *Köməkçi nitq hissələrinin tədrisində fəndaxili inteqrasiya* ... 364
**Həsənova L.Z.** *Qəhrəmanlıq dastanlarının tədrisinin əhəmiyyəti* ... 365
**Mahmudova G.E.** *Dərs prosesində dinləyib-anlama-danışma zamanı meydana çıxan problemlər* ... 366
**Orucova İ.Z.** *Lirik şeirlərin təhlili yolları* ... 368
**Quliyeva E.Y.** *Bədii mətnlərin oxusu və məzmununun mənimsənilməsiüzrə işin təşkili* ... 369
**Qurbanova S.N.** *Dramatik əsərlərin təhlili üzrə işin təşkili* ... 371
**Qədirli L.T.** *Azərbaycan dili dərslərində məntiqi çalışmalar üzrə aparılan işlərin sistemi (1-4-cü siniflər)* ... 372
**Mirzəyeva S.İ.** *Azərbaycan dili tədrisində yazı üzrə nitq fəaliyyətinin müasir səciyyəsi* ... 373
**Məhərrəmova S.E.** *Lirik və epik əsərlərin tədrisində müqayisə priyomundan istifadə* ... 374
**Hüseynli Z.S.** *Məktəbəqədər yaşlı uşaqlara vətənpərvərlik keyfiyyətlərinin aşılanması yolları* ... 376
**Bağırova F.B.** *Təlim prosesində uşaq hüquqlarının öyrədilməsi metodları və vasitələri* ... 377
Cəlilova İ.M. *Məktəbəqədər yaşlı uşaqların inkişafında didaktik oyunların rolu* ... 379
**Yunusova L.V.** *VIII sinif şagirdlərinin bilik və bacarıqlarınınn inkişafında fizikanın tədrisinin kimya ilə inteqrasiyasından istifadə texnologiyası* ... 380
**Uluxanova T.İ.** *Həndəsə elementlərinin orta məktəbin riyaziyyat kursunda rolu və yeri* ... 383
**Məmmədova P.R.** *Eynilik çevirmələri və hesablamaların öyrənilməsi metodikası* ... 384
**Nəsibova A.A.** *Həndəsi çevrilmələr və onların məsələ həllinə tətbiqinin öyrədilməsi metodikası* ... 386
**Bağırzadə F.B.** *Bəzi funksiyaların qiymətlər çoxluğu* ... 387
**Qədirsoy P.S.** *Frazeoloji birləşmələrin üslubi imkanları* ... 388
**Məmmədzadə G.M.** *X sinifdə kombinatorika elementlərinin tədrisi haqqında* ... 390
**Qasımova R.A.** *Məktəb riyaziyyat kursunda kəsr rasional ifadələrin çevrilməsinin tətbiqinin yeri və rolu* ... 391
**Süleymanova R.V.** *Məktəb riyaziyyat kursunda vektor anlayışının yeri və əhəmiyyəti* ... 392
**Bayramova F.P.** *Birdəyişənli funksiyanın qrafikinin elementar üsulla və diferensial hesabının tətbiqi ilə qurulmasının müqayisəsi* ... 393
**Sabirli N.R.** *Triqonometriyanın tətbiqi ilə stereometriya məsələlərinin həlli texnologiyası* ... 395
**Quliyeva J.A.** *Dəyişəni mütləq qiymət işarəsi daxil olan parametr bərabərsizliklər* ... 396
**Qurbanov Q.M.** *Fırlanma cisimlərinin sahə və həcmlərinin hesablanmasına aid məsələlərin həlli metodikası* ... 398
**Məmmədova A.O.** *Orta məktəbdə Nyuton-Leybnis düsturunun öyrədilməsi metodikası* ... 399
**Fətullayev A.Z.** *Təlimdə beyin həmləsi üsulunun praktik problemləri* ... 401
**Mirzəzadə N.X.** *Bəzi xarakterik ikidərəcəli bərabərsizliklərin qrafik üsulla həlli* ... 402
**Abduləzova A.Ş.** *Prizmanın müstəvi kəsiklərinin qurulması metodları (izlər və uyğunluq metodu)* ... 403
**Quliyeva Ç.E.** *Metallar mövzusunun tədrisində tullantılardan istifadə ilə şagirdlərin tanış edilməsi* ... 405
**Quliyeva R.A.** *Yeddinci sinifin kimya kursunda şagirdlərdə fənnə marağın formalaşmasında kimya biliklərinin həyatla əlaqələndirilməsinin rolu* ... 406
**Mikayılzadə S.S.** *Tarixi anlayışların öyrədilməsinin mahiyyəti* ... 407
**İmranlı R.R.** *Fizika müəllimi hazırlığında termodinamika baxımından səthi gərilmənin tədrisi* ... 409
**Rəcəbova G.C.** *X sinifdə I məzmun xətti əsasında "Dinamikanın əsasları" tədris*

*vahidinə aid məsələlərin seçilməsi və tədrisinə dair*..........411
**Niftəliyev İ.M.** *Yarımkeçirici diod mövzusuna dair dərsin təşkilinin xüsusiyyətləri*..........413
**Bağırova G.Q.** *IX sinif texnologiya dərsliklərində "Kompüterin tipi və növü. Kompüterin iş prinsipi"mövzusunun tədris prosesindəki rolu*..........415
**Rzayeva N.N.** *Texnologiya dərslərində istifadə olunan metodlar*..........418
**Ələkbərov Q.N.** *VIII-IX sinif texnologiya dərslərində "Sadə təmir işləri"nə aid mövzularda bilik və bacarıqların formalaşdırılmasının araşdırılması*..........419
**Rzayeva N.N.** *Texnologiya dərslərində istifadə olunan tədris və təqdimat metodları*..........421
**İsmayılov V.Ə.** *Müasir dövrdə diyarşünaslıq prinsiplərindən istifadə yolları*..........425
**Rafiqova S.S.** *Ümumtəhsil məktəblərində, VIII siniflərdə ekoloji bilik və bacarıqların müstəqil mənimsənilməsinin əhəmiyyəti*..........428
**İsmayılov V.Ə.** *Coğrafiya dərslərində diyarşünaslıq prinsipinin həyata keçirilməsi yolları*..........431
**Rüstəmova G.E.** *Coğrafiya dərsliklərində əyani vasitələrdən istifadənin təlim-tərbiyə əhəmiyyəti*..........432
**Əhədov Z.Z.** *Müstəqillik illərindən indiki dövrədək Azərbaycan təhsilində yaranmış problemlər*..........435
**Əliyeva F.E.** *"Coğrafi məkan" məzmun xətti üzrə şagird fəaliyyətinin təşkili metodikası (VII sinif)*..........437
**Rüstəmova S.M.** *Məktəbəqədər yaşlı uşaqların estetik inkişafında məşğələlərin rolu*..........438
**Əhədov F.Z.** *Ümumtəhsil məktəblərində, VII siniflərdə "Təbiət" məzmun xətti üzrə şagirdlərdə fəaliyyət istiqamətini genişləndirmək üçün fiziki-coğrafi biliklərin dərinləşdirilməsinin əhəmiyyəti*..........440
**Salmanova F.V.** *Ümumtəhsil məktəblərində IX-XI siniflərdə rekreasiya ehtiyatlarının öyrənilmə potensialı*..........441
**Layışova Ş.M.** *9-cu sinif coğrafiya dərsliyində "Cəmiyyət və iqtisadiyyat" bölməsinin öyrənilmə metodikası*..........443
**Hüseynova M.N.** *Ədəd anlayışının yaranması və genişlənməsi*..........444
**Paşayeva Ş.S.** *İkidəyişənli xətti tənliklər sistemi*..........445
**İbrahimli A.R.** *Riyaziyyat təlimində fəndaxili və fənlərarası inteqrasiyanın əsaslandırılması*..........447
**İbadova S.T.** *Ümumtəhsil məktəblərində biologiyanın tədrisində (IX-XI siniflər üzrə) sxem və cədvəllərdən istifadənin əhəmiyyəti*..........449
**Rüstəmova N.F.** *Orta məktəblərdə biologiyanın tədrisində fəndaxili əlaqənin yaradılması imkanları*..........450
**Nurməmmədov B.E.** *Həlli kvadrat tənliyə gətirilən tənliklər haqqında*..........450
**Ağamalıyeva D.F.** *Biologiyanın tədrisində bioetik davranışların aşılanmasının imkan və yolları*..........451
**Həsənova Ü.A.** *Azərbaycanin bitki seleksiyasının XX-XXI əsrlərdə əldə edilmiş naliyyətlərinin ümumtəhsil məktəblərində biologiyanın tədrisi ilə əlaqələndirilməsinin mahiyyəti*..........452
**Həmidova M.R.** *Şagirdlərdə məntiqi təfəkkürün inkişafı*..........453
**Hüseynzadə Ə.T.** *Biologiyanın tədrisində məktəbdaxili qiymətləndirmənin aparılması*..........454
**Şərifova M.O.** *Ümumtəhsil məktəblərinin VIII siniflərində biologiya fənninin tədrisində yoluxucu xəstəliklərin öyrədilməsi*..........454
**Əsədova L.M.** *Biologiyanşn bioetik biliklərlə əlaqəli tədrisi*..........455
**Behbudova B.** *Ali təhsildə boloniya sistemi və Avropa təcrübəsi*..........456
**Süleymanova T.R.** *Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənəti ilə tanışlıq prosesində gənc nəslin milli ruhda tərbiyə edilməsi*..........457
**Aslanova H.R.** *Rəqəmsallaşma təhsilin keyfiyyətinə təsir göstərən amil kimi*..........458
**Eminova V.T.** *Mürəkkəb funksiya və onun təyin oblastı*..........460

**QEYD ÜÇÜN**

***Çapa imzalanmış 17.04.2022***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 58***
***Sifariş 204,  sayı 100***

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***